KAMAL ABDULLA

SEÇİLMİŞ ƏSƏRLƏRİ

I CİLD

894.361
ABD

# Kamal Abdulla

# Seçilmiş Əsərləri

7 cilddə

romanlar

KAMAL ABDULLA

# *Seçilmiş Əsərləri*

**7 cilddə**

**Bakı**
**MÜTƏRCİM**
**2020**



**Oxucuya sevgi ilə,** 

# KAMAL ABDULLA

## Seçilmiş əsərləri

# I
## CİLD

# *Romanlar*

Tərtibçilər:
*Şəlalə Nəqşani, Cavid Zeynallı,*
*İrina Tyaqay, Şəfəq Abasova, Elçin İbrahimov*

Buraxılışa məsul:
*Sərraf Balaxan*

Texniki redaktor:
*Rita Müslümova*

Dizayner:
*Cavid Kişiyev*

Korrektor:
*Günel Muxtarova*

***Üz qabığının dizaynı Gövhər Mehdi qızı Abdullayevaya məxsusdur.***

Kamal Abdulla. Seçilmiş əsərləri: 7 cilddə. I cild: *Romanlar.* – Bakı: Mütərcim, 2020. – 696 səh.

Xalq yazıçısı Kamal Abdullanın "Seçilmiş əsərləri"nin birinci cildinə onun üç romanı daxil edilib. "Yarımçıq əlyazma" romanının qayəsində "özün üçün büt yaratma", "Sehrbazlar dərəsi"ndə "intiqam hissi ilə yaşama" və nəhayət, trilogiyanın son romanı "Unutmağa kimsə yox…"da isə "yaşadığın dünya ilə kifayətlənmə" ideyası dayanır. Oxucu bu romanlarda alternativ tarix, tabu mətnlərin dekonstruksiyası, adlarını paltar kimi geyinən dərvişlər, görünməz təpələr, ruh çağıran sehrbazlar, paralel dünyalar və zamanlar ilə qarşılaşır, nəhayət, arxasınca düşdüyü hadisələrin üfüqünə çatır.

ISBN: 978-9952-28-488-1

© Kamal Abdulla, 2020
© Mütərcim, 2020

# Tərtibçilərdən

Xalq yazıçısı, akademik Kamal Abdullanın "Seçilmiş əsərləri"nin birinci cildinə onun üç romanı, həmçinin həyatı, elmi, bədii yaradıcılığı ilə bağlı məlumat daxil edilib. Yazıçının ədəbi-bədii irsində vacib yer tutan roman yaradıcılığı "Yarımçıq əlyazma" ilə başlayıb. Müasir Azərbaycan ədəbiyyatında hadisə sayılan, ədəbiyyatşünas, mədəniyyətşünas və tənqidçilərin bədii-estetik səviyyəsinə, ədəbi siqlətinə görə yüksək nümunə kimi dəyərləndirdiyi bu əsər Bakıda ilk dəfə 2004-cü ildə çap olunub.

"Yarımçıq əlyazma"nın ədəbi taleyi təkcə Azərbaycanla bağlı olmayıb. Çap olunduğu ölkələrin sayına görə dünya ədəbiyyatının həqiqi faktına çevrilən roman – Fransa, Rusiya, Türkiyə, Braziliya, Polşa, Misir, Amerika, Qazaxıstan, Avstriya, Qırğızıstan, İtaliya, Gürcüstan, Monteneqro və Yaponiyada çap olunub.

Azərbaycanda tənqidçilərin müxtəlif müzakirə və mübahisələrinə səbəb olan, ətrafında çeşidli ədəbi qalmaqallar yaranan bu əsər 2007-ci ildə "525-ci qəzet"in "İlin romanı", Nəsimi Milli Ədəbiyyat Müsabiqəsinin "Son 10 ilin ədəbi əsəri", 2007-ci ildə "Humay" mükafatlarına layiq görülüb. 21 sentyabr 2015-ci ildə "Yarımçıq əlyazma" İtaliyanın ən böyük fondlarından biri Rikardo Tanaturri Fondunun təsis etdiyi "Scanno" mükafatının ("Skanoprize") ədəbiyyat üzrə xüsusi prizini ölkəmizə gətirib.

Xüsusilə qeyd etmək lazımdır ki, bu əsər çap olunduğu xarici ölkələrdə uğurlu nəşr həyatı yaşayaraq müxtəlif illərdə Fransada (2003, 2005), Türkiyədə (2006, 2014), Rusiyada (2006, 2013), İtaliyada (2014, 2015) təkrar çap edilib.

"Sehrbazlar dərəsi" romanı Bakıda oxuculara 2006-cı ildə təqdim olunub. Sufi dərvişlərin həyatından bəhs edən bu əsər Türkiyədə (2010), Rusiyada (2010, 2013, 2016), Litvada (2013) Qazaxıstanda (2013), Fransada (2013), Yaponiyada (2013), İranda (2014), Amerikada (2015), İtaliyada (2016), Rumıniyada (2019) nəşr edilib.

Tanınmış italyan mədəniyyətşünası və filosofu Franko Kardini bu romanla bağlı yazdığı məqalədə deyir: "Həmişəki kimi müəllifin bu əsərini də ilk öncə, adətə uyğun olaraq, nə müqəddiməyə, nə də kitabın arxasına baxmadan, birinci səhifədən sonuncu səhifəyə qədər dayanmadan oxudum. Müqəddiməni oxumaq, əlbəttə ki, vacibdir, lakin dərhal oxunduqda bütün mütaliəni ömürlük təsir altına salır. Romanı oxuduqdan sonra bütün gecəni nə gözümü, nə də ruhumu kitabdan ayıra bilmədim".

"Unutmağa kimsə yox…" romanı 2011-ci ildə Bakıda nəşr edilib. Roman "И некого забыть…" adı ilə 2015-ci ildə Bakıda rus dilində, 2016-cı ildə Moskvada "Художественная литература" nəşriyyatında "Под сенью Карагача" kitabında çap edilib. Əsər yenə həmin ildə Türkiyənin məşhur "Bengü" nəşriyyatında işıq üzü görüb.

Kamal Abdullanın roman yaradıcılığı həm də onunla əlamətdardır ki, bu əsərlər haqqında təkcə Azərbaycan ədəbiyyatşünasları və mədəniyyətşünasları (Anar, İsa Həbibbəyli, Vaqif İbrahimoğlu, Niyazi Mehdi, Aydın Talıbzadə, Tehran Əlişanoğlu, Rəhilə Qeybullayeva, Mehman Qaraxanoğlu və b.) deyil, eyni zamanda dünya ədəbi-bədii fikrini təmsil edən, ədəbi-mədəni iqlimi yaradan, istiqaməti müəyyən edən məşhur ədəbiyyatşünaslar yazıblar. Franko Kardini, Umberto Eko (İtaliya), Lev Anninski və Lüdmila Lavrova, Yuri Polyakov, Konstantin Kedrov, Anastasiya Yermakova (Rusiya), İrfan Ülkü, Yasəmən Bayer, Arif Acaloğlu (Türkiyə), Maks Statkeyviç (ABŞ), Lyudmila Bejenaru, Livia Cotorcea (Rumıniya), Ziqlinde Hartman (Almaniya), İçiro İto (Yaponiya), Sutha Svarnakar (Braziliya), Klod Aliber

(Fransa) və başqaları Kamal Abdullanın yaradıcılığına yüksək qiymət vermiş, romanlarına həsr olunan məqalələr yazmış, yazıçının dünya ədəbi-kulturoloji panoramındakı yeri ilə bağlı dəyərli fikirlər bildirmişlər.

Kamal Abdullanın romanları Azərbaycan və dünya tənqidində postmodern ədəbiyyatın, intellektual nəsrin bariz nümunələri kimi qeyd olunur.

***

Xalq yazıçısı Kamal Abdullanın 7 cilddən ibarət "Seçilmiş əsərləri"nin 1-ci cildinə onun üç romanı və haqqında məlumat, 2-ci cildinə bir romanı, bir povesti və hekayələri, 3-cü cildinə şeirləri, esseləri, pyesləri, 4-cü cildinə "Kitabi-Dədə Qorqud" tədqiqatları, 5-ci cildinə dilçilik və poetikaya aid əsərləri, 6-cı cildinə intervyu və məqalələri, 7-ci cildinə onun haqqında ölkədə və xaricdə yazılan məqalə və kitablar, onlardan iqtibaslar daxil edilmişdir.

# Kamal Abdulla ömrü: yalnız faktlarla

Kamal Abdulla (Kamal Mehdi oğlu Abdullayev) – Azərbaycan alimi və ictimai xadimi, Xalq yazıçısı. Filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, Birinci dərəcəli dövlət müşaviri.

Bakı Slavyan Universitetinin ilk rektoru (2000-2014), Azərbaycan Milli Elmlər Akademiyasının Humanitar və İctimai Elmlər bölməsinin akademik-katibi (2011-2014), Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri (2014-2017), Azərbaycan Dillər Universitetinin rektoru, Azərbaycan Mədəniyyət Fondunun (Azərbaycan Yaradıcılıq Fondu) sədri, Türk Dil Qurumunun həqiqi fəxri üzvü, Ukrayna Beynəlxalq Kadr Akademiyasının həqiqi üzvü (akademiki), Moskva Şəhər Pedaqoji Universitetinin və Ural Federal Universitetinin fəxri doktoru, Poltava İqtisadiyyat və Ticarət Universitetinin fəxri professoru, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü, Gürcüstan Təhsil Elmləri Akademiyasının həqiqi üzvü, Rus PEN-klubunun (Moskva) üzvüdür. Sofiya Universitetinin ali mükafatı – "HONORARY BLUE RIBBON INSIGNIA" ("MAVİ LENT FƏXRİ NİŞANI") laureatı, AMEA-nın "Türkologiya" ("Sovetskaya Türkologiya") jurnalının baş redaktoru (2016-cı ildən). Elmi maraq dairəsi – dilçilik, ədəbiyyat, türkologiya, mədəniyyətşünaslıq.

4 dekabr 1950-ci ildə Bakıda ziyalı ailəsində doğulub. Atası müəllim, anası həkim olub. 1968-ci ildə Bakıda 190 saylı orta məktəbi bitirib.

1968-1973-cü illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil alıb.

1973-1976-cı illərdə SSRİ Elmlər Akademiyasının Dilçilik İnstitutunun "Türk dilləri" şöbəsinin əyani aspirantı olub.

1977-ci ilin yanvar ayında Moskvada "Sintaktik paralelizm" ("Kitabi-Dədə Qorqud" dastanlarının dili üzrə) adlı namizədlik dissertasiyası müdafiə edib.

1977-1984-cü illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun "Türk dillərinin müqayisəli tədqiqi" şöbəsində kiçik elmi işçi, baş elmi işçi, şöbə müdiri vəzifələrində çalışıb.

1983-cü ildən başlayaraq Azərbaycan televiziyasında "Azərbaycan dili", "Qoşma", "Dəfinə", "Sözün sirri" kimi aylıq və həftəlik ədəbi-bədii, elmi-publisistik verilişlərin müəllifi və aparıcısı.

1984-cü ildə Bakıda "Azərbaycan dili sintaksisinin nəzəri problemləri" adlı doktorluq dissertasiyası müdafiə edib.

1984-1987-ci illərdə Xarici Dillər İnstitutunun "Ümumi və Azərbaycan dilçiliyi" kafedrasının müdiri.

1988-1990-cı illərdə Azərbaycan Mədəniyyət Fondunun (Hazırda Azərbaycan Yaradıcılıq Fondu) sədrinin birinci müavini, 1990-cı ildən Fondun İdarə Heyətinin sədri.

1990-cı ildə M.F.Axundov adına Rus dili və ədəbiyyatı İnstitutunun "Ümumi və rus dilçiliyi" kafedrasının müdiri seçilib. 1993-cü ildən 2000-ci ilədək yenidən Xarici Dillər İnstitutunun "Ümumi və Azərbaycan dilçiliyi" kafedrasının müdiri.

1994-1995-ci illərdə Bursa (Türkiyə Respublikası) Uludağ Universitetinin "Türk dili və ədəbiyyatı" bölümündə dəvətli professor olaraq fəaliyyət göstərib.

2000-ci ilin may ayında M.F.Axundov adına Rus dili və ədəbiyyatı İnstitutunun rektoru təyin edilib.

2000-ci ilin iyun ayında ölkə Prezidenti Heydər Əliyevin sərəncamı ilə yeni təşkil olunmuş Bakı Slavyan Universitetinin rektoru təyin edilib. 2014-cü ilin fevral ayına qədər rektor kimi fəaliyyət göstərib. Məhz bu dövrdə Bakı Slavyan Universiteti həm ölkə, həm də beynəlxalq səviyyədə böyük nüfuz qazanmış və təqdir edilmişdir.

2011-2014-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyasının humanitar və ictimai elmlər bölməsinin akademik-katibi vəzifəsində çalışıb.

2014-cü ilin fevral ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri təyin edilib.

Ölkə Prezidenti cənab İlham Əliyevin 19 noyabr 2014-cü il tarixli Sərəncamı ilə yeni yaradılmış Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvü təyin edilmişdir. 28 noyabr 2014-cü il tarixində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının ilk iclasında bu qurumun Himayəçilik Şurasının sədri seçilib.

17 fevral 2016-sı ildə AMEA-nın Rəyasət Heyətinin qərarı ilə AMEA-nın "Türkologiya" jurnalının baş redaktoru təyin edilib.

2017-ci ildən Azərbaycan Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Dillər Universitetinə rektor vəzifəsinə təyin edilib.

ABŞ (Kolumbiya Universiteti, Harriman institutu), Fransa (İnalko və Strasburq Universitetləri), Almaniya (Mayns Universiteti), Rusiya (Moskva Dövlət Linqvistik Universiteti, Pedaqoji Universitet, Ural Federal Universiteti, REA Dilçilik İnstitutu), Türkiyə (Uludağ Universiteti), Polşa (Varşava Universiteti), Gürcüstan (Tiflis Dövlət Universiteti), İtaliya (Salesian Vatikan Universiteti) və başqa ölkə universitetlərində mühazirələrlə çıxış etmiş, bir sıra beynəlxalq simpozium, konfrans və kollokviumların (Gürcüstan, Rusiya, Fransa, Almaniya, İngiltərə, İsveç, Yunanıstan, İtaliya və başqa ölkələrdə) təşkilatçısı və iştirakçısı olub.

Dilçiliyə dair "Проблемы синтаксиса простого предложения в азербайджанском языке" (Баку, Наука, 1983), "Azərbaycan dili sintaksisinin nəzəri problemləri" (Bakı, Maarif, 1999 və təkrar nəşri – Bakı, "Maarif", 2016), "Azərbaycanda rus dili" (İlyas Həmidovla birgə) (Bakı, 2005), "Dilçiliyə səyahət və yaxud dilçi olmayanlar üçün dilçilik" (Bakı, 2010), "Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər" (dilçi alimlər ilə birlikdə) (Bakı, 2012), "Azərbaycanca danışaq" (Paris 2008; Buxarest 2010; Budapeşt 2011; Abu-Dabi 2012) kimi kitabları var.

Ədəbiyyatşünaslıq, tənqid və esseistikaya dair "Müəllif – əsər – oxucu" (Bakı, Yazıçı, 1985), "Əvvəl-axır yazılanlar" (Bakı, Yazıçı, 1990), "Yolun əvvəli və axırı" (Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1993), "300 azərbaycanlı" (Bakı, Mütərcim, 2007), "Düma ilə Coys arasında" (Bakı, Mütərcim, 2016) kitablarında dünya və Azərbaycan ədəbiyyatının və mədəniyyətinin problematik aspektlərindən bəhs edilir, qədim və müasir ədəbi prosesin görünməyən tərəfləri işıqlandırılır.

Qorqudşünaslığa dair "Gizli Dədə Qorqud" (Bakı, Yazıçı, 1991), "Sirriçində dastan və yaxud Gizli Dədə Qorqud-2" (Bakı, Elm, 1999), "Тайный Деде Коркуд" (Баку, Мутарджим, 2006), "Mifdən Yazıya və yaxud Gizli Dədə Qorqud" (Bakı, Mütərcim, 2009), "Kitabi-dədə Qorqud" dastanının poetikasına giriş" (Bakı, 2017), "Введение в поэтику "Китаби-Деде Коркуд" (Москва, Художественная литература, 2018) adlı kitablar yazıb nəşr etdirmişdir.

"Gizli Dede Korkut" kitabı Bursada (Bursa, Ekin Basınevi, 1995), İstanbulda (İstanbul, Ötükən Basınevi, 1995) və "Mitten yazıya ve ya Gizli Dede Korkut" kitabı İstanbulda (İstanbul, Ötüken Basınevi, 2013) türk dilinə çevrilərək çap olunub. "Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi" adlı müqayisəli elmi araşdırmalar proyektinin əsas müəlliflərindən (prof. Z.Hartman və prof. H.Buşhotenlə bir yerdə) və 10 il ərzində bu istiqamətdə alman alimləri ilə bir yerdə həyata keçirilən konfrans, dəyirmi masa və nəşrlərin təşkilatçılarından biridir.

Ədəbiyyat və poetika məsələlərinə həsr edilmiş "Лекции в Бакинском славянском университете" (Баку, Мутарджим, 2003) adlı kitabı (akad. A.Mirzəcanzadə ilə birlikdə) ədəbiyyat və poetika məsələlərinə həsr edilib.

2015-ci ildə "ADA" Universitetdə "Azərbaycanşünaslıq" fənnini tədris etmişdir.

2015-ci ildə (prof. E.Nəcəfov ilə həmmüəlliflikdə) "Multikulturalizm" fənni üzrə "Multikulturalizmə giriş" (Bakalavr səviyyəsi üçün) və "Azərbaycan multikulturalizmi" (Magistr səviyyəsi üçün) tədris proqramları hazırlamışdır. "Azərbaycan multikulturalizmi" adlı ali məktəblər üçün dərsliyin elmi redaktoru (prof. E.Ə.Nəcəfovla birlikdə) və əsas müəlliflərindən biridir.

Bakı Slavyan Universitetində işıq üzü görən "Filoloqun kitabxanası – 100" (2005); "Dünya nəsri" (2008) proyektlərinin ideya müəllifi və təşkilatçısı olub.

Azərbaycanda ilk dəfə hazırlanmış Azərbaycan Tərcümə Ensiklopediyasının (Bakı, 2018-ci il) ideya müəllifi və baş redaktoru.

300-ə yaxın elmi və publisistik məqalə, 20-dən çox dərs vəsaiti və monoqrafiya müəllifidir.

Kamal Abdullanın bədii əsərləri – pyesləri, hekayələri, romanları, esseləri və şeirləri Azərbaycanda və xarici ölkələrdə çap olunur. Əsərləri türk, rus, gürcü, ingilis, fransız, alman, ispan, polyak, portuqal, italyan, Ukrayna, fin, ərəb, yapon, Monteneqro, Litva, bolqar, qazax, qırğız və başqa dillərə tərcümə olunub. Pyesləri Azərbaycan, Gürcüstan, Estoniya teatrlarında səhnəyə qoyulub.

Kamal Abdulla "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi", "Unutmağa kimsə yox...", "Sirlərin sərgüzəşti" romanlarının, "Tarixsiz gündəlik" povestinin, şeirlər, esselər və hekayələr toplularının müəllifidir. Onun dram əsərlərindən ibarət Azərbaycan, rus, türk dillərində bir neçə kitabı – "Unutmağa kimsə yox" (Bakı, Azərnəşr, 1995), "Ruh" (Bakı, Azərnəşr, 1997), "Bir, iki, bizimki!" (Bakı, Mütərcim, 2003), "Casus" (Bakı, Mütərcim, 2004), "Ruh" (Ankara, 2006), "Все мои печали..." (Баку, Мутарджим, 2009) nəşr olunmuşdur:

Rus poeziyasının gümüş dövrü şairlərindən etdiyi tərcümələr "Gümüş dövrün sirləri" adlı tərcümə kitabçasında yer alıb (Bakı, Mütərcim, 2001). "Qəribədi, deyilmi?!" (Bakı, BDU-nun mətbəəsi, 1998), "Nar çiçəkləri" (Bakı, Mütərcim, 2014) kitablarında müəllifin orijinal şeirləri cəmlənib.

"Kədərli seçmələr" (Bakı, Mütərcim, 2002) adlı kitabında esseləri, şeirləri, hekayələri, tərcümələri, pyesləri toplanıb.

Dədə Qorqud və Şah İsmayıl dövrlərindən bəhs edən "Yarımçıq əlyazma" romanı Bakıda ilk dəfə 2004-cü ildə çap edilib. Roman Azərbaycanda 2013-cü ildə təkrar nəşr edilib. Bundan sonra "Le Manuscrıt inachev" adı ilə Fransada (Paris, L'Harmattan, 2005, təkrar nəşr: 2013), "Eksik El Yazması" adı ilə Türkiyədə (İstanbul, Ötüken, 2006, təkrar nəşr: 2014), Rusiyada "Неполная рукопись" adı ilə (Москва, Хроникер, 2006, təkrar nəşr: "Романы" kitabında, Москва, Художественная литература, 2013, "Под сенью Карагача", Москва, Художественная литература, 2016), Braziliyada "O Manuscrito

İnacabado" adı ilə (Joao Pessoa, İdeia, 2009), Polşada "Zagadkowy Rekopis" adı ilə (Torun, 2009), Misirdə (Qahirə, 2012), Amerikada "The Incomplete Manuscript" adı ilə (Huyston, 2013), Qazaxıstanda "Tolık emes koljazba" adı ilə (Astana, 2013), Avstriyada "Das unvollstandige manuscript" adı ilə (Vyana, 2013), Qırğızıstanda "Toluk emes koljazma" adı ilə (Bişkek, 2014), İtaliyada "İl Manoscritto İncompleto" adı ilə (Roma, 2014; Roma, 2015), Monteneqroda "Nepotpuni rukopis" adı ilə (Podqoritsa, 2015) çap edilib.

Sufi dərvişlərin həyatından bəhs edən "Sehrbazlar dərəsi" romanı Bakıda 2006-cı ildə (ikinci nəşr: Bakı, "Qanun", 2018), "Büyücüler deresi" adı ilə Türkiyədə 2007-ci ildə (təkrar nəşr: İstanbul, 2010), "Долина кудесников" adı ilə Rusiyada 2010-cu ildə (təkrar nəşr: "Романы" kitabında, Москва, Художественная литература, 2013, "Под сенью Карагача", Москва, Художественная литература, 2016), "Stebukladarie slenis" adı ilə Litvada 2013-cü ildə, "Sikırşılar anqarı" adı ilə Qazaxstanda 2013-cü ildə, "La vallee des magiciens" adı ilə Fransada 2013-cü ildə, Yaponiyada 2013-cü ildə, İranda 2014-cü ildə, "Valley of the sorcerers" adı ilə Amerika Birləşmiş Ştatlarında 2015-ci ildə, "La valle dei maghi" adı ilə İtaliyada "Sandro Teti Editore" nəşriyyatında 2016-cı ildə, "Campia Vrajitorilor" adı ilə Rumıniyada "Princeps Multimedia" nəşriyyatında 2019-cu ildə çap olunub.

Kamal Abdullanın "Unutmağa kimsə yox..." romanı 2011-ci ildə Bakıda (ikinci nəşr: Bakı, "Qanun", 2018) çap edilmişdir. Roman "И некого забыть…" adı ilə 2015-ci ildə Bakıda, "Qanun" nəşriyyatında rus dilində, 2016-cı ildə "Под сенью Карагача" kitabında, Moskvada, " Художественная литература" nəşriyyatında çap edilmişdir.

Müəllifin öz məktəb həyatından bəhs edən "Tarixsiz gündəlik" povesti 2005-ci ildə Bakıda çap edilmişdir. 2007-ci ildə povest "Открывая друг друга" adlı topluda "Дневник с заметками на полях" adı ilə rus dilində çap edilmişdir. "Tarixsiz gündəlik" povesti 2007-ci ildə Heydər Əliyev Fondunun və Fondun rəhbəri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Əsərlər toplusu" adlı kitabda dərc edilib. Həmçinin, 2007-ci ildə povest "Edin kcm druq" adlı topluda "Dnevnik s belejki v poletata" adı ilə bolqar dilində çap edilmişdir.

Moskvada "Господин дороги" adlı şeirlər və pyeslər toplusu nəşr edilmişdir (Москва, Риф Рой, 2004).

2009-cu ildə "Hekayələr" (Bakı, Mütərcim) kitabı çapdan çıxmışdır. 2012-ci ildə "Labirint" adlı hekayələr kitabı çap olunmuşdur. 2014-cü ildə "Sirri-zəmanə" adlı hekayələr toplusu çap olunmuşdur. 2014-cü ildə Moskvada son illər qələmə aldığı hekayələri toplanmış "Платон, кажется, заболел…", 2017-ci ildə "Edam vaxtını dəyişmək olmaz" hekayələr kitabı, "Platon se izgleda razboleo..." hekayələr toplusu Serbiyada Belqrad, Verzal. D.o.o nəşriyyatında 2018-ci ildə çap olunmuşdur.

Azərbaycanda onun haqqında "Kədərin sirri" (müəllifi Elçin Səlcuq), "Kamal Abdulla: seçimin morfologiyası" (müəllifi prof. Asif Hacılı), "Kamal Abdulla: Yazıdan mifə" (müəllifi Rüstəm Kamal), Türkiyədə "Kamal Abdullanın əsərləri Türkiyə türkcə-

sində" (müəllifi Mehman Musaoğlu), Rumıniyada "Камал Абдулла: Философия полноты" (müəllifi Lyudmila Bejenaru), İranda "Sehrbazlar dərəsi. İç-içə sirlər dünyası" (müəllifi Araz Abbasəli Əhmədoğlu) və "Yarımçıq əlyazma. Şahəsərin Şahəsəri" (müəllifi Araz Abbasəli Əhmədoğlu) adlı kitablar çap olunub. Rusiya, Türkiyə, ABŞ, Fransa, İtaliya, Braziliya, Polşa, Litva, Rumıniya, Qazaxıstan, Qırğızıstanda və başqa ölkələrdə onun elmi və bədii yaradıcılığına həsr edilmiş məqalələr çap edilib.

1999-cu ilin dekabr ayında Azərbaycan xalqının mühüm tarix və mədəniyyət abidələrindən olan "Kitabi-Dədə Qorqud" dastanının tədqiqindəki xidmətlərinə görə ona ölkə Prezidenti Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasının əməkdar elm xadimi" adı verilmişdir.

2007-ci ildə Rusiya Federasiyasının Puşkin medalı;

2007-ci ildə Azərbaycanda Humay mükafatı;

2007-ci ildə "525-ci qəzet"in "İlin romanı" adlı mükafatı;

2007-ci ildə Monitorinq qrupunun "İlin ədəbiyyat adamı";

2009-cu ildə Azərbaycanla Çexiya arasında münasibətlərin inkişafında mühüm roluna görə "Karl Kramej" medalı;

2009-cu ildə Polşa Respublikası prezidenti Lex Kaçinski tərəfindən təqdim edilən "Böyük Xaç" kavaler ordeni;

2009-cu ildə Polşanın müsbət simasının formalaşmasındakı mühüm xidmətlərinə görə Polşa Respublikasının Xarici İşlər Nazirliyinin Xüsusi Diplomu;

2010-cu ildə Dədə Qorqud Milli Fondunun "Dədə Qorqud Milli Mükafatı"; "Azərbaycan dünyası" beynəlxalq jurnalının "Vətən övladı" qızıl medalı;

2010-cu ildə III Nəsimi Milli Ədəbiyyat Müsabiqəsində "Yarımçıq əlyazma" romanına görə "Son 10 ilin ədəbi əsəri" mükafatı;

21 may 2015-ci ildə İranın Təbriz şəhərində Qafqaz Universitetləri Birliyinin (KUNİB) 5-ci konqresində "Elmi fəaliyyətə görə" ən yüksək mükafat;

21 sentyabr 2015-ci ildə "Yarımçıq əlyazma" romanına görə İtaliyanın ən böyük fondlarından biri Rikardo Tanaturri Fondunun təsis etdiyi "Scanno" mükafatının ("Skanoprize") ədəbiyyat üzrə xüsusi prizi;

3 dekabr 2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikasında təhsil sahəsində səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni;

23 mart 2016-cı ildə Rusiyanın məşhur "Художественная литература" nəşriyyatı tərəfindən çap edilən "Platon, deyəsən, xəstələnib..." ("Платон, кажется, заболел…") hekayələr kitabına görə Rusiyada ədəbiyyat üzrə təqdim olunan yüksək mükafat - "Qızıl Delviq" mükafatı;

2017-ci ildə Şərqi Avropada ilin ən bacarıqlı şəxslərini seçən Regional Agentlik və onun nəşr etdiyi "Euromanager" jurnalı tərəfindən "Müasir dünyanın dini, irqi və etnik ayrı-seçkilik kimi problemlərindən əziyyət çəkən Avropa regionunda multikultu-

ralizm ənənələrinin inkişaf etdirilməsi sahəsində xidmətlərinə görə" mükafatına layiq görülüb.

2019-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə "Xalq yazıçısı" fəxri adına layiq görülüb.

Kamal Abdulla "2018-2019-cu tədris ilinin ən yaxşı rektoru" sosial tələbə sorğusunda qalib olub.

15 mart 2019-cu ildə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019) ilə bağlı yubiley medalı;

10 iyul 2019-cu ildə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilib.

19 iyul 2019-cu ildə Azərbaycan Respublikası Xarici işlər Nazirliyinin Sərəncamı ilə "Azərbaycan diplomatik xidmət orqanları – 100 illiyi (1919-2019)" yubiley medalı ilə təltif edilib.

13 sentyabr 2019-cu ildə Macarıstan Prezidentini Yanoş Ader tərəfindən Macarıstan və Azərbaycanın elmi-mədəni əlaqələrinin dərinləşməsindəki roluna görə "Zabit Xaçı" ali xidmət ordeni ilə təltif olunub.

Kamal Abdulla həmçinin, Azərbaycan dilinin, mədəniyyətinin və multikulturalizminin Avropa və Amerika, Yaxın və Uzaq Şərq ölkə universitetlərində təbliği ilə bağlı geniş fəaliyyət göstərmiş, Azərbaycan həqiqətlərinin bu yolla da beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında real işlər görmüşdür. Onun bilavasitə təşkilatçılığı və iştirakı ilə Azərbaycan dili və mədəniyyəti, multikulturalizm fənləri bu gün də Rusiya, Gürcüstan, Almaniya, İtaliya, İspaniya, Braziliya, Argentina, Uruqvay, İndoneziya və başqa ölkələrin universitetlərində uğurla tədris edilir.

# *Romanlar*

# *Yarımçıq əlyazma*

# ÖN SÖZ
## və yaxud natamamlığın bütövlüyü

Milli Əlyazmalar İnstitutunun (Fondunun) orta əsrlər şöbəsinin 3-cü xətdə yerləşən kataloqundakı A 21/ 733 nömrəli yeni əlyazma məndə hər şeydən əvvəl ona görə maraq oyatdı ki, kitabxana işçisinin dediyinə görə bu tipli əlyazmalar son dərəcə aydın və şəffaf olurlar və bu baxımdan onlara o qədər də diqqət yetirmirlər. Mənim təəccübümü hiss edən kitabxanaçı səbrlə izah etməyə çalışdı: "Bu əlyazma heç nə ilə o birilərindən fərqlənmir. Hələlik hərtərəfli öyrənilməyib, amma belə güman edirlər ki, 12-ci əsrin əlyazmasıdı. Elmə, ictimaiyyətə tarixdən yaxşı bəlli olan Gəncə zəlzələsindən bəhs edir. Müəllifin dili və üslubu aydın, sadə, başadüşüləndir. Amma… bir "əmması" var. Bu da ondan ibarətdir ki, əlyazma yarımçıq əlyazmadır. Nə əvvəli var, nə sonu. Bəlkə də zəlzələnin nəticəsidir: əldən-ələ keçib, oddan-alovdan çıxıb, daş-divar altına düşüb… bir söz, çox oxunaqsız bir vəziyyət alıb. Bəzi səhifələr tamam cırılıb, bəzi səhifələr ortadan, bəziləri heç yoxdur, bəzilərində isə yanıq izləri var. Sizin üçün maraqsız olar".

Şöbədə yan-yana düzülmüş, geniş rəflərinə toz qonmuş, köhnəli, təzəli xeyli əlyazma yatan kitab şkaflarının arasından dəhlizə, oradan da çıxışa keçib mərmər pillələrlə üzüaşağı düşəndə "o əlyazmanı görmək olarmı?" sualıma məni ötürən kitabxana işçisindən yenə də belə bir cavab aldım: "Sizə maraqsız olar".

O mənim üzümdəki sual dolu təəccübü, elə bil ki, hiss edib könülsüz də olsa sözünə bu cür davam etdi:

– Fonda təzə daxil olub, gətirib kimsə atıb gözətçinin stolunun üstünə, çıxıb gedib. "525-ci qəzet"də elan da verdik ki, ay adam, gəl görək kimsən, nəçisən, bunu hardan tapmısan, sənə pul mükafatı düşür, bilirsiz də, Fond qədim əlyazma tapanlara pul mükafatı verir, qərəz, bir xəbər-ətər çıxmadı bu adamdan. Gözətçi də ki, gözətçidi də, heç nə xatırlamır.

Sualımı təkrar elədim:

– Bu əlyazmanı görmək olar?

– Olar, niyə olmur ki. Amma indi restavrasiya mərhələsini keçir. Əslində, mənə belə gəlir ki, əlyazma Gəncə zəlzələsinin təsviri, bir növ təfərrüatıdı. – O susdu, sonra yenə də, elə bil, daxilən istəməyə-istəməyə davam etdi: – Belə də düşünən var ki, bəlkə də Gəncə zəlzələsi bunun miniatür naxışlarıdı, içindəki yazı isə tamam başqa şeydi… Siz necə bilirsiniz?

Bu adamın mənə belə bir sual verməsi qəribəmə gəldi. Sözə bir baxın: "Siz necə bilirsiniz?" Susub heç nə demədim. Amma razılaşın ki, sual çox qəribə sual idi.

Bir neçə gün də keçdi. Nə isə məni yenidən Əlyazmalar Fonduna çəkib gətirdi. Bu dəfə məqsədim aydın və qəti idi. Konkret yardıma ehtiyacım vardı. Bilirdim ki, əlyazmaların öz qrafik sirləri olur. Onları oxumaq, hətta ərəb yazısını mükəmməl bilən bir adam üçün də, demək olar ki, qeyri-mümkündür.

…Arıq, çəlimsiz bir qız idi. Üz-gözündən gördüm ki, bu işə həvəssiz qoşulub, daha doğrusu, onu bu işə qoşublar. Mənim cənab müdirə xahişim, onun "bu nə sözdü, nə vaxt gəlirsən gəl, səriştəli bir adam verim, oxusun səninçün…" sözləri bu qızın lal etirazı ilə heç cür uyuşmurdu. Nə isə o da, ona baxıb mən də həvəssiz-könülsüz işə başladıq.

Əvvəl-əvvəl bizim üçün balaca bir otaq ayırdılar. Şərqşünas qız sifariş kağızını doldurdu. Əlyazma A 21/ 733 nömrəli bir karton qutunun içində gəldi. Səhifələr əsl qədim yazılardakı kimiydi – saralmış, solmuş, şaxlığını çoxdan itirmişdi. Bəzi yerlərdə cırılmışdılar, bəzi yerlərdə isə yanıq izləri açıq-aydın qalmışdı. Bu çəlimsiz, üzünə narazı ifadə hopmuş qızcığaz mənə heç bir fikir vermədən vaxt itirməyib o saat işə girişdi və… necə bilirsiniz, üç günə mətni tamam oxuyub qurtardı. Təsəvvür edirsinizmi?! Nəinki qurtardı, hətta gözləmədiyim şəkildə mənə bunu da dedi: "İstərsəniz, bu oxuduqlarımı köçürüb latın əlifbasında sizə… üç-dörd günə təqdim edərəm". İstədiyim də elə bu deyildimi?!

Nəhayət, vədələşdiyimiz vaxt gəlib yetişdi və mən latın hərfləri ilə üzü köçürülmüş Əlyazma ilə təkbətək qaldım. Sözün düzünü desəm, Əlyazmanın oxunuşunda özüm sonadək iştirak edə bilməmişdim və o şərqşünas qız da mənə latın qrafikasında yazılmış səliqəli səhifələri təqdim edəndə, mənim "sağ ol"uma başa düşmədiyim şəkildə nə isə mızıldayanda bunu bir gizli qınaq kimi qəbul etdim. O isə qəfildən dönüb qəribə də olsa aydın bir səslə mənə bu sözləri dedi: "Əgər sizi Gəncə zəlzələsi maraqlandırırsa, burada o barədə bir şey yoxdu, bu bir başqa mövzudu". Sonra da heç bir cavab gözləmədən dönüb dikdaban ayaqqabılarını metlax döşəmədə taqqıldada-taqqıldada tezcə uzaqlaşdı.

Mən otaqda tək qaldım. Əvvəlcədən razılaşmış idik. Mətnlə bu balaca otaqda tanış olacaqdım və eyni zamanda "Yarımçıq Əlyazma" da bu müddət ərzində məndə, daha doğrusu, bu otaqda qalacaqdı. Fikirləşirdim ki, bəlkə nəyisə tutuşdurmaq lazım gələr. Və elə sonra da mətnlə tanış olduqca hərdənbir bu saralmış, səhifəlikdən çıxmış kağız parçalarına baxaraq, onlarda sanki oxuduqlarımın canlı şahidini görürdüm.

"Bu bir başqa mövzudu…" Gərək ki, o belə dedi. Bəs niyə məsələ bu cür dəyişdi?

Mən axı elə təsəvvür edirdim ki, Gəncənin tarixi ilə bağlı, əlbəttə, çox da mühüm olmayan (o mənada ki, artıq hamıya məlumdur – məsələn, gürcü hərbi qüvvələrinin zəlzələdən az sonra dağılmış şəhərə hücum edib onu talamaları faktı kimi), amma bəlkə də hansısa yeni bir bilginin həndəvərin-

dəyəm. Bəlkə də bu elmi işçilər, lap elə bu qızın özü bir şərqşünas kimi maraqlı bir dissertasiya mövzusunun əllərindən çıxdığını düşünürlər?! Elə bilirlər ki, mən bu işdə onlara rəqibəm?! Hər necə də olsa, mən onlar üçün axı kənar adamdım və s. və i.a. bu kimi fikirlər məni rahat buraxmırdı.

Şərqşünas qızın sözlərindən sonra mənə bir anlıq elə gəldi ki, deyəsən, nəsə bir sirr qapısının önündəyəm. Qəribə şəkildə həyəcanlandığımı hiss elədim. Özümü ələ alıb sakitləşdirməyə çalışdım: eybi yox, bir az keçər, bunlar görərlər ki, məni ancaq elə-belə, heç nəyə dəxli olmayan bir maraqdı, aparır bu işin dalınca. Bir az orasından, burasından oxuyub qaytarım və çıxım gedim, işim var, gücüm var… Mən tarixçi deyiləm, mən yazıçı deyiləm, nəhayət, mən zəlzələşünas deyiləm. Yaxşı, bəs mən kiməm? İlahi, mən axı niyə bu qədər sirr hərisiyəm?!

Qızın dedikləri düz çıxdı. İndi nə qədər həyəcansız danışmaq istəsəm də tüklərimin ürpəşməsindən (tüklərimin məndən xəbərsiz ürpəşməsi mənə həmişə nəsə çox vacib mətləblərdən xəbər verib) hiss edirəm ki, bu mümkün deyil. Əlyazmanı gedib-gəlib üç gün ərzində üç dəfə oxudum. Birinci oxunuşdan sonra cırılmış, zədələnmiş, buraxılmış yerlərə məhəl qoymadan da məsələ ən ümumi şəkildə mənə əyan oldu. Nə üçün yazılıb, məqsəd nədi və hətta ən vacib bir məqam: Müəllif kimdi?! Bu Əlyazma kimə məxsusdu?! Bunlar birinci oxunuşdan sonra bilindi. Artıq ikinci oxunuş bütün digər qaranlıq nöqtələri də yerinə qoydu. Onlar az deyildi və əsasən, məzmun qatı ilə bağlı idi. Beləliklə, ikinci oxunuşdan sonra bu qaranlıq məqamlar da aydınlaşdı.

Üçüncü oxunuş isə daha çox mənəvi ləzzət hissinin təşnəsini söndürmək üçün idi. Mən Müəllifin böyüklüyünə, bir insan kimi ucalığına, qədim və böyük bir cəmiyyət üçün nələr etdiyinə bir daha inandım və təəccübümün, sitayişimin həddi-hüdudu, sərhəddi olmadı. Ürəkdən heyfisləndiyim bir şey vardı. Həmən bu cəmiyyət artıq yox idi. O uzaq və əlçatmaz bir qədimlikdə qalmışdı. Bilmirəm, "o itib" deyə bilərik, yoxsa yox?! Amma orası həqiqətdir ki, və bunu inkar etmək çox çətin olardı, orası danılmaz həqiqətdir ki, o qədimliyin bu gün bizimlə çox az əlaqəsi var.

Şərqşünas qızla son dəfə dəhlizdə, demək olar ki, ayaqüstü üzləşdik. Bir məsələ mənimçün hələ də anlaşılmaz qalmışdı. Onun mənə verdiyi bu yarımçıq mətn hansısa daha böyük, onun özünü də ehtiva edən bir başqa mətnin içində idi. Mətnlər bir-birinə qarışmışdı. Əgər belə olmasaydı, o zaman bu yarımçıq əlyazmanı tanımaq elə ilk baxışdan da mümkün olardı. Amma belə deyildi. Hamını çaşdıran mətnin əvvəli idi. Qız yenə də könülsüz-könülsüz bunu dedi ki, mətnin əvvəli və sonu, doğrudan da, Gəncə zəlzələsindən bəhs edir, daha doğrusu, ona işarə edir və, elə bil, hamıya, ən azı elm əhlinə bəlli olan mətləblər birdən-birə, amma çox sakitcə, çox səssizcə, sərhədsiz-filansız başqa bir mətləbə – bizim Əlyazmanın birinci əsas məzmununa keçir. İki – ya üç heç cür oxunmayan səhifədən sonra bu şəkildə əvvəli yarımçıq bir cümlə ilə Əlyazma öz ömrünü belə başlayırdı:

"…gün Bayındır Xan yenə məni öz yanına istədi və mən Günortaca, Xanın dərgahına özümü yetirib ədəblə baş əyib salam verdim". Bu, əslində, Əlyazmanın ikinci cümləsi idi.

Bundan əvvəlki cümlə isə Gəncə zəlzələsinə aid idi və qəribəlik ondaydı ki, o cümlə də bitməmişdi: "Əhalinin zəlzələdən sonra Gəncədə müsibət içində əziyyət çəkdiyini görən şəhər başbilənləri elə haman…"

Beləcə bir mətləb bitmədən quruluşca ona uyuşan o birisi başlayırdı. Yarımçıq Əlyazmanı üzdəki Gəncə zəlzələsi ilə bağlı hadisənin içində bu şəkildə gizlətməkdə bir məqsəd var idimi?! Bir xeyli fikrə getdim. Nəticəsi olmadı. "Qərəz, bizim məsələmiz bu deyil. Biz izinə artıq düşdüyümüz hadisələrin ardınca getməyə çalışaq". – deyə özüm-özümə bir istiqamət müəyyənləşdirməyə çalışdım. Hara gəlib çıxdım, indi özünüz görəcəksiniz.

Əvvələn, onu deyim ki, bizim "Yarımçıq Əlyazma"nın əsas məzmun qatı birinci şəxsin adından yazılıb. Əslində, Əlyazmanın bu hissəsini "Qeydlər" və yaxud "Müşahidələr" də adlandırmaq mümkündür. Çünki məsələ burasındadır ki, bu hissədə nə zamansa yazılacaq böyük bir Dastanın hazırlıq qeydlərinin aparıldığını görməmək mümkün deyil. Yəqin ki, duyuq düşdünüz. Söhbət, əlbəttə ki, qədim mədəniyyət abidəmiz "Kitabi-Dədə Qorqud" dastanından gedir. Millətin qədim tarixini, yaşam tərzini, sevinc və iztirabının kökünü bu epik Dastandan daha yaxşı əks etdirən

ikinci ədəbi abidəmiz birmənalı şəkildə yoxdur. Onun müəllifi Dədə Qorqud bu əsərin girişində Oğuz elinin əsl peyğəmbəri kimi qələmə verilir. On iki hissədən ibarət olan bu möhtəşəm əsərin mənəvi şaxələri çox qədim dövrlərə gedib çıxır. Mütəxəssislərin səyyar deyə adlandırdığı bəzi süjetlər hətta Homer dastanlarındakı bir sıra məlum əhvalatların Oğuz aləminə proyeksiya edilməsindən danışmağa əsas verir. Hansı qəhrəmanlar daha qədim dövrün sakinləridir – Polifem, yoxsa Təpəgöz?! Odissey, yoxsa Beyrək?! Aqamemnon, yoxsa Salur Qazan?! Penelopa, yoxsa Banıçiçək?! XIX əsrin məşhur alimlərindən alman romantiki fon Dits, türk dilçisi, əfsanəvi Xətiboğlu, rusiyalı şərqşünas nəhəng Kazım bəy öz tədqiqatlarında məhz bu və bunabənzər suallar qoyublar. Bu gün artıq bu kimi suallara cavab vermək də olar, cavab verməmək də. Əsas olan isə odur ki, əgər müxtəlif dastanlardan keçən və bizim indicə səsləndirdiyimiz bu adlar bir-birinin yanında dura bilirsə, səni düşündürüb biri digərini yaddaşa gətirib salırsa cavab öz-özlüyündə artıq verilmiş kimidir və "daha qədim kimdir?" axtarışlarına, əslində, bir elə ehtiyac da qalmır. Dastan güclü bir cəmiyyətin – qədim mifoloji bir zamanda müstəqil ictimai-siyasi münasibətlər sisteminə dayanaqlı dövlət qurub onu yaşadan, qonşuları ilə döyüşüb-barışan, daxilində möhkəm nizam-intizam quran, ədalət prinsiplərini öz yaşam tərzinə çevirən, basqınlara məruz qalan və basqınlar həyata keçirən qədim Oğuz cəmiyyətinin həyat səhifələridir. Tarixdə, şübhəsiz ki, öz yeri olan Oğuz cəmiyyəti tarixçilərin əsərlərində, əfsuslar ki, öz layiqli yerini hələ də tapmayıb. Belə düşünmək və belə demək ədalətdən o qədər də uzaq deyil.

İtib getmiş, ancaq adları qalmış, bu dünyada, hansının az, hansının çox, nə isə işlər görən qədim xəzərlər, qədim hindlilər, qədim misirlilər, qədim ermənilər, qədim yunanlar, qədim gürcülər kimi qədim oğuzlar da diqqətəlayiq bir mədəniyyət yaratmışdılar. "Kitabi-Dədə Qorqud" bu mədəniyyətin ən parlaq bədii ifadəsidir.

Və indi də bu Əlyazma! Böyük bir abidəni – Dastanı yaratmazdan əvvəl aparılan qeydlər, müşahidələr. Qələmə alınmış Dastan mətnində təsvir edilən hər bir məqamın, hər bir personajın çox-çox əvvəldən müəllif beynində sxemləşmiş ifadəsi. Tanıdığımız Dastanla "Yarımçıq Əlyazma"nı tu-

tuşduranda bəzən bizi böyük fərqlər gözləyir. Məsələn, Mətndəki Beyrək və "Yarımçıq Əlyazma"dakı Beyrək kimi. Fərqlər çox zaman gözlənilməzdir. Burla Xatun və Salur Qazan münasibətlərinin tamam başqa, inanılmaz ifadəsi kimi. Aruz Qoca və Salur Qazan qarşıdurmasının əsl səbəbinin açıqlanması kimi. Bütün bunlar, əlbəttə, var. Amma bir məsələ danılmazdır ki, Dastan Mətninin də, "Yarımçıq Əlyazma" mətninin də, "Yarımçıq Əlyazma"dakı qeydlərin, və müşahidələrin də yeganə Müəllifi olan Dədə Qorqud çox ciddi, mürəkkəb yaradıcılıq və hətta mən deyərdim, siyasi bir missiyanı yerinə yetirib. "Əslində, bu belə olub!" – "Yarımçıq Əlyazma" bunu deyir. "Amma gələcək nəsillər bunu belə yox, məhz bu cür duyub qəbul etməlidirlər!" – Dastanın mətni isə bunu deyir.

Belə bir sual doğa bilər. Nə üçün Müəllif Dastan üzərində işini bitirəndən sonra "Yarımçıq Əlyazma"dakı öz qeydlərini məhv etməyib?! Kim bilir, bəlkə də belə bir təşəbbüs olub. Çünki məntiq, əslində, bunu tələb edir. Qeydlərlə tanış olanlar onunla Mətn arasındakı fərqdən ən azı çaşqın kimi görünə bilərlər. Kim bilir, bəlkə də qeydləri "Yarımçıq Əlyazma"nın içində, onu da həmin daha böyük Gəncə zəlzələsi haqdakı əlyazmanın içində gizlətmək, beləcənə itirmək istəyiblər?! Qəti söz demək çətindir. Amma bir şeyi az-çox dəqiq hiss edirəm ki, müəllif bu iki əlyazmadan (Dastan mətni və "Yarımçıq Əlyazma"dan) birini hökmən məhv etməliydi. Daha çox məhvə məhkum "Yarımçıq Əlyazma" olmalıydı. Amma belə olmadı. Sirri – xudamı?! Sirri – Xuda!

Çox beyinləri belə bir sual da düşündürə bilər: bu nə cür olur ki, insan yaddaşı hazırlıqsız – filansız böyük-böyük Dastanları, tutalım ki, "İliada"nı, "Odisseya"nı, "Nibelunqlar"ı, "Kitabi-Dədə Qorqud"u öz içinə yığa bilir, onlar az qala bir sətri belə unudulmadan əzbərlənir, gələcəyə ötürülür?! Cavab olaraq cürbəcür elmi əsaslar gətirirlər. Amma bir tərəfdən vacib olan bu abidələrin yadda saxlanması və ötürülməsidirsə, ondan heç də az vacib və əhəmiyyətli olmayan məsələnin o biri tərəfidir. Bu, dastanların, mətnlərin yazılma prinsipidir. Aydındır ki, hər hansı bir Mətn ilk olaraq yazıya dönəcək qeydlərdən başlayır. Buna çox zaman yazıçı laboratoriyasının məhsulu da deyirlər. A 21/ 733 nömrəli "Yarımçıq Əlyazma" da,

əsas etibarilə, Müəllifin – artıq bunu açıq demək olar – el müdriki Dədə Qorqudun bu məqsədlə yazdığı müxtəlif qeydlərlə doludur. Bəlkə də bu qeydləri müşahidələr adlandırmaq daha düzgün olardı. Niyə də yox?! Bundan nə dəyişir?! Və insanın, lap elə Ozanın, Şamanın, şairin bir insan kimi yaddaşına şübhə edənlər (Rusiyalı akademik Fomenkonu və onun qrupunu xatırlayaq!) bəlkə də haqlı idilər. Hər halda bizim "Yarımçıq Əlyazma" sübut edir ki, Müəllif çox ciddi şəkildə günbəgün, saatbasaat şahidi olduğu hadisələri qələmə almaqla, bu müşahidələrin, qeydlərin üslubundan çıxış etsək görərik ki, özünü böyük bir imtahana, yəni, bizim tanıdığımız möhtəşəm Dastanı qələmə almağa hazırlayır. Ayrı-ayrı eskizlər, hətta deyimlər, sözlər, bəzi hallarda üslubla bağlı düşüncələr, biz sonradan şahidi oluruq ki, Dastanda nə şəkildə əyanilәşir. Daha doğrusu, əksinə. Dastanda əyaniləşmiş mənzərə təsvirlərinin, üslub dolanbaclarının, deyim tərzlərinin məxəzinin məhz bu qeydlərdə məskən saldığını biz bu gün artıq bilirik.

Bir ağıllı adam deyib ki, Dədə Qorqud hələ bizə qayıdacaq, bilmirəm necə, amma hökmən qayıdacaq. Başqa bir ağıllı adam da deyib ki, əlyazmaları yanmır, onlar oddan-alovdan da sağ-salamat çıxa bilirlər.

Bir qədər əvvəl "Əlyazmanın əsas birinci qatı" deyə bir ifadə işlətdik. Nə üçün? İkinci qat nə olan qatdır, hansıdır? Əlbəttə ki, ikinci və ya paralel qat kimi nəzərdə tutduğumuz, daha doğrusu, ayırdığımız hissə də həmən Gəncə zəlzələsi ilə bağlı hissə deyil. Bəs onda nədir? Sirriçindən daha bir sirr boylanır. Oxuduqca görürsən ki, Dədə Qorqudun qeydləri kimi təqdim olunan bu əsas mətn yer-yer, elə bil, parçalanıb ayrılır və bu boşluqlar tamam başqa, ilk məqamda ağla gəlməyən bir məzmunla doldurulur. İlk belə parça öz aidiyyəti barədə, demək olar ki, heç bir informasiya vermir – adamda ancaq qəribə bir hiss, əcayib bir şübhə, "doğrudanmı, bu odur?!" kimi sualabənzər ehtimal yaradır. Sonra isə daha heç bir şəkki-şübhə qalmır.

İkinci, paralel adlandırdığımız o qat Azərbaycan və İran hökmdarı Şah İsmayıl Xətayinin həyatı ilə bağlıdır və öz-özlüyündə bitkin bir həyat nöqtəsinin və ya parçasının (?) təsvirinə həsr olunub. Tamamilə ağlasığmaz mətləblərin qələmə alınmasıdır. Daha çox tarixi yox, bədii bir rəvayəti xatırladır. Dədə Qorqud – Şah İsmayıl. Şah İsmayıl – Dədə Qorqud. Bu iki mətləb, əl-

bəttə ki, onu da demək vacibdir ki, qeyri-bərabər şəkildə (Dədə Qorqudla bağlı hissə həcminə görə daha böyükdür) qurulmuşdur. Bu mətnlərin hər biri öz "dilində" danışsa da, amma yenə, elə bil ki, bir-birini əməlli-başlı izləyir və tamamlayır. Şah İsmayıl, Lələ, Vəzir, Taclu xanım, Xızr … oxucusunu tamam başqa bir aləmə aparır və bizim alışıb bildiyimiz təsəvvürləri ən azı dibindən silkələyir. Və əsas suallardan biri göz önündə lay sütun kimi ucalır. Nə üçün Gəncə zəlzələsi ilə belə incə şəkildə çərçivələnmiş bu Əlyazma özü-özlüyündə iki qola ayrılır, ya bəlkə iki ayrı-ayrı əlyazmalar daraq kimi bir-birinin içinə keçirilmiş kimidir? Hansını hansı ilə örtüb basdırıb gizlətməyə çalışıblar?! Real tariximizlə mifoloji tariximizin bu cür qəribə birgəliyi nə üçündür?! Mifoloji tariximizi reallaşdırmaq üçünmü?!

Şah İsmayılla bağlı hekayətlə əlaqədar yox, Dədə Qorqudun qeydləri ilə bağlı, açıq deyim ki, daxilən məni hələ də nəsə sıxır. Bu qeydlərin pünhan və bakirə mövcudiyyatına toxunmaq günah deyilmiydi, görəsən?! Bu pünhanlığı faş etmək özünü doğruldurmu?! Bu suallar həm də ona görə üzə çıxır ki, "Yarımçıq Əlyazma" sadəcə qeydlərdən, müşahidələrdən ibarət olsaydı, dərd, necə deyərlər, yarı olardı. İş burasındadır ki, bu qeydlər, əslində, çox incə bir mətləbin çözələnməsi, açılması üzərində qurulur. Bəlkə də belə demək doğru olardı: bu qeydlər zərrə-zərrə mətnə səpilərək əsas mətləbi müşayiət edir. Bu mətləb isə nə az, nə çox, bu günkü dillə desək, əsl istintaq prosesidir. Qədim Oğuz cəmiyyətinin, daha doğrusu, qədim Oğuz dövlətinin Xanlar Xanı Bayındır Xanın qurduğu, Dədə Qorqudun isə, yenə də müasir dillə desək, katibliyi ilə həyata keçirilən əsl istintaq prosesi! Oxuyub görəcəksiniz ki, bu istintaqı aparanlar da, "ona cəlb olunanlar" da, əslində, sonralar yazılacaq Dastanın əsas və qeyri-əsas personajlarıdır. Bəlkə də Dastandakı əsas personajlar "Yarımçıq Əlyazma"dakı epizodik adamlardı və əksinə, "Yarımçıq Əlyazma"nın qəhrəmanları Dastanın ikinci, üçüncü planına məxsus sakinləridir. Əslində, bu istintaqın gedişatı Dastandakı bir çox qaranlıq mətləblərin də üzərinə işıq salır və irəli qaçaraq özümüzü saxlamadan indilik ancaq onu qeyd edək ki, Dastanda təsvir olunan və müharibə ilə bitən İç Oğuz – Dış Oğuz düşmənçiliyinin də əsas səbəbi məhz bu istintaqın gedişatından aydın olur.

Oxuduqca çox mürəkkəb və vahiməli, eyni zamanda həm də çox sadə və komik bir situasiyanın içinə düşdüyünü hiss edirsən. İnsanların o uzaq dövrdə belə, təxminən, bizlərin bu gün yaşadıqları hislərlə yaşadığının, bizlər kimi nəfəs aldığının, həyəcan və təlaşlarının şahidi olursan. Heç elə bil, bizlə onların arasında bu boyda zaman kəsiyi yoxmuş. Elə bil, bu boyda zaman kəsiyi ancaq və ancaq paltarların və zövqlərin, ənlik-kirşan və ətirlərin, ədaların və görkəmlərin, bir sözlə, ancaq üslubun, daha geniş götürsək, formanın dəyişməsinə xərclənib gedib. Mahiyyət, məzmun isə olduğu kimi – indi olduğu kimi demək də bir qədər çətindir, belə deyək, təxminən, o zaman olduğu kimi qalmaqdadır, daha doğrusu, elə bir dəyişikliyə uğramadan davam etməkdədir. Nə isə…

İstintaqa gətirən səbəbi açıqlamaq pis olmazdı, zənn edirəm. Bütün ciddi və əhəmiyyətli hadisələr kimi bu əhvalat da xırda, ilk baxışda heç yada düşməyən bir məsələdən başlayır. Salur Qazana xəbər verirlər ki, Oğuzda düşmən casusu var. Bu casus əməlli-başlı təxribatçılıqla məşğul olur, dövlət əhəmiyyətli sirləri düşmənə ötürür. Məsələn, Salur Qazan ova çıxır. O saat bu barədə düşmənə xəbər verilir ki, bəs əlverişli məqamdır, gəl Oğuzu çap, tala. Müəllif burada, məncə, böyük bir uzaqgörənliklə həm də özündən, öz dövründən çox-çox sonralar baş vermiş Gəncə zəlzələsinə işarə edir, azğın düşmənin məhz bu zaman uçulub dağılmış şəhərə hücumunu qəribə bir fəhmlə görür. Hər halda bu fikir adamın ağlına girməyə bilmir. Sonra. Beyrək evlənməyə hazırlaşır. Yenə casus öz işini görür. Bu dəfə düşmənlər, Dastandan çıxış etsək, Beyrəyi hiylə ilə oğurlayıb on altı illik Bayburd əsirliyinə aparırlar. Başqa bir məqam. Bəkilin ayağı sınır, yenə casus xəbər aparır və s. və i.a. Bir sözlə, casusun fəaliyyəti Oğuza ciddi zərbələr vurur və Salur Qazan böyük bir qətiyyətlə onun tapılıb tutulmasına qərar verir.

Casus tutulur, amma problemlər bununla bitirmi bitmir, bəlkə, əslində, problemlər bununla başlayır. Casusun tutulması üçün, "ağzı köpüklənə-köpüklənə qərar verən, onun "şaqqalanmasında israrlı olan Oğuz bəyləri" (mən artıq "Yarımçıq Əlyazma"dan sitat gətirirəm) bu dəfə, casus tutulduqdan sonra, necə deyərlər, yüz səksən dərəcə dəyişirlər, onun zindandan azadlığa çıxması üçün əllərindən gələni edirlər. Və buna nail də olurlar. Məş-

vərət qurulur, bəylər səs verir və casus gecəyarısı açılıb buraxılır, ona Oğuzdan çıxıb getməyi, gözdən uzaq olmağı, bir sözlə, ilim-ilim itməyi tapşırırlar.

İstintaq da məhz bundan sonra başlayır. Xanlar xanı Bayındır Xan bu əhvalatdan xəbər tutunca "casusu kim qaçırdı?" sualına cavab axtarır, əsl istintaq qurur və həşəmətli Oğuz bəyləri – Salur Qazan, Şirşəmsəddin, Bəkil, Aruz Qoca bir-bir bu istintaqa cəlb edilirlər. Və başqa əsilli-nəsilli bəylər, xatunlar da Xanlar Xanına xəbər aparıb gətirir, öz bildikləri kimi bu istintaqa bəzən kömək etməyə, bəzən də onu çaşdırmağa çalışırlar.

Dədə Qorqud bu minvalla Oğuz cəmiyyətində özünə yer eləmiş bəlkə də ilk istintaq prosesinin yeganə katibidir, başqa sözlə desək, yazarıdır. İstintaqın gedişi zamanı etdiyi qeydlər, apardığı müşahidələr gələcəkdə yaradacağı möhtəşəm Dastanın eskizləri kimi də dəyərləndirilə bilər. O özü bilirdimi ki, belə bir əsəri yazacaq, ya bilmirdi – bu, başqa bir mövzudur. Hər halda həm istintaq zamanı, həm də ondan kənarda aparılan qeydlərin mahiyyəti və məqsədyönlüyü belə bir gümanı müsbət cavablandırmağa əsas verir.

"Yarımçıq Əlyazma"nın canı-mayası belə bir tarıma çəkilib gərilmiş kəndirin üstündə qurulur. Müxtəlif qəhrəmanlar bu kəndirdən sehrbazlar kimi əyilə-qalxa keçə-keçə özlərini, öz iç dünyalarını, daxili aləm və mahiyyətlərini büruzə verirlər. Və Dədə Qorqud kəndirin o biri tayında, bəlkə də aşağıdan durub onların hər bir hərəkətini, hər bir ləngərini diqqətlə izləyir, görüb eşitdiklərini beyninə, zehninə, nə bilim, qəlbinə, amma ən vacibi kağıza köçürür – Əlyazmaya çevirir. Budur "Yarımçıq Əlyazma"! Budur buradakı natamamlıq! Və əlbəttə ki, budur bu natamamlığın bu gün bizim təsəvvürümüzdə yaratdığı bütövlük və tamlıq.

Tərəddüd məni yıxacaq. Özünüz deyin, "Yarımçıq Əlyazma"nı nəşr edib oxucuya təqdim etməkdə mən haqlıyam, ya haqlı deyiləm?! Qəribədir, nə qədər axtardım, mən özüm bu sualın cavabını tapa bilmədim…

# Daha bir Önsöz və yaxud dünyadakı fərqlərin Allah üçün əhəmiyyəti varmı?

Əlyazmanın içindən daha bir əlyazma boylanır. Bu mənim yadıma görün, nəyi saldı. Sevilyada Əlqəzər sarayındakı xristianlıq naxışlarının arxasında qorxa-qorxa gizlənmiş və artıq güclə sezilən müsəlman hərflərini, yazılarını xatırladım. Görünür, bu ilkin yazıları beləcənə ört-basdır eləməyə çalışan ədalı qaliblər elə düşünüblər ki, xristianlıq dövrünün yazıları bu düşmən hərflərin üstündə belə cəsarətlə duranda bir hərf qalınlığı qədər Allaha daha yaxın olurlar. Amma bəlkə onların silib görükməz etdikləri, amma zamanın üzə çıxardığı o müsəlman yazılarının özü də Allaha xitabdı və bəlkə elə hər iki yazı eyni arzunun, niyyətin ifadəsidir. Ən əsas olan isə onların hər ikisinin eyni ucalığa üz tutmasıdır.

Bütün biblioqrafik mənbələrdən "Yarımçıq Əlyazma" adı ilə keçən bu nadir nüsxə də, əslində, başqa bir yazı, içində gizləndiyi Əlyazmadan fərqli

bir mədəniyyətin daşıcıyısıdır. Bu fikir ilk baxışda ağlasığmaz görünə bilər. Çünki, əslində, Əlyazmanın içərisində daha bir başqa Əlyazmanın olması yeni suallar doğurur. Nədən və kimdən gizlənmişdi, nədən və kimdən qorunmaq istəyirdi bu dərindəki yazı?! Və qoruna-qoruna bu günə gəlib yetişmişdisə bunda bir məna varmıydı?! Bu qorunmanın dəyəri, qiyməti bilinəcəkdimi?! Doğrudan da, anlaşılmaz bir vahimə içində hiss edirəm ki, ağlasığmaz reallıqla üz-üzəyəm. Yadıma məşhur fizik Nils Borun başqa bir məşhur fizik Volfhanq Pauliyə dediyi bu sözlər düşür: "Görəsən sizin ideyalarınızı həqiqət kimi qəbul etmək üçün onlar kifayət qədərmi ağlasığmazdılar?!" Gözəgörünməz ali məntiqi çevrə qapananda Böyük Ağlasığmazlıq hökmən Böyük Həqiqətə çevrilir və ya keçir. Bunda, əlbəttə ki, nəsə var.

Elə bilirəm ki, "Yarımçıq Əlyazma" aldadıcı yarımçıqlığına baxmayaraq, qorqudşünaslıqda bir təbəddülat yaradacaq. Bir çox qaranlıq və anlaşılmaz mətləblərin üzərinə işıq salacaq. Amma o da istisna edilmir ki, bu mətnin təqdim etdiyi reallığın özünü də şübhə altına ala bilərlər. Hüseyn Cavidin məşhur "şübhə etməkdə həqlidir insan" misrası bu gün də, sabah da yaşayır, yaşayacaq. Amma bir məsələ artıq aydındır ki, daha hər şey əvvəlki kimi donuq, monumental, cansız görünməyəcək. Dastan yazılışının mifopoetik qanunlarına uyğun olaraq bir növ heykəl kimi yaradılmış bir çox cansız obrazlar "Yarımçıq Əlyazma"da birdən-birə silkələnib canlanır, yaşamağa, sevməyə, nifrət eləməyə, sədaqətli olmağa, kələk gəlməyə, aldatmağa, gülməyə, ağlamağa, bir sözlə, yaşamağa başlayırlar. Sən demə, onlar hər şeydən əvvəl adi, sadə insanlarmışlar – bəy və bəy oğlu, xan və xanzadələr olmaqdan əvvəl nəfəs alan, yaşayan canlı insanlar. Beləcənə, qədim Oğuz cəmiyyəti öz həqiqi, real mənəvi sərhədlərində görünməyə başlayır. Dədə Qorqudun hazırlıq qeydləri, müşahidələri və sxematik, rəmzi işarələri öz ölçüsündən çıxıb bədiiləşən bir çox məqamların üzərindən tül pərdə kimi çəkilir – bulud göy üzündən çəkilən zaman bir tərəfdən nəhayətsizlik daha aydın görünür, o biri tərəfdən Allaha, yəni, o böyük və ali həqiqətə daha yaxın olursan.

"Yarımçıq Əlyazma" ilə bağlı bütün anlaşılmaz və şərhə ehtiyacı olan mətləbləri bəri başdan qeyd eləmək məcburiyyətində deyilik. Buna gərək də yoxdur. Oxucu, inanıram ki, mətnin içində azmayacaq. Əvvəlcədən hər hansı

şərh isə elmi giriş yazmaq iddiasından xəbər verir ki, biz bu iddiadan uzağıq. Daha məsləhətlisi odur ki, "Yarımçıq Əlyazma"nın özünün yer-yer kəsildiyi, yarımçıq qoyduğu məqamları xüsusi ehtiyac duyulan zaman yerindəcə, əlbəttə ki, çox özəl, subyektiv şəkildə açıqlayaq. Biz, bu açıqlamalar mətn boyu aparılarsa daha effektli olar, deyə düşündük və belə qərara gəldik ki, onları Əlyazma mətni içərisində xüsusi bir yazılışda verək. Oxucu bunu şriftin dəyişməsi ilə hiss edəcəkdir. Digər tərəfdən, oxucu əsər boyu adi mötərizəyə də rast gələcək. Adi mötərizənin içindəkilər isə artıq "Yarımçıq Əlyazma"nın öz müəllifinə məxsus olan qeydlərdir.

Bir məsələni də nəzərə almaq vacibdir. Biz artıq qeyd etdik ki, əslində, "Yarımçıq Əlyazma"nın əsas qatı iki müxtəlif, amma bir-birini tamamlayan istiqamətlərin paralel, yanaşı gedişidir. Bir istiqamət Oğuz cəmiyyətinin daxilində çox qədim bir dövrdə baş vermiş ekstraordinar bir hadisə ilə bağlı Bayındır Xan tərəfindən (Dədə Qorqudun katibliyi ilə) aparılan istintaq prosesinin qələmə alınmasıdır. İkinci istiqamət müəllifin, yəni, Dədə Qorqudun xüsusi qeydləri, müşahidələri, sxemləridir. Bəlkə də istintaqın gedişi öz-özlüyündə bu müdrik insan üçün bir çox Oğuz adamlarını dərindən tanımağa, onlara həqiqi qiymətlərini verməyə təkan olur – əlbəttə ki, "qeydlər" istintaq gedişində belə bir müşahidənin nəticəsi kimi də qəbul edilə bilər. Bununla yanaşı, bu qeydlər, onu da inkar etmək olmaz ki, Müəllifin böyük bir dastanın yazılışına başlamaq iddiasından xəbər verir. Bu ağır və möhtəşəm yaradıcılıq işini, təbii ki, bu cür qeydlər olmadan həyata keçirmək mümkün olmazdı. Müəllifin bu və ya başqa qəhrəmanla, personajla, məqam və ya hadisə ilə bağlı düşüncələri, müşahidələri çox güman ki, maksimal obyektivliyə yaxın kimi sayıla bilər. "Yarımçıq Əlyazma"da bu belədir. Bədii mətndə, yəni, "Kitabi-Dədə Qorqud" dastanında isə biz çox zaman kəskin transformasiyalarla qarşılaşırıq. "Yarımçıq Əlyazma" ilə bizim tanıdığımız Dastan mətni bu baxımdan bir-birindən kifayət qədər fərqlənir. "Yarımçıq Əlyazma"nın obyektiv (bəlkə də subyektiv?), amma hər halda – hələlik gəlin, belə deyək – adekvat qeydləri Dastan mətnində niyə bu cür transformasiyadan keçibdir – bu nədir, Müəllifin biganəliyidir, yoxsa bəlkə Sifarişçinin bu gün çox dəbdə olan bir anlayışa – dövlətçilik

düşüncəsinə nə qədər yaxın olduğunu təsdiqləyir?! Xalqın mənəvi yüksəlişinə xidmət edən bir amil kimi düşünülüb?! İndiki halda bu suala mənim cavabım belədir. Son və Ali həqiqət İnstansiyasının Allah adı daşıyan Varlığı üçün, elə bilirəm ki, Dastandakı və Əlyazmadakı eyni adamların bir-birindən belə kəskin fərqlənməsi, nə səbəbə fərqlənməsi və yaxud fərqlənməməsi heç bir əhəmiyyət daşımır.

# Nəhayət, sonuncu Önsöz
# və yaxud "bilmirəm" deyə bilənlərin hüququ

Bizim "Yarımçıq Əlyazma"nın bütün digər yarımçıq əlyazmalardan bəlkə bir əsas fərqi var – bu fərq odur ki, bizim Əlyazmanın sonu olmadığı kimi əvvəli də yoxdur. Bəlkə bu, Əlyazmanın həyatının Gəncə zəlzələsi ilə bağlı dövrünün yadigarıdır, bəlkə də Əlyazma müəllifi özü bu mətni ardıcıl, sistemli, anlayışı bizim şüurumuzda mövcud olan bir roman kimi düşünməmişdir, ondandır. Əslində, müəllif üçün onun əvvəli də var, axırı da. "Yarımçıq Əlyazma"nın içərisindəki bir çox məqamlar ƏVVƏL barədə də tam və aydın təsəvvür yaradır. Əgər belədirsə, deməli, Mətn ancaq bizə özünü yarımçıqmış kimi göstərir.

…Hərdən mənə elə gəlir ki, normal əxlaqa uyğun olmayan bir iş görürəm. Elə bil, kiminsə cibinə girirəm, kimisə açar deşiyindən seyr edirəm, kiminsə məhrəm, intim məktubunu oxuyuram, sirrini faş edirəm… Oxunuş boyu məni bu cür təlaşlı, həyəcanlı suallar rahat buraxmırdı. Cavab öz-özünə gəldi. Əgər Allah-taala belə münasib bilibsə və bu bilgini formasından

və mövcudluq çərçivəsindən asılı olmadan mənə, mənim diqqətimə və mənim beynimə göndəribsə, mənlik burda çox az iş var. Mənlik deyil. "Yarımçıq Əlyazma" əgər "mənimlə danış" deyirsə, susmağa haqqım yoxdur.

İndi özünüz söyləyin. "Yarımçıq Əlyazma"nı sizə təqdim etməkdə düz iş görürəm, ya yox?! Mən özüm bu tərəddüdlərimin cavabını araya-araya qalmışam.

Bütün bunları yazıb qurtarandan sonra öz-özlüyündə həm qəribə, həm də o qədər də qəribə olmayan bir hadisə baş verdi. Elə son cümləni bitirər-bitirməz – (yuxarıdakı "mən özüm bu tərəddüdlərimin cavabını araya-araya qalmışam" cümləsini deyirəm) – məni qəfildən yuxu apardı. Başım özümdən xəbərsiz yazı masasına əyildi və yəqin ki, bu elə belə də olur – mən öz halımı kənardan seyr eləməyə başladım. Bu çox qısa bir vaxt ərzində baş verdi. Yuxuda bir adam gördüm. Bu adamın qiyafəti də, üzü-gözü də, boyu-buxunu da yuxudan ayıldığım andaca uçub yadımdan çıxıb getdi. Yadımda başqa şey qaldı: onunla mənim aramda baş vermiş bu qısa mükalimə:

– Nə üçün bunu etdin ? – O adam soruşdu.

– Bilmirəm, – mən cavab verdim.

Allah özü bilməyənləri bilənlərin qəzəbindən qorusun. Amin.

...əhalinin zəlzələdən sonra Gəncədə müsibət içində əziyyət çəkdiyini görən şəhər başbilənləri elə haman…

…gün Bayındır Xan yenə məni öz yanına istədi və mən Günortaca, Xanın dərgahına özümü yetirib ədəblə salam verdim. Bayındır Xan məndən soruşdu:

– Bilirmisən, səni niyə çağırdım, oğul, Qorqud?!

Mən cavab verdim:

– Bilmirəm, həşəmətli Xan.

– Qorqud, oğul, bunu yalnızca sən bacararsan. Səni seçdim, – Bayındır Xan söylədi. – Səninlə bahəm bir işimiz olacaqdır. Mənə xəbər gətirdilər. Oğuzda işlər qarışıq düşdü, dedilər. Bəlkə hələ sən də nəsə duymuşsan. Bir casus varmış, onu tutublarmış, sonra isə… casusu açıb zindandan buraxıblar… Nə bildinsə söylə mənə, bu işi birgə çözəlim.

Bayındır Xan susdu durdu.

Mən məsələnin Bayındır Xana tamamən əyan olduğunu duysam da, dinmədim, gözlədim.

Bayındır Xanın üzünün rəngi get-gedə qızarırdı, gördüm ki, o, qəzəbini zorla saxlayır. Zənlə mənə baxdı, yəni: "Heç bir şey duymadınmı sən?! Yox? Sən ha?". Beləcənə heç nə demədi, baxdı, susdu, durdu. Aşkarca məndən cavab gözləyirdi.

Bayındır xana, Xanlar Xanına yalan söyləməkmi olar?! Qoşunu-ləşgəri var, qara-qara qulları, cəlladı, zindanı, əzabxanası var.

– Duydum, Xanım, bir türlü şeylər mən də duydum. – Mən boynuma aldım və dedim.

Beynimdə isə bunu düşündüm: "Xan nədənsə duyuq düşmüşdür, mənə dəxi sorması o deməkdir ki, bu işdə sonadək bilgisi yox. Nə edəsiyəm?! Tanrı özü yardımçım olsun. Görəsən, bunun bilgisi hansı nöqtəyəcən gedib sonra divara dirənir. O divardan o yana mən bunu necə aparacağam?! Qadir tanrı, sən özün mənim könlümə ilham ver".

– Nə duydun?! Susma. Danışsana. Bax buna. Haraya uçdu sənin gözlərinin direnişi?! Sən burda deyilmisən? Qorqud! – Xanın səsi yavaş-yavaş sərtləşib gedirdi.

– Xanım, düşünürdüm. Fani dünyada nə dersən, nə düşünürsən, ola bilir, Xanım. Əqlindən keçən nə varsa onu həyatda görərsən…

Bayındır Xan bəyəndi bu sözlərimi. Qımışan kimi oldu.

*Gərəkdir beynimdə saxlayım, bir dəxi işlədim – yeri vardır.*

Sonra mən yenə nəsə dedim, amma birdən baxıb gördüm ki, Bayındır Xan dəxi məni dinləmir. Bəli, bu həqqən belə idi. Xan sarayının həyətində qızılgül kollarının dibində tikənlərə ilişib bir kiçicik quşcuğaz vurnuxa-vurnuxa qalmışdı. Bayındır Xan qaşlarını çatıb başladı pəncərədən baxaraq o quşcuğazın hərəkətlərinə diqqət etməyə və mən də onun çiyni üstündən boylanıb bu zavallı quşcuğazın tikənlərin içindən qurtula bilib-bilməyəcəyini beynimdən keçirməyə başladım.

– Qılbaş, var, o zavallı quşcuğazı tikəndən al, – Bayındır xan bu sözləri çox yavaşdan dedi. Bu hal, deyim ki, mənim qəribəmə gəldi. Çünki burada, bu Xan otağında bizdən qeyri bir kişi yox idi. Hələ Qılbaşı Bayındır

Xan harada gördü?! Amma görmüş idi. Mən Bayındır Xanın çiyni üstündən bir daha boylanarkən Qılbaş artıq quşcuğazı tikənlikdən alıb aparırdı.

– Qılbaş, gəl sonra bura.

Yenə də mat-məəttəl qaldım. Necə eşitdi Xan həyətinin o başından Qılbaş Bayındır Xanın az qala pıçıltı ilə dediyi bu sözləri?! Amma bir az keçdimi, artıq Qılbaş yenə bizimlə bir Xan otağında idi.

*(Qılbaş Bayındır Xanın kölgəsi, nəfəsi, canı, zehni idi. Oğuzda onun sözünü iki edən olmazdı. Zatən Qılbaşın öz sözü yox idi. O, yalnızca Bayındır Xanın dediyini söylərdi. Qılbaş xəbər gətirərdi. Qılbaş xəbər aparardı. Qılbaş Oğuz bəylərinə söz söylərdi, onlardan əməl tələb eylərdi. Bir söz, Qılbaş Xanın yaxını idi. Doğrudur, Bayındır Xanın vəziri bir başqası idi. Qazılıq Qoca derlərdi bir kişi vardı, o idi. Zatən bütün dövlət məsləhətlərini onunla söhbət edərdi. Amma hamının bilməsi vacib olmayan bəzi gizli mətləblər ki, həll olunması vacib idi, Bayındır Xan onları Qılbaşın vasitəçiliyi ilə həll edərdi. Qılbaş belə Qılbaş idi.*

*Qılbaşın hekayətini mənə bir dəfə Salur Qazan danışmış idi. İndi mən bu söhbəti xatırladım. Bayındır Xan Qılbaşı hələ kiçik uşaqkən saraya, öz yanına almışdı. Ailəlikcə Qıpçaq əsirliyində idi. Özü dəxi elə əsirlikdə doğmuşdu. Atası, anası bir tövrlə Xana ismarış göndərmişdilər, biz heç, Bayındır Xan oğlumuzu əsirlikdən barı satın alaydı. Bu ismarışdan sonra bir qurğu qurub Qılbaşı əsirlikdən qaçırırlar. O, Bayındır Xana pənah gətirir. Qılbaşın atasını tanıdığından Bayındır Xan onu öz himayəsinə alır. İndi isə Bayındır Xanın bütün gizlincələri, bütün sirri Qılbaşdadı. Amma…)*

Qılbaş taxt yanına gələnəcən Bayındır Xan həyətə baxan pəncərənin yanından çəkilmədi. Elə hey həyəti seyr elədi. Mən onu ən pis vaxtlarda belə bu cür içindən yay kimi gərilmiş bir halda görməmiş idim. Deməli, Bayındır Xan çox dərin mətləbləri qaldıracaq, Qılbaşı da nahaqdan çağırmadı…

*İlk dəfə bu yerə çatanda mənə elə gəldi ki, Əlyazma doğrudan da, Fondun işçiləri demişkən, maraqsızdı. Şərqşünas qız doğru deyirmiş. Bu ki tamam başqa bir mətləbdir. Bayındır Xan, Qılbaş, Dədə Qorqud – bunlar nədən danışırlar?! Oğuzda nə baş verib?! Bu nə dildi, bunlar bir-birilə danışırlar?! Bəlkə o Şərqşünas qızın bu işdə, necə deyərlər, "barmağı var" – mətni, necə deyərlər, mənimçün "işləyib", qəribə bir hala salmağa çalışıb?! Yox, ağlabatan deyil. Özbaşına o bunu etməz. Qərəz, görək sonrası nə olur?! Sonrası isə görəcəyimiz kimi əsl tufan, təlatüm qopardı.*

… Bayındır Xan bu dəfə də duydu ki, Qılbaş artıq otağa girib, içəridədi. Biz tərəfə çöndü. Diqqətlə, bir-bir hər ikimizi süzdü, nəhayət, söylədi:

– Bu sirri siz çözəcəksiniz. İkiniz. Qorqud! – Bayındır Xan əlini mənə tərəf uzatdı, bu dəfə mənə hətta bir qədər qəzəblə baxdı, ya mənə elə gəldi?!

– Sən, – dedi, – yazacaqsan. Bu otaqda nə baş versə, kimin ağzından nə söz, nə kəlmə çıxsa bircə-bircə yazacaqsan. Qılbaş, sən, – Bayındır Xan Qılbaşa tərəf döndü, – bir kişi, bir qadın bu məsələ çözülməyincə Oğuzdan çıxa bilməz. Akınlar, ovlar, səfərlər – hamısı sonraya qaldı. Kimi istəsəm anında burda olmalıdı, sonrasına baxarıq. Bir də… Nə edirsən et, Qılbaş, amma elə et ki, burdakı söz-söhbət burdaca qalsın, yerə gömülsün, bir kişi o birinə heç bir xəbər yetirməsin. Qazılıq Qoca daxil, heç kim. Bu otaqdan dışarı bir kəlmə dəxi çıxmasın. Məsələ şişməsin. Anladınmı? Hər nə olsa da biz taxsırkarı bulmalıyıq. – Yenə Bayındır Xan hər ikimizi diqqətlə süzüb üzünü ahəstəcə həyətə tərəf çevirdi, pəncərənin lap önünə gəldi. – Anlamadıqlarını Qılbaş sənə anladar, indi isə gedin, – dedi.

Son sözlər mənə aid idi. Biz Qılbaşla Xan otağından çıxdıq.

– Anlat baxalım, Qılbaş, – mən dedim.

Birlikdə uzun dəhlizdən keçib Xan sarayının həyətinə girdik. Həyətin düz ortasındakı kölgəlicə qaba Qarağac kölgəsini xalı kimi döşəmişdi yaşıl çəmənin üzərinə. Bardaş qurub bu kölgədə biz dəxi əyləşdik.

– Xanımızın, əlbəttə, bizə böyük güvənci vardır. – Qılbaş sözünə aramla başladı. – Gərəkdir ki, biz də buna sədaqətlə cavab verək. Nə dersən, Qorqud?

– Mən nə derəm?! Sən nə dersən, mən dəxi onu derəm. Xan istintaqmı quracaq, Qılbaş? – Mən Qılbaşa sordum. Bayaqdan bəri beynimdə fırlanan bu sözləri, nəhayət ki, birbaşa dilimə gətirdim.

– Bəli, Xan istintaq quracaq, – Qılbaş cavab verdi. – Casus öz-özünə çıxmadı dustaqdan. Bunu sən də bilirsən, bunu mən də bilirəm, bunu İç Oğuzda südəmər uşaq da bilir (hiss etdim ki, kürəyimə soyuq tər gəlir). O, quş olub göyə uçmadı, siçan olub yerə girmədi. Onu kor-kor, gör-gör dustaqdan çıxarıb Oğuzdan qaçırdılar. Elə deyilmi? Əlbəttə, bu işin bir ilhamçısı var. Bizim borcumuz bu işin ilhamçısını bulmaq, Xanımızın könlünü şad etməkdir. Odur ki…

*(Mən "əlbəttə, əlbəttə" söyləyə-söyləyə başımla Qılbaşın dediklərini təsdiq edib qalmış idim. Başqa çarəmmi vardı?! Başqa cür edə bilməzdim. Qılbaş danışdıqca mənə çox diqqətlə baxırdı. Elə bil, qıya baxdıqca kiçicik gözlərilə mənim ürəyimin düz içinə girməyə istəyirdi. Beynimdən sürətlə bunlar keçdi: "Şəksizdir ki, Bayındır xana bu xəbəri çatdıran var. Amma kimdir?! Bir fəndlə bunu Qılbaşdan öyrənə bilsəydim… Yox, faydasızdı, çünki ox yayından çıxıbdır. Çuğul kimdi, kim deyil – dəxi bir mənası yoxdur. İndi dəhşətli hadisələr baş verəcək. Bayındır xanın istintaqına, qan daman gözlərinə baxıb tabmı gətirmək olar?! Bəylər, bəylər, nə günlər gözləyir bizi… sizi… Sənə mədəd, qadir Tanrı…")*

– Sən nerəyə uçub getdin, Qorqud?! – Qılbaşın səsi məni Qarağacın kölgəsinə qaytardı.

– Mən?!… Mən səninləyəm, Qılbaş.

– Heç mənimlə deyildin. Diqqət elə, dinlə məni. Odur ki, deyirəm, öncə Qazandan başlayaq. Oğuzda deməsinlər ki, Bayındır Xan özünün kürəkəninə qıymaq istəmədi. – Yenə mənə qıya baxdı.

– Öyləmi? Qazandanmı? – Mən sordum.

– Əvət, öylə. Sonra Şirşəmsəddin, Bəkil, Aruz Qoca…

– Beyrək... – yavaşcadan əlavə etdim.

Qılbaş mənim müdaxiləmə heç bir əhəmiyyət vermədi, soyuq-soyuq davam etdi:

– Beyrək nə yapa bilərdi?! Ona şübhə yoxdur. – Birdən niyəsə söhbəti dəyişmək istədi, səsi də mülayimləşdi. – Qorqud, amma Beyrək də Beyrəkdi ha. On altı il əsirlikdə olasan, Bayburd kimi yerdə… Hər türlü də səfa çəkəsən, hər yigidin işi deyil. Çox hiyləgər biri imiş bu Beyrək. Haradandı bu ağıl onda?..

– Beyrək boz ayğırlı Bamsı Beyrəkdi… cocuqluqdan onda ağıl var idi, yox deyildi. – Mən dəxi bundan başqa bir cavab tapa bilmədim deyəm.

*(Əlbəttə, bir gün qurduğun bütün hiylələr uçub duman kimi çəkilir, günün qabağı açılır…)*

– Beyrək, elə bilirəm, Bayındır xanın qulluğuna gəlmişdi bu yaxınlarda, eləmi, Qılbaş?! – Özümü sadəliyə vurub sordum.

– Gəlmişdi, amma bunun mətləbə heç bir dəxli yoxdu, bəlli bilgil.

Mən duydum ki, Qılbaş ciddi olaraq Beyrək söhbətinə heç maraqlı deyil. Bu yana Qılbaş da ayağa qalxdı, ona baxıb mən də durdum. Biz həyətin o biri başına, Qaradarvazaya tərəf getdik.

Qılbaş məni yola salırkən bir dəxi söylədi:

– Qorqud, sən sabah buraya gəlirsən obaşdandan. Qələminlə, kağızınla. Amma səndən bir ricam var. Tanrı eşqinə, bir kişiyə söyləmə burda eşitdiklərini. Gördün ki, özün, Xan belə buyurdu.

– Söyləmə dedin, söyləmənəm.

– Bəli, söyləmə. Xanımız nə cür məsləhət görərsə, öylə də edərik.

– Mən razı.

– O zaman yolun açıq olsun. Var get. Sabah gəlirsən.

– Qadir Tanrı səni qorusun. Yenə görüncə. Sağ ol, əsən qal, Qılbaş. – Mən dedim.

Ata mindim. Xan həyətindən çıxdım. Çaparaq Günortacı arxada qoydum, Ala Dağın ətəyindəki ağzıaçıq yay mağarasına necə yetişdim, onu bilmədim. Atdan endim, at ağzını aparıb ota getdi. Mağaranın qabağındakı Nur daşının dibindəcə oturub daşa dirsəkləndim. Bir xeyli vaxt belə keçdi. Fikirlər

beynimdə şahbaz atlar təkin biri-birini qovurdu, mən isə heç birini düz-əməlli tutub əyləyə bilmirdim. Ürəyimi qara-qura şübhələr gəmirib durmuş idi: “Nə etməli, necə etməli, casus məsələsi Bayındır Xana bəllidirsə, vay bizim halımıza, başımıza kül ələnəcək…”

Artıq gecədən keçirdi. Gözlərim dumanlanmağa başladı. Göy üzündəki ay hər gecə olduğu kimi səyahətini bitirdi. Göy üzünün bir tərəfindən o biri tərəfinə keçdi. “Gecənin xeyri nə olacaqmış?” – düşündüm, mağaranın içərisinə keçib daş yatağa baş qoydum. Dəvə dərisindən kəpənəyimi üstümə çəkdim. Amma hər nə etdim, gecə yarıdan ötənə qədər uyquya gedə bilmədim. Beynimdə yenə də bir çox mətləblər canlanıb dolaşmağa başladı. Bu mətləblər bir-birinə qarışdı: “Bu xamır çox su aparacaq. Mən nə edim?! Birdən Fatma qarı yumar gözünü, açar ağzını. Yox, əlbəttə, onunla görüşmək, Xan çağırarsa nə deyəcəyini anlatmaq fəna olmazdı… amma bu biri yandan orası da var ki, bu xına o xınadan deyil. Bayındır Xan, hələ Qılbaş tükü tükdən seçəcəklər, duyuq düşərlər… Əlbəttə, bunlarla çətin olacaq. Beyrək, hələ Beyrək… çuğul Beyrək ha?.. Bizi sənmi çuğulladın Xana?! Burla Xatunmu səni düz yoldan çönürdü, Beyrək dediyim?! Əlbəttə, Xatunsuz olarmı? Ağzından öysəl olmuş dananın ağzından su axan kimi su axdımı?

*(Öysəl olmuş dananın ağzından su nə zaman axar, əlbəttə, qavat oğlu qavat, həyatında qız görməyən qavat oğlunun gözəl-göyçək qız gördüyündə dəxi ağzından suyu öylə axar… “Öysəl olmuş dana” söylədim ya, gözümün önündə bir Beyrək yox, başqa neçə-neçə gənc Oğuz bəyləri dəxi gəldilər, durdular.)*

Beyrək dediyim, di o zaman gözlə özünü, səni qadir Tanrı bundan sonra özü qoruya bilməz… Bu yana kim qaldı? Qazan… Qazan dəxi kim – Xan qızı Burla Xatunun doğmaca eşi. Tanrının verən günü didişirlər, boğuşurlar, amma Qazan – Salur Qazandı. Qazan Bayındır Xana heç zaman asi olmaz. Xan bunu gözəl bilir. Xan Qazana sonsuz inanır. O zaman Qazanı istintaq etmək gözlərdən pərdə asmaq üçün də deyil, bə nədi? Bu biri yana, bir az Burla Xatun sakitləşər, bir az – lap elə heç fəna olmaz – Qazanın özünün burnu ovular, qalın Oğuz dəxi baxıb Xanın ədalətinə bir daha şükranlar söylər. Fəna düşünülməyib. Ya Qazan istintaqda dersə Qorqud mənə

söylədi, casusu açıb buraxmağı – o zaman necə?! Ya Aruz dersə? Şirşəmsəddin? Yox, bunun ağlı çatmaz, Bəkilsə mənə qarşılıq verməz, mənə zərər vuracağından qorxar. Aruz! Bəli, Aruz söyləyə bilər! Aruz… Fatma qarı ilə Aruz, Xan sorğu-sualının ən zəif həlqəsidi, ən qorxulu həlqəsidi. Yenə xatundu, Fatma qarının başını birtəhər aldatmaq olar. Aruz isə… məlun. Özündən, oğlundan başqa bütün dünya-aləmi bada verər, "uf" da deməz. Təkəbbürü yerə, göyə sığmaz. Təkəbbürlü olanı kimsə sevməz. Doğru olan budur. Hər şeyi Aruza bağlamaq. Əlbəttə, doğrusu budur. "Fatma qarı – Aruz – casus". Bu bağlantı hamı üçün uğurlu olar. Salur Qazan üçün – bəli. Burla Xatun üçün – bəli və bəli. Şirşəmsəddin? Onun üçün fərq eləməz – təki ağası Qazan rahat olsun. Bəkil? Bəkil istintaqda nə deyə bilər ki? Bəkil Qazana küskündür. Bir-birini gözləri götürməz.

*(Qazan bir cür deyir, Bəkil bir başqa cür deyir bu küskünlüyün səbəbini. Yozanına şükür.)*

Bəkili Aruza qarşı qoymaq – budur indi ən vacib məsələ. Bunları edə bilsək, o zaman Aruz nə dersə desin heç bir anlamı olmayacaq. Bayındır Xan ona heç qulaq asmayacaq. Amma bu qurğunu qurmaq asan bir iş olmayacaqdır. Bəkil Beyrəyi, Qazanı qoyub Aruzun ayağından bastamaz. Qılbaş qurğunu duyar. Duysun. O dəxi Qazanı qoyub Aruzun tərəfini tutmaz. Hamı, hamı Aruza qarşı. Bir Bəkildən qeyri. Doydu, yoruldu Oğuz Aruzun tənəsindən, təkəbbüründən. "Oğlum Basat olmasaydı, Basat belə gəldi, Basat elə getdi, məlun Təkgözü belə basdı, belə yendi"… Aruz, əlbəttə, Aruz… Amma tədbirli olmaq gərək. Tədbir lazım. Aruz hiyləgərin birisidi. Tədbiri əldən vermək olmaz. Beyrək tələdə ət kimi. Aruzun ancaq Beyrəkdən şübhələnməsi gərək. Elə dərindən baxsan Xanın özünə də, əslində, Aruzun başı lazımdı…" Bu cür düşüncələrlə yarıyuxulu, yarıoyaq bir xeyli qaldım. Necə uyquya getdim, bilmədim. Kiçik ölüm məni aldı.

Mən uyqudan sabah erkən oyananda artıq günəş yavaş-yavaş dağ başından boylanırdı. Gecikmədən Günortaca, Bayındır Xanın dərgahına yollandım. Qılbaş ora-bura gəzişərək məni sarayın bağçasında gözlirdi. Yanında iki hündürboylu, enlikürəkli igid dəxi var idi. Əmrə müntəzir idilər. Mənə ədəblə baş əyib salam verdilər.

– Salam-əleyküm. Sabahleyin, Qorqud, Xandan buyruq oldu: Bu gün Salur Qazan divana gəlsin, Xan dedi. Sorğu-suala o cavab verəcək. Sən hazırsanmı? – Qılbaş məni salamlayıb ehtiramla sual etdi.

– Mən hazıram, Qılbaş, – cavab verdim. "Gecə düşündüklərim doğru imiş. Qılbaş bunu bilirdi. Qazandan başladı Xan" beynimdən keçirdim.

– Belə isə, gedin, Qazan bəyi Xan divanına çağırın gəlsin. Bayındır Xandan buyruq oldu: Qazan gəlsin, deyin. – Qılbaş yanındakı igidlərə əmr etdi.

İgidlər sözsüz-kəlməsiz, baş endirib getdilər tövlədən iki at çıxarıb mindilər, Qaradarvazadan çıxıb çaparaq gözdən itdilər. Xan həyətində adamlar yavaş-yavaş gözə görükməyə başladı. Qaravaşlar həyətin töylələr tərəfində ora-bura gedir, kimi inək sağır, kimi ocaq qalayırdı. Ağayıllar, qaytabanlar boşalmışdı, qoyunları da, dəvələri də artıq otlağa almışdılar.

İki qul idi, hərəsi bir atın yüyənindən yapışıb yavaş-yavaş Qaradarvazadan çıxdılar. Bu atları mən tanıdım. Yenə Beyrək gəldi yada düşdü. Atların biri keçi başlı Keçər ayğır idi, o biri toğlu başlı Duru ayğır idi. Bayındır Xanın töyləsindəki ən qaçaraq atlar bunlar idi. Beyrəyin elçiliyinə mən bu atlara minib getmiş idim. Dəli Qarcar, yarımasın, yarçımasın…

– Qorqud, gəl bura, gəl kölgəyə. – Qılbaşın səsi məni Xan həyətinə qaytardı.

Günəş yavaş-yavaş öz həmişəki yerinə – Qarağacın düz təpəsinə yetişməkdə idi. Ağacın kölgəlicə budaqlarının altına keçdik.

– Nə dersən, Qorqud, Qazanı gözləyəlimmi, ya Xana varalım, "biz gəldik" deyəlimmi?! – Qılbaş mənə sordu.

– Sən bilirsən, Qılbaş. – Mən ehtiyatla söz söylədim.

Bu dəm nökər gəldi, cavabı dəxi o verdi. "Xan sizin ikinizi də yanına istir" dedi. Qılbaş və mən bir-birimizə baxıb Bayındır Xanın taxt otağına getdik. Otağa biz girəndə Bayındır Xan artıq öz taxtına oturmuş, dərin fikir içinə batmış idi. Dünənki tək halı yenə də pəjmürdə idi.

Ədəblə salam verdim, salam aldım. Əli ilə Bayındır Xan oturmağımızı istədi. Biz dəxi oturduq.

– Bilirmisən, Qorqud, oğul, – deyib Bayındır Xan ilk əvvəl mənə baxdı. Gözlərində dərin bir kədər var idi. – Bilirmisən, mənə ağır gələn nədir? Mənə ağır gələn odur ki, adlı-sanlı, şövkətli Oğuz bəyləri bu gün Oğuzun taleyini heç düşünmürlər. Hələ Qazan. Bu işdə onun dəxi əli olmasını mən heç gözləməzdim…

"Onun dəxi". Belə dedi. Əgər Xan məni yoxlayırsa, o zaman yaxşısı budur ki, susa duram. Yoxlamırsa yenə susmaq gərəkir – mənim dediyim sonra ürəyində ləkə salar qalar". Bunları düşündüm, susdum.

Bayındır Xan nagahdan Qılbaşa çöndü. Sordu:

– Qılbaş, Qazan gəldimi?

– Gəlir, Xanım. Getdilər çağırmağa. – Qılbaş cavab verdi.

– Hörmət edin, qarşılayın. Nəvəmizin babasıdır.

Bayındır Xan yenə zənlə mənə baxdı. Baxışıyla "sənin əqlin nə kəsir?" soruşurdu. Mən bir cavab vermədim, gözümü yerə dikdim, durdum ki, durdum. Bir xeyli beləcənə dinməzcə sükut içində oturub qaldıq.

Gün təpəyə qalxanda nökər içəri girdi:

– Xanım, Qazan bəy gəldi. Oğlu Uruzla gəldi. İçəri gəlməyə dəstur diləyir.

Qılbaş Bayındır Xana, Bayındır Xan Qılbaşa baxdılar.

– Uruzla gəldi?! – Bayındır Xan təəccüb edib soruşdu. – Uruzla niyə gəldi?

*(Mən Qazanın əqlinə heyrət etdim. Əlbəttə, duyuq düşmüşdür. Oğlu Uruzla gəlməsi, Bayındır xanın könlünə şəfqət qanının axması… – necə gözəl qurğunu qurmuşdur.)*

Mən düşündüm: "Qazan yaxasını şükürlər olsun ki, bu cür qurtardı. Qaldıq biz. Mənim adımı çəkməz Xana, inşallah".

Qılbaş nökərə əli ilə "çıx" işarətin verdi. Nökər çıxdı.

– Nə edəlim, Xanım?! – Qılbaş üzünü Bayındır Xana tutub sordu.

Bayındır Xan başını yelləyib dedi:

– Belə. Uruzu bura heç buraxmayın. Qoyun getsin iç həyətə, qul-xəlayiq arasına. Özünə bir yeni qul seçsin. Gözətçilərə deyin – izinlidi, istərsə qaravaşların yanına dəxi varsın – nə olacaqmış, uşaqdır. Qazan isə gəlsin.

Qılbaş "baş üstünə" deyib çıxdı.

Bayındır Xan üzün mənə tutdu, dedi:

– Sən otur oturduğun yerdə. Qələm-kağızın varmı?

– Vardır, Xanım. – Mən bardaş qurub yerimi bir az dəxi rahladım və cavab verdim.

Bayındır Xan yenə mənə diqqətlə baxıb belə dedi:

– Yaz, Qorqud, oğul, mən dediyimi, o dediyini yaz. Bir sözü də unutma. Qoy yazılıb qalsın. Bu gün də sabah da qoy oxuyan oxuyub agah olsun. Amma sən necə bilirsən? Mən bilən Qazanın elə bir günahı yoxdur. Yelbeyinliyindənmidir, könlü yumşaq olub, acıyıb, ya nədir?!.. – O, açıq-aşkar məni yoxlayırdı.

– Xanım, Qazan igid ərdi, – mən cavab verdim, – sənə hədsiz sədaqəti vardır. Qazan Oğuza dirəkdi… – son sözlərimi deyirdim ki, Qazan uca boyunu əyərək içəri girdi. Eşitdi ola, inşallah.

Qazanın ardınca otağa Qılbaş girdi. Qazan gircək diz çökdü, dizin-dizin Bayındır Xanın yanına qədər süründü, Bayındır Xanın əlini öpdükcə öpdü:

– Şövkətli Xana eşq olsun! – deyib ədəblə baş əydi. Mən tərəfə dəxi "nə baş vermişdir?" gözlərilə sorub şübhəli bir baxış atdı.

– Gəl, baxalım, Qazan. Əyləş, əyləş, söylə görəlim, necəsən?! Oğuzda nə var, nə yox, Uruzla gəldin, eləmi? Nə xoş etdin. Otur Qazan, bura otur. Qorqud, oğul, Qazana yaxın otur, sən öz işində ol, səninki yazmaqdı. Qılbaş! Keç, keç bu biri tərəfə.

Mən gördüm ki, Qazan hələ də anlamır ki, nə baş verir. Duyuq düşməyinə duyuq düşmüşdü, oğlancığı Uruzu ki nahaqdan gətirməmişdi, amma sonadək nə baş verdiyini mən bilən anlamırdı. Oturub yerini rahladıqdan sonra yenə də mənə gözündə min bir sual baxdı, bu zaman mən diqqət etdim gördüm ki, onun dizləri üstünə qoyduğu əli astaca əsməyə başladı, barmaqları ehmalca titrədi. Qazan mənim diqqətimi əlində görüb tez onları mütəkkənin altına soxdu. Üzünü Bayındır Xana tutdu və belə dedi:

– Xan baba. Uruz dəxi əl çəkmədi. Babama varırsan. Məni də özünlə al, dedi. Əlini öpəyim, dedi. Əlini öpməyə onu da gətirdim. Nə cür etdim?

– Gözəl etdin, Qazan, oğul. Xoş gəldiniz. Böylə gəlirdinizsə Burla Xatun övladımızı da özünüzlə gətirsəydiniz...

Bayındır Xanın sözlərindəki rişxəndi hamı duydu, amma Qazan özünü o yerə qoydumu, qoymadı:

– "Siz xoş gedin". – Burla Xatun dedi, Xanım. Babama çox-çox salamlarımı yetirin. Mən onun, dedi, bir neçə gün öncə ziyarətinə getmişəm, əlini öpmüşəm, gözəl-gözəl söhbətlər onunla etmişəm, dedi.

Qazan da Qazandı ha. Bununla demək istədi ki, bilirəm, Burla Xatunun bura gəldiyini, sənə nələr dediyini. Oyun idisə bunlar, bərabərləşdilər, qayət. Bayındır Xanın qaşları çatıldı, daha zamanı fotə verməyib dərhal mətləbə keçməyə qərar verdi:

– Qazan, səni niyə çağırdım, bilirmisən?!

Salur Qazan bütün üzünü heyrət və təəccüb pərdəsinə bürüyərək gözlərini gen açıb xeyli mehriban və həzin səslə cavab verdi:

– Bilmirəm, Xan babam. Mənə söyləmədilər. Hər nə əmrin olursa, başımla, qılıncımla hazıram. Yolunda ölməyimin şərəfini mənə vergil. Nə var, yoxsa akınmı var? Söylərmisiz? – Bunu deyib Qazan yan-yörəsinə, Qılbaşa və mənə tərəf başın çöndərdi.

Mən yazı yazmağımı saxlamadan saqqalını yavaş-yavaş tumarlayan Bayındır Xana altdan bir nəzər yetirdim. Bayındır Xan başını razılıqla tərpətdi, dedi:

– Qazan, sənin igidliyin cəmi dünyaya məlumdur. Sənin sədaqətin… – Bu arada Bayındır Xan nəfəsini dərib gözucu mənə dəxi bir baxış atdı, yoxlayırdı yazıram, ya yazmıram. Mən dərhal gözümü kağız-dəftərə endirdim. Bayındır Xan gördü ki, yox, mən yazmağıma məşğulam, yenə aramla sözünə davam etdi: – … sənin sədaqətin, Qazan, mənə yaxşı bəllidir. Bunları söyləmənə heç bir lüzum yox. Mən bilirəm, sənin əslin, kökün vardır. Salur quşu könlünə yardır sənin. Mən sənə inanmarammı, inanaram. Mən sənə güvənmərəmmi, güvənərəm. Sən mənim göyküm deyilmisən, göykümsən, Qazan.

– Sağ ol, Xan babam, sağ ol, əsən ol. Ölüncə yolunda qara başımı qomağa fürsət ver mənə, lütfən…

*(Bax buna, "qara başım" da nerədən gəldi əqlinə?! İlk dəfədi eşidirəm bundan. Əhsən, Qazan. Qara başım ha. Amma "qara" neçin? Bir qaldı desin: "qara başım sənin yolunda qurban olsun". Yox, belə yox, "qara başım sənin qurbanın olsun". Yox, bu da yox. Bəlkə: – "qara başım qurban olsun, Xanım, sənə?" Qayət belə: "Qara başım qurban olsun, Xanım, bəlkə: bəyim, sənə" Belə daha yaxşıdır. Qafamda qalar inşallah.)*

– … Ölüncə yolunda qara başımı qomağa fürsət ver mənə, lütfən, – deyib Qazan yenə yerə sərildi, təkrar-təkrar başını yerə vurdu, Bayındır Xana bir dəxi sitayiş etdi.

– Dur, Qazan, etmə Qazan, sən mənə özgəmisən? Noldu buna, ya?! Qılbaş!..

Qılbaş Qazanı nəvazişlə, amma sərt qucaqladı, daha başını yerə endirib vurmasına izin vermədi. Qazan "Xanım mənim, baba əvəzi babam mənim" deyə-deyə yavaş-yavaş sakitləşdi, əyləşdiyi yerdəncə təkrar bardaşını qurdu.

– Oğul, Qazan, bilirmisən, bunca illər Oğuzun dərdi məni heç rahat buraxmadı. – Qazan susunca Bayındır Xan sözünə davam etdi. – Oğuz dərdi yaman olur. Casus varmış Oğuzda, Qazan. Casus!..

– Öyləmi, ağam Bayındır Xan? Casusmu? – Gözləri dörd olan Qazanın təəccübü elə səmimi idi ki, az qala mən də inandım ki, bu adamın heç nədən xəbəri yoxdur. Mat-məəttəl qaldım. Və birdən mənim dalağım sancdı, nəsə mənə dedi: "Başını qovza, Xana bax". Baxdım, damarımda qanım donar oldu. Bayındır Xan Qazana yox, mənə dikmişdi gözünü. Mənim hədsiz təəccüb dolu üzümü, gözümü neştər baxışları ilə deşirdi:

– Sən yaz, oğul Qorqud, sən yazmağında ol. – Bayındır Xanın səsi bu dəfə xeyli dəyişdi. Selləmə çayının buzlu suyu kimi sopsoyuq oldu. Sonra yenə Qazana çöndü, səsinə həlimlik verdi:

– Bax, Qazan, bax, Qorqud dəxi mat-məəttəl qaldı. Yəni, sənin heç xəbərin yoxmuydu bu işdən?

– Yox idi… yox idi deyəndə ki, Xan baba… var idi, o casus da cəzasını aldı. Onu tutduq, bəli, onu tutduq, quyuya saldıq, dustaq etdik. Amma sonra qovduq onu, ilim-ilim itdi getdi Oğuzdan, birdəfəlik köçün sürdü, bir dəxi geri dönməz, inşallah, yox etdik onu, Xan baba, məhv etdik…

– Öyləmi? Məhv etdik söyləyirsən… Yəni, necə? Şaqqadınızmı? Amma nə gözəl etmişsiniz… Hamıya görk ola düşünmüşsünüz. Ya bəlkə başını bədənindən ayırdınız?.. İyi. Çox iyi… Sevdim səni, Qazan. Amma dayan, bəlkə uca sıldırım qaya başından hellədib salmışsınız aşağı, qurdaquşa yem olmuşdur?! Bu da fəna deyil. Məhv etdik deyirsən, Qazan?! Doğrumu duydum mən səni?

Qazan başını bir balaca suçlu uşaq kimi sallamışdı sinəsinə, bütün vücudu tarıma çəkilmişdi, sanıram, içində canı əsim-əsim əsirdi.

– Yox, şaqqamadıq. – Qazanın səsi zorla, güclə çıxdı.

– Şaqqamadınız?! – Bayındır Xanın səsi guruldadı.

– Xeyir, Xan baba. Amma mənim günahım yoxdur, biləsən. – Qazan başı aşağı, oturduğu yerdəcə ayaq üstə keçinib getmiş idi.

– Qazan, məni yəmin edə bilərmisən?

– Xan baba… – Qazanın heysiz səsi artıq pıçıltıya keçdi.

– Qazan, bir dəxi soruram, məni qeyzləndirmə, Qazan! Bir dəxi soruram sənə, yəmin edə bilərmisən ki, sözün doğrusunu söyləyəcək dilin?

– Bəli, Xan baba. Sənin əziz başına yəmin edərəm ki, doğrunu söyləyəcək, doğrudan başqa dilimə heç zad gəlməyəcək.

*(Doğru olan nədir, Qazan?! Doğru olanı söylərsən, yeni-yeni bəlalar gətirərsən qara başına, bilməzmisən?! Amma söylədiyin bu doğru olan nədir? Kim bunu bilir – qadir Tanrıdan qeyri?! Doğru olanı danışacağam deyirsən. Nolar danış. De, de ki, Boğazca Fatma gəldi. Mənə söylədi ki, casus deyib dustağa saldığın o zavallı mənim də, sənin də oğlundur, Qazan. De! De bunları, sən ki, doğrunu danışacaqsan. Amma sonra məni unut. Məni unut, Qazan, məni birdəfəlik unut. Bir dəxi başın darda ikən Qorqud deyib arama.)*

– Yox, mənim başıma yəmin etmə. – Bayındır Xan diksinib dilləndi.

– Oğlum Uruzun cavan canına…

– Yox! – Bayındır Xan əməlli-başlı qeyzləndi.

Qazan duruxdu:

– Bə mən nə edim?!

Sonra əqli birdən işıqlandı:

– Yaxşı, Xanım. Yəmin edirəm. Ağ birçəkli qarıcıq anamın canına. Anamın canına and olsun, mənim günahım yoxdur.

Bayındır Xanın qəzəbi tikənlikdən çıxan sevincək quşcuğaz kimi bir andaca qanad çalıb uçub getdi. Dedi:

– Bax, indi inandım sənə. Bütün Oğuz bilir sənin yəmin yerini. Ananı çox istirsən, mən də bilirəm.

*(Bayındır Xan bu yerdə bir yüngülcə qımışdı da. Bayındır Xanın, deyəsən, yadına Qazanın Şöklü Məliklə sövdələşməsi düşdü. Bu bir məşhur hekayət idi. Oğuzda bilməyən yox idi. O zaman Oğuzu talan etmiş, qadınını, igidini əsir edib Şöklü Məlik aparmışdı. Bu yana Salur Qazan, bəylərbəyi Qazan Oğuz ordusunun seçmə ərləri ilə ova çıxmışdı. Yurdu-eli qoruqçusuz qoymuşdu. Hələ bir bunun üçün sonradan Bayındır Xana cavab verəsi olmuşdu. Düşmənlər, yurdu daraq kimi daradılar. Amma dillər əzbəri olan məsələ bu idi ki, qisas almağa gedən Qazan Şöklü Məliyə belə bir xəbər göndərmişdi: "Nə çalmısan, nə çapmısan sənin olsun. Arvadım qaravaşın olsun, oğlum nökərin olsun. Anamı geri ver – bəsimdi". Sonralar Bayındır Xanın hüzurunda Qazan belə bir xəbər göndərməyini "hiylə edirdim" deyib qələmə verdi. Bayındır Xan ona inanmışdı, inanmamışdı – bunu bilmək asan deyildi. Qərəz, yağı üstünə gedən Qazanın ardınca Oğuz bəyləri yetişdilər. Əsirlikdəkiləri xilas etdilər. Düşməni qırıb çatdılar. Burla Xatun Qazanın sözlərindən duyuq düşəli düz bir il onunla danışıq etmədi. "Məni anana satdın, oğlunu satdın, elini satdın, qavat oğlu qavatsan sən", – dedi. Mənim yanımda söylədi bu sözləri, mən özüm eşitdim bu sözləri. Qazan əl-ayağa düşdü: "hərbi hiylədi bu, xatun işi deyil" deyib nə qədər ah-nalə etdisə olmadı. Məcbur oldu, Qazan Günortaca gəldi, Bayındır Xanın dərgahına vardı, onunla danışdı. Ondan sonra Bayındır Xandan Burla Xatuna buyruq gəldi. Qılbaş gəldi, boylə dedi: "Xatun xatundur, ər yigidin hərb işinə qarışamaz. Qazan bizim övladımız, köykümüzdür, həmişə də böylə qalacaq. Qız Burla, otur oturduğun yerdə, sus susduğun yerdə. Ərinə itaətin vacibdir!" – Qılbaş belə dedi.*

*Burla Xatun itaət etdi, babasının əmrinin altından "göz üstə" deyib Qazanın suçundan keçdi. Amma o zamandan Oğuz içində hər kimsə yəmin edəcəyi zaman anasının ömrünə yəmin etdisə Qazan yada düşdü).*

– Oylə ki sən yəmin etdin, inandım. İndi söylə mənə, Qazan.

Bayındır Xan taxtından qalxıb gəldi düz Qazanın qənşərində dayandı, yuxarıdan aşağı üzünü üzünə zillədi, gözünü gözünə, sordu:

– Söylə mənə, casusu kim qaçırdı? O ki, quş ola bilməzdi. Onu kimsə qaçırdı, demi? Kim gözçüləri uşaq kimi aldadıb onu qaçırdı? Kim, Qazan, etdi bunu, hansı məlun? Söylə. Qılbaş!

Bunu deyib Bayındır Xan çəkildi yenə yerinə. Xanın Qılbaşı səsləməsi nahaqdan deyildi. Qılbaş qolugüclü birisi idi. Arxadan Qazanı necə başından tutub sıxdısa Qazan ah etdi, əqli başından getdi, tir-tap yerə sərildi. Qazan təklikdə quş ürəkli Qazan idi – bütün Oğuz bunu bilirdi.

Bayındır Xan:

– Su səp bunun üzünə, – söyləyib Qılbaşa əmr etdi.

Qılbaş otağın o başındakı mizin üstündən su qabını götürdü, ləlöyündən suyu tökdü Qazanın düz başına. Su Qazanın üzündən paltarına, ordan da canına keçib getdi. Qazan silkələnib özünə gəldi.

– Oğul, Qazan, noldu sənə? Huşun uçdumu başından? – Bayındır Xan heç nə olmayıbmış kimi sordu.

– Heç, Xan babam. Heç nə. Nə olduğun bilmədim… Gözüm qaraldı, qəflətən dünya gözümə qaranqu oldu, huşum başımdan getdi, – gözünü qıyıb Qılbaşa baxdı. – O suyu ver mənə, Qılbaş, içməyim gəldi.

Qılbaş qaba su töküb Qazana verdi. Qazan "març-març" edə-edə suyu elə acgözlüklə içməyə başladı ki, sanasan, min il idi su içməmişdi. Hülqumu tez-tez gedib-gəlir, heç cür suyu içib qurtarmırdı ki, qurtarmırdı. "Bu, axar çaymı içir, nədir?" düşündüm.

Bayındır Xan əvvəl mənə baxdı, sonra Qazana tutdu üzünü, belə dedi:

– Yaz, Qorqud, oğul, sən yaz. Qazan, bir də soruram sənə. Bayaq yəmin etdin. Doğrunu söylə. Casusu kim qaçırdı? Özün deyəcəksən, yoxsa…

Qılbaş yerindən dəbərirdi ki:

– Aruz qaçırdı, Xanım, Aruz. – Qazan daha başqa bir şey düşünməyib birnəfəsə tələsik cavab verdi.

– Dayın Aruz ha?!

– Bəli, Xanım, dayım Aruz.

– At ağızlı Aruzmu?! – Xan bir dəxi sordu.

*(Nə gözəl dedi Bayındır Xan. Doğrudan da at ağzına oxşayır Aruzun ağzı. At ağızlı Aruz Qoca – necə addı? Bunu yadda saxlamalı.*

*Mən mat qaldım bir az sonra Qazanın bu sözdən tutub onu tezcə Aruzun adına qoşmasına. Mənim beynimdən keçənləri indi Qazan öz diliylə deyirdi. Bəlkə mənim beynimdən keçənləri o hiss edir və təkrar edə bilir?! O zaman bunu bir dəxi sınayalım).*

– Bəli, Xanım, at ağızlı Aruz Qoca qaçırdı o məlun casusu, – deyə Qazan təkrar etdi və nədənsə mənə baxdı. Yəni, "düzmü deyirəm?" bir dəxi gözlərilə sordu. Mən başımı bir neçə dəfə tərpədərək ona gizli işarə verməyə çalışdım. "Düz yoldasan, Qazan, əgər belə davam edərsən, o zaman bütün işlər düzələr, inşallah, düz yoldasan", düşündüm.

– Düz deyirəm, Xanım, inan mənə. Bütün bəlaların səbəbkarı Aruzdu. Anamın canına yəmin edirəm səni. İnanmırsan, Burla Xatundan soruş. – Qazan cəsarətlə sözünü davam etdi. – Aruz Oğuza bəladı, bilginən. Sən doğru söylədin. At ağızlıdı Aruz.

*(Qazan az qala məni işarə edəcəkdi, etmədi. Tanrı verdi, yaxşı sovuşduq bu xatadan.)*

Bayındır Xan dəxi bir söz demədən yerini rahladı. Ağ saqqalını ehmalca tumarlamağa başladı. Bir xeyli susdu. Dərin fikrə getdiyini gözlərinin bir nöqtəyə qırpılmadan dikilməsindən bilmək olurdu. Mən Qılbaşa, Qılbaş mənə baxdı. Bayındır Xan qərar qəbul edirdi. Amma Qazan Bayındır Xanı ona lazım olan, ancaq özünün gördüyü bir yola sala bilmişdimi? Birdən mənə sorsa, Aruzla ilgili məsələni məndən öyrənməyə çalışsa nə olacaqdı?! Bir şey dəqiq idi: Aruz Qoca qurban getməlidi. Öldü vardı, döndü yoxdu. Bu aydındı. Onun Qazanın doğmaca dayısı olması isə Bayındır Xanın çıxardığı qərarın, tərəfkeşlikdən uzaq, qərəzsiz bir qərar olmasına daha bir sübut olacaq.

*(Salur Qazan ilə dayısı Aruz Qoca heç zaman bir-birini qohum kimi sevmədilər. Təxminən, bir yaşda olsalar da Aruz həmişə, lap elə gəncliyindən özünü ixtiyarlara bənzətməyə çalışdı. Buna görə də vaxtından əvvəl bığ-saqqalını uzatmışdı, gənc Qazanın yanında, doğrudan da, yaşı xeyli ötmüş birisinə bənzəyirdi. İndi*

*onun adına Bayındır Xan yaxşı bir ayama əlavə elədi: At ağızlı Aruz Qoca. Amma kim biləcək, bu yazını mən yazacağam isə elə bu ayamanı da Qorqud qoydu bəlkə deyəcəklər. Bayındır Xan istəməz ki, onun ad, ayama qoymasından kimsə duyuq düşsün. "At ağızlı" deyəndə də səsi ilə, mənə tərəf baxmasa da, səsi ilə mənə dedi bu ayamanı. Yəni, "saxla yadında bunu, Qorqud, oğul".*

*Bunlar – Qazan və Aruz bir-birini heç sevməzdilər, – bunu dedim. Qazanın dayısına, onun da Qazana nifrətinin dərinində həm üzdə bir səbəb vardı, həm də üzdən-gözdən, qulaqdan uzaq, yaxşıca unudulmuş, uzaq bir yerdə gizlənmiş başqa bir mətləb vardı... İndi də Bayındır Xan fikrə getcək mən yadıma haman o mətləbi saldım.*

*...Oğuzun bəd zamanları idi. Naməlum bir tayfa gəlib Qazılıq dağının buzlu-qarlı zirvələrindən qamən axan Selləmə çayının Oğuza burulan Buzlusel ağzını kəsib eləcə oturmuşdu. Ləşkərləri bu yeri elə bəyənmişdi ki, qayət buradan çıxıb heç bir yerə getmək fikirləri yox idi. Bu tayfanın dilini anlayan yox idi, nə istədiyini bilən yox idi. Yenə məni göndərdilər. "Suyumuzu kəsməsinlər. Nə istərlər verəlim". – Qazanın yanına toplanmış Oğuz bəyləri mənə belə dedilər. "Bayındır Xandan buyruq oldu, Qorqud getsin dedi. Başçıları ilə görüş, Dədə. Nə şərti olsa biz razıyıq". Bəylər göz görə ölümə göndərdilər məni.*

*Başçı təkgöz, amma sısqa, cılız biri idi. Mənə tək gözü ilə bir zəhmlə baxdı ki, sanasan yeyəcəkdi, ödüm yarıldı. Ayağım yerə yapışdı. "Geriyə, Oğuza dönə biləydim, qadir Tanrı" deyə ürəyimdə Nur daşına sığındım, göy üzünə pənah apardım, tanrıya dualar etdim. "Bizə hər gün iki kişi verəcəksiniz, yüz də qoyun. Suyunuzun ağzını o zaman açarıq". – Bunu Təkgözün yanında diz çöküb oturmuş bizim dili bilən birisi mənə dedi. Əslində, demədi, bu "demək" deyildi; Təkgöz gövdəsinə yakışan çox nazik, cır bir səslə nəsə mızıldadı, o birisi tərcüman dəxi mənə bu sözləri qışqırdı. "Yoxsa bu gün suyunuzu kəsmişik, sabah isə Oğuzu tam məhv edərik. Son sözümüz bu!".*

*– İki adam hər gün sizin nəyinizə lazımdır? – Mən sordum.*

*– Qoyunları biz yeyəcəyik, adamların ürəyini ağamız, – deyərək o tərcüman məhəbbətlə Təkgözə baxdı.*

*"Heyrət, bunlar adamyeyənlərdi", deyə düşündüm və geri qayıtmaq üçün izin istədim.*

*– Get, – dedilər. – Amma sabah tezdən dediklərimiz burda olmazsa, deməli, anlaşmamız baş tutmadı. Özünüzdən küsün.*

*Oğuza necə geri döndüm, bilmədim. Qazana gəldim. Bəylər məni dinləyib səxt oldular, bir xeyli fikrə getdilər…)*

…Bayındır Xan qəflətən yerindən qalxdı, pəncərəyə yanaşıb həyətə baxdı, "Qılbaş!" deyib səsləndi. Qılbaş əyilə-əyilə ona yaxınlaşdı.

– Qılbaş, yenə bu quşcuğaz tikənlərə ilişdi. Alca qana bulaşdı. Var, onu al tikənlərin içindən, uçsun getsin, yaşasın.

Sonra, elə bil, özü-özü üçün yavaş səslə belə dedi: "quşcuğaz olanda nolar, o da yaşamaq istir, o da nəfəs almaq, göy üzündə qanad çalmaq istir, quşcuğaz olanda nolar…" Amma onun bu yavaşdan dediyi sözləri biz dəxi eşitdik.

Qılbaş quşcuğazı tikənlikdən azad edib buraxdı uçsun getsin, özü geri bizim yanımıza yenə döndü.

– Belə… – Bayındır Xan otaqda gəzişə-gəzişə sözünə başladı. – deməli, Qazan, sən Aruzu ittiham edirsən, həmi?! Bunu sən dedin. Səni sən bilirsən. Amma indi bir anlıq həpimiz düşünək. Bu, Aruzun nəyinə gərək imiş?! Casusu, deyirəm, o niyə buraxsın azadlığa? Bəylərin əleyhinə niyə getsin? Aruz ağılsız birisi deyil. Heç deyil. O, bir işin qulpundan yapışanda əvvəlcədən bilir nə etdiyini. Deməli, gizli bir məqsədi var…

– Xan baba… – Qazan nəsə demək istirdi, izin dilədi.

– … məqsədsiz bir iş görməz o. Nədi, nə deyirsən? – Bayındır Xan hövsələsiz sordu.

– Xan babam, casus lap elə əvvəldən bunun casusu idi, biləsən. Onu aradan çıxarmaq ilən, əslində, öz adamını Aruz xilas etdi. Doğru demirəmmi?

Bayındır Xan yenə susdu. Hər şey, elə bil, düz gəlirdi. Casus düşmənə casusluq edirdi. Casus Aruzun adamıydı, Aruz onun hər bir hərəkətindən xəbərdar idi. Aruz onun hər bir hərəkətini özü yönəldirdi. Deməli, Aruz özü Oğuza xain çıxmışdı. Artıq məsələ aydın idi. İstintaqı bitmiş saymaq olardı. Tanrı özü köməyimiz olsun.

*(Bəs əgər Xan bilirsə və yaxud anlasa ki, Beyrəyin düyününü dəxi Bayburda casus vasitəçiliyi ilə kim xəbər verdi – onda necə olacaq?! Aruzdan çıxdı bu xəbər, amma onun könlünə ilham verən kim idi?! Qadir tanrı, sən özün mədəd elə.)*

– Qaçırdı dersən Aruz casusu, demi? – Bayındır Xan hiyləli səslə yavaşdan Qazana sordu.

– Qaçırdı, Xan baba, qaçırdı. – Qazan dəxi düşünmədən cavab verdi.

Ortalığa qaranlıq sükut çökdü.

*(Mən qəflətən anladım ki, Bayındır Xanın hər bir şeydən xəbəri vardır. Qazanın bəyləri məşvərətə çağırmasını da bilir, səsverməni də. Bilir ki, casusu qaçıran-filan olmamışdır, bəylər ayrı-ayrılıqda casusun günahsız olduğunu söyləmiş, hər biri onu azadlığa buraxmağa qərar vermişdilər. Əgər Bayındır Xan bunu olduğu kimi bilirsə, bəs o zaman niyə casusu qaçıranı arayır, onu ki bir kişi qaçırmadı?!)*

Sükutu Bayındır Xan özü pozdu:

– Söylərmisən, Aruz casus tutulanda özünü necə apardı? – Bayındır Xan, nəhayət, Qazana sual etdi. – Bə sən, Qazan, nə üçün bəylərin məşvərətindən heç danışmırsan? Məşvərət etmişdiniz, demi? Siz axı iki dəfə qərar çıxarmısınız. Birinci dəfə hamınız "ölüm" deyə bağırdınız. Elədir, elə deyil?

– Elədir, ağam, elədir. – Qazan artıq hər şeyə "bəli" deyib duracaq idi, tələsik cavab verdi – Mən özüm, ağam, birinci mən özüm bağırdım: ölüm, ancaq ölüm! Qan, ancaq qan! Oğuza görk olsun! Bir daha heç kim casusluq yoluna, xəyanət yoluna düşməsin. Oğuza xəyanət mənə xəyanətdir, Bayındır xana, o Xanlar Xanına xəyanətdir, buna dözməkmi olar?! Qan tökülməlidi, qisas alınmalıdı! Qanla yuya bilər bu casus öz əməlini. Ölüm, bir tək ölüm, ancaq ölümdü onun mükafatı. Şaqqalamaq, ikiyə bölmək, asmaq, kəsmək, yox eləmək, məhv eləmək, tək onu yox, hələ şübhəli çox adam var Oğuzda. Dəli Dondar var, Alp Rüstəm var, Bəkil var… Aruz var, Xanım. Dış Oğuz başdan-başa düşmən ocağıdı, ağızlarına gələni danışırlar, nə istirlər edirlər. Onlar bizi – İç Oğuzu yox etmək dilərlər, amma heç vədə! Olmayacaq. Biz, biz onları məhv edəcəyik. Hamısını, bircəciyinə qədər hamısını… uff. Dədə… Dədə… – Qazan birdən sustaldı, elə bil heydən düşdü, nə-

dənsə mənə üzünü tutdu və yalvarışla bu sözləri dedi, – Dədə, mən belə düşünmürəmmi, Dədə?! Mən belə düşünmürəmmi, Dədə?! Sən söylə. Söylə Xanımıza. Uff…

Mən başımı qaldırıb tezcənə də aşağı saldım. Nə deyə bilərdim?! İnsafən Qazan məndən heç bir cavab da gözləmirdi. Danışdı, coşub-daşan ürəyini boşaltdı, susdu. Qazanmı dedi bu sözləri?! Mən elə bilirəm, onun bu sözləri təkcənə Bayındır Xanın xoşuna gəlmək üçün deyilmədi. Qazan uzun illərdi içində gizləyib saxladığı bir çox fikirləri bu gün ilk dəfə dilinə gətirdi. Dedi və "uf" eləyib sakitləşdi, bayaq əjdahaya dönmüşdü, indi bircə andaca yenidən əjdahadan quzuya çevrildi.

Mən gördüm ki, Bayındır Xan da, Qılbaş da Qazana elə baxırlar ki, sanki onu ilk dəfədi görürlər. Qazan ha, bu sözlər ha?! Qadir Tanrı, xeyrə cala. Qadir Tanrı, sən böyüksən, bağışla, bağışla bizi. Mən Qazanı heç düz-əməlli tanımamışam bu vaxtacan, Qadir Tanrı, bağışla, bağışla onu, özü də duymadı, nələr söylədi, beləcənə Oğuzu bölmək istədi. İç Oğuzu Dış Oğuzu ayırmaq, ayrı-seçkilik salmaq dilədi. Bağışla onu. Qadir Tanrı, sən böyüksən.

*(Qazan düşündüyünü bir qədər sonra həyata keçirəcək idi. Bayındır Xan barış üçün ona "evini İç Oğuz, Dış Oğuz bəylərinə yağmalat" buyruğunu verəcək idi.. Əməl eləməyəcəkdi. Evini yağmaladacaqdı. Amma Dış Oğuz bəylərini çağırmayacaqdı. Bu səbəbdən də düşmənçilik get-gedə artmağa başlayacaqdı.)*

Bayındır Xan gözlərini bir daha saray həyətinə dikdi. Sonra yenə biz tərəfə çöndü. Dedi:

– Qılbaş, nəvəm Uruzu gətirsinlər buraya. Siz isə, hələlik bəs olsun, gedin, dinlənin, sonra görüşürüz.

Hamımız ayağa durub baş əydik, Xan otağından çıxdıq.

...Gənc Uruz bəyi bulmaq asan iş olmadı. Xan babasının həyətində səbri çatmayıbmış durmağa, saray həyətinin o biri başındakı Alaqapıdan dışarı çıxıb At meydanına getmiş imiş. Cocuq ki, cocuq. Bayındır Xana söylədilər. Xan yenə bığaltı qımışdı. "Çıxıb gedib, həmi? Qaravaşlara getməyib, demi? Nolar gedibdir, gedibdir, amma gəlirkən gəlsin, görəyim onu. Məni görmədən geri dönməsin. At Meydanı ha. Böyüyübmüşdür, deməli, qavat oğlu qavat". Bu sözləri sevə-sevə deyərək Bayındır xan durub içəri əndəruna keçdi.

Mən və Qılbaş Xan otağının qarşısındakı həyətə çıxdıq. Qazan bizimlə deyildi. Günəş yenə də gəlib düz Qarağacın başının üstündə dayanmışdı. Yenə də Qarağacın gölgəsi yamyaşıl xalıya dönüb durmuşdu. Qılbaş mənə dedi:

– Məsləhətli don gen olur. Məsləhətdisə əyləşəlim, Qorqud. – Qılbaş bacardı bir sözilə həmi sual etdi, həmi əmr etdi və heç bir cavab gözləmədən keçib ağacın altında əvvəlcə özü bardaş qurub oturdu. – Gəl, gəl, otur bura. Bir şeylər gətirsinlərmi içməyə? Ya yeyəcək bir şeylər istərmisən? Qarnın acıxdımı? – Bu dəfə aşkar sordu.

Mən Qılbaşla üzbəüz oturaraq cavab verdim:

– Bəli, qarnım acıxmışdır, bir şeylər yeyəlim. Amma şərab içməyəcəyəm. Bayındır Xanın sorğu-sualında qafa gərəkdir dürüst çalışsın. Məst oluram, ayıb olur.

Qılbaş gülümsündü:

– Doğru düşünürsən, – dedi, – mən də şərab içməyəcəyəm, amma üzüm suyu, necə içəlimmi?

Cavab gözləmədən bir kənarda beli bükük dayanıb gözlərini bizə zilləmiş, Qılbaşın kiçicik bir hərəkətinə müntəzir olan iki nökərə başı ilə "bura gəlin" işarət etdi. Nökərlər beli əyilmiş halda qaçaraq gəldilər:

– Buyur, ağam, – deyib baş əydilər.

– Bişirdən-düşürdən hazır olan nə vardır, aş var ya, gətirin, ətməkli olsun, əkmək də verin, ayran dəxi gətirin! Üzüm suyuna nə dersən, Qorqud? – Qılbaş yenə üzünü mənə tutdu.

Mən mahiyyətə varmadan nə gəldi, cavab verdim, bilmədim ki, tələyə düşürəm:

– Olar, üzüm suyu çox gözəl olar. Gətirsinlər, – dedim.

– Gedin nə söylədim, həpsini gətirin. – Qılbaş nökərlərə buyruq verdi.

Nökərlər yenə də qaçaraq aşxana tərəfə getdilər.

– Qazan, olsun ki, Xanla birgə içəri odaya keçdi? – Mən Qılbaşdan söz almaq xatirinə tənbəl-tənbəl ortaya söz atdım.

– Qazana çox bağlısan, bilirəm. – Qılbaş hiylə edib yana baxaraq heç mətləbə dəxli olmayan bir cavab verdi.

– Sən də Qazanın yanında çox olmusan.

– Çox olmuşam. Danarmıyam heç?!

– Amma bu gün ağlıma qara-qura fikirlər gəlir. Qazanın başı dərddə olmasın, Qılbaş. Qazan Qalın Oğuzun güvəncidir, bilirsən…

– Üzüm suyu bilirmisən nəyə derlər, Qorqud?! – Qılbaş artıq ikinci dəfə mənim düzünə verdiyim sorudan canını qurtarıb qaçdı. Qazanla Bayındır Xan içəri odaya birgəmi getdilər, Qazanı, qadir Tanrı, cəza evi olmasın, başqa bir odayamı aldılar – buna Qılbaş bir cavab vermədi. Bir də ki, indi "Qazanın başı dərddəmidir?" deyə mən üsulluca Qılbaşdan bəzi şeylər öyrənməyə çalışırdım. Əbəs! Qılbaş da Qılbaş imiş. Hər iki sorum cavabsız

qaldı. "Üzüm suyu" deyə-deyə məni aşkar azdırmağa çalışır. Tələ. Tavşan tələsi. Amma mən ha?! Mən dəxi düşdüm bu tələyə.

– Üzüm suyu… bilməmiş olarammı heç?! Üzüm suyu… yəni, üzümün şirəsi… – hələ də anlamadım ki, Qılbaş niyə belə için-için gülməkdədi.

– İndi gətirirlər, içirsən, görürsən. Üzüm suyu, həmi?.. – yenə bic-bic qımışdı.

– Görürkən nə olacaqmış? – Mənim səbrim bir balaca daşmağa başladı. Səsim ötkəm oldu.

– Qızma, Qorqud. Heç qızma. Üzüm suyu haman şərab deyilmi? Üç ay sonrakı üzüm suyu?! Düşün ya…

Nökərlər əllərində yeyəcək, su bardaqları artıq gəlib yetişdilər. Öncə süfrə saldılar. Sonra yeyəcəkləri süfrəyə düzdülər. Baş əyib yenə əvvəlki yerlərinə, bir kənara çəkildilər. Əmrə müntəzir durdular.

– Bax, budur üzüm suyu. Şərab deyilmi?! Bir fərqi vardır ki, bir neçə ay küpələrdə saxlanmışdır, taxta küpələrdə, indi içilir. Haman üzüm, haman üzümün suyu. Demi? – Qılbaş üzüm suyundan mənim bardağıma tökərək dedi.

Mən səxt oldum. Bu adi bir lafın anlamını necə də oldu duymadım deyin, mısmırığımı salladım.

– Qızma dedim ya. – Qılbaş əlini məhəbbət edib çiynimə qoydu. – Biz qardaşız. Zarafat anlamadınmı sən?.. İç. İç bundan, kefin durulsun. Heç bir zad olmaz. O qafa ki, səndə var, şərabın itisinə də dözər. Buysa şərabın itisi deyil. Heç deyil.

Əlqərəz, yedik, içdik. Kefimiz yavaş-yavaş duruldu. Günəş xalısını öz arxasınca sürüyüb əvvəlcə Xan Sarayının üstünə, sonra həyət divarlarından o tərəfə, Günortaca, ordan da Qalın Oğuzun düz içinə apardı. Xalı getdikcə getdi, amma bu artıq Qarağacın altındakı xalı deyildi – bu bir başqa xalı idi.

Saray həyətinin o başında böyük Qaradarvazanın ağzında bir atlı idi, göründü. Atdan endi, nökərlər atı alıb tövləyə apardılar, o isə nökərlərdən biri ilə dan danışdı, söz soruşdu, cavab aldı. Sonra yanını basa-basa bizə tərəf gəlməyə başladı. Biz yeməyimizi artıq bitirmiş idik və gün başlamışdı

boynumuzun dalını dağlamağa ki, bardaqdakı son damla üzüm suyunu da içərək uru durduq.

– Kim ola bu yigit? – Mən Qılbaşdan çox özüm-özümə sordum.

– Kim olacaq, Şirşəmsəddini tanımadınmı? – Qılbaş dodağı qaçmış mənə dedi. – Mən onu yerişindən tanıram.

Qılbaş gözlərini qıya tutub baxdığı Qaradarvaza tərəfdən çəkib mənə gülümsündü. Bəli, oydu ki, vardı. Necə də tanımamışdım. Şirşəmsəddin yanın basa-basa becid-becid bizə yaxınlaşıb baş əydi, salam verdi. Mən Şirşəmsəddinin üzünə baxdım. Şirşəmsəddin gözlərilə mənə bu sözləri deyib yalvarırdı: "Nolar, Dədə, sən sor, sən sorsana mənə niyə gəldim. Bu Qılbaş sormayıb duracaq. Mən biçarə nə yapacağam, bilmənəm ki…"

– Əleykəsalam, sənmisən Şirşəmsəddin?! Nə oldu? Bir işmi çıxdı? Nə xəbərə gəlmisən? Sənidəmi Xan istədi yanına?! – deyərək mən Qılbaşı qabaqlayıb sordum.

– Yox, Qorqud Ata. – Şirşəmsəddin ürəyində "uf" deyə rahatlandı, tələsik və sevincək cavab verdi. – Heç bir iş çıxmadı. Tanrıya min şükür, Oğuzda salamatlıq, sakitlikdi. Bayındır Xan da məni yanına çağırmadı. Elə-belə, ürəyim dözmədi... – Şirşəmsəddin Qılbaşa döndü, – ürəyim tablamadı, gəldim ağam Qazanın ardınca mən də bura. Bəkləyəcəyəm burda onu. Əgər Qılbaş izin verərsə…

– O nə söz, o nə laf?! Qılbaş səni tanımazmı, Qılbaş sənin arxada eşin deyilmi? Xoş gəldin, bəy yigidim, səfa gətirdin. – Qılbaşdan belə lütfkarlığı açığını söyləmək gərək, mən belə gözləmirdim.

– Heç nəsnə gətirmədim. Tələsik oldu gəlişim. Elə birdən oturduğum yerdə dedim, durum mən də gedim. Ağam Qazan nerdə, mən də orda.

*(Qas-qas gülməyəsən də nə edəsən?! Mən Qılbaşa baxa qaldım, Qılbaş mənə. Söz yox, Şirşəmsəddin çox sədaqətli bir yigit idi. Həmişə Qazanın yanında olardı. Qılbaş Bayındır Xan üçün nə cür adam idisə, Şirşəmsəddin də Qazan üçün o cür idi. İndi bunun gəlməyini Bayındır Xana xəbər verən zaman görən nə düşünər?! Onsuz da istintaqa Şirşəmsəddinin dəxi gəlməsi vacib idi. Dəli olasan, ürəyində doğru-düzgün şübhələr yarana. Şirşəmsəddin, qoçağım… amma işləri korlamaya, ulu Tanrım,*

*bunun ki, ağlı topuğundadı, sən bir bunun söylədiyi sözə bax: "tələsik oldu, heç bir nəsnə gətirə bilmədim". Doğrudan da qas-qas gülməyəsən nə edəsən?!)*

Qılbaş içində uğuna-uğuna qalmışdı. Şirşəmsəddin, fəqir Şirşəmsəddin isə bir şey anlamadan gah mənə, gah da Qılbaşa çönüb gözünü döyürdü. Mən düşündüm: "Qadir Tanrı, mən bu gədəni heç zaman əqilli görmədim, bəlkə bu, bizi sırça barmağına dolayır, sən özün söylə, qadir Tanrı, nə olur-olsun, amma axırını xeyrə cala".

Qılbaş gülməyini güclə saxlaya-saxlaya dedi:

– Şirşəmsəddin, gözəl etdin, gəldin. Xan onsuz da mənə buyurmuşdu ki, səni dəxi çağırım. Amma Qazandan sonra. Qazandan sonra Xan səni yanına istir. Buralarda ol. Onsuz da sənin arxanca çapar gələcəkdi. Gözəl ki, özün gəldin. Hə, qoçum, heç bir nəsnə gətirmədiyin üçün dəxi özünü üzmə. Nolar, gələn səfər əlidolu gələrsən.

Açıq-aşkar Qılbaş bu fəqiri özünün sırça barmağına dolayırdı və bu sözləri deyib arxasını Şirşəmsəddinə çevirdi, yenə başı ilə həmən o nökərləri yanına çağırdı: "görün bunu, nə istərsə verin, qarnını doyurun, suyunu verin, şərabını verin, razı salın" dedi, buyruğunu verdi, sonra əli qoynunda qalmış Şirşəmsəddinə daha heç bir məhəl qoymadan mənim qoluma yüngülcə toxunub "gedək, Qorqud, Xan bizi gözlir, gec qalmayaq", – söyləyərək yavaşdan heç mənə dəxi baxmadan irəli düşdü.

Mən indi bir şeyi dəxi anladım. Həmi aş yediyimiz zaman, həmi Şirşəmsəddinlə danışdığımız zaman fikir verməsəm də aşkar görürdüm ki, Qılbaşın bir gözü, bəzən də lap elə iki gözü Xan otağındakı pəncərədədi. Qılbaş oradan bir işarət gözləyirdi, o işarət də ki, qayət indi gəlmişdi.

– Gedək. – Qılbaş gedə-gedə, elə bil, özü-özünə təkrar elədi. Qılbaş və biz ikimiz bərabər Xan otağına tərəf getdik. İçəri gircək gördük ki, Bayındır Xan, doğrudan da, istirahətini bitirmiş, bizi gözlir.

– Keçin, oturun. – Bayındır Xan buyurdu.

Biz başımız aşağı keçib bayaqkı yerlərimizdə oturduq – mən pəncərənin yanında, Qılbaş pəncərənin önündə, "qayət pəncərədən dışarını görmək üçün belə lazımdı", – beynimdən keçirdim. – "Gözləri maşallah dörd-

dü, hər şeyi görür, bilir, arxada da gözü var imiş zalımın. Göz dedim, məlun Təkgöz yenə yada düşdü. Oğuzun başına gələn o müsibət bir də gəlməsin, Qadir Tanrı", – düşünərək könlümdə uca Tanrıya dua edirdim ki, Bayındır Xanın səsi məni yenə bura – Xan otağına qaytardı. Bayındır Xanın səsindən əvvəl isə yadıma bunlar gəldi düşdü…

*Bu yerdə Əlyazmanın mətni növbəti dəfə qırılır və Dədə Qorqudun yadına düşən nə idisə, təəssüf ki, bizim üçün əbədilik qeyb olur.*

…– Qorqud, oğul, sən, Qılbaş, sən, nə dersiniz? Ağlınız kəsən bir şey oldumu bayaqkı söhbətdən? Qazan doğrumu söylədi qəziyyəni? – Bayındır xan bizə sordu.

Yenə bircə anlıq Qılbaşla mən bir-birimizə baxdıq. Qılbaş başı ilə "sən başla", deyə işarət verdi. "Əlbəttə, öncə mənim başlamam gərəkir. Xan mənim adımı birinci çəkdi".

*(Qavat oğlu qavat. İndi sən səni bilərsən. Sən kim, mən kim… Yoxsa üzüm suyu, həmi?)*

Mən dedim:

– Xanım, mən böylə düşünürəm: Qazan bəy doğrusunu söylədi. Amma bəylərin məşvərətini söyləmədi. Qayət, unutmuş ola. Həyəcanlıydı. Doğru onu söylədi ki… Mənə bunu demək zorluq da olsa deyəcəm. Bu gün olmasa da yarın Oğuzun başında bir bəla vardır, biləsən, şövkətli Xanım.

– Öyləmi? – Bayındır Xan təəccüb etdi. Yəni: "mən bunu bilməmiş ha deyiləm, amma özümü bilməmişliyə vururam". Dili isə bunu dedi:

– Söylə, Qorqud, oğul. Heç çəkinmə, söylə. Danış baxalım, o nə bəladır qövmümüzün başında fırlanır?! İlginc sözlər söylirsən. Qorxunc sözlər söylirsən… – Nə qədər istədi səsinə biganəlik versin, amma mən anladım: Bayındır Xan daxildə alınmışdı.

Mənə bir cəsarət gəldi, bir cəsarət gəldi... Dedim:

– Xanım, sorma. Sorma mənə. Qazan indi Aruz dedi – həmi? Mənə sorma. İstərsən kimə sorarsan sor, amma mənə sorma. Amma bil bunu: İç Oğuz Dış Oğuz dəxi əvvəlki Qalın Oğuz deyil. Əlbəttə, bunların arasında bir ixtilaf var. Bu gün gizlidir, sabah üzə çıxacaq. Qadir Tanrı Xanı qorusun.

– Belə… belə… Davam et, Qorqud, – deyərək Bayındır Xan mütəkkəyə dirsəkləndi, gözün qıya tutub mənə baxdı. – Dan danışaq, davam et.

*(Bayındır Xan gözünü qıya tutub baxanda, əlbəttə, bu o demək idi ki, mətləb onu çox ilgiləndirib, bütün huşu, başı ilə diqqətini cəm edib müsahibinə. Onu daha heç nə bu söhbətdən ayıra bilməz. Çox az dəfə olardı, Bayındır Xan gözün qıya tutub baxaydı – mən xeyli fikir vermişəm – çox az olub bu halı Bayındır Xanın. İndi isə gözün qıya tutub diqqət ilə mənə baxırdı.)*

Mən davam etdim:

– Bu əhvalatın canı çox dərindədi, çox uzaqdadı, şövkətli Xan. Qərəz, uzun söhbətdi… onun çox qaftanı vardır.

Bayındır Xan dedi:

– Qorqud, oğul! Əcələnmi gəldi? Oğuzun üstünü yağımı aldı, çaylar, sellərmi coşdu, yer öbrəldi bəlkə, dağlarmı uçdu – qarşı yatan qara dağlar? Nə baş verdi, Qorqud, əcələnmi gəldi? Bizim ki, bir işimiz yoxdur. Vaxtımız da nə qədər desən varımızdır. Həmi, Qılbaş?! Dersən, bu mətləbin çox qaftanı vardır. Nolar, aç bu qaftanları bir-bir, soyundur mətləbi, lüt-üryan elə. Vaxtımız boldur, biləsən. Hə, eşitdim, eşitdim. Şirşəmsəddin qavat oğlu qavat gəldi. O da bir ağını-bozunu bilməyəndi. Çağırdınmı gəldi? Yox. Heç eyb eləməz. Heç eybi yoxdu. Bilirmisən, Qorqud, oğul, Oğuzun ipi boşalıbdı, ipi boşaldıblar. Kim nə istir, onu da edir. Şirşəmsəddinin ürəyi istir, gəlir Günortaca Xan Dərgahına. Sabah istəməz gəlməz. Olmaz! Olmaz belə.

Mən başımı yerə dikdim.

– Sənlik deyil. – Bayındır Xan davam etdi. – Sən niyə başını yerə dikdin? Sənlik deyil. Bu bir başqa mətləbdir. Belə. Nə deyirdim mən indi? Hə, bir əcələmiz, deyirəm, yoxdur. Odur ki, sən lap elə uzaqlardan başla, mət-

ləbin canından. Dedim ya, qaftanları bir-bir aç, mətləbi soyundur. Lüt, çılpaq qalsın mətləb. Sirrin içinə. Sirrin canına! Əsasdan başla. Mən dəxi görüm, sən nəyi bilirsən, nəyi bilmirsən.

Bayındır Xan sözlərinə ara verdi. Mən gözləyirdim, duymuşdum ki, yenə nəsə demək istəyəcək. Elə oldu. İstədi və dedi:

– Bilirmisən, Qorqud, oğul, bir gün gələcək, bütün bu əhvalatlar, qəziyyələr, vaqeələr, düşlər sənə gərək olacaq, lazımın olacaq. Odur ki, diqqətin olsun. Diqqətin olsun, amma ondan da öncə ədalətin olsun. Ədalətli olmaq asan bir iş deyildir – biləsən. İndi isə… Mən səni dinlirəm. Nədədir bu ixtilafın canı? Sən söylədin – ixtilaf var. Mən söyləmədim. Söyləmədimi, Qılbaş?

– Söylədi, Xanım, özü söylədi. – Qılbaş dedi.

– Di, özü də cavab versin. – Bayındır xan dedi.

Ortaya sükut çökdü. Heç kim bu sükutu pozmadı. "Nədən başlayım, qadir Tanrı?! Hər nə varsa açım tökümmü? Ya Xan İç Oğuza qəzəb etsə – onda necə?.. Qılbaşı cəza dəstəsiylə göndərsə?.. İç Oğuz bəylərinin bir-bir aşını versə… Bəylər birləşib məndən intiqam almaq istəsə? Qadir Tanrı, sən özün mənə kömək ol. Amma bu biri tərəfi də var məsələnin. Nəyisə gizlətsəm, söyləməsəm, söyləmədiklərimi dəxi Bayındır Xan bilirsə – belə isə onda necə olsun?! Nahaqdan demədi: "Mən bilmək istirəm, sən nələri bilirsən, nələri bilmirsən…" Bayındır Xan belə dedi. Nə edəlim, gümanım kimə çatar ki?! Nə bilirəmsə, olduğu kimi söyləsəm yaxşı olur. Qadir Tanrı, sən özün mənim könlümə ilham ver. Nur daşı, sənin kölgənə sığındım. Adı görklü Tanrım, günahımı bağışla".

Və mən başladım söz söylədim. At ayağı yel kimi olursa, ozan dili dəxi çevik olur. Amma hər ozanın dili yox. Mən isə Tanrının buyruğu ilə ozanam. Hərdən mənə elə gəlir ki, mən qayibdən dəxi dürlü xəbərlər söyləyə bilərəm. Nə olacaq, necə olacaq? – bunları kimsə bilməz. Mən isə bilərəm. Başladım nə başladım. Danışmağım düz üç gün, üç gecə çəkdi. Düz üç gün, üç gecə Bayındır Xan bir kəlmə səs çıxarmadı, bir kərə də olsun mənim sözümü kəsmədi, arada aş gəldi, səssiz-səmirsiz yedik, sonra yenə mən davam etdim. Arada Bayındır Xanı küçücük ölüm tutdu, uyquya get-

di, mən də, Qılbaş da başımızı hərə bir tərəfə atıb elə Xan otağındaca gözümüzün acısını çıxardıq. Bayındır Xanın ayılmasından bir an öncə Qılbaş məni dümsüklədi, "dur" işarəti verdi, mən mürgünü gözümdən qovub yenidən özümü danışığa hazır edən zaman gördüm ki, Bayındır Xan gözünü açdı və heç nə demədən üzünü üzümə, gözünü gözümə zillədi, bu bir işarət idi, yəni, "davam et". Mən dəxi davam etdim. Beləcənə üç gün, üç gecə keçdi. Bu müddətə bir dəfə də olsun Xan həyatində ürəyi niyarançılıqdan partlayan Salur Qazan yada düşmədi. Şirşəmsəddin də, Uruz da, bütün digər Xan xidmətinə gəlməyin növbətini gözləyənlərin heç biri. Heç kim yada düşmədi. Üç gün və üç gecə. Mən Qorqud danışdım, Xanlar Xanı Bayındır Xan mənim sözümə kəsildi, ünümə diqqət etdi. Nə danışdım?! Nə üçün danışdım?! Bəlkə heç mən bütün bunları danışmamalı idim Bayındır Xana?! Burasını bilmirəm. Bircə onu bilirəm ki, Qadir Tanrı könlümə ilham verdi, danışdıqca boşaldım, boşaldıqca yumşaldım və düz üç gün, üç gecədən sonra, nəhayət ki, yarımcan, yarımnəfəs bir halətdə az qala bayılaraq sözümə yum verdim, ağzımı yumdum…

Sözümə isə mən Qorqud belə başlamış idim:

– Şövkətli Xan! Qalın Oğuzun inancısan, dara düşənlərin ümidisən. Oğuz səndən ötrü dualar, sənin adınla yəminlər edər. Uca-uca dağların var, qamən axan suların var. Qoşunun var, ləşkərin var, qulun var, nökərin var. Amma sən bilirmisən ki…

*Bu yerdə "Yarımçıq Əlyazma" həmən yuxarıda dediyim kimi üstünə nəsə ləkələr düşmüş kimidir, cırılmayıb, amma ki, kənar təsirdən səhifədəki yazının davamı, sadəcə, oxunmur. Elə bilirəm, burada Dədə Qorqudun qələmə aldığı iki, ya üç səhifəlik yazı həmişəlik bizim üçün qeyb olunmuş sayıla bilər. Ən maraqlı bir yerdə Əlyazmanın növbəti dəfə kəsilməsi, yazının qırılması, güman eləmirəm ki, nə zamansa kim tərəfindənsə bilərəkdən edilib və Əlyazmanı bilərəkdən belə bir zədəli hala salıblar. Yəqin ki, belə deyil. Amma bütün xırdalı və böyüklü təsadüflərin bir*

*məxrəcə gətirilmiş vahid adı var – TALE. Mən burada Oğuzun taleyini nəzərdə tutmuram, "Yarımçıq Əlyazma"nın taleyini nəzərdə tuturam – bax, bu TALE bizim Əlyazmanın bu indiki zamandakı təzahür forması da deyil, bəs nədir sualı mənim üçün bu dəfə çox adi, ritorik bir mənaya büründü.*

*Bundan sonrakı mətn Dədə Qorqudun yarımçıq mətninin davamı, onun Bayındır Xana üç gün, üç gecə ərzində söylədiklərinin bir hissəsi kimi qəbul edilməlidir. Burada söhbət Oğuz adəti üzrə uşaq on altı yaşına çatanda ona Dədə Qorqudun ad qoymasından gedir.*

…yenə bəylər mənim yanıma adam saldılar, mənim gəlib bu yigidə ad qoymamı istədilər. Gəldim, sordum:

– Deyirsiniz baş kəsibdir, hünər göstəribdir?

– Bəli, Dədə, baş kəsibdir, hünər göstəribdir, bəzirganların canını düşmən çalışından qurtarıbdır. – Bəylər bir ağızdan cavab verdilər.

– Deyirsiniz, ciyərlidir, beyrəklidir bu cavan? – Mən sordum.

Dedilər:

– Ciyərlidir, beyrəklidir, həm də bax, Dədə, necə ərdəmlidir, buna ad qoy.

Üzümü Baybura bəyə tutub sordum:

– Baybura bəy, sən oğlunu bu günədək necə çağırırsan?

Baybura bəy cavab verdi:

– Mən oğlumu bağrıma basıb Basam, Bamsı çağırıram.

Dedim:

– Bəs belə isə bunun adı qoy Bamsı Beyrək olsun.

Oğlan qarşımda durmuş idi, üzü işıqlandı, nə işıqlandı, gözlərinin dərinliyinə isə kədər idi, çökmüşdü, gündüz və gecə bir yerdə onun çöhrəsində əl-ələ, göz-gözə oturub bardaş qurmuşdular. Qəflətən ürəyimə yamanca nəs

mətləblər damdı. Oğlancığaza bir də zənlə baxdım. Şəfqət damarım heç qaynamadı. Düşündüm: "Bu, mənimki olmayacaq. Bunun yolu çox-çox uzaqlara gedib çıxacaq. Tanrı bilər. Mənlik deyil. Umuru açıq olsun". Amma qarnıma sarı ilan soxmuşdular.

Adın bayaq sözlə söyləmiş idim, indi oğlancığı bir kənara çəkib, gözlərdən uzaq bunu öz adının içindən də keçirdim.

Xanım, ad qoyma bitəndən sonra, mən Beyrəyin adını qoyandan sonra Baybura bəy də, başqa bəylər də çox sevindilər, şadyanalıq etdilər, Baybura bəyin evində qalın yemə-içmə oldu. Yemə-içmənin bir zamanı, Xanım, mənim ürəyim elə öz-özünə nədənsə qısıldı, durub çadırdan çölə çıxdım. Aylı bir gecə idi, hava təmiz idi, qarşı yatan Qazılıq dağından sərin-sərin yel əsirdi, ciyərlərimi təmiz dağ havası ilə doldurdum. Beyrək dediyim, elə bil, məni güdürdü, hardan çıxdı, bilmədim, amma yanımda qəflətən peyda oldu. Beyrək dedi:

– Dədə, bir əmrin varmı, müntəzirəm.

Ədəbli olmağına ədəbli idi, amma ona baxdıqca mənim nə idisə elə hey dalağım sancırdı, qarnıma yenə də sarı ilan soxurdular. Gədənin üzündə, gözündə qəribə bir parıltı var idi. Qulağıma pıçıltıydı, inləyişdi, nəydisə gəlib çatıb dəyirdi. Göydənmi enirdi bu pıçıltı, yerdənmi qalxırdı bu inləyiş, durmadan deyirdi: "Bu gədə Oğuzun başına müsibət gətirəcək".

Beyrək dediyim mənim önümdə dimdik dayanıb ala gözləri ilə müti bir baxış düzənləmişdi, amma di gəl, bu baxışın dərinliyində bir hay-hay, bir vulkan qaynayırdı. Mənə altdan-altdan baxır, nə deyəcəyimi maraq edirdi.

Mən:

– Oğul, Beyrək, bəzirganları yağı düşməndən qurtarırkən heç qorxdunmu? – deyib sordum.

– Qorxmaq niyə, Dədə?! Heç qorxmadım. – Beyrək dediyim qırmızı-qırmızı cavab verdi.

– Ya bəs necə yendin düşməni? Onlar çox, sən bir tək…

– Dədə, bunu sənə söyləyim yalnız. O düşmən dedikləri öz yar-yoldaşım idilər. Öncədən göndərdim bəzirganları hay-küy salıb qorxutdular. Sonra mən təpdim. Pərən-pərən etdim.

– Necə etdin bunu? Bəs sən baş kəsmədinmi? – Təəccübümün həddi-hüdudu yox idi.

– Kəsdim, Dədə, kəsdim, özümüzünkülərdən idi… birinin başını kəsdim. Yalançı oğlu adlı birisi var idi… Onun. Xəyanət etdi. Bəzirganın birin yaralayıb malını alıb atının yedəyində gizlətmişdi. Məndən ha.

– Yalançı oğlu Yalınçıqmı? – Mən sordum.

– Yox, Dədə, Yalınçıq yox, Yalınçığın bir ekiz qardaşı vardı, Yalançı oğlu Palancıq derlərdi. … Onun.. başını… xırp kəsdim. – Beyrək dedi.

Damarımda qanım dondu, Xanım. Güc-bəla sordum:

– Bunu bir adam bildimi? Baban, İç Oğuz bəylərindən kimsə?

– Yox, heç kimsənə bilmədi. Bir naibimdən başqa. Ona çox inanıram. Ondan savayı bilən bir tək kişi sən oldun, Dədə.

Mən şaşırdım, Xanım. Bu qavat oğlu qavat şöhrətli adını böyləmi qazandı?! Bu yaşa gəlib yetişəsən, bu qədərinə hiyləgər birisi olasan.

– Ya bəs mənə neçin açdın bu sirri? – Mən bir dəxi sordum.

Beyrək dediyim söylədi:

– Bilirmisən, Qorqud Ata…

*Yenə Əlyazmanı oxumaq çətinləşir. Amma zədəli yerin oxunub-oxunmaması mənə bir o qədər də vacib görünmədi, çünki bu yerdə mətndən iki məqam açıqca anlaşılır. Birincisi odur ki, Beyrək bu sirri Dədə Qorquda özü açır və yəqin elə güman edir ki, Dədə bu sirri heç kimə söyləməyəcəkdir. Daha doğrusu güman etmir, Beyrək buna əmindir: Dədədən söz çıxmayacaq. Deməli, dolayısı ilə Dastanın bizə tanış son bədii mətnindən indiyədək "oxunmayan" daha bir Dədə funksiyası göz qabağındadır. Hamı sirrini gəlib Dədəyə aça bilər, Dədə sirlərin qoruyucusudur. Hər bir Oğuz əri arxayındır ki, Dədəyə söylədimi sirrini, bu sirr əmanət kimi qorunub saxlanacaq, Dədə hamıdan bu sirri qoruyacaq, heç kimin bu sirrdən xəbəri olmayacaq. Amma əgər sirri heç kimə söyləməyib özün da-*

*şıyacaqsansa, səni cinlər, şeytanlar addım-addım izləyəcək, səndən hökmən intiqam alacaqlar – gördüyün əmələ görə cavab verəsi olacaqsan. Qədim tayfalarda belə bir inancın olduğunu biz bilirik. Odur ki, rahatı Dədədir, söylə ona – qalsın, cin-şəyatinə də Dədə özü bilər, nə cavab verər. Buradan belə çıxır ki, Qədim Oğuzlar bacardıqca sirdən qaçardılar, sirr saxlamaq, sirr qorumaqla araları heç yox idi. Bu mənada Dədə Qorqudun müqəddəslik mərtəbəsi həm də nə dərəcədə sirrə vaqif olmasına görə müəyyənləşir. Birinci səbəb mənə görə budur.*

*İkinci bir səbəb də yox deyil və o bir az gizlindədi. Məncə, Beyrək bir gülləylə, necə deyərlər, iki quş vurur, başqa sözlə, iki məsələni həll edir. Sirri açmaqla Dədəni həm də özünə bəri başdan müttəfiq eləmək istəyir. Oğuzun hörmətlisini, sazı-sözü, and-aman yeri olan birisini, özü də müqəddəs birisini öz beynində qaynayıb-qarışan gələcək planlarının müttəfiqinə çevirmək istəyir.*

*Birinci səbəb qədər ağlasığan olmasa da hər halda bu gizli niyyət də kol içindən öz quyruğunu göstərməmiş deyil və daha öncə Dədə Qorqud, ya da, deyəsən, Bayındır Xan demişkən, bir nəsnə ağlına gəldisə, deməli, həyatda yeri var, baş verəcəkdir.*

*Bu fərziyyələrin heç olmasa birinin, daha çox, yəqin ki, birincisinin yaşama hüququ, həqiqətcilliyi həm də belə təsdiqlənir. Elə indicə sirri qəbul etməyin, sirri saxlamağın, istəsən də, istəməsən də sirrin qoruyucusuna çevrilmənin ağır yükünə Dədə Qorqud özü də işarə edəcək.*

– …beləcənə mən sirri sənə verdim. Qoruması səndən, Dədə. – Bunu söyləyib Beyrək dediyim yum verdi, susub durdu.

Nə deyəsi idim?! Xanım, mən mat və məəttəl qalmış idim. Qavat oğlu qavat məni öz sirrinə bağlamış idi. Mən dəxi istədim, istəmədim, onun bu sirrini bundan sonra qorumağa məhkum idim. Zülümdü bu, Xanım, əsl zülüm. Bu cürə sirrə sahib olmaq zülümdən də betərdi, biləsən…

*(Amma onu dəxi deməк gərəkir ki, sirr sahibi olmaq Oğuzda hər kişiyə nəsib olmadı. Zülüm olmağına zülümdü, amma hörmət və izzət sahibi olmağın dəxi düz yolu bundan keçir. Mənə öz sirrini kimlər söyləmədi – dünyadan küsənlər, öldürənlər, ölənlər, övlad kimdən olduğun bilən analar, xatunlarından gileyli ərlər… dəxi kimlər – sevənlər, sevilməyənlər, sevməyənlər, sevilənlər… dəxi kimlər – gəlinlərindən bezər qayınanalar, kürəkənlərindən qızan qayınatalar… Oğuzun tüm sirri məndə idi. Mən dəxi onları Nur daşına əmanət edib durmuş idim. Nur daşı olmasaydı nə edə bilərdim ki…)*

…Mən, Beyrəklə söhbətdən sonra çadıra geri döndüm. Bəylərin başına şərabın itisi artıq vurmuşdu. Bir ağızın dediyi bir qulağa girmirdi. Xəyal məni aparırdı. Ağlıma qara-qura fikirlər gəlirdi. Beyrəyi düşünə-düşünə qalmış idim. "Bu gədənin gələcəyini Nur daşından sormam gərəkir, bunun, qadir Tanrı ağlının yoluna tikənli çəpər çəkibdir. Hələ bir bəndə mənimlə bu sayaq danışmayıbdır. Bunun gələcəyi mənə qaranlıq göründü. Nur daşı, Nur daşından soruşmam lazım". Artıq neçənci dəfə idi, bu sözləri özüm-özümə pıçıldayırdım. Mənim bu pəjmürdə halım bəylərin də gözündən qaçmadı. Baybura bəy üzün məndən ayırmırdı. Mənə sordu:

– Qorqud, sən niyə şərabın tamını dadmadın?! Bəyənmədinmi? Söylə, nə istərsən gətirsinlər. Bilirsən ya, bu gün mənim xoş günümdür. Oğluma ad qoydun, gözəl bir addır. Bəylərin də günü xoş keçsin istərəm. Haydı, nökərlər, durmayın, Qorquda şərabın itisini gətirin! İçərsə içsin, içməzsə…

Baybura bəy sözünün gerisini gətirmədi, susdu. Mənim halım özümdə deyildi. Beyrəkdən eşitdiklərimi həzm edə bilmirdim. İndi bunlar dəxi məni içirsələr, Nur daşına şərab içmiş yaxın düşə bilmənəm, deyə düşündüm. Mən burada öz düşüncələrimlə qalsam işlər fəna olar.

– Yol uzaq, dünya qaranlıq, mənə izin verin, bəylər. Siz yeyin, için, xoş keçin. Mən isə getmək dilərəm. Baybura bəy, – deyib cavab gözləmə-

dən ayağa durdum: – Qutlu olsun, oğlunun böyük toyuna gələk. Şadlıq olsun evinizdə, bəylər, toy-düyün olsun. Di sağ olun, əsən qalın, mən getdim.

Baybura bəy çox dilədi, qalmamı istədi, bəylər dəxi dil-ağız elədilər. "Yox ki, yox" dedim. Bircə Beyrək susub durdu. Mənə baxan gözləri soyuq-soyuq baxdı. Daha durmadım, çadırdan çıxdım, özümü atın üstünə saldım, geri baxmadan çapdım, getdim.

Bilmədim, o gecə özümü mağaranın ağzına, Nur daşının yanına necə saldım. Aylı bir gecə idi. Ulduzlar duz-duz olub göy üzündə bir-birinə yaraşıq verirdilər. Nur daşı işıq içində idi. Belə bir gecədə Nur daşının ürəyinə əlimi basdım, sordum:

– Ey Nur daşı, mənim bu gün dəxi bir sirrim artar oldu. Eşidirmisən məni?

Nur daşından cavab əvəzi bir işarət gəlməliydi. Sükut isə hər bir yanı bürüyüb durmuşdu. Sükut az qala qulaq deşirdi. Mən sorumu bir dəxi təkrar elədim:

– Ey Nur daşı, daşların gözəli, daşların əqillisi, yatmışmısan, oyaqmısan, söylə mənə, bu gün mənə bir sirr dəxi açdılar. Vaqe edimmi səni bu sirdən, yoxsa bu sirri qəlbimdə saxlayıb–saxlayıb çərrəyib gəbərimmi?

Yenə sükut idi ki, hər yana hakim kəsilmişdi. Mən belə düşünüb özüm-özümə sordum: "Sükutun özü də bir işarət deyilmi? Əlbəttə ki, işarətdi. Ona işarətdi ki, mən ağzımı açıb bu sirri Nur daşına danışım."

Və mən məsələ nə cür idisə, açıb bircə-bircə Nur daşına nəql elədim. Nur daşı yenə sükut içində məni dinlədi, dinlədi, mən danışdıqca bilmədim ki, nə cür oldu uyquya getdim və uyqumda, Xanım, gördüm ki…

*(Bu uyqumu olduğu kimi yox, olduğu kimi olmaz, heç olmaz. Qadir Tanrı ilham verə, olmağı gərəkən kimi bir dastana çevirməm lazım. Oğuz zar-zar ağlasın. Baybura bəy "vay oğul" deyib ökür-ökür hönkürsün, böyür-böyür böyürsün.)*

Uyqu mənə hər şeyi açıb göstərdi. Mən kim idim, uyqu görəm, o uyquda Beyrəyin gələcəkdəki anını görəm?! Nur daşı söylədi həpsini. Əvvəl-əvvəl məni uyquya verdi. Daşdan duman idi, sis idi, bəyaz pərdə kimi bir nəsnə ətrafı yavaş-yavaş bürüməyə başladı, bu duman-sis məni dəxi öz içinə aldı. Məni uyquya verən Nur daşının dumanı oldu, Beyrəyin vaqeələrini mənə görümlü edən dəxi o oldu. Nur daşının beləcənə hikmətləri vardır, Xanım. Nur daşının beləcənə qaiblərə vaqif olmağı vardır. Nur daşının hikmətləri olmasaydı mən kim idim ki?! Ancaq və ancaq Qorqud idim. Qorqud dedinmi, yetər. Nur daşı məni Qorqud Ata yapmadımı?! Nur daşı məni Dədə yapmadımı?! Uyquda isə bunları gördüm. Xanım, uyquda gördüm ki…

…Şah bu gün nəydisə yuxudan erkən oyanmışdı. Əvvəl-əvvəl bir xeyli yerindəcə gərnəşdi, heç ondan çıxmayan iş – qızıl qotaz baftalı pərdəni yarıb özünü pəncərədən içəri soxan gün işığı gözlərinə düşdükcə o da gözünü qıydıqca qıyır, yerində o tərəf bu tərəf çönməyində davam edirdi. Vəzir ağa bayır otaqda divanxananın qabağında gözləməyində idi. Bu gün səfirlər gəlməliydi – uzaq bir məmləkətin su içindəki şəhərindən gəlməliydilər. Necə gəlib yetişəcəkdilər – xudavəndi-aləm bilirdi. Yollar uzun, yollar qorxulu. Bir azdan Qorçubaşı da gəlib çıxdı divana. Vəzir ona, o, Vəzirə baxdı. Bir xeyli susdular. Sonra tənbəl-tənbəl Vəzir söylədi:

– Qibleyi-aləm hələ də istirahətlərinə buyurur.

– Səfirlər az qaldı saraya yetişməyə. Bu yandan da… – Qorçubaşı ağzındakı sözünü yarımçıq kəsdi.

– Bu yandan nəmənə? – Vəzir bir balaca dirçələn kimi oldu.

– Lələ iş buyurdu. Tələsik imiş. Yoxsa…

– Lələ nə təhərinə buyurdusa, o cürənə də hərəkət elə. Dəxi mənə nə deyib durursan?!

– Allahu-əkbər, mən ki, bir söz demirəm, Vəzir ağa, niyə qeyzlənirsən sən? – Qorçubaşı susdu, daha bir kəlmə də danışmadı.

...Əvvəl fərraşbaşı Səfiyar çıxdı içəri otaqdan. Bu o demək idi ki, onun ardınca Şah elə indicə daxil olacaq divanxanaya. Amma bu dəfə belə olmadı. Şahın gəlişi ləngidi. Fərraşbaşı Səfiyar Vəzir ağaya yaxınlaşıb yavaşcadan nəsə dedi ona. Vəzir ağa bir kəlmə danışmadan durub divandan çıxdı. Qorçubaşı gözü ilə Səfiyarı çağırdı yanına, o gəldi.

– Hara getdi, oğlan, Vəzir ağa, sən ona nə dedin ki? – deyə Qorçubaşı soruşdu.

Fərraşbaşı Səfiyar xəlvətcə ora-bura baxıb:

– Səfirləri dedim. Şah buyurdu ki, gözlətsin onları Vəzir ağa. Məşğul etsin. Qibleyi-aləm ləngiyəcək. Səni də bir soruşdu. Burdadı dedim, əmrə müntəzirdi. – Səfiyar Qorçubaşıya məhəbbətlə baxıb cavab verdi.

– Elə də dedin? Yaxşı demisən. Qibleyi-aləmin əhvalı necədi, yaxşıdı, inşallah?

– Yaxşıdı. Şükür, yaxşıdı sadağa olduğum. Niyə ki...

– Şükür, şükür, di get, işinlə məşğul ol. Şükür... – deyə Qorçubaşı Səfiyarı öz yanından buraxdı. Səfiyar çıxdı.

Elə bu an Hüseyn bəy Lələ divanxanaya girdi. Onu görcək Qorçubaşı mil kimi tarıma çəkildi. Lələ ümumi "salam-əleyküm" deyib başını aşağı dikmiş keçib taxtın sağ tərəfindən yerə çöküb oturdu, yenə başını sinəsinə salladı. Əlindəki təsbehin dənələrini çevirməyə məşğul oldu. Qorçubaşı keçib Lələnin qənşərinə gəlib durdu. Pəncərənin düz qabağını kəsdi.

– Çəkil, çəkil bu yana, Şahi-Mərdan xətrinə, kəsmə Allahın işığını, – deyə Lələ yavaşdan, ona baxıb-eləmədən dilləndi.

– Lələ, ölüm ayağının altına, o Şahi-Mərdanın xətri üçün mənim məsələmi bu gün həll elə.

– Yaxşı da, dedim sənə, ya demədim, səbrin olsun. İndi Şahın gələn vaxtıdı. Dayan, yox, yox, sən Allahın, çəkil get işinə. Sonra. Sonra. Söz verdim sənə axı.

Yenə fərraşbaşı Səfiyar divanxananın qapısında göründü. Tez içəri keçdi, dördgözlə ətrafa nəzər saldı. Donub qapıya tərəf əyilib durdu. Lələ ayağa sıçradı. Qorçubaşı üzüqoylu yerə sərildi.

Şah divanxanaya buyurdu. Bu biri tərəfdən divanxanaya baş endirə-endirə Vəzir və əyanlar daxil oldular. Lələ yaxına gəlib yanaşdı Şaha. Böyük bir məhəbbətlə təzim edib durdu.

– Lələ, gəldin çıxdın?! – deyib Şah mehriban bir tərzdə üzünü tutdu Lələyə. Arxaya keçən əyanların arasından çıxıb Vəzir ağa gəldi Şahın düz yanına:

– Şahim, – pıçıldadı, – səfirlər əmrinə müntəzir olublar…

– Hə, elədi, bilirəm, bilirəm. Lələ, söhbətimiz hələ qalsın sonraya, bu səfirlərlə bir görüşüm. Amma söylə mənə, görüm, məsələni həll elədin, ya yox?..

– Elədim, Şahim, elədim, sadağa olduğum. Sən istəyən kimi də həll elədim. – Lələ ikiquylu oldu.

– Yaxşı. Çox əla. – Şah razılıqla Lələnin çiynindən ehmalca yapışıb dikəltdi – Qalx, qalx hələ. Keç içəri bağçaya, gözlə məni. Səfirləri yola verim, gəlirəm. Bir bu tərəfə gəl. – Son sualını səbirsiz halda Şah Lələni bir tərəfə çəkib xeyli yavaşdan səsləndirdi ki, onu fəqət Lələ eşitdi. – Burdadı o da?

– Burdadı, qurban olduğum, – Lələ də ancaq Şahın eşidə biləcəyi bir tərzdə cavab verdi.

– Necədi, təhər-tövrü deyirəm, əməlli-başlı oxşayışı var yəni?!

– Əməlli-başlı. Oxşayış birə birdi, qurban olduğum. Hələ rubənd taxdımı, heç kim seçəmməz…

– Yaxşı. Dediyim kimi elərsən. İçəri bağçada. Səfirləri yola verim, sonra… Bəs… Sən, necə, gəlmirsən səfirlərin söhbətinə?

– Nə bilim? Mənə deyən olmayıb ki.

– Vəzir! – deyə Şah səsləndi.

Vəzir Şahın arxasında ikiqat bir halda:

– Bəli, mürşidi-kamilim, – əmrə müntəzir oldu.

Amma Şah nə isə xatırlayıb sözünün gerisini daha gətirmədi. Ortalığa namünasib bir sükut çökdü. Sonra bu sükutu pozub Şah özü Hüseyn bəy Lələyə belə dedi:

– Yaxşı Lələ, sən hələ bir bu işlə axıracan məşğul ol. Bu iş daha vacibdi. Mən də qurtarım, gəlirəm. Səfirlərlə söhbəti də ki, axşam bir yerdə yemək zamanı bahəm götür-qoy edərik.

Şah bunu söylədi və daha durmadı, çönüb divanxanadan çıxdı. Vəzir, Qorçubaşı, digər əyanlar Şahın arxasınca getdilər. Lələ bir az divanxanada düşüncəli ora-bura gəzişərək, nəhayət, o da çıxdı. Divanxana qaldı boş.

*"Yarımçıq Əlyazma"nın ikinci paralel qolu, yəni, Şah İsmayılla bağlı hekayəti belə başlanır və bu yerdə ilk dəfə qırılır. Əlyazmanın mətni bir az əvvəl, elə bil, heç nə olmayıbmış kimi Şah İsmayılla bağlı tamam başqa bir zaman və məzmun müstəvisinə keçdiyi kimi həmən qayda ilə yenidən Dədə Qorqud zamanına qayıdır, əvvəlki ahənginə və istiqamətinə düşüb davam edir. İndi özünüz bunun şahidi olacaqsınız…*

…Uyquda, Xanım, gördüm ki, mağara olmağına mağaradı, amma bu mağarada bir üzünü-gözünü tük basmış kişidi, oturub. Bir balaca diqqət edib baxdım gördüm, bu ki bizim Beyrəyə oxşayır. Necə də oxşayırdı, Xanım. Bu Beyrək dediyim əyləşmişdi mağaranın yuxarı tərəfində və qarşısında bunun düzülmüşdü cürbəcür aşlar, əkməklər, şərbətlər. Buradacana şərab da var idi. Bir tərəfdə üç, ya dörd qız idi, üsulluca, ədəblə əyləşib durmuşlardı. Beyrəyin tam yanında isə bir xub, ayüzlü gözəl var idi. Qızların biri saz çalırdı, bu andaca o biri qız ayağa qalxıb əl götürüb oynamağa başladı. Beyrək dediyim əli ilə yanındakı haman ayüzlü gözəli qucdu. Qız da ona bərk-bərk qısılıb durmuşdu ki, vardı. Sonra isə ayüzlü qız dedi:

– Bəy yigidim, bir nəğmə dəxi sən oxusan nolur?! Səsini eşidərdik. Elə hey qulaq asıb durursan. Əl qaldır, sən də oyna, oxu. Qızlar xoşuna getdimi?

Beyrək dediyim cavab verdi:

– Sən hamıdan çox xoşuma getdin. Səni çox sevdim.

– Öyləmi? Nəyimi sevdin? Siz tərəflərdə gözəl qız azmı? Eşitmişəm, sizin dəxi gözəl-göyçək qızlarınız çox olur. Sizin oğlanlarla at çapan, qılınc tutan qızlarınız olur. Ya onlar? Onlar noldu? Söylə, söylə ya. Üzünü məndən gizləmə. Heç gizləmə üzünü…

Bəli, Xanım, azdan-çoxdan mənə bir türlü şeylər agah olurdu. Burası Bayburd qalası idi qayət. Beyrək dediyim də bu qalada dustaq idi. Biz dəxi elə bildik ki, əzab-əziyyət içində on altı il evindən, qövmündən, Oğuzdan aralı ağlamaqdan babası kimi gözləri kor oldu bunun. Olmadı, Xanım. Deyə-gülə oturub duran gördüm mən Beyrək dediyimi, o üzütüklü kişini.

Qıza bu belə cavab verdi:

– Olarmı heç belə şey?! Sənə çatanı olarmı onların içində?! Mən səninlə murad verdim, murad aldım. Səni sevdim.

– Ya nişanlın Banıçiçək necə? – Kafir qızı qır-saqqız oldu, əl çəkmədi, Beyrəyin əlindən çiynini dartıb şuxluqla üzünü yana tutub bir dəxi sordu. – Ya nişanlın vardı sənin, Banıçiçək – o necə? Unutdunmu onu?

– Heç sən qədər sevmədim. Atam mən doğmamış onu mənə beşikgərtmə nişanlı etmişdi, ta mən atamdan keçmədim. Unutdunmu, sorursan. Unutmağa da bir kimsənə yox indi, sevdiyim. Sadəcə sən. Sadəcə səni. Gözüm gördü, könlüm sevdi. Mən hər kəsi unutdum. Hər kəsi. Amma mən səni heç zaman unutmanam. Babana söylə. Şaqqalasın məni. Mən səni o zaman unudaram.

– Ah, canım, ah, gözüm. Beyrəyim, Beyrəyim, mənim Beyrəyim. Səni sevdim. Heç kimsənə gözümə görünmədi, səni, ancaq səni, təkcə səni. Gözüm gördü. Könlüm sevdi. Babama, anama deyəcəyəm. Mən daha dözə bilmənəm. Bir başqa deyikli ancaq məzarda mənə tay olar. Həyatda – sən. Ancaq sən. – Bu ayüzlü qız dəxi beləcənə dedi durdu.

Bir fikir elədim, bu gördüyüm Beyrək deyil yəqin. Ola bilməz. Uyquda ikən beynimdən əvvəl keçən fikir bu oldu. Bəlkə uyqudaca məni qara basır, düşündüm.

Məhəbbətlə bu ikisi bir-birinə sarışdılar, Xanım. Dodaq dodağa dişləyib əmişdilər. Ah eyləyib özlərindən getdilər. Qızlar oynamaqlarını saxlamadılar, elə oynaya-oynaya bir dolça sudan götürüb bunların üzərlərinə səpələdilər. Bunlar ayıldılar, yenə bir-birlərinə sarıldılar. Bu dəfə qızlar "ah" eyləyib əlləri sinədə bunların tamaşasına durdular. Bir xeyli beləcənə zaman keçdi. Gözçülərdən biri qəflətən bayırdan içəri soxdu özünü:

– Gəlin ha, çıxın ha, tez olun. Baban Bayburd gəlir. Bayburd özü bura gəlir.

Xanım, dəxi mən qəti əmin oldum ki, bura Bayburddur, bu gördüyüm üzütüklü kişi Beyrəkdir, bu qız dəxi Bayburd bəyinin görklü, məhbub qızıdır.

Sonra, Xanım, düşüm məni bir başqa yerə apardı. Elə bu zaman Oğuzun başının üstünü alan bəlanı bir də gözümü yumub qapalı gözlərimlə seyr etməyə başladım. Təkgözü gördüm, elimdə-obamda müztərib üzlər, susuz qalmış, cadar-cadar olmuş dodaqlar gördüm. Xanım, gördüm ki, Təkgözün ordusu tuta durub Oğuzun qənşərin kəsib, qalmağa da qomur, köçüb getməyə də qomur. Bu qansız-imansız ordunun əlində zəbun olanları bir-bir gördüm. Təkgözə qurban gedən əsirləri, qulları, kənizləri, Oğuzun cavanlarını gördüm. Aruz Qocanın evindəki bəylərin məşvərətini gördüm. Aruz Qoca hirsli-sınırlı deyirdi:

– Hanı dünya mənim deyən igidlər?! Hanı Oğuzun dirəyi Salur Qazan? Hanı oğlu Uruz? Hanı Beyrək, Qanturalı, Şirşəmsəddin, Qarabudaq, hanı babası Qaragünə? Təkgözlə savaş elə bircə Dış Oğuzunmu payına düşdü, bəylər, siz deyin.

Bəylərdən Baybecan, Dəli Dondar, Dəli Qarcar, Əmən, Qıyan Səlcuq bir-bir ayağa durub ağızları köpüklənə-köpüklənə danışırlar gördüm. Nə dedilər, nə demədilər, mənə agah olmadı, Xanım.

Sonra Dış Oğuz cavanlarını "su, su" deyib ümid ilə onlardan imdad diləyən qocaların qarşısından keçib gedir gördüm. Onları Təkgözlə savaşa

Aruz Qocanın böyük oğlu Qıyan Səlcuq aparırdı. Aruz Qoca bu dəstənin içində gözlərilə kimisə axtarır, axtarır, tapa bilmirdi. Yanında duran birisinə sordu:

– Basat gözümə dəymədi. Haralarda ola bu?

Bu birisi cavab verdi:

– Bəyim, sabahdan aradıq, heç yerdə bulamadıq. Olsun ki, yenə meşəyə vermişdir özünü.

– Bulun onu, bulun gətirin, deyin baban səni istədi, gələrsə gəlsin, gəlməzsə, bir dəxi cəhənnəmdə görünsün gözümə. – Aruz Qocanın üzündən-gözündən zəhirmar yağırdı.

Yadıma gör nə düşdü, Xanım. Mən axı özüm – özümü dəxi görə bilirdim bu yuxumda. Bəli, mən idim ki, vardım. Mən axı orada olmuşdum, o məşvərətdə deyirəm, mən dəxi var idim və məşvərətin bir yerində Aruz Qoca Basatın ardınca adam salanda mənə baxıb başını yelləmişdi: "yəni, Tanrı bizə bir kor oğul verdi, o da belə". Dili isə belə demişdi: "Qorqud, Qorqud, mənim dərdim böyükdür… özün görürsən. Güc və qüvvəti ulu Tanrı buna vermiş, əqli isə bunun necə ki topuğunda idi, eləcənə də topuğunda qalmışdır. Nə edəlim, gəlsin deyirəm, bəlkə bunu dilə birləşib ikimiz tutaq. Çünki ürəyimə damıbdır: Təkgözün öhdəsindən gəlsə, bu gələcək. Qıyan Səlcuqda əqil, ürək nə boyda, gücü-qüvvəti isə… zəifdir, zəifdir. Bunda Basatın qolunun gücü olaydı, Qorqud".

Mən buna sordum:

– Bəs Basat nə deyir, bu savaşdan boyunmu qaçırır?

Aruz Qoca cavab verdi:

– Bilməm ki. Ciddiyə qalsa, belə deyir: mən adam qanı tökmək istəmirəm. Deyirəm: o, yağıdır. Deyir: yağıdır, nədir, bilmənəm, mən qan tökməyəcəm. Qorqud, Qorqud, mənim dərdim böyükdür. Bu, elə bil, mənim oğlum deyildir. Gəlsin, sən danış onunla, olurmu?!

Mən dedim:

– Gəlsin, baxalım. Olmaz olurmu? Cavandır, qanmır. Qandıralım. Bu da sözmüdür – mən qan tökməyəcəyəm…

– Bəli, öylə der. Qandır, onu, Qorqud. Gözlərim görə-görə oğlum, iki gözümün biri Qıyanı ölümün düz içinə göndərdim. Ölməyəcəkmi? Öləcək. Onun işi heç savaş deyildi. Onun işi deyildi Təkgöz.

Bu sözləri deyib Aruz Qoca kədərli-kədərli başını sinəsinə salladı, gözlərindən bıldır-bıldır yaş axıtdı.

Az keçdi, çox keçdi, bilmədim. Basatı gətirib babasının nökərləri zorgüc bizim olduğumuz otağa itələyib saldılar. İçəri girdi, salam verdi, salam aldı, sonra başın dikdi yerə, susdu. Nökərlərə Aruz Qoca işarət etdi, onlar çıxdılar.

– Oğul, Basat, nerədəydin? – Babası sordu.

– Baba, meşədə öz yerimdə idim. – Basat cavab verdi.

– O nə yerdir elə, Basat, oğul? – Mən sordum.

– Meşədə bir kiçicik tala var. O talada bir mən oluram, bir də ətrafda ağaclar olurlar. O ağacların altında qurdlar, canavarlar, qaplanlar, ayılar azad, sərbəst gəzişirlər. Onlar mənə mehribanlıq edirlər, mən onlara mehribanlıq edirəm. Mənim yerim meşədə o taladadı. Qoğan Aslanın yanında. O məni çox sevər. Babam tanır o yeri. – Basat başını qaldırmadan cavab verdi.

Mən Aruz Qocaya baxdım, o mənə baxdı. Bir müddət hər üçümüz susduq. Uyqudaca mənim yadıma gör nə düşdü, Xanım. İllər öncə, o zaman Basat hələ yeniyetmə idi, indiki kimi gənc, qolu palıd ağacına bənzər, boynu çinar kimi uzun, omuzları göy üzü kimi geniş birisi hələ olmamışdı. Belə pəhləvan cüssəli deyildi. O zaman yenə gedib meşədə, haman dediyi o talada ilim-ilim itmişdi, sorağını verən yox idi. Aruz Qoca qəmgin düşmüşdü, göz yaşı axar olmuşdu. Məni çağırdı, gəldim. "Qorqud, kömək elə, oğlumu bulayım. Könlünə ilham gəlsin Tanrı eşqinə, söylə mənə, oğlum nerdə?" – sordu.

Xanım, mənim könlümə ilham gəlmədimi, gəldi. Gözümü yumdum, Nur daşının yanına qəlbim uçdu, dövrə vurdu, qayıtdı. Heç bilmədim, necə oldu dedim: "Aruz Qoca, sənin oğlun meşədədi. Meşədə bir tala var, vələslərin, cökələrin, palıdların arasında bir tala var, orada bir aslan var, Qoğan Aslan, onun yuvası var, oğlun ordadı, ora var".

Gedib dediyim yerdəcə, nə yaxşı, Qoğan Aslan yuvasında olmamışdı, gədəni buldular, geri gətirdilər.

– Oğul, sən insansan, sənin yerin babanın, ananın yanında, öz evindədi, sənin yurdun-yuvan vardır, sən Oğuz elinin güvənc yeri olasısan. Meşədə, qurdların-quşların arasında, aslanlar yuvasında gəzmə, dolaşma. – Mən oğlancığa belə dedim.

Xanım, mənim sözlərimin bu Basata heç təsiri olmadı. Sonralar da eşidirdim ki, yer-yer qaçıb gözdən uzaq yerə, meşədəki o aslan yuvasına gedirmiş. Amma dəxi yerini bildiklərindən tezcə bulub hər dəfə geriyə babasına gətirirlərdi. Bəzi vaxt da özü geri dönərdi.

...Aruz Qoca əvvəl-əvvəl hönkürtü vurub ağladı, səsinə bayır-bacadan arvad-uşaq səs verdi, onlar da ökür-ökür böyürdülər, bozladılar. Basat necə sərt qaya kimi qımıldanmadan durmuşdusa eləcə də durmağında davam etdi. Basatın tunc qamətinə baxıb Təkgözlə bunun döyüşünü gözümün önündə canlandırırdım, Nur daşından sorurdum və hər nə cür düzübqoşurdumsa qələbə yenə də Basatınkı olurdu. Bəli, Xanım, Basat bir Basat idi, bir Basat idi, gəl görəsən.

Sonra Aruz Qoca kiridi. Bir oğluna nəzər saldı, bir mənə baxdı gözlərilə, yalvardı ki, sən danış, bəlkə sən bunu yola gətirəsən, tökə daşı ətəyindən, inad etməyə. Mən boğazımı arıtlayıb sözümə belə başladım:

– Oğul Basat, baxarmısan nələr oldu. Böyük qardaşın Qıyan Səlcuq vardı ya, Təkgözlə savaşa getdi. Oğuzda başı papaqlı qalmaz oldu. Sən nə dersən, elə-belə yeyib-yatıb duracaqsan, yoxsa, Basat, əlinə yarağını alacaqsan, şahbaz atına minəcəksən, gedib Təkgözün tək gözünü də çıxaracaqsan?! Yağıdı o, Basat, Oğuza yağı, babana yağı. Ər igidlər yağılarla döyüşədöyüşə ərənlərə döndülər.

Bir xeyli susandan sonra:

– Yağı nəyə derlər, Qorqud? – Basat mənə sordu.

Deyim ki, Xanım, mən şaşırdım, bilmədim nə deyəm. Cavab isə Nur daşından fırlandı, öz-özünə gəldi:

– Basat, yağı ona derlər ki... biz yağıya yetişirsək, biz onu öldürürüz, yağı bizə yetişirsə, yağı bizi öldürür. Yağı olan budur, Basat.

– Yağının qanını tökmək bir bəndəyə yakışırmı, Qorqud?

– Yakışır, Basat. Yağı zatən qanı töküləsi yağıdır. Bax, sən meşədə bir vəhşi canavara yetişəndə nə edərsən?

– Vəhşi canavar dediyin də Allahın və Tanrının lazım bilib yaratdığı nəfəs alan, yaşayan canlı deyilmi? Mənim onlarla bir işim yox, onların mənimlə bir işi yox. Hələ Qoğan Aslan mənə heç zərər verməz, mənə məhəbbət edər, dili ilə yalar, durar.

– Bəs səni qanına qəltan etmək istəyən birisinə sən nə edərsən?

– Məni qanına qəltan etmək birisinə… mən… heç bir xətər yetirmərəm. Anlamır düşünərəm. – Basat dedi.

Söhbətin bu yerində Aruz Qoca durmadı, səsləndi:

– Ya qardaşın Qıyanı qanına bulayacaq, həyatına son qoyacaq birisi olursa? Bağışlarmısan?

– Yox… onu bağışlaya bilmənəm. – Bu dəfə Basat ağır-ağır cavab verdi – Qıyan kimə yamanlıq yapdı ki, onu öldürməyi diləyən birisi olsun?!

– Qıyan dözmədi, oğul Basat, Qıyan Oğuzun bu halına dözmədi, qız-gəlinin, kiçiyin, ahılın dərbədər düşməsinə, bir içim suya həsrət qalmasına dözmədi. Savaşa getdi Qıyan. Təkgözlə savaşa vardı. Qıyan ha?! Öylə deyilmi, Qorqud? Sən söylə. – Aruz Qoca yana-yana mənə baxdı.

Mən başımı endirib “öylədi, bəyim, öylədi” dedim və sonra başımı qaldırıb bir dəxi baxıb gördüm ki, babasının bu sözləri, nəhayət, Basatı qayğılandırdı. Baxışları donub qaldı, söz də bula bilmədi ki, cavab verə.

– Nə dersən, Basat, hamı bunu bilir, mən də bunu bilirəm: Təkgözü ancaq sən basıb kəsə bilərsən. Qıyan Səlcuq işi deyil bu.

– Oğul, nə dersən? – Aruz Qoca dəxi az qala yalvara sordu.

– Qıyanın başından bir tük əskik gəlsə, mən varam, Təkgöz var, derəm, – nəhayət, Basat bizə bu cavabı verdi. Aruz Qoca da, mən də anladıq ki, Xanım, bu onun son qərarıdı.

…Xəbər tez gəldi. Qıyan Səlcuq Təkgözün əlində, əlbəttə ki, zəbun oldu, ödü yarıldı, savaş meydanında can verdi. Bunu gözü ilə görüb geri qaçan qoşun söylədi, ödü yarıldı, dedilər, meydandaca canı çıxdı, dedilər. Yer, göy Aruz Qocanın başına fırlandı. Durduğu yerdəcə torpağa çökdü,

gözündən bıldır-bıldır yaş axdı, nə axdı, bağırdı ağladı, ağladı bağırdı. Səsə arvad-uşaq gəldi, vay düşdü, şivən qopdu. Basat gendə durub baxırdı. Baxdı, baxdı, sonra göz görə gədə birdəncə dəyişməyə başladı; gözləri qıpqırmızı qızardı, bədəni dartıldı, əlləri-qolları şişdi, boyu-buxunu bir az daha böyüdü, qəfildən bir sıçrayışla eləcənə bayaqdan bəri durub baxdığı yerdəncə göyə tullandı, Xanım. Dedim, yəqin başı buluda dəyər. Tullanıb göydəcə mayallaq aşdı və eyvandan aşağıda duran Təkəl ayğırın düz belinə sıçrayıb düşdü. Təkəl ayğır şahə qalxdı, elə bil, o da bunu həsrətlə gözləyə qalmışdı. Bir an keçdi, min il keçdi, at da, atlı da toz olub yox oldular. Babası göz yaşlarını da silməyə macal tapmadı, o da, mən də bunların arxasından ucalan toz-dumana mat-məəttəl baxa-baxa qaldıq, durduq…

…Sonra uyqumda Bəkili gördüm. Sən ki onu Gürcüstan sınırına göndərdin, Xanım. Düşkün idi Bəkil gördüm. Bəkilin tarixçəsi bir uzun tarixçədi. Bizim məsələyə dəxli varmı, yoxmu – onu mən bilmənəm, onu sən bilərsən, Xanım. Bəkil ilə Qazanın qavğası, Bəkilin Qazandan sınması, Qazana küsməsi onu məhzun etdi. Uyqumda isə bunu gördüm. Uyqumda gördüm ki…

*Burada Qorqudun yuxusunun nəqli qəfildən kəsilir. Davamına diqqət yetirəndə isə görürük ki, zərər çəkmiş səhifələrin ümumi məzmunun dərki üçün bir elə əhəmiyyəti yoxdur. Məncə, burada oxuna bilməyən bir-iki cümlənin ancaq söhbəti gedə bilər ki, onların yoxluğu Bəkillə bağlı əhvalatın tam və dolğun anlaşılmasına heç bir xələl gətirmir.*

…Uyqumda Gürcüstan ağzına, Bəkilin obasına, evinin qabağına getdim. O evin qabağında bir xatunu daş üstündə oturub ağlayır gördüm. Bəkilin xatunu idi. Adına Sürməlicə Çeşmə Xatun derlərdi. Elə uyqudaca ona sordum:

– Nə ağlarsan, nə bozlarsan, qız Çeşmə?

Sürməlicə Çeşmə qayğılı başını qaldırdı, bir an mənim üzümə donuq gözlərlə baxdı, əvvəl-əvvəl görər gözləri görməz oldu, sonra məni tanıdı, qayət yenidən kövrəldi:

– Dədə, sənmisən? – sordu. – Oğlancığım İmran üçün ağlaram.

– Oğlancığına nə olmuşdur?

– Dədə, heç sorma. İndicənə ürəyimə, elə bil, sarı ilan soxdular. Gözümün önündə bir vaqeə canlandı. Amma sən səni bilirsən, sənin bizdən xəbərin olmaz. Bilirmisən, üzərimizə Gürcüstandan Qara Təkurun qoşunu çəkib gəldi. Bəkil xəstə, döşəkdə. Ava varmış, avda ayağını sındırmışdır. Qara Təkurun üstünə babasının əvəzi oğlancığım İmran getdi. Nə qədərinə yalvardım olmadı. Cəng etdi, savaşdı, amma nə yaşı var ki… Bax hələ, bir bax. Görürəm. Vaqeədə görürəm. Az qala zəbun olacaq. Kafirin, yarımasın, yarçımasın, qılıncı göydə sıyrıla durdu, oğlancığımın başı yerə əyilmiş, onun başını o qılınc kəsmək dilər – vaqeədə bunları sən də görürmüsən, Dədə?! Mənə yardım, mənə mədəd. Qara başım qurban olsun sənə, mənə mədəd edərmisən? Bütün günah məndən oldu. Məndən oldu günah. Mən biçarə, mən zavallı… ah… ox…

Xanım, Bəkilin xatunu beləcənə ah-vay edib göz yaşını sellədirdi, mən "xatunda ağılmı olar?!" düşünüb "Bəkil nerdə?" – ona bir dəxi sordum.

– Nerdə olacaq?! Bəkil evdə. Yıxıla qalmış. Yorğan-döşəkdədir. Dedim ya, ovda ayağını sındırmışdır. Qazanın evi dağılsın, Dədə. Yarımasın, yarçımasın. Bu müsibətlər onun üzündən bizim başımıza gəldi.

– Qazanlıq nə var bunda? – Mən təəccüb etdim.

– Dədə, mənim oğlancığımı mənə qaytar, hər şeyi sənə söyləyim. Yoxsa… qarğaram həpinizi! Dədə, mənim İmrancığımı mənə yetir! Yetirməzsən, qarı düşmən bir idisə min olsun sizin üçün, əl götürüb Allah-taalaya mən dualar edərəm. Bəkil qanlı Abqaz elinə köçün sürmək dilər. Köçü ilə, yurdu ilə buralardan, vətənindən uzaq duşmək istər. Baiskar Qazandı! Dədə, sən bunları bilməzmisən?! Sən ovda olmadınmı, Dədə?! Bəkili Qazan ova çağırdı. Sağ çağırmayaydı. Sən Qazanla Bəkilin qavğasını görmədinmi?! Dədə, sən mədəd əhlisən. Tanrıya dua et, nolar?! Kafir mənim oğlancığı çalmasın. Çalmaq dilər. Bax hələ. Vaqeəyə sən bir bax…

Xanım, elə uyqunun içindəcə mən bu xatunun gözünə görükən vaqeəni onun gözünün içindəcə seyr eləməyə başladım. Bəkilin gənc oğlu İmrancığı Qara Təkurun qabağında diz üstünə çökmüş gördüm. Oğlanın başı sinəsinə enmiş, Təkurun qılıncı sıyrılıb göyə qalxmış gördüm. Bir onu bildim, şəfqət damarım qeynədi, könlümü-üzümü Nur daşına tutdum: "Ey Nur daşı, daşların əqillisi, daşların sevgilisi, sən sən ol, ol kafirin niyyətini dayandır, oğlanı həlak etmək dilər, qoyma, oğlana möhlət ver, vaqeəni dondur".

Bunu dediyimi gördüm. Anındaca həqqən vaqeə donmuş durdu. Qara Təkurun ancaq gözləri ora-bura fırlaya-fırlaya təəccüb içində qaldı, əli-ayağı tamam dondu. Qılınc da necə qalxıb durmuşdu oğlancığın başı üzərində, eləcənə tərpənməz oldu. Üzümü Sürməlicə Çeşmə qıza tutdum:

– Çün mədəd dilədin, bax. Tanrı sənə yardım əlini uzatdı ola. Bax, bax vaqeəyə, görürmüsən, hər şey dondu qaldı. Ulu Tanrı möhlətini səndən, sənin oğlundan əsirgəmədi. İndi söylə, Bəkil nerdə, bu yağı nə yağıdı, bu savaş nə savaşdı? Qazana neçün qarğarsan? Aramla söylə. Oğlancığın zavaldadı.

Sürməlicə əvvəl-əvvəl diqqət etdi, vaqeəyə gözün dikdi durdu. Elə ki, o da mən gördüyümü görə bildi, ayağıma düşdü, ikiəlli qucaqladı.

– Dədə, səni qadir Tanrı yetirdi ola. Dədə, sənə iman gətirməyən evinə qarğış gətirə dura. Dinlə məni, Dədə. Dədə, günah mənimdi, mən faş etdim aləmə Bəkilin ayağının sınmağını. Dilim, dilim, vay dilim. Dədə, dilim dinc durmadı, qaravaşa söylədim. Nə biləydim?!

– Qaravaşa don geyirsən xatun olmaz, bəlli bilgil. – Mən dedim.

– Bilmədim, Dədə, bilmədim. Sonra qaravaş da kiməsə söylədi. O kimsə dəxi kiməsə xəbər apardı. Sonunda Qara Təkur duydu bunu, belə dedi: "gedəyin, Bəkilin evini, yurdunu talan edəyin, o buralara gələli bizim günümüzü göy əskiyə bükdü".

– …Bəkil də ki yataqda, eləmi? – Mən düşüncəli sordum.

– Bəkil də ki yataqda, Dədə. "Oğlum İmran mən əvəzi düşmənə varsın" dedi. O da ki… belə. Hələ bir gəl, gəl içəri. Bəkil səni görüb sevinəcək.

– O məni necə görəcək, qız Çeşmə? Bu axı uyqudur. O ki mənim uyquma girəməz.

– Sən istərsən girər. Neçin girməz olur ki?! Dədə yap bunu, nolar?! Bəkil sənə Qazanla küsüşməsini nəql edər, sən də əhvalatı bilmiş olarsan. Bayındır Xana söylərsən. Mən neçin Qazana qarğadım, anlarsan.

Biz hansı zamandan biri-birimizin uyqusuna girdik ki?! Girə bilmənik. Bu Xatun Qazana neçin qarğadı, Qazanın Bəkilin ayağının sınmasında, Qara Təkurun ordu ilə gəlib Oğuzun sınırını almasında suçu nədir?! "Nə isə" deyib "xatunda ağılmı olar?!" bir dəxi düşündüm, Sürməlicə Çeşmə qızın ardınca evə girdim. Məni Bəkilin yataq odasına götürdü. Gördüm Bəkil yataqda, üzü-gözü şişmiş, ayağını bir para əski-üsküyə tutmuşlar. Ağrıdan inildər durar.

– Bəkil, sənə nə oldu, yigidim? – deyib sordum.

Xanım, mən bu Bəkili çox istərəm. Yadındamı, Gürcüstandan xərac gəldi, çomaq gəldi, hamı ağız büzdü, kimə təklif etdinsə heç bir kişi yaxın düşmədi, bir bu dedi: "Xan buyursa, mən vararam o yerlərə, Oğuzun sınırını mən qoruram".

Vardı, qorudu. Çox səy etdi, şücaət göstərdi, o zamandan Gürcüstan ağzından bir qayğulu xəbər yetişmədi Oğuza. Bayındır Xana sədaqətinə, Oğuza sədaqətinə görə mən dəxi sevdim Bəkili. İndi onu bu halətdə gördüyümdə könlüm incidi, gördüm, ağrıdan dişini-dişinə sıxmış durur. Tez cübbəmdən bir əlçim ot çıxardım. Nur daşının dibində bitən bir başqa otdur bu ot. Çeynədinsə, bütün ağrını-əzabı unuda bilirdin. Gözünə min cür xəyalat görünərdi, sən özün öz cildindən çıxardın, uça-uça göylərə baş vurub yenə də sonra öz cildinin içinə gəlib girərdin. Bu otdan bir azca Bəkilin ağzına soxdum, "çeynə bunu, Bəkil" dedim. Zəifləmiş bir nəzərlə mənə baxdı, tanıdı, tanımadı biləmmədim, amma güclə, birtəhər, heysiz-heysiz otu başladı çeynəməyə gördüm. Çeynədikcə heysiz başı heyə gəldi, gözləri alacalandı, Bəkil qas-qas güldü:

– Qorqud, sənmisən? – Bəkil məni tanıdı ola, sordu.

– Bəli, Bəkil, mənəm, – dedim.

– Bu nə idi, sən mənə verdin? – Bəkil sordu.

– Otdu, çeynə, ağrıların uçub gedəcək.

– Artıq uçdu, Qorqud. – Bəkilin gözləri yenə gülürdü, birdən gözlərini qıya tutdu mənə baxdı. – Sənin buralarda nə işin vardır, Qorqud? – Bəkil artıq yatağındaca vurnuxub mütəkkəyə dirsəkləndi. – Xatun, – üzünü Sürməlicə Çeşməyə tutdu. – Xatun, qaravaşlara buyur, Qorqud gəldi, yemə-içmə gətirin.

– Yemə-içmə vaxtı deyil, bəy. – Sürməlicə Çeşmə Xatun başını yerə dikdi.

– Niyə? Nə oldu ki? Bir xəbərmi var? İmrancıq nerdə?

– İmrancıq… – Sürməlicə Çeşmə Xatun az qala yenə başlayacaqdı zar-zar ağlamağına, səsi titrədi.

– Bəkil, etmə-eləmə, dayan, yemə-içməyə tələsmə, – deyərək mən üzümü Bəkilə tutdum.

– Qorqud, bu ayağım, bu ayağım zoqqul-zoqqul bir zoqquldayırdı, hara uçdu getdi bu ağrı?.. – Bəkil yenə qas-qas gülüb maraq edib mənə sordu.

– Otdu, Bəkil, çeynədiyin otdu, ağrılarını uçurdu getdi…

Bəkil gülməyini heç cür saxlaya bilmirdi.

*Bu yerdə Bayındır Xan məni saxladı, haman ot barədə sorğu-sual etdi. Mən Xana o ot barədə nə bilirdimsə danışdım. Ağrı-acıya dərmandı, dedim. Huşu başdan aparır, dedim. Başlayırsan özün-özünü kənardan seyr edirsən, canın cismini tərk edir, ucsuz-bucaqsız göylərə baş vurur, nəhayətsizlikdə uçur, uçur, yenə qayıdır girir öz cisminin içinə, öz yerinə. Bayındır Xan mənə haman otdan ona da gətirməmi buyurdu, daha demədi, nə üçün lazımdır ona bu ot. Mən də sormadım, gərəkirsə özü söylərdi.*

Bəkil yavaş-yavaş özünə gəldi. Gözləri işıqla doldu. Heç nədən qas-qas gülməyi isə kəsilmirdi. Özünü heç cür saxlaya bilmirdi. Bu gülüşünə

özü də mat-məəttəl qala durmuşdu. Birdən ora-bura boylandı, gözlərilə kimisə aradı:

– İmrancıq noldu, düşmənə varmışdı, geri gəlmədimi hənuz?

– Gəlmədi. – Sürməlicə Çeşmə Xatun başını qaldırmadan hıçqırıb cavab verdi.

– Noldu ona? – Bəkil bir dəxi sordu, çönüb heyrətlə mənə baxdı.

– Bəkil, oğlancıq az qala idi, Qara Təkurun əlində zəbun olacaqdı, Allah-taala izin vermədi. Nə yaşı var onun, sən onu Təkura qarşı qoydun? Heç doğru etmədin sən. – Mən Xatunun ürəyindən keçənləri Bəkilə dedim.

– Nə edəydim? Qazan mənə nələr dedi, bilirmisən? Bilmirsən, sən avda yox idin. – Sonra üzünü Xatuna tutdu. – Çıxın, siz çıxın, mən bir Qorqudla xəbərləşim.

Sürməlicə Çeşmə qız mənə hüzn dolu bir baxış atıb dışarı çıxdı.

– Sən dəxi eşitdinmi avda başıma gələnləri? – Xatun çıxınca Bəkil sözünə başladı. Bəkilin səsindən indi umu-küsü nədi, qəzəb yağırdı, bir dəxi təkrar elədi. – Eşitdinmi Salur Qazan nə türlü oyunlar çıxardı avda? Beyrək mənə nə cür küfrlər etdi, duydunmu?

– Duymadım, dan-danışaq. Söylərsən, mən dəxi duymuş olaram.

– O zaman dinlə məni, Qorqud. Amma yox. Öncə İmrancığı qurtaralım. Mən Qara Təkura varım gərək. Sonra. Sonra, mən sənə qəziyyəni sonra nəql edərəm. – Bəkil yataqdan qalxmaq üçün cəhd elədi, amma duramadı ayağa, yenə heysiz olub mütəkkəyə yıxıldı, ağır-ağır nəfəs aldı: – Ayağım sınmışdır, Qorqud. Qara Təkur da necəsə olmuş, xəbəri duymuşdur. Mənə imdad elə. Oğlancığım… – Bəkil məlul-məlul mənə baxdı.

– Xatun söylədi. Sən heç maraq eləmə. Mən bu işi həll edərəm.

– Necə? Necə həll edəcəksənmiş? Sən Qara Təkuru tanımazsan. Məndən oldu, sütül oğlancığı qüvvəsi-gücü bəlli Təkura qarşı göndərdim. Məndən oldu…

Bəkil zarlıq elədi, gözündən bıldır-bıldır yaş axmağa başladı.

Nə edəydim, Xanım?! Yenə Nur daşının mərhəmətinə sığınmaqdan başqa əlimdən bir şey gəlmədi. Elə uyqudaca qurtuluş duasını ürəyimdə elə bərkdən oxumağa başladım ki, özüm də ayaq üstə güclə davam gətirib

durdum. Az qala yıxılacaq idim. Amma səndirləyə-səndirləyə əlimi yatağın hündür tutacağına atıb ayaqda qala bildim.

Ürəyimdə isə belə deyirdim: "Ey Nur daşı, bir parça nurunu əsirgəmə mən qulundan. Bu atanın, bu ananın günahları böyükdür. Fəqət bu oğlanın günahı yoxdur. Gəncliyinə bağışla onu. Bir parça nurunu kölük elə, göndər Qara Təkurun göyə qalxmış qılıncının canına. Qılıncın gövdəsi par-par parıldar, düşər bunun şöləsi kafirin gözünə, qamaşdırar kafirin gözünü, oğlan qurtular. Mədəd qıl".

Nur daşı, Xanım, dediyim kimi də elədi. Bir parça işığından ayırıb göndərdi Təkurun qılıncına. Qılınc göydə bərq vurdu, bu bərq qayıdıb düşdü kafirin gözünə, gözü kafirin qamaşdı, bu dəm mən də cəld tərpəndim, vaqeənin donuqluğunu açdım. Təkur necə durmuşdusa eləcənə durdu, əlləri ilə gözünü tutdu, bu zaman qılıncı əlindən düşdü. İmrancıq çabuk oldu ayağa sıçradı, qılıncı bayaq əlindən düşmüş idi, indi qılıncını çəkib kafirin boğazına tutdu. Gücü birə on artdı ola. Qara Təkur bunun ayağına yıxıldı.

– Baxarmısan, Bəkil?! Oğlan Təkuru yendi. İndi başını kəsir. – Vaqeəni buna da göstərdim. Bəkil bayaq ağlardı, indi qas-qas güldü, əlin-əlinə çaldı:

– Gəlin a, – ətrafa səs elədi, – gəlin tədarük qılın, İmran qalib oldu, geri dönür.

Sürməlicə Çeşmə Xatun özünü içəri necə saldı, biləmədim, vaqeəni görcək yenə mənim ayaqlarıma atılmaq istədi, mən qollarından tutdum, qomadım. Xatun dil boğaza qoymadı, dedi:

– Qorqud, Qorqud! Sənə inanmayan ölsün. Sən dədəsən, Qorqud, sənin qüdrətinlə bu iş oldu. Allah-taala sənin könlünə ilham verdi. Sağ ol, əsən ol. Səni görüm, umurun açıq olsun. Sözlərin məlhəm olsun. Bizlərə həmişə dayaq ol. Sən söylə bəyə… Söylə… Xanına asi olanın işi rast gətirər, ya gətirməz? – Sürməlicə Çeşmə Xatun bu sözləri ağlaya-ağlaya, sısqaya-sısqaya elə yanıqlı bir səslə oxşadı ki, ürəyimə dağ qoydular, ürəyim dözmədi, özüm özümə söz verdim ki, Bəkilin işini çözəcəyəm, bunu Xanımıza gərəkirsə ona da söyləyəcəyəm. Sonra isə… Sonrasını Xan bilər. Bəkil isə mənə bunları danışdı…

*Bəkilin Dastan variantına görə Qazan bəyə ovda küsməsinin indicə görəcəyimiz kimi gizli mətləbləri varmış. Qorqud bir qədər əvvəl, əlbəttə ki, haqlı deyildi. Onun təsəvvürünə görə Bəkillə söhbətinin əsas məsələyə bir elə dəxli yoxdur. Əlyazmada o elə belə də yazır: "…Bəkilin tarixçəsi uzun tarixçədi. Bizim məsələyə dəxli varmı, yoxmu, onu mən bilmənəm, onu sən bilərsən, Xanım". Əslində isə, casusun zindandan çıxarılıb Oğuzdan uzaqlaşdırılmasının əsl günahkarının müəyyənləşməsində bu ov səhnəsinin xüsusi əhəmiyyəti var. Bir qədər sonra bu incə məqam sizin üçün də aşkar şəkildə özünü büruzə verəcək.*

…Bəkil mənə söylədi ki, Xanım, günlərin bir günü Salur Qazandan xəbər gəldi. Bəkilin hər hansı zaman Oğuza yolu düşərsə, mənə varsın, onu ağırlamaq istirəm. Mən Qazandan adəta hörmət və izzət görmüşəm. Onun bu iltifatı məni çox-çox sevindirdi. Xəbər gətirən Qonur Qoca oğlu Sarı Çoban idi. Ona dedim, dur var ağayıla, bəyəndiyin qoyunların simizini al, apar Qazan xana şişlik olsun. Gəldiyimdə də keyikdən, cüyürdən özüm av eləyib Qazana gətirəcəyəm. Sarı Çoban ağca-ağca qoyunları seçdi, qatdı qabağına düşdü yola, İç Oğuza dönər oldu. Zaman keçdi, günlərin bir günü Bayındır Xan məni yanına istədi. Düzmürd qələsi hadisəsi sənin yadında olar. Qazılıq Qocanı Arşın Dirək tutub salmışdı qaranlıq dama. Qurtarmağa onu gedən-gedən əliboş geri qayıdırdı. Hər gedənə dedim, bəyim, Düzmürd belə asan alınmaz. Düzmürdün uca hasarı, hər biri altmış arşın boyu qoruqçuları var. Əlqəziyyə, sözümə baxan olmurdu. Əmən belə muzdlu qoşun topladı, amma gedib yenə əliboş qayıtdı. Qazılıq Qoca bir parça əppək oldu çəkildi göyün yeddinci qatına. Qərəz, Bayındır Xan mənimlə Düzmürd qələsi ilə bağlı məsləhət eləmək istirdi. Qazılıq Qocanın oğlu Yeynək babasını qələdən almağa Xandan rüsxət diləmişdi. Xan da bu rüsxəti Yeynəyə vermişdi. Mənə xəbər gəldi ki, Düzmürd ətrafı yerlər barədə, oranın kənd-kəsəyi, yolu, izi barədə Bayındır Xana məlumat verməliyəm. Səfər ciddi səfər idi. Mən Günortaca, Xan sarayına gəldim. O yerləri çox gəzmiş

idim. Buna baxmadım, bir dəxi casuslar göndərdim, hər dərəni, hər cığırı dönə-dönə öyrəndim. Sonra gəlib Bayındır Xana nə bilirdim, söylədim. Sonda "Muzdlu qoşun Düzmürd qələsini ala bilməz, Xanım, – dedim. – Ora akına gedənin qəlbi Oğuz eşqi ilə yana gərəkdir".

Xan mənə rəğbət edib diqqətlə dinlədi. Sonra Qazılıq Qocanın oğlu Yeynəyi çağırdı, ona daha durmayıb səfərə hazırlanmağını, Oğuz içindən bu akına gedəcək kişiləri toplamağını buyurdu. Qazan da, təbii, məşvərətdə idi və biz Xan otağından çıxanda Qazan mənə belə dedi:

– Ava varalım, doğrudur, biz sənin keyik, cüyürünü peşkəş görmədik, söz verdinsə də gətirmədin, amma nolar, eyb eləməz, biz səni ağırlayalım, Bəkil. Sən artıq buralarda qonaqsan. Akından öncəki avın bir başqa dadı olur.

Qorqud, sən mənim ox atmağımı bilirsən, demi?! Ceyranın qabaq ayağını qulağına oxla pərçim edən Bəkiləm mən. Çox ceyranları böylə vurub yenidən düzə buraxdım, yemədim. Bu cür ceyranları Oğuzda ovlar olarkən, Bəkilindir deyib çox kişilər göndərdilər mənə. İndi ünüm dinlə. Bu Qazan məni ava dəvət etdi, mən dəxi sevindim. Ovda çox kişi vardı. Şirşəmsəddin vardı, Qaragünə – Qazanın qardaşı vardı. Qara Çəkur vardı, oğlu Qırqqunuq da ki bilirsən, harda atası, orda o, hər ikisi vardılar. Beyrək də vardı. Qara Çəkur ox atdı, Qazan əhsən dedi, hünər ər igidindi söylədi. Qırqqunuq atdı, Qırqqunuq ha, Qazan ona dəxi əhsən söylədi. Əlqərəz, kim yayın çəkib oxun atdı, Qazandan əhsən eşitdi. Mən atdım, Qorqud, sən bilməzmisən, bir atdım oxu ki. Ox hələ havada vıyıldayıb uçar ikən havanı udum-udum kəsib uçdu, heyvanın bir tərəfindən girib deşib o biri tərəf qabırğasından çıxıb keçdi. Qazan bunu görcək nə dedi, bilirmisən, Qorqud?

– Nə dedi? – Mən sordum.

– Qazan dedi: "Bu hünər ərin hünəri deyil, bu hünər atın hünəridir". Gör bir. Atın ha?! Sən bir işə bax. Mən bir heç, yəni. Dedim, Qazan, axı mənim ox atışım Oğuzda ad iləndir, sən ki, bunu bilirsən…

– Ya buna nə dedi Qazan?

– Nə deyəcək imiş?! Yox, dedi, at işləməsə, ər hünər göstərməz. Sənin atın əqilli atdır. Hünər atınkıdır, bir dəxi dedi.

– Bəs sonra nə oldu?

Sonra bəylər çalışdılar, bir daha məni imtahan etsinlər. Beyrək çox canfəşanlıq etdi: "Qazan bəy doğru söylədi, əlbəttə, hünər atındır" – dedi.

Sordum:

– Ya mənlik bir iş yoxmudur?!

– Yoxdur. – Beyrək dedi.

Qorqud, gözlərimə qapqaranqu su doldu.

– Gözüyumulu ataram mən bu oxu. Vuraram heyvanı, – dedim.

Gülüşmə qopdu:

– Gürcüstan ağzında oturmaqdan pas atmısan, Bəkil. – Bunu Beyrək söylədi.

Bəylər anındaca susdular. Ortalığa qan qaraldan sükut çökdü.

– Beyrək, – mən dəxi buna dedim, – mən aşağı qulpa yapışıram, sən yuxarı qulpa yapışırsan. Mərə, gəl sənin özünlə ox atalım, mən sənə göstərim hünər kiminkidir, ərin, ya atındır…

Beyrək qızdı, mənə gəldi, dedi:

– Mənəmi hərzə-hərzə söylərsən?

Mən Beyrəyə heç bir cavab vermədim. Üzümü Salur Qazana tutdum:

– Bəy, – dedim, – bunu oturt öz yerinə. Həddini bilsin. Yoxsa…

Salur Qazan, sanasan ki, Beyrəyin cəsarətindən xoşhal olmuşdu. Bir söz deməsə də mən görürdüm ki, Beyrəyin ürəyinin sözlə dolu olmasından onun xəbəri vardır. Beyrək Qazanın yanında bir az dəxi irəli getdi. Qızdı, nə qızdı. Üzünü mənə tutub bu dəfə bağırdı:

– Yoxsa nə? Noldu, söylə baxalım…

Mən yenə Beyrəyə heç bir fikir vermədim. Bir dəxi üzümü Qazana tutdum və bir dəxi dedim:

– Qazan, köpəyinə de, yerində şunqurdub otursun. Mənəmi söylədi, söylədiyi sözləri?! Həddini bilsin.

Beyrək get-gedə daha çox qızırdı:

– Mənmi həddimi bilim?! Bəkil, sən Oğuzdan uzaqlarda yalquzaq olub da qalmışsan, nə zamandır bir kişi, bir insan görməmişsən, kimə dönüb çevrilmişsən, bilirmisən?! Yapdığın bir iş yox, eləcənə yapmadığın bir

iş dəxi yox. Mənmi həddimi biləcəkmişəm? Sən özün həddini bil. Kəsərəm səni, Bəkil.

Bunları Beyrək mənə dedi və əlini qılıncına atdı. Mən zor-güc qəzəbimi saxladım. Bir dəxi Qazana baxdım:

– Qazan bəy, son dəfə sənə söyləyirəm. Günah məndən keçdi.

Qazan bu səfər məsələni dərinləşməyə izin vermədi:

– Bəylər, qurtarın bu qavğanı. Di, bəs olsun. Hər ikiniz susun. Lafı bitirin. Biz buraya əylənməyə gəldik ya. Unutdunuzmu?

– Hələ mənəmi sən köpək dedin? – Beyrək heç cür sakit olmurdu.

Mən dəxi dedim:

– Səndən başqa burda köpək varmı? Əlbəttə ki, sənə dedim.

Beyrək qılıncını sıyırdı:

– Belə köpək də var isən, qarğa-quzğun da var isən… Çıx ortaya.

Mən dəxi əlimi qılıncıma aparan yerdə bu dəfə Qazan sərt bir səslə Beyrəyə bunları dedi:

– Mən sənə söyləmədimmi bu lafı burada bitirin?! Söylədim, söyləmədim? Şirşəmsəddin, apar bunu o tərəfə.

Şirşəmsəddin Beyrəyi qucaqlayıb aşağıdan buzlu bir pınar axırdı, bu pınarın yanına darta-darta apardı.

– Sən isə, – Qazan üzünü mənə tutdu. – Sən isə, Bəkil, nə dediyimi yaxşı dinlə. Mənim oxum da, yayım da Trabzona qədər hamıya bəllidi. Ər olsan, comərd olsan, mən Qazanca olmayasan. Anladınmı? Yerini bil. Bir dəxi sənə söyləyirəm: sənin atının hesabınadı ceyranların ayağını qulaqlarına pərçim etməyin. Atın hünəridi.

– Beləmi oldu?! – Mən səxt olub Qazana sordum.

– Bəli, belədir ki, var – Qazan cavab verdi. – Siz deyin belə deyilmi, bəylər? – Üzünü tutdu ətrafındakılara.

Bəylər həp Qazanın dediklərini başlarını yerə dikmiş təsdiq etdilər, "bəli, belədir" söylədilər.

– Başımı bəylərin arasında yerə vurdun, palçığa soxdun, Qazan. Mən səni tanımıram, sən də məni tanıma.

Bunu söylədim, atın başını çöndərib naiblərimi başıma yığıb "getdik" dedim və üz tutdum obaya gəldim. Yol gələ-gələ çox türlü şeylər düşündüm. Düşündüm, daşındım, qəti qərara gəldim. Qazan bu hayıfı məndə qomaz. Mənim hünərimi göz görə qaraladı. Bəylər də Qazanı tutdular. Əlbəttə, Qazan istərsə məni Bayındır Xanın dəxi gözündən salar. At çapar, gələr, elimi-obamı başsız qoyar, talayar, darayar gedər. Hələ Beyrək nələr etməz?! Etməzmi? Edər! Bu da mənim mükafatım. Nə etməli, necə etməli? Bu cür düşüncələrlə obaya yetişdim. Onbaşılar qarşıladı, atı çəkdilər, apardılar. Səxt olduğumu gördülər, bir söz söyləmədilər. Zatən sabah hamı qəziyyəni biləcəkdi. Naiblərim yol uzunu susub dursalar da mənim Qazana küsməyim, Beyrəklə davalaşmağım onları da, əlbəttə, pərişan etmişdi. Hələ Bayındır Xanın qorxusu da bir tərəfdən canlarını almışdı. Bayındır Xan Qazanın sözü ilə mənə qatı qəzəb edərsə, onların halı nə olacaqdı?! Evə girdim, Xatun halımı görüb sordu:

– Nə oldu sənə, bəyim, şad-xürrəm getdin, pərişan geri dönürsən?!

Dedim:

– Qazan məni bəylərin yanında xınc elədi. Ava getdik, ceyran-cüyürə ox atdıq. Məni bəyənmədi. Hünərimi atınkıdır dedi.

– Öyləmi dedi? Nə olsun? Dedi, dedi. Bütün Oğuz əhli ayağı qulağına oxla yapışa qalmış ceyran-keyikləri səninki deyib sənə göndərmirmi? Nə deyirsə, Qazan desin… Özü üçün deyir.

– Yox! Mən Qazana küsü durdum. Mən Beyrəyə qarşı varam.

– O Beyrək hələ nə yapdı?

– Nə yapdısa o yapdı. Çox dözdüm, Xatun. Mən aşağı qulpa yapışdıqca Beyrəyin ayağı yer aldı, üstümə gəldi. Mənə qılınc çəkdi. Bəylər bizi ayırdılar. Bilirmisən, nə düşündüm?! Qazanla Beyrək birləşib obamın üstünə gəlmədən mən köçümü sürüb bu yerlərdən gedirəm. Mən Oğuza asi oldum. Allah keçsin günahımdan, – dedim.

Xatun başladı mənə yalvardı:

– Yapma, bəy yigidim, etmə, sultan yigidim. Xanına asi olanın işi rast gətirməz. Dur bir ayağa, bu pərişanlığın bir daşını at. Məlul-məlul üzümə nə baxarsan?! Ava çıx. Bu türlü fikirləri də unut getsin. İgidləri al yanına,

bu dağların keyikinə nə gəlib ki, sən Qazanla Ala dağa ava gedirsən. Çox da o Qazandı. Sən də Bəkilsən. Sən olmasan, bilirmisən, nələr olur?! Oğuzun bir gün belə dincəlişi olmaz, sultanım. Bu sınırı Qara Təkurdan qorumaq asan bir işmi oldu indi?! Biri gəlib niyə də qorumadı?! Sən varsan, sənin nəfəsin var ki, bu yerlərdən uzağa durur yağı düşmən. Belə deyilmi?! Casusların bunu belə söyləmirmi?! Qalx, qalx, bəy yigidim, atının yəhərini indi gedib söyləyim, heç açmasınlar. Var ava, ürəyimə keyik əti düşüb, mənə av əti gətir, Bəkil, yigidim Bəkil…

Xatun məni başımdan və yerimdən elədi. "Qazan hələ Bayındır Xan deyil. Əlbəttə, mən Bayındır Xanın yanına vararam, əhvalatı ona anladaram. Əlbəttə, Xan, Qazanın cəzasını verər. Hələ əsl cəza Beyrəyin cəzasıdı. Bütün günah Qazandan çox Beyrəyindir. Quyruq bulayır. Quyruq bulamağı Bayburdda öyrətdilər buna qayət ola. Xatun doğru söyləyir, ava çıxım. Fikrim dağılar, həm də Xatunun ağlı yerindədir, mən isə qızmışam. Qorqud deyər: qızmış başda ağıl olmaz. Bunları düşündüm, uzun bir yolu əlimə dolayıb Oğuzdan təzəcə dönməyimə baxmadan bir daha yigidləri, onbaşıları, naibləri başıma yığıb atıma mindim. Bizim bu tərəflərin uca-uca dağları, sıldırım qayaları var. O dağlarda keyiklərin sayı yox, hesabı yox. Xeyli vaxtdır, bu dağların keyikinə ox atmadım. Haydı, azuqələrinizi alın, sursatınızı götürün, yigidlərim, haydı, gedəlim, qarşı yatan qara dağa ava, ava… qaç ha, qov ha… dəydi, ox dəydi!.. ox dəydi!..

Bəkil həyəcanla bunları degəc mən dəxi uyqudan hövlnak ayılıb gözlərimi açdım, özümü yenə Nur daşının ayağında gördüm, Xanım.

Şahın heç həvsələsi çatmadı ki, səfirlərlə düz-əməlli bir söhbət eləsin. Səbəbini bir özü bilirdi, bir də Lələ. Amma yox, Şaha baxıb Vəzir də onun tövrünün nə üçün bu cür olmağına hər bir dərinliyi ilə olmasa da, hər halda bir səbəb tapırdı. Əlbəttə ki, Şah Lələ ilə bir-iki kəlmə kəsəndən sonra belə bir hala düşdü. Səfirlərin nə deyib-dəmədiklərinə, elə bil, heç qulaq da vermirdi, halbuki onların bu boyda yolu yorub uzaq-uzaq yerlərdən buralara gəlib çıxmalarını özü xeyli vaxt idi, səbirsiz gözləmişdi.

– Şahim, qurban olduğum, bu soruşur ki, bizlərdən də onların məmləkətinə elçilər göndərmək niyyəti varmıdır qədəmi-mübarəkin? – Vəzir ağzını Şahın lap qulağına yapışdıracaq idi ki, Şah onun sözlərinə, nəhayət ki, mültəfit oldu, başını çəkdi kənara. Üzündə rubənd vardı, üzünü turşutmağı bilinmədi:

– Niyə, pis fikir deyil. İnşallah, belə bir niyyətimiz vardır, – dedi. – Biz hər bir əmələ başlamazdan əvvəl bir "inşallah" deyərik. Tərcümə elə…

Səfirlər dörd kişi idilər. Biri türkcəni bilirdi. Tərcümanlığı da o edirdi.

– Səfir ağa, deyirsən neçə müddətdir ki, yol gəlirsiz? – Şah tərcüməçini gözləmədən dübarə sual etdi.

– Bir ildən çox olar, qibleyi-aləm. – Səfirə elə gəldi ki, Şahın rübənd arxasından görünməyən üzündə bir yorğunluq var.

– Bir il. Bu yolları ki, siz yorğun-arğın keçib gəlmisiz, ənam düşür hər birinizə. Paytəxt də, deyirsən ki, suların içindədi? – Şahın səsində istehzadan çox, bir inamsızlıq hiss edildi. – Yaxşı, bəs belə, – yenə tərcüməni gözləmədən son sözünü demək üçün artıq ayağa qalxdı. Şaha baxıb hamı dərhal yerindən sıçradı, durdu. Şah dedi:

– Yol gəlmisiniz, yorulmusunuz. Vəzir, sən özün nəzarət elə, qonaqlara yaxşı-yaxşı qulluq etsinlər, xidmətlərinə dursunlar. Bir-iki gündən sonra söhbətimizə yenidən davam edərik, inşallah.

Daha heç kimə nəzər yetirmədən Şah yeriyib səbirsiz təxt otağını tərk elədi. Vəzir, səfirlər, macal tapıb elə ayaq üstəcə baş endirib dondular. Sonra Vəzir qaldı səfirlərlə bir yerdə və bunlar bir qədər narahat-narahat yenidən əyləşib söhbəti çalışdılar davam etdirsinlər. Səfirlər öz paytaxtları barədə, yol keçib gəldikləri yerlər, məmləkətlər barədə, üzünü görməyib və adını eşitmədikləri irqlər, xəlqlər barədə danışdıqca Vəzir hər cür sözə diqqət edir, beyninə yazdığını beyninə, kağıza yazdığını kağıza yazır, "birdən işdi şayət, qurban olduğum soruşsa, bilim nə cavab verirəm" deyə fikirləşir, amma dərində bütün marağı Şahla Lələnin yanında idi deyin, həmişə olduğundan daha diqqətsiz idi və tez-tez səfirlərdən bunun, yaxud o birisinin sözünü kəsir, indicə eşitdiyini bir daha soruşur, bir daha mətləblərin ən gizlin mərtəbəsinə vaqif olmaq istirdi. Səfirlər isə artıq bir qədər rahat şəkildə söhbətlərinə davam edir, səbrlə bu çalsaç, gözləri dalğın rəyasət adamının hər bir sualına xeyli ətraflı, müfəssəl cavablar verirdilər.

– Bizimkilər siz tərəfə gəlsələr əgər, Osmanlı torpaqlarından keçib getməlidilər, dediniz. Yəni, bir başqa yolumuz heç yoxdur? – Vəzir yenə dalğın-dalğın soruşdu.

Səfirbaşı bir bənizi solğun rumlu idi, sualı anlayan kimi bir xeyli fikrə getdi, xəritə açıb ona nəsə göstərən o biri səfirlə nə barədə isə danışdı, sonra yenidən üzünü Vəzirə çöndərib cavab verdi. Tərcüman onun cavabını belə dilə gətirdi:

– Vəzir həzrətləri, necə ki ərz elədim, ən qısa yol budu ki var, o da keçib Osmanlı torpaqlarından gedir. Bundan savayı da yollar vardılar. Özü də bir neçəsi var. Amma çün uzun çıxırlar və zamanına görə də bu qısa

yolu üstələyirlər, və həm də ki, təhlükəsiz olmurlar, məsləhət deyillər. İlnən yol getmək lazım gəlir. Dənizlərdən keçmək tələb olunur. Yolkəsəni, qulduru var… Əgər Şah qurban olduğum, sadağa olduğum izin verərsə, bir başqa yolun beynimizdə inşasına başlarıq. Yolun istiqamətini əvvəlcədən cızarıq. Osmanlıdan keçərsə, Osmanlıdan keçsin. Elə edərik ki, Osmanlının heç xəbəri belə olmaz.

– Əlbəttə ki. Əlbəttə ki. Mürşidi-kamilim ilə bu barədə daha ətraflı müzakirə ediləcəkdir, inşallah. Belə… Bəs deməli, sizin xəritəyə görə Osmanlı bizimlə sizin düz ortamızda bərqərar olubdur… Nolar… Çox calibdi… – Və birdən, – yəni, doğrudan, sizin paytəxt dənizin içindədi? – Vəzir qəflətən soruşdu.

Səfirlər bir-birinin üzünə baxıb artıq neçənci dəfə bu sualı təsdiqləyə-təsdiqləyə qaldılar. Vəzir özü üçün daha bir para qeydlər dəftərinə edib xeyli nəvazişkaranə qonaqları nahara dəvət etmək istədiyini bildirdi. Hamı razılıq edərək ayağa qalxdı. Vəzir "çox gözəl, çox pakizə, buyurun, buyurun" deyə-deyə düşdü qabağa və arxasınca səfirlər, digər əyanlar divanxanadan çıxdılar. Divanxana yenə qaldı boş.

Şah arxa bağçadan tələsik keçərək bağçanın bir küncündəki özünün gizli istirahət otağına buyurdular. Lələ Şahın gəlməsini hənirtisindən hiss eləyib qapını açdı, tezcə də Şahın dalınca qapını bağladı. Şah gözü ilə Lələdən sual etdi, nəsə soruşdu, Lələ başını əydi və Şah daha durmayıb rəxtxab otağına keçdi. Bir nəfər gənc burada pəncərənin qabağında dayanıb həyəcanlı durmuşdu və Şahı görən kimi bu gənc üzüqoylu oldu yerə çökdü. Şah üzündən rubəndini çıxardı, gedib dayandı onun qabağında, diqqətlə başladı buna tamaşa eləməyə. Hüseyn bəy Lələ də gəldi dayandı Şahdan bir qədər aralı. Əlləri qoynunda, əmrə müntəzir oldu.

– Hələ bir dur ayağa görüm, gəl bu tərəfə, işığa gəl, – deyə Şah bu gənc oğlanı işıq tərəfə çəkib, üz-gözünü diqqətlə seyr eləməyə başladı. – Əhsənül əhsən. Xudavəndi-aləm bu an bundan gözəl heç nə yaratmayıbdır, – dedi. Bir müddət sonra, nəhayət, belə diqqətlə baxmağına ara verdi, çəkilib rəxtxabın yanındakı rumi sandalyasına oturaraq üzünü Lələyə tutdu:

– Lələ, hələ de görüm, bunu haradan tapıb gətirmisən? – Sonra bir daha özünü saxlaya bilmədi, – sənin özünə də min dəfə əhsən düşür ki… – Lələyə dedi.

Lələ nəfəs dərmədən sözə başladı:

– Sadağa olduğum, mürşidi-kamilim, sənin tapşırığını alınca o saət anladım ki, bu iş çox ciddi dövlət işidir. Maşallah ki, müdrikliyinə söz yoxdur. Kəndbəkənd özüm gəzməyə başladım, bir adamdan ki soruşa bilməzdim, çün sirri faş edərdim. Ona görə, sadağa olduğum, qədəm-qədəm məmləkəti gəzdim. Bir neçəsi var idi. Oxşayırdı, amma burnu oxşayanda çənəsi oxşamırdı, çənəsi oxşayanda qulağı düz gəlmirdi. Əlqərəz, bu oğlanı ki görürsən, bundan bənzərlisini tapa bilmədim. Əgər sən də bunu bəyəndinsə…

– Bəyəndim, çox bəyəndim. Adı nədir hələ bunun?

– Adı Xızırdı, Şahim. – Lələ oğlana gözünü ağardıb onu qabaqladı. Elə bil, oğlan özü istəmişdi Şaha cavab verməyə.

– Məsələdən agah etmisən özünü? – Şah soruşdu.

– Etmişəm, qurban olduğum. Hər bir əmrinə müntəzirdi.

– Nə gözəl… O zaman elə biriminci işi olsun sabah tezdən səninlə bahəm camaat arasına sübh namazına çıxmaq.

– Baş üstünə, Şahim. Bəs sən özün sübh tezdən şəhər seyrinə çıxacaqdın?! Bazara getmək istəmişdin…

– Mən şəhərə Vəzirlə çıxacağam. Amma… ona bu barədə bir kəlmə də – olmaz! Özün ki, bilirsən. Əsas məqsudimiz mənim eyni zamanda iki başqa-başqa yerdə olmağıma camaatı, saray əhlini, uşaqdan böyüyə hamını inandırmaqdı. Biz səninlə belə danışdıq. Di hazırla bunu, yaxşı-yaxşı yerişimi, ədalarımı öyrənsin, amma… elə billəm ki, rubəndsiz bir qədər tez olar, sən nə deyirsən? – Şah Xızrı bir daha diqqətlə süzüb soruşdu.

– Tez olar, qurban olduğum, hələ bir qədər tez olar. Bu işdə tələsmək heç olmaz. Yavaş-yavaş hər bir iş düzələr. Çox doğru buyurursan, rubəndsiz hələ tezdir.

Şah Xızra elə nəzər yetirdi ki, elə bil, onun çöhrəsində hamıdan gizlənmiş nə isə bir xətt, bir ləkə tapacaqdı. Tapmadı, rahat olub ayağa qalxdı:

– Yaxşı, mən getdim. – Sonra yan-yörəyə nəzər saldı. – Bunun yatdığı yer... gözdən uzaq yerdi, elə bura olsa yaxşıdır. Otağın bir küncündə yorğan-döşəyini salarlar. Hə, Lələ… yaxşı ki, unutmadım, bir də buna şətrənc oynamağı öyrədərsən.

– Baş üstünə, Şahim. Öyrədərəm. Hələ bu özü… – Lələ sözünün dalısını gətirmədi.

– Hə, bu özü nəmənə?

– Bu özü… – Lələ duruxdu, bilmədi doğrumu edir bu sözü deyir, ya doğru etmir, amma ki, ox yayından artıq çıxmışdı. – Bu özü, Şahim, şeir də yazmağı var.

– Şeir yazmağı var? – Şah təəccüb etdi.

– Bəli, yazır, Şahim.

Şah daha başqa bir şey soruşmadı. Oğlana son dəfə diqqətli bir nəzər salıb daha durmayıb otaqdan çıxdı. Lələ onu yenə də qapıya qədər ötürüb qayıdıb gəldi Xızrın yanına. Bardaş qurub yerdə xalça üstünə əyləşdi. İşarət etdi, Xızr da gəlib onunla üzbəsurət oturdu. Hər ikisi susdu. Bir xeyli bu tövr susmuş oturdular.

...Zaman keçdikcə Xızr sadağa olduğuma daha çox oxşamağa başlayırdı. Lələ ona Şahın qiyafəsində getdikcə daha tez-tez camaat arasına çıxmağına izin verirdi. Hələ divanxanada oturub əli ilə rubəndinin qızıl saçaqlarını bir-bir "sığallayanda" barmaqları qızıl üstündə burulub açılan zaman hamı ətrafdakılar lal-dinməz oturub başlarını aşağı əymiş olsalar da altdan-altdan gözləri ilə bu barmaqların hərəkətini müşaiyət edər, Şahın, yəni, Xızrın mübarək vücuduna təhsin söylərdilər. Duruşu, oturuşu, başını yana tutması, qədd-qamətini heç əymədən əlini yuxarı qaldırıb sərt bir hərəkətlə "xamuş" işarətini verməsi, bir söz, hər bir əzası, tərzi ilə Şah idi ki, vardı. Artıq Lələ ona şətrənc oynamağı da öyrətmişdi. Hərdən hamı gözətçiləri Lələ bağçadan çıxarıb qızılgüllərin arasında yer düzəldərdi, Şahla Xızr oturub şətrənc oynardılar, o da tamaşa edərdi.

Sanki bir adam idi, özü-özü ilə oynayırdı. Şah bu arxa baxçadakı güllüyü çox sevərdi. Boş vaxtlarında bura baş çəkib, Xızrı yanına istər, onunla söhbət edər, kəndindən, evindən-eşiyindən xəbər tutardı. Xızrın əsli paytaxtdan uzaqda bir dağ kəndi var idi, oradan idi. Atası sağdı, bir də bacıları qalmışdı. Anası ölmüşdü, dağ seli aparmışdı anasını. Evin bütün işini böyük bacısı Zərnisə görərdi. Atası da artıq yavaş-yavaş qocalmışdı. Şah qulluğuna getməmişdi. Şahın Dağıstan səfəri zamanı yüzbaşılar qoşuna

kəndbəkənd gəzib "kim yatağında tərləyib ölmək istəmirsə, dəstəmizə qoşulsun" deyib qışqıra-qışqıra adam yığanda qızılbaşlara qoşulmuşdu, amma ki, sonra geri döndüyündə nə üçünsə onlardan aralanmışdı. Əkər, biçər, məhsulunu yığar, Ərdəbilə, yaxud Təbrizə gələr, malını satar, geri dönər, ailəsini yarıac, yarıtox birtəhər dolandırardı. O biri bacısı Pərnisə kiçik idi. Xızr ona baxıb anasız böyüyən bu tiflin …

*Şahla bağlı hissənin bu yerində aşağıdan bütöv bir sətir oxunmur, ondan sonrakı səhifə isə, ümumiyyətlə, yoxdur. Sonrakı təsvirin əvvəlkilərlə bir əlaqəsi duyulmur. Xızrın ailəsi barədə, hadisələri qabaqlasaq, bircə onu demək olar ki, daha heç bir ətraflı məlumat almayacağıq. Bəs o zaman bu ailə ilə bağlı hər hansı məlumatın verilməyə başlanması nə demək idi?! Sonrakı hadisələr zamanı Xızrın taleyinin ağlasığmaz metamorfozasından atasının, bacılarının taleyinə bir pay düşdümü, düşmədimi?! Bu barədə də qəti bir söz demək çətindir, bəlkə heç mümkün deyil. "Yarımçıq Əlyazma"nın qeyb olmuş sirlərindən biri də budur.*

… – bu necə olur ki, sən hər gün şeir yaza bilirsən?! Bunun bir sirri vardır, əlbəttə.

Şah bu sualı verdi və zənlə Xızra baxdı. Xızr diqqətini oyuna elə vermişdi ki, qibleyi-aləmin sözlərini əvvəl-əvvəl eşitsə də, mültəfit olmadı. Lələ qurcuxdu, Xızrı dümsükləmək istədi, Şah qoymadı:

– Qoy düşünsün, işin yoxdu, çətin məsələ vermişəm ona. Lələ, bir ora bax… – Şah bir qədər aralıdakı qızılgül kollarından birinə tərəf uzatdı əlini.

Lələ Şah göstərən tərəfə baxıb gördü ki, bir balaca quşcuğazdı, ilişib qalıb, qızılgül kollarının arasından çıxıb qurtula bilmir.

– Get onu azad elə, uçsun getsin. – Şah Lələyə dedi. – Sən isə, – üzünü Xızra tutdu, – nə qədər də düşünürsən düşün, bu cür vəziyyətin heç bir çıxış yolu olmasın gərək. Şahının işi xarabdır, gədə. İflic oldu. Təslim olmaqdan qeyri çarən yoxdur.

Daha cavab gözləmədən əlini dizinə vurub Şah ayağa durdu. Lələ kolluqdan çıxardığı quşcuğaz əlində gəldi Şahın yanına.

– Şahi-Mərdan xətrinə, zülm eləmə bu yazığa. Burax onu, uçub getsin. – Şah dedi.

Lələ əlini göyə açdı, quşu buraxdı, quşcuğaz qanadların tez-tez çalıb göydə bir dövrə vurdu, uçdu getdi.

Quşun ardınca baxıb Şah "nə cür xoşbəxtdi, Allah…" düşündü. Sonra üzünü Xızra tutdu:

– Amma demədin, sən axı bu şeirləri nə təhər yazırsan?! O gün birin yazdın, bu günkü bir başqası idi. O gün söylədiyin nə idi, necə idi, bilmənəm, amma çox xoşuma gəldi. – Şahın ala gözləri mərhəmətlə baxdı.

Xızrın da ala gözlərində işıq bərq vurdu, onun da çöhrəsini xoş bir təbəssüm bürüdü:

– Sadağa olduğum, sənin şövkətinin ilhamıdı, gəlib girir könlümə.

– Ustadına bərəkallah. Sən də bəyəndin, Lələ, ya necə?

– Bəyəndim, mən də çox bəyəndim, sadağa olduğum...

Şah razı-razı gülümsündü, tezcənə də ciddiləşdi. Bu tövr ilə bu ayaqüstü söhbətinə artıq son verdi, götürüb rubəndini üzünə taxdı. Bu isə o demək idi ki, çıxıb gedir. Sabah ağır gün idi. Hərbi məşvərət çağırmışdı. Düşüncəsi, fikri-zikri Şahın son zamanlar ancaq özbək Şeybani idi. Bilmirdi, nə üçün, amma onun əlindən zəncir çeynirdi. Uzaqdan uzağa zindeyi-zəhləsi gedirdi Şeybanidən. Hərbi səfərə hazırlıq başlatmışdı. Nə olacaqdı, necə olacaqdı, bir xudavəndi-aləm bilirdi, bir də ki…

…bir də ki, Bəkilin ayağı mənim məlhəmimdən sonra get-gedə qədərincə yaxşılaşmışdı. O dəxi məni belə tezliklə yolçu etmək diləmirdi. Amma uyqu da uyqudur, Xanım. Sənin istəyib istəməməyindən heç asılı deyil. Mən Bəkillə söhbətimə yum verdim, vida elədim, çıxdım. Gördüm ki, Sürməlicə Çeşmə Xatun bayaq mən gəldiyimdə oturduğu yerdəcə oturub qalıb. Mənimi gözətləyirdi? Mən maraq etdim:

– Nədi, nə var, qız Çeşmə? İndi nə dilərsən məndən?! Oğlancığın qurtuldu, geri sənə döndü. Sapasağdı, Tanrıya şükürlər olsun. Dəxi nə istərsən?

*(Ürəyimdə bu şükrana Nur daşını da əlavə etdim. Etməyə bilməzdim, sən ki bundan agahsan, Xanım.)*

Sürməlicə Çeşmə Xatun dilə gəldi. Məni qəmli bir baxışla süzüb belə dedi:

– Sağ ol, əsən ol, Qorqud Ata. Tanrı səni bizim qara başımızın üstündən əskik eləməsin. Dünya durduqca borclu sənə olanların sayı artsın, biz də onların içində. Qorqud ata, dinlə məni. Bəkil bəy qayət sənə demiş ola bu başımıza gələn qəziyyənin əsl səbəbini. Məni dəxi dinlə. Bəkil gəldi evə

döndü, mən Oğuza küsüb durdum dedi. Asi oldum dedi. Elimi-obamı yığıb buralardan köç edəlim. Mən Bəkilə belə dedim: "Qazana küsmüşsən, küsülü ol qal. Beyrəyə qızmışsan, qızmış ol dur. Xanımıza, Xanlar xanı Bayındır ağamıza küsmə, bəyim. Padşahına asi olma. Asi olsan, başın müsibətlər çəkər. Çəkdi də. Deyir, köçümü sürüb Gürcüstan içinə gedəcəyəm. Bu da sözdü?! Deyir, mən Oğuza asi oldum, bəlli bilgil. Bu da lafdı?! Asi oldun, ya olmadın, qafana ki, bu asilik şeytan əməli kimi gəldi girdi, gerisi nə oldu?! Düşmən ləşkəri, başlarında da Qara Təkur bulud kimi anındaca elinin, obanın üstünü almadımı? Oğlancığımı hərbə göndərdin, az qala zalım Təkurun əlində zəbun olacaqdı. Mən deyirəm, padşahına asi olanın işi rast gətirməz. İndi necə oldu, necə olmadı, yaxşı ki, qadir Tanrı səni, Qorqud, bizə yetirdi, bu bəladan sovuşduq. Amma Qorqud ata, sənə derəm. Sən olma, Tanrıya derəm. Bəkilimi doğru yola gətir. Bayındır Xan qoy Qazanın, qoy Beyrəyin cəzasını özü versin, özü bilsin. İndi noldu, illər oldu, Bəkil Oğuzun sınırını qaravulluq elədi, göz olub qorudu, gecəsi-gündüzü olmadı, quş quşluğuyla Oğuza uçub girə bilmədi, düşmən gəldi, zəbun oldu, qan ağladı, indi Bəkilə noldu?! Bəs bu qarı düşməni bu Qazanla Beyrək niyə, nə üçün sevindirmək diləsin?! Bəkili qırmaq ilən, onu soyutmaq ilən Oğuzun işimi rəvan gedəcək?..

Mən qulaq verdikcə Sürməlicə Çeşmə Xatun get-gedə bir qədər də daha coşurdu. Coşdu, coşdu, sonunda susdu. Mən dedim:

– Qız, Çeşmə, söylədiklərin doğru isə mən Bəkili sənə əmanət edərəm. Qoma onu kafir düşmənə varsın. İndi dəxi yataqdadır. Qoy yesin, yatsın, günü xoş keçsin. Əlbəttə, mən Bayındır Xanımıza sənin sözlərini ilətərəm. Qazanla da xəbərləşərəm. Məsələnin içində bir şey yox. Tanrının buyruğu ilə bu küsünü dəxi çözərsiniz, bitər gedər. Amma mənə bir şey söylə. Düşmən Bəkilin xəstə olmağını, ordusunun başına keçə bilməyəcəyini nerədən bildi?! Siz tərəfdə dəxi casusmu var??

Sürməlicə Çeşmə qız bir xeyli susu verdi. Sonra ah eyləyib mənə bunları söylədi:

– Qorqud ata, suç kimindir, maraq edərsən? Suç məndən oldu. Bəli, mənə belə baxma. Məndən oldu günah. Bu qəziyyənin ömrü uzundu. Bey-

rəyin də Bəkillə qarşı-qarşıya durması elə-belə boş bir iş deyildir. Yadındamı, Qorqud ata, Bəkil məni atının yəhərinə sıxıb necə qaçırdı?! Yadında deyilmi? Sən, ola ki, bilmirsən bu işi. O arada Beyrək evimizin dörd ətrafına dolana qalmışdı. Hələ özünün düyününə bir xeyli zaman var idi. Düyündən öncə Dış Oğuza qız avına çıxmışdı Beyrək. Məni gördü, məni dilədi. O zaman onun ağzını alp Rüstəm çöndərdi məndən. Səndən gizli heç nəyim yoxdur dəxi, biləsən. Alp Rüstəm ilə mən sevişib dururduq. Gecə oldumu, ay öz işığını evimizin ardındakı o Zamba Talaya saldımı, əvvəl-əvvəl o gələrdi, sonra mən onun kölgəsinə arxadan yaxlaşıb kölgəsinin içinə girərdim, arxadan qucardım… onu. Beləcənə sevişib durardıq. Mənim atam, Qazanın evini Şöklü Məlik yağmalayıb sürəndə Qazanın ardınca köməyinə gedənlərdən idi. Aruz Qoca ilə bir getdilər savaşa. Atam zəbun oldu, qayıtmadı. Kimdən istəyəydi məni Alp Rüstəm?! Elə bu gün, elə sabah deyə-deyə qaldıq, heç bilmədim, Bəkil də haradan çıxdı. Məni ona Alp Rüstəmin qardaşı oğlancıqları görsətdilər, danışdılar, düzdülər-qoşdular. Məqsədləri var idi, dədəm, məqsədləri o idi ki, kaş Rüstəm onların öz bacısı ilə düyün edəydi. Qardaşlar mənim qafamı qaçırıb zor-güc gətirib yıxdılar Bəkilin qabağına. Alp Rüstəmin bu işdən xəbəri yox, Bəkil məni görgəc qanı qaynadı, sümükləri oynadı, aldı məni Al ayğırın üstünə, çapdı, bir də gözümü açdım gördüm, Bəkilin evindəyəm. Alp Rüstəmin gücü ona çatdı ki, qardaşının iki oğlancığına qatı qəzəb elədi, kəsdi, doğradı onları. Hey-hey o günlər, o aylı gecələr…

Sürməli Çeşmə danışdıqca ol günləri yad eləyir, sızlayıb qovrulurdu. Gözüm önünə vaqeələri düzdükcə düzürdü.

– Beyrəyin məndə gözü qalmışdı, Dədə. Göz yaman gözdür, imanı olmaz. Acığını indi bu illər sorası Bəkildən çıxmaq istər. Qoymagil. Alp Rüstəm zəlil oldu, Oğuz içində xar oldu, dəli-divanə oldu, iki qardaş bəbəyini öldürdü. İki qardaş bəbəyini öldürənin evində şamımı yanar? Mən idim suç yiyəsi. Tanrı özü keçsin günahımızdan.

İndi Bəkil. Ayağını, ava göndərdim, get qəmin-kədərin yoxalsın dedim, ayağını avda sındırdı gəldi. Mənə, təkcə mənə söylədi bunu. Mən indi başıma döyürəm, döyürəm, keçmiş ola, keçmiş oldu qayət deyirəm. Mən-

dən casusu sorarsan, casusluğu bilməyənə–bilməzə mən etdim. Bəkilin atdan yıxılmasını, ayağını sındırmasını mən idim qaravaşa söylədim. Kiməkimə – qaravaşa. "Noldu, canım xanım, Bəkil bəyin rəngi neçin öylə qaçdı?" – sordu mənə. Dedim: "Qız, ağzını bütöv saxla, bəy ayağını sındırmış, döşəyə girmiş, qalxa bilmir, bir adam bilməsin, Qara Təkura hələ heç xəbər yetişməsin, biləsən".

Qaravaş qaravaşa, o dəxi nökərə, nökər dəxi əsirlərə söylədi. Otuz iki dişdən çıxanı hamı bildi. Xəbər belə çıxdı. Bəkil bilsə, mənim dərimi canımdan ayırıb can dadlı necə olur mənə göstərməzmi?! Suçlu arayırsan, suçlu mənəm… mən… mən…

*(Bu sözləri dinlədikcə, Xanım, Bəkilin qəziyyəsi mənə hər bir tərəfindən əyan olmağa başladı. Bəkilin Beyrəklə qavğası, Alp Rüstəmin zəlil olub gəzməsinin səbəbi barəsində bir xeyli düşündüm, sonucda iki önəmli mətləb buldum. Bu mətləbərin ikisini də Nur daşına nəql elədim. Nur daşının sükut içində məni dinləməsi dediklərimi qəbul etməsinə bir dəxi işarət oldu. Birinci mətləb o idi ki, qaravaşa heç bir söz söylənməz. Qaravaşa nə iyilik etsən də, ondan qadın olmaz. İstər əzizlə, istər yayma-yaxma donlar geyindir. Qaravaşa don geyirsən, qadın olmaz. İkiminci mətləb də o oldu ki...)*

*Əlyazma qırılır. Qorqudun ikinci mətləbi açıqlaması qalır bir qədər sonraya. Amma diqqətli oxucu fikir verib görür ki, əsas Dastanın mətnindən, daha doğrusu, Müqəddiməsindən keçən başlıca Qorqud müddəalarından biri, yəni, "Qaravaşa don geyirsən, qadın olmaz" ifadəsi hansı tərzdə və hansı şəraitdə yaranır.*

Xanım, uyqum məni bu dəfə də Qazanın evinə apardı. Kim ola, kim ola, Şirşəmsəddin gəldi girdi uyqumun içinə. Amma bu uyqumu nə illah elədim, huşumda saxlaya bilmədim, Xan məni bağışlar, inşallah. Bircə onu bildim ki, Şirşəmsəddin Qazana elə bağlıdır ki, öl desə, öləcəkdir, qal desə, qalacaqdır. Bu casusla bağlı məsələdə dəxi Qazanı gördün, ya Şirşəmsəddini gördün – heç bir fərq eləməz. Bunların ikisi də bir adamdırlar, sözləri də birdir, ürəkləri də birdir. Casusla bağlı məşvərət zamanı da Şirşəmsəddin Qazanın ağzına baxıb durdu, o nə təhər istədisə, bu, fikrini əlüstü duydu, tutdu.

Bayındır Xan bu yerdə mənim sözümü işarət edib saxladı. Mən dərhal yum verdim, susdum. Bayındır Xan dedi:

– Bu Şirşəmsəddin dediyin, Qorqud, hərzə-mərzə bir kişinin təkidir. Nə etdiyin anında bilməz. Edər, sonra düşünər. Düstursuzca işlər görər. Yadımdadı, mənim qırımıma da bir dəfə düstursuz girmişdi. Qavat oğlu qavat! Mən sənə izinmi vermişdim?! Sözün bilməz, lafın duymaz. Casusla bunun bir əlaqəsi ola bilərmi?

– Heç sanmıram, Xanım, – amma başımın biti ayağıma qədər getdi, dedim:

– Başqalarından nə az, nə çox ola bilər.

Bayındır Xan yenə fikrə daldı. Ağ saqqalını tumarlaya-tumarlaya qaşlarını çatdı, gözlərini qıydı, düşündükcə düşündü.

– Sən sözünə davam et, – bir müddət keçdikdən sonra Bayındır Xan yenə mənə izin verdi. – Bu Şirşəmsəddin söhbəti qalsın sonraya. Sən davam et. Ya bəlkə bitirdin demək istədiklərini?

*(Əslində, mən karıxıb qalmış idim. Bütün bu dediklərimi, bütün bu uyqularımda gördüklərimi gətirib bir mətləbin içinə sığışdırmaqda zorluq çəkirdim. Bayındır Xan dəxi bunu anladı, təkid eləmədi.)*

Bayındır Xan dedi:

– Sənin danışdıqların həqqən Oğuzda işlərin fəna olduğuna bir işarətdir. Ancaq və ancaq işarət. Anlayırsanmı nə demək istədiyimi mənim, oğul?

Mən dedim:

– Bəli, şövkətli Xan, anlayıram.

Bayındır Xan dedi:

– Di belə isə, gəl sonucları ortaya qoyaq.

– Bəli, sonucların məqamıdır, Xanım. – Mən dedim və kürəyimə soyuq tər gəldiyini fərq elədim.

Bayındır Xan ayağa qalxdı, otaqda var-gəl etməyə başladı. Mən başım aşağı olsa da diqqət edib gördüm ki, Qılbaş Bayındır Xanın hər bir hərəkətini izləyir, onun bir sözünə, bircə kəlməsinə müntəzir durub. O da duyuq düşmüş idi ki, mətləb uzanıb-uzanıb öz sonucuna yaxlaşmışdır. Bayındır Xan özü-özünə danışmağa başlamazdan əvvəl yenə də gözünün bir ucu ilə mənə baxdı ki görsün yazıram, yoxsa yazmıram. Mən əlimdəki qələmi sazlayırdım, bunu saxlayıb yenə də yazmağa hazır halımı aldım. Bayındır Xan eləcənə aramızda gəzişə-gəzişə düşüncə və aramla sözünə başladı;

– Əlbəttə, Oğuzda çaxnaşma vardır. Oğuz böylə Oğuz deyildi. Casus məsələsi mənim gözümü çox şeyə açdı. Qazan Aruzla, Aruz Beyrəklə, Beyrək Bəkillə… İç Oğuz Dış Oğuzdan gileyli, Dış Oğuz İç Oğuzdan. Bu yana da bu casus… Qazılıq Qoca akına gedir. Yoldaşları onu yağı əlində qoyub

qaçırlar. Qıyan Səlcuq Təkgözə gedir, meydanda can verir, yar-yoldaşı yenə oylə. Qazan sayğısız bir laf atacaqmış, Bəkil Gürcüstana küsüb gedəcəkmiş, sınırlar hava kimi açıq qalacaqmış. Bu yana da bu casus… Şirşəmsəddin dəstur almadan mənim yağıma girəcəkmiş, ünlü bəylər mənim sözümü saya almayıb Gürcüstan sınırına getməkdən boyun qaçıracaqmış, razı olmayacaqmış, ümid Bəkilə qalacaqmış. Mənə bir soran gərək – mən Qamğan oğlu Xan Bayındıram, ya nə?! Yox, işlər böylə gedər ikən, getməsə daha yaxşı. Oğuz böylə bir Oğuza döndü isə yaşamasından yaşamaması daha şərəfli. Aruz Qoca gedir gəlir, açığına-saçığına bəylərbəyilik keçir könlündən, elə-belə də deyir: "Oğlum Basat olmasaydı, Təkgöz Oğuzu bir-bir yeyib bitirəcəkdi, hardaydı Qazan, hardaydı Qaragünə, hardaydı Beyrək?" bağırır. Başımıza qaxınc oldu bu Basat söhbəti qurtarmadı ki, qurtarmadı. Aruz oğlancığı Qıyan Səlcuqun, Basat qardaşının intiqamını Təkgözdən almışlar, minnətini Qalın Oğuz çəkir. Qazan kef içində yeyib-içir ava çıxır. Elimiz talanır, yurdumuz daranır. Beyrək hiylə edir, ad qazanır, Qazanın inağı olur, bu yana da Təkgözün üstünə savaşa getməməkdən ötəri Bayburd əsirliyini intixab edir. Ancaq və ancaq boylə olmuşdur. Heç kim bilməsə də, mən bunu səhih bilirəm. Bayburdun adamı mənə bunu dedi. Bu yana da bu casus… Nə edəlim?! Əlbəttə, bu işlərin bir qazan qarışdıranı vardır və əlbəttə bu qazanqarışdıran kişinin barmağı casusla bağlı məsələdə dəxi işini görür. Oğuzun altını üstünə, üstünü altına qarışdıran kimdisə, casusu da o qaçırıb, bəlli bilin. Siz nə dersiz?

*(Bayındır Xan söz söylədi, yum verdi, amma mənə görə bir başqa nəsnələr dəxi söyləmək istədi, söyləmədi, bir sıra mətləblər yenə də qaldı sonraya. Qərar isə yox idi. Qalxış vardı, eniş vardı, zirvə yoxdu. Xan gərəkdir hər bir işə ədalətli qərar versin, buna görədir ki, hələ də susur, beynində hələ də götür-qoy edir, bəlkə hələ başqa kişilər dəxi istintaqa gəldilər. Hər nə isə Qadir Tanrı mədəd qılsın, sonu Oğuz üçün xeyirli olsun.)*

– …Qazan olmağına Qazandır. Amma bunu açıb ağarda bilmənik ki. Qazan bizim göykümüz. Mənə suçu üz-gözündə gəzdirən gərək deyil.

Mənə suçu qəlbində gəzdirən gərəkdir. Qorqud, məni anladınmı? – Bayındır Xan bunları deyib yenə susdu və sonra heç bir cavab gözləmədən ağır-ağır otaqdan çıxıb getdi. Xan otağında bir mən qaldım, bir dəxi…

*Burada da mətn qırılır, amma buna baxmayaraq, çox güman ki, son cümləni bu cür bərpa etmək mümkündür: "… bir dəxi Qılbaş qaldı". Bu sonluq mənzərəni əvvəlkilərə bənzədir və bütövləşdirir. Bütövlükdə isə Əlyazmanın məzmununda qəribə bir vəziyyətin yaranmasını hiss eləməmək olmur. Dədə Qorqudun yuxuları vasitəsilə, bəlkə də yuxu adı altında bildiklərini Bayındır Xana çatdırması bütün bu əhvalata yeni bir ahəng, yeni bir çalar verir. Bəlkə də bu, əslində, son olaraq "casus kimdir?" sualının cavabına yaxınlaşmağa xidmət edir. Bu incəliyi Bayındır Xanın sözlərində hiss edirik. O deyir: "Oğuzun altını üstünə, üstünü altına qarışdıran kimdisə, casusu da o qaçırıb, bəlli bil".*

*Bayındır Xan ola bilsin ki, bu şəkildə iki xətti birləşdirməyə çalışır. "Çaxnaşma salıb İç Oğuzla Dış Oğuzu qarşı-qarşıya qoymaq istəyən kişi ilə casusu qaçıran kişi eyni adamdır" ideyasını ortaya atır, bəlkə də bununla gizli şəkildə, eyham kimi məlum bir şəxsin adının çəkilməsini istəyir. Hiss edilir ki, qara duman, necə deyərlər, bir nəfərin başının üstünü almağa başlayır. Xanın istəyini onun özünün də güman etdiyi kimi Qorqud duyur və belə bir məsələ də ortaya çıxır ki, bu adamın adını gərək istintaqa cəlb edilənlər çəksin. Artıq gördüyümüz kimi məsələni əlüstü duyub, bəlkə də Dədə Qorqudun üzündən-gözündən bu adı oxuyub onu ilk dilə gətirən elə Qazan özü olmuşdu.*

…sonra yenə Xan otağında Bayındır Xan, Qılbaş və mən qaldıq. İstirahətdən sonra Bayındır Xan əvvəlkinə görə bir xeyli gümrah görükürdü. Bizə baxıb əvvəlcə gülümsündü, sonra dedi:

– Başlayaqmı? Başlayaq deyirəm. Mən səni, Qorqud, diqqətlə dinlədim. Sonucum bu: Oğuzda işlər ürəyimizin istədiyi kimi deyildir. Münaqişə vardır və bəylərin ədavəti şişib-şişib Oğuzu içindən partlatmasa yaxşıdır. Bunları demək istədin, demi, Qorqud?!

Mən ədəblə başımı əydim, "bəli, Xanım, bunları demək istədim" söyləyib ehmalca dilləndim.

– Gözəl, qayət gözəl. – Bayındır Xan mənə ötəri nəzər salıb sözünə davam etdi. – Amma bir məsələ dəxi var, mətləbdən də yayınmayaq derəm. Yenə bu casus söhbətinə dönək. Ondan sonra qərar vermək müşkil bir iş olmaz. Doğrumu söylədim, siz nə dersiniz?!

*(Aydın idi ki, Bayındır Xan artıq qərarını vermişdi, bu casus söhbətinin axırına çıxmasa idi, könlü rahatlıq tapmayacaqdı. Bizə qalan nə idi – hər nəsnəni Xanın istəyincə qılmaq, hər nəsnəni uca Tanrının buyruğuna, onun bizlərə bəxş etdiyi taleyə, qəza-qədərə buraxmaq…)*

Hər ikimiz – həm Qılbaş, həm də mən Bayındır Xanın dediklərini təsdiq etdik və bundan sonra Bayındır Xan Qılbaşa üzünü tutub buyurdu:

– Şirşəmsəddini görmək istirəm. Çağırın gəlsin. Deyirdin, buralardadı. Qazanla fısıldaşdı qayət. Çağırın onu.

Qılbaş baş əyib çıxdı. Mən dəftər-qələmi sahmana salmağa başladım.

– Bilirmisən, Qorqud, oğul, nə edirik, nə etmirik, əslində, bizim işimizin canı odur ki, aramızdakı o məlunu bulaq. Casus kimdir, kim deyil – bu mətləb bir ayrı mətləbdir. Oğuza qarğaşa salan kimdir? – əsas məsələ budur, biləsən. Yoxsa ki, Basat, Basat deməklə işlər yönəlməz. Bax, Qorqud, sən əgər halva dersən, ağzın şirin olurmu?.. Neçin susdun, olurmu, söylə.

Bir müddət mən bilmədim, nə cavab verim Bayındır Xana. Cəsarətim uçub getmiş idi. Sonra Bayındır Xanın təkid ilə cavab gözlədiyini görüb belə dedim:

– Şövkətli Xan, "halva" dersən ağız şirin olmaz. "Halva-halva" dersən, dəxi ağız şirin olmaz. Amma…

– Nə amma, danış. – Bayındır Xana maraq güc gəldi.

– … amma bir çox dəfə "halva" dersən, ağız şirin ola bilir, Xanım, – dedim.

Bayındır Xan mənim bu sözlərimdən sonra dodaq dişlədi, fikrə getdi. Qılbaş, ardınca da Şirşəmsəddin, Xan otağına daxil olana qədər bir kəlmə belə danışmadı.

*(Mən düşündüm. Əgər Xan, Qazanın bu işdə əli olduğunu bilə-bilə, yaxud bildiyindən sonra ona cəza vermək istəmirsə, o zaman hər şey öncədən qurulduğu kimi öz gələcəkdəki anına doğru tələsir. Aruz Qoca yeganə, hamı üçün yeganə taxsır və günah yeridir. Oğuzun başına əsl fəlakəti o gətirmək diləyir. Hələ bəlkə kim bilir, doğrudan doğruya bu casus məsələsində onun iştirakı nə dərəcədədir?! Qazan lap əvvəldən doğru yola qədəm qoydu, Aruzun adını çəkdi, Şirşəmsəddin də eyni cür hərəkət edər, inşallah, qadir Tanrı könlünə ilham edər.)*

Qılbaş, ardınca əyilə-əyilə Şirşəmsəddin, Xan otağına girdilər. Şirşəmsəddin otağa daxil olan kimi üzüqoylu çökdü yerə, qalxmadı. Bayındır Xan ona gözucu saymazyana baxıb Qılbaşa dedi:

– Qalxız, qalxız onu gəlsin yavuğa, əyləşsin.

Açıq-aşkar Bayındır Xan, Şirşəmsəddinlə bu söhbətdən xoşhal olmadığını büruzə verirdi. Amma Şirşəmsəddin bundan heç duyuq düşmədi. Qılbaş yaxlaşmadan, Şirşəmsəddin çöküb qaldığı yerdən sürünə-sürünə gəldi Bayındır Xanın qarşısında əyləşdi, Bayındır Xan ona dedi:

– Şirşəmsəddin, qulağını geniş aç, ünümü diqqətlə dinlə. Sənə bircə sualım var. Başqa lafa ehtiyac yoxdur. Doğrunu deməsən, ta məndən incimə. Mənə söylə, Şirşəmsəddin, casusu Oğuzdan kim qaçırdı?

Şirşəmsəddin başladı danışmağa nə başladı:

– Bəli, həşəmətli Bayındır Xan, çox doğru buyurursan. Çox doğru danışırsan. Uca-uca dağların uca qalsın, Xanım… Qadir Tanrı, sən özün mədəd elə. Qamən axan görklü suyun axdıqca axsın…

*("Uca-uca dağlar" deyir, "qamən axan sular" deyir. Qavat oğlu, bunları hardan gətirdi saldı qafasına. Heç bizim mətləbə bir dəxli yoxdur ki bunların. Amma qayət gözəl deyir.)*

Şirşəmsəddinin ağzı isə dəyirman daşı kimi dən-dən söz üyüdürdü:

– … Xan, bir məni dinlə. Nə zamandır bu sözlər qəlbimi deşib durur. Bir sənin mübarək üzünü görəydim deyə-deyə qalmışam. Ünüm ünlən, Xanlar Xanı. Bilirəm, mənə qəzəblisən. Yadındamı, Dərəşam ağzında ordu yığıb səninlə birgə Ağcaqalaya yol almamız? Sən məni də özünlə akına almışdın, yadındamı? O qadir Tanrıya iman gətirirəm ki, mənə deyən olmamışdı bu yağıya gir, ya girmə. Mənə nə düşübdür ki, mən Bayındır Xanın yağısına onun disturu olmadan girəm. Yox! Belə bir şey olmayıbdır. Qadir Tanrı bilir ki, mənim heç nədən xəbərim yoxdur. Bilməmişəm. İndi kim idisə hərzə-hərzə bir türlü şeylər deyibdir sənə. İnanma, həşəmətli Xan.

Bayındır Xan təhər-tövürünü dəyişmədən necə oturmuşdusa, eləcənə də oturub qalmış idi. Anlamışdı ki, buna əlac yoxdur. Hardan desə də, hardan soruşsa da Şirşəmsəddin öz ürəyindəkiləri boşaltmamış əsl mətləbə keçməyəcəkdir. Səbrini basıb dinləməyə məcburdu. Ərənlər bu dünyanı ağılla bulmuşlar, bir ağıllı işi dəxi Bayındır Xan elədi, Şirşəmsəddinə ürəyini boşaltmağa fürsət verdi, dinmədən-danışmadan onu dinləməyə məcbur qaldı.

Şirşəmsəddin isə susurdumu, susmurdu, ürəyi dolu imiş, danışdıqca danışırdı:

– … Sənin yolunda ölümə dəxi gedərəm, Xan. Sənin üçün ömrüm uzunu xidmətində duraram, bir an "yoruldum" deməzəm. Sabah-axşam sənin üçün qadir Tanrıya dualar edərəm, bir ləhzə usanmaram. Mənmi sənin yağına distur almadan girərəm? Tövbə! Haşa! Əsla! İnanma, Xan…

Bayındır Xan, nəhayət, gördü Şirşəmsəddin, acı bağırsaq kimi uzatdıqca uzadacaq, odur ki, naçar qaldı, artıq əvvəlki qəzəbi dəxi keçib getmişdi, naçar qaldı Şirşəmsəddinin sözünü saxladı:

– Şirşəmsəddin! Dayan bir. Nəfəsini dər ya. Əldən gedərsən indi. Qoçağım mənim. İndi mənim sənə sabahacan qulaq verməmə imkan yox.

Sən dedin, mən eşitdim. Yəmin etdin, inandım. Bu mətləbi bir dəxi dilinə gətirmə, qavat oğlu qavatım mənim, olan oldu, keçən getdi. Anladınmı məni sən?

Şirşəmsəddin başını dəxi qaldırmadan "anladım, Xanım, niyə anlamaz oluram ki, anladım, mən anlamazmıyam?" cavab verdi.

– ...Əlbəttə, yox, sən əqilli birisən, anlamaz olurmusan?! Odur ki, gəl səninlə əsas mətləbə keçək. Keçəkmi, qoçağım? – Bayındır Xan Şirşəmsəddinə bir balaca ürək-dirək də vermək istədi, – nə dersən?

– Sən nə dersən, mən dəxi onu derəm, Xanım. Mən başqa heç bir şey demirəm. Heç zaman da deməném.

– O zaman sualımı bir dəxi mən təkrar edirəm. Hazırmısan? Gözəl... Di söylə, görəlim, şahbaz yigidim. Casusu... Oğuzdan... qaçıran... kim... oldu? Söylə!

Şirşəmsəddin baxıb gördü ki, ta bir yol qalmayıbdır sorğudan yayınmağa. Ağlayıb-sısqayanlar təkin məlul-məlul dilləndi:

– Aruz oldu, şövkətli Xan, Aruz oldu. İstər məni as, istər məni kəs...

– Aruz dersən, həmi? Di, onda söylərmisən Aruz necə yapdı bu işi?! Casusun keşiyini çəkən sən deyilmiydin, qavat? – Bayındır Xan məsələnin lap canından yapışdı.

Şirşəmsəddin əməllicə çaşdı durdu. Altdan-alta mənə baxdı, yəni, gözləri ilə "mən nə edim?" sordu. Mən özüm nə karə idim, sözmü deyə bilərdim?! Bir də ki, Bayındır Xan çox doğru sual edirdi. Dustaq damının keşiyini çəkən – sən, o damdan çıxıb qaçan – casus! Aruzun burda nə işi vardır?! Ən əsas sualı isə Bayındır Xan hələ verməmişdi. Məşvərət barədə sormamışdı. Belə çıxırdı ki, məşvərətdə iştirak edən hər bir kişi bu işi görmüşdü.

Məsələ qəlizləşdi. Şirşəmsəddin, belə getsə, bütün işləri korlaya bilər. Bayındır Xan hər nə cür olursa olsun, bunu dolaşdıracaq, çün həqiqəti bilmək istir, sonrası öz işidir, haqlı kimdi, haqsız kimdi, onu sonra, özü bilər kimdən görər. Bizim əqlimizmi çatar Xan əqlinə, bizim hünərimizmi çatar?! Bizim duyğumuzmu yetər Xan duyğusuna?! Hələlik isə Bayındır Xan ancaq həqiqəti bilməyi dilərdi.

– Danış, necə oldu, nə təhər oldu?! Lap əvvəldən danış. Gətirib saldınız kafir oğlu kafiri dustağa, qapısının ağzını dəxi bağladınız. Sən o gecə Boğazca Fatma derlər bir Xatun var, onunla görüşmüsən. Gözünü qaçırma! Mən səhih bilirəm, görüşmüsən. Nə danışmısınız?

*(Bayındır Xan ilk dəfə idi Boğazcanın adını dilinə gətirdi. Gör ki, Şirşəmsəddin onu necə etmişdi halətdən çıxarmışdı. Deməli belə. Bayındır Xanın Boğazcadan xəbəri varmış. Özü bilərəkdən bu barədə heç bir söz demirmiş. O zaman bu nə istintaqdır belə?! Hər şey öncədən məlum deyilmidir Bayındır Xana?! Bir o qalır, öz ayağımızla gedək girək həyatin o küncündəki əzabxanaya.)*

Şirşəmsəddinin rəngi mənim qabağımda qoyduğum, amma hələ üstünü yazmadığım, Trabzondan Bayındır Xana hədiyyə gələn kağızın rəngini aldı, saraldı. Dedim, bu saat canı çıxar. Çıxmadı, bərk durdu. Amma qavat oğlu qavat elə bir söz dedi ki, mənim başımdakı bit ayağıma qədər gəldi, yenə kürəyimə soyuq tər axdı.

– Xanım, mənə mədəd eylə, qoy Dədə danışsın… Qorqudu derəm... o hər şeyi bilir…

Ortalığa ölü bir sükut çökdü. Bayındır Xan bir xeyli dinmədi. Saqqalını səbrlə tumarladı. Handan-hana:

– Qavatın təki. Mən səndən hesab istirəm. Suçunu boynundan nə atarsan?! "Qorqud danışsın". O artıq danışdı. İndi buyur, sən danış, – dedi.

*(Bayındır Xan elə belə də dedi: "Qorqud artıq danışdı". Bu sözülə də Şirşəmsəddin sındı qaldı. Qadir Tanrı, bəlkə də kim olsa idi, sınardı. Nə bilsin yazıq mən nə danışmışam?! Bayındır Xan da, məqsudinəvarmış, elə bir tələ qurdu ki, matməətəl qalası olduq. Qorqud danışdı – həmi?! Qorqud danışdı…)*

Şirşəmsəddin çömbələn qalıb hələ də başını qovzayıb Bayındır Xanın üzünə baxa bilmirdi. Yenə o tövr oturmağına davam elədi, nəfəs də almadı, susub durdu, amma bu dəfə Qılbaş elə oturduğu yerdəncə dizin-dizin

sürünüb arxadan Şirşəmsəddinə yaxlaşdı, bir bərkdən dümsüklədi bunun böyrünü və yavaşcadan pıçıldadı:

– Xanın buyruğuna əməl elə, danış, danışmazsan,… Səbrini tükətmə, Xanın.

Bayındır Xanın səbri isə, həqqən, tükənmək üzrə idi. Artıq əzabxanadan qamçıvuranları çağırmağına bir şey qalmamışdı. Xan həyətinin o başındakı əzabxanadan mən çox eşitmişdim göyə qalxan nalələri, ahları. Əzabxana adı dillər əzbəri idi. Qamçıvuranlar hələ nə idi, maqqaşlayanlar, odlu oxu ağıza soxanlar…

Şirşəmsəddin susu verib qalmışdı. Heç ondan cavab çıxan birinə bənzəmirdi.

– …Ağ əti canından çıxınca!.. Aparın bunu əzabxanaya, qamçı vuranlara verin!! – Bayındır Xan daha dözmədi, partladı.

Şirşəmsəddin bayaq oldu, bayıldı. Qılbaş sürütdəyib otaqdan onu çıxarmaq istər ikən Bayındır Xan baxıb, baxıb nə düşündüsə yenə ürəyi-yumşaqlıq etdi, Qılbaşa dedi:

– Qılbaş, hələ bir dayan. Qavat oğlu qavat məni məndən elədi. Su səp bunun üzünə, ayılt bunu.

*(Qadir Tanrı, bunun dili-ağzı açılsa nələr danışacaq?! Bəli, əlbəttə və əlbəttə, Şirşəmsəddin bizim ən zəif nöqtəmiz idi ki, var idi. Heç Bəkilə də Bayındır Xan belə deməz idi, əzabxanaya göndərməz idi. Şirşəmsəddin qayət onu haldan çıxarmış idi.)*

Üzünə dəyən su Şirşəmsəddini özünə qaytardı. Heç bir təklif gözləmədən, əli ilə üzünün suyun silib, gözün yumub ağzın açdı. Başladı, nə başladı. Bayındır Xan, o danışdıqca, mən yaza-yaza altdan-altdan nəzər yetirməyimdə idim, üzü-gözü yavaş-yavaş açılır, maraqla dinləməyinə davam edirdi. Arada bir dodağı qaçan kimi olurdu. Bu zaman könlündə nə düşünür, nə daşınır – bunu qadir Tanrıdan başqa bilənmi var?!

Şirşəmsəddinin isə dedikləri bunlar idi:

– Şövkətli Bayındır Xan. Sənə yəmin edərəm ki, tüm Qalın Oğuzda mənim qədərinə sənə sadiq az-az qulun olar. Ola bilər, nə zamansa güna-

hım, suçum olub, amma, Allah eşqinə, inan mənə, Xan, güvən mənə, Xan, bilməmişəm. Mən olam, distur gözləmədən… Mətləbə keçirəm, mətləbə keçirəm. O gecə bir aylı gecə idi. Yox… hələ o aylı gecədən əvvəl dəxi bəzi məsələlər oldu, mən bilən, casusla birbaşa ilgisi olmamış deyil. Salur Qazan, bəylərbəyimiz, Qalın Oğuzun güvənci, həmişə olduğu kimi yenə də evini-eşiyini yağmaladırdı. İç Oğuz yağmaya gəldi. Dış Oğuz bu dəfə yağmaya gəlmədi, Xan.

Qazan mənə sordu:

– Bunlar yağmaya niyə gəlməsinlər?! Şirşəmsəddin, qoçağım, sən bir şeylər bilirmisən?

– Yox, – dedim, – mən heç bir şey bilmirəm. Amma, bəyim, unutmuşsan qaliba. Sən özün onları yağmaya çağırmadın. Dedin, Dış Oğuzu bu səfər yağmadan uzaq tutun.

– Oyləmi? – Qazan gözün qıya tutub mənə baxdı. Unutmuşdu.

– Oylə. Oylə. – Mən cavab verdim.

Salur Qazan xatırladımı, xatırlamadımı, bilmədim, amma maraq edib sordu:

– Şirşəmsəddin! – dedi. – Dış Oğuzun yağmaya çağrılmaması bir ixtilafa gətirərmi, gətirməzmi? Dayım Aruz Qoca, – Qazan bir dəxi maraq etdi, – mənə qəzəb edib küsü bağlarmı? Sən necə bilirsən?

Mən cavab verdim:

– Qazan, sən səni bilirsən, sənin Dış Oğuzdan qətiyyən xəbərin yox. Təki ixtilafın tüstüsü Dış Oğuzdan çıxsın. Amma gərək sən yağmaya onları dəxi dəvət edəydin. Onlar, bəyim, söz qoymuşlarmış…

– Doğru deyirsən... – Qazan mənim sözümlə razılaşdı. – Günah gərək bizdən keçəydi. Amma imkan verdi ki…

Qazan göz gəzdirib o tərəf, bu tərəfə baxdı. Əmin oldu ki, onu eşidən tək bir kişi mənəm, dedi:

– Burla Xatun qomadı. Dedi, dayını, Dış Oğuz bəylərini çağırsan, babama varacağam. Yəni, sənə varacaqdır, şövkətli Xan. Bəli, bunu mənə Qazan dedi, amma, Xanım, lütf elə, bu söz burda qalsın. Anladım, anladım... Bu yana, haman gün bir də gördüm, Beyrək özünü təpdi Qazanın divanına.

Mənim ürəyimə nə idisə dammışdı, heç onu bəy hüzuruna buraxmaq istəmirdim, olmadı, Qazan özü onu yanına istədi. Təklikdə nə danışdılar, danışmadılar, onu mən, Xanım, öncədən bilirdim. Soracaqsan, nerədən bilirdin? Soracaqsan, demi? Soruna cavab verirəm. Xanım, bir məsələni dəxi mən burda yəmin etdim, deməliyəm. Düz bir gün, Qazan evini yağmalatmadan öncə Beyrəyin, Xanım, Burla Xatunla gizli görüşü olmuşdu. Mən bunu Qazana demədim. Düşündüm, ortada bir şey yox, qəlbinə bəlkə qara-qura fikirlər gələr. Amma indi düşünürəm, bu görüşün, əlbət, bir əlaqəsi var imiş sonra olacaqlarla.

Burla Xatunla Beyrək Qazanın evinin bağçasının Uzun Pınar axıb gedən yerində gecə ikən buluşdular. Nə oldu aralarında, nə olmadı, mən bilmənəm, bilmək də istəmənəm – nə işimə?! Amma maraq məni almışdı, mən tut ağacının arxasında gizlənmiş idim. Heç bir şey görmürdüm, qaranqu gecə idi, ancaq bəzi sözləri eşidirdim. Səslərini də qısmışdılar. Bircə onu eşidə bildim ki, Burla Xatun dedi:

– Sən sabah var Qazana, bunu söylə ki, casus vardır Oğuzda. Zamanı indi çatdı bu mətləbin.

– Ya bəs sorsa ki Qazan, bunca zamandır niyə susdun durdun, nə deyim?

– De ki, düşündüm, daşındım, gördüm ki, bu gün Dış Oğuz da yağmaya gəlmədi… Təsadüf deyildir, düşündüm, de.

– Dış Oğuz yarın yağmaya gəlməyəcəkmi? – Beyrək sevincək olub sordu.

– Gələcək olurmu? – Burla Xatun dedi. – Mən işləri elə qurdum ki, Aruz da, oğlu Basat da min il qala bu tordan qurtula bilməz.

– Bilməz, Xatun, əlbəttə, sən qurduğun bu tordan qurtulmaq müşkil işdir. O zaman…

– Hələ dur. Qazana dersən ki, casus Aruzun oğlu Basatdır. – Burla Xatun Beyrəyə belə buyurdu.

– Yox, Burla Xatun. Belə olmaz. Qazan mənə inanmaz. Basat – casus?! Noldu, deyər, bu günəmi qaldı?! Həmi casus xəbərini gətirdin, həmi də casusun kim oldusu xəbərini. Burda bir az əqillicə tərpənməmiz lazımdır.

– O zaman nə edəlim?

– Eyb etməz. Casusun kim olmasını bir tövr Qazana bir başqası deyər. Bunu mən həll edərəm.

Burla Xatun dedi:

– Oldu, Beyrəyim… Yox, elə demədi, Xanım, Burla Xatun belə dedi: oldu, igid Beyrək, umurun açıq olsun, dəxi durma, get. Burla Xatun belə söylədi.

– Yenə görüncə, həşəmətli Burla Xatun. – Beyrək dəxi buna bu cür cavab verdi. Sonra hasardan aşdı getdi. Gizlincə necə gəlmiş idi, gizlincə elə də getdi, Xanım.

…İndi Beyrək Salur Qazanın yanında ikən mən bilirdim ki, o bu casus məsələsini bəyimizə bəyan eyləyir. Az keçmədi, Qazan məni dəxi içəri çağırdı.

– Şirşəmsəddin! – Qazan dedi. – Bilirmisən, Beyrək nə xəbərlə gəldi?!

– Bilmirəm, bəyim, mənə demədi. Amma, Xanım, sənə indi söylədim ya, bilir idim.

– Oğuzda casus varmış, Şirşəmsəddin, bəlli bilgil. – Qazan qeyzlə dedi. – Bəs sənin gözlərin hara baxır?

Sonra Qazan mənə töhmət etdi, başıma qaxınc etdi. "Sən niyə bu casus məsələsindən xəbərsiz oldun?! Bunu mənə sən deməkdən Beyrək deyir. Mənim ətməyimi yeyirsən, mənə böyləmi xidmət edirsən?! Bütün Oğuz casus deyib durur. Nə sənin bu işdən xəbərin var, nə də mənim" – Qazan baş yellədib böylə-böylə sözlər dedi, durdu.

– Bəlkə təxribatdı, bəyim? – Mən sordum. – Casus xəbərini yağı düşmən təxribat üçün yaymasın?! Oğuza qarğaşa düşə deyü qurğu qurmasın?!

– Sərsəm-sərsəm danışma, Şirşəmsəddin! – Qazan səsini qaldırdı. – Odur, Beyrək deyir ki, Bayburd əsirliyi zamanı Bayburdun bir halal süd əmmiş, bikr qızı var imiş, onunla… – Qazan yerində qurcuxan Beyrəyə baxıb bu dəfə qımışdı, – hə, Beyrək, noldu, utanc duydun, həmi? – Sonra yenə mənə üz tutdu. – Qərəz, nə işə baxırsan sən, Bayburdda o qız deyib bu casus məsələsini buna. Mən dəxi düşünürəm…

– Nə düşünürsən, bəyim? – Sordum.

– Nə düşünürəm?!. Düşünürəm ki, mən ava çıxdım, böyük seyrangah qurdum, yadındamı?! Kafirin casusu hazır oldu, casusladı. Mən olmaya-olmaya kafir ordusu gəlib Oğuzu daradı, elim-obam əsir getdi, demi?! Sənə sordum – demi?

– Bəli öylədir, bəyim, çox doğru sordun. – Mən dedim.

– Bu yana, Beyrək düyün qabağı gərdəyə girməmiş yenə casus öz işini gördü. Bayburda xəbər getdi. Gəlib Beyrəyi oğurlayıb apardılar. Bəyi ha?! Düyün öncəsi ha?! Görünməmiş bir… ədəbsizlik. Oldu, olmadı?!

Mən dedim:

– Öylə oldu, bəyim. Çox-çox fəna işlər oldu. On altı il Bayburdda əsir qalasan. Biyabırçılıqdı, bəyim…

Beyrəkdən "hıq"da çıxmadı, başın endirib eləcənə donmuşdu.

– Bu yana bir xəbər dəxi yenə çıxdı. – Qazan davam etdi. –Bəkil ava getmiş, yıxılmış, ayağını sındırmış, yenə casus Qara Təkura xəbər aparmış, Oğuzun sınırına Qara Təkurun ordusu gəlib qonmuşdur. Yenə casus. Duyurmusan dediklərimi, Şirşəmsəddin?

– Duyuram, bəyim, duyuram. Duymaz olurmuyam?! – Mən dedim.

– Ağam Qazan. – Beyrək, nəhayət, səsi yavaş çıxdı, müdaxilə etdi. – Kafir məsələsini Bayındır Xan bilməsin. Bilsə, qatı qəzəb edəcəkdir…

– Kimə? – Salur Qazan təşvişə düşdü.

– Kafirə, bəyim. – Beyrək tez iz azdırdı. – Kimə edəcəkmiş, əlbəttə, kafirə, edəcəkdir.

Mən gördüm ki, Xanım, bu Beyrək çox hiyləgər birisidir. Qazanın ürəyinə şübhələri, qorxuları bu cür doldurmaq istir. Ağlım kəsdi, mən də belə dedim:

– Bəyim, Bayındır Xan qəzəb etsə bizə edəcəkdir. Kafir var isə niyə biz onun indiyənədək cəzasını verməmişik, – bizə soracaqdır.

Qazan düşüncəli-düşüncəli mənə baxdı:

– Doğru dersən. Qəzəb etsə Xan bizə edəcək. Bəs biz bu kafir oğlu kafiri, casusu derəm, niyə indiyənədək tutub qaranlıq zindana gömməmişik, can dadlısın ona göstərməmişik? Cavab ver, Şirşəmsəddin!

Mən də, Beyrək də susu verib durduq. Nə deyə bilərdik?! Özü sordu Qazan, özü dəxi cavab verdi:

– Biz bilmirik bu casus kimdir, həmi? Şirşəmsəddin, sən bilirsən?

– Yox, bilmirəm, bəyim.

– Beyrək, ya sən?

– Mən dəxi bilmirəm.

– Bəs sənə Bayburdda … o kafir qızı söyləmədi, heç bir şey onunla ilgili?!

– Yox, söyləmədi. Ancaq bunu dedi ki, Oğuzda bizim casusumuz vardır, bəlli bilgil.

– Belə… – Qazan yenə fikrə getdi. – Nə edəlim, bəylər? Bu casusun kimliyini necə öyrənəlim?

– Dış Oğuzdan olmasın bu casus, bəyim?! – Beyrək ehtiyatla söz atdı.

– Dış Oğuzdanmı deyirsən? Kimi dersən? Yenə Aruzmu əqlinə gəldi? Yox canım, Aruz "Basat" deyib durub. Aruzdan casusmu olar? Aruz – casus? Yox. O deyil.

– O zaman … – Beyrək yenə ehmallıca başladı.

– O zaman… nə? – Qazanın səbri tükənirdi. – Tanrını sevirsən, əcələ et, gün günortadan aşdı. Bəylər yağmaya başladı ola. Sonra bunu da bir söz edəcəklər ki, Qazan özü yağmada bizimlə olmadı, bizə malının, dövlətinin iyisini göstərmədi. Şirşəmsəddin, Burla Xatun evdən çıxdımı?

– Çıxdı bəyim. Xatun üz tutdu meşəliyə Buzluselin haça qayadan uçub aşağı endiyi talaya getdi. Yanında da qaravaşlar.

– Öylə. Nə qədər uzaq getsə, daha yaxşı. Beyrək, sən nə demək istədin?

– Heç, bəyim. Bəlkə deyirəm..

– Mən buldum. – Qazanın üzü güldü, sevincək oldu. – Dədəni çağıraq. Qorqudu. O elə həmişə deyir ki, Haqtaala mənim könlümə ilham edir. Mən qayibdən türlü xəbərlər verə bilirəm. Heç biz bunu yoxlamadıq. Qayib qayibliyində. Nəmizə gərək?! Bizə keçmişdən bircə xəbər versin. Casusun kim olduğunu desin. Düzmü danışıram, bəylər?

*(Bax Qazana, qavat mənə şəkk gətirmək istər. Nolar, eyb eləməz, baxarıq.)*

– Çox doğru söylədin, ağam Qazan. – Hər ikimiz–həm Beyrək, həm də mən elə eyni anda cavab verdik.

– Di belə isə, Şirşəmsəddin, Qorqudu tezcə bulub gətir, gəlsin.

– Bəy Qazan. Qorqudu bulmaq o qədər də asan iş deyil. Özü də belə, əcələ ilə. Zaman lazımdır. – Mən dedim.

– Zamanımız yox. Bəs biz nə edək?.. Aha, belə edək. Yağmanı, sən çıx, bəyan elə, mənsiz bəylər yola versinlər. Kim nə istir, götürsün, getsin. Onlara beləcənə söylə: mənim malım da, dövlətim də Oğuza halaldır. Siz də gedin. – Bəy bizə dedi, – nə durdunuz? Yağmadı, malın qəşəngini seçin ya…

– Mənmi? – Beyrək gözlərini dörd elədi. – Aman, aman. Mənimi dersən, bəyim?! Mənim Qazanın malında gözüm yox. Bir çöpünə də qıymanam. Mənə gərək deyil, biləsən.

Mən şaşırdım. Xanım, elə çıxırdı ki, mənim gözüm vardı Qazanın malında. Tez mən dəxi dedim:

– Ağam Qazan, biləsən. Mənə bu evdən heç zad gərəkməz. Sənin sevgin ki mənə varımdır, elə o bəsdir mənə.

– Yaxşı, yaxşı, mən sizi bilməz olurmuyam?! Siz özünüzü mənəmi tanıdacaqsınız?!

Daha mən bilmədim, Qazan bu sözləri istehsan edib dedi, yoxsa həqiqətən ürəkdən dedi. Nə Beyrək, nə də mən bir kəlmə danışmadıq. Qazan bir dəxi bizi aşağıdan yuxarı süzdü və mənə bunu dedi:

– O zaman çıx dışarı, Şirşəmsəddin, bəylərə mən nə dediyimi yetir, sonra get mənim yataq otağımdan, şamdanın yanındadı, tük qabını götür gəl mənə.

Mən çıxdım. Gəldim Qazanın evinin önündə topa durub yığışmış bəylərə üzümü tutdum, Qazanın sözlərini yetirdim:

– Bəylər, – dedim. – Qazan sizə xəbər ilətdi. Nəyim vardır, nəyim yoxdur, bu gün siz bəylərindir, Oğuzundur, dedi. Di başlayın yağmaya.

– Biz yağmaya başlamanız. Bəylərdən, Xanım, Tərsuzamış idi, qabağa çıxdı, söylədi.

– Neçin başlamazsınız, mərə Tərsuzamış? – Mən sordum.

– Dış Oğuz hənuz yetişmədi. Onlarsız necə başlamaq olar? – Tərsuzamış cavab verdi.

Mən ki məsələni bilirdim, odur ki, Qazana dəxi baş vurmadan mətləbi bunlara özüm açdım:

– Bəylər, bu dəfə Dış Oğuz yağmada iştirak etməyəcəkdir. Yağmada ancaq İç Oğuz bəyləri iştirak edəcəkdir. Buyurun, buyurun, keçin içəri… Keç ya, Tərsuzamış, böylə keç…

Bəylər əvvəlcə maddım-maddım bir-birinin üzünə baxdılar, bilmədilər, nə etsinlər, sonra yavaş-yavaş hərəkətə gəldilər, bir-bir evə daxil olmağa başladılar. Az keçdi, bunlar yağmanı başladılar, nə başladılar. Ələ keçəni əllə, dişə keçəni dişlə, gözə keçəni gözlə, bəli, Xanım, gözlə dəxi aparmağa başladılar. Mən tez özümü verdim Qazanın yataq otağına. Buraya Tanrıya şükürlər olsun, bir kişi hələ macal bulub daxil olmamış idi. Şamdanın yanında, qızıldan bir şamdan idi, Trabzon akınından yadigar idi, dilədim gizlədəm, yağmadan saxlayam, sonra Qazanın qəzəbindən çəkindim, gözümün ucu ilə də o şamdana… amma əntiq bir şey idi, özü də təmiz qızıldan, üstündə də… mətləbə qayıdıram, mətləbə qayıdıram, qərəz şamdanın yanından tük qabını götürüb çıxdım, gəldim Qazana. Qazanla Beyrək üzbəüz oturub söhbət edirdilər. Beyrək deyirdi, Qazan diqqət ilə qulaq vermişdi. Məni görüb Beyrək susdu. Qazan dəxi üz-gözünü turşutdu, amma tük qabını əlimdə görüb xatırladı ki, məni iş dalınca özü göndərmişdir. Tükqabını məndən alıb açdı, içində bir uzun tük var idi, onu çıxardı.

– Bu nə tükqabıdır, ağam Qazan? – Beyrək sordu.

– Bu o tükqabıdır ki, Şöklü Məliyin əsirliyindən sonra Qorqud verdi bunu mənə, dedi al bunu, Qazan, içində bircə tüküm vardır, sehrli tükdür bu. Nə zaman dara düşsən, yandır, məni yanında görəcəksən.

– Sehrlimidir? – Beyrək təəccüb etdi.

– Ya, sehrlidir, əlbəttə. İndi görəlim nə tükdür bu. Sehrlidir, sehrli deyil, indi bilinəcək. – Qazan üzünü mənə tutdu. – O məşəli mənə ver, – dedi.

Mən divardan yanar məşəli qovzayıb Qazana verdim. Məşəli Qazan tutdu tükə, tükü yandırdı.

*(Bəli, doğru söyləyir həpsini qavat oğlu qavat. Qazan tükümü yandıranda başımdan od çıxdı sanasan. Amma ta söz idi vermiş idim, gərək idi, yanında peyda olum. Tükümü yandıran andaca mən Qazanın yanında peyda oldum.)*

Xanım, mən gözümü yumub açdım, gördüm Qorqud dəxi bizimlə otaqda vardır. Hardan gəldi, necə gəldi – bilmədim. Xanım, istərsən, özündən sor, özü sənə cavabını verər. Mən bunu bilmədim. Heç Qazanla Beyrək də bilmədilər. Həpimiz şaşırdıq…

*(Şaşırmayıb da nə yapacaqdınız, qavatlar?!)*

Yox, Xanım, mən yanlış etdim. Qorqud hələ gəlmədən, tükü hələ yandırmadan Qazan mənə yağmadan sordu. Yanlış etdim, öncə yağma olmuşdu, bəylər yağmanı bitirəndən sonra Qazan Qorqudun tükünü yandırdı. Bəli, əlbəttə, yağma artıq bitmiş idi. Bəylər kimin nə xoşuna getmiş idisə alıb evdən çıxmışdılar. Həpsi də razı qalmışdı. Qazan tükü yandırmazdan öncə məndən sordu:

– Bəylər getdilərmi?

Dedim:

– Getdilər, bəyim.

Qazan:

– Razımı getdilər? – sordu.

Mən dedim:

– Razı getdilər, bəyim, çox razı getdilər. Niyə də razı getməsinlər?! Nəyə gücləri çatdı, apardılar. O bir olan Allah səndən də razı qalsın. Mən, ağam, heç zad almadım, heç nə… Biləsən.

Qazan mənə baxdı, baxdı, bir söz söyləmədi.

Mən yenə dedim:

– Beyrək getməmişdir, burdadır, nə dersən, gəlsin, ya deyim, çıxsın o dəxi getsin evinə?

– Yox, Beyrəyi çağır gəlsin buraya. Özün də gəl. Bu casus məsələsini çözək.

Xanım, mən dışarı çıxdım, Beyrəyi çağırdım, ikimiz də qayıdıb gəldik Qazanın yanına. Dədə Qorqudun da Qazan tükünü bu zaman yandırdı, indi xatırlayıram, əlbəttə ki, Qorqud gəldiyində bəylər artıq yağmanı bitirib getmişdilər. Qərəz, Qazan Qorqudun tükünü yandırdı. Həpimiz şaşırdıq, çün gözümüzü açan zaman Qorqudu ortalıqda bardaş qurub oturmuş gördük.

Qazan yerindən sıçrayıb öncə kəkələdi:

– Qorqud, sənmisən? Yəni, sən doğrudanmı gəldin?

Dədə cavab verdi:

– Çağırdın ya. Yoxsa inanmırdın?

Qazan dedi.

– Mən… mən çox möcüzə görmüşəm. Bundan isə görməmiş idim.

Mən dəxi, Xanım, kəkələyə qalmış idim, ancaq "mən, mən, mən" deyə bilirdim. Beyrəyin isə… az qala huşu başından getmiş idi. Quşürəklidi Beyrək, həpimiz bunu bilirik ya…

Bu ara özünə gəlib Qazan Qorqudu ədəblə salamladı:

– Qorqud, xoş gəldin, həmişə sən gələsən, – dedi, sonra onun qabağındaca o da yerdən bardaş qurub oturdu.

– Bilirmisən, Qorqud, sənə ehtiyacımız var. Olmasaydı, çağırmazdım, əziyyət verməzdim…

– Söylə, Qazan, noldu onu söylə. Qorqud Qazana dedi, sonra bizə – Beyrəklə mənə baxdı. "Bunlar da kim ola?" sordu. Qorqud ola ki, öncədən bizi tanımamış idi, çün üzümüzə işıq düşməmiş idi.

– Bəyim, mən çıxım, sonra gəlirəm. – Mən Qazana söylədim.

Beyrək dəxi dedi:

– Bəyim, biz dışarıda gözləyək, olurmu?

Qazan Qorquda baxdı, yəni, "sən nə dersən, Qorqud, qalsınlarmı, çıxsınlarmı?" Qorqud dedi:

– Yox, niyə ki. Qoy onlar da qalsınlar. Qaranlıqda durmuşlardı, öncə tanımadım. Qanturalı, yox... Şirşəmsəddin, sənmisən? Beyrək? Gəlin ya, keçin, yavuğa gəlin. Buyur, Qazan.

Biz dəxi keçib bir tərəfdən ədəblə əyləşdik. Qazan sözünə başladı:

– Bilirmisən, Qorqud, səni niyə çağırdım?..

– Bilirəm, Qazan, bilirəm. Oğuzda casus var, ondan ötəri…

Qazan şaşırdı, yenə dönüb bir mənə sərt baxdı, sonra gileyli-gileyli dedi:

– Bilirmiş. Hamı bilirmiş bunu, bir tək məndən qeyri. Belə də iş olarmı? Amma qalsın sonraya. Şirşəmsəddin, görürsən, baxırsan? Sənin əməllərindi… Qalsın. Sən nə dersən, Qorqud? Acı xəbərdi bu xəbər – mən derəm.

– Bəli, bəy, acı xəbər olmağına acı xəbərdi. – Qorqud dedi.

– Qorqud, indi bəs biz nə edək? Kimdən şübhələnək? Kimi tutub dama soxaq? Biz casusu tutmaz olursaq, Xan Bayındır həpimizə qatı qəzəb edəcəkdir, bəlli bilgil.

– Bilirəm, edəcəkdir.

– Sən söylə, Qorqud. Haqtaala ki, sənin könlünə ilham edir. Qayibdən dürlü xəbərləri ki, sən gətirirsən. Olacaqdan, olmayacaqdan sən danışırsan. Sən söylə. Casus kimdir?

– Sorma, Qazan, heç sorma.

– Niyə sormayım? Sormaz olurmuyam?

– Dedim ki, sorma, Qazan. Sonra peşiman olmayasan…

– Olmanam! Olmanam peşiman. Hələ bir sən onun adını mənə ver. Mən bu kafir oğlu kafirə bir dağlar çəkdirim ki… Qara qullarıma canı bədəndən çıxınca bir qamçıladım ki… Bayındır Xanın əzabxanası onun üçün ala çadırlı göy çəmənli seyrangah olsun.

Qazan belə dedi, Xanım. Nə dedi, necə dedi, mən dəxi sənə olduğu kimi xəbər verirəm. Necə eşitdim, eləcənə də deyirəm. Bir kəlmə də orası-burası yoxdur, biləsən. İnanmazsan əgər… Oylə deyilmi, Dədə? – Şirşəmsəddin mənə çöndü, sordu.

*(Xan bağçasında qızılgül koluna kiçik bir quşcuğaz ilişmişdi ya. O quşcuğaz bu an məndən bəxtəvər idi. Onun yerinə mən olaydım kaş, qadir Tanrı. Mən Xanın üzünə bundan sonra necə baxacaq idim – bilmirəm.)*

Mən başımı yazıya dikib susu verdim. Şirşəmsəddin müti davam etdi:

– Yenə sənə derəm, sorma mənə casus kimdir. Qorqud bir dəxi casusla ilgili bəyə xəbər verməyə boyun qaçırdı.

Qazan naçar qalmış idi. Qorquda ta nə təhər yalvarmalı idi?! Məsələ şişirdi, Xanım.

*Doğrudan da, Şirşəmsəddin demişkən "məsələ şişirdi". Belə çıxır ki, Dədə Qorqud casusun kim olduğunu əvvəlcədən bilirmiş, Qazana da o lap elə indicə bunu deyəcəkdir. O biri tərəfdən də əgər Qorqud casusun kim olduğunu əsrarəngiz şəkildə bilirsə, o zaman casusu qaçıranın da kim olduğunu bilməyə bilməz. Adi məntiq bunu deyir. Bəs belə isə bütün bu istintaq nə üçündür?! Kifayət deyilmiydi ki, Bayındır Xan bu barədə Dədə Qorquddan soruşsun, o da Xana həqiqəti, istəsə də, istəməsə də deməyə məcbur olsun. Dərindən diqqət edəndə, görürük ki, yox, kifayət deyildi. Bayındır Xanın əsl, gizli məqsədi bir başqa idi. O bu məqsədini necə həyata keçirir – irəlidə biz bunun şahidi olacağıq.*

...Xanım, Qorqud, nəhayət, ətəyinə yığdığı daşları ətəyindən bir-bir salıb tökdü yerə. O casusun kim olduğunu bizə bəyan elədi.

– Boğazca Fatma var ya, tanırsınız. Casus Boğazcanın təkcənə oğludur, bəlli bilin. Amma, bəylər, peşiman olmayasız...

Qazan sevinc içində yerindən sıçradı, ayağa durdu. Biz dəxi rahatlıqla köksümüzü ötürdük. Amma Beyrək rəngi qaralmış oldu. Qayət, Qorquddan o bu cavabı gözləmirdi. Mən bunu artıq Xana ərz elədim ki, Beyrəyin casusla ilgili öz qurğusu var idi...

Xızrı, əlbəttə ki, Hüseyn bəy Lələ gizli, gözdən-qulaqdan uzaq bir yerdə saxlardı. Bu gizli yer, taxt otağının dal tərəfindəki balaca bir bağça, o bağçanın bir küncündə fəqət Şahın girdiyi bir istirahət otağı var idi, orda idi. Üç kişi girirdi bu otağa – Şah özü, Hüseyn bəy, bir də ki Xızr. Onu başqa bir insan, bir bəndə görməzdi. Hərdən axşamlar bağça tərəfdə bir ins-cins olmayanda otaqdan bağçaya çıxmasına Hüseyn bəy ona icazə verərdi. Tək-tənha bağçanı o tərəfə, bu tərəfə dolaşar, məstanə bir halətdə ətri tamam ətrafı bürümüş güllərlə, çiçəklərlə söhbət edərdi. Özünə ləqəb də götürmüşdü: Xətai. Yazdığı şerlərin sonluğunda özü-özünə xitab edib ləqəbini bəyan edərdi. Şahın özü bu şerləri dinlədikcə dinlər, usanıb yorulmazdı və Lələni xoşnud edən həm də bu idi ki, Şahın quşu qonmuşdu bu Xızra, Şah ona isnişmişdi. Hərdən şətrənc oynardılar. Sadağa olduğumun yaxşı şətrənc oynamağı vardı. Heç uduzmaq bilməzdi. Xızr şətrənc qayda-qanununa təzə-təzə vaqif olurdu. Oyun zamanı da ki, təbii, Lələdən başqa bir adam yanlarında olmazdı. Qulluğu da onlara bu zaman Lələ özü edərdi. Görünüşcə bu iki şəxs bir–birinə nə tövr oxşardılarsa, xasiyyətcə tam bunun əksi idi. Lələ göz qoyub fikir vermişdi. Şah nə qədər kəskin, cəsarətli, heç kimin günahından keçməyən, hamı ətrafına öz şahlıq və mürşidlik mərtəbəsindən baxan bir sahibəzzaman, bir şəxsi-müqəddəs idisə və

özü də buna sonsuz inanırdısa, Xətai bir o qədər həlim, xoşxasiyyət, sülhməramlı insan idi. Şaha da ki, xüsusi vurğun idi. Səsi yumşaq, ədaları mülayim, ürəyi incə idi. Lələ hərdən onun bu halını seyr eləyib "bədbəxtin biridir" düşünürdü. Zavallının təsəllisi yeganə o idi ki, Saraya gələli, atasıgilin, bacılarının Lələnin himayəsilə dolanışıqları xeyli yaxşılaşmışdı. Doğrudur, Xızr barədə Lələ onların özünə hətta heç bir kəlmə də deməmişdi, bu sirri-əzəm gizli bir dövlət sirri idi, amma oğlu adından atasına hər dəfə pay-püş göndərir, hər bir müşküllərini izləyir, sonra da həll edirdi. Xızr bununçün Lələyə qəlbində hədsiz məhəbbət bəsləyib durmuşdu.

Çaldıran döyüşünə qədər saray həyatı Xızr üçün çox mülayim keçdi. Qəfildən, Allaha xoş getməyən bu namünasib savaşdan sonra onun da həyatı başdan-başa dəyişdi.

Osmanlı Sultan Səlimlə Şahın döyüşü Çaldıran adında bir kənd vardı, orda başladı. Şah özü döyüşə rəhbərlik edir, sərkərdələri cinahlara bölür, hücum yaxud geriçəkilmələri barədə əmrlər verirdi. Çadırı bir təpənin üstündə qurulmuşdu. Əmrlərini verdiyi zaman çadıra bir kimsə də girə bilməzdi. Çadırdan Şahın səsini eşidib qulamlar, çaparlar əmrləri ünvanına aparıb yetişdirirdilər. Xızr çadırın içində idi, eynən Şahın libasından bunun da əynində var idi, amma üstündən əba kimi bir şey geymişdi. Hər dəqiqə Şaha göz qoyur, diqqətlə hər sözünə, əmrinə fikir verir, çadırın bir tərəfindəki xüsusi deşikdən gözünü qıyıb döyüşü hərdən seyr edirdi. Bir məqam oldu, Hüseyn bəy Lələ döyüşün şıdırğı yerində gözdən itdi, atdan yıxıldı, üstünü qarğa-quzğun kimi düşmənlər aldılar, Xızrın ürəyi qan oldu, baxa bilmədi, elə bil, bunu dəyişmişdilər, cürət edib üzünü döndərdi Şaha:

– Şahim, nolar, izn ver, mən də bir vuruşum sənin yolunda. Qoy gedim, Şahim. Çadır deşiyindən baxmaq elə mənə qalıb?! Burda dura bilmirəm, ürəyim, vallah, partlayacaq.

Şah fikirli-fikirli ona, bilmək olmurdu, qulaq verirdi, ya vermirdi, amma susub dururdu, öz aləmində idi.

Qorçubaşı hövlnak çadıra yaxın gəldi. Şah bu dəfə tez onun qabağına çıxdı.

– Şahim, qurban olduğum… sol cinah… sol cinah əyilir, şahim…

– Tez xəbər elə, Xəlil Sultan Zülqədər sol cinaha köməyə getsin.

Qorçubaşı üzüqoylu yerə sərildi:

– Pirim… sadağa olduğum… mürşidi-kamilim…

– Nədi, söylə, cəld ol görüm.

– Zülqədər xain çıxdı. Zülqədər qaçdı, şahim.

Şah sarsıldı:

– Qaçdı? Məlun. Xaindən xain törər. Di, onda get Ustaclı Abdulla xan hardadı, tapdır, tez ol göndər sol cinaha. Get daha. Ləngimə.

Bu dəm bir qorçu da çaparaq yaxınlaşdı çadıra. Atdan birbaşa yıxdı özünü Şahın ayaqlarına, bir bəd xəbəri də bu gətirdi:

– Şahım, sağ cinah sındı.

Şah daha sustaldı, birdən-birə halsız düşdü:

– Yaxşı, gedin, hamınız gedin, bir tək qorçular qalsın, amma onlar da keçsinlər çadırın düz qabağına. Gedin, yox, gözləyin məni, bir ləhzə gözləyin, gəlirəm.

Şah bunu deyib təkrar girdi çadıra. Xızr əmrə müntəzir durmuşdu.

– Niqabın hanı? Tax niqabını! – Şah Xızra əmr etdi.

Xızr itaət edərək niqabı keçirdi üzünə. Allah-taalanın məramına şükürlər olsun, elə bil, ortaya bir böyük ayinə qoydular və bir niqablı adam o ayinədə özü özünə baxaraq, özü özü ilə söhbət etməyə başladı.

Şah dedi:

– Dinlə məni. Vaxta daha az qaldı. Sözümü kəsmə, gədə! Dinlə. Yaxşı dinlə. Bir az əvvəl çadırdan çıxanda özümü düşmənə vurdum. Bir şey qalmamışdı ki, əsir düşəm. At büdrədi, saldı məni altına, yıxılıb qaldım atın altında. Ayağım əzildi. Düşmən dörd tərəfimi aldı. Sultanəli Mirzə Əfşarı tanırsan. Yadında qalsın. "Şah mənəm, şah mənəm!" qışqırıb dürtdü özünü ortalığa, məni buraxıb düşmən daraşdı ona. Yaxşı dinlə məni. Sultanəli düşmən əlindən qurtulsa, ona böyük ənam ver. Səni xilas elədi. Zülqədərin də, özün ki indicə eşitdin, cəzasını verərsən, inşallah.

Xızr çaşıb durmuşdu. Mürşidi-kamili nələr söyləyirdi, nə deyirdi, ona əsla çatmırdı. Şah nəfəsini dərən təkin özünü atdı Şahın ayağına:

– Şahim, sadağa olduğum. Nə söylədiyindir?! Necə yəni, Sultanəli Əfşar məni xilas elədi. Necə yəni, Zülqədərin cəzasını özün verərsən?!

Şah əlləri ilə Xızrın çiyinlərindən sərt yapışıb qaldırdı:

– Qalx ayağa, gədə! – Sonra birdən səsinə mülayimlik gətirdi. – Qalx ayağa, Şahim. Bu vuruş artıq bitdi. Mən gedirəm. Sən isə qalırsan. Bir ləhzə nolar, niqabını götür hələ…

Xızr niqabını cəld çıxardı. Şah heyran-heyran ona baxdı və dedi:

– Qüdrətinə şükür olsun, xudavəndi-aləm. Tax, tax bunu öz yerinə, görən olmasın camalını.

Bayırdan çadıra səslər dolmağa başladı:

– Pirim, mürşidi-kamilim, cinahlar… cinahlar batdı. Tez ol, sadağa olduğum, düşmən yaxın gəldi… Aradan çıxmaq vaxtıdı…

– Eşidirsən, çağırırlar, – sonra Şah üzünü bayıra tutdu. – Şahi-Mərdan xətrinə, bir ləhzə dözün, – deyə çadırdan eşiyə çığırdı, – gəlirəm, gəlirəm…

Sonra sadağa olduğum yenə üzünü Xızra çöndərdi, səsi dəyişdi, yenə səsinə bir mülayimlik gəldi.

– Hazırsan? Sən indi artıq daha, mənsiz, Lələsiz, özün, ancaq özün çıxırsan meydana. Nə mən varam, nə də Hüseyn bəy Lələ. Heç bir şəxsin də Xızırdan xəbəri yoxdur. Başa düş, Şah ölə bilməz. Heç bilməz. Mən isə ölməliyəm. Bir də ki, mən bu heyfi onda qoya bilmənəm. İndi bax, mən vururam özümü savaşın ən isti yerinə. Baş bir yana, leş bir yana. Ya mənə verən Allah, ya Səlimə verən Allah. Eşidirsən, sən lap elə indi durub çıxacaqsan çadırın qabağına. Qorçular səni gözlir. Mən özüm burdan gedirəm. – Şah çadırın dal tərəfinə keçib əliylə küncdəki bir parça taxtasını qaldırdı. – Odu, ordadı bax, Səlimin qərargahıdı…, görürsən? Mənim də yerim ordadır.

– Şahim, mən… mən bacarmaram, Şahim.

– Bacararsan. Elə bacararsan… Bu vuruş ki, var, gəldi-gedər bir şeydi. Bir azdan yenə günəş çıxacaq, sübh açılacaq, məmləkət olacaqdır səninki. Gözlərini döymə. Mən sənə bu boyda məmləkət qoyub gedirəm. Hamıdan gizli. Bir şəxs bunu bilməyəcəkdir. Sən dönüb olursan mən. Bütün sonrakı

zamanlarda da, əslində, sənsən, zahirdə isə… yenə də mənəm ki, varam. Hazırsan?

– Biz kimi aldadırıq, Şahim? – Xızr başını aşağı salıb yavaş səslə sual etdi.

Şah dönüb ona belə cavab verdi:

– Gözlərimin içinə bax, Şahim. Heç kimi. Biz, əslində, heç kimi aldatmırıq. Şahi-Mərdan xətrinə, noldu sənə? Gözlərin niyə doldu? Özünə gəl. Bu da elə şətrənc oyunu kimi bir şeydi. Yoxsa qorxursan?

– Qorxuram, Şahim. Deyirəm, Lələ, bəlkə…

– Yox, qorxma. Lələ yox oldu. Verdi özünü ölümün pəncəsinə Lələ. Yeri behiştlik olsun.

Çadır yanında bir top mərmisi idi, bir az yaxına düşdü, partladı, atlar hürkdülər, tozanaq qalxdı, çığırtı səsi asimana bülənd oldu.

– Artıq sən azadsan, şair. Bunu heç xəyalindən keçirmədinmi? Külli-ixtiyarsan… Get, get, qorçuların səni gözlir. Aradan çıxmaq zamanıdı. Ordu sındı… Mən isə…

– Şahim, mürşidi-kamilim…

– Kəsmə sözümü. Mən bu boyda məmləkəti fəlakətdən saxlaya bilmədim. Amma bu işi görməliyəm. Gedirəm. Bilirsən, Şahim, göydən səs gəldi sabah-sabah qulağıma. Elə bir az əvvəl mən o səsi dübarə eşitdim. "Sənin nə işin var oralarda, gədə?! – dedi o səs. – Sən ki, öz işini görüb qurtarıbsan. – Şahi-Mərdanın səsiydi. – Gəl bura, – dedi, – səni axı burda gözlirlər. Hamı səni sevənlər burdadı..." Odur ki, məni daha saxlamaq heç olmaz. Çıx, çıx çadırdan. Məni bir daha soraq eləmə. Cəsədimi də tapan olmayacaq. Baş bir yana, leş bir yana. Sən yaşa. Yaşa. Yaşasın Şah İsmayıl. – Son sözlərini Şah az qala pıçıltı ilə deyib, çadırın arxa küncündəki o taxta parçasını çıxardı, başını aşağı əyib bayıra çıxan an dönüb bir də Xızra baxdı, son dəfə ona bunları dedi:

– Bir də istirəm, bunu biləsən. Mənim adım fəqət Şah İsmayıldı. Mənim özüm Şah İsmayıl deyiləm.

Sonra qurban olduğum "Allah-Allah" deyə-deyə göz açıb yumunca yox oldu.

Xızr çadırın ortasında mat-məətəl dayanıb durmuşdu. Bayırdan gələn qarma-qarışıq səslər get-gedə qüvvətlənirdi. Amma içəri, çadıra girməyə cürət edən yox idi. Nəhayət, Xızra, elə bil ki, hardansa bir cəsarət gəldi, qəddi-qamətini düzəltdi, eynən Şah kimi sərt addımlarla çadırın ağzını gəlib qapısını açdı. Çadırdan eşiyə çıxmaq məqamında bir an bu da yerində sanki donuq qaldı. Sonra qanrılıb arxaya, taxta parçasının boş qalmış yerinə bir də nəzər yetirdi, geriyə qaçmaq istədi. Amma bu dəfə çadırın artıq o yeri tutulmuşdu, taxta parçası da öz əvvəlki yerində idi. Əlbəttə ki, geriyə yol daha yox idi. Ürəyində Şahi-Mərdan xətrinə xudavəndi-aləmi köməyə çağırıb Xızr çadırdan bayıra qədəmini qoydu. Çadır qaldı boş.

…– Eşitdiniz? Şirşəmsəddin! – Qazan mənə üzünü tutdu. – Nə oturub qalmısınız? Uru durun! Gedin, ox olub uçun, harda isə o Boğazcanın oğlunu bulun, boğazlayın, məlunu mənə gətirin!!! – Qazanın səsi heç vaxt beləsinə guruldamamışdı.

Beyrəklə mən otaqdan bir an içində toz olub yox olduq. Sonra mən bir baxdım, Beyrəyi yanımda dəxi görmədim. Uçurdum, Xanım, elə bil, qanad vermişdilər mənə. Uçdum, dərənin ağzında Boğazcanın evi var, mən tanıram, tanımaz olurmuyam, o evə qədər qanad açıb uçdum. Çatdığımda göydən yerə daş kimi düşdüm. Var-gücüm ilə ikiəlli qapını döydüm. İçəridən cavab gəlmədi. Bu dəfə əlimə yerdən bir daş götürüb bu daşla davamlı qapını döyməyə başladım. Yenə cavab yox. Amma içəridən bir türlü anlamadığım boğuq səslər gəldi. Kim idisə, Boğazca ilə danışırdı, Xanım. Az keçdi, çox keçdi, bilmədim, amma qapı yenə açılmadı. Bir xeyli mən burda gözlədim. Sonra ardım ilə yetişənlərə üzümü tutdum, dedim:

– Daraşın Oğuza. Harda Boğazcanın oğlunu buldunuz, mana yetirin. Di gedin, əcələ edin. – Mən bunlara belə söylədim. Sonra bir qırağa çəkilib gözlədim.

Getdilər, buldular, gətirdilər. Mən dəxi bunun boynunu bir kəndirə keçirib sürütləyə-sürütləyə, bayaq uçurdum, indi addım-addım, yavaş-yavaş geri Qazana gəldim. Qazan bizi Aladarvazanın qabağında qarşıladı. Baxdım, Beyrək dəxi burda idi. Amma Qorqud yox idi. Çəkdim bu casus zavallını yıxdım Qazanın ayaqlarının altına:

– Budur məlun, – dedim. Bir dəxi dedim, – bəyim, Qazan, casus, buyur, baxginən, ayaqlarının altındadır.

Qazan əlin-əlinə çaldı, qas-qas güldü. Sonra əllərini belinə qoyub bu bədbəxtin o tərəfinə, bu tərəfinə gəzişməyə başladı.

– Bunun nə yaşı vardır, bir sütül cavandır bu. Amma gördüyü işlərə bax. Söylə, məlun, casusluğa nə zaman başladın, mən avda ikən kiminlə əl-bir oldun, yağını necə Oğuza kuşkurtdun?! Varmıdır, kimdir sənin əlbirin? Söylə! – Qazan buna bağırdı, təpiklədi.

Bu casus yerin üstündə qıvrıla durdu, bir səs çıxmadı bundan.

– Aparın, salın bunu quyu içinə! – Qazan buyurdu. – Orda əqli başına gələr, həqiqəti söylər, aparın.

Quyu Qazanın zindanı idi. Mərtəbə-mərtəbə qazılmışdı, hər mərtəbədə dövrələmə bir neçə əsir saxlamaq olurdu. Qadir Tanrı bir bəndəyə o quyunu nəsib etməsin, elə ora düşdüyündə bağrı çatlar. Çox mərtəbəsi vardı. İyindən, üfunətindən burun tutulurdu. Ağzına dəyirman daşı qoyurduq. Daşı aralayıb sularını, ətməklərini üzüaşağı sallayıb tökürdük. Kim nəyi hansı mərtəbədə qapışdıra bildi, bildi. Quyunun hər bucağında siçan-siçovullar bəylik edirdi. Hərdən, Xanım, əsirlərə dəxi bunlar hücum edirdilər. Ah-nalə, inilti səsləri bu yekə sal daşdan keçib qulaq dələrdi. Qərəz, bu binəvanı salladıq o quyuya. Yenə səs-səmir nədi, cınqırtısı da çıxmadı. Dəyirman daşını nökərlər qaytarıb quyunun ağzına öz yerinə itələdilər, mən dəxi gəldim Qazana. Beyrək yenə Qazana nə idisə fısıldayırdı, Xanım, mən bilmədim bunlar nə danışır, elə məni görən təki yum verdi, səsini xırp kəsdi.

– Saldınızmı quyuya məlunu? – Qazan məndən sordu.

– Saldıq, bəyim. Beşiminci deşikdə boş yer var idi. Ora itələyib saldıq. Balaca tərpəniş etsə, birbaşa quyunun dibinə – zir-zibilin, həşəratın arasına

düşəcək. Nəfəsini çəkə bilməz. Eyb eləməz. Quyuda gələr ağlı başına. – Mən Qazana belə cavab verdim.

Qazan bir dəxi dedi:

– Elə edin, bəylər, ölməsin kafir oğlu kafir. Bəlkə öyrənəcəyimiz bir türlü mətləblər var?! Bizi agah eləsin. İki gün qalsın, bəsdi. Çıxarın, amma mənə gətirməzdən öncə, Şirşəmsəddin, sən özün bilirsən, su tökün üstünə, kiri-pası, iyi-qoxusu heç olmazsa bir azcana təmizlənsin.

– Baş üstünə, ağam Qazan, – mən ədəblə cavab verdim.

Qazan Beyrəyi içəri dəvət elədi, ikisi girdilər, keçdilər Qazanın məşvərət odasına. Məni çağırmadı, mən dəxi getmədim onlarla, bilmədim, Xanım, nəyi danışdılar, nəyi danışmadılar. Bir onu bildim ki, Beyrək Qazanın yanından ayrılanda artıq gecədən xeyli keçmişdi, göy üzündə ay öz yerini dəyişdirib ulduzların bu biri tərəfində yer almışdı.

Sabah oldu. Qazan uyqudan oyanmamışdı hələ, Burla Xatun məni yanına istədi. Gəldim. Xatun mənə sordu:

– Şirşəmsəddin, dünən Qorqud gəlmiş idi, nə idi bu gəlişin səbəbi, söylərmisən?

Mən söylədim:

– Xatun, Qorqudu Qazan çağırdı, gəldi, soracağı vardı bəyin, sordu, cavabını aldı…

– Qazan nə sordu, Şirşəmsəddin?

– Xatun, özünə sor, özü sənə söylər.

– Mən sənə soruram. Sən mənə deməzmisən?

– Mən də derəm. Amma, Xatun, Qazandan sormadan söyləməm. Hələ bilsə, casusla bağlı sənə söz söyləmişəm... mənə qatı qəzəb edər. Bu, bir sirdir...

– Şirşəmsəddin, qoçağım, Qazanın məndən sirrimi olacaqmış?! – Burla Xatun niyəsə qas-qas güldü, təkid etdi.

Mən dəxi düşündüm: "Ərənlər bu dünyanı əqil ilə bulmuşlar. Burda gizli nə vardır ki?! Az qala bütün qalın Oğuzun casusdan xəbəri var. Dün də hayla-küylə bunu tutduq quyuya saldıq. Qaravaşlar, nökərlər, aşçılar həpsi gördü. Mən neçin dirənib durmuşam, Xatuna söyləmirəm bildikləri-

mi?! Olmaya Xatunun Beyrəklə əlaqəsi məni bu qədərinə itaətsiz qılmışdır, bilməm ki…". Nəhayət, qərar verdim, dedim:

– Xatun, sənə söyləyim. Təkcə sənə söylirəm. Amma mədəd eylə. Məndən eşitmədin, olurmu?! Öncə Beyrək gəldi… Bəlkə sən də duyuq düşdün… Yoxmu? Olsun… Beyrək casus xəbərini gətirdi. Bəy çox qeyzləndi. Qorqudu istədi, Qorqud gəldi, casusun kim olduğu barədə Bəy ona sordu, o dəxi cavab verdi.

– Kim imiş casus? – Burla Xatunun guya ki heç nədən xəbəri yox idi. Mənimlə oyun oynadı. Nə bilim, Xanım, bəlkə xəbəri doğrudan doğruya yoxmuş.

– Sən onu tutub gətirdinmi bəyə? Kim imiş qavat oğlu qavat? – Burla Xatun bir dəxi sordu.

Mən cavab verdim:

– Xatun, bir dəxi derəm, məndən eşitmədin, casus Boğazca Fatmanın yeganə oğlu imiş.

– Belə danış… Boğazcanın oğlu ha… Qazan ava gedən zaman, Beyrək gərdəyə girməzdən öncə, Bəkil avda ayağını sındıranda… deməli, Boğazcanın oğlu imiş… Vay məlun, vay şərəfsiz, vay qavat…

– Əvət, Xatun, öylə imiş. Onun əməlləri imiş. Saldım quyuya. Orada olsun ki, ağlı başına gələcəkmiş. Qazan belə söylədi. – Mən Xatuna belə dedim.

– Öyləmi? Gələr, gələr, Tanrı eşqinə, gələr əqli başına. Amma Şirşəmsəddin…

– Bəli, Xatun.

– Şirşəmsəddin, mənim heç gözüm su içmir bu casusun Boğazcanın oğlu olmasına. Sən nə dersən? – Burla Xatun maraq edib sordu.

– Mən? Mən nə derəm? Qazan nə der, mən dəxi onu derəm, bilməzmisən?! Qorqud böylə söylədi, Xatun.

– Bəs Beyrək? Beyrək casusun kim olduğun söyləmədimi?

– Söyləmədi, Xatun. Bunu söyləmədi.

– Demək, söyləmədi… Yaxşı, get, bəyin uyqudan duran zamanıdı. Sabah-sabah kefi yerində olar, Tanrıya mədəd. Boşuna bu sabah söylənməz…

– Baxalım görəlim, Xatun, bilmək ki olmaz. – Mən dəxi buna dedim və Burla Xatundan ayrılıb həyətə çıxdım.

Quyunun yanına baş çəkdim. Daşın altından zəif-zəif inilti səsləri duyulurdu. "Sağ qalar, inşallah, bu iki günü, düşündüm, canı çıxmaz. Bəy iki gün dedi. Doğru dedi. Üç günə nər igidlər bu quyuda dözməyib canları çıxdı. Tanrıya mədəd, sağ qalar…"

Sonra Qazana vardım. Qazan artıq məşvərət odasına keçib öz yerində oturmuş idi. Mən dəxi girdim içəri, ədəblə salam verdim, salam aldım. Bəy mənim üzümə baxmadan özü-özü ilə söz etdi, dan danışdı. Mənə bunu eşitdirdi:

– Çalış-vuruş, Qazan, günün-dirriyin olmasın, əzab-məşəqqət içində vurnux, cavabı da bu olsun. Məni casusla, həmi?! Anamı, oğlumu, əyalımı düşmənə əsir elə, demi? Bəs belə isə o zaman mən dəxi sənə zərbi-dəstimi göstərərəm. Sən dəxi bilərsən Qazan kim imiş… Ax, ax, Ulu Tanrı! Təkəm mən. Tək, təkcənəyəm. Mənim dəxi Oğuz içi xəbər aparıb gətirənim olsa idi, bumu burnumun ucunda casusluq edəcək idi?! Arxalandığım kişilər yedilər, yatdılar, yata-yata yanları ağrıdı, dura-dura belləri qurudu…

*(Bax qavata. Bu lafı özündən uydurmuş ola qayət. "Yata-yata yanları ağrıdı, dura-dura belləri qurudu". Qazan bunu deməz. Dəli kişidən belə əqilli söz… Oğuznamələrdə yeri görünən sözdür bu söz.)*

…Arxam – bu! – Qazan üzün çevirib təəssüflə mənə baxdı. – Döyüş meydanı böyük, mən-tək. Tək əldən səsmi çıxar?! Sənə soruram, Şirşəmsəddin, dedi. Duymadınmı? Tək əldən səs çıxarmı?!

Mən nə deyə biləcək idim?! Əqlimə nə gəldisə onu da anındaca cavab verdim:

– Çıxar, ağam Qazan, niyə çıxmaz olur ki…

– O nə səsdir tək əldən çıxarmış? – Qazan gözün qıyıb mənə qeyzlə baxdı.

– Tək əldənmi… tək əldən dersən... bəyim, tək əldən… sükutun səsi çıxar tək əldən, bəyim.

Qazan ağzın açıb mənə baxa qaldı. Bir xeyli susdu. Sonra bu söhbətə heç qayıtmadı.

*(“Sükutun səsi çıxar imiş tək əldən”. Şirşəmsəddin, Şirşəmsəddin… Mən nəzər yetirib gördüm ki, Xan dəxi bu qavata çox diqqət ilə qulaq verməyə başlamışdır. Qazan olsun ki, bunun bu cavabına mat-məəttəl qalmış ola. Ya da, çətin əqlim kəsir ki, bir şeylər anlamış olsun.)*

Handan-hana Qazan mənə sordu:

– Quyudakından nə xəbər varmış?

Mən cavab verdim:

– Bir kəlmə dəxi danışmadı. İniltidən başqa, ah-zardan başqa qulağıma bir şey dəymədi.

– Gözləyəlim. – Qazan dedi.

– Gözləyəlim, bəyim. – Mən dedim.

Sonra İç Oğuzdan iki kişi gəldi. Elin Qoca oğlu Sarı Qulmaş ilə Əylik Qoca oğlu Dönəbilməz Dölək Uran idilər. Bunların yağma zamanı qavğaları düşmüş idi. Bəyə sözlü gəlmişdilər. Nədi-nədi, Elin Qoca oğlu ondan irəlidə gedən Əylik Qoca oğlunun əlindən saldığı gümüş belçuqlu qamçını özü üçün götürmüş imiş. Qazan bəy çox düşündü, sonra bunlara sordu:

– Qamçı indi kimdədi?

Elin Qoca oğlu cavab verdi:

– Məndədi, bəyim. Bunun əli götürdüyü nəsnələrlə dolu idi deyin, sala-sala gedirdi. Mən də yerə saldıqlarından birini özüm üçün götürdüm. Pismi etdim?

– Qalsın səndə. Əylik Qoca oğluna da… Şirşəmsəddin, sənin qamçın vardı, belçağı gümüş, o nerdədi?

– Mehtərdədi, bəyim. – Mən səxt oldum.

– Verərsən onu Dölək Urana.

– Baş üstünə, bəyim. Gedəlim, – dedim və bu kişiləri ürəyimdə söyə-söyə məşvərət odasından çıxardım, həyətin o başına, Aladarvazanın qabağına qədər ötürdüm.

– Bu gün yox, bu gün keçsin, yarın, bəlkə ta o biri gün bir zaman bulub gəlib qamçını məndən alarsan. – Əylik Qoca oğluna dedim. "Mən sənə qamçımı verrəm?!" öz-özümə düşündüm.

– Sağ ol, əsən ol, Şirşəmsəddin. – Bu kişilər ağızları dualı çıxıb həyətdən getdilər.

Geri Qazana dönmək istədim ki, gördüm bir qaraltı kimi ağzı-üzü bəlirməz birisi, xatun idi, qaravaş idi, öncə heç duymadım, bir qaraltı mənə yaxlaşdı:

– Şirşəmsəddin, igid bəyim, sənmisən?! – sordu. Səsi xatun səsi idi, amma mən hələ də bunun üzünü görməmiş idim və bilmirdim ki, bu xatun kimdir.

– Mənəm ya… Sən dəxi kimsən? – Mən maraq edib ona sordum.

– Tanımadın məni qayət. Amma tanıyacaqsan. Səninlə dan-danışaq. Sözüm dinlə, ünüm ünlə, bəy yigidim. Sənə pənah gətirmişəm. Ümidsiz geri göndərmə mən biçarəni.

Səsi o qədərinə doğma, o qədərinə... məzlum bir səs idi ki, inan, Xanım, ürəyimə ox vurdu bu səsi ilə. Dedim, gəl, gəl, nə istirsən, yeməkmi, içməkmi dilərsən, donun yoxsa donadalım səni. Kimsən sən, Oğuzda kimlərdənsən, nə ağlarsan, nə bozlarsan, onu söylə.

Bu başladı daha bərkdən ağlamağa. Ağladı, sısqadı, qəfildən kiridi. Mən dəxi səbr edib gözlədim, çün xatuna, başıma gəlmişdir, Xanım, ağlarkən "ağlama" desən heç zaman kiriməyəcək, mən dəxi bir kəlmə kəsmədən durdum, eləcənə gözlədim.

– Şirşəmsəddin, doğrudan-doğruya sən məni tanımadın, bəyim? – Bu Xatun burnun bərkdən çəkib bir dəxi sordu.

– Tanısa idim, sorarmıydım?! Kimsən sən? – Mənim səbrim dəxi tükənirdi. Olsun ki, Qazan da məni artıq aramaqda idi.

– Mənəm, bəyim. – Qadın üzündən pərdəni çəkdi. Məni ildırım vursaydı bundan yey idi.

– Sənmisən? – Sordum. – Sən nə cürət edib bura gəldin?! Get. Necə gəldin, eləcə də geri get. Sənlik burda bir iş yoxdur. Bəyimiz səni istərsə, mən sənə xəbər verrəm. Amma istəməz. Oğlun üçün görüş dilərsən isə o

dəxi mənlik deyil, Qazana var. Görüşərmi səninlə, görüşməzmi, bax, onu mən bilmənəm. – Mən buna belə dedim.

Bəli, Xanım, Boğazca Fatma idi qarşımda durub tir-tir əsən bu qadın. Nə biçim bir görkəmə düşmüşdü, Tanrı bilən məsləhətdi. Mən bunu burda belə qoyub həyətin içinə getmək istərkən zavallı yerə yıxılıb ayaqlarımı ikiəlli qucaqladı:

– Getmə dayan, iki kəlmə söz söyləyim, ondan get.

– Kəndinə gəl, Fatma qarı, kəndinə gəl, toxda, çıx get burdan. – Bunu deyib bir dəxi getmək dilədim.

– Sən səni bilərsən, igid, sənin məndən xəbərin yox. Ünüm ünlə, sözüm dinlə. – Az qala yenidən ağlamağa başlayacaq idi.

Mənim ayağım sına idi kaş. Sınıq ayaqla da olsa birtəhərinə çıxıb gedə idim kaş. Bircə onu dinləməyə idim. Amma dinlədim, Xanım. Necə demişdisə sənə onu söylərəm. Boğazca mənə dan danışdı, bunları dedi:

– Şirşəmsəddin, igid bəyim. Sən məni xatırlamazmısan? Sən yalnızca sənimi bilirsən, sənin məndən xəbərin olmazmı?! Yadına salım öylə isə. Yadındamı, igid bəyim, neçə-neçə sənələr bundan öncəsi? Baxarmısan bu vaqeəyə? Görərmisən özünü bu vaqeədə?

Xanım, bu belə degəc, bunun dediklərini mən dəxi gözümün önündəymiş kimi görüb seyr eləməyə başladım. Vaqeələr bir-birini əvəz etdi. O isə davam edirdi:

– …baxarmısan?! Diqqət elə. Bax, bu sənsən. Bu da mənəm. Bu, bizim itimizdi, Bəraqcuqdu. Xatırladınmı o günü? Söylə, söylə mənə, heç utanma, yigidim mənim, şirim mənim…

"Şirim mənim" derkən, Xanım, bədənimə qılınc soxdular qayət. "Şirim" mənə yalnızca o söylərdi. Hər şeyi bir andaca xatırladım. Onu unutmaqmı olardı?! Diləsən də, yox ki yox, unutmaq olmazdı. Amma mən dəxi özümü o yerə qoymadım, özümü tox tutdum, Xanım. Bir gözüm isə vaqeədə idi. Boğazca derdi:

– … yadındamı, bax, bax bura, şümal kimi igid ər idin. Qarğı kimi boyun vardı. Daş kimi, qaya kimi qolların, biləngların vardı. Qara-qara ulduzsuz gecələrə bənzər idi sənin qaynar gözlərin. Zərif, ağca mərmərə

bənzər idi sənin barmaqların. Qıs-qıvraq vücudun vardı. Sən gənc idin, şirim mənim, o aylı gecə yadındamı?..

Xanım, bir də gördüm, kəlmələr özü bir-bir çıxır ağzımdan, yol alıb süzülür bunun qulaqlarına. Mən özümdən xəbərsiz deyirdim:

– ...İtinizin adı Bəraqcuq deyilmiydi?! Evinizin ardı dərəcik deyilmiydi?!

Mən bunları dedikcə o da başını tərpədir, mən dediklərimə cavab verirdi: İtimizin adı Bəraqcuq idi... Evimizin ardı dərəcik idi...

– ...O aylı gecə evinizin ardındakı o dərədən keçib həyətinizdə qapının doqqazını yavaşdan taqqıldadanda bu it bir hürmək başladı, başıma bir oyun açdı, gəl görəsən. Sən gözəl idin, qız...

– Səni istədiyindən elə hürdü. Ancaq sənə elə hürərdi, bir başqa kimsəyə heç vədə elə hürmədi Bəraqcuq. Getdi o günlər, bəyim, getdi gedərgəlməzə. Amma... nə deyəcəyimdi?! Mənə imdad, bəy yigidim. Mənə imdad ancaq səndən, bir tək səndəndir. Çünki...

– Nə imdad, qarı arvad?! Nə danışdığındı?! – Mən özümü yığışdırdım. Casusun anası ilə mənim nə qurğum ola bilərdi ki?!

– Çünki o gedərgəlməz günlərdən, şirim mənim, bir nişanə qalmış idi. Bilirmisən, o gecə nələr oldu? Məni o gecə yüklü qoydun sən. Məndə əmanətin qaldı. Heç vədə sənə bu sirrimi açmadım. İndi açıram, bəlli bilgil.

Mən şaşırdım. Əvvəl-əvvəl bilmədim, Boğazca arvad, bu nə sirr imiş, nə sirdən danışır.

Odur ki, ona sordum:

– Sən hansı sirdən danışırsan, qarı arvad? Ağlını qaçırdınmı sən?

– Yox. – Boğazca arvad cavab verdi, – ağlımı qaçırmadım, bəy yigidim. O sirdən danışıram ki, bax, indi o quyunun təkində dustaq etdiyin, əlin-qolun bağlayıb zülmətə saldığın mənim oğlum...

– Mənim... yox, sənin oğlun...

– Hə, şirim mənim, hə, qoçum mənim, dil çaşar, doğrusun söylər, sənin oğlun, bəyim, sənin oğlun... O sənin oğlundur, Şirşəmsəddin. Sirr dediyim dəxi bu idi, tanrıya şükürlər olsun, izinliyəm deyin sirri sənə aça bildim. İndi sən məni bilirsən. Bu oğul həmən o aylı gecənin yadigarı, əmanətidi. Mədəd elə, oğlumuza qıyma, aslanım mənim.

Bunları Boğazca arvad birnəfəsə dedi və yenə başladı ağladı, sısqadı: balam mənim, ata üzü görməyən yetimim mənim, nə bilim, zavallı, biçarə, günahsız kimi bir para sözlər söylədi.

Danışmağa mənim halətim qalmışdımı, qalmamışdı. Şaşırıb durmuşdum. Yenə birtəhər özümü toparlayıb bu arvada bir türlü sözləri deyə bildim. Heç bilmədim, hardan bu sözlər gəldi düşdü ağzıma. Necə ona dedim, eləcə də, Xanım, sənə deyirəm:

– Nə təhər, nə təhər? – dedim. – Dur bir, dayan. Gen dünyanı başıma dar eylədin. Mənim oğlum bu casusdu?! Bu dünyada sən məni xar elədin – dedim. Mənim oğlum bu casusdu?! Alca qanın qılıncımla yerə tökəm deyərdim. İndi mənim oğlumdu bu?! Sinəsindən ürəyini çəkim, söküm, qoparım deyərdim. İndi mənim oğlumdu bu?! Bu xəbəri verməyəydin mənə gərək. Ürəyimə qara dağlar vurmayaydın mənə gərək. Qadir Tanrı, sən özün mənə yol göstər, sən özün mənə kömək ol. Fatma, Fatma, dur, hələ bir qalx ayağa, burda belə qalma. Nə istirdin dedin. Get, mənə aman ver, düşünüm, daşınım. Qadir Tanrı, Qadir Tanrı, mən dərdimi kimə deyim?! Sən özün söylə, uca Tanrı… söylə mən quluna. Mən nə edim, kimə gedim…

– Qorquda, Qorquda var. Doğru yolu o sənə göstərər, bəy yigid. Övladına qıyma. Allah bu günahı bağışlamaz, biləsən.

Boğazca bu son sözləri deyib yavaş-yavaş eynən duman kimi çəkilib getdi, əridi.

*(Xan otağında olanların hamısı, başda Bayındır Xan ağzımız açıq Şirşəmsəddinə baxa qalmış idik. Bir sazı əskik idi bunun. Mən yazmağı da unutmuşdum. Xanın halı həqqən pəjmürdə olmuşdu, xeyli qəmli görünürdü. Şirşəmsəddin ozan idi, qadir Tanrı, nerdən sən ona bu ilhamı verdin biləmədim, neçin verdin – onu dəxi biləmədim. Mən təkrar-təkrar ona göz qoydum, gördüm yox, əzbərə demir dediklərini, qavatın gözləri də yaşarmış, elə yerindəcə huşuna nə gəlir, onu da deyir.)*

…bir dəxi baxdım, gördüm, Boğazca Qazanın yanından çıxır. Əvvəlcə gizlin-gizlin sağına-soluna diqqət etdi, yaylığını üzünə çəkdi, sonra gedib darvazadan adlayıb uzaqlaşdı. Bundan sonra Qazanı mən sabahacan görmədim. Çəkildi otağına, çıxmadı.

Xanım, sonra nə oldu, bircə-bircə deyirəm, bilginən. Sonra, Xanım, o biri gün sabah qəfildən Qazan məşvərət şurası yığdı. Bəkil gəldi, Aruz gəldi, Beyrək gəldi, mən gəldim. Bəy məşvərətə başladı. Halı özündə deyildi Qazanın. Mən düşündüm, yağma məsələsinə görədir, indi durub Aruz Qoca buna yağmaya bizi niyə çağırmadın deyib töhmət etsə nə cavab verəcəkdir?! Amma Aruz Qoca heç bir başqa söz söyləmədi, eləcənə mısmırığını sallayıb sonadək oturdu. Qazan həvəssiz dedi:

– Bəylər, hal belə, qəziyyə budur. Oğuzda casus bulunmuşdur. Boğazca Fatmanı tanırsınız, onun oğludur. Amma… bir cavan, sütül oğlancıqdır. Bilməm ki… Nə edəlim, nə yapalım, siz deyin.

Aruz Qoca əvvəl özü danışdı. Üzünü heç kimə tutmadan sordu:

– Bu oğlanın casusluğun kim xəbər gətirdi, söyləsinlər, biz də bilək.

Qazan əvvəl-əvvəl xəbər gətirənin Beyrək olduğun demək istəmədi:

– Nə önəmi vardır ki?! Casusun kim olduğu bəlli. Kim olduğun Qorqud dedi. Başqa bir sözün önəmi yoxdur.

– Yox, var. Beyrək gətirdi xəbəri, demi? – Aruz Qoca bir az dəxi irəli gəldi.

Beyrək dözəmmədi:

– Əvət, mən gətirdim bu xəbəri, nə istərsən? – deyib Aruza bozardı.

– Sən mənəmi bozarırsan? – Aruz Qoca qəzəb etdi.

– Bəylər, bəylər, sakin olun. Bizim mətləb bir başqa mətləbdir. Qavğa etməyin yeri deyildir. Bu oğlana nə edəlim? – Qazan dübarə sordu. – Mən sizi bunun üçün çağırdım. Bu oğlana nə edəlim? Öldürəlimmi? Buraxalımmı? Bir yazıq, cavan, sütül oğlancıqdır… Nə yapalım?

Mən gördüm ki, mənim qafamdan keçənləri Qazan özü addım-addım bəylərə ilətir. İndi əsas söz bəylərinki idi. Son sözü onlar deyəcəkdilər. Görəlim, nə deyəcəkdilər. Mən öz sözümü, Tanrıya mədəd, axırda deyəcək idim.

İnsafən, Aruz Qocadan gözlənilməz iş, bu birdən-birə sakin oldu. Beyrək dəxi dinmədi, susdu.

İlk öncə Bəkil söz aldı:

– Biz düşünmədən addım ata bilmənik, bəylər. Oğuza qarğaşa sallıq.

Aruz Qoca onu dəstəklədi:

– Bəkil doğru danışır. Biz səhih olanı etməliyik. Sonra başımıza qaxınc olmasın.

Aranı belə görüb "fürsətdir" düşündüm, mən dəxi dedim:

– Bəylər, bu casus dedikləri ağzı bir kəlmə söz kəsmədi, suçunu boynuna almadı. Günahı bunun varmı, yoxmu, Tanrı bilir. Mən bilən oğlancığın günahı sübutsuzdur.

– Yoxdur bunun günahı. – Aruz mənə tərəf oldu.

– Yoxdur günahı. – Bəkil dəxi mənə tərəf oldu.

Qazan bunları dinlədi, son sözünü deməzdən əvvəl Beyrəyə baxdı:

– Sən nə dersən? – sordu.

– Sən nə dersən, mən dəxi onu derəm. – Beyrək buna belə cavab verdi.

Bundan sonra Qazan rahat-rahat nəfəs alıb sözünü tamamladı:

– Olsun. Madam ki, siz böylə dediniz, böylə olsun. Günahı yoxdursa, yoxdur. Mən dəxi bəylər, siz deyəni derəm. Di get, Şirşəmsəddin, quyudan çıxar o zavallını, üstün-başın yuyun, təmizləyin, verin anasına, çıxıb getsin.

Bəylər razılıq edərək qalxdılar. Beyrək bu dəm belə dedi:

– Amma, bəyim, üz götürüb Oğuzdan ilim-ilim hər ikisi itsin. Sonra, deyirəm, söz-söhbət olmasın. Oğuz bəylərinin ürəyi yumşaq oldu deməsinlər.

Beyrəyin bu sözündən sonra bəylər bir-birinə baxa durdu, amma heç biri dəxi danışmadı.

Beləcənə məşvərət bitdi. Hamımız həyətə çıxdıq. O casusu mən öz əllərimlə ipini ehtiyatla darta-darta quyudan çıxardım. Bəylər də yanımdaca gəlib durmuş idilər. Zavallının gücü-heyi qalmamış idi. Quyudan çıxandan sonra ayaq üstündə belə duramadı, yerəcə sərildi. Üfunət ətrafı bürüdü. Elə o yerdə sərili ikən Qazan qaravaşlara buyruq verdi, su gətirib bunu quyunun yanındaca yu ki, yuyasan, yudular. Sonra Qazan yenə əmr etdi, qaravaşlar gedib evdən təzə paltar gətirdilər, geyindirdilər, bir tərəfdə oturdub ətmək, aş verdilər, oğlancıq başını aşağı sallayıb dinməzcə yedi, içdi, qarnın doyurdu, bir kəlmə kəsmədi, amma, Xanım, mənə altdan-altdan baxdıqca baxdı, baxdıqca baxdı, ürəyim çarpaz-çarpaz dağ oldu, gözləri atam Qəflət Qocanın gözləriydi ki, vardı. Mən bunun üzünə maddım-maddım nəzər yetirdikcə çoxlu başqa nişanələr dəxi bulurdum. Amma bir baxdım, gördüm, təkcənə mən deyil, bəylər hamısı, Qazan daxil, maraq edib buna şəfqət və mərhəmətlə baxdıqca baxırlar. Bir şey anlamadım. Qərəz bir zaman keçdi, bu tərəfdən Boğazca gəldi, heç birimizə nəzər yetirmədən, o da bir kəlmə danışmadan göz yaşını silə-silə oğlancığını qucdu, qaldırdı, o buna, bu ona söykəncəli bizim aramızdan yavaş-yavaş çıxıb həyətdən getdilər. Bundan sonra bəylər dəxi bir kəlmə söz demədən hərə öz atına minib sürüb həyətdən çıxdılar.

Xanım, yəmin edərəm ki, mən bir dəxi o oğlanı da, onun anasını da görmədim. Əppək olub göyə çəkildilər. Demirəm ki, sormadım, ona-buna sordum, amma sorağını bir kişi vermədi. O zamandan oğul dərdi deyib hərdən axşamlar zar-zar inlərəm. Belə, Xanım. Hal bu, qəziyyə belə. Uca Tanrı

Xanın könlünə ilham versin, günahım varsa da bağışlasın məni adı görklü əziz Tanrı eşqinə.

Bunları deyib Şirşəmsəddin yum verdi, başın yerə dikdi, gizlicə göz yaşını əlinin dalı ilə sildi, susdu. Bayındır Xan fikrə dalıb oturduğu yerdə qalmış idi. Mən dəxi qələmi əlimdən yerə qoyub barmaqlarımı ovuşdurdum. Bir xeyli bu tövr oturduqdan sonra Bayındır Xan heç birimizə bir kəlmə söz demədən ayağa durub otaqdan çıxdı, getdi. Bayındır Xanın pəjmürdə olması bizi dəxi xeyli qüssələndirdi. Amma artıq gec idi. Onsuz da gecə gəlib Xan həyatinə çökmüş idi, bundan sonra nə deməyə, nə yazmağa, nə də dinləməyə heç kimsədə taqət qalmamışdı. Şirşəmsəddin, Qılbaş və mən dəxi durub həyətə çıxdıq. Qılbaş çağırdı qaravaşlara buyruq verdi, bizi alıb ayrı-ayrı odalara apardılar. Gecəni mən yarıyuxulu, yarıoyaq bir təhərinə yola verdim, sabah alabaşdan, xoruzun ilk banı ilə yenidən yerimdən uru durdum, donumu geydim, Qılbaşı gözləyə-gözləyə…

*Mətn qırılsa da, onun sonrakı davamı göstərir ki, boşluq böyük deyildir və ən əsası – əhəmiyyətli deyildir.*

Günəş artıq Günortacın üstündən aşaraq Xan həyətinə düşüb hər tərəfi işıqlı etmişdi. Quşların səsi, nökər-naibin səsinə, qaravaşın səsi inək böyürtüsünə, camış manqırtısına, otlağa gedən qoyunların mələşməsi töylədən gələn at kişnərtisinə qarışmış idi. Ocaqları dörd bir yanda püfləyə-püfləyə çatırdılar, bir nökər də həyəti gəzib dün gecədən divarlarda yanan məşəllərin başına yaş dəsmal basıb söndürürdü.

Mən həyətə çıxdığımda Qaradarvazadan öndə bir atlı, arxasınca da üç-beş atlı Xan həyətinə girdilər. Atdan düşdülər, mehtərlər atları alıb töyləyə apardılar. Qılbaş qabaqda gələni qarşıladı, dəstədən ayırıb uzaqdan məni görgəc mən tərəfə gəlməyə başladılar. "Bu da kim ola?" düşündüm. Yaxınlaşanda Bəkil olduğun gördüm. "Bu gün də növbə bunun oldu qayət". Mənə yetişcək ədəblə salam verdi, salam aldı, elə həyətdəcə bizim üçün Qarağacın altında artıq süfrə salmışdılar, oturduq. Yemə, içmə gəldi, qarnımızı doyurduq, Qılbaş mənə "Qorqud, gedəlimmi?" sordu.

– Xan uyqudan durdumu? – Mən dəxi ona sordum.

– Durdu, bizi bəklər. – Qılbaş cavab verdi, – gəl, sən də gəl, Bəkil.

Qılbaş düşdü qabağa, biz birlikdə yenə Bayındır Xanın taxt otağına vardıq.

Bayındır Xan öz yerində əyləşmiş idi. Üz-gözündə gecəki yorğunluqdan əsər-əlamət belə yox idi.

– Keç, Bəkil, buraya keç, əyləş. Xoş gəldin, – deyərək Bəkili Xan salamladı.

Mən dəxi Bayındır Xana baş əyib öz dəftər-qələmimi dün gecə qoyduğum yerdəcə keçib oturdum.

Bəkil Oğuzda ədəb və mərifət yiyəsi bir yigit idi. Bayındır Xanı ehtiramla salamladı, baş əydi, Xanın göstərdiyi yerdəncə yerə çöküb əyləşdi. Qılbaş keçib Bəkilin düz arxa tərəfində bardaşını qurdu.

– Bəkil, səni niyə çağırdım, bilirmisən?! – Bayındır Xan yenə də eyni sorunu bu dəfə Bəkilə sordu.

– Xeyr, bilmirəm həşəmətli Bayındır Xan. Xeyirdir, inşallah. Sınırlar sakit, Xanın rahatsızlığına bir nədən yoxdur. Yoxsa, Xana bir xəbərmi gəldi?! Buyursun, nə buyruğu olsa Xanın, Bəkil canın verib o buyruğun qulu olar.

– Yox, Bəkil. Heç bir bəd xəbər gəlmədi. Biləsən, mən səndən çox razıyam. Gürcüstan sınırından da sənə görə arxayınam. Səni başqa bir iş üçün çağırdım. Dinləyəcəyəm səni. Sən mənə danışacaqsan, mən dəxi səni dinləyəcəyəm.

– Buyur, Xan. Nə sorun varsa, mən hazıram. – Bəkil mətləbin nə olduğunu heç cür kəsdirəmədi, onun üçün içi çox rahat idi.

*(Bu əhvalatdan xeyli sonra Bəkil mənə belə dedi. Əvvəl-əvvəl o, Qazanla aralarında baş verən avdakı münaqişənin Xana məlum olmasını düşünmüş idi. Mənim dəxi Xanın yanında olmam onu ürəkli etmiş idi, çünki o gecə mən gəlib onun uyqusuna girmiş idim və bu münaqişədə ona dayaq olduğumu bəyan etmiş idim. Qadir Tanrı, ucalardan, ucasan. Biz nə zamandan bir-birimizin uyqusuna girdik?! Biz nə zamandan eyni uyquları görməyə başladıq?! Qarışıq dünya, bizi öldürmədən öncə sən bizi bir-birimizin içinə beləcə soxarsan, o zaman bizim axırımız nə olar?!)*

– Bəkil, mənə əyan oldu, siz Qazanla məşvərət etdiniz. Oğuzun casusunu tutmuşdunuz, buraxdınız. Neçin böylə etdiniz?! Bu casusun günahı bəlli, əməli açıq. Oğuza verdiyi zərər göz qabağında. Səbəb nə oldu, söylə mənə, sən dəxi nə üçün onu günahsız saydın, ölümünə deyil, bağışlanmasına səs verdin?

Bəkil qayət indi anladı ki, onu gecəylə tez-tələsik Bayındır Xanın yanına niyə istəyibmişlər. Bir az toxdadı, amma bir az da həyəcan gəldi buna. Nə deyə bilərdi ki?! Nə deyəcəyini az-çox mən bilirdim, amma necə deyəcək idi – bunu mən bilmirdim. Bayındır Xan isə Bəkilə çox inanırdı. Bəkil ona doğrunu söyləyəcəkdi. Xan bunu səhih bilirdi, odur ki, Bəkil ilə istintaqı hiylə ilə əyrilikdən deyil, düzünə yol getmək ilə qurdu. Sorusunu birbaşa sordu.

*Doğrudan da, Bayındır Xan, fikir verdinizsə, Bəkilə sualını birbaşa verir, Qazanla, Şirşəmsəddinlə olan kimi onunla "oyun oynamır". Xan, əvvəla, Bəkili onun igidliyinə görə, Oğuzun Gürcüstan sərhəddindəki qüsursuz xidmətinə görə qiymətləndirir, ikincisi də Xana artıq o da məlumdur ki, Bəkil incikdir, Qazanla ovdakı mübahisəsi barədə Qorqud artıq Xana bildiyi hər şeyi nəql etmişdir.*

*Bəkil, Xan üçün (əgər Xan, Qazanın günahlarını toplayıb ona qarşı hər hansı bir ittiham irəli sürəcəksə) son dərəcə əvəzsiz bir şahiddir. Elə Beyrəyin özü də Bəkil əhvalatına görə, necə deyərlər, "yana bilər".*

Bəkil mərd birisi idi. Odur ki, Bayındır Xanın qarşısında heç bir hiylə etmədən nə vardısa olduğu kimi danışdı. Bəkil dedi:

– Bayındır Xan, sənə deyim. Qazanın yanına məşvərətə getmədən öncə mən artıq o zavallını necə qurtaracağımı düşünmüş idim. Təəccübmü etdin?! Amma təəccüb etmə. Nə oldu, nə olmadı söyləyəyim sənə. Məşvərətdən bir gün öncə evimdə oturmuş idim. Bayırdan səs gəldi.

– Bəkil, Bəkil! – Bir xatun səsi idi, həm də kimdisə çox yavaşdan ağlardı, bozlardı. Evdə bir kimsənə duymadı bu səsi. "Qulağıma gəldi qayət", düşündüm əvvəl-əvvəl. Amma, yox, nökər gəldi:

– Ağam, dedi, bayırda bir xatun darvazanın önündə yerə çöküb ağlayır, "mən Bəkili görmədən buradan heç yerə getməyəcəyəm", deyir.

– Kimdir, adı nədir, istədiyi nədir? – Mən nökərə sordum.

– Bizə bir şey söyləmədi. Bəkilə alın məni, ona söyləyəcəyim vardır, deyib durur. Nə edəlim? – Nökər mənə sordu.

– Allah, allah, qaranqu gecənin bu vaxtı kimmiş bu görən?! – Özüm-özümə sordum, nökərə "gəlirəm, bəkləsin", dedim və düşündüm: "Oğuzdanmı xəbər gəldi, Gürcüstandanmı xəbər gəldi?! Karvandanmı düşdü qaldı, qovuldu bu qavat qızı?! Son günlərdə buralardan karvan dəxi gəlib keçmədi ya". Bu türlü fikirlərlə darvaza ağzına yaxlaşdım, bir qaraltı gördüm, ağzı-başı bilinməz. Ərmi, xatunmu, o da bilinməz. Danışınca xatun olduğun fərq elədim. Nökər mən gəlgəc ona dedi:

– Di, bəy gəldi, nə sözün varsa söylə.

Xatun üzündən pərdəsin çəkdi, açdı, ayaqlarıma yıxılmaq istədi, tutdum, qoymadım:

– Nə sözün var?! Bəkil mənəm. Söyləsənə.

– Ünüm ünlə, sözüm dinlə, Bəkil. Sən məni qayət tanımadın. Bax, üzümə, diqqətlə bax, indi necə tanıdınmı? – Bunu söyləyib başını qaldırdı, o üzünü, bu üzünü mənə göstərdi. Tanıdım, Xanım, tanımaz olurmuyam?! Boğazca Fatma idi…

*(Mən başımı qaldırıb Xana baxdım. Bayındır Xan yerindəcə qurcuxdu durdu. Amma marağı güc gəlmiş idi. Odur ki, Bəkilin sözünü kəsmədi, necə dinlərdi, eləsinə dinləməyə davam edib sükutunu saxladı.)*

…bəli, Xanım, Boğazca Fatma derlər bir Xatun var, o idi.

– Tanımadınmı məni, igid Bəkil? – Bu mənə bir dəxi sordu.

– Tanıdım, tanıdım. Sən hara, buralar hara… Necə gəldin, nəyə gəldin?! Qalxsana.

Boğazca yerdən qalxmadı. Ağlamağı bir idisə beş oldu. "İndi evi başına döndərər", – düşündüm, dedim:

– Nə ağlarsan, nə bozlarsan? Dərdin nədir sənin, onu söylə. Əgər söyləməzsən, nə yapa bilirəm ki?!

– Bəkil, Bəkil, igid Bəkil. Sən bu biçarə Fatmanı dar günündə tək qomazsan. Bilirmisən, nələr oldu? Tək oğlumu casus deyib tutdular. Ağ əlini kirşi ilə arxasından bağladılar. Oğlancığımı Qazanın həyətində zindanların zindanına saldılar. Quyuya diri-diri gömdülər. İmdad elə, igid bəyim. Ümidim təkcə sənədir.

– Sənin oğlun casus imiş?..

– Yox, əlbəttə yox, Bəkil. Ağzın üçün ölüm, Bəkil. Dilin üçün ölüm, Bəkil. Mənim oğlum fəqirlərin fəqiridir. Mənim oğlum casus deyil. Mənim oğlum aciz Allah bəndəsidir. Mənim oğlum casus deyil. Qazan ilə Beyrək qurğu qurdular, Bəkil. Casus söhbətini Beyrək gətirdi Qazana. Qazan dəxi dedi: gedin, tutun, gətirin onu, can dadlısın o oğlana göstərin.

– Ya, mənlik burda nə var? Mənə neçin vardın? – Mən Boğazcaya sordum.

– Bəkil, məni unutdunmu? Mən bir gözəl-göyçək qız idim. Evimizin ardı dərəcik idi. İtimizin adı Bəraqcuq idi. O it bircə sənə hürməz idi. Bizə gəlib getdiyin o günləri unutdunmu, igid Bəkil? O gecələri unutdunmu?

Mənim yadıma, Xanım, bir gör nələri saldı. Cavan günlərimi xatırladım. Bir anlıq gözlərimi yumdum, amma tezcə özümə gəldim:

– Unutdum, unutmadım… Sözünün canını söylə.

– Bəkil, Bəkil, mənim oğlum səndən oldu. Sənin mənə əmanətin qaldı, Bəkil. Sirrimi heç kimsəyə açmadım, uzun illər qəlbimdə saxladım sirrimi. İndi bizim balamıza qıymaq dilərlər. İndi bizim oğlancığı məhv etmək istərlər. Qoymagil. Vararsan lap Xanlar Xanı Bayındır Xana vargil. Hər şeyi ona danış. Mənim oğlum... sənin oğlun casus deyil, Bəkil. Həqiqət budur ki, mən onu sənə söylədim. İndi dəxi yum verirəm.

Mən nə hala düşdüm, Xanım, düşmənə də diləmərəm mən bu halı. Əlim ayağıma yapışdı, ayağım yerə. Elə ayaq üstəcə quruyub qaldım. Ağ-

zımda dilim qurudu. Handan-hana dilim söz tutar-tutmaz topuq vura-vura buna sordum:

– Beyrəkmi dedi bu casus məsələsini?..

– Beyrək dedi, igid Bəkil. Beyrək on altı il Bayburdda qaldı, o, Oğuzu nə bilər? Beyrək yıxdı mənim evimi.

– Demək, böylə... O var, mən varam. Var get, xatun, get evinə, arxayın ol. Mən heç Bəkil deyiləm, bu hayıfı Beyrəkdə qoysam. Beyrək bunun cavabını verəcəkdir.

Yenə bir para sözlər danışdı. "Qoyma balamıza qıyalar, ümidim, pənahım sənsən, nə yaparsan, sən yaparsan…" bu türlü sözlər söylədi. Dəxi mən ona heç qulaq asmadım. Beyrəyin adı məni haldan çıxarmış idi.

Xanım, mən bunu yolçu etdim, durdu, həyətdən çıxdı, qaraltıya döndü, birdən-birə yox oldu. Mən qayıdıb yenə evə girdim. Sonrakı gün Qazanın məşvərətini mənə ilətmişdilər, gec qalmadım, "atları yəhərləyin" nökərlərə buyruq verdim, naiblərimi yanıma aldım, çaparaq yola düzəldik, sabah xoruz ban verincə gəlib İç Oğuza yetişdik.

Məşvərətə Qazan Aruzu, Beyrəyi, Şirşəmsəddini, bir dəxi məni çağırmış idi. Bizi məşvərət otağına yığdılar. Qazan sözünə belə başladı:

– Bəylər, sizi məşvərətə çağırdım. Hal belə, qəziyyə bu. Bir iş çıxdı. Oğuzda casus varmış. Mənə xəbər ilətdilər. Öncə inanmadım. Sonra xeyli düşündüm. Yaddaşımı işə saldım. Xatırlayalım. Mən ava çıxdım – casus casusladı. Beyrək düyün etdi, gərdəyə girmək dilədi – yenə casus. Bəkil ava vardı, ayağını sındırdı, demi?! Casus bir dəxi işini gördü.

– Bu casus dediyin kim ola, Qazan bəy? – Mən sordum.

Aruz Qoca dəxi özünü saxlamadı, bir soru dəxi o sordu:

– Bu casus xəbərini kim ilətdi?

Qazan mənə baxdı, Aruza baxdı. Mən gördüm ki, Qazan çox könülsüz cavab verdi:

– Beyrək dedi. Beyrək casusu dedi. Amma Qorqud dəxi gəldi. Casus kim ola, ona sorduq. Casus Boğazca Fatma varmış, onun oğlancığıdır, Qorqud dedi. Biz oğlancığı tutduq, quyuya salladıq. Amma bir cavan, sütül oğ-

landır, heç casusa da bənzəməz, nə dinir, nə danışır, demi, Şirşəmsəddin? – Üzün Şirşəmsəddinə tutub Qazan sordu.

– Bəli, bəyim, öylədir. – Şirşəmsəddin buna könülsüz cavab verdi.

– İndi, bəylər, siz söyləyin. Nə edəlim, nə yapalım? Dan-danışaq. Nə dersiniz?.. – Qazan bunları sorub susdu, yum verdi.

– Xəbəri Beyrək gətirdi, həmi? – Aruz kinayə ilə sordu.

– Mən gətirdim, bir sözünmü var? – Beyrək Aruza diş qıcadı.

– Mənəmi diş qıcarsan? – Aruz qızdı.

– Sənə qıcaram. – Beyrək dəxi irəli gəldi.

Qazan səbrin basdı, hövsələsiz bunlara dedi:

– Bəylər, bəylər, sakin olun. İndi qavğa məqamı deyil. Bu casus məsələsini çözəlim. Sonranın işini sonraya buraxın. Məni dinləyin. Nə dersiniz, bunun bir günahı varmı, yoxsa bunun bir günahı yoxmu? Öldürəlimmi, buraxalımmı bu zavallını? Biçarə birisidi…

Aruz da, Beyrək də səslərin kəsdilər, sakin oldular.

Aruz özünə gəlib qərarını dedi:

– Heç bir günahı yoxdur. Mən derəm, günahsızdır. Buraxalım.

Mən qərarımı dəxi dedim:

– Günahı yoxdur. Buraxalım.

Şirşəmsəddin dəxi biz deyəni dedi. Təkcə Beyrək susub durdu.

Qazan ona sordu:

– Ya, sən nə dersən?

– Sən nə dersən, mən dəxi onu derəm. – Beyrək belə dedi.

Zatən Beyrək həmişə Qazan deyəni deyər, Xanım, biləsən. Öz sözü yoxdur ki. Qazan hər birimizə nəzər yetirib o dəxi bizimlə razı oldu:

– Bir halda ki, siz dersiniz, günahı yoxdur, mən dəxi derəm, günahı yoxdur. Şirşəmsəddin, var, o üfunət quyunun ağzını aç, burax o fəqiri, verin anasına, götürüb getsin evinə.

– Yox, bəyim. – Beyrək coşdu. – Evinə niyə? Getsin Oğuzdan, qalmasın buralarda, ilim-ilim itsin. Söz-söhbət olmasın.

Mənə qalsa əvvəlcədən duyuq düşdüm. Qazan məşvərətdən öncə də Boğazcanın oğlunu cəzalandırmaq diləmirdi. Diləsə idi, heç bizləri məşvə-

rətə yığmazdı. Şaqqalardı, məsələ də bitərdi. Ağam Bayındır Xan, biləsən, Qazan da, Beyrək də bu oğlanı açıb buraxmaq istirdilər, bizim əlimizlə də bu işi gördülər. Amma yaxşı ki, belə oldu. Yoxsa, mən Beyrəkdən avdakı hayıfımı indi məşvərət zamanı çıxacaq idim. Yol gələ-gələ yəmin etmişdim.

Sonra Şirşəmsəddin gedib quyunun ağzından dəyirman daşını iki kişi ilə hellədib o tərəfə aşırdı. Mən dəxi gəldim sonadək görüm, arxayın olum. Qazan da, Aruz da gəldilər. Oğlan aşağıda ipə bağlı idi. O ipi darta-darta oğlancığı çıxardılar. Bu yerdə mən dəxi dözmədim, Xanım, hal-hal oldum. Yudular, yedirdilər, içirdilər, üzünə, gözünə baxdım, Xanım, oğlum İmrancığa bənzədi üzü, gözü. Mənə dəxi yetim ceyranlar təkin bir baxırdı, bir baxırdı… Şəfqət damarım qeynədi. Sonra anası Boğazca dəxi orda idi, o gəldi, girdi bunun qoluna, bir kəlmə danışmadan, başını belə qaldırıb bir kimsənin üzünə baxmadan yavaş-yavaş bunlar darvazadan çıxıb getdilər. Dəxi mən onları görmədim.

Bəkil susdu. Mən yazmağımı dayandırdım. Yenə soyuq tər məni basmışdı. Bayındır Xanın üzünə baxmağa belə cürət etmirdim. Xan dəxi susurdu. Özüm-özümə düşündüm: "Xan bilsə idi ki, bu məsələnin canı buncadır, belə bir istintaqa başlardımı?" Bu soruma bir cavab bulamadım. Amma Bayındır Xan bu dəfə Bəkildən gözləmədiyim bir başqa şey sordu:

– Bəkil, sən söylədin ki, Beyrəkdə hayıfın vardır. Avda sənə hayıf qoymuşdur. O nə avdır elə? Nə oldu, nə olmadı o avda? Mən bilmək istərəm. Bunları söylə.

Bəkil yay kimi çəkildi, gərildi, oxun dartdı, nə dartdı. Amma kaş ki, düzgün nişan ala idi, qadir Tanrı. Bəkil haman av məsələsini Bayındır Xana belə danışdı:

– Xanlar Xanı Bayındır Xan. Sən sordun, mən dəxi derəm. Yadındamı, sası dinli Gürcüstandan xərac gəldi. Bir at, bir qılınc, bir dəxi çomaq göndərmişdilər. Sən qatı səxt oldun. Hər il altun-axça gələrdi, bəyə, yigidə verərdik. İndi bunları kimə verək? – deyib sordun. Qorqud irəli gəldi o vədə belə dedi:

– Xanım, heç səxt olma. Bunun üçünü də bir yigidə verəlim.

Oğuz bəylərindən heç kimsə bu xəraca yaxın durmaq istəmədi. Kimə baxdın quyruq ələ vermədi. Mənə baxdın: sən nə dersən? – sordun. Ürəyimdə düşündüm: "Xanın sözü yerə düşüncə, mənim başım yerə düşsün". Razı oldum, elimi-obamı qövmümü sürdüm, getdim uzağa, sınıra. Köç elədim Gürcüstan ağzına. Oğuza qaravul durdum.

– Yadımdadır, Bəkil. Mən bunları unutdummu, unutmadım. Bunları mənə niyə söylədin?! Mən sənə avdan danış, dedim. – Bayındır Xan xeyli mülayim Bəkilin sözünü kəsdi.

– Baş üstünə, Xanım. Avdan danışacağam. Amma öncə bir başqa deyəcəyim dəxi vardır. Mən sınırda xidmətimi elə sürdüm, mən Oğuza az-az varası oldum. İşimi doğru-düzgün qurdum. Oğuzdan dışarı yaxın, uzaq qələləri tanıdım, yolları, izləri, çayları, irmağları, obaları bir-bir gəzdim. Xan üçün akınlar olarsa cizgilər cizdim, casuslarımı qoydum, xəbərlər aldım, xəbərlər göndərdim. Bir söz, Xanım, Gürcüstan ağzında ürəyindən nə keçərsə, anındaca əmələ gətirməyə hazırız.

– Sağ ol, Bəkil. Zəhmətin üçün sağ ol. Mən dəxi sənin qiymətini verdim. – Bayındır Xan dedi.

– Bəli, Xan. Sən mənim qiymətimi çox yaxşı verdin. Amma həşəmətli Xan hamı sənin kimi olmadı. Çoxunun gözü götürmədi sənin mənə şəfqət damarının qeynəməsini.

– O kim ola? Səndə sözlər varmış. Qulağım səndədir. – Bayındır Xan maraq etdi.

Bəkil əvvəldən-axıra artıq bir dəfə uyquda mənə danışdıqlarını bu dəfə Bayındır Xana nəql etməyə başladı. Mən birinci dəfə qulaq ilə dinləmişdim, indi isə Xanın başının işarəti ilə yazmağa başladım. Bəkil Bayındır Xana bunları nəql eylədi:

– Bir gün, Xanım, evimdə oturmuş idim, naibləri başıma yığıb göstərişlərimi verir idim, nagahdan çapar gəldi. Bayındır Xan səni yanına istir, dedi. Düşünmədən əcələ etdim, tez atımı yəhərləyib uzun yolun acısını çıxardım, bircə günə özümü Oğuza yetirdim, Xana vardım. Xan mənə Düzmürd qələsilə bağlı sorular sordu, cavablar aldı. Düzmürd qələsinə aparan yollar, cığırlar, qələnin camaatı, döyüşçüləri, Arşın Dirək Təkur adlı böyük-

ləri vardı, Bayındır Xana hərzə-mərzə sifarişlər göndərirdi, onun barəsində, əlqəziyyə, bununla bərabər bir çox başqa məsələlərlə ilgili mən Xana xeyli geniş səhih məlumatlar verdim. Mən bilirdim, o zaman Düzmürd qələsilə Dış Oğuzun düşmənçiliyi vardı. Akınlar, basqınlar olmuşdu. Biz getmiş idik, onlar gəlmiş idilər. Xanın vəziri Qazılıq Qoca Düzmürddə əsir idi. Uzun illər keçmişdi, amma onu bir kimsə əsirlikdən qurtara bilməmişdi. Hələ Əmən dəfən-dəfən oradan, buradan muzdluları başına yığıb qurğular qurmuş, amma yenə də Qazılıq Qocanı qurtara bilməmişdi. İndi Qazlıq Qocanın oğlancığı Yeynəyə növbət gəlib yetişmişdi. Babasını o xilas edəcək idi. Xan belə qərar vermişdi. Xan mənim yanımda Yeynəyə sordu:

– Yeynək, babanı qurtarmaq üçün gedərmisən?

Yeynək cavab verdi:

– Muzdlu qoşunla yox, çilasun Oğuz yigitlərini Xan mənə qoşarsa, gedərəm.

Bayındır Xan bu cavabı bəyəndi, böyük ləşkər hazırlamaq əmrini verdi: "Yeynək, get hazırlan!" – dedi.

Mən Bayındır Xanın yanından çıxan zaman Qazanın adamı məni gözləyirdi. "Bəy, Qazan səni görmək istir. İç Oğuza gəlsin Bəkil!" dedi. Qazan bəylərbəyidir, məni görmək istir, mən – hazır. Bundan bir qədər əvvəl, onu unutdum söyləməyə, söylənəsi bir iş də deyil, Qazan çobanını mənə göndərmişdi, mən dəxi qoyundan-quzudan bir sürü ayırdım, Qazana şişlik olsun, apar dedim. İndi Qazan məni, əlbət, ağırlamaq istir, mən düşündüm. Atı sürüb İç Oğuza gəldim, Qazana vardım. Salam verdim, salam aldım. Doğru düşünmüş idim. Qazan məni ava dəvət etdi, dedi:

– Bəkil, sən uzaqdasan, əlimizə hələm-hələm düşməyirsən. Sabah tezdən bəylərlə mən ava çıxırıq. Gedərmisən bizimlə? Sən tərəflərin ceyranına, cüyürünə bizimkilər çatmaz, amma bu da bizim avdır. Səni ağırlayalım, derəm. Sən nə dersən?

– Sağ ol, Qazan, əsən ol, sən nə dersən, mən dəxi onu derəm, – dedim.

Sabaha qədər av tədarükün gördüm. Sabah tezdən naiblərimlə birgə Qazana qatıldıq. Ala dağın ətəyinə gəlib yetişdik, çadır saldıq. Bəylərdən

Qaragünə var idi, Qara Çəkur, oğlu Qırqqunuq var idi, Şirşəmsəddin var idi, Beyrək var idi…

Yemə-içmə oldu. Şərabın itisi gəldi. At çapdıq, mənim al ayğırım at çapışında hamını vurdu keçdi. Ox atdım, Xanım, ox keyikin qulağını dəldi, keçdi, ayağına tikildi. Bu mənim nişanam idi. Bərdə, Gəncə tərəfdə ava çıxanda şikarın qulağını dəlirdim, ayağına tikirdim. Baxırdım, arıq isə buraxırdım, arıq deyilsə, yeyirdim. Bəylər belə bir heyvanı ha yanda vursa idilər, qulağı dəlik olurdusa "Bəkilin nişanasıdı" deyib mənə göndərərdilər. Qaragünə bu minvalla mənə qulağı dəlik avımı göndərmiş idi. Dəli Dondar göndərmiş idi. Aruz Qoca göndərmiş idi.

Atım mənim Qazanın avında hamı bəylərin atını keçdi. Yenə mən atı çapa-çapa qarşımdan qaçan heyvanı qulağından vurdum, qulağını ayağına pərçim elədim. Bəylər həpsi yığışdılar şikarın ətrafına. Qazan dəxi atın sürdü gəldi:

– Noldu ya? Nə toplaşdınız? – sordu.

– Bəkil çaparaqda keyikin qulağın ayağına oxla pərçim etdi, – dedilər.

Qazan atdan endi. Şikarın ora-burasına çox baxdı, sordu:

– Bu hünər atınmıdır, bu hünər ərinmidir?

– Bu hünər ərindir, – bəylər dedilər.

– Yox, hünər atındır. At işləməsə ər öyünməz. – Qazan belə dedi.

– Bəyim, insaf elə. Mən ki özümü öymədim. Bu oxu mən atdım, bu yayı mən çəkdim, – mən dedim.

– Atındır, dedilər ya, Bəkil ? – Bu yana Beyrək qarışdı məsələyə.

Xanım, bu Beyrək heç məni gözü tutmadı. Niyəsini isə mən bilirəm. Çox kişi bilməz. Sənə deyirəm. Bunun gözü, ayıblığa olmasın, vaxtilə mənim halalımda qalmış idi. Bir ara Sürməli Çeşməgilin evinin ətrafına dörd göz olub fırlanırmış. Düyünündən əvvəl Dış Oğuza qız avına çıxmış idi. Bunların evini marıtlayıb durmuşdu. O zaman bunun ağzını o evdən mən çönərdim. Alp Rüstəmlə bir yerdə. Bu bir başqa qəziyyədir, Xanım. İndilik onu deyim ki, Beyrək bu hayıfı onda qoymağımı heç unutmadı, indi dəxi avda dili ağzına girmədi:

– Qazan doğru söylədi, bəylər, əlbəttə, hünər atındır. – Beyrək dönə-dönə bu sözləri dedi, məni çıldırdı durdu.

– Gözüyumulu ataram oxu, vuraram şikarı, – mən bozardım.

Bəylər gülüşdülər. Beyrək hamıdan bərk güldü:

– Gürcüstan ağzında oturmaqdan pas atmısan, Bəkil! – Bu dəfə Beyrək çox irəli gəldi.

– Beyrək, – mən dedim, – çox irəli gəldin ya. Mən aşağı qulpa yapışıram, sən yuxarı qulpa yapışırsan…

*(Bu da fəna olmadı. "Mən aşağı qulpa yapışıram, sən yuxarı qulpa yapışırsan". Bunu da Oğuznaməyə düzmək gərəkir. Ədəblicə ədəbli, amma həmi də sərt bir söz söylədi, deyim dedi Bəkil.)*

…istərsən gəl səninlə ox atalım, mən sənə göstərirəm, hünər kimin-kidir, atındır, yoxsa ərindir.

Beyrək səxt oldu, dedi:

– Mənəmi hərzə-hərzə söylərsən?..

Mən, Xanım, Beyrəyə nə deyəcək idim?! Əsas Qazan idi, Beyrək həmişə Qazanın inağı olmuşdur. Beyrəklik burda bir iş yox idi. Odur ki, mən üzümü Qazana tutdum, təmkin qılıb dedim:

– Qazan, inağına de, həddini bilsin. Yoxsa…

Beyrək Qazana baxdı. Qazandan səs-səmir çıxmadı. Qazan çiyinlərini çəkdi. Bu zaman Beyrək lap çox qızdı, mənə qarşı gəldi:

– Yoxsa – nə? Nə olacaqmış söylə, baxalım?! – dedi.

Mən yenə dişimi-dişimə sıxı durdum. "Bayındır Xana sayğısızlıq olmasın. Qazana sayğısızlıq Bayındır Xana sayğısızlıqdır". – düşündüm. "Bu avı yola verim, eyb etməz. Mən varam, sən varsan, Beyrək". – Bir dəxi düşündüm. Amma Beyrək bir özgə cür düşünür imiş. Beyrək, Xanım, yenidən bir az dəxi irəli gəldi, üzün mənə tutub bağırdı:

– Bəkil, sənə bilirmisən, nə edərəm?! Özünü nə sandın sən?! Bu hədə-qorxunu mənəmi gəlirsən?

Mən yenə Beyrəyə bir cavab vermədim. Nə deyə idim, Xanım?! Onunla əlbəyaxa ki olmayacaq idim. Hamı onu yaxşı tanır. Oğuz içində rəzil olmağım yox idi. Amma Qazana çönüb sözümü dedim. Səbrimi basa bilmədim:

– Qazan, – dedim, – bu köpək ki, səninkidir, əmr et, sakinləşsin, otursun yerində. Mənə söylədiyi sözləri sən dəxi duydunmu? Sən məni ava çağırmadınmı? Ya, bu nə istir məndən?..

– Bu mənəmi köpək dedi? Bəkil, sən bir yalquzaqsan. Oğuzdan uzaqlarda ularsan. Nə zamandır, ər üzü, ər sözü görmədin, eşitmədin. Mənə köpək ha?.. Kəsərəm səni, Bəkil!

Xanım, qavat oğlu qavat əlini qılıncına atdı. Mən dəxi Qazana baxdım, mən dəxi əlimi qılıncıma atdım, qəzəblə dedim:

– Qazan bəy, günah məndən keçdi, biləsən. Son dəfə sənə söylirəm…

Bu dəfə Qazan məsələnin böyüməsini qoymadı, saxladı. Üzünü heç kimə tutmadan bir tərəfə dedi:

– Bəylər, qurtarın, qurtarın bu danışığı. Bu nə işdi, biz avamı çıxdıq, yoxsa laf oynatmağamı gəldik?!

Beyrək isə heç cür sakinləşmirdi:

– Hələ mənəmi o, köpək dedi?! Köpək də özüdür, qarğa-quzğun da özüdür, kəsəcəyəm onu, buraxın məni, bəylər.

Qara Çəkur, Qaragünə bunun qoluna girib zor-güc saxladılar. Qazan bir dəxi müdaxilə etdi, üzünü Beyrəyə tutdu:

– Bitdi bu məsələ. Mən sənə demədimmi bitirin bu söhbəti?! – Sonra Şirşəmsəddinə göz elədi, o, Beyrəyi qucaqladı, aşağıdakı pınara tərəf apardı. Bundan sonra ara sakitləşdi. Bu yana Qazan mənə tərəf çöndü:

– Bəkil, sənə deyirəm, bəlli bilgil. Mənim oxumun düşdüyü yer hələm-hələm bilinməz. Mənim atımın keçdiyi yerləri heç kim keçmədi. Mən kim olduğum hamıya bəllidi. Bəylərbəyi Salur Qazanam mən, duydunmu?! Odur ki, sənə derəm: yerini, həddini bil. Bu hünər səninki deyil, bu hünər atınkıdır. Bu söhbət bununla burda bitsin.

Sonra təkrar atına mindi, çapıb getdi. Av dağıldı, Xanım. Bəylər hərə öz atına minib dağılışdılar. Mən də naiblərimlə kor-peşiman elə oradan,

Ala dağın ətəyindən böyük yola çıxıb birbaşa Gürcüstan ağzına atın üzünü döndərdim.

Yol gedə-gedə xeyli düşündüm. "Qazan məni bəylərin, naiblərin yanında xınc elədi. Amma Beyrək kimdir ki, mənə söz deyə, mənimlə söz güləşdirə?! Əlbət, Beyrəyin bir öyrədəni olması lazım. Mən ki, Oğuz üçün bu işləri görüm, gecəm-gündüzüm olmasın, elimlə-qövmümlə Oğuz sərhəddinin qaravulluğun çəkim, sən dəxi Beyrək olasan, mənə naiblərimin yanında bu türlü hədyanlar deyəsən… Nolar, eyb eləməz, gün gələr mən sənə həddini göstərərəm. Qurban olasan Xanlar xanının ağ saqqalına. Amma kim bilir, Bayındır Xanın xəbəri olmazsa Qazan bu qədər irəli gələrdimi?! Olsun ki, onunla görüşüb qonuşublar, sonra bu av oyununu qurublar. Ya bəlkə tam başqa cür qurulub bu işlər? "Bəkili xınc edək, səxt olsun. Xana, Oğuza küssün. Xəracını vaxtlı-vaxtında yığmasın. Əli işə yatmasın. Könlü-gözü Oğuzdan soyusun. Gürcüstan ağzından çəkilib getsin. Xan da ona qatı qəzəb eləsin…" Bu türlü qayğulu fikirlər at üstündə məndən əl çəkmədi, ta gəlib obaya yetişdim. Halımın yerində olmadığını anındaca halalım duydu: "Noldu sənə, şən sevincək getdin, amma səxt geri döndün?.." deyib sual etdi. Nə deyə bilirdim ki?! Susdum. Az keçmədi, bir dəxi sordu, iki dəxi sordu. Mən dəxi dözəmmədim, nə vardısa, necə vardısa həpsini açdım buna söylədim. Qazan, dedim, bəylərlə məni Ala Dağa ava çağırdı, av zamanı mən at çapıb şikara ox atdım. Qazan hamı bəylərin ox atışına əhsən dedi, hünər bəyindir dedi. Mənə gəldiyində "hünər atınkıdır, hünər ərin hünəri deyil", dedi. Mən dəxi Qazana küsdüm, avı buraxıb gəldim. Bu yana da Beyrək…

– Hələ o nə dedi? – Xatun sordu.

– Nə deyəcək, hərzə-hərzə danışdı, mənə qılınc çəkmək istədi, bəylər qoymadı.

– Bax qavat oğlu qavata. Sən də ona cavab verdinmi?

– Verməz olurmuyam? Köhnə ədavətdir, unuda bilmir. Amma bu hayıfı onda mən qoymayacağam.

– Nə edə bilərsən ki?! Qazan Bayındır Xanın göygüsü, Beyrək Qazanın inağı. Bizim kimimiz var, bəyim?! Amma heç səxt olma…

– Mən öz ətməyimi qılıncımla, itaətimlə qazanmışam. Beyrək nə yapıbdır?! On altı il Bayburdda veyil-veyil vaxt keçirmişdir deyin, indi istədiyi nə isə onu da yapacaqmış?! Yox!

– Əlbəttə, yox, bəyim. Sən Bəkilsən, unutma. Sən olmasan, Oğuzun bir günü sakin keçməz. Qara dəniz boyunca səf-səf düzülmüş Təkur qalaları ayaq açıb Oğuzu tapdaq eləmək diləməzmi sən olmasan?! Heç fikir eləmə… Nədi, yoxsa… ah…

– Bəli, bu iş belə bitər olmaz. – Mən dedim. – Mən Qazana asi oldum, bəlli bilgil. Gürcüstana köç edirəm. Qoy Bəkili bundan sonra Qalın Oğuz çıraqla gəzsin. Qoy Xanlar Xanı bir dəfə Qazana sorsun. Bir dəfə olmazsa, iki dəfə sorsun. Sorsun ki, mənim bir alagözlü igidim vardı, adı Bəkil idi, nə oldu bu Bəkil, nerədə qaldı, gözümə dəyməz oldu, heç gəlib getmir Oğuza, neçin gəlib getmir? – Bəkilin bu yerdə boğazına qəhər gəldi. – Qoy o zaman Qazan da, Beyrək də özləri Bayındır Xana cavab versinlər. Görəlim, nə cavab verəcəklər. Hazırlan, yarın köç edirik.

Xatun ayaqlarıma düşdü, dedi:

– Bəyim, bəyim, hirsli başda əqil olmaz. Sən Oğuza asi olma. Oğuza asi oldun, Xana asi oldun – nə fərqi var ki?! Xanına asi olanın işi rast gətirməz, bəlli bilgil. Qalx hələ, yerindən uru durgil. Bizim bu Qazılıq dağına nə gəlibdir ki, sən Ala Dağa ava çıxırsan?! Qalx, qalx, heç atının qan-təri də soyumasın. Yığ başına yar-yoldaşını, ava var, bəyim, eynin açılsın, üzün-gözün gülsün, qara-qura fikirlər başından uçub getsin.

– Yox, mən ava getmənəm, – deyib tərslik etdim.

– Bəyim, könlümə şikar əti düşdü. Sən ki məni qırmazsan, demi? Getməzmisən? – Xatun çox üz vurdu.

– Bu halda gedərəm. – Mən dedim.

Əlqəziyyə, naibləri, avçıları təzədən başıma cəm elədim, ordakı bizim qarlı dağlara ava çıxdım. Sonrası nə oldu, nə olmadı, bu bir başqa qəziyyədi, bütün bunları Xan özü bilir. Qara Təkur ləşkər çəkdi gəldi, oğlancığım… Qorqud dəxi yardımçım oldu…

*Əlyazma qırılır, amma mətn tez də bərpa olur. Buraxılan yerlər çox güman Bəkil oğlu İmranın kafir bəyilə qarşı-qarşıya gəlmə səhnəsini təsvir edir. Bu hadisənin "vaqeəsini" oxucu onsuz da Qorqudun dilindən Əlyazmada bir qədər əvvəl "seyr" eləmişdir.*

…Oğlancığım kafir əlində az qala zəbun olacaqdı, Oğuzun sınırı qırılacaqdı, elim-obam əsir-yesir olacaqdı mən xəstə, döşəkdə ikən. İndi mən, Xanım, soruram: neçin? Əlbəttə, Beyrəyə görə, Qazana görə. Belə, Xanım. Mənim Beyrəkdə bu hayıfım vardır. O Beyrək olsun, mən dəxi Bəkil olum… – Bunları söylədi, Bəkil yum verdi, susdu.

*(Nökər qapını azacıq aralayıb başını içəri saldı, Qılbaş Bayındır Xandan gözü ilə izin alıb durub çıxdı, tez də geri döndü, gəlib diz çöküb Xanın qulağına yavaş səslə nəsə dedi. Bayındır Xan hövsələsiz yerində qurcuxdu: "gözləsinlər, biz dəxi bitiririk, bu günlük bəs olar", dedi. Qılbaş çıxdı.)*

Bayındır Xan söylədi:

– Bəkil, səni eyicə dinlədim. İndi sən məni dinlə. Başına gələnlərdən dəxi xəbərim var idi. Mən bilirəm, sən də bilginən. Haqsız işlər Oğuzda ayaq alıb yeriyir. Səbrini bas, Bəkil, mən səni də tanıram, Beyrəyi də tanıram. Heç naümid olma. Haqqını alacaqsan. O dəxi haqqını alacaqdır. Di get, dinlən. Sən hələ mənə bir dəxi bu işlə ilgili gərək olacaqsan. Yavuqluqda ol.

Bayındır Xan uru durdu. Biz dəxi ayağa qalxdıq. Bəkil irəliləyib Bayındır Xanın əlindən öpdü. Bayındır Xan onu qucaqladı, alnından öpdü. Bəkil başın aşağı əyə-əyə, gözü yaşlanmışdı, əli ilə gözünü silə-silə, dalı-dalı otaqdan çıxdı. Bayındır Xanla mən ikimiz qaldıq otaqda. Xan "ox" eyləyib bir gərnəşdi, sonra mənə sordu:

– Qorqud, oğul, bilirmisən, kimlər gəldi?

– Yox, şövkətli Xan, bilmirəm.

– Qızım Burla Xatun gəldi. Onunla Banıçiçək dəxi gəldi.

– Öyləmi? Odamı?

– Öylə. O da. İndi nə dersən? Bunlara vaxt itirəlimmi, yoxsa istintaqı bitirəlimmi? Amma bitməyinə dəxi az zaman qalmadı.

– Xanım, xatunlar nəyə gəldi? Bu işə görə onları sənmi çağırdın, yoxsa özləri elə-belədən sənə bağır basmağa gəldilər?!

– Bilməm ki. Amma gəlmələrindən bir xeyir götürəlim. Nə dersən, bir bunlara da sorğu-sual edəlimmi? Kişinin sirri halalında olar. Qazanın sirri Burlada, Beyrəyin sirri də Banıçiçəkdə, demi?

Bayındır Xan mənə sorub durmuş idi. Mən isə bilirdim ki, xatunların gəlməsi bisəbəb deyildir. Bayındır Xan onları da, əlbəttə, istintaqa cəlb etməyi öncədən düşünmüş idi. Bunu fikir eyləyib dedim:

– Bunlara da bəzi para şeyləri sorsan heç fəna olmaz. Qaranqu işlər hənuz vardır.

– Doğru söylərsən. O zaman get, onları da çağır gəlsinlər. – Bayındır Xan pəncərənin önünə keçdi.

Mən dışarı çıxdım. Qılbaşı görmədim. Bir nökəri çağırıb Bayındır Xanın buyruğunu ona söylədim. "Baş üstünə" deyib həyətə çıxdı və az keçmədi Burla Xatunla Banıçiçək bahəm gəldilər Xan otağının qapısının ağzına. İkisi də mənə ədəblə salam verdi, salam aldı.

– Xan babamın əhvalı necədir, salamatdır, inşallah?! – Burla Xatun sordu.

– Hər şey yaxşıdır, Xatun Burla xanım. Heç əhvalını pozma.

Banıçiçək mənə baxdı, amma bir şey sormadı, mən dəxi heç nə demədim ona.

– Sən dəxi bizimlə içəri keçəcəksən, ya?.. – Burla Xatun sordu.

– Bilməm ki. Lazım bilirsə, özü çağıracaqdır…

Qılbaş nə zaman içəri Bayındır Xanın yanına daxil olmuşdu, mən biləmədim. Bircə onu bildim ki, indi içəridən çıxdı, dedi:

– Qızlar, siz ikiniz, Qorqud, sən dəxi, keçin içəri. Xan gözlir.

Biz – qızlar irəlicə, mən onlardan sonra içəri keçdik. Bayındır Xan mən onu tək qoyub çıxdığım zaman necə ki durduğu yerində, pəncərənin

önündə idi, indi dəxi orada idi. Qızlar gircək onlara döndü, bu dəfə gözü də, üzü də gənclik şövqü ilə alışıb yanırdı:

– Qız, Burla, sənmisən? Boyu uzun Burla Xatun, saçı uzun Burla Xatun, gözü qara Burla Xatun, ağzı püstə Burla Xatun… Sənsən ki varsan.

– Baba, əlini öpməyə gəldim. – Bunu deyib Burla Xatun, babasına yaxın gəldi, diz üstə çöküb əlini öpdü. Babası onun dəxi yanağından öpdü. Banuçiçək qapının ağzındaca qalmışdı.

– Qız, nə cürsən, eyimisən? Əyləş, hələ, əyləş bura... – Bayındır Xan özü öz yerinə əyləşdi, Burlanı dəxi önündə əyləşdirdi. – Təkmi gəldin? Qız, sənə demədimmi, mənim… Banuçiçəyimi də buraya gələndə gətir gəl özünlə?! Həsrətindən onun biz nə hala düşdük, söyləmədinmi ona? Dedim, demədim?!

Burla Xatun səssizcə qas-qas güldü, başı ilə qapı ağzında kirimişcə durub qalmış Banuçiçəyə işarət etdi:

– Gəlmədi. Dedi, küsmüşəm Xan babana.

– Öyləmi dedi? – Bayındır Xan dəxi qas-qas gülüb sordu.

– Mənmi dedim? – Banıçiçək qapı ağzındaca qızardı, nə qızardı. – Mən elə söz demədim.

– Küsmüşdür, həmi? – Xan aşkar bunlarla şənlənirdi. – Məndən incimişdir, demi? Olsun, olsun. Qız Burla, bizim zamanımız keçdi, biz dəxi qocaldıq qaldıq. Nə yapa bilirik ki?! Yeri vardır incisin. Gəl, sən də gəl. – Əl edib Banuçiçəyi dəxi yanına istədi.

– Sənin nəyin qocadır, söylərmisən?! Qocalsın sənə düşmən kəsilənlər. – Banıçiçək bunları söyləyə-söyləyə başladı Bayındır Xana yaxınlaşdı, önündə yerə çöküb Xanın iki ayağını birdən qucdu, bərk-bərk döşlərinə sıxdı durdu. – Qocalsın sənə xainlik edənlər… ödü yarılsın səni sevməyənlər… Nasılsan, Xanlar Xanı?

– Öyləmi? Bu qız da kim ola, Burla? Heç tanımadım… – Bayındır Xan əli ilə Banıçiçəyin başına, üzünə tumar verə-verə sordu.

– Özüdür ki, var, Xan baba. Odur. Banıçiçək demədinmi? Mən bunu Banıçiçək bildim. – Burla təbəssüm edib söylədi.

– Öyləmi? Qız Banıçiçək, sənmisən? Sağmısan, əsənmisən, qız? Bir dəxi getsən nə zaman dönərsən?! Bir il oldu, on il oldu – birkərəlik getdinmi sən?! Üzün-gözün də yaddan çıxa qaldı. Distur ver, bir doyunca üzünə baxım. Qız, sənə nə oldu böylə?! Arıqladın qız. Bənizin saraldı. Keç, keç otur bu yerdə. Di yaxşı, yaxşı, aç bu gözəl əllərini ayaqlarımdan, hələ bir söylə görəlim, sənə dəvətmi göndərək bundan sonra? Nə zaman oldu səni görməyəli, söylərmisən?! Qocaldıq, qocaldıq ya, bizi heç sevmədin…

Banıçiçək Xanın ayaqlarını buraxıb elə xalının üstündəcə fırlanıb-hellənib öz-özünə Bayındır Xan göstərən tərəfə düşdü, bardaş qurub oturdu, əllərini dizinə vurdu, dikəlib dedi:

– Söylədim ya… Sən qocalan Xan deyilsən. Üzümü görməyəli dəxi il nədi, ay belə olmadı, nə tez darıxdın?! Bax, beləcə olar… Arıqladım, bənizim saraldı dersən?! Bizim bir Xanlar Xanımız var – onu görməyəli mən bu günə düşürəm, biləsən. Məni dilləndirmə, Xanlar Xanı. Sən hələ bir onu söylə, yeni-yeni qaravaşlar gördük həyətdə, biri-birindən gözəl. Onlarmı sənə qocalmağa izin vermirlər?

Bayındır Xan yenə qas-qas güldü, üzü-eyni bayaq pəjmürdə idi, indi bərq vurdu, işıq saçdı. Mən yadından çıxmış idim qayət. Bir kənarda durub mən dəxi bunları seyr edirdim, könlüm fərəh edirdi.

– Qorqud, keç, keç sən də öz yerinə otur, işinlə məşğul ol, – Bayındır Xan mənim ürəyimdən keçənləri ola ki, eşitdi.

Mən baş endirib öz yerimə keçdim, əyləşdim. Sonra Qılbaş gəldi, keçdi öz yerinə, o dəxi əyləşdi.

Bayındır Xan xatunlara üzünü tutdu:

– Qızlar, sizə kimdən deyəlim, haradan söyləyəlim – Trabzon məliyindən söz açalım. Elçisi gəldi. Bizim Qanturalı var ya?! Məlik ondan şikayətçi imiş. Uzun qəziyyədir… Amma Məlik Trabzonun ipəyinin, baftasının seçib-ayırıb əntiqini, gözəlini göndərmiş, indi söhbətimizi edəlim, bitirəlim, sonra Qılbaş sizi götürər, gedin, baxın, bəyənsəniz, həpsi sizin olsun. Nə dersiniz?

– Sağ ol, Xan baba. Malın-dövlətin tükənməsin.

– Sağ olasan, Xanlar xanı. Sənin tayın-bərabərin qalın Oğuz bir yana, tüm fani dünyada yoxdur, bilirmisən? – Banıçiçək dedi.

*(Mən dəxi bu sözü unutmadım: "sənin tayın-bərabərin fani dünyada yoxdur". Fani dünya ha. Xatunda sözə bax).*

– Bilirəm, mən bilirəm. Siz dəxi bilin. – Bayındır Xan təbəssüm edib söylədi.

– Bilməz olurmuyuq?! Biz çox eyi bilirik, – qız Banıçiçək dil boğaza qoydumu, qoymadı.

Sonra Banıçiçək bir dəxi mənə çox diqqətlə baxdı. Yazdığıma maraq edirdi. Bayındır Xan bunu duydu, belə dedi:

– Di yaxşı, qızlar. Bunları sonra. Qorqud, oğul, bura qədərini pozu ver. Bundan sonranı yaz. Duydunmu, sənə nə söylədim? – Bayındır Xan buyruq etdi, sordu.

– Duydum, şövkətli Xan. Öylə də edərəm. – Mən dedim. Bayındır Xan belə buyurdu, mən dəxi Xanın buyruğuna əməl edəcək idim ki…

*Əlyazma kəsilir və Qorqud nə üçün Xanın buyruğuna əməl etmir, qızlarla Bayındır Xanın bir az əvvəlki söhbəti Əlyazmada onun iradəsi əleyhinə nə üçün qalır – biz artıq bunu bilməyəcəyik. Beləliklə, bu maraqlı söhbət də bizim bilmədiyimiz səbəbdən Əlyazmanın mətninə daxil edilmiş olur.*

– Di, başlayaq. – Bayındır Xan dedi. – Burla Xatun, Banıçiçək, sizlərə bir türlü sorular soracağam. Qayət, doğru cavablar verəcəksiniz. Razılaşdıq, demi?! Mətləb budur. Bildinizmi, siz, Oğuzda casus varmış. Nədi, yoxsa heç duymadınız?

– Duymaz olurmuyuq, Xan baba?! Qız, sən duymadınmı? Ya sən? Duyduq, duyduq, biz dəxi duyduq… – Bunlar ikisi eyni zamanda, bir-birinin sözünü kəsə-kəsə cavablar verdilər, durdular.

– Gözəl… – Bayındır Xan bu cavabdan razı qaldı. – Deməli, siz də duydunuz. Əlbət ki, duymaya bilməzdiniz. Qazan ava çıxdı, demi, qız Burla, casus casusladı, el-oba əsir getdi. Ya Beyrək?! Düyününə bir gün qalalı, casus bir dəxi xəbər apardı, gəldilər, o boyda yigidi, demi, o boyda aslanı oğurlayıb apardılar. On altı il, qız, Banıçiçək, zarlıq etdin, az qala yeni ərə varacaqdın, yadındamı? Yadındadı, qayət unutmadın, demi? Bir söz, mətləbə qayıdaq. Casus Oğuzda kəndi işini görürmüş, Oğuz isə bixəbər, yatıb qalmış imiş.

– Əvət, Xan baba, doğru söylərsən, casusun varlığı bizə çox bahasına gəldi. Uruz əldən getmiş idi az qala. – Burla Xatun sısqadı, dedi.

– Öylə. Doğru dersən, qız. İndi, qızlar, siz söyləyin. Bu casus kim idi? Onu necə də oldu Qazan tutdu, Şirşəmsəddin quyuya salladı?! Öylə olmadımı? – Bayındır Xan sordu.

– Öylə oldu, baba, öylə oldu. – Burla Xatun anındaca dilləndi, – sən dəxi hər şeyi səhih bilirmişsən. Öylə oldu.

– Bəs əgər böylə oldusa, – Bayındır Xan gözün qıya tutdu, Burla Xatuna nəzər saldı. – Əgər böylə oldusa, bə bu casus sonradan niyə yox oldu? Göyəmi çəkildi, yerəmi təpildi? Quş oldumu, uçdumu, hara itdi, getdi bu casus, söylərmisən, qız Burla? – Bayındır Xanın səsi sərt çıxdı.

Burla Xatun Bayındır Xanın tövrünün ciddiləşməsindən anladı ki, Xan ondan səhih bilgi almaq istir. Amma özünü itirmədi, bu soruya hazırmış, odur ki, babasına belə cavab verdi:

– Xan baba, dinlə məni, söyləyəlim sənə. Amma nə etdin, bizi çağırdın… Xəbərin doğrusu məndə. Bəli, casus tutuldu. Biləsən, Boğazca Fatmanın oğlu imiş casus. Quyuya salındı. Qazanı görəydin, bar-bar bağırdı, öldürəcəm qavat oğlu qavatı dedi, kəsəcəm hayqırdı, hamıya görk şaqqalayacağam qışqırdı. Amma noldu?

– Noldu? Mən dəxi maraq edirəm, noldu? – Bayındır Xanın üz-gözü, guya bilmirmiş, təəccüb ilə doldu.

– Bunların heç biri olmadı, Xan baba. – Burla Xatun dedi. – Məşvərətə bəylər gəldi. Bəkil gəldi, Şirşəmsəddin, Aruz gəldi, Beyrək gəldi… Qazan məşvərətdən sonra mənə bilirmisən, nə dedi?! "Xatun, – dedi – gülməyim

gəldi. Bəylərin həpsi qərar çıxardılar ki, bu məlun günahsızdır. Mən dəxi tək qaldım, bir iş görə bilmədim" – dedi. Məşvərətdən öncə isə, baba, Boğazca gəlmişdi, Qazana nə dedi, nə demədi, mən bilmədim, öyrən bunu Xan baba, Qazan yalnız sənə danışar, səndən gizləməz. Boğazca nə dedisə, Qazan qəfil çöndü, bayaq bağırırdı, indi sızladı, mənə çıldırdı, casusu da quyudan çıxarıb verdilər anasına, az qala yollarına güllər, çiçəklər səpdilər, buyurun, gedin, – dedilər. Bu da oldu casusun axırı, biləsən.

– Həşəmətli Bayındır Xan! – Banıçiçək mənə və mənim dəftər-qələmimə ötərincə göz gəzdirib sözünə başladı, – əgər həqiqəti bilmək dilər isən, casus heç Boğazcanın da oğlu deyildi.

– Öyləmi? Ya, kim idi casus? – Bayındır Xan sordu.

Banıçiçək dedi:

– Casus, Xanım, Aruzluq idi, biləsən. Burla Xatun, qız, sən de.

– Öylədir, Xan baba, Banıçiçək doğrusunu söylər, casus işi Aruzun işidir.

– Bax, bax, yenə Aruzu qatdınız ortaya. Aruzluq burda nə var? Niyə Aruz Oğuzu yer-yer casuslasın?! Mənfəəti nə?

– Mən deyim. – Burla Xatun dil-dil ötdü. – Mənfəəti – bəylərbəyilik! Qazandan alıb ona verəsən. Kafirlər gəlsinlər, yurdu daraq kimi darasınlar, Qazan bacarmadı, mən bacararam, oğlum Basat Təkgözü yenmədimi?! Bəylərbəyilik mənim olmalıdı – Aruz bunun həsrəti ilə gecələr də uyquya getmir, baba, biləsən. Eh, mən nə danışdığımdı, baba, sən özün hər şeyi ki, yaxşı bilirsən…

Bayındır Xan bir qədər fikrə getdi.

– Burla Xatun doğru der, Xanım. – Bu yana Banıçiçək davam etdi. – Basat Təkgözü yendi, Basat belə gəldi, Basat belə getdi… Bu Basat başımıza qaxınc oldu. Aruz Basat deyü durar. Gözü də Qazanın bəyliyində, biləsən…

*(Mən bir məsələni indi xatırladım. Oğuzda Basat, Basat deyən təkcənə Aruz deyildi ki. Oğuzda Təkgözü yenəndən sonra kiçikdən böyüyə, oğlanlı, qızlı hamı Basat derdi. Burla Xatun da o zaman Qazanın halalı deyildi, o dəxi Basat derdi, Banıçiçək də Beyrəyi əvvəl-əvvəl cürbəcür şərtlər kəsib yaxına qomurdu, o dəxi*

*Basat derdi. Kim Basat demədi ki?! Təkgözü yendikdən sonra bütün Qalın Oğuzun qızları Basata könül verib sevdilər. Bayındır Xan qızını bilirdi, təpindi: "Basat derkən, ağzından öysəl olmuş dana kimi su axır. Basat söhbətini bitir, qız. Mənim meşədə böyümüş birinə verməyə axsaq keçim belə yoxdur, belə də deyin Aruza". İndi qızlar Basatdan, Aruzdan heyiflərini çıxmaq istəməsinlər?!)*

– Səndəmi öylə düşündün? – Bayındır Xan fikirli-fikirli Banuçiçəyə sordu.

– Bəli, şövkətli Xan, mən dəxi öylə düşündüm. – Banıçiçək cavab verdi.

– Qazana casus xəbərin Beyrək gətirdi, demi? – Bayındır xan bir dəxi sordu.

– Elə dedi Qazan mənə. – Burla Xatun cavab verdi.

– O gün yadınızdamı?

– Bəli, Xan baba yadımdadı. Evimizin ildəbir yağma günü idi. İç Oğuz bəyləri həp gəlmiş idilər.

– Dış Oğuz gəlmədi, demi?

– Dış Oğuzu Qazan yağmaya çağırmadı. – Burla Xatun başın endirib alçaq səslə cavab verdi.

– O yağma günündən bir gün öncə gecə Beyrəyi hansınız gördünüz? – Bayındır Xan gözün qıydı, Burla Xatuna baxdı.

– Mən görmədim, yar-yoldaşı ilə Uzun Pınara gedirəm, dedi, yeməiçmə varmış. Mənə böylə dedi. – Banıçiçək dilləndi.

– Mən… mən dəxi görmədim, Xan baba. – Burla Xatun qıpqırmızı pörtüb cavab verdi. – Nə oldu ki?

*(Şirşəmsəddin bundan əvvəl Burla qızın dediyinin əksini söyləmədimi?! Bayındır Xan, mən görməsəm də duydum ki, Burla Xatunun cavabını heç bəyənmədi. Xan, Şirşəmsəddinə inanmışdı qayət. Amma Burla Xatunun da yalan dediyini ağartmadı, üstünü vurmadı.)*

– Görmədin, həmi?.. – Bayındır Xan özü özü ilə söz söylədi. – O zaman bir soruma da cavab verin, qızlar. Beyrək bu casus söhbətini ortaya nə üçün indi, yağma zamanı atsın? Əqliniz nə kəsir?

– Mənim əqlim bir şey kəsmir. – Banıçiçək dedi. – İndi atsın, sonra atsın, nə fərqi var imiş?..

– Mən də bir şey kəsdirəmədim. – Burla Xatun dedi.

– Sənə, qız, öncədən Bayburdda casusla bağlı söhbəti barədə bir söz söyləmədimi? – Bayındır Xan Banıçiçəkdən sordu. – Hər necə də olsa, halalısan…

– Xeyir, söyləmədi. Beyrək öz içində olan biridi, şövkətli Xan. Boşuna bir şey söyləməz. Zamanını gözlər. – Banıçiçək cavab verdi.

– Belə… – Bayındır Xan yüngülcə gərnəşdi. – İndi, qızlar, son sorumu sorum sizə. Siz deyin, bəylər necə oldu ki, məşvərət zamanı bu… adı nə idi bu qarının?.. Boğazca dediniz ya, bəylər həpsi onun oğluna səs verdilər, təmizə çıxardılar?

Burla Xatun Banuçiçəyə baxdı, Banıçiçək Burla Xatuna baxdı. İkisi də başın yerə dikdi, bir xeyli düşündülər. Bayındır Xan sükut içində maraq edib onların nə deyəcəyini gözlirdi. Mənə dəxi baxıb başını tərpədərək təbəssüm etdi.

– Xan babam. Mən belə düşündüm… Bilirmisən… amma yox, mən bilən… yox, baba, mən bilmirəm. – Burla Xatun belə cavab verdi.

– Sən nə dersən? – Bayındır Xan ağır-ağır Banuçiçəyə sordu.

– Şövkətli Xan, nə oldusa Boğazcadan oldu. O nə dedi, nə demədi… bəylər ondan sonra döndülər. – Banıçiçək cavab verdi.

– Nə dedi axı o? –Bayındır Xan sordu.

– Nə dediyin bilmirəm, yalan demənəm. – Banıçiçək dedi. – Amma, Xan, onu da bir öyrədən var, bəlli bilgil. O qarıda o əqil yoxdu, üzünə də ki, bundan belə bir kişi baxmaq istəməz.

*(Mən yenə damarımda qanımın donduğunu duydum.)*

– Qızlar, di bəsdi, yordunuz məni. – Bayındır Xanın kefi yenidən yerinə gəldi.– Di gedin, Qılbaş, dur, apar bunlara Trabzondan gələn malları göstər. Nə istirlər, seçsinlər özlərinə. Qız Banıçiçək, sən dəxi birdəfəlik əppək olub itmə. Eşitdinmi, qız? Gözləmə, mən səni çağırım. Özün könlün

istədiyi vaxt gəl, get… Burla, qız, Uruza dersən, özü üçün bir şahbaz at seçər. Qılbaş!..

Burla Xatun, Banıçiçək Xanın əlin öpüb, Xan bunların dəxi belin qucub üzün öpüb qızlar çıxdılar. Qılbaş dəxi bunlarla çıxdı.

Qızlar gedəli Bayındır Xan bir xeyli otaqda var-gəl etdi. Düşünürdü olsun ki.

– Qorqud, oğul, bu məsələ şişdikcə şişib durur – çox qəlizləşdi. Bu qədərinə vaxt getdi, hələ sonucu görsənmədi. Amma bu qız eyicə tutdu Boğazca Fatmanın yaxasını, o öyrətdi bəyləri, qayət – dedi. Bu Boğazca dəxi əqilli birisi olsa idi… Kim öyrətdi onu bu gözəllikdə hiyləni bəylərə qıldı?.. – Bayındır Xan təbəssüm etdi.

– Xanın ömrü uzun olsun. İstintaq sonuna yetişmədimi? Casus ortalıqda yox, bəylər hər biri öz günahlarını boyunlarına aldılar. Dəxi nə qaldı? – Mən dedim. Danışmağın səmtini dəyişmək dilədim.

– Qaldı, Qorqud, qaldı. Qaldı o ki, Boğazcanı öyrədənin kim olduğunu biz hənuz bilmirik. Bir dəxi bir məsələ qaldı. Onu sənə sonra söyləyəcəyəm. İndi isə, söylə, öncə kimi dinləyək – Aruzumu dinləyək, yoxsa Qazanımı dinləyək?! Bu nə oldu? Qılbaş, harada qaldın sən, gəl ya…

Qılbaş yenə özü otaqdan çıxsa da, qulağı ki burda qalmışdı, eşitdi, anındaca otağa daxil oldu:

– Bəli, Xan, buyur, at seçirdim… Uruza. – dedi.

– O sonra. O sonra. Qılbaş, buralarda indilik kim var, kim yox? – Bayındır Xan sordu.

– Kim lazımsa, hamısı gəldi. Bircə Aruz Qoca sabahleyin gələcəkdir. Qazan burda, Bəkil burda, hər biri də ki… bəli, bəli, əlbəttə, Xanım, ayrı-ayrı odalarda… Beyrək gəldi, Qazanladır, Şirşəmsəddin burda, Uruz At meydanına hər sabah gedir, at minir, at çapır, bir bədövi atımız doğmuş idi, qulunu indi böyüdü, onu verəcəyəm oğlancığa. Dəxi kim qaldı?! Qızlar malın yaxşısını seçdilər, götürdülər, Xana dualar edib onlar dəxi qalmadılar, İç Oğuza döndülər. Banıçiçək Burla Xatunla bir çıxdı. Xanım, sənə söyləyim, dəxi bir məsələ vardır. Qazılıq Qoca… – Qılbaş duruxdu, mənə baxdı, Bayındır Xan ona başı ilə "davam et" işarətini verdikdən sonra

davam etdi. – Qazılıq Qoca mənə söylədi ki, Qılbaş, Xana de, məni buyruqla bir yana göndərsin. Yoxsa, məşvərət, deyir, məşvərət dalınca keçir, mən yoxam, Oğuzda danışıq-filan olmasın.

Bayındır Xan fikrə getdi, sonra belə dedi:

– Qazılıq Qoca doğru deyir. De ona, hədiyyələrini hazırlasın. Varsın şahbaz atlar seçsin, qaytabandan dəvələr ayırsın, o günkü karvandan pənc-yek çıxmışdı ya, qızıl ləlöyünləri deyirəm, onları götürsün, bir-iki bəylə, nökərlə, naiblə varıb Trabzona yola düşsün. Məliyə mənim sağolumu yetirsin. Qanturalıya bir şapalaq vurduq desin. Sonra, Qılbaş, ona tənbehi özün edərsən… Qazılıq Qoca hədiyyələri versin, yesin-içsin, xoş keçsin, yenə geri dönsün. O zaman üçün biz dəxi bu işi bitirrik. Sabah yola çıxsın, anladınmı? Bir də ki, Məliyə Düzmürd qələsində başına gələnlərdən danışsın. Düzmürd Trabzona yaxın yerdir. Məlik üçün maraqlı olar. Görək, hələ o nə deyəcəkdir?! Di get, söylə ona söylədiklərimi. Əvvəl-əvvəl isə Qazanı göndər gəlsin, baxalım. Hə, Qorqud, oğul, nə dersən, yoruldunmu? Davam etsək, gücün yetərmi? Yazı-pozu işi asan iş deyil, mən səni bilirəm…

Mən Bayındır Xandan gələn buyruğa "baş üstünə" deməyib də nə deyəcək idim?! "Xeyir, şövkətli Xan, heç yorulmadım. Sənin sözlərindən doymaqmı olar?! Mən hazıram", – dedim. Düşündüm: "Amma Nur daşı üçün darıxmışam. Nur daşına qısılıb yatmağı arzularam. Nur daşı ilə dan danışmaq dilərəm".

Bayındır Xan diqqət ilə mənə baxdı, Qılbaşa dedi:

– Di get, dediklərimi et, sonra Qazanı gətir.

Qılbaş çıxdı. Xan bir xeyli susdu, sonra dedi:

– Amma, Qorqud, dilin bir şey dedi, gözlərin başqa bir şey dedi. Fərqindəmisən?

– Yox, şövkətli Xan, fərqində deyiləm. Nə dedi gözlərim?

– Heç. Sonra, sənə söyləyəcəklərimi sonra söyləyəcəyəm. Sonda. Sənlə mən biz bir-birimizi anlarıq, demi?

– Sən, həşəmətli Xanlar Xanı, nerəyəcən anla desən, o yerəcən anlaram.

– Gözəl… İndi baxalım, görəlim, Qazan bizə dəxi nələr söyləyəcəkdir?! Gəl Qazan, keç, otur öz yerində…

Qazan içəri girdi, ədəblə salam verdi, baş əydi, keçdi əyləşdi mənim qənşərimdə. Gözlərini məndən qaçırdı.

Bayındır Xan ona sordu:

– Rahat etdinmi, Qazan?! Yerin-döşəyin yumşaq oldumu? Qulluğunda iyicə durdularmı? Zamanın necə keçir?

Qazan dedi:

– Xan sağ olsun. Hər şey çox-çox yaxşıdır. Sən heç niyaran qalma.

Bu dəm Qılbaş dəxi gəldi, Bayındır Xanla baxışdı, o da keçdi öz yerində oturdu.

– Qazan, – Bayındır xan aramla sözünə başladı. – Keçən dəfə sən söylədin, mən dinlədim. Sən yəmin etdin, mən inandım. Sonunda bir sorum dəxi qaldı sənə. Ona dəxi cavab ver, sonra mən sənə öz qərarımı söyləyəcəyəm.

– Buyur, Xan. O nə sorudur elə? – Qazan yerində qurcuxdu.

Bayındır Xan düşünmədən-daşınmadan nagahdan soyuq bir səslə Qazana sordu:

– Qazan, Boğazca Fatma ilə sənin aranda nə söhbət oldu, onu danış. Boğazca sənə varmışdı, təklikdə onunla nə danışdın sən?

Qazan başın yerə dikərək bir xeyli susdu. Bayındır Xan dəxi susub səbr kasasını basmışdı. Bir xeyli bu sükut çəkdi. Nəhayət, Qazan özü sükutu pozdu:

– Xan babamız. Mən sənə hər bir şeyi necə ki oldu, o cürənə də söyləyəcəyəm. Sonucunu özün çıxar. Bir günahım var isə, mənim bu qara başımın boynu sənin yolunda qıldan da incədir, özün vur onu, Xan babamız.

– Söylə, Qazan, söylə, səni dinlirəm.

Qazan boğazını arıtdadı, sözünə belə başladı…

Bəli, Xan necə ki buyurdu, eləcənə də oldu. Boğazca mənə gəldi. Axşam çağı idi, Şirşəmsəddin bu casus deyilən oğlancığı təzəcə gətirib quyuya quylamışdı. Nökər gəldi ki, bəs səni bir arvad gəlmişdir, görmək istir, adını da demir. Hələ bundan əvvəl, qoy onu da deyim, Burla Xatunla bir söhbətim dəxi oldu. Burla gəldi, mənə dedi:

– Bu yazıq arvadın oğlunu niyə tutmuşsan? Sən ki bilirsən, casus Aruzluqdu.

Dedim:

– Yox, Xatun, Aruzun işi deyil bu iş. Casus Boğazcanın oğludur.

– Yox, – dedi. – Aruzun işidi.

Dedim:

– Boğazcanın işidi. Ana-bala birləşiblər, birgə görüblər bu əməli.

Mənə dönüb nə desə yaxşıdır, Xan baba?! Hərzə-hərzə bunu dedi:

– Bəri baxgil, – dedi, – nə çox Boğazca, Boğazca dersən?! Nədi, cavanlığınmı yadına düşmüşdür?

Mən dəxi bilmədim, buna nə cavab verim. Bilirəm, Burla buracan varmış, onsuz da sənə hər şeyi nəql eləmişdir, amma bəlkə də doğru olanı tam söyləməmişdir. İndi, Xan baba, doğru olanı mən söyləyim, sən dinlə.

Bayındır Xan gülümsünüb dedi:

– Nolar, sən söylə, Qazan, doğru olanı sən söylə…

Qazana cəsarət gəldi:

– Mən yenə məsələnin üstündən keçmək istədim. Niyə də şişirdim?! Xatundu, əqlinə gələni söylər, mənə nə gəlmişdir – düşündüm, dedim:

– Nə danışdığındı sənin? Bu da sənmisən?! Adam bir söhbəti neçə dəfə çözər, qurtardıq axı bu söhbəti iyirmi il, iyirmi beş il öncə qurtardıq. Çıldırdınmı sən?

Burla Xatun dedi:

– Mən çıldırmadım, əsl sən çıldırdın, Qazan. Mən sənə bir dəxi derəm: casus bunun oğlu deyildir. Casus dayın Aruzun adamıdır. Nədi, xoşuna getmədi sözlərim?! Dayındır deyin, ayağını vermirsən?!

Bu böylə dediyində mən dəxi qızdım, Xan baba. Xatuna qəzəb elədim:

– Nə deyirsən, indi yerimdən durummu? – dedim, – qara qamçımı çıxarımmı, can necə dadlı olur sənə göstərimmi? Bunları dedim. Nə dedim onu söylirəm, nə az, nə çox ancaq bunlar çıxdı ağzımdan. Sonra isə, bəli, bağırdım:

– Bilginən, Xatun. Qorqud gəldi, o dedi casusun kim olduğunu. Mənlik deyil!

– Nə zaman gəldi Qorqud? – Xatun bir addım geri getdi, yumşalıb sordu: – Mən niyə onu görmədim?

– Şirşəmsəddin! – Mən Şirşəmsəddini çağırdım. – Gəl, gəl, sən söylə. Mənə inanmır. Gəlsinmi Şirşəmsəddin?

– Yox, lazım deyil. – Xatun dedi.

Sonra birdən Xatun süst düşdü:

– Qazan, ay Qazan, – dedi. – Boğazca yazıq, fəqir bir arvaddı. Anadı. Kimsəsiz qarıya döndü getdi. Bircəcənə oğlu vardır, o da atasız, öksüz… deyirəm…

– Olmaz! – Nə istədiyini anındaca anladım, qarşılıq verdim. – Mənlik deyil, dedim ya. Bəylər gələcək, məşvərət olacaqdır. Nə desələr, öylə də edəcəyəm.

Sonra yağmadan söhbət düşdü.

Mən Xatuna giley etdim:

– Sən heç qoymadın dayım Aruzu yağmaya çağırım, unutdunmu?

Doğru sözümdü, Xan baba. Burla Xatun mənə üz tutub dedi ki, dayın Aruzu yağmaya çağırsan, Xan babama vararam, Qazan düz yolundan çaşdı deyərəm. Mənə küfrlər söylədi, mənə gün vermədi, söylərəm. Mən dəxi… Aruzu yağmaya çağırmadım. Ona baxdılar, o biri Dış Oğuz bəyləri də gəlmədilər. Bəli, Xan baba, mən buna dedim ki, sən, sən mənim əlimi-qolumu bağladın, Aruzu çağırma dedin.

Bu isə mənə belə dedi:

– Əcəb elədim. Düzgününü mən elədim. İndi mən deyim, sən Qazan, eşit. Belə dayın sənin Aruz Qoca sənin ala taxtına, bəylərbəyliyinə göz dikdi, bilməzmisən?! Belə dayın sənin Aruz Qoca sənin orduna göz dikdi, fərqindəmisən? Bilmirsənsə, bəlli bilgil: dayın Aruz Xan babama varmış oldu. Səndən o ki var Xan babama demiş oldu. Təkgözdən kim qurtardı Oğuzu – mənim oğlum Basat qurtarmadımı?! Di, belə isə ver mənim haqqımı, Bayındır Xan, – söyləmiş oldu. Mən bunu sənə söyləmirdim, indi söylirəm. Basatı dayın qalın Oğuza bəylərbəyi istəmiş oldu.

Mən bütün bunlardan bixəbər olmuşam. Mən bunları haradan bilə bilərdim ki?! Sordum:

– Xan babamız nə demişdir?

Burla Xatun belə dedi:

– Nə deyəcək imiş Xan babam?! Qocalmışdır, heydən düşmüşdür mənim Xan babam. Nə istirsən sən mənim Xan babamdan?

– Bayındır Xan heç vədə qocalmaz, heç bir zaman heydən-gücdən düşməz, – dedim. – Bu sözü bir dedin, bir dəxi dilinə gətirmə, xatun! Yoxsa…

– Qocalmışdır dedi, həmi?! – Bayındır Xan sakit-sakit özü-özünə dilləndi.

– Bəli, Xan baba. Öylə dedi. Nə ararsan, xatunda ağılmı olar?! Mən sözümü degəc daha dinmədi. Sonra yaxınlıq elədi, sinəmə qısılmış oldu:

– Qazan, Qazan, ay Qazan. Mən səni çox-çox istəməz olur isəm, bu sözləri söylərəmmi?! Aruzun işi-gücü Oğuz bəylərini sənə qarşı durquz-

maqdı. Bəyim, bunları sən bilməlisən. Əvvəl-axır bu işdən savaş qoxusu gəlir, bəlli bilgil.

Xanım, Xatunun bu sözləri məni tutdu:

– Nolar, Aruz savaş dilərsə, qoy savaş olsun, – dedim. – Bizə də Salur Qazan derlər. Oğuzu içdən təmizləmənin zamanı gəldi deməк. Öncə iç yağılarla varam. İstər kim olur, olsun, baxarıq.

Mən bunları dedim və elə bu zaman nökər girdi, haman bayaq söylədiyim kimi "bəy, bir arvad gəldi, səni görmək dilər, adını da demir. Nə edək?" – sordu. Əslində, Xanım, Burla Xatunla söhbətə yum vermək üçün "çağırın gəlsin, görəlim, nə deyir" nökərə söylədim. Burla Xatun nökəri saxladı:

– Dayan görüm, necə yəni, adını demir. Get söylə, adını deməz isə içəri dəxi gəlməz.

– Xatun, etmə, eləmə. Qoy işimizlə, gücümüzlə məşğul olaq… – Mən dad qıldım.

Sözlərimə qulaq verən oldumu? Yox, kimə dersən?!

– Di yaxşı, get adını deməzsə de ki, bəy səni içəri almayacaq. – Mən nökərə buyruq verdim.

Nökər getdi. Yenə Xatuna üz tutub dedim:

– Xatun keç içəri, biz dəxi öz işimizi görək.

Keçmədi. Oturdu, durdu, ta ki nökər qayıdana qədər. Nökər qavat oğlu qavat gəldi, dedi:

– Bəyim, gələn qarı Boğazca Fatma imiş. Qazanla təklikdə söhbətim var dedi.

Xanım, Ala Dağ uçsa idi, bundan yaxşı idi. Sellər, sular daşsa idi, nə vardı ki… Burla Xatun bir gurlayan selə döndü:

– Necə, necə? – dedi. – Boğazca, özü də səninlə təkbətək?

– Əşi nə vacib sözü olacaqmış? O kim, mən kim?! Mənim heç kimsədən sirrim yox. Ağlamağa, sısqamağa oğlu üçün gəlib yəqin. De, sonra gəlsin. Sabah…

– Sabahmı gəlsin? Dur hələ. – Burla nökərə belə dedi. – İndi, indi gəlsin. Nə sözü var isə mənim yanımda, eşidirsən, Qazan, mənim yanımda danışsın… Yoxsa…

– Bah! – dedim. – Nə yoxsa?..

– Xan babama vararam mən, Qazan! – Xatun bir dəxi təhdid etdi.

– Yaxşı, yaxşı, ömrüm baxtı, evim taxtı. Sənə noldu? – Mən yenə aşağı qulpa yapışdım, Xanım.

"Xan babama vararam!" Hər dəfə biləsən, Xanım, bu sözlər mənim qara başıma qaxınc olur. Ağzımı açıram bir söz deməyə – "Xan babama vararam!" Bir başqa iş görmək dilərəm, yenə – "Xan babama vararam!" Məni səninlə çox qorxudur, Xanım, bəlli bil. Mən… mən nə yapa billəm ki?! Yuxarıda sən varsan. Sən isə… Burlasız da mən səni, Xanım, nə qədərinə sevirəm, bilirsən. Mən kim idim – bir yumuş oğlan idim. Sən məni bəylərbəyi etmədinmi? Sən mənə ordu vermədinmi? Sən mənə arxa, dirək olmadınmı? Qeyzlənmə, Xan baba, qeyzlənmə. Mətləbə qayıdıram.

Mənə:

Xan babama vararam, – dedi. – İndi gəlsin, Boğazca nə sözü var isə indi desin. Burla Xatun belə söylədi.

– Yox, sabah gəlsin. – Mən dəxi bunun qabağından qaçmadım.

Burla Xatun əvvəl çıldırmışdı, indi qəflətən qəhərləndi:

– Mən… mən burada bircə an da qalmanam. Qoy belə olsun. Qoy gəlsin. Nə sözünüz var isə danışın, iyləşin təklikdə. Salın yada ötən günlərinizi. Sən isə Qazan, verdin qara yellərə aramızda olub keçəni. Satdın məni bir… bir qara keçiyə… Nolar, sən Qazan ol, mən dəxi Burla Xatun ollam. Bayındır Xanın qızı Burla Xatun. Görərsən!

Bunları deyib Burla Xatun otaqdan fırlayıb çıxdı. Mən dönüb qəzəbimi nökərə tökdüm:

– Nə donub qalmışsan?! Qavat oğlu qavat, gəlib mənə təklikdə deyə bilməzdinmi dediklərini? Bu ilan vurmuş Boğazcanı gətir. Gətir gəlsin, kafir qızı kafiri.

Nökər şaşırmış getdi. Mən düşündüm: "Yaxşı, bu qarı, Boğazcanı derəm, nə istir məndən? Bu məgər bilmir ki, bunun casus oğlunun aqibəti

necə ola bilərmiş? Bilmir ki, Oğuzda casusa aman yoxdur, heç ola da bilməz?! Bilir qayət. Bəs onda niyə mənimlə danışmaq istir?! Alış-veriş ki edəməz. Bir səbəb söyləyəməz. Yalvarıb boşuna sısqamaqla işmi aşırmaq olar? Qoy gəlsin. Gəlsin görək nəymiş bunun sözü?!" – Mən belə düşündüm, Xanım.

Boğazca gəldi. İçəri keçdi, öncə ayaqlarıma düşdü, ağladı, bozladı, amma mənim ürəyimi dağlaya bilmədi. Mən sükut etdim, gözlədim bu, bıldır-bıldır göz yaşını töküb nə zaman qurtaracaq.

– Nə istərsən, arvad, niyə gəldin? – Bitirincə mən qəzəbli sordum.

– Ağam Qazan, ayağının altında ölməyə gəlmişəm. Rəhminə sığınmağa gəlmişəm. Gen ətəyinə… – dəxi buna bənzər bir türlü sözlər söylədi.

– Qarı arvad, uzun sözünü qısa eylə. Bilirmisən, sənin oğlun nələr yapdı, nələr etdi? Oğuzun yer-yer casusluğun etdi oğlun. Sən hansı rəhmdən danışırsan? Az qala bircə oğlum Uruz düşmən əlində zəbun olacaq idi, qarıcıq anam düşmən əsirliyinə düşdü. Burla Xatun halalım hələ Şöklü Məlik qavat ilə… Əlqəziyyə, Xanım, mən bu arvada itin sözünü dedim. Məqamın sirri vardır, qadın, – dedim, – məqam rəhm məqamı deyildir. Sən övladının bu gününü, söylə, irəlicədən görmədinmi heç? Oğuzun başına bəlalar gətirdi qavat oğlu qavat…

Biçarə arvad ağlamaqdan şişmiş gözlərini gen açaraq dedi:

– Görmədim, ağam. Bilmədim, bəyim. Amma, Qazan, ümid yerim, pənah yerim bircə sənsən.

– Mənəm? Sən nə dersən qarı arvad? Sən nə dediyinin fərqindəmisən? Ümid yeri mən imişəm… ha-ha-ha…

– Sən imişsən, Qazan. Özün söylədin: məqamın sirri var, – dedin. Mənim də sirrim var. Mən bu sirri düz iyirmi iki il qarnımda saxladım, hamıdan gizlədim.

– Sən səni bilirsən. Mənlik deyil.

– Sənlikdir, Qazan. Sənə indi söylirəm, sənlikdi. Mənim oğlum…

– Sənin oğlun… nə?

– Mənim oğlum casus deyil.

– Pah. Sirrə bax hələ. Bunun oğlu casus deyilmiş… Bəs kim imiş casus? Mən?! – Mən qızdım.

– Qazan, məni unutdunmu?..

– Sus, yavaş!.. – Mən ətrafa boylanıb Boğazcanın sözünü kəsdim.

– Qazan, məni unutdun qayət… Mən bir gözəl-göyçək qız idim.

– Sus, Tanrı eşqinə…

– Mən indi belə qocaldım. Evimizin ardı dərəcik idi. Həyətimizdəki qara köpəyi unutdunmu? Adı Bəraqcuq idi. Bircə sənə hürməz idi… xatırlasana…

– Yavaş, Tanrı eşqinə, yavaş. Nədi sənin sözün? Nəyə gəldin sən? Unutdun-unutmadın… Nə önəmi var ki… Unutmadım elə. Nə olacaq imiş?! Sənin oğlun casusdu ki, casusdu! İstər ağla, istər bozla…

Boğazca qarı susu verib yavaşcadan dedi:

– O sənin oğlundu, Qazan.

– Sənin oğlun casusdu, cəzasını da alacaq. Nə??? Necə??? Hərzə-hərzə nə söylərsən sən? Danışma ya…

– O sənin oğlundu. – Boğazca bir dəxi təkrar elədi.

*(Mən gözaltı Bayındır Xana baxdım, gördüm ki, Xan bu dəfə gülməyini güc ilə saxlayır. Ay səni, qız Fatma, sən nə qədərinə əqilli biri imişsən, – düşündü qayət. Qadir Tanrı sonundan qorusun. Əlbəttə, bu iş burda bu cür bitməyəcək, sonuc gələcəkdir, Boğazcanın könlünə ilham edən kimdir – bilinəcəkdir. O zaman Bayındır Xan qatı qəzəb edəcəkmi, etməyəcəkmi – Tanrı bilir.)*

– Mənim ha?! Nədən mənim olsun oğul?! Sənin adın qırx oynaşlı Boğazca Fatma deyilmiydi?

– Oğul kimdən olduğun ana bilər, Qazan. – Boğazca dedi.

*(Boğazca bu sözü Qazana demişmiydi, yoxsa deməmişmiydi, mən bunu bilmənəm. Amma "ana bilər oğulun kimdən olduğunu" – bunu Fatma doğru söylədi. Ana dəxi bilməyib kim biləcək olurdu ki?..)*

– Sübut elə! – Mən dedim, sonra gedib qapını bir dəxi yoxladım, bərk-bərk qapadım. Eşidən olmasın.

– Qazan, uzun illər mən bu sirri bir kəsə söyləmədim. Sirrimi hamıdan saxladım. Məqamı indi gəldi. İndi derəm. Oğlumuza qıyma, Qazan, etmə, Qazan.

Mən yenə israr etdim. Ürəyimi qara-qura şübhələr gəmirirdi. Dedim:

– Nədən bu çağacan demədin mənə bunu?

– Nə mənası vardı ki?! Dedim, demədim, nə dəyişərdi?! Şücaətli, pəhləvan cüssəli oğul deyildi ki, sala idin yanına, təlim verə idin, öyrədə idin, ava alaydın özünlə, akına aparaydın. Sakit, məzlum biri idi, dindirməsən dinməz idi. Soruşmasan danışmaz idi. Bax onun üzünə, gözünə diqqətlə bax, Qazan bəy. Özünü görəcəksən. Cavanlığını xatırlayacaqsan.

Xanım, mən bu arvada yavaş-yavaş inandım. Boynuma alıram, Xanım. Gəncliyimdə bunun yanına bir ara gedib gəlmiş idim. İndi mənim oğlum varmış. Niyə yalan söyləsin ki?! İndi mən nə edəm gərəkirdi?! Bilməm ki. Mənim suçum nə idi, Qadir Tanrı?! Bu nə bəla idi gəldi qondu mənim başıma?! Bu nə xəncər idi saplandı ürəyimə? İndi mən nə edim?!

– Get, Fatma, çıx get. Sabah, sabah, bəylər məşvərətə yığışacaq. Görüm, nə edirəm. İndi isə get artıq. Amma bax. Bir adama demiş olsan… Bir kimsə bilməsin bunu.

Mən bunları Boğazcaya söylədim, o da "baş üstünə" deyib çıxıb getdi. Mən səxt oldum, Xanım, Qorqudun sözü gəldi, düşdü yadıma. Sən idin, Qorqud, – Qazan Qorquda döndü, – dedin: – "Sonra peşman olmayasan, Qazan. Bu casus məsələsini nahaq qaldırdın." Bəli, Xanım, biz Beyrəyin toruna keçdik. Bilsə idim… bir daş altda, bir daş üstdə! İndi isə. Sabahleyin bəylər məşvərət zamanı nə olacaq, necə olacaq, mən necə bunu aradan çıxarım, buna bəraət verim?! Mən axı nə söylərsəm, Bəkil var, hələ Aruz var, onlar qarşılıq verəcəklər, bəs nə edəlim? Bu türlü düşüncələrlə mən Boğazca ilə təkbətək söhbətdən sonra qaldım. Mən burada sözümü bitirirəm. Suçum varmı, yoxmu, sən bilirsən, ulu Xan. Var isə qanım sənə halaldır. – Qazan yum verdi, daş kimi donub tərpənməz qaldı.

Ortalığa sükut çökdü. Bayındır Xanın kefi kökəldi. Əlin əlinə çaldı, qas-qas güldü, dedi:

– Gör bir, bəylər. Bu Boğazca dediyiniz nə əqilli qadın imiş… Hər bir bəyə varmış, məşvərətdən öncə dan danışmış, "oğul sənindir" hər birinə böylə demiş. Bax bir, sabah Aruz gələcək ya, mən derəm, ona da qayət eyni sözü söyləmişdir. Yarın görəcəksiniz. "Oğul kimdən olduğun ana bilər". Amma nə demiş, oğul, Qorqud, bunu hafizəndə qoru, saxla… gərəyin olacaqdır. Ay səni Boğazca… Hələ bir Aruz gəlsin… görəcəksiniz. Ha… ha… ha…

Xan dedi, güldü, güldü, dedi. Qazan dəxi bir şey anlamasa da yüngüllük duydu. Xan sonra qəflətən ciddiləşdi, üzün Qazana tutub dedi:

– Amma Qazan, bilirmisən, əsl sənin suçun nədir? Sənin əsl suçun o deyildir ki, sən Oğuzun casusunu açıb buraxmısan, o dəxi çıxıb gedib, ilim-ilim itib, yox olmuşdur. Sənin əsl suçunu mən, Qazan, sənə sonda deyəcəyəm. Sabah Aruzla dan danışım, ondan sonra mənim qərarımı həpiniz biləcəksiniz. İndi isə gedin, gedin… Bu boyda saqqallı, yekə-yekə ərləri ha… bir Boğazca ha, amma nasıl da olmuş, Qorqud, oğul, çeçələ barmağına da sarmışdır, demi?

Bayındır Xan yenə mənə gözlərini qıya tutub baxdıqca baxdı. Mən bu baxışa tab gətirəmədim, başımı saldım aşağı, bir kəlmə belə danışmadım, qıpqırmızı çuğundur kimi qızarıb qaldım. Qazan gah Bayındır Xana baxıb durdu, gah da mənə baxıb durdu, amma cəsarət edib o dəxi ağzını açmadı.

Lələ Hüseyn bəy artıq neçəminci gün idi ki, gəlirdi Şahın divanxanasının qapısına, qorçu Rəhim yüzbaşı kəsirdi bunun qabağını, qoymurdu içəri keçməyə. Düzdür, Rəhim yüzbaşı Lələni divanxanaya buraxmasa da, amma ona divanxananın həyətində bir kənarda oturub gözləməsinə də söz demirdi. Hələ Lələyə bir növ xidmət də edirdi, içəridən gedib çaydan, sudan gətirirdi, bəzən də bahəm oturub ordan-burdan söhbət edə-edə bu çaydan içirdilər. Nökərlər bunlar üçün böyük bir xəlini salırdılar Qarağacın altına, mütəkkələri düzürdülər. Oturub gəlib-gedən camaata baxa-baxa keçmişləri yada salır, hərdən-birdən də bu adamlardan tanıdıqlarını müzakirə edirdilər. Rəhim yüzbaşı ağzını açıb Lələni dinlədikcə dinləyir, onun söhbətindən ləzzət alır, hənuz doymurdu. Ürəyində çox istirdi, bu müşərrəf şəxsə hörmət etsin, onun işini düzəltsin, amma ki, ortada Vəzir var idi, yüzbaşı Vəzirsiz bir addım belə ata bilməzdi. Lələ barədə Vəzirə xəbəri də elə Rəhim yüzbaşı özü gətirmişdi:

– Vəzir ağa. Bir kişidi hər gün sabah-sabah gəlir divanxanaya, "Şahı görmək istirəm" deyib oturur, oturur, gün batandan sonra çıxıb gedir. Dalınca adam saldım, karvansarada yatır. Osmanlı tərəfdən gəlib, amma burdan gedənlərdəndir. Çox şey bilir. Şahi-sahibəzzəman qurban olduğumun gəncliyindən çox qərib şeylər danışır. Əyan-əşrəfin hamısını tanır. Ordunu bilir. Səfərlərdən maraqlı hadisələr nəql edir.

– Adı nədir, kimlərdəndir? – deyə Vəzir ağa elə-belə, maraq namına soruşmuşdu.

– Adı Hüseyn bəydi. Kimlərdən olduğun bilmirəm.

– Demir ki, neynir qibleyi-aləmi?

– Deyir, özünə deyəcəyəm. Vacib xəbərim var, deyir. Amma demir kimdəndi.

– Bir öyrən gör, kimdən gətirib xəbəri. Öyrənə bilsən, mənə deyərsən. Axşam namazının vaxtıdır, Şah seyrangahdan qayıtdı yəqin, inşallah, di sən də get, daha işinlə məşğul ol… – Vəzir yüzbaşının dediklərini ciddiyə saymamış, söhbəti xətm eləmişdi.

Sabahısı gün yenə Hüseyn bəy durub gəlir Şahın divanxanasının həyətinə. Rəhim yüzbaşı yenə çıxır bunun qabağına və təklif edir ki, Qarağacın altında otursun, gözləsin. Hüseyn bəyin bu gün bir balaca kəmhövsələ olmasını da Rəhim yüzbaşı hiss eləyir. Oturub ordan-burdan bir az söhbət edəndən sonra Hüseyn bəy Rəhim yüzbaşıdan soruşur:

– Qorçu ağa, sən mənə dürüst de görüm, bu Vəzir ağa mənim Şah hüzuruna çıxmağıma izin vermir, ya nədir?

Rəhim yüzbaşı, sözün düzü, gözləmədiyi sualdan əvvəl-əvvəl çaşıb qalır. Qabağındakı çaydan bir qurtum alıb cavab verir:

– Yox, canım, sən nə fikirdəsən?! Vəzir ağa çox istərdi, bu görüş baş tutsun, amma Şah ki yoxdu, seyrangahdadı, mümkün deyil. Bir də ki…

– Bir də ki, nə?

– Heç. Adını ki söyləmisən, buna sözüm yox, amma kimliyini söyləməmisən. Səni tanımaza-bilməzə Şaha təqdim eləmək də asan iş olmayacaq. Nə deyirsən?

Hüseyn bəy Lələ fikrə gedir. "İndi mən buna açım, kim olduğumu başdan-ayağa deyim, nə bilmək olar, Vəzir məlunu ki, mən tanıram, heç istəməz, Lələ bir daha yoxluqdan peyda olsun, zühur eləsin. Yəqin, yeri indi çox istidir. Bəs mən nə edim?! Deməsəm də ki, sadağa olduğumu bəs nə cürənə görə billəm?! Vallahi ki, qalmışam iki odun arasında naçar…"

– Axı, Vəzir niyə deyə bilməz Şaha ki, elə bir biçara, binəvadı, uzaqdan gəlib sənin qulluğuna baş vursun, ikicə kəlmə də sözü var?! – Hüseyn bəy soruşdu.

– Mən ki bilmənəm, deyər, ya deməz. Mənlik bir iş yoxdur, biləsən. Deyər də, deməz də.

– Desin türk əsirliyindən qaçıb. Çaldıranda döyüşüb əsir düşüb, indi gəlib çıxır.

– Nə bilim vallah?! Sən, yəni, doğrudan, Çaldıranda döyüşmüsən? – Rəhim yüzbaşı maraqla soruşdu.

Lələ, bığları təzə-təzə sifətində yer eləmiş bu oğlanın təəccübünə acı-acı gülümsünüb dedi:

– Vuruşmuşam da, döyüşmüşəm də. Sən o vədə uşaq olardın…

– Hə, mən uşaq idim. Ağam, atamı deyirəm, qorçu idi. Çaldıranda həlak oldu.

– Çaldıran da bir Çaldıran idi…

– Bir danış mənə, sən Allahın. Çox adamdan soruşmuşam, hərə bir cürə nəql eləyir. Sən kimin dəstəsində idin?

Hüseyn bəy Lələ yenə gülümsündü. Üzü-gözü işıqlandı. Deyən, bu uşaq onun dolu ürəyini açıb hər şeyi danışdıracaq. Bircə biləydi hiyləgərlik etmir ki bu?!

– Sənə Vəzir ağa dedi məni danışdırasan?

– Yox, vallah, yox, billah, yox. Mürşidi-kamilimin dini-imanı üçün yox. Özüm istədim. Bilirsən, ağamı heç xatırlamıram, sifəti deyirəm, heç yadıma gəlmir. Amma səsi, elə bil, qulağımdadı…

Gəncin gözləri dolmuşdu. Ta Hüseyn bəy də bu gözlərə baxıb ona inanmışdı. Bu biri tərəfdən də öz ürəyi o qədərinə dolu idi ki, boşalmağa bir bəhanə axtarırdı. Söhbətinə yavaş-yavaş başladı:

– Çaldıran deyirsən… Bəli, haman gün Allah-taalanın bizdən üz döndərdiyi gün idi. Sən heç fil görmüsən?

– Yox, görməmişəm.

– Mən onları ilk dəfə Çaldıranda on il əvvəl gördüm. Topları bağlamışdı osmanlılar fillərin ayağına, səf-səf düzmüşdülər. Gülməyimiz gəlirdi bunlara baxanda. Amma… Nə illah elədik, səflərini poza bilmədik. Bir qiyamət savaş idi, meydan dolu baş idi… Mən kimin dəstəsində idim, soruş-

dun. Bunun cavabını sənə indi verməyəcəyəm. Sonra özün bilərsən. Hələ bir mənə de görüm, sənin ağanın adı nə idi?

– Qurbanəli onbaşı idi.

– Hə… Qurbanəli onbaşı… – Lələ zənlə oğlana baxdı, düşüncəyə daldı, xəyalında tənumənd bayraqdarın qiyafəsi elə o an canlandı, – əsliniz sizin Muğandandı, elə?

Rəhim yüzbaşı çaşdı, bədəninin tükləri biz-biz oldu:

– Elə, ağa, elə. Sən atamı tanırdın? – Oğlanın gözləri işıldadı, nəfəsi təngidi.

– Sənin ağanın ölümünü mən öz gözlərimlə gördüm. Bayraqdar idi. Atından yıxıldı, sinəsindən ox almışdı. Kim nə desə, inanma. Nəfəsi kəsiləndən sonra da bayrağı onun barmaqları arasından qoparıb çıxara bilmədilər, biləsən. Bayraq eləcənə dikinə durub qalmışdı ağanın ölmüş cəsədinin əlində.

Hüseyn bəy Lələnin gözləri süzüldü, "indi qəhərlənərəm, olmaz, heç olmaz, mənə nə oldu?!" deyə düşündü, əlini atıb çay stəkanını aldı əlinə, amma içmədi, eləcənə stəkanı əlində bərk sıxıb yenə fikrə gedib qaldı.

Rəhim yüzbaşı başını dikmişdi yerə. Nəfəs verib almağa da qorxurdu. Qorxurdu ki, bir kəlmə söz desə, nəhayət ki, indi-indi dili açılan, sinəsi sirlərin sərgüzəşti ilə dopdolu bu naməlum, amma doğma şəxsi fikrindən yayındırar. Ürək döyüntüsünü az qala qulağında, gicgahlarında hiss edirdi. Handan-hana Hüseyn bəy fikirdən ayrılıb sözünə davam etdi. Döyüşün ayrı-ayrı səhnələri göz önündə canlandı...

– İrəli, çapın, irəli, qoymayın, sadağa olduğum verdi özünü savaşın isti yerinə… – Qorçubaşı qışqırdı.

– Şahi-mərdan xətrinə, qoymayın, sadağa olduğumun yolunda… Allah-Allah…

– Şah mənəm, Şah mənəm! – Sultanəli bəy Əfşar ortaya girib çığırdı, osmanlılar düşdü bunun dalınca, sadağa olduğum qurtuldu…

– Malbaşoğlu, çıx meydana, çıx ortaya, göstər hünərini, çəkilin, kənara çəkilin… Bah, Şah bir qılınca bu boyda pəhləvanı ikiyə necə böldü?! Ah, eyləməyə də macal tapmadı, əllərini yana açdı, yerə çökdü…

– Hüseyn bəy, Hüseyn bəy!! Lələ dəstəsilə köməyə gəldi, qaçmayın, burdan gəlin, burdan. Lələ, di keç bunlara hücuma. Qır bunları Şahi-Mərdan xətrinə. İrəli!.. Gəlin ha, qızılbaşlar, gəlin dövrəmə, şücaət, şücaət!..

– Lələ, mən… mən…

– Oğlan, qalx, sənə bundan ölüm yoxdu! Bu nədi, bu yara deyil ki…

– Şah hardadı, qurtarın, Şahı qurtarın, sağ cinah sındı, xəbər verin, şeypur səsi, şeypur səsi… geri çəkilin. Geriyə, amma qədəm-qədəm, səf-səf! Səfi pozmayın! Hara, hara, qayıt səfə, məlun…

Hüseyn bəy gözlərini yalnız özünün gördüyü uzaq və məchul bir nöqtədən zorla ayıraraq söhbətini tamamladı:

– Bax, Rəhim yüzbaşı, bu idi Çaldıran. On il keçdi, indiyənəcən bu səslər qulağımdan getmir.

Rəhim yüzbaşı yuxudaymış elə bil, gözü yumulu özü özünə danışmağa başladı:

– Ağamın səsi indi də gəlir qulağıma: "Şahim, şahim… mürşidi-kamilimin yolunda… sağ cinah sındı, şahim, sağ cinah pozuldu. – Şahim, tələs, sol cinah, sol cinah dağıldı, aradan çıxmaq vaxtıdı… gəl, burdan gəl…"

Sonra hər ikisi susdu. Divanxana həyətindən ancaq Qarağacın sıx-sıx bir-birinə yapışıb qarışmış yarpaqlarının arasından keçən ruzgarın zəif səsi eşidildi. Bir də bir arı vızıltısı hardansa dürtdü özünü bu səslərin arasına. Sonra tam sükut çökdü hər bir yerə. Çaldıran vaqeələri hər ikisinin gözündə donub qaldı.

Handan-hana bu iki nəfər özünə gəldi. Rəhim yüzbaşı yenə başıaşağı oturduğu yerdəcə qalmışdı. Hüseyn bəy Lələ əli ilə havada uçan və onun sifətinə həmlə edən arını uzağa qovladı.

Rəhim yüzbaşı Hüseyn bəyin üzünə cəsarət edib baxa bilmirdi. Ona görə ki, yüzbaşı bu şəxsi artıq tanımışdı. Söhbətlərdən, rəvayətlərdən Hüseyn bəy Lələnin kimliyini bilirdisə də onun məhz bu şəxs olduğunu fəqət indicə dərk eləmişdi.

– Lələ, sənə qurban ollam, Şahi-Mərdan xətrinə, məni bağışla, keç günahımdan, – yavaşdan pıçıldadı.

– Kiminləsən, Rəhim yüzbaşı?

– Lələ, sənnənəm. – Rəhim, nəhayət ki, başın qaldırdı, Hüseyn bəyin üzünə baxdı, tez də yenə salladı başını aşağı, durdu ayağa, əmrə müntəzir oldu. – Lələ, sənsən ki varsan. Ta özünü, sən Allahın, gizlətmə. Mən ki səni əvvəldən tanımadım, çün hamı səni ölmüş bilirdi, sən Allahın, məni bağışla…

Lələ bir xeyli susdu. Nəhayət, dilə gəldi:

– Elə mən indiyənəcən özüm özümü ölmüş bilirəm, biləsən. – Lələ daha dözə bilmədi və oğlana açıldı. – Sən də mənə sual edirsən, mən kimin dəstəsində idim…

– Qələt elədim.

– Mən Şahın dəstəsində idim, oğlan, Şahın. – Lələ yanıqlı-yanıqlı dedi.

Gün günortadan keçirdi. Rəhim yüzbaşı daha Lələni həmişəki kimi rahatsız etmirdi. Daha onu tələsdirmirdi və "bəsdi, bu günlük bəsindi, dur get, sabah gələrsən" kimi sözlər daha söyləmirdi. Bir kənara çəkilib dururdu, gendən-genə məhəbbət və heyrətlə Lələni süzdükcə süzürdü. Beynində isə Vəzir ağaya nəyi nə cür deyəcəyini götür-qoy edə-edə qalmışdı. "Yaxşı, tutalım ki, mən Vəzir ağaya dedim bu kimdi, deməyə ki bilmənəm, Vəzir də bildi bunun kim olduğunu. Bunun başını əkməzmi? Hələ bir də gördün, bu işi mənə tapşırdı". Bu fikirdən yüzbaşının ürəyi qısıldı.

Lələ başı ilə Rəhim yüzbaşını yanına çağırdı. Rəhim yüzbaşı tez yaxınlaşdı Lələyə, amma oturmadı, eləcənə ayaqda qaldı.

– Yüzbaşı, indi mən istirəm, səninlə bir məsləhət edəm. Nə deyirsən?

– Buyur, Lələ.

– Mən düz altı aydır iz azdıra-azdıra yol gəlirəm. On il Osmanlı əsirliyində oldum, amma bu altı ayda çəkdiyimi heç orda da çəkmədim. Bu saray ki, bu divanxana ki, mən görürəm, xeyli dəyişibdir. Bir bəndə, bir qorçu, bir eşikağası tanış gəlmədi mənə. Vəzir də ki… bilinməz məchul bir şəxsdir, hələ o zaman… – Lələ sözünü tamamlamadı, mətləbi dəyişdi. – Mən də… özün gördün. Sirrimi hələ ki… faş eləmək istəmirəm. Şahi-Mərdandan bir arzum başımı sadağa olduğum mürşidi-kamilimin ayağının altına qoyub ölməkdir, biləsən. Söylə mənə görüm, bunun üçün mən nə etməliyəm?

Hüseyn bəy Lələ Rəhim yüzbaşıya bunu deyib susdu, gözlərini dikdi yenə haman uzaq məchul nöqtəyə, yüzbaşıdan cavab gözləyib durdu.

Rəhim yüzbaşı, nəhayət, dilə gəlib dedi:

– Lələ, bu Vəziri sən ki, məndən qat-qat yaxşı tanırsan. Mən nə deyə billəm?! Yenə Allah kərim Allahdır. Mən buna bir daha sənin barəndə, əgər izin verərsən, müfəssəl məlumat verim. Bəs görək, bu dəfə nə deyəcəkdir?!

– Bir başqa çıxış yolumuz yoxdur, yəni?

– Bir başqa çıxış yolunu mən görmürəm. Çün şah seyrangahdan dönər-dönməz, ta mən buralarda olmayacağam. Sarayın gecə keşiyinin başına keçirəm. Şah da ki, buraya gələn zaman divanxana həyətinə sən bir məhəllə o tərəfdən də yaxın düşə bilməzsən. İndi bir az məsələlər başqa cürədi.

– Görürəm, görürəm… doğru deyirsən, həm başqa cürədi, həm də başqa cürə deyil, biləsən. Bu qanunun özünü elə mən qoymuşam. Şah olmayanda divanxana həyətinin gözətçiləri Şah gələndə dəyişsinlər. Kim bilir, bu müddətdə kiminlə görüşürlər, kiminlə danışırlar… eh, dünya belə dünyadır, dəyişmir ki, dəyişmir.

– Dəyişmir, Lələ. Sən deyəndi.

– Bəs onda mən başıma haranın külünü töküm?! – Lələ yanıqlı-yanıqlı, elə bil, özü-özünə sual etdi.

– Əgər izin verirsən, mən gedim bir Vəzir ağa ilə danışım, həqiqəti ona ərz eləyim. Vallah, bunun bir başqa yolu yoxdur ki, yoxdur.

– Deyirsən… Nə bilim, bəlkə də sən haqlısan. Get. Danış. De ki, bu onsuz da bir yolunu tapıb Şahla görüşəcək, o zaman… Amma yox, elə demə, elə bilər, təhdid edirəm. Ona belə de. De ki, Lələ deyir, Bəhruzə xanımdan xəbər gətirmişəm, eşidirsən, saxla yadında, elə-belə də söylə. Bəhruzə xanımdan xəbər gətirmişəm de.

– Necə deyirsən, elə də deyərəm. – Rəhim yüzbaşı Iələni arxayın elədi.

Vəzir hələ də qulaqlarına inanmaq istəmirdi, odur ki, Rəhim yüzbaşıdan dübarə sordu:

– Gədə, özü sənə dedi ki, mən Hüseyn bəy Lələyəm?! Özü dedi bunu, yainki sən güman edirsən?

– Özü dedi, Vəzir ağa. Əvvəl-əvvəl mən güman etdim, sonrası özü təsdiq elədi.

– ... təsdiq elədi. Lələ, Lələ... Allahın möcüzələri çox olur, amma beləsi. Gözü ilə görənlər oldu axı bunun həlakını. Şaha da söylədilər...

Vəzir fikrə getdi. Sonra yenə üzünü Rəhim yüzbaşıya tutdu:

– Bəhruzədən də xəbər gətirib dedi? – Soruşdu.

– Bəli, Vəzir ağa, bunu da belə dedi.

– Belə... belə... bəs nə üçün... – Vəzir sözünün dalını gətirmədi.

Rəhim yüzbaşı daha bir kəlmə dinmədi. Vəzir ağa ona baxıb, elə bil, yenə nəsə gözlirdi, amma o bir daha dinmədi.

– Belə. O zaman belə edək. Ona de ki, Vəzir ağa mənim sözümə inanmadı. Hələ o Bəhruzə söhbətinə lap qeyzləndi de. Bu cür yaxşıdı. Amma, de ki, Vəzir ağa özü səninlə görüşmək istir. Sabah divanxanada onu gətirərsən mənim yanıma. Bunu bildin. İndi məni diqqətlə dinlə, yüzbaşı. Əgər bu söhbəti, əgər Lələnin gəlişini, sağ olmasını bir adam bilsə, qanın halal

olacaq. Bu bir dövlət sirridi, agah ol. Özünə də bunu söylərsən. Bir başqa adama sirri açmasın. – Sonra Vəzir laqeyd-laqeyd əlini əlinə sürtdü. – Amma əsl Lələdi, əsl Lələ deyil, heç bunu hələ biz özümüz bilmirik. Özü ki, deməklə deyil. Mən bir görüm onu, görən kimi hər şey mənə əyan olacaq. Di get, necə deyirəm, elə də edərsən…

Rəhim yüzbaşı baş əyib Vəzir ağanın otağından çıxdı. Ondan çox sonra, gecədən xeyli keçmiş Vəzir ağa şamı şamın oduna calayıb işığına baxa-baxa düşünüb qaldı. Şamı söndürüb çarpayıya uzanmazdan əvvəl isə beynindən son keçən fikir bu oldu: "Heç fikir eləməyinə dəyməz. Əlbəttə ki, Lələ Çaldıranda öldü. Bu adam Lələ olmaz, inşallah".

Lələ, Rəhim yüzbaşının dalınca içəri girən təki Vəzir onu tanıdı. Elə bircə yerişindən tanıdı. Hövlnak və biixtiyar mütəkkəyə dirsəklənib oturduğu yerdən ayağa qalxırdı ki, birdən Rəhimə baxıb özünü yığışdırdı, ələ aldı, gözünü yana qaçırdı, bir neçə an vücudu da, fikri-zikri də donub hərəkətsiz qaldı. Lələ otağın ortasında ayaq üstə durub ona baxır, bu dəm beynindən Allah bilir, nələr keçirdi. Nəhayət, Vəzir ağa özünü tamam ələ ala bildi, başı ilə Rəhim yüzbaşıya işarət etdi ki, "sən çıx". Rəhim yüzbaşı baş endirib qapıdan çölə çıxan dəm Vəzir ona dedi:

– Bayırda gözlərsən. Heç kimi içəri buraxma. Mən çağıranda gələrsən.

Rəhim yüzbaşı daha bir söz deməyib çölə çıxdı.

Vəzir yerində oturub qalmışdı. İndi nə eləyəsiydi – bunu bilmirdi. Daha şəkk eləmirdi. Qarşısındakı başqa bir kimsə deyildi, qəddi bükülmüş olsa da, şəstlə dayanmış Hüseyn bəy Lələ idi. Şahın Lələsi idi, Şahın sevimlisi, sirdaşı idi. Vaxt var idi ki, adı çəkiləndə əyan-əşrəf, vəzir-vükarə tük salardı. Səsi bərkdən gələndə gizlənməyə yer axtarardı çoxu. İndi isə. Gözdən uzaq olmuşdu, könüldən iraq. Hamı bunu Çaldıran döyüşündə həlak olmuş bilirdi. İndi budu, dipdiri Vəzirin qabağında belə dayanıb gizli bir

rişxəndlə onu süzür. Vəzir əvvəl-əvvəl istədi, özünü bir yüngülcə tanımazlığa vursun, səsinə laqeydlik qatıb soruşdu:

– Özünü Hüseyn bəy adlandıran şəxs sənsən?

Ortalığa sükut çökdü.

– Niyə dillənmirsən? Biz Hüseyn bəyi ölmüş bilirik. Sən kimsən, kimlərdənsən, məramın nədir, kişi? – Vəzir dübarə soruşdu, özü isə Lələnin üzünə göz qaldırıb baxa bilmirdi.

– Bəli, mənəm özünü Hüseyn bəy Lələ adlandıran o şəxs. Nədi, tanımadın yoxsa? – Lələ ötkəm-ötkəm dilləndi.

– Sənin Hüseyn bəyə… oxşayışın vardır. – Vəzir qalxıb gəldi Lələnin qarşısında durdu, bunlar üzbəüz, göz-gözə bir-birinə baxa-baxa bir müddət durdular.

– Vəzir ağa, görürəm, məni ya tanımadın, ya da tanımaq istəmədin. Elə isə izin ver, yaddaşını təzələyim. Sən bir gənc oğlan idin, o zaman sadağa olduğumun Şirvan səfəri vardı… Sənin ağan gəldi saraya, mənim yanıma. Ağan Uzun Həsənin mirzələrindən olmuşdu. Ərdəbilin Qırxlar məhəlləsindəki evinizdə…

Vəzir daha dözəmmədi, bir az da irəli gəlib Hüseyn bəyi qucaqlamaq istədi, amma nəsə onu saxladı, durdu, məhəbbətlə gendən onu seyr elədi:

– Lələ, Lələ, bəli, sənsən ki varsan. Ürəyimə dammışdı. Dammışdı ki, ölməmisən. Allaha şükürlər olsun. Əyləş, Lələ, gəl, gəl, bura, əyləş. A gədə, yüzbaşı! – Vəzir bayıra səsləndi.

Rəhim yüzbaşı özünü içəri saldı.

– Yüzbaşı, tez ol, deginən bizə mer-meyvə, çay, şərbət gətirsinlər. Tez, tez…

– Baş üstə, ağa, baş üstə. – Rəhim yüzbaşı Vəzirin halından məsələni duydu, əlini gözünə aparıb sevincini gizlətmədən hələ Lələyə bir baş da əyərək tələsik çıxdı.

– Belə, Lələ, Şahi-Mərdan xətrinə danış, danış nə oldu, nə olmadı səninlə? Hamı ki, səni ölmüş bilirdi, bə bu necə oldu, harda idin, haralardan gəldin sən? – Vəzir ağa canıyananlıqla Lələni pəncərəyə yaxın yerdən mütəkkəyə əyləşdirib soruşdu.

– Uzun bir qəziyyədir mənim qəziyyəm. – Lələ yerini rahlayıb sözə başladı. – Mən biçarə, mən bədbəxt niyə, nə cür sağ çıxdım savaşdan, indiyənəcən bilmirəm. Bir də göz yumub açdım ki, əsirlərin arasındayam. Sultan Təbrizdə əsirləri yerbəyer edəndə məni də Trabzonlu Abdulla bəy Mömin adlı birisinə verdi. Əvvəl-əvvəl əziyyətim var idi, yaralarıma baxan yox idi. Sonralar bildilər ki, mən kiməm, daha çox əziyyət vermədilər, yaramla həkimlər məşğul oldu, amma on il nəzarətdə oldum, Abdulla bəy Mömінin yazı-pozu işlərinə baxdım, kitabxanasını səliqəyə saldım. Bir il olar, ya olmaz, bu öldü, məni də ta saxlamadılar, buraxdılar, çün vəsiyyət etmişdi, mənə azadlıq vermişdi, buraxdılar, hara istərsən get, dedilər. Mən də getdim. Mən gərək Çaldıranda öləydim, Vəzir ağa. Niyə ölmədim mən, niyə sağ qaldım, bilmirəm.

Nökər meyvə, şərbət gətirib düzdü mizin üstünə, çıxdı. Vəzir nökər çıxandan sonra şərbətdən götürüb tökdü əvvəlcə Hüseyn bəyin fincanına, sonra da öz fincanına: "Buyur, məşqulat elə", – dedi. Hüseyn bəy öz fikrində idi, elə bil, xəyalı uçub-uçub uzaqlara getmişdi. Elə fikirli-fikirli də götürüb şərbətdən bir-iki qurtum içdi, sözünü belə tamamladı:

– ...indi sənin də köməkliyinlə istirəm, sadağa olduğumun hüzuruna yetişəm, başımı qoyam ayaqlarının altına, ondan günahımın əfvini diləyəm... Qanımı töksə, inan, məndən xoşbəxt bir insan olmaz bu dünyada...

Vəzir Lələyə diqqət ilə qulaq asır, hərdən başını tərpədir, hərdən də sözünə "bəli, bəli, inşallah" deyirdi.

– İnşallah, Lələ. Amma qanını niyə töksün ki?! Zülqədər o vaxt xain çıxdı, yəqin, bilərsən. Sən ki xain çıxmadın. Sənin ki, şücaətin aləmə məruf-dur. Bilsən, Şahımız nə xiffət çəkdi səndən sonra. Bir bilsən, Çaldıranın acısı canını necə üzdü, ruhunu necə incitdi. Hələ Bəhruzə xanımın hicranı. Çox əlləşdik, çox xəbərlər göndərdik Osmanlıya, çifaidə... Sən deyəsən, ondan nəsə xəbər gətirib gəlmisən, oğlan dedi, eləmi?!

Lələ dodağını dişlədi. Bəli, məlum oldu. Vəzirin onunla görüşməsinin əsas səbəbi Bəhruzə xanımdan xəbər gətirməsidir. Olsun. Təki Şahla onun görüşünə maneçilik qatmasın. İndi bütün işlər nə edəsən ki, bunun əlindədi. Uydurub nəsə demək gərəkdir.

– Vəzir ağa, bəli, bir çeşid xəbərlər mənim varımdır. Görüşəndə Şahla, bahəm söhbət edərik, inşallah.

– Əlbəttə, əlbəttə, Lələ. – Vəzir tələsik təsdiq elədi. – Şahımız seyrangahdadı. Bu gün, sabah geri dönər. Geri dönən kimi də sənin barəndə xəbəri özüm ona çatdıraram, inşallah.

– O zaman…

– Bəli, bəli, sən get, gəl divanxanaya. Mən göstəriş verrəm, xidmətində durallar.

– Sağ ol. – Lələ başa düşdü ki, Vəzir ta söhbəti uzatmaq niyyətində deyil, durdu ayağa. Vəzir də onun kimi durdu ayağa, Lələni qapıya qədər ötürdü, Lələ çıxarkən, Rəhim yüzbaşı ki qapının o tərəfdən ağzında durmuşdu, Vəzir ağa ona dedi:

– Yüzbaşı, qonağımızı ötür, özün gəl bura. Bax, nə zaman divanxanaya gəldi, tapşırıq ver, xidmətində dursunlar. Özün isə tez ol, qayıt gəl bura.

Rəhim yüzbaşı Lələni divanxananın həyətindən çıxarıb küçəyə ötürəndə “sabah gələssən, Lələ?” soruşdu. Lələ cavabında “gələcəyəm” dedi.

Rəhim yüzbaşı geri Vəzirin yanına qayıdanda gördü ki, Vəzirin halı pəjmürdə, qanı bərk qaradı. Vəzir onu çox soyuq qarşıladı.

– Qapını dalınca bərk-bərk bağla, gəl otur. – Vəzir buyurdu.

Rəhim yüzbaşı qapını səylə bağlayıb gəldi Vəzir ağanın qabağında çöməlib oturdu, sözünə müntəzir oldu. Vəzir əlindəki təsbehin daşlarını bir-bir, özü də xeyli yavaşdan çevirdikcə çevirir, sözünə başlamağa da ki, tələsmirdi. Nəhayət …

*Bu yerdə Əlyazmanı oxumaq yenə də çətinləşir. Lələni sarayda nə gözləyir – bunu demək çətindir. Canından çox sevdiyi Şahla görüşə o nə üçün belə can atır – bunu ancaq pərvanənin özünü oda çırpmağı ilə izah eləmək olar. Şairlər deyir, bu, eşqin gücündən belə olur. Kim bilir?! Vəzir burda hansı oyunu oynayır?! Əlbəttə, duymaq çətin deyil ki, Lələnin yenidən Saraya qayıtması, hələ ola bilsin ki,*

*hakimiyyət zirvəsində öz əvvəlki yerini bərqərar eləməsi Vəziri qane etməyəcəkdi. Amma atası ilə bağlı Vəzirin yadına saldığı məqam da Lələnin dilindən nahaq çıxmamışdı. Vəzir nə üçün isə Lələyə çox bərk borclu idi və Lələnin balaca bir işarəsi kifayət oldu ki, bir az yuxarıda təsvir olunan təkbətək görüşləri zamanı Vəzir Lələni o saat "tanısın". Bir az sonrakı hadisələr isə çox maraqlı bir məsələnin də üstündən sirr pərdəsini çəkib açır. Şaha Lələ barədə məlumat verən Vəzir, belə anlaşılır ki, Şahın da sirrindən xəbəri varmış...*

…Şah üzünü çöndərib pəncərədən arxa baxçaya baxmağına davam edirdi, arxası da Vəzirə idi. Vəzir susurdu, düşünüb qalmışdı, bilmirdi, nə tədbir qılsın, Şaha nə məsləhət versin. Şah dübarə soruşdu:

– Yaxşı, bə niyə susub durmusan? İndi bu Lələ ilə nə edək?

Bu dəfə Şahın səsində, adətən, ona yad olan bir sərtlik də var idi. Özü də bu sərtliyin Lələyə heç dəxli yox idi, daha çox Vəzirə, onun acizliyinə dəxli var idi. Vəzir bunu duydu və biixtiyar səssizcə bir "ah" çəkdi.

– Mən nə edə bilərdim, qibleyi-aləm?! Bəhruzənin adını işə verməklə məni aldatdı…

– Yaxşı, yaxşı, bu Bəhruzə söhbətini qurtardıq. Tədbir qıl. Yoxsa… Bu gəlib məni tapsa…

– Heç tapa bilməz. Nə cür tapacaq ki? Deyirəm, bəlkə…

– Yox, Vəzir, onun haqq-sayı mənim boynumda böyükdür. Bu heç tədbir deyil. Tədbir qıl, tədbir…

– Düşünüb daşınıram, mürşidi-kamil…

– Lələ… Lələ… Heç inanmağım gəlmir bunun sağ qalmağına. Gözü ilə görənlər olmuşdu axı, deyirdilər axı atdan araya salıb yıxdılar yerə, daraşdılar canına, bə bu nə təhər oldu?.. Mənə, yadımdadı deyərdi, şətrənci

öyrədəndə deyərdi, bax, gör taxtada boş yer varmı, ora dürt ləşkəri, ordan başla hücumu… – Şahın gözləri keçmiş günlərin xiffəti ilə doldu.

Vəzir bunu duydu, məsləhətini verdi:

– Bu mənə bir şey deməyəcəkdir. Mənə agah oldu. Bu desə yenə sənə bəzi şeylər söyləyəcəkdir. Nə olar, qoy gəlsin, görək nə deyir, bəlkə elə, doğrudan da, bir xəbər gətirib… – Əgər də ki yalan deyirmiş, sadağa olduğum icazə verər, bir yolunu taparıq...

– Əvvəl-axır görüşməsək olmayacaq, doğru deyirsən. – Şah sözünü dedi. – Amma Bəhruzədən ki, deyir xəbər gətirmişdir, bu xəbər mənə lazımdır?! Bəlkə bu xəbər sənə lazımdır?!

– Hər halda, şahim, camaat var, saray var, bilsələr ki, Şah niyarançılığını saxlayıbdır, düzgün olar…

– Hm. İndi nə zaman gətirirsən onu yanıma?

– Demişəm ki, Şah seyrangahdadı, qoy gəlsin, sonra. Elə istirsən bu gün.

– Olsun! – Şah qətiyyətlə dedi. – Bu gündüsə bu gün olsun.

– Amma, təklikdə yox, biləsən, duyuq düşər, təklikdə heç olmaz onunla görüşmək.

– Yaxşı, gedək, namazın vaxtı çatdı, inşallah. Namazdan sonra gələrsiz. Təklikdə, ya qeyri-təklikdə, nə fərqi varmış ki…

Şah çıxdı, Vəzir də arxasınca. Şahın ürəyində bir narahatlıq var idi. Bəlkə də bu sabah Taclı Xanım onu divanxanaya buraxmaq istəmirdi, onun narahatçılığı idi. Yadına saldı sabah-sabah Taclı Xanımla olan söhbətini, ürəyi yenə qısıldı.

…Taclı xanım sabah tezdən onun yataq otağına daxil olanda gün artıq göy üzündə öz yerini tutmuşdu.

Şah oyansa da yatağında yerdəmi alırdı, qalxmağa tələsmirdi. Taclı xanım yatağa yaxınlaşdı, dedi:

– Dur, şahim, qalx daha. Gör günəş hardadı?! Bir loxma yemək ye, sonra yenə yatarsan.

– Taclı xanım, sənsən? – Şah yerindəcə gərnəşib sevimli zövcəsini yarıyuxulu tərzdə süzdü.

– Mənəm, qurban olduğum, mənəm, durursan, durmursan? Tez dur, yeməyini ye, ondan sonra neynirsən elə. Deyim, gətirsinlər bura?!

– Yox, hələ bir dayan. Sən niyə səhər obaşdandan… belə birtəhər dəyirsən gözümə?!

– Heç…

– Yenə olsun, söylə. – Şah yastığa dirsəkləndi, yuxusu tamam qaçdı. Hiss elədi ki, Taclı xanım həmişəki Taclı xanım deyil, nəsə sözlü adama oxşayır, nədisə pəjmürdədi. – Nolub sənə? – Şah soruşdu.

Əslinə qalsa, Şah özü də gecəni xeyli narahat yatmışdı. Yuxusu girirdi gözünə, kəsilirdi, davam edirdi, sonra yenə qırılırdı. Yuxudaca göz bəbəkləri sürəkli ora-bura gəzirdi, elə bil, hansısa vaqeəni seyr edirdi, hələ arada bir hövlnak oyandığı da oldu, durub bir su da içdi, sonra yenə başını yastığa atdı. "Bəs Taclı xanıma nə olmuşdur?" – Şah özünü unudub zövcəsinin halına qaldı. Narahatlığı xeyli artdı.

– Şahim, qurban olduğum, mən bu gecə bir pis yuxu gördüm, bir pis yuxu gördüm…

Şahın marağı güc gəldi. "Qadınlar daha həssas olurlar" düşündü və dedi:

– Danış, görüm hələ. Nə yuxu idi gördüyün?!

Taclı xanımın gözləri alacalandı, elə bil, o gördüyü yuxunu təzədən görməyə başladı. Şahın səbri dözmədi:

– Səninləyəm, noldun sən?!

– Yuxuda gördüm ki, – Taclı xanım gözünü yana qaçırıb titrək səslə danışmağa başladı, – gördüm ki… sən məni atmısan. Çıxıb getmisən uzaqlara, məni də tək qoymusan. Göylərin yeddinci qatından səsin gəlir, məni çağırırsan. Deyirsən ki, neynirsən sən orda, niyə qalmısan sən orda?! Gəl, gəl bura, bilsən buralar nə qədərinə gözəldir. Hamı səni sevənlər burdadı – deyirsən. Mən soruşuram: niyə məni atıb getdin, sevdiyim, qurban olduğum? Sən deyirsən: Şahi-Mərdan xətrinə, burax oraları, nə görmüsən axı sən oralarda, bizim yerimiz burada, Şahi-Mərdanın yanındadı, gəl… gəl… Hövlnak yuxudan ayıldım. Bu gün getmə heç yana, nolar?! Qal elə burda, gözümün qabağında. İzin ver, özüm sənin xidmətində durum.

“O da belə demişdi: Hamı səni sevənlər burdadı. Onun da qulağına səs gəlmişdi. İndi də ordan Taclını səsləyir yanına”. – Şah beynindən keçirdiyi bu fikirlərdən özü də az qala səksəndi. Taclı xanım bunu duymadı, çünki hələ də, amma artıq yavaş səslə, özü-özünə pıçıldayırdı:

– Allah, Allah, iraq elə... Şahi-Mərdan xətrinə, iraq elə... Lütfünü bizdən əsirgəmə birliyin naminə...

– Daha nə gördün?

– Bir də bunu gördüm ki, sən elə hey məndən qaçırsan. Heç kim səni saxlaya bilmir. Elə hey qaçırsan. Sən həm mənimləsən, həm də mənimlə deyilsən. Həm mənimkisən, həm də mənimki deyilsən... Ürəyim az qala yerindən çıxacaqdı.

– Sonra, sonra nə gördün? – Şah hiss elədi ki, nəfəsi təngiyir.

– Allah, iraq elə. Daha heç nə görmədim. Getmə, nolar, bu gün getmə divanxanaya. İşlər qaçmır ki. Məmləkət dağılmadı ki. Bu gün mənə şeir oxumayacaqsan? Gəl bu gün şeir məclisi quraq.

– Şeir zamanı deyil. Vacib işlər çıxdı ortaya. Əlbəttə, getməliyəm. – Şah əsəbi dedi.

– Şahim, gözümün işığı. Ürəyimə qara-qura fikirlər girir. Sənin başında bir iş vardır. Rəngi-rufuna hələ bir bax... Çox ov, ov dedin. Bu ov, bu seyrangah düşmədi sənə. Heç hara buraxmanam. Getmə heç hara. Gəl bu gün heç hara getmə, nolar?! Sən axı... Sən axı dinin, axı məmləkətin dirəyisən. Yaxşı, yuxumda bir də bunu gördüm, şahim, qoy deyim sənə. Gördüm ki, qara-qara buludlar ayın qabağını tutur, qara-qara quzğunlar göydə qanad açıb uçuşur, bu yuxu bir pis yuxudur, bir pis yuxudur... Bu gün heç hara getmə. Getmə, nolar, getmə...

Taclı xanım danışıb-danışıb ağladı. Şah bunun ağlamağına heç fikir vermədi. Yataqdan durdu:

– Çəkil. Əlbəttə, gərəkdir gedəm. Axşam görüşərik, inşallah. Axşam qayıdanda sənə yeni yazdığım şeiri oxuyacağam. – Şah danışa-danışa geyinməyə başladı.

– İndi oxu, nolar, indi... – Taclı xanım gözündən yağış kimi yaş axıda-axıda yalvardı.

– Yox. Axşamı gözlə. Qayıdım, sonra. Sonra. Qoy bir qayıdım…

Taclı xanım birdən ağlamağını kəsdi, ikiəlli qucaqlayıb Şahın dizlərini, yerə sərildi:

– Qoymanam. Öldür məni, qoymanam.

– Çəkil, qız! – Şah onun əllərini ayaqlarından açıb bir tərəfə itələdi, qapıya tərəf yeridi, – necə dedin sən, hamı səni sevənlər burdadı?! Bəli, əlbəttə, hamı məni sevənlər ordadı, inşallah… – deyə-deyə qapıdan çıxdı və Taclı xanımın ağlamaq səsini qulaqlarında divanxanaya qədər özü ilə apardı.

… Nur daşına çatanda gecədən bir xeyli keçmişdi. Ay öz yolunu göy üzündə az qala idi tamamlasın. Ürəyim ağzımdan çıxmaq istirdi. Bayındır xanın yanından bura qədər birbaşa dayanmadan, durmadan at çapıb gəldim. Xandan izin aldım, Qılbaş mənə tövlədən bir yüyrək şahbaz at seçdi.

– Nur daşı, ey daşların gözəli, ey daşların əqillisi. Sənsiz qalalı neçə gün oldu, biləmədim. Amma sənsiz mən dəxi dözəmədim. Sabah nolacaq, nolmayacaq – mən bilmənəm, Tanrı bilər, sən bilərsən… Bayındır xan ola ki, mənə qatı qəzəb etsin. Qəziyyəni bildikdən sonra qəzəb etməyib də nə edəcəkmiş?! Bircə sən bilirsən, nə etdimsə, Oğuz üçün etdim, Oğuzun gələcəyi üçün etdim. Xanın könlünə ilham ver, şəfqət damarın işlət, məhəbbəti bizlərdən yan keçməsin, qadir Tanrıya şükürlər olsun…

Mən bunları deyə-deyə Nur daşını qucaqladım, elə yanındaca yerə çökdüm, qaldım. Bir xeyli zaman keçdi, mənim gözlərimə uyqu doldu. O qədərinə yorğun idim ki, heç bilmədim nə zaman uyquya getdim…

*Qorqudun hekayəti burda bir daha qırılır və əslində, bəlkə də qırılmır, çünki sonrakı mətn arada hər hansı boşluq olub olmamasını müəyyən etməyə imkan vermir. Daha doğru olardı ki, belə deyək: bu*

*boşluq ola da bilər, olmaya da bilər. Olarsa itirilən hissə Qorqudun düşüncələrilə bağlı hissədir, Əlyazmanın əsas süjet və informasiya qatına dəxli yoxdur. O zaman sonrakı hissə əvvəlkinin təbii davamı kimi görünməsə də, məntiqi davamı kimi özünü göstərir – deyə bilərik.*

*Oxunmayan səhifələrin üstündə qəribə-qəribə cızıqlar da seçilməyə başladı. Bu cızıqlar, diqqətlə baxan zaman əcayib şəkillərə oxşadı. Beləcə, göydə buludlara baxıb onları cürbəcür canlılara oxşatmaq olur. Cızıqların biri diqqətimi daha çox çəkdi. Cızıq gəlib-gəlib siluetə dönürdü, amma kimin silueti idi – oxşadırdım, tapa bilmirdim. Nədənsə, Şərqşünas qız gəlib durdu gözümün qabağında, bir xeyli çəkilib bir yana getmədi. Sonra gözümü yumub açanda o cizgini, o xətti itirdim…*

…sabah-sabah hələ Xan həyətinə girməmiş xeyli uzaqdan qələbəliyi mən gördüm. Atlılar atdan enir, əlini-üzünü yuyan kim, otluğa oturan kim, qaravaşların əlindən su, ayran alıb içən kim… Anladım. Aruz gəlmişdi. Özü də tək, yaxud bir-iki naiblə deyil, böyük bir dəstə ilə gəlmişdi. Dış Oğuz bəylərindən Əmən gəlmişdi, Dəli Dondar gəlmişdi, Dəli Qarcar gəlmişdi, Alp Rüstəm gəlmişdi, daha kimlər, kimlər gəlmişdi. Mən yetişib bunlara, atdan endim, salam verdim, salam aldım. Aruz Qoca məni görcək, yaxlaşdı, əlimdən tutdu, məni bir kənara çəkdi:

– Qorqud, əsənmisən, eyimisən? – sordu, sonra pıçıltıya keçdi. – Bilirmisən, bilməzmisən, Xan bizi niyə çağırdı, yoxsa akınmı var? – dedi, sordu.

– Aruz, akın söhbəti yoxdur. Xanın sorusu var ola ki. Sənə soracaq. Bunlar hələ niyə gəldilər? – Mən bəylərə işarət etdim.

Qılbaş o tərəfdən bizə baxırdı. Qayət, mənim artıq-əskik danışmamdan ehtiyat etdi. O dəxi bizə yaxlaşdı, mənim son sözlərimi eşitmişdi ola, dedi:

– Həpsi xoş gəldi, Qorqud, heç bir narahatlığımız yox. Aruz, bəylərə de, yol gəldilər, boylə buyursunlar, onları hələ bir ağırlayalım, qarınları acıxdı qayət?

Bəylər Qılbaşla həyətin o biri tərəfinə taxta törənliyə keçdilər. Nökərlər biri gəldi, biri getdi. Bolluca yemə-içmə gətirdilər. Bunlar yedilər, içdilər. Qılbaş yemə zamanı mənimlə Aruza çönüb o birilər eşitməsin deyə yavaşdan dedi:

– Di, biz gedəlim Xana. Yavaş-yavaş duralım, bəylər yemə-içmələrini kəsməsinlər, duyuq düşməsinlər.

Aruz, mən, Qılbaş ehmalca həyətin ortasına çıxıb Xan otağına sarı yollandıq.

– Siz gözləyin burda, mən bu saat, Xana bir xəbər verim. – Qılbaş otağa keçdi, mən və Aruz qaldıq qapı ağzında ikimiz.

– Qorqud, mənim heç bu işdən gözüm su içmədi. – Aruz Qoca fikirli-fikirli mənə baxdı, dedi.

– Nə oldu ya sənə? Xan hüzuruna heçmi çağrılmadın? Sorğu-sual, ya məsləhət etmədilərmi sənlə? Bir şey yox, nahaqdan başına qara-qura fikirlər toparlama, Aruz. – Mən dedim. Bundan başqa bilmədim deyəcəyimi.

Nə yaxşı ki, bu ara Qılbaş çıxdı, ikimizi də içəri çağırdı. Biz Xan otağına gəlib girdik. Mən Bayındır Xanı az qala idi tanımayacaqdım. Baxdım, baxdım, qadir Tanrı, bu dünənki Bayındır Xan idi, yoxsa deyildi?! Bayındır Xan qızıl libasını geymiş idi, uca taxtına oturmuş idi, gözləri parlar, qaməti şax, vüqarlı, bir gecəyə həpimizdən cavan olmuşdu.

Aruz Qoca diz çökdü. Dizin-dizin Bayındır Xana sarı süründü. Bayındır Xan diqqətlə Aruza göz qoyurdu. Hər hərəkətini izləyirdi. Mən dəxi baş endirib tez öz yerimə keçdim, əyləşdim. Aruz Bayındır Xana yaxlaşdı, amma yenə də ayağa durmadı. Elə yerindəcə başın əyib aşağıdan yuxarı dedi:

– Şövkətli Bayındır Xan. Xanlar xanı, Qalın Oğuzun güvənci. Məni çağırdın, gəldim. Nə əmrin, nə buyruğun var isə mən də, tamam Dış Oğuz bəyləri də biz həpimiz sənin yolunda ölüncə qılınc çalmağa hazırız. – Aruz

bunları söylədi və başını bir dəxi endirib Bayındır Xanın sözünü gözlədi. Xan kiçik bir sükut edib sonra sözünə belə başladı:

– Aruz, xoş gəldin, səfa gətirdin. Bəylər də xoş gəldilər.

– Bəylər əlini öpməyə gəldilər, Xanım. – Aruz Qoca dilləndi.

– Sağ olsunlar, əsən olsunlar. Mənim salamımı onlara yetirin. Yesinlər, içsinlər, xoş keçsinlər. Aruz, səni niyə çağırdım, bilirmisən?! – Bayındır Xan mütəkkəyə dirsəklənib sordu.

– Yox, bilmirəm, demədilər, Xanım. – Aruz cavab verdi.

– Oğuzda bir iş oldu. Xəbər mənə çatdı. Mən bu hadisədən heç xoşlanmadım. Sənə dəxi bunun bir tərəfi dəyir. Sorum vardır sənə, anın için çağırdım, biləsən.

– Bu iş nə işdir, Xanım? – Aruz Qoca başını qaldırmadan sordu.

– İndi biləcəksən, tələsmə. Keç, keç bu tərəfə, – Bayındır Xan əlilə ona yer göstərdi, – əyləş hələ orada. Qılbaş, bəylər rahatlıq etdilərmi?

– Etdilər, yeyirlər, içirlər…

– Gözəl. Otur, Qılbaş, sən də öz yerində otur. – Bayındır Xan dedi.

Qılbaş keçib Aruz Qocanın arxasında dizi üstə çöməlib oturdu. Ondan qabaqda Aruz bardaş qurdu. Bayındır Xan mənə ötəri bir nəzər salıb yenə sözünə davam etdi:

– Belə. İndi, Aruz, dinlə məni. Mənə xəbər ilətdilər. Oğuzda casus varmış, dedilər. Duyurmusan, Oğuzda casus! Doğru dedilər. Qazan ava vardı, casus casusladı. Bəkil ayağını sındırdı, yenə casus casusladı. Beyrək həbsə girdi – casusun işi idi. Bu casusun əməlinə Qalın Oğuz cavab verdi. Buna böyük cəza verməmiz gərəkirdi. Bə nə oldu?! Casus bəlli – tutuldu, Qazanın zindanına salındı. Bəylər, sən dəxi daxil, məşvərətə yığıldınız. Amma nə etdiniz?! "Günahı yoxdur" dediniz. Buraxdınız, çıxdı getdi. Böylə iş olurmu, Aruz, söylərmisən?! Oğuza görk o casusu şaqqa-şaqqa doğramaq, para-para etmək gərəkirdi, ta bir də Oğuzda bir kişi bu əyri yola düşməsin, demi?! Amma etmədiniz. İndi mən səni dinləmək istirəm. Sən özün də "casusu anasına verin, çıxıb getsin" demisənmi o məşvərətdə, ya bəlkə bir başqa cür olmuşdur bu qəziyyə?! Sən nə dersən, Aruz?

Aruz Qoca əqilli birisi idi, artıq mətləbi duymuşdu. Bayındır Xan sözünü bitirdikdən sonra bir qədər gözləyib o dəxi belə dedi:

– Bayındır Xan. Bu casus qəziyyəsi bir uzun qəziyyədir. Mən nə üçün "günahı yoxdur" demişəm, onu sənə söyləyim. Qazanla Beyrəyin qurğusu idi bu casus məsələsi, biləsən. Hədəf, əslində, mən idim. Mənə dəxi İç Oğuzdan xəbər ilətdilər, "casus varmış, o casusun ipi Aruzun əlindədir, Qazan bunu belə deyib danışır, bilginən" dedilər. Xanım, bu yaşıma çatdım, Dış Oğuzda sən bilirsən, mənim sözümə qarşı söz deyən bir kişi olmadı, bütün akınlarda mən can ilə, baş ilə var oldum, hərbi səfərlərə göndərdin, getdim, Qazanın əsirliyi zamanı Dış Oğuzun altını üstünə vurdum, bir böyük ordu düzəltdim, mən yetişdim Qara Məliyin pusquçularını mən pərən-pərən etdim. Mənə noldu ki, casus saxlayım, yer-yer Oğuzu düşmənə casuslayım?! Xanım, bu bir gülməli söhbətdir, heç səni bununla yormaq belə istəmirəm. Mən sənə başqa mətləblərdən söz söyləyim, sən dinlə. Qazan mənə, biləsən, düşmən kəsilib. Mən onun dayısı ola-ola məni saymaz, oğlanlarımı gözü götürməz, hələ bu azmış, başqa Dış Oğuz bəylərinin də sözünə qulaq verməz. Bu, bir uzun qəziyyədir, Xanım. Bunu artıq Oğuzda hər bir kişi bildi. Anın üçün də Qazan dediyi hər nə isə mən ona qarşıyam. Beyrək hələ kimdir?! Onu mən heç tanımam. Bizdən qız almışdır, bilirsən qayət, Baybecanın qızı Banıçiçək bundadır, amma Qazanın haqlı-haqsız heç ayağını verməz. Bu casus xəbərini də o ilətmişdir Qazana. Düşünmüşlər, daşınmışlar, nə yapalım, necə yapalım, Bayındır Xanın uca nəzərindən Aruzu yerə endirəlim?! Casusu ona bağlayalım. Xan inanar, Aruza qatı qəzəb edər, Dış Oğuzu İç Oğuza qatarıq…

Bayındır Xan bu yerdə mənə bir dəxi nəzər yetirdi ki, görsün yazıram, ya yazmıram. Gördü ki, yazıram, Aruz Qocanın sözünü əlini yuxarı qaldırıb kəsdi. Bayındır Xan sərt bir səslə dedi:

– Aruz! Dedin ki, Qazanla sənin qəziyyən bir başqa qəziyyədir. O nə qəziyyədir elə, söylərmisən? Maraq etdim.

Aruz yerini bir dəxi rahatladı, o dəxi gözucu mənə baxdı, mənim yazı yazmağımı ilk dəfə idi görürdü, maraq etdi, amma heç bir söz belə demədi, təzədən üzünü Bayındır Xana çöndərdi:

– Bayındır Xan, – Aruz dedi. – Bunun əsl səbəbini mən dəxi bilmirəm. Suçum nə, günahım nədir? Bunu bir mənə söyləyəydilər. Amma, izninlə, mən sənə bildiyimi nəql eyləyim, sonucunu özün çıxar.

– Buyur, Aruz, xoş ola. – Bayındır Xan ona ilham verdi.

*(Aruz çox-çox uzaqlardan başladı. Qazanın uşaqlığı, gəncliyi, ilk akına getməsi, evlənməsi… həpsi mətləbləri bircə-bircə dilə gətirdi. Sonradan Bayındır Xan Aruza belə bir məsləhət verdi: bu sözlərin həpsinə heç bir ehtiyac yoxdur, çünki casusa dəxli yoxdular. Qorqud, sən, – Bayındır Xan mənə dedi, – ancaq gərəki olan mətləbləri saxla, o biriləri yazıdan çıxar, at. Mən dəxi Bayındır Xan nə cür dedisə, öylə etdim. Aruz Qocanın hekayəti o səbəbdən bütöv qalmadı.)*

…Aruz dedi:

– Bayındır Xan! Bilirmisən, Qazan mənə kin saxladığına səbəb nədir?

– Yox, bilmirəm. – Bayındır Xan cavab verdi.

– Səbəb oğlum Basatın Təkgözü yenməsidir, bəlli bilgil.

– Öyləmi? – Bayındır Xan gözlərini bərəldib bir tövr təəccüb etdi ki, mən dəxi onun bu məsələdən bixəbər olmasına inandım.

– Bəli, ya. İnan mənə. Səbəb Basatdır. Ya, bu Basat yaman bir işmi tutdu? Deyəcəksən, yox. Bütün Qalın Oğuzu Basat qarı düşmən əlindən xilas etmədimi?!

– Etdi, Aruz, onları bilirik, sən mətləbə qayıt. – Bayındır Xan mülayimcə dedi.

– Mən mətləbin düz içindəyəm, Xan. – Aruz Qoca dirəndi. – Dinlə məni, o zaman hər şey sənin üçün əyan olacaqdır. Casus da nə məsələdir, Qazan da, Beyrək də nə üçün Dış Oğuza dirsək görsədirlər – həpsi, həpsini sənə söyləyim.

Mən anladım ki, bu hekayət Basatsız heç cür ötüşməyəcəkdir, odur ki, səbrimi basdım. Baxdım, gördüm, Bayındır Xan da çarəsiz, bu da səbrini basdı və hər birimiz məcbur Aruzun hekayətinə qulaq asmağa durduq.

– Xanım, bilirsən ki, – Aruz Qoca sözünə başladı, – Təkgöz öz bədheybət ləşkəri ilə gəlib Dış Oğuzdan axıb keçən Selləmə çayının ağzını

kəsib oturmuş idi. Ləşkərin sayı yox, hesabı yox idi. Hardan gəlib bu yerlərə çıxmış idi, bilən yox idi. Dilləri dilimizə bənzəmirdi, dinləri dinimizə. Adam göndərdim, öncə nə məramla gəldiklərini öyrənəlim dedim, Alp Rüstəmə naibləri qoşdum, getdilər. Həm də bunlara buyruğum oldu, bir baxın, dedim, görün nə qədərdilər, döyüş qaydaları nə cürdü, silah-sursatları çoxmudur, azmıdır… Qərəz, bunlar getdilər. Geri döndüyündə Alp Rüstəm gəldi, mənə bunları danışdı:

– Bəyim, – Alp Rüstəm dedi. – Bunlar bir bədheybət tayfadılar ki, taylarını, bərabərlərini mən heç yerdə görmədim.

– Ya, bəs başçıları ilə görüşdünüzmü? – Mən sordum.

– Görüşdük, bəyim. O dəxi bizi yanına çağırdı. Bizlərə marağı varmış, məni çox sorğu-suala tutdu. – Alp Rüstəm cavab verdi.

– Məqsədləri nə imiş? Çoxmu buralarda qalacaq imişlər? – Mən sordum.

– Bəyim, Selləmənin ağzını ləşkər tutmaq istir, yekə-yekə daşları, qayaları parça-parça edib yığıblar çayın qırağına. İşarət gözlirlər. Aruz bəy, bunlar bizim suyumuzu kəsəcəklər.

– Öylə işmi olur?! Bu cür də savaş edərlərmi? Ər yigidə yakışarmı?! – Mən bunu deyib bəyləri məşvərətə çağırdım. Qorqudu da çağırdım, o dəxi gəldi.

Məşvərəti mən açdım:

– Bəylər, hal bu, qəziyyə budur, – mən söylədim. – Təkgöz Təkur böyük ləşkər yığmış, o ləşkərlə gəlib bizim yerlərdə məskən salmışdır. Selləmənin yuxarı tərəfində bir yanı Qazılıq dağının solyamac ətəkləri, bir yanındakı gəlib Dış Oğuzdan keçib, Günortacdan keçib, ta İç Oğuzadək gedən karvan yolunun ortasında çadırlarını tikmişlər. Elçi göndərdik, Alp Rüstəm getdi, gəldi, məramları nədir – bilmədik, məqsədləri nədir – söyləmədilər. Dilləri bizim dil deyil, dinləri bizim din deyil. Bir şey aydındır ki, bunlardan Oğuzun başı bəlalar çəkəcək, bunu bəlli bilməmiz lazım. İndi, bəylər, nə edəlim?! Alp Rüstəm der ki, Selləmənin ağzını bunlar başqa bir səmtə tutacaqmış. Tanrı özü bizi qorusun. Belə olarsa ümid yalnız ulu Tanrıya qalacaqdır. Siz nə dersiniz? Ordu, ləşkər toplayıb Təkur Təkgözlə

savaşalımmı, yoxsa qocaların, qarıların, arvadların, uşaqların "siz nəyə gərəksiniz?" sorusuna cavab arayalımmı?

Bəylər yer-yer "Savaş, savaş istəriz! Bizi Təkgözün üzərinə sən apar! Aruz Qoca, Aruz Qoca, güvənc yerimiz sənsən!" deyib səsləndilər.

Xanım, bizim bu məşvərət heç bitməmişdi, nökərlərdən biri xəbər gətirdi: "Selləmənin bir qolunun suyu soğuldu". Hamı bəylər səxt oldu. Sonra Əmən idi, dedi:

– Bayındır Xana, İç Oğuza xəbər ilətəlim. Bu savaş yalnızca Dış Oğuz savaşı deyil. Bu çayın dəxi suyunu yalnızca biz içmədik. Bu gün biz susuz qaldıq, yarın İç Oğuz qalacaq. – Əmən belə dedi.

O zaman, Xan, biz xəbərin birini sənə, birini də Qazana atlılarla göndərdik. Özümüz dəxi savaş tədarükü qılmaq üçün dağılışdıq.

Sabah tezdən Dış Oğuz bəyləri başlarında naibləri, yanlarında nökərləri silahlı, silahsız bir ləşkər qurdular. Biz Selləmənin qurumuş yoluna düşüb üzüyuxarı Təkgözün ordugahına doğru irəlilədik. Bu yana, Təkgözün pusquçusu bizi görürmüş. Çayın qolu ilə gedib-gedib Buzluselin böyrünə çıxdıq. Nagahandan çayın yolunun bir döngərində məlun düşmən çayın ağzını açdı, sel gəldi, nə gəldi, biz heç çayın quru içindən çıxa bilmədik, su bizi aldı ağzına, Dış Oğuzacan apardı. O seldə ölənlər də oldu, selin aparıb qayalıqlara çırpıb şikəst etdiyi də oldu. Təkgöz də belə Təkgöz idi. Bir əsgərini belə qeyb etmədən bizim ləşkəri geri oturtdu.

O biri sabah yenə ləşkər yığıldı. Bu dəfə bir başqa yol seçdik. Təkgözün arxasına keçmək istədik. Karvan yolunu buraxdıq, Qazılıq dağının yamacları ilə getdik. Təkgözün ləşkəri yenə duyuq düşmüş idi, elə haman dünənki yerdəcə qarşımızı kəsdi. Savaş başladı, Xanım. Sənə söyləyim, mən çox savaşda oldum, beləsini görmədim, bunlara ox batmırdı, bunları qılınc kəsmirdi, Xanım. Zirehli əlbisələri var idi. Atlarının da döşü zirehli idi. Qərəz, bir qiyamət savaş oldu, meydan dolu baş oldu…

*(Bunu yadda saxlamaq gərəkdir. Aruz Qocanın dediyi bu söz qılınc qədər kəsərli idi: "bir qiyamət savaş oldu, meydan dolu baş oldu".)*

Biz basıldıq, Xanım. Geri qaçdıq, tələf olanları döyüş meydanında buraxı verdik, canımızı ancaq qurtardıq.

Bəylər yenə mənə gəldilər. Həpsi düşkün idilər. "İndi nə edəlim?" – sordular.

– Bayındır Xandan, Qazandan bir xəbər gəldimi? – Əmən sordu.

– Gəlmədi, – mən dedim.

– Bir dəxi onlara adam salalım, əhvalatı necə var eləcə də söyləyəlim! Xanlar Xanı bir tədbir töksün. Bu gün Dış Oğuzun başı dərdli isə, sabah İç Oğuz, sonra baxarsan Qalın Oğuzun başı dərdə girər. – Baybecan Məlik belə dedi.

Baybecan Məlik Təkgözlə heç savaşa belə girməmişdi. Başı qızının düyünü üçün hazırlığa qarışmış idi. Banıçiçəyi Beyrəyə verəcək idi. Bu gün-sabah gərdəyə girəcəklərdi.

– Bəy, sən əvvəl-əvvəl, oğlanlarınla gəl qoşul ləşkərə, Bayındır Xan sormazmı, Dış Oğuz nə zaman var qüvvəsi ilə savaş etdi ki?! – Mən Baybecan Məliyə dedim.

– Aruz, sənin Basat oğlun da ləşkərdə olursa heç fəna olmaz. – Baybecan Məlik də mənə belə dedi.

– Doğru deyirsən. Sabah mənim dəxi oğlanlarım ləşkərə qatılsınlar.

Sabah Dış Oğuz bəylərinə bir daha toparlanma əmrini verdim, amma gecə ikən bəd xəbər gəldi. Qazan, Xanım, İç Oğuz bəylərilə bizdən bixəbər varmış Təkgözün ləşkəri ilə karvan yolunun yuxarı çaydönən səmtində qarşılaşmış, cəng etmiş, yenilmişdir. Bəylər pərən-pərən düşmüş, İç Oğuza qaçanı İç Oğuza qaçmış, Dış Oğuza pənah gətirənlər bizə gəlmişlər. Mən Qazanı o gecə görmədim. Qardaşı Qaragünəni gördüm. Evə gətirdim, yüngülcə yarası vardı qolundan, nökərlər yaranı məlhəm qoyub sarıdılar.

– Mərə, Qaragünə, böylə özünüzə güvəndiniz ki, bizsiz bu savaşa qatıldınız?! Qavat, mən sizə xəbər ilətmədimmi ki, gəlin birlikdə Təkgözə gedək? – Mən qəzəblə Qaragünədən sordum.

– Qazan söylədi, Təkgözün ləşkərini mən av edə-edə avlaram, dedi. Hələ bir bunun üçün Dış Oğuzu neynirəm?! Malları, dövlətləri də bizim olar. Bəyləri yığdı, düşünmədən, daşınmadan at çapdıq.

– Pusquyamı düşdünüz?

– Bəli, pusquya düşdük. Çoxumuz zəbun oldu. Aruz, sən heç böylə ləşkər ömürün boyu gördünmü? – Qaragünə sordu.

– Mən görmədim.

– Mən dəxi görmədim. İndi nə edəlim?

– Qazanı bulmamız lazım. Birgə Bayındır Xana varalım.

– Öylə, sən necə dersən, elə də olsun. – Qaragünə mənə dedi.

Qazanı aradıq, artıq İç Oğuza getmiş idi, evində dincəlirdi. "Dayın Aruz, qardaşın Qaragünə gəlmişlər" nökərləri ona dedilər. Bizim qarşımıza çıxdı, halı pərişan idi. Rəngi qapqara qaralmış, gözləri ora-bura qaçaraq qaçırdı. O da mənə eyni sorunu sordu:

– Aruz, sən bu qədərinə savaşa girdin, Trabzona belə varıb getdin çıxdın, biz səninlə həp birlikdə qılınc çaldıq. Sən böylə bir ləşkər həyatın boyu gördünmü?

– Görmədim. – Mən dəxi buna cavab verdim. – Amma sən necə oldu təkbaşına bu savaşa girdin?! Mən ki sənə xəbər ilətmiş idim. Gəl mana demişdim, birlikdə savaş edək. Noldu?

– Nə bileydim? Bu Təkgözü sizlərdən heç görən oldumu? – Qazan gözünü azdırıb sordu.

– Alp Rüstəm gördü. Onu elçi göndərmiş idik.

– Necə bir kişidir? – Qazan maraq etdi.

– Vallahi, bilməm ki... Derlər, pəhləvan cüssəli, hər əlində bir dəyirman daşı fırladan birisidir.

– Öyləmi?

– Ya, öylə, öylə…

– İndi biz nə yapaq? – Qazan bir dəxi fikirli-fikirli sordu.

– Nə yapa biliriz ki?! Qalın Oğuza varmamız gərəkir. Atına min, elə indicə Bayındır Xana gedək. Bizə imdad etsə o edəcəkdir. – Mən dedim.

Xanım, yadındamı, biz Qazanla sənə gəldik. Uzun məşvərət etdik. Sonra sən Qorqudu çağırdın. Qorqud dəxi gəldi. Sən, Xanım, ona belə dedin:

– Qorqud, var, Təkgözün yanına get. Oğuz səninlə şərt kəsmək dilər, söylə. Nə şərti varsa, söyləsin. Bəylər, siz də yavaş-yavaş, gizlicə cəngə ha-

zırlanın. Amma kimsənin əqlinə nə gəldi hənuz yapmasın. Tədbirli olmamız lazım. Hələ bir az gözləyək. Güc yığaq. Təkgözün şərtini biləк. Bu arada mən dəxi Trabzona, Gürcüstana adam salım, onlarla da anlaşaq. Burada tək Oğuz bir iş bacarmaz. Qorqud getsin, gəlsin. Bir dəxi toplaşalım, son qərarı da o zaman verərik.

Biz elimizə-obamıza geri döndük. Qorqud mənimlə getdi. Bəylər yenə yığışdı, biz onlara Bayındır Xanın sözlərini yetirdik, onlar dəxi Xanın tədbirini bəyəndilər, gözlərini dikdilər Qorquda:

– Sağ get, əsən qayıt, Qorqud, – dedilər. – Kəsim istərsə verəlim, amma suyumuzun ağzını açsın. Qoca, qarı, uşaq, arvad su deyə-deyə zar-zar ağlar, inlər durar…

Bunu deyib biz bəylər Qorqudu Təkgözə elçi göndərdik. Bu, Xanım, biz tərəfdən Təkgözə varıb gedən ikiminci elçi idi. Birinci dəfə, söylədim, Alp Rüstəm getmişdi.

Qorqud çox ləngimədi, tezcə qayıtdı. Gəldi, bir bədxəbər dəxi o gətirdi. Bir şərt qoydular ki, Xanım, hələ beləsini heç birimiz eşitməmiş idik. Gündə, dedilər, bir sürü qoyun verəcəksiniz, iki dəxi adam verəcəksiniz, ürəklərini ağamız Təkgöz yesin. Bunlar, Xanım, adamyeyənlər imiş. Çox düşündük, çox daşındıq. Əlacımız nə idi? Nə edə bilərdik, biz razılaşdıq, kəsim kəsdik. İndi bax, qoyun verməyin bir zorluğu yox idi, amma gündə iki adam istirdi yeməyə – zor olan da bu deyilmiydi?! Yenə düşündük, yenə daşındıq, məşvərət etdik, hər evə bir kişilik verim qoyduq. Qulu olan, əsiri olan onları verəcəkdi, olmayan oğlunu, qızını. Xanım, Dış Oğuzda ahnalə göyün üzünə qalxmış idi. Az keçdi, bütün evlər verimini verdi, növbə geri gəlib təkrar olmağa başladı. Camaat yerindən hürkməyə başladı, olmadı. Bir tərəfdən biz qarşısını aldıq, o biri tərəfdən Təkgözün ləşkəri. Bu ləşkər elə görünməz – bilinməz peyda olurdu ki, göz açıb-yummağa macal tapa bilmirdik. Bu arada, mənim oğlancıq Qıyan Səlcuq başına bir dəstə toplayıb dözəmmədi, Təkgözün düşərgəsinə gecə ikən hücum etdi. Ala gözlü oğlancığım zəbun oldu, ödü yarıldı, savaş meydanında can verdi.

Qorqud mənə gəldi. “Basatı dilə tutaq. Mən bilirəm, könlümə damıbdır, – dedi, – Təkgözü yensə-yensə ancaq Basat yenəcəkdir”, söylədi.

– Xoş ola, – dedim. – Amma necə?! Mən Basatın yerini bilmirəm ki. Meşədən çıxmaz. Bir yeri varmış meşədə, orada gəzər, canavarlarla sirdaşlıq edər. Qoğan Aslana anam deyər.

Qorqud dedi:

– Nolar?! Gedib bir təhərinə bulub gətirsinlər, mən onunla danışaram.

Nökər-naibə "Basatı harda olsa da bulun, gətirin" deyib hərəni bir tərəfə göndərdik. Az keçdi, çox keçdi, Basatı bunlar bulub gətirdilər.

Basat gəlib dedi:

– Bəy baba, məni çağırdınmı?

– Çağırdım, oğul, Basat. Bilirmisən nələr oldu?

– Bilmirəm, baba. Söyləmədilər.

Qorqud dəxi dözmədi, belə dedi:

– Basat, qanlı yağı gəldi, Oğuzun başının üstünü aldı. Ordular getdi yenmədi. Adlı-sanlı yigitlər bu yağının əlində zəbun oldu. Kəsim kəsdik. Gündə qoyun sürüsü, bir dəxi iki adam ürəyi istədilər yeməyə. Oğlu-qızı olanlar bir-bir verdilər. Nə dersən? Mən bu yağını gördüm. Başçıları Təkgöz derlər bir pəhləvandı. Amma sənin yanında o bir heçdir. Onu yensən ancaq sən yenərsən.

– Mən getmənəm. – Basat dedi.

– Niyə? – Biz maraq edib sorduq.

Əlqərəz, Xanım, məsələ böyüdü, kiçildi, Basat dəxi öz şərtlərini qoydu. O zaman Qıyan Səlcuq yenicə savaşa yola düşmüşdü. Qıyan Səlcuqun adı ilə bunu birtəhər yola gətirdik.

– Qıyan Səlcuqun başından bir tük əskik olsa, o zaman mən savaşa gedərəm. – Basat söz verdi.

Qıyan Səlcuq savaş meydanında zəbun olandan sonra Basat dəyişdi, dinmədi, danışmadı, gözlərinə qan doldu, əlbisəsin geydi, dəstəsini başına yığdı, yola düşdü. Üç gün, üç gecə bundan heç bir xəbər çıxmadı. Gözçü göndərdik gəlmədi, casus göndərdik qayıtmadı. Qorqudla mən iki-üç naiblə qadir Tanrıya dualar edə-edə dözmədik, Basat gedən yolla bunun ardınca getdik. Gəlib, gəlib Selləmə çayının Qazılıq dağdan burulub döndüyü yaşıl çöllüyə yetişdik. Gün-günorta idi, səs yox, səmir yox. Biz bura

bir başqa zaman gəlmiş olsa idik, düşmən pususu bizi dinc qoyardımı – qoymazdı. Amma indi. Oğuzun ol uzaq günlərində olan kimi idi. Quşların və cırcıramaların səsindən başqa bir səs eşitmirdik. Bir az dəxi irəli getdik. Başıhaça təpənin o biri döşü Təkgözün düşərgəsi idi. Yenə də ins yox, cins yox. Atları bir-birinə bağlayıb bir sakit tərəfdə özümüzü də, atları da gizlədik. Sonra özümüz yenə gizlin-gizlin təpənin başına sürünüb oradan düşmənin düşərgəsinə nəzər yetirdik. Nə gördük, sultanım?! Lələ köçüb yurdu qalmışdır, gördük. Alaçıqlar dağılmış, od-ocaq sönmüş, tüstüləyir, bir dəstə adam Selləmə çayının suyunun ağzına yığılan daşları bir kənara toparlayır gördük. Suyun ağzı açılır gördük.

– Qorqud, bu adamlar kim ola? – Mən sordum.

– Aruz Qoca, muştuluq, bu adamlar bizim adamlardır, qayət, Basat Təkgözü yenmişdir, bunlar dəxi Oğuzun suyunun ağzını açırlar.

–Ya, bəs Basat nerdə? – Mən sordum.

– Oğlancığı görmədinmi? Odur, orda bir ağac var, o ağacın kölgəsində uzanıb yatar. – Qorqud mənə əlilə qaba bir ağac tərəfə işarət etdi.

Xanım, bir də baxdığımda gördüm, bəli, Basat kölgəlicə qaba bir Qarağacın altında uzanmış, dinlənir. Qas-qas güldüm, bağırdım, həpimiz qaçaraq təpədən üzüaşağı tökülüşdük, yetişdik bu ağacın altına gəldik. Basat bizi gördü, yerindən qalxdı, ədəblə salam verdi, salam aldı, dedi:

– Baba, Təkgözün başını kəsdim, qardaşım Qıyan Səlcuqun qanını aldım. Məndən razı qaldınmı?

– Gəl, gəl, oğlum, səni bir öpüm, – dedim. Basatı bağrıma basıb öpdüm, öpdüm, dişləmədim.

*("Öpdüm, dişləmədim" – bunu dedi. Amma, ağlamağını, bıldır-bıldır göz yaşını axıtmasını, "Qıyan Səlcuq" deyib zarlıq etməsini demədi. Ta axşama qədər bütün ətrafı addım-addım dolaşdıq, Qıyan Səlcuqun bir nişanəsini aradıq, bulamadıq.)*

Qorqud Basata sordu:

– Dan-danışaq, igid. Necə oldu Təkgözü yendin? Ordusu, ləşkəri noldu bunun?

Basat dəxi ona cavab verdi:

– Heç sorma, Qorqud, – dedi. – Bu Təkgöz dediyin bir bədheybət, cüssəli qamətli biri heç deyilmiş. Amma sehri var idi. Təkgöz sehrbaz imiş, heç duydunuzmu?

– Öyləmi? Ya, nədə gördün sən bunun sehrini? – Qorqud maraq edib bir dəxi sordu.

– Mənə cürbəcür biçimlərdə göründü. Əvvəl-əvvəl mən çayın döngəsinə yetişdiyimdə bildim ki, bizi pusurlar. Özümü heç o yerə qomadım. Pusquçular təpədən endi, bizi araya aldı, qırmaq istədilər. "Durun, – dedim. – Mən qavğaya gəlmədim, Təkgözə məni hədiyyə göndərdilər", – dedim. Bunlar bir xeyli düşündülər, nəhayət, məni də, naibləri də aralarına alıb düşərgəyə gətirdilər. "Təkgözə şərtim var, dedim. Məni onunla görüşdürün". Təkgöz gəldi, bir sısqa, biçimsiz birisi idi. Səsi cır, əlləri qısa, bir taxta qılıncı qurşağından asmışdı, yer ilə sürünürdü. Yanında tərcümanı vardı, onun sözlərini mənə, mənim sözlərimi ona deyirdi. Təkgöz ətrafındakılara:

– Baxın a. Oğuzdan bizə bir türfəndə quzu dəxi gəldi, – dedi, əlin-əlinə çaldı, güldü. Sonra mənə, mənim üz-gözümə, vücuduma diqqətlə baxaraq, barmağını sinəmə uzatdı, işarət etdi: – Bu oğlanı gözüm gördü, könlüm sevdi. Nə dilərsən məndən, dilə. Dedilər, sözün varmış.

– Mən, – dedim, – səninlə qılınc çalmaq istərəm, yensən məni yersən, mən yensəm ləşkərini, ordunu alıb buralardan çıxıb gedirsən, bir dəxi geri dönmürsən.

– Sən… mənimlə? Sən məni heç tanıdınmı? Sən mənim gücümü heç duydunmu? – Təkgöz yenə qas-qas güldü. Ətrafındakılar dəxi "hay-hay" deyib gülüşdülər.

– İstərsən, sənə sübut eləyim ki, mənim gücümə sənin gücün heç çatmaz. – Mən buna dedim.

– Sizdən çoxu gəldi, buralarda canın qoydu. Sənin cəsarətini bəyəndim, dedim ya, gözüm gördü, könlüm sevdi. Səninlə cəng edəcəyəm. – Təkgöz ətrafdakılara göz edib gülürdü. – Amma bir şərt dəxi mənim va-

rımdır. Mən əgər səni yensəm, öldürməyəcəyəm. Sənə mən qaravaşlıq verəcəyəm, qaravaşım olacaqsan… Nə dersən?

– Bəli, derəm. – Mən cavab verdim.

– Meydanı hazırlayın! – Təkgöz buyurdu.

Meydan dedikləri bunların düşərgəsinin düz içində idi. Bizi ora gətirdilər. Ətrafımızı cızdılar. "Bu yigidi anadan doğma soyun!" deyib məni anadangəlmə lüt soyundurdular, amma bir kəpənək verdilər, bir dəxi öz qılıncımı. Təkgöz meydana çıxdı, ətrafda "yaşa" bağırtıları asimana qalxdı, ləşkər bir ağızdan buna təhsin söylədi. Mən düşündüm: "Bu sısqa kişidə nə güc vardır ki, bu boyda ləşkər bunun bir sözünə bənd olub durubdur?!"

Tanrıya mədəd deyib girdim mən dəxi bu meydana. Qılıncımı qaldırdım, Təkgözə həmlə etmək istirdim ki, əlim-ayağım havadaca dondu qaldı. Təkgöz isə heç mənə tərəf baxmırdı belə. Meydanda ora-bura gəzişir, cızığın ətrafındakılara nə isə deyir, gülür, onları da güldürürdü. Qadir Tanrı, mənə nə oldu? Mən niyə böylə donub qaldım? Əlimdəki qılınc niyə tərpənməz oldu? Bu balaca kişi niyə mən tərəf heç baxmır? Bunları düşünürdüm ki, birdən Təkgözü düz önümdə gördüm. Əlindəki o taxta qılıncını az qala gözümə soxacaq idi. Bu an huşum qayıtdı, mən hərəkətə gəldim, yana çəkildim. Təkgöz yenə gülə-oynaya meydanda gəzişməyə başladı. Mənim gözüm getdi dəydi düşərgənin o başındakı bir cüt gözə. O bir cüt göz bu tərəfdəki təpənin altında bunların sallaxanaları vardı, ordan mənə nəzər yetirirdi. Dikilmişdi mənə, baxdıqca baxırdı. Əvvəl-əvvəl tanımadım, sonra tanıdım. Anam idi mənim, Qoğan Aslan idi. Gəlib məni burda tapmış idi.

Mənə güc gəldi, istədim həmlə edim, Təkgöz bayaq qarşımda idi, indi yox oldu, onun yerində, baba, kimi görsəm yaxşıdı? – Basat sordu.

– Kimi? – Qorqud və mən ikimiz birgə maraq etdik.

– Səni gördüm, baba. – Basat dedi. – Sən idin ki, vardın, durmuş idin qarşımda. Təkgöz bir göz qarpımında sənə dönmüş idi. Qılıncımı zorla saxladım, az qala kəsəcəkdim.

Meydandakılar yenə qas-qas gülüşdülər, mən səxt oldum, qeyzləndim:

– Sənin burda nə işin vardır, baba? – sordum.

– Oğlancığım, sənə köməyə gəldim. – Sən dedin, amma səsin sənin səsin deyildi, Təkgözün cır səsi idi. Mən anladım ki, bu sən deyilsən, Təkgöz məni sehrə bağlayır. Başladım mən dəxi meydanda dolaşmağa və həmi Təkgözə göz qoyurdum. Birdən Təkgöz, elə bil, fırlandı yerin təkinəmi çəkildi, ya göyəmi uçdu – bilmədim, amma yox oldu. Əsgərlər nizələrini, qılınclarını qalxanlarına döyür, bağırışır, əcayib-əcayib səslər çıxarırdılar. Hay-küydən, bağırtıdan qulaq tutulurdu. Bir onu bildim ki, haman iki göz sallaxana tərəfdən yenə saplandı üzümə, bu dəfə mənə bir işarət dəxi göndərdi. “Əcələ etmə, – beynimdən keçdi, – heç əcələ etmə, bunu öldürsə, öldürsə öz taxta qılıncı öldürəcək. Məqamını gözlə!” Qəfildən arxamdan bir hənirti duydum, çöndüm gördüm, önümdə Xan qızı Boyu uzun Burla Xatun durmuşdur. Mən ədəblə baş əydim, sordum: “Xatun, sən buralara necə gəldin, savaş meydanı Xatun işi deyildir, var get bir yana, sənə zərər, xətər dəyməsin, mən Təkgözü araram, sən onu gördünmü?”

Mən böylə degəc ləşkərdəki əsgər bir ağızdan “hay-hay” dedi, yenə də qas-qas güldü. Burla Xatun burcuda-burcuda savaş meydanında o başa getdi, bu başa gəldi, hərdən-birdən də əskərə göbək atdı. “Qadir Tanrı, Burla Xatun neçin böylə etsin?” düşünmüşdüm ki, yenə də Təkgözün cır səsi bu dəfə Burla Xatunun ağzından çıxdı:

– Gəl a, oğlan, sən ki məni gözlə görüb ürəklə sevmiş idin, mən dəxi sənə könül verdim. Noldun, əcələ et, babamdan istə məni, elçi göndər Xan babama, yoxsa mən başqasının döşəyinə girəcəyəm, sənə yandı-qındı verəcəyəm… Gəl a, murad ver, murad al. Basat, Basat, igidlərin igidi, göz gördü, könül sevdi, nə durmusan, var Xan babama, istə məni, özünə arvad et, evinə xatun ollam, yatağına qadın ollam, üç öpərəm, bir dişlərəm, bir öpərəm, üç dişlərəm, gəl a, oğlan, noldu sənə?!

Burla Xatun, yəni, Təkgöz böylə degəc əqlim başımdan getdi, ah eylədim, cumub bunu tutmaq istədim, tutamadım, elə mən baxa-baxa yenə də xatun döndü oldu Təkgöz. Qalib kimi yenə meydanı dolaşmağa başladı. Yenə beynimə Sallaxana tərəfdən sözlər gəlib doldu: “Əcələ etmə, heç əcələ etmə, qoy hələ bu bütün gücünü işlətsin, bitirsin, sehr ondan gen dursun, o

zaman, bax o zaman qəflətən yürüyəcəksən. İndi isə… əcələ etmə, məni dinlə, mənim gözlərimə bax, mən özüm zamanı gəldiyində sənə "yürü!" buyruğunu verəcəyəm". – Qoğan Aslan bu sözləri baxışları ilə mənim qara başıma göndərdi, könlümə ilham verdi.

…Bu dəfə qarşımda Qorqud sən idin, bardaş qurub oturmuşdun, əlindəki də nə saz kimi saz idi, nə qılınc kimi qılınc idi, çalırdın, amma səsi çıxmırdı. Bu ləşkərin xoşuna gəlmədi, gur səslə, hayla-küylə bağırışdılar, çığırışdılar, Təkgöz onlara əli ilə "gözləyin" işarətini verdi, tullandı durduğu yerdən göyə, göydəcə mayallaq vurdu, yerə enəndə bilirmisən kim oldu?

– Kim oldu? – Qorqud sordu.

– Bir bədheybət, boylu-buxunlu, təpəsində bircə gözlü, çılpaq bədənli Təpəgözə döndü. Bu Təpəgöz yerə enəndə yıxıla qaldı. Sonra dizi üstə çökdü yerə, eşələndi, eşələndi, qoşun da çığıra-çığıra qalmışdı, bunun qılıncı da, o taxta qılıncı, atılmışdı, mayallaq vuranda bir kənara düşmüşdü. Mənə Qoğan Aslandan işarət gəldi: "Yürü, oğlan, zamanın gəldi, o qılıncı al əlinə, əlindən buraxma!" Mən cəld qılıncın özümü üstünə atdım, aldım əlimə. Yöndəmsiz bir qılınc idi, özü də taxtadan.

Təpəgöz meydanda cəmdəyini toz-torpaq içində ora-bura sürüyürdü, cır səsi də artıq zor-güc gəlirdi, amma bu dəfə qoşundan səs-səmir çıxmırdı. Mayallaq göydə aşanda Təkgöz, qayət, sehrini əlindən vermişdi, ta istirdi qayıda əvvəlki halına, nə güc verirdi, qayıda bilmirdi. Mən başladım bunun dörd bir tərəfini əlimdə bunun taxta qılıncı gəzməyə. Qoğan Aslandan işarət gözlədim. İşarət gəldi: "yürü, oğlan tam zamanıdır, kəs o taxta qılıncla bunun məlun başını!"

Yürüdüm, baba, taxta qılıncı bunun boynuna bir vurdum, nehrə yağına qarnımın qaba tükü girən kimi bu tərəfdən girdi, o tərəfdən çıxdı. Baş bir yana oldu, leş bir yana. Ləşkər ah elədi, susdu. Təkgözün başını qapıb göyə qaldırdım, dörd tərəfə gəzdirdim. Hamı əsgər başın yerə dikdi. Qıyan Səlcuq qardaşımın intiqamını belə aldım. Amma baba, bir baxıb gördüm ki…

Mənim dəxi damarımda qanım dondu qaldı. Qorqudun rəngi ağardı. Basat davam etdi:

...Heç, baba, qorxma, bir onu gördüm ki, bunların ləşkəri anındaca yox oldu, meydan birdən-birə boşaldı, düşərgələri, alaçıqları da ki... baxın, özünüz görürsünüz. Bunlar ta əvvəldən var idimi, yox idimi, biləmədim.

Biz bir dəxi dörd tərəf ətrafa göz elədik. Doğrudan da, Təkgözdən və ordusundan bir xəbər, əsər-əlamət yox idi.

– Ya, Təkgözün cəsədi nə oldu, Basat? – Qorqud sordu.

– Onu Qoğan Aslan apardı. – Basat cavab verdi. – Bu da bunun qılıncı.

Basat, yerdə bir taxta qılınc vardı, onu bizə göstərdi, biz baxdıq, biz baxdıqca o qılınc qəfildən bir az dəxi balacalandı, balacalandı, sonra biz onu artıq gözlə görmədik, qılınc torpağın üstündəcə yox oldu, girdi torpağın içinə, itdi.

– Nə edəlim, baba, gedəlimmi evimizə? – Basat mənə sordu. – Qıyan Səlcuqun ruhu şad olsun.

– Gedəlim, oğlancığım, gedəlim, aslanım, bu günü qutlayalım.

Naiblər, nökərlər çayın ağzını təmizləyib qurtardılar. Selləmə çayı təzə dağ seli kimi aşdı-daşdı, üz tutdu yenidən Oğuza. Çayın suyu, Xanım Oğuza bizdən tez yetişmiş idi. Biz Dış Oğuza yetişəndə cavan-qoca, uşaq, arvad – hamı könlü sevinc içində suyun mübarək üzünə baxmağa durmuşdu.

*(Mən, əlbəttə, bu qəziyyəni olduğu kimi Bayındır xana zamanında danışmış idim. Basatın arzusunu, Aruzun xahişini də Xana ilətmiş idim. Arzu-xahiş isə bu idi ki, Aruz Bayındır Xanın qızı Burla Xatunu öz oğlu Basata istirdi. "Basat Oğuzu bəladan qurtardı, gərəkdir ki, Burla Xatun Basata vara, ulu düyün qurula". Əslində, mən dəxi bilirdim ki, Burla Xatunun könlü-gözü Basatdadır. Bayındır Xan qomadı. Dedi: "Mənim qızım meşədə aslan yatağında böyüyən birisinəmi qismət olacaqdır?! Olmaz! Qızı məndən Salur oğlu Qazan istəmişdir, mən dəxi qızı ona verdim". Aruz qatı səxt oldu, Basat yenidən meşəyə girdi, çıxmadı, sonra Qazanın düyünündə barış etdilər, Qazan bəylərbəyi seçiləndə İç Oğuzla Dış Oğuz yenidən bir araya gəldilər. Mən düşündüm: "Kaş ki, Aruz bu düyün məsələsini bir dəxi ortaya qoymasa idi. Qanqaraçılıq olmasa idi. Nə yaxşı, bu düyün barədə, Bayındır Xanın onun sözünü yerə salması barədə, Tanrı eşqinə, bir kəlmə indiyənədək kəsmədi, inşallah, sonra da bir kəlmə deməz".)*

Bayındır Xan artıq neçənci dəfə idi, Aruzun Təkgöz söhbətinə qulaq asırdı. Amma bu dəfə çox maraq etmişdi, Aruzu bir kəlmə ilə olsun, bir işarət ilə belə saxlamadı, sözünü kəsmədi, sonadək aramla dinlədi. Aruz susduğu zaman gün-günortadan keçirdi. Bayındır Xan pəncərədən həyətə bir xeyli nəzər saldı, sonra üzünü Qılbaşa tutub söylədi:

– Qılbaş. Hələlik yetər. Gedin, hər üçünüz dinlənin. Yeyin, için, axşam Aruz bir də gəlsin, ona bir sorum dəxi olacaqdır. Cavabını verəndən sonra yola salarsınız, bəxşeyişin verərsiniz, evinə varsın. Dış Oğuz bəylərini dəxi yetərincə ağırlarsınız. Di gedin, bəylər, yoruldunuz, gedin, dinlənin, sonra gəlin.

Bunu deyib Bayındır Xan yerindən uru durdu, iç otağa keçdi. Biz dəxi Qılbaş öndə, ardınca Aruz, ondan sonra mən Xan otağından həyətə çıxdıq, Qarağacın altına gəldik. Bəylərin səsi-küyü Xan həyətinin o başındakı taxta törənlikdən burayacan gəlirdi. Biz dəxi onlara vardıq. Yemə-içmənin iti yerinə gəlib yetişdik.

İç Oğuz bəyləri Dış Oğuz bəylərinə qarışmış idi. Nökərlər, qaravaşlar taxta törənliyə peydərpey yemə-içmə daşıyırdılar. Biz üçümüz gəlib bunlara qoşulanda hamının marağını Şirşəmsəddin almışdır, gördük. Səs-küy göylərə qalxırdı.

– Yeyəcəkdir! – Bəylərin bir dəstəsi deyirdi.

– Yeməyəcəkdir! – O biri dəstə buna qarşılıq verirdi.

– Nədir, nə oldu, bəylər? – Qılbaş bunlara sordu.

Şirşəmsəddinin ağzı yeməklə dolu idi, ancaq gözləri bərələ qalmış idi, sağa-sola fırlanırdı. O, bir cavab verəmədi, Dış Oğuzda Dəli Dondar derlərdi bir kişi vardı, o dedi:

– Əmənlə Qazan mərc kəsdilər, Şirşəmsəddin tək bir qoyunu yeməyi bacarmaz, Əmən dedi. Qazan isə belə dedi: əgər dörd yerə bölsələr, yeyəməz, altı yerə bölsələr, yeyər. İndi bir qoyunu şişlik edib altı parçaya ayırmışlar. Yeyəcək, yeməyəcək, sən nə dersən?

Qılbaş qas-qas güldü:

– Yeyər, yeyər, Şirşəmsəddin bir buzovu cavan ikən yerdi, indi nə oldu ona ki, bacarmasın, demi, Qorqud?

Şirşəmsəddin heydən-gücdən düşmüş idi, alnından soyuq tər üzünə, üzündən əlbisəsinin içinə, düz köküslərinəcən axıb gedirdi. Hər iki əli ilə təpdikcə ağzına yeməyi təpirdi, bir gözilə də Qazana baxırdı, ağzına aldığı tikələrin arasındaca macal bulub zorla-güclə “ağam Qazan… sənin eşqinə… yeyəcəyəm bu qoyunu” deyirdi.

Bəylər böylə şən-gümrah, deyə-gülə yemə-içməni başa vurdular. Biz dəxi aşımızı yedik, durduq, çəkilib Qarağacın kölgəsinə getdik. Qazan yanında oğlu Uruz bizə gəldi. Uruz ədəblə salam verdi, salam aldı, bəylər hamısı “təhsin bu oğlana!” söylədi. Uruz daha durmadı, bizdən ayrılıb aşxana tərəfə, qaravaşların yanına getdi. Mən uzaqdan baxırdım. Bir qaravaşı saxlayıb uzun-uzun onunla dan-danışdı, sonra ikisi də getdilər oğrun-oğrun aşxananın dal tərəfində təzə balta dəymiş odun parçalarını iki nökər divar boyu düzürdü, onların yanından keçib aşxananı döndülər, gözdən itdilər. “Böyümüşdür, maşallah!” mən düşündüm.

Qazan Aruza sordu:

– Xan sənə nə dedi, Aruz? Bizə söylərmisən?

Aruz cavab verdi:

– Heç, Dış Oğuzda nə var – nə yox, sordu. Bir dəxi sordu, günahınız nə oldu ki, Qazan sizi evinə yağmaya çağırmadı?

– Ya, sən nə dedin?

– “Bilməm ki” dedim. “Qazan nə istər, onu da edər, bir kimsəyə qulaq verməz” dedim. “Dış Oğuzu İç Oğuza qarşı qor” dedim.

– Öyləmi? – Qazan tutqun oldu.

– Öylə, öylə… – Aruz Qoca qırmızı-qırmızı bunun üzünə durdu.

– Bəylər, bəylər, durun ya. – Qılbaş qarışdı. – Şərab istərmisiniz?

Bir tərəfdə onun əmrini gözləyən iki nökəri yanına çağırdı, gəldilər, dedi:

– Gedin şərab gətirin. O gün nə idi, Trabzondan gəlmişdi, o şərabdan gətir.

Nökərlər tez baş endirib getdilər.

– Üzüm suyu, həmi, Qorqud? – Qılbaş mənə baxdı, güldü. Mən dəxi güldüm. Qazanın, Aruzun maraq etdiyini görüb mən özüm mətləbi bun-

lara danışdım, heyrət etdilər, Qılbaşın əqlinə təhsin dedilər. Bu arada nökərlər gəldi, hər birimizə qan kimi şərabdan badələrə süzdülər.

– Qılbaş, söylərmisən, Bayındır Xanın əsl məqsudi nədir?! – Aruz Qoca badəni başına çəkib dodaqlarından daman qanı silə-silə Qılbaşa sordu. Sonra cavab dəxi gözləmədən:

– Qorqud, ya sən nə yazıdır yazırdın? – Aruz Qoca bir dəxi maraq etdi.

– Xan tapşırdı, kimin ağzından nə kəlmə çıxdısa mənim yazmamı istədi.

– Öyləmi? – Aruz Qoca təəccüb etdi.

– Öylə. – Mən dedim.

– Heç böylə şey həyatımda görmədim. Sən gördünmü? – Aruz Qoca Qazana sordu.

– Xeyir, mən dəxi görmədim. – Qazan cavab verdi.

Qılbaş ora-bura boylandı, qıya baxdı, sonra dedi:

– Bəylər, şərabınızı için bitirin, gedəlim, Xanı gözlətməyəlim.

– Gedəlim, bəylər, vaxt yetişdi. – Aruz qalxdı.

Qazan bizim arxamızca baxa qaldı.

Yenə biz – Qılbaş öndə, Aruz və mən ondan sonra Xan otağına gəlib yetişdik. Bayındır Xan artıq öz yerində oturmuş idi və bizə dəxi oturmamızı buyurdu. Biz keçib öz əvvəlki yerlərimizdə bardaş qurub əyləşdik. Bayındır Xan bir xeyli saqqalını tumarladı, sonra sözünə belə başladı:

– Sən dedin, Aruz, mən dinlədim. Sənə bir sorum qaldı, onun dəxi ver cavabını.

– Buyur, Xan. – Aruz Qoca narahat-narahat oturduğu yerdə qurcuxdu.

– Aruz, sən Qazanın yanında məşvərətdən öncə Boğazca Fatma derlər bir qadınla görüşdün, o sənə nə dedi, sən ona nə dedin, söylərmisən?

Aruz şaşırdı. Sonra başını aşağı dikdi, yavaşdan dedi:

– Bayındır Xan. O mənimlə bir qadın arasındakı danışıqdır, mətləbə dəxli yoxdur.

– Demək söyləmirsən?

– Söyləmirəm, Xan.

– İstərsən, mən söyləyim?! – Bayındır Xan səsini ucaltdı.

– Sən səni bilirsən. – Aruz səsini yavaşıdıb dedi.

– Boğazca sənə vardı, yalvardı, sısqadı, tək balama qıyma dedi, yetimdir, atalı yetimdir mənim oğlancığım, dedi. Mənə nə? – sən dedin. – Oğlancığının günahı var, deməli, cəzası da vardır. Sonra Boğazca diz çökdü, sənin ayaqlarını qucaqladı, zar-zar ağladı, "bilirmisən, Aruz, – dedi, – bu oğlancıq sənin oğlancığındır, cavanlığımızın əmanətidir. Evimizin ardı dərəcik idi – xatırlarmısan?! İtimizin adı Bəraqcuq idi – unutdunmu?! Bilməm ancaq, Aruz, o it sənə hürərdi, yoxsa hürməzdi?! Kiminə hürdü, kiminə isə hürmədi. Sən şaşırıb durdun. "Etmə, eləmə" – dedin. "Qazan səni yağmaya çağırmadı, səni saymaz, səni bəylərin yanında xınc edər, başına qaxınc edər. Qazan sənin oğlancığını həlak etmək dilər. Sən qoyma, igid Aruzum" – Boğazca böylə dedi.

*(Bayındır Xan danışdıqca Aruz Qoca qapqara rəngi qaralır idi, gen dünya başına dar olur idi. Əli ilə saqqalını didişdirib durdu. Bayındır Xanın dedikləri doğru idi. Xana artıq məlum oldu ki, Boğazca Aruz Qocaya dəxi o biri bəylərə dediklərini demişdir. Mən ki bunu bilirdim, Qadir Tanrı, özün mədəd eylə, mən ki bunu Boğazcaya özüm söyləmiş idim, bu yolu özüm ona göstərmiş idim. İndi dəxi Xan da bunu bilmiş oldu...)*

– Bu sözü sən mənə deməmək gərək idin. Boğazca sənə gəldimi, Xan? – Aruz Qoca sordu. – Məni satdımı qarı?

– Qəzəblisən, Aruz. Əgər qəzəblisən, haqlı deyilsən, bəlli bilgil. Oğuzun işləri böylə çözülməz. Casus hər kim idisə cəzasını almalı idi. Oğuza görk olmalı idi. – Bayındır Xan cavab verdi.

Aruz Qoca qəzəbini uddu:

– Həpsi sən deyən kimi oldu. Nə edə bilirdim ki?! Şəfqət damarım qeynədi. Oğlancığımdır dedim. Tanrı Qıyan Səlcuğu aldı, bunu verdi – düşündüm. Mənə çox bəlalar başıma gəldi, Xan. Bir oğlancığım Təkgözün əlində zəbun oldu, o biri, sən bilirsən, meşədən çıxmır, gətirirsən yenə ora dönür, bir gözü geridə, meşədədir. Bu yana da bu Qazan. Mənim suçum casus qəziyyəsində özün söylə, varmı? Casus qəziyyəsini kim atdı ortaya?! Beyrək atmadımı?! Beyrək Oğuzun başının üstünü sehrbaz Təkgöz gəlib

alanda, uşaqların, qocaların suyunu kəsəndə, qadınlar bıldır-bıldır gözlərindən yaş töküb hər evdən bir oğlancıq, bir qızcıq Təkgözə yemlik verəndə, Xan, səndən soruram, Beyrək harada idi? İstərsən, mən sənə söyləyim. Beyrək özünü Bayburd hasarının bəylərbəyinə oğurlatmışdı, bəlli bilgil. Təkgözlə savaşa getməmək üçün Bayburda əsirliyə getdi. İndi bu Beyrəkdən soran yoxdur, sən bu casus məsələsini kimdən, necə öyrəndin?! Xan, sənin ədalətin böyükdür. Sən nahaq bir əməl tutmazsan. Sən ki Xanlar Xanı, Qamğan oğlusan. Hələ bu Beyrək kimdir Qazan alıb sinəsinin başında quzu kimi bəsləyir?! Mənim oğlancığın həsədini çəkir ikisi də – Beyrək də, Qazan da, bəlli bilgil.

Bayındır Xan düşüncəli idi. Aruz susduğu an bir xeyli qıya baxıb onu süzdü. Sonra sordu:

– Sən bunları haradan öyrəndin? Bayburdda casusunmu vardır?

–Bayburdda casusum yoxdur. Bayburddan karvan gəlib Dış Oğuzun üstündən Qazılıq dağı ətəyi ilə uzun yola doğru keçirdi, akın etdik, əsir aldıq, karvanbaşı söylirdi.

– Belə… – Bayındır xan fikrə getdi, sonra – Qılbaş, o karvandan mənim xəbərim oldumu? – Xan Qılbaşa sordu.

– Olmadı, Xan.

– Pəncyek gəldimi?

– Gəlmədi, Xan. – Qılbaş bir dəxi cavab verdi.

– Gəlmədi… – Bayındır Xan düşüncəli-düşüncəli dedi.

*(Bayındır Xan bu mətləbi dərinləşdirmədi, Aruzu tənbeh etmədi. Əslində, Bayındır Xandan distur almadan akın etmək, etdin isə ona pəncyek çıxarmamaq Oğuzda suç sayılardı. Bayındır Xan Aruzun ağzına yum olsun deyin bu karvanla bağlı Qılbaşdan söz sordu, cavab aldı. Mən düşündüm: Xan bu karvan söhbətini, əlbəttə, çoxdan bilirdi.)*

Aruz yerindən dəbərdi, Qılbaş cəld qalxıb uru durdu, Aruz gözün qıyıb Qılbaşa baxdı, Bayındır Xana baxdı, dəxi bir söz demədi, oturduğu yerdəcə oturub qaldı.

Bayındır Xan buna məhəl qoymadan dedi:

– Söylərmisən, Aruz, xatirində olmamış deyil, sən mənə vardın, Basat Təkközü yenəndən sonra oğluna bəylərbəyilik dilədin. Mən dəxi sənə "yox!" dedim. Sən dəxi bir av zamanı bu mətləbi dilə gətirib Dış Oğuz bəylərinin yanında dedin: indi Bayındır Xan oğluma bəylərbəyiliyi xoşluqla vermədi, zamanı gəlir, zorluqla alıram… Sən…

*Əlyazma qırılır. Bu qırıqlıq, əslində, çox qiymətli bir məqamın açılmasının üzərinə qaranlıq, özü də əbədi qaranlıq bir pərdə çəkir. Əslində, Bayındır Xanın sualı ilə Aruzla bağlı hekayət özünün ən gərgin nöqtəsinə çatır. Aruz doğrudanmı belə bir sözü deyib, ya deməyib? – biz bunu daha heç bir zaman öyrənə bilməyəcəyik. Bayındır Xanın isə səbrinə həqiqətən də qibtə eləmək olar. Ancaq Əlyazmanın sonunda, Bayındır Xanın gizli niyyətindən agah olan zaman biz bu səbrin əsl qiymətini biləcəyik. Yenə Şərqşünas qızın lal bir məzəmmət dolu sifəti gəldi durdu gözümün qabağında.*

… – ava çıxırdı, bu av Oğuza nəyə başa gəldi? Həpimiz bunun şahidi olduq. Yağı gəldi, yurdu bu başından o başınacan daradı, getdi. Qız-gəlin, uşaq-qoca əsir oldu. Öz anası əsir düşdü, xatunu Burla əsir düşdü, oğlancığı əsir düşdü. Oğuzu açdı qoydu düşmən ləşkərinin önünə. Ava çıxmazdan əvvəl çox dedim. Olmaz, qoruqçuları heç olmazsa saxla, yox dedi, sən səni bilirsən, qarışma. Dedim: Qazan, bu səfərin böyük səfərdir. Gürcüstan içindən keçəcəksən. Ordun üstünə kimi qorsan? Nə desə yaxşıdır, Xanım?

– Nə dedi? – Bayındır Xan sordu.

– Səni qoymanam, – dedi. – Oğlum Uruzu qoyaram, səni qoymanam. Xanım, Qazan ədalətsiz, Qazan haqsızdır. Ordusu üzərinə məni qoysa idi, Oğuzun başı bəlalar çəkməz idi. Oğlu gənc, yağı üzü görməmiş, qılınc vurub çalmamış birisi. Oğlunu qoydu… Qazanın gözü məni heç götürməz. Qazan düz yolunu azdı, Bayındır Xan. Mənə bolluca saymazlıq etdi. Olsun. Ona

Qazan derlərsə, mənə də Aruz derlər… Gün gələr, hesablaşarıq. Dış Oğuz bəyləri həpsi məni tutar, biləsən.

– Beyrək dəxi səni tutarmı? – Bayındır Xan gözünü qıya tutub Aruzdan sordu.

– Beyrək hələ kimdir?! Beyrək bizdən deyildir. Beyrək İç Oğuzdandır. Babası Baybura…

– Ya, Beyrək sizdən qız almadımı? Baybecan məlik Dış Oğuzun bayraqdarı deyilmiydi? Banıçiçək Baybecanın qızı deyilmiydi?

Aruz Qoca bir qədər düşündü, sonra:

– Elədir, Bayındır Xan, sən həqlisən, Beyrək dəxi bizdən sayıla bilir. Amma o bizi tutmaz, o, Qazanı tutar, hələ bir bizə həqarət də edər, mənim adıma casusu bağlar, avda dava salar, Bəkilə qavğa edər…

– Aruz, Aruz… Oğuzun bu gününü mənə göstərməmək gərək idin. Oğuz parça-parça olmuş, mənim xəbərim yox. Aruz, Aruz, sən bir çilasun yigid, ər yigit, səndəmi ağlını çaşdın, gicədin, çolma-cocuğa qoşuldun?!

Bayındır Xan bunları dedi və mən gördüm ki, Xan həqqən səxt oldu, dərin fikrə getdi. Aruz dəxi yum verdi, susdu, amma öncə başın aşağı dikib özü-özünə yavaşdan bunu dedi:

– Həpsini Qazan etdi. Suç onundur, günah Qazanındır… Qadir Tanrı bizi bağışlasın böyüklüyü xatirinə.

Bayındır Xan dəxi dinmədi, gözlərini əli ilə tutub oturmuş idi. Əl eləyib bizi buraxdı. Yenə Qılbaş, Aruz Qoca, mən Xan həyətinə çıxdıq. Aruz Qoca heç birimizlə vida etmədən naibini aradı, buyruğunu verdi:

– Bizimkiləri səslə, xəbər elə, yola çıxırıq de.

Dış Oğuz bəyləri həp atlandılar. Aruza baxıb onlar da bir söz deməkdən, bir kəlmə kəsmədən Qaradarvazadan at sürüb çıxdılar, çaparaq getdilər, Günortacı geridə qoyub dumana-toza qarışıb gözdən itdilər. Aruz Qoca Bayındır Xana küsdü, Xan dəxi onu yolundan saxlamadı, ağırlamadı. Qadir Tanrı Oğuzu bəd günlərdən özü qorusun, amin.

Şah divanxanaya hənuz yetişməmişdi, amma artıq uzaqdan "pirim", "mürşidi-kamilim", "sadağa olduğum", "qurban olduğum" nidaları asimana ucalır və Şahın qulağında Taclı Xanımın onun arxasınca ağlamaq səsini tamam batırırdı. Divanxana həyətində atından endi, əli ilə atın yalmanına bir-iki tumar çəkdi, atı çəkib apardılar, Şah durdu başladı Divanxana həyətinə göz gəzdirməyə. Camaat həyətdən çox bayırda qalmışdı və hamı camaatı içəri buraxmaq qeyri-mümkün bir şey idi. Vəzir əyilə-əyilə Şaha yaxınlaşdı:

– Buyur, keç içəri, qurban olduğum, – dedi.

Şah bir daha Vəzirin əyilmiş başı üstündən həyətdəki Qarağac tərəfə baxıb orada bir nəfərin durduğunu gördü, ürəyində nəsə, elə bil, sap qırıldı, daha bir söz deməyib çönüb Divanxananın içinə keçdi. Qorçular həmən an qapının ağzını tutdular, bir-iki nökərdən, bir də Vəzirdən başqa heç kimsə divanxananın içinə keçmədi, hamı əyan-əşrəf həyətdə durub mürşidi-kamilin əmrinə müntəzir oldular.

Şah keçib yuxarı başda öz yerində oturandan sonra əlindəki təsbehin iri zümrüd daşlarını bir-bir o tərəf bu tərəfə fırlatdı, ona yaxınlaşıb gözündə sual duran Vəzirə yavaşdan dedi:

– Gördüm onu, ağacın altında durmuşdu. Gətir gəlsin, Şahi-Mərdan xətrinə uzatmayaq bu işi.

– Bəlkə niqabını taxasan, mürşidi-kamil?! – Vəzir də öz növbəsində yavaşdan xahiş elədi.

– Yox, taxmayacam, belə yaxşıdı, gətir, gətir gəlsin.

Amma sonra nə düşündüsə "yaxşı, niqabımı taxıram" deyib taxtın arxasından niqabı götürdü, taxdı üzünə.

Vəzir baş endirib çölə çıxdı. Qorçular səf-səf düzülmüşdü qapıdan həyətə gedən yolun ağzına. Gözlərilə qorçuların arasında Rəhim yüzbaşını aradı. Vəzirin onu axtarmasından duyuq düşən Rəhim yüzbaşı irəli çıxdı, Vəzirə yaxınlaşdı.

– Yüzbaşı, burdadı o adam? – Vəzir astadan soruşdu.

– Burdadı, Vəzir ağa. – Rəhim cavab verdi.

– Get, onu səssiz-səmirsiz gətir Şahın hüzuruna. Artıq söz-söhbət istəmirəm, biləsən.

– Baş üstə. – Rəhim yüzbaşı cəld həyətə çıxdı, Qarağacın altına yönəldi.

Lələ ürəyi səksəkəli burda durmuşdu. Şah gəlib onun beş-altı addımlığından keçəndə ona elə gəlmişdi ki, Şah onu gördü, fəqət özünü o yerə qoymadı. "Əlbəttə ki, məni gördü, gördü də, tanıdı da. Amma vurdu özünü tanımazlığa. Bəlkə hələ Vəzir də bir şeylər söyləmişdir, inşallah. Gözlərini gözlərimdən qaçıranda ürəyim az qala ağzıma gəlib parça-parça oldu. Bu niyə belə elədi?! Digər tərəfdən də bu qədər adamın arasında neyləməliydi?! Məni yanına çağırıb bağrına ki basmayacaqdı. Bircə elə məndən soruşsa ki, sən niyə Çaldıranda ölmədin, sağ qaldın, mənə bəsdi. Ayaq üstə ölləm. Bircə bunu soruşmaya qurban olduğum. Cəllada tapşırır, cəllada tapşırsın, bircə bunu soruşmasın… Şahi-Mərdan xətrinə, xudavəndi-aləm, sən özün kömək ol…"

Rəhim yüzbaşının məhz ona tərəf gəldiyini görəndə Lələnin ürəyi quş ürəyi kimi "gup-gup" döyünməyə başladı. Hələ bir söz deməmiş yüzbaşının üz-gözündən hiss etdi ki, Şah onu yanına istir, özünü yığışdırdı.

– Gedək, Hüseyn bəy, gəl. – Rəhim yüzbaşı Lələyə yetişib astadan dilləndi.

Lələ sakitcə, səssiz-səmirsiz düşdü Rəhim yüzbaşının dalınca gəlib ikisi də yetişdilər Divanxana otağının qapısı ağzında onları gözləyən Vəzirə. Vəzir bir daha diqqətlə Hüseyn bəy Lələni başdan ta ayağa qədər nəzərdən keçirdi, sonra yenə də astadan Rəhim yüzbaşıya pıçıldadı:

– Qapının ağzında özün durarsan, bir adamı içəri buraxmazsan, mən səsləməsəm özün də içəri girməzsən.

Rəhim yüzbaşı "baş üstə" deyib baş əydi. Vəzir Lələyə çöndü:

– Lələ, arzunuzu yerinə yetirdik. Buyurun, – dedi, – Şahimiz, mürşidi-kamilimiz sizi yanına istir, buyurun, gəlin içəri.

Vəzir əvvəldə, Lələ ondan sonra girdilər qapıdan içəri. Rəhim yüzbaşı arxadan qapını çəkib möhkəm bağladı. Vəzir baş əyə-əyə Şahın oturduğu qoltuğu ziynətli uca təxtə yaxınlaşdı, mülayim-mülayim dedi:

– Sadağa olduğum, sənə demişdim, Hüseyn bəydi, gəlib qədəmlərinə düşməyə.

Şah gözünü divanxana otağında miz vardı, o mizin üstündəki qoşa şamdana dikib dərin fikrə getmişdi, bir səs çıxarmadı. Ortalığa sükut çökdü. Vəzir çönüb Lələyə baxdı. Lələ də o tərəfdə, qapı ağzında donub qalmışdı. Bir xeyli keçəndən sonra yenə Vəzir Şaha müraciət elədi:

– Mürşidi-kamilim, Hüseyn bəy Lələ hüzurundadı…

Şah, nəhayət, gözünü dikdiyi nöqtədən çəkdi, Lələ tərəfə baxdı:

– Gəl yaxına, gəl, Lələ, – dedi.

Lələ diz üstə çökdü yerə, sürünə-sürünə Şaha tərəf gəldi.

– Pirim, mürşidim, sadağa olduğum, pirim, mürşidim, sadağa olduğum…

Lələnin dilindən ancaq bu sözlər çıxırdı. Şahın təxtinə çatıb başını dikdi yerə və donub qaldı. Ürəyində elə hey Şahdan gözlədiyi bu sözləri çevirib durmuşdu: Sən nə üçün Çaldıranda ölmədin, Lələ? Sən nə üçün Çaldıranda ölmədin, Lələ? Sən nə üçün…

Hüseyn bəy Lələnin hüzurda yerə sərildiyini görən Şah ona ayağa durmağı əmr etdi:

– Qalx, qalx ayağa, Lələ.

Lələ ayağa qalxmadı və Şahın hüzurunda yenidən başını yerə vurmağına davam etdi. Bu zaman Şah özü yerindən durub qalxdı. Lələyə tərəf gəldi, hər iki əli ilə tutdu Lələnin hıçqırıqdan qalxıb-enən çiyinlərindən, qaldırdı. Şah və Lələ üzbəsurət dayandılar. Amma Lələnin başı nə cürə ki aşağı dikilib qalmışdı o tövr də qaldı.

Şahın səsi mis kimi cingildədi:

– Qalx, qalx hələ. Bax belə. Sən nə cürə yaxşı oldu ki, savaşdan sağ çıxdın. Qurban olduğumuz Şahi-Mərdan dualarımızı eşitdi yəqin… Allaha həmd olsun!..

Şahın bu sözlərindən Lələ əvvəl-əvvəl bir şey anlamadı, sonra səntirlədi. Bir az qaldı, yoxsa huşunu da itirəcəkdi. Vəzir bir kənarda heyrət içində donmuş dururdu, altdan-altdan baxırdı bunlara, üzündə də müti bir təbəssüm. Şah bir gör Ləlıni nə cür qarşıladı. Lələ artıq saraya, Lələ hakimiyyətə qayıdırdı. Ancaq bu cürə Lələdən gələn ziyanı aradan götürmək mümkün idi. İlk sözün əhəmiyyəti vardı. Vəzir ürəyində Şahın bu hərəkətinə "əhsənül-əhsən" deyib dili ilə Şahın axırıncı sözlərini qapıb təkrar etdi:

– Allaha həmd olsun! Yaradana həmd olsun…

Lələ ayaq üstə bayaq ölüb getmişdi. Bir anın içində gözünə çökən qaranlıq ona bütün dünyanın, həyatın, əzab və əziyyətin, çalışıb-vuruşmanın, savaşın və sülhün, mehribançılığın və nəvazişin, eşqin və nifrətin tamamən boş və puç bir şey olduğunu gün kimi ağardıb məlum etmişdi. Bütün hər şey bu bir anın içində baş-ayaq olmuşdu və bu bir anın içində gözünə çökən bu qaranlıqda Lələ birdən-birə böyük bir sirrin aydınlığa bürünərək ona faş olmasını gördü və başa düşdü.

Şah bir daha bu sözləri dedi:

– Bir bilsən, məni nə qədərinə sevindirdin, Lələ. Bilirsən, nə cürə yaxşı oldu, sən ölmədin, sağ qaldın. Bir gəl, otur bura, haralara apardı səni ruzgar, haralarda itib–batdın, haralardan gəlirsən, danış, danış, Şahi-Mərdan eşqinə, susma…

Lələ, nəhayət, bir balaca özünə gələrək boğuq bir pıçıltı ilə, elə bil, özü-özü üçün dilləndi:

– Mən nə yaxşı oldu, sağ qaldım? Nəmənə???

Sonra bayaqdan yerə salladığı və yuxarı qaldırmağa cürət etmədiyi başını birdən-birə dik qaldırdı, gözlərini çox diqqətlə dikdi Şahın üzünə. Şahın üzündəki niqabı az qala baxışları ilə deşik-deşik edəcəkdi. Sonra Lələnin sinəsindən, elə bil, ah çıxdı, bu ah pıçıltıya döndü, bu pıçıltını heç yaxında duran Vəzir də eşitmədi:

– Sən… sən Şah deyilsən. Sən şah deyilsən, gədə.

Şahın üzü dəyişdi. Əlləri titrədi; "sus!" sözlərini güclə qurumuş dodaqlarından çıxara bildi, sonra Vəzirə çöndü, bu dəfə boğuq bir səslə əmr etdi:

– Vəzir, çıx, durma burda, çıx eşiyə, uzaq!

– Şahim… – Vəzir istədi Şahı fikrindən döndərə.

– Yox! Çıx eşiyə! Şahi-Mərdan xətrinə, uzatma! Çıx dedim, mənim Hüseyn bəylə öz söhbətim var.

Vəzir həyəcan içində dalı-dalı yeriyib divanxana otağından çıxdı eşiyə. Otaqda qaldılar Şah, bir də Hüseyn bəy Lələ.

Şah təngnəfəs olmuşdu, bu sözləri Lələyə güclə deyə bilirdi:

– Sənə nə oldu, Lələ? Biz ki yaman bir iş tutmuruq, biz sənə "xoş gəldin" deyirik. Özündəmisən? Hələ bir keç otur…

Lələ durduğu yerdən tərpənmədi. Dediklərini dir daha təkrar etdi:

– Sən Şah deyilsən.

Sonra özü-özünü tamamən inandırıb bir də dedi:

– Əlbəttə, sən Şah deyilsən.

– Lələ, gəl sən bu işi görmə… – Şah məlul-məlul dilləndi.

Lələ birdən hıçqırdı:

– Noldu mürşidi-kamilim mənim, sadağa olduğum noldu? – deyib hıçqırığını güclə basdı, bir az sakitləşdi, toxdadı, özünü ələ aldı:

– Sən Şaha nə etdin, məlun şair? Mən səni tanıdım. Tanıdım mən səni.

– Tanıdın deyirsən? – Şahın da səsi ötkəmləşdi. – Yaxşı, o zaman daha bu niqab nəmizə gərəkdir?

Bunu deyib Şah niqabını üzündən çıxardı, atdı bir kənara:

– İndi necə? Niqabsız daha yaxşı tanırsan. – Şah üzünü tutdu Lələnin gözlərinin qabağına və başladı iblisanə təbəssüm yapışmış üzünü o tərəf, bu tərəfə çöndərməyə.

– Mən səni niqablı da tanıyardım. Bəli, əlbəttə, sənsən ki varsan, məlun şair. Elə təkcə səsindən tanıyardım səni. Məni heç vədə aldada bilməzsən sən.

– Sus daha! – Şah, nəhayət, qeyzləndi. – Həddini bil! Getdi o günlər. İndi mənəm Şah. Bircə əmrim, bircə barmağımın işarəsi… anla, nəhayət, bircə baxışım yetər ki, səni…

Lələ başını dik qaldırıb qamətini ucaltdı. Şah sözünün dalını daha gətirmədi, bütün vücudu əsdi, ürəyi dözmədi, Lələnin qarşısında diz üstə çökdü, qaldı:

– Lələ, Lələ, vallah və billah, o bir olan Allahın böyüklüyü haqqı, and olsun Şahi-Mərdanın müqəddəs qəbrinə ki, Lələ, mənim bir günahım bu işdə yoxdur. O özü məni məcbur elədi…

Lələ onun sözlərinə heç bir məhəl qoymadı:

– Şaha nə etdiniz, lənətulla? Söylə! – Deyərək israr etdi.

– Şah nə etdi özü özünə etdi, Lələ… bilirsən…

Lələ aramsız bir halda onun sözünü kəsdi:

– Boşuna vəz eləmə, gədə! Şaha nə oldu? Sağdı, yoxsa… düzünü söyləyəcəksən mənə, eşidirsən, zalım, düzünü!

Şah dikəldi, Lələyə baxmadan keçib taxtın ayağında oturdu, üzünü tutub, elə bil, boşluğa soruşdu;

– Çaldıran yadındamı, Lələ?

Lələnin damarında az qaldı qanı dona:

– Niyə soruşursan? Çaldıran unudulurmu?

– Sən mənə cəng başlamazdan qabaq nə dedin – yadındamı? Mənə Şahın döyüş paltarını sən dedin, geyin.

– Mən dedim. Nolsun?

– Mən də geyindim. İndi dinlə məni. Sən istədin bunu. Özün də dinlə. Yadındamı? Sən həmləyə qalxdın. Şah səni sağ cinaha göndərdi. Özü mənimlə çadırda idi, amma bir yerdə qərar tuta bilmirdi. Elə gedirdi, gəlirdi,

hərdən də vururdu özünü döyüşün isti yerinə, təşnəsini söndürürdü, yenə dönürdü çadıra. Bir də vuranda özünü düşmən səddinə, yadındamı, Malbaşoğlunu ikiyə necə böldü?! O boyda pəhləvana başından bir qılınc çaldı, itilənmiş ülgüc yağ parçasına girdi, elə bil. Sən həmlədəydin. Mən çadırın bir küncündə bir deşik idi, açmışdım, oradan döyüşə baxırdım. Sən mənə bərk-bərk tapşırmışdın axı, burnumun ucunu da çölə çıxarmayım, qaxılım oturum çadırda. Şah bu dəfə çadıra geri dönəndə gördüm ki, zirehinin altından yerə qan damlasıdı axır. Yaralanmışdı qurban olduğum. Sənə indi danışdığımı bir kəsə danışmamışam. Di, özün istədin, mənlik deyil, qulaq as, Lələ, qulağın məndə olsun…

Mən özümü onun üstünə atıb dedim:

– Şahim, qanın axır, bir yüngül yara olsun ki, almısan.

– Heç hiss etmirəm, hanı? – Şah əli ilə məni kənar edib ora-burasına baxdı, əl gəzdirdi, zirehin altına əlini soxub çıxaranda əli qanlı çıxdı.

– Boş şeydi.

– Qoy zirehini açaq. Əlac-dava qoyaq.

– Yox, olmaz, – dedi. – Sonra. Deyəsən kəsdi. Heç nə olmayıb. Qorxma. Şahi-Mərdanın nəfəsi mənimlədir. Mənə bir şey olmaz.

Mən cəsarət edib dil boğaza qoymadım:

– Şahim, sadağa olduğum, nolar, məni də burax, burax bir məni, mən də sənin cəngdə kölgən olum, bir vuruşum sənin yolunda, mürşidi-kamilim. Çadırdan baxmaq elə mənə qalıb?

– Olmaz. Sən burdan eşiyə çıxma. O nə səsdi elə? Nədi, nə oldu? – Çadırın ağzından gələn hay-küyü eşidib Şah gedib çadırdan bayıra çıxdı. Mən içəridən hər şeyi eşidirdim.

Qorçubaşı idi, çaparaq gəlib Şaha xəbər gətirmişdi:

– Şahim, qurban olduğum, sol cinah əyildi, – deyirdi.

– Necə? – Şah qeyzləndi. – Tez Xəlil Sultan Zülqədəri tap, sol cinaha versin özünü.

Yenə Qorçubaşının təlaşlı səsi gəldi:

– Pirim, mürşidim, sadağa olduğum…

– Nədi, gədə, tez ol. Nolub?

– Şahim, Zülqədər xain çıxdı. Zülqədər qaçdı, Şahim.

– Qaçdı? Xain. Atası da xain idi, özü də xain çıxdı. Eyb etməz. Heç eyb etməz. Sən durma, Ustaclu Abdulla xanı tapdır. Sol cinaha o getsin. Çaparaq sol cinaha. Tez ol.

Bu zaman başqa bir çapar özünü hövlnak yetirdi:

– Şahim, Şahim, sağ cinah!.. Sağ cinah pozuldu, sadağa olduğum…

– Sağ cinah… – Şah Qorçubaşıya üzünü tutdu. – Sən özün, özün tələs get sağ cinaha, bütün qorçuları topla, get, mən də indi özüm gəlləm… Amma əvvəl Abdulla xana çapar yolla… – Şah Qorçubaşıya əmr elədi.

Bunlar yenə atlarına süvar olub çapıb getdilər. Şah dönüb çadıra daxil oldu. Təlaşlı ora-bura var-gəl etdi. Nəyisə beynində götür-qoy edirdi. Gözləri rüzgar vuran şəm kimi alışıb yanırdı. Birdən mənə tərəf çöndü və dedi:

– Yaxın gəl!

Yaxın gəldim, diz çökdüm, hiss etdim ki, indi Şah nə isə çox mühüm bir söz söyləyəcəkdir. O bir də mənim üzümə diqqət və qayğı ilə baxıb bunları dedi:

– Məni yaxşı dinlə və dediklərimi unutmayasan!

– Baş üstünə…

– Sözümü kəsmə, sən ancaq dinlə!..

Mən nəfəs çəkmədən onu dinləməyə başladım. Xudavəndi-aləm, bunun səsində nə cürənə qəm-qüssə var idi. Ta mən onu olduğu kimi deyə bilməyəcəyəm. Dediyi isə mürşidi-kamilimin bunlar oldu:

– Bayaq həmlə zamanı at hürküb məni altına salmışdı. Daraşdı canıma bu dinsizlərin əskəri. Sultanəli Mirzə Əfşarı tanırsan, əlində qılınc saldı özünü bunların arasına. "Şah mənəm! Şah mənəm!" çığıra-çığıra apardı bunları arxasınca ta ki, mən nəfəs ala bildim, ayağa durdum, yoxsa… Dinlə məni. Ona əgər düşmən əlindən qurtulsa, layiqli bir ənam ver. Səni xilas etdi. Zülqədəri də ki indi eşitdin, cəzasını özün verərsən, inşallah, əlinə keçərsə…

Mən dözmədim, çaşmışdım, Şah nə deyir, nə qoyurdu, bilmirdim, anlamırdım, necə yəni, "səni xilas elədi", necə yəni, "Zülqədərin cəzasını özün verərsən?!"

– Pirim, mürşidim, necə yəni… Mən axı bir şey anlamıram. Allah-taalaya həmd olsun, bu əməllərin hamısını savaşdan sonra sən özün yerinə yetirəcəksən, inşallah…

Şah qeyzlənən kimi oldu:

– Sözümü kəsmə! Dinlə məni, qalsın qulaqlarında sırğa kimi. Vaxt daha az qaldı. Bu savaş ki görürsən artıq bitmişdir. Bəli, bəli, bu, bitmiş bir savaşdır. Şahi-Mərdan üzünü çöndərdi məndən. Görünür, böyük bir günahım olmuşdur. Nə isə… Zamanımız azdır, çıxar üstəki libasını.

Mən üstən bir bekara xələt taxmışdım əynimə, altındakı geyimim eynən Şahın geyimindən idi. Mən bu xələti soyundum, atdım bir tərəfə.

– Belə… – Şah məni bir daha diqqətlə nəzərdən keçirdi. – Əsl mənəm ki durmusan… Necədi, hazırsan oyuna? Görürəm, görürəm, hazırsan. Bu vuruş artıq bitdi. Sabah məmləkət olacaq səninki. Sus!.. Dedim axı, kəsmə sözümü, gədə! Kəsmə sözümü, şahim... Mən ki sənə bu boyda məmləkət verirəm. Amma yaralıdı. Bax gör neynirsən…

Mən dözmədim, balaca nəfəs dərən kimi yenə onun sözünü cürət edib kəsdim:

– Biz kimi aldadırıq, Şahim?

– Biz bir kimsəni aldatmırıq. Batinin bir mənası yoxmuş, əsl məsələ zahirdə imiş. Saxla bunu huşunda.

– Mən… mən qorxuram axı.

– Qorxma. Heç qorxma. Əsl qorxmaq məqamı gələndə heç macal tapmayacaqsan, sənin də həyatın bir gün sönəcək.

Eşikdən yenə həyəcanlı səslər bir-birinə dəydi. Qorçulardan kimsə çadıra yaxınlaşıb elə qapı ağzından tələsik dedi:

– Şahim, qurban olduğum, gəl, qoşun sındı, biz səni gözlirik, gəl, sadağa olduğum, aradan çıxmaq zamanıdı…

– Gəlirəm, gədə, Allah xətrinə, bir ləhzə dözün… – deyə Şah eşiyə qışqırıb sonra yenə mənə üzünü tutdu, – bax, mən bu boyda məmələkəti fəlakətdən saxlaya bilmədim. Mən aradan çıxıram. Niyəsini heç sorma. Bilirsən, bir az əvvəl qulağıma səs gəldi göydən. "Hamı səni sevənlər burdadı!" dedi. Şahi-Mərdanın səsiydi. "Bə sən mənə burda niyə kömək eləmədin?" –

mən incik soruşdum. "Gədə, sən nə görmüsən oralarda? Sən ki öz işini görüb qurtarmısan. Gəl, gəl bura. Səni axı burda gözlirlər. Hamı səni sevənlər burdadı…" Ta mən dura bilmənəm. Məni bir daha soraq eləməyəsən. Allah izin versə, indi özümü vururam savaşın isti yerinə, izim-tozum da qalmasın buralarda. Leş bir yana, baş bir yana. Heç ehtiyat eləmə, mənim cəsədimi də tanıyan olmayacaq.

– Lələ, bəs Lələ? – Mən son ümidgah kimi, Lələ, səndən yapışdım.

– Ondan lap arxayın ol. Lələ həlak oldu. İtdi, getdi, verdi özünü ölümə Lələ. Yeri behiştlik olar, inşallah.

Lələ ki, nəfəs belə dərmədən Şahın, yəni, Xızrın söhbətinə qulaq kəsilmişdi, bu yerə çatanda yenə gözlərindən sifətinə gildir-gildir yaş axıtdı:

– Yox, sadağa olduğum, yox, mürşidi-kamilim, ölmədim mən, ölmədi Lələ namərd. Allah, öldür məni, qurtar məni, Allah öz birliyin xatirinə öldür, öldür məni…

Xızr Lələni heç eşitmədən yenə sözünə davam etdi:

– Lələ öldü, Şah dedi. Səni bir kimsə daha tanımaz, çıx. Çıx qorçularınla, tez ol, get buralardan, dağlara çəkil, odur eşidirsən, səni gözlirlər, tez ol. Hər şey sənə mən qədər tanışdır. Get daha…

Yenə çadırdan bayırda təlaşlı səslər yüksəlməyə başladı. Top mərmiləri çadırın artıq yanına düşməyə başlamışdı. Səsdən-küydən qulaq tutulurdu. Belə bir məqamda son dəfə mənim gözlərimin düz içinə baxdı Şah, sonra getdi çadırın arxa küncündə bir ağzını taxta parçası tutmuş yer vardı, o taxtanı çəkib çıxartdı, bütün vücudu ilə girdi o qara deşiyə, yox oldu…

Elə bu dəm iki nəfər tənumənd qorçu soxdular özlərini çadıra, nə mənə, nə sənə bir kəlmə danışmayıb məni qucaqlayıb güclə dartıb çadırdan eşiyə çıxardılar. Əvvəl-əvvəl işıqdan gözlərim qamaşdı, əlim ilə gözümün qabağın tutdum. Sonra əlimi çəkdim, başımı aşağı saldım, heç kimin üzünə baxmadım. Atlar hazır durmuş, ayaqları ilə yer döyürdülər. Qorçular məni gözlirdi. Atlandıq. Bir an içində mən hər şeyi unutdum, elə bildim, həqiqətən də, Şah elə mənəm, elə həmişə də Şah mən özüm olmuşam. Həmişə də olacağam... Sağa-sola göz gəzdirib həyəcan içində yanımdakı Qorçubaşıdan soruşdum:

– Hardadı bəs Məhəmməd Xan Ustaclu? Dev Sultan Rumlu hardadı? Şeypurçu, şeypurçu gəlsin, yığ, yığ hamını həmləyə…

– Şahim, qurbanın olum, gecdir, həmlə zamanı keçdi. – Qorçubaşı az qala yalvara-yalvara dedi. – Çaparaq gedək, aradan çıxaq. Hamı geri çəkildi. Bir biz qalmışıq. Sonra gec olacaq, qurban olduğum…

Daha məni dinləməyib mənim də, özünün də atına bərk bir qamçı çəkdi, atlar götürüldülər, arxamızca on, ya on beş qorçu olardı, onlar da çaparaq gəlməyə başladılar.

Xızr üzünün tərini sildi, təxtin ayağında ki, diz çöküb oturmuşdu, qalxdı durdu ayağa, artıq həyəcanı da keçib getmişdi, Lələyə yaxınlaşdı, dedi:

– Lələ, vallah və billah, mürşidi-kamilimin ruhuna and olsun, həqiqət budu ki, indi mən onu sənə söylədim. Mənim zərrə qədər günahım yoxumdu bu işdə, biləsən. Mürşidimin ruhuna and olsun…

Lələ necə ki donub qalmışdı ayaq üstə qımıldanmırdı, eləcə də davam etdi, bir səs çıxarmadı.

– Lələ… – Xızr ehtiyatla Lələni bir də səslədi. – Eşidirsən məni? Bax, sənə deyirəm, mürşidi-kamilimin ruhu haqqı…

Lələnin sinəsindən qəflətən ah dolu bir fəryad qopdu:

– Of… of… Mürşidinin ruhu sənə qənim olsun, gədə! On ildi. Düz on ildi, qurban olduğum dünyasını dəyişibdi, bütün bu illəri onun həsrəti idi ki, məni salamat saxladı. On ildi, mən niyə ölmədim, dözüb qaldım – indi bildim. On ildi sən… Şahsan, deməli. Allah kaş məni zəlil edəydi, səni o xərabə kəndindən tapıb saraya gətirdiyim yolda. Səni ki mən yaratdım. Şaha bir bax. Sən, yəni, Şahsan? Sən, ki, çoxdan ölməli məlun idin… Sən…

Bunu deyə-deyə Lələ kəmərinin arasında gizlətdiyi balaca bir qəməni çıxarmağı ilə Xızrın ürəyinə saplamağı bir oldu:

– Gəbər, məlun! Al payını! Günahım yoxdu, deyirsən. Mənəm sənin günahın! – Lələnin alışıb yanan gözlərindən od püskürdü.

Xızr hər iki əli ilə sinəsinə saplanmış qəmənin ucundan tutmaq istədi, amma bacarmadı, səndələsə də bir neçə an hələ ayaq üstə dura bildi. Sonra dərindən bir ah çəkib əli köksündə yavaş-yavaş yerə çökdü, fikrindən keçən

son yarımçıq mətləb bu oldu: "Taclı xanım düz deyirmiş, yuxusu çin oldu, gərəkdir ki, mən…"

Sonra fərşin üstünə yıxılıb qaldı, ruhunu təslim etdi.

Lələ hələ bir müddət bunun cəsədinə ikrahla baxdı, baxdı, sonra üzün çöndərdi, Divanxana otağına diqqət edib ətrafa nəzər salmağa başladı. Qapı necə ki, bağlı idi, bir səs-səmir o tərəfdən gəlmirdi, eləcə də bağlı qalmışdı. Lələ daha vaxtı fötə verməyib inamla getdi təxtin yan tərəfində divardan asılmış xəlini sərt hərəkətlə yana dartıb yerə saldı. Divarda ancaq özünün tanıdığı bir nöqtəyə əlini basıb var gücü ilə sıxdı, divar əvvəl-əvvəl bunun üstünə gəldi, Lələ çəkildi bir kənara, sonra divar yana əyilib divarın arxasından yol açıldı. Bu yol ilə aşağı düşən bir nərdivan var idi, Lələ getdi düşdü divarın içindəki o yola, ayağını qoydu nərdivana, enməmişdən əvvəl yenə əli ilə yoxlayıb nəyisə o tərəfdə hərəkətə gətirdi, divar təzədən öz əvvəlki yerini gəlib aldı. Lələ o boşluqda yox oldu, divanxana otağı qaldı kimsəsiz, əgər yerdə yıxılıb qalmış bədbəxt Xızrın cəsədini nəzərə almasaq…

Vəzir qapını aralayıb qorxa-qorxa əvvəlcə içəri boylandı, gördüyünü görüb cəld qapını bağladı. Bir an sonra Vəzir bu dəfə cəsarət edib qapını açdı və özünü saldı içəri, yerdəki Şahın nəşinin üstünə atdı özünü:

– Şahim, Şahim, kim qıydı sənə… noldu sənə, mürşidi-kamilim? – Ora-bura çevirib cəsədi, köksünə sancılmış qəməni gördü, gözləri dəhşətdən az qaldı hədəqəsindən çıxa, daha dinmədi, susdu. Diqqətlə dörd bir tərəfi nəzərdən keçirməyə başladı. Qalxıb gəlib yerdə atılıb qalmış xəlinin yanında bir müddət durdu, çılpaq divara baxdıqca baxdı, əlini aparıb sürtmək istədi divara, sürtmədi, sonra gedib qapını açdı, Rəhim yüzbaşı özünü içəri saldı. Ortalıqdakı cəsədi görüb qapı ağzındaca donub qaldı.

– Gəl, keç, bax bir nələr oldu?! Şah əldən getdi… – Vəzir bir hönkürtü vurub qəmli-qəmli nalə çəkdi.

Rəhim yüzbaşının dizləri titrədi, bir qədər də irəli keçib yerdəki cəsədi tanıyandan sonra huşu başından çıxdı, dili pəltək çaldı. Diz çöküb cəsədin önündə donub qaldı. Vəzir özünə gəldi, otaqda var-gəl etməyə başladı, əlindəki təsbehin daşlarını oynada-oynada, "bismillahi rəhmani-rəhim" deyə-deyə, nə etməli olduğunu düşünə-düşünə qalmış idi.

– Başqa bir şəxs girmiş idi bu otağa? – Vəzir birdən Rəhim yüzbaşının önündə durub yuxarıdan aşağı ona baxdı, soruşdu. – Sənə demişdim axı, bir kimsə içəri girməsin. Kim var idi burda?

– Burda? – Rəhim yüzbaşının hələ də dili güclə söz tuturdu. – Heç bir başqa şəxs içəri girmədi ki. Amma… Şah da tək deyildi, sən axı…

– Bismillahi rəhmani-rəhim… – Vəzir ucadan deyə-deyə yenə var-gəlini etməyə başladı.

– Amma yanında Şahın… bir şəxs var idi… Hüseyn bəy Lələ… Hə, əlbəttə ki, Hüseyn bəy Lələ. O idi Şahın yanında. Bə bu hara itdi? – Yüzbaşı ətrafa boylandı.

– Nəmənə? Sənin əqlinmi çaşdı, gədə? Burda bizdən savayı adammı var? Qapı – bağlı, pəncərə – dəmir qəfəsli… Hüseyn bəy Lələ hələ kimdi? Bəli, bəli, bir beləsi var idi. Vaxtilə Şahımızın lələsi olmuşdu, hörmətli bir zat idi. Çaldıran eşitmisən. O Lələ Çaldıranda həlak oldu, şəhid oldu. Qorçubaşılıq etmişdi bir müddət. Şahın inandığı şəxs idi. Nüfuzu vardı. Hünərli idi. Hələ Hüseyn bəy Lələ hardan gəldi girdi əqlinə? Sən mənim gözümə birtəhər dəyirsən…

Yüzbaşı çaşıb qaldı. Nə deyəcəyini daha heç bilmədi. Bu Vəzir nə deyir, nədən danışır?! Deməli, belə məsləhətdir, ürəyində "ya Allahın adı!" deyib ayağa qalxdı, Vəzirə belə dedi:

– Vallah, billah, mən bilmənəm. Mən heç bir şey bilmirəm. O bir olan Allaha and olsun ki, inan mənə, Vəzir ağa, doğru sözümdü. Amma bu otaqda nəsə baş verirdi, nəsə səslər gəlirdi, qulağıma, hay-küy var idi, mən heç baş çıxara bilmirdim, odur ki, nəhayət, həyətə çıxıb səni çağırdım. Qəribə səslər idi. Atamın səsinə də hələ oxşadı. Nəsə çox təlaşlı qışqırırdı: "Şahim, Şahim, sağ cinah..." deyirdi. Əlbəttə, atamın səsi idi. Amma… deyirəm, bəlkə qulağıma gəlirdi bu səs?! Atam ki, Çaldıranda həlak olubdur. Bayraqdar idi… Onun cinahlarla nə işi vardı?!.

Vəzir yüzbaşıya heç qulaq asmırdı, elə öz düşüncələrinə qərq olub qalmışdı. Yüzbaşının hələ də tir-tir əsdiyinə, nəhayət, diqqət verib dedi:

– Yaxşı, gəl, gəl, çıx burdan, çıx daha, meyit olan yerdə çox durmazlar. İndi biz gərəkdir, bu cürə eləyək. Get, hamını çağır, yığ divanxananın həyətinə! Bu pəncərəni aç görək hələ.

Pəncərə bərk-bərk bağlanmış idi və dəmir qəfəsdən çərviçəsi də var idi.

– Sındır, sındır bu çərçivəni Şahi-Mərdan xətrinə!

Rəhim yüzbaşı necə güc gəldisə, dəmir qəfəsi dibindən qopardı, atdı bir küncə, pəncərə açıldı və pəncərədən gur işıq doldu otağa. Vəzir çölə bir nəzər saldı, yüzbaşıya dedi:

– Tələs, get hamını yığ pəncərənin qabağına, onlara xəbəri özüm verəcəyəm. Yox, dayan. Hələ bir bura dur.

Vəzir Yüzbaşını meyidin yanına çəkdi. Əlini atıb bir dəfəyə qəməni dartıb Xızrın köksündən çıxardı, üstündəki qanı yerdəki xəliyə sürtüb sildi, "al bunu gizlət, bir adam görməsin" yüzbaşıya qəməni verib əmr elədi. Sonra cəsədin üst-başını düzəltməyə başladı, işini görə-görə ya özü-özünə idi, ya da Rəhim yüzbaşıya idi, deyirdi:

– Gərəkdir, hamı bunun xəstəlikdən öldüyünü bilsin. Heç bir vədə Şaha əl qaldırmaq, Şahı qətlə yetirmək olmaz. Olmaz!.. Xəstə idi, ruhunu tapşırdı. Burda da heç kim, heç kim olmadı. Anladın, gədə?.. Heç kim... Heç vədə… Get, indi isə get, dediklərimi elə! Hamını pəncərənin qabağına yığ! Hamını, hamı gəlsin. Şeyxlər, müridlər, qorçular, dərvişlər, hamı… Durma daha, çıx eşiyə…

Rəhim yüzbaşı donmuşdu, elə bil, donu açıldı, qəfildən bir yanıqlı hönkürtü vurub otaqdan qaçıb çıxdı. Vəzir başını bunun dalınca buladı, cəsədin yarasını yenə də bacardıqca ört-basdır edib onu rahat bir şəkildə xəlinin üstünə uzatdı. Durub ora-burasına bir də zənlə baxandan sonra "Allah rəhmət eləsin. Bismillahi rəhmani-rəhim" öz-özünə pıçıldadı, bundan sonra pəncərəyə yanaşdı.

Həyətdən artıq həyəcanlı nidalar, ağlamaq səsləri gəlməyə başlamışdı. "Pirim, mürşidi-kamilim, sadağa olduğum, vay… qurban olduğum, noldu, noldu sənə, vay…" sədaları yavaş-yavaş güc yığıb asimana bülənd olurdu. Rəhim yüzbaşını əyan-əşrəf araya almışdı. Bir anın içində pəncərə-

nin qabağı camaatla doldu. Vəzir əvvəlcə bir müddət qulaq verdi bayırdan şiddətli gələn səslərə, sonra yenə "ya Allah!" deyib pəncərədən başını çıxardı çölə. Həyətdəki səs-küy o saat kəsildi, ancaq ayrı-ayrı hıçqırıq səsləri idi, ordan-burdan yavaş-yavaş yenə gəlirdi.

Vəzir gur bir səslə danışmağına başladı. O danışdıqca yenə yer-yer ağlamaq, şivən səsləri göylərə ucalıb gedirdi.

– Camaat! Evimiz yıxıldı… Nəsibimiz ahü-zar oldu, tifaqımız dağıldı… Matəm tutulsun! Məmələkət yasa batsın! Pirimiz, mürşidi-kamilimiz, sadağa olduğumuz böyük hökmdar Şah İsmayıl İbn Heydər, ibn Cüneyd Səfəvi bu gün hicri 930-cu ilin rəcəb ayının 27-də birdən və qəflətən bizləri və fani dünyanı tərk edib Şahi-Mərdanın himayəsi altında və mübarək qədəmlərilə cənnət-məkana daxil oldular. Əməlləri əbədi yaşayacaq. Özünə o bir olan Allah-taala qəni-qəni rəhmət eləsin…

Vəzir sözünü qurtarıb sinəsindən ah dolu fəryadın necə çıxdığını, sel kimi göz yaşının necə gözündən üzünə, üzündən saqqalına axıb getdiyini, hönkürtünü necə vurduğunu özü də bilmədi.

Divanxana həyətini fəryad və ağlamaq səsləri başdan-başa bürüdü. Ürəyi gedənlər sinəsini döyənlərə qarışmış idi. Bütün şəhər əhli artıq burda cəm idi. Bir adamlıq yer həyətdə yox idi. İynə atsaydın, yerə düşməzdi. Adam adamın üstünə çıxırdı. Qara və yaşıl, qırmızı və qara rənglərə bürünmüş bayraqlar, qızılbaş çalmaları, börklər havada oynayır, camaatın həyəcanı, qəmi və qüssəsi anbaan artırdı, "pirim, haralara getdin, əziz Şahımız, bizi yetim qoyma, qayıt, geri dön, qurban olduğum, mürşidi-kamilim…" sədaları…

*Burada, bu qəmli nöqtədə Şah İsmayılla bağlı mətn son dəfə qırılır və bitir. Əslində, mətləbin özünü də artıq bitmiş saymaq olar. Heç kim heç bir zaman, yəqin ki, qəti şəkildə hökm verə bilməz ki, burda nəql olunan hadisə həqiqətən baş vermişdir, yoxsa, sadəcə, təxəyyül məhsuludur. Çaldıranda həlak olan Şah İsmayılla Çaldırandan sonra haki-*

*miyyətini on il daha sürdürmüş Şah İsmayıl arasında bir əsas fərq var. O fərq Şah İsmayılın özü ilə onun bənzəri Xızr arasında olan fərqdir, vəssalam. Mən "Yarımçıq Əlyazma"nın versiyasına, bəlkə də, belə deyək, həqiqətinə inanmaq istərdim. Bu ən azı hansısa paralel dünyaların birində baş verən hadisədir. Amma kim əminliklə deyə bilər ki, elə bizim öz dünyamızda hadisələr məhz bu cür cərəyan etməmişdir?*

*Artıq qaranlıq düşmüşdü. Durub işığı yandırdım. İnstitutun binasında, deyəsən, heç kim qalmamışdı. Əlyazmanın gerisini oxumağa nə qədər əlləşdim, özümü məcbur edə bilmədim. Daxilimdə, elə bil, nə isə sınmışdı. Bir xeyli "Yarımçıq Əlyazma"nın saralmış səhifələrinə baxdım, baxdım, sonra mən də durub otaqdan çıxdım, binanı tərk elədim.*

Aruz Qoca dəstəsini çəkdi, getdi, Xan həyəti birdən boşaldı. Qılbaş Qazan ilə Qarağacın altında keçib oturdular. Mən dəxi bunlara yaxlaşdım. Qazan dedi:

– Gördünmü, Qılbaş, Aruz Bayındır Xana küsdü. Demi, Qorqud?

– Küsdü. – Qılbaş dəxi Qazanın dediyini təsdiqlədi, – amma özünə küsdü, biləsiz.

– Özünə küsməmiş də kimə küsəcəkdi?! – Qazan, Aruzun qarasına deyindi. – Təkəbbürlüyü yerə, göyə sığmadı bunun. Hamı buna borclu imiş. Bu tonqalın tüstüsü düz çıxmadı, bir türlü işlər qayət olacaqdır. Sən nə dersən, Qılbaş?

– Baxalım, görəlim. Təkəbbürlük eyləyəni Tanrı sevməz. – Qılbaş Qazana cavab verdi, – biz dəxi sevməniz.

*(Bu kəlmə mənə xoş getdi. Qılbaş belə dedi: "Təkəbbürlük eyləyəni Tanrı sevməz, biz dəxi sevməniz". Həqqən, Qılbaş az söylər, amma söylədiyinin anlamı böyük olur.)*

– Mən bir Xana varım, bəylər, bir sözü, buyruğu varmı, yoxmu öyrənim, siz məni burada gözləyin. – Qılbaş qalxıb bizi buraxıb Xan otağına tərəf getdi.

Qazan və mən, ikimiz Qarağacın altına sərilib atılmış palazın üstünə bardaş qurub əyləşdik. O tərəfdən iki nökər bizə gəldi:

– Buyurun, nə istərsiz? – sordular.

– Sənin qarnın acıxdımı, Qorqud? – Qazan mənə sordu.

– Yox. – Mən cavab verdim.

– Mən dəxi yemək istəməm. Ayran içəlim, istərmisən? – Qazan mənə baxdı.

– İçəlim, – mən razı oldum.

Qazan nökərlərə baxdı. Nökərlər baş əyib getdilər.

Qazan dedi:

– Şirşəmsəddin yerdə yıxıldı, yatır, qayət bir qoyunu yedi. Bilirmisən, altı yerə bölündü, onunçün yedi, dörd yerə bölünsəydi, yeməzdi. İndi altını çəkir. Yaş ki o yaş deyil…

Sonra Qazan söhbəti qəfildən dəyişdi:

– Xan, qayət, yorulmuş olar. Bu axşam bir dəxi bizim mətləbə dönməsi ola bilirmi? – sordu.

– Bilməm ki. Hər şey ola bilir. Mənim özüm xeyli yoruldum. – Mən dedim.

Qazan gözün qıya tutub mənə baxdı:

– Qorqud, söylə, Tanrı eşqinə, Aruz mənim barədə çoxmu qarama danışdı, kölgəmə çoxmu qılıc çaldı? – sordu.

– Bir türlü şeylər danışdı. Qılıcını kölgənə çaldı. – Mən dedim.

– Ürəyimə dammış idi. Kölgəmi qılıcladı, ya məni, heç fərq eləməz. O müxənnət Aruz olsun, mən Qazan… Necə dersən, Qorqud, Qaradarvaza ağzına İç Oğuzun qarılarını, xatunlarını yığalımmı? Bayındır Xana mənim barədə… eləcənə təklifdə bulunsunlar. Xana xoş gedər, yoxsa?…

– Yox, olamaz, əlbəttə, Xana xoş getməz. Sən naümid olma. Tanrı kömək edər, hər şey yoluna düşər. – Mən dedim.

– Sən duymamış deyilsən, Xan, Aruza inandımı? – Qazan bir dəxi mənə sordu.

– Qazan, mən nerədən biləyim, Xan Aruza inandı, yoxsa inanmadı?! Mən Xanın beyninə girmədim ki. Hələ üzünə-gözünə heç baxıb durmadım. Özün gördün, mənimki yazmaq oldu. Xanın ancaq iri ayaqlarını görürdüm. Ayağının barmaqlarını oynadırdı, bunu gördüm.

– O zaman qəzəblənmişdir. Mən bilirəm, ayağının baş barmağını oynatdımı, susar durar, amma qəlbində qatı qəzəb edər. – Qazan fikirli dedi.

– Nə bilim?! Yum verəlim, Tanrı özü xeyrə calasın.

– Amin!

Nökərlər ayran gətirdilər. İkimiz də susamış idik, ayranı başımıza çəkdik. Bu zaman Qılbaş yenə ehmalca gəldi çıxdı, üz-gözündən bəlli idi ki, bir əcələsi yoxdur. Qılbaş dedi:

– Xan buyurdu, istirahət etsinlər, dedi. Yarın sabahdan işimizə davam edərik.

Biz razılıq etdikdən sonra yenə bir xeyli Qarağacın altında oturub artıq üçümüz dan-danışıq etdik, bəylərin mərcini, Şirşəmsəddini yada saldıq.

– Uruz gəldimi? – Qılbaş Qazana sordu.

– Gəldi, gəldi. Sən seçdiyin atı gedib gördü. Çox bəyəndi. Xan babam sağ olsun, əsən olsun, min yaşasın, dedi.

Axşam keçdi, gecə düşdü. Qarağacın düz başının üstündə bir parlaq dairənin içinə ay gəlib girdi. Ulduzsuz göy idi, özü də ki, gömgöy rəngə bürünmüşdü.

– Qorqud, sazını gətirdinmi bura gəlirkən? – Qazan mənə sordu.

– Yox, bəy, məqam saz məqamı deyil, özün bilirsən.

– Öylədir, doğru dedin. Məqam heç saz məqamı deyil. Mən sazı niyə sordum, bilməm ki… Belə isə… – Qazan ətrafa boylandı, – nə dersiniz, bəylər, saz yox, söz yox, di o zaman, gedəlim dinlənəlim. Mən, qayət, yoruldum. Sizi bilmənəm.

– Doğru dersən, – mən dedim, – gec qaldı. Yatalım, bəylər.

– Siz dinlənin. – Qılbaş boylandı, qul-xəlayiq yığışan tərəfə baxdı, – mənim hələ görəcək işlərim var.

Qalxıb biri-birimizə “sağ ol, əsən qal” deyib odalarımıza dağılışdıq. Döşəyə girdim, amma gecə yenə mənim uyqum yaralı şikar kimi məndən qaçmağa başladı. Gah mən onu haqladım, gah buraxdım, o qabağa getdi. Qayğılı fikirlər gəldi girdi başıma. “Dəxi Xan hər bir kəsi dinlədi, hər bir xəbəri aldı, bir kimsə qalmadı. Qayət, sabah son gündür. Xan öz qərarını,

əlbəttə, söylər. Tanrı özü köməyimiz olsun. Tanrı özü Oğuzu qorusun, amin!". Bu fikirlərlə gözüm məni qaranlığa apardı. Az keçdi, çox keçdi, bilmədim, qəflətən xoruzun ilk banı məni uyqudan durquzdu. Sabah artıq açılmışdı. Tez yataqdan qalxdım, geyindim və Qılbaş, bilirdim ki, arxamca gələcəkdir, onu gözlədim.

Qılbaş gəldi, biz ikimiz Xan həyətinə çıxdıq, yenə Qarağacın altına gəldik. Bu gün sabahdan dağ başından duman enib Günortacın hər yerini sarmışdı. Qazılıq dağının soyuğu Xan həyətinə dolmuşdu. Qazan bu ara gözə dəymədi. Mən dəxi Qılbaşa bir şey sormadım. Yemə-içmə nökərlər tələsik gətirdilər, dinməz-söyləməz qarnımızı doyurduq. Sonra Qılbaş "vaxtdı, gedək" dedi, biz qalxıb Xan otağına sarı getdik.

Bayındır Xan obaşdandan durmuş idi, Xan otağında keçib öz yerini tutmuş idi, bizi gözlirdi. Bizdən salam aldı, salam verdi. Baş əydik, gedib hər birimiz öz yerimizə oturduq, mən hazırlayıb kağızımı, qələmimi çıxarıb qənşərimə qoydum. Bayındır Xan bunlara baxdı, baxdı, sonra belə dedi:

– Qorqud, oğul, sən, qayət, bu neçə gündə yoruldun. Onları bir kənara qoy, səninlə dan danışmaq istirəm.

Mən Bayındır Xanın səsində bir təlaş, qəzəb duymadım. Ürəyimə təskinlik gəldi. Kağızları və qələmi çəkdim qırağa, diqqətimi Bayındır Xana cəmlədim. Bayındır Xan bu dəfə söhbətinə başlamazdan əvvəl üzünü Qılbaşa tutdu:

– Qılbaş, var, sən dəxi bizi tək burax, Qorquda deyəcəklərim var, Qazana da söylə, hazır olsun, Qorqudla işi bitirəlim, sonra onu mənə gətirərsən. Bir baxarsansa, gör, Şirşəmsəddin sağdı-əsəndi, yoxsa öldü qavat oğlu qavat?

Şirşəmsəddini xatırlayan təki Bayındır Xanın dodaqları qaçdı, dünənki yarışdan qayət xəbəri var imiş.

– Qorqud, oğul, yaxın otur, qənşərimə keç. – Qılbaş çıxcaq Bayındır Xan mənə dedi.

Mən yaxına keçdim. Bayındır Xan məni bir xeyli süzdü, sonra sordu:

– Sən nə dersən, Qorqud, oğul, bir kimsə dəxi qaldımı ki, bu casusla ilgili bizə türlü xəbər verməmiş olsun? Ya necə?

– Qalmadı, Xanım. Bir kimsənə qalmadı. Kim var idi, istintaq edildi, qayət. – Mən başımı yerə dikib yavaşdan cavab verdim.

– Yox, Qorqud, doğru söyləmədin. Bir kişi qaldı.

– Kim ola bu kişi, həşəmətli Xan? – Mən sordum və Bayındır Xanın cavabından sonra damarımda qanım dondu.

– Sən, – Bayındır Xan cavab verdi. – Sən qaldın, Qorqud, oğul, demi?

Mən susub durdum, gözlərimi yerə dikdim, ürəyim necə guppuldadı, kürəyimdən soyuq tər necə axdı gəldi tumanıma çatdı – həpsini duydum.

Amma Bayındır Xanın səsində yenə də qəzəb yox idi. Bu dəfə qəflətən əlin-əlinə çaldı, qas-qas güldü:

– Amma necə də qavat oğlanlarını Boğazca arvad sırça barmağına dolamışdır?! – Bayındır Xan gülə-gülə bunu dedi.

Mən qıpqırmızı olmuş idim, yer ayrılsaydı girməyə hazır idim, təki Bayındır Xanın qəlbindəki şübhələr bu sabahkı dağdan enən duman kimi tezcə gəlib tezcə də çəkiləydi.

– Qorqud, oğul, dedim ya, növbət gəlib sənə yetişdi. Dan-danışaq. Nə dersən? – Xan gülməyini zor-güc saxlayıb mənə gözlərini qıyıb baxdı.

– Bəli, həşəmətli Xan, – mən dəxi boşuna vaxt itirməyib sözümə başladım, – doğru buyurdun, növbət mənə yetişdi. Nə istərsən, mən dəxi söyləməyə hazıram. Bəlli bilgil.

– Qorqud, bunları Boğazcaya sənmi qandırdın? – Bayındır Xan mənə sordu.

– Bəli, həşəmətli Xan, mən qandırdım. – Mən düz yoldan getdim, böylə cavab verdim.

– Ya, neçin öylə etdin, söylərmisən? Boğazca ilə sənin dəxi ilişginmi olmuş idi?

– Olmuş idi, mən dəxi bir zamanlar onun evinə düz yolu qoyub əyri yolla getdim. İndi isə zavallıya acıdım, günahımı qadir Tanrı göy üzündə, sən isə Xan, yer üzündə bağışlarsan, inşallah.

– Belə… sənin cavabın xoşuma getdi. Nə var idi, onu dedin, düz yolunu çaşmadın. – Bayındır Xan razılıqla dedi, mənim üzümə baxıb durdu.

Bir az susandan sonra Bayındır Xan bir dəxi bunu dedi, sordu:

– Sən mənə bu istintaqda çox kömək etdin, bilirmisən? Söylərmisən, bu işlərdən indiyə qədər anladığın nə oldu? Mən bu istintaqı neçin qurdum?

Mən bir qədər düşündüm. Bayındır Xan dəxi bir söz demədən mənim cavabımı gözlədi. Nəfəsimi dərindən alıb belə cavab verdim:

– Həşəmətli Xan istədi, "casusu qaçıran kimdir?" öyrənib bilsin, ona qatı qəzəb eləsin, Oğuza görk olsun.

– Öyləmi? – Bayındır Xan maraqla mənə baxdı. – Öyləmi düşündün?

– Bəli, Xanım, öylə düşündüm.

– Qorqud, oğul, – Bayındır Xan dedi. – Mən bunları istintaqa başlamazdan öncə artıq bilmiş idim. Duymadınmı?

*(Əlbəttə, mən düşündüyüm doğru idi. Xan istintaq deyil, imtahan qurmuş imiş. Əsl məqsudi isə nə idi – bunu bircə özü bilir.)*

– Bəli, Qorqud, əlbəttə, bilir idim, vaqeəni mənə anlatmışdılar. – Bayındır Xan ürəyimdən keçənləri gözlərimdən oxudu, davam etdi, mənə cavab vermiş oldu. – Mənim əsas məqsudim, oğul, biləsən, casusla ilgili deyildir. Mənim əsas məqsudim… sənə söyləyim, "Oğuzu içindən parçalayan qavat oğlu qavat kimdir?" sorusuna cavabdır. Mən bu cavabı aradım, Qorqud, oğul. Bu cavabı dəxi mən buldum, bəlli bilgil.

Mən nəfəsimi alıb-verməyə də ehtiyat etdim. Xan otağında sükutun səsindən başqa bir səs yox idi.

– Sən nə dersən, kim ola bu qavat oğlu qavat? – Bayındır Xan sordu.

*(Yenə məni imtahana çəkir. Hər birimiz bilirik – deyilmi? Yox. Olmaz. Aruzu deyimmi? Yenə yox. O zaman kim… kimi deyim? "Heç kimi demə – Nur daşından qəlbimə şəfqət qanı axdı, heç kimi demə, – Nur daşından xəbər gəldi, – Xan özü öz sonucuna gəlmişdir. O səndən cavab gözləmir. O özü-özü ilə dan danışır". Nur daşı mənə bu işarəti verdi, mən dəxi susub durdum, yum verdim.)*

– …Bir düşünsənə, Qorqud, oğul. Kimi dindirdim, Aruz dedi. Mən Aruzu heç bəyənmədim, bilirmisən?! Neçin bəyənmədim?! Bunun səbəbi

çoxdur. Amma gördünmü, Aruz tək kişi oldu, Boğazca ilə söhbətini açıb tökmədi ortaya?!

– Bəli, Xanım, öylə oldu. – Mən dedim.

– Bəli, öylə oldu. Qazana nə dersən? – Bayındır Xan sordu və susdu, məndən cavab gözlədi.

Mən şaşırdım:

– Qazanmı? Qazan İç Oğuzun güvəncidi, Bayındır Xan.

– Bəli öylədir, amma Qazan Qalın Oğuzu içəridən gəmirən canavardır həmi. Şaşırdınmı? Heç şaşırma. Dinlə məni. Mən sənə söyləcəyəm. Heç kimə yox. Sənə. Bircə sənə. Bilirəm, bir zaman gələcək, gərəyin olacaq. Qorqud, oğul, ava gedən qavat bütün ordunu özü ilə apararmı? Apararsa, akınlarda ad çıxarmış dayısını el-obanın üstünə qoymazmı? Qazan ava çıxınca Aruz ona doğru etdi sordu: "Uzağa, çox uzağa, qorxulu səfərə gedirsən, yurdda ordun üstünə kimi qorsan?" Qazan nə etdi? Aruzu ordusu üzərinə qoymadı, ağzından süd qoxusu gələn oğlancığını qoydu. Aruzu küsdürdü. Öylədir, öylə deyil? Aruz Qazandan sonra birinci olmaq dilər. Qoymadı, olmaz dedi, mən səni saymanam, dedi. Sonuc? Düşmən yurdu daradı, ulu savaş oldu. Bu belə. Sonra. Bəkili sınırdan çağırıb qonaq eyləyəlim, bəylər, dedi, ava çıxalım. Çıxdılar, yedilər, içdilər, demi? Sonra nə etdi? Bəkilin yediyini burnundan tökdü, hünərinə "sənin hünərin deyil, atın hünəridir" dedi. Bəkili dəxi küsdürdü. Etdimi bunları? Bəli, etdi. Sonrası nə oldu? Bəkil geri evinə gedər oldu, Oğuza asi olmaq istədi, qomadılar, ava çıxdı dərdini dağıtsın deyin, atdan yıxıldı, sındı, düşmən Qara Təkur Oğuzun sınırına qondu. Sonuc? Yenə savaş! Bunları Qazan yapdı, Qorqud, Qazan… düşünürmüsən?

Bu yana, qavat oğlu qavat evini yağmalatdı. İç Oğuzu çağırdı, bu dəfə Dış Oğuzu çağırmadı. Səbəb nə idi? Söylərmisən mənə, mən dəxi bilmək dilərəm. Mən bunu bilmirəm. Bir səbəb yox ki. Bəylərbəyinin kefi belə istədi, demi? Xatunu belə söyləmiş. Olurmu? Olurmu soruram, Qorqud?! Sənə soruram. Olmaz! Olmaz, Qorqud, oğul, olmaz. Heç olmaz.

Bayındır Xan susdu, nəfəsi təngimiş idi, nəfəsini dərdi. Bayındır Xanın rəngi qıpqırmızı olmuşdu. Başını əyib pəncərədən həyətdəki çiçəkliyə nəzər yetirdi. Bir müddət sükutun səsini dinlədi, sonra yenə mənə sarı döndü, sözünə davam etdi:

– Hələ mən bunun o biri qəhrəmanlıqlarından danışmıram. Anası əsir, halalı əsir, oğlancığı əsir… Bu qavat qarıcıq anasını Şöklü Məlikdən geri diləmişdir, halalını, oğlancığını yox, "necə gətirmisən sənə əsir-yesir olsun" demişdir. Hərbi hiylə imiş… Oğuzda uşaqlara get söylə bu hərbi hiyləni. Bəylərbəyinin hərbi hiyləsinə baxginən. Sənə mən distur verdimmi ordunu başına yığıb Oğuzu qatı düşmənə açasan, ava gedəsən?! Verdimmi mən distur? Susursan, Qorqud. Vermədim, bəlli bilgil.

Bu yana, Beyrəyi dəxi yanından bir yerə buraxmaz. Nədi bunları belə bir-birinə bağlayan – bilməm ki. Bu Beyrək, sən söyləmədən dəxi mən bunun nə əməllər yiyəsi olduğun bilir idim. Burla Xatunla qurğu qururmuş. Xatunda ağılmı olar?! Öysəl olmuş dananın ağzının suyu axan kimi Basat derkən bunun ağzının suyu da öylə axdı. İndi Basata görə Aruzdan intiqam almaq dilər. Ortada başqa nəsnə yox. Nə Qazan bunu anlar, nə Beyrək. Xatunda ağıl olmaz söylədim, ya?! Amma Xatunda ağıl yerinə bir türlü başqa şeylər olar – onu dəxi biz anlamarız. Hələ Qazan, Beyrək heç anlamaz. Bu Beyrək var ya? Gül kimi evində halalı. Baybecanın qızın derəm. On altı il bunun yolunu gözləmədimi?! Evində halalını qoyub nə düşmüsən Oğuzu pinar-pinar gəzirsən? Bu qavat oğlu qavat bir də gördün, bizim qızı başından elər, mən bilirəm. Şirşəmsəddin qavat demədən də bilir idim. Əlbəttə, buna bir əncam bulmamız lazım. Aruz Oğuza təhlükədir. Beyrək isə mənim evimə təhlükədir, biləsən. Bu Oğuzu ki mən qurmuşam, bu evimi ki, mən ucaltmışam, gərəkir ki, İç Oğuz da, Dış Oğuz da, tüm qalın Oğuz südəmərindən əldə qılınc tutanınadək gərəkdir ehtiram qılsın. Oğuz öncə özü-özünə ehtiram etməzsə, Arşın Dirək Təkurmu bu ehtiramı qılacaq, ya Şöklü Məlikmi? Buyur, o gün Trabzon məliyindən xəbər gəldi, ona da Bayburd söyləyibmiş bu Beyrəyin oradakı əməllərini. Nə zindan, nə həbs, nə məhrumiyyət?… Boşuna rəvayətlərdir. Qonaq kimi aparıblar, saxlayıblar, Bayburdun bir bikr qızı varmış, o qızı yolundan eləyib, qız dəxi bunun ucundan bütün elçilərini geri göndərirmiş, Beyrək mənim sözlümdür, məni halallığa alacaqdır, söz vermişdir – deyirmiş. Babası, anası bu qavatın yolunu gözləyə-gözləyə məzara gömüldülər, bu, Təkgözün üstünə gedən ordudan qaçıb getsin deyin Bayburdda özünə isti ocaq bulubmuş… Oğuzun ba-

şında bu gün olmasa da, yarın bir bəla vardır, Qorqud, bəlli bilgil. Biz adamlarımızı doğru-düzgün tanımadıq, demi? Nə edəlim?! Necə edəlim?! Tədbir qılmamız gərəkir. Dış Oğuz dişini artıq qıcadı. Aruz boynunu kənara çəkdi. Qayət, Aruz savaş tədbirini qılacaqdır. Hələ mən bu Qazılıq Qocadan dəxi bir şeylər anlamıram. Düzmürd qələsindən dönəli, bilirəm ki, Aruzla tez-tez görüşürlər. Amma dəxi nə deyirlər, nə qoyurlar, onu bilməm. Qazılıq Qoca dəxi Dış Oğuzdandır, Aruzun qövmü sayıla bilir. O zaman Dış Oğuzu razı salmaq üçün mən bunu vəzirliyə aldım. İndi Aruzla iyləşir. Bax belə, Qorqud, oğul. Belə-belə işlər. Sən dəxi "casus", "casus" dersən, bu casus məni, sənə söylədim ya, çox az ilgiləndirər. Suç bizim özümüzdə. Suç Qazanındır, Qorqud, Qazanın.

Bayındır Xan bunları yana-yana söyləyib yum verdi, susdu. Mən dəxi susdum. Bəli, bu imiş Xanın əsl öyrənmək istədiyi mətləb. Kim Oğuz içində nəyi dilər?! Oğuzun irinli yarası hardadır? Artıq uzun zamandan bəri ikiyə bölünmüş Qalın Oğuzun sözdəki birliyi bu gün niyə tük qədər nazik oldu? Suçlu kimdi? Bayındır xan sözü boşuna deməz. Suç Qazanın imiş. Qazan, Qazan… İndi kim nə yapa bilir ki… Mənlik deyil. Ümid qaldı Xanın şəfqət damarına. Ey Nur daşı…

– Qorqud, oğul, məni yaxşı dinlə. Qazan mənim göykümdür, mən Qazana yapmalı olduğumu yapamam. Sən nə dersən?

– Doğru buyurursan, Xanım. Qazana qəzəb eləsən, o zaman Oğuz doğrudan doğruya, birdəfəlik parçalanıb ayrılar. Savaş başlar, amma bitməz.

– Öylə. O zaman bəs nə edəlim? – Bayındır Xan sordu. – Bizə gərək olan odur ki, savaş, başlamadan bitsin, unudulsun. Bizə bir başqa suçlu gərəkir.

– Xan, suçlu vardır. – Mən ehtiyatla dedim.

Bayındır Xan gözün qıya tutub maraq içində mənə baxdı.

– Bəli, həşəmətli Xan. Suçlu Aruz Qoca olursa, bu iş bitirmi?

– Qorqud, suçlu varsa, cəzası da olmalıdı. Aruza nə deyəcəksən? Yığacaqdır başına Dış Oğuzu, hərzə-hərzə söylənəcək, söylənəcək, axırı bu işini böyük savaşla başlayacaqdır. Amma bitəcəkmidir?! Aruz dersən, bu Aruz hələ ki bir yaman iş yapmadı…

– Yaparsa?.. – Mən sordum.

– Nə yapacaqmış ki, Aruz? – Bayındır Xanın qara gözləri qorxunc parıldadı, – mənə qarşımı yapacaqdır?

– Xanım, Aruz distursuz bir Oğuz bəyini öldürürsə, cəzası varmı? – Mən sordum.

– Var! – Bayındır Xan cavab verdi. – Distursuz öldürərsə, var, hesab verəcəkdir.

– Xanım, Aruz cəzasını alarsa, Qalın Oğuz Aruzdan dönərsə, İç Oğuz Dış Oğuz savaşı sona yetərmi?

– Yetər! – Bayındır Xan yenə qətiyyətlə dedi.

– O zaman, Xanım Aruzun bu suçu işləməsi lazım.

Bayındır Xan diqqət edib mənə baxdı. Mən davam etdim:

– Bəli, həşəmətli Xan, qurban gərəkir. Bu qurban varsın Aruza, səni Qazanla barışdırmağa gəldim desin.

– Sonra nə olsun? – Bayındır Xan qatı maraq etdi.

– Sonra, Xanım, Aruz suç işlətsin, bunu… öldürsün. Daha sonra Qalın Oğuz Aruza cəza versin. Məsələ bitsin.

– Öyləmi? – Bayındır Xanın səsi yavaş çıxdı. – Kim olacaqmış bu qurban, söylərmisən?..

Məqam yetişmiş idi. Mən düşünmədən-daşınmadan dodaqlarımı səssizcə tərpədərək bu qurbanın adını Bayındır Xana dedim.

Bayındır Xan mənə çox diqqətlə baxdı. Bu dəfə mən Bayındır Xanın gözlərinin dibsiz dərinliyində bu adın onsuz da mən deməzdən çox-çox əvvəl gizlənmiş olduğunu gördüm. "Xan hər şeyi əvvəlcədən düzənləmiş, qurğusunu qurmuş idi, adı məndən çıxarmaq idi məqsudi" – kəlmələri yenə də havada fırlanıb könlümə girdi. Hardan gəldi bu kəlmələr? Qayət, Nur daşından gəldi, özgə gələn yer varmı ola, əlbəttə yoxdur…

– Dünya gəlimli dünyadı, amma dünya həmi ölümlü dünyadı, Qorqud. Əcəl alır, yer gizlədir, sirrini özündə saxlayır. Sən bu işi sona yetirə bilirmisən? – Bayındır Xan mənə sordu.

– Dünya qoca dünyadı, həşəmətli Xan. – Mən söylədim. – Bu dünyada sirr qalarmı, qalmazmı, onu mən bilmənəm. Mən Oğuzda sirləri könlümə yığa-yığa nə hala düşdüm, bilirmisən?! Bu dəxi sirlərin sirri olar. Kön-

lümün məzarlığına gömülər, amma dünya ki dersən, bu, bir adam kimidir, bu gün vardır, yarın yoxdur. Yarın olmazsa, sirrini kimə verəcəkmiş?..

– Sənin bir sirrin dəxi artacaqmış. – Bayındır Xan dedi. – Amma dünya ki, dersən, Qorqud, oğul, dünya qoca deyil. Dünya dediyin cavan dünyadır.

– Xan doğru buyurur. Amma… dəxi nə qaldı bu dünyanın başına gəlmədi?! Odlu mancanaqları dəxi icad etdilər…

– Dünya cavan dünyadı, Qorqud. Kişinin uzun yaşının ucu ölümdür. Dünyanın yaşının isə ucu olmazmış. Bilirmisən… bilirmisən, kim bunu mənə dedi? Bilmirsən. O zaman dinlə… Babam! Babam mənim bunu derdi, heç unutma. Babam Qamğan derdi… Bir dizini yerə basıb gözünü qıya tutub mənə, məndən keçib o tərəfə, gen dünyaya baxdıqca baxa durub bilirmisən, nə derdi?! Deyəcəyəm, həpsini deyəcəyəm. Dinlə məni, gərəkin olacaqdır. Babam Qamğan derdi ki...

... artıq kim bilir, neçənci gündür, zəlzələdən sağ çıxan insanlar ah-zar içində, sonsuz kədər və qüssə ilə ölənlərin qoxumağa başlamış cəsədlərini dəst-dəst bir yerə yığır, sonra bütün güclərini toplayaraq bu cəsədləri Gəncənin şimal səmtində yerləşən qədim Səbzivar qəbristanlığına daşıyıb orada dəfn edirdilər. Qəbristanlıqda yeni qazılmış qəbirlər üzündən addım atmağa yer qalmamışdı… Qəbirlərin üstü isə vəhşi-vəhşi səslər çıxarıb dövrələmə uçuşan, irili, balacalı, saysız-hesabsız quşla dolu idi və bu mənzərə insanların qəlbini həm də qorxu ilə doldururdu. Darmadağın olmuş evində, bir möcüzə, sağ qalmış qoca bir münəccim vardı, sözünə-falına çoxdandır kimsə inanmırdı, qətiyyətlə belə dedi: "Bu quşlar ölüb gedən günahsız biçarələrin ruhlarıdır, sakitlik arayırlar. Qorxmayın, uçub-uçub sonunda yorulacaqlar və o zaman bizləri əbədi olaraq tərk edib buralardan gedəcəklər…"

# Son söz
# və yaxud natamamlığın damğası

Şərqşünas qıza söz verdiyim kimi A 27/ 733 nömrəli qutudakı "Yarımçıq Əlyazma"nı ona, ya da aşağıda, girəcəkdəki qapının sağ tərəfində yerləşən Əlyazmaların qorunma otağına qaytarmalı idim. Nədənsə, mən bu qızın özünü bir də görmək istədim. Son dəfə Əlyazmanı səliqə ilə qutunun içinə yerləşdirəndə beynimdən qəfil keçən belə bir fikirdən özüm də diksinən kimi oldum. "Bu qızı bir daha görməyəcəyəm. Axtarsam da, yoluna-izinə düşsəm də o artıq mənim üçün yox oldu, uçdu, dağıldı, itdi…".

Paltomu geyinib otaqdan çıxdığım yerdə az qala üz-üzə toqquşduq. İçində Əlyazma olan qutu qoltuğumda idi, əlimdə isə bu qızın Əlyazma mətnini yazıb mənə verdiyi dəftərlər vardı. Birtəhər qoltuğumdakı qutunu ona ötürdüm və elə bil, nə isə həm yüngülləşdim, həm də rahatlaşdım. Təşəkkürlər, nə bilim nələr, bir sözlə, ehtiramların izharı və sairədən sonra Şərqşünas qız yenə də üzünün bir cizgisi belə dəyişmədən qutunu məndən alıb bərk-bərk qucaqladı və heç bir söz soruşmadan durub gözlədi. Çox istəyirdim ki, o, nəsə soruşsun, mən də ona düşündüklərimdən, hiss etdik-

lərimdən bir şeylər danışım, o isə susdu. Getməyinə də getmirdi, danışmağına da danışmırdı, elə bil, gözlərilə baxıb arxayın olmaq istəyirdi ki, mən, nəhayət, buraları tərk edib birdəfəlik çıxıb gedirəm.

Yavaş-yavaş ikimiz də bir kəlmə kəsmədən çıxışa tərəf yönəldik, o yəqin ki, Əlyazmaların qorunma otağına gedəcəkdi, mən də ki, İnstitutdan çıxacaqdım. Beynimdə yenə də "Yarımçıq Əlyazma"dakı Bayındır Xanla Qorqudun son söhbəti dolaşmağa başladı. Qoca Bayındır Xan! Gənc Qorqud! Bunların arasındakı dünya! Qoca Xanın gənc dünyası və gənc Qorqudun qoca dünyası. Nə təhər demişdi Qorqud: "odlu mancanaqları dəxi ixtira etdilər, nə qaldı?..." Mən birdən anladım ki, onların hər biri öz dünyasında o birisi ilə söhbət edir; Bayındır Xanın dünyasında öz Qorqudu var idi, Qorqudun "dəxi" dünyasında öz Bayındır Xanı var idi. Bunlar bir-biri üçün bir yerdə yoxdular... Bəs bu məndən qabağa düşüb amma bütün vücudu ilə hər hərəkətimi sanki izləyən, "Yarımçıq Əlyazma"nı öz içində bələnmiş uşaq kimi gizlətmiş qutunu qucağına sıxıb dikdabanları ilə taqqataq salan bu arıq, çəlimsiz qızın öz dünyası necə – varmıydı? Mən onun dünyasında kim idim?! Niyə onun siluyeti mənə o cızma-qaraların içindən açıqca, lap aydınca sezildi, eynən mənimlə qapı ağzında toqquşan zaman üzündəki o ifadə idi həmən siluyeti mənə tanıtmışdı. "Söhbətdən qaçır, bilərəkdən qaçır. Bəlkə də bütün İnstitut əməkdaşları Şərqşünas qızın bu cür görkəmi ilə, mənim getməyimi, yox olmağımı gözləyən bütün işçilərin vahid arzuniyyətini özündə cəmləmiş səbirsiz görkəmi ilə hamılıqla məni yola salırdı və əlbəttə ki, bu, belə idisə heç bir əlavə söz-söhbətin yeri ola bilməzdi.

"Görəsən Şah İsmayılla bağlı mətnlə Qorqudun mətni arasında bir uyğunluq, gizli də olsa, bir əlaqə vardır, yoxsa?.. Soruşsam bundan, necə olar? Yox, bunlar lap çaşarlar, elə bilərlər, tədqiqat-zad yazmaq niyətim var. Bu saat bizim arxamızca dəlikdən-deşikdən, görünən, görünməyən min bir yerdən min cür göz baxır. O nə qapıdı, cırtıldaya-cırtıldaya örtüldü, kölgəsi, elə bil..." Qız irəlidə, mən onun arxasınca enli pillələrlə aşağı düşməyə başladıq.

Üç gün bura gəlib-getməyimin indi, bir azdan, nəhayət ki, sonu çatacaqdı. Özümü hazırlayırdım ki, Şərqşünas qızla bir daha əməlli-başlı vida-

laşım, dərin təşəkkürlərimi ona yetirim, amma necə bilirsiniz, heç arxasına da baxmadan, mən, elə bil, heç yox idim bunun üçün, pilləkənləri tez-tez düşüb gedib girdi o Əlyazmaların qorunma otağına və yox oldu, əridi.

Küçəyə çıxdım. Onun mənə verdiyi dəftərləri (iki qalın dəftər idi) əlimlə bir daha paltomun cibində yoxladım. Rahatlıqla köks ötürdüm. Tərəddüdlərimin sonu, deyəsən, gəlib çatmışdı. Yəqin ki, bu bitəcəksə, elə-belə də bitəcək. Eynən bizim Əlyazmada olan kimi. Natamamlıq artıq, deyəsən, öz damğasını "Yarımçıq Əlyazma"ya aid nə vardısa hər şeyə vurmuşdu. Əlbəttə ki… Nə edəcəyimi beynimdə götür-qoy edə-edə uzun bir yoldu, gedirdim və birdən gəlib yadıma düşdü ki, üzündə lal məzəmmət Şərqşünas qızın mənə dediyi kimi…

# Sehrbazlar dərəsi

Az qala bir balaca dartınıb əlini atsaydı, toxunacaqdı. Karvanbaşı başının düz üstündə dən-dən, duz-duz olmuş bu şıltaq və yorğun ulduzları yenə də heyran-heyran seyr eləməyində idi. Bir xeylaqdan sonra baxışını döndərib bu dəfə dörd ətrafda qatırı, dəvəsi, atı hərə bir yerdə özünə gecəlik yer eləyən karvana nəzərini saldı. Karvan ləhliyə-ləhliyə gecənin səssizliyinə batırdı. Hərdən dörd bir tərəfdə quru torpağa çöküb bir-birinə qısılmış dəvələrdən kövşəyən, atlardan kişnəyən olurdu, hardansa bir az da uzaqdan ya köpək, ya qurd səsi idi qərib-qərib gəlib dürtürdü özünü adamın qulaqlarına. Başqa bir şey yoxuydu bu məşum sakitliyi pozaydı. Orda-burda ocaq çatmışdılar, yorğunluqdan üzülmüş kimi çatır-çatır yanıb közərməklərində idi, dəvələr yerə çöküb bir-birinə qısılıb üstünü mamır basmış daş kimi hərəkətsiz qalmışdı, atlar, qatırlar da ki… Qərəz, gecə elə buradaca dincələn karvan, özü də böyük bir karvan – heyvanı ilə, nökəri ilə, sarvanı, qulu ilə…

***

Karvan uzun və üzüntülü bir yol idi gəlirdi, məmləkətin sərhədlərinə daha az qalmışdı, heç nədən də olmasa sazaqdan bərkimiş torpağın yavaş-yavaş dəyişən o tanış və doğma rəngindən Karvanbaşı bunu duyurdu. Məmləkət torpağına ki yetişəcəkdilər inşallah, daha qaçaq-quldur qorxusu da qalmayacaqdı. İndi az da olsa çöldə tənha cəsəd kimi çürüyən bu qorxu hələ var idi. Gözucu düşərgənin o biri ucundan bu ucuna tərəf böyür-böyürə gələn uzun qaraltıları məmnun-məmnun diqqətlə süzdü – gözətçilər idi. Hər üçünə yaxşı bələd idi, etibarı var idi, hələ məmləkətdə min bir sınaqdan keçirib sonra onları öz karvanına qatmağa razılıq vermişdi.

Gözətçilər yaxınlaşıb onu tanıdılar-tanımadılar büruzə verməyib rəsmi qaydaya itaət edərək başçıları ondan gecənin adını soruşdu. Ürəyində "bilməsəm, nə edərsən?" düşündüsə də dili ilə "Qıpqırmızı üfüq" cavabını verdi. Gözətçilər ötüb keçdilər, qaranlıqda əridilər.

Hər gecənin öz adı olurdu, bu adları hər sabah tezdən Karvanbaşının əvvəlinci sadiq şəxsi olan Xacə İbrahim ağa özündən uydururdu, karvan əhlinə yayırdı, ancaq karvan əhli bu adı bilirdi, kənar bəndə gecənin adını bilməzdi və bu qayda ilə karvan uzun və qorxulu yolda özü özünü qorumaqla məşğul idi. Kənar qaçaq-quldurdan, oğrudan-çapqından qorunmaq olduqca vacib idi. Zarafat deyildi, karvan zinyət əşyaları ilə üstü-başı dolu sevgili bir qadın kimi idi, özü də ən əsası o idi ki, bu qadın biriminci olaraq qibleyi-aləmin özünün ayağı altına səriləcəkdi, ondan sonra bazarınkı bazara, sifarişçininki sifarişçiyə…

Artıq neçəminci dəfə idi bu cür karvana karvanbaşılıq edirdi. Yol yolçusu olmaq nə vaxtsa eləcənə yüngülcə bir yazı kimi ahəstəcə taleyinə yazılmışdı. Evdəkilər – arvadı, bircə oğlu nökər-qaravaşları onu gözləyə-gözləyə böyüyürdülər, yaşlanırdılar, qocalırdılar, o isə dəyişmirdi. Elə bil, nə isə qəribə bir qüvvə idi, cərəyan idi, hər nə idi yeddi qatına hakim kəsilib onu yad bir gərginlikdə saxlayırdı. O heç cürə qocala bilmirdi, heydən düşə bilmirdi. Məqsədi-alisi var idi, sirri-müqəddəsi var idi, bəlkə ən əvvəl buna görə belə idi, ya yox, belə deyildi – onu özü də düz-əməlli biləmmirdi.

Daha beynini bundan artıq yormaq istəmədi, Karvanbaşı onun üçün salınmış çadırın içərisinə keçdi. Hardansa, eynən bu qaranlıq yoxluğun içindən idi, elə bil, peyda olub Xacə İbrahim ağa özünü onun dalınca çadıra saldı. Bir qırmızısaqqal adam idi bu Xacə. Qırmızılıq saqqalında, elə bil, təzə-təzə tük-tük seçilməyə başlamışdı. "Ay olar yəqin üzünə su dəyməyəli" – Karvanbaşının beynindən keçdi – "bircə tezlik ilə yetişəydik mənzil başına, evimizə, bağça-bağımıza daxil olaydıq, tay bu binəvalar əldən-heydən düşdülər…" – qəmli-qəmli düşündü, bir küncdəki şamı əlinə alıb çaxmaqla yandırdı, məcməiyə şamın ucunu bərkitdi.

Çadırın içinə qorxaq-qorxaq yarımçıq işıq gəldi, kölgələr düşdü. Karvanbaşı sual dolu kədərli çöhrəsini çöndərdi Xacə İbrahim ağanın üzünə, yəni, "nədi, nə istirsən?" soruşmaq istədi.

Xacə İbrahim ağanın ürəyi atlandı:

– Qurbanın olum, gəldim… ürəyim rahat deyildi, daha az qaldı, bu qarşıdakı gədiyi keçdikmi, o üzündə dərə açılır.

– Bilirəm, yolu mənə tanıdırsan?!

– Yox, qurbanın olum, yox, bilirəm sənin də ürəyin darıxır. Tezliklə qurtarar bu iş, inşallah… Dedim, görüm mən sənə lazımammı?! Bəlkə ayaqlarını ovxalayım?.. Yaxşı – yaxşı…

– Yox, ay İbrahim ağa, bir get sən də bir hövr dincəl. Bu gün çox yorulduq. – Karvanbaşının gözləri qıyıldı. – Necə bilirsən sən, ola bilər ki, bunlar o dərədə olmasınlar?

– Yox, dərdin alım, ola bilməz. Həmişə, hər bir vaxt ordadılar, amma bizimkini bilmənəm. Ümidim böyükdü, amma… Nə bilmək olar?.. Dərə uzunu dayanıb dururlar. Onların da işi-peşəsi budu, gəlib aparanları olmasa, iş tapşırmasalar…

– Az qaldı… Allah eləyəydi, bizə gərəkən şəxs aralarında olaydı.

– Olar, olar… Sən arxayın ol, heç fikir eləmə. Ümidimiz o tək olan Allahadı, pərvərdigari-aləm.

– Amin. Yaxşı get, get. Mən də bir yata bilim, əgər bilsəm.

Xacə İbrahim ağa dalı-dalı çəkilib isti çadırdan çıxdı soyuq çölə. Çöl-bayır işım-işım işıldayırdı. Göydəki hər ulduzun işığı gəlib bu yer üzünə ayrıca çatırdı nədi, hər tərəf gündüzkü kimi işıqlıydı. Nazik, ürəyideşən kədər dolu bir cızıltılı səs də bu işıltının düz içindən çıxırdı. Xacə İbrahim ağa bir o tərəfə boylandı, bir də bu tərəfə nəzər yetirdi, gedib çadıra yaxın bir yerdə, sağ əldə yerə çökmüş Qotazlı dəvənin hərdən diksinən bir böyrünə qısılıb sarvan Nəzərəli yatmış idi, bu biri diksinən böyründə də Xacə İbrahim ağa özünə yer elədi, kilim kimi bir şeydi, nəydisə dəvənin üstündən götürüb quru torpağa saldı, ayaqlarıyla təpikləyib yerini yumşaltdı, uzandı üstündən. Bir o tərəfə, bir bu biri tərəfə qurcuxdu, bir az daha yerini yumşaltdı, amma nə illah elədi, gözlərinə zalım yuxu getmədi ki, getmədi. Eləcənə göydəki şıltaq, yorğun ulduzları seyr edə-edə bir para düşüncələrə qərq olub qaldı.

***

O dərədən ki, Xacə İbrahim ağa bir az əvvəl Karvanbaşıya söz açdı və dedi ki "daha az qalıb ora çatmağa, dərə bu gədiyi aşandan sonra Görükməz Təpənin yaşıl ətəyindən başlayıb gedəcək", o dərənin adı Sehrbazlar dərəsi idi. Doğrudan da bu dərə İlan gədiyinin qurtaracağında Görükməz Təpə deyilən təpənin ətəyindən birbaşa üzü çökəyə açılırdı. Dərəyə belə bir adı qoymuşdular ona görə ki, dörd ətraf bilib görüb və inanmışdı ki, bəlkə də kürreyi-ərzin ta Məqribdən Məşriqə qədər hər bucağından adlı-sanlı sehrbazlar gəlib buranı özlərinə yaşamaq üçün məskən seçmişdilər. Nə üçün buranı seçmişdilər – bilən bunu bir adam yox idi, onlar özləri isə bu barədə bir kəlmə dinib-danışmırdılar. Dərə boyu elə sehrbazdı görürdün – iki-bir, tək-tək, topalaşıb ora-bura gəzişər, ya əlqol ata-ata bir-birinə nə isə deyər, ya da eləcənə susub durardılar. Dərənin üstündən məmləkətə gedən bu yol sehrbazlar üçün əsas həyat mənbəyi idi, onlar bu yolla gedənlərin nəzir-niyazına, pay-peşkəşinə ümidli idilər, dolanmaq üçün yetərli idi, bəzən də bu sehrbazlardan hansınısa yolla gedənlərdən bir kimsənə götürüb özü ilə aparardı, cadu-sehrindən istifadə edər, hansısa məqsədə çatmasından ötəri onun möcüzkar köməyinə iman gətirərdi. Sonra sehrbaz möcüzkar işini görüb tamamladıqdan sonra yenə də öz qaldığı yerinə, Sehrbazlar dərəsinə qayıdardı, yarısı yerə batmış, torpaq üstə çır-çıxıntısını ancaq bunun özünün tanıdığı bir yarıçılpaq qayanın dibinə yetişdikdən sonra asudə nəfəs alardı. Bu bir qayda idi: birisinin gətirdiyi qazancdan hamıya pay düşərdi. Geri dönən sehrbaz qazandığını o biri sehrbazlarla bölüşməsə idi, olmazdı, yemə-içmələri bunların bir idi, dərd-sərləri bir idi, gəzib-dolaşmaları, bir-biri ilə danışıb-demələri, susub-durmaları bir idi. Bəlkə ancaq gün ərzində hər bir sehrbaz bir, ya iki saatlığa xəlvətə çəkilib qayalıqların, ya da addabudda amma böyük bir ağac boyda bitən kol-kosların arxasında yalnız özü-özü ilə təkcə qalardı. Bu vaxtın adına təkcənəlik vaxtı deyilərdi. Bu vaxt onlar üçün müqəddəs vaxt idi, heç bir başqa sehrbaz bu vaxtın içinə girməyə cürət etməzdi, yasaq idi nədi, qadağa idi bu vaxt. Bu vaxt ərzində sehrbaz nə edərdi, nə etməzdisə, ancaq özü bilərdi. Özü-özü ilə danışardı, amma bu dili bir kimsə anlamazdı, özü-özünə suallar verərdi, özü də bu sualları cavablardı. Yenə də

hansı dildə – bilən olmazdı. Amma bir dəfə sehrbazlardan biri onu özü ilə məmləkətin şəhərinə aparıb cadu sifariş verdirərək qonşusuna zülm etdirib min bir bəlaya düçar etmiş bir mömin tacir bəndəyə ürək qızdırıb bu xəlvəti, təkcənəlik vaxtının sirrini açmışdı. Hər bir sehrbaz öz sehrini soyunurmuş bu vaxtın içində. Sonra da uşaq kimi gücsüz, heysiz qalırmış. Kimə isə, nəyə isə tapşırırmış sehrini. Bu təkcənəlik vaxtının içindən çıxandan sonra orada nə olurdusa onun beynində unudulurdu. Bu mömin tacir bəndə sirri ona açan sehrbazın gördüyü işinin müqabilində ona verdiyi qızıl-gümüşə sonradan tamahsılanır, heyfsilənir, qərara gəlir ki, sehrbazı güdsün, o vədə ki, təkcənəlik vaxtı gəldi, təkcənəlik vaxtına girsin onun dalınca, pulları alıb qaytarsın. Xəlvətə salıb başlayır sehrbazı güdməyə. Zamanı çatanda və sehrbaz əlləri ilə gözlərini qapayıb təkcənəlik vaxtına girəndə öz həmişəki qayalığının arxasında dümbələndüz dayanıb durmuşdu və heç bir şey bunun vecinə deyildi. Bu heyndə haman tacir peyda olur. Bir söz demədən başlayır bunun üst-başını axtarıb-yoxlamağa, ciblərini eşələməyə. Sehrbaz – taqətsiz, ona mane olmur. Qərəz bu kişi verdiyi pulları tapır, bir göy əskiyə bükülmüş qızılları özü görür, əskini tanıyır, qızılların sayı da düz gəlir, bunları tez-tələsik ora-burasına dürtüb elə ayağını götürüb təkcənəlik dairəsinin içindən çıxanda gərək eləməyəydi, bu tacir dönüb geriyə, sehrbazın üzünə baxır. Gözləri yumulu sehrbaz ona dodağının ucunda incik bir təbəssüm ancaq bu sözləri deyir: "Get, amma mən bunu sənə halal eləmirəm…"

Kişi bu sözlərə məhəl qoymur, üzüyuxarı yenə tələsik qalxıb çıxıb dərədən düzəlir şəhərinə doğru gedən yola düşür və başlayır bu yolu töyşüyə-töyşüyə getməyə. Yol haman yol, şəhər də ki, öz yerində. İnanılası deyil, indiyənə qədər o naçar kişi o nadürüst yolu gedir, gedir, amma neçə ildi bu yol onu bir yana gətirib çıxarmır. Elə hey Görükməz Təpənin ətrafında ora-bura fırlanıb düzəlib yenə hardansa bəlkə də İlanlı gədikdən sıyrılıb gəlib çıxır Sehrbazlar dərəsinin ağzına. Dalına düşən də olmuşdu, amma yenə də bilinmirdi ki, bu tanış yolda bu adam necə olur axı azır, necə olur gedir, gedir, birdən onu izləyənin gözündən itir, necə olur ki, sonra gəlib bu izləyənə arxadan çatır?! Nə baş verir, nə baş vermir?! Müəmma ki müəmma.

Bu vaqeəni tamam başqa cür düzüb-qoşanlar da var idi. Əhvalatdan hali olanlar belə bir şey danışırdılar ki, haman mömin tacir ağa ki vardı, yaşadığı şəhərdə necə ki öz kəsbkarlığı ilə məşğul idi, indi də elə o cürdü. Haman mömin tacir ağa heç zaman buralara gəlib bu Görükməz Təpənin altından sehrbaz-zad da heç hara aparmayıbdır, onun nanəcib qonum-qonşuları da hamısı sappasağlam və gümrahdırlar, hər biri də öz evində-eşiyində. Sirri-xudamı? Sirri-xuda!

***

Karvanbaşı ilə Xacə İbrahim ağanı Sehrbazlar dərəsinə həyəcan- təlaşla tələsdirən məqsədləri, əslində, oradan özləri ilə sehrbaz seçib aparmaq niyyətləri idi. Bu sehrbaz adi sehrbaz olmamalıydı. Onun cadudan, sehrdən çox, əlbəttə ki, xüsusi istedadının olması vacib idi. Karvanbaşının illərdi sinəsində gəzdirdiyi o qədim sirrini, niyyətini, nəhayət ki, həyata keçirmək qismət olacaqdı, inşallah. Xacə İbrahim ağanın da ən böyük arzusu bu idi, həyatından çox istədiyi, ürək bağladığı Karvanbaşıdan da artıq dərəcədə özü istirdi bu niyyətinin həyata keçməsini. Baxıb-baxıb hər gün batinində məşəqqətdən çatlayan cismini, vücudunu, varlığını görürdü Karvanbaşının, özü ondan daha betər zülm çəkirdi və tar-mar olmuş qəlbində bu əzab-əziyyətin tez bir vaxtda bitəcəyini Allahından sidq-ürəklə təvəqqe edirdi.

Karvanbaşının sirli niyyəti bundan ibarət idi. İllər bundan qabaq dəli olub çöllərə düşmüş, sonra da ölüb getmiş, izi-tozu, qəbri-məzarı da qalmamış, üzünü belə düz-əməlli görmədiyi atası cəllad Məmmədqulunun ruhunu çağırtdırmaq, onunla ünsiyyət qurmaq, atasından bəzi para şeyləri öyrənib bilmək. Sehrbaz da biçarə Karvanbaşıya bu niyyətini həyata keçirmək üçün gərək idi. Xacə İbrahim ağa inamla zəmanət vermişdi ki, ruhçağıran sehrbazı o dərədən mütləq tapıb gətirəcək. Əlbəttə gətirməlidi. Əgər belə olmazsa, o zaman ağası Karvanbaşının günü yenə də göy əskiyə bükülüb qaldıqca qalacaq, betər zülm olacaq ona…. Bunları düşünə-düşünə Xacə İbrahim ağa ora-bura vurnuxa-vurnuxa nə zaman yuxuya getdi, heç özü də bilmədi…

Tül pərdənin arxasında idi hər şey, elə oradaca baş verirdi əgər baş verirdisə. Şahın sadiq nökəri şeşəbığ cəlladbaşı Məmmədqulu həyatı boyu ən cəsarətli addımlarını necə ki düşünməyib, ölçüb-biçməyib "Allaha pənah" deyərək atmışdı, əvvəl-əvvəl indi də elə bildi ki, bu səfərki qərarı da o birilər kimi elə-belə asan yolla başa gələcək. Düşüncəsinə görə ömrünün axırına hələ xeyli vaxt qalmağına baxmayaraq, qolunda, biləyində, belində güc gücün üstünə yığılıb yatışan kimiydi və bu cürənə bir güc qalağının, bədəninin hər bir hüceyrəsinin hərəkət, hərəkət bağırtısının sahibi qəflətən belə bir gözlənilməz qərarı özü üçün çıxarmışdısa, buna hamıdan əvvəl elə özü də çaş olub qalmalıydı ki, bu nədi, düşündün, daşındın, yoxsa elə balaca bir uşağı yoldan çıxaran kimi o andaca yoldan çıxardılar səni, elə yatdın, durdun birdən-birə nə mənə, nə sənə həmişə gicişən əlini dizinə sürtdün, "bəsdir" dedin, "yoruldum daha" dedin, bir az da səninlə yaşamaq, ömrümün sonlarını bu gözəl, bu işıqlı, bu dağların başındakı, bu göyünün üzünü tənha bulud parçası tutmuş, bu aya yaxın şəhərdə, bu əyri küçənin ortasında əyri-üyrü daşdan tikilmiş bu balaca evdə keçirməkdən savayı sən demə bir başqa şey istəmirmiş. Belə bir qərara gəlməyinə gəlmişdi, amma nə sirdisə bu dəfə ürəyinin tellərini qəribə bir səksəkə idi, nə idi dartıb tarıma çəkmişdi, narahat ürəyinin içində nəsə başlamışdı gizildəməyə, özü də nəydisə bu gizilti təzə-təzə peyda olmuşdu ürəyinin içində və o başlayan zaman beyni qupquru quruyurdu, sanki ala-bula dumanların içinə girib gizlənirdi, keyiyirdi, elə bil, hər şeyi, hər zadı unudurdu və nə vəchlə çalışırdı, nə illah eləyirdi özündə qüvvə tapa bilmirdi nəyisə, kimisə bu zaman xatırlasın ki, bəlkə çox zəif bir şəkildə ancaq bunu düşünə bilirdi: bəlkə xatırlasaydı kimisə, nəyisə bu yavaşdandan gizlənə-gizlənə ağrıya çevrilən gizilti də, elə qara buludların qucağında uçurmuş kimi yırğalanması da, başının lap içinin beləcənə keyləşməsi də fövrən keçib gedəcəkdi, yox olacaqdı. Heç nəyi nə illah

eləyirdi, əməlli-başlı xatırlaya bilmirdi. Bu müdhiş ağrıdan can qurtarmaq dadlı bir xəyal kimiydi onunçün. Gəl Allahın işinə bax, indinin indisində lazım idimi ona bu uca göylərdən cəza kimi – başqa heç bir ad tapammırdı buna, əlbəttə ki cəza, ancaq cəza, daha mükafat ki olmayacaqdı bu əzab, bəli, bu uca göylərdən cəza kimi onun bəxtinə gəlib quş öz doğma budağına qonan tək qonmuş bu sevgi, bu eşq, bu mənasız, əvvəllər heç bir zaman inanmadığı və əqlinə yaxın buraxmadığı, çünki heç bir zaman üzləşməmişdi, çox eşitmişdisə də üzləşmədiyindən inanmadığı bu eşq, bu sevda, yəni, bu doğrudan da belə şirin olurmuş, xudaya?!

Bəlkə məni bu qız qorxduğundandı belə sevir, çünki məndən qorxanların indiyənədək cümləsi təmənnasız eşq-məhəbbət andı içiblər mənə bol-bol, şirin-şirin vədlər veriblər, amma hər hansı biriylə yorğan-döşəyə girdinmi, gözlərinin dibindəki ürpəşməni, qorxuydu bu, iyrəntiydi, nəydi, elə bil ki, yorğan kimi üstündən atmaq istəmişdi hər biri ilə bu qorxunu anlamağa çalışa-çalışa "yox, belə deyil, bu məhəbbətdisə, bu mənə heç gərək deyil, bircə tez olaydı bitəydi bu iş, rədd olub gedəydi başımdan bu naməhrəm oğlunun qızı naməhrəm" deyib düşünmüşdü, düşündükcə də gördüyü iş bitmək bilməmişdi ki bilməmişdi, təngə gəlib tüpürüb yarımçıq da qoymuşdu işini, altında ehtirasdanmı, qorxudanmı tir-tir titrəyən qızın üstündən qəflətən qalxıb özü-özünə deyinə-deyinə, özü-özünü söyə-söyə geyinməyə başlamışdı. Bu həqiqətən belə idi, çünki ondan qorxanlardan zindeyi-zəhləsi gedirdi cəllad Məmmədqulunun.

İndi isə hər şey, elə bil ki, bir başqa cür idi. Bu dəfə heç bir qorxu-filan yox idi bu cavan gəlinin üzündə, baxışını da qaçırıb eləmirdi, hayasız-hayasız düz onun gözlərinə zilləyirdi öz yaşıl gözlərini, uzun kirpiklərini də qırpmadan dik-dik baxırdı bu yaşıl, balaca, bir az da xam baxan gözlərinin düz içindən ona. Aralarında heç bir zərrə qədər yadlıq deyilən şey qalmamışdı və heç bir zərrə şübhə də yox idi ki, bu ikisi bir-birinə təkcənə titrəşən bədənləri ilə deyil, titrəşən ruhları ilə qısılıb qalmışdılar. Hər ikisi anlamışdı ki, bu baş verən nəydisə onlar üçün, bura qədər nə olmuşdusa hamısı cəfəng-cəfəng işlər, bihudə söhbətlərdir. Bundan sonraya, hər nə vardısa, olacaqdısa bundan sonraya məxsus idi. Və öz məşum qərarını da cəllad Məmmədqulu belə gecələrin

birində vermişdi. Bu boyda ləşkərin özü ilə ən vacib, ən əziz bir əşya, bir əza kimi – məmləkətdən məmləkətə, şəhərdən şəhərə bəsləyə-bəsləyə, əzizləyə-əzizləyə apardığı on cəlladdan biri, bəlkə də birimincisi şeşəbığ cəlladbaşı Məmmədqulu, ucaboylu, cüssəli-şaqqalı, ömrünün əllisinə yavaş-yavaş yaxınlaşan, kefinin kök vaxtında özü özü üçün "fəqir Allah bəndəsiyəm, kiməm ki mən" deyən cəlladbaşı Məmmədqulu heç özü də dərindən dərinə ölçüb-biçmədən, əqli ilə düşünmədən könlünün fərmanı ilə birdən-birə qərarını vermişdi.

***

Qərar isə bu idi. O daha bu ləşkərlə, ona həmişə inayət etmiş bu padşahla, haqq-sayını bəlkə də heç zaman qaytara bilməyəcəyi vəzir Məşdəli ilə burada, bu dağlar başındakı və buna görə də göylərə, ulduzlara, aya və bir də o bir olan Allaha bir az daha yaxın olan bu şəhərdə onlarla əbədiyyən vidalaşmalı idi. Gedib ayağına yıxılacaqdı, lazım gəlsə ağlayıb-sısqayacaqdı, qara yağışlar kimi göz yaşını tökəcəkdi, "nökərinəm ölənəcən" zarıyacaqdı mat-məəttəl qalmış vəzir Məşdəliyə. Təki dil tərpətsin padşahımıza, mənim acizanə təvəqqemi eləsin, əfv diləsin mən yolunu azmışa. O bircə oğlum sizə əmanət deyəcəkdi, mənə ki atalıq etdin, ona da o cür elə. Mən burda qalası oldum, geri dönməyə taqətim yoxdu, xidmətimə burda son verirəm, keç günahımdan qibleyi-aləm, keç mənim günahımdan, sənin ki sözündən, sənin ki əmrindən mən çıxıram, mən ki, səninlə gəldim, amma səninlə bahəm geri dönmürəm, mən namərdi ya şaqqala, ya da mənə izin ver, izin ver ki, bu məlun şəhərdə yurd salım, qalım. Mən daha yoruldum, ya rəbbim. Bu təhər yorulmaq olmaz ki, mən yoruldum.

Bu sözlərlə yalvaracaqdı vəzir Məşdəliyə və yerəcən itaətlə başını əyib, dalı-dalı çəkilib otaqdan çıxıb yenə geriyə – bu sakit, dar, döşəməsi çay daşından döşənmiş, əyri-üyrü yolu harasa yuxarılara o tərəfdəki Ala dağdan baş alıb gedən və haralarda qurtarmağı da bəlli olmayan bu tanış küçəyə qayıdacaqdı.

Məmmədqulu daha öz keşməkeşli xidmətini bitmiş sayırdı. Sidq-ürəklə, bütün varlığı ilə sevdiyi padşahına xidməti bu nöqtədə sona çatmış idi. O saydığını səbirsiz sayıb artıq qurtarmışdı, gözəgörünməz fələk isə öz saydığını təzəcə başlayırdı saymağa…

Karvan hayla-küylə yola düşməyə artıq hazır idi. Hamı yığışıb hərə öz yerində hərəkət əmrini gözləyirdi. Bircə Karvanbaşının çadırı təzəcə ağaran dan işığında yavaş-yavaş qaralmağındaydı. Xacə İbrahim ağa bir daha əməllicə yüklənmiş dəvələrə, qatırlara, karvan boyu öz yerini tutmuş səbirsiz atlılara, çadırın yanındakı böyük ocağın külünü eşələyib söndürən və onu gözləyən üç nəfər nökərə ötəri nəzər saldı, çadırın ağzında "öhö, öhö"ləyib boğazını arıtladı, ehmalca başını əyib içəri keçdi:

– Qurbanın olum, sabahın xeyirli olsun, biz hazır.

Karvanbaşı artıq səfər geyimində idi, bardaşını qurub hələ də isti yatağında fikrə gedib oturmuşdu, Xacə İbrahim ağanın elə bu sözlərini gözləyirmiş kimi dərhal ayağa qalxdı ətəyini çırpıb əziklərini səliqəyə saldı:

– Çox gözəl, çox pakizə. Yolçu yolda gərək, sənin də sabahın xeyirli olsun, çadırı de söksünlər.

Çadırdan Karvanbaşı irəlidə, Xacə İbrahim ağa onun dalınca çıxdılar. Xacə İbrahim ağa işarət elədi, nökərlər ki, ocağı söndürüb qurtarmışdılar, cəld çadırın içinə keçib yorğan-döşəyi, qab-qacağı toparlayıb qaldırıb aparıb yaxındakı qatırlara yükləməyə başladılar.

Bu biri tərəfdə Karvanbaşının bədöy atını çəkdilər, bir sıçrayışda tullanıb mindi, Xacə İbrahim ağa da atlandı. Çaparaq karvanın baş tərəfindən bir kürən atlı gəldi, "ağa, əmrin nədi?" deyib atından enmədən kürən atlı soruşdu. Bu onun əvvəlinci köməkçisi sarvan Qarasuvarlı idi.

– Getdik, Qara. – Karvanbaşı onun başı üstündən o tərəfdə qaralan yola baxa-baxa qətiyyətlə dilləndi.

– Hansı yola düşək? – Sarvan Qarasuvarlı bir daha soruşdu.

– Görükməz Təpənin altından gedən yola sal karvanı…

– Sehrbazlar dərəsindən?

– Bəli, ordan.

Sarvan Qarasuvarlının üzündə bir əzələ tərpəndimi tərpənmədi, ancaq gözlərinin lap dibindən nəydisə bir soyuqluq özünə yol tapıb üzə çıxdı, tezcə də havaya qarışıb əriyib getdi. Ürəyində düşündü: "Allah xeyrindən saxlasın". Amma daha bir kəlmə danışmadı, atının başını çöndərib gəldiyi yerə – karvanın başına tərəf çapdı. Karvanın baş dəvələrindən qabağa keçdi. Əlini qaldırıb işarət verdi. Şeypurçu sevincək şeypurun çaldı. Səs-küy artdı. Karvan yerindən ağır-ağır dəbərib yavaş-yavaş hərəkətə gəldi, özünü ətraf ağaclıqdan, çəmənlikdən birtəhər toparlayıb araladı və yola saldı. Düşərgə bir azdan bombalanboş qaldı, ancaq ocaqlar son nəfəslərini dərə-dərə közərməklərindən heç cür qala bilmirdilər.

***

Məmləkətin baş şəhərinə, daha bir şey qalmamışdı, düz bir gün və bir gecədən sonra çatasıydılar. Möcüzəli Görükməz təpənin altından dövrələmə gedən yol bu tərəflərdən gedən yeganə yol deyildi, artıq yeni başqa bir yol salmışdı gəlib-gedənlər, amma bu köhnə yol Sehrbazlar dərəsinin üstündən keçdiyindən ordan keçənlər ancaq o zaman ordan keçərdilər ki, məqsədləri özləri ilə sehrbaz alıb aparmaq olsun. Başqa zaman o yolnan getməyi bir adam, bir yolçu xoşlamazdı onda ki, karvan ola… Bir quruca xof idi girmişdi canlarına adamların, yoxsa başqa bir şey yox idi.

Qotazlı dəvə ki karvanın lap başında uzun boynunu şəstlə bir az da uca tutub ayaqlarını gen ata-ata sarvan Qarasuvarlının atı ilə yanaşı gedirdi, bir addım daha atdı, qabağa keçdi, sağa döndü, elə dönməyilə də birdən-birə daha gözə görünmədi, yox oldu. Sarvan Qarasuvarlı da bununla bərabər yox oldu. Xacə İbrahim ağa ki Qotazlı dəvəni bilərəkdən uzaqdan gözdən qoymurdu, tez atını Karvanbaşının atına yaxlaşdırdı:

– Dərdin alım, ora bax, yetişdik, bax, Qotazlı daha görükmədi.

Karvanbaşı gözlərin qıyıb nə illah elədi artıq Qotazlı dəvəni o da görəmmədi, onun ardınca bu uzun karvan da əyilə-əyilə, burula-burula dəvə-dəvə, at-at, qatır-qatır yox olmağındaydı.

– Hikmətinə şükür, xudaya. Təpədə sirri-məchulə bax, özü görükməməyinə görükmür, amma özündən də o tərəfdə nə varsa, onu da görsətmir, – Xacə İbrahim ağa bu sözləri özü-özünə söyləyə-söyləyə canını almaqda olan xofu qovalamağa cəhd elədi.

Dəvələr, qatırlar, atlar bir-bir Görükməz təpənin başına dönürdülər. Artıq karvanın quyruğu da dönüb Təpəni qurtardı, karvan daha heç görükmədi. Belə baxırdın gözə heç bir təpə-zad görükmürdü, amma ondan o tərəfdə nə vardısa, düz o təpə boyda, nə böyük, nə kiçik, o tərəf də heç cür görükmürdü. Təpədən aşağıda sol əldə haman Sehrbazlar dərəsi idi ki, nəhəng bir boşluq kimi üzüaşağı açılırdı. Karvanbaşı ürəyinin guppultusunu gicgahlarında eşitməyə başladı. Atın hər iki böyürünü dabanları ilə az qala deşəcəkdi, at yazıq neyləsin, yüyrək çapmaq istədi, amma fınxırıb tərs-tərs acizanə başın yenə yerə dikdi, titrək addımlarının ahəngini dəyişmədi.

– Ağrın alım, tələsmə, gözümün işığı, dözümün olsun, çatdıq daha, bu qədər ki, sən dözdün bir az da döz. Neyləsən də bu at bundan bərk getməyəcək. Buraların sirri bundadı.

Xacə İbrahim ağanın bu sözləri Karvanbaşının qəlbindəki həyəcanın köpüyündən bir az aldı, nə edəsiydi, onsuz da səbirli olmaqdan başqa bir çarəsi qalmışdımı, qalmamışdı.

***

Görükməz Təpənin sol böyründən Sehrbazlar dərəsi həmişəki kimi birdən rəngbərəng bir dərinlikdən sıyrılıb üzə çıxdı. Bir iş vardı ki, Sehrbazlar məskəni olan o dərə ilin hər fəslində yaşıl çəmənlik olardı. Bu dəfə də yaşıllıq özünü gözəl bir xəli edib atmışdı lüt torpağın düz bağrına. Dərənin ağzından üzü yuxarı baxan zaman Görükməz Təpənin nə boyda böyük bir təpə olduğu, az qala dağ olduğu bir daha əyan olurdu. Bunun arxasında özü boyda bir üçbucaq başdan-başa, elə bil ki, boz dumana bürülü qalmışdı. Bu əsrarəngiz üçbucağın ətrafı nə ki, aləmdə var idi, o idi, artıq heç nə deyildi. Ortadakı bu üçbucağın təpəsi göyə dirənmiş boz bir pərdə kimi idi.

Görükməz Təpə ilə üzüyuxarı qalxan heç olmamışdı, çünki elə bir-iki addımdan sonra qıraqdan baxana elə gəlirdi ki, bu adam üzüyuxarı ayağını boşluğa basa-basa havanın üstü ilə qalxır. Bir dəfə biri qalxmaq istəmişdi. Ayağının altında torpağı hiss eləmişdisə də, dörd ətrafı elə bilmişdi ki, bu adamın ayağı heç nəyə dəymir, aşağıdan baxanlar yenə də baxıb-baxıb ancaq onu görmüşdülər ki, bir adamdı hava ilə göyə qalxır. Bu adam da hamı qalxanlar kimi bir, iki, üç addım atdıqdan sonra cəsarəti uçub getmiş, xoflanıb geri dönmüşdü. Ancaq bir nəfər olmuşdu, qoca kişilər şəhərdə söz-sözə gələndə az qala xəlvəti danışardılar ki, ancaq bir Allah bəndəsi dərviş Hüsnükərəm adında birisi, bax o dərviş tərsliyinə salıb axıra qədər təpənin düz başına qalxmışdı. Hamı da bunu görüb yadında saxlamışdı. Yaddan çıxa da bilməzdi, çünki o dərviş, elə bil, havanın üstü ilə əyilə-qalxa addım-addım göyə ucalırdı. Təpənin başına çatıb bir hövr dincini almaq üçün əllərini yana açıb torpağa uzandıqda isə aşağıdan baxanlar onu göyün ortasında boşluqda uzanıb qaldığını, elə bil, quş kimi göydə qanad açıb uçmaq üçün hazır olduğunu zənn etmişdilər. Hamı dərin bir heyrətdə içini çəkib gözləyə-gözləyə qalmışdı. Gözləmişdilər, gözləmişdilər, amma daha başqa qəribə heç bir şey baş verməmişdi. Dərviş Hüsnükərəm qayıdıb yenə də boşluqda havanın üstü ilə bu dəfə üzüaşağı üzən zaman ona artıq yaxınlaşıb-eləyən olmamışdı – bir adamın buna cəsarəti çatmamışdı. Sonralar şəhər içində pərişan gəzən o dərvişi görənlər onunla söhbətə, yaxınlıq eləməyə can atmazdılar, onunla ehtiyatlı keçinərdilər. Elə dərviş Hüsnikərəm özü də o əhvalatdan sonra ondan hürkmüş camaatla çox uyuşmazdı. Təzə-təzə o da qəmli bir səksəkəyə düşmüşdü, öz hali-qəribanəsi ilə hamını özündən kənar edirdi və günlərin bir günü nə cür gözlənilməz bir şəkildə gəlmişdi bu şəhərə, o cürə də yox oldu, çıxdı getdi, bir daha görəni olmadı onu. Deyirdilər, dərviş Hüsnükərəm gözdən-könüldən bu cür itəndən sonra gedib sehrbaz olubmuş, Sehrbazlar dərəsində gəzib-dolaşırmış. Dərədən sehrbaz gətirməyə gedən bir əməli-saleh adam onu orda görmüşmüş. Amma nə bilmək olar…

Karvanbaşı ilə Xacə İbrahim ağa atların başını çəkib onsuz da hürkməyə hazır heyvanlara əlləri, nəfəsləri ilə ürək-dirək verməyə başladılar. Əyilib onların qulağına tərəf hərdən ahəstəcə nəsə pıçıldayır, amma tezcə də gözlərini qaytarıb dikirdilər yola, xüsusilə sağ tərəfə diqqətlə baxırdılar, dərə tərəfə isə, elə bil, bilərəkdən nəzər yetirmirdilər. Gözləri Görükməz Təpənin böyründən burulan karvanın quyruğunda qalmış idi, artıq karvan heç öz yarısı boyda da görükmürdü, amma bu gözlə görünüşdə belə idi, əslində, karvanın başı artıq Görükməz Təpənin böyründən açılıb Düzəngaha çıxmışdı, bir azdan karvan üçün Görükməz Təpə də, Sehrbazlar dərəsi də arxada qalacaq idi.

Karvanbaşı baxıb görməsə də, hiss elədi ki, Xacə İbrahim ağa daha onunla yanaşı getmir. Təəccüb etmədi. Xacə birdən-birə yox olmuşdu. Bu belə də olmalı idi. Sehrbazlar dərəsinə enən yeganə tənha cığır onu alıb özü ilə aşağı, dərənin düz ortasına rənglərin içinə aparmalı idi, Xacə İbrahim ağa axtardığı şəxsi tapıb danışıb sonra onunla bahəm Karvanbaşını getdiyi yolla təqib etməli, hər şey onların istədiyi kimi alınacaqdısa Düzəngahda Günortac deyilən dörd bir tərəfindən yoğun çeşmələr axan böyük bir Qarağacın altında onları gözləməkçün nəfəsini dərib dayanan karvanı haqlayacaqdılar. Çoxdan adamları yaşamayan, amma həzin xərabəlikləri hələ də ürəyi parça-parça eləyən bir yer idi Günortac. Səfalı çeşmələri, ağacları, yazda-yayda yaşıllığı var idi, elə bircə bu Qarağac nəyə desən dəyərdi, niyə adamı yox idi, axırıncı kişisi, axırıncı qadını havaxt çıxıb getmişdi, hara getmişdi geriyə baxmadan, hara qeyb olub gözdən itmişdi – bunu heç kim bilməzdi. Amma bu yerlərin suyuna dadda su çatmaz idi. Odur ki, şəhər əhli əgər buralardan keçəni olurdusa, evinə-eşiyinə içməli suyu ancaq Qarağacın altındakı bu səfalı çeşmələrdən doldurub apardı. Karvanbaşı da su aparmaq adıyla karvanı saxlayıb Xacə İbrahim ağanı elə orada – Günortacda gözləyəcəkdi…

***

Xacə İbrahim ağa sakitcə atını dərəyə enən cığırın yanına hökələyib saxladı. Atdan endi. Onu izləyən nökər Nəzərəliyə atın cilovunu verdi. Nəzərəli yolun kənarında cığıra yaxın yerdə böyük bir kola iki qatırın cilovunu bərk-bərk dolayıb bağladı, sonra bir kəlmə söz danışmadan mindi haman Xacə İbrahim ağanın atına geri baxmadan karvanın hələ görükməkdə olan quyruğuna tərəf çapdı. Xacə İbrahim ağa qatırlardan birinə yüklənmiş içi azuqə dolu xeyməni güclə qatırın belindən alıb öz çiyninə şəllədi, sonra başını çöndərib son dəfə uzaqlaşan karvana sarı baxıb gözünün ucu ilə Nəzərəlini də haman yolda aradı, sonra kolun yanından ayağını basdı üzüaşağı gedən cığıra. Cığır üzüaşağı burula-burala Sehrbazlar dərəsinin düz içinə gedib çıxırdı, qədəm-qədəm təlaşlı ürəyində "ya Allah" kəlməsi çiynindəki yükün ağırlığından beli əyilmiş halətdə bu cığırla Xacə İbrahim ağa üzüaşağı enməyə başladı.

Burda nə sirr vardı, nə yoxdu bilmirdi, amma ürəyinin səsini qulaqlarında eşidirdi. Bir-iki addım atandan sonra gözlərinə dərənin yaşıllığı açılmadımı, açıldı və Xacə İbrahim ağa bir-iki dəqiqə mat-məəttəl və əlbəttə, ürəyindəki xofla bu gözəlliyə kirimişcə baxdı, elə bil, dərənin dörd bucağından görüb qoxusunu içinə çəkdiyi hər bir şey – torpağın otu, ağacın yarpağı, kolların bir-birinə qarışmış gənc və qüvvətli gövdələri, bir sözlə, ətrafda hərəkət edən, amma gözəgörünmədən hərəkət edən hər türlü yaşıl canlılıq onu bir az da cəsarətli etdi, artıq bir az daha ürəklə qədəm-qədəm aşağı enməyə başladı. Endikcə ayrı-ayrı adamlar gözünə dəyməyə başladı. Bunların hamısı sehrbaz idi. Onlar da artıq Xacə İbrahim ağanı görmüşdülər. Amma sehrbazlar yeni gördükləri bu naməlum şəxsə heç bir təəccüb eləmirdilər. "Yəqin, məqsədim bunlara əyandır", – Xacə İbrahim ağa düşündü. Amma elə deyildi. Sehrbazlar hələ ki, heç bir şey bilmirdilər, onlardan biri, digərlərindən nisbətən cavan olanı o birilərdən ayrılıb cığırla dərənin artıq lap içinə enmiş Xacə İbrahim ağaya yaxınlaşdı. Bu, ucaboylu, gözləri hüzn dolu, dalğın, yanağı əyri çapıqlı cavan bir sehrbaz idi:

– Salamünəleyküm. – Cavan sehrbaz ədəb və mərifətlə Xacə İbrahim ağaya müraciət elədi.

Xacə İbrahim ağa bu gəncin mülayimlik dolu çöhrəsinə uzun-uzun baxmağa cəsarət etməyib heyran baxışını yana çevirdi:

– Əleykümünsalam.

– Xeyir ola, hörmətli zat, bu yerlərə gəlməkdə məqsudiniz nədir? – haman Cavan sehrbaz yenə də çox böyük mərifətlə soruşdu. Bu dəfə özünün məhzun səsi ilə də Xacə İbrahim ağanın qəlbinə girdi.

Xacə İbrahim ağa çiynindən azuqə dolu xeyməni düşürüb yerə qoydu və yanındakı kolun dibinə itələdi. Bu xeymədəki nə idi, hamıya aydın idi, odur ki, bu barədə bir kəlmə belə danışmadılar. Artıq dərənin içində orda-burda oturub duran o biri sehrbazlar da maraq edib yavaş-yavaş bunlara tərəf yaxınlaşmağa başlamışdılar. Cürbəcür şəxslər idi. Guya adi görkəmləri var idi, geyimləri, üzləri-gözləri… Amma bu adiliyin çox-çox dərinliyindən gözügörükməz bir həyəcan çıxırdı. Sehrbazların, bir də ki dərənin xofu, əlbəttə, Xacə İbrahim ağanı almışdı. Düşündü ki, ağzında artıq qurumaqda olan dili ağzının içində başqa bir söz tutmazsa, əqli başından gedə bilər, odur ki, bir az kəkələyə-kəkələyə ancaq bunu deyə bildi:

– Möhtərəm zat, mən bir… möhtərəm… mən bir elmi ruhiyyat bilicisi aramaqdayam, onunla təmasım və ondan təvəqqem olacaqdır.

– Elmi ruhiyyat dedin? – Bunu eşitcək onlara əl-qolunu ata-ata yaxınlaşan qara saqqalı az qala qarnınadək uzanan bir sehrbaz maraqla Xacə İbrahim ağaya sual etdi.

– Elmi ruhiyyat dedi. – Gözünü döyən Xacə İbrahim ağaya birinci yaxınlaşıb onu ədəblə salamlayan Cavan sehrbaz bu sehrbaz tərəfə baxmadan təsdiq elədi.

– Mənlik deyil. – Saqqallı sehrbaz çönüb yenə də əl-qol ata-ata gəldiyi yerə qayıtdı. – Ruhiyyatla təmas istirmiş. – Onlara tərəf tələsən iki başqa sehrbaza da dayanmadan yolüstü xəbər verdi, onlar da daha Xacə İbrahim ağaya yaxınlaşmadan yarı yoldan, elə bil, pərişan-pərişan geri döndülər. Hər halda Xacə İbrahim ağaya belə gəldi ki, onlar pərişan oldular.

– Sizə, möhtərəm zat, mən bilirəm, kim lazımdır. Buyurun, gəlin mənimlə. – Cavan sehrbaz gözlərində yenə də haman hüzn dolu dalğınlıq Xacə İbrahim ağaya bir daha mehriban-mehriban və nəvaziş dolu səslə müraciət

etdi, sonra da eyni ədəb-ərkanla onu öz arxasınca gəlməyə dəvət etdi. – Buyurun… bu tərəfə gedəcəyik.

Cavan sehrbaz irəlidə, Xacə İbrahim ağa da bunun arxasınca dərənin o biri tərəfinə doğru üz tutdular. O biri sehrbazlar yenə də gəlib yığışıb bir yerə durdular cığırın ağzında və bunların dalınca baxa-baxa qaldılar.

O, dərənin bir küncündə, buradakı bütün bu vəhşi yaşıllığın qara torpaqdan axıracan çıxmağa heyi çatmayan bir parça yovşan basmış qayalığı araya aldığı bir yerdə arxası bunlara tərəf bardaş qurub sakitcənə oturmuşdu. Cavan sehrbaz Xacə İbrahim ağaya üz tutub yavaşdan dedi: "Siz istəyən şəxs budur". Sonra keçib yaşıllığın içindəcə bardaş qurmuş bu adamın yanında o da oturdu. Nə edəcəyini bilməyən Xacə İbrahim ağa bunlardan aralı durmağına qərar verdi. Az keçdi, çox keçdi, sehrbazlar nə danışdılar, nə danışmadılar, bir-birini anladılar, anlamadılar, hər halda Xacə İbrahim ağaya bir məqam oldu və elə gəldi ki, Cavan sehrbaz bu birisini öz təsir dairəsində saxlayır, qərəz bu da keçdi, nəhayət ki, ayağa qalxıb hər ikisi onları gözləməkdən ürəyi həyəcanla vuran Xacə İbrahim ağaya yanaşdılar.

– Budur siz axtaran şəxs. – Cavan sehrbaz Xacə İbrahim ağaya üzünü tutub əvvəlki təmkinlə xəbər verdi. – Sizinlə getməyinə razıdır, amma ki, şərti vardır.

– Buyurun söyləyin, qulağım ki sizdədi. – Xacə İbrahim ağa dilləndi.

– Bu adamın şəhərdə olduğunu sizdən başqa bir kimsənin duyuq düşməsini arzu etmir. – Cavan sehrbaz kimin ki yanına gəlmişdilər, ona tərəf yavaşca başı ilə işarət etdi.

– Bəli, mən anlayıram, bu elə belə də olar, inşallah. Amma bir məsələ var ki, mənim sirrim deyil bu sirr, mənim ağamın sirridi və sifariş də onunkudur, ağamın bilməsi labüddür. – Xacə İbrahim ağa dedi.

Ruhiyyat bilicisi sehrbaz bir tənumənd kişi idi, xırda gözləri və diqqətli baxışları vardı. Kosa idi, üzünə heç, deyəsən, anadangəlmə tük gəlməmişdi. Başına nə isə bir qırmızı parça idi, külah idi, nəydi, bürümüşdü. Bir qədər Xacə İbrahim ağaya zənlə baxdıqdan sonra gözünü qaldırıb onun başının üstündən Görükməz Təpəyə tərəf də nədənsə bir sınayıcı nəzər saldı, nə isə düşündü, nəhayət, dilləndi:

– Eyb etməz, razıyam.

Cavan sehrbazın çöhrəsi güldü, Xacə İbrahim ağaya müjdə verirmiş kimi dedi:

– Çox gözəl, çox pakizə. Bu şəxs həqiqətən ruhiyyatın biriminci alimidir, razılıq verdisə, sizin işiniz, əlbəttə ki, düzəldi. – Sonra üzünü tənumənd sehrbaza tutdu. – Sağ ol ki, sözümü yerə salmadın…

Hər iki sehrbaz bir-birinə çox diqqətlə baxdılar, sükut içində gözləri ilə bir-birinə nə dedilər, nə demədilər, bundan sonra tənumənd sehrbaz itaət edib səssiz-səmirsiz başıaşağı düşdü bunların qabağına.

Hər üçü yavaş-yavaş dərədən üzüyuxarı qalxan cığıra tərəf getdilər. Xacə İbrahim ağa fikir verib gördü ki, onun axtardığı bu sehrbaz tapılandan sonra dərənin sakinləri o biri sehrbazlar daha ona tərəf baxıb onunla maraqlanmırlar. "Bu da bir ədəb nümayişidir", – Xacə İbrahim ağa düşündü. Cığıra yaxınlaşıb dayandılar. Cavan sehrbaz onların hər ikisinə yüngülcə təzim etdi, əlini döşünə qoydu.

Xacə İbrahim ağa dedi:

– Təşəkkür edirəm, hörmət və mərifət yiyəsi olmağınızın şərəfli şahidliyini mən aciz bəndənizə müyəssər etdiniz…

– Təşəkkür etməyiniz lütfən, sizin kimi şərafətli bir zata xidmət eləmək mənim üçün böyük bir zövq idi. Feyziyab oldum. – Cavan sehrbaz da bu cür cavab verdi.

Gələrkən dibinə xeybəni atdığı haman kolun yanında ayrıldılar. Geriyə bir daha dönüb baxmadan qırmızı külahlı tənumənd sehrbaz yenə də qabağa düşdü, Xacə İbrahim ağa da onun arxasınca bu cığırı qalxıb yenidən Karvan yoluna çıxdılar. Bu dəfə Xacə İbrahim ağa qabağa keçdi, kosa sehrbaz onun arxasınca, kolluğa bağlanıb heç nəyi vecinə almadan sakit-sakit onları gözləyən qatırların yanına gəldilər, qatırların ayağını açdılar, hərəsi bir qatıra süvar oldu. Nə üçünsə Xacə İbrahim ağa çox cəhd elədi, boylansın dərənin dibinə baxıb son dəfə heç olmasa Cavan sehrbazı görsün, görəmmədi. Ürəyi niskillə, təlaşla vurdu. Bir azdan isə bu iki nəfər süvar olduqları qatırların böyrünə təpiklərini vura-vura karvanın səhər tezdən buradan keçib gedərkən arxasınca qoyduğu iyli-qoxulu toz-dumanın içində nəzərdə tutulmuş istiqamətdə artıq hərəkət eləyirdilər.

***

Gün gəlib günortadan keçmişdi. Çoxdan axtardığını tapan uşaqlar kimi qürur və fərəhindən özünü göydə bilən Xacəyə elə gəlirdi ki, sehrbazlar dərəsində heç yarım saat da vaxt itirməyibdir və bir az daha sürətlə getsələr, budu gəlib karvana elə yoldaca çatacaqlar. Amma belə deyildi. Dərədə Xacə İbrahim ağa düşündüyündən, əlbəttə ki, daha çox vaxt keçib getmişdi. Karvanın artıq izindən-tozundan belə xəbər-ətər yox idi.

Bir xeyli sükut içində hər biri öz fikri-xəyalına dalmış halətdə yol getdilər. Xacə İbrahim ağa ürəyində özü özü ilə danışmağında, yox, əslində, didişməyində idi, bir az əvvəlki təlaşını da sonrakı sevincəkliyini də qoymuşdu bir qırağa: "Birdən bu adam ümidlərimizi puç edər, xəcil və rəzil ollam, mənə bir bax, mən elə biriminci kimi ki göstərdilər onu da götürüb yola çıxdım, əlbəttə, düz eləmədim, gərəkdir bir başqa ruhçağıran da görəydim, aralarından birini seçəydim, bu dərə elə əsl bazar kimi bir yerdi, niyə mənim gözlərim tutuldu?…" Xacə İbrahim ağanın beynindən bu dəfə də bu cürə şübhəli fikirlər keçirdi.

Kosa sehrbaz naçar qalmış Xacə İbrahim ağanın gizli təlaşından duyuq düşdü:

– Bu dərədə ruhların bilicisi bir tək mənəm biləsən. Bizlərin hər birimizin öz məşğuliyyəti var. Ruhlarla təmas işini görənsə təkcənə mənəm. Deyirəm, birdən düşünərsən ki, bəlkə daha müqtədir birisini tapa bilərdim, nə üçün axtarmadım, elə qabağıma keçəni götürüb gəldim, heç narahat olma, nə istəyin olsa, mən yerinə yetirəcəyəm.

– Heç şübhəm yoxdur ki, ağa…

– Mənim adım Səyyahdır. Səyyah çağır məni.

– Səyyah? Ləqəbindi bu, yoxsa adındı?

– Bütöv adımı istirsən? Bütöv adım Hacı Mir Həsən ağa Səyyahdır. İndi hələ havalar bir elə soyuq deyil, Səyyah ki dedin, yetər.

– Soyuq olanda nolur ki?

– Soyuq olanda… – Səyyah sehrbaz yüngülcə qımışdı, üzü bir anda eybəcərləşdi. – O zaman bu uzun adı paltar kimi əynimə geyinirəm, üşümürəm.

Xacə İbrahim ağa bu sehrbazın belə danışmağına təəccüb edib mat qalsa da, üstünü vurmadı:

– Mən də ki İbrahim ağayam. Padşahımızın Karvanbaşısına xidmətdə durmuşam. On il var ki, yanındayam. Niyə, fəna deyil.

– Karvan ki, səndən əvvəl gəldi keçdi Görükməzin altı ilə – sizinkiydi?

– Bəli bizimkiydi, düz bir ildi yol gəlirik. Məqribdən vurub Məşriqdən çıxdıq. Yüz şəhərdə olduq, yüz bazar gördük, amma, elə bil, hamısı bircə şəhər idi, yol gələ-gələ bir-bir yaddan çıxdı… Tay əldən düşdük, heyimiz qalmadı.

– İbrahim ağa, sabah tezdən ki evində olacaqsan, daha nə söylənirsən?..

– Mən söylənirəm? Mən nə dedim ki? Qəti! Mən onu deyirəm ki… yoruldum daha.

Xacə İbrahim ağa pəjmürdəhal yavaşcadan son sözünü elə həzin bir şəkildə pıçıldadı ki, altındakı qatır belə onun səsini eşitmədi, amma ondan iki-üç qatır addımı geridə gələn Səyyah sehrbaz eşitdi:

– Heç eybi yoxdu, evində yorğunluğun çıxar. Amma sənin yorğunluğun yol yorğunluğu deyil, bu, bir başqa şeydi.

Xacə İbrahim ağa tısbağa kimi başını içinə çəkdi nəfəsini qısıb qulaq asdı. “Bu nə deyir hələ?!” Səyyah isə, elə bil, daha çox onun üçün yox, özü-özü üçün danışırdı:

– Bu yorğunluq bir başqa şeydi. Sən gecə yatıb dincələndən sonra da sabah-sabah yuxudan yorğunluq içində durursan. Elə bil, döyüblər səni yuxunda. Bu bir başqa yorğunluqdu. Eşq, məhəbbət yorğunluğudu bu.

– Səyyah, mən bir Xacəyəm. Sən hansı eşqdən danışırsan?! – Xacə İbrahim ağa ürəyində “bəh-bəh” deyə-deyə gülməyini güclə saxladı, səsinə bir növ gümrahlıq və şuxluq verməyə çalışdı.

Səyyah sehrbaz ürəyində düşündü ki, Xacə İbrahim ağa comərdlik edir və yəqin, xacəliyindən utanmadığını ortalığa qoymaq istir:

– Yox, dedim ki, dedim. Xacə olanda nolar? Bu yorğunluq, gözlərindən görürəm, eşq, məhəbbət yorğunluğudu. – Səyyah sehrbaz özü də birdən yoruldu. – Bəs biz karvana harda yetişəcəyik? – deyib söhbəti qəflətən dəyişdi.

– Günortacı tanırsan?

– Tanıram.

– Günortacda bizi gözləyəcəklər.

– Axşama yetişərik.

– Elədi, ancaq yetişərik.

Bir xeylaq yenə susub yol getdilər. Artıq Görükməz Təpə də Sehrbazlar dərəsi də çox-çox arxada qalmışdılar. Onlar arxada qaldıqca Xacə İbrahim ağa daha çox ürəklənirdi.

– Səyyah sehrbaz, sən ruh çağırmısan, əlbət?! – Xacə İbrahim ağa birdən sükutu pozub həm sual, həm təsdiq etdi. Bu qədər yol getdikdən sonra ancaq indi Xacə İbrahim ağa altındakı heyvana yazığı gəlib cilovunu çəkdi. Səyyah da buna baxdı eyni cür elədi. Qatırlar addımlarını yavaşıtdılar. Səyyah sehrbaz qatırını Xacəninki ilə yanaşı sürdü.

– Ruh deyirsən? Çağırmışam. Nədi ki? – Səyyah sehrbaz soruşdu.

– Yox, heç. Gəliblər?

– Gələn də olub, gəlməyən də olub.

– Gəlməyən də deyirsən olub?

– Olub, olub. İsgəndər Zülqərneynin ruhu gəlmədi. Dirəndi. Amma gələn çox olub. Sən heç təlaş etmə. Məni məcbur edəndə ruh gəlmir. Könülsüz oluram çünki mən. İndi sən ki məni məcbur etmədin. Gələcək.

Xacə İbrahim ağanın ürəyinə sərinlik suyu bir dağ şəlaləsindən süzülən kimi süzülüb töküldü, dedi:

– Elədisə, səni yaxşı ənam gözləyir, biləsən.

– Gözləyir, gözləyir, sən arxayın ol.

***

Yol artıq burulub-düzəlib məmləkət torpağına – Düzəngaha çıxmışdı. Düzəngah evlə karvan arasında son maneə idi. Xacə İbrahim ağa içini çəkib köksündə dustaq etdiyi hava ilə doldurdu, sinə dolusu nəfəs aldı, sonra rahat-rahat yenə də köksünü ötürdü, "dustağı" çölə buraxdı: "İnşallah, hər bir iş düzələr. Düzəlməlidi. Bir kimsənin yanında daha xəcalətli qalmanam. İnşallah bu səfər gələr, bunun lənətulla atasının o məşum ruhu gələr". Xacə İbrahim ağanın yadına Karvanbaşının atası cəllad Məmmədqulu hardan gəl-

di düşdü, özü də bilmədi: "Ağır olacaq bu iş, çox ağır, əgər ki bu ruh gəlsə, bu görüş çox ağır bir görüş olacaq". – Beynindən Xacə İbrahim ağanın sürətlə bunlar keçdi, "mən ki bunun atası haqqında eşitdiyimi eşitmişəm, uydurması həqiqətindən betər, həqiqəti uydurmasından. Bir şəxs ki öz cəlladlıq peşəsindən bu qədərinə ləzzət ala, bir beləsi heç bir zamanlarda görsənməyib…"

Düzəngahın sazaqlı nəfəsi ahəstə-ahəstə Xacə İbrahim ağaya dəydikcə, onun üzünü-gözünü oxşadıqca, bədəninə nədənsə soyuqluq yox, əksinə, istilik gəlirdi, Xacə İbrahim ağanı huş harasa aparırdı, sonra yenə diksindirib qatırın üstünə salırdı. Bütün ağrıları bircəbircə canından çıxırdı və Xacə İbrahim ağa elə belə bir halətdə qatırın üstündəcə mürgü vurmağa başladı…

Çox beləcənə canfəşanlıqla xidmət eləmişdi sevdiyi, cani-dildən bağlandığı padşahına. “Cəllad” kəlməsinin Şahın ağzından çıxması kifayət idi ki, Şahın bir küncünə sıxlaşıb oturduğu bu nəhəng taxtın arxasından sallanan qumaş pərdədən o tərəfə bu kəlmənin səslənməsi hələ bitməmiş atardı özünü vəlinemətinin hüzuruna, ikiquylu olardı onun ayaqlarının altında, baş əyərdi əyə bildiyi qədər, amma əvvəlcə balaca Şahın özünü bu geniş taxtın içində axtarardı, tapıb sonra üzünü, sonra gözlərini axtarardı, bunları da tapıb iri, işım-işım işıldayan bu gözləri hədəqəsindən çıxmış görəndə daha qibleyi-aləmin ikinci bir kəlməsinə zərrəcə ehtiyacı qalmazdı, gözlər ona hər şeyi sözsüz də deyərdi, bu gözlərdə yazılanı hələ cəlladbaşı Məmmədqulu səhv oxuduğu olmamışdı.

Beləydi, hər cəzanın özünəməxsus nəzəri, baxışı var idi. Başı bədəndən ayırmaq lazım idi – Şahın gözlərinin içindəki bəbəklər, elə bil, üşüməkdən büzüşürdü, ikrahla baxırdı. Göz oymaq lazım idi – göz qapaqları gecə kimi çökür, yavaş-yavaş qara bir qaranlıq kimi qapayırdı qibleyi-aləmin gözlərinin işığını və bu işıq son dəfə, göz vurub Məmmədquluya məxsusi bu dəfəki cəzanın sirrini açırdı. Qulaq kəsmək gərəkirdi – qibleyi-aləmin özünün qulaqları bir balaca yuxarı dartınırdı, yainki kimisə xarab eləmək – taxtın bir küncündən o biri küncünə çəlimsiz bədənini çırpır, rəqqasələr kimi əcayib hərəkətlər edir, bu zaman üz-gözünü əzdirib turşudurdu. Bir dəfə də olsun qibleyi-aləmin ağlına gəlməmişdi ki, Məmmədquluya cəzanın növünü hələ üstəlik sözlə də demək gərəkir. Gözdən gözə, baxışdan baxışa keçirdi cəzanın sirri, keçən kimi də amansız cəllad bir əliylə artıq öz zavallı qurbanını boğazlayıb onun ayaqlarını yerdən üzüb dik qaldırırdı yuxarı, məzlumu qoltuqlayıb hüzurdan getməzdən əvvəl son dəfə qibleyi-alıəmə bir də nəzər salırdı ki, bəlkə fikri bu üç-dörd anın içində dəyişdi, bəlkə bir cəzanı başqasıyla əvəz

eləmək istəyir, ya da lap elə günahkarın günahından keçir, amma belə bir iş tarixində ancaq bircə dəfə baş vermişdi, bütün bu uzun və həmi də ki, qısa illər ərzində tək bircə dəfə qibleyi-aləm Məmmədquluya onu çağırandan sonra, Məmmədqulu hüzurda yerə sərilib dəfən-dəfən keçinən bu məzlum qocanı hulqumlayıb qaldırandan sonra tək bircə dəfə "saxla, saxla" işarətini vermişdi, sonra da ona "sən get" demişdi. Qibleyi-aləmin bir neçə an əvvəl üşüyən gözdibindən bir parıltıydı, ya nəydi, bəlkə də bir damla yaş idi elə parıldadı, elə parıldadı ki, çaşqın Məmmədqulu bir əliylə artıq boğazlayıb yerdən araladığı o heysiz, bihuş halətə düşmüş qocanı təzədən qaytarıb titrək ayaqları üstə buraxmışdı, qəddini yerəcən əymişdi, baş vurmuşdu yerə, bir növ biqərar olub qalmışdı. İlk dəfə idi bilməmişdi nə eləyəcəyini. Bu qədər zaman ki ömrü sarayda padşahının kölgəsində keçmişdi, onun hər bir hərəkətini, hər bir baxışını az qalaydı bədəninin tükü ilə hiss eləməyi bacaran ağıllı cəlladbaşı ilk dəfə idi bilməmişdi, hüzurdan getsin, yoxsa qalsın. "Çəkil hələ, Məmmədqulu, sən hələ bir çıx, bayırda gözlə, bu… zalım qoca… burax, burax onu nəfəsini hələ bir dərsin…" – Düşüncəli-düşüncəli padşah çaşqın Məmmədquluya belə deyəndən sonra hələ bir gözlərini də çöndərib ona elə bir ağır nəzər yetirmişdi ki, Məmmədqulu daşa dönmüş cəllad ürəyi guppuldaya-guppuldaya dərhal əlləri döşündə dalı-dalı çəkilib hüzurdan eşiyə necə çıxmışdısa özü də bilmişdimi, bilməmişdi.

... Qibleyi-aləm bir xeyli hamankı düşüncəli tərzdə qocanı süzdü. Sonra əli ilə işarə etdi, ətrafdakı gözətçilər qocanı halətsiz tir-tap olduğu yerdən qaldırıb dikəltdilər, hər tərəfində bir gözətçi bunu saxlayıb təkrar yerə sərilməyə qoymadılar. Padşah qocadan soruşdu:

– Qoca, bir daha soruşuram: mənə deyirlər, oğlunu öldürmüsən, sonra onun övrətinə sahib çıxmısan, doğrumu deyirlər?

Qoca sinəsinə sallanmış başını tərpətməyə taqəti yox, güclə səsi çıxdı, ya çıxmadı:

– Doğru deyirlər, qibleyi… aləm…

Padşahın hardansa əqlinə qəfil işıq gəldi, belə dedi:

– Yox, doğru demirlər. Mənim birdən əqlimə bir fikir girdi. Sən dedin hansı kənddənsən?

– Selləmədənəm… – Qoca son gücünü toplayıb cavab verdi. Başı isə hələ də sinəsinə çökmüşdü.

Bu cavabdan sonra padşah özündən razı halda başını tərpətdi:

– Selləmədənsən… Belə. Məsələ mənə indi agah oldu. Doğru olan, əlbəttə, budur. Sənin kəndinin kəndxudasının işidir bu. Sənə də möhkəm-möhkəm tapşırıbdır ki, öz boynuna götürəsən, götürməsən…

Qoca sinəsinə çökmüş məhzun başını zorla qalxızıb yalvarış dolu gözünü dikdi Şahın üzünə. Şah davam etdi:

– …götürməsən öz boynuna oğlunu qətlə yetirməyini nəvələrini… nəvələrin varmı, qoca, hə, əlbəttə ki, varındır, boynuna götürmədiyin təqdirdə bu qətli, nəvələrini öldürəcəyi ilə hədələyir, eləmi? Adı nəydi bu kəndxudanın, Bayraməli deyilmiydi?

– Mən öldürmüşəm qibleyi-aləm, mən. Bayramәlidi adı, bəli… Mən bədbəxt, mən məzlum, mən fəqir, mən müzür… – Qoca göz yaşları gözündən üzünə, üzündən saqqalına axa-axa zarıdı.

Padşahın kefi kökəldi. Məsələni açdığına görə bir xeyli ürəyində yüngüllük duydu, "bu qoca ilə niyə boşuna vaxt itirirəm?!" düşündü və üzünü fərraşbaşıya tutdu, əmr elədi:

– Gətirin bura o it oğlu iti, Bayraməlini, gedin tez, sürüyə-sürüyə, atın quyruğuna bağlayın gətirin, yıxın yerə o qədər vurun, motal iyi versin, ta boynuna alana qədər vurun, amma məbadə öldürəsiz. Bu qoca öldürəcək onu, oğlunun intiqamını qoca özü almalıdı. İntiqam yerdə qalmamalıdı! Bə biz bu taxtdə niyə oturmuşuq?! Qorxma qoca, özünə gəl. – Padşah üzünü qocaya tutdu, başı ilə gözətçilərə işarə etdi, onlar qocanı bir kənara ehtiyatla çəkib altına döşəkcə salıb yerdən oturtdular. Qoca hələ də huşda idi, özünə gəlmirdi ki, gəlmirdi, ancaq yumulu gözlərindən yaş idi, süzüldükcə süzülürdü saqqalına.

***

Bayraməlini bir müddət keçdi, sürüyə-sürüyə gətirib bir torba nəcis kimi atdılar taxtın ayağı altına. Padşah böyük bir qeyzlə:

– Dikəldin bunu! – dedi.

Bayraməlini yerdəcə dizləri üstə dikəltdilər. Padşah yenə də həmənki zəhmlə bundan soruşdu:

– Bayraməli, köpəyin oğlu, bax bu qocaya, tanıdınmı onu?

Bayraməli bədbəxt başın zorla çöndərib qocanı görən kimi məsələni dərhal başa düşdü, gözlərinin işığı soldu.

Padşah bu dəfə səsinə yalançı xoşagəlim bir qılıq verdi:

– Bayraməli, bilirsənmi, səndən necə oldu şübhələndim?!

Sonra elə özü də öz sualına cavab verdi:

– Çünki bu kənddə artıq ikiminci hadisədi bu. İki il əvvəl o qoca yadındamı, lənətulla? Ona da bu cürə qara yaxıb öldürtdün mənə. O binəvanın da indi bildim, günahı yox imiş. İt oğlu, noldu bu məmləkətdə elə təkcə sənin kəndində atalar oğullarını öldürüb övrətlərinə tamah salmağa başladılar, hə? Noldu bunlara birdən-birə elə hamısı ağıllarını itirdi?..

Bayraməli kəndxuda görmüşdü ki, iş artıq işdən keçib, Şaha bunun hər əməli bəllidi, daha bir kəlmə danışmayıb başlamışdı başını ancaq zərblə yerə çırpmağa, eləcə də başını yerə çırpa-çırpa qalmışdı.

– Sənin heç atan, anan olmayıbmı, itin oğlu? – Padşah təəccüb dolu qəzəb içində Bayraməlinin üstünə elə bağırmışdı ki, cəllad Məmmədqulu təzədən özünü içəri dürtüb gəlib Bayraməlinin arxasında qanadlı Əzrayıl tək dimdik, əmrə müntəzir dayanmışdı.

Bayraməli isə bir cavab vermir, başını zərblə yerə vurmağına davam edirdi. Baş çoxdan qarpız kimi partlamalıydı, amma partlamaq əvəzinə şişib gedirdi.

– Götür bu məlunu apar. – Padşah ikrahla Bayraməlini süzüb, nəhayət, Məmmədquluya üzünü çevirmişdi, göz bəbəkləri bu zaman səyrimişdi, üşümüşdü. – Amma elə et bu qoca özü… – Padşah daha bir söz söyləmədən qalxıb Təxt otağından çıxmışdı.

Məmmədqulu kəndxuda Bayraməlini elə boğazlamışdı ki, ancaq xırıltısı gəlmişdi. Elə boğazındanca tutub dalı-dalı sürütləyə-sürütləyə eşiyə çıxartmışdı. İki gözətçi də vəzir Məşdəlinin müşayiəti ilə binəva qoca kişinin hər iki qolundan yapışıb qaldırmaq istərkən, artıq özünə gəlmiş qoca onların əlini itələyib özü qətiyyətlə ayağa qalxmış, kömək gözləmədən bunların ardınca eşiyə çıxmışdı.

Məmmədqulu boğazladığı kəndxudanın heç cür getmək istəmədiyini, ayaqları ilə dirəndiyini görüb zalım bir şirinliklə, qoyunu kəsməyə aparanda adətən deyilən sözlərlə bu adama "gəl, ay Allahın bəndəsi, qaldır ayağını, dirənmə, gəl, qibleyi-aləmə şükürlər elə ki, hələ nəslinə qıymır, bir canın var, bu gün-sabah onsuz da vücudunu tərk edəcəkdir, uçub çıxıb gedəcəkdir, gəl, özün də qorxma, heç qorxma…" deyə-deyə aparıb Divanxananın iç həyətindəki qətl kötüyünün yanına gətirmişdi, orada onu gözləyən köməkçilərinə "tez olun tutun bunun ayaqlarını, bay, bay, bax buna, ay Allahın heyvanı, sakit ol, çıxarma məni hövsələdən, təpik atır, atma təpik, eşşək oğlu eşşək… atma təpik dedim", belə deyə-deyə, özü kənara çəkilib uzun, iti bir bıçağı onun yanında gəlib durmuş və qəzəbindən əsim-əsim əsən, gözlərindən artıq od çıxan haman qocanın amansız əlinə dürtmüşdü, "sən başla" söyləmişdi. Hər tərəfdən cəllad köməkçilərinin polad biləkli əlləri altında heysiz və səssiz qalmış, ancaq hərdənbir bərk diksinən Bayraməlinin başını əvvəl qoca, sonra Məmmədqulu yavaş-yavaş, ləzzət ala-ala, toyuq başı kəsən kimi kəsmişdilər. Məmmədqulunun uzun bığları üzünə fışqıran qara qandan qıpqırmızı olmuşdu.

Qibleyi-aləmin sevimli cəlladı deyilmiydi şeşəbığ cəllad Məmmədqulu?! Əlbəttə ki, sevimli cəlladı idi.

Həqiqətən, Xacə İbrahim ağa Düzəngah yoluna çıxandan sonra, elə bil, uçmağa bircə qanadı olmadı. Artıq etimad eləməyə başladığı Səyyah Sehrbazla ki dil tapıb danışmışdı, ta ürəyi lap sakit idi, arxayın olmuşdu, qəti inanırdı ki, Karvanbaşının arzu-niyyətini həyata keçirəcək, bu məsələni bitirib hər ikisi, nəhayət ki, rahatlıq tapacaqdır. Düzəngah, nəhayət ki, onun çoxdan bəri qısılı qalmış ürəyini açmışdı. Quş olub uçmağı gəlirdi. Neçə dəfə idi, diqqət yetirirdi, Düzəngah yoluna yetişəndən sonra ruhunun, könlünün tam rahatlandığını at, ya qatır üstə rahat-rahat mürgü döyə bilməsindən, mürgüsündə göyün yeddi qatına şahin kimi şığımasından hiss eləyirdi. Düzəngah yolu artıq doğma ev demək idi. Düzəngah yolu artıq adam-qara demək idi. Bu yolnan gedəndə bir də görürdün, yolun o tərəfindən də kimsə, ya da ki, kimlərsə sənə tərəf gəlir. Çünki yol vardı yol vardı. Bir yol vardı, həm o tərəfinə gedən, həm də bu tərəfinə gələn, adamlı-qaralı yol olsun. Bir də yol vardı, bir tərəfinə gedirdin bu yolu, gedirdin günnən, aynan qabağına bir kimsənə çıxmırdı. Düzəngah yolu ikitərəfli yol idi. Ancaq Düzəngahda yol gedərkən beyninə hakim kəsilən bir fikir yenə gəldi qəfildən girdi Xacə İbrahim ağanın başına. Bir başqa yox, ancaq bu yolda ona elə gələrdi ki, bir qadının böyüdülmüş, ölçüsüz, hüdudsuz bədəninin üstü ilə yol gedir. Bu bədəndə çoxlu-çoxlu irili-xırdalı xallar, ziyillər, çibanlar var. Məmləkətin şəhəri də o xallardan biridir, bəlkə də ziyildir, yox ziyil deyil, əlbəttə ki xaldır. Və indi karvan dəvə addımı ilə, o isə xeyli arxada qatır addımı ilə o xala doğru addım-addım yaxınlaşdıqca, hər atılan addım o xalı bir az daha böyüdür, eyni zamanda bu hüdudsuz bədənin xırdalı-böyüklü eyiblərini bir az daha görünməz edir. Xal yavaş-yavaş dönüb olur şəhər.

Onlar beləcənə hərdən susa-susa, hərdən-bir də iki-üç kəlmə ordanburdan bu qatırın üstündən o qatırın üstünə bir-birinə söz uçura-uçura gəlib,

nəhayət ki, uzaqdan Günortacın düz ortasındakı nəhəng Qarağacın soyuqdan az qala donmuş gövdəsini gördükləri zaman hava artıq yavaş-yavaş qaralmağa başlamışdı.

***

Xacə İbrahim ağanı və Səyyah sehrbazı birinci nökər Nəzərəli gördü. "Müjdəmi aldım" deyib dərhal özünü hövlnak verdi çadıra:

– Ağa, gəldilər, iki nəfərdilər. İbrahim ağadı, bir də yanında tənumənd birisi var...

Karvanbaşı dodaqaltı "şükür sənə, Xudaya!" deyib vəd etdiyi bu nökərə iki gümüş pulu çıxarıb verdi, nökər Nəzərəli sevincək bayıra çıxmamış qəlbindəki həyəcanı gizlədib, guya ki, laqeyd tapşırdı:

– Yedirin, içirin, sonra gəlsinlər yanıma.

Karvan bu səfər də burada gecəliyə qalacaqdı. Bu dəfəki gecəlik mənzil başına qədərki son gecəlik idi. Karvan əhli də artıq hamı dincəlməkdən çox təmizlik işlərilə məşğul olacaqdı: çeşmədən su alıb ocaqda isidəndən sonra tükü tükünə yapışmış başından, bədənindən ilin çirkini tökən kim, cırıq paltarını, corabını yamayan kim, əyin-başını səliqəyə salan kim… Əlbəttə, məmləkətin şəhərinə gərəkdir ki, karvan bayram nümayişinə gedən kimi girsin. Sarvan Qarasuvarlı şəhərə artıq müjdəçi qasid də göndərmişdi. Karvanı zurnaçılar, davulçular qarşılayacaqdı. Hamı şəhər əhli karvanın qabağına çıxıb tamaşaya duracaqdı. Dəvələrin zınqrovu, atların, qatırların rəngbərəng yüyənləri, cilovları, palanları, nökərlərin, sarvanların bu tərəflərdə əqlə gəlməyən, min ildən bu yana görünməyən qəribə geyimləri. Tamaşadımı, şəksiz tamaşadı…

Xacə İbrahim ağa ilə Səyyah sehrbaz çadıra daxil olanda Karvanbaşı çadırın yuxarı başında üz-gözündə laübali bir tövr bardaş qurub bir balaca xalçanın üstündə əyləşmişdi. Bir dirsəyi ilə mütəkkəyə söykənmişdi, o biri əlindəki kəhrəba təsbehinin iri daşlarını ətli barmaqları ilə yavaş-yavaş, sakitcə çevirir, dodaqaltı özü-özü üçün vird edirdi. Altdan-üstdən Səyyah

sehrbazı iti bir baxışla süzdükdən sonra ikisinə də əli ilə oturmaq işarətini verdi:

– Xoş gəldiniz. – Karvanbaşı bunları salamladı.

Bunlar da öz növbələrində mərifətlə salam verib keçib Karvanbaşı ilə üzbəüz oturdular, belə ki, Səyyah sehrbazın üzü ilə Karvanbaşının üzü bir-birinə baxdı, Xacə İbrahim ağa isə bardaşını Karvanbaşının mütəkkəyə söykədiyi dirsəyinə yaxın qurdu, bir növ onun əlinin altında oturdu.

– Bu ağa ki sənnən gəldi, kimdi, nəçidi? – Karvanbaşı yenə daxilindəki təlaşını qətiyyətlə qovub bacardığı qədər sakit səslə soruşdu, çünki əvvəlcədən götür-qoy etmişdi ki, ilk sualını elə bu cürə versin. "Bəri başdan əl-ayağına düşməyəcəyəm ki. Hələ bir görüm mərifəti nə dərəcədədi, elmi nədi. Mən ki bunu öz sirrimə daxil edirəm, sonradan peşiman olmanam ki…"

Xacə İbrahim ağa Karvanbaşının niyyətini əlüstü duyub bu "oyuna" o da baş vurdu. Gözucu Səyyah sehrbaza baxa-baxa belə dedi:

– Ağa, ərz eləyim qulluğuna ki, bu şəxs məşhur alim Hacı Mir Həsən ağa Səyyahdı. Adı da ruhiyyatla məşğul olan cümlə elm əhlinə çox yaxşı bəllidir. Biz bununla Sehrbazlar dərəsində tanış olduq, Görükməz Təpənin yanından karvan keçərkən mən bir bu dərəyə düşüm dedim, bir başqa işim var idi, daha sənə zəhmət vermədim, yolundan eləmədim, dedim arxanca gəlib Günortacda onsuz da sənə yetişəcəm. Elə Səyyah ağanı görən kimi düşündüm ki, mən gərəkdir bu şəxsi-alimi səninlə görüşdürəm. Fikrimi söylədim, niyyətimi bildirdim. Razılıq verdi, çün sənin də elmi ruhiyyata marağından artıq mən onu agah etmişdim. Sağ olsun sındırmadı məni, gəldi. Ağa, qonağımızdı. Səyyah, bu da sənə söylədiyim ağamızdı ki var, hər dərdimizin çarəsi…

Karvanbaşı Xacə İbrahim ağanın sözünü tənbəl-tənbəl kəsdi:

– Yaxşı, yaxşı… Onları saxla. Qonaqdı, xoş gəlibdi. Yemək, içmək verdilərmi, İbrahim ağa, qonağa?

– Bəli, ağa, verdilər. Sən heç narahat olma. – Xacə İbrahim ağa cavab verdi.

– Sağ olasan, sağlığına yedik də, içdik də. – Səyyah Sehrbaz da ağzını açıb sidq-ürəkdən dilağız elədi.

– Çay gətirsinlər, yoxsa şərbət içərsən?

– Nolar, ağa elə bu şərbətdən içərik. – Xacə İbrahim ağa qonağa baxıb dedi.

– Buyurun, buyurun o zaman. Hacı ağa! – Üzünü Karvanbaşı Səyyah sehrbaza tutdu. – Sən bir xeyli yaşın görürəm içindəsən, əllini keçərsən əlbət, elə həmişə ki o dərədə oturub qalmamısan. Məmləkətin haradı, haralara üz tutdun getdin, hansı küləklərlə haralardan gəldin, haralarda elm aldın, kimlərdən elm aldın, tale səni necə oldu ki, nəhayətdə gətirib-gətirib o möcüzə dərəyə atdı?! Gecə yavaş-yavaş düşür, yavaş-yavaş da keçib gedəcək. Qış gecəsidi, tələsən yerimiz yox, bir söhbət eləsəydin, ürəyimiz açılardı. Əlbəttə ki, əgər söyləyəcəklərin sirr deyildirsə…

Səyyah sehrbaz ürəyində düşündü: "əlbəttə, bunun məni bu cürənə imtahan eləməsi vacibdir". Odur ki aram-aram Karvanbaşıya üzünü tutub belə cavab verdi:

– Sirr olanı sirdir, sirr olmayanı agahdır. Sirr əvvəldən heç sirr kimi yaranmır əgər ki onu nə zamansa açıb qoymuş olalar lüt və üryan ortalığa….

Karvanbaşı bu sözlərdən sonra gözlərini ki haradansa çadırın içinə gəlib girmiş "vız" eləyib özünü ora-bura çırpan bircə dənə yekə qara milçəyə dikmişdi, bu milçəkdən ayırıb bu səfər dikdi gözünü Səyyahın üzünə, diqqətini cəm elədi Səyyah sehrbazın dediklərinə, daha böyük bir maraqla onu dinləməyə başladı. Səyyah sehrbaz nəfəsini dərib aramla sözünə davam etdi:

– …mən çox uzaq bir yerdənəm, ağa, inanmıram sən öz karvanınla o yerlərə nə zamansa getmisən, nə zamansa da gedib çıxacaqsan. Çərxi-fələk deyərlər öz vətənlərinə bizimkilər. Özləri də yaşayışlarını, inam-əqidələrini, söz-söhbətlərini, münasibətlərini eynən çərx kimi, çevrə kimi qurarlar. Hər şeyi yumru bir şeyə bənzədərlər, yerişləri, oturuşları da dairəyə oxşar, nəinki ev-eşikləri, hətta bütün dünya, bütün səltənəti-kainat onlar üçün beləcənə dairə, çevrə, çərxdir. Yolu mənim həmvətənlərim heç vədə düzünə getməzlər. Eləcə dairə cıza-cıza gedərlər. Evlərini dairəvi tikərlər, düzünə olan, bucağı olan hər şey onlar üçün qəbuledilməzdir. Ox atan zaman ox hökmən atıldığı yerə qayıtmalıdı, öz hədəfinə dəydikdən sonra da belə olur, çün Böyük Dairənin öz cazibəsi vardır, əgər ox qayıtmırsa, deməli, bu dünyanı bürüyən

boşluqda bir deşik tapıb başqa bir dünyaya uçub gedib. Hər hansı bir yazı yazılarsa, o da hökmən dairə kimi öz əvvəlinə can atmalıdır, bizim yazıları əvvəldən axıradək oxuyan zaman hasil olan məna axırdan əvvələ oxunuşda da eyni olur. Çərxi-fələk ölkəsindən çıxıb başqa bir məmləkətə getmək isə heç mümkün deyil. Kim bunu etməyə çalışıbsa alınmayıb, gedib-gedib yenə dövrə vurub hərəkətə başladığı nöqtəyə gəlib çıxıbdır. Ta əyyami-qədimdən bu günədək bunu etmək, yəni, qulluğuna ərz edim, Çərxi-fələk adlı məmləkətdən çıxmaq və başqa ölkələrə səfər etmək bu vaxtacan ancaq bir adama qismət olubdur. O adam sənin önündədir, cənabi-möhtərəm.

Bunları deyib, Səyyah sehrbaz qabağındakı alçaq mizdən şərbət qabını götürüb öz piyaləsinə bu şərbətdən süzdü, əlinə piyaləni aldı, amma içmədi, elə bil, piyaləni ovcunun içində qızdırmaq istirdi, sonra yenə haman tövrlə, yavaş-yavaş söhbətinə davam etdi:

– Bəli, təəccüb edə bilərsiniz, inanmaya da bilərsiniz, bilin, amma mən həqiqəti söylədim sizə. Mən yeganə adamam ki, Çərxi-fələk ölkəsinin vətəndaşı, bu gün tamam başqa, çox-çox uzaq bir yerdə Görükməz Təpənin altında özümə vətən tapmışam. Amma ki mən buralara da əlbəttə, birdən-birə gəlib çıxmamışam. Ölkələr gəzmişəm, şəhərlər görmüşəm… Soruşma necə olub Böyük Dairənin cazibəsindən çıxıb buralara gələ bilmişəm – bu bir başqa mövzudur, istərsən bu bir sirri-əzəmdir, sənə heç maraqlı olmaz…

Karvanbaşı ilə Xacə İbrahim ağa üz-gözlərində get-gedə artan maraq və böyük bir həvəs Səyyah sehrbaza qulaq verməkdə idilər. Onun sözünə xitam verib nəfəs dərdiyini görən Karvanbaşı Xacə İbrahim ağaya ötəri bir nəzər salıb söhbətin səmtini bir balaca cəhd edib onu narahat edən məsələnin üstünə gətirmək istədi, soruşdu:

– Bəs bu ruhiyyat elmini harda öyrənmisən, Hacı ağa? Vətənində, yainki bir başqa məkanda?

– Başqa zamanda, başqa məkanda… əlbəttə, başqa zamanda, başqa yerdə… Mənim ustadım elmi ruhiyyat dərsini Mənuçöhr ibn Sadiqdən, əlbəttə ki, eşitməmiş deyilsiniz belə bir şəxs barədə, bəli, bəli, belədir ki var, Mənuçöhr ibn Sadiqin özündən almış idi…

– Mənuçöhr ibn Sadiq dedin?.. – Karıxmış Karvanbaşı yerindəcə qurcuxdu.

Xacə İbrahim ağa, elə bil, sehrə düşdü, gözləri yarıyumulu, həzin və avazlı bir səslə birdən-birə ortalığa çökmüş sükutun içində ağzından əzbərə bu sözlər çıxmağa başladı:

– "Dünyaya hələ doğulmamış, amma hökmən doğulacaq adamların da ruhları olur. Bu hələ doğulmamış adamların ruhları, yəqin ki, bizim ətrafımızda gəzib-dolaşır, doğulub bu dünyada artıq yaşamış və ölmüş adamların ruhları ilə təmasa girməyə cəhd edir..."

Bu yerdə Səyyah sehrbaz eyni həzinlik və eyni avazla Xacə İbrahim ağanın ağzından çox böyük ehtiramla ona ötürülən sözü alıb davam etdi:

– "... onlardan bir uşaq həvəsi və bir uşaq inadı ilə dünya barədə, buradakı məmləkətlər barədə, həyat barədə nəsə öyrənmək istəyirlər. Ölmüş adamların ruhları bəzən səbr və təmkinlə, bəzən də hövsələsiz bir halətdə bildiklərindən və bilmədiklərindən, eşitdiklərindən və eşitmədiklərindən onlara bəzi-bəzi şeylər danışır, danışdıqca da ağızlarını açıb böyük hörmət və izzət ilə, intəhasız maraq və şövq ilə onları dinləyən, onlardan nəsə öyrənmək istəyən və dünyaya gəlmələrinin növbəsini gözləyən, bəzi zaman gözləməyə səbrləri çatmayan bu hövsələsiz ruhlara məyus-məyus, acı-acı baxırlar..."

Səyyah sehrbaz bu yerdə sözünü kəsdi, gülümsünüb Xacə İbrahim ağaya üzünü çevirdi. Son cümləni yenə də Xacə İbrahim ağa söylədi:

– "...Dünyaya gələndən sonra o tərəfdə nə vardısa, nə olmuşdusa, hər şey yaddan çıxır". – Bunları deyib Xacə İbrahim ağa xeyli ürəkdən dediklərinə belə bir əlavə də elədi. – Əlbəttə ki, çox böyük bir şəxsi-alim idi Mənuçöhr ibn Sadiq, Allah qəni-qəni rəhmət eləsin ustadına.

Karvanbaşı bir xeyli düşündü, eşitdiyi bu sözlər, bu fikirlər ona bir qədər küfr kimi gəldi, "hər halda dinimiz hələ ki elmi-ruhiyyatı qadağan etməyibdir bizlərə, edibsə də mən bir şey bilmirəm bu xüsusda" ürəyində belə deyib özü-özünə təskinlik verməyə çalışdı, sonra qonağın söhbətinə qayıtdı:

– Zər kimi sözlərdir. Sənin müəlliminin ustadı bu şəxs olub dedin?

– Bəli, elədir ki, var. Mən ustadımdan bu uca şəxs barədə çoxlu təqdiredici sözlər eşidib xatirimdə saxlamışam.

– Sənin ustadın… – Xacə İbrahim ağa qəflətən ağlına işıq kimi gəlib soxulan bir adı nə düşündüsə söyləmədi, əzaları sustaldı, öz sözünü elə özü də kəsdi, çünki söz demək yox, əslində, özü də artıq cavabını bildiyi bir yorğun sual vermək istəyirdi.

– Mənim ustadım, İbrahim ağa, Cəzirəli əl Zatineyi Ağ dərvişdir. Güman edirəm, bu ad da sizlərə yaxşı bəllidir. – Yenə Səyyah sehrbaz Xacə İbrahim ağanın qəlbində tutduğunu əlüstü duymuş idi.

– Omu? – Xacə İbrahim ağanın gözləri ac yalquzağın diqqətli gözləri kimi işıldadı.

"Ürəyimə dammışdı. Ağ dərviş dindən, məzhəbdən uzaq bir sərgərdan idi. Dinə dəxli yoxdur bütün bunların, ürəyimə dammışdı". – Karvanbaşı pəjmürdəhal olub fikrindən keçirdi.

– Dinə ziddiyyəti də yoxdur.

Səyyah sehrbaz bu dəfə Karvanbaşının ürəyindən keçənləri hiss edib cavab vermişdi:

– Ustadım uzun müddət Şamda, Hələbdə, Hacəbdə üləmalara bunu sübut etməklə məşğul oldu. Bəzən bir nəticə hasil oldu, bəzən də bir nəticə hasil olmadı. Məyus oldu, çəkildi dağların qoynunda özünə bir qalaça qurdu, yanına ancaq özünün inandığı şəyirdlərini aldı, orada guşənişinlik etdi və hüdudsuz biliklərini şəyirdlərinə ötürə-ötürə ruhiyyat elmini dərinləşdirməklə məşğul oldu.

– Bəli, bəli, əlbəttə ki, duyuq düşmüş idik…

– Sənin ustadın Ağ dərviş imiş… – Xacə İbrahim ağanın gözləri xəlvəti ləzzətdən süzülüb getdi.

Əlbəttə, Xacə İbrahim ağa onu da bilirdi ki, Ağ dərviş heç də könlünün istəyi ilə dağlara çəkilməyib, son dəfə "Ruhiyyat və dinin özülləri" adı altında yığışan Böyük Ruhani Birliyinin ünlü-nüfuzlu üləmaları Hacəbdə elmi müzakirələr təşkil etmişdilər. Müzakirələr yavaş-yavaş məhkəməyə çevrildi. Doqquz gün keçən bu məhkəmədə Ağ dərvişi yolunu azmış, qəlbinə cinlər, əcinnələr, dəli ruhlar gəlib qonmuş, Allah yolunu azmış bir din düşməni, göylərin, ruhların adından danışan, amma danışmağa haqqı olmayan bir fırıldaq sahibi kimi ifşa etdilər. Müzakirənin son günü Ağ dərviş qərar elan edil-

məzdən əvvəl öz əbədi rəqibi və bu elmi müzakirəni fəndlə, hiylə ilə məhkəməyə çevirə bilmiş Böyük Ruhani Birliyinin çox böyük nüfuza malik üzvü Seyid Sarı Əsrarinin üzünə bütün onun barəsində düşündüklərini açıb deyir, ürəyi dözməyib ona da, Ruhani Birliyinin digər üzvlərinə də ağır sözlərlə föhşlər yağdırır, ehtiyatsızlıq edib hətta münsiflik edən din xadimlərinə də həqarət edir, narahat məclisi özbaşına tərk edərək çıxıb hara gedir, hara yox olur, uzun müddət bilinmir. Sonralar Hacəb ətrafındakı Ala dağdan azuqə almaq üçün şəhərə gələn və alış-verişdən sonra ustadının yanına dönən şəyirdlərindən birinin ardınca düşüb Ağ dərvişin yerini deyəsən gizli xəfiyyələr öyrənib din xadimlərinə xəbər verirlər. Kimi deyir ki, bu şəyird gizli xəfiyyələrin elə öz casusu olub, kimi də onun Seyid Sarı ilə bağlılığını bəyan edir. Hər nə isə bu adam Ağ dərvişi ya qeyri-şüurlu, ya şüurlu şəkildə ələ vermiş olur. Amma onun, yəni, bu şəyirdin əvvəldən-axıracan günahsız olduğunu deyənlər də olur.

Əlqərəz Ağ dərvişin yeri-yurdu bilinəndən sonra, gizli xəfiyyələr onu dinimizin saflığını qoruyan Böyük Ruhani Birliyinin üləmalarının məhkəməsinə bu dəfə əli-ayağı qandallı gətirəndən sonra, ölüm hökmünü oxuyub təcili elə haman gün gecəyarısı divanxana meydanında əvvəlcə ölüncə döyürlər, sonra müctəhid cəllad dili söz tutmayan onun ağ saqqallı başını qoca heysiz bədənindən ayırmazdan əvvəl qaxac olmuş qupquru cismini çarmıxa çəkir. Şəhərdə bu dəfə də belə bir şayiə yayıldı ki, bundan sonra bəs guya Ağ dərvişin sədaqətli şəyirdləri intiqam almaq üçün and içiblər. İntiqam isə bundan ibarət olmalı idi. Ağ dərvişin şəyirdləri ustadlarının onlara axtarıb tapmağı öyrətdiyi ruhlarla bəni-insanlar arasındakı ünsiyyət yollarının bir dəfəlik yox olması üçün özlərinə əl qaldıracaq, intihar edəcəkdilər. Onlar tərki-cahan olandan sonra onların yerində daha heç kim qalmayacaqdı, çünki onlar ruhlarla təmas qurmaq yolunda sonuncular idi. Ağ dərvişə qıyanlar bu sirdən bir daha heç bir zaman agah olmamalı idilər. İntihar zamanı, belə söyləyirdilər ki, iyirmi üç gənc, özlərini Ağ dərvişin kölgələri adlandıran bu şəyirdlər öz aralarından bir nəfəri qovub, ya da uzaqlaşdırıb ona özlərilə birgə intihar etmək şərəf və imkanını verməyiblər. Dağ başından üzü aşağı qaranlıq boşluğa əl-ələ verib iyirmi üç ağ paltarlı vücud durna qatarı kimi açılan zaman onla-

rın başları üstündəki nəhayətsizliyi və uçduqları boşluğu kənar bir qayalıqdan bir nəfər kifirləşmiş üzündə incik bir təbəssüm seyr edə-edə durmuş imiş…

Xacə İbrahim ağa təzədən ağlını işıqlandıran yeni qəfil fikirdən bu dəfə hətta qanının bədənində donduğunu hiss elədi. Gözünü necə maddım-maddım dikmişdi Səyyah sehrbazın üzünə eləcə də dikib qaldı, ayıra bilmədi.

***

Karvanbaşı Xacə İbrahim ağanın əqlindən keçən bu fikirlərdən xəbərsiz, öz huşunda idi. Səyyah sehrbazla Xacə İbrahim ağa arasındakı gizli səssiz söhbətin ona bir dəxli yox idi. Onun fikrində-zikrində ancaq bir məlum məsələ idi. Bəli, şübhə yoxdu. Səyyah sehrbaz olmağına, elə bil ki, sehrbaz idi, oxşayırdı, zənlə baxanda sirriçində bir adam idi. Bu dəfə ehtiyatla niyyətini bir balaca da olsa büruzə vermək istədi, Karvanbaşı dedi:

– İnşallah ki, sabah evimizdə-eşiyimizdə olarıq, dincələrik, ya sabah axşam, ya o biri gün hansı məsləhət olarsa, İbrahim ağa səni məsələdən hali edər o zaman işimizi də görrük, nə deyirsiz?!

Son sual, əlbəttə ki, hər ikisinə – Səyyah sehrbaza və Xacə İbrahim ağaya aid deyildi. Son sual aid idi ancaq Səyyah sehrbaza. Səyyah sehrbaz elə özü də bu suala cavab verdi:

– Elədi, ağa, sən deyəndi, sabah, o biri gün, nə fərqi var ki?! Təki göy üzünün rəngi mən istəyən olsun… – Sonra da, elə bil, özü-özünə dodaqaltı mızıldadı – Mən istəyən rəngi hələ bir alsın göy üzü, yerdə qalanı çətin bir şey deyil…

Bununla da söhbət qarın doyurmayan yarımçıq yemək kimi elə buradaca qurtardı. Gecədən keçmiş isti yorğan-döşəyə girib bir xeyli fikrə qərq olan Karvanbaşı halsız bədənini ora-bura vurnuxub, nəhayət ki, çətinliklə yuxuya verərək uzun illərdən bəri yuxuda görmədiyi yaşıl gözləri niskilli anasını bu gecə yuxusunda hıçqıra-hıçqıra görmədimi, gördü.

Və günlərin bir günü ikicə günün içində Şah ordusunun zərbi-dəstinə davam gətirməyib biyabırçı halətdə imdad diləyən, nə üçün, hansı əqillə və hansı məqsədlə qiyam etdiyini heç özü də yaxşı anlamayan bu balaca, amma yekəxana şəhərdə Məmmədqulunun gördüyü və Məmmədqulunu çaşdıran, fikirlərini bir-birinə qarışdıran o cavan gəlin yuxarı məhəllədəki əyri-üyrü küçələrin birində qoca qarı nənəsiylə bir yerdə yaşayırdı. Əri həmən ikicə günlük qeyri-bərabər döyüşdə o dünyalıq olmuşdu. Bu əyri küçədə o gəlingilin düz həyətinə baxırdı Məmmədqulunun sahiblərini qovaraq içinə girib özünə yaşayış yeri elədiyi mülkün ikinci mərtəbəsindəki yeganə pəncərə günəşin təzəcə göydən göründüyü sübh vaxtı nə qədərinə işıq yığa bilərmiş içinə, xudaya?! Bax elə bu pəncərə idi gözəl Pərnisə yaşayan o evin balaca həyətinə durna gözü kimi açılırdı.

Şeşəbığ cəlladbaşının bu pəncərənin önündən ayrılmamağı yavaş-yavaş ətraf məhəllə adamının da diqqətini çəkməyə başladı. Onsuz da qalib ordunun cəlladı təkcə bu məhəllədə yox, bütün şəhərdə acı bağırsaq kimi uzanan söz-söhbətin başı idi. "Gəldi, yox, gördün gördüm, evdə qılıncdan çox qılıncı, baltadan çox baltası… cəlladdı da, üzünə baxdınmı diqqətlə, zərrə qədər mərhəmət yoxdu üzündə, üz, elə bil, min ildi buz vurub donub qalıb. Nəsə gözəl Pərnisənin həyətindən gözünü çəkmir ki çəkmir, yapışıbdı, nədi pəncərəyə. Bunlara arvad almaq olar? Olar. Olmaz. Yox niyə olmur, odu o gün görmədin ki…" Bunun kimi, buna bənzər dedi-qodu söhbətləri artıq ayaq açıb başlamışdı o əyri-üyrü məhəlləni addım-addım, axsaya-axsaya gəzməyə.

Məmmədqulu özü də bilməzdi ki, axır vaxtlar niyə belə səbirsiz olub, elə hey hara isə tələsir, əslində, bilirdi hara tələsir, tələsdiyi yer ev də deyildi, tələsdiyi yer durnagözlü pəncərənin qabağıydı, bir azdan gün batandan sonra bu qızcığaz qapını bağlayıb burnunun ucunu da çölə çıxarmayacaq və

Məmmədqulu onu bu gün bir daha görə bilməyəcək deyin atının yüyənini səbirsiz tərpətdi. Ürəyi birdən sıxıldı və bərk-bərk atmağa başladı. Bu evə ayaq basıb köçəli üçüncü gün idi gərək ki, otaqdakı yeganə böyük pəncərəyə yanaşıb tənbəl-tənbəl uzaqdan par-par parıldayan cümə məscidinin günbəzinə baxdığı zaman birdən hiss eləmişdi ki, aşağıdan qonşu həyətdən kiminsə baxışıdı zillənib onun tüklü üzünə, az qalır onun tüklü üzünü deşə, deşərdi də iti mizraq idi bu odlu baxışın ucu. Bəstəboy, qarayanız, arıq bir qızdı, amma ki gözəl də olmağına gözəl idi, əlindəki taxta qabdan bir dəst yuyulub sıxılmış pal-paltarı bir-bir çıxarıb bu balaca həyətdə bir ucu evin damından asılan taxtabəndin ucuna, o biri ucu çəpərə bağlı zivədən sərməyə hazırlaşırdı ki, birdən dörd tərəfə yayılmış saçlarını geri silkələyib başını qaldırıb qonşu pəncərədə bir qalınbığlı, qarasifətli kişinin pəncərəyə dirsəklənib cümə məscidi tərəfə dalğın-dalğın baxdığını görəndə bir xeyli bu dalğın baxışın axıb süzüldüyü gözlərə, bu kədərli çöhrəyə sehrliymiş kimi baxıb-baxıb durmaqdan özünü saxlaya bilmədi: "Allah, Allah, sən özün kömək elə, bunların da, yəni, Allahı olurmuş, cəlladın da üzündə rəhm olurmuş", – düşündü. Bir ilin gəlini gözəl Pərnisə lap elə bu yaxınlarda cavan kişisini itirmişdi, heç bir ay da bəlkə olmazdı. Əri şəhəri müdafiə edənlərdən idi və o gecə tələsik gedib qəsdimi vardı, belə tez şəhid olandan sonra bu deyib-gülən, dodağından gülüşü əskik olmayan cavan gəlini tamam dəyişmişdilər. Ağlamağına daha ağlayıb-sısqayıb doymuşdu, amma gülüşü-təbəssümü də artıq üz-gözünü tərk edib harasa başqa bir yerə birdəfəlik uçub getmişdi…

"– Hansı cəhənnəmdə qaldın, qız Pərnisə?! Noldu, bu paltarı bu zivəyə sərmək nə hucur iş oldu sərilib qurtarmadı?!"

Evin içindən qoca qarı nənənin küpəgirən qarılar təkin xırıltılı səsi gələr-gəlməz gözəl Pərnisə vəhşi heyvan iyi almış ceyran təki hürkdü, nəmli yaşıl gözlərinimi biləyi ilə sildi, silmədisə əlini niyə üzünə apardı, qərəz, baxışlarını birtəhər haman pəncərədən ayırdı, əlindəki paltarları bir-bir havaya çırpıb başladı tələsə-tələsə ipə sərməyə və elə bu zaman da huşa getməyindən qayıdıb qarı nənənin səsi ilə Məmmədqulu bu balaca həyətdə bu balaca gözəl uzunsaç qızı öz ikiminci mərtəbəsindəki bu yad həyətə açılan durnagözlü pəncərəsində ilk dəfə gördü. Bir diqqətlə qızı süzdü. İlk fikrindən keçən bu

oldu: "Nə incə boynu var, birdəfəlik boynu var ki bunun". Tezcə bu fikri az qala əli ilə yelləyib milçək qovalayan kimi beynindən qovdu. Bir daha qıza tuşladı baxışını. Bir xeyli baxdı. Qıza beləcənə baxmaq ona ayrı ləzzət elədi. Onun boy-buxununu, duruşunu, əl-qol ata-ata, dodaqaltı deyinə-deyinə ipə paltar sərməsini, pəncələri üstünə qalxıb qıvraq əndamını sanki tarıma çəkməsini rahat-rahat seyr elədi. "Məni görməyinə gördü, amma vecinə də almadı – bihudə deyil".

Aşağıda gözəl Pərnisə birdən ayıldı ki, bəs nə hərəkət edirsə, necə əyilib durursa, bədənini balıq kimi ha tərəfə qıvrıldırsa, sən demə, pəncərədən ona utanmaz-utanmaz baxan bu yaşlı, bığları şələ kişinin acığına edir. Bəlkə də acığına eləmir. Bu fikirdən yenicə açılan dan üzü kimi bunun da üzü qıpqırmızı oldu. Birdən nə mənə, nə sənə başını döndərib utanmaz baxışlarını o da dikdi bu kişinin şahin baxışlarına, ilişmədimi bu baxışlar bir-birinə, həm də necə ilişdi, tutaşdı, sonra süst düşdü, sonra hər ikisi məlul-məlul o buna, bu ona aşkar baxmaqlarını daha heç cürə saxlaya bilmədilər.

– "Hamı səndən qorxur, bilirəm, amma mən bax bu boyda da qorxmuram, heç zərrə qədər qorxmuram. Bil…"

– "Sən məndən niyə qorxmalısan ki. Mən ki səni tanımıram, sən də məni tanımırsan. Qorxma…"

"Qorxmuram. Heç vədə də qorxmanam…"

"Qorxmasan yaxşıdı. Mən ki adamyeyən deyiləm…"

"Adamyeyənsən, aldatma məni. Başlar kəsib doğramısan. Nə qədər günahlı, günahsız qana batıb sənin əllərin. Mən bilirəm…"

"Yox, elə demə. Hər adamın öz günahı olur. Günahsızlar günahı görünməyən günahlılardı…"

"Nə ağzını açıb durmusan orda. Görmürsən iş görürəm. Mənə elə baxma. İndi nənəm gəlir…"

Handan hana qoca qarı nənə yanını basa-basa gəldi, paltarları hirslə gözəl Pərnisənin əlindən dartıb alıb özünü də yana itələyib ölə-ölə onları zivəyə sərməyə başladı, özü də ki eynən küpəgirən qarılar təkin bu dəfə ağzı səssizcə açılıb yumulurdu.

Gözəl Pərnisə durmuşdu bir tərəfdə, başı aşağı...

***

Gün günü ağır-ağır, saat saatı, dəqiqə dəqiqəni ildırım sürətilə əvəzlədi. Göz yaşları yavaş-yavaş elə gözündəcə quruyan gözəl Pərnisə o gündən sonra nə zaman arxa həyətə çıxdısa, qonşudakı yuxarı pəncərədə həmin ətli sifətə yapışmış şeşə bığları gördü, bildi ki, bu bığların sahibinin iti baxışları indən belə onun hər hərəkətini gözləyir, izləyir. Gözəl Pərnisə nəyə istəsəydin and içərdi ki, bu baxışlar çox kədərli baxışlardır, bu adam da kədərli adamdı, özü də, deyəsən, utanmaz-zad deyil. Bu adam gözəl Pərnisədən həqqən gizlənməyə çalışırdı, bəzən bacarırdı, bəzən bacarmırdı. Bacarmayan zaman, elə bil, onu harasa səsləyirdi, harasa ahənruba kimi aparırdı gözəl Pərnisəni bu kədərli baxışlar dönüb olurdular bir çiçəkli yol: "gəl, gəl qız, mən ki həyatım boyu əsl məhəbbətin, əsl nəşənin nə olduğunu bilmədim, həsrət bilmədim, vüsal bilmədim, həyatı necə və kimə və nə üçün qurban verməyi bilmədim" bu kədərli baxışlar deyirdi. Kənardan baxan olsaydı belə anlarda düşünərdi ki, heç cəllad Məmmədqulu deyil bu kədərli baxışların yiyəsi, kimdisə, nədisə Məmmədqulunun gözlərinin düz içində oturan bir başqa adamdı bu cürə baxır, heç əri də, özünün halal birillik əri də ona belə baxa bilməmişdi ki, gözəl Pərnisənin ürəyi bu cür titrəyəydi, şirin bir yuxudaymış kimi nə zamansa onsuz da ayılacağını güman edib bu yuxuda nə istəsəydi eləyəydi. Buna bax, sən Allah buna, bu ki, ona əl eləyir, vay utanmaz, lap elə götürüb nərdivanı dirəyəsən bu divara qalxasan bu ikinci mərtəbədəki bu bayquşgözlü pəncərədən keçəsən içəri, tutasan bunun şeşə bığlarından dart ki dartasan, atasan özünü o möhtəşəm qolların arasına, amma… ay işığı həyəti doldurub qoca qarı nənənin xorultusu evi başına götürəndə gözəl Pərnisə bir də nə gördü, gördü ki, hardadı hardadı – nərdivanın üstədi, pilləri bir-bir qalxır "çiçəkli yolla" yuxarı ikinci mərtəbəyə. Yuxarı, yuxarı, əlbəttə, ikinci mərtəbəyə! Yuxarı, yuxarı əlbəttə, əlbəttə ki, ikinci mərtəbəyə!! Bu zaman ürəyi necə də gupgup vururdu. Məmmədqulu əlini sallayıb onun belindən nə zaman tutdu, heç özü də bilmədi, quş kimi qaldırıb nə zaman saldı durnagözlü pəncərədən içəri, otağın ortasında nə zaman yerə buraxdı, onu da bilmədi…

...Zavallı, zavallı... bircə sakit ol... bircə sakit olum... nə olur, olsun, sonra nə olur olsun, indi, indi və daha heç vaxt, indi, yox, indi olmaz, indi heç olmaz, bir başqa vaxt, yox, indi... aman Allah, eşitsə, bilsə nənəm öldürəcək məni, qurbanın ollam, burax məni gedim, mənim axı burda nə işim var idi?! Ay Allah, sənə, sənə qurban ollam, inan mənə, inan, burax məni gedim sabah, sabah gəlim, gedəcək kəndə, sabah, yaxşımı, bu gün burax məni, burax sən Allahın, gedim mən, eşidib görən olsa, daşqalağam mən, mən bədbəxt, mən biçarə, zavallı, zavallı, sus, danışma, nolar, sus, niyə, niyə axı mən... bu boyda şəhər... sən ki kimi istərsən... dayan, dayan bir, səbrin olsun, yoxdu sənin səbrin, niyə yoxdu sənin səbrin, ay Allah, ay Allah, niyə bunun səbri yoxdu... yoxdu... yoxdu... yoxdu sənin insafın da yoxdu... sənin... ah... bax bu utanmazın hələ bığlarına, bax bir, yelləncəkdi, yelləncək...

Pərnisənin və Məmmədqulunun bir-birinə sarılıb yapışmış və bir-birindən heç cür ayrıla bilməyən pıçıltıları yavaş-yavaş ağır bir qaranlığın sükutunda əriməyə başladı, çünki "burax məni" deyən kimi yenə işığı həyəti götürmüş ayın qabağını bir parça bulud şəstlə gəlib necə tutdusa, həyət birdənbirə zülmət qaranlığa qərq oldu – o bulud nə zaman çəkilib ayın qabağından gedəcəkdi, ancaq o bir olan Allah bilirdi bunu.

***

Məmmədqulu belə bir zaman və belə bir yerdə zənən üçün bombalanboş qəlbinə gəlib bu cürənə eşqin dolmasını Allahın ona uca göylərdən göndərdiyi bir inayət kimi qəbul elədi. Elə bil, Allah onun qulağına pıçıldamışdı: "Görürsən sən bu qızı, görmürsən?! Götür, qurtar onu dərddən-bəladan hifz elə, buraxma yanından heç hara günahlarını ancaq bu cür yuyarsan". Bu pıçıltını heç cür unuda bilməyən Məmmədqulu az qala hərdən yorğan-döşəyin içində hətta çox bərkdən sıxırdı gözəl Pərnisənin başını öz tüklü köksünə elə sıxırdı ki, qızın hövlnak olub "vay nəfəsim, burax, burax, öldüm ki, mən. Allah, neynirsən sən, dəli olmusan? Sən dəlisən vallah, dəlisən..." deməyindən də ləzzət alırdı. Əslində, ləzzəti gözəl Pərnisənin səsindən alırdı, dediyi sözlərin mənasına heç bir fikir vermirdi. Qəribə olan həm də bu idi ki,

Məmmədqulunun özünün son vaxtlar ürəyinin elə bir uzaq yerindən səsi gəlib şirin-şirin danışmağa başlamışdı ki, hamı mat-məəttəl qalmışdı, buna deyirdilər həmənki qeyzli, zəhmli Məmmədqulu deyil, başqa Məmmədquludu bu. İşini görəndə də bir başqa adam olmuşdu, gözəl Pərnisə gözlərinin qabağından iki ayağını bir başmağa dürtüb heç hara inad edib getmirdi, hara, kimə baxırdı yenə həmən qaydada ancaq onu görürdü, əli də ki işdən açıq-aşkar soyumuşdu, özünü ancaq məcbur edib gün ərzində bir işin qulpundan birtəhər yapışa bilirdi, çalışırdı ki, gözə-zada çox dəyməsin, necə gəldi bu günü də yola versin çıxıb getsin evinə. Evdə isə… Onunku ay işığını gözləmək idi. Ay işığı həyətə dolan zaman gözəl Pərnisənin nərdivanının ucu utanmaz-utanmaz "taq" eləyib söykənirdi durnagözlü pəncərəyə, bu zaman Məmmədqulunun ürəyində tarıma çəkilmiş sim idi, nəydi o sim qırılırdı. Qız bu pilləkəni qalxıb qurtarınca o da aramsız otaqda o tərəf bu tərəf var-gəl edirdi, az qala o dünyaya gedib qayıdırdı. Gəlişini biləndən sonra gözləməyə nə vardı ki. Amma yenə də bütün vücudunu bal kimi ləzzət alırdı. Əgər əvvəllər bir adam ona desəydi ki, sən Məmmədqulu, kimisə bax beləcə ürəyin ata-ata gözləyəcəksən, bu gözləmə sənin üçün bu qədərinə şirin olacaq, sən hər şeyi, hər zadı unudacaqsan, rahatca bu adamın üzünə Məmmədqulu səsini başına atıb gülməzdimi, elə gülərdi…

"– Sən də gedəcəksən Şah çıxıb gedəndə onunla?"

"– Mən buyruq quluyam, fəqir Allah bəndəsiyəm, kiməm ki mən?! Getməyə bilmənəm".

"– Demək gedəcəksən?"

"– Gedəcəyəm, əlbəttə".

"– Bəs mən?"

"– Nə sən?"

"– Mən də, mən. Bəs deyirdin sevirsən məni?!"

"– Sevirəm?"

"– Hə də".

"– Yaxşı, yaxşı, sevirəm".

"– Yox, mən bildim: sevmirsən. Zərrə qədər də sevmirsən".

Saatlarla, sabahın gözü ovxalana-ovxalana açılanacan bu "sevirəm-sevmirəm" söhbətini yarımürgülü halətdə də olsa uzadırdı gözəl Pərnisə, o isə heç cürə incimirdi. Gözəl Pərnisənin uzun dağınıq saçında dalğın-dalğın Məmmədqulunun barmaqları gəzirdi və bu zaman bir az da bərk qısılırdı Məmmədqulu gözəl Pərnisəyə, əslində, bu dəfə ruhu qısılırdı ona – eynən körpəykən anasının isti qarnına qısıldığı kimi. Bundan da aldığı ləzzət bir başqa idi. Eynən anası idi gözəl Pərnisə. Səsi də oxşayırdı səsinə. "Nolar kim gedir getsin, sən getmə. Səndən biləsən, mən əl çəkən deyiləm. Mənə ər lazımdı, başqa heç bir adam lazım deyil. Sən məni atmazsan, ata bilməzsən, sən məndən heç hara qaça bilməzsən, heç hara yanımdan gedə bilməzsən… düz demirəm, Məmmədqulu…" "Məmmədqulu"nu "Zəbulla ağa" eşidirdi. Eynən həmən sözlər idi. Anasının təkqıç Zəbullaya dediyi sözlər. Elə belə bir ay işığında atasının ölümündən bircə ay keçməmiş atasının həyətində tut ağacının, yox, Qarağacın sərin altında yorğan-döşək salıb qucaqlaşıb yatışan anası ilə təkqıç Zəbullanın hərdən yerlərində ora-bura vurnuxub bir-birlərinə dedikləri sözlər içində ancaq bu sözlər idi yapışıb qalmışdı yaddaşında. Eynən anasının danışığıydı, əlbəttə ki, artıq onun üçün eynən anası idi gözəl Pərnisə.

Sehrbazlar dərəsindəki bahara məxsus yamyaşıllığın içində yenə də gül-gülü, bülbül-bülbülü çağırırdı. Cavan sehrbaz öz həmişəki yerində – elə bil, başını torpağın düz içindən boylanıb çıxarmış yarımçılpaq bir qayaya çiynini söykəyib yenə də oturmuşdu və bu dəfə üzünü dərədən yuxarı, Görükməz Təpəyə sarı tutub dalğın-dalğın baxırdı. Əlbəttə, Görükməz Təpə necə görükmürdü, yenə də eləcənə görükmürdü, amma bütün gecəni ki qar yağmışdı, bu qar Təpəni başdan-başa bürüyüb nəhəng bir qar topasına çevirmişdi. Bu qar topası görükürdü. Külək ağ qarı dənə-dənə bunun başı üstdən o tərəfə, bu tərəfə sovurmağındaydı. Dərənin qurtardığı yerdən o tərəfdə Görükməzin ətəyində səssiz-səmirsiz başını aşağı salıb külək-boran öz işini görürdü, cövlan eləyirdi, qar da səssiz-səssiz yağırdı, hər yan da ağappaq parıldayırdı. Bir az aşağıda dərədə isə hər şey yenə də həmişəki kimi başqa cür idi. Quşların cikkiltisi, çeşmələrin şırıltısı az qala burdakı havadan yerəcən, yerdən havanın hər bir hüceyrəsinəcən gedib çıxan cürbəcür, al-əlvan rənglər vardı, bu səslər bu cürbəcür rənglərin düz içinə girirdi, yox, yox, bəlkə də bu səslər rənglərin içinə girmirdi, bu səslər rənglərin içindən çıxırdı. İki-bir, üç-bir sehrbazlar dərədən o tərəfdə yuxarıdakı dünyaya heç bir məhəl qoymadan söhbətləşə-söhbətləşə, bəzən də mübahisə edib əl-qol ata-ata dərə uzunu bəzən aramla, bəzən aramsız o tərəfə bu tərəfə gezişirdilər. Dərədən o tərəfdəki dünya bunların vecinə deyildi. Burada, bu dərənin içində onlar dənizdə balıq kimiydilər. Hərdən baxışları ilə cavan sehrbazı axtarıb tapır, onun öz həmişəki yerində olub-olmamasından əmin olub bundan sonra arxayın-arxayın köks ötürürdülər. Cavan sehrbaz isə oturduğu yerdəcə qımıldanıb eləmədən hələ də kədərli-kədərli üzünü Görükməz Təpəyə tərəf tutmuşdu. Elə bil, o qarın, o çovğunun içində axtardığı bir şey vardı, axtarırdı, axtarırdı, amma tapammırdı. Ürəyinə dammışdı ki, hardasa lap elə bu yaxınlarda çox mühüm bir hadisə baş verəcəkdir. Amma nə? Həm bilirdi bunu, həm də bilmirdi.

Karvanbaşı gözlərində gizli bir qürur karvanı əvvəlindən axırınacan bir daha yaxşı-yaxşı seyr etdi. Atını bir hündür yerə çəkmişdi, Düzəngaha bütün boyu ilə al-əlvan bir xalı ilməyi kimi açılan karvan səslə-küylə, daşıdığı yükün ağırlığına baxmayaraq, gizlin bir şövqlə uzun yolun son həvəsli addımlarını atırdı. Atın başını çəkib karvana qatıldı, Xacə İbrahim ağa ilə Səyyah sehrbaz qatırlarını ata dəyişmişdilər, bu ikisinin yanında bu da atını sürməyə başladı.

– İbrahim ağa, sən Hacı ağanı bizim evə apar, üst qatda qonaq otağına yerləşdir, diqqət elə qulluğunda dursunlar. – Karvanbaşı Xacə İbrahim ağaya tapşırdı.

– Baş üstə, ağa, sən heç narahat olma, nə lazımsa mən hamısını edəcəyəm.

– Mənim işim çox olacaq. Karvansaraya lazımdı getmək, karvanı lazımdı boşaltmaq… Bunlardan da əvvəl biriminci, əlbəttə, gərəkdir qibleyi-aləmin hüzuruna gedəm. İnşallah, axşam evdə görüşərik.

Səyyah sehrbaz ürəyində düşündü ki, bir söz də mən deyim, ayıb olmasın, yoxsa elə yol uzunu ağzıma su alıb durmuşam, dedi:

– Nə təhər məsləhətin olar, o təhər də hərəkət elərik. Sən ürəyini buz kimi saxla. Məndən istədiyini məndən alacaqsan. Sonrası mənlik deyil.

Son sözlərini deməyilə peşiman olmağı bir oldu. "Gərək bu cür deməyəydim". Amma təcrübəsindən bilirdi. Nə qədər adam olmuşdu yaxınının, qohumunun ruhunu çağırmaq üçün əvvəl-əvvəl əldən-ayaqdan getmişdi, malını-pulunu tökmüşdü bu işin əmələ gəlməsi üçün. Sonrası amma necə olmuşdu? Bu adamlar peşiman və pərişan olmamışdımı, olmuşdu.

Karvanbaşını bu axırıncı söz heç tutmasa da, üstünü vurmadı. Karıxmış Xacə İbrahim ağa başını yelləyib Səyyah sehrbaza göz ağartdı. Ortaya namü-

nasib bir sükut çökdü. Bir xeyli kirimişcə at sürdülər. Artıq yol kənarında təkəm-seyrək obalar, damı qarlı evlər görünməyə başlamışdı. Qışın oğlan çağına hələ bir az var idi, amma buna baxmayaraq həyət-bacada bitən ağacların dibində, təpəsində, evlərin damında neçə gün öncə yağıb tamamən əriməyə macal tapmamış ilk qarın nişanələri qalmış idi. Bu ağartıya baxdıqca uzun müddət yaşıllıqdan yorğun düşmüş gözlər, elə bil, dincini alırdı. Arxadan karvana çataçatda zəifləyib heydən düşən sazağın nəfəsi, əlbəttə ki, bir neçə gündən sonra Görükməz Təpənin ətrafındakı bəyaz haray-həşiri buralara da gətirib çıxaracaqdı, amma orda-burda, küncdə-bucaqda gizlənmiş qar topalarının bu həngaməni gözləməyə taqətləri, hövsələləri çatacaqdımı?! Xacə İbrahim ağanın nəfəsi ilə buğ çıxırdı ağzından. "Bu qara sükutu pozum" düşünüb üzünü Səyyah sehrbaza tutub soruşdu:

– Səyyah ağa, sizin dərə ki ab-havası ilə maşallah cənnətməkan bir yerdir, nə cür olub ki, dərənin dörd bir tərəfi müxtəlif mövsümlərə girir, sizin dərəyə amma bunun bir dəxli olmur, necə ki, fəsli-yazın xoş anlarıdır, həmişə də elə qalır? Sizlərin əməli nəticəsidir, yainki o yerdə bir başqa sirr vardır?

– Hacı ağa, sən necə bilirsən, dörd tərəfin fəsli-qış ola, təbiət qan ağlaya və tufan-çovğun hər tərəfi bürüyə – indi bu saat Görükməz Təpə artıq tamam qar altında qaldı – belə olan halətdə bir kiçik dərənin yaşıllığı, gül-çiçəyi, sultan çeşmələri, ağacların cəh-cəh vuran quşları – bütün bunlar dörd tərəfi kəsmiş o şaxtanın ortasında nə cürə mümkün olarmış?

– Əlbəttə, Səyyah ağa, mən elə bunu belə də təsəvvür edirdim ki, var. Sizlərin qüdrətinin nəticəsidi, əlbəttə. Cənnəti bu dünyaya gətirmisiz, maşallah, maşallah.

– Mən ki indi burda sizinləyəm, bir balaca deşik açılıbdır üzü dərəyə, əgər dostlar onu tutmazlarsa, boran-çovğun girərsə, o deşikdən keçib dərəyə girər. – Səyyah sehrbaz fikirli-fikirli dilləndi.

***

Şəhər yavaş-yavaş qara və böyük bir xal kimi onlara tərəf gəlirdi, gəldikcə də böyüyürdü, əvvəl adda-budda evlər dar küçələrə döndü, sonra dar

küçələr genişləndi, sonra ağaclar, arxlar, bulaqlar… yol boyu adam idi karvanın pişvazına çıxırdı. Amma bütün bunlar hələ şəhərin özü deyildi. İç şəhərin qala qapıları hələ irəlidə idi. Karvan da daha əvvəlki kimi hərəkət eləmirdi, addımlarını ləngitmiş, maraqlı baxışların, nəzərlərin nəvazişindən məst olmuşdu. Budur, uzaqdan qala qapıları artıq göründü, karvana tərəf atlılar çapdı. Karvanbaşı karvanın önünə, ayaqlarını tənbəl-tənbəl atan Qotazlı dəvənin yanına atın sürüb keçdi.

– Ağa, gözün aydın, yetişdik evimizə-eşiyimizə. – Sarvan Qarasuvarlı atını ona yaxınlaşdırıb gözaydınlığı verdi.

– Gözümüz aydın, Qara, hamımızın gözümüz aydın. – Karvanbaşı cavab verdi. – Köpəklərin ağzına kəmərlərini vurdularmı?

– Vurdular, özlərini də zəncirə saldılar, sən narahat olma.

Zurna-balabanın səsi gücləndi, dəvələr bir anlıq kövşəmələrini saxladılar, sonra yenə də piyada olmuş sarvanların arxasınca kövşəyə-kövşəyə getməklərinə davam etdilər.

– Belə elə. Karvanın ağzını aşağı məhəlləyə Hacı Gavərin karvansarasına tərəf çevir. – Pişvaz mərasimindən xoş bir əhvala düşən Karvanbaşı atın üstündə şax durub üzünü döndərmədən Sarvan Qarasuvarlıya göstərişini verdi.

– Oldu, ağa. – Sarvan Qarasuvarlı Qotazlı dəvənin yaraşıqlı örkənindən çox ciddi və qətiyyətli bir görkəmlə yapışıb addımlayan Nəzərəlinin yanına atını sürdü.

Karvanbaşı qanrılıb gözü ilə Xacə İbrahim ağa ilə Səyyah Sehrbazı aradı, onlar hardasa karvanın ortalarında olmalı idilər, Xacə İbrahim ağa Karvanbaşının onu axtardığını əlüstü duyub atını ona tərəf yeyinlətdi. Karvanbaşı altında bədöv at oynaya-oynaya gözləri karvanda Xacə İbrahim ağaya son tapşırığını bir daha təkrar elədi:

– Siz də dediyim kimi edin. Karvansaraya getmənizə sizin heç lüzum yoxdur. Siz birbaşa evə gedin. Mən karvanı yerləşdirib sonra saraya, hüzura gedəcəyəm. Gecəyə qədər işim çoxdur. Bizim malları evə Nəzərəli gətirər. Gözün üstündə olsun. Özünüz də dincəlin, ona da, – başı ilə Səyyaha tərəf işarət

etdi Karvanbaşı səsini yavaşıtdı, – məsələni artıq açıb özün danışarsan, mən özüm istəmirəm.

Bunları deyib bir cavab gözləmədən Karvanbaşı yenə Karvanın qabağına atını sürüb irəli keçdi. Xacə İbrahim ağa göz elədi, Səyyah sehrbazla birgə atlarını çəkib bir kənara durdular. Karvan gəlib dəvə-dəvə, qatır-qatır yüklənmiş mal onların qabağından aramla keçib getməyə başladı. Karvanın quyruğu ötüb keçəndə Səyyah Sehrbaz baxıb gördü ki, karvanın başı qala qapılarından şəhərin içərisinə qədəmini qoydu. Zurna səsi, hay-küy sədaları artıq oradan gəlib qulaq deşirdi.

Xacə İbrahim ağa Səyyah sehrbazla birgə çönüb Çeşmə yoluna girdilər, bu yol onları şəhərin o biri tərəfindəki kiçik Çeşməli qapıya gətirib çıxaracaqdı. Elə də oldu. O qapıdan onlar şəhərə daxil olub adamsız, boş küçələrlə (hamı karvan varid olan baş Darvazanın ətrafına doluşmamışdımı?) atlarını Karvanbaşının yuxarı Qırxlar məhəlləsindəki evinə tərəf sürdülər. Bunlar evə çatanda gün günortanı təzəcə olardı keçib getmişdi.

Canında yorğunluq yol azmış sərgərdanlar kimi ora-bura dolaşan Səyyah sehrbaz ondan da yorğun olan Xacə İbrahim ağanın onu gətirdiyi geniş və isti qonaq otağında bir yumşaq xalının üstündə necə uzanmışdısa eləcənə də qalmışdı. Çoxdan idi belə zər-zibalı, rahat yerdə məskən eləməmişdi. Rahat olmağına, əslində, Sehrbazlar dərəsi də rahat idi, amma buradakı rahatlıq bir başqa rahatlıq idi. Bu otağın hər bir küncündən ılıq və tanış bir yuxunun məstedici qoxusu gəlirdi. Mürgü Səyyah sehrbaza çox asanlıqla güc gəldi. Şəhərin hənirtisinə alışmadığından böyük pəncərələrin qalın şüşələrindən hərdən işıqla bir yerdə özünü içəri dürtən dəcəl səsdən əvvəl-əvvəl diksindi. Gözləri yarıyumulmuşdu, fikirləri qarışırdı. Və bu otağın məstedici rahatlığında qulağına yenə də ancaq özünün tanıdığı haman qəzəbli səslər gəlməyə başladı…

– Sənin yerin bura deyil! Rədd ol!!

– Get. Bütün taxsırlar səndədi. Sən etdin. Sən etdin bunu!

– Lənət olsun. Yeddi qatına lənət olsun…

Dağın başındakı yarıuçuq üstünü qar basmış komanın qapısının ağzını kəsib onun dünənki ürək dostları bu gün onu içəri buraxmaq istəmirdilər. Lənətlər, təhdidlər… Səyyaha söz deməyə də imkan vermirdilər. Qar dənələri balaca tozcuqlar kimi gecənin ümidi hər yerdən kəsilmiş qaranlığını deşib ağ işığın yolunu göstərirdi. Min dənə, yüz min dənə qar tozcuğu boyda deşik haman işığa gedən yeganə yol idi. Dünən Ağ dərvişi qətlə yetirmişdilər. Əvvəl-əvvəl huşu başından gedənə qədər döymüşdülər, sonra çarmıxa çəkmişdilər. Qəlbi ağrıyan, acıyan da, bu heysiz cism qalığını nifrətlə seyr edən də ona son nəfəsində cürbəcür suallar verirdilər. Son gücünü yığıb çarmıxda olaola Ağ dərviş bunlara bəzi cavablar verməyə cəhd göstərirdi. Söz canından çıxanda sözlə, söz canından çıxmaq istəməyəndə cavabı gözlərilə verirdi. Gözləri böyümüşdü və görənlər heyrət edirdilər ki, bu cür ağır məqamın

özündə belə gözləri xeyli pəjmürdə və yaraşıqlı olmuşdu. Ən sonda onun çarmıxdakı cisminə şəyirdləri bir-bir yaxınlaşıb dodaqaltı, ancaq onun yarımcan, amma yenə də yaraşıqlı gözləri ilə anlaya biləcəyi tərzdə nəsə pıçıldadılar. Nəhayət, bundan sonra onun canı heysiz, gözlərinin içi isə tərpənməz qaldı. Şəyirdləri ona nə dedilər?! Ağ dərvişə şəyirdləri intiqam almaq üçün and içdilər. İndi isə onu, onlardan biri olan onu içəri, bu intiqam mərasiminə buraxmırdılar. Qapını düz üzünə bağladılar. O, komanın qabağında həyətin bir küncünə, yarımqaranlığa çəkildi. Xırda qar dənəcikləri üz-gözünə, üst-başına nəvazişlə qonub qalırdı, onu yavaş-yavaş ağ bir heykələ çevirirdi. Tərpənməz durdu, fikrindən keçdi ki, balaca tərpənsə, kiçik də olsa bir hərəkət eləsə boşuna güc sərf edəcək, belədə buz kimi soyuq ölümünü daha tez yaxınlaşdıra bilər, o isə sona qədər burda durub heç bir yana getmək fikrində deyildi. Səhərə qədər, axşama qədər, gücü-tabı son damla qalana qədər, ölümünə qədər duracaqdı. Əvvəl-axır yoldaşları onu dinləməli idilər. O, həqiqəti öyrənməli idi, öyrənəcək idi. İntiqam şaiyəsi artıq bu dağın başından yol alıb üzüaşağı, şəhərə çatmışdı. Nə intiqam idi, onun illər uzunu bir yerdə bu komada yatıb qaldığı, Ağ dərvişin səmadakı deşiklərdən, o deşiklərin yola çevrilməsindən, o yolla gediş-gəlişin mümkünlüyündən, bu mümkünlüyün ruhlar üçün istifadəsindən danışdıqlarına, öyrətdiklərinə birgə qulaq asdığı, bir qəmlənib bir sevindiyi şəyird dostları hansı intiqam barəsində düşünürdülər, nə edəcəkdilər, necə edəcəkdilər?! Seyid Sarının uzun və zəhmli çöhrəsini xatırladı. İntiqamın qorxusu hətta bu zəhmi basıb çöhrədən də o tərəfə keçmişdi və çöhrənin xırda gözlərində oturmuşdu. Seyid Sarı tüpürcəyi axan ağzından daha çox, gözlərilə danışırdı: "öyrən, öyrən, nə var bunların beyinlərində hamısını öyrən, sağ-salamat geri dön. Sağ-salamat, eşidirsən, sən mənə sağ və salim gərəksən…"

Komanın qapısı eşik tərəfdən ağzına yığılan qarı boğuq səslə ağır-ağır itələyib açıldı. Bir-bir Ağ dərvişin şəyirdləri içəridən çıxmağa başladılar. Hamısı dizəcən ağappaq alt paltarında idi. Gəlib həyətin axırında sıldırım uçurum idi, onun düz üstündə dayandılar, səf düzəltdilər. Aşağıda dərənin dibi görünmürdü. Bunlar başladılar hərəkətsiz halətdə gözləməyə. Ancaq indi o, bu adamların niyyətini  başa düşdü. İntiqamın mahiyyəti elə o andaca ona məlum oldu. Əslində, bunlar səssiz-səmirsiz, heykəl kimi lal durub ürəklərində öz ruhlarını

çağırırdılar. Məqsədləri bu idi ki, ruhları bunların vücudlarını son məqamdan bir qədər əvvəl tərk etsin. Belə bir üsulu cavanlığında Ağ dərviş icad eləmişdi. Ölüm ölümdən bir az, lap azacıq əvvəl gəlirdi. Səyyah tərpənməz olub az qala donduğu yarımqaranlıq yerdəncə bunların hər hərəkətini diqqətlə izləməyə davam etdi. Dodaqlarına naməlum, indiyənəcən özünə də bəlli olmayan yarıçılpaq bir təbəssüm qondu, üzünün qırışığı dərinləşdi. "Deməli, belə. Bircə mən qalıram. Mən artıq yeganə oldum. Məndən başqası olmayacaq". Elə bu sözlər gəlib fikrindən keçmişdi ki, sıldırımdan üzüaşağı iyirmi üç nəfər canqəlb dostu əl-ələ tutmuş halda tullanıb boşluğun qaranlıq bağrına özlərini atdılar. İyirmi üç yelkən açıldı qaranlığın içində. Əvvəlcə üzüaşağı daş kimi düşmədilər, yox, əvvəlcə havada nizamlı durnalar kimi dövrələmə uçuşmağa başladılar. Bir xeyli beləcə əl-ələ verib uçuşandan sonra birdən şikar görən şahinlər kimi sürətlə şığıyıb dərənin təkinə üz aldılar. Heç birindən, iyirmi üç nəfərin heç birindən yerə dəydikləri zaman bir cınqırtı, bir səs belə, eşidilmədi. Yerə dəyəndə yox, hələ havada ikən ölüb qurtarmışdılar. Ağ dərvişin iyirmi üç şəyirdi ustadlarının intiqamını beləcənə aldılar. Əslində, iyirmi dörd olmalı idilər…

***

…Qapının yavaşdan döyülən səsindən diksinib gözünü açdı. Kimsə qapıdan o tərəfdə boğazını arıtlayıb öskürdü. Bu, Xacə İbrahim ağa idi.

– Gir. – Səyyah sehrbaz yarımçıq yuxusunu gözünün dibinə qovalayıb bərkdən dilləndi.

– Axşamın xeyir olsun. – Xacə İbrahim ağa içəri daxil olub əlindəki şamdanın titrəyişli yanan şamını əli ilə qoruya-qoruya keçib oturdu onun yanındaca yerə, şamdanı da qoydu aralarına. Otağın işığı çoxaldı. Kölgələr peyda oldu, uzun-uzun divara yapışdılar. Axşamın qaranlığı doğrudan da nə zaman düşmüşdüsə Səyyah sehrbazın bundan xəbəri olmamışdı. Bu qaranlıqda yorğunluğu da, nəhayət, bir yol tapıb cismindən çıxmışdı kənara.

– Hər vaxtın xeyir. – Səyyah da öz növbəsində Xacə İbrahim ağanı salamladı, ona tərəf çönüb elə yerindəcə bir böyründəki yundan tökülmüş mütəkkəyə dirsəkləndi.

– Dincələ bildinmi? – Xacə İbrahim ağa nəvazişlə soruşdu.

– Mən neyləmişdim ki, yorulaydım. Amma dincəldim. Sən özün nə təhərsən?

– Mən yaxşıyam, niyə ki. Ağam hələ gəlmədi. Saraya, padşahın hüzuruna gedəcəkdi. Gələr, inşallah.

– Elə çatan kimi hüzura?

– Əlbəttə. Bu karvan əlahəzrətin öz karvanıdır. Ən qiymətli malları o sifariş vermişdir. Bundan savayı bir çox hədiyyələr də vardır ki, şəxsi-alisinə təqdim ediləcəkdir. Məxsusi onun adına alınmış hədiyyələr varımızdır.

– Çox gözəl, çox pakizə. Xeyirli olsun. Belə… Bilirsən, İbrahim ağa, mən belə düşünürəm ki, bizim mətləbi deyirəm, bu gecə bu alınmayacaq. Göy üzünün rəngi heç xoşuma gəlmədi bayaq. Bu işdə, sənə deyirəm, gərəkdir göyün rəngi mən istəyən ola. Əsas göyün rəngidir.

Xacə İbrahim ağa Səyyah sehrbazın mətləb üstünə gəlməsindən məmnun qaldı, amma dediklərinə bir o qədər mültəfit olmadı:

– Göyün üzü hələ nə deməkdir? Göyün rəngini nə zaman gördün sən?

– Görmədim. Ürəyimə belə damıb. Günortadan üzü bəri mən istəyən deyil. Mən istəyən olmasa – olmaz.

– Nə deyirəm… – Xacə İbrahim ağa məyus olub bir balaca düşüncəli dilləndi. – Nə etmək olar ki. O zaman sən öz işində ol, rahatlığını elə, dincəl, yat. Mən ağama sənin dediklərini çatdıraram. Məndən bir istəyin varmı?

Səyyah sehrbaz ürəyində düşündü: "Birdən bunlar elə bilər ki, mən bu dəbdəbənin içində qalıb kef eləməkçün vaxtı qəsdən uzadıram". Üzünü pəncərədən çölə tutdu, bir daha diqqətlə son görüntülərini qeyb etməkdə olan göy üzünə nəzərini saldı:

– Yox ki yox, mən istəyən deyil. Mən nə edə bilərəm?! – Pəncərədən səmaya baxa-baxa günahkar bir tərzdə dilləndi.

– Mən nə deyirəm?! Yaxşı, bəs sən istəyən göy üzü olmağını biz nədən biləcəyik? – Xacə İbrahim ağa tərəddüd içində bundan soruşdu.

– Mən özüm bunu biləcəyəm. Mən özüm. Sizin ki bilməyinizə bir gərək yoxdur. Səbr, ağa, səbr. Mənlik deyil, biləsən… – Hacı Mir Həsən ağa Səyyah, yəni, Səyyah Sehrbaz üzünü təzədən çöndərib Xacə İbrahim ağaya belə cavab verdi.

Axşamdan xeyli keçmiş və gecə artıq düşmüşdü Karvanbaşı evinə dönən zaman Xacə İbrahim ağa ki qulağı çöldə səsdə idi, tez duyuq düşüb həyətə çıxdı. Nökərlər atı çəkib apardılar. Karvanbaşının Xacə İbrahim ağaya ilk sualı bu oldu:

– Danışdınız? Nə oldu, nə dedi bu?

Xacə İbrahim ağa cavabında dedi:

– Danışdıq, ağa, danışdıq. Hələ bir keç içəri, dərdin alım, soyuq olacaq burda sənə…

Axşamçağı sazaq artıq əməlli-başlı kəsməyə başlamışdı. Soyuq həyətdən içəri isti otağa əndəruna birgə keçdilər. Burada bir cavan, səbirsiz qadın xeylağı, qucağında da bir uşaq nə vaxtdı ki, Karvanbaşının yolunu gözləyə-gözləyə oturub qalmışdılar. Onu görcək cəld ayağa qalxdılar. Uşaq anasının qollarından vurnuxub çıxdı, özünü atasının mehriban qucağına atdı.

– Gəl, gəl hələ bir, bax, bax buna, gör nə təhər böyümüsən, maşallah olsun.

– Maşallah, maşallah… – Xacə İbrahim ağa da məmnun-məmnun təkrar elədi.

Karvanbaşı uşağı çox bərk qucaqlayıb bağrına basdı, öpüb durdu, bir daha diqqət ilə üzünə baxdı. "Böyüyüb, baxışları itiləşib" düşündü. Sonra uşağı yerə qoydu, uşaq beş-altı yaşı var idi, bir xeyli də ağırlaşmışdı, qısılıb bunun ayağına durdu.

Karvanbaşı uşağı bir ayağı ilə yavaşcadan və ehtiyatla sürüyə-sürüyə gəlib o qadının yanındaca xalça üstünə oturdu. Əli ilə qadının əlindən tutdu, onu da yanında oturtdu, bir xeyli qadını hər tərəfdən zənlə süzüb əlini əlində tumarlaya-tumarlaya nəvazişlə dedi:

– Sən ki heç dəyişməmisən. Necəydin, eləsən. De görüm, hələ özün nə təhərsən? Gözümə birtəhər dəydin. Vaxt uzun gəldi keçdi, həmi?

Qadın utandığındanmı, ya nədən başını yerə dikib nə isə dodaqaltı mızıldadı, əlini yavaşca çəkdi çıxardı Karvanbaşının əlinin içindən, özü də qızardı. Karvanbaşı daha bir elə fikir vermədi ki, bu nə deyir nə demir. Amma yenə də laübali:

– Nə dedin? – soruşdu.

Cavabında qadın əllərilə uzun saçlarını başındakı örpəyin altında düzəltdi, sonra yenə əvvəlki təkin anlaşılmaz tərzdə nəsə pıçıldadı.

– Yemək yeyəcəksən, soruşur. – Xacə İbrahim ağa gəlinin mızıltısından usanıb tərcümə elədi.

– Yox, yeməyəcəyəm. Sarayda vəzir Məşdəli məni qonaq elədi. – Karvanbaşı üzünü yenə qadına tutdu, – yox, baxıram, niyə ki, yaxşısınız, amma sən bir az yorğunsan, elə bil. Hədiyyələrinizi aldız?

Qadının, nəhayət, dili açılmadımı, açıldı:

– Sağ ol, var ol, aldıq. Sağlığına yorğun-zad deyiləm. Keçən gecəni yatmamışam, elə bildim, gecə gəlib yetişəssən. Gözləmişəm. Bunu yatırdım, – uşağı göstərdi, – özüm nə illah elədim, yatammadım…

Qadının dili açılan kimi Karvanbaşının, yadına gör nə düşdü?! İsti yay günlərinin birində heç gözləmədiyi halda Şahdan ona adam gəldi ki, gəl bəs qibleyi-aləm səni yanına istəyir. Heysiz-heysiz durub geyindi, ayaqlarını sürüyə-sürüyə evdən çıxıb saraya gəldi. Şah ona bir cariyə bağışladı, özünə isə yeddi gözəl, seçmə qızı qardaşlığı Xeyirabad əmiri hədiyyə göndərmişdi. İlk dəfə onu gördüyü zaman qaşqabaqlı, dinməz-söyləməz, arıq, bəstəboy bir qız idi. Yaşıl, iri gözləri ilə başını qəflətən qaldırıb adamın gözünün içinə dik baxmağı vardı. Şəlalə saçlarını gizlətməyə, ipək örpəyin içinə bərk-bərk dürtüb yığmağa çalışırdı, bəzən alınırdı, bəzən yox. Ürəyində "bu mənim nəyimə gərəkdi, nəyə oxşayır bu, Allah?!" düşünüb dilində Şaha bol-bol təşəkkürlər edib dodaqaltı deyinə-deyinə Karvanbaşı saraydan çıxıb özü irəlidə, qız arxada, küçənin isti havasının içindən ləng-ləng keçib qayıdıb evinə getdi. Bir ildən sonra onların balaca bir oğlan uşaqları dünyaya gəldi, Karvanbaşı isə

dinimizin qanun-qaydası və ürəyinin hökmü ilə bu qızı özünə kəbinli arvad elədi. İndi beynindən sürətlə gəlib keçən bu vaqeəni bir tərəfə qovub:

– Get, get sən də bir dincəl. Mən bir azdan gəlləm. – Karvanbaşı dodağının ucunda nərmənazik bir təbəssüm qadına baxmadan üzünü yerdəki xalçaya tutub dedi. – İbrahim ağa, gəl bir yaxına otur görüm.

Qadın uşağın əlindən tutub çıxmaq istəyəndə Karvanbaşı uşağı bir daha yanına çəkib bağrına basdı, başını sığalladı:

– Qoçağım mənim. Sabah səhər yuxudan durub gəlib mənə bu bir ilin hesabını verərsən. Verərsən?

Uşağın gözləri qürurla güldü, şəstlə başını yuxarı qaldırdı, atasının məhəbbətlə üzünə baxdı, baş əydi atasına, qaçıb anasının tutdu əlindən, ikisi də otaqdan sevincək çıxdılar.

– Nə var, nə yox?! Mallar gəldi? – Karvanbaşı bunların dalınca isti-isti baxdı, sonra yerini rahatlayıb Xacə İbrahim ağaya tutdu üzünü.

– Gəldi, qurbanın olum. Hər şey yer-yerindədi. Sən necə oldun? Qibleyi-aləmi gördün, ağrın alım?

– Gördüm. "Mərhəbamı" aldım.

– Şükür, şükür. Min şükür.

– Yaxşı, de bir görüm, o biri işlərimizdən nə xəbər var?

Xacə İbrahim ağanın səsi dəyişdi, naçar davam etdi:

– Nə xəbər olacaq. Yaxşıdı işlərimiz… Amma… Əmması var.

– Nədi, nolub, əmması nədi hələ?

– Heç. Göy üzünün rəngi deyir mən istəyən deyil.

– Göy üzünün rəngi bu istəyən deyil?! – Karvanbaşı gözün qıyıb təəccüb etdi.

– Bəli, qurbanın olum. Məncə fənd oynatmır.

– Belə. O zaman göy üzünün rənginin bu işə nə dəxli vardır, İbrahim ağa?

– Varmış, varmış, dərdin alım. Görünür, dəxli varmış.

Karvanbaşı fikrə getdi. Əgər Xacə İbrahim ağa deyirdisə ki, sehrbaz fənd oynatmır, onun gözləri itidi, deməli, həqiqətən, ortada yalan-filan yoxdur. O zaman bu rəng məsələsi nə deməkdir? İndi bəs nə edəcəkdilər?!

– Bəs indi nə edək? – Karvanbaşı sual etdi.

– Gözləyək, ağrın alım. Nə edəcəyik?! Gözləməkdən başqa çarəmiz varmı, yoxdur.

Karvanbaşı və Xacə İbrahim ağa yenə bir xeyli bu xüsusda söhbətləşdilər, götür-qoy etdilər, axırda belə bir qərara gəldilər ki, hələ bir müddət səbr edib gözləsinlər, Səyyah sehrbaz özü deməyincə daha ondan bir kəlmə söz soruşmasınlar bu məsələ barədə. Xacə İbrahim ağa Karvanbaşıya qayğılı-qayğılı baxdı: "gör bir necə yorğundu, gedib dincəlsə yaxşı olacaq" düşünüb ayağa qalxdı.

Amma gedərkən soruşdu:

– Vəzir Məşdəli mənim barəmdə səndən bir söz soruşmadı ki, ağrın alım?!

– Vəzir Məşdəli səni nə üçün soruşmalı idi, İbrahim ağa? – Karvanbaşı suala sualla cavab verdi.

– Heç. Deyirəm, bəlkə onun yadında qalmışam. O səfərki məsələni deyirəm.

– Yox, soruşmadı, arxayın ol.

– Sağ ol, sağ ol, dərdin alım. Gecən xeyirli olsun. Yat dincəl. Yoruldun sən, əldən düşdün…

"Vəzir Məşdəli də vəzir Məşdəlidi, hay-hayı gedib, vay-vayı qalıbdı, sən hardan gəlib onun yadına düşəcəksən, ay qərib" Karvanbaşı Xacə İbrahim ağa çıxdıqdan sonra bunları beynindən keçirdi. Sonra vəzir Məşdəlinin qoca, arıq, büzüşmüş ağ saqqalı seyrəlmiş sifəti gəldi bunun gözlərinin qabağında durmadımı, durdu.

...Artıq qoşun əhli ilə, onu boya-başa yetirmiş əziz padşahla, haqq-sayını güman ki heç zaman geri qaytara bilməyəcəyi ağsaqqallı vəzir Məşdəli ilə burada, bu Allaha bir az da o birilərdən yaxın olan şəhərdə vidalaşmalı olacaqdı. Vəzir Məşdəlinin yanına gedəcəkdi. Lazım gəlsə lap ağlayıb-sısqa-yacaqdı. Peşiman-peşiman üzrxahlıq edəcəkdi, "nökərinəm ölənəcən, sən mənə atalıq etdin", deyəcəkdi. Gözünün ağına-qarasına dönmüş öz oğlu olsaydı, ondan da artıq istəyəcəkdi oğulluğunu vəzir Məşdəliyə əmanət edə-cəkdi. Yalvaracaqdı ki, padşaha onun iltimasını çatdırsın, özü ürək eləyə bil-mir. Vəzir Məşdəlinin çaşqın baxışlarını öz baxışları ilə səy edib ələ keçirib hərəkətsiz bir halətə salacaq, onların içinə girib onların içindəkilərdən rahat-rahat hali olandan sonra isə… Sonra geriyə, bu sakit, dar, yerinə daş döşən-miş, quş boğazı kimi nazik bu küçəyə, yolu onun yaşadığı evdən də yuxarıla-ra baş alıb gedən, harda qurtardığı bəlli olmayan bu küçəyə qayıdacaqdı. Sinəsi ata-ata ondan xoş xəbər gözləyən gözəl Pərnisəni əvvəl-əvvəl hələ bir cinlədəcəkdi. "Olmaz. Qoymadılar. Mən də ləşkərlə bir yerdə necə ki gəlmi-şəm, elə də geri dönməliyəm. Başqa səfərlər də vardır…" Bu zaman gözəl Pərnisə hansı oyundan çıxacaqdı, bir Allah bilirdi. Yalnız onu heydən çıxarıb, qışqırdıb-küsdürüb bir xeyli ləzzət alandan sonra açıb həqiqəti qoyacaqdı ortaya. Həqiqəti?! Amma həqiqət harada idi, bunu ki heç özü də bilmirdi. Vəzir Məşdəlinin narahat gözlərinin təəccüb dolu dərinliyində idi həqiqət, yoxsa onun "bir görüm nə edə bilərəm, heç bilmirəm, necə deyə biləcəyəm qibleyi-aləmə bu xəbəri" sözlərində idi, yaxud da padşahın hələ qəbul etmə-diyi qərarında idi?! Harada idi həqiqət?! Bircə məlum olan o idi ki – bəlkə elə həqiqət də bu məlum olandan ibarət idi – o özü artıq qərarını vermişdi və qo-şunla bir yerdə geri dönməyəcək idi. O, gözəl Pərnisədən heç cür ayrıla bil-məyəcək idi. Bəlkə həqiqət, doğrudan da, elə bu idi?! Əlbəttə ki, həqiqət, doğrudan da, elə bu deyildi də bəs daha nə idi?!

İndi artıq Məmmədqulu bir məsələni həyəcan içində düşünə-düşünə qalmışdı. Qibleyi-aləmin onun hərəkəti ilə bağlı qərarı necə olacaqdı?! Ürəyinə qara-qura fikirlər gəlib girirdi. Yadına padşahın cövlana qalxan sözləri düşürdü. Qibleyi-aləm idi salnaməçi mirzəyə bu sözləri yazdırırdı: "Yaz, mirzə Sədrəddin, yaz. Yaz ki, ikicə saata aldıq bu boyda şəhəri, cəmi azğınlarını da diz üstə çökdürdük. Amma ləşkər bilsin bunu. Bunlar bizim din qardaş-bacılarımızdır. Yollarını ki azmışdılar, bir şapalaq vurduq, ağılları gəldi başlarına, öz məmləkətimiz, öz camaatımızdı, qarətdən-filandan söz ola bilməz, qarətə qurşanmış, yainki barəsində şikayət gələn əsgər birbaşa, özü, mən hələ ağzımı açmamış cəllad Məmmədqulunun getsin xidmətinə, cəzasını o verəcək, ixtiyar onundu". Bir də Şah gözlərini qələmdən ayırmayan Mirzə Sədrəddinə bu sözləri yazdırmışdı: "Bir də bunu yaz! Kim məğlub olmuş bu şəhərdə qalıb məskun olmaq niyyətinə düşsə, bütün sonrakı nəsli zay çıxacaq. Çünki buranın havası da ikiqat olub özü-özünü soxur bizim ciyərimizə. Buranın havası da, daşı da, suyu da, arpası-çörəyi də, bir söz, bu məğlubiyyəti görən nəyi varsa hər şeyi artıq axtalandı. Məni bəyənməyən birisi ancaq belə fikrə düşə bilər".

Məmmədqulunun damarında qanı dondu.

***

Cəlladbaşının Şaha iltimas etməsinin xəbəri hava ilə keçdi bu qulaqdan o qulağa, bu evdən o evə, onbaşı onbaşıya, yüzbaşı-yüzbaşıya danışdı, əyanlar, əşrəflər, bölük başçıları maraq içində donub qalmışdılar ki, Şah öz sevimli cəlladının cəzasını necə verəcəkdir və heç verəcəkdirmi?! Bəlkə cəllad Məmmədqulu öz dikbaş arzusuna çatacaq, bu şəhərdə qalıb ordu ilə geri dönməyəcəkdi, bəlkə Şah onun bu gözlənilməz dikbaşlığına göz yumacaq, bəlkə də… Hərə bir cürə yozum yozurdu.

Məmmədquluya bir neçə gün heç kim bir söz demədi padşahın nə qərar çıxardığı barədə. Bu yazıq da qalmışdı nigaran ki, əlbəttə, başından böyük qələti eləyibdir, amma bunu anlasa da iş artıq işdən keçmişdi. Düşünürdü: "Şahverən vardır Şahın ləşkərində mən əvəzi, heç olmazsa buna görə məni buraxar, inşallah. Allaha təvəkkül". Ağlına gələn Məmmədqulunun dilinə də

gəlirdi, məsləhətləşdiyi, ürəyini açdığı, nigarançılığını bölüşdüyü köməkçisi qoca bir qul vardı, o idi. Bu qoca qul da Məmmədqulu ilə söhbətin hər dəfəsində onun son sözlərini qara başını tərpədə-tərpədə təkrar edər, hər dəfə "Allaha təvəkkül" deyib bununla da susardı. Amma sulu gözləri öz içində gizlətdiyi qorxu ilə bir yerdə hillənirdi Məmmədquludan ötəri, çünki Məmmədquluya, həqiqətən, sidq-ürəkdən bağlanmışdı, uzun-uzun illər idi ki, ondan savayı bir kimsəsi yoxdu.

Məsələni bilib qoca qul bir xeyli susmuşdu. Handan-hana gözlərini yana qaçırıb bu dəfə "Allah axırını xeyrə calasın" demişdi. Elə bir qaranlıq, naçar tərzdə demişdi ki, Məmmədqulunun ürəyinə qara bir xal düşmüşdü və daha birdəfəlik bu barədə onunla-bununla söz danışmağı özü-özünə qadağan etmişdi, çarəsi nə idi oturub Şahın qərarını dinməz-söyləməz gözləməkdən savayı çarəsi var idimi, yox idi.

***

Vəzir Məşdəli, nəhayət ki, məqamına salıb cəllad Məmmədqulunun təvəqqesini qibleyi-aləmə çatdıranda həyatı boyu heç bu cürə peşiman olmağını yadına gətirə bilmədi. Sonra da uzun zaman öz-özünü yamanlayıb durdu. Qibleyi-aləmin gözləri az qala hədəqəsindən çıxıb uçub gəlib onun gözlərini arı kimi sancacaqdı. Qaşları çatıldı, nə çatıldı. Zərbə onun üçün çox gözlənilməz oldu, özü də kimdən – zaman-zaman özündən xəbərsiz isnişdiyi nökəri cəllad Məmmədquludan zərbənin gəlməsi onun hiddət və qəzəbini bəlkə birə on artırdı. Səsi çox boğuq çıxdı:

– Belə… Bu cəllad əvvəl-axır özünün zatıqırıqlığını göstərməli idi ki göstərdi. Hayıf, çox hayıf. Deməli ki, bizim qulluğumuzda dayanmağı yaraşdırmır daha özünə. Nəyə və kimə güvənir görəsən bu zati-ali, bəlkə sən biləsən, vəzir?! Sən bilməmiş olmazsan, sənin adamın deyilmiydi bu nacins, unutdunmu, sən çəkib çıxardıb oturtdun bunu başımızda. Asılasıydı bu, hələ o zaman asılasıydı, yəqin, pis iş gördük, qulluğa götürdük, adam elədik. İndi də ki bu cürə. Nə oldu, nə baş verdi? Səfərdə ordudan cəllad qaçırsa, bəs elə hamı hara istir çıxıb getsin daha nəyi gözləyirsiz?! Hələ məni neynirsiz? Nədi, gözlərini

niyə döyürsən, sus, sus, sussan yaxşıdı, nə deyəcəksən ki?! Düz demirəm yoxsa? Bəlkə, vəzir, elə bilirsən, yadımdan-huşumdan çıxıbdır bunun hekayəti?! Sən deyildin bunun cavanlığındakı "şücaətindən", dağa-daşa düşməyindən yanıqlı-yanıqlı danışırdın?! Doğmaca anasını… o dünyalıq etməmişdimi?! Budu mənim xeyirxahlığımın indi əvəzi?! Ax… Taxsır bilirsən kimdədi? Məndə. Əlbəttə, susub durassan. Nə deyəcəksən ki?! Məndədi taxsır, mənim özümdə.

– Elə demə, gözümün işığı, elə demə, ürəyimə dağı dağ üstündən çəkmə, qurbanın olum. Nə deyə billəm mən, Allah əvəzim? Mən fəqir hardan biləydim, nə biləydim mən bunun haramzada olduğunu?! Hardan biləydim çiy süd əmib, qancıq südü əmib, amma gərəkdir biləydim. Əlbəttə, taxsır məndədi, hər cəzaya hazıram, qurban. Zatıqırıq çıxdı, doğru buyurursan, qudurdu, azdı yolunu. Mən bir gör kimin üçün ağız açdım sənə. – Vəzir Məşdəli kürəyindən su kimi axan soyuq tərin tumanınacan gəldiyini hiss elədi.

Şah vəzir Məşdəliyə gözucu baxıb daha qulaq vermədi, əvvəlki qəzəbli sözlərinin ardınca necə ki düşmüşdü, sağa-sola əyilmədən eləcənə onların arxasınca getməyində oldu:

– O məlun, xain, o asi Şahverdinin oğlunu deyir, eləmi? Bu hələ bir mənə nə cür hərəkət edəcəyimi, kimi kimin əvəzinə qulluğa götürəcəyimi də məsləhət edəcəkmiş… Belə. Vəzir! Mənim boşuna sərf eləməyə nə vaxtım varımdır, nə də həvəsim. Belə. Amma bunun dərsi verilməlidi. Hamıya görk olmalıdı bunun dərsi. Yaxın gəl, qulaq ver. Nə dediyimə aç qulağını yaxşı-yaxşı qulaq ver.

Bunları deyib Şahın gözlərinin dibinə qaranlıqda çovğun qoparan qış birdən-birə çökmədimi, çökdü. Şahın gözləri soyuqdan üşüdü, don vurdu Şahın dibsiz gözlərini. Şahın vəzir Məşdəliyə dediyi sözlər isə artıq ağzından yox, gözlərindən çıxırdı…

***

Elə həmən gün axşam vaxtı vəzir Məşdəli hüzurdan qayıdıb yaşadığı mülkə girəndə ürəyində həm sevincə, həm də qorxuya bənzər bir yük var idi. Şahın qəzəbindən canını qurtarmışdı – buna, əlbəttə ki, şükür edirdi. Amma

vəzir Məşdəli onu da bilirdi ki, Məmmədqulu bir azdan yenə də hər günkü kimi onun evinə gəlib təvəqqesinə Şah tərəfdən bir cavab olub-olmamasını soruşacaq. Hər gün gəlir sakit-sakit, gedir sakit-sakit, bu gün də hökmən gələcək. Vəzir evə çatan zaman hər ehtimal fərraşa çağırıb tapşırdı ki, bir adam buraxmasın bu axşam həyətə, illah da onun yanına, nəsə bu axşam başı bərk ağrıyır, deyəsən, soyuq dəyib nədi, istiliyi vardır, yatacaq, sonra nə düşündüsə dübarə bir də bunu tapşırdı: "dünənki xidmətçilər indi dincəlirlər, eləmi, durğuz onları da, qoy bu axşam növbətçilərin evdə, həyətdə sayı çox olsun, qapı-bacanı da lap elə indidən bağlayın".

Bunları deyib vəzir Məşdəli getdi girdi iç otaqların lap dərinində birinə, bir qərib nəfəs aldı, köksündən xırıltı ilə burula-burula qədim xalçalara oxşayan uzun bir xatirə çıxdı gəldi durdu gözlərinin önündə, əli ilə havada kor adam tüstü qovalayan kimi bu qəfil xatirəni qovalayıb elə pal-paltarlı yerini açıb isti, yun yorğanın altına girdi, hətta başını da gizlətdi yorğanın altında. Yalnız bu zaman hiss elədi ki, fərraşa doğru deyirmiş bir az əvvəl, həqiqətən istiliyi var, çünki başlamışdı yavaş-yavaş titrətməyə. Amma titrətməyi, əslində, öz içindəki Şah qərarından sonrakı həyəcandan gəlirdi. Bir həyəcanlı huş onu gah o bayaqkı xatirəsinin yanına aparırdı, gahdan da bir yenə diksindirib salırdı olduğu yerə, isti yun yorğanın altına.

***

O xatirə bu idi. Çox illər əvvəl günlərin bir günü nökər artıq istirahətinə buyurmaq istəyən vəzir Məşdəliyə belə bir xəbər çatdırdı ki, bəs bir nəfər qapıya gəlib vacib bir məsələ barədə onunla danışmaq istəyir.

– Cavan bir adamdır, ağa, bığ-saqqal üzünü, gözünü basıb, qaçaq-quldura da bir az oxşayır. Amma əl çəkmir, deyir ki, guya sən onu tanırsan.

– Kimdi, adı nədi? – Vəzir elə-belə, heç düşünməyib soruşmuşdu.

– Bilmədim, ağa, demədi. Soruşummu?

– Yox, gətir hələ bir görüm kimdi, nəçidi. Hər kimsə olsa da pənah gətiribsə, əlbət, ehtiyacı var. Gətir gəlsin.

Nökərin dalınca qədd-qamətli, cüssəli, saç-saqqalı ilə dərvişlərə bənzəyən bir cavan kişi girdi vəzir Məşdəlinin otağına. Vəzir nə qədər diqqət elədisə bu kişini tanıya bilmədi.

– Kimsən, nəçisən? Kimlərdənsən? – Vəzir Məşdəli maraqla buna baxıb soruşdu.

– Ağa, sən mənim rəhmətlik atamı tanırdın. Atam Şah karvanında sarvan olmuşdu.

Elə vəzir Məşdəli ağzını açıb "Kim idi sənin atan?" soruşmaq istəyirdi ki, birdən qəfil bir vaqeədən sarsıldı. Uşaqlıq və cavanlıq rəfiqi sarvan Qədirqulu bütün cüssəsi, boy-buxunu, uzaq gənclikdə qalmış, mehriban çöhrəsi ilə onun qarşısında dayanmış bu qaraqabaq, bığlı-saqqallı cavan kişinin cisminin içindən sıyrılıb çıxdı və bir kənara özünü çəkib əllərini daraq edib arxadan başını qucaqlayıb şəstlə, bir az incik-incik, bir az da qəmli-qəmli Məşdəliyə baxmağa başladı. Handan-hana vəzir Məşdəli bir xeyli ürəyi niskildən qısıla-qısıla bu gənclik rəfiqini həsrət və doyunca seyr elədikdən sonra, nəhayət, baxışları ilə onunla vidalaşdı, sarvan Qədirqulu yenə gedib oğlunun cisminə qədəm basıb girdi bu cismin içində itdi. Vəzir Məşdəli soruşmaq yox, bu dəfə təsdiq elədi:

– Məmmədqulu, sənsən?!

– Bəli, mənəm.

– Sənsən, indi tanıdım. Xeyirdimi bu axşamçağı?

– Sənin ayağına gəldim. Üzə çıxıram. Təslim edirəm özümü. Amma mənim hal-qəziyyəm başqa cür idi.

– Hal-qəziyyən nə cür idi, Məmmədqulu? Gəl, gəl yaxına, otur. Yeməkdən, içməkdən könlün bir şey istir?

– Yox, sağ ol. Könlüm bir şey istəmir. Elə sən mənə qulaq as, bəsimdi. Dinlə məni sonra qərarını ver – var mənim günahım, ya yoxdu… sən söylə.

Vəzir Məşdəli, Məmmədqulunun qaçaq düşməsindən, əlbəttə, xəbərdar idi. Amma nə üçün və necəsini o qədər də yaxşı bilmirdi. Çox əcayib uydurmalar gəlib girmişdi bu qəziyyənin içinə, həqiqət necə itmişdisə əsl kələfin ucunu heç cür tapıb ortaya qoymaq mümkün olmurdu. Məmmədqulu ki qaçaq düşmüşdü, dağa-daşa çəkilmişdi, bir xəbər-ətəri yox idi, kimin ağzına nə

gəlirdi onun barəsində danışırdı. Amma o-bu deyən bir başqa, bunun özünün dediyi bir başqa. İndi Məmmədqulu özü ona hər şeyi olduğu kimi düzünə-doğrusuna danışdıqca vəzir gözlərini yaşından çox-çox əvvəl az qala qocalmış, uşaqlığından tanıdığı Məmmədquludan çəkə bilmirdi, bu bəxtiqara gəncin danışığından, dediyindən bədənində tükü ürpəşirdi.

Məmmədqulu, doğrudan da, başına gələnləri necə var idisə eləcə də həyəcansız, aramla başını yerə dikmiş nəql elədi, vəzir Məşdəli də haman səbirli tövrlə buna qulaq verdi. Məmmədqulunun atası sarvan Qədirqulunu karvanla uzun səfərdən qayıdıb xeyli zamandan sonra vətənə çatan günü axşam öz evindəcə quldurlar qətlə yetirirlər. Yaxşı bir kişi idi, sakit adam idi, ömrü-günü bu ölkə mənim, o ölkə sənin keçmişdi. Qətl çox qaranlıq qətl idi, yıxdılar quldurların boynuna, başqa bir şaiyəyə görə Ərəbistandan bununla bir yol gələn karvan bələdçiləri gecənin yarısı qarət məqsədilə onun gətirdiyi malına, puluna göz dikib girirlər bunun evinə, özünü öldürürlər, o zaman balaca olan oğlu Məmmədqulunu atası qatillərdən azca əvvəl məsələni başa düşüb dal həyət qapısından çıxarıb qaçırır, qatillər Qədirqulunun işini bitirdikdən sonra bunun arvadına da guya ki, olmazın işgəncə verirlər, gizlətdikləri qızılları bundan tələb edirlər, amma istəklərinə nail ola bilmirlər o səbəbdən ki, övrət ağıllı çıxır bir bicliklə bunlara hiylə gəlir, ərinin əmisi oğlu Zəbulla ki qonşuları idi, bu tacir Zəbullagilə birtəhər qaçıb canını qurtarır. Amma illər gəlib keçir, şayiələr ayaq açıb yeriyir, Məmmədqulunun bığ yeri tərləyən zaman onun da qulaqları bu şayiələri arı gül-çiçəyə gələn kimi gözləyə-gözləyə qalır. Bəs ona, nəhayət, məsələnin canı açıq-aşkar agah olur. Nə bilim qarətdi, nədi, karvan bələdçiləridi kimdi, guya gəlib qarət ediblər, öldürüblər – bütün bunlar məlum olur ki, yalandan yalan söhbətlərmiş. Düz olan isə bu imiş ki, Qədirqulunu öz arvadı, bu Məmmədqulunun anası əmisi oğlu tacir Zəbulla ilə bir yerdə söz qoyub öldürtdürüblər. Əslində, bu, çoxdan qurulmuş bir tələ idi, bunlar bir-birilərini çoxdan sevirmişlər və onun bu səfərdən gəlişini bir qorxulu sarsıntı içində gözləyirmişlər ki, Qədirqulu burada olmayan zaman artıq acı fitnə kimi üzə çıxan eşq macərası o gələn zaman onun da qulağına çatacaq. Bu qorxu bihudə deyildi. Gecələr bir qonşu evdən o biri qonşu evə uzanan gediş-gəlişlərdən qonum-qonşu, əlbəttə, ki, artıq duyuq düşməmiş deyildi.

Məmmədqulu o zaman yeniyetmə yaşına təzəcə ayaq basmış idi, bütün bunları – ayaq alıb ev-ev gəzən şaiyəni, söz-söhbəti, dedi-qodunu artıq o da eşitmişdi. Buna görə də anası ilə atasının doğmaca əmisi oğlunun arasındakı eşq macərasına heç cürə biganə qalmadı. Çox dözür, çox götür-qoy edir, nəhayət, gecələrin birində o biri otaqda artıq yatmağa hazırlaşan anasına boğuq səslə "su istəyirəm, mənə su gətir" deyir. Arvad su qabını götürüb həyətin ortasındakı quyudan su almağa gedirkən, arxasından gizlənə-gizlənə Məmmədqulu qarabaqara onu izləyib yetişir. Arxası ona olan anası son məqamda nə isə duyub başını çöndərir, qəfildən Məmmədqulunu görüb diksinir, "Məmmədqulu, sənsən?" heç dəxli olmayan belə bir sual verir ona, sonra bir də diqqətlə bunun daşa dönmüş üzünə nəzər salır, ürəyindən nə keçir, nə keçmir, daha heç bir söz danışmır, məlul-məlul dodaqaltı ancaq "la ilahə illəllah…" deməyə macal tapır. Bu məqamda Məmmədqulu zərblə itələyib arvadı hellədir quyunun dibinə. Nə bir inilti, nə bir qışqırıq səsi çıxır quyudan. Sonra Məmmədqulu elədiyi bu hərəkət barəsində zərrə qədər də düşünmədən verir isti-isti özünü qonşu həyətə. Zəbullanın həyətinə bunların həyətindən üstünə kol-kos basdırıb gizlədilmiş balaca qapının yerini tapıb itələyir, qapı zor-güc səssizcə açılır.

Zəbulla isti yay gecəsi həyətdə hovuzun kənarında yatağını salıb uzanmışdı, xorultusu da artıq dörd tərəfə düşüb çəpər boyu utancaq-utancaq boylanan qızılgülləri diksindirməkdə idi. Elə yuxudaca əlindəki qəməni Məmmədqulu var gücü ilə saplamışdı düz bunun ürəyinin başından. Həyat Zəbullanın bütün vücudundan yığışıb gəlib gözlərinin dibindən bayıra çıxdığı yerdə gözlərini yummazdan əvvəl son dəfə geniş, bir balaca da təəccüblə onları açıb başının üstündə Məmmədqulunu gördüyü zaman ağzından bir qanqarışıq ah çıxmışdı. Son gücünü toplamaq istəyib nə illah eləmişdisə də, amma başını dikəldə bilməmişdi və hardansa güc alıb gəlib bu zaman dodaqlarına şux bir təbəssüm qonmuşdu. Canını tapşırandan sonra da dodaqlarında o təbəssüm vardı.

***

Bu qanlı hadisədən sonra uzun müddət Məmmədqulunun sorağı bir yerdən gəldimi, gəlmədi. Qaçaq düşüb dağa-daşa çəkildi, ilim-ilim itdi,

hamıdan gizləndi, illərdi gəlib hansısı yavaş-yavaş, hansısı tez-tez ötüb keçdi, bunu bu görkəmə saldı, budur indi də oturub vəzir Məşdəlinin qənşərində nə istəyir görəsən bu bədbəxt, biçarə, zavallı?!

– … Üzə çıxmaq istəyirəm, ağa, Şahın qulluğuna girmək istəyirəm, atam xatiri mənim təvəqqemi qibleyi-aləmə elə, səni eşidər. – Məmmədqulu uzun, əzablı söhbətini bu yalvarışlı sözlərlə bitirib ani olaraq başını qaldırıb vəzirin təəccüblü üzünə baxdı, sonra başını yenə yerə dikdi və daha danışmadı.

Ortalığa qıpqırmızı bir sükut çökdü. Handan-hana vəzir Məşdəli fikrə getmişdi, fikirdən ayılıb Məmmədquluya sual etdi:

– Şahın qulluğu deyirsən sən, nə deyirsən, nə təhər qulluqdu bu?

Eşitdiyi cavabdan vəzirin bədəninin tükləri biz-biz olmuşdu. Məmmədqulu cavabında demişdi:

– Cəllad olardım, ağa.

Məmmədqulu bu sözləri vəzir Məşdəliyə birnəfəsə söyləyib nəhayət, yüngülləşmişdi, sonrakı dediklərini isə artıq özü özü üçün deyirdi:

– Yoruldum dağda-daşda avara, sərgərdan həyat sürməkdən bezdim. Kölgələr düşür adamın dalınca gəzir həm səhər, həm axşam… Aman-bezarım yoxdu bu zalım kölgələrdən, gecənin qaranlığında da gözümə soxurlar özlərini. Rahatlığım heç yoxdu mənim bunların əlindən, sənə pənah gətirdim, ağa, atamın dostu, xeyirxahı olmusan, çörək kəsmisiz. Bir Allah bilir, bir də sən indi bilirsən ki, mənim bütün bu işlərdə günahım yoxumdur. Vallah, o bir olan Allah qarşısında da, Şah qarşısında da mən təmizəm. Atamın mənə yedirtdiyi çörək tutmazdımı gözlərimdən məni, hər gecə yuxuma girib, "bala, sən mənim balam deyilsən məgər, bəs sən nə cürə yata bilirsən gecələr, atanı öldürən kəslər hər gecə girirlər onun yatağına, namusumu tapdalaya-tapdalaya söyürlər doyunca goruma, nə təhər dözürsən bəs sən buna, bala, Məmmədqulu?" soruşurdu atamın ruhu məndən. O hadisədən sonra daha gəlmir yuxuma, heç nə də soruşmur. Rahat olmuşdur, yəqin.

Vəzir Məşdəlinin ürəyi incəlmişdi. Məmmədqulunu yola salan zaman ona söz verdi ki, barəsində bir fürsət tapıb Şaha dil tərpədib iltimasını edəcəkdir, "bəlkə də bir şeylər alındı" həm ürəyində dedi, həm də bu sözləri dilinə gətirdi. Məmmədqulunun gözlərinə parlaq bir işıqdı gəldi doldu, "iki gün

sonra gəlimmi cavab üçün?" soruşub "gəl" cavabını aldıqdan sonra o axşam artıq rahatlıq tapmış ürəyində vəzirə dualar edə-edə onun evindən beləcə çıxıb qaranlıqda əridi.

***

Çox-çox sonralar vəzir Məşdəli Məmmədqulunun işini gözü ilə görüb seyr edən zaman onun canfəşanlığına əvvəl-əvvəl təəccüb etmişdi. Amma Məmmədqulunun bir qoca qul köməkçisi var idi, onun sözləri vəzirin qulağına çatandan sonra təəccübü uçub getmişdi. Qoca qul belə deyirmiş: "Bu adamın belə ciddi-cəhdlə, ləzzətlə günahkarlara, günahsızlara əzab-işgəncə verməsi, baş kəsməsi, uşaq boğması, bunun öz dərdini buna unutdurur. O dərd böyük dərddi, ona dözmək asan məsələ deyildir, ölümlə belə oynamağı, asmağı-kəsməyi o böyük dərdin tənhalığının zülmətini silib aparır, o dərdi dərdsizləşdirir, əgər dərdsizləşdirə bilirsə".

Qoca qul dünyagörmüş birisi idi, onun bu sözlərini Vəzir Məşdəli eşidəndən sonra dodaq dişləyib "yəqin ki, burda bir həqiqət var", düşünmüşdü.

Ya Allah! Ya sevgili Allah, sən özün kömək ol. Sən özün kömək ol ki, dünyadakı hər şey öz həmişəki axarı ilə getməyinə davam etsin, yəni, bu dünyada yenə də çaylar həmişə olduğu kimi üzü yuxarıdan üzü aşağıya axsınlar, ağaclar, otlar, çiçəklər günəşə doğru can atsınlar, yağışlar göy üzündən yer üzünə tökülsünlər, kölgələr işıqdan qoruna-qoruna adamların dalınca düşsünlər, məhəbbətin min bir adı olsun, həyatın gəlişi ölümün gəlişini qabaqlasın və bütün canlılar əvvəldən sona doğru gedən yoldan heç vədə çıxmasınlar…

Ya Allah, sən özün kömək ol ki, dəqiqələr, saatlar, günlər bir-birinin içinə girməsinlər, bir-biri ilə didişib itələşməsinlər, əksinə, bir-birini səliqə ilə, dözüm ilə izləsinlər…

Karvanbaşının evinin ikinci mərtəbəsində qonaq otağının pəncərəsindən bayıra baxıb-baxıb Səyyah sehrbaz hər dəfə dodağaltı vird edə-edə əmin olurdu ki, hələ zamanın içində heç bir təbəddülat, zəlzələ-filan baş vermir. Dəqiqələr, saatlar bir-birini aramla eynən Şah sarayının qarşısında o tərəf bu tərəfə gəzişən əliyalın qılınclı əsgərlərin atdıqları addımların ahəngi ilə bir əvəz edirlər. Heç nə heç yerdə dəyişmir. Səyyah sehrbazın gözlədiyi göy üzü də heç cür ona bu qədərinə vacib olan rəngi almır ki almır. Əgər onun özündən soruşsaydılar ki, bu rəng hansı rəngdir belə sən ancaq və ancaq ona baxıb işinə başlayacaqsan, düz-əməlli bir cavab verə bilməzdi. Onu qəlbi ilə duyacaqdı. Qəlbi ona deyəcəkdi ki, bəli, sən gözlədiyin vaxt, nəhayət, gəldi yetişdi, girdi saatlar, dəqiqələr bir-birinin içinə, bir fırtına qopdu zamanın vücudunda, o fırtınanın rəngidi qalxıbdır səmaya, bürüyübdür səmanı bu… hansı rəng desin, bu rəngin heç adını da bilmir ki, bu rəngə necə olubdu göy üzü bürünməyə nə zamansa bu cürənə cəsarət edib?

Gözləmə məqamı məramın özünə çatmaqdan daha gözəl imiş. Gecələr uzun, gecələr şirin… Belə gecələrin birində Xacə İbrahim ağa Səyyah Sehr-

bazla onun qaldığı otaqda güllü xalça üzərində bardaş qurub və mütəkkələrə dirsəklənib bir-birinin qənşərində üzbəüz, diz-dizə oturmuşdular. Xacə İbrahim ağa nəfəs alıb-verməyə də cürət eləmirdi ki, birdən Səyyahın fikrini çaşdıra bilər, söhbət qırılar. Söhbət isə onun üçün xeyli dərəcədə maraqlı idi.

– ...Sən doğru eşitmisən. Ağ dərvişin qətlindən sonra şəyirdləri intihar etdilər. Bəli, bu intihar ustadın qəlbimizi odlayan qətli ilə bağlı idi. Amma vilayətin Böyük Ruhani Birliyi bu intihardan sonra əməlli-başlı vahiməyə düşmüşdü. Bu intiharın səbəbini araşdırmaq istəyirdilər. Seyid Sarı məni yanına istədi. Məni onun yanına gətirdilər. Mənim tanıdığım, Böyük Birliyin qəzəbli və nüfuzlu üzvü, Ağ dərvişlə qarşı-qarşıya durub nər kimi sinə gərən, ağzından od püskürdən Seyid Sarı deyildi bu, bir qoca, qırışıq üzünün dalğalarında tər dənələri donub qalmış, gözləri bir yerdə aram tapmayan, naçar bir Allah bəndəsi idi. Məndən şəyird yoldaşlarım barəsində bir para şeylər soruşdu. Mən də bəzi qaranlıq məqamların üzərinə aydınlıq gətirdim. Seyid Sarı bir daha məndən bunu soruşdu:

– Sən niyə onlarla bir canına qıymadın?

– Can mənimki deyil ki. Qurban olduğum veribdir, qurban olduğum da alacaqdır.

– Yaxşı cavab verdin. Sənə mənim ümidim vardır. Gərəkdir ki, Ağ dərvişin ustadlığından Böyük Birlik qarşısında imtina edəsən. Edərsən?

– Onun ustadlığından imtina edərəm. Daha nə etməliyəm?

– Ona şəyirdliyindən də imtina etməlisən.

Bu yerdə mən susdum.

– Niyə susdun? – Seyid Sarının gözlərinin qarası heç cürə mənim üzümdə bir nöqtəyə ilişib qərar tuta bilmirdi...

– Ona şəyirdlikdən imtina etmərəm, – dedim.

***

O gecə Çərxi-fələyi tərk edəli ilk dəfə idi ki, yatıb bir yuxu gördüm. Yuxuda gördüm ki, iyirmi üç nəfər ki, özünü intiqam adıyla dağ başından uçuruma atmışdılar, yerə dəyməzdən əvvəl onlardan biri əynindəki ağ paltarı

qanada dönmüş ağ quş kimi üzü yuxarı təzədən uçub mən gizləndiyim yerə mənim düz qabağıma gəlib qondu. Bu mənim ən çox sevdiyim biri idi, mənim dostum idi. Ağ dərviş bizim ikimizə həmişə xüsusi nəvaziş edərdi. Bu şəxs yuxuda mənə belə dedi:

– Sənin bizimlə bərabər uçmamağının, əlbəttə, bir mənası vardır. Sən də bilirsən bunu ki, Ağ dərviş, əslində, canını tapşırdı, ruhunu tapşırmadı. Onun ruhu bu saat bir başqa yerdə yenidən doğulmuşdur. Onun ürəyi artıq döyünür. Qulaq ver, eşidirsən sən bu döyüntünün səsini?

Mən birdən anladım ki, yuxumun lap əvvəlindən başımın üstündəki göy "gup-gup" edib guruldayır, özü də bu gurultunun ardı-arası kəsilmir. O, sözünə davam elədi:

– Sən onu axtarıb tapmalısan.

– Amma mən bunu nə cürə edəcəyəm? – Mən soruşdum.

– Səni and verirəm müqəddəs Rabiyənin ruhuna. Hər gün ayağın hara gedirsə, özün də ora gedəcəksən. Hər gecə qəribə, əcayib yuxular görəcəksən. Yuxuların səni kənddən kəndə, obadan obaya, məmləkətdən məmləkətə aparacaq. O gecə ki heç bir yuxu görmədin, bil ki, deməli, istədiyin yerə çatmısan. Sabah tezdən ayılıb onu yanında görəcəksən.

– Ağ dərvişi?

– Ağ dərvişi.

– Mən onu necə tanıyacağam? Bu görüşün adı nə olacaq?

– Ayılıb onu yanında görcək o sənə belə deyəcək: "Xoş gəldin…" Sən isə sözü onun ağzından alıb belə davam etməlisən: "Səfa gətirdim".

– Xoş gəldin… səfa gətirdim?..

– Vaxtdı, mənim getməyim gərəkir. Onlar az qaldılar çatalar dərənin dibinə. Mənim dediklərimə, əlbəttə, əməl edəcəksən. Bir də ki, bil bunu, bunu bilməyin vacibdir. O özü belə istəyir.

Bunları deyib, sevimli dostum son dəfə mənə baxdı, sonra ağ paltarının külək içinə dolub yellətdi. O yenə də bir quş kimi uçdu, yenidən sürətlə sıldırımdan üzü aşağı yol aldı, yox oldu. Sabahı birtəhər açıb sübh tezdən əynimdə bircə yun köynəyim, əlimdə əsa o mənfur şəhərdən bircə canımı götürüb çıxıb getdim. Ayaqlarım hara getdisə mən də ora getdim. Bu səyahət həqiqətən uzun çəkdi…

***

Səyyah sehrbaz sözünə ara verdi, bir müddət düşüncələrinin qaranlığına baş vurdu. Xacə İbrahim ağa hələ də cınqırını çıxarmaqdan qorxub susurdu. Nəhayət, bir xeyli vaxt belə keçəndən sonra handan-hana Xacə İbrahim ağa cəsarət edib yavaşdan soruşdu:

– Barı tapa bildinmi onu?

Səyyahın cavabı qısa və qəti oldu:

– Tapdım. Əlbəttə ki, tapdım.

– Çox əziyyətin olub bu yolda…

– Mən sağ qalmağımın bədəli çox imtahanlar verməli oldum. Amma əzmimdə qəti idim. Nə olur-olsun, axtarıb tapacaq idim onu. Günahımın bağışlanmasını təvəqqe edəcək idim. Hərçənd ki, Seyid Sarı ilə son söhbətim zamanı o mənə bu sözləri də demişdi:

– Sənin bu işdə biləsən, zərrə qədər günahın yoxdu. Dinimiz sənin qəlbinə nə cürə girdi, nə cürə istəklə səni bu hərəkətə sövq elədisə sən davam gətirmədin. Özünü üzmə, günahı olan bir nəfər vardırsa o da adını Ağ dərviş qoyub şəyirdlərini məhəbbət ovsunu ilə ovsunlayan o sərgərdandı. Heç özü də buralardan deyil, əsli-kökü Görükməz Təpə deyilən bir yer var, ordandı.

– Niyə bəs Görükməz Təpə? – Mən marağımı saxlaya bilməyib soruşdum.

Seyid Sarı bir ləhzə susdu, dinmədi. Sonra nə keçdisə beynindən qərar verə bilmədi ki, söyləsin mənə sonra söylədiyini, yainki söyləməsin. Gözlərinin qarası gah bir tərəfə qaçırdı, gah o bir tərəfə. Nəhayət, sol tərəf güc gəldi, Seyid Sarı başladı mənə bunları söylədi:

– Buralardan çox-çox uzaqlarda qəribə bir məmləkət var, bəlli bir müddət gözə görükərlər, o biri müddət yenə görükməzlər, heç kim də bilməz ki, bu boyda məmləkət, bu boyda kəndlər, şəhərlər, yollar, cığırlar, obalar hara yox olur itir. Amma sonra beş ildən, on ildən, əlli ildən sonra bir də üzə çıxanda, elə bil, heç zad olmamış təki həyatlarını davam edərlər. Bu məmləkətin əhalisi özü də bilməz ki, nə zaman yox olur, göydəmi, yerdəmi gizlənir, nə zaman da gizləndiyi yerdən üzə çıxır. Paytaxtlarına yaxın yerdə bir dərə vardır, dağ yolunun böyründə. Dağ yolunun bu biri böyründə də bir təpə vardır. Heç kimsə bilmir

ki, o təpə həqiqətən vardır, ya yoxdur – çünki görükməyir. Amma üstü ilə onun başına qalxanlar, elə bil ki, boşluqda göyə dırmaşırlar. O təpənin altından, yolun bu biri üzündə aşağı bir dərə açılır, adına Sehrbazlar dərəsi deyərlər. Cəmi dünyanın sehrbazları bu gün yığışıblardı o dərəyə… Çevrə düzəldiblərdi. Adına öz aralarında Qaranlıq Çevrə deyirlər. Dünyamıza qaranlığı çəkib gətirmək üçün var güclərilə çalışırlar. Çevrə qapansa, bu işi bəlkə də görə biləcəklər. İndilik bu Qaranlıq Çevrənin bir kiçik həlqəsi çatmır… Cəmi dünyanın sehrinin gücü o dərədədi. İndi deyəcəklərimə isə diqqətlə qulaq ver.

– Bəli, buyurun, diqqətim sizdədi. – Mən dedim.

Seyid Sarı qəmgin bir halətdə davam etdi:

– Ağ dərviş öz kökünə, öz məxəzinə qayıdıbdır. Yeni bir vücud tapıbdır. Bu saat o yenidən bizim dünyamıza gəlibdir. Çağa kimi yenidən doğulubdur. Mən onun ürək döyüntülərini tanımazmıyam?!

Seyid Sarı sözünə ara verdi və qulağını həqiqətən şəkləyib ancaq özünün eşitdiyi bir səsi dinlədi. Mən heç bir səs-filan eşitmədim.

– …Əlbəttə ki, doğulmuşdur. O, Sehrbazlar dərəsində bərqərar olmuş haman Qaranlıq Çevrənin çatışmayan həlqəsidi. Həlqə ki yerində gəldi oturdu, o zaman biz batdıq, dünya keçəcəkdir sehrbazların əlinə. Qaranlıq hökm sürəcək, cəhənnəm yer üzündə bərqərar olacaqdır.

– Bu nə cürə baş verəcəkdir, ağa?

– Çox asan bir şəkildə. "Möcüzələrin tarixi və təfsilatı" əsərində Şeyx Əsrari İmangətirmiş yazır ki, son möcüzə dünyamızda Qurani-Kərimdir ki, sevgili peyğəmbərimiz onu Allah-taaladan qəbul edib cəmi insanlığa bəxş etmişdir. Dünyamızda bir daha möcüzəyə yer qalmamışdır. Əgər dünyanın şər qüvvələri birləşib Qurani-Kərimi insanlığın yaddaşından silə bilsələr, bu həm son möcüzə olacaqdır, həm də bu son möcüzədən sonra dünyanın axırı gəlib yetişəcək, o zaman qaranlıq pərdə hər yeri bürüyəcəkdir. Ağ dərviş isə deyirdi ki, çün hər şeydən əvvəl Söz olmuşdur, axırda da Söz olmuşdur. Çevrə qapanmışdır. Bundan heç bir kəs duyuq düşməmişdir…

Mən cürət edib onun sözünü kəsdim:

– Ağa, axırda Söz necə olur ki, deyirsən, olmuşdur. Ağ dərvişdən mən bu kəlamı eşitməmişəm. Biz ki axıra hələ çatmadıq.

Seyid Sarı mənə yenə kədərlə baxdı. Bu dəfə üzü bir uşaq üzünə oxşadı, gözləri, nəhayət ki, ora-bura qaçmadı, bir nöqtəyə zilləndi – mənim üzümdəki bax bu nöqtəyə, nəhayət, mənə bu cavabı verdi:

– Bilirsən, bizim bundan xəbərimiz olmayıbdır, heç kimin bundan xəbəri olmayıbdır, Ağ dərviş bunu dözmədi dedi. Bilirsən, ürəyində sözü o heç vaxt gizli saxlaya bilmədi. Ola bilər sizlərə hələ deməyin vaxtını gözləyirmiş. Amma bizə dedi, dedi ki, axır artıq baş veribdir, olubdur, axırdakı Söz də artıq deyilibdir. Biz isə axırdan sonra həyatımızı sürürük, biləsən.

Bunları dedikdən sonra mənim bərk fikrə getdiyimi görüb Seyid Sarı döndərib söhbəti dəyişdi və mənə son tapşırığını verdi:

– Ağ dərviş zühur edəcəkdir öz vətənində, Sehrbazlar dərəsində. Sən onu tapmalısan, sənsən ki onu qəlbinlə tanıya biləcəksən və sənsən ki, bu son həlqənin Çevrə bəndində bərqərar olmasına əngəl olacaqsan. Nə edəcəyini bilirsən. Onu… onu öldür! Biz onu hər dəfə yenidən öldürməliyik. O doğulacaq, biz isə öldürməliyik. İndi isə get. Get! Katiblərimdən nə lazımındır istə, verəcəklər. Böyük Birliyin nəzəri həmişə üstündə olacaqdır. Allahın da nəzəri üstündə olar, inşallah.

***

Xacə İbrahim ağa matı-qutu qurumuş, təəccüblü ağzını açıb Səyyah sehrbazı dinlədikcə qəflətən bir sual doğmuşdu ağlında, o sualı vermək istədi və Səyyah nəfəsini dərən kimi dərhal sualı verdi. Bu bir sual bir neçə suala döndü:

– Bağışla, sən Allahın, bəs əgər ki sən dediyin kimi, yox, əlbəttə, Seyid Sarı ağanın dediyi kimi bizim məmləkət, buradakı camaat gah görükür, gah görükmür isə bu bəs nə təhər baş verir? Mən ki bu məmləkətdə bu yaşıma qədər yaşamışam, bunu heç duymamışam. Heç bir şəxs də duymayıbdır. Biz, yəni, elə bir vaxt olur ki, cümlə ətrafa görükmürük? Bəs o zaman hara itirik? Bəs biz özümüz bunu niyə bilmirik?

Əvvəl-əvvəl Səyyah bu suallara bir cavab tapmadı ki, bu cavabı versin Xacə İbrahim ağaya. Xacə də çox bənd olmadı. Çiynini çəkən Səyyah barədə "bu nə bilsin, bu sözü ki Seyid Sarı atıb ortaya" düşündü. Amma Səyyah

sehrbaz onun suallarını yenə də cavabsız qoymadı, düşünüb-düşünüb belə cavab verdi:

– Biriminci, sən də, mən də haradan bilək Seyid Sarı bu sözləri sizin məmləkət barəsində deyib, ya bir başqa diyar barədə. İkiminci bəlkə elə indinin özündə bu yerlərin camaatını, elə bizim özümüzü heç bir başqa şəxs görmür?! Üçümüncü də ki, bəlkə Görükməz Təpənin ətrafındadı o görükməz məmləkət… indi onun görükməyən vaxtı deyil?!

***

…Xacə İbrahim ağa hər axşam Karvanbaşıya Səyyah sehrbaz barəsində məlumat verirdisə də, söhbətlərinin nədən, kimdən olduğu barədə bir o qədər də dərinə getmirdi. Xacə İbrahim ağanın həmişə ağıllı söhbətlərə marağı olmuşdu və indi də ürəyində düşünürdü ki, bu Səyyah bir az da artıq bu evdə qalsaydı yaxşı olardı. Görəsən kimi tapıb Sehrbazlar dərəsində ustadı yerinə?! Bunu bilməmiş olmaz. Görəsən Xacə İbrahim ağa özü bu şəxsi dərəyə enəndə görmüş idi, ya yox?! Çox maraqlıdı, o adam ki, vücuduna indi Ağ dərvişin ruhu gəlib hakim olmuşdur, bəs onun öz ruhu nə oldu, hara getdi?! Ağ dərviş tanıdımı köhnə şəyirdi Səyyah sehrbazı?! Bunun adının da mənası indi açıldı. Ağ dərvişin sorağıyla gəzə-gəzə səyyah olmuşdur. Bəs belə isə o zaman...

***

Bir neçə gün də bu minvalla ötüb keçdi. Amma bir səhər Xacə İbrahim ağa gəlib Səyyah sehrbazın otağına əlində məcməyi, içində də səhər yeməyi daxil olan zaman bu adamın artıq yataqdan ayağa durduğunu, geyinib pəncərənin önündə sürahiyə dirsəkləndiyini və diqqətlə pəncərədən bayıra – yuxarı tərəfə, göy üzünə baxdığını gördü. Ürəyi atlandı. Əlindəki məcməyini yerə qoyub Səyyaha yaxınlaşdı, onun baxışının istiqamətini tutdu, bu da o baxan tərəfə baxmağa başladı. Xacə İbrahim ağa göy üzündə məxsusi bir şey seçəmmədi, hamankı qara-qura buludlar idi, amma Səyyah sehrbaz əməlli-başlı bir gərginlik içindəydi. Xacənin də gəlişinə tövrünü dəyişmədi.

– Sabahın xeyir olsun. Nədi nə var, xeyirdimi? – Xacə İbrahim ağa soruşdu.

– Xeyirdi, əlbəttə, sabahın xeyir olsun. Bu axşam əgər Allah izin verərsə, məqsudimizə çatmalıyıq. Göy üzünün rəngi müsaidə etdi. Ağana söylə, hava qaralar-qaralmaz evə dönsün.

Xacə İbrahim ağa həm sevincək, həm də ki bir qədər peşiman düşdü aşağı əndərun tərəfə keçib Karvanbaşını artıq sabah süfrəsinə əyləşdiyi yerdə haqladı. Karvanbaşı xəbəri eşitcək, özünü o yerə qoymadı, bircə gözlərinin dibindən qaranlıq bir yol açıldı qəflətən, amma Xacə İbrahim ağa bu yolun bir an içində açılan kimi bir an içində də qapandığını görüb tuta bildi.

– Vaxtında gəlib evə yetişəcəyəm. Ona söylə, yox heç bir şey ona söyləmə. Axşam özüm deyərəm. Sən işini ehtiyatlı tut. Nökərləri elə et evin içində qalanı olmasın. Üçümüz olacağıq bu işdə – o, sən və mən, daha heç kim. Buna da, – Karvanbaşı başı ilə sağ tərəfdəki yataq otağına tərəf işarət etdi, – buna da söylərsən uşaq da, özü də mən gələnə kimi girib yerlərinə yatsınlar. Yuxarı qalxıb eləməsinlər. Mən indi hüzura getməliyəm, gec qaldım, gedim görüm nə edirəm.

Karvanbaşı daha sabah yeməyinə əlini də vurmadan oturduğu yerdən qalxıb əyin-başını düzəltdi, əbasını geyinib heç bir başqa söz demədi, heç Xacə İbrahim ağa tərəfə də baxmadı, evdən çıxdı, bədöv atı çəkdilər mindi, adətən yavaş-yavaş sürüb həyətdən çıxardı, bu dəfə atın yanbızına şalağı necə tutuzdurdusa, at hürküb elə yerindəncə dördnala qara darvazaya tərəf götürüldü, darvazadan sürüşə-sürüşə çıxıb nə təhər buruldu, yolu tutub nə təhər uçdusa, bir də kişnərtisinin səsi artıq lap uzaqdan, Kəhrizli bağçanın yanından gəldi.

Xacə İbrahim ağa o vaxtacan gözünü həyət darvazasından çəkmədi ki, Karvanbaşı bədöv atını dördnala çapıb həyətdən çıxıb görünməz oldu. "Axşam qaranlıq düşənə qədər vaxtım var". – Xacə İbrahim ağa düşündü. Əlbəttə, Səyyah sehrbazdan çox şey öyrənmək olardı, amma bu iş ki, bu axşam Allahın inayəti ilə alınacaqdı və Karvanbaşının atası cəllad Məmmədqulunun ruhu gəlib onların qənşərində dayanacaqdı, Xacə İbrahim ağa da inanırdı ki, Səyyahın buna qüvvəsi çatmalıdır, bəli, bu axşama qədər idi onun vaxtı. Əlbəttə ki, Səyyahla söhbətini sonralar yazacaqdı. Kitablarını səliqə ilə o şəhərdən, bu məmləkətdən, o küncdən, bu bucaqdan yığıb gətirib sahmana saldığı evdəki balaca kitabxananın əlyazmaları arasında bu söhbəti nəstəliqlə yazıb əlavə etmək bəd olmazdı. Sabah, yəqin ki, Səyyah sehrbaz çıxıb gedəcəkdi öz məkanına, yəni, Sehrbazlar dərəsinə, bir daha bu cür elm və mərifət sahibini Xacə İbrahim ağa nə vaxt görə biləcəkdi?!

Xacə İbrahim ağa nökərlərə hər gün səhər tezdən olduğu kimi yenə də bir-iki həmişəki tapşırığını verdi, işi elə qurdu ki, qaranlıq düşəndən sonra evin içində bir ins-cins bunlardan olmasın, sonra keçdi əndəruna, xanımı tapıb onunla da gizli-gizli danışdıqdan sonra qalxdı ikiminci qata ki, Səyyah sehrbaza ayrılmış otaq orada idi, gəlib bu otağın qapısını yavaşdan əli ilə taqqıldatdı. İçəridən Səyyah sehrbazın səsi gəldi:

– Gir.

Xacə İbrahim ağa qapını ancaq bədəni qədər aralayıb özünü otağa saldı. Yerdəki məcməyinin üstündəki boş qablardan anladı ki, Səyyah artıq sabah yeməyini yemişdir, çayını da içmişdir, indi də bir küncdə oturub özü-özü üçün vird edir.

– Səni narahat etmədim ki mən? – Xacə İbrahim ağa səsinin nəvazişli və yumşaq yerinə salıb soruşdu.

– Xeyir, etmədin. – Səyyah sehrbaz cavab verdi, gördü ki, Xacə İbrahim ağa nə edəcəyini – oturmağını, yaxud ayaq üstə durmağını özü də bilmir, əli ilə ona yer göstərdi. – Əyləş, başqa bir vacib işin yoxsa, əyləş, vaxt da tez gəlib keçər, axşama hələ bir axşam var…

Xacə İbrahim ağa otağın yataq tərəfindən mütəkkənin birini götürüb Səyyaha tərəf uzatdı, o birini onun qarşısında bir qədər aralı özü dirsəklənməsi üçün yerə atdı, bardaşını qurub oturdu. Bunların arasında bir məcməyilik yer qaldı.

– Ürəyin bir şey istirmi? – Xacə İbrahim ağa mütəkkəyə yüngülcə dirsək verib soruşdu, – şərbət, mer-meyvə?..

– Yox, sağ olasan, yedim-içdim, hələlik bəsimdir, – Səyyah sehrbaz cavab verdi.

Ortalığa namünasib sükut çökdü. Bu sükutu Xacə İbrahim ağa özü pozdu:

– Sən deyəni söylədim ağama. Dedi ki, qaş qaralanda evdə olacağam.

– Yaxşı… Bu gün, Allaha təvəkkül, bu işi bitiririk, sizlərə artıq yük oldum bu qədər vaxtı…

– Nə danışırsan, yox ki, yox, elə demə. Səninlə üns qurmağın özü bir qənimətdir.

Yenə haman sükut gəlib çökdü ortalığa. Elə bil, Xacə İbrahim ağa nədən, necə söhbətə başlamağını balaca, çaşqın uşağa dönüb özü də bilmirdi. Öz-özlüyündə qərara aldı ki, onu nə vaxtdı narahat edən sualını eləcənə birdən versin. Sirrin ki quyruğunu ona nişan vermişdilər, o da indi bu sirrin bütün vücudunu görməkdən ötrü yarpağa dönüb əsim-əsim əsirdi. Xacə İbrahim ağa soruşdu:

– Bir söylə, sən Allahın, kim oldu Ağ dərvişin ruhunu qəbul edən o şəxs?

Səyyah sehrbaz bu sualı Xacə İbrahim ağadan gözləyirdi, dodaqaltı qımışdı, o andaca sifətinin cizgiləri hərə bir tərəfə dartıldı:

– Sən özün təxmin edə bilmədin?..

O, "yox, edə bilmədim" sözlərini bir şey anlamadan dodaqlarını bərk-bərk bir-birinə sıxıb son məqamda ağzından çıxmağa qoymadı. Xacə İbrahim

ağa qəflətən nə isə xatırlamış adamlar kimi gözləri qıyıldı və bu zaman Səyyah sehrbazın gözlərinin içindən nəvaziş və mehribanlıqla ona baxan tanış cavan çöhrə görükdü. Xacə İbrahim ağa anladı ki, əlbəttə, təxmin etməliydi. O idi, ondan başqa kim idi ki, Sehrbazlar dərəsində onu qarşılayıb Səyyahın yanına gətirən, Səyyahı dilə tutan, onunla çox mehriban bir tərzdə görüşən Cavan sehrbaz idi o şəxs. Əlbəttə, o idi. Ondan başqa daha heç bir şəxs ola bilməzdi. Bu əminlik gəlib narahat qəlbinə, beyninə girəndən sonra Xacə İbrahim ağa birdən-birə xeyli rahatladı, üzünə gələn ilıq təbəssümün istisi sifətini qızartdı.

– Təxmin etdin, deyəsən. – Onu maraqla seyr edən Səyyah sehrbazın səsi çox-çox uzaqlardan, lap elə bil, Sehrbazlar dərəsindən üz tutub bura qədər yol gəldi.

– Bəli, təxmin etdim. – Xacə İbrahim ağa yorğun-yorğun cavab verdi.

– O mənə görüşün adını dedi. Hələ ətraf qaranlıq idi. Amma bu qaranlıq yavaş-yavaş işığı əyninə geyinməyə başlamışdı. O gecə mən ilk dəfə yuxu görmədim. İlk dəfə idi, yol yorğunu olduğum uzun illərdən bəri ilk dəfə idi ki, yuxu görmədim. Şəhid sevgili dostumun mənə söylədiyi gecə idi o gecə. Gözlərimi açıb onu başımın üstə gördüm. Mehriban-mehriban baxıb "Xoş gəldin" mənə nəvazişlə dedi. Mən heyrət içində onun səsindəki gözəlliyə mail olub qalmış idim. Görüşün adı da yadımdan çıxmış idi. Səs qeyb olsa da, həzin titrəyişi hələ də qulağımda idi. "Xoş gəldin" – o təkrar etdi. Sonra məndən bir səs çıxmadığını görüb yavaşdan əlavə etdi: "səfa gətirdim". Əlbəttə, mən daha əmin oldum ki, qarşımdakı cismi olmasa da ruhu Ağ dərvişdir ki, vardır.

Ağ dərviş elə oturduğu yerdəcə tövrünü dəyişdi, yenə üzünü artıq neçəminci dəfə çöndərib Sehrbazlar dərəsindən yuxarı, Görükməz təpəyə sarı tutdu, baxdıqca baxdı, kimi bu ağ tufanın içində arayırdı ondan başqa bir kimsə bilmirdi bunu, bilə də bilməzdi. Gözləri isə yol çəkməyinə əməlli-başlı yol çəkirdi. Başına qara-qura fikirlər gəlib girirdi, nə illah edirdi, onlardan yaxa qurtara bilmirdi.

Sehrbazlar axşama yaxın dərə boyu hərə öz yerinə çəkilib getmişdi. Ötən gün bütün gəlib keçib ömürə dönmüş o biri günlərə oxşayırdı – nə az, nə çox. Yenə yaz çağının ılıq istisi, yenə quşların şən səsi, alma, armud, gilənar ağaclarının yarpaqları ilə bir-birinə sarmaşması, üzüm meynələrinin burdan vurub ordan çıxan əyri-üyrü gövdələri, gözlərini təəccüblə ora-bura fırladan nar çiçəkləri və elə həmin budaqdaca ağırlığı ilə budağı az qala yerə əyən narın özü… Dərədən yuxarıda bu nemətlərin hər birinin öz vaxtı var idi, meyvənin çiçəyi və meyvənin özü bir-birini görə bilməzdilər, burda isə… hamısı bir yerdə, bir vaxtda. Hamısı da sehrbazlar üçün, onların ehtiyacları üçün. Yer üzündə ikiminci belə bir məkan, əlbəttə ki, yox idi. Bu məkanın mövcudluğunun özü şəksiz möcüzə idi. Bu möcüzənin sakinləri möcüzənin içində yaşaya-yaşaya qəlblərinin dərinliyində gizlənmiş bir səsin onlara nə zamansa nə deyəcəyini gözləyə-gözləyə qalmışdılar. Hər bir sehrbaz öz içindəki səsin əsiri idi. Bu səslər isə hələlik ancaq bunu deyirdi: döz, gözlə, zamanı gələcək, tələsmə, gözlə, gözlə… Bu kəlmələrin hecaları qəlblərinin ahəngi ilə bir vururdu.

Ağ dərviş artıq qaralmaqda olan havanın sərin nəfəsini sifətində hiss elədi. Göy üzündə seyrək-seyrək ulduz idi bir-birinə sarmaşıb uzaq işıqlarını tərəddüdlə onlara baxanlara göstərməyə başlamışdılar. Bu ulduzlar qaranlıq pərdənin o tərəfindəki gur işıq bolluğunun varlığına bir kiçik işarət deyilmiydi, əlbəttə, bir işarət idi, bu pərdəni hardan ki, bacarmışdılar, ordan sökmüşdülər. Bir daha sual dolu məhzun baxışlarını o ulduzdan bu ulduza yönəldə-yönəldə…

***

– …Allah bizə işığı göstərmişdir, onun sərhəddini, onun qoruyucularını nişan vermişdir. Bu sərhəd, əlbəttə ki, qaranlığın özüdür. İşığın sərhəddinə, əlbəttə ki, qaranlıq keşik çəkir. Gecə vaxtı göy üzünə nəzər salın. Yaxşı baxın. Allaha gedən yol ulduz adlandırdığımız deşiklərdən işığın görükən yoludur. Bu yol əvvəl-əvvəl qaranlıqdan keçir. Allaha gedən yol ulduzları içinə yığmış qaranlığın yoludur ki, var. Mən sözümü dedim.

– O, İblisin yoludur.

– O, Allahın yoludur! İşığa doğru gedən yolun ətrafına səf-səf düzülən qaranlığın yolu.

"Anlamırlar. Heç cürə anlamaq istəmirlər. Qaranlığın hikmətini anlaya bilmirlər. Başa düşmürlər ki, ancaq qaranlıq səni o işığa gətirə bilər. Sevgili Allahım, bunlara bu adi həqiqəti anlatmağa dəyərmi? – Ağ dərviş yavaş-yavaş yorulduğunu hiss eləməyə başladı. – Nə olacaqsa olsun, bunlara mənim başım lazımdı, olsun. Ən böyük arzum da illər uzunu elə bu deyilmiydi?! Deməli cisim üçün, vücud üçündür bunların çarpışması. Olsun. Bezdim. Yoruldum. Səndən, sevgili Allahım, başqa heç bir təvəqqem yoxdur, bircə… sənə qovuşum, əriyim içində… Halım onsuz da artıq fəna olubdur. Sonra, sonra isə yenidən ruhumu göndər bu yer üzünə, göndər…"

– O, İblisin yoludur! Sən də onun elçisisən! Qaranlığın elçisi sənsən. Adını isə… utanmırsan adını Ağ dərviş qoymusan. Sən axı Allaha aparan yolun əvvəlində idin…

"Yox, bunlara imkan vermək olmaz ki, məni bəraət etsinlər, mənə yazıqları gəlsin, o zaman mən də bunlardan biri ollam. Yox. Əsla! Ölüm, yalnız ölüm fitvası!!" Ağ dərviş ölüm yolunda son ümidsiz cəhdini etməyə hazırlaşdı:

– Bizim dünyamız, o biri dünyalardan baxırkən işıq içində olduğuna görə yox, yox, qaranlığın içində olduğuna görə görsənir. İşıq qaranlığındır, qaranlıq işığın deyil. Əzəli olan qaranlıqdır ki, var. İşıq da onun içindən çıxıbdır.

- Hədyan!! Cəfəngiyyat!

– Bu şəxs işığa, yəni, həqiqətə şəkk gətirir… Denən ağzımdan çıxdı, qəlbimdən çıxmadı… Denən "əstəğfurulla"…

– Nədir sən tanıdığın həqiqət? – Ağ dərvişin səsi səslər, donquldamalar içindən sıyrılıb bu dəfə heç kimə, heç nəyə məhəl qoymadan guruldadı.

Seyid Sarı irəli çıxıb əli ilə cübbəsini arıq çiynində düzəldə-düzəldə nəfəsini çox dərindən çəkdi və özünün də vəcdə gəldiyi möhtəşəm sadəliyin işığında divara düşmüş kölgəsini çiyinlərini ata-ata oynadaraq Ağ dərvişin sualına belə cavab verdi:

– Əlbəttə, həqiqət budur ki, mən də, sən də indi, bu saat və bu məkan içində bir-birimizin önündə dayanmışıq, bir-birimizi eşidirik, istəsək toxuna da bilərik bir-birimizə…

– Cismimizə – bəli. Bir-birimizə – əsla! Xeyir! Həqiqət sən deyən deyil. Əlbəttə, deyil. Həqiqət odur ki, bizim ruhlarımız öz dünyalarında bir-birlərinə nifrət edirlər…

– Bizim ruhumuz bizim canımızdadı, o başqa bir yerdə deyildir, cismimizin içindədi. Biz ölərkən yalnız ruhumuz tənimizi tərk edir. Ruh məndən kənar mən sağamsa başqa bir yerdə olmaz.

– Xeyr! Bir də xeyr… Bizim ruhumuz bizdən çox-çox uzaqlardadı, o uzaqlarda da bizim yerə düşən kölgəmizdi. Mən istirəm o kölgəni bura gətirəm. Ruhu burada qovuşduram cisminə. – Ağ dərvişin beynindən sürətlə bunlar keçdi: "Yenə ölüm yolundan çaşdım. Olsun. Amma bunu deyəcəyəm". – Ruhun yeri buradı. Bilirsən sən, ruhsuz burada nəfəs almaq çətinləşib. Ruhları bir buraya qaytara bilsəm… torpağın, dağın, daşın, canlı olan, nəfəs alan hər bir zadın pası açılar, dünyaya yeni güc gələr. Ruhu qeyb edəli bizim dünya gücsüz olubdur. O biri ruhiçində dünyalar bizimlə mübarizə aparırlar, biz isə bunu hələ ki duymuruq. Biz fəqət ruhların sayəsində güclü olub bu mübarizəyə tab gətirə billik.

– Sus! Sus daha!!

– Səbr edin! Bu şəxsin dili ilə şər danışır. İblis bunun ürəyinin içinə girmişdir. – Seyid Sarı əlini qaldırıb bu son ittihamını deyib yenə həmən əli ilə qovalayıb gözünün qarşısını kəsməyə çalışan uzaq bir vaqeəni kənar etdi. Bu vaqeə bu iki şəxsin arasındakı nifaqın ilk məxəzini göstərirdi. O uzaq gənclik

illərindəki nəcib dostluqları hər ikisinin mürşidi olan şeyx Mənuçöhr ibn Sadiqin "dolğun an" haqda kəşfindən əvvəl başlamışdı. Əlbəttə, bir-birini sidq-ürəklə sevən bu iki gənci bir-birindən "dolğun an" ayırmadımı, "dolğun an" ayırdı və təəssüf ki təəssüf, addım-addım, nəfəs-nəfəs bu günkü düşmənçiliyə gətirib çıxardı.

Ağ dərviş cisminin dərinliyindəki son güc qırıntılarıydı, zorla onları topladı, onlar bunun qəlbində heysiz-halətsiz bir-birilə birləşib sözə döndülər, özlərini büruzə verdilər:

– Ancaq işığı görə bilən işığın qədrini heç bilməz. Sənin dediklərin boğazdan çox-çox yuxarıdan gəlir. Mənim… deyəsi sözüm daha… yoxumdur.

***

…Ağ dərviş ilk dəfə idi ki, ulduzların arasında çaşıb qalmışdı. O özü harasa yox olmuşdu. O özü artıq bu ulduzlardan birinə, işığın bir zərrəsinə dönmüşdü. Gözləri ilə yol axtarırdı, tapa bilmirdi. İşığa dönəndən sonra öz yolun olmur. Sənin yolun hər şeyi tutmuş işığın yolu olurmuş əgər buna yol demək olardısa. Seyid Sarı da, Böyük Ruhani birliyinin ona küdurətlə baxan o biri adlı-sanlı, şan-şöhrətli üzvləri də sifətləri, gözləri, əlləri-qolları, ayaqları, cisimləri ayrı-ayrılıqda bu ulduzların arasındakı qaranlığa səpələnib uçauça qalmışdılar. Onun üçün isə yol yox idi. Başdan-başa hər tərəf işıq idi.

Səyyah sehrbaz söhbətin bu cürə uzanmasından qətiyyən rahatsızlığını büruzə vermədi. Xacə İbrahim ağanı isə belə bir fikir üzürdü ki, birdən Səyyah sehrbazı o öz sorğu-sualı ilə elə yorar ki, gecə zamanı gələndə bunun daha Karvanbaşının bədheybət atasının ruhunu çağırmağa gücü çatmaz.

– ... Nədi ulduz dediyimiz? – Səyyah sehrbaz yenicə vəcdə gəlirdi, – qaranlıqdan keçən işıq üçün deşik deyilmi, deşikdir. Bu yırtıq-yırtıq olmuş qaranlığın arxasındadı gur işıq, intəhasız işıq. Ağ dərviş deyirdi: nədi ulduz? Ulduz, əslində, işıq deyil, ulduz o işıq görüntülərinin arasındakı qaranlıq parçalarıdır. Ulduz qaranlığın özüdü deyirdi. Nədi İblis? İblis sevgili Allahından başqa heç kimi və heç nəyi hətta Allahın buyruğu ilə belə qəbul etməyən mələk deyilmiydi? Müqəddəs Rabiyə idi deyirdi ki, qəlbimdə Allahdan başqa məhəbbətim bir daha Allaha məhəbbətimdir. Ulduz nədi soruşurdu Seyid Sarı. Ağ dərviş cavab verirdi. Ulduzlar nəhəng işıq intəhasızlığının bu günə çatmış, bizə qalmış zərrələridir. Onlar qaranlığın ağır qübbəsini bu gün güclə saxlaya bilirlər. Bu zərrələr bir gün gələcək ətrafılarındakı möhtəşəm qaranlığın ağırlığını daha saxlaya bilməyəcəklər. Bu qaranlıq yer üzünə yüngül, amma qarşısıalınmaz bir ah kimi çökəcək, bu ahın altında biz hamımız o zaman tük kimi əzilib qalacağıq. Ağ dərviş bunu deyirdi, Ağ dərviş küfr demirdi.

Xacə İbrahim ağa çaşqın hala düşmüş ağzını açıb nə isə soruşmaq istədi. Səyyah sehrbaz hövsələsiz, ona sual etməsi üçün imkan vermədi:

– Soruşmaq istirsən ki, o zaman Seyid Sarı bəs nə üçün bu boyda cidd-cəhd göstərirdi?! Seyid Sarı Ağ dərvişlə bir zamanlar hər ikisi ustad şeyx Mənuçöhr ibn Sadiqə müridlik etmişdilər. Yolları sonradan ayrıldı. Sirr dağarcığı idi Seyid Sarı. Sirləri öz içindən heç hara buraxmırdı. Ona görə də məqamların sirrini açanlara qarşı amansız idi. Ağ dərviş isə... ürəyinin içində duyduğu nə var idisə dilində idi. Xəlvətə çəkilməyin, təkcənəlik vaxtının sirri onun üçün

yox idi, sevgili Allahı ilə söhbətlərinin hamısını böyük bir sevinc içində bizlərlə bölüşərdi. Ona görə də çoxu sevmirdi onu. Bilirsən Ağ dərviş kim idi?

– Kim idi? – Xacə İbrahim ağa Səyyah sehrbazın sualını pıçıltı ilə təkrar elədi.

– İbrahim ağa, Ağ dərviş Allahın sirdaşıdır. Allahın sirdaşı təkcə odur. Onun kəşfləri vardır. Elə bircə ölümdən qabaq ölümün üsulunu kəşf etməsi nəyə desən dəyər… Seyid Sarı isə ancaq Allahın dostuna çevrilə bilmişdi, Seyid Sarı Allahın sirdaşına çevrilə bilməmişdi. Allahın sirdaşı Allaha yetişmək, onun içində ərimək anından əvvəlki ən sonuncu nəfəs dərib gözləmə məqamıdır. Ən sonuncu məqamdır. Anlaya bilirsən Ağ dərviş kimdir?!

– Anlayıram, anlayıram. Bir nəfəsini dər, yoruldun ki, sən, axşam düşür, bəlkə dincəlmək istirsən?! Yainki yemək… – Xacə İbrahim ağa eşitdiklərindən, elə bil, qorxaraq söhbəti dəyişmək qəsdi ilə buna təklif etdi.

– Yox, sağ ol. – Səyyah sehrbaz an içində nəfəsini dərib üzünü Xacə İbrahim ağaya çevirib dedi. – Yorulmamışam mən. Axı sən özün bu sözləri ki mən dedim, sən özün məndən bunları eşitmək istirdin, belə deyil?!

– Belədir, hardan bunu bildin? – Xacə İbrahim ağa sidq-ürəklə etiraf və təəccüb etdi.

– Gözlərindən. Bu axşam səninlə mənim aramda son axşamdır, odur ki, sən gözlərinlə soruşdun, mən dilimlə cavab verdim. Gözlə dilin eşqi barədə bir şey bilirsən?.. – Səyyah sehrbazın gözləri qıyılıb az qala görünməz oldu.

***

Axşam sözbəsöz, cümləbəcümlə sürətlə düşürdü. Pəncərədən o tərəfdə nə vardısa işıqdan qaranlığa keçirdi. Karvanbaşı gəlməmişdisə də bir azdan hökmən gələcəkdi və indi oturub nədən, hardan danışsalar da beyinlərinin dərinliyində onun gəlməyini səbirsizliklə gözləyən bu iki nəfər artıq başqa, bundan sonra gələcək başqa bir halətin içinə yavaş-yavaş girirdilər.

Karvanbaşı qaranlıq həyətə atını sürüb girəndə onu ancaq Xacə İbrahim ağa pilləkənin önündə qarşıladı. Hər şey sabah-sabah razılaşdıqları kimi idi – nökərlər həyətin o başındakı nökər evində artıq rahat edirdilər, gözətçilər

gözə dəyib tez də yox oldular, qara darvazanı Karvanbaşının arxasınca cəld bağlayıb daha gözə görükmədilər. Evin içində bir sakitlik hökm sürməkdə idi, arvad-uşaqdan əsər-əlamət yox idi, çoxdan əndəruna keçib yorğan-döşəklərinə girmişdilər…

– Bir şey yeyəcəksən, dərdin alım? – Xacə İbrahim ağa Karvanbaşıdan soruşdu.

– Yox, yeməyəcəyəm, aclığım yoxdu. – Karvanbaşı qapıdan içəri daxil olub keçdi sağ tərəfdəki böyük otağın bir küncündə həmişəki yerində bardaş qurub əyləşdi, ətrafındakı mütəkkələrdən yığışdırıb yanına düzə-düzə, dirsəklənmək istəsəydi, dirsəklənəcəkdi, üzünü Xacə İbrahim ağaya tutdu:

– Nə var, nə yox, İbrahim ağa, – soruşdu, – hazırsınız? Axşamın düşməyini necə gözləmişəm sən bir biləydin. Necə gec düşdü, ay Allah, bu axşam, elə bil, qış deyil, qaranlıq gəlmirdi ki, gəlmirdi. Siz nə edirdiz?

– Heç, ağrın alım, ordan-burdan söhbət etdik, danışdıq, vaxt bizim üçün çox tez gəldi yetişdi. Nə deyirsən, gedim mən bunu gətirim. Sən lap gözləyə qaldın…

– Get. – Karvanbaşı başını dərdli sinəsinə dikdi, fikrə getdi.

Allah onun səsini barı bu dəfə eşidə idi, nə olur-olsun bu iş barı bu dəfə baş tuta idi. Bütün cavan ömrü boyu bu görüşün həsrətində olmuşdu. Yuxulardan yuxulara keçib lal-karlar kimi həmişə maddım-maddım ona baxan atası ilə bu görüş onun bütün sonrakı ömrünü, əlbəttə, dəyişməli idi. Çox şeylər soruşacaqdı ondan, çox sirlər açacaqdı ona, niyə və nə üçünlər çox olmalıydı. Amma əsas "nə üçün" o deyildi ki, atası onu qoca nənəsinin ümidinə atıb çıxıb haralara gedib haralarda itmişdi, bunun üçün atasının ruhunu belə kəmhövsələliklə çağırmağı heç vədə özünə rəva bilməzdi. Onun əsl məqsədi - ruhu arxayın etmək, ruha rahatlıq vermək idi, yoxsa gör neçə illərdən bəri həm nakam qardaşının, həm də atasının ruhu rahatsızdır. Əlbəttə ki, bu görüşdən sonra bu ruhlar o dünyadakı rahatlıqlarını tapacaqdılar, hökmən tapmalıydılar.

Xacə İbrahim ağa və arxasınca Səyyah sehrbaz əlində bir bağlama sakitcə otağa girdilər.

– Axşamın xeyir olsun. Hazırsan, ağa? – Səyyah sehrbaz Karvanbaşını salamlayıb ondan soruşdu.

– Axşamın xeyir olsun. Hazıram. – Karvanbaşı oturduğu yerdən ayağa durmaq istədi. – Sən söylə, hansımız hardan oturaq, sən de. Bəlkə...

– Otur, otur elə öz yerində. Yaxşıdı yerin, heç narahat olma. İbrahim ağa, sən də keç ağanın arxasından otur. Mən bu biri tərəfdə olacağam. Sizdən tələb olunur ancaq sükut. Səsiniz gərəkdir çıxmasın. Mən vaxtı çatanda özüm sizə işarət verəcəyəm. Amma mənim işarətimə qədər… yalnız sükut… sükut… Eşikdə-filan bir kimsə yoxdur ki?

Xacə İbrahim ağa onu arxayın etdi, xeyr, eşikdə, yaxud evin içində onların işinə müdaxilə bir kimsə etməyəcəkdir. Bundan sonra Səyyah sehrbaz lap arxayın olub Karvanbaşı və Xacə İbrahim ağaya əli ilə oturmaları üçün işarət etdi. Bunlar – Karvanbaşı öz yerində, Xacə İbrahim ağa isə ondan bir qədər arxada yerlərini rahladılar. Səyyah sehrbaz keçib otağın bu biri bu oturanlara qarşı tərəfində, hələ ki, ayaq üstə durdu. Otağın ortasında bir kənarda balaca miz üstə şamdan vardı, ucunda da şam. Səyyah sehrbaz gedib bu şamı çaxmaq vurub yandırdı, döndü öz yerinə. Şamın şöləsi elə bil qırmızı xətt çəkmişdilər, nə o tərəfə, nə də bu tərəfə bircə tük qədər də tərpənmirdi, amma şam yanmağına yanırdı. Səyyah sehrbaz bir xeyli kirimişcə bu şama, onun tərpənməz şöləsinə uzaqdan diqqət elədi, eləcə baxdı. Otağın o biri küncündə bu iki nəfər də artıq otaqda dolaşan abi-havaya qarışıb özlərini unutmağa başlamışdılar, Səyyahın hər bir hərəkətini təkcə gözlərilə deyil, bütün hüceyrələri ilə, özləri də bir udum nəfəs almağa belə cürət etmədən son dərəcə böyük bir həyəcan və diqqət içində izləməyə davam etdilər. Otaqda tam bir sükut hökm sürməyə başladı.

Səyyah sehrbaz ki, otağın o biri küncündə durmuşdu, əlindəki özü ilə gətirdiyi səccadəni açıb atdı yerə, bardaş qurub o da bu səccadənin üstündə yerdən oturdu, əllərini çarpaz edib dizlərinin üstünə qoydu.

"Bu nə edəcəkdir?! Əgər bu da əvvəlkilər kimi qalxıb fırlanmağa başlasa – heç. Gəlməyəcək. Ürəyimə damıbdır. Gəlməyəcək. Gəlsəydi o dəfə o açıq səmanın altında, başımızın üstü tamam ulduz idi, o zaman gələrdi, nə illah elədi, nə qədər oynadı, fırlandı o rəmmal… İlan dili çıxartdı… Bu dəfə də alınmayacaq. Fırlanıb oynayanda alınmır. Bu dəfə də alınmasa, deməli, Allahtaalanın istəyi belədir. İşarətdir. Daha cəhd eləməyinə dəyməz. Bununla bu iş

bitdi. Nə etmişəmsə etmişəm. Çıxan ox bir daha kamana qayıtmaz. Nə olacaq isə olacaqdır. Deməli, belə məsləhətdir. Amma ki, intiqamımı nə olur olsun alacağam".

Karvanbaşı bunları düşünə-düşünə bir də baxıb gördü ki, Səyyah Sehrbaz oturduğu yerdəcə iki əli ilə başını qucaqlayıb qabağa-dala yırğalana-yırğalana dodağının altında nə isə vird eləyir. Səsi çox yavaşdan gəlirdi. Heç eşidilmirdi səsi, gərək diqqətini artıq dərəcədə cəm eləyəydin ki, nə isə bir sözün izinə düşüb başa düşəsən. Birinin izinə düşəndə o biri əldən çıxıb uçub havada yox olurdu. İlk əvvəl Səyyah sehrbaz özü-özünə bir sual verdi və özü də o suala cavab verdi:

– Hansı yol ilə gedək?

– Bilmirəm.

– O zaman gedə biləcəyimiz yol çoxdur, deməli…

Yenə dala-qabağa yırğalandı və yenə bir qədər susub daha bir sual-cavab etdi özü özü ilə:

– Hansı rəngə bürünək?

– Bilmirəm.

– O zaman bütün rənglər qarışıbdır bir-birinə, fərq eləməz…

Yenə susdu. Yenə yırğalandı. Yenə sual-cavab etdi:

– Kimin göz yaşını silmisən bu dünyada?

– Heç kimin.

– Bu dünyaya göz yaşı axmayıb, deməli…

Bu dəfə sükut olmadı. Elə son sözünün arxasınca düşüb Səyyah sehrbaz özünün və ancaq Karvanbaşı ilə Xacə İbrahim ağanın eşidə biləcəyi dərəcədə, nə az, nə çox, səsinin ahəngini qaldırıb daşlı-kəsəkli bir yola düşdü. Pıçıltı tam sükuta, tam sükut az qala hıçqırığa, hıçqırıq hərdən-birdən ədəbli bir qışqırığa çevrildi:

– Dayanın, əl saxlayın. Kölgənizin içindən çıxın. Bir an öncə bir an sonranı düşünməsəniz də axşamın şəri, yox, axşamın xeyrinə ümidinizi bağlayın. Amma sən… bir daha dünəninin bu gün qaytarılmasının acı ləzzətini duya-duya sabahının üstündən fırlana-fırlana, baş bir yana əyilmiş, vücud o biri tərəfə dartılmış uçub gedəcəksənsə, o zaman bunu qulağına sırğa elə. Və unutma. **Gözlərimə görünmə gəl…**

Bu son kəlmələrini Səyyah sehrbaz xüsusi fasilə ilə o birilərindən ayırıb bir avazlı mahnı kimi oxudu, sonra yenə də sözünə əvvəlki qayda ilə davam elədi:

– … gəl ki qurtaraq bu ehtizazdan titrək-titrək olmuş vücudu düşünmək və anlamaq bəlasından. Dənizin dibindəki yosunlara ki yoldaşlıq edə bilməyəcəksən. Daha nəyin dərdini çəkirsən? Sonrası nə olacaqsa olsun. Bizlər, nəhayət, bilməliyik, yox, anlamalıyıq, yenə də yox, dərk eləməliyik ki, quru cisimlər ruh saxlamır…

Bu yerdə Səyyah sehrbaz yenə nəfəsini dərdi, az qala hıçqırıqla amma yenə də avazlı bir şəkildə bu kəlmələri dedi:

**– Ağlamışam, dirənmə gəl…**

Səyyah sehrbazın həqiqətən bu kəlmələri deyə-deyə gözündən yaş gəldi, əlinin dalı ilə gözünün yaşını silib az qala bütün üzünə yaydı, davam etdi:

– … səni isindirməyən bir qış gecəsi bütün qamətiylə, yəqin, elə bu cür qarmaqarışıq səslərin, alabəzək rənglərin içindən çıxır. Çıxa bilirsə çıxır, çıxa bilmirsə elə uzaqdan sənə baxa-baxa qalır, həzin, titrək nəfəsini o gözəl çöhrənə daha nəvazişlə sürtə bilmir. Və sənin kölgən çırpınır, pıçıldayır, bu pıçıltını təkcə sənin qəlbin duyur, demə, kölgən sənin vücuduna öz eşqü məhəbbətindən pıçıldayırmış…

Səyyah sehrbaz yenə nəfəs dərib fasilə etdi və bu dəfə avazlı bir yalvarış da bu səsin içinə girdi. Səyyah sehrbaz belə dedi:

**– Sən ölmüşün ərinmə gəl…**

Səyyah sehrbaz dala-qabağa ki danışa-danışa başlamışdı yırğalanmağa vücudu birdən dimdik qalır, nəfəsini yığıb hardan bu məlahətli səs onun qəlbindən çıxdı, uzaqdan gəlib girdi vücuduna bilinmədi bu səsin hardan gəlişini özü də bilmədən bu sözlərini artıq tam bir vəcd içində ləzzətli bir avazla bir-birinin dalınca dilinə gətirib oxudu:

**– Gözlərimə görünmə gəl. Ağlamışam, dirənmə gəl. Sən ölmüşün, ərinmə gəl. Gəl… gəl… gəl… gəl…**

Karvanbaşı ilə Xacə İbrahim ağa dillərini udub tərpənməz oturmuşdular. Birdən Səyyah sehrbaz tərəfdən otağın ortası ilə ikicə kəlmə söz fırlana-fırlana gəlib özünü saldı Karvanbaşının heyrətdən şəklənmiş qulaqlarına:

– O gəldi!..

– O gəldi…

Bu kəlmələri başını sinəsinə dikib dərindən həyəcanla nəfəs alan ürəyinin guppultusunu artıq eşitməyə başlayan Səyyah sehrbaz göndərdi Karvanbaşıya. Karvanbaşı bu ikicə kəlmə sözü eşitcək damarda qanının donduğunu hiss elədi. Birdən gözü şamdandakı şama sataşdı. Şamın şöləsi sükunətdən sıyrılıb çıxıb oynaq və dəcəl bir halətdə özünü başladı yuxarı-aşağı çırpdı. Bu şölə balaca tüstülədiyi üçün otağa duman kimi bir şey doldu. Karvanbaşı gözlərinə inanmağı gəlmədi. Amma inanmamaq da olmurdu. Çünki bu bir anın içində otaq artıq əvvəlki otaq olmağından çıxmışdı, otağın rəngi də, havası da, ölçüsü də dəyişmişdi. Bu bir anın içində təkcə onun damarda qanı donmamışdı, bu bir anın içində əndərunda öz otağında, öz yatağında şirin bir yuxunun ağuşuna batıb mışıl-mışıl yatan, o yuxunun qucağında ancaq özünün görə bildiyi, ancaq onun üçün göndərilmiş vaqeəni seyr edən Karvanbaşının balaca oğlu da yuxusunun içindən yanındaca huşa getmiş saçları ilə ağ yastığı qara rəngə boyamış anasına tərəf bir xoş təbəssüm göndərdi, sonra bu təbəssümə onun da damarında donan körpə, isti qanının qara rəngi qarışdı.

Karvanbaşının çaşqınlığını qəlbi ilə duyan Səyyah sehrbaz artıq ikiminci dəfə bu iki kəlmə sözü ağzından çıxarıb havada fırlada-fırlada ona tərəf göndərdi:

– O gəldi…

Sonra bu iki kəlməyə belə bir əlavə etdi:

– … Buyur, nə istirsən soruş. O razıdır, sənə cavab verəcəkdir.

Xacə İbrahim ağa Karvanbaşını yavaşdan dümsükləyən kimi oldu. Həyəcanlı və yavaş bir səslə pıçıldadı:

– Qurbanın olum, özünə gəl. Eşidirsən sən, o gəldi…

Karvanbaşı, nəhayət ki, özünü ələ aldı, "inşallah, muradıma çatdım, yəqin. Allah özü köməyim olsun" düşündü və ehtiyatla üzünü otağın ortasındakı dumanlı boz boşluğa tutaraq çox titrək bir səslə həmi soruşdu, həmi də xahiş elədi:

– Burdasan, ağa? Gəldin sən? Gəldinsə mənə bir işarət ver…

Bu yerdə möcüzə baş verdi. Ağzında Karvanbaşının sözü bitər-bitməz deyingən və amansız, laübali və mis kimi sərt bir səs otağın dumanlı sükutunu yarıb aydınca halda onların üçünün də qulağına soxuldu:

– Gəldin-gəlmədin… Gəldin-gəlmədin… Nə cürənə haramzadasan sən. Gəldin… gəlmədin…

Karvanbaşının sevincdənmi, qorxudanmı ürəyi az qaldı ağzına gələ:

– Bəli, burdasan. Allah, sənə şükürlər olsun. Burdasan. Nəhayət, arzuma çatdım.

Belə söyləyib qeyri-ixtiyari ayağa durmaq və səsə tərəf getmək, elə bil ona toxunmaq istədi, amma uzaqdan Səyyah sehrbazın əlinin sərt işarəsindən dikəldiyi yerdəcə dondu qaldı. Sonra yenə yavaş-yavaş öz yerinə çöküb oturdu. Xacə İbrahim ağa Səyyah sehrbazın bu işarətini bir başqa cür anlayıb elə yerindəcə qurcuxa-qurcuxa bir qədər də geriyə çəkildi, kürəyi soyuq divara söykəndi.

– …Allah, sənə şükürlər olsun. – Karvanbaşı hönkürtüsünü guclə boğub dilləndi. – Burdasan. Ağam mənim. Sənsən, əlbəttə. Mən elə bu cürə də bilirdim. Əvvəl-axır gələcəkdin. Əvvəl-axır görüşəcəkdik biz səninlə. Elə də var idin yuxularımda. Sərt, təkəbbürlü… Bilirsən, ağa, necə kor qoydun sən məni, necə naəlac qoydun sən məni. Sənnən ağabəyim. Bilirsən, ağa, "ata, vay, qardaş, vay" demədiyim bir gecəm, bir gündüzüm olmadı ağlım kəsəli?! Bilirsən bunu?.. Niyə susdun? Ağa… Burdasan?

Ruhun səsi bu dəfə bir azca ləngidi. Bilmək olmadı ki, bu səs cavab vermək istəyir, yoxsa yox, istəmir. Amma bir müddətdən sonra Ruh cavab vermək qərarına gəldi. Özü də cavab çox gözlənilməz oldu. Ruh öz səsi ilə Karvanbaşının səsini eynən təqlid elədi:

– "Ağlım kəsəli… ağlım kəsəli…" Səni görüm elə həmişə "vay" içində olasan… Sən bir buna baxırsan?!

Karvanbaşı titrəyən ürəyi ilə bu səsə olan həsrətinin nə qədər böyük olduğunu bir daha anladı, amma ürəyindən keçdi ki, bəlkə ağası onu tanımadı, nədi, yoxsa əgər tanısa idi bu cürə anlaşılmaz tərzdə danışmazdı, əlbəttə, özünü bu cürə biganə aparmazdı bu Ruh, odur ki, tələşla dedi:

– Aman, Allah. Necə dedin, necə dedin? Niyə belə dedin, ağa, bəs sən? Tanımadın məni yoxsa? Allahverdiyəm mən, Allahverdiyəm, ağa, sənin oğlunam…

Ruhun səsi bu dəfə daha artıq laqeyd və biganə bir biçimə girdi:

– Kor idiz siz, kor da qalmısınız. Gic adam, mənə nə sən kimsən. Mənim nə günahım var ki, sən məni rahatsız etmisən? Hələ bir de görüm, niyə məni buraya çağırtmısan, ay əbləh?! "Ata, vay, qardaş, vay demədiyim bir gecəm olmadı…" Olaydı! Heç dəxli var?! Buna bax bir. Rənginə bax, rənginə. Ağappaq olmusan, xəbərin var?

Ruhun səsi artıq otağın təkcə ortasından gəlmirdi, Ruhun səsi artıq otağın hər küncündən eşidilməyə başlamışdı. Özü də ahəngsiz, rəngi-rufu olmayan bir səs idi bu səs. Otağın bir küncündə pıçıltı idi, o biri küncündə qışqırıq idi, bir başqa yerində bu səs hiddətli idi, acıqlı idi, amma nə cür olurdu olsun, hər bir biçimində otağın hər hansı bir yerində bu səs yenə də laqeyd və biganə olub qalırdı. Bu hal çox gözlənilməz bir hal idi. Karvanbaşı da, Xacə İbrahim ağa da əməlli-başlı çaşıb qalmamışdılarmı, çaşıb qalmışdılar.

Axır vaxtlar Şah harada olurdusa olsun, kimin üzünə baxırdısa baxsın, bu üzdə lal bir sualın artıq heç gizlənmədiyini, açıq-aşkar özünü büruzə verdiyini görürdü. Bu lal baxışlar yeni hücumlar həsrətinin ağırlığını çəkirdi, amma deyəsən, artıq bu yükün çəkilməsi yavaş-yavaş dözülməz olurdu. Yeni müharibə həsrəti, yeni talan və qarətçilik ehtirası bu həsrətli baxışları hər Allahın günü, günü nədi, hər saatı götürüb gətirirdi Şahın nəzərinin qarşısına, Şahın qaşqabağı bu zaman tökülürdü, nə tökülürdü, halı pəjmürdə olurdu, dərin və uzun fikirlər aləminə qərq olurdu, üzüntülü götür-qoylar edirdi, ölçüb biçirdi… Və günlərin bir əvvəlkilərə oxşamayan günü əlahəzrət yenə çox fikir edəndən sonra hiss elədi ki, daha dözə bilmir onu yeni yürüşlərə təkid ilə sövq edən bu lal, qaraqabaq baxışların soyuqluğuna, özünü günahkar saymağa başlayır, "olsun!" dedi, "bu gün xeyli mübarək bir gün imiş, qərarımı verdim, cəng təbilini təbilçilər çalsınlar və bayraqdarlar cəng bayrağını qəsrin önündəki tuğdana vursunlar!"

Bu xəbəri eşitcək paytaxtı bir anın içində başdan-başa sevinc və şadyanalıq sədaları, xoş əhval-ruhiyyə bürüdü. Nökər-naibin, hərbçi əsgərin üzünün qart salmış qırışığı açıldı, ürəkləri dondurmuş buzlar əriməyə başladı və sərkərdələr qış yuxusundan ayılan məxluqat kimi hərəkətə gəldilər, dirçəldilər, Şahın səfərqabağı yeni əmrlərinə müntəzir durdular. Məmləkətin ucqar bir əyalətində neçə vaxt idi ki, qiyam etmiş bir qəşəng şəhər vardı, özü bir o boyda böyük şəhər olmasa da, amma camaatı, böyüklü-kiçikli əməlli-başlı dikbaşlıqda məşhur idi. Şahın qərarı onun əlinin uzantısını bu şəhərə doğru tuşladı. Əzilməli idi qiyam etmiş bu şəhərin əhli, şəhər özü də əməllərinə görə cavab verməli idi, neçə dəfə Şah elçilərinin üzünə dəmir qapılarını bağlayıb açmamışdılar, ələ sala-sala, gülə-gülə uca şəhər divarlarının üstündən bu hörmətli şəxslərə föhş və küfrlər yağdırmışdılar. Şahın özünün isə ünvanı-

na qara daşlar kimi xoşagəlməz kəlmələr yuxarıdan aşağı atmışdılar. Və indi Şahın qərarını eşitcək qiyam etmiş bu şəhərə gedən qoşun əsgəri artıq əvvəlcədən özünü qalib döyüşçülər kimi aparmağa başladı. Hər bir paytaxt əhli də Şahın Allahdan ömrünün uzanmasından ötəri dualar edə-edə onlara artıq döyüşdən qələbəylə qayıtmış qəhrəmanlar kimi baxdılar. Tacirlər, töycü yığanlar, torpaq, ev alıb-satanlar gizlicə əllərini bir-birinə sürtüb bol qazanclı günlərin nəşəsini əvvəlcədən yaşamağa başladılar, çünki niyyətləri belə idi – özlərini qoşunun ardınca dərhal haman məğlub şəhərə soxacaqdılar.

***

Cəllad Məmmədqulu adam göndərib axşamçağı oğulluğu onbaşı Şahverəni yanına çağırdı. Səfər barədə ona sözü vardı. Haraya və nə üçündü bu səfər, müddəti nədi, məqsədi, səbəbi hardan çıxdı… Bu kimi söhbətlər edəcəkdi, amma bunlar bir yana, özü də axı Şahverənin üzünü çoxdan idi ki görmürdü. Şahverən axır vaxtlar adi sərbazlıqdan onbaşılığa ucaldıqdan sonra daha işi-gücü də çoxalmışdı, az-az görünürdü gözə. Axşam-sabah canı ilə, qanı ilə dəstəsinin yanında olurdu, hər gün, çox zaman gecəni də əsgər evində əsgərlərlə bir dam altında yatıb qalırdı.

Şahverən hələ gəlib çıxmamış Məmmədqulu sabah tezdən bazardan aldırdığı mer-meyvəni, çərəzi, qaynayıb qovrulmuş noxudu mizin üstünə düzdü. Şahverən qovrulmuş noxudu çox sevərdi, gəlib, nəhayət, böyük, amma yöndəmsiz həyətlərinə girəndə bir azcana yanmış noxudun tanış və ləzzətli iyi burnuna dəyən kimi qəfildən ürəyi bu həyətdə keçən uşaqlıq vaxtından ötəri bərk qısıldı, anladı ki, atalığı üçün bərk darıxıbdır və heç yaxşı iş görmür Məmmədqulunu yaşının yavaş-yavaş yaşlandığı bir vaxtda, indiyənə qədər tək-tənha gəzib dolaşdığı bir vaxtda, işdən başqa heç nə və heç kimsə ilə başını qata bilmədiyi bir vaxtda – bir qoca quldu, bir də özüdü daha kim var ki, yanında? – başlı-başına buraxıbdır, günlərlə olur ki, halını da xəbər almağı unudur, gəlib baş çəkmək bir qırağa dursun, axı ona atalıq olmayıbdı, əslində, ata əvəzi olubdu Məmmədqulu ona körpəlikdən elə bir sidq-ürəklə bağlanıbdır ki, bir başqası doğma oğluna

hətta belə bağlanmır, bütün bunların əvəzində heç yaxşı iş görmür Şahverən oğulluq borcunu layiqincə yerinə yetirmir.

Şahverdilər nəslindən olan Şahverən cəmi iki yaşı olanda atasını Şahın əmri ilə cəllad Məmmədqulu o dünyalıq eləmişdi, qohum-əqrəbası, yeddi arxa o yana kimi vardı, kimi yoxdu hamısı birbəbir cəllad Məmmədqulunun əlinin zərbini dadmışdı bircə bu körpə yaşındakı oğlan uşağından başqa Şahverdilər nəsli ilim-ilim itmişdi yer üzündən. Şaha xainlik eləmişdilər, köç sürüb məmləkətin sərhəd çayını keçib qonşu düşmən məmləkətə üz tutub orada məskun olmaq istəmişdilər. Nədən qaçırdılar, nəyə tuş gələcəkdilər, kimi bilirdi, kimi də bilmirdi ki, bu Şahın əlindən baş götürüb qaçmağın yalnız bir istiqaməti ola bilərdi – sən yalnız cəhənnəmə çıxıb gedə bilərdin, istiqamətin tuşu ancaq o biri dünya idi. Xainlər cəzalarına çatmışdılar, isti qanları hələ buğlana-buğlana cəlladxanadakı ensiz arx tərəfə özünə yol eləyib onun bulanıq suyuna qarışıb qurtarmamışdı, ancaq bu körpə oğlan uşağını hələ də qəzəbli Şahın barmağının işarəsi ilə lazımsız ağac budağı kimi bir kənara atıb sağ buraxmışdılar.

Şah ağarmış üzünü Məmmədquluya tutub "bəsdi bu qədər qan axdı, götür onu, verdim sənə, özün də təksən, o da daha təkdi. Özün kimi səltənətə sədaqətli böyüt", dedi. Bundan sonra Məmmədqulu o körpəni evinə apardı, qonşudan bir dayə soraqlaşıb tapdı, dayə gəldi, o dayə bu uşağın qulluğunda səhər-axşam durdu. Bu minvalla ay keçdi, il dolandı Məmmədqulu oğulluğunu ərsəyə çatdırdı, böyütdü. Bu minvalla böyüdükdən sonra qəlbində təkcə bir məhəbbət var idi Şahverənin – Şaha və Məmmədquluya hədsiz sevgi və sonsuz sədaqət. Adını Şahverən qoymuşdu və aylar ötdükcə bu binəva körpəyə Məmmədqulunun özü elə isnişmişdi ki, elə bilmişdi Şahverən daha oğulluğu yox, eləcənə öz doğma balasıdı.

***

İndi ikisi alçaq dəyirmi mizin arxasında yerdən bardaş qurub oturmuşdular. Məmmədqulu bir xeyli ordan-burdan söhbət salıb, nəhayət ki, mətləbin üstünə gəldi, Şahverəndən soruşdu:

– Şahverən, oğul, səfərdən əsgər nə danışır, nə danışmır, qoşun içində meyli heç olmayan səfərə vardımı?

Şahverən üzünü qaldırıb Məmmədquluya hələ bir qədər də təəccüblə baxdı, belə cavab verdi:

– Ağa, səfər elə səfərdi, həmişəki səfərdən biridi, təzə bir şey yoxdu ki. Hamı bu işi nə vaxtdı arzulayıb durmuşdular. Hələ eləsi var, mənim təkin biriminci səfəridi deyin bərk sevinir. Yox, hamı, əlbəttə ki, razıdır. Allah Şahımızın ömrünü uzatsın…

– Amin, amin. Allah ağzından eşitsin.

Məmmədqulu noxuddan ovuclayıb yanmışını bişmişinə, bişmişini yanmışına qatıb-qarışdırıb xırç-xırç yeyən Şahverəni altdan-altdan süzüb məmnun baxışından, məmnun oturuşundan anlamışdı ki, bu səfər sevincinin ona xüsusi aidiyyəti vardır. "İlk cəng səfərinə çıxacaq, necə də cavandı, qanı qaynayır, yeni-yeni yerlər, yeni-yeni adamlar görəcək, ayağına, Allaha təvəkkül, yıxılanlar, yalvaranları olacaq. Kim bilir bəxtinə nə yazılıb, bəlkə elə səadəti tamam başqa yerdədi, o da səadətini tapacaq, mənim özümü də tərk edib öz səadətinə qovuşmaq üçün nə zamansa buralardan çıxıb gedəcək…"

Məmmədqulu bu düşüncələrlə gözünü elə hey bığ yeri təzəcə tərləmiş çılğın, amma ata önündə xeyli mərifət və ədəblə əyləşmiş bu novcavandan çəkə bilmir, döndərib-döndərib baxışlarını yenə gətirirdi onun doğma üzünə, gözünə. "Bığlar şəvə olacaq, gözlər qap-qaradır, kürən saçları payız çəmənliyidi, elə bil. O bir olan Allah bilir ki, sənə nə qədər məhəbbətim var qəlbimdə, səndən başqa məhəbbətim… bir də elə sənədi, bircə dənəm, həyatım mənim, bircəm, ömrüm-günüm, canım-ciyərim…"

Noxuddan yeyə-yeyə Şahverən də atalığının ona necə diqqət yetirdiyini əlüstü hiss elədi, amma bunu büruzə vermədi ki, ağası birdən qəlbinin duyğularının faş olmağından, aşkarlanmağından rəncidə olar. Məmmədqulu bir sirriçində adam idi və bu cür sirriçindəliyi hamı ətrafdakıları onunla ehtiyatlı davranmağa sövq edirdisə də addım-addım, söz-söz, baxış-baxış, sığal-sığal böyütdüyü və indi də onbaşı olub fəxrlə gümüşü qəbzəli qəməsini kəmərinin içindən keçirən oğulluğu Şahverən yaxşı bilirdi bu sirriçindəliyin arxasında nə var, nə yoxdur. Bunu bildiyindən idi ki, belə düşünürdü, düşünə-düşünə də Məmmədqulunun ona bu tövr gizlin-gizlin baxmasına mane olmamağa

səy edirdi. "Ağa, ağa… ağam mənim, böyüyüm mənim, kimim var ki bu dünyada səndən özgə, olsa da heç kimsə mənə min il qala lazım deyil, mənə mal da, dövlət də, bircə sənin haqq-sayını qaytara biləydim, borcunu verə biləydim bu dünyada, bundan ki böyük arzum ola bilməz, ölməyəydim sən qocalan zamanda qulluğunda duraydım, bütün əziyyətini çəkəydim, qaytaraydım sənə borcumu, atam mənim, ata əvəzi böyüyüm, bir tək əzizim mənim…" Şahverən belə düşünürdü.

Kənardan baxan olsaydı, bir kimsə bu iki şəxsin beləcə üzbəüz oturub dinməz-söyləməz, birinin oğrun-oğrun, altdan-altdan hərdən o birinə göz qoymasını, bu birinin də bundan duyuq düşüb özünü o yerə qoymamasından bir məsələ anlaya bilməzdi, onların səssiz söhbətlərinin batin mənasını duya bilməzdi, ancaq özləri, ancaq Məmmədqulu və Şahverən bu boyda dünyada ancaq bu iki adam bir-birinə ürək qızdırıb bu cür ürək aça bilərdilər necə ki gözəgörünməz bir şəkildə ürək açırdılar və necə ki bir-birini gözəl anlayırdılar. İnsan insanı bu boyda sevə bilməzdi ki, bu ikisi bir-birinə bu cürənə eşq-məhəbbət bağlamışdılar. Səfərə qədərki son görüşləri zamanı bu iki nəfər arasında bir-birinə münasibət məhz bu cür idi və özgə heç cür deyildi.

Karvanbaşı donub oturduğu yerdəcə hər şeyi unutmuş, peşiman-peşiman dərin fikrə getmişdi. Gözlədiyi, əlbəttə ki, bu deyildi. Atasının ruhunu o bu qədər amansız təsəvvürünə gətirməzdi. Xacə İbrahim ağa da nəfəsini qısıb səssiz-səmirsiz qalmışdı. Ondan olsaydı bu məsələyə elə burdaca xətm vermək lazım idi. Bəsdir! Eşitdin, daha bəsdir! Bundan artıq heç bir şey alına bilməz! Bu məsələni birdəfəlik bağlamaq gərəkdir. Səyyah sehrbaz Ağ dərviş deyil, bunun çağırıb gətirdiyi ruhun qabiliyyəti elə belə olar. Gərək o cavan sehrbazın özünə müştəri düşəydi, nə biləydi ki, qarşısındakı məşhur Ağ dərvişin özüdür. Yəqin, Karvanbaşının da artıq illərdi ona rahatlıq verməyən, könlünü deşən arzusu beləcə özü-özünü yeyib tamamlanır. Bircə tez olsun bitsin bu iş. Bunlarda daha ürək-göbək qaldımı, qalmadı.

Səyyah sehrbaz otağın o başında büzüşüb az qala görükməz olmuşdu. Şamın titrəşən şöləsi özü-özündən hələ də tüstü verməyində, bu tüstü də otağın hər bir tərəfinə duman kimi yayılmağında idi. Səyyah sehrbaz necə ki, başını sinəsinə endirib əllərini dizlərinin üstünə qoyub səliqəylə bardaş qurub oturmuş idi, eləcə də oturmuşdu, daha yırğalanıb eləmirdi. Otaqda baş verənlərin heç birindən, o cümlədən, bu qısa və gözlənilməz mükalimədən onun xəbəri yox idi. Səyyah sehrbaz xəlvət eləyib təkcənəlik vaxtının içinə girmiş idi. İndi onu o vaxtın içindən dartıb çıxarmaq, vücudunu otağa qaytarmaq mümkün deyildi.

Karvanbaşı nə fikirləşdi, nə fikirləşmədi, istədi Ruhla öz arasındakı anlaşmanın yolunu bir qədər rahat eləsin, son dəfə Ruhun könlünü alsın:

– Xudavəndi-aləmə qurban olum, – Karvanbaşı üzünü boşluğa tutub dedi, – axı sən nə üçün bu qədərinə acıqlısan? Nə günah eləmişəm mən ki, sənin bu boyda qəzəbinə düçar olmuşam?

Ruh, elə bil, ancaq bu sualı gözləyirdi, onun ağzını əyə-əyə cavabını anında verdi:

– "Nə günah işləmişəm? Nə günah işləmişəm…" İşləmisən günah. Məni niyə rahat buraxmırsan? Kimsən axı sən, nə istəyirsən məndən, niyə çağırmısan məni? Allahverdidi bu. Paho! Nolsun? Heç dəxli var? "Nə günah işləmişəm?" – Bir qədər gözləyib sonra qəribə bir kəlmə də Ruh bu dediklərinə əlavə elədi. – Gicinəqulu…

Bu anlaşılmaz sözü eşitcək Karvanbaşı diksindi nə diksindi, gözlərinə bir an içində işıq gəlmədimi? Qəlbi atlandı. Xacə İbrahim ağaya sevincək dönüb şax bir nəzər saldı. Ağzını açdı və sözlər ağzından bir-birini itələyə-itələyə səbirsiz çıxmağa başladılar:

– Ayağının altında ölüm. Odu, ağamdı, əlbəttə, odu. Qurban olum sənin ayağının altındakı toza, ağa. Mənəm. Gicinəquluyam. – Xacə İbrahim ağaya sarı bir daha çöndü. – Uşaqlıqdan yadımda qalıb, məni belə çağırarmış, nənəm də hərdən-birdən bunun ağzı ilə məni bu cür çağırardı.

Karvanbaşı daha qəti inandı ki, otaqdakı ruh atası cəllad Məmmədqulunun ruhudu ki var və bu ruh onu, heç şübhəsiz ki, tanıyıbdır. "Gicinəqulu!" Daha bundan artıq işarət olmayacaqdı ki.

Karvanbaşı bir daha özünü toparlayıb səbrinin ağzını basmağa çalışdı:

– Niyə sən bu cürə qəzəbli danışırsan bəs? Məni, əgər sən bilsəydin, səninlə ağabəyimin həsrəti bu günə saldı, bircə bunu bilsəydin… Ağa, sizin həsrətiniz, sizin nakam bəxtiniz məni Allahın hər gecəsi ta bu günün özünəcən üzür, zülm edir mənə… bir bilsəydin…

Qəfil hıçqırıq Karvanbaşının sözünü kəsdi. Qəhər gəlib boğazının içinə elə dolmuşdu ki, daha bir kəlmə danışa bilmədi. Bir müddət susdu. Bu sükutu Ruh da pozmadı. Sonra Karvanbaşı daha özünü ələ alıb boğazını arıtladı və danışığına artıq rahat-rahat davam elədi, bu səfər pıçıltıya keçdi, səsinə də gümrahlıq verməyə çalışdı:

– Qoy sevindirim səni, ağa. Bilirsən, var-dövlət sahibiyəm. Böyük-böyük karvanlarım var. Dünyanın çox ölkəsinə getdim, əntiq mal gətirdim məmləkətə. Bilirsən, – bu dəfə Karvanbaşının səsi zəiflədi, pıçıltıdan da yavaş oldu, müdhiş bir soyuqluq da gəlib girdi bu səsin içinə, – Şaha çox yaxınam.

Məni çox istir. Xeyli adam qorxar məndən. Bir çox məsləhətini mənnən edir. Bunun özü də biləsən sənin vaxtındakı Şah deyil, oğludu. Amma nolsun?! Buna da onun günahından çatır. Sənin vaxtındakı şah bunun atası yara çıxardı, qarayara, o yaradan da on il əvvəl getdi. Hayıf, canını yenə necə olsa rahat qurtardı. Mən bir başqa cür qurğu qurmuş idim…

Nə düşündüsə Karvanbaşı daha bu mövzunu bu yerdə uzatmaq istəmədi, yenə ora-bura boylandı, pıçıltıdan yenə adi danışığına keçdi:

– Amma gecələr sən və ağabəyim daim yuxuma girirsiniz, doğru sözümdü, inan mənə. Tutursuz boğazımdan, boğursuz ikiniz də məni. Üzünüzü də düz-əməlli görməmişəm ki, mən, amma yuxularımdan çıxmırsız, birindən o birinə, birindən o birinə… Bilirsən nə deyirsiz mənə? Bilmirsən? "İntiqam, intiqam!" deyirsiz, ağa, gah pıçıldayırsız, gah qışqırırsız, eynən indiki kimi. Məndən nə istəyirsiz? – Karvanbaşı zarıdı.

Karvanbaşının əli-ayağı sustaldı. Qəlbini əzib keçən iki mismardan birini qəlbinin dərin yerindən zorla çəkib çıxartmışdı, indi o yerdən isti qan axdı.

Ruhun bu dəfə bir azcana qəm qarışıq səsi şamdanın yanından gəldi. Bunu şamın qorxacaq titrəyişi də büruzə verib ağartdı. Ruh dedi:

– Buna baxırsan?! Mənə nə, ay əbləh, sənin yuxuna kim girir, yuxundan kim çıxır. Bizim ki heç bir kəsin uyqusu ilə işimiz yoxdur. Yata bilmirmiş… Mən sənə intiqam demişəm? Deməmişəm!! Adam kimi yata bilmirsən, yatma. Gicinəqulu…

Ruhun səsi ilk dəfə titrədi. Amma ki, ani sükutdan sonra yenə qətiyyətlə davam etdi:

–… Mən özüm də yata bilmirdim. Amma, bax, mənim yuxusuzluğumun səbəbi var idi. Bilirsən, mən niyə yata bilmirdim? Bilmirsən, hardan biləsən ki?! Gicinəqulu… Mənim biriminci əl qaldırıb o dünyalıq etdiyim qurbanım bilirsən kim idi? Bilirsən, mənim əlimin içində son nəfəsiməcən yuyulub getməyən qan kimin idi? Bilmirsən? Özün çağırmısan, o zaman özün də qulaq as. Qorxma amma. Bir arvad idi. İtələyib quyuya yıxmışdım onu. Səssiz-səmirsiz öldü.

Karvanbaşını söz elə tutmuşdu ki, zor-güc ancaq soruşa bildi:

– Kim idi?

Ruh, elə bil, sualı eşitmədi:

– Elə... O arvaddan sonrası daha asan oldu. Artıq asan idi. Hələ ləzzət də alırdım adamı adam dalınca Şahın əmri ilə o dünyaya yola salanda. Hamısı, əlbəttə, cəhənnəmə vasil olurdular. Xoşuna gəldi? Ay səni, Gicinəqulu... – Ruhun səsi yavaş-yavaş doğmalaşırdı, səs məkana uyğunlaşırdı yavaş-yavaş. – Dedi-qodular gəlib hələ qulağına çatmayıb? Nədi? Vəzir Məşdəli durur?

Son sualını verib Ruh susdu. Amma Karvanbaşı anladı ki, bu susmaq o susmaqdan deyil, bu dəfə Ruh ondan cavab gözləyir. Karvanbaşı yalvarışlı bir səslə dedi:

– Ağa, ağa, nolar elə danışma, qurbanın olum elə danışma, nolar?! Mən ölərəm. Nədi mənim taxsırım, ağa, bir söylə mənə ki görüm, mənim taxsırım axı nədi sənin gözündə? Durur Vəzir Məşdəli, durur. Elə ki o durur. Quru nəfəsidi gedir, gəlir. Güclə yeriyir, dörd tərəfindən tutmasalar yıxılar. Onu niyə soruşdun, ağa? Dediyin o arvad kim idi?

Karvanbaşı bu suala eşidəcəyi cavabın dəhşətini əvvəlcədən hiss etdi, hətta gözlərini bərk-bərk yumdu. Eşitdiklərindən isə, həqiqətən, əsl dəhşətin qoxusu gəldi:

– Vəzir Məşdəli mənim atamın gənclik dostu olmuşdu, özü də mənə hamilik edirdi. O oldu anamın qətlini ört-basdır elədi, mən üzə çıxdım. Mən isə qaçaq düşmüşdüm. Hə, o arvad ki soruşdun kim idi – mənim doğmaca anam idi. Vəzir Məşdəli olmasa idi, dağda-daşda qurd-quş yeyib hələ o zaman məni bitirəcəkdi. Nə baxırsan maddım-maddım? Ovcunun içində gözlərin maddım-maddımdı. Sən lap körpəliyindəki kimisən. Gülməli... İstəyirsən son dəfəkini də deyim? Son dəfə kimi o dünyalıq elədim – danışım? Bilmərsən, yəqin... Uca bir qayadan...

– Yox, dayan. Dayan bir ləhzə, rəhmin olsun. Dayan. Dur. Tələsmə. – Karvanbaşı inildədi.

Elə oldu ki, Ruh, elə bil, köksünü ötürdü. Ya bəlkə nəfəsini dərirdi?! Karvanbaşının soyuq tər kürəyinə gəlmədimi, gəldi. Xacə İbrahim ağa da bu tərəfdə təlaşda idi. Həmi istirdi çıxıb qaçıb buralardan uzaqlaşa, həmi də əlbəttə ki, bacarmırdı – Karvanbaşını bu otaqda təkcə ölsəydi də qoymazdı.

Bayır-baca daha başdan-başa göy üzündə orda-burda dəcəl ulduzlar kimi şamları yanmaqda olan qaranlığın içindəydi. Bu qaranlıq nə qədər güc edirdi Karvanbaşının evinin ikinci mərtəbəsindəki enli, amma qapalı pəncərədən, nəhayət, özünü içəri soxsun, olmurdu. Şamın zəif işığı məğlub ordunun son fədakar əsgəri kimi buraların bakirəliyini qorumaqla məşğul idi. Otaq elə bil ki, bir balaca böyümüşdü, tüstü-duman da yavaş-yavaş küncdə-bucaqda dəlmə-deşik tapıb canını bu anlaşılmaz məkandan götürüb aradan çıxırdı. Ünsiyyət Karvanbaşı ilə Ruh arasında təzə-təzə başlamışdı özünü tutmağa. Karvanbaşı amma hələ də düşünüb-daşına bilmirdi ki, bu Ruha ürək qızdırıb sirr vermək olar, yoxsa olmaz. Başını iki əli ilə tutdu. İndicə eşitdiyi amansız sözlər beynində hamısı qarışdı bir-birinə. Sözlər də cümlədə karvanda dəvə kimidirlər, bir-birinin arxasınca səf-səf gedə də bilirdilər, bir də görürdün qabağa keçmək üçün tələş edəni də olurdu, bu zaman səf qırılırdı, dəvədən hansısa qabağa düşürdü, hansısa dala qalırdı, bir-birinə dəyir, bir-birinə boğaz atır, yanlarını bərkdən-bərkdən hirslə bir-birinə vururdular. Həqiqətən, sözlər cümlədə eynən dəvələr karvandakı kimiydilər. İndi o nə eləməliydi?

İbrahim ağa arxadan Karvanbaşının ətəyini çəkdi, pıçıldadı:

– Ağrın alım, vallah, bu bir dəli Ruhdu. Billah, bu ruh xəstə ruhdu. Nə deyirsən, gözümün işığı, gəl qovaq bunu. Xeyri də lazım deyil, şəri də. Ağzına gələni deyib durub…

Karvanbaşı ətəyini Xacə İbrahim ağanın əlindən sərt dartıb çıxardı, çönüb qaranlıqda buna bir göz ağartması verdi ki, Xacə İbrahim ağa ilə özü arasındakı bu qaranlıq bir anlığına, əlbəttə, ancaq bir anlığına bu alovlu gözlərin işığına qərq oldu. Sonra Karvanbaşı yenə başını çöndərdi, gözünün alovu söndü, otağın hər yerində yenə ancaq şamın işığına çəpər kimi sərhəd olan qaranlıq bərqərar oldu. Karvanbaşı gözü ilə Ruhun səsi son dəfə gələn yeri aradı, şamdanın yanını, gözlədi görsün Ruh daha nə deyəcəkdir.

– Əvvəl-axır bilməliydin ki bunu. – Ruh sakitcə sözünə davam elədi. – Məndən də olmasa idi, kim isə sənə bunu deyəcəkdi. Mən, mən, heç kim başqası yox, mən göndərdim onu o dünyaya, dağın başından üzü aşağı. Uçmaq istədi, qanad ki yox idi, hara uçurdu, uça bilmədi, daş kimi düşdü dərənin dibinə, tərpəşdi bir az, sonra daha tərpəşmədi.

Karvanbaşı bu dəfə asta səslə, elə bil, özü-özünə sakit bir yalvarışla pıçıldadı:

– Yox…

Ruh acı-acı onu eşitmədi:

– Bu mənim son qətlim oldu. Əvvəliminci mənim anam idi, sonuncu da ki sənin anan. Sən də deyirsən, bəs, ağlamaqdan kor olmuşam, hər gecə yuxuma girirsən. Bəs anan girmir yuxuna?! Ay səni, Gicinəqulu…

Karvanbaşı bir daha yavaş səslə, yenə də, elə bil, özü-özü üçün danışdı:

– Ağa, mən ölərəm axı. Elə danışma, ağa. Mənə bir rəhmin gəlsin… – Çöndərib üzünü sonra yenə Xacə İbrahim ağa tərəfə tutdu, – nə danışır bu, sən bir şey anlırsan?! Bəlkə heç bu mənim ağam deyil?! Allah, Allah, kimdi bu?

Xacə İbrahim ağa daha dözmədi, heç nəyi gözə almadan qalxdı oturduğu yerdən, ürəyinin səksəkəsini əli ilə üstdən sıxa-sıxa gəldi divar dibi ilə Səyyah sehrbazın yanına. Səyyah sehrbaz halını da dəyişmədi, bircə yumulu gözlərini azcana açdı, buna təəccüblə baxdı, yəni, "nədi, nə istirsən?" demək istədi. Xacə İbrahim ağa onun qarşısında diz çöküb yalvarışlı bir səslə yavaşdan soruşdu:

– Allahı sevərsən, söylə kimdi bu? Kimin ruhudu?

Səyyah sehrbazın yarıyumulu gözünə zəif bir təəccüb işığı doldu:

– Sənin ağan Karvanbaşının atasının ruhudu, kimin ruhu ola bilər ki?! Heç şəkkin olmasın. Cəllad Məmmədqulunun ruhudu.

– Əminsən?

– Əlbəttə ki, əminəm. Nədi ki?

Xacə İbrahim ağa bir daha diqqətlə baxdı Səyyah sehrbazın üzünə, yenə də yavaş-yavaş yumulan gözünə, elə bil, yoxlamaq istədi, düz danışır bu adam ya yox, sonra heç bir cavab vermədən necə ki gəlmişdi onun yanına, eləcə də divar dibi qayıtdı yenə öz yerində bardaş qurub oturdu. Karvanbaşının çiyninə tərəf əyilib bu sözləri pıçıldadı:

– Odu, gözümün işığı. Ağandı. Möhkəm ol. Döz. Çarəmiz nədi?!

Ruh bu dəfə səsinə bir balaca nəvaziş qatdı:

– Necə də böyümüsən… Bir tikə idin sən, əl boyda. Qoca qarı nənən sənin ninnin üstündə oxuyardı: yat, yat, yat… yatmasan, şirin yuxuya batma-

san, qışqırmağını atmasan, damdabaca gəlib səni aparacaq, səni… ay səni, Gicinəqulu… – Artıq halsız oldu Ruhun səsi. – Ağanam mən, kiməm ki?! Ağanam. Sənin bədbəxt ağanam mən.

Karvanbaşı Ruhun son sözlərindən az qala huşunu itirəcəkdi, uşaqlığın bir çox vaqeələri yarıdumanlı, aydın sezilməyən bir halda gözlərinin önünə gəldi, qulağına uzaq, tanış səslər doldu: "… damdabaca… gəlib… səni… aparacaq…"

– Sonra, böyüyəndən sonra dünyasında heç nədən damdabaca qədər qorxmadım. – Karvanbaşı qəm dəryasına batdı. – Damdabaca… Qarı nənəm ölənəcən nə qədər soruşdumsa demədi ki, demədi bu damdabaca nədi, hardadı, hardan gələcək… Elə "intiqam" inildədi, elə "intiqam" dedi. Eşidirsən, ağa? Bəlkə sən mənimlə zarafat edirsən?! De ki yalandan dedin bu dediklərini, de, inannam.

Ruh acı-acı cavab verdi:

– Bizlər ki, yalan danışa bilmirik, istəsəm deyəm, yenə bacarmanam.

Sonra Ruhun səsi yenə coşdu:

– Di, yaxşı. Başqa sözün yoxdusa mən daha çıxıb gedirəm. Ay səni, Gicinəqulu… Yoxdu ki bir sözün?

Karvanbaşı bu dəfə az qala Ruha yalvarmağa başladı:

– Dayan, dur hələ. Sən Allahın, tələsmə getməyə. Söylə, söylə mənə, heç ağabəyimi görmüsən orada? Günahsız cavan qanına qəltan ağabəyimi?..

Ruh acıqlandı:

– Bilmirəm sən nə danışırsan. Tanımıram mən onu, başa düşürsən, tanımıram. Orada mən burda olub-keçəni unuduram. Bizim yaddaşımız bura qayıdanda oyanır. Onu da unutmuşam. Belə yaxşıdı. Elə bilirəm, hamı oğlumdu. Atamı da tanımıram. Elə bilirəm hamı atamdı. O da məni tanımır. Gedim mən. Əbəsdi. Əbəs. Əbəs söhbətlərə heç marağım olmadı. Daha bir də məni məbadə rahatsız edəsən. Çağırmayasan məni bir də buralara, eşitdin?!

Ruhun yenə nəfəsi kəsildi, sözləri aydın deməməyə başladı, sözlər qışqıra-qışqıra qarışdı bir-birinə, səsi titrədi, bu gurultuda bir şey anlamaq olmadı, amma az keçdi, yenə də bu səs əvvəlki sərt biçiminə girdi, söz sözün dalınca intizamla düzləndi, bu cürənə də Ruh davam etdi:

– ...Nə üçün ağabəyini qanına qəltan etdilər – bilirsən sən? Bilmirsən axı. Sənə görə bunu belə etdilər. Sənə görə. Sən dünyaya gəlmişdin. Mən də bundan sonra daha o evə, o ocağa, o şəhərə pərçim oldum, qalmaq istədim sənin ananla, əslində, günah etdim, Şahın əmrini pozdum. Qoşunla geri dönməli idim, dönmədim, qalası oldum. Mənim günahım bu idi. Sənin acığını çıxdılar bizdən. Elə anan da bu günahın qurbanı oldu biləsən.

Karvanbaşı təəccüblə sual etdi:

– Mənim acığımı deyirsən, mən tiflin acığını çıxdılar sizdən?!

Ruh dərhal qətiyyətlə təsdiq elədi:

– Bəli, sənin acığını! Sənin dünyaya gəlməyinin qisasını aldılar məndən də, ondan da. Mən qoşunla gəlmişdim ananın şəhərinə, qoşunla bir yerdə də qayıtmalıydım, amma... qayıtmadım. İstəmişdim ananı, bilirsən?! Şahın əmrindən çıxmışdım. Bu günahdır! Şahın fərmanını isə şəhərin hər yerində qoşun əhlinə oxumuşdular. Fərman belə idi: "Kim mənimlə, mənim ləşkərimlə yola çıxıb buralara qədər gəlibsə, o adam mənimlə də bir yerdə paytaxta geri dönəcəkdir, cürəti olan dönməsin. Kim məğlub olmuş məmləkətdə qalıb məskun olmaq niyyətinə düşərsə, bütün nəsli zay çıxacaq, çünki buranın havası da, suyu da, torpağı da, daşı da, arpası-çörəyi də, qərəz bu məğlubiyyəti görən hər nəyi varsa hamısı artıq axtalandı..." Fərman belə idi. Şahverəni isə başı vücudundan ayrı, çuvalda bir gecənin yarısı atdılar evimin qabağına...

Gecə çox qaranlıq bir gecə idi. Göydə ulduz-zad da yox idi, harasa elə qeyb olmuşdular ki, adama onların dünən, yaxud o biri gün göy üzündəki təşəxxüslü duruşları yarıunudulmuş, uzaq bir gecənin yuxusu kimi gəlirdi. Ulduzların qəlbi aşağıda durub onlara baxanlardan birdəfəlik sınmışdı. Ağüzlü ayın qabağını yenə də gəlib bir parça qara bulud acıqla kəsmişdi və gözəl Pərnisəgilin balaca həyətinə ağır bir kölgə enmişdi. Məmmədqulu öz yatağında bir əli yanında mışıl-mışıl yatmağında olan gözəl Pərnisənin dağınıq saçında, o biri əli… birdən qulağına at nalının dəmir daşı çəkic kimi döyəcləyən səsi gəldi. Səs gəlib-gəlib həyət qapısının ağzına özünü yetirəndə lapdan kəsdi, hər yerə bir anlıq ölü bir sükut çökdü. Yatağındaca dirsəklənib Məmmədqulu dikəldi, ürəyinə nəsə dammadımı, damdı, az qaldı təkcə qulaqları ilə deyil, gözlərilə də həmən kəsilən səsi axtarmağa çalışdı, bir şey çıxmadı və bu zaman başladı Məmmədqulunun duyuq düşmüş ürəyi şiddətlə vurdu. Vurdu, vurdu, sonra yenə bayırdan bu dəfə adam səsi eşidildi, kim idisə yavaş, ancaq ikinci qatda onun eşidəcəyi qədərində nərdivanın üstü ilə səsini qaldırıb açıq pəncərədən içəri salıb bu sözləri pıçıltı ilə dedi: "Xain Məmmədqulu, xain Məmmədqulu, al bu da sənin xainliyinin cavabı. Budu sənin cavabın. Al, götür…" Sonra bu adamlar aşağıda qapı ağzında bu sözləri danışa-danışa, nəydisə guppultuyla yerə dəydi, sonra atlar yerlərindəcə nallarını taqqıldada-taqqıldada geri döndülər gəldikləri tərəfə çapdılar, at nalları yenə də ahənglə küçəni dəcəl-dəcəl döyəclədi, sonra bu səslər uzaqlaşdı, uzaqlaşdı, daha sonra ətrafa sükut çökdü, heç nə eşidilmədi.

Məmmədqulu hələ də necə ki dirsəklənmişdi yatağında döşəyin üstündə eləcə də donub qalmışdı, tük qədər tərpənməyə cürət etmirdi, həqiqətən, vücudunu don vurmuşdu və o yerindəcə heykələ çevrilmişdi. Nəfəs belə almağa heyi yetmirdi, birdən, düşünürdü, nəfəs alaram, Pərnisə yerində tərpə-

nər, dəbərər, amma tərpənmək, cınqır çıxarmaq olmazdı, heç olmazdı. Məqamın sirri vardı – donuqluğundaydı. Bir xeyli vaxt belə keçdi. Artıq sükut əməlli-başlı zil bir zingiltiyə dönüb qulaq deşməyə başlayanda gözəl Pərnisəni, elə bil, kimsə dümsükləyib yuxudan oyatdı ki, nə yatmısan, aç gözlərini, oyan, bax bir gör yanındakı niyə belə dikəlib heykələ dönüb, bədəni, üzü, gözü niyə belə birdən-birə büzüşüb, qocalıb?! Bu məqamda Məmmədqulu gözəl Pərnisəyə göz yetirdi, onun şaşqın halətindən sanki cürətə gəldi, yavaş-yavaş yataqdan qalxıb durdu, aram-aram geyinməyə başladı. Gözəl Pərnisə qorxudan büzüşüb:

– Nə olub, hara belə?! – pıçıldadı.

Məmmədqulu ona bir cavab vermədi, ancaq çox qəribə tərzdə bir daha ona baxdı. Məlul-məlul pilləkənlərlə aşağı qapıya tərəf düşəndə dodağına uzaq keçmişdən bir təbəssüm gəlib göyərçin kimi qondu. Elə bu an da məqamın sirri uçub getdi. Nə baş verdiyini Məmmədqulu o andaca başa düşdü. Küçədə gumbultu ilə yerə dəyən çuvalın içində nə olduğunu, əlbəttə ki, anladı. Dodağında həmən göyərçin təbəssüm dəmir darvazanı arxadan açıb aralayıb adamsız, səssiz küçəyə çıxanda gördü qapının ağzına atılan bir böyük qara torbadı. Bu torbanı Məmmədqulu birtəhər sürüyə-sürüyə həyət qapısından içəri salanda bu torba sürüşdüyü yerdən arxasınca qalın zolaq kimi qara iz salmağa başladı. Bu qara izdən Məmmədqulunun burnu ona heç yad olmayan tanış bir qoxu aldı. O bu qoxunu yaxşı tanıyırdı, amma yenə də dodağı öz-özünə qaçdı, ömründə ilk dəfə dizlərində heysiz bir zəiflik duydu, zəlzələdən uca-uca qüllələr titrəyən kimi ayaqları titrədi, artıq həyətin içində diz üstə bu torbanın yanında yerə çökdü, əlləri ilə üzünü qamarladı, ürəyindən dilinə ancaq bu sözlər qara bir ah kimi gəlib çıxa bildi: “Şahverən, vay…”

***

…Məmmədqulu Şahverənin nəşini köməkçisi qoca qulla bir yerdə apardılar şəhərdən kənar yerdə yaşıl bir dərənin dibində körpə bulaq vardı, dünyadan xəbərsiz dəcəl-dəcəl axırdı, uca, dik qayalıqların ayağında idi bu yer, orda torpağı qazıb basdırdılar. Məmmədqulu qəbri qazandan, cəsədi qəbrə

qoyandan, üstünü torpaqla quyulayandan sonra elə bildi özünü basdırdı, özü girdi qəbrə, özünü quyuladı. Sonra elə bildi, bir başqa Məmmədqulu əli ilə üzə-üzə çıxdı bu Məmmədqulunun vücudunun içindən, getdi əli ilə havadan tuta-tuta girdi bu qəbrin o da içinə. Dünyagörmüş bir adam idi bu qoca qul özü də bir kənarda oturub dinməz-söyləməz haralarasa uzaqlara gözünü dikib qalmışdı, gözünü qaçırırdı ondan, baxa bilmirdi Məmmədqulunun üzünə. Birdən qəfil bir nəzər yetirib gördü ki, bu təzə qəbrin yanında çöməlib oturmuş Məmmədqulunun bir dodağı qaçıb, üzündə isə göyərçinə oxşayan xəfif bir təbəssüm var, kişi az qalır gülsün. Qoca qul bərkdən bir "əstəğfurulla, Allahü-əkbər" dedi, boğazını arıtladı, heç nədən, yalandan öskürməyə başladı, bir öskürdü, iki öskürdü, amma o təbəssüm ki göyərçinə çevrilib qonmuşdu Məmmədqulunun dodaqlarına, eləcənə də orada qaldı, daha heç yerə uçub getmədi.

Ortalığa müdhiş bir sükut çökmüşdü.

Ruh özü bu sükutu pozdu:

– Bir də Şahverəni soruşma məndən. Eşidirsən, bir də soruşma. Sən səni bilirsən, sənin məndən ki xəbərin olmaz.

Xacə İbrahim ağa yenə də arxadan Karvanbaşını yavaşdan dümsüklədi:

– Sənə qurban olum, qurtar bu söhbəti, vallah sənin özündən xəbərin yoxdur, rəngi-rufun qaçıb, gözümün işığı… Nə işinə qalıb sənin bu dəli Ruhun cəfəng-cəfəng sözləri?!

Karvanbaşı geri qanrılıb Xacə İbrahim ağaya yenə nə təhər baxdısa, Xacə İbrahim ağa səsini xırp kəsdi. Sonra Karvanbaşı ona belə dedi:

– Yox, sən bilmirsən, elə deyil. Sən belə elə. Çıx eşiyə. Mənim bundan təklikdə soracağım var.

Xacə İbrahim ağa qorxa-qorxa:

– Gözümün işığı…

Karvanbaşı bu dəfə də onun sözünü hirslə və səbrsiz yarıda qoydu:

– Dedim, qurtardı! – Sonra nə düşündüsə, hirsini bir balaca basdı. – Nolar, çıx eşiyə, qoy təklikdə bir ləhzə qalım onunla. Ürəyimdə sözüm var.

Xacə İbrahim ağa küskün bir halda razılaşdı:

– Yaxşı, mən nə deyirəm ki?! Çıx deyirsən, çıxaram. Amma yaxındayam, gözümün işığı, uzağa getmənəm. Bir şey olsa… səslə məni.

Daha uzatmayıb Xacə İbrahim ağa dizin-dizin sürünüb otaqdan çıxdı.

Karvanbaşı əvvəl-əvvəl aramla otağa göz gəzdirməyə başladı. Düşündü: "bir halda ki, səsini eşitmişdi, bəlkə hələ Ruhun özünü də görmək mümkündür?! Hardadı bu? Əsər-əlamət yoxdur ki bundan?!"

Ruh bu dəfə də sual gözləmədi, özü danışmağa başladı:

– Nə soruşmaq istirdin, soruşdun daha. Mən də səndən hali oldum – dövlətin, malın, mülkün, Şahacan sözün keçir. Daha nə lazımdı sənə? Burax məni çıxım gedim.

Ruhu ki çağırıb gətirmişdilər, artıq izni onlarda idi, doğrusu, Səyyah sehrbazda idi. Qaytaracaqdısa o qaytaracaqdı Ruhu öz məkanına. Amma Karvanbaşı Ruhun son təvəqqesini eşitmədi, öz huşunda idi, ürəyindəkini xəlvətə salıb ona deməyin vaxtı yetişdiyini düşündü, qərar qəbul elədi, qəflətən, birnəfəsə ürəyini açıb qoydu ortaya:

– Ağa, bilirsən, mən sizin hər ikinizin intiqamınızı alacağam.

Ruh əvvəlcə təəccüb etdi:

– Nə intiqam, gədə? Kimdən alacaqsan sən bizim intiqamı? Nə danışdığındı?

– Alacağam, əlbəttə, alacağam. Bir sözdü dedim.

Karvanbaşı, nəhayət, qəlbində bir rahatlıq duydu, o iynə ki uzun illərdi batıb qəlbinə orada özünə məskən salmışdı, geriyə çıxıb şəkər tozu kimi əriyib elə canındaca yox oldu:

– Bir sözdü, dedim. – Karvanbaşı tərs-tərs təkrar elədi.

– Yox, sən çox qaranlıq danışdın. Xırdala görüm sən nə deyirsən? – Ruh söhbətin belə bir məcrasını heç gözləmirdi.

Karvanbaşı birdən-birə heç özü də inanmadı ki, sən demə, illərdi sinəsində gəzdirdiyi ağrını, əzabı boşaltmağın vaxtını bu vaxtın nə zaman isə gələcəyinə inanmaya-inanmaya boşuna gözləmirmiş. Səadət o deyildi ki, o indi bu sözləri ilbəil, aybaay, günbəgün, saatbasaat ürəyinə yığdıqdan sonra təzədən qaytarıb bir anın içində yiyəsinə ötürə bilirdi, yox, səadət o idi ki, bu an Karvanbaşı özü-özünə sanki qıraqdan, kənardan baxırdı. Baxıb görürdü ki, bir cavan kişidi bir tanış otaqda bardaş qurub oturub həyəcanla və onun özünə yad gələn bir səslə üzünü tutub nə isə danışır boşluğa özü də elə danışır ki, elə bil, dinləyəni də vardır bu yarıdumanlı, bütün əvvəlki ölçülərini itirmiş otaqda Karvanbaşı həm tanıyır bu cavan kişini, həm də tanımır, kiməsə oxşadır. O cavan kişi nə isə deyirdi, ciddi-cəhdlə sübut etməyə çalışırdı, amma Karvanbaşı artıq o cavan kişini eşitmirdi, heç eşitmək belə istəmirdi, ancaq məhəbbətlə onu, yəni, özünü seyr eləməyində idi.

Sözlər isə o dumanın içində gözgörə, gözgörməz bir yola düşüb gedirdilər və bu cürə səslənirdilər:

– Uşaqlıqdan ağlım kəsəndən üzü bu yana mən ancaq "intiqam" deyib yaşamışam, biləsən. Gecələr "intiqam" sözü yapışıb qalıb dodaqlarımda o sözlə yuxuya getmişəm, səhərlər o söz bir parça palçıq kimi quruyub düşüb dodaqlarımdan o biri gecənin qoynuna. Sən mənə indi nə demək istirsən? Qarı nənəm hər Allahın verən günü bu sözü qulaqlarımda sırğa eləmişdi, öləndə də artıq dili söz tutmurdu, gözlərilə dedi: intiqam!.. Bir də gözlərilə bunu dedi mənə: birdən intiqamını unudarsan ha, göyçək balam, unutmazsan ki? Yoxsa, Damdabaca… Tez dedim yox, unutmaram, rahat ver nəfəsini, unutmaram. Unutsan bax ha… dedi bu gözlər yenə. Mən dedim: Unutsam qoy damdabaca gəlib məni aparsın.

Əvvəl qorxa-qorxa unutmadım mən bu sözü. Söz idi, nə idi ki… Sonra isə bax bu hava ki udmağa unutmuram, onun kimi unutmadım, bu çörək ki yeməyə unutmuram, bu çörək kimi, içdiyim su kimi unutmadım… Sən isə…

Karvanbaşı bu yerdə nəfəsini bir anlıq dərdi, harda olduğunu, kiminlə həmsöhbət olduğunu, dörd bir ətrafını tamam unutdu, gözlərini yumdu, xatirəsi onu bir anın içində öz mehriban qoynuna alıb uzaq keçmişdə qalmış ılıq uşaqlıq illərinə apardı...

***

…Qoca qarı nənəsi hələ ki sağdı, nə zamandı yarıcan olmuş taxta bədəni büzüşüb qalıbdır yataqda, gücü-heyi isə artıq heç yoxdur, güclə nəfəs alır, güclə danışır, bir dəridi, bir sümük, ancaq gözləri, ancaq gözləri öz içinə hardansa bir topa işığı yığıb işım-işım parıldayır:

– Bilirsən, atandan bir küp qızıl qalıbdı. – Dili ilə qurumuş dodağını yalayıb yaş eləyib qoca qarı nənə dilindən çox gözü ilə danışdı. – Birinci dəfəndi ki, bu sözü ağzımdan çıxarıram, deyirəm. Qulaq ver, dinlə, unutma. Səni ki mən yarıac, yarıtox böyütdüm, amma o qızıla dəymədim, küpün ağzını açmadım. İndi mənim vaxtım çatıbdı deyin, bu sirri sənə açmalıyam. Ölüm ayağıdı. Özümlə ki qəbr evinə aparmayacağam, sənə isə lazım olar. Həyətdəki quyunun yuxarı divarında… bir çuxur var, o çuxurun içindədi küpə… üstü də çör-çöplə, kol-kosla tutulub, quşlar orda yuva salıblar indi. Bax, atan Məmmədqulunun qızılları ordadı. Atanla qardaşının qatili isə…

Karvanbaşı yumulu gözünün dibindəki ağ işıq zərrələri ilə görürdü ki, o balaca uşaq canına, ruhuna hakim kəsilmiş qorxusunu birtəhər udub və nəfəsi az qala gedib gəlməyən qoca qarının üzünə qırpmadan dikib gözlərini, həyəcandan kaman kimi dartıldı və yalvara-yalvara pıçıldadı:

– Kim, kimdi onların qatili? Ölmə, nənə, nolar ölmə hələ.

Qoca qarı nənə yenə də gözlərilə gülümsündü, öskürək onu boğdu:

– Of, ax… Qoy bir toxdayım. Ölmərəm, qorxma. Sənə deməmiş… ölməyəcəm.

– Kimdi o? Sən özün həmişə deyirdin, gözlə, zamanı gələcək, deyəcəm. Mən ki intiqam almalıyam, bilirsən.

– Bilirəm, quzu balam, bilirəm. Sən də biləssən. Sənin atan… bizim şəhərimizə girən orduda idi. Cəllad idi. Şahın inanılmış… nökəri idi. Bizim evə yapışıq evdə qalırdı. Pəncərəsi düz həyətimizə baxırdı, indi o pəncərəni… yoxdu o pəncərə daha, atan sonradan daş qoyub hördü onu. Dikəlt məni, boğuldum, ay Allah… ay Allah, özün kömək ol…

Balaca uşaq iki əlli bərk-bərk qucaqlayıb yerdən döşəyin üstündə uzanmış nənəsinin boynundan dikəltdi onun başını, sonra boynunun altındakı yastığı bir əli ilə arvadın boynundan tuta-tuta o biri əli ilə düzəltdi, ancaq bundan sonra qarı nənə düz-əməlli nəfəs ala bildi:

– Sənin anan, mənim qızım Pərnisə… – Qarı nənə özünə zülm edərək zor-güc davam elədi, – uf, ay Allah, yadıma düşəndə odlanıram, ax-ax, of-of… vurulmuşdu sənin… atana. O yuxarıdan aşağı ağzı sulana-sulana buna baxırdı pəncərədən… ay işığında… bu da qapıda oturub aşağıdan yuxarı naz verə-verə ona baxırdı. Arı-namusu.. unutmuşdu ikisi də. Açıq-aşkar gözlirdilər ki… ay çəkilib getsin, həyətə axı bu zaman qaranlıq düşürdü. Mən… mən biçarə özümü bu zaman vururdum yuxuluğa. Neyləyəydim mən, məzlum, cavan, dul gəlin idi, necə qoruya bilərdim onu qızmış kəldən?! Bilirsən nə dillər deyirdi mənə doğma qızım? Eh… of…

Qoca qarı nənə bir daha nəfəsini dərib sükut etdi. Yenə xəyal onu uzaqlara apardı. Sonra qəflətən yadına nəsə saldı, yerindən dik atılıb yastıqdan dikəldi, əlləri ilə özünə dəstək verib yataqdaca oturub qaldı, özü də təəccüb etdi ki, bu qara qışqırıq onun qarnının içindən ağzına, ağzından da işıqlı dünyaya necə oldu çıxıb gəldi:

– Hansı cəhənnəmdə qaldın, qız, Pərnisə?! Noldu bu paltar sərmək nə hücur iş oldu sərilib qutarmadı?! Gəl çıx xarabana, gir yerinə öl daha, gecə keçdi, gəl mən yatıram. Qız, Pərnisə, ləçər… abırsız…

Bunları zil səslə çığıra-çığıra deyib qoca qarı nənə susdu, geriyə atdı başını yastığın üstünə, huşunu itirdi.

***

Karvanbaşının gözləri yumulu, bu yumulu gözlərindən göz yaşları çıxdı başlamadımı bunun çöhrəsindən üzü aşağı axmağa, axdı, axdı süzülüb saqqalından yerdəki xalçanın üstünə döşəməyə bir-bir düşdü.

…Qoca qarı nənə handan-hana özünə gəldi, çox dərindən bir ah çəkdi, gözlərilə balaca uşağı axtarıb başı üstə tapdı:

– Hər dəfə gecə düşəndə o təmiz ayın qabağını bir parça qara bulud gəlib tuturdu. Əlini mənə ver, əlini… – Qarı nənə uşağın əlindən bərk-bərk yapışıb tələsə-tələsə sözünə davam etdi. – Bu zaman bütün həyət qaranlığın içinə girirdi. Sənin anan… sənin anan hər gecə məni yuxuya verib gedib nərdivanla qalxırdı atanın pəncərəsindən keçirdi içəri. Mən yatmışam, yatmamışam… Heç buna məhəl qoyan olmurdu.

Balaca uşaq bu sözləri eşidirdi, amma bu sözlər onun bir qulağından girirdi, bu biri qulağından çıxırdı, yapışıb qalmırdı bu sözlər onun beynində. O ancaq bir kəlməni gözləyə-gözləyə qalmışdı. O gözləyirdi ki, qoca qarı nənəsi ona atasının, qardaşının qatilinin adını nə zaman söyləyəcəkdir. Bu adı eşitdikdən sonra həkk edəcəkdi onu qəlbinə və addım-addım, gün-gün, nəfəs-nəfəs bundan sonra öz qurbanını izləyəcəkdi, ondan hökmən öz intiqamını alacaqdı.

Qoca qarı nənənin nəfəsi getdikcə təngiyirdi, gözləri bir az da böyümüşdü, artıq ətrafa çox böyük diqqət və heyrətlə baxırdı, elə bil, ilk dəfə görürdü gördüyünü, son sözlərini də bu halət içində çox aydın və aramla deyib, nəhayət, rahat-rahat can verdi:

– Sənin düşmənin, bala, qəvi düşməndi, böyük düşməndi. Bu qızıllar lazımın olacaq. Atanın qatili… unutma bala, bunu, heç unutma, atanın qatili Şahın özüdü…

Qarı nənə bu sözləri birnəfəsə söyləyəndən sonra uşağın əlini buraxdı, nəfəsi gedib bir daha qayıtmadı, açıq gözləri hərəkətsiz qaldı.

Balaca uşağın nənəsinin ağzına tərəf əyilmiş üzündə bu son sözlərdən sonra iki od kürəsi birdən parıldadı. Döşəkdən yerə sürüşüb qalmış nənəsinin əlini qaldırıb quru sinəsinə qoydu. Son dəfə geri çəkilib qarı nənənin üzünə doyunca baxdı, sonra tez-tələsik otaqdan çıxdı. Yol-yol gedib ordan çıxıb burdan

batıb, nəhayət, gəlib Karvanbaşı indi oturan otağa daxil oldu, gözlərilə axtardı Karvanbaşını gördü və otağa daxil olanda bu artıq o uşaq deyildi, bu artıq haman Karvanbaşının özü idi ki vardı, gəlib çatıb bir-birinə, bir-birinin içində hər ikisi itib əridilər.

Karvanbaşını fikirdən yenə də Ruhun səsi ayırdı:

– Eşidirsən məni sən? – Ruh dedi. – Mən çox yoruldum, biləsən. Sən də elə yorğun görünürsən. Çox şey sənə artıq əyan oldu. İndi barı ürəyin gəldimi yerinə?

Karvanbaşı tutduğunu buraxmayan tərs uşaqlar tutuquşuluq edən kimi ürəyindən keçəni artıq neçəminci dəfə dilinə gətirdi:

– Alacağam intiqamınızı. Nə deyirsən de, intiqamınızı mən alacağam. Nə deyirsən de, alacağam.

Ruhun müztərib səsinin içinə yüngülvari bir acı gülüş də girdi:

– Kimdən alacaqsan, ay Gicinəqulu, kimdən? Bir də elə "ağabəyim", "ağabəyim" deyib durmusan, o ki heç sənin doğma qardaşın da deyildi, bilirsən?

Karvanbaşı bu sözləri qulaqardına vurdu:

– Sən bəs öz ağanın intiqamını almadın? Aldın axı…

– Elə ona görə də bütün ömrüm boşuna getdi. – Ruh acı-acı cavab verdi. – İntiqam deyib yaşamaq olmaz. Gücün yetməz yaşamağa.

Qarı nənəsinin par-par parıldayan əmanəti uzaqdan yol gəlib düşdü Karvanbaşının yadına:

– Qarı nənəm öləndə bir küp qızıl verdi mənə, dedi ki, sənin əmanətindi. Atandan qalıb dedi. Düşmənin, dedi, böyük düşməndi. Qəvi düşməndi. Sən bu qızılın üstünə əlavə et ki, əksiltmə. Ancaq qızılın gücünə ala bilərsən, dedi, intiqamını…

Ruh nifrətlə pıçıldadı:

– Ax səni, küpəgirən qarı…

– Amma məni boya-başa o çatdırdı, ağa, unutma. Əmanətə xəyanət eləmədi. Ona elə deməyəsən.

– Məndən heç xoşu gəlməzdi… – Ruh ötən zamanların yenidən canlanan xatirəsini səsi ilə qoxulamağa başladı. – Bütün o vaxtı iki kəlmə kəsmədik. Həmişə zindeyi-zəhləsi getdi məndən. Amma ki, görünür vəfası da varmış…

– Bə sən deyirdin o qızıllar…

– Bəli, – Ruh onun sözünü qətiyyətlə kəsdi, – bəli, əlbəttə, səninki deyil!

– Bə kiminkidi? – Karvanbaşı xeyli səmimi təəccüb etdi.

– Şahınkı.

– Şahınkı???

Karvanbaşı mat-məəttəl quruyub qalmışdı və həyatının əsas məqsədi gözü qabağındaca günəşin isti şüası altında yazda dağ ətəyində gecikib qalmış qar topası kimi əriyirdi. Ancaq bunu deyə bildi:

– Yox, ağa, elə danışma. Yalvarıram sənə, elə demə. Bilirsən, sənə dedim axı, Şah mənim ən böyük düşmənimdi…

– Bax hələ… – Ruhun səsi daha bərkdən gəldi. – "Düşmənimdi…" Nəyə görə axı? Yoxsa…

– Bəli, ağa, sənə görə, ağabəyimə görə.

– Sən nə dediyindi, gədə?

– Bəli, ağa. Bilirəm, nə deyəssən. Düzdü, sizə zülm eləyən bu olmayıb, bunun babası olub, amma bil ki, qanınızı mən yerdə qoyan deyiləm. Onun oğlundan alacağam intiqamımı. Qoymanam qalsın yerdə ağabəyimin qanı. Qoymanam. Gecələr qardaş deyib az zarımamışam. Nakam qardaş, biçarə qardaş, zavalı qardaş, binəva qardaş… – Karvanbaşının səsi titrədi, ağlamsındı.

Otağın tək pəncərəsindən o tərəfdə, bayırda küləyin vıyıltısı elə bərkdən gəldi ki, şamdandakı şamın titrək işığı bu səsdən öz zəif titrəyişini də az qala qeyb edəcəkdi.

Əlinin dalı ilə Karvanbaşı gözünü bərk-bərk sildi, bu dəfə göz yaşını gözünün içinə qaytardı, azca əvvəl Ruhun ağabəyisi haqda dediyi sözləri xatırladı, əlavə elədi:

– Sənin də, ağa, heç bir sözün mənim qəlbimdən qardaş eşqini çıxaran deyil, biləsən…

– Necə alacaqsan, ay binəva, intiqamı? – Ruh bunun sözünü kəsib çarəsiz-çarəsiz sual etdi.

Karvanbaşı bir daha dörd ətrafına boylandı, otağın o başında gözləri yumulu, hərəkətsiz qalmış Səyyah sehrbaza tərəf bir iti baxış tuşladı. Arxayın oldu ki, otaqda ondan və Səyyahdan başqa bir kəs yoxdur, Səyyah sehrbaz öz

vəcdindədi, onları heç dinləyib eşitmir, bəlkə də özünün təkcənəlik vaxtına girmişdir, amma yenə olsun, bir daha Karvanbaşı ora-bura baxıb tam əmin oldu ki onun sözlərini ancaq və ancaq atasının qərib Ruhu eşidəcək, boğazını yüngülcə arıtlayıb xısın-xısın, amma qətiyyətlə ürəyindəkini açıb ortalığa qoydu, sözünə belə davam elədi:

– Alacağam. Bilirsən, ağa, mən bunun ən inanılmış adamlarındanam. Biriminci sövdəgəri mənəm. Arvad-uşaqlarının bütün nə ki sifarişi var, mənimlədir… Zəhərləyəcəyəm onu. Yavaş-yavaş ölüb gedəcək. İt əzabıyla öləcək. Heç kəs də ki duyuq düşməyəcək kimdən oldu bu iş. Şah olanda nolar?! Cavab versin qoy babasının əməllərinə.

Karvanbaşı susub əlindəki ipək dəsmal ilə boğazının, peysərinin soyuq tərini sildi, dəsmal bir anın içində yam-yaş oldu, atdı dəsmalı bir kənara mütəkkənin dalına:

– İndi nə deyirsən? – Karvanbaşı ümid dolu bir səslə niyyətinə Ruh tərəfindən təqdir gözləyə-gözləyə soruşub durdu.

Ruhun səsi bu səfər həddən ziyadə qəmli gəldi. Ürəküzən ney səsi idi bu səs, başqa bir şey deyildi:

– Sən bir körpə, əl boyda uşaq idin. Ananın balaca ağ döşlərini əməndə elə göyçək olurdun ki... Gicinəqulu… Gəl sən etmə bu işi.

Karvanbaşı çaşdı, çünki belə bir cavabı ağasındın heç gözləmirdi. Astaca və tələsik:

– Heç kim duyuq düşməyəcək, – pıçıldadı, – ona bir əntiq əsa bəxş edəcəm. Kafir elində su içində bir şəhər var, ordan özüm gətirmişəm…

Karvanbaşının həyəcandan yenə ürəyi dözmədi, sözünü yarımçıq kəsdi, oturduğu yerdən ayağa dura-dura:

– Qoy bir görüm bu bədbəxt bizə qulaq vermir ki?! – dedi.

Qapıya tərəf gedib qulağını dayadı qapıya, "yox, deyəsən, bir ins-cins yoxdur", düşündü, sonra xapdan açdı, örtdü qapını, doğrudan da heç kəs o tərəfdə yox idi, bundan sonra arxayın-arxayın Karvanbaşı qayıtdı oturduğu yerə, yenə bardaşını qurdu, belə dedi:

– Yox, bir kəs yoxdu. Sakitlikdi. Qulaq verən yoxdu. Əlqərəz, ağa, bir sənə deyirəm, o əsanın içində uzunsov deşik-deşik bir şüşə qab var. Zəhərli

yaş havanı doldurublar bu şüşəyə yığıblar. Hər dəfə əsanı ki yerə basacaq, zəhər buxarlanıb hava ilə bir dolacaq bunun ciyərlərinə. Əsadan bərk yapışdı görən kimi. Yaman gözü tutdu. Doğrudan da bir gözəl əl işidi, iki göz istir baxsın, doymasın. Özü də axsayır axı bir balaca, uşaqlıqda bir iti varmış, südəmər it düşür su dolu hovuza, bu da atır özünü iti çıxarmağa, ayağını o vaxt əzibdir, indiyənəcən topal gəzir. Bəli, ağa, çox ağıllı qurulub bu iş. Əlbəttə, məqsədimə çatacağam…

Ruh dedi:

– Niyə axı? Heç bir düşündün niyə? Bunun ki, şah babası ölübdür, bəs özünün nə günahı var? Bir də ki, sən hardan bilirsən, sənin bu əməlinin mənim üçün bir savabı var?! Heç bir düşündün ki sən, burda sizlərlə qalmaqdansa orda olmaq daha xoşdur?! Sən mənim hansı intqamımı alırsan, bu mənə gərəkdir? Əbəsdi, bala, əbəsdi…

Ruh bunu deyib naçar susdu. Karvanbaşı yenə tələsik etiraz eləyib:

– Yox, əbəs deyil, – səsini qaldırdı. – Əzablarımızın əvəzidi bu. Bu dünyanın öz haqq-hesabı var. Ola bilər sənin "oralar" dediyin yerdə hamınızın ağlınız xarab olub. Hər şeyi unutmuşsunuz. Ola bilər. Bizsə heç bir şeyi unutmuruq. Böyükdü onun günahı, əlbəttə ki, böyükdü.

– Sən bir nağıldı, danışırsan. Hamının günahı var. Kimin günahı yoxdur ki?! Mənim başıma gələnlər bəs boşuna gəldi? Yox. Vəlinemətimin sözündən çıxmamışdımmı? Çıxmışdım. Başıma da gəldi. Cəzamı mən almalı idim, aldım. Bir düşün…

– Nə düşünüm? Yaxşı, bəs ağabəyim?

– Yenə deyir "ağabəyim"… Ortalıqda günah vardı, bala. Mənim günahım, sənin günahın, onun günahı – nə fərqi var? Ortalıqda günah var idi. Sən gəl görmə bu işi…

Ruhun səsini Karvanbaşı saçında hiss elədi, bu səs bu dəfə də onun saçına nəvazişlə sığal çəkməyə başladı.

Karvanbaşı pıçıldadı:

– Ağa, qurbanın olum, ağa, xeyir-dua ver mənə…

– Yaxşı-yaxşı qulaq as mənə, bala, yaxşı-yaxşı qulaq as. Sən nəsli yaşatmalısan, özün yaşamalısan. Bilirsən…– Ruhun istəməyə-istəməyə ağzından

yanıqlı bir etiraf özünə yol elədi, çıxdı, – sən heç bilirsən, bu yaşamaq nə gözəl olan bir şeydi?! Çıxart at ürəyindən bu intiqam alovunu, söndür onu külü qalsın, hər şeyin var deyirsən – dövlətin, malın, sərvətin… Hanı bəs sənin rahatlığın, bala, rahatlığın sənin hanı? Yoxdu, yoxdu sənin rahatlığın. Sənə yazığım gəlir…

– Mən bu əməli görməzsəm, bir an rahatlığım olmaz. Ömürlük qaçar məndən rahatlığım. Dinclik nədi, bilmənəm.

– Bəs eləsən bu işi elə bilirsən tapassan dincliyini?

– Tapacam.

– Tapmayassan. Sən özgəsinə cəza verə bilməzsən, gədə, cəzanı Allah verir. Qoy kimə nə verir qurban olduğum özü versin. Sən qarışma Allahın işinə, bala…

Karvanbaşı daha səsini çıxarmadı. Başı sinəsinə endi. Ürəyi şiddətlə vurmağa başladı. İndicə birdən, lap elə qəflətən anladı ki, tutduğu əməlin çəkisi necə ağır imiş. Nəfəsi kəsilə-kəsilə gedib gəldi. Beynindən keçdi ki, bütün bu söhbəti artıq bitirmək zamanıdı, çünki onsuz da bir özü bilirdi bunu ki, iş işdən keçmişdir, ox kamandan artıq çıxmışdır. Yorğun-yorğun etiraf etdi:

– Bilirsən, ağa, mən axı… o əsanı artıq Şaha bəxşiş eləmişəm. İş işdən artıq keçmişdir. Əsanı alanda bilsən nə qədər sevindi. Elə gözəl əsa idi…

– Gicinəqulu, Gicinəqulu… Sən bir gör neyləmisən?! Heç Allah bəndəsi Allahın yer üzündəki kölgəsinə əlini qaldırarmı? Sən Allah bəndəsi deyilsən…

– Yox, ağa, mən düz eləmişəm.

Karvanbaşı artıq heysiz də olsa, kor kimi tutduğunu yenə buraxmırdı, son gücü ilə bərk-bərk yapışmışdı bu tutduğundan.

Ruh bir balaca sükut edib nəfəsini dərdi. Götür-qoy edirdi, elə bil, sonra qətiyyətlə belə dedi:

– Sən mənim övladım olmazsan əgər gedib Şahın ayaqlarına yıxılıb özünə əfv diləməsən. Özün aç məsələni, yalvar, yaxar, göz yaşı tök, mən bunları yaxşı tanıram, özün hər şeyi açıb töksən keçər günahından… bəlkə…

Karvanbaşı acı-acı təbəssüm etdi:

– Gecdi, ağa, gecdi…

Ruh bu dəfə özü-özünə dodaqaltı danışdı. Karvanbaşı onun sözlərini güclə eşidib anlaya bildi. Ruh deyirdi:

– Verəydilər mənə, mənim balam, o qarı nənəni, ona olmazın işgəncəni o qara qulumla bir yerdə mən özüm bilərdim qurğuşunu dağ eləyib əridib necə tökərdim damcı-damcı boğazına. Sənə "intiqam" deyən dilinə iynələrlə necə gözəl tikişlər qoyardım. Küpəgirən, küpəgirən…

İlk dəfə Ruhla təmasdan bu yana ürəyinin içinə Karvanbaşının gecikmiş nəvaziş dolu sevinc gəlib bir zərif kəpənək kimi qondu:

– Ağa, dilinə qurban olum, ağa sözünə qurban olum, mənim üçün belə yanırsan sən? Allah, mən necə xoşbəxtəm, bir bilsən mən necə xoşbəxtəm, ağa?!

Ruh susdu. Yenə bayırdan boranın vıyıltısı aşkar eşidildi. Karvanbaşının ürəyinə qonmuş bu zərif kəpənək boranın ancaq səsindən bir andaca titrəyib uçub harasa itdi, qara-qura fikirlər yenə gəldi girdi beyninə, soruşdu:

– Ağa, deməli, mən belə çıxır boşuna yaşamışam bu dünyada?! – Karvanbaşının son sözləri ondan xəbərsiz, xəlvəti gəlib bu sözlərə özünü güclə çatdıran acı göz yaşlarına büründü.

– Dur, arvadlar təkin ağlama. – Ruh sərtliklə dedi. – Dur, tələs, get saraya, nə qədər ki, əsanın sirri faş olmayıb yetiş… Mənim dediklərimi elə.

– Yox, gedə bilmənəm. Dizlərimdə heç taqət qalmamışdır. Ayağa dura bilmənəm oturduğum yerdən…

***

Söhbət gəlib bu məqama yetişən zaman həyətdən o tərəfdə küçədə qopan səs-küyün uzaq səsi otağa gəlib çatdı. Həyət darvazası qəflətən bərk-bərk döyüldü. Bir bölük Şah əsgəri, on-on beş adam olardılar, əlləri yalın qılınc qapının ağzında artıq durmuşdular, bir neçəsi də dəmir qapını əllərindəki daşla vurduqca vururdu. Bunlar Şahın xüsusi cəza dəstəsi idilər. Səs-küydən həyətin o başındakı nökər evində yatışmış nökərlər də, evdəki yuxarı mərtəbədəki qaravaş-qulluqçular da, Karvanbaşının arvad-uşağı da hövlnak yuxudan ayılıb qalxıb əməlli-başlı təlaşa düşdülər. Heç bir kimsə nə edəcəyini bilmirdi. Kimi

vurnuxur, kimi öz vücudunun içinə qısılıb qalmışdı. Xacə İbrahim ağa Karvanbaşı olan otağa ürəyi səksəkəli tələsik gəlib özünü içəri saldı:

– Qurbanın olum, gözümün işığı! – Xacə İbrahim ağa həyəcanla dedi. – Şahdan əsgər gəlib, eşidirsən, darvazanı sındırırlar. Şah, deyirlər, səni yanına istir. İndi. Bu saat. Gətirin onu deyib əsgərlərə. Nə baş verib demirlər – sən bir şey bəlkə biləsən?

Karvanbaşının dizlərinə hardan güc gəldi, özü də bilmədi. Əlini yerə dirsək edib dimdik ayağa qalxdı, səsi qətiyyətli çıxdı:

– Əsgər deyirsən gəlib, eləmi? Get, onlara de gəlirəm. Məəttəl qalmasınlar, de abdəst alıb indi gəlir. Get daha.

Xacə İbrahim ağa yenə qorxu içində ağzındakı sözünü udqunub qaytarıb naçar geri döndü, gedib çıxdı həyətə. Zərbələrdən titrəyən küçə darvazasına yaxınlaşdı, elə darvazanın yanından hasarın o tərəfinə qışqırdı:

– Gəlir, gəlir. Bir ləhzə səbriniz olsun. Abdəst alıb gəlir.

Küçədəki səs-küy bir qədər yatdı. Cəza dəstəsinin əsgəri gözləməyə qərar verdilər.

Karvanbaşı otağın ortasına pəncərənin yanına gəldi. Dörd tərəfə boylandı:

– Ağa, sən mənə görükə bilərsən? – soruşdu.

– Yox, görükəmmərəm. Biz bunu bacarmırıq. – Ruh peşiman-peşiman cavab verdi.

– Bu səninlə son görüşümdü, ağa. Bir təvəqqem var.

– Söylə.

– Ağa, ömrüm boyu mən sizin həsrətinizlə yaşadım, bilirsən. Anamı, doğma anamı bir dəfə də olsun yada salmadım. Ancaq sən və ağabəyim. Sən və o. Ancaq indi… bilirsən, ağa, anam yadıma düşdü…

Karvanbaşı susdu, əllərini yana aparıb sonra yuxarı uzatdı, qəlbinin düz içindən bir iniltiydi gəldi:

– Anamı söylə mənə ağa, nolar, anamı söylə.

Yavaş-yavaş, təmkinlə bayaqdan bəri sakitcə oturduğu yerdən Səyyah sehrbaz qalxdı ayağa, otağın ortasında əllərini göyə açmış Karvanbaşıya bir məhəl qoymadan onun yanından keçib otaqdan çıxdı bayıra.

Bir müddət sonra başda Şah qoşun artıq bu məğlub olmuş və əvvəlki dikbaşlığından bir şey qalmayan şəhəri tərk etdi və bədbəxt Məmmədqulu tərs kimi öz müdhiş qərarından dönməyib qoşun içində tənha, yeganə adam oldu bu şəhərdə qaldı. Gözəl Pərnisəni özünə artıq arvad eləmişdi və günlərin bir günü bir oğlan uşaqları da anadan olmuşdu bunların, çox fikirləşib Məmmədqulu bu uşağın adını qoydu Allahverdi, amma hərdən-birdən əzizləyə-əzizləyə, oynada-oynada Gicinəqulu çağırırdı onu.

Uzun gecələrin birində gözünə Şahverəndən sonra nə illah etsə də yuxu gəlməyən Məmmədqulu, nəhayət, yanında mışıl-mışıl ona qısılıb yatmış gözəl Pərnisəni böyründən yavaşdan itələdi, əli ilə onun ipək saçlarını tumarlayıb "qorxma, qalx" dedi, "vaxtdı". Gözəl Pərnisə əvvəl-əvvəl bir şey başa düşmədi, elə bildi, çağadı, yuxudan ayılıb süd istəyir, sonra xatırladı: körpəni qoca anasının yanında yatırtmışdı bu gecə. Heç bir söz soruşmadan dinməz-söyləməz yerindən qalxdı, o da, bu da bir-birinə nəzər yetirmədən, yavaş-yavaş, tələsmədən geyinməyə başladılar. Geyinib gözəl Pərnisə durdu Məmmədqulunun qarşısında. Bir mütilik və gözəllik mücəssəməsi idi. Məmmədqulu arvadını heyran-heyran süzdü, baxışında kədəri o qədər böyük idi ki, aşkara bir odlu ah da hələ çıxdı sinəsinin çox dərin yerindən, sonra başını yenə yerə dikib qabağa düşdü, "getdik" dedi. İkisi də – Məmmədqulu qabaqda, gözəl Pərnisə onun arxasınca həyətə enib küçə darvazasını yavaşdan açdılar ki, səs eləməsin və yenə Məmmədqulu qabaqda, gözəl Pərnisə onun arxasınca bu qapıdan çıxıb düzəldilər yola, gəlib-gəlib şəhərdən azca kənar bir yerdə bir tanış qayalıq var idi, ona yetişib çıxdılar o qayalığın başına. Aşağısı dərin dərə idi, bir bulağın suyu dəcəl-dəcəl ilan kimi qıvrılıb özünü bu uca yerdən həsrətli sevgili kimi atırdı o dərənin geniş, tüklü qucağına. Sonra da

yorğun-yorğun dərənin dibindəki təzə qəbrin yanından fırlanıb üz alıb gedirdi öz yolu ilə.

Hər ikisi bir münasib yer tapıb oturdular, amma elə oturdular ki ancaq kürəkləri dəydi bir-birinə. Kürəkləri yapışdı bir-birinə, qıraqdan baxan iki vücud yox, bir vücud görərdi onları. Bu tərpənməz və qorxmaz vücud öz içində əsim-əsim, tir-tir əsən iki ruhu bərk-bərk sıxıb heç hara buraxmaq istəmirdi. Gözəl Pərnisə əlin atıb yanındakı göy otdan bir qalın, hündür otu seçib qırdı, ağzına saldı. Dişləri ilə bu otun ucunu didib-didişdirməyə başladı. Bir xeyli lal-dinməz səs çıxarmadan suyun qıjıltısına qulaq verdikdən sonra əvvəlcə Məmmədqulu "ya Allah" deyib durdu ayağa, ondan sonra gözəl Pərnisə arxasından ki dayaq getmişdi, əlini yerə basıb o da "ya Allah" deyib qalxdı, dikəldi, amma yenə Məmmədquluya tərəf çönmədi, elə arxası ona durub qaldı, bircə haman otu yenə də dişləri ilə bərk-bərk sıxdı, otun acı dadı dilinə, ağzına, beyninə keçdi, amma yenə çeynəməyindən qalmadı otu. Məmmədqulu daha vaxt itirmədi, bir ləhzə dərin nəfəs alıb bir əli ilə gözəl Pərnisənin belindən yuxarı, o biri əli ilə hər iki ayağından yapışıb dimdik qaldırdı qızın artıq tənha cavan bədənini başının üstünə, bu zaman gözü göy üzünə sataşdı, baxdı gördü daş duzdu parça-parça eləyib səpiblər asimana, adını da ulduz qoyublar, topa-topa, səf-səf, bircə-bircədilər, beynindən keçdi ki, sabah, yəqin, çox isti olacaqdır, bunun ardınca beynindən bir də o keçdi ki, sabah səhər çağa yuxudan ayılıb qarı nənənin əyilmiş belinə bağladığı qundaqdan əlini sallaya-sallaya elə hey durmadan çığıracaq, səsini başına atıb duracaq, qarının qulaqları kar, ancaq özünə sərf eləyəni eşidir, vuracaq özünü karlığa, uşağın qışqırığına məhəl qoymayıb yarızümzümə ilə dodaqaltı belə deyəcək: "yat, yat, yat yatıb göyçək bala olarsan, Qarağacın kölgəsi hər yana düşəndə o kölgənin altınaca xəli-xalça salarsan, mən də sənə o kölgənin altında gizlənmiş gecə ulduzlarının bir-bir nağılını danışaram. Bax yatmasan, o zaman… damdabaca gəlib səni aparacaq…"

Çağa bu səsin ahənginə uyub qəribədi ki yatacaqdır, yavaş-yavaş huşa gedəcəkdir və hər günkündən uzaq, hər gününə artıq heç vədə oxşamayan bir sabah başlayacaqdır… amma axı bunun bəs özünün nədi günahı, bir günahı yoxdu ki, bu biçarənin nə olsun ki, başına gələn müsibətin baisi o idi,

başqa nə qədər desən də səbəbkar tapmaq olardı, yox, qoy mən daşı ətəyimdən töküm, etməyim mən bu işi, düşünüb Məmmədqulu istədi gözəl Pərnisəni qaytarıb təzədən ayaqları üstə qoysun yerə, yenə ipək saçlarına tumar çəksin qabar barmaqları ilə, bütün ruhu ilə titrəyən qız inana-inana sığınsın ona, iki gəlmişdilər bir adam kimi qayıdıb getsinlər evlərinə, birdən hiss elədi ki, bəs axı əllərini ki qaldırıb göyə, bu əllərində bir ağırlıq yoxdu, kimi qaytarıb qoyur yerə?! Gözəl Pərnisə gözgörə yox olmuşdu. Bir an əvvəl bəlkə də əllərinin üstündə idi, amma indi əlləri boş idi, iki yalın qılınc kimi açılıb tuşlanıb göy üzünə, ulduzları hədələmirmi, hədələyir. Yox olmuşdu, uçub getmişdi gözəl Pərnisə, səsini də, cınqırını da çıxarmamışdı, nə dil töküb yalvarmışdı, nə qarğamışdı, nə də umu-küsü eləmişdi. Eləcənə yox olmuşdu. Bəs o zaman hara yox olmuşdu bu Allahın zavallı bəndəsi?! Niyə, nə üçün Məmmədqulunun bomboş əlləri göyə açıla qalıb, nə zaman uzatdı ulduzlara əllərini?! Yanına salmaq istəyir, sala bilmirdi. Gəlib gözlərinin qabağında belə bir mənzərə dayandı. Anasını itələyib quyuya salandan sonra özünü hövlnak gecəyarı Qarağacın altında yatıb yuxuya getmiş tacir Zəbullanın həyətinə salanda, qəməni onun ürəyinin başına saplayanda tacir Zəbullanın dodağına hardansa gəlib bir balaca göyçək quş olub təbəssüm qonmuşdu, öləndə də elə o təbəssüm dodağında öldü. Məmmədqulunun matı qurumuşdu ki, bu niyə belə gülə-gülə ölür, əlləri niyə belə daşa dönüb tərpənməz qalıb, iki quş qanadı kimi, yox, iki yalın qılınc kimi yuxarı göy üzünə tərəf tuşlanıb?!

***

Nəhayət, Məmmədqulu gözlərini birtəhər eləyib daşa dönmüş əllərindən ayırdı, nəzəri yenə sataşdı göydə ona bic-bic göz vuran çoxbilmiş ulduzlara tərəf baxıb gördü ki, onlar artıq bu gecə üçün qocalmağa başlayıblar yavaş-yavaş büzüşüb əriyib üzüaşağı tökülürlər, əslində, onlar artıq yox idilər, ya da ki, tül bir pərdənin arxasındaydılar, səhər isə yavaş-yavaş, ağır-ağır açılırdı, bəs bu qız hara yox oldu, hara itdi, hara qeyb oldu, noldu axı buna – səssiz hıçqırtıdan çiyinləri atılıb-düşən göz yaşlarını diri-diri udan Məmmədqulu bu işə mat-məəttəl qalmamışdımı, qalmışdı.

Karvanbaşı otağın ortasında lal-dinməz dayanıb durmuşdu, əlləri də ki necə açılmışdı göyə eləcə açıla idi. Yavaş-yavaş özünə gəlməyə başladı. Bir az keçdikdən sonra əllərini naəlac yanına salıb qayıdıb gedib öz köhnə yerində yenə bardaş qurub oturdu, daha gözlərilə, qulaqları ilə Ruhu otağın heç yerində axtarmadı, elə-belə özü-özünə yavaşdan dedi:

– Ağa, bilirsən, gəlməyini duyuq düşməyəsən, bir yaxşı şeydi bu ölüm… O uzaq gecələrdə dəvə üstündə yırğalana-yırğalana dəfən-dəfən gözümün qabağına gətirməyə nə cəhd elədim, alınmadı.

Ruh dedi:

– Bala, bax, mən sənə deyirəm. Dayanma daha buralarda. Mən bilirəm, səni nə gözləyir. Qaç, çıx aradan. Gözlərin haranı görür, ayaqların haracan gedir get qurtar canını.

Xacə İbrahim ağa daha icazə-filan gözləmədən yenə özünü təlaş içində saldı otağa:

– Gözümün işığı, mən çıxdım əsgərə dedim gəlirsən, amma bunlar bir səbirsiz məxluqlardı… Deyirlər, çıxmasan sən, qapıları sındırıb hamımızı qılıncdan keçirəcəklər – arvadlı, uşaqlı. Şahın sənə deyirlər qəzəbi keçib. Sən deyirlər… onu zəhərləmək istəmisən…

– Bir də çıx onların yanına, yalvar, sısqa, de ki, gəlirəm. Hara qaçacağam? Qaçmağa yermi var? Gəlirəm. Get daha. Amma dur! – Karvanbaşı nəfəs dərdi. – O bir oğlum sənə əmanət, mən səni ölümdən qurtardım, unutma.

– Unudarammı, gözümün işığı?! – Xacə İbrahim ağanın özündən xəbərsiz gözlərindən göz yaşı seylan olub axmağa başladı. – Heç vədə unutmaram…

Ürəyində isə düşündü: "Necə doğru söylədi Səyyah sehrbaz Düzəngah yolunda ki, səninki bir başqa eşqdir. Mən indi buna bir şey olsa nə cürə yaşayacam?"

Ruhdan bir kədərli nida yenə gəldi:

– Küpəgirən qarı, ax küpəgirən qarı!.. Qoymadın qala, aldın məndən intiqamını.

Karvanbaşı daha bu səsə məhəl qoymadı. Xacə İbrahim ağanın əlindən tutub yalvarışla belə söylədi:

– Bax, İbrahim ağa, mənim axırım çatdı, sən qalırsan, hər sirrim səndədi, qızıllarımın yerini bilirsən… Al götür, nə istirsən elə, amma oğlum, oğlum sənə əmanət… Di get, daha, get, deyəsən yenə şuluq etdilər…

Xacə İbrahim ağa birdən bütün vücudu ilə qısıldı Karvanbaşıya, sonra cəld ayrıldı, hönkürtü vurub gözü yaşlı otağı tərk elədi.

Küçədən bu dəfə daha hiddətli səslər, daha şiddətli təhdidlər gəlməyə başladı. Böyük küçə darvazasını artıq döymürdülər, buna döymək deməzdilər, buna darvazanı sındırmaq deyərdilər.

Əsgərdən biri əlinə bir yekə daş alıb yerdən var gücüylə tolazladı hasarın bu biri tərəfinə. Daş göy ilə uçaraq gəlib düşdü evdən çıxıb qapıya tərəf töyşüyə-töyşüyə özünü çatdıran Xacə İbrahim ağanın düz ayaqlarının altına. "Əstəğfurulla" pıçıldayıb yenə bərkdən üzünü darvazaya tutub Xacə İbrahim ağa qışqırdı:

– Bir ləhzə səbriniz olsun, nolar?! Gözləyin bir! Gəlir.

***

Evin içində isə biçarə arvad-uşaq artıq yataqdan qalxıb çıxmışdılar qapının ağzına. Karvanbaşının balaca oğlu tir-tir əsirdi və anasının paltarının balağından bərk-bərk yapışmışdı. Çaşqın ana bir əli ilə uşağı qucaqlayıb qarnına sıxmışdı, o biri əli ilə dağınıq saçını qaytarıb örpəyinin içinə salmağa çalışırdı.

Səhər hələ tam açılmasa da, tək-tük qar dənəcikləri idi göydə ora-bura uçuşurdu, bəlkə də bunlar hasardibi əkilib ucalmış böyük-nəhəng qarağacların üstündə ağ şal kimi atılıb qalmış dünən axşam yağan qarın dəstədən ayrı düşmüş viranə hissəcikləri idi, həyətdə arxayın-arxayın ora-bura uçuşurdular, sazaqlı və qaramtıl havanın içindən yumşaq, parlaq işıq zərrələri kimi keçib gedirdilər.

Səyyah sehrbaz həyətə çıxdı, əlində səccadəsi və bağlaması vardı. İçəri otaqda ki Karvanbaşı ilə Ruhu qoymuşdu təkbətək, o otağın həyətə çıxan bağlı pəncərəsi birdən taybatay açıldı. Karvanbaşı pəncərədə göründü və var gücü ilə bağırıb öz bağırtısını küçə darvazasını az qala yerindən oynadan ahəngli zərbələrə qarşı yolladı:

– Allahü-əkbər!! Dedim ki, gəlirəm. Bir ləhzə səbriniz var sizin, yoxdu?! Gəlirəm!

Darvazaya dəyən zərbələrin səsi kəsildi. Amma əskər daha arxayınlaşmadı, hasarın üstündən bir əskər papağı görükdü. Əskərdən biri, deyəsən, hasara qalxıb həyətə atılmaq istirdi. Əvvəl-əvvəl vəhşi baxışla həyətin ora-burasına nəzər saldı. Həyətdə heç kimi görmədi, çünki nökərlər canlarını basmış qorxudan nökər evində bir-birinə qısılıb qalmışdılar, səsləri də çıxmırdı. Bircə Xacə İbrahim ağa idi darvazanın yanında, bir də ev qapısına yapışıb qısılmış ana ilə bala idi, onlardan aralı Səyyah sehrbaz idi, diqqətlə baxıb daha bir adam görükmədi hasardan həyəti acgözlüklə seyr eləyən bu əskərin gözünə.

Karvanbaşı pəncərəni taqqataq yenidən bağladı, çıxıb otaqdan getmək istəyən yerdə bir an ləngidi, üzünü boşluğa tutdu:

– Gedirəm, ağa, – dedi. – Deyirsən səni, ağabəyimi tanımayacağam, eləmi?

– Elədi. – Ruh cavab verdi.

– Hələ burdasan?

– Burdayam!

Ruh hələ də otaqda idi. Otağın ortasında mizin üstündə şamdandakı şamın şöləsi hələ də titrəşirdi, otağa dalğa-dalğa bir qırıq da olsa o şamın hərarətini yayırdı.

– Belə. Biz səninlə bir də heç bir zaman görüşməyəcəyik. Ya qismət, kim bilə, kim bilməyə. Bir az da gözlə, tək qoyma məni.

Ruhun cavabı onun damarda axan qanını dondursa da, Karvanbaşı sarsıldığını büruzə vermədi. Cavab isə bu idi:

– Bilirsən nə var?! Götür o xalçadan asılan xəncəri əlinə, götür, çəkinmə. Əlin də titrəməsin. Çox asandı bu. Vermə özünü Şahın əlinə, zülmü böyük olacaq. Sapla, sapla qəlbinin başından. Elə bil, nəyisə yerinə qaytarırsan.

Karvanbaşı, elə bil, bu sözləri çoxdan gözlirdi, daha heç bir başqa şey düşünmədən tez əlini atıb arxasındakı divardan asılmış xalçadan xəncəri götürüb qınından sıyırdı. Təəccüblə əlində ora-bura çöndərib bu xəncərin parıltısına yarıqaranlıq otaqda baxdıqca baxdı, xəncərin işığı gözünə düşdü, gözü qamaşdı, sonra gözlərini bərk-bərk yumub bir kəlmə danışmadan zərblə köksünə soxdu xəncərin iti ucunu, xəncər tiyəsinədək girdi qəlbini iki yerə böldü keçdi. O bölünən yerdən iki damla qan içəridən üzüyuxarı axa-axa gəldi, boğazından keçdi, çatdı bunun dodaqlarına yapışıb qaldı, son sözləri də haman iki damla qana qarışıb çıxdı canından:

– Əlvida… ağa…

Ruhun son sözlərini canını artıq tapşırmış Karvanbaşı eşitmədi:

– Əlvida, oğul! – Ruh dedi.

Əskərlər açıq darvazadan, nəhayət ki, içəri soxulanda Xacə İbrahim ağa nə qədər istədi özünü bir kənara çəksin, olmadı, ilk qəzəblərini Xacə İbrahim ağanın üstünə tökən əskər saldı onu ayaqlarının altına, əz ki əzəsən, əzdi. Ağrılı vücudunun üstündən təpik ata-ata keçib gedən əskərin ardınca bütün bədəni eybəcər bir hala düşmüş Xacə İbrahim ağanın ancaq təəccüb dolu açıq gözləri baxa-baxa qaldı. Ağzı balıq ağzı kimi açılıb yumulsa da, nəfəs deyilən şey gəlmədi daha ağzından.

Əsgərin başının Xacə İbrahim ağaya qarışmasından Səyyah sehrbaz öz bildiyi kimi istifadə elədi. Ona yalvarışla baxan naçar anadan balasını tez çəkib qopardı, bir küncə özünü verib səccadəsini yerə saldı, qırmızı külahını boğçadan çıxarıb qoydu başına, qorxusundan çaşıb qalmış səsini də çıxara bilməyən bu uşağı gizlətdi geniş əbasının içində, girdi bu uşaqla birgə özünün təkcənəlik vaxtına, yer üzündə nə vardısa hər şeyi unutdu, uşağı da bərk-bərk sıxmışdı qarnına, uşağın ağzı ürəyinin başında idi, hərgah qışqırsa idi Səyyah sehrbazın ürək döyüntüsü bu qışqırtını harasa azdırıb eşitməz edəcəkdi.

Bir kənarda oturub irəli-geri yırğalanan və dodaqaltı vird edib ətrafına məhəl qoymayan boylu-buxunlu, kosa dərvişə əskər bir an baxıb durdu, sonra dərvişdən yan keçib kiçik dağ seli kimi evin içinə cumdu, haray-həşirlə qaçıb onlardan canını qurtarmağa çalışan arvadın arxasınca düşdü. Bir oxçu dizini yerə basıb oxunu atdı, ox bunun kürəyindən dəydi, yavaşcana özünə yer eləyə-eləyə sinəsinəcən oxun ucu gəlib çıxdı. Üzü üstə yıxıldı, saçları örpəyin altından gur şəlalə kimi birdən sıçrayıb çıxmadımı, çıxdı, yaşıl gözləri yumuldu, bir an sonra daha bu arvad heç nə duymadı…

Əskərlər böyük otağa keçib Karvanbaşının yerə sərilmiş cəsədinin üzərinə əyildilər, bir əskər iti qılıncını çəkib bunun başını "xırt" kəsdi, saldı bir

torbanın içinə, torbanın ağzını bağladı, kəsik başı özü Şahın ayaqlarına atacaqdı. Artıq başsız cəsədi isə "bəsdi" deyənəcən qəzəb və hiddətlə təpiklədikdən sonra əskərdən biri o tərəf bu tərəfə boylandı:

– Bə uşaq noldu, bunun bir balaca oğlu da vardı ki… Axtarın!

Dörd tərəfə səpələnib böyük imarəti addım-addım gəzdilər, həyətə çıxıb nökərlərin evini qarış-qarış axtardılar, "siz gizlətmiş olsanız, hamınızı qıracağıq" nökərlərə vəd etdilər, amma uşaq bir parça əppək olub çəkilmişdi yerin təkinə, bəlkə də çıxmışdı artıq ağappaq yağan bol qarı ilə ətrafı dümağ işığa bürüyən göyün yeddinci qatına. Heç o dərvişi də daha görən olmadı, həyətdən yox olmuşdu, ilim-ilim itmişdi.

***

Qar birdən başladı dənə-dənə yağmadı, topa-topa tökdü özünü yuxarıdan aşağı. Nə şəhərin evləri, nə yolları, nə ağacları, nə də adamları düz-əməlli gözə görükmürdülər. Səyyah sehrbaz qucağında uşaq sürətlə, nəfəsini dərmədən baş götürüb gedirdi. Gözləri yumulu idi, ancaq bircə dəfə də büdrəməmişdi hələ, ayağı heç nəyə ilişməmişdi, elə bil, min ildi ancaq bu yolla getmişdi. Öz yerişinə özü də mat-məəttəl qalmışdı. Yolu düzünə getmirdi, yolu fırlana-fırlana, çevrə cıza-cıza gedirdi. Doğma yurdu Çərxi-fələk ölkəsindəki uşaqlığı yadına düşmüşdü, nə idi?! Heç kimin gözünə görükmədən bu minvalla gəlib Kəhrizli yolla şəhər qapısına çatdı. Ürəyi tövşüməkdən az qala ağzına gəlirdi. Uşaq nazik qolları ilə Səyyah sehrbazın boynunu qucaqlayıb bütün vücudu ilə ona elə sarılmışdı ki, Səyyahın bədəni az qala keyimişdi. Bu boyda uşağı necə qucağında buracan gətirib çıxara bilmişdi, bu güc ona hardan gəlmişdi – bunu düşünməyə belə ürək eləmirdi, düşünsəydi gücün onu tərk edəcəyindən qorxurdu. Şəhər qapıları taybatay təzəcə açılırdı. Düzəngah yolundan özləri ilə sazağın nəfəsini gətirib gələn yorğun yolçular soyuq gecəni bağlı qapı ağzında keçirəndən sonra yavaş-yavaş, yuxulu-yuxulu şəhərə daxil olurdular. Səyyah sehrbaz gözlərilə az qala onu yeyən gözətçilərin yanından başını yerə dikib heç kimin üzünə baxmadan şəhərdən qədəm qoyub bayıra, saldı özünü Düzəngah yoluna, yenə də arxasına baxmadan eyni sürət-

lə və eyni üsulla çevrə cıza-cıza indi də bu yolu getməyə başladı. Ürəyində tutmuşdu ki, əskər özünə gələndən sonra, əlbəttə ki, onları izləyəcəkdir. Bir xeyli yol gedib daha taqəti çatmadı, dayandı, nəfəsini dərdi, uşağı qucağından yerə qoymaq istədi, amma uşaq qırsaqqız olub qucaqdan düşmədi ki, düşmədi. Uşaq qucağında ilk dəfə Səyyah sehrbaz boylanıb arxaya, şəhər tərəfə baxdı. Şəhər də, qala qapıları da böyük bir ağartının içində yavaş-yavaş əriməkdə idilər. Elə onun özü də şəhərdən baxan olsaydı artıq ağappaq bir heykəl idi, baxan olsaydı gözə görükməzdi. Bir-birlərinin gözünə görükməyən bu ağartılar bir azdan yenə də bir-birilərindən uzaqlaşmağa başladılar. Səyyah sehrbaz təzədən yola düzəlməzdən əvvəl şəhər tərəfə bir nəzər də salıb daha şəhəri heç görmədi, yox olmuşdu şəhər, özü də qar yağıb onu ağappaq bir nəhəng dağa çevirməsəydi belə Səyyah sehrbaz gözlərini bərk-bərk qırpıb bir də diqqətlə baxandan sonra Seyid Sarının uzun illər bundan əvvəl ona dediyi sözləri yadına saldı və qəti əmin oldu ki, bu şəhər bax elə bu anda, indi artıq yer üzündə yoxdur.

Sazaq kəsməyə başlamışdı. Səyyah sehrbaz don vurmuş boz torpaqda güclə sezilən kölgəsinə əba kimi bürünərək qucağında uşaq arxasını artıq yox olmuş şəhərə çevirib yoluna davam etdi.

Sehrbazlar dərəsindən yuxarıda Görükməz təpənin ətrafındakı tufan-boranın dərəyə heç bir dəxli yox idi. Görükməz təpənin altından keçib gedən yol başdan-başa üstündə heç bir izi-nişanəsi olmayan ağ rəngə bürünmüşdü. Elə bil, bütün dünya artıq ağ bir kəfən idi.

Sehrbazlar dərəsində isə yenə bahar çağıydı, gül-gülü, bülbül-bülbülü çağırırdı. Sehrbazlar bir-biri ilə söhbətləşə-söhbətləşə bir dəstəsi dərə boyu gəzişir, o biri dəstəsi isə dairə qurub bir qızılgül kolunun ətrafında yaşıl çəmənliyin üstündəcə əyləşmişdilər. Bir tək Ağ dərviş ürəyi səksəkədə, fikri-zikri buralardan uzaqda idi, onun qulağına tövşüyən nəfəslə bir ahəngdə vuran ürək döyüntüləri idi gəlib çatırdı. Ağ dərviş artıq bilmişdi ki, bu ürək döyüntüləri kimindi, gözünün qabağında Səyyahın surəti gəlib durmuşdu və bu surət çəkilib heç bir yana getmirdi. Qucağındakı uşağı da görmüşdü, arxasında ağ dumana bürünüb yox olan şəhəri də görmüşdü, ürəyi daha tab eləmədi, dərədən üzüyuxarı yola aparan cığıra girdi, yavaş-yavaş gəlib yolun lap ağzına çatdı. Yola çıxa bilməyəcəkdi. Çıxan zaman kənar dünyadan dərəyə onun çıxdığı məsafə boyda bir deşik açılacaqdı və bu deşikdən içəri sazaq, şaxta özünü dürtəcəkdi, güclə Səyyah sehrbazın arxasınca onun özü boyda deşiyi sehrbazlar əlbir olub bağlamışdılar. Ağ dərvişin çarəsi, əlbəttə, ancaq gözləmək idi. Ürək döyüntüsünün və Səyyahın töyşüyən nəfəsinin səsi artıq lap yaxından gəldi. Elə bu zaman Ağ dərvişin beyninə o biri dünyalardan, o biri həyatdan səslər gəlib bu səslərə qarışdı, bu dəfə gözü önündə qədim bir vaqeə canlandı.

– Həqiqətən, bircə andı hər şey. Hər şey bu bircə anın içindədi – keçmiş də, gələcək də. – Ustadı ağsaqqallı şeyx Mənuçöhr ibn Sadiq deyirdi bu sözləri, qarşısında isə iki gənc müridi yanaşı əyləşmişdi, bu iki ayrılmaz, sevimli

dost əlləri ilə də oturduqları yerlərindəcə bir-birindən bərk-bərk yapışmışdılar.

– O an mənim üçün yoxdur, çünki o anın hələ adı yoxdur. – Bu sözləri gənc müridlərdən adı Seyid Sarı olan söylədi.

– O anın adı var, yox, dəxli yoxdu, mən onu ürəyimin içində görürəm. – Bunu isə o deyirdi – Ağ dərviş.

Şeyx gülümsündü:

– Var artıq adı! Onun adı **dolğun andır**. Hər şeyi – keçmişi də, gələcəyi də öz içinə yığan indiki **dolğun an.** – Şeyx Mənuçöhr uzun, ağ saqqalını tumarlaya-tumarlaya gözlərini qıyıb bu iki gəncə nəvazişlə və bir qədər də kədərlə baxdı.

***

…Səyyah sehrbazın taqətsiz əllərindən yuxusuna qısılmış uşağı ehtiyatla qəbul edib Ağ dərviş qədəm basdığı yerə diqqət edə-edə yaşıl çığırla üzü aşağı – həmişəbahar Sehrbazlar dərəsinə enməyə başladı. Onun ardınca Hacı Mir Həsən ağa Səyyah – Səyyah sehrbaz titrək dizlərinin son gücünü taqətsiz ayaqlarına ötürərək üstünün-başının artıq əriməkdə olan qarını çırpa-çırpa yavaş-yavaş gəlirdi.

# *Unutmağa kimsə yox...*

# Əvvəl

Həmən axşam göy üzü təmtəraqlı teatr pərdəsi kimiydi. Bu pərdənin cürbəcür rəngləri vardı: qırmızısı yaşılına, qızılısı lacivərdinə, sarısı qarasına qarışmışdı. Rəngli pərdənin üzünə bir qədər sonra ulduza dönüb sonsuz sayda bəyaz tozcuqlar qonacaqdı: bir yerdə topa-topa, başqa yerdə dənə-dənə...

Qaranlıq qatı bir dumana bürünüb yavaş-yavaş hər tərəfi alırdı. Günəş şıltaqlıqdan yorulmuş utancaq qızlar kimi qarşıdan maşın sürətilə yaxınlaşan Vəng dağının arxasında gizləndi. Gün ərzinin ən maraqlı məqamı başladı. Günəşin batıb, ayın hələ çıxmadığı məqamı. Hövsələsiz bəyaz tozcuqlar hələ işığını tam qeyb etməmiş rəngli pərdənin üzünə bu axşam vaxtından bir az əvvəl qonmağa başladılar.

F.Q. yayın istisində qısaqol nazik ağ köynəyinin bütün düymələrini açıq maşın şüşələrindən içəri girən isti küləyə açmışdı, ta şəhərdən bura qədər qaranəfəs sürdüyü bu ala-bula maşın Vəng dağına doğru sağa-sola atdanıb yoldakı kələ-kötürdən qaça-qaça irəlilədikcə rəngli teatr pərdəsinə oxşayan nəhəng göy üzü, elə bil, böyüyürdü. Göy üzü bu uzaqdakı dağı, dağ ətəyindəki kəndə aparan tozlu-torpaqlı yolu (əgər buna yol demək olardısa), bu yolla "dişini dişinə sıxıb" zor-güc gedən köhnə maşının özünü bir canlıymış kimi ağır-ağır nəfəs alaraq öz içinə yığırdı. Hər şey qəribə şəkildə bir-birinə qarışmaqda idi. F.Q. sürən maşın Vəng dağının böyründən sürətlə ötüb kəndin ilk evlərinə, bu evlərin çəpər arxasında hürüşən itlərinə gəlib yetişəcəkdi, ya yetişməyəcəkdi, yoxsa bu qarışıqlıqda yolunu azıb nərildəyə-nərildəyə Vəng dağını arxada qoyacaq, dağın o biri böyrünə aparan daşlı-tozlu bir başqa yola hərlənib düşəcək, beləliklə, təzədən gəldiyi şəhər yoluna, şəhərə aparan istiqamətə dönüb o yolla şütüyəcəkdi – bunu demək çətin idi.

Pərdənin görünən tərəfi daha tanış, daha maraqlı idi. Keçən il bir dostunun ona: "rəngi, rəngi bu maşının müsibətdi, deyirəm, dosta qismət olsun!" deyə-deyə sırıdığı, özü də sonradan məlum olduğu kimi çox bahaya sırıdığı bu maşın, elə bil, əlinə (əslində, təkərlərinə) fürsət düşmüşdü, özünü ona göstərmək istəyir, yeri gəldi, gəlmədi vəhşi kimi gah səsini başına atır, gah da zarıldayır, inildəyir, yoldakı bütün dəlmə-deşikləri bir-bir "yoxlayır", bəzən yana qaçır, lazım oldu, olmadı atdanıb-düşürdü. Dağa tərəf gedən belə bir dar, daşlı yolla ilk dəfə maşın sürən F.Q. "bizdə yol yoxdu, bizdə istiqamət var – burdan oracan necə gedirsən, get..." maşının halına acıya-acıya (elə bil, zarıyan da o özü idi, dəlmə-deşıyə düşən də) birdən ağlına gəldi ki, bu maşının rəngini o hələ də əməlli-başlı müəyyənləşdirməyib. "...Rəngi, rəngi müsibətdi" deyən dostunun dodağının qaçmasını, elə bil, F.Q. yenidən gördü. Bu təbəssüm hardansa gəlib maşının qabaq şüşəsinə yapışdı. Maşının bəlli olmayan rəngini onun yadına başının üstündəki bu əsrarəngiz rənglər aləmi salmışdı, "F.Q., F.Q., sən nə zaman ağıllanacaqsan?!" F.Q. dostunun maşının qabaq şüşəsinə yapışıb qalmış qımışan üz-gözündən baxışını qaçırıb yuxarı, göy üzünə nəzər yetirdikcə belə düşünürdü: "hələ bilinmir, əsl oyun, əsl tamaşa rəngli pərdənin hansı tərəfində baş verir; tamaşaçılar hansı tərəfdədilər, oyunçular hansı tərəfdə?! Təskinlik bəlkə də elə bundadı."

Vücudu ilə sol böyrü üstə uzanmış koppuş devə bənzəyən bu dağın adı Vəng dağı idi. Kənd onun qarnının altına qısılmışdı. Qüruba yaxın ürəksıxan bir vaxt idi. Maşın irəlilədikcə Vəng dağı get-gedə böyüyən vahiməli bir qaraltıya çevrilirdi. "Kəndə hava tamamilə qaralmazdan əvvəl çatmaq pis olmazdı", – F.Q. sivri, oynaq qaşlarını çatdı, ayağını qaza basıb maşının sürətini bir az da artırdı. Sağda, solda tək-tək, cüt-cüt kənd evləri, kol-kosdan çəpəri çəkilmiş həyətlər, bu həyətlərdə sakit-sakit başın döndərib bu haylı-küylü maşının səsinə təəccüblə boylanan balaca uşaqlar görünməyə başladı...

# I fəsil

***Kəndə gələli iki ay altı gün sonra.***
***Axşama yaxın bir vaxt***

Vəng dağının ətəyinə (yatmış devin "ayaqlarına") kürəyini söykəmiş yastı-yapalaq komadan artırmaya bir ahıl adam çıxdı. Bu adam bir qoyun kürkü idi, köhnə şinel sayağı çiyninə atmışdı. Ağır tənbəki çəkənlər kimi bir-iki ağız yumşaq-yumşaq öskürüb, bəlkə də boğazını arıtdayırdı, çünki, əslində, Bəhram kişi indi artıq nə siqaret çəkirdi, nə tənbəki, nə də çubuq – son on ildə ancaq Vəng dağından gələn təmiz havanı ciyərlərinə çəkirdi. Bəhram kişi artırmadan həyətə endi, həyətin ortasındakı qollu-budaqlı Qarağacın altında skamya var idi, o skamyaya rahat-rahat yayxanıb oturmuş F.Q.-yə yaxınlaşdı, öz çiynindən götürüb kürkü bunun çiyninə atdı: "soyuq olar, balası, axşam üstü buraların havasına ümid yoxdu".

Həyətin dörd tərəfi hara baxsan alma ağacı idi, amma həyətin düz ortasında nə zamandan burda bitdiyi bilinməyən qol-budaqlı, görümlü və boylu-buxunlu bir ağac olan "Balaca" adlı Qarağacın misli və əvəzi yox idi. Bəhram kişi bu yekəlikdə ağacı ta uşaqlıqdan eləcənə "Balaca" çağırıb sanki canlıymış kimi oxşardı.

F.Q. bura gələli "Balacanın" altındakı taxtı özünün sevimli məskəninə çevirmişdi. Taxt həm də skamya kimi idi, taxtadan söykənəcəyi vardı. Burada axşamlar sərələnib oturanda gün ərzində daş daşımaya-daşımaya canına yığışan bütün yorğunluğu F.Q.-nin canından çıxırdı. Elə bil, ağacın altında yenidən doğulurdu, özünə gəlirdi, gümrahlaşırdı. Bayaq sərtləşən havadan (dağ tərəfdən artıq əməlli-başlı sərinlik gəlirdi) F.Q. azca üşümüşdüsə də,

amma tənbəlliyindən, ya da buranı tərk etmək istəmədiyindən qalxıb evə getmədi, indi isə Bəhram kişinin gətirdiyi qolsuz dəri kürk yerinə düşdü, canını bir balaca qızışdırdı.

– Bəs sən? – Kürkü çiyinlərinə otuzdura-otuzdura F.Q. nəzakət xətrinə (xala, xətrin qalmasın) səsinə hətta bir balaca səmimiyyət də qatdı, amma... "süni çıxdı, ayıb oldu".

– Mənə baxma, mən bunun istisin də tanıram, soyuğun da, şaxtasın da. Mənə heç baxma. Sən işində ol. Axşamdı. Bu vaxtın istisinə aldanmaq olmaz, heç olmaz. – Bəhram kişinin duru, mavi gözlərinin dibi yenə qəfildən işıqlandı.

Bəhram kişi başına alabəzək araxçın qoymuşdu, başını aşağı salıb F.Q.-yə məhrəm və səmimi bir təbəssümlə gizlicə nəzər yetirdi və ağır-ağır həyətin o biri başında, alma ağaclarının arasında birtəhər yerləşən "ayaq yoluna" tərəf gedib gözdən itdi. Yenə, bu dəfə həyətin ayaqyolu tərəfindəki alma ağaclarının arasından bir-iki ağız eyni yumşaq öskürək səsi eşidildi. Bu öskürək səsinə uçub gəlib bir arı vızıltısı qarışmadımı, qarışdı. Arı vızıltısı beyin deşən vızıltıydı, F.Q.-nin bütün diqqətini təkrar özünə çəkdi. Şübhə yoxdu, bayaqkı arı idi. Bir az əvvəl başı üstdə bir-iki zəhlətökən dövrə vurmuşdu. Elə bil, başının üstündə bu cür canfəşanlıqla vızıldaya-vızıldaya ona nəsə çox vacib bir şey demək istəyirdi. Axşamın bu vaxtı gərək axı arı olmayaydı. Azıbdı, nədi?! Arı bir-iki dövrə vurub "eh" elədi, uçub getdi, daha səsi gəlmədi. "Bəs necə... Beləcə peşiman olarsan. Elə bildin, səni durub əl-qol ata-ata qovalayacağam?! Yox, bir də yox! Mən səni qovalamayacağam, öldürməyəcəyəm. Mən axı sənin dostunam."

Bəhram kişigil nəsillikcə (bircə atasından başqa, atası çobanlıq edərdi) nə zamandan bəri, bəlkə də yüz illər boyu arı saxlardılar. Bəhram kişinin balını rayon mərkəzindən gəlib aparardılar – qonaq-qara üçün, vəzifəli adamlar üçün. Təmiz olurdu, şəffaf olurdu, dadlı olurdu, əsl çiçək balı idi. Bəhram kişi arıların balına əlavə heç nə qatmazdı. Həyətdəki pətəklər (on beş, ya da iyirmi pətək olardı) qapıdan girəndə sağ tərəfdən şahmatvari, çəpəki düzülmüşdülər. Bunu Bəhram kişi F.Q.-yə öyrətmişdi ki, arıdan qorxma, onu qovma, əl-qol atma, "sakitcə dur, elə biləcək, dostusan, o da sakitcə uçub gedəcək". Sınamışdı, doğru çıxdı. Özü-özünə zarafatca "arıların dostu F.Q." deyə bir ləqəb də verdi. "Nə zamansa avtobioqrafiyamı yazmağa başlasam, bu kitabın adını "Arıların

dostu" qoyaram. Amma... Bəlkə başqaları yazdılar mənim barəmdə?! Niyə də yox?! Ola bilər. Belə bir kitab yazılsa, adı hər halda "Arıların dostu" olacaq. F.Q.?? Hansı, hansıdı o? O sirli yazını, nəhayət ki, çözən?! Hansı yazını? Heç kimin oxuya bilmədiyi bu ağır mətni elm aləminə daxil edən? Hansı mətni – "Çiçəkli yazı"nı? Ola bilməz! "Çiçəkli yazı"nın sirrini omu açdı? O, o, əlbəttə, F.Q. – "Arıların dostu!" Daha kim olacaqdı ki, F.Q.-dən başqa?!"

Çiçəkli yazı ilə bağlı ümidverici (hətta fantastik!) fikirlər gəlib qəlbinə, ruhuna hakim olduqca bu biri tərəfdən sevgilisi Afaqla iki ay əvvəlki son söhbətinin acısını özü biləzəkdən unutmamağa, söhbətin bütün təfərrüatını bircə-bircə, yeri gəldi-gəlmədi yadına salmağa çalışırdı, beynində canlandırmağa cəhd edirdi, bunun üçün, əslində, xüsusi olaraq çalışmaq da lazım deyildi, heç nə onsuz da unudulmamışdı; nəsə yadından çıxmağa bir "namizəd" söz, cümlə olurdusa, zorla, müsibətlə, ehtirasla bunun qarşısını alır, həmən sözü, jesti qaytarıb o məqamın içinə qoyur, yenidən məqamın yerini beynində möhkəmlədir, özünə zülm edə-edə, elə bil, bundan həm də gizli bir güc (bəlkə – zövq?) alırdı – bir tərəfdən özünə əzab verə-verə güc itirir, o biri tərəfdən yenə də özünə əzab verə-verə hardansa güc alırdı. Həm də... Özü-özünə etiraf etməyə cəsarət tapmayıb beynindən qovmağa çalışsa da, əlini ürəyinin üstünə qoyub deyə bilməzdi ki, bütün bu məşəqqət və əzab dolu anlar ona daxili bir həzz (zövq!) vermir. "Amma yox, bəsdi! Qurtarmaq, qurtarmaq lazımdı bu komediyanı, bəsdi daha, mən uşaq deyiləm."

...Bəhram kişi bayaq getdiyi həmən cığırla yenə başıaşağı, yenə ağır-ağır gəlib daha bir kəlmə söz demədən artırmaya qalxıb evə girdi. Pəncərələrdən həyətə ilıq işıq süzüldü.

"Arıların dostu" yayxandığı yerdə necə ki tərpənməz idi, eləcə də tərpənməz bir halətdə, dərin fikirlərə qərq olaraq oturub qalmışdı. Elə bu zaman hiss elədi ki, sağ yanı qurumağa başlayıb. Yerini rahatlamağa çalışdı. "Yaxşı ki bu kürkü geydim, əməlli-başlı soyuq oldu".

Şər yavaş-yavaş qarışdı və axşam düşdü. Ətraf evlərdən, kəndin mərkəzindəki poçt və çayxana tərəfdən, yaxın, uzaq yollardan tənbəl-tənbəl qoyun-quzu mələşməsi, inək böyürtüsü, camış manqırtısı gəlməyə başladı. Qoyun-quzu, mal-qara örüşdən (bu gün bir az gec!) qayıdırdı. Həyət qapılarında

"pişvaza" durmuş arvad-uşaq inəkləri, qoyunları nəvazişlə ad-ad çağırıb səsləyirdilər, havada uçan adlara hərdən toz-torpaq qarışıb yaxını, uzağı görünməz edirdi, sonra çəkilirdi, süd sağmağa hazırlaşan uzunpaltar, alabəzək kələğayılı, kələğayısız qadınlar vedrələri orda-burda taqqıltıyla götürüb-qoyur, həyətlərdə üzə çıxıb gözə görükməyə başlayırdılar. Kənd nəfəs dərib obaşdandan başlamış bu uzun və üzücü gün ilə əbədilik vidalaşmağa hazırlaşırdı; son işlərini görüb qurtaran qurtarır, sonra isə barmaqları ağzında uşaqlar yumbalanıb yuxuya batan kimi ağır-ağır düşən axşamın həzinliyinə batırdı. Allı-güllü bağçalar, həyətlər əvvəl gümüşü rəngə boyanır, sonra bir-bir qaranlığa qərq olurdular. Bu zaman cırcıramaların təntənəli (bitib tükənməz) vaxtı gəlirdi, onların yeknəsəg səsindən başqa bu müdhiş sükutu heç nə pozmurdu. Əslinə baxsan, F.Q. elə bu vaxtı gözləyirdi. Kənd həyatından yadında qalacaq, unutmayacağı bir şey olacaqdısa, bu vaxtın özü olacaqdı və bu vaxtın əsl tacı səmanın və səmada peyda olan ulduzların zil qaranlıq içində bu qədər yaxında, az qala başının lap üstündə (əl uzatsaydı, əli dəyərdi) özünə yer tutması olacaqdı. Zil qaranlığın işıq topaları... "Bunlar (ulduzlar) adama gör bir necə göz vura-vura qalıblar. Elə bil, cırcıramaların bu zəhlətökən səsidi, çəkib onları yaxına gətirib.."

Amma təəssüf ki, F.Q. Qarağacın altında oturduqca başını qaldırıb bu bütöv səmanı göz dolusu seyr edə bilmirdi – ağacın az qala ayaq tutub yeriyən qol-budağı buna imkan vermirdi. "Hadisələr" irəlidə, qol-budağın, sıx yarpaqların uzanmadığı, çatmadığı yerdən cərəyan etməyə başlayırdı, ulduzlar üzü aşağı, səma ilə bir yerdə əyilib-düzəlib hardasa kəndin güclə gözə görükən ucqar bir nöqtəsində, uzaqdakı təpələrin üstündə torpağa yapışmışdılar. Bu nöqtəni F.Q. öz aləmində "hadisələrin üfüqü" adlandırmışdı. Niyə? Özü də bilmirdi. Baxdıqca F.Q. hadisələrin üfüqünə sarı baxırdı (ulduzlar orada – gözdən uzaq yerdə, elə bil, yer üzünə ayaq basa-basa gəzişirdilər), bu zaman köks dolu nəfəs alırdı, havada uçan zərif alma ətrini ləzzətlə, var gücüylə ciyərlərinə çəkirdi: "niyə, niyə adamdan kənarda nə varsa hər şey bu boyda ahəngin içində var ola bilir? Bəs biz, biz nə üçün bu ahəngdən kənardayıq, niyə, görəsən, ona qovuşa bilmirik?!" Beyninə bu cür müəmmalı və narahat fikirlər gəlib girdikcə, qəlbinin döyüntüsü artır, qanı qaynayır, az

qala cismi ilə ruhunun ayrılmaz təmasını hiss edir və təəccüblü o idi ki, nəyə görəsə bu zaman hardansa gəlib anlaşılmaz bir qəhər onu boğmağa başlayırdı. Hətta bir dəfə gözlərinin şəfqətdən yaşardığını da hiss etmişdi və bu F.Q.-yə, həqiqətən, qəribə gəlmişdi. Amma nahaq. Bunda qəribə bir şey yox idi. Kəndə gələli iki ay (əslində, iki ay, altı gün!) sərasər, böyük bir gərginlik içində, hətta əzab, hətta məşəqqətlə çalışdıqca çalışmış, əlindən gələni və gəlməyəni etmiş, amma ki, bütün bunlara baxmayaraq, Çiçəkli yazının sirrinə bir addım belə yaxınlaşa bilməmişdi. Əlbəttə, bu, F.Q.-ni haldan çıxarır, olan-qalan əsəblərini tarıma çəkir və o yeri gəldi, gəlmədi əsəbiləşməkdən (səssiz-səmirsiz bir halda; bu isə ikiqat ağır idi) özünü saxlaya bilmirdi. Öz acınacaqlı halına hələ bir kənar gözlə də baxmağa adətkərdə olduğundan, əslində, gərək özündən xəbərsiz gözlərindən çıxıb yanağına sürüşən göz yaşına təəccüb etməyəydi. Çox lovğa-lovğa bu işə girişmişdi, bu da mükafat – göz yaşı. "Mən ha... gözümdə yaş ha?!"

Göz yaşı tənha idi. Bu tənha göz yaşı bir tərəfdən ətrafın – kainatın uzaq ulduzundan tutmuş Qarağacın budağına ilişib-qalıb, yuvasına gecikmiş və zəhlətökən bir dızıltıyla başı üstündə aramsız fırlanan arıya qədər bütün ətrafın möhtəşəm Ahəngi qarşısında sözsüz və aciz sitayişdən doğurdusa, o biri tərəfdən Çiçəkli yazı qarşısında F.Q.-nin gücsüzlüyündən xəbər verirdi. Bir damla göz yaşı – sitayiş və gücsüzlüyün qovuşduğu nöqtə. "Yox, bu təkcə yazı ilə bağlı deyil, mən bilirəm, o ifritə balasıdı baiskar, odu, Afaqdı..." Tənha göz yaşını utana-utana yanağından silərkən ilk dəfə kəndə maşın sürüb gəldiyi o "ilhamlı" axşam yadına düşdü. O zaman F.Q. elə vəcd və şövqlə Çiçəkli yazı barəsində düşünürdü ki, ona hətta elə gəlirdi, bütün həyatı bu kənddə hökmən dəyişməlidi, unudulası nə varsa unutmalı, yazı ilə, ancaq Çiçəkli yazı ilə beynini, qəlbini, ruhunu doldurmalıdı. Düşünürdü ki, bu saat bu sirli yazını – heç kimin indiyə qədər oxuya bilmədiyi Çiçəkli yazını elə indi, elə bu dəqiqə gətirib qabağına qoysalar qəlbinə sığmayan, bütün varlığından aşıb-daşan bir ilhamla onu oxuyar (çözər). Şəhərdən onu bura göndərənlərin inam-etibarını doğruldar. Əsas olan budu – inam-etibar! Başqa heç nə, heç nə deyil! Elə olmadı. Gün günü əvəzlədi, ilhamı, vəcdi onu yavaş-yavaş tərk elədi, əvəzinə tərəddüd, ehtimal, qorxu gəlib girdi qəlbinə, oranı

özünə məskən seçdi. Qəribə idi, az bir vaxt keçdi, F.Q. yavaş-yavaş təkcə qorxunun özündən yox, onun nə zamansa gələ biləcəyindən də qorxuya düşməyə başladı, vahimələndi...

Afaqla bağdakı söhbət heç cür unudulmadı ki, unudulmadı. Nə sözlər demədilər biri-birlərinə?! Hərəsini bir eşşəyə yükləsəydin, götürməzdi. "Elə yaxşı oldu, canım ki bundan qurtardı, sorub-sorub qanımı içib bitirəcəkdi məni, çox yaxşı oldu. Hələ sən mənə bir bax. Belə də sevmək olar, mənim sevməyim də adam kimi deyil. Yox, bir də yox! Getsin işinə. Amma... Bu necə ola bilər axı? Mən ona sübut eləməsəm ki, düzgünü elə mən deyəndi, o, (o!) isə mənə yalan deyir, mən heç mən olmaram. Uff... məndə ağıl varmı? Yoxdu, vallah, yoxdu. Qurtarmısan, qurtar bu məşəqqəti, bu əzabı, F.Q., qurtar! Qurtarmasan heç... kişi deyilsən!.."

...Bir az da bu üzücü düşüncələrlə, bu ürəksıxan xatirələrlə gəlib vaxt keçdi. F.Q. hiss etdi ki, havada dolaşan ətirdən başı yavaş-yavaş gicəllənməyə başlayır. Nağıllarda müşk-ənbər demirlərmi, bu elə o idi. Həyətdə alma ətrinə otların, dağ cığırı kənarında bitən balaca-balaca çiçəklərin və... özünə də qəribə gəlirdi, ancaq kənd yerində xüsusi "cazibədar" təsiri olan qoyun-quzu, mal-qara (köhnə peyinin) qoxusu qarışır, bütün bunlar hamısı bir yerdə onu əməlli-başlı məst edirdi. Bəlkə elə buna görə bu biri tərəfdən yavaş-yavaş yuxusu gəlməyə başladı. Mürgüləmək isə olmaz. Amma yox... Bəhram kişinin onun çiyninə atdığı bu qolsuz kürk, deyəsən, yavaş-yavaş ətrafı bürüyən sərinliyə məğlub olmaq istəyir. Bu isə yuxuya apara bilər. Yuxuya getmək isə xəstələnmək deməkdi. Xəstələnmək? Əsla!.. Xəstələnmək, özü də indi – yasaq! Yasaq!! Bütün gücünü toparlamalıdı, bütün gücünü. Son, sonuncu həmləyə hazırlaşmalı, sonuncu ehtimalı da yoxlamalı, yalnız bundan sonra əlinin arxasını yerə qoya bilər. "Allah qoysa, Allah qoysa, belə olmaz, inşallah, belə olmaz". Qəribə bir şəfqətlə Qarağacı budaqdan budağa, qabardan-qabara gözdən keçirdi. Qarağac yarpaq-yarpaq xışıldayırdı.

Bəhram kişi yenə artırmaya çıxıb bu dəfə onu təkidlə içəri çağırdı. "Evə gəlməsi məsləhətdi, artıq bu vaxt bayırda oturmazlar, şər qarışan zamandı, indi hər yan gözəgörünməz ruhlarla, şeytanlarla dolubdu, ona görə də lənət şeytana demək lazımdı, əlbəttə, lənət şeytana, İblisə və onların hamısı köməkçilərinə..."

Bəhram kişi bu dəfə F.Q.-ni sadəcə çağırmaqla kifayətlənmədi, evin qapısını açıq qoyub, özü də artırmada nümayişkaranə bir səbrlə onu gözlədi. F.Q., nəhayət, əlbəttə ki, istəməyə-istəməyə (hər necə də olsa, şəxsi azadlığına təcavüz edilirdi), baxmayaraq ki, hələ bir qədər də Qarağacın altında oturub qalmaq və bu möhtəşəm Ahəngə qovuşmasının, amma yox, əslində, qovuşa bilməməsinin sirrinə vaqif olmaq niyyətində idi, bəli, həm buna baxmayaraq, həm də istəməyərəkdən oturduğu və yanını qurutduğu taxtdan bir təhər qalxdı (bir yanı, həqiqətən, qurumuşdu), evə tərəf addımladı, "qurumusan, F.Q., xəbərin yoxdu..."

Bəhram kişi və F.Q evə girdilər, qapı örtüldü. Həyətdə arı pətəklərindən və başda "Balaca" olmaqla alma ağaclarından savayı az qala Abşeron bağlarında talvarlardan sallanan üzüm salxımlarına bənzəyən ulduzların həyətə göndərdiyi yanıb-sönən (sayrışan) işıq topasından başqa heç nə qalmadı. "Talvardan asılan üzüm" yenə onun yadına bağ evində Afaqla birgə keçirdikləri son axşamı saldı.

– "Sən özündən başqa heç kimi düşünmürsən!

– Mən? Allahın olsun...

– Sən! Sənə demişdim, evdən çıxanda zəng elərsən. Demişdim, deməmişdim?

– ...

– Demişdim, deməmişdim??? ... Göz yaşı cavabdı?

–Yox, cavab deyil... Sən bilirsən ki ...

–Bilmirəm! Normal cavabın yoxdu çünki.

–Yoxdu... Vallah, tələsə-tələsə çıxdım. Anam tələsdirdi məni.

– Bax, gördün?! Yenə də o! Daha mən sənə nə deyim?! Deyirəm də, özündən başqa heç kimi...

–Mən yorulmuşam, vallah, mən yorulmuşam".

("Allah, elə et ki, bu dəfəki ayrılıq doğrudan da son ayrılıq olsun, nolar, elə et...")

Bəhram kişi artıq süfrəni açmış, çayı dəmləmişdi. "Əsas çaydı. Süfrənin yaraşığı, canın salamatlığı çaydı, çaysız çətin olar..." Bu adamın özünəməxsus bir çay səliqəsi vardı. Bəhram kişi çaysız Bəhram kişi deyildi. Harda olsaydı,

çayı hökmən özü dəmləməliydi. Samovarı da həmişə qaynar olardı. Bu işdən xüsusi zövq alırdı. Bundan başqa Bəhram kişi yetmişə yaxınlaşan ahıl vaxtında xeyli zəhmətkeş bir adam idi. Evin içində, həyət-bacada çalışdıqca çalışardı – pətəklərlə, ağaclarla, toyuq-cücəylə... Bir sözlə, istərdi ki, bütün işləri özü görsün. Bir başqasına, illah da ki, qonağa əziyyət vermək heç istəməzdi. İlk günlər F.Q. istəmişdi, xırda ev işlərində ona bəzi köməkliklər göstərsin, hər halda Bəhram kişi evində ona yer vermişdi, əziz qonaq kimi qulluğunda durmuş, hər cürə diqqət yetirmişdi. Amma nə illah eləmişdi, istəyinə çata bilməmişdi. Bəhram kişi hər dəfə zarafata salıb onu ev içində iş görməkdən yayındırmışdı, fikrini bir başqa səmtə yönəltmişdi. F.Q. bir də göz açıb görmüşdü ki, Bəhram kişinin çox "maraqlı" bir sorğusu ilə gedib cidd-cəhdlə kitabdan kitaba qurtdalanıb hansısa bir sözü axtarıb tapana qədər çay artıq dəmə qoyulmuş, yemək qabları evin bir küncündəki dördbucaqlı masanın üstündən yığışdırılmış, masanın üstü isə təmizlənmiş, çirkli qab-qacaq hələ yuyulmamışdısa da, bilinmir ki, harda gizlədilmişdir, amma bilmək olmazdı, bəlkə hələ Bəhram kişi macal eləyib onları yuyub qurulamışdı.

F.Q., nəhayət, bir çox belə uğursuz cəhddən sonra niyyətindən vaz keçdi, Bəhram kişiyə təslim oldu. Artıq nə doğrudan, nə də yalandan yeməkdən sonra əlini heç nəyə vurmur, otağdakı yeganə pəncərənin altına Bəhram kişinin hardansa sürütdəyib dayadığı yazı masasının (əslində, bu da bir başqa cür yemək masası idi, onun şəhərdəki balaca, yöndəmsiz, amma cürbəcür dolabları olan əsl yazı masası bu dördayaqlı "kötüyə" baxanda ceyran misalıydı) arxasına keçir, özü dediyi kimi dəftər-kitabla qurtdalanmağa başlayırdı.

– Nə qayırırsan? Məşğulsan, balası? – Bir dəfə Bəhram kişi gətirdiyi çay stəkanını qalaq-qalaq kitab-dəftərin arasına yerləşdirə-yerləşdirə ondan soruşmuşdu və aldığı cavabdan məəttəl qalmışdı.

– Qurddalanıram. – F.Q. cavab vermişdi. (Dil və Təfəkkür İnstitutunda adi zarafat!)

– Nə qayırırsan???

– Qurddalanıram!

* * *

Bəhram kişinin həyətinə böyük həyət deməzdin. Amma kiçik də deyildi. Pətəklər, alma ağacları, toyuq-cücə hini, təkliyinin sədaqətli yoldaşı Bozların yuvası. "Balaca" – böyük və qədd-qamətli Qarağac... Elə bil, kimsə körpə vaxtı bu pöhrəyə pıçıldamışdı ki, sən adi ağac deyilsən, sən ağaclar ağacısan. O da bu sözə inanmışdı. Qol-budağını şəstlə yana açıb (gəlinlər kimi) gövdəsini qürurla göyə (kişilər kimi) tuşlamışdı. Həyət üç tərəfdən (dördüncü tərəf evin kürəyini söykədiyi yer – dağın – dev ayağının ətəyi idi) kolu-kosu, boysuz-buxunsuz tikənləri və cındırış kollarının (Bəhram kişi onlara süngür kolları deyirdi) bir-birinə qarışıb səfləndiyi necəgəldi çəpərlə əhatələnmşdi. Dördüncü, arxa tərəfdə isə çəpərə, ümumiyyətlə, ehtiyac yox idi. Həyətdə çəpər adına nə vardısa qövsi-quzeh kimi bu evi əhatəsinə alıb hər iki tərəfdən fırlanaraq gəlib dördüncü dağ tərəfə dirənir, burada yox olurdu. Qövsi-quzeh beləcə qapanırdı və tikənli çəpər evin arxasına keçmirdi.

Əslində, bu çəpər təkcə mal-qara, qurd-quş üçün deyildi. Çoban papağı kimi yastılanıb həyətin çəpərsiz divarına – Vəng dağına qısılmış bu evə yaxın düşmək istəyən bir kimsə bu cəngəllik çəpəri keçə bilməzdi, gərək o, evin düz başı üstünə dağın canından qopub bir sivri qaya quzğun dimdiyi kimi uzanmışdı, eynən quzğun kimi qanad açıb evin sanki günlüyü idi, evi qoruyurdu, o kimsə gərək bu qaya parçasından özünü aşağı tullayaydı. Qaya parçası isə xeyli hündürdə idi – on-on iki metr hündürlükdən nəinki insan olan bəndə buna cəsarət etməzdi, heç vəhşi heyvan da özünü aşağı atmazdı.

Qayanın altında Bəhram kişinin koması, həqiqətən, F.Q.-nin dediyi kimi yastı çoban papağına bənzəyirdi. Bu komanın balaca bir artırması var idi. Artırmadan qapını açıb içəri girən kimi o qədər də kiçik olmayan, hətta kənd evləri üçün böyük sayıla bilən dördkünc bir otağa girirdin, sonra bu otağın yuxarı tərəfində iki qapı hər biri təkpəncərəli balaca yataq otaqlarına açılırdı. Bu otaqların ikisində də çarpayı və paltar dolabı var idi. Yüngülvari şam yeməyindən sonra qapıdan içəri girəndə həyətə açılan sağ tərəfdəki pəncərəyə yaxın səliqə-sahmanı ilə seçilən yataq otağının (bu xüsusi otaq ancaq qonaq-

lar üçün idi) iki ay altı gün bundan əvvəl Bəhram kişi qapısını açıb əlində yol çantası yorğunluqdan zor-güc ayaq üstə duran F.Q.-yə ərklə belə demişdi:

– Bax, ay oğul, bu otaq oldu səninki. Dolabda hər şey var, təmiz mələfə, yorğan üzü... Başqa nəyəsə ehtiyacın olsa xəbər elə, götür. Özünə heç korluq vermə. Təmizlik hər şeydən vacibdi. Bir şey istəsən, bax, utanmayasan. Di yol gəlmisən, yorulmusan. Əşyalarını yerbəyer elə, gir yerinə. Sabah səhər söhbətimizi edərik. Dincəl. Hə, nədi o, ayaqyolu... həyətdədi, artırmadan düşdünmü, sola dön, çığır özü səni aparacaq. İşığı elə artırmadan yanıb sönür.

Çoban papağının artırması üç ayaq üstündə idi. Ayaqlar – kərpic dirəkdən. Artırmanın dimdiyindən dirəklərin altına navalça tuşlanmışdı. Yağışlar burdan keçib guya evin arxa tərəfini çox da islatmadan torpağa hopmalı idi. F.Q. evi görən kimi onu ürəyində "çoban papağı" adlandırmışdı, müqayisə dəqiq idi, amma bu balaca artırma Çoban papağının bütün simmetriyasını pozurdu, çünki başındakı dəmir örtük bu papağın, əslində, lüzumsuz dimdiyinə oxşayırdı. Çoban papağı və şapka dimdik?! Özü də bir balaca yanakı dimdik. Bu dimdik uzaqdan baxanda yatmış kimi görünən o devin ayaqlarının arasına ox idi sancılmışdı. Evin üstündə dağın iti qaya parçası kimi irəli çıxan (bəlkə də içəri girən) sıldırım quzğun dimdiyi ilə artırmanın bu əyri-üyrü dəmir dimdiyi bir-birindən boy-buxunca, əzəmətcə xeyli fərqlənsələr də, amma yenə də ekiz qardaşlara oxşayırdılar. "Ayaqyolunun işığı eləcə artırmadan yanıb-sönür". Artırmanın bu nahamvar dəmir dimdiyi ayaqyoluna tərəf gedən cığırın əvvəlini (birinci addımını) yuxarıdan ancaq tuturdu.

Çoban papağı kürəyini arxadan külünglə (elə bil, ülgüclə) çapılmış, etibarlı lay divar misalı ucalan Vəng dağına söykəmişdi, bəlkə də buna görə bütün görkəmindən bir laübalik, arxayınçılıq yağırdı. Başı üstündə qanad açmış quzğun qaya (Çiçəkli yazı tapılan mağara bu quzğun dimdiyi ilə üzbəüzdə, ortadan keçən cığırın sağ tərəfində idi) bu evin Vəng dağının – haman yatmış devin himayəsi altında olmasına sanki bir işarə idi, hər halda bunu belə də anlamaq olardı. F.Q-nı əməlli-başlı mat qoyan bu idi ki, ətrafda hökm sürən bu möhtəşəm Ahəng özündən kənara açıq və aşkar məna-məzmun kəsiklərinə bürünmüş işarətlər göndərirdi. "Bütün bu düzüm, bütün bu ahəng, bu ardıcıllıq bir işarət deyilmidir, əlbəttə ki, bir işarədir. Çiçəkli yazı da o qəbil-

dən. Mənim canımı bu bəladan qurtarsa Çiçəkli yazı qurtarar. Necə gəlib öz ayağımla düşdüm bu zülümə?! Ax... ax... Bəladı mənim işim, bəladı..." Eşidən elə bilərdi, F.Q. "bəla" deyəndə Çiçəkli yazını nəzərdə tutur. Amma, yox. Bəla Çiçəkli yazı deyildi. Bəlanın adam kimi adı vardı. Bəlanın adı Afaq idi. İlıq, mülayim, təmənnasız sevgisi ilə ona əzabdan (əslində, daxili rahatlıqdan?) başqa heç nə gətirməyən Afaq!..

### *Kəndə gəldiyi birinci axşam.*
### *Mübariz kişi ilə tanışlıq*

Özünü hava qaralar-qaralmaz kənd sovetinə ancaq çatdıra bildi. Maşın xırıltıyla səsini ("xırp") elə kəsdi ki, sanki bu dəmir yığnağından bir daha heç zaman heç bir səs çıxmayacaqdı.

Birmərtəbəli, yöndəmsiz bina olan (tikiləndə məktəb binası kimi tikilirdi, yarımçıq qaldı) kənd sovetinin qapısında ahıl yaşda bu istidə əyninə dama-dama, köhnə, amma səliqəli pencək geymiş, uzun burnu və üzü-gözü tər içində bir kişi – olardı yetmiş, yetmiş beş yaşlarında – durmuşdu və elə bil, məxsusi onu gözləyirdi. O, səsi-küyü aləmi başına götürmüş bu qəribə maşından çıxan F.Q.-ni maraqla süzüb, salamını köhnə tanışlar kimi xeyli mehriban bir tərzdə aldı və cib dəsmalı ilə boynunun tərini silib şirin bir dillə:

– Salam, salam, xoş gəlmisən, – dedi. – Deyəsən, uzaqdan gəlirsən?! "Şəhərdən gəlir." Yaxşı çatmısan, mən elə indicə çıxırdım. Qayıdaq otağa. Gəl, gəl, burdan gəl.

Mübariz kişi (qapıda duran isə kənd sovetinin sədri Mübariz kişinin özü idi) yenidən, bu dəfə F.Q. ilə birgə bu birmərtəbəli tikilinin dəhlizi ilə qayıdıb sağ tərəfdəki ikinci qapının qarşısında dayandı. Açarla indicə bağladığı qapını yenidən açdı və əvvəl təkidlə F.Q-ni içəri (az qala itələyib) saldı, sonra özü keçdi otağa, küçəyə açılan yeganə pəncərəni aralayıb pəncərənin ağzındakı stolun arxasında oturdu:

– Əyləş, belə, bura əyləş, istini görürsən, bu axşam yaman istidi... – dedi və dəsmalı yenə üzünə, boğazına çəkdi.

Bu istidə bu cür qalın pencək geyinmiş kənd sovetinin sədri Mübariz kişinin uzun burnundan və azacıq sağ ayağını çəkməyindən, iti, çox iti baxışlarından başqa yadda qalan, əlamətdar bir cəhəti, gərək ki, yox idi. Hə, bir də təkid eləməyi xoşlardı. Ehtiyatla, altdan-altdan baxa-baxa... Mübariz kişi ilk baxışda bir qədər sirriçində adam idi.

F.Q. stulu çəkib Mübariz kişinin qarşısında oturdu. Stul ki, ortalıqda idi, sağ-solda heç nə yoxdu, ətraf çılpaq görünürdü, ona görə də F.Q. Mübariz kişinin qarşısında sanki bir müttəhim kimi idi.

– Xoş gəlmisən... – Mübariz kişi F.Q.-ni maraqla süzüb səmimi-qəlbdən bir daha salamladı. – Mən Mübarizəm, kəndin sədri, görürəm, uzaqdan gəlirsən, nə köməyim dəyə bilər, bala, sənə?

– Xoş gününüz olsun, Mübariz... müəllim, Mənim adım F.Q.-di. Sizə Professordan salam gətirmişəm, bir də bu məktubu, – F.Q. əlindəki məktubu ona uzatdı.

Mübariz kişi, elə bil, dirçəldi, Professorun adını eşitcək baxışı bir az da yumşaldı, F.Q.-yə az qala nəvazişlə baxmağa başladı. "Hə, o iş üçün gəlib, bu da gəlib yazını oxumağa". Yeni maraqlı söhbətlər, şəhər-kənd dedi-qoduları, tarixə, özü də uzaq tarixi kökə atılan lağımlar, xalqımızın ənənələri və onların unudulma qorxusu... daha nələr, daha nələr, suallar, suallar, şirin mübahisələr, tərəf-müqabilin bu zaman küncə sıxışdırılması və... sonda və yenə də, əlbəttə ki, mərhəmətli Mübariz kişinin səmimi sözləri. " Sizdə nə günah, sizin günahınız yoxdu..." kimi heç bir məna bildirməyən sözlər... Bütün bunların yaxın gələcəkdə baş vermə ehtimalı Mübariz kişini özündən asılı olmadan həyəcanlandırdı.

– Salam gətirən də sağ olsun, salam göndərən də, – əlində F.Q.-nin uzatdığı məktubun ora-burasına baxa-baxa Mübariz kişi iti baxışlarını birdən onun düz gözlərinin içinə dikib saxladı, bayaqkı şuxluğu hara yox oldu, uçub getdi, bu dəfə son dərəcə ciddi bir tərzdə soruşdu:

– Səni də... yazını oxumağa göndərdilər? Çiçəkli yazını, deyirəm, oxumağa gəlmisən?

Cavan oğlan gülümsədi, yəni, "nə bilim, görək də, Allah qoysa, inşallah..." Mübariz kişi isə başını mənalı bir şəkildə tərpədə-tərpədə "həəə" elə-

yib ciddiyyətini yenə də pozmadı və məktubu ehtiyatla açıb aramla (dodaqlarını səssizcə tərpədə-tərpədə xeyli aramla) ürəyində oxumağa başladı.

Yorğunluğu canından çıxmayan, indinin özündə ancaq rahat yataq, isti çay barədə düşünən F.Q. Mübariz kişinin bu cür (bilərəkdən?) onu yubatmasını heç cür anlaya bilmirdi. F.Q. Mübariz kişini, Bəhram kişini Professorun söhbətlərindən tanıyırdı. Uzağa getməyək, elə ikicə gün əvvəl Professor ona səfərlə bağlı son göstəriş və tapşırıqlarını verəndə "Mübariz və Bəhram çox yaxşı adamdılar, onlar səni korluq çəkməyə qoymazlar. Qalacaq yerin Bəhram kişinin evi olacaq. ("Bəs elə isə bu kişi nəyi gözləyir?!"). Mağaraya ən yaxın evdi. Özü də məsləhətli adamdı. ("Bəs dur ayağa, gedək də...") Bu məktubu isə verərsən Mübarizə. Nə çətinliyin olsa onlarlıqdır. Oxumaq, yazmaq isə, necə deyərlər, sənlik. Ümidimiz artıq sən qaldın. Bu, son ümiddi, bu dəfə də alınmasa... bir cızıq yuxarıdan (üstdən), bir cızıq aşağıdan (altdan), Çiçəkli yazının bizə, deməli, dəxli yoxmuş. Son ümid sənsən, biləsən".

Kənd sovetinin sədri Mübariz kişiyə məktubu Dil və Təfəkkür İnstitutunun direktoru, çoxdanın akademiki olsa da hamının həmişə böyük məhəbbətlə "Professor" deyib çağırdığı, müasir Azərbaycan dilçiliyinə böyük töhfələr vermiş Məmmədəli müəllim özü yazmışdı. Əslində, bu məktub etimadnamə kimi bir şey idi. Özü də ümumi ruhu eləydi ki, elə bil, bir adama deyil, bütün kənd əhlinə ünvanlanmışdı. Məktubda Professor, Mübariz kişiyə və eləcə də bütün kənd əhlinə bildirirdi ki, gənc alim F.Q.-yə böyük dövlət əhəmiyyətli bir işin öhdəsindən gəlmək kimi məsuliyyətli və ağır bir vəzifə tapşırılıb. Bu gənc alimin Çiçəkli yazını deşifrə edib ("deşifrə?") oxuması üçün gərək kənd əhli əlindən gələn köməyi əsirgəməsin. Böyük-böyük alimlər istedadlı gənc mütəxəssis F.Q.-yə ciddi ümidlər bəsləyirlər və onun təklif etdiyi deşifrə (açıqlama) üsulunu dəstəkləyirlər. Mübariz kişi bu yerə çatanda başını məktubdan ayırıb və qaşlarını çatıb F.Q.-ni yenə, bu dəfə xüsusi diqqətlə, hətta demək olar, gizli bir rəğbətlə süzdü. Professor az qala məktubda bu üsulun o biri üsullardan fərqinin elmi izahını da verirdi (Mübariz kişinin qaşları yenə çatıldı). Sonda isə arzu və ümidlərini bildirirdi. Çiçəkli yazı hökmən oxunmalıdır, çünki bu yazı xalqımızın tarixi ilə bağlı bir çox qaranlıq mətləblərin üzərinə işıq sala bilər və salmalıdır. Nə bilim, bu dəfə bu iş, nəhayət, başa çat-

malı, əvvəlki iki cəhdin uğursuzluğu bizi ruhdan salmamalıdır (bilinmirdi, Professor "bizi" deyəndə konkret kimi nəzərdə tutur, kənd əhli də bu sözün içində gedir, yoxsa bu ancaq şəhərdəkilərə aiddir?!) bəli, elə belə də yazılmışdı: "bizi!". Mübariz kişi "hm" eləyib bir qədər də ciddiləşdi, özünü yığışdırdı: "Məsuliyyətli olmaq lazımdır". Əvvəlki cəhdlərin ikisi də onun yaxşı yadında idi, o cəhdlər elə əvvəldən könlünə yatmamışdı, mütəxəssis adı ilə gələnlərdən elə ilk andaca Mübariz kişinin gözü su içməmişdi, indi isə bu cavan oğlan, bu F.Q.! "Özündən çox razı adama oxşayır". Qərəz, ilk cəhdlərin uğursuzluğu, Professor yazırdı, bizi (!) ruhdan salmamalıdı, ölkə ictimaiyyəti bizdən (yenə bizdən!) hünər gözləyir, belə-belə işlər, sağ-salamat qalın, cansağlığı, yaradıcılıq uğurları ("yaradıcılıq uğurları?"), Bakıya gələndə görüşmək arzusu, öncədən təşəkkürlər və s. və i.a. Məktubun sonunda hörmətli zatın imzasının altında böyük və dəbdəbəli (onunku ilə heç müqayisəyə də gəlməzdi – Mübariz kişinin bu yerdə hətta bir balaca paxıllığı da tutdu) iri bir möhür basılmışdı – elə bil, o möhürü onunçün elə yekə-yekə vurmuşdular ki, məktubdakı isti, səmimi sözlər onu oxuyanı çaşdırmasın, məsələyə münasibətdə ciddiliyi azaltmasın, əksinə, məsuliyyəti artırsın.

Mübariz kişi möhürün bir qədər də ora-burasına gizli həsəd hissi ilə tamaşa etdi, çalışdı dairənin ətrafındakı qarmaqarışıq sözləri oxusun, alınmadı, nəhayət, dərindən nəfəs çəkib (köks ötürüb) "belə..." dedi:

– Belə-belə işlər... – Mübariz kişi bu boyda məktubdan kiçik bir sitat gətirərək, nəhayət, məktubu səliqə ilə bükdü və mizin çəkməcəsini çəkib ehtiyatla ora qoydu. – Bəli, belə-belə işlər. Aydındı məsələ. Professor necədi, salamatdımı? – Mübariz kişi heç bir cavab gözləmədən soruşdu, beynində isə fırladırdı ki, F.Q.-ni birinci günmü aparsın öz evinə və çəksin onu söz-fikir imtahanına, "bu necə edəcək, görəsən oxuya biləcək, heç ağlıma batmır...", yoxsa məktubda yazılan kimi elə birinci gündən aparıb Bəhram kişiyə tapşırsın?!

– Salamatdı. Hamı salamatdı, hamının salamı var. – Bu dəfə F.Q. bir azcana səbirsiz cavab verdi.

– Belə... "Səbrsizdi". – Əsəbləri dəmirdən olan Mübariz kişi arxayın-arxayın öz sorğu-sualını davam etdirdi. – Şəhərdə nə var, nə yox, hələ?! Şəhər dəyi-

şir, dəyişmir? – Sonra onu diqqətlə süzüb qəflətən, – sən heç kənddə olmusan? – soruşdu.

Mübariz kişi F.Q.-nin üst-başına, oturuşuna, yerişinə-duruşuna bayaqdan nəzər yetirirdi, nəhayət ki, bu sualı verdi. Dözmədi. "Ağlım bir şey kəsmir".

– Şəhərdi də. Dayanıb yerində, nə bir yana tərpənir, nə də dəyişir.

Əsas suala isə ("Sən heç kənddə olmusan?") F.Q. cavab vermədi. "Yox, bu adam heç kənddə olmayıb, ilk gəlişidi. Dikbaşdı, gözün dikir adamın gözünə, çəkmir, bildiyini babasına verən deyil, bir az da... yox, elə əməlli-başlı lovğalığı da var. İstedadlı gənc mütəxəssis..." Çətin sezilən rişxəndli bir təbəssüm cavab kimi gəldi qondu sovet sədrinin nazik dodağının ucuna və o açıq-aşkar yalançı bir şuxluq içində onun üzünə qaşqabaqla baxan F.Q.-yə öz "günahsız" sualını bir daha (bu dəfə məsum-məsum) təkrar eləmək qərarına gəldi:

– Deyirəm, bu vaxtacan heç kənddə olmusanmı?

Mübariz kişi F.Q.-nin "ədabaz" cavabını ("Şəhərdi də, durub yerində"), elə bil, heç eşitmədi, "gənc mütəxəssis"in darıxıb-darıxmamağı, yorğun olub-olmamağı, belə məlum olurdu ki, vecinə belə deyil, "aha, deyəsən, karıxmağa başladı bu istedadlı (?) gənc alim..." Sovet sədri verdiyi suala dəqiq cavab almadan əl çəkən adama heç oxşamırdı. F.Q. narazılıqla başını yırğaladı, açıq-aşkar yaxasını qurtarmaq üçün:

– Olmuşam, olmuşam. Dialekt yığmağa getmişəm tələbəlikdə – xalq deyimləri, sözlər, nəğmələr... Hər yerin özününkü olur, – dedi. Tələsik dedi.

– Nə yaxşı, nə gözəl... "Bəlkə bu dəfəlik yetər?!" – Hə, onda, sənin işin bir elə çətin olmaz. Kəndistan yeri darıxdırıcı yerdi. – Mübariz kişi səsində gizli bir qüssə zənlə F.Q.-ni süzdü.

– İş çoxdu, darıxmağa macal olmayacaq. "Darıxmaq ha?!"

Mübariz kişinin bu sözlərdən sonra qanı yenə də qaraldı. Əməlli-başlı, necə deyərlər, dalağı sancdı. Ünsiyyət heç cür alınmırdı. "Lovğa gədədi, ancaq..." Bir şeyi anlaya bilmirdi, F.Q.-nin bu cür dikbaşlığı (gizli də olsa), bu cür lovğalığı, bu cür təkəbbürü (daha dəqiq söz tapmaq çətin idi, əlbəttə – təkəbbür!) niyə onun kefini başlamışdı pozmağa?! Ona qəribə gəlirdi ki, beyninin dərinliyində bir əzablı (niyə əzablı?) duyğu doğulur. Qısqanclıq duyğusu.

Çiçəkli yazını bu uşağamı qısqanır?! Niyə yasa batırdı?! İçini, qəlbini, elə bil, qurd gəmirirdi. Səbəb isə məlum deyildi. "Ruh məsələsindən Bəhram özü yəqin onu xəbərdar edər... lazım bilsə... Mənə nə gəlib?!"

Pəncərədən içəri gəlib sərin meh doldu və meh özü ilə ani işıq topası gətirdi, F.Q.-nin üzü işıqlandı, tez də bu işıq yox oldu. F.Q. siqaret çıxarıb kibrit çəkmişdi, amma yanılı çöpü siqaretə tutmadı, kibrit çöpü onun barmağından barmağına keçib eləcə yana-yana ora-bura əyildi və rəngi qap-qara qaraldı.

"İşdi, birdən..." İlk dəfə bu zaman F.Q.-nin ani olaraq işıqlanmış üzünü-gözünü gizli-gizli süzən Mübariz kişinin ağlına gəldi ki, ola bilər, bu F.Q. Çiçəkli yazını bəlkə oxusun. F.Q.-ni o ilk dəfə məhz bu zaman yazını oxuyana oxşatdı. Gözləri işıldaya-işıldaya kibrit çöpünün necə yanmasına baxarkən: "Beləsi hikkəsindən oxuyar, geri çəkilməz." Öz fikirindən özü də diksindi: "Bəs sonra?! Bəs sonra nə olacaq?! Yazı oxunsa daha biz kimə lazım olacağıq?! Budu bax, necə məktublar yazırlar..."

– Bəhram kişinin evi ha tərəfdədi, bir göstərən olsaydı... – F.Q. yanıb qurtarmış kibrit çöpünü zibil yeşiyinə atdı, siqareti qaytarıb qutusuna qoydu və söhbəti yekunlaşdırmağa cəhd etdi. Yol yorğunluğu özünü yavaş-yavaş büruzə verirdi. "Üzümə bir ovuc su vura bilsəydim..."

– Tələsirsən? "Həm də çox hövsələsizdi". Tələsmə, mən özüm səni aparacağam. – Hələ də bütün qəlbinin genişliyi ilə özünü sevinməyə məcbur edə bilməyən Mübariz kişi (ürəyini hələ də nəsə sıxır, sıxırdı) birdən pəncərəyə diqqət edib ("hava qaralır") ayağa qalxdı. – Akademik özü yazır ki, sənə hər cür köməkliyi gərək göstərək. Borcumuzdu. Getdik.

Bunu eşidib yorğunluqdan danışmaya heyi qalmayan F.Q. zorla da olsa sevincək bir səmimiyyətlə:

– Sağ olun, çox sağ olun, – deyərək Mübariz kişi qalxınca o da yerindən ayağa durdu və beləliklə, Mübariz kişinin otaqdan çıxmaq istəyini qətiləşdirmiş oldu. "Birdən fikrini dəyişər. Halım, halım yoxdu indi səninlə uzun söhbətə. Bütün suallarına cavab verməyə, vallah, halım yoxdu".

* * *

Mübariz kişi, ardınca F.Q. sovetliyin balaca həyətinə çıxdılar. Hava hələ tam qaralmamışdı. Mübariz kişi F.Q.-nin qədim Qarağac kötüyünə qabaq təkərlərini dayayıb saxladığı əyri-üyrü, köhnə maşınına gözucu baxıb " rəngi nədir bunun görəsən, bu, yəni, şəhərdən buracan özü gəlib çıxıb?!" dedi:

– Bu qoy burda qalsın, orda saxlamağa imkan yoxdu. Piyada gedəcəyik.

"Nolar?!" F.Q., müəllim sözündən çıxmayan intizamlı məktəbli kimi maşını açıb arxa oturacaqdan əşyalarıyla, kitablarla dolu uzun qayışlı yaşıl yol çantasını götürdü, sonra maşının pəncərələrini axıracan qaldırdı, qapılarını bağladı, sonra bir də yoxladı, əmin oldu ki, "ala-bula" öz qınına çəkilib:

– Mən hazır, – dedi və çantanı sol çiyninə alıb (ağır gəldi, çiynini dəyişdirdi) fağır-fağır gözlədi ki, Mübariz kişi ağsaqqaldı, qabağa düşsün, yola düzəlsin, o da onun arxasınca getsin.

Altdan-altdan ona diqqət yetirən Mübariz kişi ayağını çəkə-çəkə yola düzəldi. Yolları əvvəlcə Kəhrizli arxın yanı ilə keçirdi, sonra azca sola burulub çıxacaqdılar Vəng dağının düz ətəyinəcən uzanan naxır yoluna. Mübariz kişi çaşqınlıq içində idi. Danışmaq həvəsi nədisə uçub getmişdi, o biri tərəfdən isə susmağı düzgün saymırdı. Ona elə gəlirdi ki, iki adam yanaşı yol gedirsə, hələ bu adamlardan biri buralara nabələddisə, qonaqdısa, hökmən onunla söhbət eləyə-eləyə bu yolu getmək lazımdır. Yenə cibindən dəsmal çıxarıb boynunun tərini sildi, boğazını arıtlayıb əli ilə kəndin bu yerindən baxanda o qədər də vahiməli görünməyən (dev yox olmuşdu, havadaca ərimişdi) Vəng dağını göstərdi, dilucu dedi:

– Bəhramın evi dağın lap ətəyindədi. Bir az yolumuz var.

F.Q. dinmədi. Yolu keçib Kəhrizli arx tərəfə getdilər. Yol boyu bilə-bilə F.Q.-nin üzünə baxmayan ("niyə, nə üçün?!") Mübariz kişi söhbət xətrinə bayaqkı sözünə davam elədi:

– Bu yazını deyirəm, yəni, bunu oxumaq bu qədərmi vacibdi? Üçüncü adamsan, göndərirlər, səninlə üç oldu. Deməli, vacibdi. – Mübariz kişi öz sualına özü də cavab verdi. – Elə-belədən o boyda Professor narahat olmaz... "Yəni, sizin oralarda bir başqa ciddi işiniz yoxdu?" – Mübariz kişi dumduru,

səma rəngli gözlərinin dibində bic və yalançı sadədillik, amma yenə də həmənki təkidlə başını döndərib F.Q.-nin üzünə baxdı. Uzun burnunun ucunda tər dənəcikləri bircə-bircə durub qalmışdı.

Yorğun-arğın, ac-susuz F.Q. özü də bilmədi ki, nəyə görə ağzından məhz bu sözlər çıxdı:

– Görünür, elədi.

Mübariz kişi F.Q.nin "görünür, elədi" sözlərini özünün dilə gətirmədiyi sualına cavab kimi qəbul etdi və bu zaman sidq-ürəkdən mat-məəttəl qaldı. "Mənim fikirlərimi oxuyur. Nahaqdan bunu göndərməyiblər. Ürəyimə dammışdı. Vergilidi". Bu dəfə dəsmalla deyil, əlini atıb boynunun ardını əli ilə sildi, sonra yüngülcə tumarladı.

Kəhrizli yolla bir az da arx boyunca gedib sola çöndülər. Artıq bu yol düz aparırdı Bəhram kişinin həyətinin ağzına (Vəng dağının ətəyinə). Kəhrizli yolun altdan sakit-sakit suyu axan balaca körpüsünü keçdilər. Sol tərəfdə, kəhrizin kənarında iki balaca və arıq qız uşağı, allı-güllü gen tumanları əyinlərində, biri birindən üç-dörd metrə aralı, hər biri qabağına bir qalaq kirli qab düzüb kəhrizin suyunda yumağa hazırlaşırdılar. Bu arıq qızlar bir-birinə eynən bacı kimi oxşayırdılar; ikisi də qaraca, girdəsifət, saçları pinti-pinti, necəgəldi yığılmış, yalın ayaqları palçıqlı-kirli bu qızlar olardı on, on iki yaşlarında. Belə görünür, bu "bacılar" küsülü idilər. Arx boyu bir-birindən kifayət qədər kənarda hər biri öz qab-qacağını qalaq edib yığmışdı. Biri o birinə baxmaq belə istəmir, üzlərini ciddi-cəhdlə yana tutur, bir-birlərilə mövcud olmayan "üçüncü" adam vasitəsilə danışırdılar. Guya bu "üçüncü adam" bunların hirsli-hikkəli sözlərini birindən o birinə ötürməliydi. Onların acıqlı söhbəti F.Q.-yə çox maraqlı və gülməli gəldi.

– O adama deyin, qablarını tez götürüb getsin. Bura mənim yerimdi. Yoxsa...

O biri qızın isə bu təhdid heç vecinə də olmadı:

– O adama deyin, nə vaxt ki qablarımı yuyub qurtaracam, o vaxt da gedəcəm. Yer heç kimin deyil. Yerin adı yoxdu.

Küsülü qızlar başladılar hirsli-hirsli arxın suyuna basıb qabları şaqqıltıyla yumağa. F.Q. ki dilçi idi, onun diqqətini "yerin adı yoxdu" sözləri çəkdi

və o, addımlarını yavaşıtdı ki, bu mübahisənin davamını da eşidə bilsin. Aydın və aşkar idi ki, bu küsülü qızların bir-biri ilə bu cür əda ilə danışmasının səbəbi var, yüz faiz bu balaca gözəlçələr ya qonşu idilər, ya da bir sinifdə oxuyurdular, qərəz, bunların rəfiqəlikləri heç bir şübhə doğurmurdu. "Ay sizi, gözəlçələr..." F.Q.-nin dodağı qaçdı. Mübariz kişi başı öz fikirlərinə qarışıb yana-yörəyə fikir vermədən gedirdi, qızlar vecinə deyildi. Əslində, heç onlar da qızların vecinə deyildilər, çünki qızların da başları bir-birinə bərk qarışmışdı. Qızların mübahisəsinin sonunu artıq körpüdən kifayət qədər uzaqlaşmağda olan F.Q. qulağının ucu ilə zorla eşidirdi.

– Kim birinci gəldi, yer onundu. Yerin adı yoxdu. O adama deyin ki, yer, göy dağıla mən Əhmədi unudan deyiləm!..

– O adama deyin ki, yer, göy dağıla mən də Əhmədi unudan deyiləm! Bir də o adama deyin ki, mənim qablarım tələsikdi. Cabbar müəllim bu axşam bizə qonaq gələcək. – "Cabbar müəllim" adı xüsusi fəxr və qürurla səsləndi. "Məlum oldu. Gözəlçələr bu Əhməd kimdisə aralarında bölüşdürə bilməyiblər".

– O adama deyin ki, mənim işim ondan da tələsikdi. Atam bu axşam çörəyini evdə, hamımız ilə bir yerdə yeyəcək...

Arx başında həm qızların, həm də yuyulan qabların hirsli və şaqqıltılı səsi artıq eşidilməz oldu. Yanından ötdükləri həyətdəki ağacdan iki sığırçın bir-birinə həsrətlə qısılıb qalmışdı, onların civiltisi qızların səsini əvəz elədi. Sığırçınların civiltisinə hardansa gəlib inək böyürtüsü qarışdı. İtlər geri qalmadı, "hay verib" bir ağız onlar da hürdülər. Artıq qaranlıq daha sürətlə ətrafı bürüyürdü. F.Q bayaqkı allı-güllü, gen tumanlı qızın dediyi "yerin adı yoxdu" sözlərini beynində "yerin adı var, yoxsa yoxdu? Məkanın adı məkanı anlamaq üçün bizə nə verir?" sualına çevirmədimi, çevirdi və yanında ayağını çəkə-çəkə gedən, dəsmalını cibinə qoymadan tez-tez üzünün, boynunun tərini ("yaman tez-tez tərləyir") silən Mübariz kişini qəflətən və birmənalı şəkildə unudaraq düz Bəhram kişinin həyətinə qədər bu sualla ("heç dəxli var?!") beynində savaşa-savaşa getdi. Mübariz kişi yanında gəmiləri batmış adamlar kimi fikirli və qaşqabaqla gedən F.Q.-yə yolboyu altdan-altdan diqqətlə nəzər yetirir, ola biləcək şübhələrinə son qoymaq istəyirdi, amma ürəyinə dammışdı: "bu oxuyacaq!"

* * *

Bəhram kişinin kəndin yuxarı ucunda arxasını Vəng dağına söykəmiş evini görən kimi F.Q. onu öz-özlüyündə "Çoban papağı" adlandırdı. Yatmış devin qarnı altında çoban papağı?!... "Gözəlçə düz demirmiş, yerin adı var, ən azından yerin adı olmalıdı, yoxsa o yer, yer deyil". Mübariz kişi başı ilə (bəlkə də uzun burnu ilə) evə tərəf işarə edərək, nəfəs dərib dayandı, F.Q.-ni dümsüklədi. Çantanı qurumuş sağ çiynindən çıxarıb əlinə alan F.Q.-yə elə gəldi ki, yol yoldaşı Çoban papağına gizli bir qısqanclıqla baxdı:

– Odu həyət, özü də həyətdədi...

Həyətə yaxınlaşıb tikənli çəpərin ortasında bu çəpərin özündən çətinliklə seçilən bir balaca taxta qapı vardı, Mübariz kişi bu qapını açmaq istərkən, qapı qəflətən özü açıldı. F.Q. təəccüblənməyə hətta macal tapmadı, qapının o biri tərəfindən başında, daha doğrusu, təpəsində alabəzək araxçın, əynində uzunqollu dama-dama köynək, şax qamətli, ucaboylu, yaşlı bir kişi göründü. Bu kişinin xeyli mehriban və həlim sifəti var idi, səsi də öz həlimliyi ilə üz-gözünə çox uyğun gəlirdi. Bu kişi, elə bil, onları gözləyirdi.

– Ay sizi xoş gəldiniz. Buyurun. Keçin, keçin.

Ağ saqqalını qaşıya-qaşıya Bəhram kişi bir kənara çəkilib qonaqları həyətə buraxdı. "Şəhərdən gələnə oxşadı, düşündü".

Mübariz kişi çətin anlaşılan ərklə F.Q.-ni bir əli ilə az qala zorla qucaqlayıb özündən əvvəl həyətə saldı. Bəhram kişi bayır qapını bağladı, cəftəsini vurdu və qapı o saat bayır tərəfdən tikənli çəpərin bir parçasına çevrildi. Həyətin ortasında böyük bir ağacın (Qarağacın) altında taxtabənzər, elə taxt əvəzi yarım dairəvi, bir tərəfi söykəncəkli skamya, qabağında da dördkünc, taxtadan bir miz var idi. Bəhram kişi qonaqları Qarağacın düz altına gətirdi.

– Gəl, a bala, keç, əyləş. Mübariz, keç. Keç bura. Oturun, oturun. Mən indi...

Bəhram kişinin səsindəki sakit nəvazişi axşamçağı Vəng dağının bu həyətə "məxsusi" göndərdiyi könüloxşayan sərin meh kimi hiss eləməmək mümkün deyildi. Sonralar F.Q. fikir verib görmüşdü ki, Bəhram kişi ciddi

olanda da mavi gözlərinin dərinliyindəki işıqlı təbəssüm öz yerindən əskik olmur. Gözlərinin dibində sanki çıraq yanırdı və heç vaxt sönmürdü.

Artıq hər tərəf qaranlıq idi. Evin işığı zəif də olsa, Qarağacın altına qədər gəlib özünü çatdırırdı. İki dəqiqə çəkdi, ya çəkmədi, Bəhram kişi əlində podnos (sini), podnosda (sinidə) çay stəkanları evdən çıxdı. Artırmada pıqqıldayan samovardan ("Nə zaman samovarı yandırdı?!") su töküb rəngə qarışdırdı, dodaqaltı " bu saat, bu saat..." deyə-deyə gətirib "Balaca" adlandırdığı bu yekə ağacın altındakı dördkünc mizin üstünə podnosu (sinini) qoydu.

... Düz iki il əvvəl bir balaca karıxıb qalsa da, amma kənd içində fəxrlə gəzən Bəhram kişinin evi də, həyəti də Dil və Təfəkkür İnstitunun əməkdaşları tərəfindən "istila" edilib əsl "hərbi" qərargaha çevrilmişdi. Vəng dağının düz göbəyində, yüz illərdi adamların dağı qurşaq kimi sarıyan, ömür boyu ayaq basıb getdikləri cığırın məhz sağ tərəfində (sol tərəfdəki qaya parçası Bəhram kişinin evinin üstünə əyilmiş həmən quzğun dimdiyi idi) bir mağara tapılmışdı. Mağaranın içində dörd divar boyu qəribə işarətlər görünmüşdü və əlbəttə ki, bu işarətlər barədə lazımi yerlərə xəbərlər verilmişdi. Xəbər fırlanıb dönüb axırda paytaxta, Dil və Təfəkkür İnstitutuna qədər gedib çıxdı.

İnstitutdan əvvəlcə bir neçə adam gəldi. Mağaraya yaxın olduğuna görə (mağaraya ilk girən adam da başqası deyildi, elə o özü idi) Bəhram kişinin evinə yığışdılar. Birgünlüyə iş-gücünü atan Professor özü şəhərdən durub gəldi. Bəhram kişinin qürrəsini görmək lazım idi, Mübariz kişinin rənginin qaralmasını. Nə qədər təkid etmişdisə də Professor hansısa strateji (özü dediyi söz idi – strateji!) nöqteyi-nəzərdən Bəhram kişinin həyətindən çıxmamışdı (bəlkə Bəhram kişinin təkliyi, üstəlik bu cür qonaqcanlı olması onun xoşuna gəlmişdi, bəlkə səbəb başqa bir şey olmuşdu – kim bilir?!). Professorun bu kişiyə rəğbəti açıq-aşkar idi, gecə yarısını keçən uzun söhbətdən sonra ona ürək qızdırıb belə demişdi: "Bəhram, bu yazını oxumaq çox vacibdir, sənə deyirəm, çünki görürəm, sən məni anlayırsan, nəyin bahasına olursa olsun onu oxumalıyıq, inan mənə, lap elə həyatımı qurban verərdim..." Bəhram Professorun bu əzminə heyran olmuşdu və heyranlığı bütün üzündə-gözündə, hərəkətlərində, sözündə aşkarca görünür, hiss edilirdi. Bəhramın Vəng dağı ilə

bağlı xatirələrinə maraqla qulaq asan Professor "bu kişi əsl sirr dağarcığıdı.." elə o gecədən Bəhrama xüsusi bir hörmətlə yanaşmağa başladı, kənddəki bütün işləri onun vasitəsi və köməyilə həyata keçirməyi qərarlaşdırdı. Mağaraya yazını öyrənmək üçün gələnlər Professorun göndərişi ilə birbaşa Bəhram kişinin evinə gəlməyə başladılar. İlk qonaqlar da Bəhramgildə qaldılar və onlar mağaradakı işarətlərin şəklini çəkəndən sonra (işarətlərin şəklini çəkmək, əslində, onların üzərində başqa şəraitdə də, məsələn, şəhərdə, İnstitutda işləyə bilmək üçün idi) şəhərə qayıdan kimi Bəhram kişi həyətindəki Bozlar adlı köpəyi bir azca da sirli ədayla aparıb mağaranın içində bir küncə zəncirlədi. "Girib-çıxan çox olmasın..."

Bəhram kişinin yaxşı yadında idi. İlk kəndə gəlib yazı naxışlarının şəklini çıxaranda üç gün onun evində qonaq qalmış o yaşlı, qaraqabaq müəllim var idi, ona (Cəfər müəllimə) səhər-səhər çay içdikləri zaman birdən-birə nə mənə, nə sənə, dedi ki, bu naxışlar, elə bil, çiçəkdi, çiçək ləçəkləridi, bu yazı əməlli-başlı çiçəyə oxşayır. Həqiqətən də elə idi. İlk dəfə baxan kimi ürəyində öz-özünə elə belə də demişdi: "çiçəkdilər bunlar, çiçəkli yazıdı bu..." O zaman qaraqabaq Cəfər müəllim bir söz deməmişdi, elə bil, Bəhram kişi deyəni eşitməmişdi. Sonralar kiminsə, adı axıra qədər bilinməyən bir İnstitut əməkdaşının sözü ilə şəhərdə bu yazını hamı "Çiçəkli yazı" adlandırdı. Əvvəl-əvvəl çox adam bu adın müəllifliyinə iddia etdi, amma bundan bir şey çıxmadı, çünki, yavaş-yavaş bu ad Professora aid edilməyə başladı. Bundan xoşlanan Professor nə "hə" dedi, nə "yox" dedi. Amma sükutu hərdən o qədər mənalı oldu ki, mübahisələr öz-özünə kəsildi – yavaş-yavaş institut əhli "bu gözəllikdə adı bu kişi verməyəcək, kim verəcək?!" deyə birdəfəlik "bidət gətirdi" və Professor bu şəkildə oldu adın müəllifi. Əslində, Bəhram kişidən bunu kənddən ayrılarkən yoluna qoyduğu bal payı kimi açıq ürəklə qəbul etdi.

Yazının adı, həqiqətən, özünü doğruldurdu, yazıdakı (bunu yazının surətini çıxaranlar deyirdilər) işarətlər, həqiqətən, çiçək ləçəklərini xatırladırdı; hər işarət bir ləçək idi. Bəhram kişi bu dəqiq adı hardan tapmışdı – özü də anlamırdı. Ləçəklərin sayı dəyişirdi, çiçəklərin boyu-buxunu, nazikliyi-qalınlığı dəyişirdi, çiçək-çiçəyə bənzəmirdi, amma hər işarət yenə də çiçək idi, başqa şey deyildi – bu hərdən kəsif iyi verən mağaranın nahamvar, əyri çıxıntılı daş

divarına boyaboy həkk edilmiş rəngsiz çiçək idi, bir-birinin üstü ilə gedən uzun çiçək çələngi.

Şəhərdə isə hadisələr sürətlə inkişaf etdi.

Sirriçində Çiçəkli yazını oxumağa əvvəl-əvvəl İnstitutun bütün həvəsli əməkdaşları birdən girişdi. Bu, səsiz-küysüz, bəzən açıq, bəzən gizli, elə bil, öz-özünə baş verdi, aparılan "tədqiqatlara" qonşu institutların ağsaqqal və qarasaqqal alimləri də qatıldı. Tarix və Arxeologiya institutları isə xüsusilə, canfəşanlıq etdilər. Az qala "ara qarışıb məzhəb itmişdi." Hər ağızdan bir səda gəlirdi. Nəhayət, Professor bütün bu səs-küydən, söz-savdan bezib belə qərara gəldi ki, Çiçəkli yazını ayrı-ayrılıqda yox, hamı bir yerdə ümumi səy və iradə ilə oxumalıdır (qərar qəbul etməyə haqqı vardı, çünki Çiçəkli yazı barədə ilk məlumat ona gəlmişdi. Buradan isə belə çıxırdı ki, Çiçəkli yazını ilk əvvəl Dil və Təfəkkür İnstitutu üzə çıxarıb). Tarixçilər bu təklifi, başqa yolları yox idi deyin, qəbul etməyə məcbur qaldılar və öz növbələrində əks-təkliflə çıxış etdilər. Bu əks-təkliflə, ilk əvvəl olmasa da, Professor, nəhayət, (hər halda yazının oxunuşunun iki uğursuz cəhdi artıq baş vermiş, onun mövqeyi kifayət qədər zəifləmişdi) razılaşdı. Əks-təklif isə bundan ibarət idi. Yazını oxumaq haqqını qazanmaq üçün adı keçən İnstitutların (Əlyazmalar İnstitutu az qala unudulmuşdu – onlar da işin içində var idilər) birgə Elmi Şurasına yazını oxumaq iddiasında olan adamın özəl üsulu təqdim edilməliydi. Daha çox təqdir və qəbul edilən üsulun müəllifi yalnız bundan sonra hamının birgə rəyi əsasında kəndə yazını yerindəcə oxumağa (üzünü köçürən zaman buraxıla biləcək səhvlər istisna olunmurdu) göndəriləcəkdi. Öz üsulunun təqdimi ilə Elmi Şurada çıxış edənlər az olmadı. Birgə Elmi Şuranın iclasları İnstitutların direktorlarının iştirakıyla baş verirdi.

Müzakirə və debatlar son dərəcə qızğın (maraqlı, ehtiraslı, sərt...) keçdi. Hər çıxış edən qələbə qazanma ümidi olmasa da ən azından "özünü göstərmək", elmə "təmənnasız" xidmətini bir daha nümayiş etdirmək üçün əldən-ayaqdan getdi. Müzakirələrin sonunda əsas söz isə Professorunku oldu. Professorun xüsusi simpatiya bəslədiyi "Çiçəkli yazı adını mən ilk dəfə Professordan eşitmişəm" sözlərinin müəllifi F.Q.-ni ürəklə və xüsusi həvəslə dəstəkləməsi Elmi Şura üzvlərinin uzun söz-söhbətdən, məşvərətdən sonra məhz

onu qalib seçməsinə səbəb oldu. F.Q.-nin təklif etdiyi üsul isə çox sadə idi (hətta bəsit idi – deyə bilərik), mahiyyəti ondan ibarət idi ki, bütün mövcud yazı növlərindən təcrid olunmaq və Çiçəkli yazının öz kodunu, öz immanent mahiyyətini tapmaq lazımdır. Başqa üsul təklif edənlər hansısa mövcud, yaxud ölüb getmiş yazı növlərinə istinad edirdilər. Bunları qəbul etməyən F.Q. heç nəyə istinad etmədi. Açar sözü axtarıb tapmaq – bu idi F.Q.-nin təklif etdiyi deşifrə prinsipi. Nə latın, nə pəhləvi, nə də qədim türk işarətlərini köməyə çağırmadan bu özünəməxsus yazını çözmək F.Q.-yə görə nəinki mümkün, hətta yeganə həll yolu idi. Və bir çox mübahisələrdən sonra (xüsusilə, tarixçilər və onların ideya rəhbərləri olan, ağ qaşlarının ucunun yuxarı boy atması ilə vəhşi aslanlara bənzəyən və sərt xasiyyəti ilə seçilən akademik Aslanzadənin bəzən gizli, bəzən açıq qarşıdurmasına baxmayaraq – onlar bir nəfər kimi hər hansı çözüm işində ancaq qədim pəhləvi əlifbalarına üstünlük verirdilər) F.Q.-nin təklif və Professorun inanıb canfəşanlıqla müdafiə etdiyi üsul yavaş-yavaş hamının real marağına səbəb oldu. Bu, böyük uğur idi. Elə o dəqiqədən başlayaraq iş yoldaşları, hətta digər İnstitutların tanış və qeyri-tanış əməkdaşları gizli həsəd içində ona xüsusi bir nəvaziş (kimi süni, kimi təbii) göstərməyə başladılar. Gələcək uğurlu alim karyerasının çox mühüm özül daşlarından biri beləcə qoyulurdu. Beləliklə, mötəbər İnstitutların birgə Elmi Şurası onun seçimi ilə bağlı öz qərarını (Aslanzadənin təəssüflə dediyi kimi "əlacsız qalaraq") elan etdikdən, o isə böyük ruh yüksəkliyi və sevinclə təbrikləri qəbul etdikdən sonra gənc mütəxəssis böyük bir həvəslə başladı Vəng dağının ətəyindəki kəndə yola düşməyə hazırlaşdı.

"Heç hənanın yeridi? Bu Elmi Şura hardan gəlib girdi beynimə?" F.Q. Bəhram kişinin miz üstünə qoyduğu pendirdən yuxanın içinə sıxıb çaydan içə-içə onun mavi, gülər gözlərinə baxır, əslində, nə dediyini eşitməyə-eşitməyə, sualına belə bir cavab verir:

– Bilmirəm. Amma yox, çətin...

Ürəyi biixtiyar guppuldayan Mübariz kişi bu dəfə də yerində qurcuxdu, yenə diqqətlə F.Q.-ni nəzərdən keçirdi və elə indicə o, əgər lazım gəlsəydi, sidq-dil ilə and içərdi ki, bu oğlan Bəhramın ondan nə soruşduğunu eşitməmişdi. Amma cavabı bayaqkı kimi (Sovetlikdə olan kimi) yenə yerinə düş-

müşdü. Çaşqınlığını əsla biruzə vermək istəməyən Mübariz kişi əlindəki stəkanı xüsusi bir səliqə ilə mizin üstünə qaytarıb qoydu. Bəhram kişi isə çaydan ləzzətlə dada-dada öz mavi gülər gözlərini qıyıb F.Q.-yə bu sualı vermişdi:

– Səndən başqa da kəndə bu işin dalıyca gələn olacaq, ya ki sən tək qalacaqsan, balası?

– "Bilmirəm. Amma çətin..."

Sualın səsi çox uzaqdan, boğuq bir dərənin dibindən gəldi. Sualın mənasını isə Bəhram kişinin gözlərinin dibindəki təbəssüm pıçıldadı. Bu təbəssümü ilk gördüyü zamandan bəri onun "əsiri" olan F.Q.-yə əvvəlcə elə gəldi ki, təbəssüm bu adamınkı deyil, onu kimdənsə (başqa birisindən) borc alıb, amma buna çox aludə olmadı ("nədi, nə deyil, kimindi, kimin deyil – ən əsası odu ki, səmimidi"). F.Q. bu gözəl təbəssümə öz qarışıq təbəssümü ilə cavab verdi. Yəni, bilinmədi, gülümsəyir, yoxsa dişini qıcadır. Vardı, öz sifətinin F.Q üçün belə anlaşılmaz oyunları vardı. "Gənc elmi mütəxəssis" Mübariz kişinin az qala əsməyə başlayan əllərinə baxa-baxa (bu kişidən heç xoşu gəlməmişdi "adamın üzünə baxmır...") onun halından gizli bir ləzzət aldı: "Mübariz kişi, deyəsən, əməlli-başlı karıxıb". Karıxmış Mübariz kişi isə artıq hiss etmişdi ki, elə indicə F.Q. ilə Bəhram arasında sazişsiz-zadsız bir "könül-qəlb" müqaviləsi bağlandı və F.Q.-ni Mübariz kişi belə "itirdi".

– "Oxuya bilməz, inşallah!".

– "Yox, oxuyacaq!".

* * *

Bəhram kişi mağaranı əməlli-başlı özəlləşdirmişdi – bunu bu cür də başa düşmək olardı. Bozları həyətdən aparıb mağarada saxlaması (Çiçəkli yazının işarətlərinimi qoruyacaqdı?!) kənar gözlə baxana sərt bir ismarış idi. İsmarışın görünməyən tərəfiylə işimiz yoxdu, görünən tərəfi isə bu idi: "Mağaraya mənsiz girmək olmaz! Mağara ilə şəhərdən gələnlər arasında əlaqəçi mənəm! Mağara ilə heç kimin işi olmasın, mağara mənlikdi". İnsafən, əyri oturub düz danışsaq, Bəhram kişinin özünü bu cür aparmasına haqqı çatırdı, belə ki, mağaranı tapan, əslində, elə Bəhram kişinin (daha dəqiq: Bozla-

rın) özü idi. Köpəyi qabağına salıb qonşu Qamışlıq kəndinə əyri cığırla getdiyi yerdə (köpəyə içalat alacaqdı, Qamışlıqda mal kəsmişdilər) Çoban papağının düz təpəsinə kölgə salan Quzğun dimdiyinə çatanda köpək zingildəmişdi, daha bir addım da irəli getmək istəməmişdi. "Qurddu, nədi?!" Bəhram kişi ehtiyat edib həmişə dağ cığırına çıxanda cibinə qoyduğu iri alman bıçağını (Əryən kişinin davadan gətirdiyi və ona hədiyyə etdiyi bıçaq idi) çıxarıb, açdı, amma Bozlar yeri iyləyə-iyləyə qəflətən cığırın əyri sağ tərəfinə, kol-kos basmış, görümsüz bir qaya parçasının qarşısına döndü. Allahın heyvanı arxa pəncələrinin üstə dikəlib iki qabaq pəncəsi ilə qayanın ağzını basmış tikənli, cod süngür kol-kosunu inadla eşələməyə başlamadımı, başladı. Köpəyin sakit mırıldamağından Bəhram kişi anladı ki, məsələ qətiyyən qurd məsələsi deyil, bıçağı qatlayıb cibində gizlətdi. Yaxınlaşıb kol-kosu diqqətlə və maraqla gözdən keçirdi və... qaşları çatıldı. Aman Allah, dəfən-dəfən yanından (özü də təkcə onun yox, bütün kənd əhlinin, elə Bozların özünün də) o tərəfə, bu tərəfə keçdiyi bu cındırış (süngür) kollarının arxasından nə isə birdən ona "gəl-gəl" dedi. Bu cod kol-kosu əli ilə birtəhər ora-bura eləyib qəflətən ortaya çıxan qapı boyda, balaca qapı boyda bir boşluq (mağaranın ağzını) gördü. Mağara belə tapıldı.

...Mübariz kişi əvvəl-əvvəl məsələnin mahiyyətinə, belə deyək, mültəfit olmadı, "Mağaradı da, nədi ki?! Vəng dağında yalan olmasın, bəlkə onlarla bu cür mağara var. İndi durub gedib bunu qoruq elan etməyəcəyik ha..." Yanına hövlnak gəlmiş Bəhrama laqeyd bir halda dedi:

– Get, Bəhram, get, işinlə məşğul ol. İşin-gücün yoxdumu sənin?!

– Sənə deyirəm, Mübariz, bu yer adi yer deyil. Bax, sonra peşman olmayasan.

– Olmaram. Nə var axı bu mağaranın içində səni bu cür haldan çıxarıb?! – Mübariz kişinin bir an əvvəlki laqeydliyi Bəhramın xəbərdarlığından sonra "oldu, oldu da" zəif bir marağa çevrildi.

... Bəhram kişi birinci dəfədən qaranlıqda (qaranlıq isə zil qaranlıq idi) heç nə seçəmmədi. İki fənər kimi titrəyən və Bozların gözlərinin dibindən fışqıran işıqdan başqa burada heç nə görmək mümkün deyildi. Bəhram kişi qor-

xaq adam deyildi, heç deyildi, amma hiss etdi ki, ürəyinin guppultusu birdən-birə az qala qulaqlarının pərdəsini deşməyə başladı, əli yenə cibinə getdi, alman bıçağının polad gövdəsi qaranlıqda parıldadı. Bəhram kişi əllərilə havanı toxunurmuş kimi, elə bil, yoxlamağa başladı, mağaranın içinin sərhədlərini öyrənməyə çalışdı. Birdən yadına düşdü ki, mağaranın ağzı, deyəsən, onun arxasınca yenidən qapandı. "Ağzı bunun kol-kosla örtüldü, ax, ax, gərək içəri girməmiş kol-kosu təmizləyəydim. İndi mən buradan necə çıxacağam, Allah?!"

Doğrudan da, mağaranın ağzı təəccübdən gözləri dörd olmuş Bəhram kişini və Bozları içəri buraxıb yenə sıx, cod və tikənli cındırış (süngür) kolları ilə özü-özünü qapayıb örtmüşdü. "Bu nə işdi?! Heç belə işə düşməmiş idim." Köpəyə səsləndi:

– Bozlar, Bozlar, gəl, maralım, gəl çıxart məni burdan, harda qaldı bizim bu xarabaya girdiyimiz yer?!

Köpək ağıllı köpək idi, qulaqları biz durdu, Bəhram kişinin eləcə səsindən anladı ki, ondan nə gözləyir. Ora-bura fırlanıb, oranı-buranı qoxlayıb mağaranın ağzını çox tez tapdı, qarşısında arxa pəncələri üzərinə qalxıb zingildədi. Onun gözündəki işığa gedib Bəhram kişi içəri girdiyi yeri görə bildi. Cındırış kolları Bəhram kişinin lap yaxınında imiş. Güc-bəla ilə, tikənə əli ilişə-ilişə Bəhram kişi özünə və köpəyə yol elədi, birtəhər özünü bayıra salandan yalnız sonra ürəyi yerinə gəldi. Hər tərəf sakitlik və işıqla dolu idi. Yalnız quşların şax səslə cikkildəməsi ordan-burdan bu sükutun içinə girirdi. İçi zil qaranlıq mağara sanki yoxmuş. Bir-iki "tanış" arı vızıldayıb uçub getdi. "Allah, çox şükür, çox şükür. İşıqlı, gen dünya başımıza dar olacaqdı". Bəhram kişi rahatlıqla köksünü ötürdü.

Bəhram kişi birinci gün mağara barədə heç kimə bir kəlmə söz demədi. Evdə oturub çox düşündü, çox daşındı. Nə isə qəlbinin dərinliyində bir səs ona deyirdi ki, bu mağara adi mağara deyil, burada nə isə var, baş verəcəklər hələ irəlidədi. Bütün gecəni ürəyi üzülə-üzülə keçirdi. Sabaha qədər narahatçılığı keçmədi. Sabah isə açılar-açılmaz yenə Bozları yanına alıb Quzğun dimdiyinə qalxdı. Özü ilə bu dəfə bir balta gətirmişdi, o balta ilə mağaranın ağzını təmizləməyə başladı. Heç düşünməzdi ki, bu iş belə ağır olacaq. Vəng

dağında bitən cındırış (süngür) kolları (başqa heç bir yerdə bu mıxabənzər tikənli, zəhrimar kola rast gəlmək mümkün deyildi) balta zərbələrinə mətanətlə dözür, əyilib, əyilib, sınır, yaralanır, amma haradansa yuxarıdan, aşağıdan yeni qalın zoğlar üzə çıxır, qol kimi açılıb Bəhram kişinin üzünə, gözünə dürtülür (araxçını iki dəfə başından sürüşüb düşdü), sanki onu qucaqlamaq istəyirdi. Çox əlləşdi, üzü-gözü tikənə ilişmədimi, ilişdi, amma bir adamın az-çox rahat keçə biləcəyi boyda bir yeri, nəhayət ki, təmizləyə bildi. Artıq cəsarətlə mağaranın içinə daxil olmaq olardı. İçəri keçəndə bura daha əvvəlki kimi (dünənki kimi) zil qaranlıq deyildi. Mağaranın təmizlənmiş ağzından işıq topası bu qədər gecikdiyi üçün özünü taxsırkar bilən həsrətlilər kimi içəri nə təhər soxmuşdusa, indi burda, necə deyərlər, heç olmasa, göz-gözü görə bilirdi.

Mağara nə böyük idi, nə də kiçik. Beş-altı addımlıq uzunu, ondan az qədər eni vardı. Narahat Bozlar yenə ora-buranı aramsız qoxlamağa başladı. Zəif kəsif iyindən başqa bir iy gəlmirdi. “ Yox, adi mağaraya oxşamır. Bura yaxın bir zamanda canlı ayağı dəyən yerə də heç oxşamır. Amma yenə də... Məsum yer deyil bura”.

Var idi bu cür canlı ayağı dəyməyən təbii mağaralar. Vəng dağında belə mağaralar var idi. Bəhram kişi, ümumiyyətlə, dağ boyu, dağ ətəyi nə vardısa – qayalıqları, sıldırımları, mağaraları öz həyəti qədər yaxşı tanıyırdı. Bəlkə də hardansa bir daş gətirsəydin ona, barmaqlarının arasında oynadıb dəqiq deyərdi, hansı qayanın, hansı mağaranın daşıdı. Bura isə bir başqa yer idi. Bu, həm onun tanıdığı yer idi, onlardan idi, həm də onlardan deyildi. Amma nə iş idisə bu mağara əvvəl-əvvəl Bəhram kişinin heç xoşuna gəlmədi. Qulaqdeşən, müdhiş bir sükunəti vardı. Qəflətən Bəhram kişinin baxışı divarda nəyə isə ilişdi, divarda naxışabənzər oyuqlar sezdi. Diqqətini cəmlədi və yaxına gəldi.

* * *

... Bəhramın az qala zorla mağaraya gətirdiyi Mübariz kişi daş divar boyu naxış kimi yan-yana düzülmüş qəribə işarətləri görən kimi anladı ki, xeyr, o düşünən kimi deyil, məsələ xeyli ciddidi, bu yeni tapılan mağara barədə hökmən rayon mərkəzinə xəbər vermək lazımdır. Elə də etdilər.

Sonra baş verənlər tələsik kino kadrlarına oxşadı. Kəndə səs düşdü. Səs ev-ev gəzdi. Mağara heç gözlənmədiyi halda kənd, hətta rayon əhlinin böyük marağına səbəb oldu. Hamı gəlib bu işarətləri öz gözü ilə görmək istəyirdi. Bir həftə sonra kəndə tökülüşən Dil və Təfəkkür İnstitutunun əməkdaşları isə kənd camaatı yanında (onlara eşitdirə-eşitdirə) bir-birilə danışarkən lovğa bir əda ilə çoxmənalı şəkildə deyirdilər ki, nəhayət, bu xalqın da tarixi tapıldı, üzə çıxdı, nəhayət, bunu oxuyandan (onlar belə deyirdilər: deşifrə edəndən) sonra bütün dünya biləcək, biz kim idik, hardan gəlirik və hətta hara gedirik... Bu sözlərə diqqətlə qulaq asan bəzi kənd adamlarının marağı həddini aşırdı, amma onlar hələ də bu qəribə naxışların yazı kimi oxuna bilməsinə nəinki inanır, bu onlara hətta gülməli gəlirdi. "İşarətlər nə qədər oxunmazdısa – bunu mütəxəssislər deyirdi, – deməli, tarix bir o qədər qədimdi. Bir az dözün, özünüz görəcəksiniz, Vəng dağı, Vəng kəndi beləcə dünyanın ən məşhur tarixi yerlərindən birinə çevriləcək". Kənddə hamı "mağara-mağara" deməyə başlamışdı. Hər evdə, çayxanada, poçtda, Radio meydanında, qərəz, hər yerdə mağaranı müzakirəyə qoymuşdular. "Yazı nə yazıdı, tarix bizə nə deyir, nə deməlidi və s. və i.a." Tikənli, cod süngür kolları çox tez bir zaman içində dəbə minərək evlərin çəpərlərinə hörülməyə başladı (gedib dağdan kəsib-yığıb gətirirdilər), hətta belə bir qəribə, sirli xəbər də yayılmazdan əvvəl elə bətndəcə boğuldu: "Mağaranın ruhu var!" – bir dəfə kimsə bunu dedi, amma bu sözə qocalı, cavanlı hamılıqla gülüşdülər və heç kəs buna inanmadı. Söz isə dəryada batan söz deyildi, heç deyildi. Bir müddət sonra o, bir başqa yerdən üzə çıxdı.

Mağaranı az qala görüş yerinə çevirmək arzusunda olan kənd cavanları, hətta məktəb müəllimləri (onlar isə sinif uşaqlarını – məktəbliləri bura ekskursiyaya gətirmək istəyirdilər) Dil və Təfəkkür İnstitutunun əməkdaşlarının təkidi ilə mağaraya bir daha yaxın buraxılmadılar. Hamı hiss edirdi ki, bəli, məsələlər deyəsən, həqiqətən ciddiləşir.

Kənardan kənara rayon mərkəzindən bəzi vəzifəli adamlar hərdən mağaranın ağzına qədər gəlir, ora-burasına baxır, keçib quzğun dimdiyindən üzüaşağı kəndə nəzər salır, amma Mübariz kişinin təkidinə baxmayaraq, keçib mağaranın içinə girmirdilər. Elə bil, üzü daşa dönmüş Bəhram kişinin

lal etirazını əvvəlcədən hiss edirdilər.Yainki bir başqa şeydən ehtiyat edirdilər?! Bu vaxtlar idi, kəndə yas düşdü. Qulamhüseyn müəllim öldü.

"Daha ləngimək olmaz!" Bəhram kişi sübh çağı Bozları aparıb mağaranın bir küncündə zəncirə vurdu. Bozlar əl boydalığından Bəhram kişidə idi, onun həyətində böyümüşdü. Bozları ona Vəng dağının o biri tərəfindən dostu Mədət kirvə gətirib hədiyyə eləmişdi. Bozları Bəhram kişi sevə-sevə, "maralım" deyə-deyə bəsləmişdi, hər cür xidmətində durmuşdu, o Bozlara, Bozlar ona çox isnişmişdi, indi də onu ilk dəfə həyətindən çıxarıb aparıb mağarada zəncirləyəndən sonra ("Belə lazımdı, maralım, belə lazımdı") geri qayıtmağa ayağı heç cür getmirdi ki, getmirdi. Çalışırdı, gözləri köpəyin par-par yanıb alışan gözlərinə sataşmasın. Nə görəcəkdi ki?! Bozların ona dikilmiş gözlərində sədaqətdən, bir də işıqdan başqa heç nə görməyəcəkdi.

***Kəndə gəldiyi birinci gecə.***
***Bəhram kişinin evi***

Mübariz kişi "Balaca"nın altında bir xeylaq oturduqdan sonra (elə hey ordan-burdan danışdı; İnstitutdan gələnlər belə getdi, yazını oxumaq istəyənlər elə gəldi... Nəhayət, başa düşdü ki, yorğunçuluqdu, qonağın az qalırdı gözü yumulsun, onun söhbətinə də artıq "xala, xətrin qalmasın" qulaq asırdı) açıq-aşkar naəlac bir halda və ürəyində bunu istəməyə-istəməyə ayağa qalxdı, üzünü bir ağsaqqal ədasıyla F.Q.-yə tutdu:

– Di mən gedim, – dedi. – Sən də dincəl daha, o boyda yol gəlmisən. Sabah gələrsən sovetliyə, məsləhətləşərik, görək neynirik, neynəmirik?!

"Görək neynirik?! Nə edəcəkdik ki?! Bu kişi, deyəsən, adamdan əl çəkənə oxşamır. Yazını bu da mənimlə bir yerdə oxumaq istəməsin..."

Evdən çıxdılar. Həyət darvazasına tərəf get-gedə Mübariz kişi deyirdi:

– Maşından arxayın ol. Ürəyinə heç nə gəlməsin. Buralar tam salamatlıqdı. "Bu maşına əyri gözlə baxanı çıraqla axtarsan – tapammazsan".

... Evdən çıxdılar. Həyət darvazasına gedənə qədər Mübarız kişi susdu. Həyətdən çıxan yerdə isə yavaş və qayğılı bir səslə Bəhram kişidən soruşdu:

– Ehtiyacın olan bir şey varmı? Tükəzi sabah göndərimmi?

F.Q. düşündü, yəqin, nəzərdə tutur ki, mənim bu evdə qalmağımla bağlı nəsə lazımdımı, puldan, ərzaqdan nə kömək edə bilərəm?! "Bəs bu Tükəz kimdi?"

– Yox, lazım deyil, heç bir korluğum yoxdu, sən narahat olma. – Bəhram kişi də eynən onun kimi ciddi, amma azacıq qımışıb "hm" cavab verdi: "Ay səni, Mübariz..."

Heç cür getmək bilməyən Mübariz kişi sonra üzünü yenə də F.Q.-yə tutdu:

– Bax, oğul, Bəhram nə cür desə o cür elə. Mağaraya tək getmə! – Gözləri ora-bura qaça-qaça Mübariz kişi qapıdan çıxan yerdə üzünü F.Q.-yə tutub bu ciddi sözləri ona deyəndə artıq bilirdi ki, (ürəyinə dammışdı) F.Q. sabah sovetliyə onun yanına "məsləhət üçün" gəlməyəcək.

Üzündə dözümlü və həlim bir təbəssüm "yaxşı, yaxşı, narahat olma!" Bəhram kişi Mübarizin dalıyca qapını bağladı və F.Q. ilə birlikdə "Balaca"nın altına qayıtdı. Mübariz kişi gedəndən sonra F.Q.-yə elə gəldi ki, həyət böyüdü.

– Bir stəkan da çaydan içərsənmi? Heç nə yemədin... – Bəhram kişi təklif etdi.

– İçərəm, əziyyət olmasın. Yorulmuşam, amma yatmağım da gəlmir. Yedim, niyə ki. – F.Q. bir az pendir-çörək yemişdi.

– Elədi, buralar elədi. Buralar adamı tez yatmağa qoymaz. Huşa gedib qayıdarsan.

F.Q. alçaq, söykənəcəkli taxta oturdu, yerini rahladı, kürəyini söykənəcəyə söykədi. Bu boyda yorğunluqdan sonra ləzzətli bir rahatlıq gəlib canına hopmağa başladı. Bütün vücudu sərməstləşirdi. Başının az qala üstündəki ulduzlara, bir qədər aralıda sallanan yupyumru, üzü ləkəli aya (dolğunaya) səmimi bir heyrət içində baxdıqca baxır, yenidən özünü bu möhtəşəm Ahəngin içinə salmağa, daha doğrusu, özünü bu Ahəngin içində hiss eləməyə çalışırdı. Təxminən belə: "oralardan baxanlara mən görünürəm, görünmürəm?!"

– Mübariz belədi, həmişə dikinə danışar. – Bəhram kişi yavaş səslə, köhnə dostuna, elə bil, bəraət qazandırırdı, söylədi. – Amma yaxşı adamdı.

Bunu deyib susdu. F.Q.-nin yarıyumulu gözlərinə baxdı: "Özündə deyil. Dincəlir". Bəhram kişi F.Q.-yə mane olmaq istəmirdi, "gör bir necə yorulub...". F.Q. isə öz səsini az qala özü tanımadı:

– Hə, yaxşı adama (Mübariz kişi) oxşayır.

– Başı çox çəkib...

"Eləmi?! Heç oxşamır başı əzab çəkmişə". F.Q. daha bir söz demədi.

Başı ilə onun dediyini təsdiqləyən F.Q.-nin bu cür mənalı-mənalı susmağı Bəhram kişinin diqqətli nəzərindən qaçmadı:

– Vaxt olar, bir dəfə mən sənə bunun hekayətini danışaram. Mübariz başqa Mübarizdi (başqa aləmdi).

"Necə Mübarizdi?" F.Q. bu Mübariz söhbətini daha uzatmaq istəmədi:

– Əlbəttə, nə deyirəm ki?!.

F.Q.-nin fikri yenə uçub uzaqlara getdi, özü isə yavaş-yavaş əməlli-başlı ləms düşürdü. Hiss edirdi ki, canından cirə-cirə, ağrılı-ağrılı nəsə çıxır. Çıxdıqca canı dincəlir. F.Q. Bəhram kişi gətirən çayı içməyə başladı. Çayı içib bir az da dirçələn kimi oldu. Yorğunluğu, elə bil, keyidi. Beynindən "niyə də soruşmayım?" sualı keçdi və soruşdu:

– Bəhram dayı, deyirəm, görəsən bu "Vəng" sözünün, dağın adının bir mənası varmı? Buralarda bununla bağlı bir fikir var, ya yox? Bəlkə nəsə bir rəvayət, nağıl...

– Rəvayət, nağıl bilmirəm, eşitməmişəm. Onu bilirəm, camaat arasında belə bir inam var ki, bu dağdan gecələr ... səs gəlir. Rəhmətlik atam deyərdi, gecələr Vəng dağının iniltisinə hər eşidən dözməz... Sözdü, deyirdi...

– Allah rəhmət eləsin...

– Allah sənin də ölənlərinə rəhmət eləsin...

"Gənc və istedadlı" F.Q.-nin professional ibnəsi tutmadımı, tutdu. "İnilti – əlbəttə, bu bir açar ola bilər. "İnilti", ya "ənilti" bir elə fərqi yoxdu. "V" səsi isə... harda istədi, orda söz əvvəlinə gəlməyi var. "V"ni çıxar, at, sonra da əniltidən iniltiyə sürüş, düş və yaxud, əksinə, iniltidən əniltiyə qalx, əvvələ də bir "V" gətir qoy – bu da sənə Vəng dağının etimologiyası!" Beynindən veyil-veyil keçən bu " hərcayi" fikirlərdən kefi duruldu, dodağı qaçdı, xoşhal oldu.

– İnilti ... çox maraqlıdı. Vəng sözü bəlkə elə iniltidən əmələ gəlib?!. Bəlkə də... Niyə də yox?! Ola bilər.

– Eləmi?! – sidq-ürəkdən təəccüblənən Bəhram kişi rəhmətlik atasının (atası çoban olsa da savadsız, amma ağıllı adam idi: "Mən həyat alimiyəm, ki-

tab alimi deyiləm.") söylədiyi sözlərin nə zamanca bu şəkildə elmi həqiqətə uyğun gələ biləcəyini ağlına belə gətirməzdi.

Bu cür sürətli və effektli etimoloji yozumun müəllifi F.Q. isə gizli bir ləzzətlə gözaltı Bəhram kişiyə nəzər yetirməkdə idi. Bəhram kişi, aydın məsələ idi, bu sürətli "əqli kombinasiyaya" lazım olan qiyməti vermədi. Amma... " Nə etməliydi, durub əl çalmayacaqdı ki".

– Ulduzları seyr eləmək, deyəsən, xoşuna gəlir... – Əlini havaya tutub (yağışı yoxlayırdı) Bəhram kişi xeyli mülayim şəkildə dilləndi.

– Hə... Şəhərdə bunlar bu qədər yaxında olmurlar. Niyə görəsən?! Yanıb-sönürlər. Yanıb-sönürlər. Sayrışırlar. Niyə belədi?..

– Tar bir dəfə "dınq" eləyir. Denən: "hə". Eləyirmi?

–"Dınq"? – F.Q. təəccübləndi: "mətləbə nə dəxli var?"

– Hə, dınq. Amma, bax, bu dınqıltılar birləşəndə nə yaranır, musiqi yaranır... Həm dınqıltıdı, həm musiqi.

Bəhram kişi deyib susdu, elə bil, istədi ki, çoxdan beynində ləzzətlə gəzdirdiyi bu fikrə məntiqi-elmi sonluğu elə bu cavan oğlan vursun. F.Q. isə hıqqanırdı:

–Dınq....

– Həm "dınq", həm də dınqıltı... necə deyim... "Mübariz olsaydı, tez başa düşərdi nə demək istədiyimi..."

F.Q.-nin, nəhayət, üzünün qırışığı açıldı:

– Dınq – nöqtə! Dınqıltı – nöqtələrin birliyi, xətt, musiqi. Nöqtə və xətt. İşıq da dayanır gəlir, dayanır gəlir.

–Hə də...

– Ulduzlar da, elə bil, göz vururlar. Sayrışırlar... "Dınq" – "dınqıltı". Qulağıma tar səsi gəldi. – F.Q. birdən cırcıramaların səsini eşitməyə başladı.

"Dilçi mənəm, budu?" – F.Q. Bəhram kişiyə get-gedə artan maraq və hörmətlə baxmağa başlayırdı.

– Elədi. Mənim də qulağıma gəldi. Tar səsi. Deyirəm, bəlkə... duraq evə keçək?! Bax, damcıladı... – Əlini yenə havaya tutub Bəhram kişi sözünü kəsdi, başını qaldırıb göyə baxdı, sonra ətrafı xüsusi bir diqqətlə nəzərdən keçirdi.

–Yəni, bu vaxt yağış yağa bilər? – F.Q. təəccüblə soruşdu.

– Bilər, elə bilər. Bilirsən, bu vaxt nə vaxtdı? Ağlına nə gəlirsə ola bilər. Bax, yağış gəldimi ağlına, yağa bilər.

"İndi nə yağış?! Bu qədər ulduz var göydə, bir bulud belə yoxdu. Ömründə yağmaz. Çətin məsələdi".

...On dəqiqə sonra Cənubi Amerika leysanlarına oxşayan bir yağış əsl arzu-kamla yağmağa başlamadımı, başladı. Göy üzündə ulduzlar öz yerlərini çox asanlıqla qara buludlara verdilər. Heç elə bil, əvvəldən yox idilər.

– Dur, gəl evə, balası, islanacaqsan. – Bəhram kişi əlindəki samovarı artırmada yerə qoyub evə girdi. "İslanmamış gedim bunun yerini salım, gec oldu."

F.Q.-yə elə gəldi ki, bu dəfə Bəhram kişinin səsindəki nəvaziş və üz-gözünün qırışığı bir-birinə uyğun gəlmədi. Bəhram kişi evə keçəndə bu dəfə ona, belə deyək, qəribə şəkildə, zənlə baxdı.

...Damlalar hardansa gəlib F.Q.-nin üzünə, saçına qonurdu. Düzdü, Balacanın qol-budağı, yarpaqları bir növ onu get-gedə şiddətlənən yağışdan qorumalı idi, amma... Üzü ilə sürüşə-sürüşə çənəsinəcən gəlib çatan damlaları heysiz-heysiz əli ilə (təzədən məst olmuşdu, nəydi, artıq əməlli-başlı yarıyuxulu idi, gözləri az qala süzülürdü) üzündən silir, saçına yaş-yaş sığal çəkməyə çalışırdı. Oturduğu yerdən qalxmaq istədi, amma qalxa bilmədi. Təzədən öz vahiməli libasına (qaranlığa) bürünmüş Vəng dağından (dev təkrar qayıdıb öz yerinə uzanmışdı) sürüşüb gələn boğuq inilti səsini yarıyuxulu halda beyninin dərinliyində az qala bütün varlığı ilə hiss etdi: "devdən bu cür səs?", vecinə almadı, ancaq bu zaman beyninin elə həmən dərinliyindən ildırım sürətilə keçən başqa bir fikirdən əməlli-başlı diksindi, beləcə dərin bir yuxuda atılıb diksinərlər, amma yuxudan ayılmazlar. Əslində, F.Q. buna diksinməməli, bundan xoflanmamalı, sadəcə, buna təəccüblənməli idi. "Yatıram, nədi?! Həyatda axı belə olmur, belə axı ola bilməz!". Keyimiş diqqətini cəmləməyə çalışdı. Beynindən keçən fikir gördüyü ilə bağlı idi. Yağış yağırdı. Amma...

Yağış burda onun ömür boyu alışdığı kimi yuxarıdan üzü aşağı yağmırdı. Yağış burda aşağıdan üzü yuxarı yağırdı.

# II fəsil

***Bəhram kişi mağaranı tapandan bir həftə sonra***

İsti, heysiz bir yay günü idi. Günortaya yaxın Bəhram kişi özünü hövlnak (təngnəfəs) idarəyə, Mübarizin yanına çatdırdı. Gör nəydisə, bərk həyəcanlanmışdı. Həyəcanını zorla gizlətməyə çalışırdı. Salamsız-kalamsız:

– Bilirsən, nə olub, Mübariz? – Açıq pəncərədən çölə baxa-baxa soruşdu.

– Yox, bilmirəm. Otursana. Nədi ki? – Mübariz kişinin diqqətini çəkən Bəhramın səsindəki gizli vahimə oldu.

– Mağaranın, həqiqətən, ruhu var. – Bəhram kişi stulu çəkib onunla üzbəüz (müttəhim kimi) oturdu.

– Necə yəni... – Mübariz kişi, əlbəttə, bu "ruh" söhbətinə ilk gülənlərdən biri olmuşdu, indi də nə isə demək istədi, amma bilmədi nə desin, udqundu və ancaq öz sözünü təkrar eləyə bildi, – necə yəni?! "Bəhram, Bəhram, noldu sənə?!"

– Həqiqi sözümdü, inan. Mən özüm də inanmırdım. İndi isə inanıram. Mağaranın ruhu var. – Bəhram kişi son sözlərini məşum bir pıçıltıyla dilə gətirdi, sonra bir də eləcənə, – mağaranın, həqiqi sözümdü, ruhu var!.. – təkrar elədi.

Mübariz kişi vəhmələnmədimi, vəhmələndi, hiss elədi ki, damarında qanı donur, bir də onu hiss elədi ki, kürəyindən, yay-qış geydiyi dama-dama pencəyinin altından soyuq tər gedir. Yay idi, tərləməyinə qalsa, bütün günü işi isti çay içib tərləmək idi, amma indi kürəyinə gələn tər soyuq tər idi. "Bəhram sözü havayı deməz. Bu nə səfeh məsələdi?!" Bir müddət ikisi də susdu.

–Sən də belə şeylərə inandın?

–Bəli.

–Nə vaxtdan?

–Mağaraya girdiyim dəqiqədən.

– Yaxşı, yaxşı... zarafatın vaxtı deyil, sabah camaat yığılır, o boyda alimlər Bakıdan durub kəndə gəlir. Yox bir. "Mağaranın ruhu var". Görürsənmi, bu yaşda sənin ağlından nələr keçir?! – Mübariz kişi şuxluq eləmək istədi, – qocalırsan...

Mübariz kişi diqqətlə Bəhramı süzdü. Başındakı araxçının altında olan-qalan tükləri də ağappaqdır, üzünü saqqal basıb, saqqalı da ağarıb, gözləri isə həmişəki kimi oynayır, dibində fanar yanır, nədir?! "Görəsən yenəmi mənimlə məzələnir?!"

Mübariz kişi Bəhram kişidən beş (bəlkə də altı) yaş böyük idi. Amma indi gənclik dostu Bəhrama qüssə, təəssüf və diqqətlə baxdı: "bunun yaşı yetmişi təzə haqlayır, bə bu niyə belə tez qocaldı?! Gör hələ bu belədisə, o zaman mən nə gündəyəm, adam özü hiss eləmir ki yaşını..."

– Sən qocalmazsan, mənə baxma. – Bəhram kişi onun beynindən keçənləri duydu, amma mövzudan uzaqlaşmadı. – Mübariz, bax, biriminci sənə deyirəm, mağaranın ruhu var. Mənə xəbərlər göndərir.

Mübariz "Bu hardan bildi, mənim nə düşündüyümü?!" durub yerindən getdi otağın küncündəki balaca buz dolabından bir su dolu şüşə çıxardı:

– İçirsən?

–Yox.

İki stəkan suyu az qala birnəfəsə başına çəkdi, "qəribədi, çox qəribədi!", ürəyinin yanğısı yenə durmadı. Axır zamanlar Mübariz kişi fikir verib görmüşdü: ürəyindən keçən söz, dilinə gətirməsə də, tərəf-müqabilinə əyan olurdu, "adamın özü-özlüyündə düşünməyinə, öz təkliyinə çəkilməyinə də bu cür qadağa qoyularmış..."

– Aramla, adam balası kimi, yavaş-yavaş, ətraflı, özün də tələsmə, di danış görüm, nə deyəcəksən?! "Bəlkə bunun başı xarab olub?! Həqiqətən, elədi. Olub. Gorun çatdasın, ay Qəmər dayı..."

Yavaş-yavaş sakitləşdi. Altdan-altdan Bəhrama baxdı. Bəhram kişi yenə pəncərədən bayıra gözünü dikib, amma orada heç nəyi görə bilmirdi. "İndi mən bu inanmaza nə cür deyim, nə təhər bunu qandırım?"

– Deyirəm... – Handan-hana Bəhram kişi fikirdən ayrılıb dilləndi. – Deyirəm, bəlkə biz camaatı tələsik mağaraya yığmaqda düz iş görmədik?! O isə əməlli-başlı təhdid edir, kim bura girsə, elə belə də deyir, kim mağaraya girsə, yazıya barmağının ucu ilə toxunsa... Öləcək.

Mübariz kişi Bəhramın təhər-tövründən başa düşdü ki, zarafat eləmir. Zarafat eləmirsə, deməli... "Hayıf! Yazıq!"

– Bəhram, sakit ol. Bəhram, bir özünə gəl. Mağaranın ruhu hələ nə deməkdi?! Mağaranın ruhu nə gəzir buralarda?! Sənə nə oldu, niyə məni qorxudursan?

– Mübariz, – Bəhram kişi gicgahlarını ovuşdura-ovuşdura yorğun gözlərini ona dikdi. – Mən mağaraya girəndə, bu gün səhər getmişdim yenə, qəfildən qulağıma bir boğuq, qorxulu səs gəldi. Əslində, səs qulağıma girməmişdi, səs başımın içində, gicgahlarımda gup-gup edirdi. Mən hələ belə şey görməmişdim. Səs başımın içində, amma mənimlə danışırdı. Dedi ki, mən buranın ruhuyam. Bir sənin bura girmək haqqın var, bir də səninlə gələnin. O da mənə işıqlı dünyanı yenidən açıb göstərdin, onunçün. Amma... bir başqası, – dedi, – bura tək girə bilməz. Hələ yazıya, – dedi, – əl dəymək heç olmaz. Hətta sənə də olmaz! Dediklərimi yaxşı dinlə, get hər kəsə söylə.

– Bə sən nə dedin? – Mübariz kişi indi bir tərəfdən təbəssümünü zorla gizlədirdi, o biri tərəfdən canını vicvicə almışdı. Ürəyini isə lap elə indicə nəsə gəmirməyə başladı.

Bəhram kişi təəccüblə: "bunun başı, deyəsən, xarab olub", – Mübarizə baxdı:

– Mən? Mən nə deyə bilərdim?! Heç nə. Vahimələndim. – Bəhram kişinin səsində inamsızlıq vardı.

Bu kəndin astarını da, üzünü də yaxşı tanıyan Mübariz (kim olmasa da Mübariz) yəqin bilirdi ki, Bəhram qorxaq deyil. İndi işə bax, əgər ki, Bəhram bu cürə haldadısa...

–Bə necə oldu, o gün ikimiz gedəndə bu ruh harada idi?

–Bilmirəm... – Bəhram kişinin səsi heysiz gəldi.

– Bəhram, bax, qulağına səs dəyib. Boş şeydi. Mağaranın ruhu... Get evə, get dincəl, yat. İstəyirsən Tükəzi göndərim, bir-iki gün sənə qulluq elə-

sin?! – Mübariz kişi sovetliyin xidmətçisi Tükəz qarını hərdən-birdən, heç nədən ("ev-eşiyə gərək qadın əli dəysin...") Bəhramgilə yollardı. "Necə də olsa, təkdi, xəstələnib eləməsin, insandı."

– Yox, Tükəzlik bir məsələ yoxdu. Deyirsən ki, get, mən gedərəm. Amma sən, sən yadında saxla, mən sözümü dedim.

– Dedin, dedin... Yaxşı, lap elə, tutalım, sən mənə sözünü dedin. Bə indi mən durum nə edim? Şəhərə, o boyda adamlara durum yazım ki, buralara gəlməyin?! Mağaranın ruhu tərəfdən icazə... yoxdu?!

Bəhram kişi nə təhər baxdısa, Mübariz duruxdu, zarafatla dediyi sözün axırını güclə gətirdi.

– Biləsən, – Bəhram kişi yenə haman məşum pıçıltıya keçdi, – qulağıma səs-filan gəlməyib indiyənəcən, indi də gəlmədi. Eşitmişəm! Mağaranın bir küncündə o zalım səs gəlib başımın içinə dolan zaman bir yumru nəsə vardı, nəydisə, yanar kürə kimi işıqlı idi, dolunaya bənzəyirdi. Başımın içi guppuldayıb qurtaran kimi o kürənin işığı da yavaş-yavaş söndü, bəlkə qəfildən söndü, burası yadımdan çıxıb.

– A kişi, bəsdi, sən Allah, ağlını yığ başına. Kim inanar bu cəfəngiyyata, heç düşünürsən?! – Hövsələdən çıxan Mübariz kişi özü də hiss elədi ki, səsi artıq əvvəlki tək qətiyyətli çıxmır, indi səsində bir sünilik var: "Lənət şeytana!"

– Dünən Qulamhüseyn müəllim gəlmişdi mağaraya. Əvvəl, dedi, özüm gəldim baxam, görəm nə var, nə yox, sonra məktəb uşaqlarını gətirəcəyəm. Əli ilə az qala eşib naxışlardan (işarətlərdən) birini yerindən qoparacaqdı. Mən dedim: – Ay müəllim, dedim, neynirsən, etmə-eləmə... Kimə deyirsən?! Dönüb hələ mənə çımxırdı...

***Bir gün əvvəl.***
***Mağaranın içində Qulamhüseyn müəllim və Bəhram kişi***

Bəhram kişinin heç xoşuna gəlmədi ki, Qulamhüseyn müəllim mağaranın divarındakı naxışları (işarətləri) barmaqları ilə bir-bir yoxlayır, az qalır yerindən qoparsın.

– Ay müəllim, neynədiyindi? Dağıdıb qopararsan, etmə, eləmə.

– Neynədim ki?! – Qulamhüseyn müəllim qanrılıb hirslə Bəhram kişiyə çöndü. – Heç nə olmaz, qorxma, möhkəmdilər. "Yəni, bu naxışların altında gümüş də yoxdu? Bircə bunsuz (Bəhram kişisiz) bura girmək mümkün olsaydı..."

– Sabah, birigün şəhərdən axı o boyda alimlər gəlib baxacaq, olmaz...

– Mən bir şey etmirəm. Neynirəm ki, mən?! "Hələ mən uşaqları gətirim buranı dağıtsınlar, siz görün."

Qulamhüseyn müəllim gözlərində həsrət və acgözlük dörd tərəfi bir daha diqqətlə nəzərdən keçirdi, "yox, nəsə var, nəsə var burda. Elə-belədən deyil. Bu naxışlar bura elə-belədən gəlib çıxmayıb. Bəhram kişi duyuq düşüb. Elə buna görə də buralardan əl çəkmir. Naxışların altında hökmən nəsə var".

Qulamhüseyn müəllim Bəhram kişiyə mənalı-mənalı baxıb mağaradan çıxdı.

***Yenə kənd sovetliyi.***
***Bəhram kişi ilə Mübariz kişi üzbəsurət oturublar***

– Nolsun? – Qulamhüseyn müəllimin "özbaşınalığına" yaxşı bələd olan Mübariz əvvəlcə bu söhbətdən bir şey anlamadı.

–O olsun ki, mənə axı demişdi, kim naxışlara toxunsa, öləcək.

–Kim demişdi?

–Mağaranın ruhu.

–A kişi, sən nə danışdığındı?! – Daha dözməyib Mübariz axır ki, əməlli-başlı əsəbiləşdi, yerindən qalxdı, pəncərənin önünü kəsib durdu. Çölə baxa-baxa hirsini boğmağa çalışdı. Məktəbdə dərslərin qurtaran vaxtı idi. Səliqə ilə geyinmiş, əli çantalı uşaqlar iki-iki, üç-üç sovetliyin qabağından keçib evlərinə gedirdilər. Ucadan danışa-danışa, bir-birinin sözünü kəsə-kəsə... Həmişə bu vaxtlar sovetliyin qarşısı səsli-küylü olur. Fikri bir an içində mağaraya gedib qayıdan Mübariz kişi Bəhram tərəfə çönmədən coşdu:

– Sən nə danışırsan? Kim öləcək, necə öləcək, niyə öləcək?! Bütün rayonda, hələ bəlkə Azərbaycanda Qulamhüseyndən zal adam yoxdu. Kəldi o,

öküzdü, bilmirsən, həyatı boyu bir dəfə də xəstələnməyib! Qonşumdu, mən bilirəm. Sən bilmirsən?

–Mən də bilirəm. – Bəhram kişi qüssəli-qüssəli cavab verdi.

***İki gün sonra***

... Çox çəkmədi, iki gün sonra kəndə xəbər yayıldı ki, Qulamhüseyn müəllim gecə yatıb səhər yuxudan durmayıb. İnanılası deyildi. Yuxudaca keçinmişdi. Ah-vay, şivən... Qəfil ölüm ağır ölümdü, səbəbini ailəsi, qohum-qardaşı bildimi, bilmədi. Mübariz kişi Bəhram kişinin dediklərini yada salaraq onları bu hadisə ilə uzlaşdırdı və bu dəfə, həqiqətən, əməlli-başlı xoflandı. "Düz deyirmiş, od olmasa, tüstü çıxmaz!". Bir neçə gün Mübariz kişi havalı kimi gəzdi. Nəyə görəsə Qulamhüseyn müəllimin yasında hətta Bəhramdan çalışıb uzaq durdu. Amma bir məhzun axşam nə isə çəkib onu Bəhram kişinin həyətinə gətirdi. "Çoban papağı" həmişəki kimi öz arxasını Vəng dağına söykəmişdi. Vəng dağı özü yox idi, yerində bir böyük qaraltı var idi. Mübariz kişi dağ tərəfə baxa bilmədi. "Balaca"nın altında mütəkkəyə söykənib bir müddət ikisi də dinməzcə oturdular. Bir-birindən baxışlarını qaçıraraq:

– Gördünmü? – Sükutu birinci pozaraq Bəhram kişi soruşdu.
– Gördüm. – Mübariz kişi cavab verdi.

***F.Q.-nin kəndə gəldiyi birinci gecə.<br>Bəhram kişinin həyəcanı***

Bəhram kişi dal otağa keçib yerinə girdi. Yağış yağmağına yağırdı, amma damın üstündən tappatap səsi gəlmirdi. Bəhram kişi məsələni dərhal anladı. "Görəsən bu necə, bir şey başa düşdümü? Bu yağış özü bir işarətdir. Kaş bu dəfə alınaydı, F.Q.-nin bəxti gətirəydi, oxuyaydı bu yazını..." F.Q. Bəhram kişinin ürəyinə yatmışdı. "Təmiz, sözüdik, saf bir adama oxşayır. Beləsi işini yarıda qoymaz, heç qoymaz. Oxumasa getməyəcək!"

Bakıdan gələn adamların (mütəxəssislərin) onun evində qalması Bəhram kişinin qürurunu qaldırır, camaat arasında hörmətini birə-yüz edirdi. Bəhram

kişi mağaranı (oradakı yazını) tapmasına, ilk dəfə üzə çıxarmasından bəlkə də daha çox (ya da elə o qədər) şəhərdən gələn qonaqların məhz onun evində qalmalarına sevinirdi. Mübariz kişi ara-sıra onun bu sevincinə balaca soğan doğrayırdısa da (hərdən zorla çəkib hansısa qonağı televizora baxmaq bəhanəsiylə öz evinə yatmağa aparırdı – bundan artığına gücü çatmırdı) "qısqanır, qısqanır, qısqanclıq bunun canındadı, qanındadı", Bəhram bunu vecinə almır, Bakıdan gələn qonaqlara (İnstitut əməkdaşlarına, onları müşayiət edən rayon işçilərinə, elə Mübarizin özünə) qulluq etməkdən, xidmətlərində durmaqdan xüsusi zövq alırdı.

... F.Q. qapını açıb yavaşca içəri keçdi. Ehtiyatlı olmağa çalışdısa da, ayağı nəyə isə ilişdi (işığı yandırmaq istəməmişdi), kətil idi, onu bir kənara çəkib otağına keçdi, bir istədi, yol çantasını açsın, pal-paltarını elə indicə yerbəyer eləsin, amma o qədər yorulmuşdu ki, tənbəlliyi güc gəldi, birtəhər soyunub özünü yıxdı çarpayıya, ondan çıxmayan iş, bu qədər təəssüratın beyninə, gözünə, qəlbinə dürtülüb girməsinə baxmayaraq, üzü balınca toxunan kimi az qala başına qədər gəlib dəyən ulduzları da, üzüyuxarı yağan yağışı da, Vəng dağını da, mağaranı, yazını da, Afaqı, onun ifritə anasını da, Mübariz kişinin özünü də (F.Q.-nin dodağına yüngülcə təbəssüm qondu, bəlkə Mübarizin adının çəkilməsini o özü də duydu?!) unutmadımı, unutdu, yuxuya, özü də çox bərk bir yuxuya getdi...

Bəhram kişi isə yatağında o tərəf, bu tərəfə çevrilə-çevrilə qalmışdı. "Mübariz" söhbəti ("Mübariz, baxma, yaxşı adamdı. Mən sənə bunun əhvalatını danışaram..." və s. və i.a.) Bəhram kişinin yuxusuna möhkəmcə haram qatmışdı, "gərək elə deməyəydim, heç Mübariz yeridi? Yoxsa ki, mən sənə belə danışaram, mən sənə elə danışaram, danışaram hələ nədi, nəyi danışacaqsan, a kişi, nəyi?.." Nədənsə, hardansa köhnə, zəhlətökən xatirələr gəlib beyninə girdi. Sağ tərəfə çöndü. Yorğanı başına çəkdi. Yorğan altında Bəhram kişi qaldı tək-tənha. Ah çəkdi: "Mübarizin halına yanmaq mənəmi qaldı?! Lap elə bu cavan oğlan bir az da Mübarizi pis tanısın. Əsl halına yanası adam mənəm, mənim özümdü, Bəhramdı, Mübariz deyil, burnuuzun Mübariz heç deyil. Nolub ki, Mübarizə?! Evi, eşiyi, uşaqları, arvadı (hələ o zamanlar canı sulu, dingildəyə-dingildəyə gəzən Tükəz qarı barədə də acı dillər bəzi şeylər

danışdı, babalı deyənlərin boynuna)... Mübariz həyatını çoxdan qurub. Bəs mən? Tək və tənha. Sərçə kimi". Bəhram kişi həmişə çalışmışdı, bu cür acı fikirləri özündən uzaq eləsin, bəzən alınmışdı, bəzən isə yox. İndi də xəyal gecənin bu vaxtı ərklə çəkib onu uzaq uşaqlıq və gənclik illərinə aparmadımı, apardı, yuxusu qaçdı, həyat kino lenti kimi fırlanıb əvvəlinə yığıldı, yorğan altında Bəhram kişi dönüb oldu adi bir tamaşaçı...

Mübariz, Bəhram, Gülsüm əhvalatı çoxdandı bu cürə rəngli göstərməmişdi özünü ona. Hər şey cürbəcür rəngə bürünmüşdü, ətraf al-əlvan rəng içində idi...

### *Mübariz, Bəhram, Gülsüm*
### *(bir xeyli vaxt bundan əvvəl)*

...Yalan olmasın, təxminən, əlli-əlli bir il əvvəl (dəqiq desək, 1954-cü ildə) qaşqabaqlı bir payız səhəri (amma yox, bəlkə də qırx il əvvəl idi) Bəhram kənddə açılan yeni məktəbə, 3-cü sinfə getməyə başladı, məktəbə gec qalmışdı, rəhmətlik atası onu uzaq yerə (yaxın kənddəki məktəbə bir saat piyada yol vardı) göndərmək istəməmişdi, əslində, ona görə istəməmişdi ki, yol uzaqdı, hər gün gedib-gəlmək uşağa ağır olar və s. və i.a. – xeyr, Qəmər kişi belə şeyləri vecinə almazdı. Sadəcə, balaca Bəhram ona burda – örüş yerində lazım idi – qoyuna gedəndə bir böyük oğlan kimi ona yol yoldaşlığı edirdi, onunçün. Bəhramın atası Qəmər kişi kəndin çobanı idi.

Yeni məktəb binasını rayon mərkəzindən kəndə elə bu iş üçün gələn xüsusi tikinti briqadası məktəb vaxtı gələnə, payıza qədər tikib təhvil verdi.

Kolxoz sədrinin, kənd sovetinin təşkil etdiyi yığcam bir açılış oldu. Məktəb poçtxananın sağ böyründə tikilmişdi. Həyəcanlı, sevincli bir gün idi. Kənd əhli bayram paltarı geyinib poçtxananın qabağındakı açıqlığa (Radio meydanına) yığışdı, samovarlar, dəm çaynikləri, stəkan-nəlbəki, əlavə stol, stul gətirdilər, çay məclisi düzəldi. Mübariz o zaman bığ yeri təzəcə tərləyən bir növcavan idi. Tikinti gedə-gedə ora-bura qaçıb canfəşanlıq edir, başına öz yaşıdlarından ibarət balaca bir dəstə düzəldib onun bu canfəşanlığına bığaltı qımışan ustalara bu uşaqlar guya kömək edirdilər; onlar çay qoyur, yemək

süfrəsi açır, gün boyu yığışan zir-zibili tikinti meydanından təmizləyirdilər... Üzləri tüklü, qaraqabaq, artıq söz-söhbət eləməyi sevməyən ustaları rayon mərkəzindən üstüaçıq bir yük maşını səhər tezdən kəndə gətirir, hava qaralanda isə geri qaytarırdı. Dinməz-söyləməz yedikləri günorta yeməyini onlara kənd soveti verirdi – hər ailənin boynuna bir günlük nahar (ustalar olardı səkkiz – on nəfər) qoyulmuşdu. Daşı, kərpici, sementi, taxta-şalbanı kənd sovetinin sədri Allahverdi kişi ("o idarə sənin, bu idarə mənim") yüz yerə ayaq döyə-döyə təşkil edirdi. Bəzən material ləngiyəndə ustalar qısa, ya uzun müddətli "perekura" (fasiləyə) çıxır, papirosu papirosa calayıb, tikinti meydançasında orda-burda oturub içdikcə çaydan içə-içə üzü daim qaşqabaqlı ustabaşı Zərbəlinin dediyi kimi tikinti "sursatını" gözləyirdilər. Bu zaman xüsusi həvəslə Mübariz ağlına nə gəlirdisə bu ustalara sual dalınca sual yağdırır (onların rayon mərkəzindəki işləri, evləri, arvad-uşaqları, qohumları barədə, "yaxın" Moskvadan, "uzaq" Berlindən), o ki var, ustaları bezdirirdi. Adətən dinməz-söyləməz duran Zərbəli axırda mat-məəttəl deyirdi ki, (yalnız bu zaman qaşqabağı onu tərk edirdi) mənim evimdə nəyim var, nəyim yoxdu – Mübariz məndən yaxşı bilir.

Poçtxananın qapısına yaxın bir uca dirək var idi, o dirəyə radio reproduktoru bağlanmışdı, özü də, bu radio bütün gün ərzində işləyirdi, xırıldayıb inildəyən vaxtı da olurdu, səsinin aydın, səlis gələn vaxtı da. Axşamlar kənd əhli – qocalar, yaşlılar bir tərəfdə, cavanlar bu biri tərəfdə, uşaqlar, arvadlar isə o biri, qarşı tərəfdə bu Radio meydanına toplaşardılar, taxta kətil ilə gələrdi çoxu, musiqi verilişlərinin, xüsusilə də, ədəbi-musiqili verilişlərin (şeirli, hekayəli söhbətlərin – sonu ölümlə bitən qəmli eşq macəralarının) vaxtını keçirməzdilər. Radio meydanı, əslində, yarıgizli görüş yeri idi. Hərdən qızların, arvadların (adətən, musiqili verilişlər zamanı) dəstəsindən gələn demək-gülmək səsləri meydanı başına götürür (bəzən bir xüsusi gülüş o biri, kişilər tərəfə, kiməsə bir işarət kimi göndərilirdi), bir də baxırdın, musiqi də qurtarıb, radionun iş günü də bitib – Sovet Azərbaycanının Dövlət himninin son gurultusudu, budur, xırıldayıb o da susdu, meydandan isə həvəs dolu səslər – söhbətlər, gülüşlər kəsilmək bilmir.

Qış, payız aylarında, təbii ki, Radio meydanı boş qalırdı, bir növ, "dincliyə" qoyulurdu. Gecə yağan və heç kimin nə cür yağdığını görmədiyi ağappaq qar meydanı başdan-başa ağ xəliyə bürüyürdü ("Qocalıq da belədi", Bəhram kişi əlini ağarmış başına çəkib düşünürdü: "bir gün yuxudan durub görürsən ki, hər tərəf ağappaq qardı"). Vəng dağından soyuq küləklərin sovurub gətirdiyi qar dənəcikləri çox tez bir zamanda meydanın üstünü başabaş örtür, buzlaşmış, sürüşkən cığıra ürək edib ayaq basanlar – yıxılanı qəhqəhəylə yıxılır, ürəklisi "nərə" çəkib sürüşüb keçirdi. Gecələr dolğun ayın (dolunayın) işığı bu təzə yağan qarın işığına qarışaraq, həqiqətən, Radio meydanını gözqamaşdıran, bəyaz bir xalçaya çevirirdi. Meydan boyu yan-yana düzülmüş şam, çinar ağacları göylərdən onlara ərməğan kimi gələn qarlı libaslarını elə tez və elə həvəslə əyinlərinə geyinirdilər ki, kənddə qız-uşaq illər ərzində (yəni, tək-tük nadir hallarda) onlar üçün alınan paltara, dona bu cür arzu-kamla sevinib bürünürdü.

* * *

...O ilin isti yayı bitmək üzrə idi, sentyabr sürətlə yaxınlaşırdı. Məktəbin açılışından sonra yeni müdir – rayon mərkəzindən gəlmiş, uzun illər mərkəzdə məktəb işində işləmiş Bayram müəllim məktəb uşaqlarının siyahısının tərtibi ilə məşğul oldu. Kənddə müəllim problemi yox idi, şəhərə gedib oxumuşlar içində tək-tük olsa da qayıdıb gələnlər tapılırdı. Tarix, coğrafiya, ana dili dərsləri yerbəyer edilmişdi. Rayon mərkəzindən olsa-ola riyaziyyat (Bayram müəllim özü riyaziyyatdan dərs deyəcəkdi), xarici dil və rus dili müəllimləri gələcəkdilər – hələlik yeni məktəb belə bir qüvvə ilə kəndin (hətta qonşu Qamışlığın) uşaqlarını qarşılaya bilərdi. Rayon mərkəzindən ümid vermişdilər ki, müəllim məsələsi get-gedə yaxşılaşacaq. Zaman keçdi, həqiqətən də elə oldu. Artıq əlli il əvvəl tikilmiş o birmərtəbəli, on üç sinif otağı və iki kabineti olan səkkizillik məktəbə az qala bitişik üç il bundan əvvəl yeni, yaraşıqlı və geniş (ən əsası – ikimərtəbəli və onillik!) məktəb binası inşa edildi. İndinin özündə də müəllimlik edənlərin əksəriyyəti dörd il, beş il əvvəl kənddən çıxmış gənclər (əsasən, qızlar) idi – ali təhsillərini şəhərdə başa vuranlar hələ ki, Vəng dağının ətəyindəki bu kəndə həvəslə (həvəssiz) geri dönürdülər.

... O uzaq yay gecəsi isə Radio meydanında təntənəli əhval-ruhiyyə hökm sürürdü. Zarafat deyildi, bir neçə gündən sonra kəndin həyatında ilk rəsmi məktəb fəaliyyətə başlayacaqdı. Nə vaxtsa, inqilabdan əvvəl burada bir mollaxana açılmışdı. Sovetlər gələndə bu mollaxananı bağlamışdılar, binası indi kənd sovetliyinə məxsus idi, kənd sovetinin o vaxtkı sədri Allahverdi kişi uşaq yaşından bu mollaxanaya dərs oxumağa gedənlərdən (bir dəfə hətta Molla Kəbləli onun ayaqlarını falaqqaya da salmışdı – yaxşı xatırlayırdı, "öldüm, Allah, bu zülmü düşmənə də göstərmə") biri idi, indi isə bu binaya sovet sədri kimi gedib gəlirdi.

Allahverdi kişi yaşlı birisi idi, həmən gün rəsmi açılışdan sonra başına yığışmış adamlara belə dedi:

– Baxın, mən ölü, siz diri, kəndin gələcəyi hələ qabaqdadı. Bu torpağın böyük tarixi var. Atam danışardı, Vəng dağının o tərəfindən məzhəbsizlər gəlib o qədər dəmir-dümür, bəzək əşyaları, türbə-məzarlar bütöv-bütöv aparıblar ki... Heç kim bilmir, indi onlar hardadı?!

– Sahibi olmayıb buraların, sahibi! – Müharibədən sonra Sibirə sürülüb (nədi-nədi üç ay, üççə ay "plendə" olub – sonra qaçıb Belarusiya partizanlarına qoşulmuşdu) indi-indi kəndə dönən Əryən həmişəki kimi yenə də bir "mız" qoydu.

– Olmayıb, indi var! – Əryənin "plen"iylə hələ də barışa bilməyən Allahverdi kişi bu "şübhəli" şəxsə sərt cavab verdi.

"Elədi, elədi..." deyənlər bilinmədi, Əryənin dünyaya, ölkəyə, dövlətə gizli etirazını, yoxsa sovet sədri Allahverdi kişinin aşkar təqdirini təsdiq edir.

Mübarizin olardı o zaman on beş, on altı yaşı. Cavanların arasında vurnuxsa da, diribaş idi – bir qulağı Allahverdi kişidə idi, o biri qulağı o birilərdə. Bəhram isə on yaşındaydı və Allahverdi kişi xeyli inadcıllıq göstərəndən sonra atası Qəmər onun yeni məktəbə (özü də yaşı keçmiş olsa da birinci sinfə) getməsinə könüldən olmasa da hər halda razılıq vermişdi, "bax ha, məktəbdən sonra ölsən də, qalsan da tökülüb-qalan işlərimizi görüb qurtarassan..."

Bəhram düz əlli il bundan əvvəl hələ isti, amma artıq sərin-sərin mehləri əsməyə başlayan sentyabr ayında özündən iki-üç yaş balaca uşaqlarla (on beş nəfər olardılar) məktəbin birinci sinfinə ilk getdiyi günü çox yaxşı xatırlayırdı.

Sevincdən köksü atırdı. Elə birinci gün uzaq qohumları sayılan Əryən kişinin qoşa hörüyünün biri çiynində, biri sinəsində olan kiçik qızı Gülsümlə masa arxasında bir partada oturdu. Özü ərklə gedib onun yanından çəkilmədi, "qohumdu, qoy yanında olum". Gülsüm isə qıpqırmızı qızarıb elə hey gülümsəyirdi, dodağına təbəssüm eynən rəngli bir kəpənək olub qonmuşdu, sanki bir daha heç hara uçmayacaqdı. Təbəssüm Gülsümün üzündən əskik olmurdu ki, olmurdu, bir az keçdi, sinifdə hamı onu "Gülümsər" deyib çağırmağa başladı. Bir dəfə qaçaqaç düşmüşdü (dərslər bitən zaman belə olurdu) itələşə-itələşə, əlbəttə ki, bilmədən Gülsümü yıxmışdılar (qalın corab üstündən geydiyi qaloşu ayağından çıxmışdı), dizi yerə dəyib qanamışdı. Qaloşu onun ayağına geydirən Bəhrama, bir də sıyrılmış dizinə qorxa-qorxa baxıb "uf... uf... uf..." inildəyə-inildəyə qız həm ağlayırdı, bənövşəyi (yaşıl, mavi?) gözündən əməlli-başlı yaş idi gəlirdi, həm də... ancaq Bəhram üçün zorla da olsa, gülümsəməyindən qalmırdı.

Qərəz, gün-günü, ay-ayı, il-ili əvəzlədi, altıncı sinfə elə beləcə bir-birinə (həm üzdə, çox zaman isə ürəklərində) gülümsəyə-gülümsəyə gəlib çatdılar. Altıncı sinifdə günlərin bir günü Bəhram sinəsində dərin bir yerin Gülsüm olmayanda sıxıldığını, əzildiyini, nə isə itirmiş adamlar kimi özünə yer tapmadığını hiss elədi. Gülsümün "qızlar bulağından su içən" vaxtı idi və arıqlığına baxmayaraq (bir dəri idi, bir sümük) xeyli qəşəngləşmişdi – yanaqları qıpqırmızı, qaşları sivri, saçları qapqara, gözləri, gözləri isə bənövşə rəngində (əslində, bilinmirdi yaşıldı, mavidi, göydü, nədi?!). Hökmən onu da demək lazımdır ki, – əlbəttə, Bəhramın bundan xəbəri yox idi, bu ondan cidd-cəhdlə gizlədilirdi – Gülsümün özü də "dilbilməz" Bəhramı içəri girib sinifdə görməyəndə sudan kənar düşmüş balıq kimi ağzını səssiz yumub-açır, havası çatmırdı, belə vaxtlarda hövsələsi daralır, özünə o da nə illah edirdi, yer tapa bilmirdi. Üzündən təbəssüm itirdi. Təbəssüm onun üzünə bir də Bəhramı görəndən sonra (balaca ürəyi rahatlanandan sonra) ürkək-ürkək qayıdırdı. Bir güzgünün iki üzü kimiydilər – bu nə edirdisə, nə duyurdusa o biri də eynən elə.

İndi o uzaq illərin arxasında durub (bəlkə də gizlənib?!) Bəhram kişi o günləri xatırlayanda və bu zaman ürəyi sıxılıb-əziləndə ilk əvvəl yadına düşən qızarmış üzünü ondan qaçırıb gözlərini inadla pəncərəyə dikən Gülsümün bənövşəyi (yaşıl, mavi?..) gözlərindəki o ürkək təbəssüm olurdu.

* * *

Aralarında beş-altı yaş fərq olsa da Mübariz ilə Bəhramınkı "tuturdu", necə deyərlər, "quşları bir-birinə qonmuşdu". Mübariz yeni kənd məktəbində iki il oxudu, səkkizinci sinfi bitirəndən sonra (məktəb səkkizillik idi deyin) gedib rayon mərkəzində kənd təsərrüfatı texnikumu vardı, ora daxil oldu, hərdən gedirdi öz dərsinə, çox zaman getmirdi və getmədiyi zaman gəlirdi kəndə, məktəbin qabağına əvvəl altıncı, sonra yeddinci, daha sonra səkkizinci siniflər dərsini bitirən məqama özünü yetirirdi. Onunla dostluqdan qürurlanan Bəhramı o məktəbdən çıxana qədər səbrlə gözləyir, bir yerdə Vəng dağının Qamışlığa aparan cığırı ilə üzüyuxarı qalxa-qalxa Bəhramın atasının qoyunları dağ döşünə yaydığı talaya qədər ordan-burdan söhbət edərdilər. Mübariz kəndin məşhur sual verəni idi. "Uzun burnunu soxmadığı məsələ yoxdu..." Kənddə onun suallarının leysanına düşən kim olurdusa, olsun, yalvarıb yaxasını güclə-bəlayla qurtara bilirdi:

–"Bilmirəm, vallah, mənlik deyil. Sən özün bilirsən?

–Yaxşı, onda de görüm, atom bombasını kim icad eləyib???

– Ay Mübariz, mən hardan bunu bilim, sən bunları hələ hardan bilirsən, texnikumun mərifətinə baxırsanmı?!"

Ən çox təəccüb edən isə kənd sovetinin sədri "ürəyiyuxa" Allahverdi kişi olurdu. Axşamlar Radio meydanında yaşlıların söhbəti nadir hallarda Mübarizsiz keçərdi. Özü olmayanda da "ə, bu hardadı, gəlsəydi, maraqlı bir söhbət edərdi..." deyənlərin hətta Mübariz üçün azacıq darıxdıqları vaxt da olurdu, hamı onun elmi və siyasi hazırlığını yüksək qiymətləndirirdi. Allahverdi kişi isə qəti əmin idi ki, bu uzunburun Mübariz yaxın gələcəkdə nə isə bir qəhrəmanlıq edəcək və bununla kəndin adını göylərə qaldıracaq. (Amma bu "nə isə" ki, var "bəlkə" kimi onu da əkmişdilər, bitmədi). Hərdən heç nədən, birbaşa adamın düz gözlərinin içinə dik-dik baxıb soruşmağı vardı. Məsələn, bir dəfə Allahverdi kişiyə qəfildən belə bir sual verdi:

– Bilirsənmi, BMT-nin Baş katibi kimdi? Bilmirsən...

– Kimdi, ay Mübariz? – Səmimiyyətlə onun-bunun üzünə baxan (köməyə gələn olmadı) Allahverdi kişi döyüküb maraqla soruşdu.

–U Tandı. U Tan.

– Kimə deyirsən utan, ə? Mən utanım? – Qıpqırmızı bozarıb Allahverdi kişi bilmədi, hirslənsin, ya gülsün.

– Yox e... – kənarda duranları bic-bic gözdən keçirən Mübariz için-için güldü. – Ay Allahverdi dayı, "U Tan" adam adıdı. Özü əslən Birmalıdı. Birma bir ölkədi. Bütün dünyanın rəisliyini veriblər ona. U Tana.

–Ada bax, ə. Utan. Utananın oğlu olarmı?

–Olmaz, olmaz... – Kənardakılar həvəslə hərəkətə gəldilər.

...Mübariz Bəhramın məktəbdən çıxan vaxtını, hansı dərsinin olub-olmayacağını çox yaxşı bilirdi, hətta Bəhram mat qalırdı ki, bəzən axırıncı dərsləri olmayanda belə məktəbdən çıxıb Mübarizi məktəb qapısı ilə üzbəüz, qurumuş Qarağac kötüyünün üstünə oturmuş görürdü. "Çoxdanmı gözləyir, nədi? Bə bunun öz dərsləri nə oldu?! Əsl dostdu, əsl dost buna deyərəm..."

Gülümsər Gülsümlə yolları bir idi deyin, çox zaman o biri uşaqlar olmayanda Kəhrizli körpünün üstünəcən üçlükdə yol gedirdilər, körpünün üstündən bir yerdə keçirdilər – Mübariz, Bəhram, bir də o, Gülsüm. Körpünü keçib Mübarizlə Bəhram sola, Vəng dağının ətəyinə, Bəhramgilin həyətinə (Çoban papağına) sarı, Gülsüm isə başını aşağı dikib (amma gülümsəməyindən də qalmırdı), sağa çönürdü. Gülsümgilin evi qəbirstanlıq yolunun əvvəlində idi. Sağollaşanda Mübariz hər dəfə qıza zarafatla nəsə bir söz tapıb deyirdi: "Bax, sabahkı dərslərini yaxşı oxu, sabah cəbr səndən soruşacaq, ürəyimə damıb." Bir gün, iki gün, üç gün... (əslində: bir il, iki il, üç il...), nəhayət, günlərin birində Mübariz özü-özünü faş elədi. Hər dəfə bu, Bəhramın yadına düşəndə ürəyi atlanır. Həmən gün Mübariz məktəbdən körpüyə qədər elə hey bunu deyib durdu: "adamların bir-birindən uzaqda bir-birini xatırlaması nə cür baş verir, bilirsiz?" Dil boğaza qoymadı, suallarını yağdıra-yağdıra ən çox da bu zaman Gülsümə nəzər salıb, "sən tələsmə, Bəhram, sən tələsmə" deyə kənardan bir kəlmə söz deməyə çalışan Bəhramı sakitləşdirdi, cavabı, illah, Gülsümdən gözlədi. Bəhramın isə ürəyi səbirsizliklə vururdu. "Məndən yəqin sonra soruşacaq, qız ki indi yolu burulasıdı, onunçün ondan əl çəkmir".

Gülsüm, əlbəttə ki, yenə də gülümsəyə-gülümsəyə (bunsuz olardımı?) "bilmərəm" dedi.

–Mən deyirəm, bəlkə... – Bəhram daha bir ümidsiz cəhd etdi.

– Dedim axı. Sən dayan!.. – Mübariz coşmuşdu, artıq bu dəfə səbrsiz və kobud şəkildə Bəhramın sözünü kəsdi, ürəyi titrəyə-titrəyə təkrar üzünü Gülsümə tutdu, – istəyirsən, sınaqdan keçirək?! Əgər... yox, sən bu axşam evdə məni xatırlayanda, hökmən saata bax, gör saat neçədi?! Görəcəksən, mən də səni eyni vaxtda xatırlayacağam. Sən – şahid! – Mübarizin, nəhayət, yadına düşdü ki, heç nə anlamayan Bəhram da gözünü döyə-döyə ("bu nə deməkdir?") onlarla bir yol getməkdədir. – Bəhram qoy şahid olsun. İkimiz də dəqiq vaxtı ona deyərik. Sonra tutuşdurarıq. Mən bilirəm. Eyni vaxt olacaq! Ürəyimə damıb, sabah özün görəcəksən!

Gülsüm dodağını dişləyib başını yellədi, bu dəfə heç nə demədən, səssizcə öz yoluna burulub çıxıb getdi. Bəhramın ağlına da gəlmədi ki, qız bu dəfə öz həmişəki təbəssümünü hara, niyə gizlətdi, o axı ayrılarkən həmişəki kimi gülümsəmədi, birdən-birə ciddidən ciddi oldu: "Gör bir, mən bunu hələ nəyçünsə xatırlamalıyam?! Ay səni... buna bax bir... Bir də mən olam, sən uzunburun Mübarizlə yol gedərəmmi – heç vədə! Bəhram, Bəhram, sən, yəni, bu boyda dilbilməzsən..." Gülsüm addımlarını yeyinlətdi.

"Dilbilməz" Bəhram isə Mübarizlə tək qalandan sonra yol boyu ikisi də susduqca susdular.

–Bu gün qoyuna getməyəcəyəm. Evdə işlərim var.

Üzünü yana tutub Bəhram yalan deyirdi, tək qalmaq istəyirdi – amma bilmirdi niyə?! Görünür, Mübariz də eləydi. Bəhram kişi bu gün xatırlayır ki, Mübariz onun bu sözlərindən sonra, nə üçünsə həmişəki kimi zəli olub ona yapışmadı, örüş yerinə zorla çəkib onu aparmadı, sinif uşaqları barədə (əlbəttə, xüsusən, Gülsüm barədə) bitib-tükənməz suallarını (tənəffüsdə kim nə edir, Gülsüm kiminlə danışır, kiminlə danışmır...) yenə yağdırmadı, o da tezcə "sağ ol" deyib aralandı, havadamı əridi, hara itdi, hara getdi, Bəhram bir də baxıb gördü, Mübariz yanında yoxdu.

Bəhram kişi indi onu da yaxşı xatırlayır ki, ertəsi gün bu siçan-pişik oyunu ("gizlənpaç?") birdəfəlik bitdi. Hər şey apaydın gün işığına büründü.

Gülsüm yenə Bəhramla bir yerdə dərslər bitəndən sonra məktəbdən çıxan zaman Mübarizi həmişəki yerində görüb (ağac kötüyünün üstündə otur-

muşdu) təbəssümünü göz görə qaşqabaqla əvəz elədi, addımlarını yeyinlətdi. Mübarizlə Bəhram isə heç nə anlamadan onun yanınca tələsdilər.

– Noldu, saat neçə idi, dünən mən yadına düşəndə? – Ağzında dili qurumuş Mübariz salamsız-kalamsız (nə mənə, nə sənə) ürəyi atlana-atlana soruşdu. " Bu niyə belə qaşqabaqlıdı?! Görən nə olub?!.."

Gülsüm cavab vermədi, barmaqları məktəb çantasını bərk-bərk sıxdı. Amma Mübariz cavab almadan kimdənsə əl çəkmişdimi, çəkməmişdi. Bu dəfə də zəhlə tökdü:

– Saata baxdınmı, saat neçə idi? – Elə soruşdu ki, artıq cavab verməmək mümkün olmadı, körpüyə, Gülsüm evlərinə dönən yerə hələ bir az yol qalırdı.

– Heç yadıma düşmədin. "Yan, qal! İşim-gücüm qurtarmışdı, hələ bir sənin uzun burnun yadıma düşəcəkdi". – Gülsüm hirsini güclə boğub qəflətən gülümsədi, Bəhrama baxdı, onun nazlı sualı bilinmədi, oğlanlardan hansınadı. – Bəs sən?..

–Mən? – qıpqırmızı pörtmüş Mübariz soruşdu.

Gülsüm, gözləri Bəhramda olsa da (həmişəki kimi açıq-aşkar məxsusi onun üçün gülümsəyirdi), sözləri Mübarizə ünvanladı:

– Hə də, sən demirdin ki, adamlar eyni vaxtda bir-biri barədə düşünürlər? – Bu yerdə avam Bəhram, əslində, Gülsümün baxışlarından ilham alıb atdı özünü ortalığa, nə atdı, birdən yadına düşdü ki, dünənki söhbətin canı bu sualdadır, onu da şahid seçiblər, Gülsüm onun Gülsümü isə indi ondan kömək gözləyir (???).

–Mənmi? – Mübariz naçar-naçar dübarə soruşdu.

– Sən, sən! – Gülsümün qəzəbi qəlbindən üzünə köçüb, təbəssümü qəfildən yox oldu. İndi cavab almamış əl çəkənə o oxşamırdı, bu dəfə nümayişkaranə bir şəkildə o dayandı. Qaşları çatılmış Gülsüm daha ("eh!") Bəhrama baxmırdı, o, artıq Mübarizin üzünü, gözünü, burnunu öz qəzəbli baxışı ilə neştər kimi deşməkdə idi.

Bu yerəcən hər şey şuxluq, zarafat pərdəsinə bürünmüşdüsə, çaşqın qalmış Mübarizin cavabı bu pərdəni qəfildən aradan götürmədimi, götürdü, pərdə arxasında isə zəif bir inilti qaldı. Bəhram kişi bu günəcən Mübarizin o

iniltisini yaxşı xatırlayır. Bu iniltidən (cavabdan) sonra çaşıb qalmış Bəhram "buna nə oldu?" üzünü çöndərib Gülsümə baxmışdı. Qız qıpqırmızı idi. Heç bir söz demədən (Mübarizin cavabı Gülsümü əməlli-başlı sarsıtmışdı) Gülsüm hirsindən əsə-əsə arxasını onlara çevirib körpünü keçmiş, üzündə həmən o qəzəbli ifadə, sağollaşmadan az qala qaça-qaça çıxıb getmişdi. "Sağollaşmadı da".

"Məhv olmuş" Mübarizin iniltili cavabını Bəhram kişi sonralar tez-tez xatırlayır və bu zaman acı-acı gülümsəyir. Bir daha, dönə-dönə o məqamı yadına salır, Gülsümdən baxışlarını çəkə bilməyə-bilməyə Mübarizdən (elə bil, indidi) dübarə soruşur:

–Sən! Sən! Sən özün nə zaman onu xatırlamısan?

Hadisə, məqam bir qədər əvvələ qayıdır. Mübariz yenə də ayaq saxlayır, Gülsümdən baxışını gizlədə-gizlədə Bəhramın, nəhayət, gözünü açan və öz yaralı qəlbində nə zamandan bəri gizlətdiyi o iniltili cavabını, elə bil, özü-özünə (yüzmininci dəfə) pıçıldayır:

–Mənim onu heç unutduğum vaxt olubmu?!

Bu sözlərdən sonra Gülsüm bu dəfə üzündə sirli bir təbəssüm qaçıb gedir.

... Avam Bəhram ildırım vurmuş adamlar kimi yerindəcə donub qalmadımı, donub qaldı. "Mən nə qədər axmaq, mən nə qədər avamam. Bu axı, gün təki aydın, nə qədər sadədir. İki üstəgəl ikidi. Dost, dost... Bu da dost. Bu ki... bu ki bu qızı istəyirmiş. Mənə baxırsanmı? Necə olub mən bunu duymamışam?! Yəni, bəlkə də hamının bundan xəbəri olub, var, bir məndən başqa. Aman, aman, aman... Of, of, of... Amma... Yaxşı, bə mənə nə oldu?! Mən niyə bu qədərinə yanıram? İstəyir, istəsin, sevir, sevsin. Cəhənnəmə sevsin. Yox! Yox!!! Gülsüm, Gülsüm... Gülsümsüz mən..."

Gülsüm sabahı gün məktəbə gəlmədi. O biri gün də elə. İki gündən sonra gəldi. Bəhramın ürəyi bu iki gün ərzində az qala partlayacaqdı, sinfə girəndə hər şeydən əvvəl tez göz gəzdirib Gülsümü öz yerində tapmayanda "gup" eləyib ürəyi harasa yumbalanırdı, sonra bütün sinfə altdan-altdan göz gəzdirirdi: "bəlkə yerini dəyişib?!" Yox! Gülsüm dərsə iki gün sonra gəldi. Yenə sakitcə keçib onunla yanaşı öz yerində oturdu. Bəhram uzun müddət başını

qaldırıb Gülsümün üzünə baxa bilmədi. "Görəsən, başqa bir dünyada Mübarizsiz Kəhrizli körpünü keçmək olardımı, olmazdımı?" Qız da ondan, elə bil, onda hürkdü (sidqimi sıyrıldı?), daha heç vaxt əvvəlki kimi məxsusi Bəhram üçün gülümsəmədi. Hamıya necə, ona da elə. "Qəlbqıran Bəhram, sənə qəlb qırmaq nədi, mən göstərərəm, dilbilməz Bəhram..."

Bir az da keçəcəkdi, məktəbdə yay imtahanları başlayacaq və onlar səkkizincini bitirəcəkdilər. Anlaşılmazı bəzən rahat-rahat, bəzən isə qəddarcasına anlaşılana çevirən məktəb illəri, bu sinif otağı, dəhliz, Kəhrizli körpüyə qədərki yol... – Hər şey, hər şey arxada qalacaqdı, uzun illər boyu çox şey baş verəcəkdi, çox şey dəyişəcəkdi, ya keçib gedəcək, unudulacaqdı, ya da qalıb yaşayacaqdı. Gülsüm əsla unudulmayacaqdı. O buna əmin idi. Belə hiss edirdi ki, Mübariz də bu cür düşünür. Hər ikisi, hər ikisi, yox, daha çox o, Bəhram həmən uğursuz gündən üzü bu yana, üzü sonsuza Gülsümə borclu qaldı. Bu borcun qədəri yox idi, bu borcun adı yox idi, bu borcun ürəyi əzən ağırlığı var idi. Bəhramın birdən-birə yorğan altında az qaldı nəfəsi kəsilə, özünə elə yazığı gəldi ki... Burnunu, ağzını dərhal yorğandan çıxarıb acgözlüklə dərindən nəfəs alıb nəfəs verdi, sonra nəfəsini dərdi, rahatladı (ah...), indi də Mübarizə yazığı gəlməyə başladı. "O vaxt mən nə təhər avam idim, Allah, o körpünün üstündə nə təhər çaşıb qalmışdım?!"

### *Mübariz, Bəhram, Gülsüm (2)*

Mübarizin son gün Kəhrizli arxın körpüsü üstündə məlul-məlul dilə gətirdiyi o etiraf balaca bir həqiqətin üzərinə birdən-birə gün işığı saldı və bu balaca həqiqət bərq vurub müxtəlif tərəflərdən görünməyə başladı. Məlum oldu ki, bu həqiqət təkcə ondan ibarət deyil ki, sən demə, bu uzunburun Mübariz Gülsümə vurulub, onu bu qədərinə sevir, həqiqət həm də bundan ibarətdir ki (Bəhram ilk dəfə idi, bunu dərk edirdi), Bəhram özü Gülsümü dünyalar qədər istəyir.

İndinin özündə, axşamlar evdə, yaxud Qarağacın altında, Bəhram kişi qarşısında bir stəkan çay, tək-tənha qaldığı vaxtlar (belə vaxtlar isə nə qədər desən olurdu) məktəb illərini, Gülsümün unudulmaz təbəssümünü az qala

minnətdarlıqla xatırlayır və bu zaman artıq təzə-təzə olan kimi əzab çəkmirdi, əksinə, xoşhallanırdı. Yuxusuna gəlib o günlər girirdi, Mübarizin əttökən "etirafından" əvvəl, əlbəttə ki, daha əvvəl Gülsümün ona evdən "Ovod" romanını gətirib (şəhərdən gələn əmisi özü ilə bir qucaq kitab gətirmişdi – Varis əmisi) ciddi şəkildə "hökmən oxu" tapşırması, oxuyub qurtarandan sonra isə qızı cırnatmaq üçün "bu da kitabdı?! Oxuya bilmədim" deyərək özünü artistliyə vurması...

– Çox da bilirsən?! Doğrudan xoşuna gəlmədi? Gəlib, gəlib... gözlərindən görürəm, xoşuna gəlib. Mənim xoşuma gəlib... – Gülsüm qızardı. – Bəhram, sən, elə bil, Ovod kimisən, bilirsən? Onun kimi ucaboylu, güclüsən... Ver, ver bunu.

Qıpqıpmızı qızarmış Gülsüm Kəhrizli arxın körpüsündə çantasını ondan dartıb aldı (Bəhram hərdən, xüsusilə, ağır olan vaxtlarda – məsələn, kitabxanadan kitab alanda Gülsümün çantasını körpüyəcən özü daşıyırdı), amma birdən söhbəti dəyişib yenə öz həmişəki təbəssümünə "qərq oldu". Yaşıl (mavi, bənövşəyi?) gözləri maraqla doldu:

– Vəng dağından gecələr qorxulu-qorxulu səslər gəlir, düzdü? Noldu, niyə susursan? Bəhram, tez ol, de görüm, düzdü?

Qoşa hörüklü, gülümsər Gülsümün səsinə (hərdən də yalandan acıq qatdığı, şıltaq səsinə) qulaq asmaq Bəhramın çox, lap çox xoşuna gəlirdi. O qədər xoşuna gəlirdi ki, bəzən qulaq asa-asa o verən sualın mənasını anlamaz, duruxub qalardı. Belə anlarda Gülsüm elə bilirdi ki, gözləri axıb getmiş Bəhram hər şeyi başa düşür və Gülsüm belə anlarda həvəslə tovuz quşuna dönür, balaca bir qızcığaz nə qədər bacararsa o qədər nazlanıb qürrələnirdi. Belə anlarda Gülsümün " bax, bax, Bəhram, mən beləcə ancaq sənə baxıram, qızarma, utanma, eh, nolub sənə, ayıl..." bənövşəyi (yaşıl, mavi?) gözlərindən xüsusi bir təbəssüm boylanardı, bu xüsusi təbəssüm ürəyindən cərəyan keçən Bəhram üçün elə bu gün də dünyadakı hər şeydən əziz olub qalıb gözlərinin dibində (qabağında?), gedirdimi, getmirdi.

"Ovod kimisən, ucaboylu... görəsən nə demək istədi?!"

– Gəlir, Vəng dağından gecələr elə qorxulu səslər gəlir ki... Uuu... Mən vahimədən yata bilmirəm. Deyirlər, dağda cadugər gizlənib, o cadugər ovsun oxu-

yub böyük bir devi yuxuya verib. Bu dev hərdən yuxuda öz-özünə danışır, səs çıxarır. Bir də deyirlər, bu dağ istəyəndə adamlara görükür, istəyəndə görükmür...

Qız rəngi ağarmış döyüküb qaldı. Təbəssüm üzündə dondu. Handan-hana diqqət və ehtiyatla Bəhrami süzəndən sonra (Bəhram pıqqıldayıb gülüşünü saxlaya bilməmişdi) ürəyi Gülsümün yerinə gəldi, o gözəl təbəssümü yenidən gözlərinə, üzünə qayıtdı:

– Yalançı, yalançı, bu boyda oğlansan, amma... ay səni yalançı... – Gülsüm çantası ilə onu yavaşdan (bərkdən?) vurub gülə-gülə qaçıb getdi.

Uzunburun Mübariz isə, əlbəttə, hər şeyi korladı. "Heyvanın heyvanı, bu nədi dedi, qız, əslində, ondan yox, məndən küsdü. Sənin yanında bu mənə niyə belə deyir – düşünməzmi?" – naçar və peşiman Bəhram titrək ürəyində bir dənə pudluq daş dumanlı şəkildə anladı ki, Gülsüm o söhbətdən sonra daha əvvəlki, məxsusi ona gülümsəyən Gülsüm bir də heç vaxt olmayacaq.

Gülsümün atası Əryən kişinin Bakıda yaxın qohumu (dayısı oğlu, bəlkə də əmisi oğlu) Varis yaşayırdı, razılaşmışdılar, Gülsüm orta məktəbi Bakıda tamamlayacaqdı və bu müddət ərzində qohumlarıgildə qalacaqdı. Varis müəllim adlı bu dayıoğlu, həqiqətən, çox mehriban adam idi, Gülsümü iki il orta məktəbdə oxuyan zaman, beş il də ali məktəbə gedib-gələn zaman evində öz balası kimi saxladı. "Qızım, sənin üzündə nə zamansa gülüş görəcəm, yoxsa yox, kənd üçün, yəni, belə betər darıxırsan?! Əvvəl-əvvəl mən də darıxırdım, sonra isə, eh..."

Qızın üzündəki təbəssüm bir də peyda oldu beşinci kursu bitirib filoloq diplomunu alandan az sonra Varis əmisinin onu oğlu Səyyafa nişanladığı gün Gülsüm qəfildən nə isə xatırlayıb həmənki işıqlı (sirli?) təbəssümün təzədən kəpənək kimi (köhnə dostlar kimi) dodağına qonmasına izn verdi.

... Bir dəfə yay tətili zamanı (gərək ki, dördüncü kursa keçmişdi) folklor yığmaq məqsədilə Gülsümü böyük bir tanışlıqla təcrübə keçmək üçün öz kəndlərinə göndərmişdilər. Ev-ev gəzib nağıl, əfsanə, lətifə, deyim yığmalı idi. Gülsümü kənddə görənlər ancaq ondan danışırdılar. "Gözəl-göyçək, ağıllı, ədəbli... nağılları toplamağa gəlib, gərək ona bir qəşəng nağıl danışam". Kəndin cavanları sahman-səliqələrinə, üst-başlarına fikir verməyə başladılar.

Hardansa Radio meydanında Mübariz öz sualları ilə yenidən peyda oldu (çoxdandı yox idi, rayon mərkəzində texnikumu bitirib ispolkomda nə isə bir işə düzəlmişdi).

Bəhram o zaman bircə dəfə, özü də təsadüfən, Gülsümlə rastlaşdı. Üstəlik çox pis yerdə üz-üzə gəldilər – düz Kəhrizli arxın körpüsü üstündə ("Kəhrizli arx, söylə səndə nə sirr var?"). Gülsüm, həqiqətən, dönüb başqa bir Gülsüm olmuşdu, əvvəlkindən də xeyli qəşəngləşmiş, ətə-cana gəlmişdi (əvvəllər arıq idi – bir dəri, bir sümük "sən yemək yemirsənmi, Gülsüm?! Bəlkə sən ağacın budağında yatırsan, onun üçün belə nərmənaziksən, budaq səni saxlar...").

Eşitmişdi, bəzi qoca qarılar bir müddət yoxa çıxan qızlar yenidən kəndə qayıdanda əvvəlcə onların qarınlarına baxırlar: "şişib, şişməyib?" Bu bir anlıq körpü üstdəki görüş zamanı Bəhramın gözləri macal tapıb Gülsümün əvvəlcə gözlərinin içinə saplandı, sonra Bəhram Gülsümün qəlbinə baxdı. Gülsümün qəlbi şişmişdi. Bu qəlbə kimsə girib özünə orada yuva qurmuşdu (xatirələr, xatirələr, "Ovod"...). "Ax, qoca qarı, qoca qarı..." Gülsüm özü hamilə deyildi, Gülsümün qəlbi hamilə idi. Körpünün üstü... Onların köhnə vida yeri... Üz-üzə gəldiklərində rəngi qıpqırmızı, çuğundur kimi olan Gülsüm unudub əlini qeyri-ixtiyari saçlarına atdı, amma hörükləri yox idi, saçlarını dəbə uyğun qısa kəsdirmişdi. Qız başını aşağı dikib ürəyi yarpaq misalı titrəyən Bəhramın salamına dilucu "salam" verdi, özünün də ürəyi elə o cür (amma bir şey büruzə vermədən) titrəyə-titrəyə keçib getdi. Vəssəlam. "Qəlb qırmaq nədi, mən sənə göstərərəm (?)". Amma niyə, nə üçün, nəyin xətrinə?! Ürəyi elə sıxıldı ki...

Mübariz təngnəfəs naxır yerinə özünü çatdırdı:

– Gəlibdi. – Salamsız-kalamsız "şad" ("bəd?") xəbər verdi.

– Mübariz, sən nəyə gəldin?

– Elə-belə... Gəldim. Deyirlər, nişanlanıb guya. Varis əmisinin oğluna nişanlanıb.

–Allah xoşbəxt eləsin. Sənə nə?

– Səndən niyaranam. Mən sənə görə deyirdim. – Mübariz başın aşağı dikib riyakarlıq etdi. Bəhramın cavan qəlbində nələr baş verirmiş, bunu "kor"

Mübariz öz zəhlətökən suallarını verə-verə çoxdan öyrənmişdi. Mübarizin sonralar özü-özünə zülm edərək əzab çəkdiyi, yuxusuz yola verdiyi gecələri bir deyildi, iki deyildi. "Bais oldum, mən, mən bais oldum. Nə onu qoydum hərəkət eləsin, nə də özüm... bir şey edə bildim. Zalımın, zalımın qızı..."

– Yaxşı, mənə nə? – Bəhram sakit bir tövrlə elə soruşdu ki, Mübariz çaşdı, hüznlə başını qaldırdı, maddım-maddım onun üzünə baxıb ("bə sən bunu"...) bir söz tapmadı deməyə. İstədiyi söhbət alınmamışdı. Kimisə sorğu-suala tutmaq bəlkə də ilk dəfə ona iyrənc gəldi. Eləcənə bir-birilə bir-iki kəlmə tamam dəxli olmayan məsələlərdən danışdılar:

– Rayona gələndə bir görük. Yerimi ki, bilirsən. Təzə hind filmi gətiriblər, bir yerdə gedərik.

– Gedərik, Mübariz... Mən qoyunları tala tərəfə apacaqdım. – Yalan deməyindən utanıb az qala qızaran Bəhram üzünü yan tutaraq oturduğu daşın üstündən qalxdı.

"Eh!.." – eləyib Mübariz daha bir kəlmə danışmadı. Elə həmən axşam qayıdıb rayona getdi.

* * *

... İndi Bəhram kişi F.Q.-yə Mübariz barədə "Mübariz yaxşı kişidi" deyəndə nəyi nəzərdə tuturdu, nə üçün belə deyirdi – bunu, axtarsan, özü də bilmədi. Sadəcə, Bəhram kişi həmişə istəmişdi ki, adamlar arasında dil-könül birliyi olsun, hamı bir-birinin dalınca ancaq xoş üzlə baxsın və hamı bir-birinə xoş sözlər desin.

"Nədi Mübarizin yaxşı adam olmasının sübutu?" sualına isə həmən gecə yerində ora-bura çönən, gözlərinə yuxu getməyən və yata bilməyən Bəhram kişinin birmənalı cavabı yox idi. Mübariz uzun bir müddət idi ki, köçüb kəndə qayıtmışdı, arvadı, uşaqları... sovetin sədri idi, Bəhram kişi isə altmışı çoxdan keçmişdi, amma ailəsi – arvadı, colma-cocuğu yox idi, buna heç əvvəldən həvəsi də olmamışdı, "külfət, arvad, uşaq... yox, yox, sən Allah, başqa şeydən danışaq", təkidlə onu evləndirmək istəyən atası Qəmər çoban vəfat edəndən sonra daha heç kimi aldatmağa ehtiyac qalmadı, özü üçün yaşayırdı,

bir də arıçılığını edirdi, çünki Bəhram kişi arıçı idi, özü də yaxşı arıçı idi. Xatırlamağa çalışdı, daha nə idi Mübarizlə onu birləşdirən? Keçmişin xatirələri deyildi, heç biri bir dəfə də olsun o məktəb günlərini yadına salmayıb (başına vurmayıb!). Amma yox. Yalnız Mübarizin uzun burnu hərdən-birdən onun xatirinə həmən o qəmli sevgi hekayətini gətirib salırdı. "Mübariz hər şeyi xarabladı, eh, Gülsüm Gülsüm... Kəhrizli arx, Dəyirman yolu, o günlər, məktəb illəri, qoyun otardığı yerlərin gecələr az qala yer üzünə tökülüşən ulduzları, yenə Gülsüm, Gülsüm..." Mübariz isə bilir, ürəyinin bir küncündə, dərin bir yerində bilir ki, günahı var, bu onun üz-gözündə yazılıb, yazılmamış olurmu? Mən belə qaldım. Gülsüm mənə əl yelləyib çıxıb getdi. Getdi özü bilər, mən isə... Gülsümsüz mənə həyatmı vardı?! Eh, hayıf, çox hayıf. O gün o yolu Kəhrizli arxa qədər Gülsümün dalınca düşüb getməsə idi... İndi nə isə dəyişmiş olardı, yoxsa...?! Gülsüm, Gülsüm acı, yox, əlbəttə, artıq acı yox, şirin bir xəyal kimi həmişə onunladır. Bu gün də Gülsüm onun addımlarını ölçüb-biçir, hərəkətlərini tənzim edir, səhər yuxudan durandan ta gecəyə qədər qulağında səsi ilə, gözündə vücudu ilə, qəlbində rahatlığı ilə onun qulluğundadı, onu danlayır, öyür, onunla qürrələnir, qüssəyə batır... Gülsüm tez-tez belə deyir:

– Mən yanında olmasaydım, bilirsənmi, sənə bir adam dözməzdi, sən bunu bilirsənmi?

– Bilirəm. – Bəhram ona cavab verir, dodaqaltı qımışır, "sənsiz mən batıb gedərdim", ürəyində öz-özü ilə danışır.

Gülsüm isə çoxdan ailə qurmuşdu, oğul, nəvə (iki qız nəvəsi vardı) böyüdə-böyüdə, yəqin ki, o da qocalmışdı. Hər halda Mübariz də, Bəhram da qəlbinin gizlinində buna ən azından ümid edirdilər. Gülsümdən çoxdandı heç bir səs-səda yox idi. Atası Əryən kişi öləndən sonra (qırxından, ilindən sonra) kənddəki evlərinin qıfılı bu günə qədər açar görməmişdi. "Qocalıb, qocalıb yəqin..." Gülsüm gözəl, Gülsüm gənc qalsaydı, ədalətsizlik olardı (ədalətsizlik, özü də bu boyda?? Onlar qocalsın, o yox??). Mübarizin hərdən Bəhrama məlul-məlul baxan gözlərində bu yazılırdı.

"Amma yox, Mübariz dilinə bir kəlmə söz gətirməsə belə, Mübariz yaxşı adamdı. Şübhəsiz, özünü mənim yanımda günahkar sayır, üz-gözündən mən onun ürəyini oxuyuram, sayır. Bu mənə bəsdi."

Körpü üstündəki təsadüfi görüşdən sonra (təxminən, iki il sonra – Gülsüm bu zaman artıq ərə getmişdi, daha sonra eşitdi ki, bir övladı da varmış) Bəhram Gülsümü bir dəfə də görəsi oldu. Bakıda qohum toyu vardı, Qumral əmisinin oğlu qızını ərə verirdi. Bəhram restorana gələndə dəm-dəsgah, büsat onu əməlli-başlı çaşdırdı, ger-geyimli qonaqlar, xidmətçilər, musiqi, hay-küy... Restoran toyları təzə-təzə dəb düşürdü. Ağız deyəni qulaq eşitmirdi. Uzaqda, yaxında gülən, gülüşən, badə-badəyə vuranların tanış simaları (bəziləri nə zamansa kənddən çıxıb çoxdan şəhərli olmuşdular) diqqətini cəlb edir və bu təmiz, səliyqəylə geyinmiş, üzü-gözü sevgi dolu (əlbəttə, bu sevginin yaranmasında içilən arağın da "xidməti" vardı) adamlara baxa-baxa Bəhram düşünürdü ki, nə yaxşı onun qohumları, tanıdıqları, lap elə tanımadıqları bu adamlar bir-birilə bu cür mehribandılar, səmimiyyətlərini qoruyub saxlaya biliblər, bir-birilə ərklə, canyananlıqla söhbət edir, çörək kəsir, bir-biri qarşısında bu adamların alınları açıq, üzləri ağdı. Nə yaxşı, nə yaxşı..."Zəmanə zəmanə deyil, Allah çox görməsin, qorusun bizi öz birliyi xatirinə..."

Toy yavaş-yavaş qızışırdı. Nəfəs dərmək, içəridəki musiqili hay-küydən, boğanaqdan heç olmasa qısa bir müddətə can qurtarmaq üçün Bəhram qalxıb vestübülə çıxdı. Gözləri ora-bura baxa-baxa tanış axtardı, tapa bilmədi, elə bu zaman sola dönərkən az qala onunla (Gülsümlə) toqquşdu. Yanında qalstuklu – kostyumlu, balacaboylu, yaşlı (saçları gicgahdan təzə ağarmağa başlamışdı), amma şux bir kişi vardı, Bəhram əvvəllər bu adamı heç vaxt görməmişdi, amma: "suyu şirin gəldi, yəqin ki, əridir". Gülsüm onu görəndə yanaqları qəfil allanmadımı, allandı (bircə əvvəlki təbəssümü üzündə yox idi, amma təbəssümsüz də Gülsüm həmənki Gülsüm idi, "bu qız hər dəfə bir az da qəşəngləşir"). Gülsümün əynindəki qızılı həşyəli qara paltarı, boynundakı iki qatar mirvarisi ona çox yaraşırdı. Bəlkə də görməməzliyə vurub Gülsüm yan keçmək istərdi, amma mümkün olmadı, göz-gözə gəlmişdilər, yaxşı düşməzdi, ayaq saxladılar, salamlaşdılar:

– Tanış olun, – Təkidlə Bəhramın üzünə baxmayan Gülsüm ərinə onu dilucu təqdim etdi. – Qəmər əmimin oğludu, Bəhram. Kənddə yaşayır. Bir sinifdə oxumuşuq. Bu da...

– Tay denən qohumuq ki... Mən də Varis müəllimin oğluyam, bu xanım da ayıb olmasın (niyə?) bircə övladımızın anasıdı. Səyyaf müəllim. – Varis əminin oğlu (üzügülər adam idi) şəstlə əlini ona uzadıb özünü təqdim elədi.

– Bəhram. – Bəhramın uca boyu, elə bil, balacalaşdı, bunu özü belə elədi (Səyyaf müəllimin balaca boyundanmı utandı?). Onlar bir-birinin əlini sıxdılar. Bəhram çalışdı, üzünə bir təbəssüm yapışdırsın (qədim zamanlarda yeri gələndə Gülsümdən təbəssüm borc alardı), alındımı, alınmadımı – bilmədi. Gülsüm (“ eh!..”) dodağını dişlədi. “Deməli, alınmadı”.

– Çoxdan gəlmisən? – Səyyaf müəllim Bəhramla min ilin tanışı kimi danışmağa başladı.

– Toya? Hə, bir az var. Gurultudu yaman. Dedim, çıxım bir nəfəs alım... – Ürəyi ata-ata Bəhram üzünü Gülsümə tutdu, amma gözlərinə baxa bilmədi. – Necəsən, nə təhərsən? Uşaqlar, Varis əmi?..

– Yaxşıyam. Hamı yaxşıdı. Sizlərdə nə var, nə yox?! Qohumlar, tanışlar, dostlar necədilər?.. Pəri nənə durur? – Bəhram “dostlar” sözünün xüsusi vurğusunu hiss eləmədi.

– Durur, durur. Hamısı yaxşıdı. Salamları var. – Bəhram gizli eyhamı, əlbəttə ki, anlamadı.

Səyyaf müəllim əli ilə qalstukunu düzəldə-düzəldə başını döndərib həvəslə sağa-sola baxır, qohum-tanış axtarırdı. İçəridən gələn musiqi səsi, adamların cani-könüldən oynamaları (indi qocalı, cavanlı, arvadlı, kişili məclis əhli əl tutub yallı gedirdi) onu cuşa gətirir, qanını coşdurur, toy zalına çəkirdi.

– Yaxşı, Bəhram, deyirəm, onsuz da gecikmişik, biz, deyirəm, keçək içəri. Bir biz tərəfə də görün. Görüşərik. Keçək içəri, Gülsüm?

Onlar içəri keçdilər. Bəhram cibindən dəsmal çıxarıb alnının tərini silmək istəyəndə barmaqları titrəyirdi.

Bu “Gülsüm” söhbətini burada bitirmək də olardı. Amma... Bir məqam da oldu, o məqamsız mümkün deyil.

... Bəhram yerinə qayıdanda gördü ki, Gülsüm və əri Səyyaf müəllim ondan bir stol o tərəfdə oturublar – üzü Bəhrama sarı. Səyyaf müəllim yanında bir həmsöhbət tapmışdı, başı bərk qarışıq idi, yeyirdi, içirdi, badə-badəyə vururdu. Bəhram calışdı, onlarla üz-üzə, göz-gözə gəlməsin, o tərəfə çalışdı,

baxmasın. Beynində veyil-veyil gəzən bir fikir isə ona bu toy məclisində heç cür rahatlıq vermirdi, qəlbini əzirdi. "Noldu bə bu qızın o gülüşü? Hanı Gülümsər Gülsüm? Bunun dodağının ucu da qaçmır ki. Elə bil, ömrü boyu bir dəfə də gülüb eləməyib. Bu niyə belə oldu?" Bəhram "lənət şeytana!" xəlvətə salıb Gülsüm tərəfə gizli bir nəzər yetirdi, tez də baxışını çəkdi, "elədi ki, var – gəmiləri batıb".

Doğrudan da, Gülsümün üzündə təbəssümdən əsər-əlamət, ciddilikdən başqa isə heç nə yox idi. "Hayıf, hayıf..."

... Toyun axırına az qalırdı. Xidmət edənlər stol üstə qabları o yan bu yan eləyib aş üçün yer düzəldirdilər. Elə bu zaman müğənni çox yanıqlı və tanış bir mahnını oxumağa başladı. Kimsə səndirləyə-səndirləyə bu mahnıya oynamağa qalxdı, alınmadı, çəkib apardılar. Mahnının belə sözləri vardı: "Apardı sellər Saranı..." Radio meydanında Gülsüm o tərəfdə – arvadların yanında, Bəhram isə bu tərəfdə – cavanların arasında bu mahnıya birinci dəfə orda qulaq asmışdılar, hər ikisinə elə gəlmişdi ki, bu mahnı ancaq onların mahnısı ola bilər, indi, bu saat Radio meydanında onlardan başqa heç kim yoxdur. Hamı harasa, bax, uçdu, getdi, ancaq onlardı, bir-birindən gözlərini çəkə bilmirlər. Heyran-heyran bir-birinə baxmaqdan doymurlar. Baxışlar danışır, yorulur, könüllər danışırdı. Könüllər yorulur, yenə baxışlar danışırdı. Allah, Allah, yəni, bu anı, bu məqamı tutub saxlamaq olmazdımı? Amma bəlkə də o an donub, bizim xəbərimiz yoxdu, o uzaq Radio meydanında o an donub indiyə qədər qalıb, niyə də yox?! Ancaq onların mahnısı, ancaq onların anı! Başqa bir kimsə o anın içində qalmayıb. Hamı uçub, uçub harasa gedib. Sonra (mahnı qurtarandan sonra) isə hər kəs yenidən Radio meydanında peyda oldu, hamı öz yerinə qayıtdı. O mahnının onları belə bir hala salmasını ikisi də qəlbinin ən dərin yerində bərk-bərk gizlətdi və bu barədə bir-birinə heç zaman bir kəlmə söz demədilər. İndi bu haylı-küylü toy məclisində o uzaq və qəmli mahnıya qulaq asa-asa Bəhramın qəlbindən döyünə-döyünə yenə qəribə hisslər gəldi keçdi: "apardı, apardı sellər Gülsümü, apardı..."

Bu dəfə qəfildən üzünü döndərib baxışını qaçırmadan Gülsümə baxdı. Damarında qanı donmadımı, dondu. Gülsümün üzünün rəngi geyindiyi paltarın rənginin tam əksi olmuşdu. Paltar qızıl həşyəli qara paltar idisə, Gülsü-

mün rəngi indi bəmbəyaz idi. Gülsüm qüssə və həsrət dolu yaşıl (mavi, bənövşəyi?...) gözlərini dikmişdi düz onun üzünə və... Gülsüm sakit-sakit gülümsəyirdi. Baxırdı və gülümsəyirdi. Təbəssüm yenə kəpənək kimi onun titrək dodaqlarına uçub qonmuşdu. Gülsüm eynən məktəbdəki kimi, eynən məxsusi onun üçün gülümsəyirdi. Onlar yenə təkcə qalmışdılar. Mübariz də hələ Kəhrizli arxın körpüsü üstdə o axmaq sözlərini deməmişdi. Radio meydanında o əlçatmaz vaxtda olan kimi bütün bu toy camaatı – bəy və gəlin, qonaqlar, müğənnilər, musiqiçilər, xidmətçilər, lap elə mahnıya qulaq asa-asa kədərli gözlərini bilinməz, uzaq bir nöqtəyə dikib siqaretini acgözlüklə tüstülədən, üzü qıpqırmızı qızarmış Səyyaf müəllimin özü, bir sözlə, hamı, hamı harasa uçub getmişdi, ərimişdi, yox olmuşdu. Gülsüm sakit-sakit, açıqca bir həsrətlə ona baxır, gözlərilə "bilirsənmi?" soruşur və öz incə, kəpənək təbəssümü ilə gülümsəyirdi. Bu bir vida təbəssümü idi. Son dəfə. Məxsusi onun üçün.

Vəssəlam. Bu dəfə, həqiqətən, vəssəlam.

# III fəsil

*F.Q.-nin kəndə gəldiyi günün səhəri*

Hava burda şəhərdə olan kimi qəfildən işıqlanmadı, tədricən işıqlandı. Ətraf, səmanın qaranlığından sakit-sakit sıyrılıb çıxdı. Dağ, yol, cığır, kəndin orda-burda evləri yavaş-yavaş görükməyə başladılar. Ulduzlar göyün təkinə çəkilmişdilər və hava hələ sərin idi (havada şax bir sərinlik vardı). F.Q. həyətə çıxan zaman üşüyən kimi oldu (əyninə bir şey almamışdı, alt köynəkdə idi, bircə şalvarını geymişdi), daha ləngiməyib cığırla ayaqyoluna tərəf tələsdi. Arılardan hələ ki bir xəbər yox idi. Havadan yüz cür ətir gəlirdi, təzə günün başlanğıcında min il bundan əvvəl olan kimi balaca quşlar yenə də aramsız-aramsız cividəməyə başladılar...

F.Q. getdiyi yerdən qayıdıb artırmaya çıxdı. Əsnəyib gərnəşərək Qara-ğaca tərəf göz gəzdirdi, yumruğu ilə sinəsinə döyüb birdən donub qaldı. Bəhram kişi artıq Balacanın altında idi; köynəyinin üstündən qolsuz kürkünü geymiş, alabəzək araxçınını başına qoymuş, samovarla əlləşirdi. Samovarın kömürü közərməyə başlayırdı, Bəhram kişi əyilib dibinə bir də üfürdü. Maşa ilə samovarın borusunu (dudkeşini) götürüb yerə qoydu, bu biri tərəfdən qəhvədana quru çay tökdü, üstünə qaynamış su aldı, qəhvədanı təzədən sa-movarın təpəsinə yerləşdirdi, yerini düzəltdi, sonra əli ilə belini tutub dikəldi, yenə də ucaboylu, yaraşıqlı kişiyə döndü. Hardan bildi, F.Q.-nin artırmada durub ona tamaşa etməsini – azacıq F.Q.-yə tərəf çevrilərək (bir gözü samo-varda) sabah-sabah gümrah (?) bir səslə onu salamladı:

– Ay, sənin sabahın xeyir olsun. Necə yatdın?

–Sabahın xeyir, Bəhram dayı, yaxşı yatdım, çox yaxşı... Sağ ol.

Bəhram kişi çayın dəminə baxa-baxa məmnun halda başını tərpətdi:

– Soyuq vurar, balası, sabah-sabah hava hələ sərin olur. Əyninə bir şey al, bura gəl. Çayımızı elə burda içək. Nə deyirsən?!

"Gözəl olar", F.Q. öz otağına keçib yol çantasını açdı. Üzqırxanı, darağı, odekalon şüşəsini, diş pastasını və fırçasını çıxartdı. Ətrafa boylanıb çarpayının baş tərəfində dolab vardı, o dolaba bunları düzdü. Sonra pal-paltara, köynəyə, corablara baxdı, əlləşdirdi, ürəyi qısıldı: "Qoy elə çantada dursunlar". Bircə cemperini çantadan çıxartdı. Köynəyinin üstündən geydi, "ağa deyir, sür dərəyə, sür dərəyə!", qara cemperdi, əyri qırmızı zolaqları vardı. Professoru xatırladı: "Oralar sərin olur, yay səni aldatmasın, əynini isti elə".

Hava bir az da işıqlandı. Günəşin hənirtisi uzaqdan (üfüqdə, hələ ki, qızartı şəklində) gəlməyə başladı. Qarağacın qaranlığa qərq olmuş budaq və yarpaqlarının ağırlığı elə qaranlığın özüylə əriyib gedirdi. Onların arasına yavaş-yavaş işıq girirdi. İşığın onu bürüməsilə ağac, elə bil, yuxudan oyanırdı. F.Q. Balacaya yaxınlaşanda Bəhram kişi əlindəki əski ilə Balacanın altındakı taxtın üstünü və qarşısındakı mizi şehdən təmizləyib qurtardı:

–Otur, otur, silmişəm, qurudu.

Budaqlar yarpaq-yarpaq tərpəşdilər. F.Q. dünən gecəki yerinə keçib oturdu. Yenə ləzzətlə əllərini açıb gərnəşdi, əsnəməyi gəldi. Əlini ağzına tutdu. Bütün bu "vacib" işləri görəndən sonra:

– Kömək edim sənə? Mən də bir iş görüm... – Birdən anladı ki, bu axı düzgün deyil, Bəhram kişi ora-bura vurnuxur, o isə rahat-rahat oturub yemək, çay gözləyir. Anası belə vaxtlarda onun barəsində deyərdi: "ver yeyim, ört yatım, gözlə, canım çıxmasın". Amma ora şəhərdi, öz evidi, bura isə...

–Bəhram dayı!..

– Otur, sən otur, balası, sənlik bir iş yoxdu. Çay hazırdı, lavaşı sulamışam, pendir, yağ da... budu burda. Heç darıxma...

Hardansa əlini atıb (samovarın arxasından) içində yağı, pendiri bir qab çıxardı, mizin üstünə qoydu.

Yenə Professor gəldi düşdü F.Q.-nin yadına. F.Q.-nin dodağı qaçdı. Professor az qala qibtə ilə deyirdi: "Bu Bəhram kişi çox alicənab adamdı, nə lazımdı edəcək, sənin heç nədən əziyyətin, korluğun olmayacaq. Havası təmiz,

buralara (Bakıya) bənzəməz, sakitlik, sakitlik, gözəl təbiət, bir də, ən əsası, oğul, sevdiyin iş... Daha nə istəmək olar Allahdan?"

Bəhram kişi gedib evdən yenə nə isə gətirib gəldi. Bir əlində masxoranın içində kəhrəba rəngində bal idi, o biri əlində isə yarıyaş dəsmalın arasındakı yuxanın bir qırağı görünürdü. Bəhram kişi balı gizli bir təmtəraqla mizə qoydu (toylarda plov belə gələr) və dedi:

– Hə, indi başlamaq olar. Amma... bax, bəlkə sən səhər-səhər nəsə başqa bir yeməyə alışmısansa, söylə. – Bəhram kişi həqiqi bir narahatçılıqla soruşdu.

– Yox, Bəhram dayı, sən nə danışırsan, bundan gözəl nola bilər?! Bunlar şəhərdə tapılmır. Hər şey təptəzə, hələ balın ətrinə bax. Bəhram dayı, mən birinci dəfədi görürəm ki, balın ətri var.

F.Q.-nin sözləri ona ləzzət elədi. Bal, doğrudan da, Bəhram kişini qonaq-qara qarşısında dik saxlayan əsas qürur mənbəyi idi.

– Bu balı hər səhər yeyəcəksən (bilinmədi təklif edir, yoxsa təkid), heç bir xəstəlik səni tapmaz, öz balımdı, istəyirsən pətəyini göstərim?! Odu bax, pətəklər orda! Pendiri də özüm tutmuşam. İnək pendiridi. İnək mənim deyil, Müzəffərindi. – Gözündə təbəssüm Bəhram kişi səliqə ilə böyük stəkanlara çayları süzdü, qəndqabını F.Q.-yə tərəf sürüşdürdü. – Çayını şirin elə.

Təmiz dağ havası səhər yeməyinin belə ləzzətli olmasının bəlkə də ən vacib şərtiydi. "Hava... havası buranın müsibətdi". F.Q. qəribə, özünə də tanış olmayan bir iştahla səhər yeməyinə girişmədimi, girişdi. Yağı bala, balı yuxaya, üstündən də bu ləzzətli pendir... Hətta şirin çayın belə bu Qarağacın altında şirinliyi bir başqa idi.

F.Q. yedikcə doymurdu, "görəsən şəhərdə adamın boğazı səhər-səhər niyə bağlanır?!" Ürəklə, iştahla yeyirdi. Ona xüsusi bir nəvazişlə baxan Bəhram kişiyə elə bu lazım deyildimi, altdan-altdan F.Q.-ni süzür, məmnun-məmnun və qurtum-qurtum öz çayını içirdi.

– Bir stəkan da şirin çay içərsənmi? – Bəhram kişi balı F.Q.-yə tərəf itələyib soruşdu.

Yeməyi yeyib bitirirdilər. F.Q. son tikəsini (pendir içində yuxa idi) ağzında çeynəyə-çeynəyə:

–Sağ ol, – dedi və stəkanı bir qırağa çəkdi. – Mən yox!

–Niyə? O zaman acı çay iç. Balnan. Bilirsən nə xeyri var?!

–...

–Hə, yox?

–Nə deyim?! Yarım stəkan...

Bəhram kişi stəkana yenə çay süzdü, bu dəfə bir az tünd elədi. Bunlar acı çayı içə-içə (şirin çaydan sonra acının da ayrı ləzzəti olurmuş) gördülər ki, günəş artıq yarıyacan özü-özünü doğub bitirib, işığını, istisini, bu gün onlara, elə bil, daha tez (və daha səxavətlə) göndərmək istəyir: "İsti olacaq, yandıracaq..."

– Yerin, deyirsən, narahat deyildi, eləmi?! – Bəhram kişi baldan qaşıqlayıb bir daha soruşdu:

–Yox, lap əla idi.

–Səhər tezdən durmaq adətindi? Mən dedim, yorğunsan, hələ yatassan.

–Yox, mən elə şəhərdə də, yorğun oldum, olmadım, tezdən dururam.

Bəhram kişi razılıqla başını tərpətdi:

– Deyir, gecənin xeyrindən səhərin şəri yaxşıdı.

– Hə, elədi... Bəhram dayı, mağara burdan çox uzaqdı? – Yavaş-yavaş səbrsizliyi güc gələn F.Q. Vəng dağına tərəf baxdı və yeməyə başlayandan dilinin ucunda hərlənən sualı, nəhayət ki, verdi.

– Yox, çox uzaq deyil, bax, o cığırı görürsən, onun yanına aparır. – Bəhram kişi əlini uzadıb həyət boyunca bayır tərəfdən üzüyuxarı gedən (Vəng dağına qalxan) yarıkeçəl, yarıyaşıl cığırı F.Q.-yə göstərdi, – ora, ora bax, gördün?

Eynən Qarağac kimi işıq içinə girən Vəng dağının bu səhər (bütün başqa səhərlərdə olan kimi) dünənki vahiməsi uçub getmişdi, düzdü, yenə, həmənki dev idi, böyrü üstə uzanmışdı, amma bu dev səhər-səhər bir uşaq devə oxşayırdı, yatmaq istəməyən və Çoban papağı ilə oyuncaq kimi oynamaq istəyən, diqqətlə onu gözdən keçirən uşaq bir devə.

Bəhram kişinin göstərdiyi cığır həyətin yanından keçir, burulub-düzəlib daşların, kol-kosların arasıyla, təxminən, iyirmi metrə yolu birnəfəsə yuxarıya – bu devin qarnına tərəf qalxıb, sonra qəfildən sola, Quzğun dimdiyinə sarı dönür-

dü, dönən kimi də yox olurdu, cındırış (süngür) kollarının arxasında gözdən itirdi.

– Nədi, tələsirsən? – Bəhram kişi sınayırmış kimi, amma F.Q.-dən cavab gözləmədən soruşdu, sonra çaydan qurtum alaraq arxayın-arxayın, – tələsmə... – dedi. – Hər şeyin öz vaxtı var.

F.Q. maraq və heyrətlə dağa qalxan cığırdan gözünü çəkmir, ovsunlanmış kimi baxdıqca baxır, elə bil, özü də o cığıra düşüb üzü yuxarı, təngnəfəs dağ döşünə qalxırdı. Uzaqdan hiss olunmurdu, amma yoxuş çox ağır yoxuş idi, dik yoxuş idi.

– Bir dəfə məndən sizinkilər soruşdu ki, gecələr qulağımıza zarıltı səsi gəlir, bəlkə, pişikdi, ağlayır?! Gecələr, dedilər, şəhərin köhnə məhəllələrində belə olur...– Bəhram kişinin gözünün dibinə təbəssüm çökdü, gülməyini saxladı. – "Pişik ağlayır". Dedim, a bala, burda həyət-bacada pişik nə gəzir, olsa-olsa, kiminsə evində olar, o da ki, ağlamaz. Qulağınıza səs gəlibsə, dağdan-daşdan gəlib, qurd-quş səsi olar...

Bəhram kişi gözaltı (guya sınayırdı) F.Q.-yə baxdı. "Bir şey bu da eşidib, yoxsa..."

F.Q., həqiqətən, Bəhram kişinin ürəyinə yatmışdı. Tərbiyəli, qanacaqlı, bilikli, sərtliyi də vardı – sərt, dərinində isə mülayim, ürəyiyuxa bir gənc idi, oturmuşdu qabağında, fikirli-fikirli çayını içir, Çiçəkli yazını düşünürdü. İşinə, sənətinə vurğun birisi idi, "bir balaca da, deyəsən, heysiyyətlidi, təşəxxüslüdü, nolar, olsun... Oxusa da qoy bu oxusun. Nə olacaqsa onsuz da olasıdı. Əvvəl-axır bu yazını oxuyacaqlar. Qoy elə bu oxusun!". Mağaranın ruhunun müdhiş səsi yenə gicgahında guppuldadı: "Heç kim bura sən olmadan girə bilməz, heç kim! Yadında saxla! Naxışlara isə əl dəymək heç olmaz. Hamıya söylə. Əməl etməyən öləcək!". Bu səsi xatırlayan Bəhram kişinin tükləri yenə biz-biz oldu, qanı az qaldı damarında dona. "Nə olacaqsa olsun. Bircə əlini naxışlara sürtməsin, yetər. Özüm qoymanam. Vacib ki, deyil. Bunsuz da keçinər, oxuyacaqsa, oxuyacaq. Bircə tez olsun, axır ki, oxunsun bu yazı, hər şey bitsin".

Bəhram kişi mövhumatçı olmasa da Mağaranın ruhuna inanırdı. İnanırdı ki, Mağaranın ruhunun təhdidi elə-belədən deyil. Yox, ona görə yox ki, Qulam-

hüseyn müəllim əlini naxışlara vurandan sonra necə ki ruh demişdi, elə də oldu – dünyasını dəyişdi, qəfildən, bir gecənin içində öldü. Bəhram kişini ruhun təhdidinə inanmağa məcbur edən, qanını damarında donduran ruhun onun beyninə göndərdiyi o qəribə səs idi – bu səs müdhiş idi, vahiməli idi. Mağaranın ruhunun mis kimi cingiltili, hardan dolanıb gəldiyi bilinməyən bu vahiməli səsini Bəhram kişi yadına salanda kefinə əməlli-başlı soğan doğrayırdılar.

Fikri-zikri Çiçəkli yazının yanında olsa da F.Q., elə bil, Bəhram kişinin nə barədə düşündüyünü ürəyilə duydu:

– Sənin yadında olar, Cəfər müəllim vardı, ilk gələnlərdən idi, yazının şəklini kağıza köçürmüşdü, yadındadı? Qaraqabaq bir adam idi...

– Yadımdadı. Allah rəhmət eləsin. Professor ikinci dəfə gələndə danışdı mənə. Niyə elə oldu?

– Heç nədən getdi. Maşın düz evlərinin yanında vurdu onu. Yerə yıxılmağıyla ölməyi bir olmuşdu, rəhmətlik...

Bəhram kişi baxışlarını gizlətdi:

– Həyatdı... "Onun da barmaqları naxışların üstü ilə çox gəzdi, ax, ax..."

Günəşin artıq istilənmiş şüaları Qarağacın yarpaq və budaqlarından sürüşə-sürüşə gəlib onların üzünə, başına toxunurdu. Yaşıl yarpaqların arasından mehriban-mehriban süzülən işıq dəcəllik edib gah ordan, gah burdan ayna kimi göz qamaşdırırdı. Bəhram kişi üzünü F.Q.-yə tutdu:

– Mənim sənə deyəcəyim var. Amma gərək söz verəsən, dediyimə əməl edəsən.

– Əlbəttə, Bəhram dayı, o nə sözdü, heç şübhən olmasın, – F.Q. Bəhram kişinin səsindəki ciddiliyi duydu və özünü yığışdırdı: "Təki elə xahiş edəydi ki, yerinə yetirə biləydim, xəcalətli qalmayaydım..."

Ciddiləşmiş Bəhram kişi heç nə soruşmadan əvvəlcə qalxıb özünə də, F.Q.-yə də çay süzdü. Qəlbinin dərinliyində isə yenə tərəddüd edirdi. "Deyim, ya deməyim? Əgər desəm, uşaq hər halda bunu bilsə, faydası var. Ehtiyatlı olar. Amma birdən sözümə gülərsə? İnanmazsa? Bu, oxşayır, inadcıldı, tərsliyindən gedib bilərəkdən bircə-bircə naxışlara toxunar, ("Bəhram dayı, sən dünyanın bu vaxtında belə şeylərə inanırsan?" F.Q.-nin səsini Bəhram kişi az qala

qulaqlarıyla eşitdi) onda necə?! Sonrası nə olacaq?! Bunun da başına əgər bir iş gəlsə..." Bəhram kişini, elə bil, cərəyan vurdu, xəyal onu apardı, fikri qarışdı.

... F.Q. yataqda uzanıb qızdırmadan yanır, sayıqlayırdı. Bəhram kişi yaş dəsmalı onun qızmar alnına sürtə-sürtə yanında aciz və naçar durub qalmış Mübarizə pıçıldadı:

– Yox, Mübariz, bu xına o xınadan deyil. Gərək bu barədə danışmayaydım. Demişdim axı, tərsdi bu. Elə tərsliyindən əlini vuracaq. Şəhərə xəbər verə bilsəydik... Şiraz nə vaxt gələr, itdi bu, batdı bu? Başqa vaxt...

Şiraz kəndin "həkimi" idi. Əslində, Şiraz həkim deyildi. Atası Seyid Cəfər məktəbdən sonra onu rayon mərkəzinə baytarlıq öyrənməyə göndərmişdi, amma nahaq yerə göndərmişdi, Şirazdan qoyuna, mala baxan çıxmazdı, necə ki çıxmadı, Şiraz həkimlik eşqilə yanırdı, kəndə rəsmən baytarlıq etmək üçün qayıdıb gəlsə də, özü-özünü həkim kimi aparır, hamının səhhətilə dönə-dönə maraqlanırdı. Camaatın əvvəl-əvvəl zəhləsini töksə də atası Seyidə görə ("Bir ağılsız övladım var, yola verin, Allah bilən məsləhətdi...") yavaş-yavaş hamı başladı bunun səhhətlə bağlı nahamvar suallarına birtəhər cavablar verdi. Bir dəfə isə o, əlini aparıb başının ağrısı nə vaxtdı (uzun müddət) heç cür kəsməyən Allahverdi kişinin (kənd soveti sədrinin) alnına dayadı. Nə deyirsən, kişinin başağrısı keçmədimi, keçdi, gözlərinə işıq gəlmədimi, gəldi. İnandılar, elə bil, bir-birinə söz verib unutdular ki, Şiraz həkim deyil, Şiraz baytardır. Başı ağrıyan da, qarnı ağrıyan da artıq (həkim!) Şirazı axtarıb tapırdı. Adını Şiraz həkim qoymuşdular. "Həkim" sözünü bəziləri istehza ilə deyirdi. Çoxu isə onu həqiqi "həkim" kimi qəbul etdi – bu adamların gözündə o, uşağın da, böyüyün də işinə yarayan əsl həkim idi. İki il əvvəl isə (ilin qışı çox ağır keçmişdi, neçə gün sərasər qar yağmışdı, kənd də, dağ da, dörd ətraf da ağappaq dumanın içinə girib görükməz olmuşdu) qış vaxtı şofer Həsrətin balaca uşağı az qala öləcəkdi, qızcığaz qızdırıb yorğan-döşəyə düşmüşdü və titrədikcə titrəyir, hətta sayıqlayırdı, özü də elə şeylər deyirdi ki, ömründə bu qızcığaz onları öz-özünə biləmməzdi. Şofer Həsrətin doqquz yaşlı bu balaca qızı Humay haman Kəhrizli arxın kənarında qab yumağa gələn: "o adama deyin..." allı tuman geymiş qızlardan biri idi ("Atam bu gün yeməyini evdə, hamımızla bir yerdə yeyəcək"). Bu qız yatdığı yerindəcə çırpınıb özünü

o tərəfə, bu tərəfə vura-vura qapıbir qonşuları Əryən kişiyə yalvarıb qalmışdı "Əryən əmi, ay Əryən əmi, sən Allah, Seyidin nəzirini ver, qurban olum, Seyidin nəziri yadından çıxmasın..." Hamı evdəkilər çaşıb qalmamışdımı, çaşıb qalmışdı.

"Suda batan saman çöpünə əl atar", – xəbər göndərən kimi gərəkli olduğuna, işə yaradığına (bu balaca qızın xəstəliyinə – ?) ürəyində bərk sevinən Şiraz "həkim" dizə qədər qara bata-bata, üzü-gözü, əyni-başı qardan ağappaq, təngnəfəs gəlib şofer Həsrətgilə çıxdı. Dörd tərəfdən təəccüblü baxışların altında hamının əl üzdüyü bu balaca qızı eləcə əli ilə (özü soyuqdan titrəyə-titrəyə əlini onun alnına qoyub düz iki saat çəkmədi) sağaltdı. Qızın titrəməsi, istiliyi hara getdi, heç kim bilmədi.

Əryən kişi bəlkə on, bəlkə də on bir il bundan əvvəl dünyasını dəyişmişdi (balaca Humay doğulduğu gün və ay), buna görə də onunla Seyidin arasındakı söhbət artıq kənddə çox az adama məlum idi, balaca Humayın isə bundan xəbəri heç ola bilməzdi. Şofer Həsrət bərk fikrə gedib gənclik illərindən huşuna ilişib qalmış ayrı-ayrı, kəsik-kəsik xatirat qırıqlarını toplamağa, birləşdirməyə çalışdı.

... Davadan sonra ilk illər hamı elə bu əhvalatdan danışırdı. Kəndin hər yerində söhbətin canı bu idi. Əryən ağıllı-başlı müharibə iştirakçısı idi, davada olmuşdu. Amma dava qurtarandan sonra bir müddət gəlib kəndə çıxmadı, iki il keçdi, gərək ki, iki ildən sonra Əryən, nəhayət, geri döndü. Dediyinə görə onu Sibirə sürmüşdülər, dava qurtaran kimi "qandallayıb" birbaşa Sibirə – nədi, nədi, iki, ya üç ay nemes əsirliyində olub. Olub, olub da, qaçıb çanını qurtarıb ki... gedib Belarus partizanlarına qoşulub və davanın axırına qədər oralarda, o meşə sənin, bu meşə mənim, partizanlıq edib. Heç nəyi, ölümü belə gözünə almayan Əryən gör bir necə ürəklə partizanlıq edib ki, o tutulandan sonra uzaq Sibirə Belarusdan məktublar (məktub məktub dalınca) getdi. Əryənin dava yoldaşları onun barəsində bir çox yerə, tək Sibirə yox, elə Moskvaya da kişi kimi çox yaxşı şeylər yazdılar və... nəhayət, nəticəsi bunun o oldu ki, iki ildən sonra... Əryəni dustaqdan buraxdılar. Hərbi kitabçasını da, medallarını da (bir xeyli medalı vardı), dustaq olanda ondan alınan bəzi xırda-para əşyalarını da, hamısını qaytardılar. Əryən daha durmadı, təcili (bir neçə gün için-

də) qayıdıb kəndə gəldi. Üç gün evdən bayıra çıxmadı, hamının (ondan maraqlı dava söhbətlərini, davadan sonrakı macəralarını gözləyənlərin) səbr kasası daşmağa hazır olanda isə Əryən əsl qəhrəmanlar kimi birdən-birə Radio meydanında peyda oldu, qarşısına çıxan hər bir adamla ədəb-ərkan və mehribanlıqla görüşdü, həm dustaqdan qayıtması, həm də nişanlanması münasibətilə yaşlıdan-qocadan təbrik yığdı. Bir müddət (həqiqəti öyrənənə qədər) kənddə xəbər gəzdi ki, Əryənin Belarusda arvad-uşağı qalıb, bu gün-sabah onlar da gələcək (falçı Pəri qarı belə deyirdi). Əryənin atası bu sözü özünə əsl dərd elədi, işini, gücünü az qaldı buraxdı, işi isə onun çox ağır, çox məsul iş idi. Allahverdi kişi – Əryənin atası (kənd sovetinin sədri Allahverdi kişi yox, bu onun adaşı idi), rayon mərkəzindən öz kəndinə kəndin milisi təhkim edilmişdi. Niyə məhz o – niyəsini heç kim bilmirdi, hamı onu bivec, "ortada yeyib qıraqda gəzən" bir adam kimi tanıyırdı. Amma hamını mat qoyaraq Allahverdi kişi anadangəlmə axsaq ayağını çəkə-çəkə (elə adına da axsaq Allahverdi deyirdilər) Radio meydanındakı çayçıdan qalxıb aradan sürüşmək istəyən qaçaq Sultanın əyri-üyrü kənd yolu ilə qarşısında cin kimi zühur edib tir-tir əsməyinə, yalvarmağına baxmayaraq, əllərini arxadan burub öz əynindəki şalvarın qayışını çıxarıb bağlayıb tutuqlamamışdımı, tutuqlamışdı və bu hadisə kəndin (kimi deyirdi – şərəfli, kimi deyirdi – ləkəli) tarixinə əbədilik yazılmışdı. Qaçaq Sultan kəndin "bomju" idi, hamıya tapıb bir iş görərdi, tək-tənha bir adam idi, yaşayırdı yavaş-yavaş özü üçün, onu sevindirmək savab sayılırdı. Axtarışda idi, çünki müharibəyə çağırış alan kimi evindən, əslində, komasından, qaçaq düşüb çəkilmişdi Vəng dağına, çobanlıq etdiyi dərəni, düzü bir-birinə vurub hamıdan gizlənə bilmişdi: "adam öldürməmişəm, bundan sonra da öldürməyəcəyəm. Müharibə olmur, nə olur, olsun. Mən adam öldürməyəcəyəm".

Radio meydanındakı poçtxanaya axsaq Allahverdi tərəfindən tutulub gətiriləndən sonra (kəndin balaca uşaqları düşmüşdü bunların dalıyca, irəlidə bir əli ilə elə hey aşağı düşən qayışsız şalvarını tutub saxlayan Allahverdi kişi – qəhrəman kimi, dalınca da əlləri Allahverdi kişinin qayışıyla bağlı, başını aşağı dikib qaçaq Sultan məzlum-məzlum gedirdilər. Uşaqlar qışqırışırdı: "Qaçaq Sultan, qaçaq Sultan, məni də apar özünlə, ay qaçaq Sultan..."). Sultan Radio meydanında olanlara (üç-beş adama) güclə macal tapıb deyə bildi ki,

başqa niyyətim yoxdu, o Allaha and olsun, camaat üçün darıxıb gəlmişdim. Allahverdi kişi onu tutuqlayıb yük maşınının kuzovunda rayon mərkəzinə aparıb vayenkoma təhvil verəndə isə zır-zır ağlamağını heç cür saxlaya bilməyən Sultanın cibindən bir ovuc qənd çıxdı, çayxanadan götürmüşdü. Nə oldu, nə olmadı, bilinmədi – bir daha heç kəs Sultanı nə gördü, nə də Sultandan bir xəbər çıxdı.

Falçı Pəri qarı bir gün Əryənin atasına üzünü tutur ki, qorxma, oğlun sağdı, amma dərin bir quyunun dibindədi. Artıq Əryəndən ümidlərini üzməkdə olan ata-anası əlləri göydə qalıb Allaha dönə-dönə dualar edirlər. Təsiri olur. Müharibə bitəndən xeyli (iki uzun il) sonra Əryən, nəhayət ki, bir gün səhər çağı dönüb kəndə qayıdır. Müharibəni başından sonunadək kənddə keçirən axsaq Allahverdi kişi oğlu Əryən qaranəfəs evə girib çamadanını yerə qoymamış onun o üzündən bu üzündən öpüb ağlamsınır, daha evdə durmayıb gedir, ürəyinin ən böyük niyyətini həyata keçirir, elə həmən gün Əryənin elçiliyini edir. Qərəz... Əryən bir il sonra haman gülümsər Gülsümün (Mübariz: "Mənim onu xatırlamadığım vaxt olurmu?!") atası olur.

... Əryən əsir düşməyinin maraqlı bir tarixçəsi var idi. Müharibə zamanı günlərin bir dəhşətli günü göydən də, yerdən də od saçılırmış, sağ da, sol da məhv edilmiş dava yoldaşlarının cəsədi ilə dolu, onun özü isə dərin quyunun dibində (falçı Pəri qarı deyən kimi!), cəhənnəmin ən isti yerindəymiş. Bir onu bilir ki, gözünü yumub kəndlərində ağ saqqallı Seyid vardı – Seyid Cəfər, oğlu Şirazdan əvvəl kəndin həm həqiqi həkimi, həm bilicisi, həm də hər dərdə çarəsi idi. Ağır seyid sayılırdı, ona pənah gətirən heç zaman naümid, əlacsız geri dönməzdi. Əryən gözünü yumub, dörd ətrafını zor-güc unudub bu müsibətin içində Seyid Cəfərlə ürəyində danışmağa başlayır:

– Ya Seyid, sənin o gözəl cəddinə qurban olum, ya Seyid... məni bu cəhənnəm odunun içindən diri çıxart, səndən... başqa heç nə istəmirəm, bircə sağ-salamat qayıdım kəndə... Sənə ... sənə bir makintoş palto alacağam. Bircə sağ qalım... cəddinə qurban olaram... təki sağ qalım.

Aramsız avtomat atəşlərinin arasına girib oradan gah çıxan, hərdən də çıxa bilməyən bu sözləri tələsik deyən Əryənin gözü qarşısına yuxarıda, quyunun başında ona diqqətlə baxan Seyid Cəfərin ağ saqqallı nurani surəti

gəlir, Əryən zorla da olsa gülümsəyir (rəhmətliyin yeri gəldi-gəlmədi gülümsəməyi vardı – gülümsər Gülsümün atası deyilmiydi?!) və bundan sonra qorxudanmı, ya nədənmi, huşunu itirir. Ayılanda özünü sappasağ... amma əsirlikdə görür. “Nolsun, əsas məsələ sağ qalmaq deyilmiydi?! Seyid sağ olsun, onun cəddinə qurban olum”.

Belarusdan, Sibirdən üzü bu yana Əryən dolanıb-dolanıb sağ-salamat evinə geri dönür, artıq vaxt itirməyib (elə bil, kimisə ya o təqib edirdi, ya da kimsə onu təqib edirdi) evlənir, amma Seyidə verdiyi sözə əməl eləmir, ona vəd etdiyi makintoş paltonu almır, vədini “unudur”. Bir daş altda, bir daş üstdə – Əryən bu söhbəti bir adama açıb ağartmır: “Kim biləcək, tək bir mən bilirdim, başqa kim bilirdi ki?..” Özünü heç o yerə qoymur. Günlərin bir günü (geri dönəndən beş, ya altı ay sonra) isə Əryən dik-dik poçtun qarşısında (Radio meydanında) çayxanada çay içən kişilərə (kənd ağsaqqallarına) yaxınlaşır.

...Radionun xırıltılı səsi meydanı başına götürmüşdü. Çayxanaya daxil olub (“Lovğalıq bura qədər!”) Əryən ədəb-ərkanla hamıya salam verdi. Hamı da hörmətlə onun salamını aldı. “Sibirdən gəlib, əzab çəkib...” Onun salamını almayan tək bircə ağ saqqallı Seyid Cəfər oldu, Seyid üzünü yana çevirdi. Ortaya pərtlik düşdü.

– Seyid, sən bir ağsaqqal adamsan, cəddinə qurban olum, mənim günahım nədi, mənim salamıma niyə üz çevirirsən? – Hər şeyi unutmuş Əryən qaşlarını çataraq ürəyində tam bir arxayınçılıq Seyiddən ərklə soruşdu.

Seyid pəjmürdəhal və tələsmədən ağ saqqalını tumarlamağa başladı, susdu: “Cavab verməyəcəm, qoy qalsın nigaran”. Bu hamıya qəribə gəldi. İndi artıq təkcə Əryən yox, bütün çayxanadakılar bir-birinə dərin maraq və təəccüblə baxır və susub qalmış Seyiddən nəsə bir cavab gözləyirdi.

Seyid Cəfər görür ki, cavab verməsə taxsırın yiyəsi o olacaq, nəhayət, sirri açmaq qərarına gəlir:

– Get, – deyir, – sən yaxşı adam deyilsən.

– Niyə? – Yalnız indi Seyidin səsində nəsə duyub Əryənin dalağı sancır. “Quyu dibi” qəfildən gəlib yadına düşür. Amma artıq gec olur.

–Sən mənə palto söz vermişdin, makintoş palto, almadın.

Bu sözləri deyəndən sonra Seyid dərhal durub məclisi tərk edib getmək istəyir, bu zaman rəngi ağappaq olmuş Əryən az qalır huşunu itirsin (davada cəhənnəm içində olandakı kimi), güclə onu tutub altına bir kətil qoyurlar, özünü-sözünü bilmir. Seyid bunu görüb "lənət şeytana" geri dönür və gözlərini bərk-bərk yummuş (utanırdı, nədi?!) Əryənin gicgahına əlini tutub ovuşdura-ovuşdura bir az gözləyir, sonra deyir:

– Bir şeyi yoxdu, indi gələr özünə...

Handan-hana Əryən özünə gəldi, amma əvvəlcə dil-dodağı söz tutmadı. Allahverdi kişi (kənd sovetinin sədri) təlaşla soruşdu:

–Noldu, a bala, sənə?

Əryən dörd ətrafdan gözlərini qaçırıb "heç"... müqəssir adamlar kimi başını buladı. Bir müddət danışa bilmədi. Dili söz tutar-tutmaz Əryən hamının gözü qabağında düşdü Seyidin ayaqlarına:

– Ağa, sən olasan o cəddin, məni bağışla. Qələt eləmişəm. Bağışla məni... bağışla... – Əryənin gözündən yaş sel kimi axdı. Camaat qaldı mat-məəttəl. Məsələni açıb Əryən özü hamıya danışmağa başlayır. Seyid isə bir tərəfdə dinməz-söyləməz oturub çayını içir. Seyidin uzaq Belarus torpağında o vəhşətin içində quyu başında gözə görükməsi, Əryənin xahişinə səs verməsi, onu quyunun (ölüm quyusunun) dibindən çıxarması, vəd edilən hədiyyədən xəbərdar olması və hədiyyəsini (makintoş paltonu) bunca vaxt səbrlə gözləməsi hamını xeyli mütəəssir edir. Əryən "cəddinə qurban olum, sən ki məni eşitdin, sən ki, öz nurlu çöhrəni o quyunun başına göndərdin, ağa, mən sənin cəddinə qurban ollam"...

Səhərisi gün Əryən Seyid Cəfərə "cəddinə qurban olum" makintoş palto almaq üçün böyük bir həvəslə rayon mərkəzinə yola düşdü, orda o palto tapılmadı, Əryən durmayıb Bakıya qədər getdi. Dayısı oğlu Varislə Bakını bir neçə gün ələk-vələk edib Seyidin əyninə (Seyid çox arıq-sısqa birisi idi) təptəzə bir makintoş palto alıb iki gün dayısı oğlu ilə bir yerdə Bakını gəzdikcə gəzdi və geri döndü... Nəhayət, bir gün Əryən avtobusla dizində palto bükülü bağlama kəndə girən zaman avtobusun pəncərəsindən baxıb görür ki, bütün kənd düşüb bir tabutun dalınca Dəyirman yolu ilə kənd qəbristanlığına tərəf gedir. Camaat gecə ikən gözlərini bu fani dünyaya əbədi qapamış saleh əməllər sahibi Seyid Cəfəri basdırmağa gedirmiş. Seyidin makintoş paltosunu Əryən gözün-

də yaş, qəlbində dərin peşmançılıq aparıb oğlu Şiraza verir, halallığını ondan alır...

... F.Q. yataqda sayıqlayır, Bəhram və Mübariz isə məlul-məlul bir-birinin üzünə baxır, Bəhramın gözləri az qala dolub, Mübarizə bıçaq vursan qanı çıxmaz. Bu zaman Şiraz "həkim" özünü içəri salır, şad, gümrah səslə onları salamlayır:

– Salam, a kişilər, nə var, nə yox... (Sabahın bu vaxtı xeyirdimi, dalımca Tükəz qarını göndərmisiz?!...) Tezdən durana oxşayırsız, qonağımız da xoş gəlib, səfa gətiribdi...

Həyət qapısını Şiraz "həkim" bayır tərəfdən ancaq özü bildiyi üsulla yerindən tərpədib (laxladıb) açdı. Şiraz "həkim" həyətdə onları görüb birbaşa Balacanın altına gəldi. Mübariz harasa uçdu, yox oldu, F.Q. yenə sappasağ yemək mizinin arxasına, öz yerinə qayıtdı. Bəhram kişinin xəyalı bayaq göylər gəzirdi, indi qayıdıb gəldi Qarağacın altına. F.Q. ilə bağlı bir anın içində beynindən keçirdiyi bu qorxulu vəziyyətin (F.Q.-nin guya Çiçəkli yazının naxışlarına əl vurandan sonra xəstələnməsini, sayıqlamasını və s. və i.a.) bir xəyal, bir sayıqlama olmasına sevindi, rahat-rahat köks ötürdü; Şiraz "həkimin" gəlişinə ilk dəfə ürəyində "Allaha şükür" dedi.

– Ay Şiraz, ay Şiraz, gəl, gəl, xoş gəldin. Keç bura, otur, çay içərsən? – Şiraz "həkim" çaşdı. Bəhram kişi onu bu cür hörmətlə qarşılayıb miz arxasına oturdur, niyə görəsən, xeyir ola, onu bu dəfə bu cürənə isti qarşılayır, "bə həmişə niyə belə olmur?! Çünki heç vaxt axıracan mənə inanmayıb, atam Seyid Cəfərə isə ürəkdən inanardı. Bəlkə qonaq var, ondandı, amma həmişə nə deyər?! Başqa vaxt... get, ay Şiraz, get işinə, gücünə, heç bir yerim ağrımır, mənim görürsən ki, əlimdə işim var, sonra, sonra gələrsən... arı vurar, bizim arı pis vurur, deyər, arıyla qorxudar..." Üzünü, boynunu tor papağın içinə salıb, arıdəyməz əlcəklərini geyib arı pətəyinə əlini dürtən Bəhram kişi Şiraza çalışardı, belə vaxtlar üz verməsin. Üz versəydi, bilirdi ki, asan yolla canını qurtarmayacaq. Şiraz ilk öncə soruşacaqdı:

–Nə var, nə yox?

–Heç.

–Yenə olsun...

–Yenə heç.

Sükut. Bir xeyli belə keçəcəkdi. Sonra Şiraz "həkim" heç nə olmayıbmış (ilk dəfəymiş) kimi yenə soruşacaqdı:

–Daha nə var, nə yox? Bir yanın ağrımır ki?..

Artıq Bəhram kişi bu zaman əməlli-başlı hövsələdən çıxacaqdı. Şirazı incidən o namünasib sözlərini də elə bu zaman deyəcəkdi. Onları dilə gətirməmək üçün Bəhram kişi, əvvəlcədən "kəsib atırdı". Şiraz "həkim" illər boyu buna alışdığından Bəhram kişinin bu günkü davranışına təəccüb etmədimi, təəccüb etdi: "qonaqmı yanında belə səxavətlə danışır?!". Amma bu dəfə, doğrudan da, məsələ başqa cür idi. Şiraz "həkim" öz gəlişi ilə Bəhram kişini axmaq xəyalatdan ayırmış, diqqətini narahat fikirlərdən uzaqlaşdırmışdı. Odur ki, Bəhram kişi ürəyində "Allah, sənə çox şükür" deyib ona xoş üz göstərirdi:

–Çay iç.

– Özüm, özüm... nə var, nə yox? – Şiraz "həkim", elə bil, hər gün gəlib burda özünə çay süzürdü, indi də samovarın yanındakı sinidən öz əlilə qoymuş kimi stəkan-nəlbəki götürüb yaxaladı, özünə qapqara bir çay süzdü.

– Nə var, nə yox? – Təkrar edib (adam öləcək, öz dediyinə özü də tezcə peşman oldu, bilirdi ki, Bəhram kişi məhz bu sualı xoşlamır) dikdi məsum, günahkar gözlərini Bəhram kişinin, sonra da qonağın üzünə. Qonaq bənzəyişə mat qalmadımı, mat qaldı: "Bu ki, bizim Mübariz müəllimin doğmaca qardaşıdı. Gözlər oynayır, burun təxminən o boyda (bunu F.Q. bir az şişirdirdi), sual sual dalınca..."

Bəhram kişinin isə dodağı qaçdı, bilirdi ki, birinci sualına cavab gözləmədən Şiraz "həkim" ikinci sualını yağdıracaq: "Daha nə var, nə yox?" Sonra üçüncü sual gələcəkdi: "Yenə olsun..." Bəhram kişi üzünü yana çevirib maraqla, bir balaca da "yuxarıdan aşağı" Şiraz "həkimi" süzən F.Q.-yə:

– Kənd adamıdı, – deyib gülümsədi. – Həkimdi (Şiraz qulağını "şəklədi"). Yox, həkimbaşıdı. Özü də seyiddi. Əlində şəfa damarı var. – Sonra da başını hərləyib gözünün ucuyla F.Q.-yə ancaq bunu çatdıra bildi: "Boş burax, sonra, bunun barəsində sonra, bənd olma".

### *Şiraz "həkim" çayını içib gedəndən sonra*

Bəhram kişi, hələ də ürəyi yerinə gəlməmişdi: "Allah, bu nə görüntüydü, gəldi gözümə?! İraq elə, Allah, iraq elə..."

F.Q. isə heç nədən xəbəri yox, az qala kefi kök bir halda, ləzzətlə Qarağacın altında "öz" taxtına yayxanmışdı. "Bu kəndin özü çox qəribə bir kənddi, hər cür adamı var – ağıllısı var, ağılsızı var... Makintoş palto... Bu seyid palto vədini yuxusunda görüb, nədi?! Adam özü də bilmir, inansın, yoxsa inanmasın". Bir qədər əvvəl Bəhram kişinin xahişi ilə (əslində, xahişə ehtiyac yox idi, Bəhram kişinin "həkim, bir o söhbəti qonağımız üçün danış, rəhmətliyin söhbətini" deməsi bəs oldu) Şiraz "həkim" ləzzətlə yerində qurcuxub haman "makintoş palto" əhvalatını çay içə-içə F.Q. üçün xüsusi şövqlə, nanə-cövhəri ilə danışdı. Çayını içib qurtarandan sonra son cümləsini az qala təntənə ilə dilə gətirdi:

– Palto indi də evdədi. İstəsəniz göstərə bilərəm.

... Bəhram kişinin isə xəyalı artıq uçub uzaqlara getmişdi. Şirazın səsini o artıq eşitmirdi, bu səs (bəlkə makintoş palto ilə bağlı sirli bir vaqeəni danışdığından Şirazın səsi də sirli ahəngə bürünmüşdü) onun yadına həmən o müdhiş səsi bir daha saldı. Mağaranın ruhu ilə "söhbət" gəlib yenə yadına düşdü, yenə haman müdhiş səs beyninin içinə girdi: "Kim əlini naxışlara vursa, öləcək! Bunu hamıya söylə, qoy bilsinlər! Mağaranın ruhu yazının sirrinin açılmasını istəmir, heç istəmir, bu açıq-aşkardır, çünki bu Ruh bir bəd Ruhdur, bir zalım Ruhdur... Öz marağı var bu Ruhun. Sərvət barədə deyilənlər isə düz imiş... Amma F.Q. istər-istəməz o naxışların bir daha şəklini çıxarmaq istəyəcək, başqa cür mümkün deyil. Bu zaman əlini hökmən bu naxışlara vurası olacaq. Onlara toxunacaq". Bəhram kişi belə bir mənzərəni aydın şəkildə gözü önünə gətirdi: budur, F.Q. əlini yazının naxışlarına sürtür, məhəbbətlə onları əzizləyir, tozunu silir... "Bə sonra?! Sonra bu zalım Ruh sözünü tutsa, necə olsun? İndiyənəcən sözünü tutub. Cəfər müəllim... Elə axırıncı hadisə – Qulamhüseynin ölümü. Mübariz özü çaşıb qalmamışdımı?!" Bəhram kişinin fikri bir daha əvvələ qayıtdı.

### *Qulamhüseyn müəllimin qəfil ölümündən sonra Mübariz kişinin Çoban papağına gəlişi. "Gördün?" – "Gördüm!"*

... O gecə Qarağacın altında dinməz-söyləməz oturub ikisi də susurdu. Qulamhüseyn müəllimin qəfil, müəmmalı ölümündən sonra Mübariz kişi özü durub gəlmişdi Bəhramın həyətinə. Bu gəlməyilə, elə bil, üzrxahlıq edirdi. "Sən axı xəbərdarlıq etmişdin. Mən niyə sənə inanmadım, elə bildim, xərifləmisən?! Bəhram, bə bu niyə belə oldu?.."

– ... Gördün? – Nəhayət, Bəhram kişi üzünü yana tutaraq Mübarizdən soruşmuşdu.

–Gördüm, – Mübariz kişi cavab vermişdi.

Aylı, ulduzlu bir gecə idi, amma yer üzü zülmət qaranlığa bürünmüşdü. Ayın, ulduzun işığı gəlib-gəlib hardasa qırılırdı, lap aşağıya qədər çatmırdı. Heç biri üzünü çöndərib Vəng dağına tərəf baxa bilmirdi, əslində, dağın özü də artıq görünməz olmuşdu, o da zülmətin içinə girib gizlənmişdi.

– Bə indi biz nə edəcəyik? – Kədərli bir səslə Mübariz kişi ortalığa bir sual atdı.

Bəhram kişi naçar, o da, elə bil, öz-özünə cavab verdi:

–Bilmirəm.

– Hər halda ehtiyatlı olmaq lazımdır. Qulamhüseynin ölümü bir qəribə ölümdü. Sən çalış, heç kim bu mağaranın içinə girməsin. Cavanlar dəlisovdu, illah, "gedim özüm görüm, əlimi vurum", – deyəcək. Nə qayırassan?

– Nə bilim?!… Bozları aparım bəlkə mağaraya bağlayım?! – Məsləhət almaq üçün soruşmurdu, yox, Bəhram kişi öz-özü ilə danışırdı.

– Hə! Apar. Bağla... – Mübariz kişi "çıxış yolu tapıldı" deyin, eyni bir balaca açıldı, – hökmən apar, belə olsa, bir adam bu köpəyin qorxusundan mağaranın həndəvərinə gəlməz. Bu köpək...

Bozlar nəhəng və ağıllı bir köpək idi, bütün nəhəng və ağıllı köpəklər kimi öz qalın səsinin qiymətini bilirdi, az-az hallarda hürərdi (boşuna hürməzdi), indi isə, elə bil, söhbətin ondan getdiyini duydu, həyətin dağa söykənən yerindəki taxta yuvasından çıxıb bir ağız havaya hürdü. Bunu eşidən

Mübariz kişi dərhal səsini kəsdi. Bunlar yenə susdular. Handan-hana Mübariz kişi çox sevdiyi ifadəni "lənət şeytana!" deyib qalxdı:

– Mən gedim. Sən isə sabah köpəyi apar, hökmən apar. – Qulaq verdi, yox, Bozlar bu dəfə hürmədi.

– Gedirsən? – Bəhram kişi də ayağa qalxdı. – Deyirəm, köpəyə bir şey olmasın...

– Olmaz! Apar! – Mübariz, nədənsə, buna qəti əmin idi. – Olmaz, qorxma. Amma, Bəhram, bu barədə, bu... mağarada olanlar barədə deyirəm, hələ ki, bir adama da... bir kəlmə...

– Aydındı, a Mübariz, uşaq deyiləm ha... Allah axırını xeyrə calasın.

– Allah xeyrə calasın. Ehtiyatlı ol! – Mübariz kişi həyətdən çıxdı, ayağını çəkə-çəkə arxasına baxmadan gedib qaranlıqda əridi.

### *Quzğun dimdiyində. Mağara ilə, Çiçəkli yazı ilə ilk görüş. Möhtəşəm Ahəng və "hadisələrin üfüqü".*

... İndi bu söhbəti xatırladıqca Bəhram kişi ("məsələni F.Q.-dən gizlətməyə haqqım varmıdı, yoxmudu?") tərəddüdlü düşüncələrini özündən heç cür uzağa qova bilmirdi.

F.Q. hiss elədi ki, Şiraz "həkim" gedəndən sonra qaşları çatılmış Bəhram kişi beynində ciddi bir tərzdə nəyisə götür-qoy edir. "Artıq, vaxtdı, günəş az qala təpəmizə vuracaq. Hələ ki bir işin sahibi olmamışıq. Getmək lazımdı. Vaxtdı."

– Bəhram əmi! Ay Bəhram əmi! – F.Q. şux bir səslə Bəhram "əmisini" düşüncələr aləmindən dartıb çıxarmağa çalışdı. – Ay Bəhram əmi, deyirəm, çünki oldun dəyirmançı... yolçu yolda gərəkdir. Sən nə deyirsən?

Bəhram kişini bu səs, bəli, düşüncələr aləmindən qaytarıb gətirməyinə gətirdi, amma o düşüncələr aləminin özü yox olmadı (O öz yaşamını Bəhram kişinin və F.Q.-nin yaşadığı aləmlə yanaşı sürməyində davam etdi. Bütün sonrakı gün ərzində zaman-zaman Bəhram kişi yumbalanıb yenə o aləmə düşdü, tezcə də bu biri, "tanış" aləmə qayıtdı).

– Gedək deyirsən, eləmi? – Axmaq fikirləri başından qovmağa çalışan Bəhram kişi, o da gümrah səslə F.Q.-yə hay verdi, cavab gözləmədi – gedək, – dedi. "Ürəyi az qala atır, tələsir, səbrsizdi, səbrsiz..."

Bəhram kişi ("sən dur, sən belə dur") yenə imkan vermədi ki, F.Q. ona kömək eləsin, qab-qacağı yığışdırsın. Özü hər şeyi yerinə qoydu, rahladı. Birlikdə həyətdən çıxdılar. Həyət qapısı yenə onların arxasınca örtülüb çəpərin bir parçasına çevrildi, qapılığından bir şey qalmadı. Bəhram kişi həyətdən çıxarkən evdən çiyninə qolsuz kürkünü atdı, "olmaz, əyninə bir şey al, hökmən al" deyərək nazik ağ köynəyinin üstündən heç nə geyinmək istəməyən F.Q.-ni (gün işığı kürəyini yandırdığından F.Q. cemperi əynindən çıxarmışdı) təkidlə məcbur elədi və qırmızı zolaqlı cemperini təzədən ona geyindirdi. "Bu istidə cemper? Atam yanacaq. Sibirə gedirik, nədi?"

– Sibirə getmirik, amma dağ ətəyi ilə dağ döşündəki hava, biləsən, eyni hava deyil. Görəcəksən.

F.Q. Bəhram kişiyə növbəti dəfə səmimi bir maraqla baxdı: "Adamı sözsüz-səssiz, gözündən başa düşür. Nə bildi, mən ürəyimdə "Sibir" dedim?"

Həyətdən çıxdılar. F.Q. hər ehtimal, özünü yığışdırdı. Beynini təmizləməyə çalışdı. "Çiçəkli yazı ilə ilk görüşə gedirəm. Gərək təmizlənim". Lazımsız fikirləri beynindən çıxarmağa cəhd etdi. Həyətdən çıxıb dağ başına qalxan cığıra qədəm qoyanda, F.Q. hiss elədi ki, nəbzi şiddətlə vurmağa başladı (həsrətlilər uzun hicrandan sonra bir-birinin görüşünə belə tələsirlər), nədənsə F.Q. uzaq Moskva qışını, Poçtamtın (?) qarşısında Afaqı necə səbrsizliklə gözləməsini xatırladı.

– Nədi, balası, bir şeymi oldu? – Bəhram kişi vəziyyəti, elə bil, duyduğundan səsinə bacardığı qədər sakitlik qatdı.

–Yox, heç nə olmadı, ayağım burxulacaqdı.

–Ehtiyatlı ol...

İndi tərs kimi gəlib Afaq bu məqamda ("heç dəxli var?") yada düşmədimi, yada düşdü. Daha doğrusu, güclə soxdu özünü onun beyninə: "mən də varam, unutmusan məni, gör, ikinci gündü zəng eləmirsən, gedəndə də xəbərsiz yola düşdün, mən sənə göstərərəm, qəlb qırmaq nə cür olur, görərsən sən..."

Arı qovanlar kimi etmək istədi, etmədi. Yox, "arıların dostu" bu fikirlərə müharibə elan eləmədi, dağ cığırı ilə addım-addım yuxarı qalxdıqca, fikirlər özü addım-addım kənara çəkildilər, yol verdilər. Çiçəkli yazı hər şeyi yavaş-yavaş onun beynində əvəz eləməyə başladı.

Üzüyuxarı qalxdıqca kənd addım-addım aşağıda qalırdı, budur, "Çoban papağı"nın yan tərəfdən damı görünməyə başladı, Mübariz kişi ilə F.Q.-nin dünən gəldikləri naxır yolundan düz Kəhrizli körpüyə qədər (" o adama deyin ki..." – allı-güllü tuman geyinmiş gözəlçələr yadına düşdü, dodağı qaçdı: "mənə nə olub, sakit ol, F.Q., sakit ol. Burda nə var?! Çiçəkli yazı... Yox bir. Oxuyacağıq, əlbəttə, oxuyacağıq, çıxıb gedəcək işinə. Oxumayıb nə edəcəyik ki?! Bunu mən oxumasam... heç mən mən deyiləm") artıq xeyli böyük bir ərazi göz önündə canlandı.

– Bax, o yolu görürsən?! Naxır yolu deyirik ona. O da Kəhrizli körpüdü, o biri tərəfdə, sağda isə məktəbdi, sovetlikdi... Bu tərəfə gedən yol Dəyirman yoludu... Qəbirstanlığa qədər gedir.

Qarşısında (aşağıda) açılan mənzərədən gözü dörd olmuş, nəfəsi az qala kəsilən F.Q. Bəhram kişi çomağı ilə göstərən istiqamətə, əlbəttə ki, baxır, "bah, bah" səmimi şəkildə təəccüblənirdi. "Dünya varmış" deyənlər haqlı idilər. Bu təkraredilməz mənzərə onu görənlərin yadından çıxarmı, çıxmaz. Sinə dolusu nəfəs almağa çalışan F.Q. birdən qeyri-təbii onu anladı ki, nə üçünsə bu gözəllikdən istədiyi kimi ləzzət ala bilmir. F.Q.-nin fikri-xəyalı yenə gözünün qarşısındakı bu əfsanəvi genişliyi təəssüflə fırlanıb gedib girdi hələ görmədiyi mağaranın içinə, Çiçəkli yazının yanına. Bəhram kişinin bundan xəbəri yox, hərdən nəfəs dərib dayanır, çomağını (ata yadigarı əyri başlı çomaq həyətdən çıxanda qapının ağzında çəpərin altında idi, onu götürmüşdü) "Arşın mal alan" filmində parça satan tacirlər kimi uzadıb kəndin ora-burasını ətrafa dörd acgöz gözlə baxmağına davam edən (amma fikri mağarada olan) F.Q.-yə həvəslə göstərirdi. "Bax, məktəb odu, Radio meydanı..." F.Q.-nin baxışları beyninin içindəkilərdən ayrılmışdı, bir dəqiqə əvvəl nə düşündüyü nə gördüyündən kənarda idi. İndi bunlar yenə birləşdi. Fikri də, xəyalı da özünə qayıtdı. Artıq F.Q. Bəhram kişinin göstərdikləri ilə qənaətlənmir, baxışları Radio meydanın üstündən uçub göz işlədikcə uzanan sonsuzluğa

dirənirdi. "Hadisələrin üfüqü!" Üfüq ilk dəfə idi ki, sirli, üzünü gah göstərən, gah göstərməyən, itən, qeyb olan, sonra yenidən (addımından asılı!) peyda olan adi xətt deyildi, üfüqdə nə isə baş verirdi, hadisə hadisəni əvəz edirdi, hadisə hadisəyə qarışırdı, hər şey eyni bir zamanın içində idi, ardıcıllıq yox olmuşdu – amma hansı, amma necə?.. – o bunu bilmirdi, o bunu hiss edirdi. "Açar söz! Açar söz hardasa burda, bu ətrafdadı. Havada fırlanır. Bəlkə də mən indi onu görürəm. Amma hanı o?! Hanı?!"

– Ora bax, sovetliyi görürsən, mən burdan görürəm. – Bəhram kişi nəfəsini dərib dayandı, çomağını dümdüz uzatdı sovetliyin üstünə. F.Q.-nin isə baxışı Çoban papağının üstünə gəlib qonmuşdu, ona qonşu o biri evlərdə, həyətlərdə idi (o, "hadisələrin üfüqü"ndən artıq qayıtmışdı). Qarağac buradan baxanda get-gedə balaca bir kola oxşamağa başlamışdı. Doğrudan da – "Balaca". Ona bu adı, yəqin, burdan baxıb sonra veriblər. F.Q.-yə birdən elə gəldi ki, bu ağac da ona baxır. Uzaqda olduğuna görə tanımaya-tanımaya baxır. Sonra o biri evlər gözünə görükməyə başladı. F.Q. ilk dəfə idi, bu cür qəribə üsulla tikilmiş kənd evləri görürdü. Vəng dağının bu tərəfində bəzi evlər ev üstündə tikilmişdi, bir evin həyəti ondan aşağıdakı evin damı idi. Balaca uşaqlar həyətdə ora-bura qaçışarkən o biri evin damı yerindən oynayırdı. Hər tərəf yaşıllıq, sakitlik... Kənd sanki zamandan fasilə istəyib onun içindən çıxmış, gün işığının nuruna qərq olub qalmışdı. Yollarda tək-tük adamlar kölgə kimi görünürdülər, aha, "bax, bax, Bəhram dayı, ora çayxana deyil?! O kişi Mübariz müəllim deyil?!"

–Bəlkə də... Hanı? Pencəyi varsa odu. Özüdü!

–Var, var, pencəyi də var. Ay səni...

Yenə şəfqət damarı qaynadı. Dümdüzünə baxdıqca baxır, ən uzaq yerlərə qədər, seçəmməsə də qaraltıları görürdü. Göz işlədikcə uzanan düz, dərə, yamac tamamən ovcunun içindəydi. "Azərbaycan budur, Azərbaycan başqa yerdə deyil, burdadı". Necə gözəl idi, necə rahat idi, adamın baxışları öz yolunda bir maneəyə dirənməyəndə beyin həqqən dincəlirmiş. "Burada yaşamağa nə var?! Burada adam hiss edir ki, dünyanın içindədi. Dünya varmış. Şəhərdə ya evdəsən, ya küçədə, on metrdən sonra hökmən nə isə gəlib girir gözünə, ya yol işarəsi, ya elektrik dirəyi... baxışın nəyə isə dirənir. Burda isə..."

Burda isə hər şey bir-birinə möhkəmcə bağlıdı. Artıq kola oxşayan Qarağac torpağın altı ilə rişələrinə qədər, elə bil, ovcunun içindədi, ovcunun içindəki xətlər Qarağacın rişələri, zoğlarıdı, "hadisələrin üfüqü"nə qədər uzanır, əyilib-düzəlib müxtəlif yerlərdən keçir; bir rişə sovetliyi dolanıb ötür, sonra Dəyirman yolunda uzaqlarda (bəlkə kənd qəbirstanlığında?) gözdən itir, o biri zoğ vurub kötük kimi kənd məktəbinin qabağında qocalıb... Radio meydanında qırılanı var, çayxanada ilişəni var. Sovetliyin qabağındakı maşına toxunanı var, "Hadisələrin üfüqü" isə gözləyir, səbrlə gözləyir, ona gəlib yetişən Qarağacın rişələrini qaldırır, qaldırıb aparır göyün yeddinci qatına, sabah-sabah görünməyən ulduzların, günəşin yanına, sonra onları saçaq-saçaq gün işığına döndərib yenidən qaytarır Çoban papağının həyətindəki Qarağacın yarpaqlarına süzülən işıq damlası, odur, yavaş-yavaş, elə indicə üz tutdu torpağa, ona çatana qədər ya saniyənin milyonda biri keçdi, ya da milyon il ötdü, fərq eləməz... Yox, həqiqətən, bu Qarağac uzaqdan onu tanımaya-tanımaya ona, elə bil ki, nə isə deməyə çalışır.

Gün işığının altındakı Ahəng dünən axşam cazibəsinə düşdüyü Ay işığının, ulduzların altındakı Ahəngdən fərqlənmirdi, əslində, Ahəng bir vahid möhtəşəm Ahəng idi, libasının rəngi idi dəyişən, sabahkı rəng gecəki rəng deyildi. Həm də gecəki rəng idi.

Dağın ortasına qədər cığır burula-burula qalxıb, nəhayət, bir açıqlığa çıxdı. Bura düppədüz meydança kimi bir yer (tala?) idi; sağ – sıldırım, sol – uçurum.

– Çatdıq, – deyib Bəhram kişi çomağını nə üçünsə iki dəfə yerə vurdu. (bəlkə məqamın təntənəsini xüsusi nəzərə çatdırmaq üçün belə etdi?!) – Görüm, tapacaqsan mağaranı?!

F.Q. bu "oyuna" getdi, ürəyi ata-ata dörd tərəfə boylanıb gözləri ilə bir xeyli gəzsə də heç bir mağara-filan görmədi. Sol tərəfdən sıyrılan sıldırım qayaya sarmaşıq kimi tikənli bir kol (cındırış, süngür kolları) daraşmışdı, buna görə də sıldırım başdan-başa yaşıl rəngə bürünmüşdü.

– Əvvəlcə bir bura gəl. Amma ehtiyatlı ol.

Bəhram kişi hələ də gözlərilə mağaranı axtarıb tapmağa çalışan F.Q.-ni əks tərəfə – uçurum tərəfə çəkib qətiyyət və həm də ehtiyatla irəli üç-dörd addım atdı:

– Gəl, qorxma. – Əli ilə onu qayanın ucuna çağırdı.

Qayanın ucuna yaxın yerdə qəribə bir daş vardı. Skamya kimi hündür, enli idi və bu daşın üstünə oturub "hadisələrin üfüqü"nə qədər baxdıqca baxmaq olardı. Bu daşın bura gəlib hardansa (göydən?!) düşməsi ağlasığan deyildi. Daş ağac deyildi ki, torpağın içindən bitsin. Onu bura adamlar da heç cür gətirə bilməzdilər – nəhəng idi. Bəs necə olmuşdu, bu böyüklükdə, bu ağırlıqda daş gəlib bura çıxmışdı?! Daş mərmər kimi cilalanmışdı, elə bil, öz içindən işıq saçırdı. Gözləri həmişəki kimi dibindən alışan Bəhram kişi dedi:

– Bu daş, gecələr içindən yanmağı var, elə biləsən, içində nur parçası gizlənib.

İkisi də daşın üstünə oturdu. Gözlərini uzaqlara dikib susdular. Ayaqlarındakı yorğunluq yox oldu. F.Q.-nin beynində tanış olmayan sakit bir musiqi səslənməyə başladı və F.Q. susub qaldı. Bu yerdə nə isə demək, danışmaq mümkün deyildi, burada yalnız vəcdə gələ bilərdin. Vəcdə gəlib susa bilərdin. Qorxu səni bürüyə bilərdi: "birdən bu Çiçəkli yazı olmasaydı, mən buralara, yəni, gəlib çıxmayacaqdım?! Mən bu daşın üstündə oturub "hadisələrin üfüqü"nə baxmayacaqdım?!"

Bu füsunkar mənzərəni F.Q. bütün sonrakı ömrü boyu unutdumu, unutmadı. Füsunkarlıq onda idi ki, aşağıda uzandıqca uzanan bayaqkı görüntü ilə F.Q. indi artıq birbaşa təkbətək qaldığını hiss elədi, cığırla qalxdıqca gözünə yandan, kənardan heç bir dağ-daş parçası, kol-kos gəlib girmirdi (maneə yox idi). Elə oturduğu yerdəcə azca aşağı əyilib gördü ki, o indi Çoban papağının düz üstündə oturub: quzğun dimdiyinin əyri ucunda. Qayanın ucu əsl nəhəng quş dimdiyi idi, qabaq tərəfi hətta bir az da aşağı əyilmişdi, donqarı vardı. Əlbəttə ki, o, bu nöqtədən Çoban papağını bütün ölçülərində görə bilməzdi, gözünə həyətin küncündə bir-iki pətək ancaq dəydi. Elə bu məqamda F.Q. harada və nə qədər təhlükəli bir yerdə durduğunu hiss elədi, F.Q. qəfildən həyətin uzaq bir küncündə alma ağaclarının arxasında, arı pətəklərinin yanında (balacalaşmış şəkildə, ancaq qırmızı cemperə görə tanımaq olurdu) özünü gördü və hövlnak geri çəkildi. Qəfil meh saçlarına zərif bir sığal çəkdi.

– Görürsən, eynən quzğun dimdiyidi, – Bəhram kişi onun gözlərinin içinə baxdı: "qorxdumu, nədi?!" – Düz həyətin üstündəyik.

F.Q. qorxmamışdı, sadəcə, növbəti dəfə ("təəssüf ki, bu hal artıq tez-tez baş vermir") özü-özünü bu cür kənardan görmüşdü. Sonuncu dəfə bu hal Afaqla bağdakı söhbət zamanı olmuşdu; indi boynuna ala bilər, indi daha xırdaçılıq etməyin yeri deyil, o, zavallı və qəddar, miskin və iddialı idi. Elə bu dəqiqə alma ağaclarının arxasından özü özünə də bu cür görükdü: yenə həmən zavallı və iddialı, yenə həmən miskin və qəddar! Hamısı bir yerdə! Bəhram kişinin həyətində, pətəklərin yanında duran və qırmızı zolaqlı cemperi çiyninə atmış "F.Q." əlini alnına tutaraq gözünü qıyıb (günün işığı onun düz gözünə vururdu) Quzğun dimdiyindən ehtiyatla aşağı əyilib boylanan və bu zaman saçlarını meh yalayan, qırmızı zolaqlı cemperi əyninə geymiş F.Q.-yə baxırdı, az qalırdı çığırsın: ay yazıq, sən neynirsən, uçurumdu, geri, geriyə çəkil!"

– Gəl, bu da sənin mağaran! – Bəhram kişi daşın üstündən ayağa qalxdı, F.Q.-ni az qala bir əli ilə çiynindən qucaqlayıb Quzğun dimdiyindən uzaqlaşdırdı, onun düz o biri tərəfinə, haman sıldırıma sarmaşıq kimi sarılmış kolluğun (əsl cəngəlliyin) önünə gətirdi. Çomağını uzadıb kolları araladı.

F.Q. ancaq indi diqqətlə baxıb gördü ki, kol-kosun arasında balaca, lap balaca bir oyuq var, o da yaşıl idi deyin, birdən-birə görünmürdü, "yəni, mağaranın ağzı elə budu?!". Həqiqətən, mağaranın ağzı elə bu idi. F.Q. hələ içəri keçməmiş boğuq köpək mırıltısını qaranlığın içindən eşitdi. Sonra zəncir səsi gəldi. Bir nəhəng köpək (Bozlar) mağarada uzandığı yerdən artıq durmuşdu, bütün bədəni ilə silkələnməkdə idi. Elə bil, külək nəhəng bir Qarağacın saçını yolurdu. Bəhram kişinin hənirtisini duyduğundan köpək sakitləşdi, hürmədi.

– Dayan. Dayan. Tələsmə. Gözlə bir balaca. Mən indi. Qoy bunu hələ çəkim bir tərəfə...

Bəhram kişi əli ilə F.Q.-ni saxladı, qaranlığın içinə (mağaraya) birinci özü girdi. Bozlar zingildədi, sevinc içində özünü atacaqdı Bəhram kişinin üstünə, zəncirin uzunluğu buna imkan vermədi (imkan versəydi, qabaq pəncələrini sinəsinə qoyub Bəhram kişini az qala qucaqlayacaqdı). "Yavaş, yavaş, maralım, yavaş..." Köpək, ayaqları zəncirə ilişdi, bu dəfə başını hövlnak ona yaxınlaşan Bəhram kişinin gah dizinə, gah da ayaqlarına sürtməyə başladı. Hərdən mağaradan bayıra, işığa tərəf çönür, kənar adamın iyini havadan alır,

sonra yenə ləhləyə-ləhləyə əməlli-başlı sual dolu gözlərini Bəhram kişiyə dikirdi: “yanındakı yaddı, yad deyil?!” Bəhram kişi isə bir əli ilə köpəyin ayaqlarına dolaşan zənciri açır, o biri əli ilə Bozların başını, qulağının dibini sığallayır, nəvazişlə qulağına “maralım, maralım, yavaş, yavaş...” deyib əzizləyir, gözləri ilə mağaranın ora-burasına baxıb sanki nə isə axtarırdı. Köpək yekə başı ilə, nəhəng bədəni ilə Bəhram kişiyə bir balaca küçüyə dönüb qısıla-qısıla qalmışdı, eyni zamanda parıldayan gözlərini F.Q.-dən çəkmirdi. F.Q. (qulaqlara qurğuşun) bu nəhəng köpəyin zəhmli baxışından dişini dişinə sıxıb qorxmadı, ona görə yox ki, qəhrəman idi, bəlkə ona görə qorxmadı ki, Bozların gözləri sakit-sakit baxırdı, sanki “qorxma, sən onunla (Bəhram kişi ilə!) gəlmisən, mən sənə dəymərəm” deyə ona işarət göndərirdi.

Mağaranın içi zil qaranlıq olsa da F.Q.-nin gözü bu qaranlığa tədricən alışdı. Bəhram kişi Bozları çəkib mağaranın küncündə bir daş vardı, elə öz boynundakı zəncirlə o daşa bağladı, uzun zənciri sanki heyrətlənmiş köpəyin başına bir neçə dəfə çevirib-çevirib bir az da qısaltdı. F.Q. diqqətlə və artıq daha böyük cəsarətlə köpəyə baxıb gördü ki, Bozlar sadəcə böyük köpək deyil, Bozlar nəhəng köpəkdir. Qaranlıqda isə Bozlar həm də vahiməli köpək idi. Bəhram kişi deyərdi, Bozlar ayıdan qorxmaz, onda ki, qurd-yalquzaq ola. F.Q. həyatı boyu köpəyin bu boydasını heç görməmişdi, Bozların boynuna üç-dörd qat keçirilmiş ağır, qalın zəncir, elə bil, nazik bir sap idi, Bozlar öz böyük başını bir az da bərk silkələsə, bu sap, elə bil, bir andaca qırılacaqdı.

– Qorxma. Danış mənimlə, qoy səsinə alışsın. Köpək səsi tutar, səsə sığınar. – Bəhram kişi Bozları əzizləyə-əzizləyə (“maralım, maralımdı bu, köpək ha deyil, maraldı”) F.Q.-yə dedi.

Gözləri heyrətdən böyüyüb qalmış F.Q. isə Bəhram kişinin səsini artıq eşitmirdi, çünki qəfildən başını qaldırıb divardakı naxışları görmüşdü. O, Bozları da, Bəhram kişini də unutmuş, matı qurumuş halda, heyrət və maraqla gözlərini mağaranın əyri-üyrü divarlarına həkk edilmiş Çiçəkli yazıya dikib çəkə bilmirdi. F.Q. möcüzələr aləmində idi. Gah bu divara, gah o biri divara baxdıqca baxır, gözü qaranlıqda çətin seçsə də beynində Çiçəkli yazının ona tanış olan yeganə surətini canlandırmağa çalışır, tanıdığı bir naxışa gözü sataşanda qəlbi sevinir, gözü gülürdü. Ürəyinin döyüntüsü fikrindən keçən-

lərə qarışmışdı: "Bu da Çiçəkli yazı. Bu da həyatın əsl mənası. Bu – meydan (boylanıb meydanın – mağaranın, enini-uzununu təxmini də olsa gözəyarı hesabladı, əyri-üyrülərini saya almadı, dördün altıya olardı – metr ilə), bu da... ("şeytan" demək istədi, dili gəlmədi) bu da Çiçəkli yazı! Buyur, F.Q., göstər məharətini. Hamı səndən fərasət gözləyir. Səbr və mətanət! Səbr və mətanət!..".

Naxışların divar boyu səliqəylə yan-yana düzümündə qəribə bir məna var idi: arxayınçılıq, inam (həm uzaq yazıldığı günə və həm də bu günə!), etimad, məhrəmlik... F.Q. bu söz siyahısını zehnində uzada bilərdi, uzatmadı, əlini atıb naxışlara sürtmək, onları sevə-sevə əzizləmək, sığallamaq, onlara bir az daha yaxın olmaq istəyi qəlbinə hakim kəsildi, əlini uzatmaq... Bəhram kişi hardansa qaranlıqdan sıyrılıb qəflətən onun gözü önündə necə peyda oldusa, F.Q. diksindi. Həyəcandan üzü əyilmiş və kifirləşmiş Bəhram kişi (saqqalı bir tərəfə getmişdi, ağzı, burnu bu biri tərəfə) müdhiş bir pıçıltıyla:

– Əl vurma!! – Bəhram kişinin səsi fışıldadı, eynən Mağaranın Ruhunun səsi kimi oldu. – Əl vurmaq olmaz, mən sənə dedim axı... Mənə qulaq asmalısan... inanmalısan. Əl vurmaq olmaz! Olmaz!

Bozlar çömbəlib oturmuşdu, Bəhram kişinin səsindəki dəyişməni duyub təzədən mırıldamağa başladı.

Bəhram kişinin səsində adamı çaşdıran və diksindirən nəydisə, F.Q. sövq-təbii artıq divara uzatdığı əlini tez aparıb arxasında gizlətdi.

– Danışmışdıq biz axı, balası. – Bu dəfə Bəhram kişi çalışıb səsinə bir qədər həlimlik və mülayimlik qatdı. "Maralım, maralım..." Bozlar da sakitləşdi.

– Ancaq bax və seyr elə! – Sifəti yenə həmişəki həlim cizgilərini alan Bəhram kişi boylanıb Çiçəkli yazını F.Q.-yə özü divar-divar göstərməyə başladı:

– Amma əl vurma, eləcə bax. – Bəhram kişi yenə sakitləşmişdi, üzündən-gözündən, səsindən artıq nəvaziş yağdı. – Bax, ordan necə burulub bu biri tərəfə keçir... Allah bilir, bunların arxasında nə durur?! Sən, sən bunu açmalısan. Ürəyimə damıb, – bu adam sən olacaqsan. Gəlib-gedənlər nələr söyləmədilər, nələr demədilər... xalqın tarixi, ölkənin qədim dövrü, nə bilim, nələr, nələr, daha nələr... Guya burada qədim tariximizin bilinməz sirləri gizlə-

nib, guya bu yazılar tariximizə yeni işıq saçacaq... Amma... oxuya bilmədilər. Çiçək naxışlarını görürsənmi? Çox əlləşdilər, oxuya bilmədilər. Kim bilir, bəlkə də tamam başqa şey yazılıb?! Hm. Gör mən kimə nə deyirəm?! Bunları sən ki məndən qat-qat yaxşı bilirsən... Qaranlığa gözün alışdımı? Qorxmursan? Qorxma.

O qorxmurdu. Bəhram kişinin gözlənilməz kəskin hərəkəti və sözləri əvvəl-əvvəl qəribəsinə gəlsə də bu xırda məsələyə daha əhəmiyyət vermədi, çünki Çiçəkli yazının səssiz gözəlliyi onu artıq ovsunlamışdı. F.Q. yerindəcə hərəkətsiz qalıb, gözlərini qıyıb divardan divara baxdıqca, bu xalça ilməsi qədər incə, zərif işarətlərdən (çiçək ləçəklərindən) gözlərini heç cür ayıra bilmirdi. "Necə oldu yadımdan çıxardım, hökmən fotoaparatı bura gətirmək lazım idi. Heç inanmıram ki, yazının üzünü köçürənlər (Cəfər müəllim!) bu naxışların əyrintilərini əsas şaxəyə nisbətdə düzgün tənasüblə verə biliblər. Çətin..."

F.Q. bir daha yadına salıb təsəvvüründə Çiçəkli yazının Dil və Təfəkkür İnstitutunda gördüyü ilk surətini canlandırdı. Rəhmətlik Cəfər müəllim üzünü köçürdüyü solğun surət hara, bu sənə baxıb az qala səninlə danışan canlı naxışlar hara?! "Mən buyam, nəyəm buyam, gəl məni oxu, gir, gir mənim çiçək dolu qəlbimə, əlbəttə, var mənim qəlbim, mənim qəlbim var, öyrən, öyrən mənim çiçəkli sirrimi, ağıllısansa, layiqsənsə... sənin də qəlbin varsa, mən öz sirrimi sənə açaram, o zaman sən heyran olacaqsan..."

Az qala bu çiçək ətirli səsi qulaqlarıyla eşidən, burnuyla duyan F.Q.-ni birdən-birə qəribə bir inamsızlıq hissi bürüdü. Uzaqdan-uzağa "belə oxuyaram, elə çözərəm" demək çox asan imiş... Hətta o qədər samballı, heybətli alimlərin, dostların və bədxahların qarşısında, kinli-kinsiz baxışların gur işığında çıxış eləmək, odlu-alovlu və inandırıcı dəlillər gətirmək, Professorun pişik kimi mülayim baxışlarından ilham alaraq, Aslanzadənin dərindən dərinə nüfuz edən qartal baxışına tab gətirmək, hücuma keçmək, müdafiəyə çəkilmək... sən demə, çox, özü də lap çox asanmış. Qat-qat çətini isə bu zərif "çiçəklərin" qarşısında dayanıb onların mağaradan bayırda hökm sürən möhtəşəm Ahənglə əlaqəsini tapmaq, öz ayağı ilə mağaranın içinəcən gəlib bu çiçək ləçəklərinə bir kölə kimi sığınmış (və yığılmış!) möhtəşəm Ahəngin az qala hənirtisini bütün varlığınla hiss eləmək idi. Hadisələrin üfüqündə

onun anlaya bilmədiyi, amma fəhmlə duyduğu çatışmaz həlqə elə bu yazı idi, bu yazı ora (hadisələrin üfüqünə!) qədər gedib çıxa bilmirdi, mağaranın divarlarına ilişib dolaşa-dolaşa qalmışdı, hardan başlayırdı, orda da bitirdi – əvvəli sonuna qarışırdı, sonu əvvəlinə (labirint, labirint!!). O isə bu çözümü açmalı, ilk öncə yazının başlanğıcını tapmalı, sonra, bu çiçəkli sirri söz-söz, ardıcıl, məntiqi şəkildə faş edib hamıya, hamıya əyan eləməliydi. F.Q. həyatında ilk dəfə idi ki, girdiyi bu qaranlıq mağarada özünü Möhtəşəm Ahəngin bir həlqəsi kimi hiss etdi. Ondan sonra ancaq boşluq vardı. Bu boşluğu doldurmaq, bu zalım yazını hökmən çözmək lazımdır. Açar söz! İndi ən vacib olan budur. Açar söz hardadır?!

Ətrafda isə qaranlıq hökm sürürdü, başqa heç nə yox idi.

* * *

"Bu günlük bəsdi, sabah bura hökmən zərrəbinlə gəlmək lazımdır" – F.Q. Bəhram kişinin "çıxaqmı eşiyə?" sualına cavab vermədi, (heyi qalmamışdı, hələ də gördüklərinin təsiri altında idi) dönüb onun arxasınca mağaradan sakitcə (eynən quzu kimi) o da çıxdı. İşıqlı dünya! Gün işığı qəfildən birbaşa gözünə girdi, əlinin dalı ilə bu işıqdan qorunmaq istədi, başı gicəlləndi və səndələyən kimi oldu. Bəhram kişi F.Q.-nin qolundan bərk-bərk yapışdı. "Bir şey yoxdu, ilk dəfə girdin zülmət mağaraya, ondandı".

– İstəyirsən, bir oturub nəfəsimizi dərək?! Bayaq sənə dedim, istəmədin. – Bəhram kişi, mağara ilə üzbəüzdə quzğun dimdiyinin sağ kənarındakı içindən işıq verən yastı daşa çomağı ilə işarə etdi. "İstəyirəm". Orda oturub ləzzətlə üzüaşağını seyr edə biləriksə, bundan gözəl nə ola bilər?

Yenə dinməz-söyləməz əvvəlcə Bəhram kişinin oturmasını gözləyib o biri tərəfdən daşın üstünə F.Q. (hər ikisi üzü aşağı – kəndə) oturdu. Bəhram kişi atasından qalma zoğal çomağını əlləri arasına aldı, çomağın əyri başına alnını əyib dayadı. Səsinə yenə də nəvaziş qatdı:

– Hə, balası... bu da sənin bu yerlərə gəlib çıxmağının baiskarı, bu da Çiçəkli yazı... Hə deyirsən? Zərifdimi, zərifdi. Əzəmətlidimi, əzəmətlidi. Elə mən özüm də birinci dəfə görəndə çaşıb qalmışdım.

Baş gicəllənməsi artıq uçub gedən F.Q.-nin isə səsi xeyli "prozaik" (adi) idi:

– Bəhram dayı, sən mağaranı tapanda içində nə var idi, nə yox idi, diqqətini çəkən nəsə... yadında qalmayıb? Ola bilər, bəlkə balta tiyəsi, naxış oyuqları açan ucu biz... zubuldu, nədi ondan...

Bəhram kişi F.Q.-nin işgüzar sualına çalışdı işgüzar tərzdə cavab verdi:

– Yox, gözümə sən deyən bir şey dəymədi. Əvvəl-əvvəl içəri zülmət qaranlıq idi. Heç nə görəmmədim, yazı nədi?! Adi mağaradı, dedim, Vəngdə yüz beləsi var... İkinci gün amma, yenə nəsə çəkib məni bura gətirdi. Bu dəfə kolkosu bacardığım qədər təmizlədim, mağaranın ağzı beləcə açıldı, içərisi bir azca işıqlandı. Yoxsa, birinci dəfə bura girən kimi süngür ağacları, cındırış kolları, zəhrimara qalsın, arxamca qapı kimi təzədən bağlanmamışdımı, Bozlar olmasaydı yanımda, mağaranın ağzını çətin tapacaqdım. Sənə bir sirr açım.

–Yenə sirr?! Aç.

– Bu sirr balaca sirdi. Əslində mağaranı mən yox, Bozlar tapıb. İnanmırsan?

– Niyə ki? İnanıram. "Bunun məsələyə bir dəxli var?" Bozlar bəyəm sənsiz girmişdi ora? – F.Q.-nin ağlından ildırım sürətilə belə bir fikir keçdi: orda nə ola bilərdi ki, bu nəhəng köpək mağaranın içinə bir insan oğlu girənədək onu yox eləsin?! Heç bir şey! Bozlar ki, dəmir parçasını, çəkici (əgər qalmışdısa) götürüb gizlədəsi, yainki aradan çıxası deyildi ki?!

– Bircə Bozların dili olsaydı... – F.Q. bunun belə olmadığına, deyəsən, doğrudan-doğruya təəssüf etdi.

Bəhram kişi başını aşağı əydi, çomağı ilə yerə çəkdiyi çızıqlara gözünü dikib:

–Hə, elədi. Amma dili var kimidi, – dedi.

"Xətrinəmi dəydim?! Gərək elə deməyəydim". F.Q. Bəhram kişiyə mehribanlıqla baxdı.

Bozlar mağaranın elə içindən, duyuq düşdü ki, bayırdakılar ondan danışır (adınımı bərkdən çəkmişdilər?!), mağaranın lal-dinməzliyi yenə pozuldu, içəridən yerlə sürünən, bir-birinə dolaşan zəncir səsi gəldi, köpək yenə hövlnak sağa-sola, ora-bura gəzişməyə başladı.

–Bəlkə acdı? – F.Q. sual dolu gözlərini Bəhram kişinin üzünə dikdi.

– Yox, zəncirini boşaltmışam, suyu da qabağındadı, yeməyi də. Bir də səhər gətirəcəyəm. Bu gün sabah-sabah qalxmışdım mən bura. Sən yatırdın...

"Hə, elədi, mən hələ yatan zaman gəlib".

– Sən yatırdın, tez qalxdım, tez endim. – Sonra söhbəti dəyişdi. – Balası, yazını nə qayırassan? Nə təhər edəssən? – Bəhram kişi maraqla soruşdu.

–Onu kim bilər? "Allahdan başqa!"

Bəhram kişi onu ümidli və diqqətli bir baxışla süzdü:

– Hə, bunu Allahdan başqa heç kim bilməz. Amma, bax, biz səninlə şərt kəsdik. Əlini naxışlara vurmayacaqsan, lazımın olanda... mənə de, mən özüm sən istəyən naxışın surətini sənin üçün çıxarım.

Bir şey anlamayan F.Q. başını buladı:

– Bəhram dayı, biz bura elə-belə gəlməkdə düz eləmədik. Mən gərək heç olmasa zərrəbini özümlə götürəydim, lampadan, fənərdən nəsə gərək yanımızda olaydı... "Niyə axı mən əlimi naxışa vura bilmərəm, niyə?!"

– Sabah, balası, sabah gətirrik. – Bəhram kişi duruxdu. – Amma... balası, mağaranın içi qaranlıq. Zərrəbinlə deyirsən, qaranlıqda?.. Nə bilim?! Fənər, hə, fənər lazımdı. Onu gətirrik. Sən özün, fikrin nədi, nə zaman başlayırsan işə? "Belə lazımdı, balası. Sonra, sonra istəsən, mən bu sirri sənə açaram".

Bu sual səslənəndə F.Q. düşüncəli və Bəhram kişiyə elə gəldi ki, bir qədər də qüssəli gözlərini uzaqda kənd içində axtarıb tapdığı Kəhrizli körpüyə dikmişdi, ondan ayırıb dodağında təbəssüm Bəhram kişiyə baxdı. Bəhram kişi öz narahat sualını təkrar elədi:

– Nə zaman işə başlayırsan, balası?

– Mən artıq işə başlamışam, Bəhram dayı, – F.Q. ciddi tərzdə, bir qədər də mənalı-mənalı cavab verdi.

Cavab gözləmədiyi cavab olduğundan, ya nədən, Bəhram kişinin xoşuna gəldi, ürəyi rahat-rahat vurdu. "Bu oxuyacaq. İnşallah, bu oxuyacaq..."

–Eyləysə, sənə bir şey də danışım, bəlkə, deyirəm,ağlın nəsə kəsdi.

F.Q ("yenə sirr??") qaşlarını çatıb diqqətlə birdən-birə xeyli ciddiləşmiş Bəhram kişini dinləməyə hazırlaşdı:

– Buyur.

– Balası, mən bura birinci dəfə qədəm basanda, o zülmət qaranlığın için-də birdən ürəyimə damdı ki, mağaraya ilk girən kişi mən deyiləm. Bura bir dəfə artıq giriblər. Mağara məsum deyil. Hətta "çiçəkli" adını da yazıya bəlkə o zaman veriblər...

–Bəhram dayı, unutdunmu, bəs yazını yazan?..

Bəhram kişi nəfəs dərdi, F.Q.-nin sual dolu baxışını, əlbəttə, anladı:

– Düz deyirsən, yazını divara nəqş edən var. Amma mən onu demirəm. O, əlbəttə, öz yerində. Mən başqa şey deyirəm. Nə zamansa, özü də yaxın zamanda yox, çoxdan, lap çoxdan mağarada kimsə bir başqa, kənar adam olubdur. Mağaraya bir dəfə giriblər.

– Nəyə görə belə düşünürsən? – F.Q. təəccüblə soruşdu. – Nəsə vardı içəridə? Amma yox, sən axı deyirsən, heç nə mağarada yox idi. Kiminsə burda olmağının əlaməti bəs nədir?

– Bilmirəm. Mən belə hiss elədim. – Bəhram kişi sakitcə cavab verdi. – İstəyirsən, bu söhbəti axşam evdə davam edək? Yox, əgər...

– Yox, niyə ki, çox maraqlıdı. Elə indi danışaq. Bu saat hər şeyin mənim üçün çox vacib mənası var. Nədi demək istədiyin, Bəhram dayı, söylə. – F.Q., elə bil, dirçəldi, gözünü uzaqlardan çəkdi, o artıq xüsusi bir maraqla Bəhram dayısını dinləməyə hazır idi.

– Bir şey deyil. Yəni, deyirəm, deyəcəyim elə bir şey də yoxdu. – Bəhram kişiyə qəribə gəldi və o təəssüf etdi ki, F.Q. onun dediyində (əslində, demədiyində!) nə isə bir gizli məna axtarır.

F.Q.-nin isə, həqiqətən, "tərs damarı" tutmuşdu, hökmən Bəhram kişinin söhbətini ("axşama niyə saxlayaq, indi niyə eləməyək?") ondan elə indicə çıxarmaq istəyirdi.

"Tərsdi. İndi mən buna necə deyim ki, özüm də bilmirəm, niyə belə bir fikir gəldi girdi ağlıma?! Mağarada bunu mənə eləcənə pıçıldadılar. Bəlkə mağaranın ruhu pıçıldadı?! Ruh varsa əgər nə zamansa canlı adam da olmayıbmı?! Hardan bilim?!"

– Bəhram dayı!..

Bəhram kişi isə artıq dediyinə peşman olmuşdu:

– İnanırsan, özüm də bilmirəm, nə üçün, necə oldu mən bunu hiss elədim?!

– Bir səbəbi olmamış deyil. – Marağı qəfildən sönmüş F.Q. dilucu bunu dedi və başını döndərib ("ciddi bir şey deyimiş") yenidən Kəhrizli körpünü gözlərilə axtarıb tapdı, sonra sovetliyin binasını tapdı, Mübariz kişi artıq gözə dəymirdi, bir ikiqat olmuş arvad (Tükəz qarı idi) sovetliyin balaca həyətini süpürgə çəkib süpürürdü, aha, bu da onun "ala-bulası", ceyran kimi dayanıb sovetliyin qapısında, ay səni... "rəngi, rəngi bu maşının müsibətdi..." Yenə fikri başqa səmtə dağıldı. Qarşısında açılan bu möhtəşəm mənzərənin dibindən çıxıb Afaq gəlib girmədimi gözlərinin içinə, gəlib girdi. Mağaranı da, Quzğun dimdiyinin üstündə onunla yanaşı içi işıqlı daş üstündə oturmuş, fikirli-fikirli əlindəki çomağı ilə bu daşın ətrafında torpağa nəsə cızmağa çalışan, beynindəkini isə bərk-bərk ondan gizlədən ("yoxsa ki, bu da söz – sən əlini naxışa vurma, niyə, nə üçün – dünya dağılar?!.") Bəhram kişini də, zəncir səsinə qarışmış zəhlətökən mırıltısı mağaranın içində kəsilmək bilməyən nəhəng Bozları da unutdu. Gözünün qabağında idilər, amma həm də deyildilər. Ancaq Afaq! Bir də Afaqın ifritə anası. Bir böyük tikənli kol olub (elə bu cındırış, süngür kolu kimi) bitib onların arasında bu arvad bütün fikri ilə, bütün hərəkətləri ilə ancaq və ancaq ara vurmaqla, onları bir-birindən ayırmaqla məşğuldur. O isə bunu istəmir, Allah şahiddir ki, istəmir. "Sən məni elə sevirsən, elə sevirsən... ürəyin gedir... heç özün də bilmirsən, sən məni necə sevirsən, bilirsən?" Afaqın səsi yanındaymış kimi nazla səsləndi.

– Mən özüm də bilmirəm ki, niyə bu mağaraya ilk dəfə girəndə belə bir hiss girdi mənim qəlbimə, inanırsan, balası?! – Əlindəki çomağın ucu ilə yerə nə isə (çiçək ləçəkləri?) cızmağa çalışan Bəhram kişi dediyini dübarə təkrar etdi və qüssəli bir səslə ortalığa çökmək istəyən sükutu pozdu. Bəhram kişinin səsi bu dəfə xeyli uzaqdan gəlməyə başladı.

***Dörd yüz il bundan əvvəl.***
***Vəng dağından çox da uzaqda yerləşməyən, indi isə ancaq xərabələri qalmış bir şəhərdə***

1657-ci ilin ağır qışı üç gün, üç gecə sakit-sakit, lopa-lopa yagan qar dənələrinin titrək çiyinlərində gəldi. Bu qar dənələrinin az qala yarısı yerə toxunmaqdan qorxur, təkrar gəldiyi yerə qayıtmaq üçün havada aşağı-yuxarı vurnuxurdu. Sıxasıx yastı dağların arasındakı çökəyə sığınmış Günortac adlı bu balaca şəhərin dar, əyri küçələri ilə yol getmək axşama yaxın lap çətinləşdi. Həmən axşam (qarın yağdığı ikinci gün) bu dağ ətəyində salınmış balaca şəhərin ən mərkəz meydanı olan At meydanının həm özündə və həm də ona gətirən dörd yolun hər birində adamlar artıq gözə xeyli az dəyirdi, bir kölgə orda, iki qaraltı burda – yavaş-yavaş, səndirləyə-səndirləyə...

At meydanından Bazarbaşına aparan həmən dörd yoldan biri Zəncirli yol idi. Zəncirli yol da bütün ətrafı kimi ağappaq qara bürünmüşdü. Bu yolla bir qədər əvvəl iki atlı keçib getmişdi, atların ayaq izləri əvvəl-əvvəl bir az qaraldı, amma sonra çox keçmədi, yenə ağappaq, təzə qarla örtüldü. Yolun hər iki yanında ətraf dağlara bənzəyən yastı-yapalağ evlərin damları hələ az-maz (amma gərək gözünü zilləyəydin), seçilirdi, öz qara tüstüsünü atların ağız-burnundan dalğa-dalğa çıxıb şaxtalı, amma bəyaz, buğlu nəfəs kimi ayazlı çölə buraxan damdabacalar hələ var gücləri ilə görünməklərində səy edirdilər ki, atlılar bir az daha irəlilədilər və sağ tərəfdəki az qala uçqun altda batıb qaralan balaca bir darvazanın yanında dalqabaq dayandılar. Üzbəüzdəki evlər, sağdakı, soldakı qapılar az qala görünməz idilər. Atlar bərkdən fınxırıb başlarını yerə dikdi. Qara rəngdə olmasaydı, bu alçaq evi öz içində gizlədən həyətin taxta darvazası görünüb-görünməyəcəkdi, onu o bir olan Allah bilirdi. Bəndə bunu bilməzdi. "Allah, sən özün bizi bağışla, bağışla ki, adını çəkməyə özümüzdə hələ qüvvə tapırıq..."

"Allah, məni bağışla!" – Bu sözləri irəlidəki atın üstündə iki qat olub oturmuş Əliqumral yüzbaşı astaca dilinə gətirdi. O, atın yüyənini əlində cütləyib atdan zorla birtəhər endi, bu zaman o biri atlıya da başı ilə işarət verdi: "en, çatdıq" dedi. O biri atlı daha gənc idi, qıs-qıvraq bir tərzdə (elə bil, bu ağır və

üzücü yolu gələ-gələ az qala buz heykələ dönən heç o deyildi) öz atından yerə sıçradı.

Bir xeyli taxta həyət darvazasını keyimiş (donmuş) əllərilə hər ikisi döydü. Darvaza təpəsinə endirilən bütün zərbələri öz içinə yığıb özündən o tərəfə heç bir səs-səmir buraxmadı. Belə olmağına əvvəlcə belə oldu, amma az sonra həyət tərəfdən boğuq öskürək səsinə bürünərək bu sözlər gəlib Əliqumral yüzbaşının və onun səfər yoldaşının qulağına çatdı:

– Gəldim, gəldim... Bir az gözlə. Çətin açılır, cəftə zalım, taxtası şişib bunun...

Darvaza, nəhayət, yavaş-yavaş açılmağa başladı. Bu iki nəfər də bu biri tərəfdən güc gəldi. Darvaza yerdə qarı eşə-eşə yarıyacan ancaq açıldı və qonaqları birtəhər həyətə buraxdı.

– Atları bura bağlayın... – Əynindəki uzun kürkə bərk-bərk bürünmüş, başında zərif bir araxçın, ağzından buğ çıxan ev sahibi Mirzə Pirqulu, evin qapısına gedən cığırın sol tərəfində eləcə iki atlıq, üstü ağappaq qarla örtülü tövlə gözə göründü, orada yer göstərdi. – Bura!

Atları bağladılar və Mirzə Pirqulu yenə də ağzından buğ çıxa-çıxa atların qabağına tövlədən ot gətirib tökdü. Soyuq tutmuş qonaqlar tərpənməz bir halətdə ona tamaşa edir, az qala dişləri dişlərinə dəyə-dəyə gözləyirdilər. Sonra ev sahibi "buyurun" deyib əli ilə qonaqlara yol göstərdi. Mirzə Pirqulu irəlidə, Əliqumral yüzbaşı arxasınca, yüzbaşının da arxasınca onun gənc səfər yoldaşı, ayaqlarının altındakı ağartını xırçıldada-xırçıldada gedib evin gizlin yerində qaralan alçaq qapıdan keçib içəri, geniş bir dəhlizə daxil oldular. Burada qonaqlar hər ikisi əyinlərində çoxdan yamyaş olmuş qara, qalın çuxalarını çıxardılar. Mirzə Pirqulu da onlar kimi üstünə qonmuş qardan təmizlənmək üçün (evdən darvazayacan gedib balaca cığırla geri dönənəcən üstü-başı qarla tamam örtülmüşdü) bu üçü özlərini silkələyib-silkələyib qardan bacardıqca təmizləndilər. Qar getməyinə getdi, amma bu dəfə su olub bunların saç-saqqalında, üz-gözündə damla-damla qaldı, döşəməyə tökülən qar dənəcikləri isə tezcə əridi.

İçəri otağın yuxarı başında cırthacırt yanan yaşılkərpic sobanın ətrafına səliqə ilə, bir ölçüdə quru odun parçaları toplamışdılar. Sobanın kənarında al-

çaq bir miz var idi. Otağın bu biri küncündə yorğan-döşək dəsti az qala tavana dəyirdi. Elə oradaca alabəzək, böyük bir sandıq da suvağı orda-burda tökülmüş, daşları görünən divara söykənib durmuşdu.

– Buyurun, möhtərəm ağalar, əyləşin, keçin, xoş gəldiz, sobaya yaxın keçin. – Qonaqpərvərlik qaydalarını həmişə gözləməyə çalışan Mirzə Pirqulu par-par yanan gözlərini bir kənara qaçıraraq dil-ağız elədi.

Soba çatır-çatır yanmağında idi. Otaqda xoş bir istinin rayihəsi dolaşırdı.

Bədəninin donuqluğu hələ də getməyən Əliqumral yüzbaşı "dondum, dondum, Allah..." ağır-ağır keçib yaşılkərpic soba ilə üzbəüz güclə bardaş qurub əyləşdi. Əliqumral yüzbaşının gənc səfər yoldaşı isə düz onun arxasında əllərini yerə basıb bardaşını qurdu, sonra əllərini acizanə tərzdə yaş olmuş dizlərinin üstünə qoyub başını aşağı saldı və bir müddət bunlar bu cür sakit, səssiz-səmirsiz, üzləri sobaya hərəkətsiz oturmaqlarına davam etdilər. Donları hələ də açılmırdı ki, açılmırdı. İsti canlarına yavaş-yavaş girir, amma ondan əvvəl yaş paltarları istini içinə çəkir, bu zaman tüstülənirdi. Əliqumral yüzbaşının cod bığları taxta tilişkələrinə dönməmişdimi, dönmüşdü. Bir müddət keçdi, nəhayət, Mirzə Pirqulu əlində məcməyi (o, bir az əvvəl sobalı otaqdan mətbəxə keçmişdi) mətbəxdən geri döndü, məcməyinin içindəki şərbəti, pendiri, yağı, yumurtanı, lavaşı, fincan və boşqabları sobanın sağ tərəfindəki alçaq mizin üstünə səliqəylə düzdü. Sonra mizi üstündəkilərlə bir yerdə ehtiyatla bir qədər arxaya sürüşdürdü. Qonaqlar mizdən sol tərəfdə qaldılar. Mizdən sağ tərəfdə isə ev sahibi özü, o da üzü sobaya tərəf (gözlərini sobaya dikib) bardaş qurub yerə çökdü.

Otağın sobadan sol tərəfdəki bircə, amma bu otağa görə xeyli iri pəncərəsini bayır tərəfdən ağappaq qar yağa-yağa tutmuşdu. Bu səbəbdən otaq işıqlı deyildi sobada çırtıltı ilə yanan odun parçalarının alovu dil-dil hərdən sobanın içindən otağa özünü dürtüb tezcə də geri çəkilməsə və bu zaman otağa zəif işıq salmasa idilər...

Qaşları çatılmış Mirzə Pirqulu, yadından çıxardığı var idi, təzədən əli ilə ağır bədəninə öyrəncəli bir təkan verib yüngül quş kimi yerindən qalxdı, gedib qapı ağzındakı alabəzək sandığın qapağını qaldırdı, söykədi divara, eşələnib oradan iki şam çıxardı (şamların biri yarıyacan yanmışdı), gətirib bu

şamları eləcənə şamdansız, mizin hər iki ucunda bərkidib qoydu, sobanın içinə (düz alovun ağzına) cəsarətlə əlini soxub bir uzun yanar çöp çıxardı, bu şamları yandırdı. Şamlar yandığında otaqda kölgələr peyda oldu, işığın dərəcəsi xeyli artdı. Qonaqlar fikir verib gördülər ki, təkcə işıq yox, işıqla bir yerdə qaranlıq da artdı.

– Allah, bizdən mərhəmətini əsirgəmə, Allah, bizi bağışla... – Əliqumral yüzbaşı donu yavaş-yavaş açılan əllərini ovuşdura-ovuşdura bilinmədi ki, bu sözləri hamı üçün dedi, yoxsa özü-özü üçün bu sözləri dodaqaltı pıçıldadı. Sonra Yüzbaşı sağ tərəfindəki mizə tərəf çöndü. Onun gənc səfər yoldaşı da, amma bu, dinməz-söyləməz onun kimi etdi. Mirzə Pirqulu, elə bil ki, bunu gözləyirdi:

– Buyurun, ağalar, "bismillah" eləyin. Varımız nədi, budu. Buyurun, tikəmi bölsəniz, məni məsud edərsiz, buyurun, lütf qılın...

Əliqumral yüzbaşı zənlə bir mizin üstündəkiləri, bir də yana çöndərib baxışlarını məhzun bir halda oturmuş Mirzə Pirqulunu süzdü, nədənsə bir yanıqlı ah çəkdi, yavaşdan "bismillah" dedi, əlini lavaşa uzatdı. Səfər yoldaşı da həmçinin "bismillah" edib o da əlini süfrəyə uzatdı...

Sakitcə öz yerində oturub təsbeh çevirə-çevirə vird edən (ancaq dodaqları tərpənirdi) Mirzə Pirqulu qonaqların gəlişinin məqsədini, əlbəttə ki, bilirdi. Əliqumral yüzbaşını bir müddət bundan əqdəm Mirzə Pirqulunun keçmiş şəyirdi, indi isə uzaq kəndlərin birində kəndxudalıq edən Qəmər yüzbaşı onun yanına gətirmişdi və xahişi bu olmuşdu ki, Mirzə Pirqulu ki, elm və irfan yiyəsidi, məchulları yozandı, buna kömək eləsin, bunun nəsə yazı-pozu işi var, nəyisə oxumaq, ya da oxutmaq istəyir. İnamsız bir halda Əliqumral yüzbaşı uzun-uzadı, bir az da anlaşılmaz şəkildə nələr isə danışdı. Müxtəsər, Mirzə Pirqulu bu işə razılıq vermişdi və Əliqumral yüzbaşı Mirzə Pirquludan məsələni həll etmək üçün vədəsini almışdı. Bir məqam elə oldu ki, otaqda təklikdə qaldılar, Qəmər yüzbaşı pıçıltı ilə hələ də şübhə içində tərəddüd edən Əliqumral yüzbaşıya belə dedi: "çalış, vədələşdiyiniz vaxt, nə olursa, olsun, istər qiyamət qopsun, gələsən, yetişəsən, xasiyyəti ağırdı, yoxsa səni bir daha yaxınına buraxmaz". Onun bu sözlərindən sonra, özü də bilmədi niyə, Əliqumral yüzbaşının şübhələri dağıldı.

Elə bu sözlərə görə Günortac ətrafındakı qara-çovğuna baxmayıb bu iki yoldaş yola çıxmışdı. "Allaha şükr olsun, inşallah, qiyamətin bu günü arzumuz, məqsədimiz puç olmaz, yerdə qalmaz. Əlbət, bu müşkülün də bir çarəsi vardır".

Söhbət edə-edə yeməklərini yeyib, nəhayət, bitirdilər. Qaynadılmış kəkotu suyunu meyvə qurusu ilə xortuldada-xortuldada içəndən ancaq sonra qonaqlar hiss etdilər ki, bəli, bədənlərindəki qan, deyəsən, bir balaca qaynadı. Sobadakı alov dillərinin tənbəlliyi (hərdən-birdən dil uzadıb tezcə də sobanın dərinliyinə çəkilirdilər) bunlara da sirayət etdi, ləms düşdülər, gözləri xumarlandı. Mirzə Pirqulu mizi özündən bir qədər kənar edib, gedib gətirib divar uzunu yığılmış yorğan-döşək dəstindən bunlara bir böyük mütəkkə verdi, qonaqların ikisi də, hərəsi bir tərəfdən bu mütəkkəyə dirsəklənib ayaqlarını ləzzətlə uzatdıqca uzatdılar. Bir azdan ocağın istisindən əvvəl-əvvəl əsnəmə gəldi, nə gəldi, sonra gözlər öz-özünə yumulmağa başladı, nə başladı. Mirzə Pirqulu qonaqlara diqqət və maraqla baxırdı və anladı ki, bunlar ki belə qəribə bir halətdədirlər, indi daha heç bir söhbət aralarında alınmayacaq, əyilib biri tamam sönmüş və tüstüləyən, o biri sönməkdə olan hər iki şamı bir əski ilə yaşlayıb tamam söndürdü, sonra yenə "bismillah" ayağa durub gedib otağın küncündəki haman yorğan-döşəkdən bir-ikisini sürütdəyib bunların yanına gətirdi. Artıq şirin yuxuya getmiş və hərdən də bir-birinə səs verib xorna çəkən bu adamlara bir daha diqqətli nəzər saldı. Əliqumral yüzbaşı yuxusundaca diksindi, elə bil, quyunun təkinə düşdü. "Yox, əsas söhbət qaldı sonraya". Mirzə Pirqulu sobaya bir-iki quru odun da atdı və daha sonra səs salmamağa çalışaraq yavaş-yavaş yaşılkərpic sobalı otaqdan çıxdı...

Mirzə Pirqulu qapı-bacanı bərkidib gedib girdi özünün kitab otağına. Bura həm də Mirzə Pirqulunun yataq otağı idi. Ömrünün ahıl vaxtına tək-tənha gəlib yetişdiyi üçün idi ki, hər gecə yuxusu gələn zaman yatağını özü salırdı. İndi də divar dibində yumrulanmış alabəzək döşəyi açıb bir kənara çəkdi, divara dayanmış kitabdarın üstündə şamdan vardı, şamdandakı şamı (onu yataq otağına gircək yandırmışdı) üfləyib söndürdü, otaq soyuq idi deyin, elə paltarlı-paltarlı, hətta başındakı araxçını da çıxarmadan yerinə girdi, yorğanını gözlərinə qədər çəkdi. Bir qədər bu soyuq yerində qurcuxdu, yata-

ğın ora-burasını isitdi, bayırda qar hələ də yağırdı, sonra köks ötürüb Mirzə Pirqulu gözlərini yumdu, elə o andaca dərin bir yuxuya qərq oldu.

Yuxusuna öz istəyilə (Mirzə Pirqulu istədiyi yuxunu görməyi, hətta yuxu qurmağı bacaran bir irfan sahibi idi) yaşılkərpic sobalı otaqda qonaqlarla yemək zamanı etdikləri söhbət necə vardısa eynən eləcə (bəlkə xırda, çox xırda dəyişmələrlə) gəlib girmədimi, eləcə gəlib girdi.

İki nəfər qonaq dal-dala qırmızıkərpic sobanın (yuxuda sobanın kərpicləri qırmızı rəngdə idi) qarşısında, mizin sol tərəfində bardaş qurub əyləşmişdi, o isə, Mirzə Pirqulu mizin sağında dizini qatlayıb yerdən oturmuşdu. İştah qonaqlara qəfildən necə gəlmişdisə bir müddət səssiz-səmirsiz ancaq yeməyə məşğul oldular.

Sükutu ilk pozan Əliqumral yüzbaşı oldu. O ağzındakını səbrsiz çeynəyə-çeynəyə dedi:

– Mir Həsən ağa (Əliqumral yüzbaşı Mirzə Pirqulunu yuxu boyunca elə Mir Həsən ağa deyib çağırdı), Mir Həsən ağa, biz səninlə necə ki, vədələşmiş idik, eləcə də görüşdük, inşallah.

– Bu qar quşbaşı qardı, ildə bir dəfə yağar, bu dəfəkindən isə heç görükməyib. Dünəndən əhalini lap əldən salıb. Şəhəri tərk edənlər hətta var. – Gözünü qaldırmayan Mirzə Pirqulu sakit-sakit dilləndi. – Siz özünüz yol uzunu olmazın əziyyəti, əlbəttə ki, çəkdiniz. Yerinizi rahat edin. Buyurun... – Yuxuda, deyəsən, isti oldu, əl atıb Mirzə Pirqulu alabəzək araxçını başından götürdü, ağappaq uzun saçları onun üzünə xüsusi bir mülayimlik verdi.

...Mirzə Pirqulu dizin-dizin sobaya tərəf sürünüb (yuxunun içində) yenidən sobaya bir-iki odun atdı, sonra yenə dizin-dizin geriyə, öz yerinə çəkildi. "Çırthaçırt" gücləndi.

Mizin üstünə lavaş, pendir, yağ, yumurta, şərbət və halva (yuxuda halva da bunlara əlavə edilmişdi) düzülmüşdü.

Əliqumral yüzbaşı bir müddət sobanın içindəki dəcəl alov dillərinə fikirli-fikirli diqqət yetirdi. Sonra başını qaldırmadan və heç kimə baxmadan söylədi:

– Bu haman sənə barəsində bəhs etdiyim oğlandır ki var...

Əliqumral yüzbaşının gənc səfər yoldaşı (canı qızışandan sonra gözlərinə əməlli-başlı işıq gəlmişdi) ağzına dürmək apardığı yerdə başını ehmalca Mirzə Pirquluya tərəf tərpətdi. Yüzbaşı sözünə davam etdi:

– Bəli, özüdür ki, var. Mağaranın içində nə rəsm görübsə, olduğu kimi bir kağıza köçürüb. Rəssamlığı var. İntəhası...

Gənc səfər yoldaşı bu dəfə heç kimə deyil, özü-özünə başını tərpətdi: "bəli, bu belədir."

– Maşallah, maşallah... – Yenə də heç kimin üzünə baxmadan Mirzə Pirqulu söylədi və dodaqlarını bərk-bərk sıxdı.

– Mir Həsən ağa, sən və ancaq sən nüfuz edib öyrənə bilərsən ki, bu rəsmlər nə söyləyirlər. Ürəyimə damıbdı. Vallahi və billahi, onlar ləl-cəvahirat dolu çoxdan itmiş bir xəzinənin yerini bildirirlər ki, bu ancaq belədir, belə olmaya bilməz... Hansı xəzinəni deyirəm, sən bunu bilirsən. Sehrbazların xəzinəsini deyirəm. Bütün aləm ondan danışır.

"Sehrbazların xəzinəsi" sözünü eşidən zaman qəlbi sim kimi titrəsə də Mirzə Pirqulunun üzündə bir cizgi belə tərpənmədi.

Sehrbazların xəzinəsi... Ancaq yuxularında o bu xəzinəni görə bilmişdi. Yerini bir insanın bilmədiyi bu zəngin xəzinə Mirzə Pirqulunun gözünə bir ilğım kimi görünmüşdü, ruhu ilə, canı ilə Mirzə Pirqulu ona can atırdı, amma nə fayda...

Əliqumral yüzbaşı dərin bir nəfəs aldı, bığlarına tumar çəkib (bığ bığlığına qayıtmışdı, ucu artıq aşağı əyilirdi), sonra üzünü gənc səfər yoldaşına tutdu:

– Sən söylə. Əfsanəni də olduğu kimi danış. Bizim işin açarı əql və mərifət sahibi bu kişidədi, biləsən. Allah onun ömrünü uzatsın.

Mirzə Pirqulu bu möhtərəm sözlərin müqabilində ancaq onu edə bildi ki, ağ saçları az qala üzünü örtən başını (alabəzək araxçınını çıxarıb yanına qoymuşdu) acizanə sinəsinə endirdi.

Gənc oğlan əlin-əlinə sürtüb yediyi dürməyin qırıntılarını ehmalca mizin bir kənarına tökdü. Ağzındakı loxmanı necəgəldi çeynəyib tələsik uddu və söhbətinə belə başladı:

– Allah evini, ocağını abad eləsin, möhtərəm Mirzə Pirqulu (bu gənc də yuxu boyunca Mirzə Pirquluya eləcə Mirzə Pirqulu dedi, başqa cür demədi).

Ağam necə ki ərz elədi, o deyən kimidi, mən mağaranın rəsmini bacardığım qədərinə olduğu kimi çıxarmışam. Buyur, baxa bilərsən. – Bunu söyləyib əbasının iç tərəfdən cibinə girmək üçün düz ürəyinin üstünə əl atdı və oradan bir uzunasına bükülü kağız çıxartdı.

– Bax, – dedi, – ağam bu rəsmləri deyir...

Anlaşılmaz sözlər ağzından çıxan Mirzə Pirqulu yuxudaca yerində qurcuxdu. Sağ böyrü üstə çöndü, sol əli özünə rahat yer axtardı, tapmadığından ölü kimi qarnına sıxıldı. Qəribəsi o idi ki, bu gecəyədək nə zaman ki yuxusu qırılmışdı, öz-özünə davamı heç vədə gəlməmişdi, bu gecə isə gəldi.

Yuxunun davamında Mirzə Pirqulu artıq mizin sol tərəfində (yeri daha da rahat olsun deyə), qonaqlar isə artıq mizin sağ tərəfində oturmuşdular. Mizin üstündə heç bir şey yox idi və Əliqumral yüzbaşının gənc səfər yoldaşı bir yekə kağızı təmiz mizin üstünə sərdi, künc-bucağını səliqə ilə tumarladı, düzlədi. Yuxunun bu yerində soba kərpiclərinin rəngi tamam mavi olmuşdu.

Mirzə Pirqulu kağıza baxan kimi rəngi dəyişdi. Əliqumral yüzbaşı onu diqqətlə süzüb söylədi:

– Hələ bir bax, bu rəsmlər mağaranın dörd tərəfinə çəkilmiş durublar.

Mirzə Pirqulu həyəcanlanmış idi və kağıza çəkilmiş rəsmlərə diqqətlə nəzər yetirib belə bir sual verdi:

– Bu işarətlər... onlar mağara içində nə cür, yuxarıdan aşağı düzümləniblər, yoxsa... yan-yana?

Əliqumral yüzbaşı səfər yoldaşına baxdı. Cavabı səfər yoldaşı verdi:

– Mağaranın yuxarı tağına tərəf, əlini qovzasan güclə çatar, yana yan bütün mağaranın dörd divarı boyu düzləniblər.

Əliqumral yüzbaşı gözlərini ümid və ehtirasla yenidən Mirzə Pirquluya dikdi:

– Mir Həsən ağa! Mən bilirəm ki... dəqiq bilirəm, bu işarətləri səndən başqa bir kimsə oxumaz. Oxuya bilməz. Nə deyirsən? – Sonra birdən-birə yüzbaşı səsini qısıb pıçıltıya keçdi. – Nə tapsaq sənin payın xüsusi olacaq.

Mirzə Pirqulu Əliqumral yüzbaşının bu son sözlərinə heç fikir vermədi, mizin üstünə başını necə ki əymişdi və hələ də diqqət və maraq içində kağıza səliqə ilə köçürülmüş bu işarətlərə baxırdı, vücudunu qəfildən geri çəkdi,

yox, geri çəkmədi, həqiqətdə nə isə, elə bil, onun vücudunu geri itələdi. Mirzə Pirqulu gözlərini bir məchul nöqtəyə zilləyib durdu.

– Hə, nə deyirsən? Özün getmək istəmədin ki, ora. Mənə söz verdin, əgər bu kağızı gətirmiş olsam, sən onun sirrini çözəcəksən. "Sirlərin sərgüzəşti" əsərini sən yazmısan. Amma... Budur sirlərin əsl sərgüzəşti. Qızılın yeri, xəzinə!.. Burda, burda xəzinənin yeri dəqiq göstərilib durub. Çöz bunu, Mir Həsən ağa, çöz...

Qalın qaşlarını çatıb Əliqumral yüzbaşı danışdıqca vəcdə gəlir, bütün vücudu əsir, gözləri par-par yanır, az qala hədəqəsindən çıxırdı.

Mirzə Pirqulu isə xeyli sakit görünürdü. Yenə bu qızğın yüzbaşının dediyi həyəcanlı sözlərə bir məhəl qoymadı, üzünü onun səfər yoldaşı gəncə tutub bu dəfə də belə soruşdu:

– Mağaranı bəs necə tapdın?

Gənc həvəslə cavab verdi:

– Bizim kəndin bir böyrü dağa dirənib. Dağ uzaqdan, baxırsan, elə bil, devdi. Yatıb. Dağ döşü ilə qonşu kəndə gedən cığır bu mağaranın düz yanından keçir. Çox dar bir ağzı var, süngür ağacları, tamam kol-kos tutub ağzını, heç kim onu görməyib, amma içi genişdi. Bir qoca canavar oranı özünə məskən edibmiş. Qoyun-quzudan hərdən gəlib ondan-bundan aparırdı. Mağaranın içi sonradan gördük, sür-sümüklə dolu... Pusqu qurduq, canavarı oxladıq, qanı axa-axa sürünüb özünü mağaraya saldı, mağarada gizləndi. Qanının izi ilə tapdıq... Hə, bir də onu deyəcəkdim. Mağaranın ağzı ilə üzbəüzdəki sıldırımın üstündə bir böyük daş var, daşın içindən... elə bil... nə deyim, elə bil, işıq çıxır.

– Qurdlar da ilan kimi qızıla gəlir, mən hardasa eşitmişəm, onlar qızılı hiss edirlər, hiss etməz olurlarmı?! – Hövsələsiz Əliqumral yüzbaşı gəncin sözünü kəsərək öz-özünü və birinci növbədə Mirzə Pirqulunu guya daha çox həvəsləndirmək üçün əminlik və ümid ilə yenə atdı özünü ortaya.

Təhər-tövrünü pozmayan Mirzə Pirqulu:

– Bəli, qərib əhvalatdı, daşdan deyirsən işıq çıxır... – deyə hələlik yalnız bunu söylədi və fikirli-fikirli yenə başını işarətlərə tərəf əydi. Əliqumral yüzbaşı tələsik şamdanı o baxan tərəfə sürüşdürdü. Şamın zəif işığı işarətlərin üstündə titrədi. Çox-çox uzaqda qurdmu uladı, köpəkmi hürdü – bu bilinmədi.

– ...qərib əhvalatdı...

Mirzə Pirqulu yuxusundaca bunu istədi və bu yerdə onun yuxusuna hardansa gəlib bir qoca canavar girdi. Bu haman mağaranı özünə məskən seçən, qanı axa-axa ora sığınan canavar idi. Yaralı canavar otağa necə daxil oldu, qonaqlar bundan duyuq düşmədi, otağa daxil olub keçib otağın bir küncündə mavikərpic sobadan (yuxunun bu parçasında sobanın kərpicləri yenə də mavi rəngə boyanmışdı) sol tərəfdə qarnı üstə yerə sərildi. Onu elə bu zaman gördülər. Canavarın bir böyrünə ox batmışdı, oxun ucu hələ də yaranın içində idi, oxun başı isə sınmışdı. Bu yaradan zəif-zəif döşəməyə qan axırdı. Heysizləmiş canavar yerə sərildi, başını ehmalca qabaq pəncələrinin üstünə qoydu, sarı gözlərini qırpmadan yazıq-yazıq otaqdakılara baxmağa başladı. Hərdən mırıldanırdı. Canavara nə heyrət edən vardı, nə də ondan vəhmələnən, qorxan...

– İnanmırsan, bax, bu canavar eynən o dediyim canavardı. Şahidlik eləmək üçün gəldi. – Əliqumral yüzbaşının səfər yoldaşı (canavarın ovçusu) qanı yerə damcılayan canavara nəvazişlə baxdı.

– İnanıram, amma əvvəlcə gəl bir bunun yarasını sarıyaq. Qanı axır. Allahın heyvanıdı, savab olar. – Mirzə Pirqulu dedi.

– Hansı yarasını? – Təəccüb içində Əliqumral yüzbaşı qalxıb yerindən getdi canavarın düz yanına, əlini cəsarətlə onun başına sürtdü, tüklərini tumarlamağa, qulağının dibini qaşımağa başladı. – Hanı yara? Yoxdu, yoxdu bunun bir yarası. Varmı? Yoxdu!

Yara, həqiqətən, yox olmuşdu. Oxun başı da, qan izləri də artıq görünmürdü.

– Yoxdumu?! Yaxşı. Bəli, bu bir yaxşı iş oldu. Savab iş oldu. – Əliqumral yüzbaşının bu hərəkətindən razı qalmış Mirzə Pirqulu gedib bu da çöməldi düz canavarın qənşərində (Əliqulu yüzbaşı ilə üzbəüz) oturdu. Baxdıqca doymadı, baxdıqca baxdı canavarın sarı rəngə çalan gözlərinə. Gücü özünə qayıdan canavarın gözlərindəki sarı rəng qızıl parçası kimi parıldamağa başlamışdı. Yavaş-yavaş özünə gəlirdi. Canavar, elə biləsən, öz doğma məskəninə gəlib yetişmişdi, bircə dili yox idi, olsaydı, otaqdakılarla az qala söhbət də edəcəkdi. Gözünə baxanın düz gözünün içinə baxırdı. Onu tumarlayanın əllərinə ləhlə-

yə-ləhləyə başını sürtürdü və bu zaman zəhmli və iti dişləri ağzında işım-işım işıldayırdı.

Mirzə Pirqulu bir xeyli bu cür diqqətlə canavar ilə baxışdı, sonra qayıdıb gəlib keçdi yenə öz yerinə. Əliqumral yüzbaşı isə canavarı son dəfə əzizlədi, əlində qana bulaşmış ox ucu vardı, onu mavikərpic sobanın düz içinə, alovların ağzına atdı, sonra o da qayıtdı yerinə...

Tər içində Mirzə Pirqulu yuxunun bu yerində diksinib oyandı. Başını mütəkkədən qaldırıb yuxulu gözlərilə pəncərəyə diqqət etməyə çalışdı. Pəncərə çöl tərəfdən əsl ağ pərdəyə bürünmüşdü. Qar hələ də yağırdı. Narahat-narahat Mirzə Pirqulu yarısoyuq, yarıisti yatağında ora-bura çöndü, su içməyi yox idi, bayıra çıxmağı yox idi. Bir ah çəkdi: "göylərin qarı, yağışı qurtaran deyil, qüdrətinə şükür, Xudaya, qiyamət gününü də gördük.." və yenidən gözlərini yumdu. Yuxusunun davamı bu dəfə belə gəldi.

... Mirzə Pirqulu bütün vücudu ilə mizə və əslində, mizə yox, mizin üzərindəki üstünə cürbəcür işarətlər çəkilmiş kağıza tərəf əyilmişdi.

Bu kağıza çəkilmiş işarətlər ilk baxdıqda lap elə biləsən, hərdəmxəyal rəssam tərəfindən çəkilmiş qəribə şəkillərə bənzəyirdi. Diqqətlə baxanda isə görürdün ki, bunlar rəsm deyillər, eləcə xətlər və cızıqlardır.

Mirzə Pirqulu bu əyri və düz cızıqları, bu qəribə naxışları çox diqqətlə, bəlkə bir-bir nəzərdən keçirdi. Otaqda gərgin bir sükut hökm sürürdü. Alovun qırmızı dilləri yaşılkərpic sobanın içində gizlənib qalmışdı. Pəncərədən bir şey görünmürdü – çölə-bacaya qaranlıq gəlib var gücü ilə çökmüşdü. Qar hələ də ağappaq, yavaş-yavaş yağmağında idi. Yuxarıdan aşağı, aşağıdan yuxarı yekə qar dənəcikləri çətirlə enib qalxırdı. Hərdən pəncərənin dibindən nə idisə "vıy" eləyib külək kimi keçirdi. Hərdən də uzaqdan qurd ulamasına, köpək zingiltisinə bənzər vahiməli, boğuq səslər idi, anidən buradakı sükutu pozur, gəlib yetişirdi narahat otaqdakıların qulağına.

Mirzə Pirqulu yerində bir də qurcuxdu. Sinəsindən gəlib ağzından bir inilti çıxdı. Amma tezcə də sakitləşdi...

– Hacı ağa, nə deyirsən?! – Qalın qaşlarını çatıb Əliqumral yüzbaşı bu dəfə yenə də səbrsiz bir halətdə soruşdu.

– Çox, çox qərib bir yazıdı bu yazı. – Mirzə Pirqulu, əslində, ona yox, özünə cavab verdi. Sonra xınalı saqqalını əzizləyə-əzizləyə tumarlamağa başladı, kağızın rəsmlərini bir daha sevə-sevə (həris-həris?) seyr edib yorğun gözlərini yavaşca yumdu və dərin fikrə getdi...

– Hacı ağa! Hacı Mir Həsən ağa! – Əliqumral yüzbaşı gənc səfər yoldaşına göz-qaşı ilə anlaşılmaz işarələr verdi, əlini miz üstdən uzadıb Mirzə Pirqulunu yavaşcadan dümsüklədi.

– Mirzə... ay Mirzə... – Əliqumral yüzbaşının səfər yoldaşı da Mirzə Pirqulunu yenidən söhbətə qaytarmaq ümidilə asta səslə çağırdı.

Mirzə Pirqulu isə, gözləri artıq yarıyumulu, nəhayət, fikri özünə qayıtdı və o heç nəyə, heç kimə məhəl qoymadan ahəstə-ahəstə danışmağa başladı, belə dedi:

– Mən həyatım sürəci bu cürənə bir yazını görməmiş idim. "Sirlərin sərgüzəşti"ni qələmə aldığım zaman ustadım mövlanə Mir Həşim Dərdəçarə deyərdi ki, Allah onun ruhuna rəhmət eləsin...

– Allah rəhmət eləsin.

– Allah qəni-qəni rəhmət eləsin. Behiştlik olsun.

– ...Ustadım deyərdi ki, – Mirzə Pirqulu razılıq əlaməti başını tərpədərək davam etdi, – bəli, deyərdi ki, naməlum və qaranlıq bir məsələnin üzərinə işıq salmaq istirsənsə ilk əvvəl o naməlumun içindəki təkrar məqamlarını axtarıb tapmaq gərəkir. Sonrası xeyli asandır. Bağlı qapıya necə ki, açar salınar və qapı açılar, bunun da açarı var, açar təkrardır.

– Bəs sal açarı da, bəs tap da, Mir Həsən ağa, bu kağız, bu da təkrar! Niyə durmusan?.. Tap da bə... – Qəlbi yerindən oynayan Əliqumral yüzbaşı getdikcə daha çox səbrsizləşirdi, kağızı az qala qamarlayıb Mirzə Pirqulunun gözünə soxacaqdı.

– Burada təkrar... əlbəttə ki, vardır. Burdakı təkrar edilmiş şəkillər... – Mirzə Pirqulu Əliqumral yüzbaşıya, onun kağızı az qala qamarlamaq istəyən əlinə altdan-altdan ehtiyatla, amma qətiyyən qorxusuz-hürküsüz nəzər salıb etinasız bir tövrlə üzünü çöndərdi onun səfər yoldaşı olan gəncə və dedi:

– Bu şəkillər eynən çiçək ləçəyidi ki durub. Bax, bax hələ bura...

Yenə Mirzə Pirqulunun təmkini Əliqumral yüzbaşını bir qədər sakitləşdirdi. İndi Mirzə Pirqulunun dodaqlarına zərif bir təbəssüm qonmuşdu. Kağızdakı rəsmlərin içərisində çiçəyin ləçəyinə bənzəyənləri bir-bir bu gəncə barmağı ilə nişan verməyə başladı:

– Baxırsan, buna, çiçəkdi ki, var. Hər üç, ya dörd işarətdən sonra təkrarən bu çiçəkdi gəlir, baxırsan?!..

Eynən onun dediyi kimi idi. Rəsmlərdən hərdən ikisindən, hərdən üçündən, ya da az bir halda dördündən sonra eyni çiçək şəkli idi, çəkilmişdi kağıza – işarətin alt tərəfinə. Belə ki, yazıya zənlə baxan hər bir şəxs onun başdan-başa çiçəklə dolu olduğunu hökmən sezməli idi. Yazı başdan-başa çiçəklə dolu idi.

Əliqumral yüzbaşının gənc səfər yoldaşı ilk dəfə görürmüş kimi bu çiçək rəsmlərinə gözünü maddım-maddım zilləyib qalmışdı. Bir ah çəkib güc ilə bu sözləri ancaq deyə bildi:

– Bu çiçəkləri... mən indi ilk dəfədi ki, gördüm. Necə mən bunları sezə bilmədim?! Həqiqətdə də çiçəkdilər bunlar... Əlbəttə, görünür, bunları rəsmə çəkəndə... özümdən bilhassə xəbərsiz olmuşam. Amma... Necə olub ki, onları görə bilməmişəm?! Necə olub?! Sirri – müəmma...

Sonra Əliqumral yüzbaşının qaşlarını çatıb ona xeyli sərt baxdığını görən biçarə gənc ürəyində qüssə-təlaş başını yerə dikib indicə dediklərinə yavaş səslə bunları əlavə elədi:

– ... bu çiçəkləri görsə idim belə, mən bu yazını oxuya bilməyəcəkdim.

– Bilmək istərsən, – Mirzə Pirqulu mehriban bir baxışla gəncə xitabən dilləndi. – Bu yazını elə mən özüm də oxuya bilməyəcəyəm. Bunun bir başqa sehri var. Bəlkə... Amma yox!..

Nə isə düşünüb Mirzə Pirqulu sözünü yarımçıq kəsdi. Gözünü yazıya dikib susdu.

Qolu-qanadı bir andaca qırılan Əliqumral yüzbaşı təzədən ümid dolu bir baxışla onun son sözündən dördəlli yapışmadımı, yapışdı:

– Bəlkə, yəni?..

– "Bəlkə" elə bəlkədi, yüzbaşı. Bəlkəni əkiblər, bitməyibdi, bilmirsən?! – Mirzə Pirqulu sərt danışdı: "artıq bəsdi!" və başını narazı bir halda yellədi.

Canavar dırnaqları ilə döşəməni cırmaqlayıb qaşıdı. Bu yerdə yuxu bir daha qarışdı. Mirzə Pirqulu elə yuxudaca nəfəsi az qaldı kəsilə və elə yuxudaca əməlli-başlı zarımağa başladı...

Yuxunun içində canavar da zarıyırdı. Bu canavar bir qəribə canavar idi. Gah zarıyırdı, gah ləhləyirdi, gah mırıldanıb dururdu, gah da dırnaqları ilə döşəməni deşirdi, gahdan isə başını köpəklər kimi qabaq pəncələrinin üstünə qoyub yazıq-yazıq ancaq Mirzə Pirquluya baxırdı. Ahənrubə kimi onu öz yanına çəkirdi. Qəfildən sarı göz bəbəkləri qapı kimi açılıb Mirzə Pirqulunu içəri dəvət elədi. Mirzə Pirqulu zarımağını kəsib elə yuxudaca yavaşdan bir "bismillah" deyib durub getdi canavarın qənşərində bir daha çöməldi yerə, sonra özü özündən gözləmədiyi bir cəsarətlə: "ruhum hara, cismim ora!" canavarın gözlərinin deşiyindən keçib o tərəfə (içəriyə) daxil oldu və özünü bu zaman bir qaranlıq mağaranın içində gördü.

Bu haman tərif edilən mağara idi. Dörd bir yanı çiçəkli yazı ilə dolu idi. Yazı xətti yazı idi, mağaranı dörd tərəfdən kəmər kimi dolaşırdı, elə bil, can atırdı çölə, gün işığına çıxmağa, üz tutub durna qatarı kimi uçub gözdən itmək istəyirdi, bacarmırdı, mağara onu içindən buraxmırdı. "Bu qədər ki, mən bu dünyanı tanıyıram, bu qədər ki, dünya məni tanır, bu cürə nəfis gözəlliyi mən heç yerdə görməmişəm, hələ mənim bu işarətlərin batinindən xəbərim yoxdu. Bunlara nəfəs dəyə bilməz, yoxsa, bu zərif çiçəklər dağılar, bunlara əl dəyə bilməz... əl dəyməməlidi..."

Mağaradan çölə çıxmaq və ətrafa göz gəzdirmək özü istəmədi (halbuki bu bir yuxu idi və o yuxu içində tam sərbəst və azad idi, istəsəydi bunu da edə bilərdi; çünki Mirzə Pirqulunun şöhrəti bir tərəfdən yuxu yozmağında idisə, o biri tərəfdən Mirzə Pirqulu öz elminin zirvəsinə yaxınlaşmış bir mərifət sahibi kimi yuxuları hətta idarə etməyi də ustadı Dərdəçarədən mükəmməl öyrənmişdi).

... Mirzə Pirqulu canavarın gözünün içindən çıxıb yaşılkərpic sobalı otağa geri qayıdanda xeyli zəif düşmüşdü. Elə bil, mağarada ruhunu qoyub qayıtmışdı. Rəngi heç özündə deyildi. Elə tövşüyürdü ki, çöməlib otura belə bilmədi, eləcə arxası üstəcə yerə uzandı. Tövşüyə-tövşüyə güc ilə bu sözləri ancaq deyə bildi:

– Oxuya bildiyim yalnız bu oldu: "yadıma salmağa bir kimsə qalmadı dəxi..."

Mirzə Pirqulu bu sözləri deyib rahat-rahat köksünü ötürdü.

Əliqumral yüzbaşı az qaldı bağırsın, amma Mirzə Pirqulunun gözlənilmədən, qaşları zəhmlə çatıldı və bu bağırtını yaltaq bir pıçıltıya çevirdi:

– Bəs hanı burda yazılan xəzinə?.. – Bunu səsbəsəs pıçıldayıb Yüzbaşı qəfildən anladı ki, qəzəbin, yalvarışın artıq bir mənası yoxdu və o, nifrətlə gözünü zillədi səfər yoldaşının üzünə.

Gənc səfər yoldaşı günahkar-günahkar hələ də başını dikmişdi yerə və baş qaldırıb qəzəbli Əliqumral yüzbaşı tərəfə baxmağa cürət belə etmirdi.

Mirzə Pirqulu bu səhnəni qüssəli-qüssəli seyr etdikdən sonra (yuxuda bu, bir xeyli zaman apardı), yenə köks ötürüb, ah çəkdi və bundan sonra daha səssiz qaldı. O, elə yuxudaca gözlərini yumub bu iki nəfərin girə bilməyəcəyi bir başqa yuxuya yollandı. Bu yuxu Mirzə Pirqulunun ahıl vaxtlarında alışdığı, məqam-məqam, rəng-rəng özünün qurduğu sevimli bir yuxu idi. Yuxuda bir dərə vardı – başdan başa yaşıllığa bürünmüş, çiçəyi çiçəyini, bülbülü bülbülünü nəvazişlə çağırdığı bir dərə. Burada ilin hər bir fəslində ılıq bahar havası gül-çiçəyin ətrinə qarışıb adamı bihuş edirdi. Şırhaşır axan bulaqların başında bitmiş, qalın yarpaqları günəş şüasını özündən o tərəfə zorla buraxan, gövdəsini beş adam güclə qucaqlayan minillik ağacların sərin altında bir-birindən müdrik irfan və fəzilət sahibləri ( onlara sehrbaz da deyirdilər) əyləşib ədəb və ərkanla bir-birinə suallar verib, cavablar alar, söhbət və məhəbbət edərdilər. Bu adamlar həmişə çox rahat, çox sakit olardılar, daxilən xeyli gözəl, sərbəst, azad olmaları üz cizgilərində yazılmışdı. Bu rahatlıq, bu azadlıq öz-özünə gəlmir, gələ bilməz, o qazanılır. O, mükafat olaraq verilir. Çəkilən əzabın-əziyyətin, məhrumiyyətin əvəzinə mükafat kimi Allah tərəfindən əta edilir. Bu dərədəki sehrbazlar zamandan və məkandan kənarda yaşayırdılar, təlatümlü, dəyişkən, narahat dünya, kiminsə satqın, kiminsə zalım, kiminsə rəzil olduğu dünya onların yadına belə düşmürdü, amma yox, yalnız Mirzə Pirqulunu görəndə bu sehrbazlar dərənin o tərəfindəki, dağdan o yandakı həyəcanlı dünyanı xatırlayırdılar. Hər dəfə Mirzə Pirqulu orada, onların yanında – öz sevimli yuxusunda peyda olanda bu şəxslər onu böyük bir ehti-

ramla salamlardılar: "Xoş gəldin, Mirzə, sən bizim Sehrbazlar dərəsinə xoş gəldin..." Söhbət yenidən başlardı, bu bilici və nadir şəxslər elə hey bir-birinin sözünü kəsə-kəsə Mirzə Pirquluya suallar verib, cavablar alırdılar. Mirzə Pirqulu isə səbrlə və ədəblə bütün bu gözəl suallara cavab verirdi. Bir sualdan başqa. Mirzə Pirqulunun ən çox sevmədiyi o sual bu idi: "Gəldiyin yerlərdə nə var, nə yox, Mirzə?" Yuxunun bu yerində Mirzə Pirqulunun ürəyi qısılır, gözləri yaşarırdı. Onun bu halı sehrbazları həqqən rahatsız edir, onlar aşkar bir təlaşla ora-bura vurnuxur, "Mirzə, ayıl, ayıl, biz sənin yuxundayıq, ürəyini sıxma, Mirzə" deyə həyəcanlanırdılar. Belə görünür, sehrbazlar Mirzə Pirqulunun öz əsas istəyini dilə gətirməsinə, əsas sualını verməsinə bu cürə əngəl törədirdilər. Mirzə bunu belə başa düşürdü. Gözü yaşarmış Mirzə Pirqulu bu halətdə hər nə qədər çalışırdı, sehrbazların hərəkət və dediklərini öz yuxusunun içində heç cürə idarə edə bilmirdi ki, bilmirdi. Məqsədi isə Mirzənin bu idi: Mirzə sehirbazlardan xəzinələrinin yerini soruşacaqdı, amma nə illah edirdi, həmişə yuxunun bu yerində biixtiyar gözləri açılır və o oyanırdı. Bu dəfə də belə oldu.

Yuxunun dadı isə gözündə qalmışdı. Bu xəzinə söhbəti yenə gəlib girdi beyninə və çıxmadı. Göyəmi uçmuşdu, yerin təkinəmi çəkilmişdi?! Adı dillərdə gəzən, özü isə çoxdan itib-batmış, harda gizlədilməsi rəvayət dalınca rəvayət yaradan belə bir xəzinə həqiqətənmi var idi (bəlkə də yox idi?!), sehrbazların zaman-zaman topladıqları ləl-cəvarihat, qızıl, gümüş harada gizlədilmiş idi?!.

Zaman keçdikcə və sehrbazlar dərəsinin sakinləri yavaş-yavaş azaldıqca (yeni sehrbazlar artıq bu dərəyə gəlməz olmuşdular), sonuncu qoca sehrbaz sağ ikən hələ ümid vardı, xəzinənin yerini bu qoca sehrbazdan öyrənmək istəyən çox idi, o isə... O isə ağzını açıb bir kəlmə söz demədən, onu sonsuz hərisliklə və maraqla dörd tərəfdən sıx-sıx əhatə etmiş yad adamlara baxa-baxa eləcə gözləri açıq bu dünyadan köçüb getdi, sirri də özü ilə apardı.

... O biri gün dinməz-söyləməz səhər yeməyini yeyib (artıq günortaya yaxın bir vaxt idi) və atlarına minib Əliqumral yüzbaşı öz gənc səfər yoldaşı ilə yenə də quşbaşı yağan qar lopalarına qərq ola-ola gəldikləri yol ilə geri döndü-

lər. Həyətdə külək vıyıldayırdı. Başında alabəzək araxçın, əynində qalın kürk Mirzə Pirqulu onların arxasınca həyətin taxta qapısını birtəhər çəkib bağladı, cəftəsini keçirdi. Sonra bir ləhzə qapıya kürəyini söykəyib hərəkətsiz qaldı, yağan qara, küləyin hansı deşikdənsə özünü içəri soxan ürəküzən vıyıltısına qulaq verdi. Soyuq bıçaq kimi kəsirdi. Mirzə Pirqulu durduğu yerdə eləcə üşüyə-üşüyə, buğlu havanı sinəsinə alıb verə-verə bir ləhzə nəfəsini dərdi. Sonra bir yerə baxdı, bir göyə baxdı – bir-birinə qarışmış ağ və boz rəngdən başqa heç nə görmədi. "Allah, sənə min şükür, Allah, min şükür..." ayaqlarının altına sürüşməmək üçün diqqət edə-edə, bir əli xınalı saqqalında qar basıb bağlamış cığırla (üstündə bir-iki ləpir!) evinə qayıdıb girdi, qapını arxasınca bərk-bərk bağladı.

Bu zaman üz-gözü mısmırıq-qaşqabaq içində Əliqumral yüzbaşı artıq Günortacın mərkəzi sayılan At meydanından keçib Zəncirli yola çıxmışdı, atın yüyənini çəkib arxadan gələn səfər yoldaşının onunla bərabərləşməsini gözlədi. Gözləri soyuqdan və üzünə macalsız vuran qardan yaşarmışdı, ağzından nəfəsi buğ kimi çıxıb atının ağzından çıxan buğa qarışırdı. Yol yoldaşı yetişdi. Üzünü yana çöndərmədən yüzbaşı dedi:

– Elə sabah gedib Şahın topçu dəstəsinə qoşularsan. Sənin yerin qoşundur. Daha məni aldadıb yoldan çıxara bilməzsən... – Atın yüyənini boşaltdı. – Yox bir, sehrbazların xəzinəsi belə gəldi, sehrbazların sərvəti belə getdi... Bunları sən deyirdin, sən, sən! İntəhası...

Nə düşündü, nə düşünmədisə daha sözünün dalını istəməyib gətirmədi. Mirzə Pirqulunun ağ saqqallı, nurani surəti gözünün qarşısında gəlib durmadımı, gəlib durdu. "Eh" eləyib atını mahmızladı.

Əliqumral yüzbaşının gənc səfər yoldaşı qəlbində sonsuz qorxu və ahünalə müqəssir adamlar kimi (atı da eləcə müqəssirmiş kimi ancaq ayağının altına baxırdı) başı sinəsində, fağır-fağır ona qulaq asmağında idi.

At meydandan ötüb keçəndən sonra hər iki süvari ağappaq qar heykələ dönmüşdü, bircə ağızlarından buğ idi, çıxırdı. Bir azdan Günortac arxada qalıb görünməz oldu.

... Belə rəvayət edirlər ki (və yaxud, mənbələr belə deyir ki), əsl adı Hacı Mir Həsən ağa olan Mirzə Pirqulu öz zamanında yuxuların yozumu ilə məşğul olmuş və bununla məşhurlaşmışdı. O bu sənətin ən yüksək, ən kamil

dərəcəsinə yüksəlmişdi, belə ki, bu yüksək zirvənin fəth edilməyilə həm öz sağlığında (yuxu onun üçün ölümdən qabaq məşq kimi bir şey idi), həm də, xüsusilə, ölümündən sonra (qonaqlar gedəndən iki saat sonra Mirzə Pirqulu yaşıl sobalı otağında mütəkkəyə dirsəklənib bir xeyli gözünü yuxudakı canavarın boş qalmış yerinə, sonra sobanın içindəki dəcəl alov dillərinə dikmiş, daha sonra yerdəki döşəyin üzərinə uzanıb əllərini sinəsində çarpazlayaraq bir ahəstə ah çəkmiş və canını tapşırmışdı: "ruhum hara, cismim ora!") Mirzə müxtəlif adamların yuxusuna girə bilirdi. Bunu nə cür edirdi, nə cür bacarırdı, bu barədə artıq heç bir məlumat, heç bir mənbə, heç bir xatirat yoxdur.

### *Quzğun dimdiyinin üstündə içi öz-özündən işıqlanan daşın üstündə oturmuş Bəhram kişi və F.Q.*

– Qəribə mağaradı. Mən həyatımda birinci dəfə idi, mağaraya girirdim. – F.Q. fikirli-fikirli, nəhayət ki, üzücü xatirələrdən əl çəkib (bu dəfə də yadına məktəb illəri, cavan yaşında bir-bir dünyasını dəyişmiş məktəb yoldaşları gəlib düşmüşdü) Bəhram kişinin yanına "qayıtdı".

– Mağaradı da... – Dərin bir ah çəkib Bəhram kişi özü də, elə bil, haradansa qayıtdı. F.Q.-nin səsini eşidib ancaq bundan sonra özünə gəldi. – Naxışları eynən çiçəkdi, doğrudan da çiçək ləçəkləridi. Tarixi sən bilən beləcənə çiçək-çiçək düzərlər bir-birinin yanına?! – Bəhram kişi sual vermirdi, sadəcə F.Q. ilə, bir az da özü-özü ilə söhbət edirdi. Altdan-altdan onu süzən F.Q. də sözünü bəzən Bəhram kişiyə deyil, özü-özünə ünvanlayırdı; belə ki, əslində, Quzğun dimdiyinin üstündə indi iki Bəhram kişi, iki də F.Q. var idi, biri gözə görükürdü, o biri gözə görükmürdü, sükuta qərq olmuşdu, ancaq eşidə bilirdi. Bozlar bir ağız hürdü.

– Bozlar nəhəngdir... – Heyran olmuş F.Q.-nin Bozlar gəlib gözü önündə canlandı. "Qaranlıqda bu, adamı cırar. Baskervillərin itidi".

– Bozlar başqa köpəkdi. Köpək deyil, Bozlar vəfalı dostdu, mənim hər sözümü anlayır. Adam var, anlamır.

"Məsələn, Mübariz müəllim...", - F.Q. təbəssümünü zorla saxladı.

– Bilirsən, anasını bunun gözü qabağında, nəydi ki, körpəydi, bambalaca küçük idi, mən vurmuşam, qoşalüləylə. Qurd idi, qancıq... Bozlar canavardan dönmədi. Heç kimə demədim. Dedim, Mədət kirvə var, o gətirib. Mən qoymasam bir adama isnişməz. Mənimçün həyatını verər, kimi istəsən, parçalar.

Nədənsə ani olaraq Mübariz "müəllimi" xatırlayan F.Q. başını tərpədətərpədə Bəhram kişiyə diqqətlə qulaq asırdı. "Belə-belə işlər, Baskervillərin iti, belə-belə işlər. Sən Mübariz müəllimdən, demə, daha anlayışlısan..." Yenə təbəssümünü zor edib saxladı.

Bəhram kişi başını yellədi və istər-istəməz o da Mübarizi xatırlayıb gülümsədi. F.Q. dodağını dişlədi. "Yenəmi beynimdən keçəni anladı. Allah, Allah, adamın bu yerdə sirri ola bilməzmiş. Ürəyi oxuyurlar."

F.Q. yazı barədə, onun oxunması ilə bağlı təklif etdiyi "açar" barədə düşünmək istəyirdi, amma bilmirdi ki, nə düşünsün. "Şübhəsizdir ki, unikal yazıdı, bu yerlərdə mövcud olan heç bir başqa yazını xatırlatmır, yəni, bu yerə hardansa gəlib, hardansa onu bura gətiriblər – belə deyil. İndi bunu dur, elan elə, yalançı millət qəhrəmanları çöküb otursun boğazına."

F.Q. mağarada Bəhram kişinin onu yazıya, naxışlara əl vurarkən təlaş içində əngəlləməsini xatırladı. "Bəlkə burda da nəsə bir sirr var?!" O biri F.Q. bayaqdan bəri bir kəlmə də söyləməmişdi, nəhayət, dilə gəldi: "Nə sirr olacaqmış?! Bəlkə durub deyəsən, Bəhram kişi bu naxışları özü çəkib, sonra küy salıb camaatı töküb bura? İndi də səndən qoruyur ki, əl vurarsan, naxışların təzə olduğu aşkar olar, yoxsa ağlına bumu gəldi?!" O biri görükməyən F.Q. bunları görükən F.Q.-nin qulaqlarına pıçıldadı və "xırp" səsini kəsdi.

– Bəhram dayı, bu yazılar əməlli-başlı sirdi. Mən bu dərəcədə bilməzdim, – F.Q. beyninə daraşmış nahamvar fikirlərdən özü də utandı, Bəhram kişi ilə istədi ki, ciddi bir söhbət qursun, bir növ "günahını" (bir qədər əvvəl onun nə isə gizlətdiyini düşünürdü) yusun.

– Elədi, sən fikir verdinmi, balası, səndəki şəkillərə həm bənzəyirdi, həm də bənzəmirdi, – Bəhram kişi naxışların surətini nəzərdə tuturdu.

–Düz deyirsən, qəribədi. Gəl indi buna açar tap.

–Nə açar?! Necə, yəni, "açar tap?"

– Uzun məsələdi bu açar məsələsi, bir dəfə danışaram, – F.Q. bu sözü işlətdiyinə elə o dəqiqə peşman olsa da üzündə tələsik bir təbəssüm "qayırıb" o təbəssümlə Bəhram kişiyə baxdı, nəydisə Bəhram kişinin sifətində, diqqətini çəkdi və heç nədən bu dəfə F.Q.-nin yadına Akademiyadakı Birləşmiş Elmi Şuraların müzakirələri, Böyük kitabxananın qiraət zalı və xüsusilə də, qiraət zalının qapısının sağ tərəfində, divardan asılı bir qəfəsə nə zamansa dürtüşdürülüb salınmış, cürbəcür rəngə boyanmış yalançı (müqəvva) Tutuquşu gəlib düşmədimi, gəlib düşdü. Tutuquşu səsini başına atmışdı: "Stiks çayı, Stiks çayı, Stiks çayı..." xarab olmuş val kimi eyni şeyi təkrar edir, elə bil, F.Q.-yə acıq verirdi (imkanı olsaydı, dilini də çıxarardı).

# IV fəsil

***Kəndə gələndən altı gün öncə.***
***Akademiyanın kitabxanası. Tutuquşu zalı***

Bu böyük və geniş, sırayla düzülmüş yazı stollarının üstündə köhnə, cürbəcür rəngli abajurdan lampaları olan (bəzən onlardan biri, ya ikisi öz-özünə sönür, bir müddət sonra yenə öz-özünə yanırdı), divarlarına başdan-başa çəhrayı taxta vurulmuş qiraət zalına hamı "Tutuquşu zalı" deyirdi: bunun bir həqiqi mənası vardı, bir də bunun bir məcazi mənası vardı. Məcazi məna kitabla düşmən olanların kitabla dost olanlara sataşaraq dedikləri sözlərdən doğmuşdu: "Yenə Tutuquşu zalına tutuquşuluq eləməyə (əzbərçiliyə) gedirsən?"

Həqiqi məna isə ondaydı ki, bu böyük qiraət zalının nəhəng giriş qapısının bir yanında (içəri tərəfdən yuxarıdan, sağdan) qədim kəfgirli bir saat asılmışdı. Qapının bu biri tərəfində isə – yuxarıdan, soldan, saatla bir hündürlükdə divara vurulmuş qəfəs və bu qəfəsin içində bir alabəzək tutuquşu vardı. Bu tutuquşu müqəvva idi. Amma bu zalda bir yalançı quş daha var idi. Saatın əqrəbləri hər dəfə bir saatdan bir (böyük əqrəb 12-nin üstünə ləhləyə-ləhləyə qalxıb çatanda) bir həyasız quşcuğaz saatın ortasından sıçrayıb (boylanıb) bir dəfə "ku-ku" edərdi. Deyirdilər ki, çoxdan, lap çoxdan bu "ku-ku"layan quşcuğaz saat neçə olurdusa, o qədər dəfə "ku-ku" edirmiş. Sonralar qiraətxanada gecəyə qədər oturanlar haqlı narazılıqlarını (nə qədər "ku-ku" olar?! Hər saatdan bir sayı artan "ku-ku"lar qiraətxananı başına götürmüşdü), nəhayət ki, dilə gətirə bildilər. Amma bir əlac olmadı. Bu, təxminən, Stalin ölən dövrə təsadüf etdi. Bir qədər sonra Xruşovun hakimiyyəti illərin-

də hərəkətə gəlib usta çağırdılar – əla bir saatsaz idi. Anadangəlmə Bakının Zərgərpalan sakini, artıq qocalıb əldən düşmüş, vaxtilə isə çox məşhur saatsaz Həsənağanı (köhnə məhəllə uşağını) tapıb gətirdilər, o da eynəyini gözünə taxıb saatın ora-burasına diqqətlə baxdı, yazıq (artıq "həyasız"lığından əsər qalmamışdı) quşcuğazı axtarıb onun qarnından (yuvasından) birtəhər çıxardı, yuvanın arxasında nə vardısa ora-burasını qurtdaladı və boynunun dalını qaşıyıb bir az fikirləşəndən sonra əli ilə saatın tünd qəhvəyi gövdəsini tumarlaya-tumarlaya belə dedi: "Mən bunu düzəldəcəyəm".

Saatsaz Həsənağa sözünə əsl kişi kimi əməl elədi, saatdakı quşcuğazı elə bir "hala" saldı ki, quşcuğaz, istəyir, saat 1 olsun, istəyir 12 olsun, bir dəfə qorxa-qorxa əvvəl başını, sonra isə bədənini çıxarıb öz "ku-ku"sunu edir və tezcə də dal-dalı qayıdıb içəri (yuvasına) girirdi. Bu zaman (saatsaz Həsənağa ərinməmişdi, götürüb saatın kəfgirinə də xüsusi bir ahəng vermişdi) saat tamam olanda kəfkir də quşcuğazı az qala könülsüz-könülsüz, sağa-sola üzülə-üzülə müşaiyət edirdi, bütün vücudunu ehtiyatla, yavaşdan silkələyib arfa simi kimi titrəyirdi ("qurbağa gölünə daş atırdılar, göldə dairəciklər peyda olurdu").

Tutuquşu zalı bütün şəhərdə məşhur idi, gəlib-gedəni, tədbiri həmişə çox olurdu. Bura adlı-sanlı alimlərlə yanaşı, elmdə hələ öz sözünü deməmiş, bunun üçün acgözlüklə fürsət arayan gənc mütəxəssislər (əvvəllər onların bəzilərinə, xüsusilə də, Dil və Təfəkkürün gənclərinə "gənc piranilər" deyirdilər) və hətta dünənki, bugünkü "sərçələr" – tələbələr həvəslə gəlir, böyük oxu zalının ağır, amma səmimi havasına qaynayıb-qarışır, tələbə müəllimlə yanaşı, professor aspirantla üzbəüz oturub gözlər kitab-dəftərə dikili halda dərin sükuta qərq olurdular. Zalın yuxarı başında kitab verilən yerdə nə zamansa, kimsə qalın bir kağıza qırmızı-qırmızı yazıb divara şüar kimi yapışdırmışdı: "Burada, ölülərin yanında ucadan danışmırlar!" Bu şüar, məzmunu uyğun gəlsə də, forması qiraətxananın yerdən yuxarı yarıyacan çəhrayı taxta vurulmuş divarlarına, uzun yazı masalarına, üstündəki zövqlü-zövqsüz abajurlu lampalarına, tavandan asılmış qədim çilçıraqlarına (dörd dənə idi, hərdən F.Q. onlara diqqətlə oturduğu yerdən baxa-baxa sidq-ürəklə təəccüb edirdi ki, nə əcəb, bu çilçıraq tavandan qopub yerə, yəni, "başımıza" düşmür?!)

heç yaraşmırdı. Bu şüarla onu yazan nə demək istəmişdi?! Ağır, tozlu, qalın kitabların müəlliflərinin ruhumu dolaşır burada – bunumu?! Ya bəlkə... nə isə. Qiraətxana hər gün iyirmi dörd saat ərzində öz həyatını yaşayırdı. İşıqlar sönüb qapılar bağlanandan sonra divardakı saatın kəfkiri arxasından çıxıb "ku-ku" eləyən quşcuğazın səsini isə səhərə qədər eşidən təkcə alabəzək tutuquşu olurdu. Səhər tezdən zal yenə öz vaxtında açılandan sonra əsnəyə-əsnəyə bura gəlib kitab sifariş edənlər gün ərzində yalnız nadir kitab və jurnallarla, qədim əlyazmalarla məşğul olmurdular, onlar nadir adamlarla (qızlar, qadınlar kişilərlə, kişilər isə əksinə) tanış və sonra "məşğul" olurdular – bəzən bir-birilə evlənir, bəzən isə bir-birilə (daimi, ya da müvəqqəti) dostluq münasibəti qururdular...

Elə bu qiraətxanada (Tutuquşu zalında) Çiçəkli yazı ilə bağlı bir neçə humanitar yönlü Elmi Tədqiqat İnstitutunun vaxtaşırı birgə Elmi Şuraları keçirilməyə başladı. Niyə məhz burda?! Həm ona görə ki, bu yerin adı-sanı, şöhrəti vardı, bura kifayət qədər məşhur yer idi, həm də bura bir növ neytral zona idi, ayrı-ayrılıqda heç bir instituta aid deyildi, bütün Akademiyaya aid idi. Sonralar danışırdılar ki, Çiçəkli yazıya maraq ictimaiyyət arasında o qədər güclü oldu ki, başqa institut və təşkilatlardan heç dəxli olmayan adamlar da bu iclaslara gəlməyə başladı. Dəxli olanlar daha həvəslə gəlirdi – "Yuğ" teatrı bir nəfər kimi bütün müzakirələrdə cınqır belə çıxarmadan iştirak etmişdi. "525-ci qəzet", "Zerkalo" qəzeti, "Ədalət" qəzeti hər dəfə öz əməkdaşlarını həvəslə bu ehtiraslı iclaslara göndərirdilər və oradakı hər məqamı böyük maraqla izləyirdilər; məsələləri vaxtaşırı öz səhifələrinə çıxarır, eyni zamanda, məşhur adamlardan bu mövzu ilə bağlı dalbadal intervülər alırdılar (Profesor iki dəfə, Aslanzadə 3 dəfə intervü vermişdi), fikir yürüdürdülər, (bəzən bu fikirlər məsələnin mahiyyətindən çox uzaq olurdu), ciddi, qeyri-ciddi diskussiyalar açır, yerli, yersiz mübahisə məqamları yaradırdılar.

Müzakirənin ilk günü hətta bir neçə TV nümayəndəsi də çəkilişə gəldi, hətta böyük-kiçik kameralarla nə isə çəkdilər, amma çəkilən reportajların heç biri efirə getmədi. Bir-birindən bədgüman olmuşdular: bu demişdi ki, o verəcək, mən verməyim, o demişdi ki, bu verəcək, mən niyə verməliyəm?! TV-lərin həyatında olur belə-belə işlər və bütün bunlar çox maraqlı idi.

... Tutuquşu zalında bu gün son müşavirə keçiriləcəkdi. Onun başlamasına beş dəqiqədən də az vaxt qalırdı. Hamı bu son "mübarizəni" maraqla izləməyə hazırlaşır, Çiçəkli yazını oxumaq üçün kimin seçilib kəndə gedəcəyini həqiqi bir nigarançılıqla gözləyirdi. Bu gün, nəhayət ki, uzun sürən intizara, necə deyərlər, son qoyulacaqdı. Çiçəkli yazı hökmən oxunmalı, ölkə dostlarını sevindirməli, düşmənlərini mağmın etməliydi. Bir azdan. Artıq dörd dəqiqədən sonra "teatr" başlanacaqdı. Çiçəkli yazını oxuyacaq adamın adı isə qiraətxanaya yığışanlara bir, ya iki saat sonra məlum olacaqdı. Son "döyüş", son fikir mübarizəsi, son ideya davası. Və... hamı bir azdan nəfəsini içinə çəkib o adı eşidəcək. Artıq üç dəqiqə qaldı... Adamlar yavaş-yavaş Tutuquşu zalını doldururdular, ordan-burdan xəfif söhbət edənlərin səsi stulların cırıltısına qarışır, uzaqdan əl edib salamlaşmalar, qaşların-gözlərin oynaması (Zabitə xanım öz yerini artıq tutmuşdu, yeri ikinci sırada, ortada idi)... Çox ciddi bir auditoriya yığılmışdı. İnstitutların əməkdaşları, say-seçmə alimlər, qəzetçilər, ölkənin say-seçmə intellektualları əsl qladiator döyüşünün ləzzətini əvvəlcədən Tutuquşu zalının havasından alırdılar. Kəfkirli saat göstərdi ki, iclasın başlanmasına – saat 12-yə iki dəqiqə qalır...

***Tutuquşu zalındakı əsas müzakirəyə bir gün qalmış.<br>Dil və Təfəkkür İnstitutunda, professorun iş otağında***

Professor Dil və Təfəkkür İnstitutunda saat 12-də öz otağında qısa bir müşavirə keçirdi, bu əsl döyüşdən (birgə Elmi Şuradan) bir gün əvvəl son məşq kimi bir şey idi.

İnstitutun əsas elmi potensialı – qocalı, cavanlı (əksəriyyəti dil və fəlsəfə sahələrində xüsusi xidməti olmuş adamlar) Professorun o qədər də böyük olmayan kabinetinə yığışdılar. Otaqda rahat şəkildə on iki-on üç adam, bir-birinə qısılsaydılar, iyirmi adam yerləşərdi. 30 nəfər artıq çox nadir hallarda – mühüm fövqəladə hadisələrdə (bayram və İnstitutun tarixi ilə bağlı əlamətdar günlərdə) burda toplaşırdı. Bu dəfə isə 20 nəfərlik seçmə bir heyət sıx-sıx "mehriban olun, bir az stulunu, (...) çək o tərəfə... ayda ildə bir dəfə yığışırıq, mehribançılıq yaxşı şeydi..." yan tərəfdə kitab dolabından başlayıb dövrələ-

mə pəncərə boyu Professorun böyük yazı mizinin ətrafında aypara kimi qövs cızaraq yer alıb oturdu. İştirakçılar adbaad dəvət edilmişdilər. Professor hamı yığılhayığıldaykən nə isə yazdığı kağızın üstünü özünün müəllifi olduğu "Azərbaycan dili və təfəkkürü" adlı qara, qalın kitab ilə (bu kitab keçən il ölkənin Dövlət mükafatına layiq görülmüşdü) örtdü, əlini uzadıb qələmini şüşə qələmdana qoydu, gözünün ucu ilə otaqdakıları bir-bir nəzərdən keçirdi. Başı ilə "salam, salam" hamı ilə salamlaşa-salamlaşa, səbrlə onların əyləşməsini gözlədi. Dəvət olunanlar hər biri yerinə oturan kimi əvvəlcə ora-bura boylanıb ənənəvi olaraq bir-birilə baxışdılar. Dodaqlar tərpənməz, dillər susqun, mənalı, mənasız baxışlar danışdı. Bu da bitdi. Nəhayət, üzlər Professora çevrildi. Başlamaq olardı. Professor qısa bir fasilə verdi (bir, iki, üç...") və nə üçünsə (yəqin ki, məsələnin xüsusi ciddiliyini nəzərə çatdırmaq üçün) oturduğu qədim, massivli, üstünə qara rəngli mahud çəkilmiş yazı mizinin arxasından qətiyyətlə ayağa qalxdı. Əlləri masanın üstündə, beli azacıq irəli əyili vəziyyətdə:

– Yoldaşlar! – deyib sağa-sola nəzər yetirdi, hamı bir daha özünü yığışdırdı və həmişəki kimi yenə də hər bir adam elə bildi ki, Professor məxsusi ona baxır, amma adəti üzrə o heç kimi ayrılıqda görmürdü, ayrı-ayrı üzlər, simalar onun üçün yenə də bir "hamı" çoxluğunda ərimişdi. – Bu gün biz bura çox vacib bir məsələ ilə bağlı toplaşmışıq. Hamınız bilirsiniz ki, sabah elə bu vaxtı, saat 12-də Akademiyanın ümumi qiraət zalında...

Kimsə yerindən yavaş səslə "Tutuquşunun yanında" dedi. Bu, İbrahim müəllim idi, nə oralıq adam idi, nə buralıq, miyana birisi idi, doğma nitqimizin mədəniyyəti ilə məşğul olurdu, əcayib-əcayib yeni formalar icad edirdi, bu barədə adam arasında fikir bölüşəndə isə (özünün təşəbbüsü ilə) əksər halda gülünc vəziyyətdə qalırdı. Bu iclasa isə ona görə dəvət olunmuşdu ki, güya yazı çözüləndən sonra onu müasir dilimizlə (nitqimizin özəllikləri ilə) müqayisə edəcək bir adam olmalıymış.

– ... Bəli, düz deyirsən, İbrahim, Tutuquşunun yanında. – Professor bu yaşında (yetmişi təzə adlamışdı) hələ də qulağının sərrast eşitdiyini nümayiş etdirməsindən məmnun qaldı: "mən pıçıltını da eşidirəm, biləsiniz..." və başını bulayaraq İbrahim müəllimə yalançı bir qeyzli baxış atıb (balacaboylu

İbrahim müəllim yerində irişə-irişə bir az da balacalaşdı) tezcə də gülümsədi: "sağ ol ki, mənə bu imkanı verdin, ay İbrahim, heç olmasa sən də bir işə yaradın". Sonra yenə həmənki ciddi tərzi ilə və xüsusi bir aramla Professor heç nə olmayıbmış kimi "bu da belə..." sözünə davam etdi:

– ... Saat 12-də sabah üç institutun birgə Elmi Şurası keçiriləcəkdir. Bir məsələ müzakirəyə çıxarılır: Çiçəkli yazının oxunması! – Professor fasilə verdi, məqamın dramatizmini otaqdakılara bu dəfə səsi ilə də çatdırmağa çalışdı, səsində təntənəli notlar yarandı. – Kim onu oxumağa məsul olacaq?! Budur bu gün bizim qarşımızda duran əsas məsələ!..

Professor nəfəs dərdi. Qıraqdan baxana elə gələ bilərdi ki, o həyəcanlıdı. Amma belə deyildi. Kabinetdəki sükut az qala qulaq deşirdi. Otağın havası həm isti, boğanaq idi, həm də günəşin günorta istisi yavaş-yavaş güc yığmışdı, pəncərədən keçib içərini əməlli-başlı yandırırdı, bir söz, otağın havası dözülməz bir hala gəlmişdi. Buna baxmayaraq bir kimsə dözümsüzlüyünü nümayiş etdirmək, "pəncərəni açaq" demək istəmirdi, "kabinet yiyəsi özü bilər". Professor şalvarının cibindən əynində "qutu" kimi oturan kostyuma heç yaraşmayan alabəzək, ütüsüz bir dəsmal çıxarıb alnının tərini ehmalca sildi, sonra dəsmalı bürmələyib nədənsə pencəyinin içəri, sol cibinə dürtdü: "deyəsən, lazım olandan xeyli artıq ciddiyyət yaranıb, belə də olmaz..." ora-bura (yenə "hamıya") göz gəzdirib bu dəfə səsinə şaxlıq və şuxluq qatdı:

– Yay hələ gəlməyib, istisini görürsüz də... O pəncərəni bir az açaq, deyirəm. Tərpən, Mehbalı.

Geniş pəncərənin düz qabağında oturanlar (Mehbalı və Adil müəllimlər) cəld və səssiz-səmirsiz bir halda stullarını bir təhər yana eləyib ( o birilər də bir az çəkildilər kənara) pəncərənin cəftəsi ilə əlləşdilər, Professorun dediyini, nəhayət, sevincək yerinə yetirdilər – amma nə illah elədilər, pəncərəni yarısınacan ancaq aça bildilər. Təbii, belə də olmalı idi – keçən yaydan bu pəncərə açılmamışdı. İçəri bir balaca meh əsib girsə də çox az vaxtdan sonra o da dayandı, içəri girmək daha istəmədi, pəncərədən yan keçdi, otağın havası oldu "köhnə hamam, köhnə tas..."

Pəncərə açılandan sonra direktorun otağında yenə qeyri-müəyyən sükut bərqərar oldu. Professorun isti danışıq tərzinə bu dəfə aldanan olmadı.

Baş elmi işçi İbrahim müəllimin "uğursuz" cəhdindən sonra otaqdakılar, "heç nəyə xüsusi bir ehtiyac olmazsa reaksiya vermək düzgün deyil", özlərini bir az da yığışdırdılar: "Professor həmişəki kimidi, qazdan ayıqdır."

Professor isə ürəyində "eh" elədi, "siz nə zaman yaxşılıq nədir, bilmisiz, nə zaman?!" və sözünə belə davam etdi:

– Çiçəkli yazı barədə mən indi sizə müfəssəl və xüsusi bir məlumat vermək fikrində deyiləm. Özünüz bu yazının tapılma tarixçəsini, oxunuş cəhdlərini, sonrakı uğursuzluğu, bəli, bəli, uğursuzluğu (!) burda ancaq özümüzük, açıq danışaq, bütün bunları siz məndən yaxşı bilirsiniz. Rəhmətlik Cəfər yazının surətini çıxarıb Bakıya gətirəndən sonra...

Yer-yerdən yavaş səslər eşidildi: "Allah rəhmət eləsin".

– ... Allah rəhmət eləsin. Cəfər müəllim öz işini gördü. Amma... düzünü demək lazımdı, yazı da asan yazı deyil. Oxunması çox, olduqca ağırdı. Heroqlif kimi heroqlif deyil, mixi kimi mixi deyil. İndi necə olacaq?! (Yenə teatral fasilə!)... Akademiyanın Prezidiumunda bu məsələ müzakirə ediləndə bizə – üç institutun direktoruna, mənə, Aslanzadəyə və Patriarxa...

Professor Patriarx deyəndə Arxeologiya İnstitutunun direktoru akademik Mirəhmədovu nəzərdə tuturdu. Akademik Aslanzadə – tarix institutunun direktoru, akademik Mirəhmədov – Arxeologiya institutunun direktoru və o, akademik Mirəliyev – bu üç "kit" – iki "M", bir "A", başqa sözlə, MAM, onları bir yerdə elə belə də çağırırdılar, əslində, ölkənin humanitar sahəsinin canlı elmi "nailiyyəti" idilər. "Patriarx" – akademik Mirəhmədovun cavanlıqdan sonrakı ayaması idi. Cavanlıqda əvvəlcə dostları ona "qoca" deyirdilər. Dostlarından yaşca xeyli böyük idi, özü də hamıdan çox xəstələnirdi, yüz dərdi vardı... İndi o dostlar artıq həyatda yoxdu, Patriarx isə durur – yarıcandı, amma ağlı-zehni yerində, "min şükür", durur! Sonralar – heç kim dəqiq vaxt göstərə bilməz – bu ayama, yəni, "qoca" yavaş-yavaş, vəfalı dostları onu tərk edib dünyasını dəyişdikcə "Patriarx" ayaması ilə əvəz olundu. Professoru heç kəs başqa cür, başqa adla çağırmadığı kimi – belə olanda – ona "professor" yox "müəllim" deyə müraciət edəndə özü əsəbiləşirdi – Patriarxın əsl adı Hadı müəllim idi və bu ad da çoxdan idi ki unudulmuşdu.

– ... Bəli, bu işi biz üçümüzə tapşırdılar, – Professor sözünə davam etdi, – məsələni kənarda, Bakıda yox, yerində, haman mağarada öyrənmək lazımdı, çünki üzü köçürülmüş surətdə təhriflər ola bilər. Mağara – qaranlıq, lampa ilə naxışlar güclə görünür... əlbəttə, Cəfər rəhmətliyin işinə qiymət vermək lazımdır, amma... kim bilir?! Onunçün də zəhmət çəkib gedib kənddə oturmaq, mağarada, başqa yerdə yox, ancaq mağaranın içində bu yazını... oxumaq lazımdı. Bəs kim bunu edəcək?! Sual, bax, budur! Kim o kəndə getməlidi? Bu iş kimə tapşırılsın? Tarixçiyə, arxeoloqa, yoxsa dilçiyə? Biz razılaşmışıq (Professor biz deyəndə, əlbəttə ki, MAM-ı nəzərdə tuturdu). Hər özünə güvənən mütəxəssis əvvəlcə durub öz metodunu, üsulunu şərh edəcək. Özü də hamının qarşısında. Bundan sonra isə namizədi ümumi Elmi Şura seçəçək və üstünlüyü bir adama verəcək. Akademiyanın Prezidiumunun qərarı belə oldu. Bunu siz bilməlisiniz. Buyurun, indi fikrinizi deyin... bizim İnstitutdan sabahkı tədbirə kimi namizəd verək? Verin namizədinizi.

Sözünü bitirən Professor udqunub yerinə əyləşdi. Prezidiumda səslənən müxtəlif, ümumi fikir və göstərişləri az qala öz adından çatdırmağı bacardımı, bacarmadımı?! Hər halda kimsə bunu elə belə də başa düşdü – Birgə Elmi Şura barədə təşəbbüs heç bir başqasının deyil, Professorun öz şəxsi təşəbbüsüdü, o birilər də (əlbəttə ki, hörmət-izzət xatirinə) ona qoşulub, onu dəstəkləyiblər, başqa cür mümkün deyil. O zaman... bu iclas nəyə gərəkdir?! Professorun Çiçəkli yazının oxunuşu ilə bağlı inandığı yeganə adamı – F.Q.-ni, demək olar, hamı çoxdan "deşifrə" etmişdi. Professor heç özü də bunu artıq gizlətmirdi: "bacarsa o bacaracaq. Cavandı, istedadlıdı..." Bəs belə isə... "Bizi bura nəyə yığıblar? Məsələ – məlum, namizəd – məlum. Teatr düzəldiblər..." Otaqdakılardan bəzilərinin üzündə bu "üsyankar" sözlər açıq-aşkar yazılmışdı. Adamlar bir-birilə baxışanda bu "yazılar" əməlli-başlı "oxunurdu". Professorla göz-gözə gələndə isə bu üzdəki yazıdan əsər-əlamət qalmır, yazılar pəncərədən uçub gedir, bayırdakı mehə qarışıb yox olurdu, əvəzində üzlərdə-gözlərdə yaraşıqlı və səmimi (?) təbəssüm canlanırdı – sədaqət təbəssümü, özü də bir an içində.

Professor Prezidiumun qərarı ilə bağlı son sözlərini deyərkən bir qədər məyus və incik göründü. Bunun səbəbini iclasın iştirakçıları (hamısı yox, bəzisi – müavini Vahid müəllim, şöbə müdiri Zabitə xanım, Ayxan müəl-

lim...) yaxşı anladılar. Yazını oxumaq işini, əslində, gərək qeyd-şərtsiz "Dil və Təfəkkür"ün nümayəndəsinə tapşıraydılar. Çiçəkli yazı ilə ilk məşğul olanlar kimlər idi, onlar deyilmiydilər?! Onlar idilər. O zaman bəs ədalət harda qaldı?! (Aslanzadənin istehzalı təbəssümü Professorun gözləri önünə gəldi: "Ədalət ha? Elm və ədalət?.. Allah səni güldürsün, Professor...)

İlk sözü Vahid müəllim aldı. Professorun ani incikliyi ona təsir eləmişdi. O, narazılığını qəti və hətta bir az kobud şəkildə bildirdi. Adətən belə etmirdi. Zabitə xanım gözü başqa yerdə olsa da (kitab dolabına, hərdən də bu dolaba söykənib oturmuş və fikri-zikri harda olduğu bilinməyən Ayxan müəllimə diqqətlə, zənlə və çoxmənalı şəkildə baxmağında idi) qulağı ancaq onda idi. Vahid müəllim hiss olunurdu ki, həqiqətən əsəbiləşib. Özünü bütövlükdə ələ ala bilsə də səsi azacıq titrəyirdi. Çiçəkli yazını ilk üzə çıxaran – onlar! İlk oxuma cəhdini edən – yenə onlar! Tarix, Arxeologiya İnstitutları nə üçün burunlarını (elə belə də dedi: burunlarını!) onların işinə soxurlar? Onlara hökmən yerlərini göstərmək lazımdır. Qədim yazıların oxunuşunu ancaq dilçi həyata keçirə bilər (mundir şərəfi?!). Uğursuz cəhdlər? Olsun! Kim birinci dəfədən nəyisə hökmən əldə edib?! Elmdə belə olmur. Elm əyri-üyrü, dolambaclı yollardan keçir. Alınmamış, baş tutmamış cəhdlər özü də bir təcrübədir, deməli, bu yol yaramır, deməli, başqa yolla getmək lazımdır. Məsələ bundadır. Dili ağzında az qala quruyan Vahid müəllim üzünü Professora tutaraq fikrini belə yekunlaşdırdı:

– Sabah bunları aşkar şəkildə, ciddi arqument kimi ortaya qoymaq lazımdır. Şübhəsiz ki, kəndə, Vəng dağının ətəyinə, mağaraya hökmən Dil və Təfəkkür İnstitutunun əməkdaşı, professional dilçi getməlidir...

Respublikanın görkəmli və mötəbər dilçilərindən biri olan, uzun illər Professorun müavini işləyən, özü də təkcə dilçi yox, yeri gələndə professional tarixçi (qədim dövr tarixçisi!), yeri gələndə hətta arxeoloq kimi düşünə bilən və buna görə də universal bilik adamı sayılan Vahid müəllim, təxminən, buna bənzər sözlər söylədi, amma əslində, "namizəd" barədə heç nə demədi. Professorun ürəyindən olan o oldu ki, heç də həmişə onunla fikir birliyi nümayiş etdirməyən, "naturaca" bütün Akademiya sistemində, eləcə də elmi ictimaiyyətdə tərs bir adam kimi tanınan Vahid Cavanşirzadə bu dəfə Professoru

nəinki ümumən dəstəklədi, hətta onun bəzi demədiklərini (ürəyindəkiləri) dilə gətirdi, beləliklə, əslində, bütün sonrakı fikir mübadiləsinə (əgər bu olacaqdısa) xüsusi bir ton verdi. Ad çəkməməsi isə... bu o qədər vacib deyildi. Başqaları onsuz da çəkəcək.

– Professor, biz ümumi Elmi Şuraya bir namizədlə çıxmalıyıq!.. – Uzun illər İnstitutda "Müasir problemlər" şöbəsinin müdiri işləyən professor Zabitə xanım Butayeva Vahid müəllimdən həmişə olduğu kimi geri qalmaq qorxusunu indi də dişlərinin arasında bərk-bərk sıxaraq qəfildən ayağa qalxdı və göz-qaşını oynada-oynada sözünə belə başladı.

...Balacaboylu bu xanım gənclik təravətini hələ də saxlayırdı (əslində, saxlamağa çalışırdı). Qarayanız sifətinə hər səhər pudra üstdən pudra vurub üzündə qəribə, adsız bir rəng almaqdan usanmayan (bu şəkildə "öz aləmində" qocalmağa etirazmı edirdi?!) Zabitə xanım ölkədə tanınmış qadın alimlərdən biri idi. Daxili təbiəti adına tam uyğun idi. Hamı onu sərt, amma könlü kövrək (hər halda bəzən o belə də görünürdü), heç kimdən kömək əlini əsirgəməyən, xeyirxah, amma bunun əvəzində adamdan sonsuz sədaqət tələb edən, nəticədə isə gənclərin (ehtiyacı olan kim ola bilərdi, əlbəttə, gənc, sonsuz sədaqətini kim dəyər-dəyməzə sata bilərdi – yenə də, əlbəttə ki, gənc!) sevimlisi kimi tanıyırdı. Zabitə xanımın xasiyyətində bir çox dəyərli, faydalı (lazımlı) tərəflər vardı – Professorun nə istədiyini, ürəyindən nə keçdiyini, elə bil, ovcunun içini görürmüş kimi görürdü, onun hərəkətlərini təqribən, doxsan faiz proqnozlaşdıra bilirdi. Havadan qoxu çəkirdi, deyirlər. Hətta bu o dərəcəyə çatmışdı ki, bəzi əməkdaşlar iclasdan əvvəl onun Professorla müzakirə ediləcək məsələ ilə bağlı xüsusi söhbətlər apardığını güman edirdilər. Zabitə xanımın özü bu şübhələrin yaranmasına məharətlə şərait yaradırdı. Zabitə xanımın altmış yaşını ötən il bütün institut təmtəraqla qeyd etmişdi, hökumət təltifinin olmaması yüngül qanqaraçılığına səbəb olsa da, Tiflisdən və Daşkənddən gələn qonaqlar, Türkiyədəki Dil Qurumundan və SSRİ Dilçilik İnstitutundan (Moskvadan) göndərilən (əslində: təşkil edilən) həddən artıq isti təbriklər (özü də o zamanlar, Sovet hökumətinin gur-gur guruldayan vaxtı) bunu xeyli yumşaltdı. Müxtəlif qəzetlərdə yubiley yazıları, Akademiyanın Prezidiumundan fəxri fərman, televiziya verilişi, radioda müsahibə, güllər,

çiçəklər, gənclərin – aspirantların, kiçik elmi işçilərin, laborantların ürək dolusu sevgi izharları... Onların çoxu haqlı olaraq özünü Zabitə xanıma borclu sayırdı – kiminin qohumuna ali məktəbə girərkən kömək etmişdi, kiminə toy edib qızını köçürəndə tapılmayan xarici mebel təşkil eləmişdi, özü də vaxtsız-vədəsiz borc pul verərək, kimini isə vaxtaşırı evinə çağırıb təmənnasız yedirib-içirirdi – əlbəttə, bu adam da əvəzində əl-qolunu çırmayıb Zabitə xanımın evini bal kimi yalayırdı – süpürürdü, yuyurdu, bişirirdi, qulluğa gedirdi...

Zabitə xanım Butayeva, əslində, Professoru da öz cazibə əhatəsində saxlamaq istərdi, amma bu məqamla bağlı Professorun vəziyyəti heç də asan deyildi – iki od arasında qalmışdı. Bir tərəfdən Zabitə xanım və onun şirin, faydalı potensialı, digər tərəfdən Vahid müəllim – Zabitə xanımın tam əksi, bildiyini babasına verməyən, elmində dəqiq və konkret, heç zaman heç kimə borclu olmağı sevməyən və Professorun Zabitə xanımla yaxınlaşmasına hər cür əngəllər törədən Vahid müəllim. Deməyə hacət qaldımı bu əks qütblərin elmdə də bir-birinin əksi olmasını?! Yaxud bir-birinə bəzən aşkar, amma həmişə gizli nifrət bəsləmələrini (üzbəüzdə yalançı təbəssüm, gizlində acı neştərlər!) deməyə hacət qaldımı?! Professor ip üstündə gəzən, əyilib-düzələn akrobatlar kimi idi, gah o tərəfə, gah bu tərəfə ləngər vururdu. Çalışırdı, yıxılmasın. Yıxılmırdı. Ən acınacaqlısı isə o idi ki, Professorun Zabitə xanımı dəstəkləməyə kifayət qədər əsası yox idi – Zabitə xanım elmdə piyada idi, amma bunu heç kim onun üzünə vurmağı (bunu "qırmızı" Vahid müəllim belə hələlik ağlına gətirmirdi) ən azından özünə rəva bilmirdi. Hər şey Andersenin məşhur nağılında olan kimiydi, bir uşaq lazım idi, heç kimin deyə bilmədiyini dilə gətirsin: "Axı bu "padşah" (bu adlı-sanlı, bütün elmi titulları qəşəng paltar, don kimi geyinmiş, bütün dilçilik mərtəbələrinə qalxmış xanım), əslində, lütdür!" – desin. Belə bir "uşağın" nə zamansa peyda olacağının – üzə çıxacağının qorxusu Zabitə xanımın şimşək kimi oynayan qara sivri qaşlarının altındakı narahat gözlərinin dibində ümidsiz bir sualda gizlənmişdi. O sual bu idi və hamıya (vaxtaşırı dosta da, dost olmayana da) ünvanlanırdı: "Sən mənimləsən, yoxsa mənimlə deyilsən?!" Professor vaxt olmuşdu ki, bu sualın ağırlığını (baxışların gücünü) özü də hiss eləmişdi, amma sualı yayındırıb ("aradan çıxıb") cavab verməmişdi. Ağıllı adam, müdrik adam olduğu

üçün Zabitə xanımdan həmişə mümkün qədər çalışırdı bir az uzaq dursun. Amma yeri gələndə bir-birindən necə incə şəkildə istifadə eləmələrinə söz ola bilməzdi.

– ... Bir namizəd yaxşıdı, Professor. Bizim də fikrimiz ora-bura dağılmaz. Kimsə deyə bilər ki... Professor, deyirəm, elə bir namizədimiz olsun! – Zabitə xanım cümləsini qəflətən kəsib, sözünü bu cür qəribə bir şəkildə bitirərək yerinə oturdu. Bir adam başa düşmədi ki, bu mifik "kimsə" kimdir və o nə deyə bilər?! Üzə vurmadılar – qadındı, Zabitə xanımdı...

Zabitə xanımdan sonra həyatını dilimizin üslublarını öyrənməyə həsr etmiş (müvəffəq olub-olmadığı bəlli olmayan) Nəriman müəllim (o həm də İnstitutun bütün ictimai təşkilatlarının ya sədri, ya da üzvü idi) küləyin bu gün haradan əsdiyini (institut dəhlizlərinin də qulağı olur!) əlüstü tutmuş olduğundan Zabitə xanım yerinə oturan kimi əlini qaldırıb "olar?"cavab gözləmədən ərklə ayağa qalxdı. Sözünə o da qətiyyətlə başladı:

– Zabitə xanım doğru deyir, bizim yeganə, bir nümayəndəmiz olmalıdı. Yazı bizim İnstitutun, açıq deyək, tapıntısıdı (ağ elədiyini hiss etdi), tapıntısı kimidi. Qoy bu işə biz tərəfdən... – Nəriman müəllimin, elə bil, "tısı" yatdı, tərəddüd və ümidlə Professora baxdı, onun gözlərində "biz tərəfdən" olan bu adamın adını oxumağa çalışdı, höccələdi. – Məncə bu işin öhdəsindən... F.Q. gələ bilər.

Bığaltı qımışan Vahid müəllim: "Ay Nəriman, ay Nəriman, Çiçəkli yazını da bu cür oxuya bilsəydin..." öz köhnə dostu Nəriman müəllimin əzginiş hərəkətlərini ürəyinin dərinliyində heç zaman qəbul edə bilməsə də, "dost – dostdur" bəd ayaqda həmişə onu dəstəkləməkdən, elə bil, xüsusi zövq alırdı, elə bil, bu, onun boynuna düşmüşdü. Nəriman müəllimin sözlərindən, yəni, açıq oyun başlayandan sonra Vahid müəllim özü də ürəyində istədi ki, bu adı, "F.Q." adını kimsə bir başqa adam dilinə gətirsin. Özü bunu etmək istəmədi. ("Bax, Zabitə də ad çəkmədi! Niyə?") Səbəb? Səbəbi isə... bəlli deyildi. Səbəb bir ola bilərdi, yüz ola bilərdi, heç olmaya bilərdi. Bəzən Vahid müəllimin çoxmənalı üz-göz ifadəsinin arxasında (fikri guya hardasa başqa yerdədi, ancaq başı yellənirdi – gəl indi başa düş, bu təsdiq əlamətidi, yoxsa inkar?!) bir şey anlamaq mümkün olmurdu. Adama sanki qulaq asırdı, amma adamı eşitmirdi. Bununla guya "mövzu mənlik deyil" demək istəyirdi. Başa düşən

düşürdü. “Amma yaxşı oldu, heç olmasa, Nəriman F.Q.-nin adını çəkdi”. Vahid müəllimin F.Q.-yə öz münasibəti vardı. İstedadlı, inadkar, tutduğu yoldan ölsə də dönməyən, ötkəm (bəlkə də dikbaş?!), ikiüzlülükdən, riyakarlıqdan uzaq (mümkün qədər uzaq), hamını boğaza yığmış gənc piranilər dəstəsinin bəlkə yeganə ağıllı üzvü – F.Q.! Vahid müəllim F.Q.-yə “Çiçəkli yazı” adını mən ilk dəfə Professordan eşitmişəm” yalanını heç cür bağışlaya bilmirdi, amma ədalət naminə, yəni, lazım gəlsə, bunu unutmaq da olardı: “adlar əsas deyil, mahiyyət əsasdır!”. Bu suyuşirin gənc Vahid müəllimin gizli bir hörmətlə, səxavətlə (çox nadir hallarda o, kimisə təriflərkən səxavətli olurdu) dediyi kimi “uzaqlara gedəcəkdi”.

– Mən də F.Q.-nin namizədliyini dəstəkləyirəm. – Vahid müəllim oturduğu yerdəncə dilləndi.

Professor rəğbətlə (“anlayıram”) başını tərpətdi. Zabitə xanım dözmədi. Yenə “oyundan kənar” qala bilərdi. Vahid müəllimin indicə dediyini bu dəfə başqa şəkildə “fırlatdı”. Özü də elə “fırlatdı” ki, sanki F.Q.-nin adını bir az əvvəl o özü çəkmişdi, indi isə Professoru (kimi, kimi Professoru!) buna inandırmaq istəyirdi. Hövsələsi çatmadı, Zabitə xanım da yerindən danışdı:

– Cavandı, istedadlıdı, ağıllıdı (az qaldı, desin “yaraşıqlıdı”, amma özünü saxladı), məncə də o, İnstitutu layiqincə təmsil edə bilər. Professor, necə bilirsiz, gəlin ona etibar edək?!

Guya Professorun nə düşündüyü və kimin namizədliyini dəstəklədiyi ona məlum deyildi. Zabitə xanım öz aləmində incə (əslində, əlbəttə, kobud) bir gedişlə sual edirdi. Və öz sualıyla (hamı bunu elə belə də anladı) Vahid müəllimə öz növbəti neştərini sancırdı: “sən kimsən, axı sən niyə namizəd verirsən, qoy kişi (Professor!) özü ad çəksin, etika var, mədəniyyət var... Son söz, əlbəttə, Professorun sözü olmalıdır!”. Amma Professor da “köhnə” idi, fikrini bildirməyə tələsmədi:

–Daha kim danışmaq istəyir? – Səbrlə, bir-bir ətrafa göz gəzdirdi.

Kabinet ölü bir sükuta qərq oldu. “Elə nə oldu, birinci – F.Q., konfransa bir yer var, kim getsin – F.Q., qəzetə intervü kim versin – F.Q., televiziyada çıxış – F.Q. Hara baxırsan – F.Q., sola baxırsan – F.Q., sağa baxırsan – F.Q., irəli baxırsan – F.Q.”

Bu cür düşünənlər, əlbəttə ki, vardı, xüsusilə, cidd-cəhdlə gizlətməyə çalışsalar da bəzi gənclərin – keçmiş piranilərin və ortayaşlıların üzündə bu sözlər yazılmışdı. Amma bir məsələ də vardı ki, o bu narahat üzlərdə yazılmamışdı, öz əksini tapmamışdı, adamların ağlına belə gəlmirdi, sövq-təbii gələ də bilməzdi. "Hara baxırsan – F.Q., sağa baxırsan, sola baxırsan, irəli baxırsan – F.Q." düşünənlər heç zaman "arxaya baxırsan – F.Q." düşünmürdülər. Düşünə bilmirdilər: "İnsaf dinin yarısıdır". İstəsələr də belə idi, istəməsələr də – F.Q. həmişə irəlidə idi.

F.Q. təvazökarcasına arxada – qapının yanında, Professorun stolu ilə üzbəüzdə oturmuşdu. Gözləri Professorda idi. Başqa danışanlara baxmırdı. Onu indi ən çox Professorun burada səslənən fikirlərə münasibəti maraqlandırırdı. Ondan parlaq çıxış gözləyənləri heç zaman peşman etməyən F.Q. ətrafdakıların ona him-cimlə, "dur, danış, sən də nəsə de" səssiz çağırışlarına bu gün biganə idi. Həmyaşıdlara isə "qan" lazım idi. Bu qanahərislərin adını nahaqdan rişxəndlə "gənc piranilər" çağırmırdılar, vaxt vardı, onlar – gənc piranilər ağına-bozuna baxmadan hər şeyi (elmdə, təbii) məhv edirdilər, dağıtmağa, pozmağa çalışırdılar. Bir dərnək düzəltmişdilər, rəhbəri Ayxan müəllim idi, "savadsızlığın məhvi!" prinsipi ilə işləyirdilər; elmi işlər, məqalələr, çıxışlar... Hər şeyi darmadağın edən gənc piranilər savadsız, səviyyəsiz nə vardısa onun düşməni idilər ("Nənəm mənə kor dedi, gəlib-gedəni vur dedi"). Vahid müəllim də, Zabitə xanım da bəlkə yeganə adamlar idi ki, Ayxanın bu "xunveybinlərə" rəhbər kimi təyin edilməsini Professorun gizli və uzaqgedişli hərəkəti kimi başa düşüb dəyərləndirmişdilər və bu, həqiqətdən uzaq deyildi. Yəqin, elə buna görə də bu ikisi İnstitutda baş alıb gedən ehtiraslı oyunlara bir elə ciddi əhəmiyyət vermirdi. Sonralar bu mülahizə doğruldu. Piranilərin pərən-pərən düşməsində elə Ayxan müəllimin amansız məntiqə əsaslanan sözləri əsas rollardan birini oynadı, onları Professorun da istədiyi (və dediyi) kimi içindən laxlatdı (məsələn, "bizə kim hüquq verib ki, nəyisə pis, nəyisə yaxşı elan edək?!" Və yaxud, "hakimlər, hakimlər kimlərdi, bizik?" Və yaxud, "Biz özümüz gəlin görək, elmin hansı səviyyəsində dayanmışıq ki, kiməsə ölüm cəzası kəsirik?! Bu hüququ bizə kim verib?!"). Amma ilk məqsəd, əlbəttə, gözəl idi, əgər "hakimlər kimdir?" prinsipi yavaş-yavaş beyinlərə

işləməsəydi, bilinməzdi bu "oyun" nəylə bitəcək. İlk məqsəd isə baş tutmuşdu: artıq İnstitutda kimin ağlında nə vardı, nə yoxdu – bu, aydın şəkildə üzə çıxmışdı, bilinirdi.

Sonadək gənc piranilər, təbii ki, duruş gətirə bilməzdilər; onlardan kimi ixtisara düşdü, kimi ağıllandı ("palaza bürün, elnən sürün"), kimi də bir az əvvəl tənqid etdiyi bir dissertasiyanı "qızışıb" özü redaktə etməyə, bir azdan redaktə yox, pozub yenidən, əlbəttə ki, muzdla yazmağa başladı. Beləliklə, yavaş-yavaş bu gənclər pərən-pərən düşdülər. F.Q. isə mənən bu dəstədən çoxdan ayrılmışdı. Əvvəllər onların "fitinə" gedib bəzən amansız qərarlar vermişdi. Haqqı nahaqqa satmışdı. Ədalətsiz – olmuşdu. Bütün ağır elmi potensialını cücə bədənli, sərçə səviyyəli birisinin üstünə yıxmışdı, "uf" da deməmişdi. O günlər yadına düşəndə xəcalətdən əti ürpəşirdi. İndi isə... Bu dəfə F.Q. fitə getmək istəmirdi. Çünki o, institutda çalışdığı müddət ərzində təkcə elmi dissertasiya yazıb müdafiə etməmişdi, kitabxana və qiraətxanalarda (xüsusilə, "Tutuquşu" zalında) nahaqdan uzun-uzadı vaxtını keçirməmişdi, "hər gün azı bir cümlə" devizini özünə nahaqdan iş rejimi seçməmişdi və nahaqdan gənc piranilərin qeyri-rəsmi liderinə çevrilməmişdi. Harda olursa olsun, istər ziyafətdə, yemək-içməkdə, istər çayxanada qaynar, ehtiraslı mübahisə, müzakirələrdən sonra nə qədər yorğun (hərdən – sərxoş, çayxanadan – sərxoş??) bir halda evə qayıdırsa qayıtsın, F.Q. yatmazdan əvvəl ən azı bir abzas, bir cümlə də olsa dissertasiyasını yazıb davam etməli idi. Amma bütün bunlarla kifayətlənmək olmazdı. Bu müddət ərzində F.Q. İnstitutun yeraltı sularının hansı səmtə və necə axdığını da yaxşıca öyrəndi, F.Q. insani münasibətlərin görünməyən tərəfinə, mahiyyətinə nüfuz etməyə, onlardan düzgün nəticələr çıxarmağa alışdı. Bu cür iclasların ab-havası artıq ona məlum idi. O, yaxşı bilirdi ki, indi, məhz indi susmalı, yalnız Professor söz verərsə danışmalıdır. Gənc pirani isə heç vaxt belə etməzdi. Atardı özünü ortaya (çox zaman "yuyulmamış çömçə" kimi), yumardı gözünü, açardı ağzını. F.Q. artıq bu gün "suyun dibində gizlənmiş" gənc piranilərin gözündə "satqın"lığını məharətlə ört-basdır eləməyi bacaran (amma havaxtacan?) bir konformistə çevrilmişdi. İttihamlar ehtirassız baxışlarda, gözlərin dərinli-

yində gizlənib. "Olsun! Sizə qan lazımdı, mənə açar söz!" – F.Q. yerindən qımıldanmırdı.

Buradakı hər bir işçini F.Q. beş barmağı kimi tanıyırdı. "Dur danış, dur danış" işarəsini verənlər onu istəyənlər deyildi. Professorla belə olmaz. Aspiranturada oxuyan zaman (F.Q. aspiranturanı universitetdə bitirib orada da namizədlik dissertasiyası müdafiə etmişdi) hansısa bir konfransda çıxış etdikdən bir gün sonra onu Professorun yanına dəvət etmişdilər. Tamamilə təsadüfən Universitetdə bir konfransa ancaq iclas açmağa gedən, sonra isə "aradan" çıxa bilməyən, naəlac qalıb tək F.Q.-yə yox, digər çıxışçılara da qulaq asan Professor bu istedadlı gənci elə aspiranturada oxuya-oxuya Dil və Təfəkkür İnstitutuna işə dəvət elədi. O vaxtdan beş il ötürdü. "Bir igidin ömrüdür", az müddət deyildi. F.Q. bilirdi ki, Professorun əsas həyat metodu gözləmək, gözləmək, tələsməməkdir və indi onun niyyətini doğru-düzgün "oxuyanlar" onsuz da öz işlərini görəcəklər və gördülər də (sabahkı iclasa namizəd kimi onun adı, başqasının yox, məhz onun adı artıq çəkildi). Əgər ona indi söz versələr, o da öz fikrini deyər, öz təklifini irəli sürər (Professorla bu təkliflə bağlı ikilikdə dəfələrlə söhbət etmiş, onun təqdirini artıq qazanmışdı), söz verməsələr... deməli, belə lazımdı. Buna görə də F.Q. daxilən rahatsız deyildi, rahat idi.

Professor yenə ağır baxışları ilə otaqdakıları az qala bir-bir "rentgendən" keçirdi:

– Əgər fikrini bildirmək istəyən yoxdursa, o zaman, deyirəm, sözü verək F.Q.-yə... Görək yazını oxumaq üçün o nə təklif edir?!

Yer-yerdən bu sözlər eşidilməyə başladı: "doğrudur, qoy özü danışsın, əlbəttə, F.Q. cavan oğlandı, istedadlıdı..." Professorun sözlərindən sonra ("sözü verək F.Q.-yə") buz tamam əridi, hamı, nəhayət, hərəkətə gəldi – qibtə edən qibtə etməyənə qarışdı və qibtə əhvalı bu həftəbecərdə elə əriyib itdi ki, gənc piranilərin tək-tük başında köhnə havalar qalan keçmiş nümayəndələrinin gözündə mübarizə odunun son qığılcımı da söndü. Zabitə xanım gözlərilə axtarıb-axtarıb F.Q.-nin gözlərini tapdı, qaşlarını oynadıb ona mənalı bir baxış atdı: "hər şey yaxşı olacaq". Vahid müəllim Professora sarı əyilərək (o,

Professorla, demək olar ki, yanaşı, onun yazı stolunun bu biri tərəfində oturmuşdu) qulağına nə isə pıçıldamağa başladı.

– Elədi, düz deyirsən, doğru deyirsən, Vahid, bunu gərək sabah yaddan çıxarmayaq, əsl mübarizə irəlidədi, – üzünə baxmasa da başı ilə Vahid müəllimi təsdiqləyə-təsdiqləyə Professor gözlərilə F.Q.-ni axtardı. – Hardasan, qalx.

Üz-gözü pörtmüş F.Q. ayağa qalxdı. Ağzını açıb danışmaq istəyirdi ki, Nəriman müəllim həmişə olduğu kimi yenə də yersiz-yuvasız özünü ortalığa dürtmədimi, dürtdü, yüksək bir səslə onu qabaqladı:

– Böyük etimaddı. Gərək elə edəsən ki, Professorun inamını doğruldasan.

Bir anlıq otağa gərgin bir sükut çökdü. Amma bu, həqiqətən, bir anlıq oldu, çox çəkmədi. Sükutu Ayxan müəllimin cingiltili səsi pozdu. Bayaqdan bir küncə – otağın sağ tərəfində, pəncərə ilə üzbəüz duran kitab şkafının yanına qısılıb sükut içində (təcrid olunmuş halda!) oturan və qaşlarının çatılmasından, üz cizgilərinin gərginliyindən diqqətlə çıxış edənlərə qulaq asdığı anlaşılan Ayxan Əliəkbərov Nəriman müəllimin bu sözlərindən sonra (əslində, Nəriman müəllimlə əylənmək, dostcasına məzələnmək məqsədilə) çox adi bir şey deyirmiş kimi ciddiyətini pozmadan, heç kimə ünvanlamadan cingiltili və aydın (səlis!) bir səslə yerindəncə belə bir atmaca atdı:

–Doğruldurlar – etimadı. İnamı isə yaşadırlar, bəsləyirlər...

Adamlar hərəkətə gəldilər, yerlərində ləzzətlə qurcuxdular: "İndi başlayacaq, indi başlayacaq!.."

– Yaxşı da, ay Ayxan, – Üzünə tələsik yalançı bir təbəssüm yapışdıran Nəriman müəllim özünü istədi o yerə qoymasın, Professora baxa-baxa gizli qəzəb dolu səsinə şən (yalançı!) bir don geydirdi. – Hərəyə bir qəmbərqulu qoşmağından sən heç qalma.

Ortayaşlı, dumduru, açıq baxışını heç kimdən heç zaman gizlətməyən, bir az da sivri burnunda "danışan" Ayxan Əliəkbərov İnstitutun intellektual zirvəsi idi, bunu hamı sözsüz-sovsuz qəbul edirdi, bunu hamı bilirdi, deyəsən, bunu bilməyən, ya da, belə deyək, bunun fərqinə varmayan, bunu vecinə almayan bir adam vardısa, o da Ayxan müəllimin özü idi. Onun atmacaları bəzən çox kəskin olurdu, həmkarları (onunla həqiqi dostluq edənlər və dostluq

etməyə çalışanlar) "Ayxandı da..." deyib heç kim guya onu ciddiyə almırdı (əslində isə elə alırdılar ki...).

Professora Ayxan müəllimin sözləri bu dəfə də xoş gəldi (Ayxan müəllim onun sevimlisi idi: "Yaxşı vurdu! Nəriman qoy öz yerini bilsin!"), amma süni bir sərtlik nümayiş etdirdi, yoxsa Ayxan müəllimin sözlərindən qaynaqlanan yayğınçılıq xətti bu iclasda (adamlar artıq sonu bəlli bir romanı məcburən oxuduqlarının fərqində idilər) sonu bilinməz nöqtəyə qədər davam edə bilərdi:

–Ayxan, qoy işimizi görək...

– Mən nə dedim?! Səhv dedimsə düzəldin. Azərbaycan dilinin izahlı lüğəti... Bakı, Elm nəşriyyatı, 1964-cü il, redaktoru budur, Zabitə xanım özü burdadı, amma səhifəsi yadımdan çıxıb, bu lüğətdə belə yazılıb. Etimadı doğrultmaq olar, inamı isə yaşatmaq! Mən özümdən heç nə uydurmuram... – Ayxan müəllim süni sadədilliklə əllərini də yuxarı qaldırdı: "mən günahsızam, mən kiməm ki?"

Otağın dözülməz istisi yox oldu. Yer-yerdən camaat həvəslə dəbərməyə başladı. Ürəyindən qara qanlar keçən Nəriman müəllim öz qısa boynunu bir az da qısdı, başını az qala çiyinlərinin arasına soxub gizlətmək istədi, qorxaq dovşan gözlərilə Vahid müəllimə baxdı. Baxışını qaçıran Vahid müəllim isə "sənə bu da azdı", amansızcasına üzünü yana çevirdi. Məsələni uzadıb reaksiya vermək istəyənləri bəri başdan yerində oturtmaq məqsədilə Professor:

– Yaxşı, Ayxan, qurtardı? Qurtardı! – öz sualına özü də cavab verib səbrsizliklə (və qətiyyətlə) yaranmaqda olan mübahisəni kəsdi. Ayxan müəllimi başlı-başına buraxsaydın, öz sərt məntiqi ilə heç nədən mübahisə odu yandırar, sehrbaz kimi bir üfürməklə odu alova çevirərdi – ətrafdakılar (təbii, Nəriman müəllimdən başqa), indi də maraq və həvəslə (sabahkı namizəd məsələsi artıq hamı üçün gözlənilməzliyini, sirliyini itirmişdi – "sonluğu bəlli roman!") keçmiş piranilərin keçmiş rəhbərindən bunu gözlədilər. İclaslarda bir başqası (xüsusilə, çoxunun "həzm etmədiyi" Nəriman müəllim!) gülüş, tənqid, rişxənd hədəfi olarsa hansı sevimli və rahat hislər keçirmək mümkündür – Dil və Təfəkkürün bir-birilə daima siçan-pişik oynayan əməkdaşları bunu yaxşı bilirdilər.

– Qalx, F.Q. Buyur, danış, təklif etmək istədiyin üsulunla, buyur, tanış elə camaatı. Sakit... – Professor oturanlara əli ilə, göz-qaşı ilə sakitliyə dəvət işarəsi ötürərək bir az hövsələsiz halda F.Q-yə söz verdi. Sonra Ayxan müəl-

limə tərəf baxıb yalançı narazılıqla başını yellədi. F.Q. "indi başlamaq olar" ayağa qalxdı.

... F.Q. onsuz da artıq ayaq üstə idi. Uzun müddətdən bəri (Çiçəkli yazının çıxarılmış surəti ilk dəfə İnstituta gələndən sonra onun barəsində elə bu kabinetdə Professorla çox söhbətlər etmişdi) beynində dolaşan fikirləri, tərəddüd və şübhələri, etiqad və inamı ilk dəfə hamının yanında səbrlə, tələsmədən dilə gətirməyə başladı:

– Əvvəlcə icazə verin, mənə söz verdiyiniz üçün, Professor, sizə dərin təşəkkürümü bildirim.

Keçmiş piranilərdən biri (Mehbalı müəllim idi) hirsindən qıpqırmızı qızardı.

"Bişib!" Zabitə xanım düşüncəli bir tərzdə (qaşlarını belə hallarda çatırdı) çəhrayı donunun bənövşəyi ətəyini ədəblə sığallaya-sığallaya altdan-altdan Professoru süzdü.

– ... Mənim fikirlərim, əslində, Professorla məsləhətləşmələrdən sonra formalaşdı.

"Bişib, hazırdı!" Vahid müəllim çoxmənalı bir şəkildə öz köhnə dostu ilə (devlə göyərçinin dostluğu yada düşmürmü, yada düşür) – Nəriman müəllimlə baxışdı.

– ... Əsas məsələni bir-iki cümlə ilə də demək olar, onun üçün uzun-uzadı vaxtınızı almaq istəmirəm...

Professor razı halda başını tərpətdi: "sirləri vaxtından əvvəl açmazlar. Hər şey – sabah, sabah!.."

F.Q. Professorun ürəyindən keçənləri onun baxışlarından duymadımı, duydu, əslində, hazırladığı böyük elmi məruzənin (həm bu gün üçün, həm də sabahkı gün üçün ağıllı və məntiqli bir çıxış hazırlamağı ona Professorun özü tapşırmışdı) ancaq sonluğunu (yenə də Professorun məsləhət gördüyü kimi bir az dumanlı və bir qədər də sərbəst şəkildə) kabinetdəkilərin diqqətinə çatdırdı. Axırda isə sözünü belə bitirdi:

– Uzun sözün qısası... Çiçəkli yazının içindən onun öz kodunu, yəni, açarını tapıb sonra oxumaq lazımdır. Açar sözü tapa bilsək, məsələ bitir. Yazı gec oxundu, tez oxundu, bu artıq zamanın işi olacaq. Hərə öz açarını təklif

edir, kimi bu yazını pəhləvi yazılarına aparıb çıxarmaq istəyir (Patriarxın bostanına bir daş! Bu, Professorun xoşuna gəlməli idi), kimi qədim türk, Orxon-Yenisey yazılarını (keçmiş piranilərə zərbə!) əsas kimi, açar kimi qəbul etməyi təklif edir. Açar isə məncə, yazının yerləşdiyi mağaranı, mağaranın yerləşdiyi dağı, dağın ətəyindəki kəndi... bir bütöv şəkildə öyrənməklə tapıla bilər. Bunlar hamısı bir böyük, möhtəşəm Ahəngin içindədilər. Yazı ilə bunların əlaqəsini araşdırmaq çox vacibdir. Bunun üçün isə yazının solğun surətini... Allah Cəfər müəllimə rəhmət eləsin, solğun surətini yox, özü də burda, oralardan uzaqda – yox, əslində, onun canlı əhatəsini, dərinə gedən tarixini öyrənmək lazımdır. Professor danışır ki, mağaranı tapan bir qoca kişi, sinəsi dəftərdi, o yerlərin tarixini, nağıl, əfsanəsini onun kimi bilən yoxdu...

–Bəhram kişi, adı Bəhramdı. – Professor F.Q.-ni diqqətlə dinləmirdi, gözü pəncərədə idi, fikirli-fikirli Bəhram kişinin adını yada saldı.

– Bəli, Bəhram kişi. Onun özünü danışdırmaq çox şeyə aydınlıq gətirər. Hər təsadüfi ştrix açara aparan yoldur. Əsas məsələ yazını onun öz içindən çıxıb oxumaqdı. Ondan uzaqlarda yox, nə İranda, nə Turanda... Çiçəkli yazının öz içində, Vəng dağında...

Onun dediklərini diqqət və maraqla dinləyən Vahid müəllimə, Zabitə xanıma, Ayxan müəllimə baxdıqca F.Q. bir az da həyəcanlanır, get-gedə, elə bil, vəcdə gəlirdi. Professor isə beynində artıq tamam başqa bir işlə məşğul idi, stol üstündəki qara kitabı avtomatik açıb-örtür, gözlərini fikirli-fikirli pəncərədən bayıra zilləyib dururdu. F.Q.-nin dediklərini, deyəcəklərini artıq bildiyindənmi, nədisə fikrini cəmləyib onun dediklərinə maraqla qulaq asa bilmirdi. Birdən ürəyi qısıldı. "Artıq yaydır. Bu il də istirahətə gedə bilməyəcəyəm. Bir azdan yay da çıxıb gedəcək, payız, yağışlar, külək, çovğun başlayacaq, evdə küləklər vıyılda ha vıyılda... Nədi görəsən, ürəyim niyə belə hövr eləyir?!" – Professor darıxırdı.

Öz millətçiliyi ilə "şöhrət" qazanmış (əslində, yalançı millətçiliyilə, sonradan məlum oldu ki, bu adam hələ çox-çox əvvəldən, İnstituta işə düzəlməzdən xeyli əvvəl KQB-yə işləyirmiş), özünü vaxtilə piranilərin cərgəsinə (dəstəsinə) "dürtmək" istəsə də buna nail ola bilməmiş Sabit müəllim "Turan" sö-

zünü hücum çağırışı çalan şeypur səsi kimi qəbul edib dik ayağa durdu, fürsəti əldən vermədi:

– Bir dəqiqə, bir dəqiqə, icazə verin. – Sabit müəllimin bir xasiyyəti vardı, danışanda həmişə altdan-altdan Professorun üzünə baxardı, sözünün duzunu, şəkərini Professorun baxışlarından (arı və çiçək məsələsi!) alardı. Bu dəfə belə olmadı. Sabit müəllim heç cür Professorun baxışlarını tuta bilmədi (Professor hələ də tənbəl-tənbəl pəncərədən bayıra baxmağında idi), onun üçün də "improvizasiya" eləmək məcburiyyətində qaldı, belə hallarda dediyi sözlərin sonluğunu, elə bil, yeyirdi, onları tez-tələsik tələffüz edirdi:

– ...Necə yəni, Turanda axtarmayaq? Niyə?? Nə üçün?? Bəs harda axtaraq? – səsi guruldadıqca Sabit müəllim öz-özünü coşdururdu. – Bizim kökümüz var, canım, milli mənsubiyyətimiz var, indi duraq kökümüzü, soyumuzu danaq? Bəlkə o yazının ucu elə çıxıb Orxon-Yeniseyə gedir, onda necə?.. Bəs...

Ordan-burdan səslər gəldi: "əlbəttə, elədi, yox canım, bəsdir!.." Professor fikirdən ayrıldı (kabinetə qayıtdı!), gördü ki, bir az da keçsə onun bu cür iclaslar üçün darısqal otağını bu dəfə əməlli-başlı səs-küy ağzına alacaq (məsələni sakit şəkildə yekunlaşdırmaq çətinləşirdi), əli ilə işarət edib Sabit müəllimi "Aydındı!" susdurdu (köpüyünü aldı). Sabit müəllimi, elə bil, şar deşən kimi "fısssssss..." deşdilər. Sonra Professor Zabitə xanıma başı ilə ancaq onun anladığı bir başqa işarət verdi. Zabitə xanım bu dəfə əsəbi halda ayağa sıçradı.

Professor F.Q.-yə:

–Sən otur, – dedi.

"Cavabını vermək lazımdır", Zabitə xanım üzünü Professora tutaraq danışdı. Onun bu son çıxışından sonra müzakirəni artıq bitmiş saymaq olardı. Sabit müəllimin (bayaq aslan idi, indi dovşan olmuşdu) rəngi – eynən çuğundur rəngi. (Kişini indi "udar" vurar?!). Zabitə xanım sərt bir şəkildə:

– Professor – dedi, – siz özünüz də yaxşı bilirsiniz, bu yazını hamımız çalışdıq oxuyaq, nə əziyyət çəkdik, amma olduğunu demək lazımdı (özünütənqidin dəb olan vaxtı idi), oxuya bilmədik. Bəyəm onda kiminsə əlindən-qolundan tutdular ki, sən bu yazıya nəbadə Orxon-Yenisey açarını tətbiq eləmə?! – Qaşlar şimşək kimi oynadı. – Heç kim heç kimin əlindən tutub yolunu kəsmədi. Həqiqəti demək lazımdır. Edəydilər. Amma edə bilmədilər. Heç

kim bu vətəni o birindən artıq, ya əskik istəmir. Hamı eyni adamdı. – Zabitə Butayevanın səsi az qala çılğınlıq dərəcəsinə çatdı. İndi o açıq-aşkar Sabit müəllimə "döşəyirdi", çünki ondan zəhləsi gedirdi, 60 illiyində onu təbrik etməyən yeganə adam Sabit müəllim olmuşdu. Hamıya and içirdi ki, xəstə idim, işə, həqiqətən, gəlməmişdi, amma hər şeyi bilən ("hardan?") Nəriman müəllim Zabitə xanıma gizlicə xəbər vermişdi ki, Sabit xəstə-zad deyil, dünən onu futbolda görüblər.

– İndi biz, yoldaşlar, – Zabitə xanım deyirdi, – gəlin çalışmayaq, bizim kimi düşünməyənlərin ağzına elə o saat bir daş basaq. (Vahid müəllim: "Oyunun olsun..." yerində qurcuxdu). Belə olmaz. Təklif olundu ki, yazını oxumağa kəndə F.Q. getsin, özünün də, eşitdik, çox maraqlı, elmi yanaşma tərzi var, belə də olmalıydı, çünki siz özünüz, Professor, istiqamət vermisiniz... hamımız dinlədik, heç kəsdən etiraz gəlmədi, qurtardı getdi.

– Hələ getmədi, – Professor çalışdı otaqdakı gərginliyi və otağın ağır "havasını" (iki saata yaxın idi ki, iclas davam edirdi, isti artmış, açıq pəncərə də artıq köməyə gəlmirdi) bir daha zarafata salıb yumşaltsın. – Zabitə, getmədi, hələ (!) getmədi. Kimin gedəcəyini İnstitutların birgə Elmi Şurası müəyyən edəcək. Sabah. Tutuquşunun yanında, İbrahim.

Pıqqıltı eşidildi, tez də kəsildi, İbrahim müəllim yerindəcə əzilib-büzüldü.

Artıq bütün bu deyişmələrdən usanmağa başlayan Professor iclası yekunlaşdırmaq qərarına gəldi:

– Deməli, belə... Təklif edildi, hamılıqla (əli ilə kabinetdə oturanlara işarə etdi) məsləhətləşdik və mən belə qərara gəldim. F.Q. bizim yeganə namizədimiz kimi o iclasda çıxış edib öz konkret təkliflərini verəcək. Olsun. Heç bəlkə onun namizədliyini sabah qəbul etməyəcəklər?! Görək. Aslanzadə var, Patriarx var... Ciddi hazırlaşmaq lazımdır.

– Olsun, Professor... – Zabitə xanım yenə də qətiyyətlə öz aləmində Professora artıq ehtiyac olmasa da yüzfaizli "pas" verdi, – olsun! Bizim namizədimiz F.Q.-di.

Vahid müəllim qımışdı: "hamılıqla məsləhətləşdik və mən qərara gəldim!.."

– Nə deyirəm?! Mən də siz deyəni deyirəm.– Professor Zabitə xanım tərəfə başını tərpətdi, Zabitə xanım tezcə öz yerinə oturdu. – Belə... Deyirəm, Vahid, yekunlaşaq. İsti hamımızı birtəhər edib. Deməli, bizim İnstitutun sabahkı müzakirədə namizədi F.Q.-dir. – Professor balaca sükut etdi ("bir, iki, üç...") yenə ayağa qalxdı (yəni: "çıxışlar kəsildi!") – Etiraz edən? Yoxdu. Qurtardı...

– Getdi! – Ayxan müəllim yenə çox ciddi bir tərzdə (adətən o öz zarafatlarını ciddi tərzdə edərdi) yerindən atmaca atdı, Professorun sözünü mənalı şəkildə və ərklə "oynatdı". Yəni: "qurtardı, getdi kəndə yazını oxumağa, vəssəlam, şüdtamam"."Ay Ayxan!.." Hamı gülüşdü, iclas bitdi.

*Yenə Tutuquşu zalı. Bir gün sonra. Müşavirə*

Təxminən iki saat çəkdi, çox çəkmədi, iki saatdan sonra iclas bitdi və Tutuquşu zalında oturub ehtiraslı mübarizə həsrətində olanların arzusu həyata keçmədi (el içində deyirlər: çin olmadı). İclası Patriarx açdı. Çiçəkli yazının əhəmiyyətindən, tariximiz üçün vacibliyindən söz açdı. Tarixin xətləri, dedi, gedib-gedib mifologiyaya qədər çıxmalı, orda itməlidir. Çiçəkli yazıdan mifoloji keçmişimizin ətri gəlir. Bu yazının qanadlarında... (düşünüb-düşünüb əlavə etdi: çiçəklərin ləçəyində. Hamı rəğbətlə və təbəssümlə "Patriarx qocalmır..." ona baxdı) bəli, çiçəklərin ləçəyində qanadlı xalça kimi uçub Stiks çayının sahillərinə qədər getmək olar. "Stiks çayı? Bu yazının qanadlarında Stiks çayının sahillərinə? Bu nə çaydı? Hardadı? Qəribədi, necə?". Baxışlar yenə bir-birini axtardı.

Sonra çıxışlar başladı. Sakitcə, emosiyasız-həyəcansız bir-iki (əslində, dörd) gözlənilən çıxışdan sonra söz, nəhayət, F.Q.-yə verildi. Ondan əvvəl həm Tarix, həm də Arxeologiya İnstitutlarının nümayəndələri (Çiçəkli yazını oxumağa namizədlər) artıq öz prinsipial təkliflərini çıxış edib vermişdilər. Ciddi və yeni bir şey deməmişdilər. Üz-gözlərində, səslərində bəri başdan ört-basdır edə bilmədikləri bir uğursuzluq işarəti vardı, onun üçün də zaldakıların diqqət və marağına hakim kəsilə bilmədilər. Hətta Prezidiumda oturan MAM (bu üç nəhəng) – Professor, Patriarx və Aslanzadə açıq-aşkar bir şəkildə çıxış edənlərə etinasız (bunu başqa cür adlandırmaq mümkün deyildi,

həqiqətən Çiçəkli yazı və ətrafındakı söz-söhbət artıq hamını bir balaca bezdirmişdi) münasibət nümayiş etdirir, başlarını bir-birinə tərəf əyib "hə, yox, əlbəttə, nə isə..." deyirdilər, az qala hərdən öz aralarında söhbətə keçirdilər. Aslanzadənin öz çıxışı da, həmişəki kimi alovlu olmadı, belə deyək, bir qədər könülsüz alındı, çıxış etmək naminə idi, yadda qalan bir söz demədi. Amma yox, onun bir fikri çoxunu düşündürdü, hətta bəzi kürklərə birə saldı: "Çiçəkli yazı hər şeydən əvvəl siyasi məsələdi."

F.Q.-nin danışmağı lap sonda nəzərdə tutulmuşdu. Demək olar ki, hamı məhz bu çıxışı gözləyirdi. Professor, əlbəttə ki, öz işini "görmüşdü", dünən axşam əvvəl Patriarxa, sonra Aslanzadəyə telefon edib hər biri ilə uzun-uzadı söhbət etmiş, görünür, onları nəyəsə inandıra bilmişdi.

... F.Q. tribunaya qalxdı. MAM üçlüyü söhbətlərini kəsib hər biri xüsusi maraqla onu gözdən keçirdilər. Professor rəğbətlə başını tərpətdi, "bu meydan, bu şeytan, özün can atmırdınmı, di başla, çəkinib eləmə..."

F.Q.-nin ilhamlı çıxışı, sözün əsl mənasında, çox yüksək bir səviyyədə keçdi. Tutuquşu zalı dərin bir sükut içində onu dinlədi. Dünən, elə bu zaman Dil və Təfəkkür İnstitutunda Professorun kabinetində keçirilən "döyüşdən qabaq məşq" zamanı (müşavirədə) səsləndirdiyi fikirləri F.Q. bu dəfə daha aramla, daha əsaslandırılmış şəkildə dilə gətirməyə başladı. Bütün çıxışının əsas məğzi yenə möhtəşəm Ahəng üzərində qurulmuşdu. Çiçəkli yazı bu Ahəngin bir həlqəsi idi. Çiçəkli yazını Ahəngdəki hadisələrin üfüqündən çiçək ləçəklərilə bir yerdə dartıb-çəkib hadisələrin ortasına, içinə gətirib salmaq lazım idi. O zaman xalqın tarixində – qədim keçmişdən üzü bu günə qədər uzanan xətdə özünü göstərən kəsiklərdən biri (kim bilir, bəlkə də ən vacibi?!) aradan götürülər, xətlər yenidən birləşər, kim bilir?!

F.Q.-nin ürəyi çıxışdan əvvəl və elə çıxışın başlanğıcında şiddətlə vursa da bir-iki cümlədən sonra hər şey onun üçün öz təbii axarı ilə axmağına başladı və artıq F.Q. çıxış etdiyi kafedra ilə düz üzbəüzdə əyləşmiş Zabitə xanımdan gözlərini çəkmədən (axtarıb-axtarıb Vahid müəllimi zalda tapa bilməmişdi, Ayxan müəllim isə lap axırda, az qala qəfəsdəki alabəzək Tutuquşunun altında özünə yer eləmişdi) deyəcəyi sözləri bircə-bircə düşünərək dilinə gətirdikcə adəti üzrə yavaş-yavaş həmişəki harmoniyasının içinə düşür, get-

gedə, elə bil, ətrafdakı müdhiş, qulaqdeşən sükutdan xüsusi ilham alaraq daha da sərbəstləşir, oturanların az qala nəfəs çəkmədən onu maraqla dinləməsi F.Q.-ni bir az da irəli, qələbəyə doğru inamla irəli can atmağa təhrik edirdi. Onun qələbəsinin şəkki-şübhədən kənar olması çıxışı bitdikdən sonra yox, çıxışı bitməzdən xeyli əvvəl artıq hamıya əyan idi. Xüsusilə, Patriarx onu sonsuz maraq və diqqətlə dinlədi, son yekun sözünü də elə onun özü deyərkən (MAM üçlüyü belə qərara gəldi ki, iclasın açılışını Patriarx etdiyi kimi, yekun sözünü də elə Patriarx desin) bu qocaman və nüfuzlu elm xadimi tam səmimiyyətlə F.Q.-nin namizədliyini dəstəklədiyini elan etdi. Aslanzadə susdu və bu səfər etiraz etmədi, heç səsini də çıxarmadı. Beləcə mübahisəsiz, qanqaraçılıq düşmədən, demək olar ki, tam fikir birliyi ilə qərara alındı ki, F.Q.-nin təklif etdiyi üsul – yazını onun öz içindən çıxış edib ətrafdakı məkan və zamanın məntiqinə, ab-havasına uyğun olaraq oxumaq yolu ən doğru yoldur və buna görə də Çiçəkli yazını oxumağa məhz F.Q. məsul edildi. Əlbəttə ki, belə mübahisəsiz (əslində, mübarizəsiz) qələbənin bir səbəbi də zalda geniş ictimaiyyətin hər cür nümayəndəsinin iştirak etməsi idi. "Camaat yanında biyabır olmayaq! Fikir birliyi göstərək!". Amma hər nəydisə, iş artıq görülmüşdü, F.Q. həqiqətən öz ağıllı çıxışı ilə zaldakıların simpatiyasını qazanmışdı. İndi daha məsələ başqa cür, sadəcə, həll edilə bilməzdi.

Professor Patriarxın son sözlərindən sonra (qalibi elan etdikdən sonra) üzündə yalançı təbəssüm, təmkinini yenə də qoruyub saxladı və əsl sevincini biruzə verməməyə çalışdı, yalnız üzbəüzündə oturmuş Zabitə xanım Butayevaya mənalı-mənalı baxmaqla kifayətləndi, sonra boylanıb gözlərilə Vahid müəllimi axtardı, amma tapa bilmədi.

Hər şey, bax, beləcə, çox sadə (hətta belə demək olar: bəsit şəkildə) tamamlandı. Ayağa qalxıb çantasının içindəki dəftər-qələmi bir-bir yoxlayandan sonra Aslanzadə Professorla vidalaşarkən ürəyindən keçənləri (bəlkə də mübarizəsiz qələbənin əsas sirri burada gizlənmişdi) son dərəcə məharətlə həm ifadə elədi, həm də ört-basdır:

– Professor, haqlıymışsan. Amma mən bilmirəm, səni indi durum təbrik eləyim, yoxsa... halına acıyım (ərkləri vardı bir-birinə, o belə deyə bilərdi).

Patriarx araya mülayimlik qatdı:

–Təbrik elə, təbrik elə, həqiqətən ağıllı oğlandı (F.Q.-ni nəzərdə tuturdu).

Aslanzadə isə ürəyinin dərinliyindən yenə də iynəli bir söz tapıb çıxardı:

–İndi daha məsuliyyət yüz faiz sənin boynuna düşdü. Bizim canımızı qurtardın. Uğurlar!..

Patriarx "bitdi, məsələ bitdi, heç hənanın yeridi" onlardan ayrıldı və üzündə yekə (ətli-canlı) bir təbəssüm ona yaxınlaşmaq üçün fürsət gözləyən (problem birdi, ikidi?) Zabitə xanıma köhnə dostlar kimi "nə var, nə yox?" əl verdi.

Professor xəfifcə (yenə yalandan) gülümsədi, amma Aslanzadəyə söz qaytarmadı, "qəzəblisən, səni başa düşmək olar".

Bayaq iclasdan əvvəl Tutuquşu zalı yavaş-yavaş dolmuşdu, amma indi, demək olar ki, birdən boşaldı. Hamı zalı (evdə yağı daşanlar kimi) tələsik, bir az da peşiman-peşiman (istədikləri ölüm-dirim savaşı baş tutmamışdı) tərk etdi.

... Elə bu zaman, bu biri tərəfdə, Vəng dağının ətəyində Çiçəkli yazı tapılan mağaranın içində mağaranın Ruhu yupyumru bir kürə kimi yanır, işığı azalıb-çoxalır, səsi isə Bəhram kişinin gicgahlarında guppuldaya-guppuldaya ona mağaraiçi "oyunun" (davranışın) qanun-qaydasını izah edirdi. Mağaranın Ruhunun kənar qulağa eşidilməyən bu səsi hərdən mis kimi cingildəyir, hərdən ilan kimi fısıldayırdı. Bəhram kişi ürəyindən keçən nədi, nə deyil – bunu heç özü də bilmirdi, bunu o bir olan Allah bilirdi, qorxmağına qorxmurdu, yenə həmişəki kimi dik baxırdı, amma qanı damarında donmamışdımı, donmuşdu.

# V fəsil

***Tutuquşu zalında institutların birgə müşavirəsi bitincə. Arxa tərəfdəki hovuzlu bağçada. Təxminən yarım saat sonra***

Hələ də həyəcanlı F.Q. ona yaxınlaşanların ürəkdən, ürəksiz izhari-təbriklərini yığıb bəzisini qəlbinə, bəzisini beyninə yazdı, bəzisini də bir qulağından alıb o biri qulağına ötürdü. Professora isə onu mum kimi əridən dərin bir heyranlıqla belə dedi:

– Mən, Professor, hər şey üçün ancaq sizə borcluyam. Var qüvvəmlə çalışacağam, çalışacağam ki, etimadınızı doğruldum.

Hardansa "peyda olmuş" çalsaçlı Vahid müəllimin qarayanız sifətinin əyri-üyrü şırımabənzər dərin qırışları açılmış, yorğun gözləri gülürdü. F.Q.-yə ürəyindəkiləri çox qısa, ikicə kəlmə söz ilə bildirdi:

– Uğurlar, alınacaq!

Nəhayət, təbriklər bitməyə yaxın, F.Q. gözünün ucu ilə ora-bura nəzər salıb ("daha kim qaldı?") zaldan çıxan tək-tük adamları gözü ilə ötürərkən diqqətini xüsusi olaraq o çəkdi ki, Zabitə xanım Patriarxı arxa həyətə aparan qapı ağzında "girləyib" ona nə isə alovlu-alovlu "döşəyir". Patriarx da başını aşağı dikib böyük bir mədəniyyətlə (bəziləri bunu Zabitə xanıma xüsusi münasibət kimi qəbul edirdi) və quzu kimi Zabitə xanıma qulaq asır.

Arxa qapı tarixən ənənəvi olaraq Tutuquşu zalında "usandım" demədən çalışan, yazan-pozan, say-seçmə, yaşlı alimlər üçün idi. Hərdən-birdən F.Q. və onun kimi xüsusi istedada malik digər gənc alimlərin də arxa qapıdan çıxmasına kitabxana işçiləri müstəsna hal kimi göz yumurdular. İstedadlıları

onlar, elə bil, qoxudan tanıyırdılar. "Gələcəyin" qapısını onların üzünə indidən (amma arxa tərəfdən) taybatay açırdılar. İllər öncə isə qoca və üz-gözündən zəhrmar tökülən bu işçilər gənclərin qarşısını "öldü var, döndü yoxdu, bizdən arxada ancaq Vətəndi", qətiyyətlə kəsib onları arxa həyətə bu qapıdan buraxmayanda kor-peşiman, hirsdən qapqara olmuş gələcəyin elm ulduzları arasında "mən arxa həyətə çıxmaq istəyəndə vaxt olacaq siz özünüz mənə bu qapını açıb üzünüzdə yağlı bir... təbəssüm, hörmət-izzətlə, baş əyə-əyə ötürəcəksiniz" düşünənlər az deyildi. F.Q. kimi. Bu qapıdan MAM keçirdi, yüksək rütbəli qonaqlar, adlı-sanlı alimlər keçirdi və elə o saat da, qapıdan çıxan kimi çox rahat, bir tərəfində tənha, salxım söyüd ağacı, o biri tərəfində isə pəjmürdəhal iydə ağacı və ortada kiçik dairəvi hovuzu olan "xudmani" bir həyətin düz içinə düşürdü. Həm söyüdün, həm də iydənin altında ensiz, iki-üç adamlıq taxta skamyalar vardı. Skamyalara uzaq keçmişdə çəkilən rəng artıq çoxdan solmuşdu, hovuz da "uzaq əsrlərdən bəri" susuz qalıb çatlamış dibindən kənarlarına qədər qabar vermişdi. Kitabxana rəhbərliyi Akademiyanın Prezidiumuna dəfələrlə "təmir" xahişi ilə acizanə müraciətlər etsə də, bu xahişlər (daha vacib işlər həmişə ortaya namünasib vaxtlarda çıxar) səliqə ilə, ümid təlqin edə-edə bir ildən o biri ilə keçirilirdi.

... Öz təbrik növbələrindən Dil və Təfəkkür İnstitutunun nümayəndələri də böyük coşqunluqla istifadə etdilər. Cavanı, yaşlısı F.Q.-yə yaxınlaşıb bəziləri (xüsusilə, keçmiş gənc piranilər) sevinc içində F.Q.-nin ancaq əlini sıxır və çiyinlərinə vururdu, bəziləri nə üçünsə ona ürək-dirək verirdi (guya o, nəyəsə şübhə və nədənsə qüssə edir), bəziləri də anlaşılmaz xoş sözlər deməyə çalışırdı. Məsələn, yaxın dostu, onun bütün işlərinin yorulmaz təbliğatçısı Ayazın dediyi sözləri F.Q. nə qədər istədi başa düşsün, alınmadı. Ayaz dedi:

– F.Q., ay F.Q., gördün onların sifətini (kimin?), gördün? Deyirəm, heç ürəyini sıxma bu yazı hələ onlardan (kimdən?) öz intiqamını alacaq...

F.Q. bir də baxıb uzaqdan onu seçdi ki, (bir gözü onsuz da bayaqdan bəri onlarda idi), Zabitə xanım artıq əli ilə, qolu ilə və böyük bir həvəslə yenə də nə isə danışa-danışa, heyrət içində qalmış Patriarx da onun dalıyca başını əlacsız halda tərpədə-tərpədə (onun dediklərini təsdiq edirdi) arxa qapıdan dal həyətə çıxırlar. Zabitə xanım güclə girinə keçmiş Patriarxı asanlıqla əldən

buraxana oxşamırdı. Amma F.Q.-nin ürəyinə damdı: bir azdan onun özü arxa həyətə çıxan zaman Patriarxı hələ də balaca hovuzun kənarında, söyüd ağacının altında görəcək. Zabitə xanım isə Patriarxın yanında olacaqdı, olmayacaqdı – bunu F.Q. bilmirdi.

F.Q., nəhayət, onu əhatə edib bir-birinin sözünü kəsə-kəsə indicə bitmiş müşavirədən qırıq-sökük sitatlar gətirən ("Stiks çayı!.. Heç dəxli var? Sən Allah gördün?") adamların arasından birtəhər sivişib arxa həyətə keçdi. Həqiqətən, Patriarx söyüd ağacının altındakı skamyada oturub (portfelini yanına qoymuşdu, istəmirdi, yanında gəlib kimsə otursun), bir nöqtəyə baxmaqdan yaşlanmış gözlərini suyu çoxdan, lap çoxdan (bir neçə əsr bundan əvvəl!) vurmayan fəvvarənin boş şəlalə yerinə, yəni, əslində, havaya dikmişdi. Düzdü, sudan əsər-əlamət yox idi, amma Patriarx bu boşluğa baxıb fəvvarəni su ilə aşıb-daşan görürdü. Gözləri önündə fəvvarənin gur suyu yuxarı şığıyır, aşağı cumurdu. Bu su hovuzun ortasındakı artıq ancaq adı fəvvarə qalan daş qalağının içinə, kənarına, ora-burasına sinə-sinə yataraq şaqhaşaq səslə axıb hovuzun içinə tökülür, parıldayan su zərrəcikləri Patriarxın oturduğu skamyaya qədər uçub gəlir, ürəyə sərinlik gətirirdi.

F.Q. özünə söz vermişdi ki, bu gün hökmən cəsarətə gəlib Patriarxla bir-iki kəlmə kəsməlidir. Bu onun çoxdankı arzusu idi. Bu gün olmayıb daha nə zaman olacaqdı?! Adətən (ara-sıra!) ancaq uzaqdan-uzağa seyr edə bildiyi Patriarx onun gözündə Azərbaycan elminin canlı, fundamental mücəssəməsi idi. Onunla yanaşı durmaq, təkbətək söhbət eləmək, düşüncələrini bölüşmək, Çiçəkli yazı ilə bağlı ağlındakıları ona danışmaq, sonra onu dinləmək, suallarına cavab vermək, özünün də ona sual vermək imkanı bir də nə zaman ələ düşəcəkdi?! Əlbəttə, Professor xəbər tutsaydı, bu onun xoşuna gəlməyə bilərdi. Olsun! Canlı Patriarxla ünsiyyət arzusu bu gün F.Q.-nin ürəyində, həqiqətən, gerçək bir istəyə döndü: bəhanə, əsas məsələ bəhanənin olması idi, o da öz-özünə tapılmışdı. Və bu gün axır ki, onun Patriarxa konkret sualla müraciət etmək imkanı yarandı. Patriarx öz çıxışında Stiks çayının adını çəkdi, gərək ki, belə dedi: "Bu yazının qanadlarında Stiks çayının sahillərinəcən getmək olar". F.Q. məruzəsini edən zaman, əlbəttə ki, bu məqama toxunmadı, amma öz çıxışı zamanı da, sonra da "nə üçün, necə?" sualları onun beynini əzib artıq heç cür

rahat buraxmırdı. Bunun cavabını o bilməli idi. Yoxsa həyatı yaxın gələcəkdə zəhərə dönəcəkdi. Stiks çayının sehirli adı, araşdırılan məsələyə dəxli F.Q.-nin indi çözmək istədiyi əsl müəmma idi. Bilmədiyi və öyrənmək həvəsi ilə yandığı hər hansı məsələ ona ancaq əzab verirdi. Heç vaxt boşuna danışmayan Patriarx niyə belə dedi, belə deyərkən nəyi nəzərdə tutdu, – F.Q.-nin beynində "elədən belə, belədən elə" fırlana-fırlana qalmışdı. Onun indi Patriarxa yaxınlaşmaq üçün bəhanəsi (devin canı göyərçində olan kimi) məhz bu sualda idi, sualın cavabını isə ancaq Patriarx özü verə bilərdi. Odur ki, F.Q. qətiyyətlə skamyaya yaxınlaşdı:

– Üzr istəyirəm, sizə təşəkkür etmək istəyirdim... Etimadınıza görə təşəkkür edirəm.

Qəmgin halətini gizlətməyə belə çalışmayan Patriarx dərin fikir aləmindən güclə, amma dodaqlarının ucunda xəfif təbəssüm (baxışı isə bir anda sərtləşdi) geri qayıtdı. Gözlərini susuz (artıq susuz!) fəvvarədən istər-istəməz çəkib F.Q.-ni ilk dəfə görürmüş kimi maddım-maddım, hətta təəccüblə onun üzünə baxdı. Əvvəlcə bir şey anlamadı. Nəhayət, F.Q.-ni tanıyandan sonra Patriarxın cod baxışları bir qədər yumşaldı, başını yenə çöndərdi, hovuzun ortasındakı daş qalağına baxa-baxa:

– Hə, əlbəttə... dəyməz. – dedi. Patriarx yanındakı portfeli götürüb dizlərinin üstünə qoydu. Bu, demək olar ki, oturmağa sözsüz dəvət idi. – Sən layiqsən. Layiq olmasaydın, mən sənə səs verməzdim.

Fəvvarənin şaqqaşaq axan "suyu" F.Q.-nin zühurundan sonra qəfildən kəsilmişdi, yenə quru, cansız daş qalağı, yenə evdəkilərlə nə vaxtsa başlayıb heç cür bitmək bilməyən qovğa (oğlanları ilə uzun illərdi davam edən mənzil bölgüsü problemi vardı) – qəlbinə dəymişdilər, heç cür unuda bilmədiyi, onu rahat buraxmayan, yaralayan, incidən umu-küsü...

Patriarx daxili bir məşəqqət içində "daha nə istəyirsən?" üzünü F.Q.-yə tutdu. F.Q. Patriarxın yanında keçib oturmağa cürət etmədi. Onun önündə ayaq üstə durmaq daha düzgün idi. Özünü tərəddüd edən adama oxşatmaq istəyən F.Q.-nin bu yalançı tərəddüdü çox çəkmədi, "uşağın ilan boğan vaxtı olur" və Tutuquşu zalının bu günkü qəhrəmanı birdən-birə hətta özünə belə yaxşı tanış olmayan bir cəsarətlə soruşdu:

– Bir sual vermək olar?

– Olar.

– Çox sağ olun. Siz bir az əvvəl... Müşavirədə Stiks çayını yada saldınız. Nəyə görə? Əlaqə varmı? Mənə bu məsələ nə isə çatmadı.

Hamıya, daxilən hamıya açıq bir adam olan Patriarx həm bu sualı və həm də F.Q.-nin cəsarətini çox təbii qarşıladı. Elə bil, suala bir balaca hətta sevindi də. Əvvəlcə artıq onunla doğmalaşmış qara-qura fikirləri başından qovdu, sonra oturduğu yerdən (skamyadan) ağır-ağır ayağa qalxdı, F.Q. ilə üzbəüz durdu, bu dəfə F.Q.-yə qəribə və bir az da gizli bir şəfqətlə baxdı:

– Eləmi? – soruşdu, – maraqlıdı. – Sonra nə düşündüsə əlavə etdi. – Məni evə tərəf ötürmək necə, vaxtını almaz ki?

Patriarx cavab gözləmədən dönüb aramla hovuzlu həyətdən küçəyə tərəf addımladı, elə bil, əmin idi ki, F.Q. onun arxasınca gələcək. Belə də oldu. F.Q. onun arxasınca getdi. Onlar həyətdən çıxıb Kommunist küçəsi (indiki İstiqlal küçəsi!) ilə üzü aşağı, Nizami muzeyinə tərəf bərabər addımlamağa başladılar. Patriarx həyətin dəmir darvazasından keçib küçəyə çıxanda, bir az irəli düşmüşdü, azacıq ayaq saxladı, gözlədi ki, F.Q. onunla bərabərləşsin və hər ikisi artıq küçə ilə üzü aşağı yan-yana getdilər.

Akademiyanın möhtəşəm binasının qabağından keçən zaman, F.Q.-yə elə gəldi ki, Kommunist küçəsinin o biri tərəfində Zabitə xanım idi, acı xəyal kimi onun gözünə görükdü. İntriqa dağarcığı olan bu xanım onları bir yerdə görüb, qaşlarını yenə oynatdı, amma F.Q. "bu lap ağ oldu", özünü görməməzliyə vurdu. "Sabah, yox, elə bu gün qaça-qaça aparıb qoyacaq Professorun ovcuna. Eh... nə olursa, qoy olsun".

Bakının ılıq bir yay günü idi. Səhərdən bəri boğanaq idi, amma artıq o da hiss edilirdi ki, bir az keçəcək, dəniz tərəfdən yüngülvari xəzri gələcək, indilik isə onun zəif meh şəklində yalnız hənirtisi duyulurdu. Nəfəs almaq bir balaca yüngülləşdi.

Nizami muzeyinin fasadında (ikinci mərtəbədə) ölkənin ədəbiyyat fədailəri əsl heykəl kimi qımıldanmadan hərəsi öz hücrəsində (əslində, öz aləmində, zəmanəsində!) qürur və vüqarla üzü onlara tərəf dayanıb durmuşdu. Muzeyin böyrünə çatana qədər bir az ordan-burdan (adda-budda) danış-

dılar – aspirantura illərindən, F.Q.-nin namizədlik dissertasiyası mövzusu ilə bağlı xırdalı, böyüklü məsələlərə dair (Stiks çayını heç biri yada salmırdı) Patriarxın sorğu-sualına F.Q. səbrlə, ədəblə cavab verirdi. Beləliklə, Nizami muzeyinin yanından ötüb Patriarx sağa döndü, dəniz kənarına tərəf yol aldı:

– Mən evə həmişə dəniz kənarı ilə piyada gedirəm, deyirlər, xeyri var. Sən isə, imkanına bax, özünə zülm eləmə, haracan gedə bilirsən, oracan get. Söhbət qaçmır, söhbətimizi başqa bir vaxt da edə bilərik. – F.Q. tərəfə üzünü çöndərmədən bunları deyib Patriarx addımlarını azacıq yeyinlətdi.

Əlbəttə, yox, o Patriarxla gedəcək, mütləq onu evinə qədər (evi bulvarın o biri başında Hökumət evinin arxasında idi) ötürəcəkdi. Fürsəti əldən versəydi, bunu özünə heç vaxt bağışlamayacaqdı. Təkcə adı deyil, özü də əsl Patriarx olan bu qocaman elm fədaisi, sözün əsl mənasında, canlı salnamə idi. Beynindəkilər, qəlbindəkilər Tutuquşu zalında zahirən "qorxulu" qara kitab rəflərinin qalın şüşələrinin arxasında dustağa salınmış kimi saxlanan tozlu kitabların içindəkilərdən az olmazdı ki, çox olardı. Onun özü isə göründüyü kimi deyildi, heç deyildi; görünüşcə zəhmli olan Patriarx (onun dərin və xırda gözləri, iri, qırışlarla örtülü alnı, sivri burnu, bir az böyük qulaqları var idi, saçı isə elə bil, çoxdan kəsilməmişdi, bir əli ilə tez-tez üzünə tökülən tükləri sahmana salırdı), əslində, xeyli mülayim bir adam idi. F.Q. bunu elə ilk söhbətdəcə duymuşdu. "Əlbəttə, əlbəttə ki, sizinlə... sonadək... birgə..." Patriarx ona bərabər getmək təklifi edəndə sevincək düşmüş F.Q. bir andaca hər şeyi unutdu. Əslində, yola çıxmazdan əvvəl (evdə, özü, təkbaşına – anasını, qardaşını bu işə qatmadan) yır-yığış etməli, bəzi vacib şeylər almalı idi – unutdu. Axşam Afaqla görüşməli idi, "bax a, məni görməmiş heç yerə getdi – yoxdu!" – unutdu. Professora zəng edib kəndə yola düşməsini (dəqiq vaxtı, müddəti) razılaşdırmalı idi – unutdu. Amma... bu münasibətlə hər şeyi unutmaq olar. Əlbəttə, F.Q. Patriarxla həyatının ən parlaq söhbətini hökmən edəcək və bu vacib söhbəti sona çatdıracaqdı, əlbəttə!

"Azərbaycan" kino-teatrını (o, sağda qaldı) ötüb keçdilər. Patriarx artıq ahıl yaşına uyğun gəlməyən iti bir yerişlə gedirdi. Sonra yeni salınmış alt keçidə enib bulvara çıxdılar. Bir az da irəlilədilər, budur, nəhayət, dəniz göründü. Patriarx sahilin lap kənarında dəmirdən məhəccər vardı, tanıdığı,

bildiyi yerə gedirmiş kimi birbaşa gedib ona yaxınlaşdı, əlləri ilə bu məhəccərdən yapışdı. Gözü ilə axtarıb dənizin ortasında ancaq özünə bəlli olan həman uzaq nöqtəni tapdı, ayağının az qala altında xəfifcə bir istehza ilə gülüşüb-oynaşan çirkli və boz sulara heç bir əhəmiyyət vermədən gözlərini o nöqtəyə dikdi, çəkmədi. Köks dolusu nəfəs aldı. Elə bu zaman sərin meh onun ağ saçlarını ehmalca yaladı.

– Deməli, səni Stiks çayı ilə bağlı mənim nə demək istədiyim maraqlandırıb? – Patriarx əlini çoxdan ağappaq olmuş, amma hələ də sıx saçına çəkdi və məmnunluğunu gizlətmək belə istəmədi. Üzünün bayaqkı qaşqabağı açıldı.

F.Q. yanaşı durmağına gəlib Patriarxla yanaşı durmuşdu, ancaq məhəccərə toxunmadı.

– Mən sizin, demək olar ki, bütün yazılarınızı oxumuşam. – O da axtarıb gözü ilə dənizdə başqa bir uzaq nöqtə tapdı. – Xüsusilə də, Çiçəkli yazı ilə bağlı yazdıqlarınızı. Sizin “Deşifrələr tarixi və üsulları” kitabınız mənim stolüstü kitabımdır. Əfsanəvi kitabdı... Yohannes Fridrixin, Loukotkanın kitabları qədər maraqlıdır (“mən də uşaq deyiləm!”). Stiks çayı ilə əlaqədar isə... boynuma alım ki, ilk dəfədir... – F.Q. sözünü bitirmədi, yarımçıq kəsdi, “bu lap izhari-məhəbbət oldu...” (Zabitə xanımın qısqanc gözlərindən uzaq).

F.Q.-nin yazının tarixi, deşifrələrin sirri ilə bağlı dünyaca məşhur klassik elmi əsər müəlliflərinin (Fridrixin və Loukotkanın) adlarını belə rahat çəkməsi, bu hələ azmış kimi Patriarxı onlarla müqayisə etməsi, əlbəttə, “öz işini gördü”. Aralarındakı gözəgörünməz sədlərdən biri götürüldü (sədlər isə var idi, F.Q. bunu hiss etməyə bilərdimi?!) Amma Patriarx tələsmirdi. Dünya yox, dünyalar görmüş bu qocaman, nəhəng insan dənizdən gələn təmiz havanı yenə də doyunca ciyərlərinə çəkdi, bu dəfə baxışını çöndərib sahilə çırpılan, elə bil, özünü məxsusi ona göstərmək istəyən, maviliyini isə çoxdan itirmiş boz, bulanıq sulara xüsusi diqqət və təəssüflə baxdı, sonra bir qədər saymazyana (belə deyək: laübali) halda yanında susub qalmış F.Q.-yə belə bir sual verdi:

–Hüngür mağarasının sirri barədə bir məlumatın var?

“Kompliment gözləyir. Bunu Azərbaycanda birinci kurs tələbələri də bilir”. F.Q.-nin ürəyindən keçənləri Patriarx əlüstü duydu:

– Kompliment gözləmirəm. Oturmaq istəmirsən? Gedək, orda boş skamya var. Sənə nə var, sən cavansan. – Patriarx cavab gözləmədən məhəccərdən aralanıb ağacların altındakı skamyaya tərəf getdi, əvvəl özü əyləşdi, sonra əli ilə dəvət etdi, F.Q. də sözəbaxan uşaqlar kimi tezcə keçib ədəblə onun yanında oturdu.

Narahat-narahat sahilə çırpınan ala-bula, çirkli suların üzərində bayaqdan bir dəstə qağayı fırlanırdı, səsləri-küyləri baş aparırdı. F.Q. bu qağayıları çiçəyə gələn bal arılarına oxşatdı. Bir neçə gündən sonra Vəng dağının ətəyində, Bəhram kişinin həyətində, Balacanın (Qarağacın) altında oturub Afaqı nifrətlə xatırladığı zaman vızıltı ilə çiçəyə daraşan arıları gördüyündə ilk yadına düşən bu çirkli sularla oynaşan elə bu qağayılar olacaqdı. “Burda çiçək, orda – təzək...”.

F.Q. gözlərini qağayılardan çəkməyərək dilləndi:

– Mən sizin “Hüngür hesabatı” adlı məqalənizi, demək olar ki, əzbər bilirəm.

–Yaxşı... – Patriarx xırda gözlərini qıyıb (demək olar ki, yumub) yenə də məmnun bir halda, razılıqla başını tərpətdi.

–Amma Hüngürün dəqiq tarixi də axı Stiksə gedib çıxmır...

– Gedib çıxmır. Bəzi şeyləri əzbərə öyrənmək çox faydalıdı. Beyin intizama alışır. Amma... həm də cəzadı. – Patriarx F.Q.-nin çox da yaxşı anlamadığı bu sözlərdən sonra yüngülcə qımışdı. – Stiks çayı... Stiks çayı... Stiks, həqiqətən, bu dünya ilə Aidin səltənəti arasında çox ciddi... çox etibarlı bir sərhəd cızır. O çayın axdığı zamanlarda bizim bildiyimiz tarix yox idi, ancaq mif vardı, rəvayət vardı. Xaron eşitmisən? Miflərdəki qəhrəmanlardan biri. Xaron...

F.Q.-nin yunan mifologiyası barədə biliyi yox dərəcəsində deyildi, amma kifayət qədər yayğın idi, bunu boynuna almağı isə özünə ar bilmirdi. Gözünü sularda dövrələmə uçaraq hələ də nə isə axtaran, hərdən suya cumub axtardığını tapanda sevincini qışqırığı ilə dörd bir tərəfə bəyan edən qağayılardan çəkib:

– Xeyr, yadıma gəlmir, – dedi. – Aid yeraltı dünyanın allahı, baş Allah Zevsin qardaşı... Xaron isə... yox, yadıma gəlmir.

Patriarx başını çöndərib yerini rahatladı, bu zaman gözaltı F.Q.-ni süzdü, "bilmədiyini boynuna ala bilirsə, bundan alim çıxacaq. Zəmanə üçün nadir keyfiyyətdir". Öz-özlüyündə müəyyən etdi ki, bu F.Q., deyəsən, yetərincə layiqli müsahibdir (bir sədd də aradan belə götürüldü) və buna görə də Patriarx ürəyində rahatlıq, qaşlarını düyünləyib söhbəti artıq xeyli ciddi bir tərzdə (və səviyyədə!) davam etdirdi:

– "Çiçəkli yazı bizi Stiks çayının sahillərinə qədər apara bilər". Niyə belə dedim, bunu indi özüm də bilmirəm (Etiraf??). İlk növbədə bəlkə də məsələnin qədimliyini göstərmək üçün (Etiraf!!). Stiks çayını keçən ruhlar – ölmüş adamların ruhları çayın ortasında yaddaşlarını itirirdilər. Onları o biri sahilə – ruhlar səltənətinə ötürən qayıqçı günlərin bir günü dözə bilmir, öz taleyinə qarşı çıxır, Allahların ona tapşırdığı işi görməkdən imtina edir. Çünki bu ruhlar çayın ortasında yaddaşlarını ona buraxır, özləri azadlıq tapır, o isə əzab-əziyyət, zülm içində bu yaddaşları əmanət kimi qorumağa məhkum olurdu. Qayıqçının adı Xaron idi...

Patriarx bir əli ilə yüngülcə meh oynayan ağ saçlarını yenə də səliqəyə salmağa çalışdı (saçları ağappaq ağarsa da tökülməmişdi, hamısı yerində idi), amma, əslində, onları bir az da qarışdırdı, saçları üzünə, gözünə düşdü, sonra dediklərinə balaca fasilə verdi, nəfəs dərdi, "Buna danışmaq olarmı?! Olar, buna olar, bu dik baxır".

– Bilirsən, ən qorxulu olan nədir? Sənin yaddaşında əvvəlcədən müəyyən kodların mövcud olması. – Patriarx zənlə nəzər salıb gördü ki, F.Q. onun bu dəfə nə demək istədiyini anladı, dedikləri divara dəyib geri qayıtmadı, odur ki, yenə də rahatlıqla davam etdi. – Bu kodlar yeni olan nə varsa ona düşməndir. Onlardan (kodlardan) təmizlənmək lazımdır. Birinci qayda! Yaddaşımız bizim düşmənimizdir. Deyə bildim?.. Amma o biri tərəfdən yaddaşımız olmasa biz elmin paradiqmasını... yarada bilmərik. – Yenə qəribə bir şuxluqla, həm də zənlə F.Q.-yə baxdı: "anlayır", bu dəfə artıq birnəfəsə davam etdi. – Deməli, ikinci qayda! İnsan üçün ən əsas olan yaddaşdır. Yaddaşımız bizim dostumuzdur. Həm dostumuzdur, həm düşmənimiz?! Bəs bu necə

olur? Çox asan şəkildə. Birinci və ikinci qaydalar yalnız ilk baxışda bir-birini inkar edir. Əslində, onlar bir-birini tamamlayırlar. Bu ikisini eyni zamanda dərk etmək lazımdır. Həm düşmən, həm dost! Ya düşmən, ya dost – yox!! Həm düşmən, həm dost! Çiçəkli yazı ilə bağlı. Biz yaddaşa nə dərəcədə əsaslanmalıyıq və nə dərəcədə ondan təcrid olmalıyıq? Məsələ budur. Deyə bildim?

Patriarx "deyə bildim?" sualını dilə gətirdiyində təzə dostu nadir istedad sahibi akademik Azad Mirzəcanzadəni xatırladı. "Deyə bildim?" onun sevimli ifadəsi idi. Neft kimyasına, mexanikaya, kibernetik mühəndisliyə, elmin strategiya və taktikasına, həyata, gündəlik yaşama dair bəzən qəliz, bəzən isə sadə izahları ilə son dərəcə kamil biliyə malik olduğunu sübut etmiş və yavaş-yavaş Akademiyadan kənar, geniş dairələrdə məşhurlaşmağa başlayan Azad Mirzəcanzadə eyni zamanda son dərəcə mədəni bir adam kimi tərəf-müqabilindən (ondan nə qədər gənc olsa belə) axırda adətən "deyə bildim?" soruşardı. "Başa düşdün, anladın, aydındı?" yox, "deyə bildim?" Mən akademik (yəni, Azad Mirzəcanzadə) olsam da, öz fikrimi sənə (nolar, sən aspirantsan, lap tələbəsən...) normal şəkildə çatdıra bildim, ya yox?! "Deyə bildim?" – Azad Mirzəcanzadəyə hörmət edən Akademiya üzvlərinin bir növ zarafatyana parol ifadəsinə çevrilmişdi. F.Q., təbii ki, bu ifadənin məxəzini bilmirdi, amma sambalını dəyərləndirdi (Bu Patriarx necə də sadə, necə də mədəni adamdı, əsl alimdi... "Başa düşdün?" demir, "deyə bildim?" soruşur. Bunu gərək yadda saxlayım. "Deyə bildim?").

– Bəli, bəli, aydındı. – F.Q. tələsik cavab verdi və Patriarxa artıq gizlədə bilmədiyi (gizlətmək istəmədiyi!) bir heyranlıqla baxdı. Patriarx bunu görməsə də (o, yenə də gözlərini sahilə toxunan suların üstündən uzaq üfüqə, dənizin az qala ortasına doğru dikib bu dəfə oralarda yavaş-yavaş ağarmağa başlayan dalğaları diqqətlə süzürdü), hiss etdi və yüngülcə qımışdı. Bilinmədi ki, onun təbəssümü uzaqda ağaran dalğalara ünvanlanıb, yoxsa F.Q.-yə. Başını tərpədə-tərpədə:

– Mən Çiçəkli yazı ilə tanışam, – dedi. – Rəhmətlik Cəfər müəllimin çıxardığı surətləri çox diqqətlə nəzərdən keçirmişəm. Biləsən: bu yazının biz alışdığımız adi açarı yoxdur. Yəni, biz bildiyimiz informasiya ilə bu yazının

içinə girmək... bu mümkün deyil! Onun üçün sənin o möhtəşəm Ahəng barədə dediyin sözlər məni əməlli-başlı tutdu. Bütün naməlum yazıların hansısa bir açarı olub – bizdən əvvəlki alimlər yaddaşımız hesabına, unuda bilmədiyimiz nəyinsə köməyilə qədim xett yazılarını, ondan əvvəl heroqlifləri, finikiya yazılarını, qədim pəhləvi yazılarını, Orxon-Yenisey runlarını oxuya biliblər. Şampilyonun da açarı olub, Qroznının da, Kramerin də. Deyə bildim? ("Anladı!"). Mən özüm Hüngür yazısını oxumağa çalışanda açardan, başqa tanış dildən istifadə etmişəm. Bunsuz mümkün deyil. Hüngür mağarasının mətni iki dildə idi – qədim Azərbaycan (türk) dilində və qədim yunan dilində. Müasir yox, qədim yunan dilində. Özü də dori ləhcəsində. Açar da o oldu. Bu, deşifrəni xeyli asanlaşdırdı. Çiçəkli yazı isə belə deyil. Vəngdəki mağarada iki mətn yoxdur, bir mətn var. Onun izahedici açarı yoxdur. Açar, əslində, yazının öz içində gizlənib. Bu isə məsələni qat-qat çətinləşdirir. Dayaq nöqtəsi. Dayaq nöqtəsi olmalıdı, bilirsən?! Çiçəkli yazı nə heroqlifə əsaslanır, nə də mixi yazıya. Mən bunu Prezidiumun iclasında da dedim...

F.Q. macal tapıb "barmağını dişlədi", dünən Professorun kabinetindəki müşavirəni ("döyüşdən qabaq məşqi!") xatırladı. Professorun dediyi "Çiçəkli yazı nə heroqlifdir, nə də mixi yazı..." sözləri hardan gəlir – indi onun üçün aydın oldu. "Patriarx elə həmişə Patriarxdır!"

– ... Prezidiumun iclasında mən bunu dedim. – Patriarx F.Q.-nin duruxmağına heç bir fikir vermədi, yenə nitqi öz həmişəki sürətini yığdı. – İndi də o fikirdəyəm. Stiksə gəlincə... (balaca fasilə!) Stiks çayı mifoloji, hələ tarix olmayan bir dövrü simvolizə edir. Tarix, olmayanda isə nə olur?! Dəqiq, konkret tarix olmayanda variantlar yaranır. Bu belədir. Bilirsənmi, belə bir rəvayət var. Troya müharibəsinə səbəb şahzadə Parisin alması olub. "Parisin alması" ifadəsi hamıya məlumdur. Bir alma götürüb üstünə "Ən gözəl ilahəyə çatacaq!" sözlərini yazıblar. İndi Paris üç ilahədən birini seçib bu almanı ona verməlidir. Nə üçün belə ediblər? Bunun öz ayrıca səbəbi var. İndi bazarda almaların üstünə az qala qiymətlərini qaşıyıb yazırlar... Bütün məlum mətnlər deyir ki, Paris o uzaq mifoloji dövrdə – Stiks çayının lal, qaranlıq suları bizim dünyanı o biri, ruhlar dünyasından ayırdığı bir zamanda ("deyə bildim?") almanı Afroditaya verir, gözəllik ilahəsinə. O da mükafat olaraq Parisi gözəl

Yelena ilə birləşdirir, çünki bacardığı bu idi, Afrodita daha nə edə bilərdi ki?.. – Sahilə dəyərək hirsindən köpüklənən dalğalara guya etinasız qalan Patriarx bic-bic F.Q.-yə az qala göz vurdu. – Anlayırsan? Anlayırsan...

F.Q. bu mifoloji "əlifba"nı, əlbəttə, anlayırdı. Amma Patriarx köpüklənən sulara gizli bir işarə edib niyə ona göz vurdu – F.Q. bunu anlamadı.

– Amma o biri ilahə – Hera Parisə başqa şey vəd etmişdi. Bu rəvayətin bir başqa, paralel variantı da var. Tarixsizlik axı yozumlara, (variantlara) imkan yaradır, dedik. – Bu dəfə Patriarx, həqiqətən, F.Q.-yə ərklə göz vurdu. – Bu başqa varianta görə isə...

Patriarx susdu, qısa bir zaman içində nə isə beynində götür-qoy elədi, sonra əvvəlki tək sakitcə, amma qəfildən soruşdu:

– Paralel dünyalara inanırsan?

F.Q., elə bil, ömrü boyu həsrətlə bu sualı gözləmişdi:

– İnanıram! – Bir saniyə belə düşünmədən qətiyyətlə cavab verdi. "Var, var bu dünyalar. Uff. Ürəyimdən, elə bil, tikən çıxartdı".

– Onda... diqqətlə qulaq as.

Patriarxın dodağına yenə yüngülcə təbəssüm qondu, gözləri qıyıldı, (yumuldu?), xəyal onu uzaq keçmişə – uşaqlıq illərinə apardı. Əvvəlcə gözləri önündə atası peyda oldu. Üzü, gözü, cizgiləri yadından çıxsa da, bilirdi, – bu odur! Səsini isə tamam unutmuşdu. Bu təəccüblü deyildi. Atası çox danışmağı sevməzdi, elə hey dodaqaltı (heç kim eşitmirdi onu) vird edərdi, bir dindar adam idi atası. Böyük oğlunun həsrəti onun belini qırdı. Patriarxın böyük qardaşı evdən qaçıb getmişdi, səsi-sədası xeyli sonra uzaq Peterburqdan gəldi. Hansısa inqilabçılara, avantüristlərə qoşulmuşdu. Atası nigaran gözlərilə hər gün, hər saat ondan xəbər gözləyirdi, " təki sağ olsun, təki salamat olsun" – dodaqaltı öz-özünə danışırdı. Bir az da keçdi, Sibirdən vəfat xəbəri gəldi. Patriarx qardaşını, əlbəttə ki, heç əvvəldən xatırlamırdı, çox balaca idi o yoxa çıxanda. Bir o yadında qalıb ki, üç-dörd yaşlı balaca uşaqdı, qardaşının daim tüklü üzünə əlini sürtəndə həmişə qıdığı gəlmişdi, gülmüşdü. Qardaşı isə bu gülüşdən ilhamlanıb (bu gülüşü xüsusi bir izhari-məhəbbət sayıb) sevinc içində onu göyə atıb-tutur, "qaqaş, mənim balaca qaqaşım" deyib əzizləyirdi. Ata isə bu zaman şəfqət dolu gözlərilə onlara baxıb həmişəki tək narahat-narahat

vird edir... Bu səhnə gözünün önündən çəkilmirdi. İki-üç ildən sonra Patriarxın altı yaşı tamam olan kimi atası onu aparıb Göy məscidin həyətində mədrəsə vardı, ora qoydu. Mədrəsə həyatı isə... içində ulduzlar alışıb yanan qaranlıq... Bu qaranlığın içində indiyənədək onun beynində, qəlbində yaşayıb onunla bir həyat yolu gələn bəzi hadisələr, məqamlar ulduz tozcuqları kimi bu gün də sayrışır. Sayrışan ulduz tozcuqları bəzən qaranlığın dibindən sıyrılıb çıxır, gözə görükür, sonra yenə qaranlığa çökür, uzun bir müddətə qədər onun qəlbində gizlənirdi, elə bil, əriyirdi. Bir ağsaçlı, qırmızısaqqal, gözləri içindən od püskürən müəllimləri vardı. Adı Molla Güləli idi. Falaqqa əlinin altında hazır olardı. "Hə, vələdüzna, yenə əzbərə deyə bilmirsən müqəddəs sözləri?! Ayaqlarını cəld ol, soyun. Axşam səni damdabaca gəlib aparacaq. Gəlib aparsın, sən də gör, sən də gör, gör..."

Molla Güləlinin səsi də, dediyi sözlər də əks-səda kimi (bir ildən o biri ilə keçə-keçə) illər uzunu Patriarxın yadından çıxdımı, çıxmadı, ulduz tozcuğu qaranlıqda əridi, sonra yenə parıldadı, əridi, parıldadı, falaqqanın ağrısı bir yana, gecələr gözü yaşla dolu, dəhşət içində qorxudan balaca ürəyi çırpına-çırpına yataqda nə qədər gözləmək olardı "damdabacanı?!"

O illərin xatirəsindən güclə geri dönən Patriarx gözlərini acgözlüklə ona dikmiş F.Q.-yə "buna olar!" belə bir əhvalat danışmağa başladı:

– Bir dəfə, mədrəsədə oxuduğum zaman, mədrəsə müəllimim Molla Güləli bizə (o zaman artıq on, on bir yaşımız vardı) qəribə bir söhbət etdi. Əslində, bu bir rəvayət idi, Qurandan, şəriətdən uzaq bir mövzu... O zaman isə, demək olar ki, bütün dərslərimiz Quranı əzbərə öyrənməkdən, şəriətdən ibarət olardı. Bu Molla Güləli hər şeyi bizə əzbərlədərdi. Bircə kəlmə sözü unutsa idik, cəzamız vardı. Cəzamız real falaqqa idi (onu hər gün Molla Güləlinin bardaş qurub oturduğu döşəkcənin bir kənarında gözə görükən yerdə öz gözlərimizlə görürdük, əzbərə dilimiz dolaşanda falaqqa rəqs edə-edə gözümüzə fırlanırdı, "zərb-dəstini" ayağımızda hiss və özünə nifrət edirdik), bir də bizim cəzamız heç zaman üzünü görmədiyimiz və hər şeydən artıq qorxduğumuz (amma nifrət etmədiyimiz) damdabaca idi. Müəllimimiz haman rəvayəti bizə nəql edəndən sonra biz heyrət içində təəccüb etdik. "Bu nə qəribə nağıldı belə?!" O isə təhərini pozmadan əlavə olaraq bunu dedi ki,

biləsiniz, indi söylədiyim hekayəti mən sizə bir cəza kimi əzbərlədəcəyəm. O zaman anlayacaqsınız. Niyə? Nəyi? Sirri-qəliz! Amma... Molla Güləli dediyini etdi. Əzbərlətdi. Falaqqanın o qədər yox, damdabacanın qorxusundan əzbərlədik. Eşitmək istəyirsən? Sənin üçün maraqlı olacaq. Qulaq as...

***Molla Güləlinin rəvayəti. Tarixdən əvvəlki dövr. Zevsin şıltaqlığı. Peley ilə Fetidanın toy mərasiminə dəvət. Heranın təkidi və Poseydonun onun tərəfini tutması***

O zaman ki, küt bir külüng kimi torpaqdan dikəlib ətrafdan fərqlənmək istəyən bu dağdan üzüaşağı uzandıqca dənizdən dənizə qədər uzanan düzənliyə baxırdın, hər şey, hər bir hərəkət sənə adi sürətini artırmış kimi görünürdü – buludlar da sürətlə qaçırdı, otlar, ağaclar da sürətlə boy atırdı, adamlar da daha sürətlə hərəkət edirdilər, şəhərlər, kəndlər daha tez tikilir, daha tez böyüyür və daha tez məhv olurdular. Amma o zaman ki, aşağıdan yuxarı külüng kimi havanı ikiyə bölən bu dağa tərəf baş qaldırıb nəzər salırdın, o zaman adama elə gəlirdi ki, hər şey – göy üzündəki buludlar, dağın ətrafında fırlanan günəş, ay, bu qərib ulduzlar tənbəllik içində, son dərəcə sakit və laübali bir durğunluqdadırlar.

…Hər şey dünənki kimi ola bilərdi, amma bu dəfə olmadı. Zevs sabah-sabah ağlına nə gəldisə yenə şıltaqlıq etdi, şimşəkləri Olimp dağından Elladanın başı üzərində sağa-sola fırlatdı. Ona baxıb qardaşı Poseydon (Zevs Yunanıstanın baş Allahı idi, Poseydon, onun qardaşı isə dəniz Allahı idi) dənizin dərinliyindən suyun üzünə çıxdı, baş qaldıraraq şıltaq dalğaların üzərinə zərif-zərif toxunan sakit səhər mehini üfürüb-üfürüb yoxdan və heçdən möhtəşəm bir fırtına yaratdı.

Bircə anın içində az qala göy yerə, yer göyə qarışdı. Göy üzündə qara buludlar ağ buludları qabaqlarına qatıb qovduqca qovdular. Göylə yerin arasında leysan yağışlar qapqara sudan hasar yaratdılar. "Bəs mənə nə gəlib, Zevsin səsinə səs vermək lazımdı" düşünüb, küləklər Allahı Borey çayları, bulaqları yerindən oynatdı, şahə qaldırdı. Qasırğa qalın meşə ağaclarını bir-birilə öpüşdürdü. Dağdan aşağıda isə adamlar qorxudan az qala evlərinin içində döşəmə əvə-

zi torpağı bir az da dərinə qazıb yerin təkində gizlənmək istədilər. Kahinlər tələsik Zevsə və Poseydona qurbanlar kəsib nəzirlər verməyə başladılar. Bilmək olmazdı Şimşəkoynadanın (Zevsin) şıltaqlığı hələ nə qədər sürəcək. Əslində, onun bu günkü hərəkətinin bir səbəbi və mənası yox idi, aşağıdakılardan bir kimsə onu qəzəbləndirəcək heç hansı əməlin sahibi olmamışdı. Şıltaqlıq olmağına əməlli-başlı şıltaqlıq idi. Zevs barmaqlarının ucundan Olimpdən üzü aşağı nişan alıb tuşladığı şimşəklərin qulaq dolduran ağır səsindən tezcə özü də doydu, aşağıdakıların təlaşını göz önünə gətirib dodaqaltı qımışdı, "bu günlük bəsləridi, qoy unutmasınlar ki, onların başına nələr gələ bilər", – düşündü (Allahlar kainatda çox olanda Kainatın problemləri də çox olur).

Hamıdan əvvəl Hera, Zevsin zövcəsi (o, ailə, nikah, idarəçilik ilahəsi idi) əl-ayağa düşdü:

– Bu nə həngamədi?! Heç düşünürsən? Axı hər şeyin bir vaxtı-vədəsi var. Unutdunmu, bu gün toy gecəsidi.

– Toy gecəsi???

– Peleyi, Fetidanı unutdunmu?

Əslində, unutmuşdu. İndi, sadəcə, bunu boynuna almaq istəmirdi.

Çox keçmədi, Poseydon peyda oldu. O, deyəsən, Zevsin bu səhərki şıltaq oyununun beləcənə tez bitməsindən narazı idi. Heranı görüb başa düşdü ki, onun bu işdə barmağı var. "Yenə bu qadınlar", deyə ürəyində Heranı yamanlasa da bir söz demədi. Zevs ona bic-bic göz vurdu:

– Bu gecə toy imiş. Sən isə…

– Mən isə?..

– Əlbəttə, sən! Bu nə oyundu?! Bütün Elladanı (Qədim Yunanıstanı) qatdın bir-birinə… – Şimşəkoynadan yarızarafat, yarıciddi bir halda bu səhərki həngamədə Poseydonu günahlandırmağa çalışdı.

– Nə deyirəm, mən deyirsən, qoy mən olum, – Poseydon öz hökmdar qardaşının bu növbəti şıltaqlığını da həmişə olduğu kimi səmimi bir könül xoşluğu ilə qəbul elədi.

– Yaxşı ki, gəldin, – Kefi kökələn Zevs Poseydona dedi və baxışlarını Heraya tərəf itələdi. – Qulaq as və eşit! Bu toyda, mən deyirəm, hamı iştirak etməlidi, Hera isə etiraz edir, yox deyir, onu dəvət etməyək. Sən nə deyirsən?

– Kimi? Kimdən söz edirsiniz? – Poseydon əlindəki üçbuynuz nizəsini ehtiyatla bir kənara qoyub maraqla soruşdu:

– Erida! Eridanı deyir! – Hera gözlərini Zevsdən çəkməyərək Poseydona cavab verdi.

– Bax, gördün, deyir ki, guya o, toya nifaq sala bilər (Erida nifaq ilahəsi idi). Səncə cəsarət edər? – Baş Allah Zevs bütün möhtəşəm görkəmi, əzəməti ilə qardaşı Poseydona tərəf çevrildi. Bircə anda onun bütün bədəni, bütün daxili, bütün hüceyrələri tarıma çəkildi. Damarları nəhəng çaylar kimi oldu, sümükləri dağlara, təpələrə, tüklü dərisi isə taxıltelli zəmilərə bənzədi. Zevs nəhayətsiz qüvvə və sonu olmayan energiya toplusundan ibarət idi. Poseydon mat qalmışdı, hiss elədi ki, sövq-təbii damarlarında qanı donmağa başlayır. Dənizlərə hökm eləmək şimşəklərə hökm eləməkdən qat-qat asan imiş.

– Cəsarət eləməz! Heç vaxt! – Zevsin əzəmətinə heyran qalan Poseydon səmimi-qəlbdən nifaq ilahəsi Eridanın buna cəsarət edəcəyinə inanmadı.

– Edər! – Hera məftun gözlərini heç cür Zevsin möhtəşəm cüssəsindən çəkə bilmirdi, amma öz sərt cavabını yenə də kənara – Poseydona tərəf ünvanladı.

– Belə isə Hera həqiqəti söyləyir, qoy Erida bu toyda iştirak etməsin! – Poseydon tezcə və asanlıqla Heraya güzəştə getdi.

– Eh, sən qadın sözünə tez uydun... – Zevs Poseydonun Heraya bu cür "quyruq bulamasından", əslində, gizli bir məmnunluq duydu, amma bunu büruzə vermək istəmədi. – Yaxşı. O zaman qoy siz deyən kimi olsun. – Beləliklə, Zevs Hera deyənə özünün yox, qardaşı Poseydonun tərəf çıxmasından razı qalaraq son qərarını verdi. – Mənim qərarım belədir: qoy Erida bu toyda iştirak etməsin!

Sonra Zevs Heraya baxdı:

– Sən deyən oldu, razı qaldın?

Zevsin qərarından məmnun qalmış Heranın gözləri güldü.

***Kentavr Xironun mağarasında Peley ilə Fetidanın toy məclisi. Mağara ətrafında qəlbində intiqam hissi gəzişən nifaq ilahəsi Erida. Alma və almanın qabığındakı yazı: "Gözəllərin gözəlinə çatacaq!"***

Allahlar məşvərət edib qərara aldılar ki, Peley ilə Fetidanın toy məclisi kentavr (başı adam, bədəni at olan əfsanəvi məxluq) Xironun geniş mağarasında qurulsun. "Böyük məmnuniyyətlə razılıq verirəm" deyən Xiron mağaranı sahman-səliqəyə salmaq üçün neçə gün, neçə gecə əlləşdi, çalışdı. Allahlar ziyafətə yığışan zaman mağarada hər tərəf, hər künc-bucaq səliqə-sahman içində az qala işıq saçırdı.

Zevs əlin-əlinə sürtüb ətrafa gözucu nəzər saldı, məmnun qaldı. Yuxarı başa keçib əyləşdi. Hera onun sağ tərəfində, Poseydon isə sol tərəfində oturdu. Sonra Heranın yanında müdriklik ilahəsi Afina, Poseydonun yanında isə gözəllik ilahəsi Afrodita özlərinə yer elədi. Apollon (sənət və yaradıcılıq Allahı), Ares (müharibə Allahı), Hefest (dəmirçilik Allahı), Hermes (əlaqələr Allahı), başqa allahlar və ilahələr hay-küylə özlərinə yer seçməyə başladılar. Nəhayət, bütün allahlar böyük və təmtəraqlı ziyafət masasının ətrafında əyləşmiş oldu. Masanın aşağı küncündəki yerlər Peley və Fetida üçün ayrılmışdı. Allahlar toplaşdıqdan sonra onlar da öz yerlərini tutdular. Toy məclisi başlandı.

Ziyafət çox nəşəli keçirdi. Allahların, xüsusilə də dağ çayları kimi coşub-daşan Zevsin qəhqəsindən az qala qulaq tutulurdu. Hər kəs ən maraqlı saydığı əhvalatı xüsusi bir məzə ilə Zevs üçün danışırdı. Çox zaman bu əhvalat yer üzündə yaşayan adi adamların – bəni-insanların axmaq və sadəlövh hərəkətləri ilə bağlı olurdu. Bəzən də allahların öz aralarındakı anlaşılmazlıqlar həm Zevsi, həm Poseydonu, elə Heranın özünü və Afroditanı da əyləndirirdi. Get-gedə ağız deyəni qulaq başladı eşitməməyə. Onu da demək vacibdir ki, hadisə və əhvalatlar artıq təkrar olurdu. Bütün bunlar isə o mənanı verirdi ki, toy məclisi öz adi, təbii məcrasına düşmüşdür. Bu gecə allahlar həm özləri özlərindən, həm də Baş Allah Zevsdən xeyli razı idilər. Bir-birilərilə mübahisə və münaqişə etmədən keçən məclislər Olimpin (allahların yaşadığı külüngə bənzər dağın) ölməz sakinləri arasında çox da tez-tez baş vermirdi.

Və elə bütün gözəgörünməz və ucsuz-bucaqsız **Sonra** (!) üçün məhz bu toyun xüsusi təkan verəcəyinə inanmaq çox çətin idi.

Toya bircə nifaq ilahəsi Erida dəvət olunmamışdı. Ondan başqa bütün ölməzlər burda idilər. Heranın təkidi ilə o biri allahlar da belə bir gündə Eridadan uzaq durmağı gəlib Zevsdən xahiş etdilər, Zevs də onların sözünü yerə salmadı. Zevs yaxşı bilirdi ki, hərdən-birdən allahlara nifaqsız, münaqişəsiz keçən bir gecə də gərək olur və bir gecə allahlar tərəfindən ona – Baş allah Zevsə göstərilən sözsüz itaətin canını, mayasını yalnız və yalnız bir az da bərkidir.

Beləliklə, Eridanı toya çağırmadılar.

Və elə indi ağacların arasından Xironun mağarasına göz dikib mağaranı həsəd və nifrətli baxışları ilə az qala deşən Erida belə bir təhqirdən sonra özünə heç cür yer tapa bilmirdi. Paxıllıq, kin, xəbislik onun qəlbinə hakim kəsilmişdi. Gözləri par-par yanır, dodaqları öz-özünə nəsə pıçıldayır, beynində sürətlə fikir fikri qovurdu. Artıq neçənci dəfə Xironun mağarasından göylərə ucalan qəh-qəhə səslərinin gurultusu altında Erida mağaranın ətrafında oğrun-oğrun gəzişir, ziyafətə qarqaşalıq salmaq üçün üsul və yollar arayırdı. Öz acıq və qəzəbini tökmək üçün o hər şeyə hazır idi. Bir xeyli düşündü və … Nəhayət! Eridanın ağlına, nəhayət, çox məkrli və hətta ağıllı da demək olardı buna, bir fikir gəldi. “Tapdım!” deyə qəm-qüssəsi bir andaca sevincə çevrilən Erida ən qorxunc fırtınadan daha sürətlə uçan bir quş olub Hesperidlərin uzaq bağçasına tərəf uçdu. Qızıl alma! Ona qızıl alma lazım idi. Bircə dənə. Bircə dənə qızıl alma! Bu alma ilə nə edəcəyini Erida yaxşı bilirdi. Qızıl alma nəinki bu günkü toy ziyafətini qanqaralığa çevirəcək, həm də onu uzaq-uzaq hadisələrin qəribə, ağlagəlməz dolambaclarına gətirəcək. “Siz mənim intiqamımın acısını dadıb məni hələ xeyli vaxt xatırlayacaqsınız!” – Hesperidlər bağından almanı dərərkən Erida ləzzətlə belə düşünürdü.

Nifaq ilahəsi az sonra əlində qızıl alma yenə də Xironun mağarasının qarşısında peyda oldu. Elə buradaca bitən dəfnə ağacının xırdaca bir budağını qoparıb bıçaq kimi iti bir qələm düzəltdi. Almanın gözəl üzünə bu sözləri yazdı: “Gözəllərin gözəlinə çatacaq!”. Yazdığını bic-bic süzdü və dodağı qaçdı.

… Allahların başı müharibə Allahı Aresin böyük həvəslə danışdığı qanlı-qadalı savaşın xırdalıqlarına elə qarışmışdı ki, heç biri bu gözəl və öz içindən ətrafa işıq saçan qızıl almanın masanın yuxarı başına – Zevsin və ətrafındakı ilahələrin qarşısına necə gəlib düşdüyündən xəbər tutmadı. Alma isə artıq Hera, Afina və Afroditanın düz qənşərində onların hər birinə yanıq verirmiş kimi "gəl-gəl" deyirdi və sadəlövh Poseydon almanı görüb onu diqqətlə süzdükdən sonra gözlərini qıydı və "Gözəllərin gözəlinə çatacaq!" sözlərini elə ucadan oxudu ki, maraqlı bir müharibədən söhbət açan Ares də, onun sözünü tez-tez kəsərək şuluqluq salan digər allahlar da qəfildən susdular. Ortalığa narahat bir sükut çökdü. Poseydon isə yavaşdan və aramla öz dediyini (əslində, buna artıq ehtiyac yox idi) bir daha təkrar elədi:

– Gözəllərin... gözəlinə... çatacaq…

– Yəni, kimə? – Zevs də artıq almanı görmüş və Poseydonun sözlərini eşitmişdi. Öz sualı ilə ağlına gələni elə o dəqiqə dilinə də gətirdi və dərhal "səhv etdim" düşünüb üzrxahlıqla əvvəl Heraya baxdı, sonra mənalı-mənalı Afinanı süzdü, lap axırda isə heç nə anlamaya-anlamaya gözünü ondan çəkməyən Afroditaya ciddi bir nəzər saldı.

Yenə ortalığa həmən qəribə sükut gəlib çökdü. Zevsin sualına allahlardan heç biri cəsarət edib cavab vermədi. Handan-hana sükutu Hera pozdu:

– Gözəllərin gözəlinə, yəni, mənə! Yəqin məni nəzərdə tutublar!

– Səni? – Afroditanın səmimi təəccübünün həddi-hüdudu yox idi. – Səni? Bəs mən o zaman kiməm səncə? Gözəllik ilahəsi deyilmiyəm mən? Unutdunmu? Əlbəttə, alma mənimdir.

– Xeyir, alma mənə çatacaq. – Afinanın bu yersiz mübahisəyə qoşulacağını deyəsən allahlardan heç biri gözləmirdi (onun gözəlliyi heç zaman diqqəti çəkməmişdi). – Bəli, mənə çatacaq. Çünki Hera və Afrodita heç zaman əvvəl düşünüb sonra danışmırlar. Mən isə əvvəlcə düşünürəm, sonra danışıram. Fərqi duyursunuzmu? Mənim fikrimcə, ən gözəl ilahə elə mənim özüməm.

– Sən? Ciddimisən?

– Bəli, mən. Yoxsa Hera elə bilir ki, o artıq bütün ilahələrin əvəzinə danışa bilər?!

– Bunlar, görəsən, nəyin mübahisəsini edirlər? Mən sussam yaxşıdır. – Afrodita heç kimə, amma, əslində, hamıya müraciət edərək süni bir təbəssüm içində şəhvətli dodaqlarını büzdü. – Mən kiməm ki?! – Sonra qəfildən təbəssümü üzündən qeyb oldu və o qəzəbli bir səslə Zevsdən, – Sən görürsən? Nə üçün susmusan? – soruşdu.

Zevsin (Zevs Afroditanın atası idi, amma Afroditanın anası Hera deyildi) təbəssümü qeyb oldu, istədi, özünü eşitməzliyə vursun. Haqsızlığa dözməyən gözəllik ilahəsi isə öz sualında israrlı idi:

– Ata! Niyə danışmırsan? Söylə! Mən kiməm? Mən gözəllik ilahəsiyəm, ya deyiləm?!

– Sus! – Hera əməlli-başlı qəzəbləndi.

– Yox, niyə ki? – Afina (o da Zevsin bir başqa qızı idi, özü də döyüş əlbisəsi əynində Zevsin birbaşa başının içindən doğulmuşdu) fürsətdən istifadə edərək bu ilahələrin hər ikisini bir-birilə toqquşdurmaq istədi. – Bu xanım gözəllik ilahəsi deyil, bə kimdi?

– Sən də sus! Alma mənimdir, dedim! – Heranın gurultulu səsi mağaradan çölə yol alıb dörd bir tərəfi dəhşətli bir lərzəyə saldı, sanki dağ başında vulkan püskürdü.

Erida bu səsi və bu səsin özü ilə gətirdiyi möhtəşəm qəzəbi eşidib gizləndiyi yerdəcə asudəliklə köks ötürdü, "alındı" düşünüb dalı-dalı qaranlığın lap dərinliyinə çəkilərək havada əridi, yox oldu: "Mən öz intiqamımı aldım!"

Mağaranın içində isə mübahisələr get-gedə qızışır, daha da kəskinləşirdi. Nə Zevs, nə də o biri allahlar bir-birilə artıq az qala didişən üç ilahəni sakitləşdirməyin yolunu axtarıb-axtarıb heç cür tapa bilmirdilər.

– Alma mənə çatmalıdır! Mənəm gözəllik ilahəsi! – Afrodita qətiyyətlə və şivəli-şivəli, sağa-sola başını çevirib durdu, sanki öz möhtəşəm gözəlliyini bir daha ətrafa nümayiş etdirirdi. Onun həsrətilə alışıb-yanan cavan allahlar, xüsusilə də Hefest, hiss edilirdi ki, onu dəstəkləmək istəyir, amma Heranın qorxusundan bu, sözdə yox, gözdə və daha çox ürəkdə belə idi. Yəni, "mən səninləyəm".

– Yox, alma mənə ünvanlanıb! – Afina ağıllı və diqqətli gözlərilə ətrafını sınayıcı baxışla seyr edib özünə ciddi müttəfiq aradı. Bu zaman başqa allahlar

baxışlarını Afinadan qaçırmağa çalışdılar. Yalnız Apollon ona çox gizli şəkildə başı ilə yüngülcə "hə" işarəsi verdi, demək istədi ki, "mən səninləyəm".

– Alma yalnız və yalnız mənim olmalıdır! – Heranın sözləri isə artıq əsl hökm kimi səslənirdi və belə deyərkən o, gözlərini qırpmadan cəsarətlə Zevsin düz gözlərinin içindəki dibsiz dərinliyə baxırdı.

– Dayanın! Bəsdi! – Nəhayət, Şimşəkoynadan (Zevs!) öz gur səsini ucaltdı. Dağlar, dərələr, elə bil, bunu gözləyirdi, hər tərəf guruldadı, titrədi, bir anlıq işıq hər yanı bürüdü. Mağaradakılar başa düşdü ki, Zevs artıq bu uzanıb gedən mübahisədən bezib, nəhayət, bir qərara gəlmişdir. – Bəsdir! Mən bu mübahisəni bu cür bitirməyi qərara alıram. Bu mübahisəni allahlar çözməyəcək!!

Kifayət qədər hiddətlənmiş və qanı qaralmış Zevs nəfəsini dərib ətrafa göz gəzdirdi. Sükutun özü onun qulağına gizlicə pıçıldadı: "düzgün qərardır". Bütün digər allahlar rahatlıqla köks ötürməyə başladılar. (Hətta olmplilər üçün də münsif olmaq arzuedilməz bir cəza idi).

– Allahlar bu mübahisəni çözə bilməz! – Zevs ətrafındakı allahların əhval-ruhiyyəsini duymuş olduğundan rahat-rahat sözünə davam etdi. – Bunu etsə-etsə bəni insan edəcək. O öz qərarında daha tərəfsiz olar. Yəni… daha ciddi olar.

– Doğrudur!
– Əlbəttə, bu ki adi həqiqətdir!..
– Bəs kim? Kim bunu edəcək?
– Görəsən kimə belə bir vəzifəni etibar etmək olar?
– Ciddi və tərəfsiz… Doğru qərardır!

Allahlar fikrə getdilər. Baş Allah Zevs özü də düşüncələrə qərq olmuşdu. Bir xeyli beləcə sükut içində vaxt keçdi. Cavab isə yenə Zevsdən gəldi. Onun bənizi işıqlandı, gözləri güldü və Zevs üzünü Apollona tutdu:

– Apollon! Sən bir qədər əvvəl öz sevimlin Troya padşahı Priamın kiçik oğlu Parisdən danışırdın. Dedin ki, indi şahzadə olsa da ata evinə qayıdandan sonra yenə də əvvəlki işi ilə, qoyun otarmaqla məşğuldur.

– Bəli, ulu Zevs, Paris bu gun də çobanlıq edir.

– Gözəl!!! Mən qərarımı verdim. Bu mübahisəni Paris həll edəcək. Almaları üç ilahədən birinə – ən layiqli olana qoy o çoban versin!

...Toy məclisi gecədən xeyli keçmiş, amma vaxtından əvvəl, beləcə narahat bir nigarançılıqla bitdi və allahlar hamısı ürəklərində Eridanı söyə-söyə (çünki bu mübahisəni, bu nifaqı salanın məhz Erida olduğunu artıq onlar anlamışdılar), ürəklərində yarızarafatla, yarıciddiyyətlə Parisin halına acıyaraq yavaş-yavaş Olimpə doğru üz tütüb dağılışmağa başladılar. Sonuncu qonağı yola salıb – bu isə Ares idi – kentavr Xiron ziyafət boyu allahların hüzurunda cınqır belə çıxarmadan utana-utana bir küncdə oturub unudulmuş Peley ilə Fetidaya üzünü tutub belə dedi:

– Siz bilirsiniz ki, mənim adıma müdrik Xiron deyirlər. Bu gecə burda baş verənlər sizin toyunuzdan sonra **Sonra** nə cür gələcəksə, onun artıq məhzun çöhrəsini göstərdi. Stiks çayının qaranlıq sularına and olsun ki, nə gələcəksə, nə cür gələcəksə, onun əsası bu gecə qoyuldu. Bunu sizə mən, qoca kentavr Xiron deyirəm.

### *İlion qalasının ətrafında qoyun otaran Paris.<br>Üç ilahənin vədi və Parisin seçimi*

Troyanın (Kiçik Asiyada yerləşən, indi isə izi-tozu belə qalmayan şəhər) altıncı padşahı qoca Priamın oğlu və Apollonun sevimlisi Paris uzun illərin ayrılığından sonra (tarixdən əvvəlki dövr üçün əgər ki, illəri sıralamaq mümkündürsə, bu dövr üçün mümkün deyil!) yenicə öz ailəsinə qovuşmuşdu. Hələ Paris körpə ikən onun Troyaya, guya ki, bədbəxtlik gətirəcəyini söyləyənlər atası Priamı və anası Gekubəni buna inandıra bilmişdilər. O zaman Priam öz körpə övladını uca qaladan üzüaşağı atdırıb bu şəkildə öldürmək istəyir. Paris xoşbəxt bir təsadüf nəticəsində sağ qalır, onu çobanlar tapıb öz övladları kimi bəsləyirlər. Priam uzun illər öz amansız hərəkətinin üzücü peşmançılığını çəkir və, nəhayət, allahlar bir gün onu sevindirirlər. Paris artıq boya-başa çatmış yetkin bir gənc kimi Priam və anası tərəfindən tapılıb tanınır və şah ailəsinə qaytarılır. İndi o, artıq yaşa dolmuş Priamın şahzadə Hektordan sonra ən böyük ümididir. Bəli, yalnız Hektordan sonra, əlbəttə ki, Hektordan sonra. Çünki həm Troya camaatı, həm saray əhli qəhrəman Hektorun ağıllı və bacarıqlı, cəsur və güclü olmasına görə ona son dərəcə səda-

qətlidir. Bunu Paris artıq yaxşı bilir. Paris onu da yaxşı bilir ki, o, həmişə ikinci olacaq, o, yalnız ikincidir. Moyralar – bu taleyazan ilahələr onun taleyinə yalnız ikinci olmaq yazıblar. Və bunu artıq heç vaxt, heç cür dəyişmək mümkün deyil. Hektor, həqiqətən, əsl qəhrəman və əsl dövlət başçısıdır. Parisə isə saraya döndükdən sonra ürəyindəki hisslər heç cür rahatlıq vermir, qulağına "sən, sən, yalnız sən Troyaya layiq başçı, layiq padşahsan" deyə ardı-arası kəsilməyən müdhiş pıçıltılar gəlirdi.

Həmən gün səhər tezdən öz sevimli peşəsindən (qoyun otarmaqdan) heç cür əl çəkə bilməyən Paris İlion qalasından şah ailəsinə məxsus qoyun sürüsünü çıxarıb meşəliyə tərəf (oralar eyzən çəmənlik idi) otarmağa apardı. Bir daşın üstündə oturub Paris dərin fikrə daldı və qoyunlar onun dörd yanında dolaşıb ahəstə-ahəstə otlamağa başladı. Bir qədər keçdi. Qəfildən Parisin oturduğu yerdən azca aralı (orada isə dəfnə ağaclarının bitdiyi kiçik bir meşəlik var idi), meşəlikdən üç ucaboylu qadın çıxıb yavaş-yavaş düz Parisə tərəf irəliləməyə başladı.

Paris başını qaldırıb artıq ona yaxınlaşmaqda olan bu üç qadını diqqətlə süzdü, onları tanımağa çalışdı. Tanıya bilmədi. Amma hansısa bir qüvvə onu ayağa qalxmağa məcbur elədi. Bu qadınlar ayaqlarını torpağa basıb yerimirdilər, onlar az qala torpağa heç toxunmurdular. Bu qadınlar bütün vücudları ilə ətrafa işıq saçır, öz gözəl yerişləri ilə səliqəsiz, pinti, hələ təzəcə bərqərar olmağa başlayan dünya ahənginin içindən çıxıb seçilirdilər. Bunu görən Paris anladı ki, qarşısındakı bu üç qadın adi qadınlar deyil, onlar ilahələrdir. Amma Paris gözlərinin qamaşacağından ehtiyat etdiyinə görə onların üzünə baxıb hər birini ayrı-ayrılıqda tanımağa cəhd eləmədi. Paris elə beləcə ayağa durmuş və başını aşağı əymiş şəkildə, itaət və qabiliyyətlə təzimdə əyilmiş qaməti ilə bu ilahələri qarşıladı. Belə bir duruş öz-özlüyündə ehtiramlı bir salama bərabər idi.

İlahələr Parisin iki addımlığında dayanıb durdular.

– Görürəm ki, sən Paris qarşında duranların kim olduğunu və hardan gəldiyini artıq bilirsən. – İlahələrdən biri onun bu cür müti duruşunu layiqincə qiymətləndirdi və ona müraciətlə belə dedi.

Paris yenə də başını qaldırmağa cəsarət etmədən son dərəcə yüksək təvazökarlıqla cavab verdi:

– Bəli, bilirəm, siz Olimpin sakinlərisiniz.

– Elədir. – İkinci ilahə təsdiq etdi. Onun səsi Parisə əsl fleytanın səsini xatırlatdı.

Qoyunlar otlaqda sakitcə bir halda dayanıb durmuş, ilahələr bura gəldikdən sonra tam bir hərəkətsizliyə düçar olmuşdular. Havada balaca bir meh də əsib eləmirdi, göy üzündən keçib gedən buludlar sanki öz yerində donub səbirsizliklə nəfəs dərərək bu görüşün nə ilə bitəcəyini maraq edirdilər.

– Sən bilməlisən ki, biz yalnız bizə lazım olan zaman özümüzü siz bəni-insanlara göstəririk. Sən isə... sən bizə baxa bilərsən, – deyə birinci danışan ilahə lütfkarlıqla icazə verdi.

– Mən bunu bilirəm. Çox sağ olun. – Paris ehtiyatla cavab verdi, amma başını yenə yuxarı qaldırmadı.

Səsi ilə fleytanı xatırladan o biri ilahə daha səbirsiz idi. O tezliklə mətləbə keçmək istədi:

– Gəlin məsələni uzatmayaq. Nə üçün gəldiyimizi ona açıb deyək. Paris, biz sənin yanına Zevsin göstərişinə əsasən gəlmişik.

Hələ də ilahələri diqqətlə gözdən keçirməyə cəsarət etməyən Paris damardakı qanının donduğunu hiss elədi. "Mən nə günahın yiyəsiyəm?" yaddaşını arayıb ələk-vələk etdi, çox düşündü, çox daşındı, amma ağlına dürüst bir şey gəlmədi.

– Sənin günahın yoxdur… hələ yoxdur. Paris, nəhayət, başını qaldır və bizim hər birimizə ayrı-ayrılıqda nəzər sal. Diqqətli ol. – Bunu deyən ilahə Hera idi. – Mən Herayam.

Paris ehtiyatla başını qaldırdı və Heraya dərin bir təzim edəndən sonra digər iki ilahəni ədəblə, tək-tək nəzərdən keçirdi, onların nur saçan, möhtəşəm varlığından vəcdə gələrək ürəyindəcə "əhsən" dedi. Dili isə:

– Siz çox lütfkarsınız, – sözlərini səsləndirdi.

– Almanı ona göstər. – Afina Heraya məsləhət verdi. – Nə etməli olduğunu anlat. Mən isə Afinayam. – İlk dəfə ağzını açan Afina Parisi çox böyük diqqətlə və bir qədər də sərtliklə süzdü.

– Paris, gəl məni də tanı. Mən də Afroditaym. – Səsi ilə fleytanı xatırladan ilahə Parisin üzünə ılıq bir təbəssüm göndərdi. Parisin yanaqları allandı.

Hera o biri ilahələrlə gözləşdi və qərara gəldi ki, Parisə məsələnin kökünü açıb-ağartmaq vaxtı gəlib çatıb:

– Paris, mənə diqqətlə qulaq as. Qarşında üç ilahə vardır. Mən Herayam, bu Afinadır, bu isə Afroditadır. Bu almanı görürsən? – Heranın əlində qəflətən bir alma göründü. Paris həyatı boyu bu gözəllikdə alma görməmişdi.

– Bu almanı görürsən, deyilmi? – Hera sualını təkrar etdi.

– Almanın üstündəki yazını oxu! – Afina Parisə dedi.

– Ən gözələ çatacaq… – Afrodita orada yazılanı Parisin əvəzinə dilinə gətirdi.

Amma Paris Afroditanın dediyi ilə kifayətlənmədi, bu gözəl ilahəyə gizli bir heyranlıqla baxa-baxa almanı ona uzatmış Heradan baş əyərək böyük bir ehtiramla qəbul edib üstündəki yazını ucadan bir daha özü oxudu:

– Gözəllər gözəlinə çatacaq!

– Gördün? – Afroditanın gözləri yenə şıltaq bir təbəssüm içində süzüldü.

Hera isə ciddiliyindən əl çəkmirdi:

– Paris, biz üç ilahənin mübahisəsinə sən son qoymalı və almanı bizlərdən birinə sən verməlisən.

– Kimi ən gözəl hesab edirsənsə, ona. – Hətta Afina da bu məqamda səsinə gizli bir şirinlik qatdı.

– Mən? Niyə mən? – Paris təəccüblə soruşdu.

– Zevs belə istədi. – Afina cavab verdi.

– Bəli, Zevsin iradəsi belədir. – Hera Afinanın dediyini təsdiq etdi.

– Mən... mən axı bilmirəm, sizlərdən hansınız daha gözəlsiniz?! Siz üçünüz də əsl gözəllik mücəssəməsisiniz, – Paris yenə də böyük bir ehtiram və ehtiyatla (əslində, hiyləgərliklə) ilahələrə belə dedi. Ürəyində isə acı-acı düşündü: "Birinə almanı verib özümə bir himayədar qazanacağam, o biri ikisi isə mənə ömürlük düşmən kəsiləcək". Paris niyyət etdi: "hiylə ilə də olsa, gərək bu münsif vəzifəsindən birtəhər boyun qaçıram. Qaçıra bilərəmsə Zevsə üç qoyun qurban kəsəcəyəm".

– Bəli, sən münsifsən. Və sən bundan boyun qaçıra bilməyəcəksən. Boşuna özünü yorma və boşuna Zevsə vədlər vermə. Bizi bura Zevsin özü göndərib, – Hera Parisin qəlbindən keçənləri dərhal duydu.

“Zevsin özümü? O zaman nə etməli?! Elə isə kimə, mən bu lənətəgəlmiş almanı kimə verim? Seçimimi nə cür edim ki, yenidən güclə qovuşduğum saraydan məni bir daha qovmasınlar?! Nə edim, necə edim?” – Heranın sözlərindən sonra əli-qolu sustalmış Parisin beynindən sürətlə məhz bu fikirlər gəlib durna qatarı kimi keçdi.

– İstəsən, biz sənə kömək edə bilərik… – Hera yenə o biri ilahələrlə baxışaraq şirin bir dillə Parisin dadına çatmaq istədi.

– Necə? – Hələ də çaşqın Parisin səsi ümidsiz və əlacsız idi.

– Sən özün seçim edə bilərsən, yoxsa?.. – bu dəfə Afina Parisə sual verdi.

Biçarə Paris yenidən diqqətlə ilahələri bir-bir süzüb nəzərdən keçirdi. “Mən bunların hansına verim almanı? Üçü də gözəllərin gözəlidi. Hərəsinin öz gözəlliyi, öz ləyaqəti... Hera… kimdə belə şahanə, nüfuzedici baxış var? Heç kimdə! Bəs Afina? Boya bax, əndama bax… Əsl amazonkadır. Hələ bunun ağlı... Afrodita… Ağzı, burnu, gözləri şəhvət dolu, ehtiras dolu, ah… Mən nə edim, necə edim?..”

Bu düşüncələrdən sonra Paris qətiyyətlə ilahələrə belə cavab verdi:

– Yox, mən özüm seçim etməkdə çətinlik çəkirəm.

– O zaman… – Hera nəfəs dərib diqqətli gözlərini Parisin üzünə dikdi. – O zaman biz hər birimiz sənə ən qiymətli bir hədiyyə verməyə hazırıq. Onlardan birini qəbul et və almanı o hədiyyənin əvəzi kimi bizim birimizə ver!

Paris “sehirli” hədiyyə sözünü eşidən kimi kefi kökəldi, gözləri qıyıldı, artıq təkcə qulaqları ilə deyil, bütün tarıma çəkilmiş vücudu ilə də ilahələri dinləməyə hazırlaşdı. “Buyurun...”

İlk sözə müdrik Afina başladı:

– Dinlə məni, Paris. Sən əgər almanı mənə vermiş olsan… – Afina danışığına xüsusi bir ehtişam verməyə çalışdı, – o zaman mən… mən səni dünyanın ən müdrik adamı edərəm!

“Kentavr Xirondan dahamı müdrik?” Paris Afinaya hörmətlə baş əydi. Sonra sual dolu gözlərini Heranın üzünə dikdi, “Bəs sən?..”

– Əgər almanı mənə versən, – Hiyləgər Hera təmkinlə və ağır-ağır danışmağa başladı, – əgər ən gözəl ilahə kimi sən məni seçmiş olsan, o zaman mən Hera səni bütün Asiyaya hökmran edərəm.

"Yəni, Troyaya?!" Paris buna az qala inanmaq belə istəmədi, amma qəlbi yerindən oynadı, gözlərini endirib eyni hörmətlə Heraya da baş əydi, sonra aşağıdan yuxarı, yuxarıdan aşağı dərin bir heyranlıq və vəcdlə üçüncü ilahəni – gözəllik və sevgi ilahəsi Afroditanı süzməyə başladı.

Bütün vücudundan şəhvət yağan Afrodita isə Parisə nazlana-nazlana belə dedi:

– Dinlə məni, Paris. Yaxşı dinlə məni və yaxşı düşün. Sən bizim aramızdan seçib ən gözələ çatacaq bu almanı mənə versən, mən səni… Mən səni, bəli, mən səni dünyanın ən gözəl qadınına qovuşduraram.

"Ən gözəl qadın – yəni, gözəl Yelena! Elladada, elə bütün Asiyada ondan gözəl kim var ki?.."

İlahələr susdu. Bu zaman bütün ətraf da sükuta qərq oldu. Elə bil, təkcə ilahələr deyil, bütün dünya Parisin qərarını gözləməyə başladı. Paris isə cavab verməyə heç də tələsmirdi, əlindəki bu qəşəng qızıl almanın o üzünü, bu üzünü işığa tutur, diqqətlə gözdən keçirir, qaşlarını çatıb çox ciddi bir halətdə nəyisə götür-qoy edir, düşünürdü. Nəhayət, Paris qərara gəldi. Səbirsizliklə ondan cavab gözləyən ilahələri bir də ayrıca-ayrıca gözdən keçirdi. "Nəhayət, nəhayət, arzuma yetişdim!" İllər uzunu yuxusuz gecələr keçirib bu barədə düşünməmişdimi?! İndi arzusunun gerçəkləşməsinə bir, bircə addım qalırdı. Sonuncu addım. "Əlbəttə, əlbəttə, sən! Sən!! Gözəllər gözəli, əlbəttə ki, sənsən!.." Paris ilahələrin birinin önünə keçib diz çökdü və dinməz-söyləməz baş əyib almanı ehtiramla ona uzatdı.

İlahənin gözləri güldü. Sevinci hədsiz, qüruru sonsuz oldu. O biri ilahələr isə içlərini çəkib "ah"... zəhmlə susdular, gözəl üzlərinin rəngi qapqara qaraldı.

– Mən səni sabah arayıb tapacağam! – Hera gözdən itmədən əvvəl sevinc və minnətdarlıqla Parisə bu sözləri dedi və o biri ilahələrə qururlu bir baxış atıb əlindəki almanı ucaya, lap ucaya – göylərə qaldırdı. Elə bil, vaxt itirmədən, elə indicə almanı Baş Allah Zevsə göstərmək istəyirdi. Bəli, almanın sahibəsi Hera olmuşdu, Paris almanı, əlbəttə ki, Heraya vermişdi. Ancaq və ancaq Heraya! Asiya, deməli, Troya üzərində hökmranlıq! Bu artıq şirin, əlçatmaz xəyal yox, bir həqiqət idi və tarix boyu irəli sürülən bütün sonrakı, bütün başqa yozumlar mənasızdır.

Üç ilahə (biri məmnun, ikisi pərişan) Parisdən ayrılıb dəfnə meşəliyinə doğru yenə də ayaqları az qala yerə toxunmadan uzaqlaşa-uzaqlaşa elə havadaca əriyib başladılar bir-bir yox olmağa. Parisin qəlbi yaxın hakimiyyətin şirin dadını elə o andaca hiss edib həyəcanla vurdu.

Qoyun sürüsü yenidən hərəkətə gəldi, quzular mələşdi və itələşə-itələşə Parisin dörd bir yanını almağa başladılar. Buludlar göy üzündə yenə də öz yollarına düzəldilər.

Sabah! Sabah Hera Parisi hökmən axtarıb tapacaqdı. Sabah qoca Priam qayıqçı Xaronun qayığına minib Stiks çayını keçəcək, çayın ortasına çatarkən bütün yaddaşını itirəcək, dünyada baş vermiş nə vardısa, onun taleyini həyatı boyu müşayiət etmiş nə vardısa, hər şeyi unudacaq və ölüm Allahı Aidin səltənətinə qədəm qoyacaqdı. Qəhrəman Hektor vaxtilə Prometeyin zəncirə çəkildiyi Qaf dağına qaçıb canını ölümdən zorla qurtaracaqdı, Paris isə öz arzusuna – Troyaya hökmran olmaq arzusuna, nəhayət ki, çatacaqdı.

***Molla Güləlinin danışdığı hekayət burada bitir.***
***Yenə dəniz kənarı, yenə həmən yer***

Patriarx son sözlərini söyləyib susdu və dərindən nəfəs aldı "eh...". Səsindən hiss olunurdu ki, bir qədər heysizləyib. Təkcə yekə və tüklü qulaqları ilə deyil, az qala bütün vücudu ilə onu dinləyən və maraqdan cınqırını çıxarmağa belə ehtiyat edən F.Q.-nin üzünə yorğun bir uşaq səmimiyyətilə baxaraq soruşdu:

– Deyə bildim?..

Danışıb-danışıb yorulmuş Patriarx söhbətini qurtaran zaman dənizdən yavaş-yavaş əsməyə başlamış meh artıq əməlli-başlı küləyə (balaca xəzriyə) dönmüşdü. Dənizin ortasında bir-birinin dalınca ağaran və bir-birinin belinə minən dalğaların sayı xeyli artmışdı. Xəzri özü ilə sərinlik gətirirdi. Bu şəhərdə yayın əvvəlində heç belə istilər görünməmişdi, camaat çox əziyyət çəkirdi. İndi birdən-birə, xəbərsiz-ətərsiz xəzrinin az qala heç nədən qalxması və ağ dalğaların belində üzü şəhərə tərəf qalib bir ədayla üzməsi heç olmasa qısa (bəlkə də uzun) müddətə adamlara sərinlik vəd edirdi. Patriarx üzünü məm-

nuniyyətlə küləyə tutub sərinliyi bütün üz qırışları, bütün vücudu ilə (saçları az qala rəqs edirdi) qəbul etməyə hazırlaşdı. "Borey, Borey, bu sənmisən?". Onun heysizliyi xəzrinin ilk həmləsi ilə uçub harasa getdi. F.Q.-yə elə gəldi ki, bayaqkı söhbətin ayrı-ayrı sözləri də əvvəlcə mehə, sonra küləyə qarışdı, itdi, çünki külək burada səslənən bəzi sözləri Patriarxın ağzından alıb harasa aparırdı, gizlədirdi, üstünü bərk-bərk örtürdü. F.Q. onları bəzən eşitmirdi, bəzən isə başa düşmürdü – sözlərin yarısı havada əriyib gedirdi.

– Əgər sən paralel dünyalara inanırsansa, – küləkdən saçını əli ilə tuta-tuta Patriarx F.Q.-ni sarsıdan əvvəlki sualına döndü, – o zaman demək ki, bu hekayət sənə çox şeyi aydınlatdı. Mültəfit olursan?! Bax, alma... bütün insanlığın sonrakı inkişaf dövründə, bütün mədəniyyət, ədəbiyyat dərsliklərində, ensiklopediyalarında Paris bu almanı kimə verir? Ay sağ ol, Afroditaya – gözəllik ilahəsinə. O bəs nə edir? Parisə verdiyi vədi yerinə yetirir. Nə cür? Parisi gözəl Yelenaya ürcah edir, onları birləşdirir.

Patriarx özü sual verir, özü də sualına cavab verirdi (bundan hələ ləzzət də alırdı). F.Q. isə diqqətlə qulaq asa-asa başını tərpətməyə ancaq macal tapırdı. Patriarx bu işarətləri (F.Q.-nin başını tərpətməsini) dediklərinin təsdiqi kimi qəbul etdi:

– Ay sağ ol. Homerə inansaq, Paris gözəl Yelenanı əri ola-ola yoldan çıxarır və onu Kiçik Asiyaya, Troya şəhərinə qaçırır. Atası Priamın padşahlıq etdiyi Troyaya. Sonra nə olur?

Bu dəfə Patriarx səbrlə F.Q.-nin cavabını gözlədi. F.Q. "maşallah" sualı cavabsız qoymadı:

– Sonra, yenə Homerə inansaq, Troya müharibəsi başlanır.

– Bəli, elədi. Doğrudan da, bütün dünya tarixi Homerin təsirilə qanlı Troya müharibəsinin səbəbini bunda görür və Gözəl Yelena ilə Parisi bu işdə əsas günahkar sayır. Gözəl Yelenanın isə günahı, əslində, yoxdur. Onun Troya müharibəsindən heç xəbəri belə olmamışdır. Çünki belə bir müharibə ömür-billah baş verməyib! Molla Güləlinin rəvayəti hadisələrə başqa bir istiqamətdən baxmağı təklif edir. Deyə bildim?! Alma? Var! Paris? Var! Amma... Afrodita yoxdur! Gözəl Yelena yoxdur! Əvəzində, Hera – var! Asiyaya hökmranlıq ehtirası – var, Paris – var! Bəs Hektor? Hektor nə olur? Hara qaçıb ge-

dir?! Molla Güləli deyir ki, Hektor Prometeyin zəncirləndiyi Qaf dağına qaçıb qardaşının qəzəbindən canını orda zorla qurtarır. Qaf dağı, yəni, Qafqaz sıra dağları! Amma hansı bölgə? Hektorun ayaq izləri bizi haracan aparır, hansı nöqtəyəcən gətirə bilir? Vəng dağı – necə? Çiçəkli yazı bu barədə bir şey deyə bilərmi?! – Patriarx altdan-altdan F.Q.-ni süzdü.

Patriarxın son sualı çox adi (eyni zamanda, çoxmənalı) və ehtiyatlı bir tərzdə səslənmiş olsa da F.Q. üçün bu, bir ildırım çaxması oldu. Elə bu zaman dənizin ortasında uzaqlarda qəfildən nəsə parıldadı, həqiqətən, şimşək çaxdı. "Zevs qəzəb etdi!" Patriarxın gözləri bir anda alışıb yandı və o acgözlüklə uzaq sularda çaxan şimşək tərəfə baxıb, elə bil, nəyi isə yenə də gözləyə-gözləyə qaldı. Saçlarını daha tutub düzəltməyə də çalışmırdı, saçı böyük bir ağacın budaqları kimi ora-bura dağılır, bütün üzünə isə sirli bir təbəssüm yayılırdı. Təbəssüm, elə bil, axar çay idi (Stiks çayımı idi?), ora-bura axıb, nəhayət, üzündəki bütün məsamələrə doldu. F.Q. Patriarxın sözlərini bir daha xatırladı: "Bu yazının qanadlarında Stiks çayının sahillərinə qədər getmək olar". Bu sözlərin əsl mənası heyrət içində qalmış və matı-qutu qurumuş F.Q.-yə yalnız indi, bütün dərinliyi ilə ancaq indi əyan oldu. "Patriarx Stiks çayının sahilində olub, hökmən olub". Şimşək bir daha çaxdı və susdu.

Patriarx yenə əvvəlki halsız, taqətsiz adama döndü, saçlarını düzəltməyə çalışdı, bir an əvvəlki Patriarx harasa (Stiks çayının sahilinəmi?) uçub getdi:

– Mən sənə, biləsən, heç bir açar-filan vermək fikrində deyiləm. – Patriarx bu sözlərlə F.Q.-ni qabaqlayıb onu nahaq yozumlardan çəkindirmək və arxayın etmək istədi (Açarı Aslanzadə təklif etmişdi: "Atilla" sözünü! Guya Atilla bütün dərdlərin əlacıymış. Çiçəkli yazı guya bu sözün işığında açıqlanacaqmış). Patriarx üzünü turşutdu: – Əvvəlcədən hazır açar vermək olmaz. Sən mətnin özündən çıxış etməlisən, öz beynindəkini mətnə aparmamalısan. Qətiyyən! Sənin müşavirədə dediklərinlə mən şərikəm. Açar yazının içində, onun ətrafındakı möhtəşəm Ahəngdədi. Amma gözəl tapmısan: möhtəşəm Ahəng! Özün tapmısan?!

Patriarxın xırda gözlərinin içindən bic bir təbəssüm boylandı, o bic-bic qımışdı. F.Q. Patriarxın bayaqkı, söhbətindən sonra hələ də özünə gəlməmişdi,

odur ki, "Özün tapmısan?!" sözləri onun heç vecinə də olmadı. "Hə fərqi varmış?! Əlbəttə, özüm, özüm tapmışam..." Hektor – Qafqaz – Vəng dağı, mağara – Çiçəkli yazı... Əlaqə! Əlaqə! Varmı burada əlaqə?! Yoxdu, yoxdu, amma necə də cəlbedicidi, necə də yağ kimi yerinə oturur (otura bilər). "Atilla hara, bu hara? Allah lənət eləsin!"

– Beynini yorma. – Onun bu halını görüb Patriarx F.Q.-yə indi də xeyli yumşaq bir tərzdə, diqqətlə və sınayırmış kimi baxdı. Baxışında aşkar bir canyananlıq var idi. Onların arasındakı son sədd elə bu zaman dağıldı, bu ikisi bir-birilə artıq üz-üzə, göz-gözə qaldılar. – Özünü yorma, deyirəm. Əgər paralel dünyalara, həqiqətən, inanırsansa...

– İnanıram. – F.Q. bu dəfə yavaş səslə Patriarxa az qala yalvarırmış kimi: "neçə dəfə deyərlər?!" pıçıldadı.

– İnanırsan. Mən də, bax, onu deyirəm, inanırsan. Çox gözəl. O zaman Molla Güləli danışan rəvayətin bir başqa dünyada, paralel dünyada baş verdiyinə də inanmalısan. Afrodita, Gözəl Yelena – burda! Bu dünyada! Hera və hakimiyyət isə o biri, paralel dünyaların hansındasa... Yaxud, əksinə.

Patriarx bunları deyib "daha bəsdi", qətiyyətlə ayağa durdu. Külək getgedə güclənirdi. Uzaqlarda (bəlkə də şiddətlə) yağmağa başlayan yağışın nadir damlalarını dalğalar özü ilə gətirib xəsisliklə sahilə səpələyirdi. F.Q. Patriarxa baxıb o da skamyadan qalxdı. Yayın, demək olar ki, ortasında belə bir "cığal" dəniz küləyi?!. Hələ də sahilə tələsən, amma artıq başqa dalğalar yazda açan gilas və alça ağacları kimi çiçəkləmişdi, eyzən ağappaq idilər.

– Bilirsən, Bakıda üç cür külək olur: xəzri, gilavar, bir də... gicəvar (bilinmir, xəzridi, ya gilavardı, hardan gəldi əsir...). Bu, əsl xəzridir. Get-gedə güclənəcək. Vaxtdı. Mən – mürəxxəs. Çox şad oldum.

Patriarx hələ də bir qədər çaşqın vəziyyətdə durub dayanmış F.Q.-yə ürəklə əl uzatdı, şəstlə onun üzünə baxdı.

– Çox sağ olun. Mən sizin dediklərinizi unutmayacağam. – F.Q. sədaqətlə ona baxdı.

– Unutma. "Bilirəm ki, unudan deyilsən!". Uğurlar!

– Sağ olun.

– Sən də sağ ol.

Özünü qəflətən quş kimi yüngül hiss edən Patriarx F.Q.-dən ayrılıb əlləri arxasında, dənizin sahili boyunca uzanan məhəccərin yanı ilə üzü Hökumət evinə tərəf addımlamağa başladı. F.Q. onu heyran baxışları ilə ötürürdü. Budur, külək sevə-sevə onun saçlarını dağıdır, hərəkətlərini ləngidir, onunla sanki məzələnir. Patriarx isə buna qətiyyən əhəmiyyət vermir, o öz işində, yavaş-yavaş da olsa irəliləməyindədir. Artıq F.Q. də onun yadından çıxıb, günorta keçirilən müzakirə də həmçinin. Beynində o yenə on illər öncədə, öz mədrəsəsindədir. Molla Güləlinin qarşısında bardaş qurub əzbərə nəsə danışır:

"... Paris bu ilahənin önündə diz çöküb başını əyərək qızıl almanı ona uzatdı. Bu ilahə nə Afrodita idi, nə də Afina. Bu ilahə Hera idi..."

... Molla Güləlinin şişmiş, yağlı (kifir) sifəti yavaş-yavaş qaranlıqdan işıq kimi sıyrılıb çıxır, o, razı-razı başını tərpədir, gözlərində ılıq, üzündə isə acı bir təbəssüm bu balaca uşağa baxır, baxdıqca baxır. Amma bir əli ilə də falaqqanı onun uşaq başını sığallayan kimi sığallamağındadır.

Bir başqa dəfə isə... İndi də Molla Güləli onlara – ona və mədrəsə yoldaşlarına yeni bir əhvalat danışır. Bu başqa əhvalat eynən o birilər kimi əzbər öyrədilir, özü də eləsinə əzbərlədilir ki, indinin özündə də ilkin bakirə deyimində səslənə bilər. Bu əhvalat da çox maraqlı bir əhvalatdı. Əslində, bu əhvalat Molla Güləlinin yuxusudur.

"... Yaman külək qalxdı. Ağacların başı bir-birilə öpüşür. Poseydon yenə hirslənib". Patriarxın dodağına ılıq bir təbəssüm qonur...

... Bəli, bu odur, Molla Güləlidir, o bir daha Patriarxın gözü qarşısında heçdən peyda olur, geniş və təəccüblə açılmış gözləri yenə alışıb-yanır, qırmızı saqqalını əli ilə tumarlaya-tumarlaya, səssiz halda nə isə danışır, eynən qoca və halsız atası kimi dodaqaltı vird edir...

***Molla Güləlinin yuxusu.***
***Patriarx dəniz kənarı ilə evinə gedən yerdə. Bərk külək əsir***

"... o gecə bərk yağış yağırdı. Yağışlı gecələr bir başqa aləmdir. Evdə yatdığım qaranlıq otaq birdən-birə qəribə bir işığa bürünməyə başladı. Qəri-

bəliyi südəbənzərliyində və ahəstəliyində idi, çırağı yandırarsan, birdən yanar, otaq isə ahəstə-ahəstə ağardı. Otaq işıqlanmağına işıqlandı, amma mənim gözlərim əvvəl-əvvəl yenə də bir zad seçmədi. Nə gördümsə sonra gördüm, bu gördüyümü də birdən-birə yox, yavaş-yavaş seçməyə başladım. Açıq pəncərədən (hadisə isti yay gecələrinin birində baş vermişdi) yekə, uzun bir tülkü quyruğu kimi otağıma süzülən işıq topasının düz içindən iki qanadlı mələk çıxdı. Kürəklərində həqiqi qanadlar var idi və bu qanadlar yerlə sürünür, mələkləri rahatsız edirdi. Əvvəlcə, elə güman etdim ki, bir yuxudu görürəm, yuxudu bu. Amma sonra anladım ki, yox, bu, yuxu deyil. Mələklərdən biri üzündə zərif, çox zərif (hətta mülayim!) bir təbəssüm mənə nəvaziş edirdi. O biri mələk isə sərt idi, cod baxışları vardı.

– Bizimlə getməlisən... – Mülayim mələk mənə xitabən həlim bir səslə dilləndi.

O biri mələk qaşqabaqlı idi, susmuşdu, danışmırdı.

– Tut bizim qollarımızdan. – Mülayim mələk yenə də üzündə təbəssüm qolunu mənə uzatdı. Bu biri sərt mələk də yenə bir söz demədən, bu biri tərəfdən bir qolunu da bu uzatdı.

– Yum gözlərini! – Mələklər əmr etdilər və mən gözlərimi bərk-bərk yumdum. Bunların biri yapışdı (əslində, buna "toxunmaq" deyə billik) çox ehmalca mənim bir qolumdan, o biri yapışdı o biri qolumdan və biz birlikdə işıq topasının içi ilə uçub getdik. Mən ilk dəfə idi ki, gerçəklikdə bu cürə uçurdum. Xəyal aləmində (o biri dünyalarda) çox uçmuşam, belə isə – ilk dəfə! Yağışın altında, üzümə-gözümə yağış damlaları vurur və bilinmir, yağış yuxarıdan aşağı yağır, yoxsa aşağıdan yuxarı yağır... Uçmaq nədir? Sənin canında, qanında, beynində, zehnində, qəlbində, könlündə artıq nə varsa, onları tullamalısan bir yana, çıxarmalısan içindən. Yalnız bu zaman sən uça bilərsən, yalnız bu zaman sən azad olarsan.

... Özümdə, sözümdə deyildim. Yəni, mən həqqən uçuram?! Bəli, uçuram. Hara uçurdum – bilmirdim, niyə uçurdum – bilmirdim, necə uçurdum – onu da bilmirdim. Sadəcə uçurdum! Bunu, hiss eləməyin özü dünyalara dəyərdi. Mələklər qanadlarını elə ahəstəcə, elə yüngülcə açıb örtürdülər ki, sanasan kəpənək qanadlarıdı. Aşağıda şəhərin adda-budda işıqları göründü, az

keçdi, onlar arxada qaldılar. Dərələr, təpələr gölməçələr, ağaclar... Eyzən Qarağac idi aşağılar. Bu çoxlu ağaclar sonra diqqət edib gördüm ki, bir ağacın ayrı-ayrı budaqlarıdı, bir böyük Qarağacdı! Handan-hana uçub bir çəmənliyin ortasında yerə endik. Mən ayaqlarımın altında torpağı hiss edib ürəkləndim. Dörd yanıma boylandım. Ətrafda təəccüb doğuracaq heç nə görmədim. Amma bu, ilk baxışda belə idi. Uçuş, elə bil, davam edirdi. Məni kim idisə bərk-bərk silkələdi. Bundan sonra özümə qayıtdım. İçimin yenidən dolduğunu, çəkimin əvvəlki kimi bərqərar olduğunu hiss elədim, yaddaşım yenidən mənimki oldu. Uçuş zamanı unutduğum nə vardısa yenidən xatırladım.

Özümə gələn zaman ilk onu gördüm ki, başdan-başa qövsi-quzehin içindəyəm. Bura, əslində, üfüq idi. Həmişə uzaqdan həsrətlə baxıb can atdığım, heç bir bəndənin yaxınlaşa bilmədiyi məkan! Bütün əsl hadisələrin baş verdiyi yer. Xatırladığım, xatırlamadığım, bildiyim, bilmədiyim, duyduğum, duymadığım hər şeyin üfüqünün düz ortasına gəlib düşmüşdüm. Məni bura gətirən mələklərə bənzər (bunların da düz kürəklərinin ortasından ağappaq, dümağ qanadları açılırdı, amma qövsi-qüzehin içində bu qanadlar son dərəcə, son dərəcə ahəngdar idilər, torpaqla sürünüb eləmirdilər, genişlikdə bu mələklər tovuz quşu kimi açmışdılar qanadlarını) digər mələklər, biri-birindən gözəl, biri-birindən füsunkar idilər. Üç idi, beş idi – mələklər aldılar məni araya. Ürəyimdən keçdi ki, yəqin əcəlim yetişib, mən də canımı tapşırmışam. Bunu düşünüb cəsarətləndim. O tərəf, bu tərəfə boylanıb gördüm ki, mələklərin arxasında böyük və dairəvi bir ayabənzər qurğu var, özü də içindən işıq verir – yanıb sönür, yanıb sönür. Mələklərin biri baxdı ki, mən, nəhayət, özümə gəlmişəm, gözlərimi açmışam və hər şeyi anlayıram (və həm də anlamıram!), əli ilə bu birilərinə işarət verdi, və bu biri mələklər məni çiynimdən basıb oturtdular çəmənliyin üstünə. Sonra bu baş mələk üzünü (gözəl surətini!) mənim yağışdan islaq olmuş üzümə yaxınlaşdırıb diqqətlə məni nəzərdən keçirməyə başladı. Onun baxışları bıçaq kimi (ancaq ağrısız bir halda) sancılırdı mənim gözlərimin düz içinə və oradan keçib qəlbimin dərininə, mənim özümün də ağlıma gəlməyən yerlərə gedirdi. Bu hal mən bilmədim, nə qədər çəkdi. Baxdı, baxdı, sonra döndü yoldaşlarına. Nəsə bir cərəyan keçdi bunların arasından bir-birinə. Sonra bu baş mələk bir daha

üzünü çöndərdi mənə, üzündə isə nə sərtlik vardı, nə həlimlik vardı, heç bir ifadə yox idi. Bizim doğma dilimizdə, təmiz ana dilimizdə məndən soruşdu:

–Qorxmursan?

–"Yox". – Mən ancaq başımı yelləyib cavab verə bildim, səsim isə çıxmırdı.

–Qorxma. – Baş mələk məni "eşitdi", mənimlə yenə təmiz doğma dilimizdə danışdı, məni sakitləşdirmək istədi. – Bizdən sənə ziyan gəlməz. Sənin Allahın var, mən bilirəm, ona görə də qorxma. Sənin Allahını mən tanıyıram. Sənin Allahın mənim dostumdur. Ona görə də qorxma, heç qorxmayasan...

–Baş üstə, Allahıma qurban olum. Qorxma deyirsən, qorxmanam. Allahıma and olsun, zərrə qədərinə qorxmanam, – mən dedim.

–Bax belə. Yaxşı olacaq, hər şey yaxşı olacaq. Qaytaracaqlar səni evinə-eşiyinə. Evinə qayıtmaq istirsən?

–Elə istirəm, elə istirəm... Bəs mən ölməmişəm? – Mən ümidlə soruşdum.

–Yox, sən ölməmisən. – Baş mələk gülümsünüb mənə cavab verdi. – Səni bura səhvən gətiriblər. İndi qaytarıb aparacaqlar evinə geri.

Bax, bu zaman mən, həqiqətən, qorxdum, qorxu ürəyimi iki yerə parçalayıb içinə elə inamla girdi ki, öz-özümə dedim: "Ölməmişəm, amma indi həqqən ölləm! Necə yəni, məni bura səhvən gətiriblər?! Necə yəni, sənin Allahın mənim dostumdur?! Mən indi öz Allahıma nə cavab verəcəyəm qiyamət günündə?!"

Gözlərim biixtiyar öz-özünə yumuldu. Bir yumub bir açdım, gördüm ki, yenə öz evimdə, öz otağında, öz yorğan-döşəyimin içindəyəm. Həmin o tülkü quyruğuna bənzəyən işıq topası da duman kimi yavaş-yavaş çəkilib otağın açıq pəncərəsindən çıxıb getməkdədir. Sonra yağış da kəsdi. "Lənət şeytana" gözlərimi bərk-bərk yumdum, bir qədər keçdi, tamam sakitləşdim, sabaha qədər dərindən və rahat nəfəs ala-ala yatdım. Bu qədər. Əzbərə! Əzbərə öyrənəcəksiniz dediklərimi, vələduznalar! Öyrənməzsəniz, damdabaca gəlib sizə... mən bilirəm, sizə nə edəcək... nə edəcək... nə edəcək... mən bilirəm..."

Bakı küləyi yüngül bir quş lələyi kimi Patriarxı arxadan itələyə-itələyə evinə sarı aparırdı.

# VI fəsil

***F.Q. kəndə gələli 1 ay sonra.***
***Axşamçağı "Balaca"nın altında. F.Q. və Bəhram kişi***

Axşam yellənçəklə yavaş-yavaş və ehmalca kənd evlərinin damına, ordan da ehtiyatla həyət-bacaya düşürdü. Küçələrin səsi kəsilmiş, orda-burda evlərdə işıqlar yanmağa başlamışdı. F.Q. əynini isti elədi, çünki axşamlar artıq ayazlayırdı. Həyətə düşüb Balacanın (Qarağacın) altındakı skamyada yerini rahatladı, ulduzların çıxmasını (gizli bir həsrətlə) gözləyə-gözləyə ondan iki addım o tərəfdə samovarla əlləşən Bəhram kişini yorğun-yorğun, əslində isə, tənbəl-tənbəl süzməyə başladı. Ona kömək təklif etməyi heç düşünmürdü, bilirdi ki, bunun bir xeyri yoxdur, hər işi gözəsoxmadan özü görəcək. Axşam yeməklərini həmişəki kimi burda yeyəcəkdilər. Bəhram kişi pendiri, lavaşı, yumurtanı, soyutma kartofu, pomidor-xiyarı və... həmişəki kimi balla dolu masxoranı gəlin misalı gətirib mizə düzdü və sonra samovardan iki stəkan çay süzüb birini qoydu F.Q.-nin qabağına, o birini qoydu F.Q.-nin üzbəüzünə, özü üçün. Sonra əlindəki çay dəsmalını mizin üstünə atdı, keçib mizin arxasında öz yerində F.Q. ilə qarşı-qarşıya oturdu. Çayı çəkdi qabağına.

– Sağ ol, – F.Q. altdan-altdan Bəhram kişiyə baxıb yavaş səslə (yasa batmışlar kimi) dilləndi. Halına acımağa adam axtarırdı.

– Nuş olsun, – Bəhram kişi özünü o yerə qoymadan, adəti üzrə təmkinlə cavab verdi.

Hələ qaranlıq tam düşməmişdi, amma göy üzündə orda-burda işıqlı ulduzlar artıq görünməyə başlamışdı. "Hadisələrin üfüqü" hələ aydın seçilmirdi. Qarağacın budaqları yarpaqlarını bir-birinə yaxınlaşdırır, toxundurur, sanki əvvəlcə nəyisə yoxlayır, sonra bu yarpaqlar məşum bir xışıltıyla biri o

birinə sarılırdı. Sonra yenə aralanırdılar, sonra yenə xışıltı... Bəhram kişi isti çaydan bir qurtum alıb boğazını arıtladı:

– O doğrudur ki, "sən yaxşı bilərsən", göydə elə ulduzlar var ki, özləri çoxdan sönüb-gediblər, işıqları isə indi-indi gəlib bizə çatır? Yəqin, onları gözlə görmək heç mümkün deyil?! – Bəhram kişi əlindəki stəkanı yavaşca mizin üstünə qoydu, pendir dürməyini götürüb dişlədi: "şükür sənə, ilahi", həmişəki kimi səliqə və iştahla (elə bil, plov yeyirdi) yeməyə başladı...

Söhbət hər axşam, təxminən, buna bənzər bir sualla başlayırdı. İlk dəfələr F.Q.-yə elə gəlirdi ki, Bəhram kişi bu cür suallarla onu çək-çevirə, imtahana çəkir, dişinə vurur, yoxlamaq istəyir ki, görsün bu istedadlı alim kimi ad çıxarmış gəncin həqiqi səviyyəsi nə dərəcədədir, yaşına uyğundur, ya haqqında deyilənə?! Odur ki, F.Q. əvvəl-əvvəl bu söhbətlərə həvəssiz qoşulardı. Ha bir dəfə, ha iki dəfə, Bəhram kişi ilə gündəlik ünsiyyətini də bunun üstünə gəlsək, F.Q., nəhayət, günlərin birində anladı ki, bu adam, həqiqətən, süni şəkildə heç nə eləmir, nə soruşursa, yalnız öyrənmək naminə soruşur. Bunu özü üçün aydınlaşdırandan sonra F.Q. toxdayıb sakitləşdi. Bəhram kişi yavaş-yavaş onun gözündə doğma birisinə çevrildi. İndi də F.Q. ona yarıciddi, yarızarafat belə bir cavab verdi:

– Düzdür, mən də bunu hardasa oxumuşam, amma yox, deyəsən, (bəlkə də) televizorda eşitmişəm. Onlar sönüblərsə, əlbəttə, görünməzlər. Onların yerini göy üzündə Nəsirəddin Tusi özü dirilib gəlsə, vallah, yenə tapa bilməz.

Bəhram kişinin dodağı qaçdı:

– Həmi?... belə de.

Özü artıq məhv olmuş, amma işığı indiyənə qədər bizə tərəf yol gələn ulduzların romantik taleləri axır vaxtlar Bəhram kişini tez-tez düşündürür (bunu Mübariz ona danışmışdı), o da (Mübariz kimi) elə hamı kimi bu ulduz taleyini insan həyatının müstəvisinə keçirməyə çalışırdı. Ölüb gedəndən sonra "alicənab", "qiymətli", "nəcib" deyə qiymətləndirilən adamlar həmən ulduzlar kimiydilər. Bu verilən qiymətlər ulduz işığı idilər. Ulduzun işığı ölmürdü, insanın isə, ölüb getsə belə, nəcibliyi, əməli, insanlığı yaşamağına davam edirdi.

– Bilirsən, Bəhram dayı, mən bu yazını bu cür bilməzdim.

F.Q. onu ağrıdan, ona dinclik verməyən, iti bir bıçaq kimi ürəyinə saplanıb qalmış bu acı söhbəti (artıq neçənci dəfə) yenidən başladı. Ürəyinin dərin bir nöqtəsində çox istəyirdi ki, ona acısınlar, bir az nazıyla oynasınlar.

– Üzmə özünü. Oxuyarsan, inşallah, oxuyarsan... – Bəhram kişi fikrini cəmləyib F.Q.-ni sakitləşdirməyə çalışdı. "Uşaq ki deyil, sən bir mənə baxırsanmı, mən niyə bunu sakitləşdirirəm?!"

– Birdən oxumazsam?! Amma mən bura necə həvəslə gəlmişdim... Sən ki şahidsən.

F.Q. bu sözləri, bu əhvalı ilə Bəhram kişiyə ürəyindəkiləri ondan saxlamadan (gizlətmədən, əslində, yuyulmuş paltar kimi zivəyə düzüb) açıq-aşkar ürək qızdırırdı, bir başqa adama heç vədə belə etiraf etməzdi. Amma... yox, bəlkə təkcə Patriarxa belə bir etiraf etməyə özündə güc tapardı. Son söhbətləri yadına düşdü: Molla Güləlinin nağılı, Stiks çayının sahilləri, Xaron, Kentavr Xironun mağarasında toyda əylənən allahlar, Zevs, Hera, Paris... Yox, F.Q. Stiks çayının sahillərinə qədər gedib çıxa bilmədi – əfsus. Əlaqəni tapa bilmədi – heyif. "Zəiflədim, bu zəhrimara qalmış yazı məni zəiflətdi. Eh, F.Q., F.Q..."

Bəhram kişinin ürəyi sıxıldı, F.Q.-nin üzünə baxa bilmədi, F.Q.-nin üz-gözündə niskil və həsrət özünə məskən salmışdı. Amma Bəhram kişi üzünə sərtlik verdi, elə bil, F.Q.-ni də sərt olmağa çağırmaq istəyirdi, istəmirdi ki, uşaq kimi qəlbi nəzilsin, ərisin, "ah-vay" ruhuna hakim olsun... "Bacaracağammı?!"

İti baxışlarını naəlac Bəhram kişi diqqətlə mizin üstündəki çay stəkanına zilləyib eləcə durmuşdu, elə bil, stəkanı baxışı ilə itələyib-itələyib yerindən tərpətmək istəyirdi. Beynindən daha nələr gəlib keçirdi, onu Allah bilirdi, gözünün bir ucu isə yenə də F.Q.-də idi. "Təəssüf, təəssüf!...Bu oğlan özünü həlak edəcək. Kaş ki etməsəydi... Hayıfdı. Bəlkə açım olub-olmayanı buna danışım? Ürək-dirək verim?! Yox. Zalım, zalım, zalım ruh... Gör bir necə aləmi qatdı bir-birinə."

Bəhram kişi Mağaranın ruhu ilə ilk və hələlik son söhbətini, gizli "sövdələşmələrini" bir daha xatırladı. "Yazıya əl vurmaq olmaz! Əl vuran öləcək!" – O məşum fısıltı, elə bil, yenə gəlib beyninə girdi. "Bunu aldatmaq olmazmı?! Görən nə etsək, bu bizi rahat buraxar?! Xeyir! Olmaz! Bu bir yupyumru, tərs ruhdur, heç vədə! F.Q. isə... – Bəhram kişi F.Q.-yə baxdı, – ondan da tərsdir!"

Bu gecənin saysız-hesabsız ulduzları göy üzündə yavaş-yavaş işıqlandı, elə bil, kim isə onlara nəfəs verib bircə-bircə yandırdı. F.Q.-nin heç cür baxıb-baxıb doymadığı tanış, doğma bir mənzərə yenə gözü önündə canlandı. Ulduzlar gəlib öz yerini tutdumu, artıq uzaq üfüqdəki hadisələr, yaxın budaqdakı yarpaqların qorxulu pıçıltısı, Bəhram kişinin gözünün dibindəki sirli (amma işıqlı!) vahimə – heç nə, vallahi və billahi, heç nə artıq F.Q.-nin vecinə deyildi. Elə bil, uşağa oyuncaq vermişdilər, başını aldadıb ovudurdular. Uşaq – F.Q., oyuncaq isə – ulduzlar idi. Bir anlıq da olsa, F.Q. içində çəkdiyi o məşəqqəti, o əzabı unutmuş oldu:

– Bəhram dayı, sən bu ulduzlardakı həyata inanırsan axı, özün demişdin. Amma əgər bu belədirsə, əgər bu ulduzların hər birində həyat varsa, deməli, biz hər birimiz eyni zamanda həm də ordayıq?! Ulduzlar sonsuz saydadılar, sayı-hesabı yoxdu axı onların... biz onların hər birindəyik?!

– Sonsuz olmağına sonsuzdular, saysızdılar.

– Bəs bu saysız dünyalar necə dolur, nəylə dolur?

– Hə, qəliz soruşdun. – Bəhram kişi qaşlarını düyünlədisə də, amma yenə təmkinini pozmadı, əli ilə yuxarıda öz taptığı bir ulduza işarə elədi. – Bizim ayrı-ayrı anımızla dolur, balası. Bax, bəlkə də bir an sonra biz burda yox, bax onu, yaxındadı, görürsən, yanıb-sönür, elə bil, göz vurur, o ulduzda peyda olacağıq?! Mən belə düşünürəm. Bir an orda olub, sonra o ulduzu da tərk edəcəyik?! Sonra bir başqası, bir başqası... Qəlbimiz gəzir kainatı, qəlbimiz...

– Mən isə başqa cür düşünürəm. – F.Q. düşüncəli-düşüncəli, gözünü Bəhram kişinin əlini uzadıb nişan verdiyi ulduzdan çəkmədən dilləndi. – Yox, elə bilmə, sən söylədiklərində də nəsə bir həqiqət var. Qəlbimizin gəzintisi də... hm, pis deyil. Amma ən böyük həqiqət məncə odur ki, əgər paralel dünyalar vardısa (sən də bununla razısan), o zaman onlar sonsuz saydadılar və bu sonsuz dünyaları nəyləsə (sən deyirsən, qəlbimizlə, mən isə deyirəm, cismani nəyləsə) doldurmaq lazımdır. Bu, doğrudur. Buracan səninlə razıyam. Amma... mən bir az başqa cür düşünmək istəyirəm.

Bəhram kişi "soyuq oldu", skamyanın üstünə atdığı dəri kürkünü əyninə geyindi, F.Q.-yə razılıqla (açıq bir təqdirlə) baxdı; o, isti, qırmızı xətli cemperini bu dəfə Bəhram kişinin təkidi olmadan geymişdi. Baxdı və gözü ilə cemperə işarə edərək:

– Düz eləmisən, – dedi.

– Soyuq oldu? – F.Q. soruşdu.

– Bir azdan əməlli-başlı üşüyəcəyik, – Bəhram kişi mövzuya qayıtdı. – Özünə zülm eləmə, balası... (nəyə işarə etdiyi aydın idi) nədi axı səni belə üzən, qəm dəryasına batıran?! Fikrini dağıt, bayaq nə deyirdin, hələ bir başa sal məni görüm, sən özün nə deyirsən, necə izah edirsən bütün bunları, bu... dünyaları? Maraqlı şeylər danışırsan.

– Eh... ondan keçib, – F.Q.-nin səsi məyus gəldi. Yazının çiçəkləri tahər-tövrlərini dəyişib qaratikən kolu kimi gözünün önündə bitmədimi, bitdi. – Məncə, Bəhram dayı... bax, bu stəkanı görürsən? – F.Q. beynini deşən "yazı" mövzusundan qaçmaq istədi, gözü ilə ora-buranı nəzərdən keçirəndən sonra birdən əlini atıb Bəhram kişinin bayaqdan diqqətlə göz qoyduğu balaca çay stəkanını mizin üstündən götürdü. – Görürsən bunu? O biri dünyaların hansı-sa birində bu stolun (mizin) üstündə bu stəkan yoxdur. Vəssəlam. Beləcə son-suza qədər. Kiçik, yaxud böyük fərqlərlə. Bu dünyaları, əgər sonsuzdularsa, sən düz deyirsən, nə iləsə doldurmaq lazımdır. Olsun: qəlblə. Mənsə deyirəm: birində stəkan var, o birində yoxdur. Başqa birisində iki yox, üç stəkan var. Deyə bildim? – F.Q. yenə də Patriarxı xatırladı, zorla da olsa, dodağı qaçdı.

Bəhram kişi diqqətlə ona qulaq asırdı:

– Səni anladım, balası. Deyə bildin. Amma, diqqət elə, əgər belədirsə, o zaman biz səninlə o ulduzların birində bu saat oturmuşuq ordakı Qarağacın altında və sən mənə deyirsən: o biri ulduzda (yəni, artıq bizimkində) bu stəkan bu mizin üstündə deyil. – Bəhram kişi boylandı, – odu bax, samovarın yanındadı.

– Əslində, belə deyirəm: bir başqa dünyada, Qarağacın altındakı stolun üstündə belə bir ("amma hardan bilirəm – necə?") stəkan var. Ya da yox, belə yox, hər hansı stəkan var. Razısan mənimlə?..

– Niyə, niyə də yox? Bax, mən əlimi qaldırıram... – Bəhram kişi əlini qaldırdı.

– O biri, başqa dünyada əlini qaldırmırsan, əlini yana uzadırsan, bir başqasında isə aşağı salırsan, tamam başqa birində əlini yox, ayağınla... nə isə edirsən.

– Hə, doğrudan da, – Bəhram kişi biixtiyar ayaqlarını mizin altında uzatdı və bir anlıq fikrə getdi. – Onda belə çıxır ki... – Bəhram kişi hərçənd düşündüyünü dilinə gətirmək istəmədi, amma artıq gec idi (ox yaydan çıxmışdı), sözünə başlamışdı, F.Q. də artıq böyük bir maraqla onun nə deyəcəyini gözləyirdi. – Onda belə çıxır ki, sən bir başqa dünyada bu Çiçəkli yazını artıq oxumusan. – Bəhram kişi ehtiyatla F.Q.-nin üzünə baxdı. "Qorxulu yerlərə qədəm qoyuram".

– Ay sağ ol. Düzdü. Oxumuşam. – Onun gözlədiyinin əksinə, F.Q.-nin sevincdən gözləri güldü, hətta ürəyindən zarafat belə eləmək keçdi. – İndi o qalır ki, Nəsrəddin Tusi, ya da Qaliley gəlib bizə göstərələr ki, bu hadisə hansı ulduzda baş verib, biz də o ulduzla kontakta girək, ordan bizə bir başqa F.Q. pıçıldasın bu sirri. Yox, pıçıldamasın, qışqırsın. Qışqırsa bəlkə eşidərik. Bunlar ki, belə yaxına gəlib durublar, ordakı F.Q. yaxşı qışqırsa hökmən eşidərik.– F.Q.nin son sözləri Bəhram kişiyə elə gəldi ki, acı bir kədərlə səsləndi, – heç olmasa bircə kəlmə – açar sözü qışqırardı...

Bir qıraq adam bunların Qarağac altındakı danışığına qulaq assa idi, Bəhram kişinin bu mövzularda fikir yürütməsi, F.Q.-nin onunla bu cür ciddi (çox ciddi!) söhbət eləməsi qəribəsinə gəlməzdimi, qəribəsinə gələrdi. Amma, əslində, bu cür söhbətləri onlar tez-tez edirdilər. Hər biri öz duyğularını, düşüncələrini çərçivələmədən o birisi ilə bölüşməkdən daxili bir zövq alırdı. Təxminən, kəndə gəlməsindən bir həftə sonra F.Q. elə bu Qarağacın altında indiki yerində oturmuşdu, yenə axşam yavaş-yavaş, yelləncəklə düşürdü üzü aşağı və bu zaman elə birdən-birə "nə mənə, nə sənə" F.Q. tənbəllikdən (heç hənanın yeri idi, deyildi) başını çöndərib ona çay süzən Bəhram kişidən soruşmuşdu:

– Bəhram dayı, sən paralel dünyalara inanırsan?

***F.Q. kəndə gələndən bir həftə sonra.***
***Bəhram kişinin həyəti. Qarağacın altı. Axşamçağı.***

...Bəhram kişi əlində iş görürdü – stəkanları seyində suya çəkirdi, əlindəki son stəkanı bərk-bərk dəsmal ilə silib mizin üstünə qoydu, samovarın

dudkeşini götürdü və başına taxdı, çünki samovarın ağzından qırmızı alov dilləri artıq görünməyə başlamışdı, sonra əllərini dəsmal ilə silə-silə aşkar bir təəccüblə F.Q.-yə sarı çöndü, baxışları ciddiləşdi:

– Nə cür dedin? Hansı dünyalara?

– Paralel!... Yəni, sonsuz, çoxlu, ağla gəlməyən dərəcədə bitib-tükənməz... Ulduzlar var ha, o qədər sonsuz... Paralel, yəni, bizim dünyamıza oxşar. Həm oxşar, həm də oxşar olmayan... Sən belə dünyaların varlığına inanırsan? Ya bəlkə elə bilirsən ki, bütün kainatda, – F.Q. gizli bir istehza ilə əlini göyə uzadıb qövsi-qüzeh cızdı, – bizim dünyamız təkdi?

Ürəyinə gəlib nə girdisə F.Q.-nin birdən hövsələsi daraldı, "bu nə sualdı hələ verdim mən bu kişiyə? Bunun ömründə əvvəldən-axıradək oxuduğu kitab olubsa-olubsa (əlifbadan başqa) o da "Ovod" olub. Hər gecə vərəqləyir. Ayıb oldu. Elə çıxdı ki, mən özümü göstərirəm". Eşitdiyi cavab isə F.Q.-ni əməlli-başlı şaşırtdı:

– Bəli, mən inanıram. – Bəhram kişi F.Q.-nin "görkəmcə" uzun-uzadı, amma mahiyyətcə tək sualına qısa və aydın cavab verdi.

– O dünyanı demirəm ha! – Gözləri alışan F.Q. yə əvvəlcə elə gəldi ki, "paralel" deyəndə Bəhram kişi saysız-hesabsız cəhənnəmləri, cənnətləri nəzərdə tutub ona cavab verir.

– Yox, elə mən də o dünyanı nəzərdə tutmadım. O dünyanın öz yeri var. Bəlkə elə o sən deyən... – Bəhram kişi duruxub lazım olan sözü axtardı.

– Paralel...

– Hə, paralel, sonsuz dünyaların hər birinin ayrıca özünün "o dünyası" var?!.

Təəccüblənmək növbəsi indi F.Q.-nin idi: "Patriarxın yeri məlum". F.Q. oturduğu yerdəcə daxilən özünü yığışdırdı, bayaq yayxanıb oturmuşdu, indi daha oturuşuna, təhər-tövrünə fikir verdi. Bivecliyi uçub getdi, havada əridi. Onların ilk ciddi söhbəti ulduzların o gecəki kimi yaxın olmasının, heç şübhəsiz, açıq-aşkar təsiri ilə məhz bu cür başladı.

***Həmən söhbətdən 24 gün sonra.***
***Yenə o yerdə. Yarımçıq söhbətin davamı***

Bəhram kişinin dodağı qaçdı, düzdür, onun saqqal bürümüş çöhrəsində bu təbəssüm dəqiq cizgilərlə, aydın bir şəkildə ifadə olunmadı, adətən, üzündəki, dodağındakı təbəssümü Bəhram kişinin çal saqqalı bacardığı qədər gizlədirdi, amma F.Q. ona da inanırdı ki, əgər adamın ürəyi düzdüsə, ürəyində təbəssüm varsa, o zaman o təbəssüm onun üzünə, dodaqlarına, gözünə qona bilir, onu heç nə ilə gizlətmək olmaz, yox, əgər adamın qəlbində-könlündə təbəssüm yoxdusa, deməli, təbəssüm yerli-dibli yoxdur, onu heç üzdə-gözdə də axtarma, tapammazsan, sən "gördüyün" o deyil, sən başqa bir şey görmüsən. F.Q. Bəhram kişinin qəlbindəki təbəssümü məhz hiss edirdi, duyurdu, onunçün də bu hərtərəfdən ağarmış uzun illərin yadigarı saqqal nəyi gizlədir, nəyi gizlətmir – onunçün vacib deyildi.

... Bəhram kişi gülümsəyən kimi oldu:

– Ulduzlarla işin yoxdu, axşamçağı düşər-düşməzi olar, yuxunu qarışdırarsan. Bəlkə hələ onlardan hansısa özü yox olub, işığı yol gəlməkdədi?!

– Bəhram dayı!..

– Nədi?

– Bəhram dayı, vallah, deyirəm, sən şəhərdə yaşasaydın, ali təhsil alsaydın, çoxdan professor olmuşdun, – F.Q., həqiqətən, ciddi idi.

– Qoy mən də bir lovğalanım, nolar? – Bəhram kişi yerində "dingildədi". Bu dəfə ört-basdır eləməyə saqqal üçün elə bir zəhmət olmadı, Bəhram kişinin dodağına qonan təbəssüm çox xəfif təbəssüm idi, onu gizlətməyə ehtiyac belə yox idi:

– Mən həyat professoruyam, balası, bəli, həyat professoru. "Atam, atam sağ olaydı, eşidəydi məni. Yəqin, döyərdi". Başını silkələdi, atasının qəzəbli surətini gözü qabağından silib atmağa çalışdı. – "Qələt elədim, qələt elədim". Bunlar heç, balası. Sən hələ bir özündən danış, görüm. Sən nə vaxt professor olursan? "Mənə baxırsanmı? Yelbeyin, əsl yelbeyin..."

– Mən? – Köhnə (təzə?) yarası təzələnən F.Q. yenə ürəyində özünə acıya-acıya, üzündə həmişəki narazı ifadə başını yellədi. – Hələ bir bu yazı ilə

görək neynirik?! Bacara bilirik?! Çətin məsələdi... Professor olmağıma isə mənim xeyli var. Belə getsə, heç vədə.

– Niyə? Yazını oxumalısan, sonra? Yazı bəyəm imtahandı?

– Həm elədi, həm də elə deyil. Bunlar qəliz işlərdi. Mənim dərdim birdi, ikidi? Qoyurlar ki, yazı ilə ciddi məşğul olum, ay Bəhram dayı? Qoymurlar.

– O nə sözdü? Kim qoymur, balası? Məni deyirsənsə... – Bəhram kişi qaraldı.

– Yox, yox, səni niyə? – F.Q. az qala pərt olan Bəhram kişinin sözünü tələsik kəsdi. – Yox e... Sən niyə özünə götürürsən?! Beyinimin içini deyirəm. Dünən zəng eləməyə getmişdim, şəhərə. Mənim axı bir... belə deyək... nişanlım kimi birisi varımdı...

– Eləmi? – İlk dəfə bu xəbəri eşidən Bəhram kişi başını razılıqla tərpətdi. "Aydındı"...

– Elə. Elə. Amma bu adam mənə gün verir, işıq vermir. Canıma düşmən kəsilib, Bəhram dayı, düşmən...

Bəhram kişi nə illah elədi, deyiləni anlamadı, təəccüblə:

– Bah!.. Bəs bu niyə belə eləyir?! Nə istəyir ki?.. – soruşdu.

– Bilmirəm. Bilsəydim, nə istəyir, dərdim nəydi... Kəndə getmə, ora getmə, bura getmə. Elə oturacaqsan gözümün qabağında. Bir söz: getmə gözümdən, gedərəm özümdən...

– Bunun nəyi pisdi? Sevir səni bu adam, balası... – Bəhram kişi rahatladı, dərindən, köks dolusu nəfəs alıb F.Q.-yə məhrəm adamlar kimi baxdı.

F.Q. isə, elə bil, məhz bu sözü ("sevir") gözləyirdi, elə bil, zindeyizəhləsi getdiyi bir şeyi göstərdilər ona. Partlamadımı, partladı:

– Belə sevmək olar?! "Sevir..." Adam kimi sevmək olmur bəyəm bu dünyada?! Həyatını götürüb bükürlər göy əskiyə, gününü qara edirlər, adını da qoyurlar: "sevgi". Başqa şey yox, elə ancaq məni düşün, mənimlə qal, məndən muğayat ol... Budu sevmək?! Belə sevmək olar, Bəhram dayı? Sevgi bəyəm bu cür olur? Camaat sevmir bəyəm? Camaat da sevir. Bu məni sevirmiş... Yox bir. Vallah, mənə lazım deyil. Billah, lazım deyil. Qanımı sorur, qanımı, Bəhram dayı. Bu yazını, sən bilən, niyə oxumağım belə uzandı? O yazı mənimçün heç nədi. "Yalansa..." İnanmırsan? Beynimin içində ancaq onun

səsidi, hər dəqiqə onunla dava-dalaşdayam. Girir gic-gic sözləri beynimə, çıxır ki?! Fikrimi-zikrimi bir yerə yığa bilmirəm... Gör bir bura gəlməyimdən nə qədər vaxt keçib. Bir ay... bir ay!..

– Bir başqa dildə (bir başqa dünyada) "beynimin içində" yox, "qəlbimin, könlümün içində" deyərdin. Sən də onu sevirsən, balası. – Bəhram kişi F.Q.-ni hələ də doğma baxışla, amma ilk dəfə görürmüş kimi gizli, yeni bir maraqla süzdü.

– Vallah və billah, mənə bu cür sevgi lazım deyil. Bilirsən, – F.Q.-nin səsi birdən-birə yadlaşdı, – bunun öyrədəni var, bunun bir ifritə anası var... Sən onu tanımırsan. Hamısını o ana edir.

– Nə edir bu ifritə ana? – "Eh, cavan ki, cavan. Bunun dərdinə bax, sərinə bax..." Başını yelləyən Bəhram kişi sualı verməyinə verdi, amma belə bir sual verməsinə özü də elə o andaca peşiman oldu, " birdən elə bilər, mən bunun ürəyinə girirəm, burnumu soxuram bunun ... ailə işlərinə?! Yaxşı olmadı".

– Nə edəcəkdi ki?! – F.Q. görürdü ki, Bəhram kişi onunla razı deyil, ona görə daha çox qızışırdı, Bəhram kişinin bu sualını həsrətlə gözləmirdimi, gözləyirdi, ürəyi elə bir "haya" bənd imiş, bu ürək taybatay qapılar kimi açılmadımı, özü də necə açıldı. F.Q. alovlu-alovlu təkrar etdi, – daha nə edəcəkdi ki?! Hər sözünü o öyrədir. "Qoy gözünün qabağından bir addım da aralanmasın, nə bilim, diqqəti daim səndə olsun. Belə olmazsa, at onu getsin işinin dalınca, sənə beləsi lazım deyil. Lüt kandidatdı..." Bu sözləri deyir ona, bilirəm. Belə insanlıq olar?!

– İndi bu kəmhövsələlik elir. Anadı, ürəyi yanır. Yanmasın?

– Eh, eh... Dünən hələ bir gör telefonda mənə nə deyir?! Deyir, bu, yəni, Afaq, adı Afaqdı, ora gəlmək istəyir, yəni, bura, kəndə. Mən gələndə ona dedim, gedək. Bax, Bəhram dayı, bu ana qoymadı. İndi isə deyir, get, yoxla, gör nə işlə məşğuldu?! Gözündən uzağa qoyma! Bilirəm ki, qızışdırır. Qızışdırmaqda tayı-bərabəri yoxdu.

– Anadı...

– Sabah gərək gedim bir də zəng edim, görüm, bu nə vaxt gəlir?! Niyə gəlir? Noldu birdən-birə? Səhər gəlib axşam getsəydilər barı... – F.Q., otur-

duğu yerdən qalxıb fikirli-fikirli "Balaca"nın yanında irəli-geri var-gəl etməyə başladı.

– Niyə, ay balası, nişanlın deyil? İstəyirsən burda qalsın, istəyirsən aparaq Mübarizgilə. Ora rahatçılıqdı. Heç bir şey düşünmə.

– Yox, yox, sən nə danışırsan?! Mənim ona sərf edəsi vaxtım var? "Bütün həyatımı onsuz da alıb əlimdən, alıb..." O burda qalsa, getdi yazı birdəfəlik öz işinə, mağara da dalıyca. Gündə deyəcək, ora gedək, bura gedək. O meşəni ələk-vələk eləyək, bu qayaya dırmaşaq. Getmə gözümdən, gedərəm özümdən...

Bəhram kişini içəridən niskilli bir həsrət yandırdı. "Allah, Allah mən bir də dönüb cavan olaydım..." F.Q.-yə az qala qibtə ilə baxdı: "Ay-hay, elə bu??".

F.Q. "bu da məni başa düşmədi" təzədən yerinə oturdu, narahatlığı isə keçmirdi. Barmaqları ilə mizin üstünü hirsli-hirsli taqqıldatdı, guya ki, çox sevdiyi "Bakı, gözəl şəhər, mehriban diyar!..." mahnısının ritmini tuturdu. F.Q. Bəhram kişini sanki unutmuşdu, bir anlıq təsəvvürünə gətirdi ki, Afaq gəlib kənddə qalıb, yenə dəli kimi oldu. "Bununla qurtarmaq lazımdır, ha deyirəm, ha qurtarmaq istəyirəm, ana ifritə, elə bil, duyuq düşüb tez dalımca göndərir. Get, görüş, birdən soyuyar səndən, evlənməz. Bunların fikri-zikri evlənməkdi, evlənmək!" ("Bakı, gözəl şəhər..." yarımçıq və güclü bir taqqıltıyla yarıda qaldı).

– Bəs nə zaman evlənəcəksiniz? Evlənsəz, bəlkə bu söz-söhbət də kəsilər, yox? – Bəhram kişi ciddiyyətlə soruşdu.

– Qanımı sorur bu mənim, qanımı. Mən buna evlənsəm iki aydan sonra məni infarkt vurar. "Eh, bu da evlənməkdən başladı".

–Vay, vay, vay. Elə demə, o nə sözdü gətirirsən ağzına?! Elə demə bir də...

İkisi də susdu. Biri (F.Q.) düşündü ki, mənə nə olub, mən niyə öz problemlərimi yükləyirəm bu gözəl (nurani) insanın çiyinlərinə, yazıq deyil? Axı ürəyinə sala bilər. O biri (Bəhram kişi) isə belə düşündü: "Cavandı, tərsdi, məhəbbətin yüz sifəti var. Ona rast gələn bu yüz birinci sifətindən isə bunun xəbəri yoxdu. Ürəyinə salıb, dərd eləməsin barı, hayıfdı..."

– Yox, sabah bir də gedim. Gedim zəng edim, görüm, ana-bala bunlar daha nə qurğu qurublar?! – F.Q. qəti qərara gəldi ki, sabah səhər gedib Radio

meydanındakı poçtxanadan Bakıya telefon eləsin və çox kəskin bir şəkildə Afaqın bura gəlişini əngəlləsin. Bu qərara gələndən sonra narahatlığı quş kimi uçub getdi. O, özünü, öz məsələlərini düşünməyə başladı. "Çiçəkli yazı" yenə alınmaz qala kimi qarşıda durdu. Amma bu dəfə qalanın qapısı üstünə bir trasparant vurmuşdular: "Gəl, gəl, F.Q., gəl bizi oxu. Xoş gəldin. Səbr və Mətanət! Səbr və Mətanət!" Elə bunu oxuya bilmişdi ki... Yox, bir də yox! Belə getsə dəli olmaq olar. Əl çəkmir ki, çəkmir. Yenə Afaq! Yenə o! Elə bil, yanında durmuşdu, F.Q. də ona "pişiyim-pişiyim" edirdi. "İşim, gücüm... Mənim sənnən məşğul olmağa vaxtım var?! Gələn kimi bura, baş ağrıların axı başlayacaq. Buralar artıq isti deyil. Gündə demək olar ki, yağış yağır. Sən də ki... əzizim, yağışı sevmirsən. Bax, havalar da xeyli sərinləyib. Qərəz, indi bura sənlik istirahət yeri deyil. Bir başqa vaxt, Allah qoysa, gəllik. Deyərəm, nəhayət, nəhayət evlənmişik, elə burada, Bəhram kişinin evində qallıq. Sənin xoşuna gələcək, çox yaxşı adamdı. İndi isə... özünə yaxşı bax, xəstələnmə, axır vaxtlar nədisə tez-tez rahatsız olursan, sən Allahın, olma, niyə axı gah başın ağrıyır, gah ürəyin bulanır... Olmaz, olmaz belə. (Bu yerdə "pişiyim-pişiyim" qurtardı). Bircə bundan qurtula bilsəydim, ay Allah, bircə bununla üzülüşə bilsəydim!.."

***Bir gün sonra. Yenə Bəhram kişinin həyəti.***
***Yenə Qarağacın altı. Axşam***

Yağış bir az əvvəl kəsdi. Amma birdəfəlik xudahafizləşmədi, elə bil, zəifləyib "hələlik" dedi, nəfəs dərdi, çox güman, bir azdan artıq əməlli-başlı vedrədən tökəcəkdi. Ulduzlardan, aydındır ki, xəbər-ətər yox idi. F.Q.-nin diqqətini bir çiçək topasına (bu çiçək topası Qarağacın altında deyildi, üç-dörd metrə aralıda, çəpərin düz yanında idi) ardı-arası kəsilməz hücumlar həyata keçirən bir dəstə arı çəkdi. Patriarxla dəniz kənarındakı (bulvardakı) söhbət zamanı dənizin çirkli sularında nə isə axtaran qağayıları xatırladı. Eynən bu vızıldaşa-vızıldaşa dövrə vuran arılar kimi onlar da orda qışqırışırdılar. "Burda bəzək, orda təzək..." Qağayılar yadına düşəndə qəfildən ürəyi sıxıldı (Bakı, gözəl şəhər?..). Elə bil, heydən düşdü (Bakı, gözəl şəhər!) Bu

anlaşılmaz süstlüyünə səbəb nədir – bunu özü üçün heç cür aydınlaşdıra bilmirdi. Neyləsin, indi durub özünü nəylə məşğul eləsin?! (Yazı hesabdan deyildi, yazı onsuz da vardı, o, "halal arvad" idi). Yağış kəsəcək F.Q. evin içində sakit oturmağa hövsələsi gəlmədi, elə bil, havası çatmadı, təzədən həyətə çıxdı. Əli ilə yoxladı – "yağmır". Havanı köks dolusu ciyərlərinə çəkdi, nəfəsi öz-özünə artıq sürətlə gedib gəldi.

Naxırın qayıdan vaxtı idi, uzaqdan mal-qara səsi gəldi. Qoyunların mələşməsi, inəklərin böyürtüsü, səs-küyü uzaqdan-uzağa F.Q.-nin beynini bir balaca sakitləşdirdi və o çalışdı ki, qayda-qanunla, nizamla sabah səhərki telefon söhbətini bir daha öz-özlüyündə (beynində) götür-qoy eləsin. Fikrini bir yerə yığmağa çalışdı, alınmadı. Alınmayacaqdı da, çünki beyninin bir hürr guşəsi vardı, o guşədə isə güclü nəzarət pərdəsi vardı, ora girmək ciddi nəzarət altındaydı, o özü indi həmən hürr guşəsinin içində gizlənmişdi. Bəli, bu gün səhər aldığı xəbər həqiqətən ağır xəbər idi, dözülməz idi, bu xəbər adamı uzun müddətə yıxa bilərdi, nəfəsini kəsə bilərdi. Amma ona o hürr guşəsindən qəribə impulslar gəlirdi, "hər şey yaxşı olacaq, hər şey yaxşı olacaq. Əlbəttə, Allah özü bilən məsləhətdi, bəlkə də elə belə lazımdır?!". Bu qoruyucu impulsları dinlədikcə (dərk etdikcə) həm ürəyi sakitləşirdi, həm də bu sakitləşən ürəyinə görə həyatında ilk dəfə idi ki, özü özündən iyrənirdi. İyrənirdi ona görə ki, bu cür düşünə bilir. Bu cür biganə ola bilir, bu cür... Ağlasığan idimi, ağlasığan deyildi.

...Telefon zənginə Afaqın anası cavab verdi. Səsi çox üzgün idi.

– Yaxşı oldu ki, zəng etdin. Çox yaxşı oldu.

– Afaq... "Xeyr ola, bu nə əcəb belə danışır?!"

– Afaq indi evdə deyil. Beş dəqiqəliyinə işə getdi. Təkəm mən. Səninlə xüsusi söhbətim var.

Qəribə idi, ifritə ananın hikkəsi, zabitəsi harasa uçub getmişdi, indi daha adam balası kimi danışırdı, səsi həmişəki kimi amiranə deyildi, ölgün idi, hətta F.Q.-yə elə gəldi ki, arvadın səsində balaca bir yalvarış çaları da var.

– Buyurun. – Təəccüblənmiş F.Q. ciddi olmağa çalışdı, amma eyni zamanda sayıqlığını əldən verməyəcəyi barədə özünə söz verdi.

– Nə buyuracağam?! Buyurmağa daha taqətim qalmadı, ay bala...

"Ay bala?? Xeyir ola? Bu nədi, bu niyə ağlayır?" Telefon xəttinin o biri tərəfindən xısın-xısın gələn ağlamaq səsi F.Q.-nin əvvəl-əvvəl vecinə də olmadı. "Çox çəkdirmisən mənə. Adam kimi qurulmuş münasibətləri sən özün bu cür dözülməz eləmisən. Cəhənnəmə ki, ağla. Ağla! Yəqin, yenə evlənməkdən danışacaq".

Afaqın anası ağlamağını birdən kəsib, elə bil, toxdadı, burnunu bərkdən çəkdi və boğazını arıtladı, deyəsən, dəsmalla göz yaşını sildi:

– Bu yazığın analizləri yaxşı çıxmayıb. Balam əlimdən gedir...

Nə qədər özünü ələ almaq istəsə də arvad bu dəfə dözməyib hönkürdü, göz yaşları, elə bil, böyük bir coşğu ilə hansısa keçilməz bir səddi dağıdıb aşdı.

"Necə yəni, analizləri... Hardan çıxdı analiz? Bu nə danışır?" – F.Q.-nin dalağı sancsa da, əvvəl-əvvəl bir şey anlamadı.

– Həkimlər deyir... – "İfritə" arvad yenə güclə özünü ələ aldı. – Həkimlər deyir, vəziyyət yaxşı deyil, heç yaxşı deyil. Özü hələ bilmir, heç atasının da xəbəri yoxdu. Bilsə... bizdə, özün bilirsən, belə şeyləri adamın üzünə demirlər. Mənə isə dedilər. Qərəz... Görəcəkli günlərim varmış... Mən indi neyləyəcəyəm, nə təhər eləyəcəyəm?!

"Bunun ağlı çaşıb, deyəsən. Bu nədən danışır, kimdən danışır?"

–Nolub axı? Heç nə başa düşmədim. Bir az bərkdən danışın, çox pis eşidirəm. Analiz nəyə görədi? Nəyidi bunun?

–Qayıdarsan danışarıq, telefon söhbəti deyil. – Arvad artıq özünə gəlməkdə idi, burnunu yenə bərk-bərk çəkib tamam sakitləşdi. – Amma sən Allah, ona, məbadə... bir söz deyib eləməyəsən. Heç nə bildirmə. Gördüm, çox istəyir getsin, özüm dedim, get kəndə, yəni, sənin yanına. Məktəbdən icazəsini özü alıb. Bir həftə dərs deməsə dünya dağılmaz. Atasına isə mən özüm birtəhər başa sallam (əslində, başını aldadaram, daha nə edim?). İndi ona... biləsən, diqqət lazımdı, nəvaziş lazımdı. Qoy gəzsin, hava alsın, ürəyi açılsın. Yoxsa, ağrıları bunu lap əldən salıb, üzülüb balam. Görsən, tanımazsan. İki günə gələcək.

–Ayrı həkimlər də var. Yoxlamaq lazımdı, bəlkə bir də... başqa yerdə...

–Eh... xəbərin yayılmasını istəmirəm, bir də ki özün bilirsən, bu zəhrimarın əlacı yoxdu, yoxdu, yoxdu... Amma, bax, razılaşdıq, mən səninlə danışmamışam. Sən sabah yenə zəng edərsən, istəsə özü sənə gəlməyini xəbər verər. Sən isə... Sənin heç nədən xəbərin yoxdu. Yoldaşın vardı, adı nəydi onun, danışıblar, bir yerdə gələcəklər. Sənə sürpriz olsun guya. Neynək, olsun. Allah eləsin, kim bilir, bəlkə biz səninlə köməkləşib bunu bu bəladan birtəhər qurtardıq...

Telefon dəstəyini ehtiyatla, yavaş-yavaş yerinə qoyan F.Q. ancaq bundan sonra, hələ poçtxananın içindəykən aldığı xəbərin nə cür ağır xəbər olduğunu kəsdirə bildi. Evə çox düşüncəli gəldi, bir də gördü, Çoban papağının önündədi, özü də əliboşdu, dükandan alacaqlarının heç birini almayıb.

***Yenə həmən məkan.***
***Bəhram kişi və F.Q. Qaranlıq artıq düşüb***

Bəhram kişi axşam yeməyi hazırlamaqla məşğul idi, qab-qaşığı evdən Qarağacın altına gətirirdi:

– Yağış yağmaz ki? – Düşüncəli-düşüncəli öz-özünə soruşdu. – Bəlkə evə keçək? Nə deyirsən?..

Sonra Vəng dağının təpəsinə diqqət edib cavab gözləmədən:

– Dur. Gəl evə keçək, – qətiyyətlə dedi.

F.Q. onun təklifini eşidən kimi avtomatik şəkildə oturduğu yerdən dik qalxdı. Bəhram kişi əlində boşqab dolu məcməyi yarı yoldan geri dönüb, evə qayıtdı, F.Q. də quzu kimi onun arxasınca getdi.

Evin içində Bəhram kişi çaşqınlığı üz-gözündə yazılan F.Q.-yə altdan-altdan diqqət edərək qabları mizin üstünə düzməyə başladı. “ Nəysə baş verməşə oxşayır. Həqiqi, nə isə baş verib. Bunu mən bu cürə ilk dəfədi görürəm”.

– Nolub? Birtəhərsən... – ehtiyatla soruşdu.

F.Q. başı fikirdən ayrılmadan:

– Bir şey yoxdu, – cavab verdi. Amma səsi güclə gəldi.

– Yenə olsun. Görmürəmmi? – Bəhram kişi bu dəfə qırsaqqız oldu, əl çəkənə oxşamırdı. – Yadıma, deyim, gül, Şiraz həkim düşdü. Zəhlətökən heç

adamdan əl çəkməz. “Yenə olsun, yenə olsun...” İndi də mən. Yenə olsun, balası, görürəm, axı, heç özündə deyilsən sən.

Bəhram kişi mətbəxdə danışa-danışa çayları süzürdü stəkanlara. Çayniki sobanın üstünə qoydu, stəkanları mizin. Onlar üzbəüz oturdular.

– Yaxşı, yeməyimizi yeyək, sonra söylərsən. – Bəhram kişi “bismillah” elədi, pendirdən, lavaşdan götürüb özünə dürmək bükməyə başladı.

F.Q.-yə bıçaq vursaydın, bəlkə də qanı çıxmazdı, “gədənin rəngi qap-qara olub, ağzı tikə tutmur, fikri də xeyli uzaqlardadır... Axşam isə Mübariz gələcək. Həftə tamamdı. O gələnə qədər mən bir bunun dərdini öyrənim...”

Mübariz kişi həftədə bir dəfə Bəhrama arvadı Mənsumənin öz inəklərindən sağdığı süddən bir bidon süd gətirirdi. Bəhram kişi də borclu qalmazdı. Aralarında, elə bil, yazılmamış bir sövdələşmə var idi. Bəhram kişi ayda, yaxud iki ayda bir Mübariz üçün əla şanı balını özü aparıb evlərinə verərdi. Qərəz, əl əli yuyar, əl də dönər üzü yuyar, bu gün həftə tamamdı, Mübariz harda olsa görünəcək, F.Q. də burdadı deyin, heç fürsəti fötə verməz.

– Yemirsən... – Başı ilə süfrəyə işarə edən Bəhram kişi baldan bir qaşıq aldı, F.Q.-yə baxıb (halını görüb) qəlbi ağrıdı.

F.Q. süfrədən tamam çəkildi. Heç nə yeməmişdi (yeyə bilməmişdi), boğazının yolu əməlli-başlı tıxanmışdı. Əlini-əlinə sürtərək:

– Vəziyyət yaxşı deyil, Bəhram dayı, – dedi. – Vəziyyət heç yaxşı deyil.

Bəhram kişi də əlini süfrədən çəkdi, “noldu buna görəsən, hansı vəziyyətdən danışır?! Sabah-sabah bir şey yox idi. Telefondan geri dönəndən sonra nə oldusa onda oldu...”

– Noldu, a bala, təzə bir xəbərmi var? Söylə mənə, balası...

Handan-hana ölü bir səslə F.Q. dilləndi:

– Bəhram dayı, bu Afaqda ağır (əlacsız) bir xəstəlik tapıblar. Telefonla anası dedi. Başqa vaxt mənimlə iki kəlmə kəsməz. İndi isə... ağlaya-ağlaya qalmışdı. Analizləri, deyir, yaxşı çıxmayıb. Özü elə əvvəldən xəstəhal idi...

Düşüncəli bir halda Bəhram kişi ovcunun içi ilə süfrədən çörək qırıntılarını silib təmizləməyə çalışdı:

– Belə... Bəlkə, oğul bala, bu analizləri aparıb bir başqa həkimə də göstərsinlər?!

– Dedim, amma mənası yoxdur. Başqa həkimlər də baxıblarmış. Cavab eyni olub. – F.Q.-nin səsi az qala titrədi. – Yəni... yəni, belə çıxır ki, bu öləcək, Bəhram dayı?

– Yox, ay bala, sən niyə belə danışırsan? Niyə axı o saat kökündən vurursan?! Allah dərd verəndə dərman da verir. Ürəyini üzmə. Səbr. Səbr elə. Eşit məni: Allah səbrli bəndəsini sevər. Bəs bura gəlirdi, noldu?

– Gələcək, iki, ya üç günə gəlməlidi. Bir dostum var, o gətirir. Anası özü icazə verib gəlməyinə, deyir gəzsin-dolaşsın, ürəyi açılsın. Gör ki, məktəbdə dərslərini atıb – ömründə etməzdi! Təsəvvür edirsən?! Deməli, məsələ, həqiqətən, ciddidi. Artıq ağrıları, deyir, başlayıb. Dərmansız keçinə bilmir. Özü isə bu barədə heç nə bilmir, heç nə. Heç nə...

– Özünü ələ al. Dedim axı. Allah dərd verəndə dərmanın da verir.

– Bunun dərmanı yoxdur.

– Var. Dərman sənsən. Niyə elə deyirsən? Bəzə onun həyatını. Gözəlləşdir, xoşbəxt elə bu qızı. Bir də, ay bala...

Bəhram kişi, istəmədi davam eləsin, sözünü yarımçıq qoyub susdu. F.Q. nədənsə ümidlə ("batan adam saman çöpündən yapışar") onun üzünə baxdı. Bəhram kişi yenə də istəməyə-istəməyə bu ümidli baxışın ağırlığı altında sözünün dalını zorla gətirdi:

– ... Bilirsən, balası... hələ heç kim deyə bilməz ki, heç kim... kimin bəxti daha çox gətirir?! Bu dünyadan... çıxıb gedənin, yoxsa bu dünyada qalanın. Heç kim bunu söyləyə bilməz! Ona görə də...

– Yeganə təsəlli...

– Bəli, budu yeganə təsəlli. Sən isə möhkəm ol! İndi sənin möhkəm olan vaxtındır. Çiçəkli yazını düşün, başqa bir şey düşünmə. Özün deyirdin ki, onu oxusan ən çox sevinən bu qız olacaq. Deyirdin? Deyirdin! Di sevindir onu. Sən onun indi bəlkə də ən böyük sevincisən, deməli, ümidi sənədi. Dirilt onu! Həyat ver ona.

– Eh... Bəhram dayı, söyləməyə nə var?! Söyləmək asandı. Söyləmək çox asandı. Necə sevindirim?! Yazı dönüb olub özü boyda bir keçilməz sədd. Məftil sərhəd. Heç cür sərhəddən o tərəfə buraxmır adamı. Tapılır ki bu açar

söz?! Tapılmır! Açar lazımdı! Açar! Onsuz mümkün deyil. Açar tapammasam...bağrım çatlayacaq.

– Darıxma! – Ürəyi sıxılmağa başlayan Bəhram kişi bu dəfə qətiyyətlə dilləndi. – Darıxma, sən tapassan bu açar sözü. Ürəyimə damıb, bəlkə də elə bu gecə sən o sözü tapassan. Çay içirsən? Heç olmasa bir stəkan iç. Heç nə də yemədin...

F.Q. başını tərpətdi, yəni, "yox!". Nə duydusa Bəhram kişinin səsində F.Q.-nin ürəyi sərçə boyda bir kiçik ümid eşqilə çırpındı. Bəhram kişinin qətiyyəti elə-belədən deyildi: "Bu kişi heç zaman boşuna danışmaz. Görək..."

F.Q., heç belə bir hala düşdüyü olmamışdı, bu axşam özünü tamam unutmuşdu. Çiçəkli yazının oxunuşunun ona gətirəcəyi (xəyalı ilə yaşadığı) şan-şöhrəti unutmuşdu, xalqın tarixinin, döyüşlərin, qılınc və qalxanların, balta və nizələrin amansız səsini, ah və aman sədalarını, Stiks çayı və onun sahillərini, hətta son zamanlar (Patriarxla söhbətdən sonra) heç cür yaddan çıxara bilmədiyi Hektoru! Unudulmaz Hektor! Taleyin doğma vətəndən qaçırdığı (qovduğu) Hektor! Hələ Hüngür mağarası, Patriarx ("deyə bildim?"), Professor və onun tövsiyələri bir anın içindəcə bunlar da qaldımı, qalmadı, unuduldu, beynindən uçub harasa getdi. İndi hər şey başqa cür oldu. Çiçəkli yazını, nə olursa olsun, bu yazı özü ilə hansı həqiqəti və ya yalanı gətirirsə gətirsin, o bu yazını yalnız və yalnız ölüm yatağında olan Afaq üçün oxumalı, çözməlidir, qalan hər şey öz dəyərini itirdi, ancaq Afaq üçün! Bir şeyi dəqiq bilirdi ki, bu baş verən zaman, yəni, yazı oxunandan sonra onun özündən daha çox sevinən bu qız olacaq. Afaq onun üçün sevinəcəkdi. Onun əvəzinə sevinəcəkdi. Sevinə bilən böyükdür. Başqasının sevincini bölüşə bilən adam mərhəmətlidir, səxavətlidir, məğlubedilməzdir. "Dərdi səninlə bölüşən, – F.Q. düşünürdü, – sənin sevincini səninlə bölüşənə çatmaz, heç çatmaz". F.Q. unutdu ki, çox yox, hələ dünən, nə dünən, bu gün – poçta getməmişdən əvvəl bu qıza və onun ifritə anasına nifrət edən (birinə gizli, birinə açıq) heç bir başqası deyildi, onun özü idi. Artıq hər şey, bir anın içində hər şey dəyişdi, özü də qəflətən dəyişdi. İndi bu adamlar onun üçün ən doğma, ən yaxın adamlar olmuşdular. Onlar üçün indi F.Q.-nin ürəyi sıxılırdı, onlara

indi F.Q.-nin elə yazığı gəlirdi ki... F.Q.-yə onlar indi uzaqdan-uzağa, naəlac və köməksiz bir halətdə elə qısılıb qalmışdılar ki... Nə edə bilərdi?!

"Mən, mən necə kütbeyin, lovğa, eqoist bir adama çevrilmişəm, özümün də xəbərim olmayıb, ölüm ayağında (bundan o tərəfə nə var?!) məndən imdad diləyirlər (kim, nə zaman???), mən isə..." F.Q. bilmədi, bu fikri necə tamamlasın. Fikir beynində fikri qovurdu, tələskənlik məntiqsizliyə gətirirdi, axı, doğrudan da bu biri tərəfdən baxsaq, o nə etmişdi?! Günahı nə idi? Əgər bütün günahı vaxtaşırı Afaqı heç nəyin, həqiqətən, heç nəyin üstündə əsəbiləşdirib ağlatmaqdan ibarət idisə (F.Q. hardan biləydi, hadisələr necə inkişaf edəcək?!), buna görə gedib belə bir ağır xəstəliyə heç kim tutulmur. İndi bəlkə də anası istəyəcək, onu, F.Q.-ni bütün bəlaların günahkarı elan etsin. Amma... ağıllı adam belə hərəkət edərmi?! Etməz! Qətiyyən! Ana isə ağıllıdır, hətta məkrlidir. Telefonda ana belə bir ifadə işlətdi: "Görək səninlə köməkləşib onu bu bəladan xilas edə billik?" Gərək ki, belə dedi. "Niyə mənimlə? Mənsiz xilas edə bilməzlər?! Yox elə belə də dedi: "Mənimlə". Deməli, ana müharibə yox, sülh bayrağını qaldırdı. O da az əhəmiyyətli deyil ki, əvvəllər hər hansı bir bəhanə ilə onların ünsiyyətinə (təmiz məhəbbətinə) mane olmağa çalışan bu çılız, xırdaçı, zəhlətökən arvad ("atan eşitsə nə deyər, utan, utan!..") bu amansız xəbərdən sonra özü öz qızını qeyd-şərtsiz onun qucağına atır. "Deməli, məsələ ciddidi" – F.Q. neçənci dəfə müxtəlif yollarla bu adi və eyni həqiqətə gəldi çıxdı – ürəyi sıxıldı, əli-qolu sustaldı.

Bir xeyli belə pərişan düşüncələrdən sonra nəhayət... "fikir adamı... öldürür" diqqət edib gördü ki, Bəhram kişi otaqda yoxdu. Harasa çıxmışdı. Pəncərədən həyətə boylandı, bir şey seçəmmədi, "ayaqyoluna gedib yəqin. İndi Mübariz gələcək. Bircə bu məni Mübarizlə tək (özü də indi!) qoymayaydı. Yoxsa, gic-gic suallara cavab verənəcən mənim canım çıxar".

Səhər yeməyi zamanı "südümüz qurtarıb, bu gün Mübariz bizi yada salar" deyən Bəhram kişi nədənsə F.Q.-yə bic-bic baxıb qaşlarını oynatmışdı, yəni, "oyunun olsun, axşam qonağımız gəlir, sorğu-suala hazır ol".

Mübariz kişini yada salıb F.Q.-nin qanı lap qaraldı. Yorğun-arğın (elə bil, bütün gün daş daşımışdı) gedib öz otağına girdi, işığı yandırmadan keçib elə paltarlı-paltarlı (qırmızı zolaqlı cemper əynində) yerinə uzandı, yorğanı

gözlərinə qədər başına çəkdi. Uşaqlıqdan adəti idi. Ən çox qanı qara, kefsiz olan hallarda (uzaq keçmişdə məsələn, məktəbdə hansısa dərsdən iki, bəlkə də bir neçə "iki" qiymət almasını və atasının zəhmli surəti qarşısında əsim-əsim əsməsini belə hallardan saymaq olardı) onu, adətən, yuxu tutardı. Məktəbdən qayıdan kimi yan otağa keçib yatağına girməsi və yerinə girən kimi dərin yuxuya getməsi evdə hamıya məlum idi, onun bu xasiyyəti ilk növbədə anasına, qardaşına əyan edərdi ki, bu gün vəziyyət xarabdı. Ürəyinin sıxılmasını, dözülməz əzabını yuxuya ötürməklə, əslində, onun bədəni instiktiv olaraq özü özünü qoruyurdu. Bunu F.Q. çox sonralar başa düşmüşdü. Uşaqlıq illərini dodağı qaça-qaça xatırlayarkən yersiz-vədəsiz gedib yerinə girib yatması indi ona əməlli-başlı ləzzət verirdi. Bir azdan, onu yuxudan oyadan anası "bəs gecə kim yatacaq, a bala?" atasına göz vurar, "işin yoxdu, onsuz da əzab çəkir", ona çay dəmləyib içirdər, "danış-danış mənə, nolub, danış yüngülləşəcəksən, içinə salma" deyərdi. F.Q. bunları xatırlarkən artıq qocalıb əldən düşmüş, gözlərinin işığı sönmüş anası üçün yox, o cavan, mehriban, F.Q.-ni hamıdan, hamıdan artıq sevən anası üçün kövrəlirdi, qəhər onu boğurdu. İndinin özündə isə zorgüc yeriyən, gecə ilə gündüzü daim səhv salan, gününü yatağında uzanmaqla keçirən və F.Q.-yə hərdən xeyli yad bir baxışla baxan anası, elə bil, reallıqdan kənarda, inersiya ilə yaşayırdı, onun üçün son artıq baş vermişdi, indiki həyatı artıq sondan o tərəfdə özü-özüyçün, elə-belə davam edirdi. Sondan əvvəlki və sondan sonrakı həyatlar arasında heç bir əlaqə qalmamışdı. Heç kim ona maraqlı deyildi, hətta F.Q. də. İçinə elə çəkilmişdi ki... Hərdən onun sual dolu gözlərində F.Q. açıq-aşkar bunu oxuyurdu: "Niyə, niyə, nə üçün??"

Və F.Q. bu sualın mənasını qəlbinin gizli yerində yaxşı başa düşür, bu məqamda o da yaş dolu suala bürünən məyus gözlərilə çalışırdı anasının üzünə baxmasın, baxışlarını qaçırırdı. Sual isə eyni idi: "Niyə, niyə, ana, nə üçün?"

Həmən o uzaq uşaqlıqda qalmış pəjmürdə halı bu gün də vardı. O zaman olan kimi indi də yuxu ona necə güc gəldisə F.Q. öz balaca otağında yorğanı başına çəkməyilə yuxuya getməyi, demək olar ki, eyni vaxtda baş verdi.

...F.Q. qəribə bir yuxu görməyə başladı. Ona elə gəldi ki, bu yuxu uzun bir yuxudu, amma elə deyildi, çox qısa bir vaxt çəkdi. Əvvəlcə yuxunun nə

axarı, nə əvvəli, nə də sonu vardı, burada hər şey bir-birinə qarışmışdı, amma tədricən ayrı-ayrı cizgilər seçilməyə başladı, rəng rəngdən ayrıldı, səslər cilalandı. Bu yuxuda heyvanlar da adamlar kimi danışırdılar, özü də ancaq bir-birilə deyil, heyvanlar adamlarla onların dilində danışırdılar.

Yuxusunda uzun bir zamanın içinə düşmüşdü. Çoban papağında isə (öz otağında) F.Q.-nin yatması ilə ayılması arasında çox az bir vaxt keçdi. Amma ən maraqlısı və qəribəsi hələ bu deyildi. Qəribəsi, sirriliyi bu idi ki, səhəri gün F.Q. Bəhram kişiyə gördüyü bu yuxusunu danışmağa başlayanda: "paralel dünyalar deyirdik, bu da paralel dünya..." bu işə məəttəl qalan Bəhram kişi ona təəccüblə baxdı. Sonra bir xeyli susdu. Sonra isə... bir-iki söz soruşduqdan sonra onun özü də qəribə bir etiraf etdi. Məlum oldu ki, nə qədər ağlasığmaz olsa da onların ikisi də eyni yuxunu görüblər. Müxtəlif vaxtlarda – əvvəlcə F.Q. o yuxunu axşamçağı, Bəhram kişi dağdan qayıdıb gələnədək görüb, F.Q.-dən sonra isə Bəhram kişi öz həmişəki vaxtında – gecə yerinə girib yatan zaman həmən yuxunu görüb.

### *F.Q. ilə Bəhram kişinin eyni yuxusu*

Yuxu belə başlayırdı. Böyük bir televiziya ekranı yavaş-yavaş işıqlanır və ekranda bir alabəzək, tutuquşuya bənzər (bəlkə tutuquşunun özü?!) xanım görükür. Bu xanım Tutuquşu, "Xəbərlər" informasiya bülleteninin aparıcısıdır. Axşamdır. O veriliş aparır, amma səsi, dodaqları tərpənsə də, əvvəlcə heç nə anlaşılmır. Səs tamam başqa yerdən gəlir (özü də bu başqa yerdən gələn səs kişi səsidir). Səs metal kimi cingildəyib yüngülcə əks-səda verə-verə belə başlayır. Səs ekran arxasından deyir:

... Bu gün axşam xəbərlərin sonunda hava haqda məlumatı bütün şəhər dinlədi və rahatlıqla köks ötürdü. "Sabah, – xəbərdə deyilirdi, – göydən yerə dəvə yağacaq". F.Q.-nin beyni sürətlə televizor ekranından uzaqlaşdı. O xatırladı ki, iki gün əvvəl göydən yerə şir yağmışdı və bu daha təhlükəli idi. Yuxunun bu yerində xanım Tutuquşunun dodaqları (dimdiyi?) sirli bir təbəssümə büründü.

### *F.Q-nin və Bəhram kişinin eyni yuxusunun davamı. Şəhərə yağan şirlər*

İki gün əvvəl şirləri birtəhər aldadıb – əslində, bu onların ən çox zəhləsi gedən bir şey idi, buna ovsunlamaq deyirdilər, – ağızlarını heyvanxanaya döndərmişdilər. Amma heç də hamısına qəfəs çatmamışdı. Ona görə də indi şəhərin ən böyük problemi beş-beş, on-on bir qəfəsdə daldalanan bu şirləri ovsundan hələ tam ayılmamış birtəhər hardasa yerləşdirmək olmuşdu. Müxtəlif təkliflər gəlirdi və hər bir təklif o saat müxtəlif TV-lər tərəfindən ictimai müzakirəyə çıxarılırdı. Təkliflərin ən maraqlısı bu idi və, deyəsən, Elmlər Akademiyasından gəlmişdi. F.Q.-nin bu yerdə dodağı qaçdı. Bəhram kişi isə beyninin dərin qatında Professoru xatırladı.

– Şirləri öyrədib onlardan əsl döyüşçülər dəstəsi yaratmaq lazımdır. Şir dili bilənləri, hərbçiləri bu işə cəlb etmək məqsədəuyğun olardı.

Yeni, böyük zoopark tikib şirləri ora yerləşdirmək, şirlər üçün ərazi, başqa sözlə, əsl savanna yaratmaq, təbii şəkildə ətraf təbiəti şirlərin həyat tərzinə uyğunlaşdırmaq təklifi ilə Mədəniyyət Nazirliyi çıxış etdi. Özü də bu işə xarici investisiyaların cəlb olunma zərurətini də ortaya atdı.

Xeyli kəskin, hətta çoxuna bu, qəddar bir qərar kimi gəldi, təklifi müştərək "Xəz – Dəri – Kürk" "Azad Müstəvi" Birləşməsinin işçiləri verdi:

-- Şirləri öldürüb, dərilərini ixrac etmək şəhərə çox ciddi ulduz axını gətirər…

Təkliflərdən biri isə kifayət qədər gülməli olduğundan hətta televiziya diktoru bu təklif səslənən zaman yenə də haman sirli təbəssümünü gizlədə bilməmişdi. Arxa tərəfdən gələn kişi səsi deyirdi:

-- Şirlər üçün məktəb açmaq lazımdır. Onların dilində tədris aparmaq, onların mədəniyyətini inkişaf etdirmək biz insasanların irqi borcudur. – Bu təklifi Heyvanları Müdafiə Komitəsi Təhsil Nazirliyi ilə bir yerdə irəli sürmüşdü. Yuxu bu yerə çatanda F.Q. "bura ki, əsl uşaq bağçasıdı" narahat halda yerində qurcuxdu.

Bəhram kişi isə eyni yerdə "bu, bax, başqa məsələ..." əlini atıb başının altındakı balıncı düzəltmişdi.

### *Həmən şəhərə bu gün artıq dəvələr yağır*

...Dəvələr yuxarıdan dolu kimi yağırdı. Ovsunçular iki gün əvvəl bütün güclərini şirlərə sərf edib heydən düşdükləri üçün dincəlmək, özlərinə gəlmək icazəsi alsalar da, dəvə yağışı belə sürətlə yağdığından ovsunçuların köməyindən vaxtından əvvəl istifadə etmək məsələsi zərurət kimi ortaya çıxdı.

Göydən düşə-düşə bir dəvə o birinə deyirdi:

– Bu insasanlar heç də qorxaq deyilmişlər.

O biri cavab vermək istəyirdi:

– Bəs sən bilmirdin ki... – amma sözünü bitirə bilmədi, çünki gup-pultuyla yerə dəydi, tez vurnuxub ayaqları üstə qalxdı. Ora-bura boylanıb gördü ki, o biri dəvələr də onun kimi yıxılanı yıxılıb böyrü üstə qalıb, (görünür, yerə enərkən düzgün aerodinamik avtozərbə mövqeyi seçmədiklərinə görə) o birilər isə – düzgün mövqe seçənlər güclə də olsa ayağa qalxır. Onun kimi tez özünə gələnlərin, deyəsən heç nə vecinə deyildi, donqarlarını dik tutub, odu ha, səhrada yelkən kimi enib-qalxıb ora-bura qaçışırlar. Hər biri öz cərgə yoldaşını arayır.

Ovsunçular gələnəcən belə bir qatmaqarışıqlıq (hərcmərclikmi deyək, anlaşılmazlıqmı deyək?!) davam etdi.

Ovsunçular yarıyuxulu idilər və deyəsən, ovsunları kefləri istəyən kimi kar etmirdi, bir sözlə, dəvələrin, hələ ki, biri də könüllü şəkildə gəlib "Maqnus –180" adlı bu yenicə istifadəyə buraxılmış elektromaqnit mühərrikli nəhəng aerobusların içinə girmək istəmirdilər. Onları bura məxsusi dəvələri aparmaq üçün gətirmişdilər.

– Lap elə gəlib girdilər bu maşına, sonrası nə olsun? – Ovsunçular deyinirdilər. – Hara aparacağıq bunları ?!

– Əvvəl savannanı yaratmaq lazım idi, sonra bu barədə fikirləşmək olardı.

– Şirlər, bunları şirlərin yanına buraxmaq lazımdır – həngamə o zamandı. – Kimsə uğursuz zarafat elədi. – Biz də dincələrdik.

### *Baba və nəvə. Virvizual ekran və "Səhrada gəmi"*

Dəvə yağışı, nəhayət ki, kəsdi. İçi dəvə dolu "Maqnus-180"lər bir-bir gəlib heyvanxananın önündə dayandılar. Qəfəsdəki şirlər az qala ağızlarının suyu axa-axa "Maqnus – 180"lərdən quzu kimi aşağı hoppanan dəvələrə baxır, ürəklərində gülməklərini güclə saxlayırdılar. Ovsunun təsiri ilə halay-valay vuran, uzun, arıq ayaqları bir-birinə dolaşan dəvələr şirləri, elə bil, görmür, içində vurnuxan şirlər dolu qəfəslərin yanından heç nə olmayıbmış kimi keçib heyvanxananın içinə daxil olurdular. Yaxın ətrafda yaşayan insasanlar (diqqət! İnsanlar yox, insasanlar!) bura toplaşıb tək-tək, cüt-cüt, ürəklənən irəli çıxaraq, cəsarəti çatmayan isə bir qıraqdan bu mənzərəni seyr edirdi.

– Dəvə ətinin yaxşı qutabı olur. "Qədim yemək növləri və mətbəxlər" kitabında görmüsən? – Yaşlı bir insasan əlindən tutduğu nəvəsinin başını dəvələrə sarı döndərdi. Uşaq heç cür yola gəlib dəvəyə baxmaq istəmirdi, ağlayıb dururdu, evə qayıtmaq istəyirdi, qorxmuşdu nədi?!

– Bax, bu, dəvədir. – İnsasan nəvəsinin könlünü almaq istəyirdi, amma bir gözü ilə ətrafda əlində işi olmayan bir ovsunçu axtarırdı ki, uşağı yola gətirsin, onun ürəyinə girib dəvəyə maraq yaratsın. Amma əfsus! Bütün ovsunçular dəvələrlə məşğul idi.

– Evə istəyirəm, evə gedək!.. – Səbrsizləşən uşaq get-gedə daha çox israr edirdi.

– Ay səni, bir bax, axı sən heç zaman əsl dəvə görməmisən.

– İstəmirəm bu dəvəni. Mən evə istəyirəm. İndi "Səhrada gəmi" başlayacaq. Evə gedək… "Niyə görməmişəm. Mən dəvə görmüşəm…"

"Səhrada gəmi" son zamanların ən dəbdə olan, ən sevilən virvizual filmi idi. İçinə cürbəcür heyvanlar dolmuş gəmi səhra ilə qumluqda "üzür" və tamaşaçının istəyilə televizor ekranından keçib birbaşa otağın içinə girə bilirdi. Virvizual ekran son texniki nailiyyət olmaqla yanaşı, həm də çox bahaya başa gələn ləzzət idi. Baba bütün sonrakı təqaüdünü bir yerə toplayıb ailəyə kömək etməsəydi bu ekranı almaq mümkün olmayacaqdı. Nəvə çox yalvarmışdı. Amma açıq demək lazımdır ki, babanın özündə də az yox idi, o da get-gedə daha böyük sürətlə öz uşaqlığına yaxınlaşırdı. Virvizual ekrana

baxmaq onun özünə də çox maraqlı idi. Bu ekran bütün ailə büdcəsinin ziyanına – Ana heç cür razı olmurdu, güclə baba onu dilə tutdu, sonra isə Ana Uşağın göz yaşlarına dözmədi – bəli, məhz büdcənin ziyanına alınmışdı və indi nəvəsi evə gedib həmin "Səhrada gəmi" filminin növbəti seriyasına baxmağa can atırdı.

– Ay səni, dəcəlsən ki, dəcəl. Yaxşı, gedək evə. Bu dəvə axı sənin o gəmindəki dəvədən deyil. Bu həqiqi dəvədi. O isə…Eh…

– Yox, o dəvə yaxşıdır. O mənim dostumdur. Mənimlə danışır. O məni gözləyir.

***Şirlərin aldadılması. Savanna vədi***

… Ovsunçular, nəhayət, dəvələrin hamısını (bir-ikisi, bəlkə daha çoxu hələ də tapılmamışdı) heyvanxanaya yığdılar. Kiçik bir müşavirə keçirdilər:

– Olan qalan gücümüz çatacaqmı bu dəvələri şirlər üçün toxunulmaz edək?! Odur bax, necə gözləri ilə yeyirlər yazıqları…

– Yox, gücümüz çatmayacaq. Şirlərin qarnını ovsunla doldura bilmərik.

– Vəziyyətdən çıxış yolu varmı?

Bütün ovsunçular taqətsiz halda bu suala cavab axtarırdılar.

Elə bu zaman Baba ilə Uşaq gəlib Damdabacalar küçəsindəki evlərinə çatdılar. Uşaq yamanca tələsirdi. Baba isə (artıq onun yorğunluğu aşkar hiss olunurdu) ayaqlarını güclə çəkirdi.

– Gəl, gəl gecikirik.

Saat Günəş vaxtından Ay vaxtına keçdi. Buludlar göy üzündə şahə qalxıb dondular. Şəhər ətrafındakı səhradibi evlər bir-bir üzə çıxdı.

– Vaxtdı. Tez ol, baba, tez ol... – Uşaq lap səbirsizləşdi.

– Gəlirəm, ay səni. Bir dayan görüm, sən məni lap karıxdırdın.

Qapını onlara açan Ana qıpqırmızı pörtmüş Uşağı görən kimi üzünə narahat bir təbəssüm qondu: "Buna nə olub"?

Tez-tələsik özünü ananın yanından içəri dürtən Uşaq isə birtəhər özünü virvizual ekranın yanına çatdırdı. "Mən gəldim" tanıma sözünü elə qışqırdı ki, evdəki əşyalar da az qaldı cingildəsin. Onun qışqırığını eşidən virvizual

ekran dərhal işıqlandı. Uşaq elə durduğu yerdəcə donub qalmadımı, donub qaldı, ac gözlərini ekrana dikdi, elə bil, bu dəqiqə ekranı yeyəcəkdi, yanında gəlib səssizcə özünü kresloya yıxan Babaya astaca:

– Baba, baba, bax, bax... İndi özün görəcəksən. Bu dəvə o dəvələrdən daha gözəldi, – dedi.

* * *

...Ovsunçuların ayaqüstü müşavirəsində son sözü Şəhər "İnsasanlarla heyvanlar arasındakı münaqişələrin Çözüm Komissiyası"nın üzvü dilə gətirdi. Və onun təklifi artıq əməlli-başlı əldən düşmüş ovsunçular tərəfindən o saat qəbul edildi. Təklif isə bundan ibarət idi. Biz gərək elçilər dəstəsini hərəkətə gətirək. Onlar gedib şirlərdən, söz alsınlar ki, dəvələrə dəyməyəcəklər. Ta ki, ovsunçular öz güclərini bərpa edəndən sonra şirləri yenidən ovsuna tutmaqla, dəvələrin aqibətinin necə olacağını götür-qoy eləmək olar". Ortaya çıxan "Bəs, şirlərə nə vəd eləyə bilərik?" sualına "Çözüm" Komissiyasının üzvü burnunun altında "onlar üçün savanna yaratmağı" deyə mızıldandı. Gərək ki, ictimaiyyətdən gələn təkliflərdən biri də elə bu idi.

Heç kim məsələnin bu cür asanlıqla həll olacağına inanmırdı. Ay vaxtı artıq başlamış, hamı xeyli yorulmuşdu. Elçilər dəstəsinin nümayəndəsi şirlərin yanından qayıdıb əvvəlcə dövlət TV-sinə, sonra da özəl TV-lərə intervyü verdi ki, şirlər qısa məsləhətləşmədən sonra onlara edilən təkliflə razılaşıblar. Öz növbələrində: "təki ovsunçular gəlməsin. Biz hər şeyə razıyıq" deyiblər. Beləliklə, hamı rahat nəfəs aldı. "Yağış anı" üzrə koordinator olan qoca Şir və "Ümumi sülh saatı"nın nümayəndəsi irəli çıxıb hər biri öz tərəfində səliqə-sahmanlarını yaratmağa başladılar.

### *Uşaq, Baba və virvizual dəvə*

…Gəmi uzaqdan gəlib qum dənizində yavaş-yavaş böyüməyə başlamışdı. Uşaq o anı gözləyirdi ki, ekranın altındakı "virzaniyə" düyməsini bassın, çünki gəminin içindəkilər yalnız bu zaman otağın içinə daxil ola bilərdi. Baba lap səbirsizləşdi. Diqqəti tarıma çəkildi.

– Vaxtdı! – Uşaq bağırdı və gəmi virtual-vizual sərhəddə burnunu soxan kimi "virzaniyə" düyməsini basdı: – Dəvəni istəyirəm, – bu dəfə pıçıltıyla dedi.

Elə germetik təsəvvür yarandı ki, nəhəng gəmi bu virvizual ekranı parça-parça edib otağa girəcək. Əlini uzatsan, gəmiyə toxuna biləcəksən. Artıq neçənci dəfə uşaq da belə düşündü. Baba özü də əvvəllər, təzə-təzə az qala bu tələyə düşmüşdü. Amma indi başqa cür oldu. Gəminin burnundan bir yol açıldı. O yolla otağın içinə tərəf yeriyən dəvə göründü.

Dəvə əvvəlcə çox kiçik idi, sonra o, böyüməyə başladı. Gəlib virvizual ekrandan otağın içinə girəndən sonra dəvə öz təbii ölçüsünü alıb qurtardı. Uşağın sevinc və təəccübdən matı qurumuşdu. Onun qarşısında onun yaratdığı, onun seçdiyi canlı virvizual bir dəvə var idi.

– Di yaxşı, daha bəsdi, qaytaraq onu gəmiyə. Buraları tamam batırıb duracaq. Hə, balası?! – Baba dedi. – Ay vaxtı da bitmək üzrədi, sən isə hələ heç öz nağılının içinə də girməmisən. Qapadaq bu ekranı. Bu gecəlik deyirəm, bəsdi. – Baba son dövr xüsusi inkişaf etmiş bütün bu texnoturbosillabik yeniliklərə bir qədər şübhə ilə yanaşırdı. – Bax nağıl da artıq səni gözləyir.

– Yox, mən nağıl istəmirəm. Mən bu dəvəni istəyirəm. Bizdə qalsın!.. – Uşaq, nəhayət ki, ürəyindəki arzusunu dilə gətirdi. Yavaş-yavaş, deyəsən, inada düşürdü.

– Di yaxşı, bəsdi. Babanın sözünə bax. – Ana mətbəxdən gəlib onların söhbətinə qarışdı. – Nağıla girmək vaxtıdı. Dünən ay vaxtı meşədə haracan getdin?

– Yox, mən dedim. Mən nağıl istəmirəm. Nolar, ana, ay ana, qoy bu dəvəni evdə saxlayaq, heç olmasa bir gün...

Bu zaman Baba Ananın, Ana da Babanın üzünə baxdı. Nə edəsən? Uşağın tərsliyi tutmuşdu. Bu heç də yaxşı nəticə verməyəcəkdi. Nağıla girməməsi yaxşı yatmaması demək idi, bu isə öz növbəsində Günəş vaxtının zərrəsinə çatmamaq, az qala dünyanın o biri başında yerləşən "Döyüşən öküzlər" məktəbinə geçikmək demək idi.

– Yaxşı, razılaşdıq. Dəvəni həyətə apar. Amma şərtimiz səninlə şərtdi. Sabah axşam o, gəmiyə qayıdır. – Ana öz qərarını verdi: "Nə edə bilərik?" Babaya baxdı.

Uşaq sevincək halda virvizual ekranı daimi energiya rejiminə keçirdi və sonra Babasına tərəf qələbə çalmış on beşinci Günəş əbədiyyətinin dördüncü minilliyinin kiçik qum zabiti kimi təzim etdi və əlini atıb dəvənin boynundan asılmış, heç kimin görmədiyi, indi isə apaydın görünən bir ipdən tutdu. Onlar – Uşaq və dəvə həyətə çıxdılar.

### *Şirlərin qəfəsdən çıxması və Ay zolağı. Ovsunçuların işə girişməsi*

Xəbər gəlmişdi ki, Şirlər qəfəslərin açılması təklifi ilə Çözüm komissiyasına müraciət etmək qərarına gəliblər. "Bir halda ki, razılıq əldə edilmişdir və biz dəvələrə dəyməyəcəyik, o zaman bizi bu dar qəfəslərə yığıb ağzını bağlamaq nə deməkdir?! Məgər bizə inanmırlar? Bu bizə təhqirdir. Biz ki, söz verdik" – Yağış anı üzrə koordinator olan Qoca Şir Çözüm komissiyasının sədrinə belə bir məlumat göndərmişdi.

Bu istəyi ağlabatan sayaraq qəfəslərin ağzını açdılar. Şirlər qəfəslərdən çıxdılar və dəvələrin arasında sakit-sakit dolaşmağa başladılar. Amma bu sakitliyin öz gizli vahiməsi vardı. Dəvələr hələ ovsunda olsalar da əsim-əsim əsirdilər. Hamı nəyinsə baş verəcəyini gözləyirdi. Nəhayət, Ay axşamı vaxtının nabələdlərə kömək zamanı gəldi… Aydan düz heyvanxananın bayır qapısınacan işıq dolu Ay zolağı açıldı. O zolaqla bayaqdan cınqırları da çıxmayan və indi, nəhayət ki, asudə nəfəs alan dəvələri Aya yola salmağa başladılar. Bu zaman şirlər anladı ki, onlarla insasanlar arasındakı razılığın birinci bəndi yerinə yetirilməyə başladı.

Axırıncı dəvənin görüntüsü Ay zolağında hələ itməmişdi ki, heyvanxananın qarşısında qəribə bir sükut yarandı. Amma bu sükut uzun çəkmədi. Qısa bir müddətdən sonra bu sükut qəfildən yarandığı kimi qəfildən də pozuldu. İstirahət edib qüvvələrini bərpa etmiş ovsunçular gəlmədən onların qoxusunu havadan alan şirlər məsələni elə o saat başa düşdülər. "Xəyanət! Xəyanət! Savanna yalanmış. Ovsunçular gəlir. Bizi aldatdılar! Bizi aldatdılar!". Şirlər arasında əsl vurnuxma, hay-küy başladı. Amma şirlərin bu hay-küyü daha heç kim üçün qorxulu deyildi. Çünki bu zaman ovsunçular kənar-

dan anlaşılmaz cəld hərəkətlərlə artıq şirlərin başının üstünü almışdılar. Qısa bir zamandan sonra şirlərin biri də ayaq üstə dura bilmədi. Güclərini qaytarmış ovsunçular təzə ovsundan sonra laybalay torpağa sərilən şirləri quş lələyi kimi qaldırıb qəfəsin içinə atırdılar. Aldadılmış şirlər hər şeyi unutmuşdular. Onların göz qapaqlarını ekstramaqnit daş parçaları ağır-ağır basmaqda idi. Şirlər yavaş-yavaş yuxuya gedirdilər.

Bir hadisə oldu, o baş verməsəydi şirlərin aqibəti Şəhər üçün yəqin ki, uzun müddət həlledilməz qalacaqdı.

Uşaq və arxasınca dəvə (bu sonradan TV məlumatlarında məhz belə şərh olunurdu) evin həyətinə çıxan zaman dəvə özünü qəribə aparmağa başlayır. O, Uşağın rəsmi əmrlərinə tabe olmur, heç nəyə məhəl qoymadan həyətdən birbaşa Damdabacalar küçəsinə çıxır. Virvizual ekran artıq onu idarə edə bilməmişdi. Heç kimin gözləmədiyi halda yaxın kosmik idarə üsulu tərəfindən sensorlu komanda olmadan Dəvə inamla (tanıyırmış kimi) küçəbəküçə heyvanxana istiqamətində irəliləyir. Sonrakı şərhə görə dəvə Ay zolağına girən dəvələrin ardınca qaçmağa başlayır. Özünü bu zolağa salmaq istəyir. Məqsədi virvizuallıqdan çıxmaqmış.

Uşaq dəvənin ardınca düşüb heyvanxanaya qədər gəlir. Zorla dəvəyə çata bilir. Heyvanxananın lap qabağında artıq məlum olur ki, Ay zolağının üstünə sonuncu dəvə keçməkdədir. Virvizual dəvə Ay zolağının önündəcə torpağa pərçimlənib durur. Gözlərindən biixtiyar yaş axmağa başlayır. Boşuna vaxt itirilir. Zolaq və sonuncu dəvə gözdən itirlər. Bir özəl TV məqbulsuzluq zonasına girib (sonralar bu TV ciddi cəzaya məruz qaldı, ay proqramlarından məhrum edildi) bu barədə belə demişdi: "Ay zolağı, elə bil, virvizual dəvədən qaçıb canını qurtarmaq istəyirdi."

Və bu zaman həmən o hadisə baş verir. Uşaq bunu belə danışır: Mən özümü çatdırıb gördüm ki, dəvənin gözlərindən artıq yaş axmaqdadır. Bu zaman qəfəslərin içindəki şirlər ovsundan ayılıb bayıra çıxmağa başladılar (ən qəribə və izahedilməz məqam da elə bu idi). Əlbəttə, belə etinasızlığı, yəni qəfəslərin qapısının nə üçün bağlanmamasını sonralar yaradılmış təhqiqat komissiyasına ovsunçular heç cür izah edə bilmədilər. TV-şərh özü də bunu ovsunçularda çoxdan diqqəti cəlb etməkdə olan özündənarxayınçılıq

halı kimi qələmə verdi. Şirlərin ovsundan öz başına çıxmaqlarını isə Akademiyadan olan mütəxəssislər Ay zolağından sonrakı elektromaqnit atmosferə kəskin naməlum qıcıqlandırıcı impulsların (bu isə dəvənin sulu məhluldan ibarət olan göz yaşından yayılan şüalar idi) daxil edilməsinin nəticəsində baş verdiyini iddia etdilər. Sonralar bu fərziyyənin doğruluğu elmi cəhətdən də sübuta yetdi – naməlum məhlulun dərin termoelektrik təhlili aparıldı, iddia təsdiq olundu və haman məhlul (göz yaşı) bundan sonra ovsundan çıxma kodeksinin əsas maddələrindən birinə çevrildi.

Mütəxəssislərə o da qəribə görünmüşdü ki, özünə gəlib qəfəsi tərk edən şirlər heyvanxananın qapısından bayıra çıxıb əvvəl-əvvəl Uşağı və dəvəni əhatəyə almış, bir xeyli ətraflarında iri pəncələrini ağır-ağır yerə basaraq var-gəl etmişdilər. Uşaq və dəvə isə bir-birinə qısılıb qalmışdılar. Şirlərin çoxu "Bizi aldatdılar – intiqam, intiqam!" deyə fınxırırmış. Bu məqamda hadisə yerinə özünü Ana və Baba yetirmişdi. Hətta elçilər dəstəsi də bura gəlib çıxmışdı. Amma nə onlar, nə də başqa əmniyyət hissələri qəzəbli şir sədlərini keçib Uşağa və dəvəyə yetişə bilmirdilər. Ovsundan çıxan şirlər son dərəcə təhlükəli idilər. Faciənin qarşısı gözlənilməz şəkildə öz-özünə alındı.

– Biz bunu etməyəcəyik! – Dal pəncələri üstə çöküb bayaqdan qıyıq gözlərini düz dəvənin gözü yaşlı üzünə dikmiş Yağış anı üzrə koordinator qoca Şir, nəhayət ki, dilləndi.

Şirlərin qəzəbi bir az da artdı. Qoca Şir ikinci dəfə amiranə şəkildə:

– Biz bunu etməyəcəyik! – dedi. Sonra dediklərinə belə bir əlavə etdi:

– Biz gedirik. İnsasanlar bizi aldatdılar. Biz gedirik və bir də yağış kimi insasanların şəhərinə yağmağı mən əbədiyyən şirlərə qadağan edirəm.

Bundan sonra şirlər əmrə tabe, dinməz-söyləməz (boğuq səslə mırıldana-mırıldana) uşaqla dəvəyə heç bir fikir vermədən uzun bir cərgəyə düzülüb Şəhərin çıxış qapısına doğru yol aldılar…

Şirlərin beləcə şəhər qapısından çıxması ilə F.Q.-nin yuxusu qarışır və bitirdi. Bundan sonra vaqeələri sözlə təsvir edən səs kəsilirdi. F.Q. yuxudan ayılan kimi əvvəl-əvvəl bu yuxunu xatırlamadı. Yavaş-yavaş ayrıca epizodlar, məqamlar – uşaq, onun babası, şirlər və ovsunçular bir-birilə əlaqəsiz halda yada düşməyə başladı. Ən sonda dəvə yada düşdü. Ayrı-ayrı məqamların bir

möhkəm xətt üzərində pərçimlənməsi isə ancaq gecə yenidən yatmaq üçün yerinə girəndə baş tutdu. Uzun müddət yuxuya gedə bilməyən F.Q. dəvələrin yağışını, şirlərin nümayişini yenidən göz önünə gətirdi. "Sabah mən bunu Bəhram dayıya gərək hökmən danışım. "Paralel dünyalar, paralel dünyalar… Bu deyilmi?!" Bu fikir sonra, gecə gəlib onun beyninə dolacaqdı. Gecəyə isə hələ vardı. Elə bu zaman…

### *Bəhram kişi Mağaranın önündə. Bəhram kişi və Mağaranın ruhu*

... F.Q. axşama yaxın öz yatağında uzanıb şirlər, dəvələr, uşaqlar, insanlarla bağlı öz yuxusunu yatanda (yuxusuna batanda), Bəhram kişi elə bu zaman sürətlə və bir balaca da hövlnak vəziyyətdə həyətin qabağındakı dar cığıra düşüb Vəng dağı ilə üzüyuxarı qalxırdı – mağaraya tərəf gedirdi. Yorulduğundan (yolun ağırlığından deyil, tələsdiyindən deyil, həyəcanından) tövşüyür, qəlbinin guppuldayan səsini az qala qulaqlarıyla eşidirdi. Mağaraya hələ var idi. Bəhram kişi cığırın sağ tərəfindəki oğruqdan (dərəyə döngədən) ötən kimi Bozların mırıldayan səsi qulağına gəldi. Köpək mağaradan onun iyini almışdı, zənciri arxasınca sürüyə-sürüyə səbrsiz bir halda mırıldanaraq mağaranı o divardan bu divaracan ölçür, hürməyinə hərdən hürürdü, amma buna hürmək demək olmazdı, buna ulamaq demək daha doğru olardı.

Bir, iki, üç... Yağış damlaları taqqıltıyla Bəhram kişinin taxta kimi qurumuş alabəzək araxçınına dəyib üzünə, sonra saqqalına tərəf sürüşdü. Əli ilə üzünü silib Bəhram kişi bu yağışı vecinə almadı, necə ki yeyin gedirdi, getdiyi kimi elə də getdi. Ancaq mağaranın ağzındakı açıqlığa çatandan sonra nəfəsini dərdi, daşın (həmənki öz içindən işıq verən daşın) keçib üstündə oturdu, nəfəs dərdi. Hələ də damla-damla atan yağışa fikir vermədən gözləməyə başladı.

Mağaranın ruhu onun iyinimi duymalıydı, havasınımı tutmalıydı, nə edirdisə etsin, amma peyda olmağına peyda olmalıydı, gəlməyə bilməzdi. Bu daşın üstündə gecənin bu vaxtı elə-belə gəlib bir kimsə oturmaz. Əlbəttə, bu gəlişdə bir niyyət vardır.

Əvvəlcə fısıltı eşidildi, sonra yumru işıq topası təkər kimi fırlana-fırlana ildırım sürətilə gəldi (əslində, peyda oldu).

“Gələrmi, gəlməzmi?!” – elə bunu bir daha düşünmüşdü ki... Mağaranın ruhu özünü gözlətmədi. Bəhram kişi ora-bura boylanmağa heç macal da tapmadı. Mağaranın ruhu (bu isə qapqara təkər boyda bir şar idi) fırlanıb-fırlanıb hardansa onun qarşısında peyda oldu. Həmən məşum səs yenə Bəhram kişinin gicgahlarında guppuldadı:

– Oğruqdan keçən yerdə baxdım, gördüm sənsən, xeyirdi?

Amma bu səs daha qorxulu deyildi. Məşum olmağına məşum idi, yenə ilan kimi fıs-fıs fısıldayırdı, amma qorxulu deyildi. Bəhram kişi çox sakit bir tərzdə qəti əminlik içində Mağaranın ruhuna – işığı yanıb sönən kürəciyə üz tutdu:

– Xeyirdi, şərdi, nə dəxli var?! Səninlə sövdələşməyə gəldim. Söhbətimizi bitirməliyik.

– Yenə sövdələşmə? Oyunun olsun, a Bəhram, başqa heç nə demirəm, oyunun olsun. İndi nə istirsən?

Bəhram kişi “təvəqqeyə mən gəlmişəm”, mümkün qədər mülayim şəkildə rica etdi:

–İzin ver... o yazını bu oxusun. Layiqdi.

– Olmaz. O bu yazını oxumayacaq. Heç kim bu yazını oxumayacaq! – Mağaranın ruhu onun sözünü qətiyyətlə kəsdi.

–Niyə? Xəzinənin yeri yazılıb – ondan?

– Nəyə gəldin bura sən, Bəhram kişi? – Bəhram kişinin başının içində yel oynadı, Mağaranın ruhunun səsi onun bu namünasib sualından sonra kəskinləşdi.

– Olmaz?!. O zaman nə isə, heç olmasa nə isə oxusun. Nə isə oxut ona. Ehtiyacı var. – Bəhram kişi bu dəfə az qala yalvardı.

–Nə? Necə?

Bəhram kişi əvvəlcə gözlərilə “nə bilim?!” dedi, sonra birdən ürəyi atlandı:

– Açar söz ver ona. Yalançı açar-söz ver. Əsl yox, yalançı. Qoy başqa bir şey oxusun.

–Əlini mənim naxışlarıma sürtsə – öləcək...

–Yox, ölməsin. Mən sənə başqa qurban nişan verərəm. Nə fərqi olacaqmış... Qulaq ver. Qulaq ver. Əsl açar sözü təkcə sən bilirsən. Bilməmiş deyilsən. Mənə, istəmirəm, söyləmə! Amma gəl, sən mənə kömək elə. Başqa bir açar-söz söylə mənə. Yalançı olsun. Elə bir açar olsun ki, bu gədəni öz arxasıyca tamam başqa bir səmtə aparsın.

– Belə. Səninki yazını oxusun, amma əsl məzmunu deyil, başqa bir məzmunu oxusun... Üzə çıxan başqa şey olsun, eləmi deyirsən? – Mağaranın ruhu fikrə getdi.

– Elə. Mən istəmirəm, o əzab çəksin. Zülüm çəksin. Sənin xəzinən heç kimə gərək deyil. Azdır bu zəhrimar yazının izini! Azdır, yox elə! Amma elə et ki, şübhələrə də yer qalmasın. Sənə – xəzinə, ona isə... ona isə qıyma.

– Şübhələrə heç bir yer qalmasın... – Mağaranın ruhu əks-səda kimi təkrar etdi. – Bu bir balaca çətin məsələdi... Bəs qurban kim olacaq?

Mağaranın ruhu Bəhram kişinin narahat halda vurnuxduğunu görüb tez əlavə etdi:

– ...Amma mümkünsüz də deyil. Şərtimiz, səninlə danışmış idik, haman şərtdi. Qurban məsələsi isə güzəşt sevməz – qurban olmalıdı. Kim əlini sürtsə – şərtimiz var... Çiçəklərə əl sürtmək – olmaz! Sürtsə – öləcək! Ya da yerinə başqa bir qurban nişan ver. Başqası. Olsun. Mənə fərq eləməz. Həqiqət, sən özün necə ki dedin, heç kimə gərək deyil. – Mağaranın ruhu güldü, amma bu gülüş deyildi, bu bir qandondurucu, idbar hırıltı idi. Bəhram kişinin üzü əzabdan əyildi.

– Olsun. Razıyam. Sənə qurban lazımdı? Ona dəymə! Sən yalnız açar sözü de! Yalançı açarı! Qoy bu yazı olduğu kimi deyil, başqa cür oxunsun. Mən sənə qurban göstərrəm. O isə... Qoy o nə istir, çiçəklərlə eləsin.

– Göstərərsən? Kimi göstərəcəksən? – Mağaranın ruhu sonsuz maraq və diqqət içində soruşdu və bu zaman onun marağı o dərəcədə idi ki, öz yerində fırlanmağını hətta saxladı (o isə söhbət boyunca bir maşın təkəri kimi öz yerində fırlana-fırlana qalmışdı).

– Sənə qurban lazımdı? Qurban – mən.

– Sən? Sən – qurban? – Mağaranın Ruhu aşkara təəccüb etdi, inanmaq istəmədi. Kürəciyin işığı artdı və yanıb-sönməyi tezləşdi, o yenidən hərəkətə gəldi, yenidən sürətlə öz dairəsi ətrafında fırlanmağa başladı.

– Niyə də yox? Günah varsa, cəza olmalıdı. Kim çəkəcək cəzanı – fərqi nədi?! Sən deyirsən, çiçəklərə əl vurmaq günahdır, cəzası var. Mən deyirəm, o bu yazını oxumalıdı, oxuyacaq. Mən, mən götürürəm cəzanı öz boynuma.

– Eləmi?.. Amma niyə? Səni başa düşmədim. Belə... Nə deyirəm, mən razı... – Ruh bir qədər düşündükdən sonra, nəhayət, razılıq verdi. Elə bu zaman (“mən – razı” sözlərindən sonra) mağara içində Bozlar özünü didməyə başlamadımı, başladı (“Mən də varam!”). Mağaranın ruhu bunu heç vecinə də almadı, qətiyyətlə təkrar etdi. – Mən razı! – Onun bu son sözləri Bəhram kişinin beynindən axıb canına yağ kimi yayıldı.

– Çox gözəl. – Bəhram kişi dərindən və rahat bir nəfəs aldı. – Di o zaman o sözü söylə. Qoy o söz onu tamam başqa bir səmtə aparsın. Söylə.

Mağaranın ruhu az qala eşidilməz oldu:

– Sən o sözü bir canlı kimi hər gün görürsən. O, sənin gözlərinin qabağındaca bitib, böyüyüb, durub.

Bəhram kişi heç düşünməyə də macal tapmadı. Açar söz özü gəlib girdi onun beyninə. Bəhram kişi qəfildən içini çəkdi:

– Qarağac... – Ucaboylu, qədd-qamətli, nazənin gəlin misalı Balaca, bütün cilvəsiylə göz önündə canlandı. Qarağac, Qarağac, demə sən çözüm ola bilərmişsən. “Ay səni Balaca...” Bəhram kişi elə oturduğu yerdəncə aşağı – Çoban papağına boylandı. Qarağac qorxunc və acgöz bir kölgə olub durmuşdu. Güclənən yağışı ahənrubə kimi öz içinə yığır, özündən aşağı (bəlkə də yuxarı?) bir damla da keçirmirdi.

O, yenidən başını çevirib Mağaranın Ruhunun olduğu (kürəciyin fırlandığı!) yerə baxanda bu dəfə Ruhu orda görmədi. Ruh yox olmuşdu.

Bozlar sakitləşdi, mağaradan nə onun səsi gəldi (yerə uzanıb ancaq ləhləyirdi), nə də zəncirin səsi. Bəhram kişi içindən nur verən və bu qaranlıqda ətrafı mağaranın ağzına qədər zərif işığa bürüyən bu isti daşın üstündən istəməyə-istəməyə (niyə?) qalxıb barmaqları ilə daşa bir-iki sığal çəkdi, ürəyi, qəlbi sıxılsa da, amma həm də çox yüngül bir rahatlıq içində yenə həmən cığırla bu dəfə üzü aşağı – Çoban papağına tərəf tələsdi. Hava artıq qaralmışdı.

### *Mübariz kişinin gəlişi. Qarağacın altında pəjmürdəhal oturan F.Q. və arıların vızıltısı*

...Mübariz kişi əlində süd dolu bidon həyət qapısını arxa tərəfdən əlini atıb asanlıqla açdı və həyətə girdi. F.Q.-ni Qarağacın altında görüb birbaşa onun yanına yönəldi, bidonu ehmalca yerdən, samovarın böyrünə qoydu:

– Salam, a bala, axşamın xeyir olsun, necəsən, nə təhərsən? İşlərin necə gedir? – Salam-əhvaldan sonra miləmil pencəyinin cibindən alabəzək dəsmalını çıxarıb boynunun tərini sildi, F.Q. ilə üzbəüz keçib bu da oturdu. F.Q.-nin diqqətini yenə çəkən bu kişinin əcayib (həqiqətən, çox böyük idi) burnu oldu, "hə, normadan xeyli uzundu, qara sifət, uzun burun, daima sağa-sola qaçan göz bəbəkləri... Əsl Xudayar bəydi, durub."

F.Q. qabiliyyətlə Mübariz kişinin salamını aldı, "salam, sağ olun, işlər – gedir işlər, niyə ki, pis deyil, yaxşıdır..." dedi, diqqəti isə özündən asılı olmayaraq çiçəklərin ətrafında vızıltı ilə uçuşan bir dəstə arıya yönəldi. Qəribəsi bu idi ki, arılar nə üstünə qonan kimi çiçəyə qonurdular (bunun üçün onlara mane olan heç nə yox idi), nə də çiçəkdən uzaqlaşırdılar. Çiçəklər həyəcanlı idi, arılar isə vızıltıları ilə qulaq deşirdi. F.Q. " burda bəzək, çiçək və s., orda (Xəzərdə) isə təzəyə gələn qağayıların qara-qışqırığı... Bu dünyanın heç bir yerində sakitlik axtarma, qardaşım!" Ondan cavab gözləyən Mübariz kişiyə (o elə indicə nə isə soruşmuşdu və F.Q.-dən səbrlə cavab gözləyirdi) birinci dəfə görürmüş kimi xeyli diqqətli bir nəzər saldı. Mübariz kişi bu diqqətli baxışın arxasındakı etinasızlığı duysa da təhər-tövrünü pozmadı, onun təkrar sualını F.Q. zorla eşidib başa düşdü:

– Nə var, nə yox, deyirəm...

– Heç. Salamatlıqdı... deyirəm. – Şuxluq etmək istədi. Alınmadı, çünki Mübariz kişi ciddiliyini pozmadı:

– İşlərdən nə xəbər? Yazıdan, deyirəm, bir xəbər, yenilik var, ya ki...

– Ya ki. Ya ki.Yoxdu, hələ bir yenilik yoxdu.

Mübariz kişi pərt olmadı, F.Q.-nin səbrsizliyini görüb bu cür məzələnməklə söhbətdən yayınmaq istəyini (arif olmağına arif idi) dərhal anladı. "Səbrsizdi, deməli, məğlubdu", Çoban papağına tərəf boylandı:

– Bə bu Bəhram hardadı, evdədi? "Mən kefə gəlməmişəm, iş üçün gəlmişəm."

– Buralardadı, indi gələr. Çay içərsənmi, Mübariz müəllim? – F.Q. bu dəfə hörmətlə soruşdu.

F.Q. hələ də Bəhram kişinin harda olmasını bilmirdi. Bəhram bayaq idi, hələ o yatarkən evdən çıxmışdı. F.Q. əvvəlcə onu həyətdə bildi, amma deyəsən, həyətdə də yox idi...

– Buralardadı, harda olacaq ki. Mənə bir şey demədi. Səni gözləyirdi, indi gələr. – Sözlər qurtardı, F.Q. təkrara məcbur qaldı. – Çay içərsənmi, Mübariz müəllim? "Hər halda qonaqdı, gəlib..."

Mübariz "müəllim" maraqlı ünsiyyət, dedi-qodu dolu axşamın, bəlkə də gecənin ləzzətini qeyb etmə təhlükəsi duyduğundan təəssüf edə-edə "indi gələr" sözlərindən yapışıb yerini rahatladı. Çay təklifinə isə daha çox başı ilə cavab verdi: "Hələlik istəmirəm".

F.Q. Mübariz kişinin uzun burnuna yenə diqqətli bir nəzər saldı. Əslində, gözlərini ha çalışsa da qaçırsın, bu burun özü gəlib girirdi onun gözlərinin içinə. Mübariz bunu duydu, həqiqətən yazıq Mübariz özü də bəzən bilmirdi, burnunu hara gizlətsin, yeri gəldi – gəlmədi cibindən dəsmal çıxarıb səliqəylə onu silirdi. F.Q.-nin yadına yenə Mirzə Cəlilin Xudayar bəyi gəlib düşmədimi, düşdü və o, təbəssümünü zorla gizlətdi: "adamlar, onların duyğuları, hissləri, qulaqları, burunları zamandan zamana dəyişmir. Dəyişən zahiri formadır – paltardır, saç düzümüdü, ətirin-kirşanın növləridi, bir balaca da ağlın ( o da əgər varsa) azlığı, çoxluğudu..."

– Çoxdandı biz tərəflərə hərlənmirsən... – Mübariz kişi boynunun tərini dəsmalla silə-silə dilləndi. – Tapşırdım, maşının üstünə örtük çəkdilər – gün işığı var, yağışlar da başlayıb...

– Sağ ol, çox sağ ol, əziyyət verirəm...

– Yox, yox, nə danışdığındı, əziyyət-filan yoxdu. Vaxtın olanda hərdən fırlan gəl biz tərəflərə. Profesordan nə xəbər var – telefon edirsən şəhərə?

– Edirəm ("Etməmiş olaydım". Bu söz – "telefon" yenə Afaqın anası ilə son söhbəti dartıb gətirib F.Q.-nin yadına saldı). Salamı var Professorun. (Maşınla bağlı təşəkkür əvəzi! Əslində, heç bir salam-zad yox idi). Danışırıq tez-tez...

– Belə... Sağ olsun... Heç buralara gəlib – getmək fikri yoxdumu? – Mübariz kişi ürəyində tutduğu gizli niyyəti (Professorun qonaq gəlməsini) həmişə olduğu kimi bu səfər də dərin sularda görünməyən sualtı qayıqlara bənzər dolayı sual şəklində üzə çıxardı.

– Bilmək olmaz. Heç bilmək olmaz. Niyə də yox?! Bəlkə nə zamansa bu yazıları buradan muzeyə aparmaq fikri ortaya çıxsa, o zaman... niyə də olmasın?!

– Hm. Elə bir fikirmi var? – Mübariz kişi ox kimi gərildi.

F.Q. "işə düşdüm, söhbəti axı necə oldu, yazının üstünə gətirdim, eh...", yavaş-yavaş hövsələsi daralsa da, başladı, səbrlə Mübariz kişinin suallarına adda-budda cavablar verməyə, amma bildirmədən bir gözü ilə də Çoban papağından evin dalındakı almalığa tərəf gedən cığıra baxırdı. "Yox, oraların da işığı yanmır. Bu qaranlıqda?.. Harda qaldı bəs bu zalım?!"

Qarağacın altına evin pəncərəsindən gəlib zəif bir işıq düşürdü. Arılar artıq uçub getmiş, çiçəklər sakitləşmiş, ulduzlar isə hələ görünmürdü. Cırcıramalar orda-burda səslərini başlarına atmağa hazırlaşırdılar ki, Göy üzünü gəlib boz bir pərdə tutdu, o boz pərdədən üzüaşağı (bu dəfə üzüaşağı!) əvvəlcə yavaş-yavaş, bir azdan isə sürətini artıran yağış damcıları yağmağa başladı. F.Q.:

– Bəlkə evə keçək, yağır, – dedi. Balacanın altından ayağa durmaq istəyirdilər ki, bu zaman həyət qapısı açıldı, Bəhram kişi şax addımlarla həyətə girdi. Mübarizi görcək, gümrah səslə:

– Gəlmisən? – soruşdu. – İçəri niyə keçmirsiz? Bu güclənəcək. Keçin, keçin içəri.

Yağışı özü ilə gətirə-gətirə islanmış Bəhram kişi artırmaya qalxdı. Mübarizlə F.Q.-ni gözlədi, ayaqqabılarının palçığını (ayaqqabıları eyzən palçıq idi) pilləkənin sivri ucuna sürtüb təmizlədi.

Otaq az-maz isti idi, yağışın varlığı artırmanın dimdiyinə taqqıltıyla və eyni ritmlə dəyən damlaların səsinin ucundan asılmışdı.

Mübariz kişi gözlərində sual: "hardaydın?", əlindəki süd dolu bidonu Bəhram kişiyə uzatdı:

– Bunu, bir yerə qoy...

Bəhram kişi "sonra, sonra"... bidonu aparıb otağın pəncərəsinin ağzına qoydu, bura adətən sərin olurdu:

– Sağ ol – dedi.

– Mübariz, düzdü ki, yolumuzu düzəldəcəklər?! Meydanda danışırdılar. – Bəhram kişi islanmış araxçını başından götürüb sobanın yanında divardan asdı, çayniki və stəkanları mizin üstündən yığışdıra-yığışdıra soruşdu. – Amma nə yaxşı olar...

– Elə bir söhbət var. – Mübariz kişi düşüncəli bir tərzdə (sambal əvəzi) altdan-altdan F.Q.-yə baxıb belə bir yayğın cavab verdi. – Görək...

– Olsaydı...

F.Q.-yə onların dərd-səri, söhbətləri, bir-birilə bir cür danışıb başqa cür anlaşmaları qətiyyən maraqlı deyildi, fikir onu yenə uzaqlara aparmışdı. Qanının qara olduğu üz-gözündən bəlli idi, F.Q. üzünün əsl ifadəsini heç zaman gizlədə bilmirdi. Gözlərinin içində uzaqların əks-sədası vardı. İndi o, Afaqla ilk görüşlərini, gəzintilərini, qarlı-şaxtalı Moskva küçələrini, isti restoranları, kino-teatrları, mağaza-dükanları xatırlayırdı. Bakıya geri döndükdən sonra isə gecələr telefon söhbətləri. Bitib-tükənməz gecə söhbətləri... Qardaşı ilə telefon üstündə az qala davaya çıxmaları...

– Sən məni sevirsən? Amma bax, düzünü de!

– ... Hə, bəs sən?

– Belə cavabı gedib gələcək həyat yoldaşına verərsən. "Hə, bəs sən?" Bitdi! Qurtardıq!

– Nə danışırsan sən?! Məndə o bəxt?.. (Əlbəttə ki, zarafatla!)

– Aha! İç üzün budu sənin. Deməli... bəxtin olsaydı qurtarardıq?!

– Bəsdi də, ay sözbaz, ay heç nədən söz çıxardan dünyalar gözəli...

F.Q. xatırladıqlarının "ritmində" üz-gözünün mimikası dəyişir, gah gülümsəyir, gah sifəti turşuyur, qaşları çatılırdı. Mübariz kişi gözlərini Bəhramın üzünə dikdi "nə olub buna?". Bəhram kişi başını yellədi, "bənd olma, bir şey deyil, sonra...".

– Çay içərsənmi, Mübariz? – Bəhram kişi bunu elə bir tərzdə soruşdu ki, (yəni, "gedərsənmi, Mübariz?"), hətta Mübariz belə bu sualdakı alt mənanı başa düşdü, qalmağın yeri deyildi: "bunları təkbətək buraxmaq lazımdır":

– Yox, ay Bəhram, içmirəm, evdən gəlirəm. Mən gedim. Vedrədən tökənə oxşayır. Sən gəlmə, gəlmə. Onsuz da islaqsan. “Hara görəsən getmişdi bu?”

– Hə, elədi. Yaman yağır. Sabah hökmən dəyəcəyəm sənə. “O zaman söhbət edərik”.

Bəhram və Mübariz yenə çoxmənalı şəkildə baxışdılar.

Mübariz kişi daha qalmadı, qalxdı. İllah qoymadı ki, Bəhram kişi onu ötürsün, evdən eşiyə çıxsın (“yağışa düşər...”), insafən F.Q.-nin də ötürmək təklifinə razı olmadı. O gedəndən sonra bunlar (Bəhram kişi və F.Q) bir xeyli dərin sükut içində mizin ətrafında oturub çay içə-içə getdikcə şiddətlənən yağışın başları üstündəki damı döyəcləyib taqqıldadan səsinə qulaq verdilər. F.Q. oturduğu yerdəncə başını yana əyib pəncərəyə yaxınlaşdırdı, burnu şüşəyə dəydi. Yaş pəncərədən bayıra baxa-baxa bu damcılı qaranlıqda nəsə seçməyə çalışdı, amma seçəmmədi, nəhayət, elə həmən qaranlığa baxa-baxa sakit bir səslə sükutu pozdu:

– Mən bununla dörd il əvvəl Moskvada tanış olmuşam.

Bəhram kişi çay dəstgahını yaşılkərpic sobanın üstündəki dolaba düzürdü, əlindəkiləri buraxıb keçib öz yerində oturdu, F.Q.-nin stəkanını bir tərəfə sürüşdürüb süfrənin qırışlarını sığallayıb düzəltdikcə düzəltdi, sonra da əllərini mizin üstündə qoyub maraqla, həm də ciddi bir maraqla “ürəyini boşaltmaq istir” ona qulaq asmağa hazırlaşdı. F.Q. yenə pəncərədən gözünü çəkməyərək (bir qədər də lirik tərzdə) davam etdi:

... Moskvada. Otuz üç yaşım vardı, ilk dəfə idi, Moskvaya gedirdim, elmi konfransa. Metroda bir də başımı qaldırıb gördüm ki, düz qarşımda bir gözəl qızdı, oturub. Mənə tərəf heç baxmır, amma yenə də, elə bil, mənə “gəl-gəl” deyir. – F.Q. pəncərədən ayrıldı, içib qurtarmadığı çay stəkanını iki əli ilə bərk-bərk sıxdı, buraxdı. – Suyuşirin, yaraşıqlı. Gözəldən daha çox yaraşıqlı idi, gözəl görünürdü. Mənə elə gəldi ki, belə heyranlıqla baxmağım onun xoşuna gəlir. Sonra kimsə, elə bil, qulağıma pıçıldadı ki, bu qız Bakıdan gəlib...

– O idi? – Bəhram kişi söz demək xatirinə soruşdu.

– O idi, – F.Q. hüznlə cavab verdi. – O biri dayanacaqda yanındakı yer boşaldı, keçdim cəsarətlə oturdum düz yanında...

***Moskva. Metronun vaqonunda.***
***Axşamçağı. Afaq və F.Q. yanaşı oturublar***

"... Qapılar bağlanır, ehtiyatlı olun. Növbəti dayanacaq Moskva Dövlət Universitetidir". – Metal kimi cingiltili səs vaqondan vaqona yayıldı. Qapılar bağlandı və qatar relsləri şaqqıldada-şaqqıldada sürət yığıb öz işıqları ilə bir yerdə dar qaranlığın içinə cumdu. "Taqqataraq" təkər səslərinə qulaq asa-asa F.Q. çox düşündü, çox daşındı, "hökmən bu qızla tanış olmalıyam", nəhayət, ilk söz üçün bundan yaxşı bir şey tapa bilmədi:

– Siz icazə versəydiniz... (bunu rusca dedi).

Qız təəccüblə ona baxdı." Nəyi? Nəyi icazə verməliyəm?!" F.Q. bu dəfə əməlli-başlı "riskə" getdi, əvvəlki cümləsini bitirmədən bu dəfə ürəyi şiddətlə vura-vura Azərbaycan dilində:

– Bakıdansınız? – sual verdi. Cavab gələnəcən nəfəsi kəsildi.

– Bakıdanam. – Afaqın gözləri iynəli bir təbəssümlə doldu. – Hardan bildiniz?.. "Nə qədər ağıllısan..."

***Yenə Çoban papağı. Yenə Bəhram kişi və F.Q. – üzbəüz.***
***Yenə hüznlü Moskva xatirələri***

Ortalığa sükut çökdü. Bəhram kişi ayağa qalxıb "mən təzə bir çay qoyum... nə deyirsən?!" plitəyə yaxınlaşdı. Amma nə düşündüsə dönüb F.Q.-yə baxdı, canıyananlıqla soruşdu:

– Çay içərsən, ya süd? Mübariz süd gətirib. Xallının (inəyin) südü bir başqadı. Bəlkə?..

– Nə bilim... – Çayını onsuz da içib qurtarmayan F.Q. üçün heç bir fərqi yox idi.

"O zaman süd içsə yaxşıdı. Qüvvətdi". Bəhram kişi tez gedib pəncərənin ağzından süd bidonunu götürdü, plitənin üstünə bir seyin qoyub süddən bu seyinə tökərək ağzınacan doldurdu:

– Mən də süd içəcəyəm. – İstəyirdi ki, F.Q. süd içməyindən vaz keçməsin, bu süd məsələsi gerçəkləşsin.

Bayırda yağışın artıq leysan vaxtıydı. Artırmanın dimdiyi az qala yerindən oynayacaqdı. Yağış, elə bil, bu yerlərin etibarsız yayının son isti hənirtisini yuyub aparmaq, həyətin qara torpağının dərinliyinə hopdurub itirmək istəyirdi. "Yağır, yaman yağır, heç kəsənə oxşamır. Sabaha qədər yağacaq", Bəhram kişi qaynar süddən stəkanlara töküb ortaya qoydu, "qəndləmi içəçəksən?" soruşdu, "yox" cavabını aldı:

– Mən də südü qəndnən içə bilmirəm, – deyib Bəhram kişi qaynar-qaynar bu süddən bir qurtum aldı, dodaqları azca yansa da canına istilik yayıldı, gözləri ləzzətdən qıyıldı.

... F.Q. söhbətinə davam etdi...

***Yenə Moskva xatirələri.***
***Yenə Çoban yastığı. Yenə F.Q. və yenə Bəhram kişi***

– O axşam Moskvada möhkəm qar yağırdı. Metrodan çıxanda hər tərəf ağappaq qara bürünmüşdü. Yerin altından sol tərəfə çıxışda tramvay dayanacağı vardı. Onu o dayanacağa təzə yağmış qarın üstü ilə az qala sürüşə-sürüşə, yıxıla-yıxıla ötürdüm. Hərdən yıxılmağı gələndə əlindən tuturdum, əlini çəkmirdi. Bir dəfə isə özü mənə sıxıldı... İndiki kimi yadımdadı, 39 №-li tramvayı gözlədik. Vavilov küçəsindəki Akademkniqaya qədər gedəcəkdi. Mənim yolum isə əks tərəfə, piyada yolu idi. 15 dəqiqəlik yol. Universitetdə qalırdım, onların məzuniyyətə gələnlər üçün qonaq evləri var, orda. Qarın altında... və üstündə piyada 15 dəqiqəlik yol...

– İcazə verin, sizi axıra qədər ötürüm. "Qohumlarım" deyirsiz, elə edərəm... qohumlarınız bizi hardan görəcək? Özü də bu qarda. – Mən neçənci dəfə ağzımdan buğ çıxa-çıxa, soyuq məni kəsə-kəsə eyni xahişi edirdim. Az qala yalvarırdım. Özüm-özümə nifrət etdim. "Diz çök, yalvar, boyunu..."

– Yox, ehtiyac yoxdu. Əvvəla, bir o qədər gec deyil, ikincisi də bura... – Üzümə zənlə baxdı, – bura Bakı deyil. Qorxulu bir şey yoxdu.

F.Q. nəfəs dərdi, elə bil, gözünə nə isə görükdü. Qar altında və buzlu yol ilə tələsə-tələsə, əl-qolunu ata-ata (sürüşüb yıxılmamaq üçün) gedən, bu zaman ona məhəl belə qoymayan Afaqmı gəldi gözünün önünə?!

– Moskvaya anası ilə gəlmişdi. Mənə dedi ki, qohumumuzgildə qalmışıq. Qohumları 5-6 dayanacaq o tərəfə Akademkniqanın həyətində yaşayırdı. Nə illah elədim, bundan o yana ötürməyə qoymadı. 39 №-li tramvay, nəhayət ki, mavi qar lopalarını yararaq zınqrovunu çala-çala gəldi. Qar dənəcikləri ulduzcuqlar kimi Afaqın qəşəng dəri papağının üstündə, dəri paltosunun çiyinlərində əriyib getmirdi, eləcə damcıya dönüb (və donub) qalırdı. Belə bir halda tramvaya qalxdı, içəridə üst-başını yalandan çırpdı, keçib düz mən tərəfdə pəncərənin ağzında oturdu və elə bil, bu zaman mən onun yadından birdəfəlik silindim. Sonuncu dayanacaq olduğundan (39 № bu meydanda dövrə vurub geri qayıdacaqdı) tramvayın yola düşməsi ləngiyirdi. O biri 39 № gəlməliydi. Mən salmışdım abırsızlığıma, küçədə tramvayın pəncərəsi önündə dayanıb soyuqdan tullana-tullana qalmışdım, əllərimi nəfəsimlə isitməyə çalışırdım, alınmırdı, amma getmirdim ki, getmirdim, çünki ondan ayrıla bilmirdim, o isə oturacaqda yerini rahatlayıb, üzündə son dərəcə ciddi bir ifadə başını mən tərəfə heç çöndərmədən irəli ("hara?") baxırdı. Elə bil, vaqonun içində, sürücünün kabinəsində nəsə var, bu da gözünü ondan çəkə bilmir. Bayaq dedim: bu qız gözəl deyildi. Bəhram əmi, amma çox gözəl... görünürdü. Gözəl görünmək heç kimə bu qədər yaraşmamışdı. Mən onu küçədən heyran-heyran seyr eləməkdən doymurdum, yorulmurdum, ən əsası – utanmırdım. Görəsən adama belə baxanda bu adam özü sənin ürəyindən keçənləri hiss eləyir, ya yox?! Nə isə...

Tramvay yerindən tərpənəndə başını yüngülcə çöndərib mənə "hələ burdasan? Vay, vay, – donacaqsan..." baxdı və "yalandan" əl elədi. Üzünün ciddi ifadəsi isə qətiyyən dəyişmədi. Elə bil, əmin idi ki, mən yerimdə mıxlanıb qalmışam, (qalmalıyam!) və onun qarabuğdayı üzünü (profilini!) baxışlarımla az qala deşib durmalıyam. Və bu həmişə belə davam edəcək. Bu mənim taleyimdi...

Bəhram dayı, mən sabahı, sabahkı gün saat dördü ("imkan olsa, vaxt olsa görüşərik..." – Mənim görüş təklifimə Afaq belə bir ötəri cavab vermişdi) necə həsrətlə, necə məşəqqətlə gözlədim – onu bir Allah bilir. Bütün günü bilmədim, nə edim, bir işin sahibi olmadım (ola bilmədim). Vurulmuşdum,

bir baxışdan vurulmuşdum. Mənimçün, bilirsən, hətta adın da böyük əhəmiyyəti var. Adı özündən yaraşıqlı idi, özü adından...

Bəhram kişi "belə..." südünü içib qurtardı:

– Soyutma südünü, balası. İç isti-isti, dadını qaçırma. Özün də tələsmə. Yavaş-yavaş, danış. Gecə – uzun, tələsən yerimiz... yox. Danış, aç, tök qəlbini, yüngüllük taparsan.

F.Q.-yə bu sözlər anasını xatırlatdı. Anası deyərdi "danış, nə oldu, nə olmadı, danış, yüngüllük tapacaqsan..." İndi anası belə demir. İndi anası gün ərzində, demək olar ki, heç nə demir. "Mənə nə oldu? Niyə mən bunları bu kişiyə (nə olsun ki, yaxşı kişidi, mərd adamdı, doğmalaşıb...) danışıram, ürəyimi bu cür açıram?! Bəlkə elə buna görə, doğma olduğuna görə, anamın sözlərini deyə bildiyinə görə?!"

F.Q. qəmli və məhrəm bir baxışla (az qala bədbəxt adamlar kimi) Bəhram kişini süzdü, süzdü, süd dolu stəkanı alıb birnəfəsə başına çəkdi, əli ilə dodaqlarındakı südün ağ izini sildi, birdən nə isə xatırlayıb məzlum-məzlum, elə-belə soruşdu:

– Bəhram dayı, sən bayaq Mübariz kişi gələndə hara çıxmışdın? Elə getdin, elə gəldin, xəbərim iz olmadı.

Bəhram kişi baxışını pəncərəyə sarı çöndərdi, bu qəfil suala cavab vermədi. Ən azından indi cavab vermək istəmədi. "Malı mala qatmayaq..." Qeyri-müəyyən (xilaskar!) bir söz bilirdi, onu atdı ortaya:

– Heç...

F.Q. özü də, əslində, ondan aydın bir cavab-filan gözləmirdi. Soruşdu və soruşan kimi də unutdu. Odur ki, Bəhram kişinin bu ani tərəddüdü onun diqqətini çəkmədi. Yenə o uzaq qarlı axşamı, tramvay dayanacağından Moskva Dövlət Universitetinin binasına – "D" zonasına gedən piyada yolunu, şaxtadan az qala burun pərələrinin donduğunu (bunu ilk dəfə idi, hiss edirdi və bu onun çox xoşuna gəlmişdi, burnunun içindəki hər tükü ayrılıqda hiss edirdi, az qalırdı saysın) xatırladı. Elə bil, o axşamkı şaxta bu uzaq yoldan, uzaq məkandan mavi bir vıyıltıyla keçib zamanın ona bəlli olmayan bir cığırı ilə hövlnak özünü gətirib Vəng dağının ətəyindəki bu balaca evə (Çoban papağına) dürtmüşdü. Ev birdən-birə soyudu. Bu soyuq buraların soyu-

ğu deyildi, uzaq şimal şəhərinin soyuğu idi. Bu qəfil və qəribə qış soyuğunu Bəhram kişi F.Q. qədər hiss elədi:

– Gör bir, soyudu, – dedi. – Bu vaxt bu sazaq hardan gəldi?! Bəlkə sobanı qalayaq?!

Soba qədim bir odun sobası idi, yaşıl kərpicdən dayağı vardı. Od qalansa idi, istisi təkcə bu otağa deyil, iki o biri otağa da yetərincə çatırdı. "Qalayaq!"

– Bəlkə... yüngülvari... – F.Q. sual dolu baxışını yaşılkərpic sobaya dikdi.

– Sən otur, mən bu saat, indi...

Bəhram kişi qalxıb sobanın sağ güncünə səliqə ilə bir qucaq quru odun yığmışdı, bir-ikisini götürüb sobanın içinə soxdu. Üstünə, yan-yörəsinə köhnə saralmış qəzet parçaları dürtdü. Kibrit çəkib yandırdı. Əvvəlcə qəzet od tutdu, sonra bu od yavaş-yavaş taxta parçalarının canına keçməyə başladı, qəzet yanıb qurtardı və gur od yox oldu, qəzetin yanıq iyi getdi, sonra əvvəl-əvvəl qaranlıqdan odun alovunun işığı və rəngləri göründü, odun parçalarının canı tüstü ilə tamam doldu, əvvəl özləri qızışdı, sonra isə ətraf, bir az keçdi, sobanın üstündəki qalın dəmir örtük istiləndi, istilik başgicəlləndirici bihuşdarı kimi otağa yayılmağa başladı.

***Moskva. F.Q. ilə Afaqın ilk görüşündən bir gün sonra. Baş teleqraf idarəsinin qabağı. Saat 16:20.***

Artıq iyirmi dəqiqə idi ki, F.Q. soyuqdan (əməlli-başlı şaxta idi) az qala titrəyə-titrəyə eynən dünənki kimi bir ayağının üstündən o biri ayağının üstünə atdanıb düşürdü. "Gəlməyəcək. Görüşmək üçün belə ayrılmırlar. Dünən yolda... üzümə belə baxmaq istəmədi. Tramvaya tərəf elə tələsə-tələsə gedirdi ki... heç elə bil... mən bunun yanında deyiləm. Mən də ki (bunu xatırlayanda hirsindən qanı damarında dondu), mən isə uşaq kimi... uşaq, uşaq kimi... düşmüşəm bunun dalınca... Allah lənət eləsin. Yox! On dəqiqə də gözləyirəm. Sonra çıxıb gedirəm. Beşin yarısından... bir dəqiqə də! O tərəfə keçə bilməz! Dördə danışmışıq, ömründə olmaz. Deməli, qismət deyilmiş, deyilmiş... deyilmiş... deməli, belə lazımdı. Allah hər şeyi özü nizamlayır. 16:30! Mən heç... Merilin Monronu da bu qədər gözləmərəm! Bir dəqiqə də artıq – olmaz!" F.Q. gözlərini gəlib-gedəndən

ayırmaya-ayırmaya, nəfəsi kəsilə-kəsilə Baş Teleqraf İdarəsinin (?) divarına vurulmuş nəhəng saatı da vaxtaşırı baxışları ilə deşməyi unutmurdu.

"Gəlməyəcək, əlbəttə, gəlməyəcək. Məndə ağıl var? Yoxdu! Məndə ağıl yoxdu! Yoxdu!! Belə soyuqda... belə şaxtada... evdən çölə... çıxarlar?! Həm də ki... niyə axı gəlməlidir?! Tanımır-eləmir... küçə tanışlığı ciddi ola bilərmi?.. Gəlməyəcək! Dondum, ay Allah, belə də soyuq olarmış..."

16:45-də Afaq gəldi. Baş teleqrafın qapısı ağzındakı "buz heykəl"ə baxıb "Mimino" filmini xatırladı, əhvalı çox yaxşı idi və gözləri güldü:

– Gəl, gəl içəri, sən lap donmusan ki. İçəridə gözləyə bilmirdin?

Onun bu gün belə ərklə, mehriban-mehriban, min illərin yaxını kimi, ən əsası isə F.Q.-yə "sən" deyə müraciət etməsi (dünən təkidlə "siz" deyirdi) F.Q.-nin buzunu bircə anda əritdi. Bu günkü Afaq dünənki deyildi. Doğrudan da, elə bil, neçə illərdi tanıyırlarmış bir-birini. Gedib Teleqraf binasının içinə girdilər.

– Ay Allah, sən insafın, xəstələnib eləmə, yoxsa günahımı yuya bilmərəm... Gəl bu tərəfə, gəl...

Afaq F.Q-ni girəcəkdə bir kənara çəkib onun üstünün qarını təmizləməyə başladı. Qar dünənki kimi yağmasa da (bu gün şaxta daha bərk idi), qar dənəcikləri havada tənbəl-tənbəl fırlanırdılar və onların bəziləri F.Q.-nin paltosunun üstünə düşüb düşdüyü yerdəcə donurdu, sonra isə par-par yanan ulduzcuğa çevrilirdi.

Afaq ürəyində nəyə isə sevinir, üzü-gözü nur içində, gülür, sevincini gizlətmirdi, F.Q.-nin üst-başını öz əlləri ilə çırpa-çırpa, silə-silə bu ulduzcuqlardan təmizlədi.

***Həmən gün. Axşam saat 18:05. Moskvadakı "Özbəkistan" restoranı. Afaq və F.Q.***

F.Q.-nin canı yavaş-yavaş isinirdi. Həm restoran isti, cazibəli idi, həm də yeməklər dadlı idi. Afaq ərklə "ora gedək, xoşuna gələcək!" deyib şam yeməyinə təkidlə dəvət edən, amma hara gedəcəklərini heç cür müəyyənləşdirə bilməyən F.Q.-ni "bilirəm, xoşuna gələcək" məhz "Özbəkistan" restoranına

gətirmişdi. Belə bir yaraşıqlı xanımın yanında F.Q., könlü-gözü rahat bir halda ılıq səadət sularında üzürdü və adətən qadınlarla ünsiyyət zamanı onun qəlbini narahat edən o mənfur üzücü hiss indi yox idi. Şaxta, qar-çovğun (çovğun isə başlamışdı, rəngi də vardı – maviyə çalırdı) qalın pəncərələrdən o tərəfdə, küçədə tüğyan edirdi, içəri isə isti, içəri isə rahat...

F.Q. yavaş-yavaş meyxoş olurdu. Əlbəttə ki, sifariş etdikləri qırmızı gürcü çaxırı da öz "işini" görməkdə idi. Hər ikisinin yanağı əməlli-başlı allanmışdı. "Küçəyə çıxanda onsuz da şaxta-çovğun bizi ayıldacaq, bir az, lap azacıq... nə dadlı şərabdı..." Çiçəkli yazı barədə Afaqa danışanda hiss elədi ki, qız diqqətini cəmlədi.

– Yəni, həqiqətən o boyda qədimlikdə yazılan yazını indi oxumaq mümkündür? – Təəccübünü gizlətmək belə istəməyən Afaq açıq, aydın (və çoxmənalı ) gözlərilə F.Q.-yə baxdı, baxışı ilə onun qəlbini titrətdi.

– Mümkündür, elə mümkündür... Ondan daha qədimdə yazılanları oxuyublar.

– Onu sən oxuyacaqsan. Ürəyimə damıb, bu işi sənə tapşıracaqlar! – Afaq xeyli ciddi bir şəkildə hardansa beyninə gəlib girmiş qəribə bir qərar verdi. Bunun şərəfinə! – Çaxır badələri toqquşdu.

F.Q. "bu mənim ürəyimdən keçənləri oxuyur" susdu, elə susmağı ilə də özünü, öz içindəkiləri büruzə verdi.

– Susursan, deməli nəsə var. Heç bu barədə düşünməmisən?

–Nə barədə? – F.Q. özünü bilməməzliyə vurdu.

–Yazını necə oxumaq barədə? İstəməmisən onu oxumaq? – Afaqın gözlərinin dibində şıltaq bir qığılcım yandı, söndü.

–...

–İstəmisən. Gözlərindən görürəm, elə indi də istəyirsən... – Afaq əlindəki çəngəli, bıçağı qabın içinə buraxıb, əllərini məktəbli qızlar kimi dizlərinin üstünə qoydu, bu dəfə ona sadiq və məsum bir baxışla baxdı. – Bəs niyə Çiçəkli? Yazının adı niyə Çiçəkli yazıdır?

–Bilirsən... – Getdikcə Afaqdan daha çox xoşlanan F.Q. (ürəyində özünə "bu qızı hamıdan, bütün dünyadan qorumaq lazımdır" sözünü də elə o

zaman verdi) başladı Afaqa qədim yazılar, deşifrələr, əlifbalar barədə həvəslə danışmağa (mühazirə oxumağa):

–Sən təsəvvür edirsən, qədim Misir yazılarının oxunuşu qədim Pəhləvi, Bisitun yazılarına gətirən bir açar olub. Finikiyalılar isə qədim yunan əlifbasının əsasını... Deyəsən yavaş-yavaş mən dəm oluram?! Sən bir şey hiss eləmirsən?

–Yox... – Söhbətə xeyli maraqla qulaq asan Afaq "bu adam həqiqətən çox ağıllı adamdı" diqqətlə və son dərəcə ciddi bir şəkildə F.Q.-nin gözlərinin düz içinə baxmağa çalışdı. F.Q.-ni isə bu zaman gülmək tutdu və o, baxışını qaçırdı.

– Qaçırma, qaçırma gözünü. İstəyirsən falına baxım.

–Falıma? Bax.

– Ancaq bax, gözünü qaçırma. Göz qaçırma – yoxdu! Gözümün içinə bax. Belə. Belə... Sən... sən o Çiçəkli yazını oxuyacaqsan. İstəyirsən inan, istəyirsən inanma. Mən sözümü dedim.

Söhbət qızışdı. F.Q., beyninin bir guşəsinin daha dərin bir guşəsi vardı, orada durub hərdən özünə kənar gözlə baxmağı vardı, indi də baxıb gördü ki, bu sevimli qız onun dediklərinə, az qala elmi izahlarına elə hayıl-mayıl olub, elə diqqət kəsilib ki... "Adama bundan artıq nə lazımdır?!"

Bu günkü Afaq dünənki soyuq, burnunu dik tutmuş, yan-yörəsindəkilərə məhəl qoymayan (hələ bir balaca təkəbbürü də var idi) o yad qıza heç bənzəmirdi. Bu günkü Afaq başqa birisi idi, bu Afaq çox doğma idi, bu Afaq çox məhrəm idi, Afaqla, elə bil, min illərdi dost, sevgili idilər və bu başqa Afaq bir daha o əvvəlki soyuq Afaq olmadı. Bəlkə arada... çalışdı olsun, F.Q.-yə münasibətini bir qədər tənzimləsin, cilovlasın, yəni ki, öz coşqun sevgisinin (həqiqi sevgisinin) dərəcəsini bir azca azaltsın, yüngülcə bir soyuqluq (biganəlik) nümayiş etdirsin, amma nə qədər çalışdı, F.Q.-yə duyduğunun içinə azacıq da olsa yad bir şey qata bilmədi, əvvəlki Afaq Moskvada o qış gecəsi 39 №-li tramvaya minib harasa (Akademkniqanın həyətinə, qohumlarıgilə?) getdi, birdəfəlik getdi və yox oldu.

# VII fəsil

***Səhəri gün sübh tezdən.***
***Bəhram kişi və F.Q. evdə. Bayır soyuqdur***

F.Q. dünən axşam öz əziz Moskva xatirələrini ona heyranlıqla (bir az da yalançı qibtə ilə) qulaq verən Bəhram kişiyə danışıb qurtarandan sonra bir istədi ki, Bəhram kişinin evdən çıxıb "yox olması" ilə Mübariz kişinin gəlişi arasında gedib yatıb gördüyü o əcayib yuxunu da "iki daş arasında" tələsik açıb danışsın, amma yadına düşdü ki, anası həmişə deyir: "Yuxunu, bala, gecə danışmazlar!.." Susdu. Səbrini basdı. "Sabah danışaram. Amma niyə axı yuxunu gecə danışmaq olmaz? Danışsam nolar? Nə bilim?! Bəlkə... gecənin şərindən, səhərin xeyri, yox, əksinə, gecənin xeyrindən səhərin şəri yaxşıdır, nədir, necədir o söz... belə düşünüb bu hökmü veriblər?! Bəlkə də... eh..." Nahamvar fikirləri başından qovdu.

Səhər tezdən evdən çıxmayıb (gecənin soyuğu hələ də getməmişdi) səhər yeməklərini elə yaşılkərpic sobanın yanında yedilər. Pəncərədən bayıra baxanda eyzən ürəksıxan bir mənzərə idi, bitib qurtarmır, göz önündən getmirdi. Hətta bu sabah balaca külək də vardı, potaboy alma ağacları budaq-budaq atdanıb düşürdülər. "Balaca" yenə də möhtəşəm (sal qaya idi, elə bil) bir qaraltıya dönmüşdü. Bütün gecəni yağış yağdığından həyət orda-burda gölməçə, palçıq idi. Hava sazaqla nəfəs alırdı. "Yayın sonu burda belə olurmuş. Şəhərin payızından da betər".

Deməli, çay içə-içə F.Q. düşünüb elə hey macal axtardı ki, dünən axşamkı yuxusunu Bəhram kişiyə danışsın. Çox həvəsli idi bu möcüzəli yuxunu danışmağa: "bəlkə yozdu?!" Diqqət edib görürdü ki, heç Bəhram kişinin

özü də dünənki şux, cəld Bəhram kişi deyil, bu gün səhər o, həmişəkindən daha ciddi (hətta bəlkə qaraqabaq), daha düşüncəli idi.

– Mən istəmirəm! – F.Q. çaydanı ona sarı uzadıb daha bir stəkan çay içməyi təklif edən Bəhram kişiyə təşəkkür etdi, – sağ ol, içdim, bəsimdi.

– Bəlkə süd? – Bəhram kişi az qala ümidlə soruşdu.

– Yox, süd də içməyəcəyəm.

Bəhram kişi çiynini çəkdi: "nə deyim?!"

"Danışım, danışmayım?! Bəlkə... Yuxudu da, burda nə var ki? Paralel dünyalardan danışmırdıq?! Bu da sənə paralel dünya..."

– Bəhram dayı! Adamın ürəyi sıxılır. Hava da hava deyil. Eşidirsən? Dünən axşama yaxın, Mübariz müəllim hələ gəlməmişdi, sən isə yox idin. "Hara getmişdin?" Məni gic bir yatmaq tutdu... Yatdım. Tez də ayıldım, amma uzun bir yuxu gördüm. Çox qəribə yuxu idi...

– Eləmi? Nəydi qəribəliyi? Mən də bu gecə çox əcayib bir yuxu görmüşəm. Heç cür anlaya bilmirəm, nə idi bu gördüyüm... Sən danış...

– Mənim yuxumda, təsəvvür edirsən, – F.Q. gülümsəməyə zəif bir cəhd elədi, – yox, edəmməzsən, göydən yerə yağış əvəzinə dəvə yağırdı...

F.Q. susub üzündə təbəssüm dediklərinin nə cür effekt verməsini gözləyirdi, onun aləmində gərək indi Bəhram kişi "ah, baho, sən Allah, nə danışırsan?" deyib təəccübünün sonu-bucağı (həddi-hüdudu!) olmayaydı. Bəhram kişi isə bir kəlmə danışmadı, susdu. Əlindəki stəkanı ehmalca qaytarıb yerinə qoydu. Üzündə bir cizgi belə dəyişmədi, ancaq gözləri qıyıldı, baxışları daha kəskin oldu. Sükut uzanacaqdı ki, nəhayət, kişi nadir hallarda etdiyini etdi, alabəzək araxçını başından çıxarıb, mizin üstünə qoydu, sonra gözlərini yaşılkərpic sobanın soyuq ağzına (odun yerinə) dikib ağır-ağır F.Q.-nin son sözlərini təkrar etdi:

... göydən yerə yağış yerinə dəvə yağdı?! – Bəhram kişi baxışını çöndərib sual dolu gözlərilə F.Q.-ni süzdü. – İki gün əvvəl isə insasanların (!) şəhərinə göydən yağış əvəzi şir yağmışdı, eləmi?! Bu... daha təhlükəli idi...

İldırım vursaydı, belə olmazdı. Çaşıb qalan F.Q.-nin təbəssümü üzündəcə dondu, təəccübü sonsuz oldu. Gözləri bərələ, ağzı açıq qalmadımı, qaldı. Başının tükü biz-biz durmadımı, durdu.

Bəhram kişi isə onun bu halını laübali bir baxışla süzüb yenə aramla sözünə davam etdi:

– Mən sənə qulaq verib elə ikicə kəlmə demişdin ki, anladım: biz səninlə eyni yuxunu görmüşük, balası. Belə şey həyatda... olmur. Qəribədi. Çox qəribədi. – Özünü şax tutmağa çalışsa da indi Bəhram kişi özü də daxilən gərgin və həyəcan içində idi, elə bil, tarıma çəkilmişdi.

– Ovsunçular, uşaq, babası, qəribə bir televizor, Ay zolağı... bunlar da var idi sənin yuxunda? – F.Q. eşitdiyinə inanmaq istəmirdi "nə cür ola bilər axı, axı bu nə cür ola bilər???".

– Ovsunçular şirləri ovsunlayıb dəvələri Ay zolağı ilə Aya göndərirdilər, şirlər isə birdən-birə ovsundan çıxdılar... – Bəhram kişi keçib mizin arxasında oturaraq məyus-məyus dilləndi.

– Mənim yuxumda dəvənin, televizordan çıxan süni dəvənin gözündən yaş axmışdı, dəvə ağlamışdı...

– Elədi. Eynən elədi. Mənim də yuxumda dəvə Ay zolağına çata bilmir, qaçmaq, qurtulmaq üçün bu onun son ümididir. Alınmır. Buna dözməyib dəvə ağlayır, bircə damla göz yaşının qüdrəti şirlərin ovsundan ayılmasına səbəb olur. Şirlər ətrafda nə varsa hər şeyi, hər kəsi cırmağa, dağıtmağa hazırdılar. Qoca Şir, şirlərin başçısı bunun qarşısını alır, qoymur ki, o biri qəzəbli şirlər uşaq ilə dəvəyə xətər yetirsinlər. Düzmü deyirəm?

F.Q., elə bil, həmən başabəla yuxusunu təzədən görməyə başladı. Yuxusundakı cingiltili, cavan kişi səsi (yuxunu danışan səs) indi artıq Bəhram kişinin səsi olmuşdu, yuxunu, elə bil, F.Q.-yə Bəhram kişi danışmışdı. "Qəribədi, çox qəribədi... Eyni yuxu... bu axı necə ola bilər? Yox, heç nə başa düşmürəm. Amma... Başa düşüləsi burda nə var ki?! Mən bu qəribəliklərə gərək çoxdan alışaydım. Bir yerdə ki, yağışlar kefi istəyəndə aşağıdan yuxarı yağsınlar..." F.Q. əməlli-başlı çaşmışdı, həm də ona görə bir şey anlamırdı ki, ona elə gəldi, ortaq yuxunu danışmağa başlayanda Bəhram kişi bunu bir qədər soyuqqanlı qarşıladı – adi bir şey kimi. "Belə olmaması lazım idi, niyə belə oldu?" F.Q. bir də diqqət edib gördü ki, artıq üçüncü böyük stəkan çaydı, içir.

– Bəhram dayı, bəlkə mən yuxuda danışmışam? "Belə şeylər olur". – F.Q. öz sualından elə özü o andaca utandı, çünki Bəhram kişi nəvaziş dolu

təbəssümlə ona elə baxdı ki: "mən axı, balası, sən öz kiçik yuxunu yatanda evdə deyildim, mağaranın ağzında idim..."

– Nə olacaq bundan sonra? – Sakit-sakit, kimə sual etdiyi bilinməyən F.Q.-yə elə gəldi ki, dünyanın indiyə qədərki tanış düzənində nə isə qırılıb, özü də elə qırılıb ki, çətin bir də həmən yerdən bitişsin. "Möhtəşəm Ahəng bəs hara baxır, belə bir tənasübsüzlüyə necə yol verir, nəhayət, necə dözür?! Bu da Ahəng! Bu da sistem, bu da... hadisələrin üfüqü! Hadisələrin üfüqü! Əlbəttə, hadisələrin üfüqü görüb bu işi. Belə hallar ancaq onun məkanında baş verə bilər. Dünən hadisələrin üfüqü bura, bu evə gəlib. Aləm də ona görə qarışıb bir-birinə. İki ayrı-ayrı adam – eyni yuxu! Biz Bəhram dayıyla milyardın milyard kubundan bir baş verə biləcək təsadüf nəticəsində uzaq, sonsuz gələcəkdəki bir paralel dünyada (bu artıq başqa mahiyyətli paraleldir, nəydi adı – Lobaçevskinin paraleli!) görüşmüşük. Bəlkə yuxuda o dünyadakı həmən baba Bəhram kişi özü idi?! Bəlkə uşaq mən idim?!" Ortaya sükut çökmüşdü.

... Sabah tezdən olmasına baxmayaraq, otağın içindəki işıq, birdən-birə azaldı. Dünən gördükləri qəribə yuxunun rəngi (bu rəng isə çəhrayı rəng idi – hər halda indi ona elə gəlirdi) otağın təbii rəngini əvəz eləməyə başladı, hər şey yavaş-yavaş çəhrayıya çalmağa başladı. F.Q.-nin ağlına gəldi ki, o danışmalıdı, nəsə deməlidi, bu dəqiqə, bu an ən qorxulu olan şey sükutdur. Sükut bir qədər də davam etsə onlar ikisi də bu çəhrayı otaqla bir yerdə yenə də hansısa eyni yuxunun içinə gedib girəcəklər – həqqən gedəcəklər. Nə deyəcəyini bilməyə-bilməyə, "təki sükut pozulsun", nəhayət:

– Bəhram dayı... indi bəs necə olacaq? – Çarəsiz F.Q.-nin tükü biz-biz olmuş, canına qorxu girmişdi; o özü də inanmırdı ki, nə zamansa bu cür xoflana bilər.

– Heç nə. Heç nə olmayacaq, balası, heç nə. İndi artıq sən Çiçəkli yazını oxuya biləcəksən. İndi daha yazının yolu açıldı. Ay zolağı kimi. Mən sənə əsas sözü açıb deyəcəyəm. Sən axtardığın açar sözü...

– Sən onu bilirdin, Bəhram dayı? – F.Q.-nin səsi heysiz olsa da, ürəyinə təskinlik gəldi, çünki başlamışdı bayırdan içəri yenə də yavaş-yavaş ağappaq işıq dolmağa. Günəş gec də olsa uzaqda, çox uzaqda öz yerini tutmuşdu.

– Mən onu bilmirdim, F.Q. Mən onu dünən bildim. Elə bil, mənə hardansa vəhy gəldi, elə bil, kimsə pıçıldadı bu sözü mənim qulağıma. Söylə bu sözü F.Q.-yə dedi. O layiqdi, ona düşür, onun gələcəyi var, o sevir, onu sevirlər, ona inanırlar, onu xatırlayırlar, o da ... xatırlayacaq. – Bəhram kişinin səsi get-gedə codlaşırdı. – O səs mənə bunu dedi, biləsən, balası.

Artıq otağın işığı ilə bayır–bacanın işığı yenə də bir-birinə uyuşmuşdu. Çəhrayı rəng itib gedirdi. Amma yenə də susub durmaq olmazdı:

– Nədi o söz, Bəhram dayı? – Son bir ümid yeri duyaraq F.Q., heysiz və yavaş səslə sual verdi, nəfəs belə çəkmədən cavab gözlədi.

Bəhram kişi ayağa durdu. Yaşılkərpic çobanın ətrafında boş-boşuna vurnuxdu. Çaydanı axtardı. "Həyətəmi çıxaq, Qarağacın yanınamı gedək, burdamı deyim? Nə fərqi var? Heç fərq etməz. Qoy elə burda olsun. Burda deyəcəyəm!" Yenidən yerinə oturdu:

– Oğul bala, otur, sən bir otur hələ. O açar söz... Atam deyərdi ki, Vəng dağının kərişində... kəriş dağın belinə deyərlər... dağın kərişində (belində) bir mağara var. Onu heç kim görməyib. Elə gizlənib ki, süzgün kollarının içində... ilim-ilim itibdi. Birdəflik yox olubdu. O mağaranın adına...

Yerinə sanki mıxlanmış F.Q. birdən-birə ona güc gələn (gəlmək istəyən) bütün romantik və əsrarəngiz hisslərdən azad oldu, elə bil, onun əl-ayağını çoxdan bağlamış, gözünü də qara bir dəsmalla tutmuşdular, indi, bu dəqiqə o dəsmal gözündən düşdü, gözü açıldı, indi bu dəqiqə, nəhayət ki, otağın içinə bir az əvvəl öz yerinə gecikmiş günəşin işığı tamamən doldu, F.Q. hər şeyi unutdu və hər şeyi yenidən tamam yeni bir halda görməyə başladı. O, bütün diqqəti ilə (təkcə qulaqları ilə deyil, gözlərilə də) deyilənləri (deyiləcəyi) eşitməyə hazırlaşdı. Və bu zaman qəflətən, birdən-birə (əslində, o bunu görmürdü, o bunu duyurdu) Patriarx, Professor və bir də Aslanzadə gəlib bu balaca, yaşılsoba otaqda peyda oldular, onlar da mizin ətrafında sıxlaşıb birtəhər oturdular, qəmgin bir halda Bəhram kişinin nə deyəcəyini gözləyə-gözləyə diqqətli və qüssəli (səbrsiz və etinasız –?) gözlərini onun düz ağzının içinə dikdilər.

– Mağaranın adına, atamın sözüdü... Qarağacın mağarası deyərdilər. Çiçəkli yazı yazılan mağaraya. – Bəhram kişi susdu, bu əsas kəlməni (Qarağacı)

tələffüz edib elə o andaca köksünü ötürüb rahatlıq tapdı, hər şey üzünə güldü, elə bil, nə vaxtdı bədənində ona əziyyət verən yekə bir çiban deşilmişdi. Amma çibanın yüz bir kökü olur, görürsən, burdan deşildi, ordan çıxdı. Həqiqətən, çiban indi də gedib F.Q.-nin ürəyinin başında bitmədimi, bitdi.

Patriarx, Professor, Aslanzadə necə ki gəlmişdilər, eləcə də çıxıb getdilər, havada əridilər. Otağa hardansa iki arı girdi. Dızıltıları qulaq deşməyə başladı.

Nəbzi şiddətlə gicgahlarında vuran F.Q. Bəhram kişidən belə bir cavabı gözləyirdimi, heç gözləmirdi. Daha doğrusu, F.Q. hər hansı bir cavabı əvvəlcədən bilmədiyi üçün, təbii ki, bu cavabı da gözləyə bilməzdi; əslində, o heç bir cavab gözləmirdi. Amma arada bir şey də baş verdi ki, bu, F.Q.-ni həyəcanlandırdı. Özü ilə bağlı idi. F.Q. Bəhram kişinin ona açdığı sirrə (açar sözə) biganə qalmışdı. Gicgahlarını sıxan o ağır səs itdi, getdi. Gözləyəsən, gözləyəsən, axtarasan... Belə olmamalı idi. Gözlədiyi, əzabla aradığı və tapa bilmədiyi elə bu deyilmiydi? Həm bu idi, həm də deyildi. Qarağacın altında oturub "hadisələrin üfüqünə" məftun-məftun, həsrətlə baxdığı gecələr bu ağacın ona nə isə dediyini (demək istədiyini) o niyə hiss etməmişdi?! Ağac ona hər axşam hökmən nə isə pıçıldayırdı, o isə ağac dinləmək dərsini bilmirdi. Bilsəydi... Qarağac!.. Yəni, bu qədərmi aydın, bu qədərmi yaxın, bu qədərmi bəsit?.. Bəli, məlum olur ki, bu qədər. Niyə bəs o zaman sevinməyi gəlmirdi, atdanıb-düşmürdü, gülüb qəhqəhə çəkmirdi?! Ürəyini əzən əzab nəydisə, niyə ondan xilas ola bilmirdi?

Amma yox! Ola bilməz. Əlbəttə ola bilməz! "Heç tüküm də tərpəşmədi. Bəlkə tüküm tərpəşsəydi, qabarsaydı, o zaman bilərdim ki, burada nəsə var. Tükümə inanıram. Heç nəyə – nə beynimə, nə qəlbimə! Yalnız bədənimdə tükümə inanıram. O isə tərpəşmədi. Qarışqalar tüklərimə daraşmadı. Deməli, boş şeydi". Bu biganəlik özünə kənardan çəkilib baxdığında nəzər-diqqətini elə cəlb etdi ki, bundan hətta bir balaca rahatsız kimi də oldu. Sevinmək əvəzinə biganəlik! Belə də olurmuş... Bunun hökmən bir səbəbi var. Hələ bir xeyli zaman bundan əvvəl F.Q. özünün hətta sonadək anlamadığı bir duyğunu, hissi, baş açmadığı həyəcanı addım-addım izləyib kökünə, məxəzinə doğru hökmən gedərdi, əsl səbəbi (ilk, dərindəki səbəbi!) üzə çıxarmağa, sonra

isə bu səbəblə mübarizə aparmağa çalışardı. Bunu özünə bir həyat prinsipi eləmişdi. Nə qədər fikir vermişdi, dörd ətrafı – dostu, tanışı, lap elə ən yaxın dostu Ayaz dəfən-dəfən heç nədən, elə-belə ürək sıxılmasından olmazın əzab çəkir, bu sıxıntının mənasını, səbəbini isə başa düşmür, tapmır. Adsız əzab ən ağırıdır. Əzabın adını tapandan sonra, götür onu qaldır göyə, vur yerə, çıx köksünün üstünə, al canını, yəni, nə qədər bacarırsan özünü ondan təmizlə. Yalnız bundan sonra əsl rahatlıq tapa biləcəksən. Yox əgər, sən əzabın adını tapmağa tənbəllik edib, onu unutmağa çalışarsansa ( bu isə ən asan yoldur!), bu zaman sən hətta əzabı unutsan da, əslində, o səni tərk etməyəcək. Sən onu beyninin, qəlbinin dərininə, özünün belə girə bilmədiyin (bəlkə də girməyə cəsarət etmədiyin) bir hücrəsinə qova bilərsən. Əzab orda gizlənər və öz vaxtını səbrlə gözləməyə başlayar. Zaman gəlib yetişəndə bu müddət ərzində vəhşiləşmiş əzab gizləndiyi yuvasını tərk edib dərinlikdən sıyrılıb yeni bir qüvvə ilə üzə çıxar, amma... Əzab gizli yuvasını tərk edəndən sonra onun yerində dərin və açıq bir yara (şırım, iz) qalır. O yara artıq bir daha sağalmayacaq.

... F.Q. nə üçün açar sözü eşidib-biləndən sonra halı, fikri-düşüncəsi dəyişmədi?! Nə üçün bu qədər biganə qaldı?! Gündə gördüyü, adını eşitdiyi, adını çəkdiyi, gözlərilə əzizlədiyi, az qala doğma bildiyi bu ağacı hərdən bir az anasına, bir az da atasına oxşadırdı, bu qədər yaxın idi bu ağac ona. O zaman nə üçün Qarağac indiyə qədər əsl üzünü (özünü) özü ona göstərmədi, niyə ona əyan olmadı?! F.Q. bundanmı sıxılırdı?! O indi bu ağaca nifrətmi edirdi?! Amma niyə? Nə üçün? Əlbəttə ki, bu suallara dəqiq cavablar axtarıb tapmaq asan deyildi, amma lazım idi. Zaman... zaman... Bir müddət keçəçək, ona elə gələcəkdi ki, bu sözü, "Qarağac" sözünü o elə əvvəldən bilirdi. Ya ürəyinin dibində idi, ya beyninin dərinində?! Çoxdan, əlbəttə ki çoxdan. Hələlik isə F.Q. heç nə eşitməmiş kimi gözlərini pəncərədən həyətə dikib, yox, Qarağac tərəfə bilərəkdən yox, günəş şüalarının artıq budaq-budaq, yarpaq-yarpaq yaladığı potaboy alma ağaclarına tərəf gözlərini dikib susmağında idi. Ona baxıb Bəhram kişi də danışmırdı, gözləyirdi ki, F.Q.-nin "mısmırığı" (qaşqabağı) heç olmasa indi barı açılsın, üzü, gözü həyətdəki bu səfeh payız havasını andırmasın (sabahdan bəri günəş, elə bil, istəməyə-istəməyə görünürdü), bir söz desin, nəhayət...

Hava yayaxırı bu yerlərdə elə belə olurdu. Başqa yerlər, xüsusilə, şəhər, xüsusilə də, paytaxt Bakı özünün son yay günlərini günəş şüalarının isti (hələlik isti) hərarəti ilə sığallayırdısa (meh vasitəsilə, özü də nadir hallarda), bu cür dağətəyi kəndlər, məsələn, Vəng dağının ətəyindəki günəşi qonaq kimi gələn elə bu kəndin özü artıq qətiyyətlə payız mövsümünün düz içinə qədəmini basıb durmuşdu.

... – deyəsən axı, balası, açmadı səni mən deyən? – Bəhram kişi nəhayət, dözmədi, F.Q.-nin biganəliyi ona təsir etməyə (toxunmağa) başladı. “Allah, Allah, yəni, bu nəsə duyuqmu düşdü?!”

F.Q. istər-istəməz acı düşüncələrdən ayrılıb (üzünü pəncərədən çəkib) belə bir tənbəl cavab verdi:

– Yox, niyə ki... Sağ ol. Amma Bəhram dayı, xətrinə dəyməsin. Uyğun gəlmir.

– Nə gəlmir uyğun? Niyə? “Kim olsa, xətrinə dəyər...”

– “Qarağac” kəlməsi, deyirəm, uyğun gəlmir, – F.Q. ciddiyyətlə Bəhram kişinin üzünə baxdı.

– Ola bilməz! – Bəhram kişi təəccübləndi.

– Yazının çiçəklərindəki ləçəklərin sayında, boşuna deyil, sən bilirsən, məna var, – F.Q. istəməyə-istəməyə izahat verməli olduğundan az qala hirs onu boğacaqdı. Dözdü (Bəhram dayısının xatirinə) və davam etdi:

– ... Bəhram dayı, hər çiçəyin beş ləçəyi var. Hamısının. Sən bilirsən. Hər ləçək bir hərfdir, deməli, açar sözdə 5 hərf olmalıdı. Deyə bildim? (Allah Patriarxı qorusun!)

– Hə. Bəs o zaman Qarağac, deməli, uyğun gəlmir? – Bəhram kişi peşiman bir halda çaşıb qalmışdı.

– Gəlmir. Qarağacda yeddi hərf var. Qarağac...

– Hərf dediyin səsdi, balası? – Bəhram kişini F.Q.-nin dediyi hələ də axıracan inandıra bilməmişdi.

– Səs?.. Elə də anlamaq olar. Həmişə yox. Elə sözlər var ki... bəzi sözlər... sən necə dedin?

Birdən F.Q.-ni sanki ildırım vurdu. “Zevs, Zevs...” Qəfildən sözünü kəsib, nəsə xatırlayan (xatırlamaq istəyən) adamlar kimi fikri qarışdı, beynin-

dəkilər sürətlə bir-birinin içinə girməyə başladı, F.Q. barmaqları ilə alnını bərk-bərk sıxıb sığalladı: "dayan, dayan!". Sonra, nəhayət, sustaldı, sakitləşib gözünü maddım-maddım Bəhram kişinin üzünə dikdi. Bəhram kişinin sualında gizli bir mənamı duydu?! Amma Bəhram kişi öz sualını verərkən alt-məqsəd–filan güdməmişdi. Onun aydın və şəffaf gözlərində belə bir niyyət yox idi. Bəhram kişi həmişə olduğu kimi indi də açıq kitab idi.

– ... Həmişə yox. – F.Q. fikirli-fikirli özü-özünü təkrar etdi. – Söz var ki, bir cür yazılır... Başqa cür tələffüz edilir. Gizlini ilə batini eyni deyil. Yazılış ilə... – F.Q.-nin ifadə etdiyi sözlər tələffüz tezliyini yavaş-yavaş itirirdi və bu zaman F.Q.-nin beynində bir-birini sürətlə əvəz edən, izləməyə çalışan yeni-yeni fikirlərə yer (və yol) açılırdı. – Yazılış ilə tələffüz arasında fərqi deyirsən, Bəhram dayı?! Hə! Əlbəttə! – Və F.Q.-nin gözləri işıqla doldu. Nəsə çox vacib bir şeyi qəflətən xatırladı. "Əlbəttə!!"

– Bəhram dayı, Bəhram dayı... – Sözlər F.Q.-nin beyinə girib-çıxma sürətini artırdı, fikirlər isə möhkəm şəkildə beyində lövbər saldı, – deyəsən... deyəsən axı, həqiqətən... "ay səni, F.Q., ay səni, F.Q..."

F.Q. bayaq qaşqabağın sallamışdı, indi isə üzü güldü, əlini-əlinə çaldı. "Əlbəttə! Əvvəldən necə oldu, mən bunu... necə oldu mən bunu anlamadım?! Qarağac. Qarağac! Bu zəhrimar yeddi hərf hardan axı gəldi yapışdı beynimə?! Kişi gül kimi söz danışır. Sualı, sualı bunun məni ayıltdı. Səs və hərf. Savadsız adamın verdiyi suala fikir verirsən?! Amma necə soruşdu? Səs hərfdi, ya yox?" F.Q. dörd gözlə ondan cavab gözləyən ("buna nə oldu?") Bəhram kişiyə heyranlıqla baxaraq böyük bir coşqu içində (həyəcanı hələ də keçməmişdi) belə dedi:

– Uyğun gəlir, Bəhram dayı, "Qarağac" uyğun gəlir! Amma düz-doğru olub-olmadığını hələlik deyə bilmərəm. Uyğun gəlməyinə isə düppədüz uyğun gəlir. Bax, Bəhram dayı, "Qarağac"da hərflərin sayı 7-dir, eləmi? Bizə isə 5-i lazımdır.

– Elə. Ləçəklərin sayı beşdir.

– Ay sağ ol. Amma bu yeddi hərf yazılışda 7-dir. Sən düz dedin, hərf səsdimi? Oxunuş zamanı, yəni, hərf səsə dönən zaman bu say... azalıb beş olur... ola bilir. "Qarağac" yazırıq, amma... "Qarac" oxuya bilirik. İkinci "a"nı

bu zaman bir az uzadırıq. Tələffüzdə söz bir balaca təhrif olur. Amma söz yenə həmən sözdür.

– Bəs bu...

– Sualın aydındı. Bəs "ğa" hara itir? Onu demək istəmədinmi, Bəhram dayı? – F.Q. hövsələsiz bir gənc müəllimə döndü.

– Elə.

– Hə... – "Gənc müəllim" razılıqla başını tərpətdi və sözünə daha böyük həvəslə davam etdi:

– Bəhram dayı, türk dillərində belə bir... qanun deyək, hal deyək, nə isə... belə bir məqam var. "Ğa" səs birliyi (iki səsin birləşməsi) tələffüzdə bəzən düşür. İtir. – Sınayırmış kimi F.Q. Bəhram kişiyə baxdı, "deyə bildim?!"

Bəhram kişinin gözündəki çarəsiz sualı görən F.Q. alnını qırışdırdı, "misalsız alınmayacaq". Misal tez tapıldı:

– "Xaqan" sözü. Bəhram dayı, götürək "xaqan" sözünü, hə?

– Götürək.

– Bəs "xan" sözü? Bəhram dayı, "xaqan", əslində, elə "xan"dı. Başqa şey deyil. "Ğa", görürsənmi, tələffüz zamanı itibdi. Nə qalıb? Qalıb "xan". Sonra da bu halında (yeni "xan" halında) söz yazıya alınır, hətta "xaqan" və "xan" paralel şəkildə də işlənir. Necə ki, müasir dilimizdə bunu müşahidə edirik.

Vəssalam. F.Q. coşmuşdu. Onun, Ayaz deyən kimi, "motorunu işə salmışdılar". Gözləri alışıb-yanır, beynində sürətlə fikir fikri qovur, indi onun bir istəyi vardı – tezcə bir küncə çəkilib bu açar sözü yazıya tətbiq etmək! Artıq "Qarağac" budaq-budaq, yarpaq-yarpaq onun qəlbinə, beyninə girmiş, orda özünə məskən salıb vüqarla durmuşdu, yarpaqları söz-söz xışıldayırdı. Qarağac onun bütün şübhələrinə son qoymuşdu. Ürəyinə dammışdı ki, sayca uyğun gəldiyi kimi (Qarac – beş hərf!) mahiyyətcə də bu söz həmən açar-söz olacaq və yazıya tətbiq edilə biləcək. "Beş dəqiqə əvvəl mən kor idim, kor. Bu boyda aydın həqiqət, gözünün düz qabağında... bitib, durub, sən isə, F.Q... Eh, F.Q., F.Q...."

Bəhram kişi göz qabağında F.Q.-nin bu cür dəyişməsini (süstlüyünün bu cür coşquya, həyəcana keçdiyini) görüb çiynindən daş götürüldü, rahat-rahat köksünü ötürdü:

– Təki işinə yarasın, balası. Bu qədər vaxtdı, əlləşirsən, nə gecən var, nə gündüzün. Təki işin alınsın. Fikir eləmək səni üzdü...

– Qarağac və ancaq Qarağac! Elə indi gedəcəm. Bax, Bəhram dayı, "gedəcəm" dedim. – F.Q. uşaq təki sevindi. – Əslində, "gedəcəyəm" deməliydim. "Yə" hissəsini neylədim – "yedim". "Yə" – "ğə", yaxud "ğa" səsdən-səsə keçidi hiss edirsən?! "Y" ilə "Ğ" eynicinsli səslərdi, bir-birinə keçə bilir. Saitlər isə... a, u, ü, i... onlar dildə indiyənəcən nə istəyiblər ediblər. Köçəri quş kimidirlər...

Ox kamandan çıxmışdı. İndi artıq geriyə yol yox idi. Bəhram kişi rahat olmuşdu, ehtiyatı isə yenə də əldən vermədi.

– Nə deyirəm?! Təki işinə yarasın. Amma... – O, hər ehtimal F.Q.-ni yenə də mağaraya tək buraxmaq istəmədi. – Bir yerdə gedək.

– Hara?

– Hara?! Mağaraya demirsən? Mağaraya, deyirəm, bir yerdə gedək. Mənim üçün də çox maraqlıdı. Həqiqətən. Çox. Qarac... Qaracmı? Pis olmazdı bu Qaracı hərf-hərf ləçəyin içində görmək... Bu başlanğıcdı yəqin?! Sonrası isə sən deyirdin, asan olacaq. Təki olsun. Bilirəm, oxuyassan, Allahın köməyilə oxuyassan bu... Çiçəkli yazını. Bircə qismət olaydı, mən eşidəydim... – Bəhram kişi yanğı ilə dedi.

F.Q. son pauzanı (...), necə deyərlər, "yemədi". "Deyəsən, istədi, başqa söz desin. Qəzəblidi yazıya, anlamaq olar. "Lənətəgəlmiş" desəydi pis olmazdı. "zibil" demək isə yaxşı çıxmaz. Xalqın tarixidi, kim bilir, nə yazılıb orda?!" F.Q. Bəhram kişi deyənləri inamla təsdiq elədi:

– Oxuyacam! – Sonra nə düşündüsə, – oxuyacağam! – vurğuladı. Bu sözü deyərkən (oxuyacağam!) hər səsi ayrı-ayrılıqda tələffüz elədi, xüsusilə "ğa"-nı. Sonra dönüb Bəhram dayısına göz vurdu "gördün, indicə sənə nə deyirdim?!" əlin-əlinə sürtdü.

F.Q.-nin artıq hər şeyi unudan (unutmuş) beyni ancaq çiçək ləçəkləri və onların içinə doldurulan səslərin (hərflərin!) yanında idi və bu zaman F.Q.-nin birdən-birə beyninə (yadına) Afaq gəlib düşmədimi, düşdü. Amma qanı əvvəlki kimi qaralmadı. Əynini isti eləyib (durub haman cemperini geydi) həyətə çıxdı, Qarağacın altına gəldi, ağacın gövdəsini, qabarını, budaqlarını,

yarpaqlarını sanki birinci dəfə idi görürdü. Əlini ağacın qabarına sürtdükcə Çiçəkli yazının işarələrini bu qabarlarda axtardı. Yüngül meh yenə Qarağacı yarpaq-yarpaq dolaşdı. Xışıltı səsi bu dəfə F.Q.-yə ən əziz, ən doğma bir səsi, tanış qoxulu nəfəsi xatırlatdı.

– Balaca, Balaca... – onun arxasında gəlib kölgə kimi dayanmış Bəhram kişi bilinmədi ki, Qarağaca yazığı gəldiyindən bu sözləri bu cür özü-özünə yanıqlı-yanıqlı pıçıldayır, yoxsa Bəhram dayı bu "Balaca" sözünün içinə ancaq ona məlum olan başqa sirli bir hikmət qoyub dilinə gətirir.

***Sabahı gün səhər. Bəhram kişi və F.Q. mağarada. Bozlar bir küncdə sakit-sakit oturub***

... Həmişəki kimi ağıllı və kədərli gözlərilə gah Bəhram kişiyə, gah da F.Q.-yə baxmağında idi. F.Q. mağaranın divarlarına nəqş edilmiş əyri-üyrü oyuqlara (Çiçəkli yazıya) artıq neçənci dəfə gah yaxından, gah uzaqdan diqqətlə nəzər yetirir, oyuqların rəsmini əlindəki kağız parçasına çəkilmiş yazının surəti ilə müqayisə edir, bəzən isə qələmlə kağızda düzəlişlər aparırdı. Açar sözdə dörd hərf vardı ki (beşdən dördü!), bunlar tam müxtəlif hərflər idi və bu dörd bəlli hərfin köməyilə F.Q. bütün yazını oxuyacaqdı. Beşdən beş alınmamışdı – "a"lar iki dənə idi. F.Q. "dənə – bazarda armud olar..." deyərək kükrəyib qıpqırmızı qızaran Professoru xatırlayıb gülümsədi. Dil və Təfəkkür İnstitutunun ənənəvi növbəti seminarında nə barədəsə ət tökə-tökə (utanırdı, qızarırdı – bilinmirdi, ağız-burnunu əyirdi, "ciddi" düşüncələrə qərq olmuş bir alimə bənzəmək üçün xırda alnının qırışlarını zorla düyünləyir, bu qırışlar isə inadla düyünlənmək istəmirdi) danışan Ayazın Professor sözünü kəsib az qala hirslə belə demişdi: –- Dayan, dayan, necə? Nə dedin? Üç dənə söz? Bala, "dənə" bazarda armud olar, alma olar... Başqa heç nə "dənə" olmaz!

Mağaranın yarımqaranlığında F.Q.-nin dodağının qaçmasını Bəhram kişinin iti gözləri anındaca sezdi: "işlər gedir, şükür, işlər gedir..."

F.Q. hər şeyi unutmuşdu, müxtəlif hərfləri ləçəklərin içinə qoyur, dəftərinə nəsə qeyd edir və bu zaman sözlərin uzaq görüntüsü ortaya çıxırdı.

Hərflərin hansı gərəkir, hansı gərəkmir – bu, cümləyə görə bəlli olur, gərəkməyəni atılır bir kənara, gərəkəni qalır və beləcə mətnin daha bir sözü tapılır (doğulur), oxunur, sonra da növbəti ləçəyə, növbəti çiçəyə doğru! "Bu çiçəklər əvvəl belə deyildilər, bunlar indi əməlli-başlı rayihə verirlər, ətirləri varmış", F.Q.-nin burnuna incə çiçək ətri dolur və F.Q. hər tərəfi qapalı bir mağaranın içində az qala ətirdən bihuş olurdu...

Bir xeyli bu şəkildə çalışdı. Günortadan keçmişdi. "Bu günlük bəsdi". F.Q.-yə elə gəldi ki, az qalıb, çox az qalıb, bir balaca da dözmək lazımdır, söz-sözə gör necə yağ kimi yapışır, iş getdi, iş öz sonuna yaxınlaşdı. Doğrudan da, Çiçəkli yazının üzünə çəkilmiş əsrarlı pərdə bu dörd hərfin (işarənin) köməyilə yavaş-yavaş açılmaqda idi:

– Bəhram dayı, hələ bir bura bax. Bax bu çiçəyin birinci ləçəyinin işarəsini görürsən?! – İşarətə toxunub göstərdi. – Əyridi, elə bil, bizim "c"di, amma "c" deyil, bu qarağacın birinci hərfidi, harda yazı boyu bu əyri işarəyə rast gəlsək, deməli, "q"-di. Qarağacın birinci hərfi. Harda isə, bax, buna rast gəlsək, – F.Q. barmaqları ilə çiçəyin ikinci ləçəyini sığallayıb sanki əzizlədi, oyuq yerini toz-torpaqdan silib təmizlədi, bunun oyuğu daha böyük idi, – o zaman "a" kimi məhz bu işarəni tanıyacağıq. Bütün mətndə bu hərfləri bərpa etdikcə sözlərin... nədi o, skeleti çıxacaq üzə. Bu sözləri bütövlükdə tanıya-tanıya yeni işarələri deşifrə (bərpa) edəcəyik, onlar da yeni naməlumların əvvəlcə skeletinə, sonra da ətinə-canına cevriləcək. Getdikcə iş asanlaşacaq. Mətn başdan sonacan bu cür oxunacaq. Ona görə idi mən deyirdim: əsas olan açar sözdü. Gör, sən mənə dörd hərfin, dörd işarənin sirrini açdın. Bu böyük işdi! Bax, bax, hələ buna – dördüncü ləçək, eynilə ikinci ləçəkdi ki, durub. Eyni işarədi – "a" işarəsi. Çiçəyin İkinci və dördüncü ləçəyi.. Vallah, açar söz Qaracdı ki, Qaracdı... – F.Q. artıq buna əmin olmuşdu.

Bir kənarda Bozların boynunun ardını qaşıya-qaşıya qalmış Bəhram kişi F.Q.-nin sevincək bir halda əlini yazıya toxundurmasını, yazının işarələrini hərdən əzizləməsini, hərdən təmizləməsini qəribə bir niskilli və məhzun baxışla seyr edirdi. Mane olmurdu. "Söz danışıqdan keçər". Duyurdu ki, Mağaranın ruhu hardasa buralardadı, lap yaxındadı, onları hökmən izləyir.

Bunu duyduğundan tez-tez işıq gələn qapı tərəfə baxıb gözlərilə fırlanan işıqlı kürəciyi axtarırdı.

Mağaranın ruhu Bozların nagahan mırıltısı ilə mağaranın ən uzaq, əks bir bucağından Çiçəkli yazının işarətləri yalnız o bucağın ətrafında yox idi özünü Bəhram kişiyə göstərdi "mən burdayam, elə bilmə!". O tərəfdə işıq, gur işıq topası bir an içində qəfildən yanıb, qəfildən də söndü. F.Q. təəccüblə bərq vurub alışan və sönən bu küncə diqqət etdi. Gur işıq onun da gözünə düşmüşdü: "Bu nə idi?! Bu işıq topası hələ hardan gəldi?! Qəribə işlərdi. Bayırda, mağaranın önündə o boyda daş öz-özündən işıq verir, mağaranın içi öz-özündən işıq verir, Bəhram kişinin gözlərinin dibindən... işıq çıxır..." F.Q. Bəhram kişiyə məhrəm adamlar kimi məhəbbət dolu bir nəzər saldı, sonra "olmaz, olmaz gecikmək!" yenə başını çöndərib divardakı yazıya və əlindəki kağıza baxmağına davam etdi, nəyi isə nəyləsə tutuşdurdu.

Nəhayət, hər şey öz məntiqi sonluğunun astanasına(!) gəlib dirəndi. Artıq günortadan keçmiş və axşama az qalırdı. F.Q hiss elədi ki, daha beyni yorulub, həyəcanı yavaş-yavaş sovuşsa da, beyni artıq bir nöqtədən yapışıb tuta bilmir. "Gecdir", onlar mağaradan çıxdılar. Mağaranın ruhu indi də uçurumun yanındakı içindən nur saçan daşın yanında idi. Təkcə Bəhram kişinin beynində səslənən bir fışıltıyla "Sözümüz sözdü. Hazır ol!" pıçıldadı və yenə ildırım sürətilə fırlanıb bir anın içində yox oldu. Bəhram kişi və F.Q. daha ləngimədilər, cığırla üzü aşağı, Çoban papağına tərəf yol aldılar. F.Q.-nin qəlbi həyəcandan şiddətlə vururdu, eynən mağaraya qalxdığı birinci gün qəlbinin səsini "güp-güp" qulaqlarında necə eşitmişdisə, indi də elə olmuşdu. Həyatının ən böyük, sirli mənası bu gün onun üçün öz gözəl simasını açıb onu öz içinə, daxilinə, heç kimə görünməyən dərinliyinə dəvət edirdi. Oğruqdan keçən yerdə Bəhram kişi dərə boyu sağa-sola göz atıb nə qədər axtardısa Mağaranın ruhundan əsər-əlamət görmədi.

... Oğruqdan aşağıda yaşıllıq içində bir dərə üzürdü. Sakitliyi qulaq deşirdi, möhtəşəm bir görüntüsü vardı. Adama elə gəlirdi ki, dərənin hər kolu, hər daşı sirriçində bir pərdəyə bürünüb. Bəlkə də sirrilik onda idi ki, kollar-koslar, daşlar-kəsəklər dərənin üstünü yavaş-yavaş almaqda olan süd rəngli dumanın içində göz görə əriyirdi, yox olurdu, görükməz olurdu,

dumanın özü ilə gətirdiyi (haralardansa gətirdiyi) xırda, narın yağış tozları (ulduz tozları?!) yenə də sirr kimi (hərəsi bir dünya kimi?!) səpələnib dərəyə çilənirdi. Süd rəngli duman orda-burda dərənin içindəkiləri gizlədə bildikcə gizlədirdi, gizlədə bilmədiklərinin isə başı üstündə dayanaraq heç yana dağılıb getmirdi. Bu mənzərənin təkcə işıldayan (və fışıldayan) yumru nur kürəciyi çatışmırdı. "Sənin xəzinənin..." Bəhram kişi addımlarını yeyinlətdi.

***İki gün sonra. Gecənin bir vaxtı.***
***F.Q.-nin sevinci. Bəhram kişinin qəfil xəstəliyi.***
***"Oxudum! Bəhram dayı, oxudum!"***

F.Q. gecə yarısından xeyli keçməsinə baxmayaraq, çalışmasını heç cür dayandıra bilmirdi. Ləzzət alırdı, ləçəklərin dəftər kağızı üstündə bir-bir hərflərlə dolub anlamlı bir mənzərə yaratması onu xoşbəxt etmişdi. Göyün yeddinci qatında idi.

Sözlər, sözlərdən əvvəl hərflər hərdən sıra ilə, bir-bir, hərdən də tələsə-tələsə dəftərin dərinliyindən sıyrılıb çıxır, ləçəklərə dolur, bu minvalla çiçəklər yavaşcadan və işvə-nazla gülüşə-gülüşə o biri çiçəkləri izləyir, bütün bunlar isə öz növbəsində oxunan, eşidilən, duyulan, dərk edilən cümlələrə dönürdü. Başı işə (deşifrəyə) möhkəm qarışmış F.Q. özünü-sözünü tamamən unutmuşdu. Qonşu otaqda yatan Bəhram kişini unutmuşdu, hər şeyi, hər şeyi unutmuşdu. Sevinməsinmi, sevinməyə də qorxurdu. Qorxurdu ki, mətnin bu şəkildə rahat oxunuşunu gözə gətirər. Hərf hərfi öz arxasınca uzun və qaranlıq qatarın taqqataraqla gedən vaqonu dalınca vaqon kimi çəkib aparırdı, F.Q. artıq ləçəkləri hərflərlə doldurulmuş bu nazlı çiçəklərə məhəbbətlə, uzun həsrətdən sonra vüsala yetişmiş bir sevgili nəzərilə baxır, sonra güclə bundan gözünü çəkib yeni çiçək boşluğuna (boş ləçəklərə) gözünü dikirdi. Bəzi cümlələrin içində hərflə doldurulmamış ləçəklər hələ qalırdı, onlar da bir qədər sonra (iki-üç cümlədən sonra) yeni tapılan hərflərin hesabına dolmalı idi və dolurdu; cümlənin ümumi cizgiləri bilinəndən sonra yarımçıq sözü asanlıqla onun içində "bərqərar" etmək olurdu.

F.Q.-nin ürəyi şiddətlə vururdu, çünki deşifrə sona yaxınlaşır, çətinliklər çiçək-çiçək arxada qalırdı. Bir qədər də yazıb-pozdu. Yavaş-yavaş yorğunluq onun göz qapaqlarını aşağıdan yuxarı, yuxarıdan aşağı basmağa başladı. Başını işdən ayırıb gördü ki, gecədən xeyli keçib və sabaha daha az qalır, pəncərənin o üzü yavaş-yavaş işıqlanmaqdadı. Ayağa qalxıb, yenə qırmızı zolaqlı cemperini əyninə aldı: "soyuq adamı məhv edər!", evdən çölə çıxdı. Sabah tezdən idi və dünyanın bakirə (məsum) vaxtıydı. Əl-qolunu ata-ata yuxusunu qovalayaraq bir balaca qızışan F.Q. artırmanın sürahisinə dirsəkləndi. Yorğun olsa da, yuxusuz olsa da bunu hiss etmirdi. Ürəyi heç belə rahat olmamışdı. Hələ dodağı da qaçdı. İlk dəfə görürmüş kimi diqqətlə və zənlə "mən artıq səni tanıyıram!" Qarağac tərəfə baxdı. Qarağac bu yarıqaranlıqda yenə həmişəki kimi möhtəşəm idi, məhrəm idi, doğma idi və o, indi, bu saat, bu an Qarağacı dünyalar qədər sevirdi. Arı pətəklərinə baxdı. Arılardan hələ xəbər-ətər yox idi. "Arıların dostu!" arıları sevirdi. Alma ağacları... Sevirdi! Göy üzündə ulduzlar bir-bir sönməyində idi. Ulduzları sevirdi. "Görəsən, bu dünyada, lap elə hər hansı bir başqa dünyada elə bir şey varmı, mən onu sevməyim?! Yoxdu, ola da bilməz". Mağara... Mağarada nəyi isə qalmışdı. O, bunu hiss edir, qəlbi ilə duyurdu, amma bilmirdi ki, itirdiyi nədir?! Mağaranı? Sevirdi! Vəng dağı! Vəng dağı yaddan çıxdı. Yatmış devi sevirdi. Hələ Bozları, Bozları necə sevirdi?! Onun ağıllı, qəmli gözləri...

Hamını sevə-sevə alma ağaclarının arasıyla F.Q. az qala qaçaraq ayaqyoluna gedib "işini" tezcə gördü və ürəyində həmən coşqun, tükənməz sevgi yenə də az qala qaça-qaça (soyuq kəsmirdimi, elə kəsirdi...) geri qayıtdı: "Vvvvv... " bədənini əsdirə-əsdirə (guya qızışdırırdı) özünü artırmadan evə saldı, qapını arxasıyca bərk-bərk bağladı. "Daha kimi sevirəm?! Yağışı, Bəhram dayını, hadisələrin üfüqünü və onu... Afaqı, əlbəttə, onu!" Birdən hiss elədi ki, başı ağırlaşıb, bir azdan ağrıyacaq.

"Səhərə nə qalıb ki?!" Hökmən yatmalıdı. Dincəlməsə olmaz. Neyləsin?! Öz otağına keçdi. Amma əvvəlcə otağa keçməmiş gətirib həmişəki kimi qalın ağ bir süfrəni "yazı masasının" üstünə sərdi. Dəftər-kitabının, yazı-pozusunun üstünü örtdü. Sirr olmağına sirr deyildi, amma yenə də... Ürəyinə sinmirdi. Yarımçıq nə vardısa, həmişə gizlətmişdi. Yarımçıq məqalə, yarımçıq

yazı, yarımçıq əlyazma... Süfrə ilə bunların üstünü örtdükdən sonra süfrənin altındakı dəftər-kitabı əli ilə tumarladı.

Yerinə girən kimi soyunmadan yorğanı başına çəkdi, yeri soyuq idi, isitmək üçün ayaqlarını soyuq döşəyə sürtəndə dişi dişinə dəydi, gözlərini bərk-bərk yumdu, beynini bu son günün ağırlığından təmizləməyə çalışdı. Unutmağa çalışdı. Hər şeyi, hamını. Yox, bu mümkün deyildi. Aydın oldu – yata bilməyəcəkdi. Özü-özünü yatmağa məcbur eləmək isə indi çox vacib idi. Hələ bəlkə bəxti gətirdi, yuxu da gördü. Amma nə qədər çalışdı, nə qədər o tərəf, bu tərəfə çöndü, bir şey alınmadı, ilk dəfədən heç cür yuxuya gedə bilmədi. Beyni çox oyaq idi. Beyni ildırım sürətli sözləri, cümlələri öz içinə yığıb saxlamaq, saxlamaq, qorumaq istəyirdi, sözlər, cümlələr isə sonsuz... bir-birini sürətlə əvəzləyərək onun dodaqlarının ucundan asılıb düşməyə bəhanə axtaran təbəssümvari qırışığa ilişir, yenidən beyin qırışlarına tərəf, yuxarı və içəri dırmanır, bu zaman F.Q.-nin göz qapaqları yavaş-yavaş ağırlaşır, ağırlıq pudluq daşlara dönür, artıq yumulu gözlərinə Qarağacın yarpaq dolu budaqları gəlib soxulmaqçun can atır, amma F.Q. artıq gücü çatmır, göz qapaqlarını aralaya bilmir, bu kimdi, bu nə məzardı – təzəcə qazılıb, yox, məzar deyil, sərdabədi, bəs bu... bu adam niyə sərdabənin önündə beləcə naçar çöməlib diz çöküb, ağlayır, yox, hönkürür, nədi?!

... F.Q.-ni yuxudan (bəxti gətirmişdi və daş kimi yatmışdı) heç cür kəsilmək bilməyən boğuq öskürək səsi oyatdı. Səs o biri otaqdan gəlirdi. Yarıyuxulu, dumanlı bir vəziyyətdə olsa da F.Q. handan-hana başa düşdü ki, bu, Bəhram kişidi, onun səsidi. Öskürək kişini boğurdu. Bir xeyli bu cür "öhö, öhö, öhö..." dən sonra yavaş-yavaş özünə gəldi. "Nə oldu, buna, gecə sap-sağlam idi, amma yox, rəngi, elə bil, saralana oxşayırdı..."

Bəhram kişi çarpayısının yanına gətirib qoyduğu kətilin üstündə süd dolu stəkan vardı, elə "öhö" eləyə-eləyə bir qurtum bu süddən zorla aldı. Bir balaca toxdadı. Başını heysiz atdı yastığa. Rəngi, həqiqətən, saralmışdı. Əli ilə dodaqlarını sildi.

– Nə oldu sənə, Bəhram dayı? – Qorxuya düşmüş F.Q.-ni Bəhram kişi gözünü açıb çarpayısının başında gördü.

– Heç. Heç nə olmayıb... Canımda bir üşütmə var. Nə isə. Bütün gecəni öskürmüşəm, səni də yəqin, yatmağa qoymadım. – Bəhram kişini bu cür fikirli halda F.Q., deyəsən, ilk dəfə idi, görürdü. Gözləri sulanmışdı, nəfəsi ağır-ağır gedib-gəlirdi.

– Yox, nə danışırsan? Mən sənin səsini elə indi eşitdim. Bərk yatmışam.

– Hə... gecə, deyəsən, yatmadın.

– Yatmadım. Bütün gecə... – F.Q. duruxdu, – bütün gecə işləmişəm, amma sənin səsini... necə olub eşitməmişəm?!

– Nədi, alınır? – Bəhram kişinin qaşqabağı çəkilən kimi oldu. – İstidi. – Araxçını başından götürdü, yorğanın aşağı tərəfinə atdı.

– Alınır – yox. Alındı! Sənin sayəndə, Bəhram dayı, sənin sayəndə. Heç zaman unutmaram.

– Unut. Hökmən unut! Mən bir şey etmədim. Nə etdinsə, sən etdin. Bunu yadında bərk saxla. Sən! Sən!.. Mənə oxuyarsan? Bir də gördün... öhö, öhö...

Yenə öskürək gəlib girdi Bəhram kişinin boğazına və Bəhram kişi başladı bu öskürəyi ağzından itələyə-itələyə çölə çıxarmağa. Bığına, saqqalına öskürəyin bəlğəmli tüpürcəyi yapışıb qalırdı. Bu zaman F.Q.-nin ağlına gələn ilk fikir bu oldu: öskürək Bəhram kişinin içindən, ciyərindən, boğazından gəlmir, öskürək kənardan gedib soxur özünü bunun ağzına – göz deşiyindən, burun pərlərindən (burnunun tükləri necə tərpəşirdisə o da görünürdü), qulaqlarının içindən...

– Sən... mənə fikir vermə, balası, get yat... bir az barı dincəl. İşin çoxdu sənin. Amma bu gün oxu, nəhayət, bu andıra qalmışı... – Bəhram kişinin səsi son sözləri deyərkən ilk dəfə belə qəzəbli çıxdı, öskürəyin xırıltısı idi səsinə qarışmışdı, ya nə idi?!

Onun halından heç gözü su içməyən F.Q. söhbəti dəyişmək istədi:

– Sənə bir şey gətirim, ay Bəhram dayı?! Bəlkə həkimə xəbər verək? “Mən nə danışıram?! Kimə?! Şiraza?!”

Bəhram kişi yenə F.Q.-nin fikrindən keçənləri duydu və elə bu halətdə (zəif bir halətdə) ola-ola dodağı balaca qaçdı, “Şirazamı?”

Biçarə F.Q. indi neyləsin, bilmirdi. Gedib bəlkə Mübariz kişiyə xəbər versin, bəlkə aptekə qaçsın?! "Aptek?!" Bəhram kişinin sapsarı bənizi, alacalanıb axan gözləri F.Q.-ni əməlli-başlı həyəcanlandırdı.

– Yox, darıxma, bir şey lazım deyil. – Bəhram kişi F.Q.-ni rahatlamaq üçün özünü toparladı və bu dəfə sakit, aydın bir səslə: – Dincəlmək, dincəlmək istirəm, – dedi. – Bacarsam, yatacam. Axşam olsun hələ... Mənim dərdimin dərmanı, balası... bax budu. – Bəhram kişi süd stəkanının yanında ağzı nəlbəki ilə örtülü masxoranı göstərdi, bal masxorası idi, – mən bunu bir qaşıq yedim ha, ölü olsam, inan, dirilləm. Sən get. Get.

Taqətsiz-taqətsiz Bəhram kişi baldan götürüb bir qaşıq stəkanın içinə saldı, südlə qarışdırdı, bir qurtum aldı "axxx...", yenə başını heysiz bir halda atdı yastığın üstünə:

– Get, dedim, get işinlə məşğul ol, bir şey olsa mən səni səsləərəm.

– Buralardayam. – F.Q. əli ilə Bəhram kişinin üstündəki yorğanın qırışığını düzəltdi, araxçını götürüb qoydu yastığın altına, məyus-məyus otaqdan çıxdı.

Yuxusu artıq qaçmışdı: "Noldu, noldu bu kişiyə?! Dünən sappasağ idi, indi isə..." Ondan olsaydı, gedib bir azca açıq havada gəzərdi, Qarağacın altına gələrdi, oxuduğunu ona danışardı, " bu nədi, bu necə yazıdı, Qarağac?! Mən ki bir şey başa düşəmmədim, sən necə?!" – soruşardı. Yox, amma yox. İndi evdən hətta həyətə çıxmaq doğru-düzgün olmazdı. Bəhram kişiyə hər an nəsə lazım ola bilər. Yox! "Yaxşısı budu, gedim, qurtarım bu... necə dedi... bu andıra qalmış Çiçəkli yazını. Andıra qalmış!.. Əlbəttə, andıra qalmış!.. Çox doğru dedi..."

* * *

Afaqın Ayazla bir yerdə sabah yox, birisi gün kəndə gələcəyini F.Q. Bəhram kişiyə xəbər verməyə hələ macal tapmamışdı. "Aman Allah, bu kişinin xəstəliyi uzansa görən necə olacaq?! İndi mən durum, şəhərə zəng edim ki, vəziyyət elə deyil, belədi, gəlməyinizi təxirə salın – Afaq aləmi qatar bir-birinə. Sən elə beləsən, sən özün istəmirsən, mən ora gəlim, sən məni sevmirsən, heç vaxt da sevməmisən – bu və buna bənzər cəfəng sözlər... Sağalar, Allaha pənah, sağalar, amma... birdən bu, yeni formada olan bir qripdi?!

Qripdisə, Afaqa keçə bilər. Yüz faiz keçər. Can zəif... bütün mikroblara açıq! Düşünmə, F.Q., düşünmə, vaxtından əvvəl düşünmə! Özünə zülm eləmə, əzab vermə. Hər şey, hər şey öz zamanında! Qoy hələ bir gəlsinlər, baxıb görək, neynirik. Bəlkə elə Bəhram dayı düz deyir (ürəyinə, elə bil, dammışdı), bunları Mübarizgilə aparsaq, daha yaxşı olar?! Görək, görək..."

Bəhram kişi yenə öskürməyə başladı. Bu dəfə öskürəyin qabağını nə süd ala bildi, nə də bal. "Öhöooo, öhö..."lər xeyli çəkdi, axırda elə bil, o yox, öskürək özü yoruldu və qısa bir vaxt üçün bu zalım öskürəyin rişəli, yapışqanlı, sulu barmaqları boşaldı və Bəhram kişinin hülqumundan çəkildi. Kişi bir balaca toxdadı. Amma beyni hələ də dumanlı idi, gözləri yenə axırdı. İçəri, o uzanan otağa boylanan F.Q.-ni əlini heysiz-heysiz havada yelləyib "get, get" qovaladı.

... Gecəsi gündüzünə qarışan F.Q. otaqda oturub gözünü dikmişdi yazı masasının dirəndiyi pəncərəyə, bu pəncərədən bayırda gözəgörünməz bir nöqtəyə baxdıqca baxırdı. Pəncərə içəri tərəfdən tərləmişdi deyin, bir şey seçmək olmurdu. Bayır, çöl-baca bərk soyuqdu. Soyuq özünə dəlmə-deşik tapıb yavaş-yavaş içəriyə də girirdi. "Sobanı qalamaq pis olmaz", F.Q. yaşılkərpic sobanın ağzını (qapağını) açıb içəridəki yarıyanmış bir-iki (üç parça) odun parçasının qəzetlə üstünü qaladı, kibriti çəkib yandırdı. Gözləmirdi, odun parçaları elə o saat alovlanıb yanmağa başladı.

F.Q. bu dəfə də çatır-çatır yanan odun parçalarına gözünü dikib heç cür ayıra bilmirdi. Yenə Bəhram kişi barədə düşündü. Bəhram kişi niyə belə oldu, öskürəyi heç yaxşı öskürəyə oxşamır, özü də birtəhərdi. Yazının oxunmağa başladığı, hadisələrin sürətlə öz sonluğuna yaxınlaşdığı bir zamanda belə bir iş gərək heç olmayaydı. Qurtarmaq, qurtarmaq lazımdı bunu. Kişinin gözləri yazı üçün az qala yol çəkir. Ona yazını oxumaq, açar sözün öz yerinə necə düşməsini hökmən göstərmək lazımdır. Sevinməyəcəkmi, sevinəcək. Ən çox da ki, Mübarizin yanında göylə gedəcək. İllah da ki, F.Q. hamıya açar söz barədə həqiqəti (Bəhram kişinin açar sözü ona nişan verməsini!) elan edəndən sonra necə qürrələnəcək. Amma!.. Bəs orda yazılanların nədən ibarət olduğunu biləndən sonra?! Bəhram kişinin özü, elə başqaları nə düşünəcəklər, nə deyəcəklər?! Eh... Cəhənnəmə ki, başqaları nə deyəcək?! Mətnin məz-

mununun, qoy bunu hamı bilsin, heç bir əhəmiyyəti yoxdur. Yox! Ümumiyyətlə, məzmunun əhəmiyyəti yoxdur, heç zaman da olmayıb. Əhəmiyyəti olan yazıdır, yəni, formadır. Oxundusa, deməli, işlər bitdi. "Nələr arzuladıq və nələr qazandıq?!" peşmançılığı barədə o, F.Q. heç düşünmək belə istəmir. Hər cəfəng, hədər, məqsədəişləməyən məsələ ilə məşğul olsa o öz həyatını əlində saxlaya bilməz, həyatı barmaqlarının arasından sürüşüb süzülər, axıb gedər, itər, yox olar. Həyat isə... bəlkə də F.Q. ona buraxılan vaxtın yarısına yetişib. Həyat həmişə gənc adama uzun görünür, həyat qocalığa yaxın sürətini artırır. "Qurtarmaq, qurtarmaq!.. Qurtarmaq və qurtulmaq! Bir az da belə getsə, son həddə çatacam, başım xarab olacaq. Başlayacağam həyatın mənası barədə düşünməyə".

***Həmən gün. Həmən yer. İki saat sonra.***
***Yazının oxunması. Bəhram kişinin son xahişi***

"... Bax, budur, budur, bu da düz gəldi, son hərf, bu da son söz. Uff... Bitdi! Bitdi!!"

Miz arxasında oturub Çiçəkli yazının sirlərinə baş vura-vura F.Q. yenə özünü unutmuşdu, qonşu otaqdan (Bəhram kişinin otağından) ara-sıra gələn öskürək səsini qulağı yenə eşitmirdi. Bütün varlığı ilə Çiçəkli yazının surəti (rəsmi) olan varaqların yanında, daha doğrusu içində (!) idi. Onları elə hey bir-birilə tutuşdurur, ləçəkləri hərflərlə bir-bir doldurur, yazır, pozur, uyğun sözü axtarır, o söz tapılarkən yenə rahatlanmır, sözün indi də cümlədə özünü necə "aparmasına" diqqət edir, ağlı bir şey kəsirdisə (mətnin məntiqi imkan verirdisə) haman sözü mətnə daxil edirdi, amma, əgər söz bu cümlənin içində yad, ögey bir görkəmdə... görkəmdə yox, yox, mahiyyətdə görünürdüsə onu cəsarətlə silib atır, başqa bir sözün (haman ləçəklərə uyğun) axtarışına çıxırdı. İş birdən-birə çox böyük sürət yığdı və hər şey alınmağa başladı. Qarağac – Qarac bütün müşkülü həll etmişdi. Bitdimi həqiqətən? Bitdi! Bu da son söz! Bu da Çiçəkli yazı! Al, bu da hərf-hərf dolmuş ləçəklər! F.Q. başını yazıdan ayırıb geri çəkildi, məmnun-məmnun yuxarıdan aşağı ləçəkləri hərflərlə dolmuş çiçək şəkillərinə baxdı. İndi artıq qətiyyətlə demək olardı ki, F.Q.

boynuna götürdüyü (ona etibar edilən) bu ağır işin öhdəsindən, nəhayət ki, gəlib Çiçəkli yazını diriltdi, yəni, oxudu. Birdən içindəki bir səs ona etiraz etdi: "Doğrudanmı, bu belədir?! Oxudunmu?! Buna oxumaq, mətnə vaqif olmaq deyilərmi? Deyilməz!" Hər cümləni, hər sözü – bəli, F.Q. oxudu. Amma... dayan, dayan. Bu şeytani səs axı düz deyir. Ümumi məzmun nə idi?! Çiçəkli yazı nədən danışır – F.Q. bunu bilirdimi, bilmirdi. Hər söz, hər cümlə – ayrı-ayrılıqda! Bir qala, bir istehkam, bir çəmbər kimi! Amma evlərin bir-birinin yanında küçə, küçələrin məhəllə, məhəllənin şəhər əmələ gətirməsi – bax, bu yox idi. F.Q. Çiçəkli yazının son sözünü oxuyub "ufff..." dərindən nəfəs alandan sonra Çiçəkli yazı nəyi deyir, nədən bəhs edir – bunu ondan soruşsaydılar, nə cavab verə biləcəkdi, heç nə. Elə bil, onunla bu yazı arasında naməlum, gözəgörünməz bir sədd çəkilmişdi, eynən pəncərənin içəridən tərləmiş şüşəsi kimi bayırı göstərməyən tövrü vardı, bayırla F.Q. arasında bu ağarmış (süd rəngi almış) şüşə parçası olan kimi, yazı ilə də onun arasında (məzmun ilə onun arasında!) bir sədd vardı. Formaya F.Q. qalib gələ bilmişdi, sözləri, cümlələri oxuya bilmişdi, məzmuna isə F.Q. qalib gələ bilmişdimi, xeyr, bir daha xeyr, məzmuna F.Q. qalib gələ bilməmişdi. Bunun üçün öncə bu məzmuna vaqif olmaq gərəkirdi. Bunun üçün yazını diqqətlə (söz-söz yox, bir bütöv kimi) əvvəldən axıradək duymaq (anlamaq?) lazım idi. Məzmuna mültəfit (vaqif!) olmaq üçün F.Q. bütün diqqətini, fikrini-zikrini bir yerə toparlayıb bir başqa mahiyyətin içinə girməli idi. İndilik isə... Hər sözünü əzbərə bilməyinə baxmayaraq F.Q. Çiçəkli yazının əvvəldən-axıradək nədən bəhs etdiyini xatırlaya bilmirdi. Daha doğrusu o bu mətni bütöv şəkildə anlamırdı, bəlkə qavraya bilmirdi. "Niyə? Nə üçün? Bu mətn nə deyir, nədən danışır?" Bu kimi cavabsız suallar onu rahat buraxmırdı. "Mən niyə özümə beləsinə zülm edirəm?! Bu mənə heç lazımdımı?! Deyil. Mənim işim bu deyil. Mənim işim bitdi. Məzmun isə mənlik deyil. Nə məzmun olursa olsun! Mən öz işimi gördüm! Sona yetdi. Hər şey sona yetdi!.." Həqiqətənmi, belə idi?!

– Bəhram dayı! Bəhram dayı! – F.Q. qəti qərara gəlib, nəhayət, onu rahat buraxmayan şübhə və tərəddüdlərə son qoydu, bu dirilmiş yazını ilk olaraq Bəhram kişi üçün oxumaq istədi. Əllərini gen açaraq aşağı-yuxarı bir neçə

dəfə atdı. Sonra üz-gözünə sevincək bir ifadə verərək yan otağa, Bəhram kişinin yanına girdi, zorla özünü deyib-gülməyə məcbur edib:

– Bəhram dayı, Bəhram dayı! Muştuluq! Muştuluğumu ver! – Bərkdən və yalandan (guya kişinin kefini açırdı) hələ bir çırtıq da çaldı.

Onu qəribə bir nigaran baxışla süzən Bəhram kişi bu dəfə gözünə pis dəymədi, bir balaca, elə bil, özünə gələnə oxşayırdı. Yastığını dikəltmiş, yataqda yarıoturmuş bir vəziyyətdə idi. Öskürəyi ara vermişdi. F.Q.-yə elə gəldi ki, Bəhram kişinin bu saat beynində heç bir başqa fikir-filan yoxdu, fikri-zikri ancaq onun yanındadır, daha doğrusu, ondan səbirsizliklə yazının oxunması xəbərini gözləyir. Doğrudanmı, Bəhram kişinin gözləri yol çəkirdi?! Əgər beləydisə, nəyi düşünürdü?! Kimi xatırlayırdı?! Bəhram kişi F.Q.-nin sevinc dolu səsini eşidib fikirdən ayıldı, (fikri-düşüncəsi özünə qayıtdı) yavaş-yavaş üzünə-gözünə xəfif bir təbəssüm yayıldı. Ürəyi atdı, anladı ki, əsas məqam gəlib, nəhayət, yetişib. Saqqalı – sifətinə işıq, nur verən ağ saqqalı, elə bil, yana darındı, bu təmtəraqlı, rəngli təbəssümə ədəb-ərkanla yol verdi, o özü isə boğuq bir səslə, amma sözləri aydın tələffüz edərək bunu pıçıldaya bildi:

– Əhsən, balası, sağ ol. Sevindim... Sevindirdin sən məni. Sağ ol...

– Oxuyum? Birinci sənə oxuyacağam, – F.Q.-nin ürəyi sıxıldı və həyəcanla titrədi.

Bəhram kişi şəfqətlə ona baxıb başını zəif-zəif tərpətdi, yəni, "oxu", sonra bir qədər də dikəldi, əllərilə birtəhər boynunun altındakı yastığı özü düzəltdi, yenə başını heysiz halda dala atıb nədənsə gözlərini yumdu. F.Q.-yə elə gəldi, yüngülcə bir ah da çəkdi. Elə bu zaman (Bəhram kişi gözlərini yuman zaman) onun uzandığı dəmirqollu çarpayının arxasında (az qala çarpayının dirəndiyi) üstü xalçalı (üstündə maral rəsmi vardı) divar başladı göz görə-görə əriməyə, yox olmağa. Balaca otaq birdən-birə xeyli genişləndi, ordan-burdan narahat və həyəcanlı simalar, üzlər görükməyə, ətə-qana dolmağa başladı. Onlara baxmasa da (F.Q.-nin gözləri Bəhram kişidə idi), onları görməsə də F.Q.-yə elə gəldi ki, o bu sifətləri, gözləri, əlləri, qolları, başları, qərəz, bu adamları çoxdan tanıyır, bu məkana da yaxşı bələddi, əlbəttə, əlbəttə, bura Tutuquşu zalıdır, daha hara olacaqdı ki?! Bu da kəfkirli saat, bu isə içində Tutuquşu olan qəfəs, sıra-sıra düzülmüş yazı masaları, abajurlu

stolüstü lampalar, Prezidium və orada Professor, Patriarx, Aslanzadə... bu biri, qarşı tərəfdə isə Dil və Təfəkkür İnstitutunun, Tarix, Arxeologiya İnstitutlarının mötəbər alimləri, ictimaiyyətin say-seçmə adamları, daha kimlər, daha kimlər... Hamısı burdadır. Adam çoxdur, amma hamısı maraq içində susublar. Daha kim var?! Əlbəttə, bu da o!.. Afaq da burda idi, deyəsən, anası, ifritə anası ilə gəlmişdi. Allah, Allah, bu adamlar nə üçün belə heyrət və maraqla, bəziləri açıq, bəziləri isə gizli rəğbətlə (həm də azacıq qibtə ilə!) ona tamaşa edirlər, kimisi səbrlə, kimisi səbrsiz ondan nə isə gözləyir?! Hamısı gözləyir, hamısı intizar içindədir. Elə Bəhram kişinin özü də intizar içində yatağa uzanıb, gözlərini yumub. F.Q.-ni daha aydın, daha yaxşı eşitmək üçün az qala kişinin bütün hüceyrələri tarıma çəkilib, hətta öskürək də yaddan çıxıb.

– Oxuyuram. Qulaq as. Qulaq as, Bəhram dayı. Oxuyuram. Birinci sənə, sənin üçün. Sayəndə oxuyuram...

Kövrəlmişdi, nəydi, əgər kövrəlmişdisə niyə kövrəlmişdi, F.Q. özü də bunu başa düşə bilmirdi. İki damla yaş Bəhram kişinin yumulu gözlərinin içindən sivişib çıxdı və əvvəlcə yanağı ilə, sonra üz qırışlarının arası ilə axıb saqqalına hopdu, üzünə yapışıb itdi, qurudu. F.Q. "Çiçəkli yazı"nı oxumağa başladı...

### *Haman məkan – Çoban papağı.*<br>*Mübariz kişi ilə Bəhram kişinin vidalaşması*

... Axşam saat səkkiz olardı, Mübariz kişi hövlnak gəldi. Elə bil, Bəhram kişinin öskürəyinin səsinə gəlmişdi. Üz-gözündə gizli bir təlaş vardısa da, Bəhram kişinin yanına keçəndə əsl halını (qəlbindən qara qanlar keçirdi, ürəyi sıxılır, gözləri qaralırdı, ürəyinə dammışdı, dammışdı ki, nə isə bir şey baş verəcəksə, bu gecə baş verəcək) gizlətməyə çalışdı. Bu ikisi – Bəhram və Mübariz bir xeyli ikilikdə qaldılar. Nə danışdılar, nə dedilər?! Bəlkə də elə susub durdular?! Susmuşdularsa da bu üzüntülü bir sükut olmuşdu. F.Q. onlar tərəfə keçmədi. Mane olmaq istəmədi. Bir müddət sonra Mübariz Bəhramla xudafizləşib ayağa durdu. Bunlar bir-birilə elə sağollaşdılar ki, elə bil, sabah Radio meydanında görüş barədə vədələşirlər.

– Sən get, qalma. Sağ ol. Salamat qalasan, Mübariz. – Bəhram kişi tövşüyə-tövşüyə (elə bil, ürəyi o deyən sözlərin dalıyca ağzından çıxacaqdı) söylədi.

– Sən də. Allah əmanətində!.. – Mübariz cavab verdi.

Gözləri isə Mübariz kişinin fürsət tapıb başqa şey dedi. Bu gözlər diqqətlə Bəhramı süzüb az qala yaşarmaq istəyəcəkdi, yaşarmadı. Gözlərin "dediyi" cəmi üç kəlmə söz oldu:

– "Bağışla məni, Bəhram".

Bəhram kişi Mübarizə eynən onun kimi gözlərilə cavab verdi:

– "Allah bağışlasın. Mən səni çoxdan bağışlamışam".

Mübariz kişi ayağını çəkə-çəkə həyət qapısından çıxıb getməzdən əvvəl (F.Q. onu həyət qapısına qədər ötürdü) ağsaqqallığı yenə gəlib yadına düşdü və F.Q.-yə nədənsə başladı ürək-dirək verməyə:

– Ürəyini sıxma, görürəm, sənə pis təsir eləyir. Amma hər şeyə hazır olmaq lazımdı. Halı, doğrudan da yaxşı deyil. Üzü dönüb. Əsas məsələ odu ki, qorxmayasan. İşığı bir neçə dəfə yandır, söndür, yanındayam.

"Bu yekəburuna baxırsan?! Bu nə danışıqdı bu danışır?! Guya bu mənə bu cür ürək verir?! Sən Allah, bircə çıx, çıx get, dipdiri adamı hələ gör necə öldürür?!", Mübarizi açıq-aşkar narazı bir baxışla (qaşqabaqla) yola salan F.Q. tez geri, evə qayıtdı, qəlbində isə artıq civilər gəzməkdə idi, qəlbini neştərlər deşirdi.

– F.Q., balası, bir bura bax...

Bəhram kişinin zəif səsini eşitcək F.Q. cəld onun yanına keçdi.

– ... Bura, yaxına gəl.

Bəhram kişinin əlində bir kitab vardı. O, bu kitabı F.Q.-nin yanında yastığının altından dartıb çıxardığı ağ bir dəsmalın (torba kimi bir şey idi) içinə qoydu və torbanı heysiz-titrək əli ilə ona uzatdı:

– Al bunu. – Halına uyğun gəlməyən cod bir səslə xahişmi etdi, əmrmi etdi?!

– Nədi bu, Bəhram dayı?

– Al. Deyəcəyəm. Səndən bir son dəfə...

– O nə sözdü, ay Bəhram dayı?! – Ürəyindən qara qanlar gedən F.Q. onun sözünü kəsib "artistlik" eləməyə başladı. – O biri paralel dünyaların birində sən bu saat buradakı Bəhram dayıya baxıb güldükcə gülürsən. Gülmürsən?

– Elədi, gülürəm... – Bəhram kişi yüngülcə qımışıb başını yellədi. – Sən hələ al bunu.

F.Q. ağ torbadakı kitabı əlinə aldı. Ağ torbanın açıq ağzından görünürdü, baxdı gördü ki, "Ovod" kitabıdı, Voyniçin məşhur "Ovod"u. Bəhram dayının oxumaqdan yorulmadığı "Ovod". Çox köhnə nəşr idi, kitab haldan-hala düşmüşdü.

– Qulağını yaxına gətir, balası, əyil, əyil aşağı... – Bəhram kişi bu dəfə zor-güc pıçıldadı, başını bir də dikəltmək istədi, alınmadı: – ax... ox... Mən bir azdan... gecə yarısına qədər... canımı, biləsən, tapşıracağam. Amma... dayan, səbr elə, dinlə məni. Sən... qorxma. İşığı yandırıb söndürərsən... gözü burda olacaq... Mübariz özünü çatdırmalıdı. Özü hər şeyi bilir... mən ona demişəm. Nə lazımdırsa yoluna qoyacaq.

F.Q.-nin qəhər gəlib boğazının yolunu tutmadınmı, tutdu. Boğazı qavışdı. Bir müddət heç biri dinmədi. Handan-hana:

– Dinlə, kəsmə sözümü. – Bəhram kişinin baxışı sərtləşdi. – Mən özüm belə istəyirəm. Biləsən... biləsən ki, mənim üçün belə yaxşıdır. Axırıncı həsrətlə gözlədiyim bir şey qalmışdı... onu da ki sən indicə mənə bağışladın. Sənə bir söz deyim, saxla yadında. Əsl tarix elə budu... Hər adam anlamaz. Xahişim... isə...

Bəhram kişi öskürməsə də, səsinin get-gedə zəiflədiyini F.Q. aşkarca hiss edirdi, səsi də, hərəkətləri də xeyli heysizləmişdi. Artıq Bəhram kişinin pıçıltısı səssiz dodaq tərpənişlərinə döndü. Səsini eşitmək, sözünü anlamaq üçün F.Q. qulağını gətirib düz Bəhram kişinin ağzına tutdu...

* * *

Vaxt özünü gözlətmədi. Həqiqətən, Bəhram kişi özü deyən kimi saat on biri keçmişdi, amma hələ on ikinin yarısı olmamışdı, bu baş verdi. Gözlərini yumub artıq heç nə danışmayan və hərdən köksünü ötürən Bəhram kişi (F.Q. onun yanında oturub əlindən yapışmışdı) qəfildən ağır-ağır nəfəs almağa başladı, sonra nəfəs almağına kiçik bir ara verdi, nəfəsi bir dəfə hətta getdi, daha gəlmədi, sonra necə oldusa, qayıtdı, yenə... F.Q.-nin həyəcandan boğazı

qurudu (o bütün bunlara baxa bilmirdi, gözünü Bəhram kişidən çəkə də bilmirdi), kürəyindən soyuq tər su kimi axdı. Nəhayət, Bəhram kişinin nəfəsi son dəfə fəna getdi və daha qayıtmadı. Üzü əvvəlcə xeyli ciddiləşdi, nəfəsinin qayıtmamasına, sanki, özü də təəccüb etdi, qaşı çatıldı, üz cizgiləri dartıldı, sərtləşdi. Sonra bütün vücudu titrədi, ayaqlarından, elə bil, tok keçdi. F.Q. yorğan üstündən onun ayaqlarını ovuşdurmaq üçün əlini uzatmaq istəyirdi ki, kişinin bütün bədəni birdən-birə quruyub qaldı. F.Q.-nin əlini sıxan barmaqları boşaldı, gözləri açıldı və bir nöqtəyə dikildi. F.Q. bir baxdı ki, Bəhram kişinin üzündəki bayaqkı sərt ifadə heç yoxmuş kimi uçub gedib, indi onun üzünü-gözünü həlim, incə bir təbəssüm bürüyüb. Bəhram kişi gözünü qırpmadan bu təbəssüm içində zərif ciddiyyət və diqqətlə onu süzməkdə idi, nəfəsi isə artıq gəlmirdi.

... Bəhram kişi bu cür rahat bir şəkildə canını tapşırandan az sonra onun yanından ehtiyatla ayrılan F.Q. evin işığını bir neçə dəfə yandırıb söndürdü, yaşılsobalı otağa keçib, yazı masasının dirəndiyi və həyətə açılan pəncərəyə burnunu yapışdırdı. O tərəf zil qaranlıq idi. Burnunun ucu pəncərəyə yapışan kimi nəfəsi pəncərə şüşəsini tərlətdi. F.Q. çox səy və diqqət edib bayırdan ancaq onu seçə bildi ki, yenə yağışdı, yenə yağmağa başlayıb. Damcılar əvvəl bir-bir, tək-tək (seyrək), sonra isə tez-tez, sürətlə (ardıcıl) o biri tərəfdən pəncərəni taqqıldatmağa başladı, elə bil, hövsələsi olmayan kimsə evə girmək istəyirdi. F.Q.-nin ürəyi eynən yağışın ahənginə uymuşdu, pəncərəyə dəyərək su zolağına dönüb üzüaşağı (bəziləri üzüyuxarı) süzülən, pəncərədə qəribə (əcayib, maraqlı?!) naxışlar buraxan yağış damcıları hansı sürətlə gəlib şüşəyə qonurdusa F.Q.-nin ürəyi də o sürətlə, o ritmlə vurmağında idi – nə az, nə çox.

F.Q. pəncərədə cürbəcür naxışlar buraxan yağış damcılarının şüşə üzərindəki "səyahəti"nə baxdıqca birdən təəccüblə hiss elədi ki, onun özünün canını yavaş-yavaş ılıq bir rahatlıq bürüməkdədir. "Beləmi olmalıdı!?" – o bunu bilmirdi və F.Q. bu barədə (o biri otaqda çarpayıda isti meyidi uzanıb qalmış Bəhram kişi barədə) düşünmək istəmirdi. Beyni, beyni bunu düşünməkdən imtina edirdi. Düz də edirdi. Özünü "həlak" etsəydi yaxşımı olacaqdı?! Bu zaman nə dəyişəcəkdi?! Heç nə! Bəhram kişi o biri otaqda iki gözü açıq (cəsarət edib F.Q. əlini onun üzünə, gözünə toxundura belə bilməmişdi) uzanıb

hərəkətsiz qalmağında davam etməyəcəkdimi, davam edəcəkdi. İndi, Allah bilir, hansı bir dünyadasa yenə yatmazdan əvvəl "çay qoyummu, balası, təzədəm çay içəkmi?" deyə ona sual edir, bəlkə də "qorxma, niyə gözümü bağlamırsan, qorxma" deyir. F.Q. bir onu bildi ki, o özü də çox, çox ağrılı bir həsrətlə (əzabla) indi həmən dünyada, Bəhram kişinin yaşılkərpic (bəlkə də qırmızıkərpic) sobanın ətrafında əlində çay dəsmalı vurnuxduğu, ora-bura axtarıb araxçınını tapmadığı, bunun üçün öz-özünə deyindiyi o başqa dünyada olmaq istəyir. Daha heç nə istəmir. "Beləmi olmalıdı? Yaxın, doğma bildiyin, alışdığın, bəlkə də sevdiyin bir adamın ölümünü beləmi hiss edirlər, beləmi acıyırlar?!" Bəlkə Bəhram kişi ölüb getməmişdən əvvəl ona hansısa gözəgörünməz toklar ötürdü?! Ötürdü ki, F.Q. irəlidə onu gözləyən ölümlərə alışsın?! Anası var, Afaq var... Ötürdü ki, onun özünün gedişi son dərəcə ahəngdar, son dərəcə yumşaq şəkildə baş versin?! F.Q.-nin qəlbi-könlü rahatlığını itirməsin, möhtəşəm Ahəngin hənirtisi pozulmasın?! İndi Bəhram kişi özü, cəsədi (meyidi) yox, özü, özü, ruhu indi hardadı?! Stiks çayının kənarındadımı?! Xaronlamı sövdələşir?! Macal tapıb ona hər şeyi danışdımı?! Öz sirrini, bilib bilmədiklərini, yaddaşında olanları çayın ortasına çatana qədər Xarona aça bildimi, rahat oldumu, kölgələr aləminə hamını, buradakı hamını – Mübarizi, Gülsümü, Vəng dağını, mağaranı, Bozları, Qarağacı, bu yağan yağışı, onun özünü (F.Q.-ni) unudub (unuda bilib) sonra daxil oldumu?!

Yağış xeyli güclənmişdi. Üzüaşağı artıq şırhaşırla yağırdı, sap-sap yağırdı, rəngbərəng saplar (onlar çox, həddindən artıq çox idilər) yuxarıdan aşağı sallana-sallana qalmışdılar. Yağış üzüaşağı sap-sap yağdıqca torpağın (yastı-yapalaq Çoban papağı həyətinin) canındakı ağzı açıla qalmış acgöz məsamələri (boşluqları) şapbaşapla doldurur, torpağın təkinə hopa-hopa, arzu-kamla orada yerini rahatlayır (ilin, ayın bu vaxtında buxarlanmadan söhbət gedə bilməzdi), ehtirasla yeni dərinliklərə üz tutur, özünə yeni məsamələr tapıb onların içinə süzülür, qarşısıalınmaz bir şövqlə, həvəslə qara, cod torpağı çimizdirir, təmizləyirdi. Torpaq palçığa çevrildikcə daha rahat nəfəs alırdı.

İşığı söndürüb həyətdə yağan yağışı qəlbində ağlasığmaz bir həsrətlə seyr edən F.Q. üzünü (daha doğrusu burnunu) hələ də söykəmişdi pəncərənin şüşəsinə – qaranlıqdan qaranlıq yaxşı görünər – baxırdı, baxdıqca baxırdı

göy üzünün yağış adlanan bu inayətinə, bu mərhəmətinə və "nə üçün, nə üçün, niyə?!" anlaya bilmirdi ki, bu zalım suallarla özü-özünə yenə (həmişə!) niyə zülm edir, məşəqqət edir, özü özündən nə istəyir və bu zaman F.Q. boğazının qovuşduğunu, qəhərləndiyini hiss edir, ixtiyarsız, gözlərindən yavaş-yavaş, səssiz axmağa başlayan göz yaşını heç cür saxlaya bilmirdi (saxlamaq istəmirdi), axıb gedən göz yaşını ancaq əlinin dalı ilə silməyə çalışırdı.

Mübariz kişi (elə bil, işığın yanıb sönməsini gözləyirdi) gecikmədi. Qədim bir əyyamdan bu günə gəlib çıxmış bu ənənəvi işarəni – Çoban papağında yanıb-sönən işığı görəndə məsələni başa düşdü, tez əynini geyinib evindən çıxdı, özünü yetirdi. Təəccüblənmədən, artıq bir kəlmə söz danışmadan (amma xeyli qaşqabaqlı idi, mısmırığı yerlə gedirdi, neyləsin, bunun da dərd, qüssə çəkməyi bu cür idi) gəlib keçdi meyid olan otağa, çarpayıya yaxınlaşdı. Arxasınca gələn F.Q.-dən çönüb təəccüb içində nəsə soruşmaq istədisə də ("bə bunun gözləri niyə açıq qalıb?") nə düşündüsə, soruşmadı. Əlini xəfifcə sığal kimi sürtdü Bəhram kişinin üzünə, saqqalına və F.Q. gördü ki, Bəhram kişi, elə bil, Mübarizin əlinin ona üzünə yaxınlaşmasını gözləyirdi, heç toxunmamış gözləri öz-özünə qapandı. Bundan düz bir saniyə əvvəl isə Bəhram kişinin ölü gözlərindən işıq çəkildi, onlara Mübarizin əlinin kölgəsi düşdü. İşıq evin bir küncündə gizləndi, işıq bu dünyada, bu evin bir küncündə qalmaq istədi. Sonra Mübariz ağ mələfəni yorğanın üstündən dartdı gətirdi Bəhram kişinin ta başının üstünə qədər çəkdi və bundan sonra Bəhram kişi dümağ mələfənin altında tam görünməz oldu (yox oldu).

***Bir gün sonra. Bəhram kişini basdırıb qayıtdılar. Axşamçağı. F.Q. və Mübariz kişi Çoban papağında***

Yay gününə heç oxşamırdı, yağış yağmasa da, elə bil, qış gününün son imtahanı gedirdi, havalar birdən-birə soyumuş və soyuq hərdən az qala adamı kəsirdi. Elə bil, payız adlı fəsil yox idi, payız gəlməyəcəkdi, mövsüm yaydan qışa birbaşa qədəm qoyacaqdı. Bəhram kişinin tabutunu qonşular, qohumlar tələsə-tələsə Kəhrizli arxın körpüsündən (dünənki yağışın palçığına bata-bata) keçərək kənd qəbirstanlığına aparıb tezcə dəfn etdilər. Körpüdən o

tərəfdə, yolun sağında, Gülsümgülün ağzı bağlı qapılarının qarşısında Mübariz kişinin ürəyi (heç belə olmazdı) bərk qısıldı, rəngi qaraldı. "Bəhram, Bəhram..." qaşları çatıldı.

Qəbristanlıqdan qayıdıb həyətə gələn adamlara evə girmək təklifi edildi. Təklifi Mübariz kişi etdi. Tükəz qarı çay qoymuşdu, halva çalmışdı. İçəri keçən az oldu. Onlar da çox oturmadılar, tez durdular. Qohum-əqrabası yox (burdakılar hamı qohum-əqraba deyilmiydi?!), ailəsi yox, kimə başsağlığı verəcəkdilər – özlərinəmi?! Mübariz kişi salavat çevirdi, fatihə verdi. "Sabah yox, birisi gün üçüdü, biləsiz". Adamlar bir stəkan çaylarını içib, kədərli-kədərli "Allah rəhmət eləsin" deyib dağılışıb getdilər. Mübariz qaldı.

Bir xeyli Mübariz kişi ilə F.Q. dinməz-söyləməz üzbəsürət oturdular. Tükəz qarı çay stəkanlarını yuyub təmizlədi, sobaya bir-iki odun atdı (gələnlər özləri ilə içəri qəbristanlığın soyuğunu da gətirmişdilər), sonra əlləri qoynunda, arxasını divara söykədi, dinməz-söyləməz gözlərini Mübarizə dikdi, eləcə qaldı.

– Bizdə camaat bir dəfə üç verir, bir dəfə də qırx. Sabah yox, o biri gün üçdü. Sən olacaqsan? – Başını aşağı dikmiş F.Q.-yə baxmaya-baxmaya gözünü yaşılkərpic sobadan ayırmayan Mübariz kişi sual etdi.

– Burda olacağam, – F.Q. başını qaldırmadan cavab verdi. "Bunlar qəribə adamdılar, elə rahat danışırlar ki... ölüm, elə bil, veclərinə deyil. Elə bil, bu adam ölməyib, indi qapını açıb içəri girəcək".

Mübariz kişi ilə Tükəz qarı bir yerdə çıxıb getdilər. "Yox, ötürmə, çıxma, soyuqdu", - F.Q.-ni Mübariz kişi az qala zorla qoymadı, çölə çıxsın. Beləcənə onlar çıxıb getdilər və F.Q. arxalarıyca evin qapısını bərk-bərk örtdü. Sonra isə... Sonra isə heç nə – qaldı tək (tək-tənha).

### *Ertəsi gün. Afaqla Ayazın kəndə ilk gəlişi. "Çoban papağı"nda görüş. Çiçəkli yazının imtahanı*

Afaq ilə Ayaz kəndə günortadan xeyli keçmiş Ayazın təptəzə, ağappaq "Jiqulisində" ancaq gəlib yetişdilər. Vəng dağı, onları gözlənilməz bir təbəssümlə qarşıladı. Bu axşam dünənkinə heç oxşamırdı, yay sonunun isti, günəş-

li, nadir günlərindən biriydi. İki gün əvvəl yağan yağışın palçığı hələ də qurumamışdı. Maşın öz-özünə, yolu tanıyırmış kimi gəlib Radio meydanında düz poçtun qabağında dayandı. Ayaz üstünə ləkə-ləkə təp-təzə palçıq yapışmış və bəyazlığını unutmuş maşına təəssüflə, hayıfla baxdı, gizli ah-zarla köks ötürdü. Bu iki gəlmə adam kənardan baxanların maraqlı baxışları altında F.Q.-nin, təxminən, üç ay bundan əvvəl getdiyi marşrutla yavaş-yavaş gəlib kənd sovetinə (məktəbə az qala bitişik binaya) çatdılar. Dəhliz boş idi, ora-bura boylanıb gördülər ki, o başda bir qoca arvad otaqların birinin qarşısında durub açıq qapıdan içəriyə nəsə deyir. Bu, Tükəz qarı idi. Əlində süpürgə Mübariz kişinin otağından çıxıb qonaqları görən kimi tələsdi:

– Mən Həqiqətə özüm də söylərəm. Amma sən də söylə. Sən Allahın, qoy gəlsin. Mən təkcənə yola verə bilmərəm.

– Yaxşı, söylərəm, – içəridən cod bir kişi səsi gəldi – Mübariz kişinin səsi idi. – Söylərəm, nolar?! Çayı, qəndi mən özüm... səhər tezdən özüm çatdıracam. Keçin, gəlin, gəlin...

Mübariz kişi Tükəz qarının arxasından içəri boylanan bu iki nəfərin yerli olmadığını o dəqiqə təxmin etdi. Tükəz qarı kənara çəkilib yol verdi, çıxıb getdi. Afaq və Ayaz otağa daxil oldular. Mübariz kişi ayağa qalxıb onlara oturmaq üçün yer göstərdi və gizli bir diqqətlə bu qəşəng (amma qəşəngdən çox yaraşıqlı), üzündən-gözündən şəhərlilik tökülən cavan qadına, onun yanındakı cavan (təxminən F.Q. yaşlı), amma artıq başının keçəli (quş yuvası) görünməyə başlayan Ayaza "nişanlıdılar, ər-arvaddılar, nədilər?!" baxa-baxa qaldı, amma bir şey danışmadı. İlk sözü adəti üzrə onlardan gözlədi. İlk söz isə belə bir mənasız sual oldu:

– Olar? – Bunu Ayaz soruşdu və bic-bic qımışdı, sualın mənasızlığını isə özü də başa düşdü, çünki onlar artıq otağın içində idilər. Qadın da çox yaraşıqlı bir təbəssümlə gülümsədi, isti baxışları ilə Mübariz kişini süzməyə başladı: "Nə qəribə burnu var bunun..."

– Olar, olar, niyə olmasın?! Buyurun, əyləşin. Ayaq üstə qalma, bala, əyləş. – Mübariz kişi üzündə təbəssüm qonaqlara, xüsusilə, Afaqa canfəşanlıq edə-edə yer göstərdi, özü də öz yerinə oturdu. Dəsmal çıxarıb, üzünün tərini silməyə başladı, ilk fikri burnunu gizlətmək idi.

Bu uzunburun, miləmil qalın pencək (həm mövsüm üçün deyildi, həm də əyninə bir az böyükdü) geymiş "müdir" ilk baxışdaca Afaqın xoşuna gəldi "məzəli kişidi, məzəli burnu var, özü də, deyəsən, bizi görüb çaşıb" ("şəhərli-kəndli" oyunu Afaqın xoşuna gəlirdi). Afaq sakit-sakit oturub "məzəli" kişinin ora-bura qaçaraq qalmış və heç cür rahatlıq tapa bilməyən gözlərinə (nabələd adama elə gələ bilərdi ki, Mübariz kişinin gözləri çəpdi) – gah sağ, gah sol gözünə təbəssüm göndərə-göndərə ürəyindən keçənləri şux bir əda və eyni zamanda ehtiyatla o təbəssümə köçürürdü.

– Uzaqdan gələnə oxşayırsınız, xeyirdi, inşallah?! – Özünü bir balaca itirən kimi olan Mübariz kişi, nəhayət, Ayaza üz tutub (amma bir gözü hələ də Afaqda idi) soruşdu.

– Şəhərdən gəlirik... "Yəni, Bakıdan, paytaxtdan – biləsən. Onsuz da bilirsən".

Ayaz üzbəüz stula oturdu. Afaq kənarda, pəncərəyə yaxın yerdə stula keçib əyləşdi. Buradan küçə də görünürdü, küçə boyu meydanın o başında maşınlar da görünürdü. Onun diqqətini binanın qabağında çexollu tənha maşın çəkdi, "bu brezent altındakı maşın..." Gələnə-gedənə baxa-baxa Afaq ürəyində oyanan isti, eyni zamanda əzici bir ləzzət hissini (əslində, ehtirası) boğmağa çalışır, onun böyüməsinə yol verməq istəmirdi, F.Q. ilə görüşün bir azdan vüsala çevriləcək xoş intizarını (!) əvvəlcədən yaşayırdı. "Darıxıb, darıxmayıb?! Üzünə-gözünə baxan kimi biləcəm. Üç ay, üç aydı... Məni görürsən?! Ürəyim elə vurur, elə vurur, elə bil, on səkkiz yaşım var". Afaq belə düşünə-düşünə F.Q.-ni, onun uca boyunu, enli kürəklərini, qaba, qalın barmaqlarını, güclü qollarını və, nəhayət, yaraşıqlı, amma həmişəki kimi narazı sifətini ("nədən, niyə?") yada salıb gözləri önünə gətirdi. Fikri F.Q.-nin yanında ola-ola Afaq gülümsəməyindən də qalmırdı. Üzündə xoş bir təbəssüm tez-tez başını döndərib dibində alov gizlənmiş gözlərini Mübariz kişiyə dikirdi: "darıxıb, darıxmayıb – sən bilmirsən?!"

Mübariz kişi çoxdandı bu cür yaraşıqlı qız (gəlin?) görməmişdi. "Bu məndən nəsə soruşmaq istir, soruşmur. Kimə, kimə bənzəyir?! Kiməsə bənzəyir, amma mən xatırlaya bilmirəm..."

Riyakarlıq lazım deyil, yaxşı xatırlayırdı. Tez-tez xatırlayırdı. Amma heç istəməzdi ki, bu, Bəhramın ölümündən sonra belə tez baş versin. İndi də Mübariz kişinin yadına Gülsüm gəlib düşməmişdimi, bəli, gülümsər Gülsüm gəlib düşdü ("Bu saat, bu dəqiqə görəsən Gülsüm də məni xatırlayırmı?"), ürəyi bərk sıxıldı. Bu şəhərli qız niyə belə irişib durub?! Bu qızmı bais oldu? Gülsümü onun yadına unudulmuş, huşsuz illərin boşluğundan sıyırıb dodağı təbəssümlü (gülüşünü güclə saxlayan) bu şəhərli qızmı saldı, bu qız saldı.

... Kəhrizli arxın körpüsündən keçən yerdə:

– Bax oradı. Yastı-yapalaq ev var ha, oradı. Adına Çoban papağı deyirik. – Əlini Vəng dağına tərəf uzadıb Mübariz kişi Çoban papağını nişan verdi. – Vəngin lap ətəyindədi, arxasını dağa söykədiyindən papağa oxşayır. Ona görə Çoban papağı deyirik. Oxşayırmı? (Mübariz kişi "Çoban papağı" adını kimin "icad" etdiyini yaxşı xatırlasa da bu barədə heç nə demədi. "Belə adlar müəllifsiz olur. F.Q. bir şey itirməz")

Həyətə qədər ayağını çəkə-çəkə gələn Mübariz kişi yol boyu dil boğaza qoymadı, elə hey uzun-uzadı danışdı. Ordan-burdan... yaxından, uzaqdan... Çiçəkli yazıdan, Professordan, F.Q.-dən... F.Q.-nin qaldığı evin sahibi haqda isə ayağının altına diqqət edə-edə Kəhrizli körpüdən keçərkən Gülsümgilin evinə ötəri nəzər salıb iki kəlmə söz dedi və addımlarını yeyinlətdi:

– Dünən basdırdıq...

Afaq həyət qapısını açmağa gəlmiş F.Q.-nin təhər-tövründən vəziyyəti o dəqiqə anladı. Üzdə bildirməsə də, əslində, halı çox pərişan, çox dağınıqdı. Ondan yaxşı F.Q.-ni heç kim tanımırdı. F.Q., elə bil, üç ay bundan əvvəl Afaqdan ayrılmamışdı, dünən ayrılmışdı. Afaq tərəddüd içində idi: "bu niyə belə edir, nolub buna?! Özünü Ayazın, bu kişinin yanında belə biganə göstərir, yoxsa, həqiqətən, kişinin ölümü buna bu cür təsir edib?! Kəlmə kəsmək istəmir ki bu. Adamın üzünə belə baxmır. Heç darıxana oxşamır, heç... Hələ bir dayan..."

– Gəldiniz?! – F.Q. salamsız-kalamsız yalnız bunu (özü də dilucu) dedi. Sonra isə heç nə olmamış kimi arxasını çevirib evə tərəf getdi. Ayaz təəccüblə Afaqın üzünə baxdı, Afaq Ayazın. "Gəldiniz" sual idi, sual deyildi, bilinmədi.

Qız çiynini çəkdi, xətrinə dəymişdi: "gəldik də, görmürsən, bu nə cür adam qarşılamaqdı?!"

Qəribəsi o idi ki, Mübariz kişi Bəhramı basdırandan sonra dönüb bir başqa Mübariz kişi olmuşdu. F.Q.-nin yanında az dinib az danışırdı. Həyətə girən kimi yenə oldu lal-dinməz. Bu günkü Mübariz kişi bir qədər sonra F.Q.-ni hələ yenə təəccübləndirəcəkdi, amma xoşuna gəldi, bəlkə də Mübariz kişini tanıyalı, iki gün idi ki, o, artıq-əskik danışa-danışa F.Q.-ni qıcıqlandırmırdı.

F.Q. həyat qapısından evin artırmasına qədər gəldiyində məqamı açıq başla dəyərləndirmək istədi: "əgər mən Çiçəkli yazını indi, çatan kimi bunlara oxusam (yüz faiz əl çəkməyəcəklər, onsuz da oxudacaqlar, dinib-danışmamaları buna ən yaxşı işarətdir), əgər indi mətni oxusam, bəlkə də bu pis olmaz, Mübariz kişi də əldən çıxmış sayılar. Ona yazını oxumasam ayıb edərəm. Nə vaxtsa, əvvəl-axır oxumalıyam. Heç olmasa Bəhram dayının xətrinə, ruhu şad olar. O biri tərəfdən..."

... Əvvəlcə bu gələnlər F.Q.-nin arxasınca gedib evə girdilər. Afaq incikliyini birtəhər ört-bastır edib gizlətdi, şux bir baxışla orda-burdakı səliqəsizliyə nəzər salıb, "aydındı", əlindəki torba paketləri (üstündə o dövrün matahı sayılan "Malboro" yazılı qırmızı paketlər idi) aparıb yaşılkərpic sobanın yanında yerə qoydu. Ayaz da əlindəki çantanı ora buraxdı. Sonra evdən, "evin içində nə var?!", həyətə çıxdılar. Qarağacın altına çox incə, çox nazik xalıyabənzər bir kölgə düşmüşdü. Günəşin batan vaxtı idi, Vəng dağının arxasına keçən vaxtı. Ürəyə yavaş-yavaş qəmli bir axşamın niskili çökürdü.

... Heç evə girmədilər. Əllərindəkiləri (qırmızı paketləri və balaca çamadanı) artırmaya buraxıb "buralar nə gözəlmiş, ay Allah..." Afaq Qarağacın altına tələsdi. Zehnindəki, əynindəki şəhər ab-havasını başındakı yüngül zərif yaylıq kimi göyə uçurdu. Həyətin hər guşəsini acgözlüklə sağa-sola baxıb gözdən keçirməyə başladı, bu alma ağacları, bu arı pətəkləri, bu da dağa qalxan cığır... sinəsi dolu nəfəs aldı. Alma ətri həyəti başına götürmüşdü, ətrafda arılar belədən elə, elədən belə, vızıltıyla uçuşurdu. "Ay... ay... ay..." Afaq əl-qol atdı, arıları qovmağa çalışdı, F.Q. "etmə-eləmə" qışqırmaq istədi. Amma ehtiyac olmadı. O, sidq-ürəklə təəccüb etdi ki, arılar "quzu kimi" uçub

getdilər, bircəciyi də zəhrimar zəliyə dönüb Afaqa arasıkəsilməz hücumlar etmədi (bu əl-qolu "arıların dostu", o özü atsaydı, vay idi halına).

Qarağacın altı qəribə də olsa ("budaqlar, yarpaqlar hara itdi?") gün işığı ilə dolu idi, Günəş Vəng dağının arxasına, yanpörtü keçirdi. Afaq gözünü yumub başını geri atdı, üzünü günəşin şüalarına tutdu, boya-boy bir andaca işıqlandı (nurlandı), elə bil, bütün vücudu havada əriyən kimi oldu. Afaq günəşin qürub vaxtındakı son şüalarını nə olursa-olsun tutub saxlamaq, ürəyinə, canına yığmaq istədi, qəlbi sevinclə vurdu. Üz-gözündə aşkar bir məmnunluq ev sahibi hərdən əlini atıb ağ saqqalını tumarlaya-tumarlaya (başında alabəzək özbək araxçını vardı) samovarla əlləşməyində idi. Onları (Afaqı, Ayazı) bura gətirən Mübariz kişi isə onun yanındakı kətilə oturub (günəşin son şüaları onun da təpəsini yalayıb keçirdi) yerini rahatladı. Bilinmirdi kim kimi – Ayazmı Mübariz kişini, yainki Mübariz kişimi Ayazı əldən salıb. Dil və Təfəkkür İnstitutunun başda Professor olmaq şərtilə bir xeyli əməkdaşı barədə bir-birinin az qala sözünü kəsə-kəsə davam edən söhbətləri bitib qurtarmaq bilmirdi (bitib qurtarmaq bilirdimi, bilmirdi).

– ... Cəfər, Cəfər müəllim... Hayıf ondan. – Samovarın yanına gələn Ayaz başını yırğaladı.

– Hayıf, səd hayıf. Kəndə gələndə bir gecə bizdə də qaldı. Arif adamdı, yaxşı əl qabiliyyəti vardı. Mənə göstərmişdi, çəkdiyi şəkildə Çiçəkli yazıdakı çiçəkləri eynən olduğu kimi oxşatmışdı, hayıf...

... Bəhram kişi ( ev yiyəsi, başına araxçın qoymuşdu, saqqalı isə bu dəfə yox idi, üzünü çoxdan qırxmamışdı, üzündəki tük eləcə uzaqdan ağ saqqala oxşayırdı) samovarın dudkeşini yerinə oturdub, tüstüsünə diqqət etdi, əllərini bir əski ilə (çay dəsmalı idi) silə-silə şux və nikbin bir səslə onları hayladı:

– Ay uşaq, hələ bir deyin görüm, çayı burda içirsiz, evdə?

– Oxunmur, bu zalım yazı oxunmur ki, oxunmur, mən nə edə bilərəm?.. – F.Q. təqsirkar uşaqlar kimi pıçıltıyla (səsini qısıb) bir kənarda (Qarağacın altında) Afaqa hesabat verirdi. Bəhram kişi o tərəfdən bunlara baxıb başını buladı.

– Burda, burda içək, Bəhram müəllim, əlbəttə, burda. Buranın havası... havası... – Rəngi-rufu və kefi açılmış Ayaz sağa-sola dil boğaza qoymurdu.

... Səssiz-səmirsiz evə keçdilər. Ayaz üz-gözünü turşudub əlindəki əşyaları (qırmızı rəngli, üstü "Malboro" yazılı torbaları, balaca çemodanı və qadın çantasını) əyilib yaşılkərpic sobanın bir tərəfinə yığdı, belini dikəldib dərindən nəfəs aldı, "bu boyda yolu ki, mən bunları daşıdım...":

– Maşınla buracan gələ bilsəydik... Sən harada saxlamısan, deyirəm, maşın nəsə gözümə dəymədi.

– Mübariz müəllimin idarəsinin qabağındadı, üstü brezentlə örtülüb.

– Aha...

– "Aha..."

Sobadan istilik hələ ki gəlmirdi, istilik ya, ümumiyyətlə, yox idi, ya da ki, çox, çox dərində idi. F.Q. evin küncündə su dolu vedrələrin yanından üç odun parçası götürüb sobanın ağzından içəri soxdu, oradakı zəif közərtisi gələn, artıq kömürə dönmüş parçaları döyəclədi, köhnə közü təzə taxtaların üstünə dağıtdı, qərəz...

– Bayır soyuq olar, axşamdı, bir azdan ayazlayacaq. – Öz xəyalında olan Mübariz kişi fikirli-fikirli dilləndi. – Buralarda yay tez bitir.

F.Q. birdən ayıldı ki, qonaqlar ayaq üstə qalıblar. "Deyəsən yaxşı alınmadı". Qonağı belə qarşılamazlar. Hər necə olsa da o indi ev yiyəsi əvəzidi...

– Mən çayla məşqul olum, yol gəlmisiz... Mübariz müəllim əyləşin, siz də keçin, Afaq, bura keç... – Gec də olsa F.Q. dil-ağız elədi.

Hərə bir yer tapıb oturdu, Afaq özünə yenə də pəncərə ilə üzbəüz (adətən F.Q. oturan) yeri seçdi. Ortadakı mizin üstü tər-təmiz idi, bir kənarına isə altında kitab-dəftər olduğu bilinən ağ süfrə çəkilmişdi. "Tanış mənzərədi, nəyi varsa yenə gizlədir, (amma nəyi?) Allah eləsin, təki uğurlu olsun, oxunsun aləmi bir-birinə qatmış bu... yazı." – Afaq qaşlarını düyünlədi.

F.Q. parçla sobanın böyründəki vedrədən su alıb çaydana tökdü ("hardasan, ay Bəhram dayı?!"), sonra onu sobanın dəmir üzlüyünün üstünə qoydu. Dəmir bir balaca istilik yığmışdı deyin, çaydan dəyincə cızıldadı.

– Qaz yoxdu, amma darıxmayın, soba indi qızacaq.

– Bu kişi, deyirəm, Bəhram kişi... nədən bu belə oldu? – Ayaz elə-belə, söz demək xətrinə soruşdu. Səsindəki biganəliyi isə, təəssüf ki, ört-basdır edə bilmədi.

Ortalığa namünasib bir sükut çökdü. Nə Mübariz kişi, nə də F.Q. bu mövzunu açmaq, xüsusilə də xırdalamaq istəmirdi. F.Q. çaydanı dəmirin üstündən ordan götürüb bura qoydu. Stəkanları divara asılmış dolabdan bir-bir çıxardı, təmiz olsalar da yenə onları dəsmal ilə ciddi-cəhdlə silməyə başladı. Bu namünasibliyi hiss edən Mübariz kişi handan-hana ortalığa çökən sükutu pozmaq, Ayazın laübali sualına cavab vermək üçün:

– Xəstəydi... – yavaşdan dedi.

– Şəhərdə nə var, nə yox? – Söhbətin bu yönə dəyişməyindən ürəyi qısılan F.Q. Mübariz kişinin sözünü mülayimcə (bir qədər kobud şəkildə) kəsdi.

– Heç... Gördüyün şəhərdi... – Ayaz bir şey anlamadı, ona-buna baxdı: "nə oldu ki?!"

– ... Xəstələndi. – Mübariz kişi, elə bil, bu dəfə özü-özü ilə söhbət edirmiş kimi təkrar etdi. Hamı susdu. Mübariz kişinin səsi ilk dəfə idi, bu cür gözəl, bu cür həlim gəldi. ... Havadan, zilzilədən. Birdən, qəfildən. Alnındakı yazısı beləymiş, bura qədərmiş. – Mübariz kişi başını qaldırıb əvvəlcə Ayazın, sonra Afaqın üzünə naçar-naçar baxdı. – Yaxşı adamıydı, həmyaş idik, dostuyduq. Allah ona rəhmət eləsin.

– Allah rəhmət eləsin, – Ayaz üzdə məyus, amma yenə də etinasız bir şəkildə təkrar elədi.

– "Allah rəhmət eləsin", – Afaq başını tərpətdi.

Əsəbiləşməyə başlayan F.Q., (nəydisə ürəyini məngənə kimi sıxırdı) bu sözlərə bu adamların yanında, xüsusilə, Ayazın yanında qulaq asmaq heç istəmirdi, qapını açıb artırmaya çıxdı. Mübariz kişi onun dalınca baxdı: " Ax, Bəhram, Bəhram, hamını çaşdırıb qoymadınmı, elə qoydun..."

Afaq ora-bura nəzər yetirib gözlərilə guya nə isə axtardı, sobanın bir güncündəki qəhvədanı götürdü, "bunun suyunu dəyişmək lazımdır", o da eşiyə çıxdı. F.Q. əli ilə artırmanın sürahisindən tutub dayanmışdı. Afaq arxadan ona sarıldı:

– Salam, – nəvazişlə başını onun geniş kürəyinə dayayıb zərif-zərif dilləndi.

– Salam... – Afaqın incə qoxusunu alan F.Q. eyni nəvazişlə cavab verdi.

Sərtliyi bir anda uçub gedən F.Q. içərini, namünasib söhbəti, Bəhram kişini, Afaqın xəstəliyini, hər şeyi, hər şeyi, hər şeyi unutdu, ürəyi çırpındı, qəfildən, sərt bir hərəkətlə geri çevrilib, Afaqın başını hər iki əli ilə bərk-bərk sıxıb gözlərinin içinə diqqətlə baxdı ("bilirsənmi, de ki bilirsən, de, de..." – "əlbəttə, əlbəttə bilirəm, sənsiz heçəm mən, bilməz olarammı?"), saçlarını qarışdırdı, bu saç qarışmasını ancaq ikisi başa düşürdü. Afaq belədə başını qaçırmağa çalışır, F.Q. isə onun başını tutub alışıb-yanan dodaqları ilə onun dodaqlarını axtarırdı, axtarırdı, guya tapmırdı, nəhayət, tapdı, qızın yarıyumulu, şəhvətlə süzülən gözlərini, üzünü, ona uzanmış ehtiraslı dodaqlarını əvvəlcə aram-aram, sonra tez-tez, hətta dişləyə-dişləyə önməyə başladı. Dodağı dodağına dəyən kimi yenə geri çəkildi, dodaq dodaqdan qaçdı, bir dəfə, iki dəfə... sonra birdən "yavaş, yavaş, neynirsən, ayıbdı..." pıçıldaya-pıçıldaya titrəyən bədənini ona bir az da bərk qısdıran Afaqın açıq qalmış ağzına illər boyu suya həsrət səhra yolçuları kimi dodaqları ilə yapışmadımı, yapışdı və ağzında həmin tanış, doğma rayihəni bir daha (yenidən) hiss etdi.

– "Bilirsənmi?"

– "Bilirəm!"

### *Çiçəkli yazı. Mübariz kişi lal-dinməz.*
### *Uzaqdan Bozların səsi*

...Çaylarını içib qurtarandan sonra bir az daha birlikdə oturdular, ordan-burdan söhbət etdilər və Mübariz kişi birdən ağlına nə gəldisə, əlini dizinə tutub ayağa qalxdı:

– Mən gedim. Qonaqlardan mənimlə gedən varsa... – sual dolu baxışlarını F.Q.-yə dikdi. Ayaz da F.Q.-yə baxdı.

– Yox, burda birtəhər yerləşərik. Bir gecədi, nədi ki?! Sağ ol.

– Bax gör... – Mübariz kişi sağollaşdı. – Sağ olun. Sabah tezdən gələcəyəm. Görüşərik. Sabah yox, biri gün rəhmətliyin üçüdü. Yaxşı oldu, siz də İnstitut adından gəlmiş sayılırsız.

F.Q. dinmədi. Qonaqlar dinməz-söyləməz qalxdılar. Mübariz kişi, fikri dağınıqdı, tərəddüd içində bir daha "di gecəniz xeyrə" deyib qapıdan dönüb çıxan yerdə ayaq saxladı. Sonra "eh..." əlini qapıya atdı. Bu zaman F.Q. bir an içində guya nə isə xatırlayaraq: "bu işi bitirmək lazımdı", qəti fikrə gəldi, arxadan Mübariz kişini səslədi, getməyə qoymadı:

– Mübariz müəllim, ləngiyə bilməzsən?

Mübariz kişi, bu haya bənd idi, elə bil, əmin idi ki, F.Q. onu səsləyəcək, heç nə soruşmadan tez qayıdıb sakitcə öz yerinə oturdu. F.Q. Afaqa və Ayaza üz tutub dedi:

– Siz də. Siz də gözləyin. Bir dəqiqə. İndi.

F.Q. Afaqı bir tərəfə çəkib (çiyni üstündən birtəhər əyilib) yazı masasının bir küncündəki süfrəni qaldırdı, altından bir dəftər əllərilə axtarıb tapdı, sonra dikələrək yaşılkərpic sobanın yanına keçib ovçu qarşısında hədəf misalı dayandı. Hamı belə başa düşdü: F.Q. nəsə çox vacib bir şey söyləyəcək. Ayaz tez öz yerinə oturdu, yerini rahatlayıb Afaq kimi o da maraq və həvəslə dinləməyə hazırlaşdı. Ortaya qısa bir sükut çökdü.

– Nəhayət, bu iş bitdi. Oxudum. – Əli ilə saçlarını ora-bura qarışdırıb F.Q. bu qısa sükutdan sonra boğuq səslə dilləndi. Səsində isə zərrə qədər sevinc yox idi.

Yenə sükut.

– Oxudum, deyirəm. Çiçəkli yazını... oxudum.

– Baho!.. Ay səni, sağolmuş, ay səni... – Donub qalmış Ayaza məsələ indi çatdı, o qışqırıb sevincək ayağa sıçradı, ona-buna baxdı, zorla F.Q.-nin orasını-burasını əzişdirib qucaqlamağa başladı. Afaqın gözləri güldü. Ürəyindəki ağırlıq yox olub getdi, amma yox, tam getmədi, az da olsa təşviş qaldı. F.Q.-nin həyacanlı əhvalı ona da keçmişdi. Mübariz kişi – məyus və laldinməz.

– Nə zaman? – Afaq, nəhayət, F.Q.-nin baxışını tutdu. – Niyə xəbər eləməmisən? Təbrik, təbrik!.. "Bu, elə bil, matəm xəbəri verir, belə niyə?"

– Sən... sən heç bilirsən, neyləmisən? Sənə heykəl qoyacaqlar, canım üçün qoyacaqlar ("canım" sözünün son səsi bilinmədi "m"di, yoxsa "n"-di). – Ayaz zarafatla Afaqa göz vurub sifətində elə sifəti boyda yekə bir sevinc

Mübariz kişiyə gözlərini zillədi: "Siz bilirdiz? Gördün, bax, belə!" Mübariz kişi isə – yenə də lal və yenə də dinməz... Əslində, həyəcanını gizlətmək üçün o heç kimin üzünə baxmırdı, şalvarının cibindən miləmil (pencəyi rəngdə) bir dəsmal çıxarıb tərləmiş boğazını sildi, sonra dəsmalı dizinin üstünə qoydu.

Qızğın təbriklər davam edirdi. Bircə çəpik çalmırdılar. (Bəhram kişi bu yerdə belə deyərdi: " çəpən getmirlər").

– Gizli-gizli işlər görürsən... – Afaqın gözlərində nazlı bir eyham vardı.

– Sən bir buna baxırsan? Görürsən bunu, Afaq?! Gör bir necə sakitdir?! Nə vaxt olub bu? Nə zaman oxudun? Bəs niyə heç kimə xəbər verməmisən? Sürpriz!! Əsl sürprizdi. Professor, bilirsən, necə sevinəcək?! Sən onu qaldırdın, hamının yanında onu ucaltdın, onu. İnstitutun şərəfini qorudun, F.Q., anlayırsan?.. – Ayaz yenə coşmuşdu, nədənsə bütün sözlərini üzünü Afaqa tutub deyirdi.

Əməlli-başlı qürur hissi keçirən Afaq isə rahatlıqla köks ötürüb baxışlarını sakitcə döndərib dikdi pəncərədən o tərəfdəki qaranlıq boşluğa. Gözünü qıyıb eləcə baxırdı, oralarda bir şey seçməyə çalışmırdı:

– Nədi, nə yazırlar qədim əcdadlarımız? Ağılllı bir şey yazırlar? – Pəncərədən bayıra baxmağına davam edə-edə Afaq soruşdu. O, Ayazın kortəbii sevincini heç cür bölüşə bilmirdi, indi isə özü də anlamadı ki, bu nə qəfil kədərdi, gəldi girdi səsindəki şuxluğun içinə. Başı da, elə bil, birdən-birə ağırlaşdı, deyəsən, vaxtdı, ağrıyacaq.

Ürəyində nə isə qət etmiş adamlar kimi F.Q. Afaqa cavab vermədi, üzünü Mübariz kişiyə tutdu:

– Sırağagün bu vaxt idi, sən gedəndən sonra bu iş axır ki, bitdi. İlk dəfə onun üçün oxudum. Sevindi.

Ürəyi param-parça olan Mübariz kişi: "bilirəm, bilirəm..." hiss elədi ki, indi qəhər onu boğacaq, gözləri yaşaracaq, guya boğazını arıtladı, dəsmalı ilə yenə boğazını sildi (bu dəfə tər yox idi), yenə heç kimin üzünə baxmadı, gözünü dikdi yerə, daha bir söz danışmadı. F.Q. onun halını başa düşürdü. Odur ki, bu dəfə (ilk dəfə) Mübariz kişiyə qəribə (gecikmiş?) bir məhrəmliklə baxdı.

– Çiçəkli yazı... Qorxuram sizin gözlədiyiniz bu yazıda olmasın. – Yalançı bir şuxluqla F.Q. üzünü Ayaza tutdu.

– Necə yəni?! – Ayaz heç nə anlamadı.

Afaqın isə səbri tükəndi:

– Hələ bir oxu, oxu görək nə deyir sənin bu Çiçəkli yazın. Neçə vaxtdı artıq. Üzüldük. Tükəndi səbrimiz. Çiçəkli yazı, Çiçəkli yazı...

F.Q. başını yelləyib ,"eh", əlindəki dəftəri açdı, lazım olan səhifəni varaqlayıb tapdı, dərindən nəfəs aldı. Otaqdakılar bundan sonra yerlərində dəbərməyə də cəsarət etmədilər. Sükut elə bir sükut idi ki, qulaq deşirdi. Bu dəfə otaq böyümədi, divar aradan götürülmədi, bir kənar adam gəlib bura çıxmadı (bəlkə də ilk, bakirə, məsum oxunuş deyildi – ondan). Otaqda F.Q.-dən başqa necə ki, üç nəfər vardı (Afaq, Ayaz, Mübariz kişi), eləcə də o üç nəfər qaldı. F.Q.-nin səsi, heç kim yox, yalnız Afaq anlayacaq qədər kədərli idi, Afaq bu səsi, bu səsin hər titrəyişini yaxşı tanıyırdı, Afaq bilirdi ki, F.Q.-nin qəlbi bu saat nələr çəkir, necə üzülür, çırpınır, heç cür rahatlıq tapa bilmir. Günahımı vardı, nə etdi, bu, neylədi?! Heç nə, burda, iki daşın arasında nə edə bilərdi ki?! Yox. Yox. Günah məsələsi deyil. Amma niyə, nə üçün, səbəb?! Nəhayət, qətiyyətlə F.Q. sükutu pozdu:

– Çiçəkli yazı budu, – dedi, – qulaq asın:

"Qarağacın kölgəsi hər yanı tutdu.
Amma sən kölgənin altında yoxsan.
Sən yoxsan.
Qarağac səni unutdu.
Sən Qarağacı unutmadın.
Qarağac indi səni anır.
Qarağacın ürəyi deşilir.
Param-parça olur.
Göy də, yer də sən deyir.
Qarağacın kölgəsi hər yana çatdı.
Sən yoxsan.
Qarağac səni unutdu.
Xatırlamağa kimsə yox.

Unutmağa da kimsə yox.
Qarağac səni unutdu.
Yerin ürəyində taxtını qurdun.
Qarağacı ürəyində saxladın.
Qarağac səni unutdu.
Qarağacın kölgəsi səni anır".

– Bu nədi?? Teleqrafdı? – F.Q. sözünü bitirər-bitirməz (bir başqa dünyada isə – araya çökmüş uzun və müdhiş sükutdan sonra) Ayaz hiddətlə (bəlkə – zarafatla?) və həm də çaşqın bir halda yenə də nədənsə üzünü Afaqa tutub soruşdu.

Birdən-birə sustalıb yorğun düşən F.Q. susdu. Çiynindən, elə bil, ağır bir yük götürmüşdülər. Mübariz kişi hövr eləyən ürəyində əlindəki dəsmalın naxışlarını sayırdı. Qarışıq fikirlərlə dolu beyni artıq indicə eşitdiklərinin yanında deyil, sanki uçub Mağaranın qarşısındakı o işıqlı qaya parçasına zəncirlə pərçimlənmişdi. Artıq heç nə başına girmirdi: "Düz deyirdi, Bəhram, düz deyirdi, hamımızın həyatıdı, hamımızın həyatıdı bu..."

F.Q. əlindəki dəftərin ora-burasına baxdı: "Heç nə yaddan çıxmadı ki?! mətni tam oxudum, oxumadım?!" Yox, tam oxudu, unudulası bir şey qalmadı.

F.Q. dəftəri örtdü.

– Mənə su ver, – Afaq nə edəcəyini bilməyən, əzgin bir halda susub qalmış F.Q.-nin gözündəki (tanış ifadədi!) ona tuşlanmış suala çalışdı, şux bir tərzdə cavab verdi. – Dərman içəcəyəm.

– Nə dərman? – F.Q. bu "dərman" sözündən diksindi, bir andaca hər şey tar-mar oldu. O, hər şeyi – dünəni, sırağagünü, telefon zənglərini, hər şeyi yenidən xatırladı, hər şey yenidən beynində dirçəldi, belə deyək, yaddaşının "donu" açıldı. Afaqın anası, həkimlər, xəstəlik... Çaydandan stəkana su süzə-süzə:

– Sən nə zamandan dərman içirsən?.. – Afaq bir şey duymasın deyə ehtiyatla (və guya hiyləgərcəsinə) soruşdu.

– Bu zamandan... "Sonra... sonra... bu barədə sonra!" – Afaq nazlı bir baxışla cavab verdi.

Afaq balaca çantasını açıb ordan qırmızı qutuda dərman çıxardı, F.Q.-nin ona uzatdığı su dolu stəkanı aldı, dərmanı içdi. Sonra isə ciddi bir tərzdə:

– Yox, düz sözümdü, görünür, o zamanlarda da ağıllı adamlar var imiş... – dedi.

Bərk fikrə getmiş Ayaza, elə bil, od vurdular, indiyənə qədər susub qalmışdı, birdən, elə bil, ayıldı:

– Sən nə danışırsan, Afaq? Sən heç bilirsən, nə deyirsən?! Eh... – Hirsini tökdüyü Afaqa əməlli-başlı çımxıraraq üzünü yenə F.Q.-yə tutdu. – Dolamısan bizi, F.Q.? Bu qədər adamı? Çiçəkli yazı budu?

Halını pozmayan F.Q. Ayaza yenə də sakit-sakit:

– Budu. Dedim sənə, sən istədiyin yoxdu burda, – cavab verdi.

Ayaz heç özü də bilmirdi, kimin tərəfini saxlayır, indi o sadəcə, bərk gedən dalğanın üstü ilə üzürdü və heç cür sakitləşmək istəmirdi: "ah, vay, oy... bunun başı xarab olub, həqiqətən, xarab olub".

– Sənin, yəni, doğrudan, başın xarab olub?! Belə də tarix olar? Bəs sən deyildin deyən ki, ay nə bilim... – Ayaz söz tapmadı, – bağ belə, bostan belə... burda xalqın tarixi, özü də ən qədim dövrünün ən vacib məqamı qələmə alınıb?! Möhtəşəm Ahəng bəs noldu?! Bəs Patriarx bu yazını... o çayın adı nəydi?

– Stiks çayı, – F.Q. yavaşdan yada saldı.

– Hə, Stiks... Bəs Patriarx bunu Stiks çayına aparıb çıxarırdı?! Aslanzadə ağzı köpüklənə-köpüklənə Atilladan danışırdı?! Nə oldu?! Qarağac kimdi? Sən Allah, zarafat edirsən?

Ayazın axırıncı sualı suda batan adamın əlini son bir ümidlə saman çöpünə atması kimiydi. Adətən (F.Q. öz-özlüyündə bunu çox götür-qoy eləmişdi), adətən saman çöpü əgər ümid sidq-ürəkdən gəlirdisə, batan adamı su üzərinə çıxarır. İndi isə çıxarmadı.

– Qarağac kimdi? – Ayaz öz suallarından birini faciəli bir pıçıltıyla təkrar edib teatral poza aldı, elə bil, istəmirdi (qəribəydi, deyilmi?), onun bu məhvedici sualını F.Q.-dən başqa kimsə, xüsusilə, Mübariz kişi eşitsin. Ayaz güman edirdi ki, o indi F.Q.-ni kimdənsə (kimdən?) qoruyur.

– Mən nə bilim, Qarağac kimdi?! Yazıda belə yazılıb. Qarağac! Açar söz Qarağacdı! – Daha dözməyən F.Q. birdən partladı: "Mənim, mənim taxsırım nədi?!" Sonra güclə də olsa, özü özünü sakitləşdirdi: "Bunların taxsırı nədir?!".

Dərin bir kədər içində F.Q. Çiçəkli yazının bundan sonrakı acı taleyini bir anlıq gözü önünə gətirdi. "Hamı, hamı oxun daşa dəyməsini əlində bayraq edəcək. Bu ona bənzəyir ki, içindən gurultuyla asqırmaq gəlir, gəlir, sonunda zor-güc "həpçi" – pıçıltı – vəssalam!.. Çiçəkli yazı budu, Çiçəkli yazı ümidlərin puç olmasıdı, qədimliyin, eralardan əvvəlin, az qala meymuna qədərki əvvəlin daha bir sübutunun havada əriməsidi, Çiçəkli yazı ilğımdı. Hadisələrin üfüqüdü. Bəlkə də. "Bəlkə" varsa, deməli, cavab tam deyil. O zaman bir daha, bir az da dərinə gedək: ümumiyyətlə, yazı nədi? Çiçəkli, çiçəksiz, qədim mixi, şumer, pəhləvi, qədim finikiya yazısı... İdeoqramlar, piktoqramlar, bütün bu müxtəlif işarələr nədi və nəyə xidmət edir? Mürəkkəbliyəmi? Buradakı mürəkkəblik ilk baxışda belədir. Yazı, əslində, çox sadədi, sadədən də sadədi, iki üstəgəl iki – eləyir dörddü (F.Q. yazının halına acıdı). Nəhayət, yazı yaddaşa qarşı üsyandı. Qalib gələn qiyam! Uğur qazanan üsyan! Yaddaşın qocalması, zəif düşməsi, heysizləşməsidi. Yazı budu. Yazı sən gözlədiyin döyüşlər, padşahların həyatı, xəzinələrin sirri, nə bilim, daha nələr, daha nələr olmaya bilər. Yazı bir sevgi məktubu, məhəbbət etirafı ola bilər. Bəhram dayı düz dedi: əsl tarix elə budur, başqa bir şey deyil. Ayaz bunu hardan başa düşəcək?!" – F.Q. təəssüflə dostunun üzünə baxdı.

Ayazın iztirab dolu səsi uzaqdan gəldi:

– Avaranın biri götürüb ölmüş arvadının qəbrinin başdaşına (?), olsun mağaranın divarına, – Ayaz özünü düzəltdi, – ağlına gələni yazıb, sən də durub bunu bizə oxuyursan? Afərin...

– Bəs neyləyim, başqa şey oxuyum? – Bu dəfə F.Q.-nin (bunun özü də bir az qəribə idi) nəinki hirslənmək, təəccüblənmək belə içindən gəlmədi.

– Professora nə cavab verəcəksən? Onu düşün! Adamlara nə deyəcəksən? Onu söylə! Kişi dəli olacaq.

Sonadək anlamadığı, bəlkə də anlamaq istəmədiyi bu söz-söhbətdən, bitib-tükənməz mübahisədən usanan Mübariz kişi, nəhayət, ayağa qalxdı:

– Mən gedim. Siz dincəlin. Ötürmə məni! – Üzünə baxmaya-baxmaya F.Q.-yə xeyli ciddi şəkildə, – sağ ol, – dedi.

Qonaqlar ayağa qalxmağa macal tapmadılar. Mübariz kişi artırmaya çıxdı. Ardınca F.Q. onun sözünə baxmadı, o da çıxdı. İçəridə əl-qol ata-ata

Ayaz Afaqa nəyisə sübut etməyə çalışırdı. Pəncərədən səssiz film qəhrəmanlarına (kuklalara) bənzəyirdilər.

Artırmada Mübariz kişi F.Q.-yə sarı çönüb gözlərindən üzünə axan qəfil və səssiz göz yaşlarına qəti məhəl qoymadan birdən:

– Sağ ol, – dedi. – Gəl bir sənin üzündən öpüm. Sağ ol, amma qayıt, qonaqları tək qoyma, qayıt...

Mübariz kişinin hələ də gözəl səsindən sərməst olan (bu səsi ilə o, F.Q.-yə Bəhram kişini xatırladırdı) F.Q. sözə qulaq asıb başını əydi, Mübariz kişi gözü elə yaşlı-yaşlı F.Q.-nin boynunu qucaqladı, hıçqırdı, üzünü üzünə sürtdü, üzündən öpdü, "Bəhram elə bunu gözləyirdi, bunu, bunu, buu..." sonra tələsik artırmadan enib burnunu və ayağını çəkə-çəkə həyət qapısına yönəldi.

Mübariz kişinin göz yaşlarının acı tamını dodaqlarında hiss edən F.Q. köksünü ötürüb içəri keçəndə (Afaq neyləmişdi?) Ayazın köpü əməlli-başlı yatmışdı. İsti sobanın qarşısında oturub fikirli-fikirli sobanın içində oynayan alov dillərinə gözünü zilləyib, öz dililə desək, "uymuşdu".

– Mənə bax e... – Ayaz hərdən özü-özü üçün hayıfsılana-hayıfsılana (amma artıq hirsdən, qəzəbdən uzaq) gileylənib mızıldanırdı. – İşimi-gücümü atmışam, bu qədər vaxt, bu qədər vaxt hamı, elə hamı işini-gücünü buraxıb bundan bir nəticə gözləyir, xalqın, millətin tarixindən yeni-yeni, şanlı səhifələr gözləyir... bu da sənə tarix, bu da sənə qədim türklər... Sən Allah, mənə baxırsan?!

Qulaqlarında hələ də Mübariz kişinin hüznlü səsi, F.Q. əlləri qoynunda sakit-sakit, (məlul-məlul?) oturmuş Afaqa ürkək bir nəzər saldı. Görəsən, bu nə fikirləşir?! F.Q., o özü Ayazı sakit edə bilərdi, çoxunu sakit edə bilərdi, amma Afaq... Afaq da Ayaz və Ayaz kimi onlarla, yüzlərlə yaxın gələcəkdə onu qəzəblə qarşılayan bədxah və süni millət qəhrəmanlarından biri olacaqdı, yoxsa Mübariz kişinin, Bəhram kişinin ("indi olmasın") yanında gəlib duracaqdı?! F.Q. bunu Afaqın baxışlarından oxumağa çalışdı, amma Afaqla heç cür göz-gözə gələ bilmədi, Afaq yenə gözünü həyətə, qaranlığa dikmiş, dərin bir fikir içində idi. F.Q. bilmirdi, amma məsələ bunda idi ki, Afaq indicə eşitdiyi Çiçəkli yazının əməlli-başlı cazibəsinə düşmüşdü (Afaq "ilişmişdi"). F.Q.

Çiçəkli yazının son sözlərini oxuyub qurtarandan sonra Afaq bu cazibəni isti-isti hələ hiss etməmişdi, indi isə birdən-birə (qaranlığa bu cür, arzu-kamla baxa-baxa) ona elə gəldi ki, o özü həmən mağaranın içindədi və ətrafı qatı qaranlıq bürüyüb. Bir yekə köpəkdi, mehriban, diqqətli, ciddi və hətta bir az qəmli gözləri var, onun dörd tərəfinə fırlana-fırlana, ayaqlarını qoxulaya-qoxulaya qalıb. Birdən mağaranın divarında bir işıq zolağı görünür, bu zolaq get-gedə aydın işarələr cərgəsinə çevrilir – bu işıq zolağı F.Q.-nin gecə-gündüz danışıb sayıqladığı Çiçəkli yazıdır. Çiçək ləçəkləri rəngbərəng çəmən çiçəklərinə bənzəyir. Özlərinin də eynən onlar kimi ətri gəlir. Üzü pəncərəyə dikilib qala-qala Mağaradan uzaqda olsa da bu balaca otaqda Afaq bu ətri əməlli-başlı duydu. Çiçəkli yazının qəlibləri (ləçəklərdəki boşluqlar) işıqla dolandan sonra mağaranın sağ küncündə (Bozların zəncirə vurulduğu küncdə) bir balaca qapı, tək adamın zor-güc keçə biləcəyi yer var və bu yerin cizgiləri yavaş-yavaş seçilməyə başlayır. Qapı aramla açılır. Yox, yox, belə olmur. Bu balaca qapı bərkdən cırtıldayıb elə açılır ki, hətta Afaq, burda, Çoban papağında otura-otura bu səsdən diksinir. Bütün bunlar səssiz, yaxud səsli halda baş verir. İçəridə bir hücrə (geniş sərdabə) görünür, hardansa mağaraya gəlib zəif bir işıq düşür və buralar az da olsa aydınlığa qərq olur, amma hara baxırsan eyzən hörümcək torudur. Hörümçək toru zamanın uzaqlığını, çox, çox uzaqlığını göstərmək üçün duman kimi hər tərəfə çöküb-dür. Hücrənin (sərdabənin) ortasında, quru yerdən saçı dağınıq bir qız uzanıb. Bu qız bir gözəl və gənc qızdır. Afaq əvvəl-əvvəl elə bildi ki, qız yatıb, çünki o qədər canlı idi. Sonra diqqət etdi, gördü ki, yox, yatmayıb, bu qız həqqən ölüb. Ya bu qız bu gün, bu saat ölüb, ya bu qız minlərlə il bundan əvvəl ölüb – fərq eləməz, üzündən bir cizgi, bir qırış belə yox olmayıb, yanaqlarının qırmızı rəngi də öz yerindədi. Sərdabədə qızın ayaq tərəfində, arxası mağaranın içinə, üzü qızın meyidinə bir yaşlı kişi çömbəlib oturub. Arxadan bu da canlıdan canlıya oxşayır. Əslində, çömbəlib oturmuş olsa da o cavan kişi də canlı deyildi. Amma yenə də aldadıcı dərəcədə canlı idi. Onların hər ikisi – qız da, cavan kişi də bir-birilə, elə bil, söhbətləşirlər. Həm də, elə bil, susublar. Kənardan (mağaranın içindən) baxana elə gələrdi ki, bu qoca kişinin (indi isə bu kişi artıq qoca idi) çiyinləri enib-qalxır və doyunca, bir qədər

əvvəl heydən düşənə qədər doyunca bu adam ağlayıb, ağlayıb, indi çətin də olsa, nəhayət ki, sakitləşib, amma çiyinləri hələ də qalxıb enməkdədir, heç cür sısqayıb hıçqırığını kəsə bilmir. Bu, artıq son hıçqırıqlardır, səssiz-səmirsiz...

Bir də... elə bil, bu adam gedib bütün vacib və vacib olmayan işlərini görüb qurtarıb, sonra isə buraya, hücrəyə (bəlkə də bu hücrəyə sərdabə demək daha doğru olardı), sərdabəyə yerdən uzadılmış və canlılar təkin gözəl, gənc olan bu qadının (qızın) yanına ölməyə gəlib. Qadın da ona "xoş gəldin" deyib. Afaqa elə gəldi ki, bu iki nəfər balaca uşaqlar misalı, bir-birilə "ölüm-ölüm" oyunu oynayırlar.

Afaq, nəfəsi az qala təngiyəcəkdi, gözlərini elə bir yumub açdı ki, sərdabə, qadın və kişinin cizgiləri (siluyetləri) yox olmağa, əriməyə başladı. Mağara da, Bozlar da həmçinin. Afaqın gözləri önündə ancaq pəncərədən o tərəfdəki qatı (zülmət) qaranlıq qaldı.

Uzaqda qurdmu uladı, köpəkmi hürdü – bu bilinmədi. Vəng dağından gələn səs bəlkə də köhnə inilti idi, məqamını hiss edib yuxudan ayılmış, dirilmişdi?! Səs mağaranın içindən deyil, mağaranın yanından gəlirdi. Gözlərində gizli təlaş Ayaz, Afaqa, Afaq F.Q.-yə baxdı. Biçarə F.Q. bu səsi tanıdı. Bu səs zəncirlərini qırıb mağaranı tərk etmiş Bozların səsi idi.

### *Bəhram kişinin vəfatından sonra.*
### *F.Q. Çoban papağında tək-tənha.*
### *Mahiyyəti bilmək bizim qismətimiz deyil*

Bəhram kişinin canı bədənindən (cismindən) ayrılandan bir az sonra F.Q. evdə işığı bir neçə dəfə yandırıb söndürdü, və o biri otağa – yaşılkərpic sobanın yanına keçdi, sakit görünsə də, əslində, daxilən xeyli çaşqın idi, fikrini cəmləyə bilmirdi və heç nə anlamırdı, bir günün içində xəstələnmək, rəhmətə getmək... bu, bir müəmma idi, o isə özü də bilmirdi, neyləsin. Pəncərədən o tərəf qəti görünmürdü. F.Q. tük basmış üzünü (daha doğrusu burnunu) pəncərənin soyuq, tərləmiş şüşəsinə dayadı. Əlbəttə ki, bir neçə gün qırxılmayan üzünü indi əməlli-başlı tük basmışdı, bir az da belə keçsəydi Bəhram kişinin saqqalına bənzər, ancaq qara rəngdə saqqal onun da üzünü tuta-

caqdı. F.Q. batıq gözlərini qıyıb həyətə xeyli diqqətlə nəzər yetirdikdən sonra zorla da olsa seçə bildi ki, bəli, yenə də artıq yağış yağmağa başlayıb. "Yenə də!" Damcılar pəncərə şüşəsinə əvvəl tək-tək, sonra isə tez-tez və aramsız dəydikcə F.Q.-nin üzündə tər damcıları peyda olurdu. Yağış damcıları pəncərənin o biri tərəfindən şüşəni get-gedə artan bir sürətlə döyəclədi. F.Q.-nin ürəyinin ahəngi bu sürətə uyğunlaşmadımı, uyğunlaşdı. Ürəyinə qatı bir qaranlıq çökdü, bəlkə də bu qaranlıq bircə dənə də olsun ulduzu görünməyən zülmət göylərin bir məşum parçası idi, yuxarılardan sürüşüb düz ürəyinə yıxılmışdı. Bədəni, başı ağırlaşmış, hərəkətləri süstləşmişdi, sümüklərinin içində iliyinəcən boşluq var idi. Amma o da vardı ki, bununla belə qəribə, onun özünə aydın olmayan bir rahatlıq da hardansa gəlib ruhuna hakim olurdu, canına isti qan kimi yayılırdı, ürəyindəki sərt qaranlığı yumşaldırdı. F.Q. dərindən köksünü ötürdü: "Sabah, olmasın sabah, olsun o biri gün, olsun bir həftə, bir ay sonra... hər şey dəyişəcək, hər şey unudulacaq. Unudulacaq? Əlbəttə, unudulacaq. Biz nə birinciyik, nə də sonuncu!" Həmişə olduğu kimi F.Q. bu anlaşılmaz rahatlığın peyda olmasının əsl (dərin, gizli) səbəbini aramağa çalışdı. Qəribəydi, özü də mat qaldı, çünki səbəb tezcə tapıldı. Bu, yağan yağışla bağlı idi. Bir daha diqqətlə bayıra, həyətə baxdı. Yağış bu gecə ağlına necə gəldi, hardan gəldi, bir də ən əsası, aşağıdan yuxarı yağmırdı. Möhtəşəm Ahəng, nəhayət ki, hər şeyi yerli yerinə düzmüşdü. Yağış bu gecə yuxarıdan aşağı yağırdı. F.Q. Bəhram kişi ilə gördükləri eyni yuxunu xatırladı. Göydən yerə, nə dəvə yağırdı, nə də şir yağırdı, yağış damlaları idi, sap-sap düzülmüşdülər bir-birinin ardına, az qala dərgahdan yol gəlirdilər, düz torpağın təkinə, Qarağacın min bir yerə gedib çıxan kökünə, rişələrinə qədər...

F.Q. kəndə gəldiyi birinci gün Mübariz kişi ilə bir yerdə Bəhram kişinin evinə gedərkən arx başında (Kəhrizli körpünün yanında) gördüyü, qabaqlarına bir qalaq çirkli qab-qaşıq yığıb yumağa hazırlaşan və bir-birinə söz atan, al-əlvan tuman geyinmiş, ayaqları çarıqlı iki küsülü qızcığaz gəlib durdu şüşəsi yaş pəncərənin düz qabağında. Bu qızcığazların indi ancaq dodaqları tərpənirdi, yenə bir-birinə hikkə ilə nəsə deyirdilər, onların üz-gözləri daha çox (və daha aydın) söz deyirdi, nəinki ağızları. F.Q. xatırlamağa çalışdı: bunların bir-birinə dedikləri nə idi?! O qədər də uzun zaman keçməmişdi, üç aya yaxın

bir zamandı F.Q. bu kəndə gələli, bundan əlavə, arabir bu qızcığazları (xüsusilə, Kəhrizli körpüdən keçib gedəndə onların oturduqları yerə baxa-baxa gedərdi) dəfələrlə xatırlamışdı, söhbətləri yadında idi, dodağı qaçırdı yadına salanda. İndi isə... unutmuşdu. Unutmuşdu, vəssəlam. Bu qızcığazların surətini pəncərə şüşəsinə yeni yapışan yağış damcıları yuyub apardı. F.Q. onların dediklərini unutduğu kimi bir anda özlərini də unutdu, olmuşdularmı, olmamışdılarmı, – sirri-Xuda!

... Yağış göy üzündən üzüaşağı sap-sap uzanıb yağdıqca sürət yığırdı. Yağış torpağın (həyətin) üzündəki qırışları, boşluqları, alma ağacının dibindəki qarışqa yuvalarını yenə də səxavətlə şappaşap doldurur, yenə də amansızlıqla yox edir, sonra da arzu-kamla torpağın canına hopurdu. Özünə yer tapıb hopa bilmədiyi yerlərdə isə lehmə-lehmə cığırlar açıb həyətin ora-burasında batdaqlar yaradırdı. Üzdə qalan su bu cürə palçığa çevrilirdi, macal tapıb torpağın canına çəkilən damlalar isə, yeni bir həvəslə yeni dərinliklərə üz tutub hopurdular. Yenə də, yenə də, yenə də...

O bədbəxt idimi, xoşbəxt idimi, bunu demək asan deyildi, bunu kim deyə bilər?! Yazını oxumaq bir neçə ay bundan əvvəl xoşbəxtliyin zirvəsi deyilmiydi?! İndi F.Q. həm o zirvədə idi, həm də dərənin dibində. Nə üçün?! Niyə?! Bu hislər – ikili, iki əks mahiyyətli hislər niyə bir yerdə, bir-birinə qarışmış, bir-birinin içində ərimiş kimiydilər?! Həyatının mənası bu idisə, o gəlib hadisələrin üfüqünün lap astanasında dayanmışdısa, bəs onda niyə əlacsızlıq onun qəlbinə indi, bu saat hakim kəsilib durmuşdu?! Hadisələrin üfüqü – nə yaş, nə tarix, nə zaman, nə yaddaş... Heç nə. Tam azadlıq. Stiks çayının o tərəfi. Kölgələr aləmi. Bu qarışıq hislər niyə onun qəlbinə hakim kəsilib rahatlığını əlindən alıb?! İlk dəfə idi, can verən, həyatını qeyb eləyən bir Allah bəndəsinin son nəfəsində yanında olmuşdu, bəlkə bütün bu qarışıq əhval, anlaşılmaz üzüntülər buna görə idi?! Səbəb, səbəb nədir? Ürəyində bir şübhə vardı, ürəyinə dammışdı ki, yazını oxumağıyla Bəhram kişinin ölümü arasında əlaqə var. Bu əlaqəni o görə bilmirdi, dumanlı şəkildə hiss edirdi. Amma elə bu da bəs idi. Bu şübhəylə, bu ağrıyla F.Q. bundan sonra necə yaşayacaqdı?! Əslində isə kim bilir, həqiqətdə belə idi, ya yox, bəlkə də?! Niyə bəlkə?! Əlbəttə! Əlbəttə, buna görə idi. Səbəb Bəhram kişi idi. Amma yox, tək

o deyildi. Səbəb həm də Afaq idi. Səbəb Ayaz idi, Professor idi, Patriarx idi, ona yadlaşmış, ona tüpürməyə, onu "daşqalaq" eləməyə hazırlaşan, onun isə nifrət eləməyə başladığı nahamvar, mənasız sifətlər, üzlər, gözlər idi. F.Q., F.Q.... Sən nə zaman adamlara adam kimi baxmağa öyrəşəcəksən, yəqin ki, heç vaxt. Mübariz, Mübariz kişi yaddan çıxdı, səbəb, əlbəttə ki, həm də Mübariz kişi idi... Belə dünya olar?! Belə dünyanın (əlbəttə, əsl səbəb dünyanın özü idi) içinə, üzünə tüpürməyəsən, nə edəsən?! Nəhayət, tapıldı. Əsl səbəb, nəhayət, tapıldı. Bu dünya idi əsl səbəb, hamı, hamı idi onu hər tərəfdən üzən, sıxan, məhv etməyə çalışan, onun – F.Q.-nin məhvini qarşısına məqsəd qoyan hamı! Bunları beynindən keçirib sonra bir balaca rahat nəfəs ala bildi, köksünü ötürdü, yüngülləşdi.

...Artıq F.Q. Çoban papağında tək-tənha qalmışdı. Ayazla Afaqı günortaya yaxın yola saldı, "sabah üçdür, burda sizin görəcəyiniz bir iş yoxdu, mən özüm "üç"dən sonra qayıdıram, sonra, sonra vaxt tapıb bir yerdə gəllik, əlbəttə, gözəldi, buralar çox gözəldi, Vəng dağı, daima dumanlı-çənli, amma yaşıl, mənzərəli dərə..." tüklü üzü (əslində, üzü yox, burnu) pəncərəyə yapışmışdı, bayırdakı qaranlığın içindən artıq bir şey seçəmmirdi, qaranlıq, zil qaranlıq hər şeyi udmuşdu və F.Q.-nin ürəyi birdən-birə yenə başladı sıxılmağa. Bir an əvvəlki rahatlıq, yüngüllük hara uçub getdi?! "Nə üçün? Nə üçün?" – artıq əməlli-başlı yağış misalı gözündən axan yaş damlaları üzündəki tüklərin arasıyla keçib-keçib çənəsinə qədər gəlirdi və F.Q. bir də onu gördü ki, çiyinləri titrəyir, hıçqırıq onu boğur. Niyə belə oldu – F.Q. bundan bir şey anlamadı. Əlbəttə ki, anlaya da bilməzdi. Çünki biz bizimlə nə baş verdiyinin mahiyyətini deyil, nəticəsini bilirik. Mahiyyəti bilmək bizə inayət edilməyib. Bunu bilmək bizim qismətimiz deyil. Heç kim bunu bilmir. Həyatını buna sərf edənlər var, qəlbini, könlünü bunun üçün satanlar var – bihudə, bihudə, bihudə... Bunu ancaq bu axşam, elə bu dəqiqə göylərin üzünə təzədən çəkilmiş sehrli teatr pərdəsinin qarşısında (bəlkə də arxasında) oturub böyük bir maraq, diqqət və səbrlə səhnəyə, səhnədəkilərə baxan o bir olan, o tək və tənha olan əziz Allahımız bilir.

# VIII (müstəqil) fəsil

*F.Q.-nin gündəliyindən qeydlər*

Nəhayət, qaldı bu kənddə keçirəcəyim son iki gün. Bu gün səhər qəfildən yadıma düşdü ki, axı bura gələndə özüm ilə xüsusi boş dəftər gətirmişdim ki, gündəlik yazım, daha doğrusu, mövcud olan gündəliyimi yazmağa davam edim. Hər gün beynimə gələnləri qeyd eləmək az qala məktəb zamanından vərdişə çevrilmişdi və mən bu vərdişi, demək olar ki, pozmurdum, hər gün, gecənin hansı vaxtı olursa olsun, bir cümlə də "gəlsə" yazıb o gündən "yadigar" qoymalıydım. Kəndə gəlişimin ilk günü isə bu vərdiş pozuldu, sadəcə, günə cümlə ilə, sözlə yekun vurmaq yaddan çıxdı. Bəhram dayının şirin, ağıllı söhbətlərilə bu yekun şifahi şəkildə vurulmağa başladı. İndi üç ay əvvəlki o ilk günə qayıtmaq və addım-addım (gün-gün) irəliləmək asan olmayacaq, amma adda-budda olsa da unutmadıqlarımı qeyd etmək, məncə pis olmazdı. Unudulmayanlar isə az deyildi, çox idi.

Birinci gecə yağışların aşağıdan yuxarı yağması indiyənə qədər bilmirəm ki, yarıyuxulu, bəlkə də tam yuxulu vəziyyətim ilə izah olunmalıdı, yoxsa bu, həqiqətən hər hansı mistikadan kənarda, reallıqda baş vermişdi, yəni, səbəb nədir ki, necə olur ki, Vəng dağının ətəyində yağışlar bu cür yağa bilir?! Bir neçə dəfə istəmişdim, bu məsələni açım, ağardım, düzdü ürək eləməmişdim, amma sadəcə, bircə dəfə Bəhram dayıdan bu barədə soruşmaq lazım idi, vəssalam, mən isə soruşmamışdım, soruşmağa... tənbəllik eləmişdim. Hər dəfə sonraya saxlamışdım. "Nə üçün, nə mənası var?! Yağışdı, necə istəyir, yağır".

İndi isə o ilk gecəni xatırlayanda yağışın o cür üzüyuxarı yağmasını hər cür sehrdən kənar, fantastik məqamdan xali, tam real, doğru-dürüst bir hadisə kimi qəbul edirəm. Əsas sübutum, dəlilim isə budur. Nahaq yerə xalq arasında demirlər: tut yağışın ucundan, çıx göyə!..

Bir də yadımda o qalıb ki, haman o gecə yağış üzüyuxarı yağmağa başlayanda rəhmətlik (Bəhram dayı) mənə gözlərində xüsusi bir məna nə isə deməyə çalışırdı. Nəyi isə özü üçün müəyyənləşdirmək istəyirdi – mənim hadisəyə, məqamın sirrinə mültəfit olmağımı, yoxsa?..

Mən indi, nəhayət, əminəm ki, Bəhram dayı o zaman yağışın bu cür, aşağıdan yuxarıya yağmasının sirrini dəqiq bilirdi.

### *Mağaraya ilk dəfə girdiyim vaxt*

Bu necə baş verdi?

Bəhram dayı üstünü kol-kos basmış sıldırım qaya çıxıntısı qarşısında əvvəlcə dayanıb diqqətlə bu "yaşıl" divara nəzər saldı, sonra əlindəki çomaqla bir-birinin içinə girmiş kol-kosun ora-burasına vurub onları araladı. Daha sonra... Bəhram dayı başını əyib irəli – kol-kosun düz içinə doğru cəsarətlə bir addım atdı və birdən-birə bu vəhşi yaşıllığın içində yox oldu.

Mənə bu təəccüblü gəlmədi, çünki Bəhram dayının səsini hələ də eşidirdim:

– Gəl, səsimdən yapış, gəl, balası. Keç burdan. Səsimdən yapış!

Mən Bəhram dayının, özü demişkən, "səsindən yapışaraq" qətiyyətlə kol-kosun içinə başımı soxdum, başım bir oyuğa düşdü, bu oyuq, elə bil, öz-özünə açıldı. Burası mağaranın ağzı idi, mən də ondan keçib içəri – qaranlığa daxil oldum.

Sıx cəngəlliyi xatırladan süngür kolları bir-birinə elə yapışıb sarılmışdı ki, mağaranın ağzı qıraq göz üçün, Bəhram dayı deyən kimi, həqiqətən, görünməz olmuşdu.

İlk ürəyimə qorxu Bozların mırıltısı ilə girdi. Qaranlıqda gözləri parıl-parıl yanıb az qala ətrafına işıq saçırdı. "Baskervillərin iti" bunun yanında toya-bayrama getməliydi. Bədheybət, bəlkə dana boyda... Bəhram dayının

ayaqlarına dolaşıb başını onun dizinə sürtə-sürtə parıldayan gözlərilə mənə elə mənalı-mənalı baxırdı ki, elə bil, deyirdi: "Sən kimsən hələ? Sənin burada nə işin var? Yaxşı ki, sən bura bu kişi ilə bir yerdə gəldin, tək gəlsəydin... mənlik deyildi!"

– ... sssss, Bozlar, gözəl Bozlardı, Bozlar qoçaq Bozlardı. Maralımdı bu mənim... – Bəhram dayı bu nəhəng iti elə nəvazişlə əzizləyirdi ki, adamın onun səsinə tamahı düşürdü. Bizi də bu cür gözəl səslə əzizləyən olsaydı...

Sonra Bəhram dayı üzünü mənə tutdu:

– Gözün alışdımı qaranlığa? İndi, indi işıq çoxalacaq. Yaxın gəl, qorxma, mənim yanımda o sənə dəyməz. Qorxma.

Mən qorxurdum.

Bunu duyan Bəhram dayı mülayim səslə bir daha mənə ürək-dirək verdi:

– Danış Bozlarla. Danış ki, səsini tanısın. Köpək səsə sığınar. Adını, adını tez-tez çək. Bozlar, Bozlar de.

Bozlar özü də mırıltısını xapdan kəsib Bəhram dayının səsinə hayıl-mayıl olmuşdu, çünki mağaranın içində bu səs öz həmişəki yumşaqlığına izahedilməz bir sirli ahəng, füsunkarlıq əlavə etmişdi.

Bu sirli füsunkarlığı mən bir də onun səsində o, ölüm yatağında olarkən, bunları yazdığım vaxtdan bir ay əvvəl duydum. Xüsusilə, Mübariz kişi ilə son söhbəti mənim çox qəribəmə gəldi. Bəhram dayının yanında gəlib məlul-məlul oturan Mübariz kişi onun əlini öz əlinə aldı, guya ovuşdurub isidəcəkdi, bir xeylidən sonra:

– Bağışla məni, Bəhram, halal eylə, – zəif səslə dilləndi.

Bəhram dayı qıyılmış gözlərini halətsiz halda onun gözlərinə dikdi:

– Boşuna danışma. Sən də məni halal eylə, – pıçıltıyla dedi.

Ancaq ikisi anlayırdı, bu sözlər nə üçündü, bu sözlərin arxasında nə gizlənib?! Sonra Mübariz kişi ilə Bəhram dayı eləcə əl-ələ verib (Mübariz kişi Bəhram dayının heysiz sol əlini iki ovcunun içinə almışdı) göz-gözə bir-biri ilə səssiz-səmirsiz bir xeyli "danışdılar". Nəhayət, Mübariz kişi Bəhram dayının əlini ehtiyatla qaytarıb sinəsinə qoydu:

– Sağ ol, Bəhram, – səsi çox yavaşdan çıxdı, əslində, bu ancaq Bəhram dayının eşidə bilməsi üçün idi.

Bəhram dayı da həmən gözəl səsi ilə (mən hiss elədim ki, son gücünü topladı), o da yavaşdan:

– Sağ ol, Mübariz, – dedi.

Bir-birilə bunlar bu cür halallaşdılar, bu cür sağollaşdılar. Elə sakitcə sağollaşdılar ki, elə bil, sabah Radio meydanında bir də görüşəcəkdilər.

### *Kəndə gələli ikinci gün. Mağarada. Çiçəkli yazı ilə ilk görüş*

Bəhram dayı nə qədər cəhd elədisə də, mən mağarada əlimi Bozların başına çəkməyə, tükünü sığallamağa cürətim çatmadı.

O isə bir tərəfdən köpəyin başını qoltuğuna sıxıb boynunun dalını qaşıyır və tumarlayırdı. Qulağının dalını, boynunu, boyun sümüklərini cod barmaqları ilə bir-bir sığallayırdı. Bu zaman "Baskervillərin itinin" həzzdən və ləzzətdən az qala gözləri axıb gedirdi. Bəhram kişi bayaq dediklərini bir daha təkrar elədi. Mağaranın boşluğu onun səs ahəngini, doğrudan da, sirli və füsunkar etmişdi. Bu səs ağızdan çıxıb o dəqiqə qulağa girmirdi. Mağaradan kənarda, əlbəttə, belə olardı. Mağaranın içində isə bu səs əvvəlcə mağaranı dolaşır, bir divardan o biri divara dəyir, Çiçəkli yazının oyuqlarına bir-bir girir, hardansa əlavə bir güc yığır, yalnız bundan sonra müsahibi bu səsi eşidirdi. Bəhram dayı dedi:

– Köpək səsi tutar, səsə sığınar. Danış Bozlarla, səsini tanısın. Elə-belə. Nə istirsən de. Təki səsin gəlsin.

Mən düşündüm: "Nə danışım, bilmirəm ki..."

Sonra işığın mağara içində yavaş-yavaş artmasını hiss elədim, sağa-sola boylanmağa, divarları seçməyə çalışdım:

– Mən bir şey görmürəm. Bəs...

Bəhram dayının dodaqlarındakı oynaq təbəssümü görməmək (işıq çoxalmışdı) artıq mümkün deyildi. Elə bu zaman onun:

– Görmürsən? – deməyilə mənim gözlərim önündə burula-burula bir divardan o biri divara keçən və mağaranı içəridən çiçəkli bir mühasirəyə

(bəlkə qorumaya?!) alan haman işarələri görməyim və sözümün gerisini udub ağzımın açıq qalması bir oldu.

Gicgahımda şiddətlə, guppultuyla vuran nəbzimin səsini az qala qulaqlarımda eşitməyə başladım. Bütün içimdə nə vardısa hiss elədim ki, tarıma çəkildi, belə olanda deyirlər ki, qanım dondu. Mən ovsuna düşdüm. Çünki orda gördüklərim əsl ovsun idi, əsrarəngiz idi, gecə-gündüz haqqında düşündüyüm naxışların, ləçəklərin bir mağara divarında bu cür, bu dərəcədə gözəl (ədalı gözəl) ola biləcəyini mən ağlıma belə gətirməzdim. Gözlərimi yumub açmağa belə qorxurdum. Qorxurdum ki, gözlərimi yumsam... bu oyuqlar, bu işarələr yox olar. Onlara isə yox olmaq imkanı vermək günahdır. Belə olardısa mağara, Bozlar, Bəhram dayı, dörd divar boyu həkk olunmuş naxışabənzər bu... təşəxxüslü işarələr bir Möhtəşəm Ahəngin içində əriyib gedərdilər, ona görə də göz ayırmaq nədi, göz qırpmaq belə imkansız idi.

Çiçəkli yazı ilə ilk təmasım, açıq deyəcəyəm, mənim xudpəsənd lovğalığıma qəti olaraq son qoydu. Özüm hiss edirdim ki, belə bir şey məndə yaranmaqdadır; girir qəlbimə, didir, gəmirir... "Nədi ki, bu yazı, mən onu semiçka kimi çırtlayacağam!" kimi indi mənə xeyli gülməli gələn fikirlər başımda dolaşa-dolaşa mən o kəndə, o mağaraya getdim. Bəs nə oldu? Nə baş verdi? Üç ay! Üç ay səhər-axşam və axşam-səhər (sərasər) bir an belə kənar işlə məşğul olmadan (elə bircə Afaqa iki ay zəng eləməməyim bəsdi!), ancaq bu... necə deyirdi Bəhram dayı, "andıra qalmış" yazı!... Axırda da o açar sözü Möhtəşəm Ahəngin içindən ayırıb heç mən özüm tapa bilmədim. Bəhram dayı o sözü mənə deməsəydi... Qərəz.

Birinci gün mağarada Çiçəkli yazıdan gələn gül qoxusu indi də burnumdadı, yadımdan çıxmayıb.

Mənim çaşqınlığımı görüb çox sonra Bəhram dayı mənə belə dedi:

– Sənin o halətini, o cürə heyrətlənməyini heç vaxt yaddan çıxarmayacağam. Bircə özünü kənardan seyr edə bilsəydin...

Deməli, mən öz həqiqi, hədsiz və sonsuz heyrətimi gizlədə bilməyib üzə elə çıxarmışdım ki, Bəhram dayını da təəcübləndirmişdim. Bəhram dayı heyrətin giymətini yaxşı bilən adam idi.

### *Həmən axşam. Bəhram dayının evində*

Yenə "Balaca"nın altında oturub axşam yeməyini yeyəndən sonra çay içirdik. Samovarın közü yavaş-yavaş zəifləyir, üstünü kül alırdı. Bu dəfə də gecə, elə bil, yelləncəklə hiss edilmədən, xəbərsiz-ətərsiz düşdü. Buralara, sonralar mən əmin oldum ki, gecə başqa cür gəlmir, ancaq bu cür gəlir (ona görə də "gecə yelləncəklə düşdü" ifadəsi qətiyyən metafora deyil!).

Mən hələ də səhər mağarada gördüyüm Çiçəkli yazının təsiri altında idim:

– Bu yazının naxışları hara, Cəfər müəllimin çıxardığı o solğun surət hara?!. – Nəhayət, sabahdan bəri beynimi sakit buraxmayan o "iynəli" sualımı indi dilə gətirə bildim. Əlbəttə, bu suala cavab gözləmirdim, sual "ritorik" sual idi.

Bəhram dayı isə gözlənilməz bir şəkildə mən deyəni ürəklə təsdiqlədi:

– Elədi. Yer və göy fərq var.

Mağaradan qayıdandan sonra mən bizim İnstitutun əməkdaşı rəhmətlik Cəfər müəllimin (bu adam mağaraya girib yazının surətini ilk çıxaran şəxs idi, Bakıya geri döndükdən sonra evinin yanındaca bir maşın onu ölümcül vurub, qaçmışdı) çıxardığı Çiçəkli yazının surətini Bəhram dayıya göstərmişdim.

– ... Əlbəttə, həqiqətlə onun kölgəsi eyni deyillər. – Bəhram dayı çayını içib qurtardı, stəkanı nəlbəki ilə bir yerdə samovarın yanındakı siniyə qoydu. Mən köhnə kənd kişilərinin müdrikliyinə heç vaxt inanmamışam. Xüsusilə də, romanlarda təsvir olunan "ölməz" el müdriklərinə. Mənə həmişə elə gəlib ki, bu adamlar süni, qeyri-təbii, robot kimi ondan-bundan, indi isə televizordan eşitdiklərini süni, ağır bir əda ilə və ən vacibi, çoxbilmişlər kimi deyirlər, yox, demirlər, "izhar edirlər: "Yarısını deyirəm, o biri yarısını isə demərəm, özün aşkar elə..." (məsələn, buna ən yaxşı canlı nümunə Mübariz kişi idi).

Başı daim araxçınlı, saqqalı dolaşıq Bəhram dayını isə mən elə ilk gündən, nə illah elədim, bu tipli adamlara aid edə bilmədim, boynuma alıram, istədim... alınmadı. O hər sözündə, hər hərəkətində təbii və səmimi idi, nə edirdisə, həm beyni ilə, həm də qəlbi ilə edirdi. Bir dəfə günorta idi, onun yataq otağına nə üçünsə girmişdim. Gördüm, uzanıb əlində kitab oxuyur.

"Ovod" idi. Bu onun mən gördüyüm oxuduğu yeganə kitab idi, həmişə də ortadan qatlanan səhifəsi olardı. Bu dəfə də eləcə, – ortadan qatlanmışdı, "deməli, bu adam həyatı boyu bir kitab oxuyub, onu da yarısınacan", düşündüm. Sonralar bildim, sən demə, Bəhram dayı bu romanı az qala əzbər bilir. Niyə "Ovod"? Bunu ondan soruşanda "özüm də bilmirəm" dedi, amma dodağının ucuna qonan ılıq bir təbəssüm (elə bil, bu təbəssümü o elə indicə kimdənsə borc aldı, bu, onun öz təbəssümü deyildi), "soruşma, bu mənim sirrim deyil" söylədi.

... Bu səfər də Bəhram dayı adi bir tərzdə, qətiyyən ədabazlıq etmədən (Mübariz kişidən fərqli olaraq) belə dedi:

– ... Həqiqətlə kölgəsi eyni ola bilməz!

Doğrudan, mən də elə düşünürəm ki, Çiçəkli yazı həqiqətin özü, rəhmətlik Cəfər müəllimin çıxardığı surət isə kölgədir. Solğun kölgə! Mağaranın içində mən çiçək ləçəklərinin hər birinin ayrı-ayrılıqda əyilib-düzəlmə trayektoriyasını, ağlasığmaz ahəngdar (daş divara bunu həkk eləmək nə qədər çətindir – bunu heykəltaraşlar yaxşı bilir) xətti davamını görüb heyran qalmışdım. Bu çevik keçidlər aydındır ki, köçürülmüş surətdə yer ala bilməzdi. Onlar, təəssüf ki, yox olmuşdular, yox idilər. İncəliklər itmişdi. Surət əgər nə qədər quru, cansız, daxili energiyadan məhrum əyri-üyrü cızıqların bir-birinə yapışdırılması idisə, Çiçəkli yazının özü bir o qədər diri, bir o qədər təsirli, bir o qədər gücünü içinə yığmış və bunun üçün də sirli və cazibədar (bayaq yazmışdım, hətta təşəxxüslü!) işarələrin dəmir kimi möhkəm sistemi, qadın barmaqları kimi incə naxışların təntənəsi idi.

– Bilirsənmi, sənin o biri gələnlərdən fərqin nədi? – Bəhram dayı bir dəfə mənə qəfildən belə bir sual verdi. O, Çiçəkli yazının tapılması ilə yaranan canlanmanı – elə-belə gəlib-gedənləri, ciddən çiçəklərin sirrini açmaq niyyətində olanları – hamını bir yerdə nəzərdə tuturdu.

Mən nə deyə bilərdim?! Sual bu cür gəlmişdisə, öz arxasınca cavabını da gətirməlidir. Cavab özünü gözlətmədi:

– O birilər, balası, heyrətlənə bilmədilər. Hətta bəziləri heyrətlərini gizlətməyə, ört-basdır etməyə çalışdı. Olmaz!..

Bəhram dayı nəfəsini dərdi:

– Sən isə heyrətləndin və heyrətini gizlətmək ağlına belə gəlmədi. Əgər heyrətlətlənə bildinsə, mən düşündüm (bunu Bəhram dayı belə düşündü!), deməli, Çiçəkli yazı sənə nə isə dedi, deməli, aranızda nə isə baş verdi... Gözümün qabağındadı, ilk gün mağarada Çiçəkli yazını görəndə... ağzın yadından çıxıb qalmışdı açıq, özün də maddım-maddım baxırdın, baxdıqca baxırdın, doymurdun. Bu elə belə də olmalıdı! – Bəhram dayı bunları söyləyib özü də o anı xatırladı və bütün üzünə, xüsusilə, gözlərinin içinə ılıq bir təbəssüm yayıldı.

### *Kəndə gələn günün sabahı.*
### *Mağarada birinci dəfə*

... Mən, nəhayət, mağaranı eninə-uzununa artıq neçənci dəfə addım-addım ölçəndən sonra (beş addım eni, yeddi addım uzunluğu var idi) gəlib Bəhram dayının yanında onun kimi çömbəlib quru yerdən oturdum və qeyri-ixtiyari (avtomatik olaraq) əl atıb bizim aramızda ləhləyən Bozların başını tumarlamağa başladım. Bəhram dayı mənim bu "cəsarətimi" sonralar xatırlayıb başını yellədər, nəvazişlə gülümsərdi. "Uşağın ilan boğan vaxtı..." gərək ki, bir dəfə bic-bic gülümsəyib belə dedi. Onun sözlərinə özümün də inanmağım (xüsusilə, "Bakervillərin itini" yaxından görəndən sonra) gəlmirdi: "Mən – belə cəsarət sahibi??"

Bir dəfə isə!.. Buna artıq heç kim inanmaz (indi mən özüm də buna inanmıram, hətta düşünürəm ki, bəlkə nəyisə çaşdırmışam?!), təsəvvür edirsinizmi, bu lap ağ oldu – onunla eyni yuxunu gördük. Bir-birimizə söz verdik ki, bunu heç vədə heç kimə danışmayaq – inanılası deyil! Axşam yenə Qarağacın ("Balaca"nın) altında idik. Söhbət fırlandı-fırlandı, nə cür oldusa (yəqin ki, göydən az qala başımızın üstünəcən sallanan ulduzların da bu işdə əli olmuşdu), bu saat yadımda deyil, nə cür oldusa, söhbət öz-özünə gəlib paralel dünyaların üstündə dayandı. "Bəs bu kişi həyatı boyu ancaq bir roman, o da "Ovod", oxumuşdu?! Bəs bu niyə mənim dediklərimi belə aydın, belə adekvat şəkildə başa düşür, söhbəti tuta bilir, öz fikirlərini (özü də paralel dünyalar barədə!) ifadə edə bilir, hardandı bütün bunlar?! Oxumağına bu barədə, aydındır ki, heç bir

şey oxumayıb, eşitməyinə də... inanmıram, kimdənsə eşitsin. Deməli, məsələ qalır nəyə – fəhmə! Bu dərəcədə?! Heç inanılası deyil.

Yuxular isə tam eyni olmasa da çox oxşar yuxular idi. Düzdür, o vaxt söz verdim ki, heç kimə bu barədə danışmayacağam, amma Bəhram dayı, bağışla sən məni, biz şəhərlilərin də öz xırda "biclikləri" var – indi mən bunu danışmıram, mən bunu yazıram. Görürəm, elə aydın görürəm, saqqalını qaşıya-qaşıya (az qala dırnağın üzünün dərisinə batacaq) süni bir kədərlə "balası... balası..." deyib yenə başını yellədirsən ("Hansı dünyada, harada?").

Mağaradan ilk dəfə qayıdanda – Bəhram dayı irəlidə, mən isə onun dalıyca, daha sonralar, həyətdə, dağda, Quzğun dimdiyində – hər yerdə mənə elə gəlirdi ki, kimsə bizi izləyir, arxamıza kimsə düşüb, biz hara gedirik, o da ora gedir, hardan gəlirik, o da ordan gəlir. Az qala mən bu kimsənin hənirtisini hiss edirdim – axşamlar, gecələr Vəng dağından bu hənirtini yavaş-yavaş sərinləyən dağ yelləri özü ilə gətirirdi. Bir dəfə isə...

Səsimi boğub ətrafa diqqət kəsildim, cırcıramalar qəfildən səslərini kəsdilər, bütün ətraf sükut içində ikən, mən yenə o hənirtini eşitdim. Amma qulağımda deyil, daha çox beynimdə eşitdim. Mən onu anlamağa, tanımağa çalışdım. Elə bil, yatmış dev ağır-ağır nəfəs alırdı, nədi? Bəhram dayı mənim həyəcanımı görüb sakitcə ancaq bunu dedi:

– Bir şey deyil. Fikir vermə, ola bilər, Bozlardı. – Amma Bəhram dayı bunu deyəndən sonra gözünü qıyıb baxışını məndən qaçırdı.

O, baxışını bu cürə qaçıran zaman mən dəqiq bildim: Bozlar deyildi.

* * *

Bu cümlə yaman xoşuma gəlir: Axşam bu kəndə elə-belə düşmür, axşam bura, yellənçəklə düşür, ulduzların arasıyla. Ulduzlar o qədər aşağı enib dururlar adamın düz başı üstündə ki... özləri də par-par sayrışıb yanırlar. "Gözəllik bütövlükdüsə, bu elə odur. Daha heç nə deyil". Hətta mən bəzən "Balaca"nın altında yayxanıb öz sevimli işimlə, səmanı seyr etməklə "məşğul olduğum" zaman, bəzən ulduzların bu cür yaxınlığından xofa düşməyim olurdu – gizlətmək istəmirəm. "Bu qədər də aşağı yaxınlaşsalar, muncuq kimi səpələnib tökülsələr başımıza, onda nolar?!"

Quşlar o axşam (elə o biri axşamlar da) səslərini kəsib oxumaq növbələrini yenə də cırcıramalara vermişdilər. Onlar da birnəfəsə, bir saniyə belə dincəlmədən, vaxtı fötə vermədən öz dillərində öz zəhlətökən yeknəsəq "nəğmələrini" quşların acığına aramsız oxuyurdular (onların səsi hələ də qulağımdadı, getməyib). İlk dəfə o axşam (kəndə gedəli artıq bir həftə olmuşdu) yadıma düşdü ki, mən axı, deyəsən, Bakıdan gələndən sonra bircə dənə də olsun siqaret çəkməmişəm?! Sən demə, bir həftə siqaretsiz keçinmək olarmış. Düşündüm: "Afaq sevinəcək". Amma Afaq bu xəbəri eşidəndə hiss olunmadı ki, sevinir, ya sevinmir. Sadəcə, biganə qaldı. İndi anlayıram. Öz canıyla əlləşirmiş: "Yenə başladın, F.Q.?! Qurtardıq axı bu söhbəti, qurtardıq özü də birdəfəlik!"

Qarağacın altında təmiz dağ havasını (alma ətri qarışmış – həyət başdan-başa alma ağacları ilə doludur) ciyərlərimə ləzzətlə və sinədolusu alıb daha bu dünyadan heç nə istəmirəm, heç nə barədə düşünmək istəmirəm. Əlbəttə ki, Çiçəkli yazıdan başqa, əlbəttə!

– Bax. Mən əlli il papiros çəkmişəm. Məndən dörd-beş yaş böyük Mübarizdi, ilk dəfə onunla bir yerdə, ikimiz də dərsdən qaçmışdıq. Bir məktəbdə oxuyurduq... – Bəhram dayının gözləri uzaqlara, "hadisələrin üfüqü"nə sarı tuşlandı.

– Bəhram dayı, yenə hadisələrin üfüqünə tərəf baxdın, xeyir ola?!

"Hadisələrin üfüqü" – Qarağacın budaq-budaq, yarpaq-yarpaq bizə göstərməyə tələsmədiyi (hərdən bu budaqlar, yarpaqlar istəməyə-istəməyə aralanıb o üfüqü görməyə imkan verirdi) uzaqdakı təpələrə bu adı yarızarafat, yarıciddi mən qoymuşdum. Əlbəttə, oralar üfüq olmağına üfüq idi. Hər nə qədər istəsəydin ona yetişmək mümkün deyildi, amma həm də gözlə görünürdü – yaxın idi. Həm uzaq idi, həm yaxın. Bu uzaq və yaxın məkanın bir mahiyyəti var idi: Heç nə! Hadisələrin üfüqü və heç nə! Bunların birləşdiyi yerdə nə isə baş verirmi?! Əslində, hadisələrin üfüqündə heç nə baş vermir. Yox, daha doğrusu, hadisələrin üfüqündə "heç nə" baş verir. Bundan savayı... yenə də – heç nə! Biz orda yalnız öz istədiklərimizi, öz təsəvvürümüzdəkiləri "görürük". Orda isə – heç nə! Orda zaman yoxdur, yaddaş yoxdur, sağ yoxdur, sol yoxdur, aşağı, yuxarı yoxdur. Orda heç nə baş verir və heç nə ancaq orda baş verir. Hadisələrin üfüqü bu idi.

– Əcəb ad tapmısan. – Hadisələrin üfüqü!.. – Qımışdı və ani fikirdən sonra, – hə, mən nə deyirdim, balası?! Əlli il papiros çəkdim, amma atanda bir dəfəyə atdım. Atdım, getdi. Yavaş-yavaş, azalda-azalda atanlar ancaq özləri-özlərini aldadır.

... Bəhram dayı, niyə, niyə belə oldu? Sən bu işə nə qədər sevinəcəkdin, sənin Çiçəkli yazının sirri açıldı. Mən heç bilmədim, ilk dəfə sənə Çiçəkli yazını oxuyanda sən nə eşitdiyini sonadək başa düşdün, ya yox?! Gözlərinlə nəsə demək istədin. Mən bunu hiss elədim. Nə idi demək istədiyin, Bəhram dayı, nə idi? Çiçəkli yazı qaldı sənsiz. Sənin arzun yerinə yetdi, çox istəyirdin, mən... "andıra qalmış" bu yazını oxuyum, mən də oxudum bu yazını, mən – "arıların dostu" F.Q., sən isə yoxsan. Bəhram dayı, Bəhram dayı...

Çətindi bunları yazmaq. Bu kişi mənim üçün necə oldu, bu qədər əziz, doğma bir adama çevrildi, bunu mən bilmirəm. Sabah buralardan ayrılıb gedirəm. Mənlik burada daha bir şey qalmadı. Ustalar, nəqqaşlar gəlib bu naxışları mağara divarlarından səliqəylə oyub çıxarıb aparacaqlar Akademiyanın "Qədim tarix" muzeyinə. "Çiçəkli yazı" mağaranı birdəfəlik tərk edəcək. Bəhram dayı Çoban papağını tərk etdi. Mən buranı tərk edirəm. Bunların bir-birilə əlaqəsi varmı?! Çiçəkli yazı tovuz quşu kimi cilvələnib özünü cürbəcür muzeylərdə ona-buna göstərəcək – Quzğun dimdiyinin, mağaranın, Bozların gözündən uzaq, yatmış devin gözündən uzaq. Bəhram dayı, Bəhram dayı, bəlkə də yaxşı oldu, sən elə bu vaxtı seçib dünyadan getdin. Çiçəkli yazısı oyulmuş, oğurlanmış mağarada sənin qəlbin çatlamazdımı, çatlardı, Bəhram dayı. Bəhram dayı, bax, yenə təbəssüm dodağına qonub, yenə nəsə demək istəyirsən, başqa bir paralel dünyadanmı bizə baxıb nəsə deyəcəksən, sən o dünyada varmısan, bu ulduzların hansından indi boylanırsan buralara?!

### *"Dil və təfəkkür" institutu. Professorla görüş*

...Professor əvvəlcə quru-quru "təbrik edirəm" dedi, sonra onu da əlavə elədi ki, artıq deşifrəni ona çatdırıblar. Buna baxmayaraq yenə məni soyuqqanlı bir diqqətlə dinlədi, mən ona yazını bir daha oxuduqca "hm" eləyə-

eləyə başını tərpətdi və qarşısındakı dəftərə nə isə qeydlər elədi. Sonra isə, kiçik bir sükutdan sonra: "belə..." – öz həmişəki sözünü dilə gətirdi, bir müddət kabinetindəki pəncərəyə gözünü dikib bərk fikrə getdi. Bir xeyli bu cür keçdi. Nəhayət, deyəsən, yadına düşdü ki, mən də axı bu otaqdayam, başını döndərib mənə ağır və ciddi bir nəzər salaraq "Sənin elmi işçiliyə əmrin hazırdı" (mən kiçik elmi işçi idim, bir pillə yuxarı qalxırdım) dedi. Daha sonra başını yenə mənalı-mənalı buladı: "Aslanzadənin qanı əməlli-başlı qaralacaq". Gizli bir ləzzətlə qımışdı, dodaqaltı öz-özünə: "biz nə edə bilərik?! Nədi odu. Özümüzdən yalançı tarix düzəltməyəcəkdik ki?!" dedi. Bunu düz dedi. Mən buna yalnız bir əlavə etmək istəyirəm. Bu cür tarixi gərək Aslanzadələr, Professorlar, Patriarxlar dünyanın asudə bir vaxtında düzəldəydilər, hər xalq öz tarixini yazmağa başı qarışan vaxtda, daha doğrusu, xalq yox, tarixçilər..." Professorun ləzzətlə qımışmasını isə ürəyində gizlicə sevinməsinin bir işarəsi kimi qəbul etdim və belə yozdum: "Sən, F.Q., bizim işimizi xeyli asanlaşdırdın. Yoxsa indi hamı işini-gücünü bir kənara tullayıb eralardan əvvələ yürüş edəcəkdi. Bu... lazımdı?"

* * *

Ayağa durub getmək istərkən Professor, elə bil, ürəyimdən keçənləri baxışlarımdan hiss etdi və əli ilə mənə "tələsmə, otur" təklif edərək:

– Tələsmə, – dedi. – Bilirsən, gözütoxluq bir başqa şeydir. Hər şeyin əlacı var, bircə gözüac olmağın əlacı yoxdur. Dünya malı sənin olsun, gözüac oldunsa hesab elə, bir qəpiyin sahibi deyilsən. Nəyə görə bunları deyirəm?! Elmdə də acgözlük olur. Bu Hüngür ki, var, onun tarixini elə bu cür acgözlükdən tez apardılar eramızın əvvəlinə. Aslanzadə əlində qırmızı bayraq qabaqda gedirdi. Nə bilim, gedib çıxmışdı eramızdan əvvəl neçəmincisə əsrə. Düz deyil, vallah, doğru deyil. Heç kim inanmadı, bir ciddi alim Moskvada, xaricdə dəstək vermədi. Mən elə o zaman deyirdim bunu.

–Hüngür mağarasının tarixi Günortacın tarixilə bağlıdır. – Mən ehtiyatla dilləndim.

–Düzdür! Amma Günortac xarabalıqlarına əlimiz çatır ki?! Qərbi Azərbaycanda, indiki Ermənistan SSR-də bizə axtarışlar, qazıntılar aparmağa imkan verirlər ki?!. Belə baxanda Günortac, oğuzların qədim paytaxtı...

–Dədə Qorqud dastanlarından da adı keçir...

Professor dediyimi yenə quru-quru təsdiqlədi:

–Elədi. Amma indi nəyi qalıb? Xarabalıqları qalıb. Eramızdan əvvələ sən onu hara aparacaqsan?! Dədə Qorqud mətni buna imkan verərmi?! Verməz. Çünki bu mətn özü, hadisələri yox, müəllifi, Günortacı görən müəllifi Məhəmməd rəsul əleyhüssəlam zamanında meydana çıxıb. Necəydi onun ilk cümləsi?

–"Rəsul əleyhüssəlam dövrünə yaxın Bayat boyundan Qorqud Ata derlər bir ər qopdu". – Mən birnəfəsə cavab verdim.

–Görürsən?! Peyğəmbərimizin yaşadığı dövrə yaxın. Hüngür də lap olsun ondan bir az əvvələ aid. Axırda məlum oldu ki, eramızdan üzü bu yananın mətnidi. İncilin ilk tərcüməsi eramızdan əvvəl ola bilərdimi? Ola bilməzdi. Hüngür mətni nə çıxdı? İncilin oğuzcaya ilk tərcüməsi... Aslanzadə də suyu süzülə-süzülə eramızın o tərəflərindən neylədi, geri qayıtdı.

–Hüngürün sirri açılmasaydı, hələ də oralardaydı.

–Bəli, elədi. Oralarda itib-batmışdı. – Professor, dodağı qaçdı, zənlə mənə baxdı.

Professor MAM-ın orta üzvünə (Aslanzadəyə) heç zaman xüsusi simpatiyası ilə seçilməmişdi, həmişə onların "qanlı bıçaq" savaşının arasına Patriarx girmişdi.

–Hüngür mətni qədim bir zamanda – eramızın əvvəllərində, eramızdan əvvəl yox, eramızın 1-ci və 3-cü əsrlər arasında indiki Ermənistan SSR-in ərazisində məskunlaşmış qədim oğuzların paytaxtı Günortacın yaxınlığında bir mağarada gizlədilmiş yazılardır. Bu qədər. Vəssalam. Tələsmədən, addım-addım... Xüsusilə də, geriyə, tarixin içinə gedərkən tullana-tullana yox, addım-addım getmək lazımdır. Bax, o zaman bir də görərsən, gedib ... nəydi o çayın adı? Patriarx deyən?

–Stiks çayı.

–Hə, gedib Stiks çayının sahillərinə də çıxmısan.

Professor nəfəsini dərdi. Üzünə kinayəli bir təbəssüm yayıldı:

– Yoxsa ki, Atilla belə gəldi, Atilla elə getdi?! Atilla hara, Vəng dağının Çiçəkli yazısı hara?! Heç belə açar söz olar? Yadında, Birgə Elmi Şurada Aslanzadə sənə Atillanı açar söz kimi təklif edirdi. Heç dəxli var?!

–Atilla uyğun gəlməzdi, heç uyğun gəlməzdi.

– Əlbəttə, gəlməzdi. Çiçəkli yazı hələ çox adamı pəjmürdə edəcək. Amma bunu bil. Bütün qədim yazılar adi, sadə təsərrüfat hesablarından, alqı-satqı müqavilələrindən ibarət olub. Qədim şumerlərdə də belə olub, qədim misirlilərdə də...

Mən pauzadan istifadə edib onun sözünü kəsməyə cəsarət etdim:

– Orxon-Yenisey runları...

–Ay sağ ol. Qədim türklərdə də belə olub. Çiçəkli yazı bir məhəbbət məktubudu.

–Bəli, epitafiyadı.

–Kədərli məktubdu. Elə ona görə də... o daha qədim dövrə məxsusdur.

–???

–Daha qədim! Belə yazıları tarix bərqərar olandan sonra yazmırlar. Ondan əvvəl yazırlar. – Professor səsini alçaltdı. – Bu bəzilərinin düşündüyündən də, Stiksin axıb getdiyi zamanlardan da o tərəfdədi... Allaha dua edək ki...

Professor sözünü yarıda kəsdi, bir daha mənə diqqətlə baxdı. Bu dəfə mən onun həmişəki quru baxışlarının dərinliyində niskil, qüssə və kədər gördüm.

– Hayıf o kişidən, – sözünü dəyişdi. – Bəhramı deyirəm. Hayıf ondan. Mübariz də pis adam deyil. Amma Bəhram... Hayıf. Onsuz oralar yetim qaldı.

### *Vəng dağından qayıdalı iki ay keçdi*

Vəngin ətəyindəki Çoban papağını tərk edib şəhərə qayıdandan sonra nə qədər çalışdım ki, son iki ay yarım ərzində gördüklərimi və bildiklərimi (öyrəndiklərimi) şəkil-şəkil, saat-saat unudum, nə illah elədim, bu məqsədimə nail ola bilmədim. Çox məsələlər, əlbəttə, unuduldu, özü də bəziləri çox asanlıqla unuduldu. Amma bəziləri də yığılıb-yığılıb bir obrazın, bir mahiy-

yətin ətrafında toplaşdılar, sanki yaddaşsızlıq, huşsuzluq dənizinin (boşluğunun) ortasında adalara bölündülər. Beynimdə dolaşan, o günlərin xatirəsinə, yaddaşımın isə yolverməz süngür kollarına çevrilən məqamlarını indi mən hətta sıralaya da bilirəm. Həmən məqamlar iki ay yarımın, üç ayın əsas nöqtələridir. Bu əsas (dərindəki) nöqtələr, daha üzdə və daha ağrısız olan başqa məqamların köməyilə, onların yaddaşımı tərpədib itələməsilə üzə çıxır. Məsələn, ötüb-keçən, bihudə, bir yerdə qərar tutmayan nə varsa hamısı mənimçün "yağış" xatirə sözündə bərqərar olub. Yağış özünü mənim yadıma bu cür salır. Mən bir yerdə dayanıb-dura bilməyən, qərar tutmayan nə görürəmsə, Vəng dağının ətəyinə (ətəyindən?) yağan o niskilli yağışlar yadıma düşür.

Özüm üçün ikili əksliklər müəyyənləşdirmişəm. Əks məqamlar – özü də eyni vaxtda! Eyni nöqtədə, bir yerdə! Yaxşı, yaman – bir adamda. İsti, soyuq – bir yerdə! Aşağı, yuxarı – bir nöqtədə! Sevinc, kədər – bir ürəkdə! Bu isə ancaq və ancaq hadisələrin üfüqü deyilən yerdə baş verə bilər. Zamanın və məkanın, aşağının və yuxarının, sərhəddin və mərkəzin olmadığı və yaxud bir-birinin içində olduğu bir yerdə. Hadisələrin üfüqünə can atmaq, onun heç olmasa, ən azından varlığına inanmaq məndə artıq xəstəliyə çevrilib. Harda ikili qarşı-qarşıya durma mahiyyəti (imkanı!) sezirəmsə, yadıma gəlib Balacanın altında taxtın üstünə yayxanıb oturduğum yerdən hadisələrin üfüqünü gözlərimlə axtarmağım düşür. Hadisələrin üfüqü isə öz arxasınca Çiçəkli yazını dartıb gətirir. Tarix və eşq! Sərvət və etibar! Ayrılıq və vüsal! Cəfa və Sədaqət! Bütün bunlar Çiçəkli yazıda var. Çiçəkli yazı elə bunlardan, elə bundan danışır – hadisələrin üfüqündən.

Yuxum gələndə və yatmağa gedəndə, yaxud yatmış bir kimsəni görəndə rahat-rahat uzanıb yuxuya getmiş haman yatmış devi xatırlayıram, o da özüylə çəkib-çəkib yaddaşıma Vəng dağını gətirir.

Bəhram dayı... Bəhram dayı yadıma mağaranı salır.

Səhərlər günəşin işığı üzümə dəyən kimi xışım-xışım xışıldayan enli, uzun yarpaqları, yarpaqların arasından süzülüb yerə toxunan işıq şüalarının bundan əvvəl budaq-budaq, qabar-qabar üstü ilə gəzdiyi ağac – o nəhəng Balaca, Qarağac gözüm önündə canlanır. Günəşin işığı və Qarağac!..

Axşamlar göydə ulduz görəndə (burada onlar çox uzaqdadılar, sayrışmalarını – "dınq" və "dınqıltılarını" ayırmaq, seçmək olmur) mənə elə gəlir ki, onların belə qəmgin görükmələrinin özlərinə bəlli olmayan səbəbi var. Bu zaman Bozları (o nəhəng köpəyi) və onun qəmli gözlərini xatırlayıram.

Bakıda yavaş-yavaş çox şey dəyişir. Bu şəhər gözəlləşir, bu şəhər böyüyür, inkişaf edir, ucqarı ilə mərkəzi bir-birinə uyuşur, amma... Amma bu şəhər artıq mənim şəhərim deyil. Mən burada bir qonağam. Yox olan şəhər atributları içərisində mən ən çox tramvaylar üçün darıxıram. Artıq çox az qaldılar. Hər dınqıldaya-dınqıldaya gələn tramvay görəndə (indi bu, nadir hallarda baş verir) Moskvada mavi çovğunun içindən işıqları sayrışaraq sıyrılıb çıxan 39 №-li tramvayı xatırlayıram. O tramvay yadıma düşən kimi Afaq da onunla bir gəlib girir yenə beynimə. "Niyə, niyə belə oldu? Niyə həyat belə qurulub? Nə üçün həyat bu cürdür, başqa cür deyil?" sualları ilə özüm-özümə yenə zülm edirəm və mənə hardansa hadisələrin üfüqündən cavab gəlir, Afaqın səsidir: "Bizim bu yaşadığımız həyat özü bir cavabdır, – o deyir, – həyat nə üçün bu cürdür, başqa cür deyil sualına verilən sonsuz cavablardan biri. Qəm yemə, tramvaylar yaxında bu şəhərdən zınqrovlarını çala-çala birdəfəlik çıxıb gedəcəklər (bax, bu da son tramvay!..), daha bu cür suallarla sən də özünü yormayacaqsan..." Hadisələrin üfüqündə artıq əbədi məskunlaşmış və oralara alışmış Afaq hər gün bəzən kədərli, bəzən də şux gözlərilə mənə baxır, adəti üzrə:

– Bilirsən ? – soruşur.

– Bilirəm. – Mən cavab verirəm.

Bu köklü məqamlar elə daşlaşıb giriblər mənim beynimə, qəlbimə ki, onları oradan çıxarıb atmaq, məncə, artıq mümkün olmayacaq. Su, Yazı, Dağ, Mağara, Ağac, Köpək və Qadın. Onların hamısı bir-birinin yanında, bir-birinin içində, bir-birinin cəmi kimi hərdən mənə Möhtəşəm Ahəngi xatırladır, hərdən də yox. Möhtəşəm Ahəng!.. Onu axtarmaq əbəs imiş. Özünü sənin yuxuna, xəyalına sala bilər – bu qədər! Öz varlığına, bütün hər şeyin cəmi olduğuna iddia edə bilər – amma! Hər şey necə də sadədən sadə imiş. O qədər sadə ki, gözə də görükmür. Gözə görükməyənsə, deməli, yoxdur! Mənsə ona inanmışdım. İndi artıq mən dəqiq bilirəm: Möhtəşəm Ahəng məni aldadıb.

# Axır

*Yenə gündəlikdən. Son qeydlər*

Vəng dağının ətəyindən qayıdalı daha iki ay keçdi. Artıq payız sona çatır. Kiminin zəhləsi getdiyi, kiminin qəribə də olsa (!) sevdiyi payız. Mən özüm payızı çox sevirəm. Payızı sevdirən nə ola bilər?! Bayırda, çöldə-bacada, küçədə vıyıl-vıyıl külək belədən-belə, elədən-elə əsə, narın-narın yağan yağışı bu külək gətirib yoldan keçənlərin üstünə-başına, üzünə-gözünə çırpa, yaxın qışın ayazını, hənirtisini hər ağacın yarpaq tökümündə duyasan, görəsən, özün də... özün də isti bir evdə, rahat kresloda, pəncərənin önündə... bütün bu mənzərəni oturub ordan seyr edəsən. Bir də ki... necə idi o?! – "Bir axşam taksidən düşdüm payıza...". Bundan daha sızıltılı misra tanımıram. Şahanədi. Mənim qəti fikrim belədir: Azərbaycan ədəbiyyat tarixini yazıçıdan yazıçıya, şairdən şairə yox, misradan misraya, şeirdən-şeirə yazmaq lazımdır. "Bir axşam..." Hər şey ola bilər bir axşam. Xüsusilə, taksidən düşən yerdə. Özü də payızın içinə düşə bilərsən. Başqa hara düşəcəksən ki?! Sən bu misranın şahanə sayıldığı dünyada taksidən yaya, yaza, qışa düşə bilməzsən, özü də... "bir axşam". Sən burada bir axşam ancaq payıza düşə bilərsən, başqa heç hara.

... Bir məhzun payız axşamı mən taksidən 7-ci mikrarayon bazarının yanında düşdüm. Külək də əsirdi, vıyıltısı da vardı. Bazarla üzbəüz binaya baxdım, nömrəsi 74 idi, düz gəlirdi. Binanı o biri tərəfdən hərlənib həyətə girdim. Ətrafında küləklər aləmi dağıdırdısa da üç bitişik "P" şəkilli binanın ortaq həyətində qəribə bir sakitlik vardı. Külək bu həyətin yolunu tapa bilməmişdi. Həyətdə əvvəlcə mənə nişan verilən kimi baxıb uşaq bağçasını gördüm, maşın girə bilməsin deyə ortalığı dövrələmə bekara bir çəpərə almışdılar. Çəpərin içində bağça uşaqlarının oynaması üçün turniklər, sürüşmə qurğuları, balaca qumluq (meydança) qurulmuşdu, bir kənarda rəngbərəng skamyalar düzülmüşdü.

Mən həyətə girən zaman bağçanın oyun meydançasında bağça uşaqları yox idilər, bu həyətdə yaşadığı hiss edilən, bağça yaşı çoxdan keçmiş on-on iki yaşlı, alabəzək geyimli iki qızcığaz sürüşmə qurğusuna qalxır, üzü aşağı qəhqəhə çəkə-çəkə sürüşüb kef edirdilər. Bir yaşlı, başı ağarmış eynəkli arvad da oturmuşdu kənardakı skamyada və tez-tez oxuduğu kitabdan başını qaldırır, nigaran gözlərilə bu qızcığazlara baxır, hərdən "yavaş, yavaş olun, yıxılarsız, kimə deyirəm?" – guya ki, sərt bir halda səslənirdi.

– Nənə, bax, bax, mən birinci gəldim, – sürüşə-sürüşə qızlardan biri cır səslə çığırdı.

– Yox, nənə, o məni itələdi, bax, bax mənim qoluma... – Bu biri qızcığaz (bu, yaşca bir qədər kiçik idi) qaça-qaça nənəsinin yanına gəldi, ona qısıla-qısıla açıq qolunu göstərib mənə baxmağa başladı. – Görürsən, ağrıdır...

Nənə bənövşəyi rəngli gözlərində (eynək də bu rəngi itirə bilməmişdi) sirli bir təbəssüm nəvəsinə "ay səni... qaraçılıq eləmə, heç bir şey yoxdu" dedi. Mən onlara yaxınlaşmışdım deyin, başını qaldırıb üzündə hələ də o təbəssüm bir az da təəccüblə məni diqqətlə nəzərdən keçirib, tanımağa çalışdı, əlbəttə, tanımadı. Onun sirli təbəssümü mənim, belə deyim, içimi yerindən oynatdı.

– Salam. – Mən bacardığım qədər mülayim bir şəkildə salam verdim.

– Salam. Biz tanışıq? – Nənə qızcığazı qucaqlayıb onun büzüşmüş paltarını dartıb-çəkib düzəltdi, – get, get, amma yavaş oynayın, itələşməyin.

Qadın hiss etdi ki, mən də bu (o oturan) skamyada oturmaq istəyirəm, bir azca könülsüz kənara çəkildi, yer verdi, amma yenə mənə təəccüblə baxmağında idi. Ətrafda bir neçə boş skamya var idi.

Mən isə: "deyəsən, düppədüz gəlmişəm" düşünüb heç nə olmamış kimi qətiyyətlə onun yanında keçib əyləşdim, əlimdəki çantanı ayaqlarımın arasına qoydum:

– Allah saxlasın. – Çığırışan, aşağı-yuxarı qaçaraq bir-birilə itələşən qızcığazlara başımla işarə etdim.

– Çox sağ ol. – Qadın eynəyini çıxarıb bu dəfə də məni diqqətlə süzdü yenə üzündə sakit ifadə, eynəyini gözünə taxıb başını qəribə, bir qədər də teatral nəvazişlə kitaba dikdi.

Mən gözucu həmən kitaba nəzər saldım. Amma nəzər salmasaydım da əmin idim ki, artıq kitabın adını bilirəm. Çünki bu yaşlı qadın mənə ilk baxdığında mən onu tanımışdım. Təəccübünə bürünərək gah özünü göstərən, gah gizlədən təbəssümündən tanımışdım. Ağ saçları, üzündəki qırışlar, boğazına yayılmış kiçik və iri xallar (yaş, yaş...) bu təbəssümün təntənəli gəlişinə zərrə qədər əngəl ola bilmirdi.

Gözlərim bu dəcəl uşaqlarda, yadıma Kəhrizli arxın altındakı eynən bunlar kimi alabəzək tuman geymiş o uzaq və başqa həyatdakı iki qızcığaz gəlib düşmədimi, düşdü:

– O adama deyin ki, – qızcığazlardan biri hikkəli-hikkəli üzünü kənara tutub havaya deyirdi, – çıxıb başqa yerə getsin, bura mənim yerimdi.

O biri qızcığaz eyni hikkə ilə o da üzü havaya belə deyirdi:

– O adama deyin ki, xeyr, mən heç hara getməyəcəyəm. Mən birinci gəlmişəm, yer də mənimdi, gedir, özü getsin.

Artıq üstü yavaş-yavaş qaysaqlanan bir xiffətlə xatırladığım Kəhrizli arxın o qızları ilə gözümün qabağında atdanıb-düşən bu qızlar arasında həm fərq var idi, həm də fərq yox idi. "Kəhrizli arx, mənim səndə nəyim qaldı?.." Qərəz, gəlişimin məqsədi bu deyildi.

– Məni bağışlayın, sizə qəribə gəlməsin, mən bir adam axtarıram, bir xanım... bu həyətdə yaşamalıdır. – Üzümü bu yaraşıqlı, gülümsər nənəyə tutub belə dedim.

–Mən özüm bu həyətdə yaşayıram, özü də çoxdan, kimi axtarırsan, balası?

"Balası", "balası", əlbəttə, "balası"... Tüklərim qabarmadımı, qabardı. Ürəyimi, elə bil, məngənəyə salıb sıxdılar. Qadının gülümsər çöhrəsində baxıb görmək istədiyimi, əlbəttə, baxıb görmədim.

Onun isə gözlərindəki təəccüb əriyib getdi, yerinə səmimi, məhrəm bir maraq doldu:

– Mən burda demək olar ki, hamını tanıyıram...

Mən yenə də cavabını əvvəlcədən bildiyim sözləri dedim:

– Gülsüm xanımı axtarıram. Adı Gülsüm xanımdı.

Üzümü çevirib ona baxdım, gözlərindən gördüm ki, bir anlıq duruxdusa da, amma sevinən kimi oldu:

–Mənəm, məni axtarırsan. Xeyirdi, inşallah. Kimsən sən? Tanımadım.

–"Ovod"u oxuyursuz? – Başımla onun əlindəki kitaba işarə etdim. – Maraqlı kitabdı.

–Hə, "Ovod"du. Bir də oxumağım gəldi. Niyə soruşdun?

Mən daha uzatmadım. Hər şeyi sözbəzöz onsuz da ona danışa bilməyəcəkdim. Əslində, sözə artıq elə bir hacət də yox idi. Əlimi atıb çantadan bir ağ torba çıxartdım. İçində kitab vardı. Bu da "Ovod" kitabı idi. Bəhram dayının son nəfəsdə mənə verdiyi kitab. Bəhram dayının son xahişi. Torbanı qadına uzatdım:

–Bu... sizə çatacaq.

–Nədi bu?

– Bu ... bu da kitabdı. "Ovod"du...

O danışmadı. Zənlə üzümə baxdı. Torbanı məndən alıb titrək barmaqlarıyla sığalladı. Təbəssümü üzündən yox olmuşdu.

–İstəyirəm, biləsiz...

– "Sus..." – gözlərilə rica etdi. – "nolar, balası, sus..."

Heç birimiz daha bir kəlmə danışmadan yanaşı oturub bir müddət bu qızcığazların bir-birilə ecəşməsinə, qaçışıb-gülüşməsinə tamaşa etdik. Sükutu o pozdu:

– Nəvələrimdi... – Gülsüm nənə səsində ilıq bir nəvaziş, nəhayət, dilləndi.

– Qəşəng balalardı. Mən gedim. Bu onun son xahişi idi. – Ayağa qalxdım.

– Sağ ol, balası. – Onun "sağ ol"u "xudahafiz" demək deyildi.

Əlindəki ağ torbanı və içindəki kitabı yenə də barmaqları ilə əzizləyə-əzizləyə Gülsüm nənə oturduğu yerdən mənə yaralı-yaralı (hüznlə) baxdı. Bu baxış yavaş-yavaş öz yarasını onu qorumağa çalışan çox incə, çox həzin və çox köməksiz bir təbəssümə bürüdü. Həqiqətən, mən çox təbəssüm görmüşəm, amma beləsini görməmişdim. Həqiqətən, gülümsər Gülsüm onun haqqında deyilən kimi gözəllər gözəli imiş.

Amma o təbəssümün gəlib qonduğu yaşıl (mavi, bənövşəyi?) gözlərin dibində mənim getməyimi səbirsizliklə (bir başqa dünyada – səbrlə) gözləyən iki damla yaş var idi. Bəlkə mənə elə gəldi, kim bilir?!

Əlvida, Bəhram dayı!

Əlvida, Çiçəkli yazı!

# MÜNDƏRİCAT

**Tərtibçilərdən** ........................................................................................................ **5**

**Kamal Abdulla ömrü: yalnız faktlarla** ............................................................ **8**

*Yarımçıq əlyazma* ............................................................................................ **17**

*Sehrbazlar dərəsi* ............................................................................................ **269**

*Unutmağa kimsə yox...* .................................................................................... **401**

**KAMAL ABDULLA**

**Seçilmiş Əsərləri**

**7 clddə**

**Bakı**
**MÜTƏRCİM**
**2020**

*Kitab "Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.*

Çapa imzalanıb: 10.06.2020.
Format: 70x100 1/16. Qarnitur: Palatino Linotype.
Həcmi: 43,5 ç.v. Tiraj: 1000. Sifariş № 97.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44;
*e-mail: mutarjim@mail.ru*
www.mutercim.az